# XX ƏSR
# AZƏRBAYCAN TARİXİ

## II CİLD

### ALİ MƏKTƏBLƏR ÜÇÜN DƏRSLİK

*Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir.*

BAKI-2009

*Prof. T.T.Vəliyevin ümumi redaktəsilə*

R ə y ç i l ə r:
*prof.* **R.C.Süleymanov**, *dos.* **Q.Ə.Əliyev**

Dərsliyin fəsilləri aşağıdakı müəlliflər tərəfindən yazılmışdır:
Giriş – *prof.* Y.B.Yusifov, *prof.* T.T.Vəliyev
I, II, IV, VI fəsillər – *prof.* T.T.Vəliyev
III, V, IX, XV fəsillər – *prof.* Ş.Ə.Tağıyeva
VII, VIII fəsillər – *prof.* C.P.Həsənov
XI, XIII fəsillər – *dos.* O.S.Məlikov
X, XII, XIV, XVI, XVII, XVIII fəsillər – *t.e.d.* T.B.Qaffarov

A40 **XX əsr Azərbaycan tarixi.** II cild. Ali məktəblər üçün dərslik. Bakı, «Təhsil», 2009, 560 səh.

«XX əsr Azərbaycan tarixi» ali məktəblər üçün yazılmış ilk dərslikdir. Dərslikdə XX əsrin əvvəllərində ölkəmizdə kənd təsərrüfatı və sənayenin inkişafı, hökumətin verdiyi aqrar qanunlar, çarizmin köçürmə, həmçinin milli qırğın siyasəti, siyasi partiyaların və siyasi təşkilatların yaranması, çar rejiminə qarşı yönəlmiş fəhlə tətilləri və kəndli çıxışlarından bəhs olunur. Bununla yanaşı, 1918–1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti, onun daşnak-bolşeviklər tərəfindən devrilməsi, bolşevik ağalığı dövründə Azərbaycanda baş vermiş faciələr, 20–30-cu illərin repressiyaları, Vətən müharibəsində Azərbaycanın iştirakı, «mülayimləşmə» dövründə ölkəmizin vəziyyəti əhatə olunmuşdur.

XX əsrin son 30 ilinə dərslikdə xüsusi yer verilmişdir. SSRİ-nin dağılması, Azərbaycanda dövlətçiliyin bərpası, Qarabağ düyünü, Heydər Əliyevin hakimiyyətə qayıdışı, onun prezidentliyi dövründə daxili və xarici siyasət kitabda hərtərəfli işıqlandırılmışdır.

Dərslik ali məktəb müəllimləri və tələbələri, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**A $\frac{4306020600}{053}$ 2009**

**© «Təhsil», 2009**

# GİRİŞ

Əziz müəllimlər və tələbələr, hörmətli oxucular! Sizin mühakimənizə verilən bu dərslik 1994-cü ildə nəşr edilmiş ali məktəblər üçün «Azərbaycan tarixi»nin (I cild) davamıdır və xalqımızın tarixinin çox mühüm bir dövrünü – XX əsri əhatə edir. Ali məktəblər üçün nəzərdə tutulmuş bu dərslik son 70–80 ildə ilk dəfədir ki, yazılır. Hətta Sovet dövründə belə, ali məktəblər üçün Azərbaycan tarixinə aid belə bir dərsliyin olması lazım bilinməmişdir.

Son iki əsrdə Azərbaycan ikiyə parçalanmış halda yaşamışdır. Şimali Azərbaycan əvvəlcə Rusiya, sonra isə Sovet imperiyası tərkibində olmuşdur. Sovet hakimiyyəti illərində XIX–XX əsrlər tarixinin bir sıra probleminin öyrənilməsi qadağan edilmişdi. Belə məsələlərə 1905–1906-cı illərdə azərbaycanlıların ermənilər tərəfindən kütləvi şəkildə qırılması, milli-azadlıq hərəkatı, siyasi partiyalar və təşkilatların fəaliyyəti, qəzaların iqtisadi həyatının tədqiqi, Azərbaycan Cümhuriyyəti, 1918-ci ilin mart soyqırımı və s. daxildir. Azərbaycanın XI rus ordusunun işğalçılığına qarşı çevrilmiş müqavimət hərəkatı, 20-ci illərdə baş vermiş üsyanlar, 20–30-cu illərin siyasi repressiyaları, sonrakı dövrlərdə Azərbaycan SSR-in hüquqlarının daha da məhdudlaşdırılması və bir çox bu kimi başqa məsələlərin öyrənilməsi tamamilə yasaq edilmişdi. Heç də təsadüfi deyildir ki, ulu öndərimiz H.Əliyev 1997-ci ilin yanvarında Respublika Elmlər Akademiyasının müxbir və həqiqi üzvləri, eləcə də akademiya institutlarının rəhbərləri ilə görüşündə Azərbaycanın XIX–XX əsrlər tarixinin dərindən öyrənilməsini tarixçilər qarşısında mühüm bir vəzifə kimi qoymuşdur. Dərslik müəllifləri kitabda yuxarıda göstərilən və göstərilməyən məsələlərə məhz bu kontekstdə, müasir tələblər baxımından yanaşmış və onları hərtərəfli işıqlandırmağa çalışmışlar.

Dərslikdə respublikamızın müstəqillik qazanmasına və onun bu dövrdəki fəaliyyətinə ayrıca fəsil həsr edilmişdir. Burada mərhum Prezidentimiz H.Əliyevin hakimiyyətə qayıdışına, onun uğurlu daxili və xarici siyasətinə, eləcə də digər məsələlərin işıqlandırılmasına xüsusi fikir verilmişdir.

Dərsliyin yazılmasında Azərbaycan tarixşünaslığının nailiyyətlərindən maksimum istifadə edilmişdir. Hər fəsil üzrə istifadə edilmiş ədəbiyyat siyahısı verildiyinə görə, girişdə bu əsərlərin adlarının sadalanmasına lüzum görmədik. Siyahıda başlıca olaraq, mühüm problemlərə həsr edilmiş əsərlərin adları verilmişdir. Adları bu siyahıya düşməmiş müəlliflər bizdən inciməsinlər. Əgər XX əsrin tarixinə həsr edilmiş bütün əsərləri kitabda verəsi olsaydıq, onda bu siyahı xeyli yer tutmuş olardı. Ona görə də müəlliflər fəsillərə dair ədəbiyyat siyahısı tutarkən bu cəhəti nəzərə almışlar.

Hər bir əsərdə olduğu kimi, çox güman ki, «XX əsr Azərbaycan tarixi» dərsliyinin II cildində də nöqsanlar tapılacaqdır.

Bir neçə müəllif tərəfindən yazılmış bu dərslikdə bütün məsələlər heç də eyni dərəcədə verilə bilməz. Mövcud tarixşünaslıq indiki mərhələdə bir sıra problemin ətraflı şərhinə imkan vermir. Ümidvarıq ki, dərsliyin gələcək nəşrlərində gözdən qaçmış və nisbətən zəif verilmiş bəzi hadisələrin əhatəli şəkildə yazılmasına xüsusi diqqət yetiriləcəkdir.

Ali məktəblər üçün nəzərdə tutulmuş «XX əsr Azərbaycan tarixi» dərsliyinin bu nəşrinə dair nöqsan və qeydlərini müəlliflərə çatdıran oxuculara dərslik müəllifləri əvvəlcədən öz minnətdarlığını bildirirlər.

## I FƏSİL

## ŞİMALİ AZƏRBAYCANIN XX ƏSRƏ DAXİL OLMASI

### § 1. İqtisadiyyat və dünya iqtisadi böhranının ona təsiri. Neft sənayesində vəziyyət

XX əsrin başlanğıcında Rusiya imperiyasında sənaye kapitalizminin inhisarçı mərhələsi dünya iqtisadi böhranı ilə bir araya düşdü. 1900–1903-cü illərdə Rusiya imperiyasının iqtisadiyyatı, ilk növbədə sənayesi, ağır böhrana düçar olmuşdu. Böhran Rusiyada özünü daha ağır şəkildə büruzə vermişdi. Ölkədə 3 mindən artıq sənaye müəssisəsi bağlanmış, iki yüz mindən artıq adam işsiz qalmışdı. Böhran müstəmləkələrə, o cümlədən Azərbaycan iqtisadiyyatına da güclü təsir göstərmişdi. Neft sənayesinin bütün sahələri bu təsirdən sonra, demək olar ki, bərpa oluna bilməmişdi.

Bu dövrdə neft sənayesində yeni texnikanın tətbiqi sahəsində bir sıra irəliləyiş olmuşdu. Elektrik motorları, daxili yanacaqlı mühərriklər və qazla işləyən motorlar istismara verilmişdi. Elektrik enerjisi ilə hərəkətə gətirilən maşınların sayı 2,5 minə yaxın idi. 1911-ci ildə onların sayı 3 mini keçmişdi. Böhran ərəfəsində Bakıda iri inhisar birliklərinin mədənlərində hasilat sürətlə artırdı. Məsələn, rus burjuaziyası içərisindən çıxmış L.E.Nobelə məxsus olan «Nobel qardaşları» şirkəti 1900-cü ildə 192 milyon pud neft məhsulu satmış və il ərzində onun xalis gəliri 6 milyon manat olmuşdu. Mədənlərdə hasilatın artmasına baxmayaraq, daxili və xarici bazarlarda ona olan tələbat kəskin şəkildə azalmışdı. 1901-ci ilin yazında Bakıda yığılıb qalmış 163 milyon pud neft məhsulları satış üçün əlverişli məqam gözləyirdi. Qiymətlər getdikcə aşağı düşürdü. İmperiyanın yanacaq balansında neftin xüsusi çəkisinin yüksək olmasını və neft ixracının artmasını nəzərə alan hökumətin böhranın qarşısını almaq üçün gördüyü tədbirlərə baxmayaraq, böhran illərində neftin qiyməti üç dəfəyə yaxın aşağı düşmüşdü.

Böhran Bakıda neft sənayesinin bütün sahələrinə mənfi təsir göstərmişdi. Qazma işləri, neft hasilatı və emalı, kəşfiyyat işlərinin həcmi azalmış, dayanan quyuların sayı çoxalmışdı. Məsələn, 1900-cü ildə 83 min sajen qazma işləri görüldüyü halda, bu, 1903-cü ildə 49 min sajenə enmişdi. 1903-cü ildə neftverən quyuların 45%-i dayanmışdı. 1901-ci ildə neft hasilatı 671 milyon puddan böhranın son ilində 597 milyon puda enmişdi. Neft hasilatı ilə məşğul olan şirkətlərin sayı 170-dən 153-ə enmişdi. Böhran illərində neftayıran zavodların ümumi sayı 91-dən 86-ya düşmüşdü ki, bunların da 20-si tam gücü ilə işləmirdi. Bu illərdə böhran sürtkü yağları istehsalına, demək olar ki, toxunmamışdı. Bu, hər şeydən əvvəl, bazarda sürtkü yağlarına sabit tələbatın olması ilə izah edilə bilər. Ağ neft istehsalında müəyyən dərəcədə azalma müşahidə edilirdi. Ağ neft və neft qalıqlarının istehsalındakı az-çox artım bu məhsulları istehlak edən tək fabrik-zavodların tələbi ilə deyil, həm də dəmiryol və su nəqliyyatı, eləcə də əhalinin, həmçinin şəhər təsərrüfatlarının artmaqda olan tələbatı ilə sıx bağlı idi. Lakin bu illərin iqtisadi böhranı Azərbaycanın neft sənayesinin sonrakı həyatına son dərəcə mənfi təsir göstərmişdi. Bununla belə, qiymətlərin aşağı düşdüyü şəraitdə də Bakı nefti bir qrup iri inhisarlar üçün gəlir mənbəyinə çevrilmişdi. 1902–1904-cü illərdə «Nobel qardaşları» birliyinin xalis gəliri 9 milyon, Bakı neft cəmiyyətinin 1,5 milyon və Rus «Neft» birliyinin xalis gəliri 1 milyon manatdan artıq olmuşdu. İnhisar mənfəətinin yüksək olması ilə bərabər sənaye məhsulunun illik dəyəri də yüksək idi. Təkcə onu demək kifayətdir ki, 1907-ci ildə, yəni durğunluğun davam etdiyi bir şəraitdə neft sənayesinin ümumi illik istehsal məbləği 275 mln. manata qədər olmuşdu.

Böhran illərində xırda və orta müəssisələrin iflasa uğraması, yaxud inhisarların tabeliyinə keçmələri nəticəsində istehsalın təmərküzləşməsi xeyli güclənmişdi. İnhisarların istehsalda xüsusi çəkisi artmışdı. Məhsulun çoxunu onlara məxsus mədənlər və müəssisələr verirdi. Həm də fəhlələrin böyük əksəriyyəti bu kimi müəssisələrdə cəmləşmişdi. Bakı neft sənayesi kapitalın mərkəzləşməsi səviyyəsinə görə təkcə Rusiyada deyil, bütün dünyada ön sıralarda gedirdi. 1900-cü ildə neft sənayesindəki şirkətlərin ümumi sayının 4%-dən azını təşkil edən 6 iri cəmiyyət: Nobel qardaşları birliyi, Mantaşov, Rotşild, Bakı neft cəmiyyəti, Xəzər–Qara dəniz birliyi, Rus neft istehsalı və maye-yanacaq cəmiyyəti Bakıda çıxarılan bütün neftin 50%-ni verirdi. Təmərküzləşmə prosesi neft emalı sənayesində də davam edirdi. Emaledici

müəssisələrin sayca azalmasına baxmayaraq, məhsul istehsalı artmaqda idi. 1900-cü ildə inhisarlara məxsus altı iri zavod ağ neftin 44%-ni, 1904-cü ildə 7 belə müəssisə emal edilmiş bütün məhsulun 50%-dən çoxunu vermişdi. 1901-ci ildə Bakıdan ixrac edilən ağ neftin 40%-i Nobel qardaşları, Rotşild və Mantaşov inhisarlarının payına düşürdü. Həmçinin Rusiyanın daxili bazarlarında satılan neftin 50%-i və xaricə göndərilən neftin 70%-i də bu üç inhisara məxsus idi.

XX əsrin əvvəlində Bakı sənayesinə xarici kapital qoyuluşu güclənməkdə idi. 1903-cü ilədək Bakı neft rayonu müəssisələrinə ingilis kampaniyaları 60 milyon manat kapital qoymuşdular. 1904-cü ildə İngiltərə ağ neftə olan tələbatının 47%-ni, Fransa isə 71%-ni Bakının hesabına ödəyirdi. Bakı sənayeçiləri ilə müqavilə bağlayan Amerikanın «Standart oyl» inhisarı sonralar Bakıdan xaricə ağ neft ixracına mənfi təsir göstərmişdi.

Neft kralları ölkədəki iri banklar və səlahiyyətli çar məmurları ilə əlaqədə idi. Yüksək rütbəli çar məmurları özləri də Bakının neft sənayesində fəal iştirak edirdilər. Qafqaz canişini Vorontsov-Daşkovun Balaxanıda mədəni var idi. Xarici kapital sahibləri neft istehsalından böyük mənfəət götürürdülər. Əlavə xərc tələb edən texniki yeniliyin tətbiqi zəif idi. XX əsrin əvvəlində Bakı neft sənayesinin geriliyi səbəblərindən biri məhz bu idi.

Rus-yapon müharibəsi və 1905–1907-ci illərin inqilabı iqtisadiyyatın böhrandan sonra, ayrı-ayrı illərdəki cüzi canlanmanı nəzərə almasaq, gözlənilən canlanmasına imkan vermədi. 1904–1907-ci illərin durğunluğu bütün istehsal sahələrində mövcud idi. 1908-ci ildə isə Rusiya sənayesini yeni iqtisadi böhran bürüdü. Bu böhran Azərbaycan neft sənayesinə müəyyən dərəcədə zərbə endirdi. Bakıda qazma işi, neftin çıxarılması, emalı və daşınması xeyli azaldı. 1904-cü illə müqayisədə 1908-ci ildə 56,7 min sajen, yəni 1,4 min sajen az quyu qazılmışdı. Neft çıxarılması 1904-cü ildəki 614 milyon puddan 1908-ci ildə 467 milyon puda enmişdi. Ağ neft istehsalı 40% azalmışdı. 87 neftayıran zavoddan yalnız 33-ü işləyirdi.

Durğunluq dövründə istehsalın təmərküzləşməsi xeyli artmışdı. İnhisarlar neftin istehsalı, emalı, daşınması və satışını öz əllərində cəmləşdirmişdi. Əsas mövqelər «Nobel qardaşları» şirkəti, «Nobmazut», «Oyl», «Şell» inhisarlarına mənsub idi. İnhisarçılar satış bazarlarını öz aralarında bölüşdürmək işində və qiymət məsələsində ümumi razılığa gəlirdilər. Onlar məhsulun qiymətini artırıb-azaltmaqla, rəqiblərini

müflisləşdirərək sıradan çıxarırdılar. 1907-ci ildə Bakıda olan 155 neft şirkətindən 16 ən iri cəmiyyətin payına bütün buruqların 55%-i, çıxarılan neftin isə 66%-i düşürdü.

Təmərküzləşmə prosesi neftin emalı sənayesində daha güclü idi. Nobel qardaşları, Rotşild, Mantaşov, Şibayev kimi 5-6 iri cəmiyyətə məxsus zavodlar ağ neftin 65%-ni, mazutun 59%-ni və sürtkü yağlarının 75%-ni emal edirdilər. «Nobmazut» ölkənin daxili bazarlarında ağ neft satışının 75%-ni öz əlində cəmləşdirmişdi. Ona görə də səhmdar cəmiyyətləri görünməmiş inhisar mənfəəti əldə edirdilər. Məsələn, 1908-ci ildə yalnız «Nobel qardaşları» şirkəti 3-4 mln. manat xalis gəlir götürmüşdü.

İqtisadi böhrandan və durğunluqdan sonra Rusiya sənayesində 1909-cu ildə başlanan canlanma tezliklə yüksəlişlə nəticələndi. Lakin Rusiyadakı sənaye yüksəlişi Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinə o qədər də təsir göstərmədi. Əvvəldə olduğu kimi, Bakıda neft hasilatı sabitləşə bilmədi. Məsələn, Bakıda 1910-cu ildə 499 milyon pud neft çıxarıldığı halda, 1913-cü ildə bu 449 milyon puda enmişdi. Bu gerilik neft emalı sahəsində özünü daha qabarıq şəkildə göstərirdi. Müqayisə olunan illərdə neft emalı zavodlarının sayı 64-dən 54-ə enmişdi ki, bundan da yalnız 30-u işləyirdi. 1910-cu ildə 362 milyon pud neft məhsulları emal edildiyi halda, 1913-cü ildə bu, 326 milyon puda enmişdi. Neft emalı sənayesinin texniki geriliyinin qarşısını almaq üçün tədbir görülmürdü. İnhisarçılar süni surətdə istehsalın inkişafının qarşısını alır və neftin qiymətini qaldırmaqla böyük həcmdə inhisar mənfəəti götürürdülər. 1913-cü ildə bütün neft firmalarının gəliri 96 milyon manatdan yuxarı olmuşdu. Bundan 18 mln. manatdan çoxu təkcə «Nobel qardaşları» şirkətinin, 5,5 mln. manatı rus «Neft» və 5 mln. manata qədəri «Mazut» cəmiyyətlərinin payına düşürdü. İstehsalın yüksək dərəcədə təmərküzləşməsinə baxmayaraq, Abşeronda kustar üsulla neft çıxarılması hələ də davam etdirilirdi. 1913-cü ildə 30 min quyudan əl əməyi ilə 25 mln. puda qədər neft çıxarılmışdı. Bu quyuların istismarında 8 min nəfərədək «qara fəhlə» əməyindən istifadə edilirdi.

Həmin illərdə mazut istehsalı 187 milyon puddan 157 milyon puda enmişdi. Buna baxmayaraq, Bakı müharibə ərəfəsində Rusiyada çıxarılan neftin 84%-ni verirdi. Rusiyanın toxuculuq sənayesi, metallurgiya zavodları, dəmir yolları, Volqa–Xəzər gəmiçiliyi, əsasən Bakının neft yanacağı ilə işləyirdi. 1913-cü ildə Avropa Rusiyasının sənaye müəssi-

sələrində işlənən yanacağın 50%-ni, dəmiryollarında 33%-ni, elektrik stansiyalarında isə 60%-ni neft təşkil edirdi.

Neft sənayesindəki durğunluğun səbəbləri çox idi. Demək olar ki, yeni geoloji-kəşfiyyat işləri aparılmırdı. Yeni neft quyularının qazılmaması ilə yanaşı, mövcud quyuların ancaq 48%-indən istifadə olunurdu. Külli miqdarda gəlir əldə edən sahibkarlar mədənlərin texniki cəhətdən təkmilləşdirilməsi və yeni texnologiyadan istifadə edilməsi ilə məşğul olmurdular. Elektrik motorları və daxili yanacaqlı mühərriklərdən qismən, başlıca olaraq isə buxar mühərriklərindən istifadə olunurdu. Birinci Dünya müharibəsi ərəfəsində neft hasilatının 80%-i buxar mühərriklərinin gücü ilə çıxarılırdı. Neft sənayeçiləri istehsalı azaldır və neftin qiymətini durmadan artırırdılar. Bir neçə il ərzində neft məhsullarının qiyməti 8 dəfə artmışdı. Beləliklə, 1910–1913-cü illərdə Bakıda on iri neft şirkətinin gəliri 16 milyon manatdan 56 milyon manata çatmışdı. 1901–1913-cü illərdə Azərbaycanda neft hasilatı 33%-dən çox azalmışdı. Bu da öz növbəsində Rusiyanın dünya neft istehsalındakı birinciliyini itirməsi ilə nəticələndi və Amerika Birləşmiş Ştatları bu sahədə birinci yerə çıxdı. Azərbaycan nefti dünya bazarında getdikcə sıxışdırılırdı. Əsrin başlanğıcında istehsal olunan neftin 52,6%-i dünya bazarına çıxarıldığı halda, yeni iqtisadi yüksəliş illərində bu, yarıya qədər azalmışdı.

İnhisarların sayca artması ilə neft sənayesinin təmərküzləşməsi də güclənirdi. Müharibə ərəfəsində Azərbaycanda neft hasilatı, onun emalı və satışı, əsasən üç-dörd iri inhisar birliyinin: Nobel qardaşları şirkəti, «Nobmazut», «Oyl» və «Şell»in əlində cəmləşmişdi. 1912-ci ildə Rusiyanın və xarici ölkələrin 7 nəhəng bankı tərəfindən təşkil edilmiş «Oyl» inhisar birliyi 20 iri firmanı birləşdirirdi. 1914-cü ildə Rusiyada çıxarılan neftin 28%-ni «Oyl», 20%-ni «Şell», 14%-ni «Nobel qardaşları» inhisar birliyi verirdi. Deməli, yalnız bu birliklər imperiyada çıxarılan neftin 60%-dən çoxunu, ağ neft və mazutun üçdə ikisini və sürtkü yağları satışını bütünlüklə öz əllərində cəmləşdirmişdi. «Oyl» inhisarı öz fəaliyyətini yalnız neft sənayesi ilə məhdudlaşdırmırdı. Onun tərkibində olan ən iri səhmdar cəmiyyətlərindən biri 1913-cü ilin əvvəlində Azərbaycanın qərbində «Tovuz» portland sementi və digər tikinti materialları istehsalı səhmdar cəmiyyətini təsis etmişdi. Cəmiyyətə məxsus zavodun ildə istehsal etdiyi 5-6 milyon pud sementdən, əsasən neft mədənlərində istifadə olunurdu. Tovuz sement zavodu Cənubi Qafqazda bu növ məhsul verən ən böyük müəssisə idi.

İngilis-Hollandiya kapitalını təmsil edən «Şell» inhisarı 1912-ci ildə «Xəzər-Qara dəniz» cəmiyyəti, «Mazut» cəmiyyəti və «Rotşild bankir evi»nə məxsus səhmlərin çoxunu satın almışdı. Dünya neft satışı bazarlarında Amerika inhisarı «Standart oyl» ilə bu inhisarlar arasında ağalıq uğrunda mübarizə davam edirdi. Bakıdakı 20 iri neft sənaye səhmdar cəmiyyətləri sırasına Azərbaycan kapitalının nümayəndələri Musa Nağıyev və Şəmsi Əsədullayevin də şirkətləri daxil idi. Bu şirkətlərin illik istehsal gücü 7-8 mln. puda çatırdı. Neftin çıxarılması ilə yanaşı, onların neftayıran zavodları və neftdaşıyan gəmiləri də vardı.

Çar hökumətinin neft sənayesi ilə bağlı olan torpaq və aksiz siyasəti hələ keçən əsrin 70-ci illərindən həyata keçirilməyə başlamışdı. Xəzinənin ixtiyarında olan neftverən torpaqlar hərrac yolu ilə icarəyə verilirdi. Hərracın şərtləri haqqında 1900-cü ildə verilmiş «Qaydalar» 1912-ci ilədək qüvvədə olmuşdu. Abşeronda 6104 des. neft verən torpağın yalnız 1000 des-dən bir qədər çoxundan istifadə edilirdi. Bu torpaqların hər desyatininin qiymətinin həddindən çox baha olmasına (100 min manatdan 500 min manata qədər) baxmayaraq, onların böyük əksəriyyəti inhisarların əllərində idi. İnhisarlar 300 des-dən çox xüsusi torpaqları da satın almışdılar. İcarəyə götürülmüş torpağın hər desyatinindən çıxarılan neftin əvəzində dövlət xəzinəsinə müəyyən məbləğdə pul köçürülürdü. Sonralar icarə haqqı əldə edilən neftlə də ödənilirdi. 1912-ci ilin iyun qanununa, əsasən yeni torpaqların istifadəyə verilməsi dayandırılırdı. Neft əvvəlki illərdə icarəyə verilmiş, yaxud satın alınmış torpaq sahələrində çıxarıla bilərdi. 1913-cü ildə neft çıxarılan torpaqların 646 desyatini xəzinəyə, 352 des-ni xüsusi sahibkarlara aid edilsə də, əslində bu torpaqların hamısı neft sənayeçilərinin ixtiyarında idi. Dövlət-xəzinə torpaqlarının böyük bir hissəsi də inhisarlar tərəfindən satın alınmışdı. Aksiz vergisi neftdən gələn gəlirin üçdə birinə qədərini təşkil edirdi. 1900–1914-cü illərdə neft məhsullarından 368 mln. manat aksiz vergisi alınmışdı. Bu da dövlət xəzinəsinə Rusiya üzrə daxil olan bütün aksiz vergisinin 64%-ni təşkil edirdi. Başqa sözlə, hökumətin aksiz siyasəti nəticəsində Azərbaycanın sənaye sahələrindən Rusiya dövlət xəzinəsinə hər il orta hesabla 30-40 mln. manat aksiz vergisi daxil olurdu.

1912-ci ildə nefti emal edən zavodlardan başqa Bakı quberniyasında 18 kimya zavodu işləyirdi. Bu müəssisələr emal sənayesinin xarakterinin dəyişməsinə təsir göstərirdi. İldən-ilə çıraq, sürtkü yağlarının, benzol və qazolin istehsalının artması ölkəmizdə nisbətən yeni istehsal

sahəsi olan kimya sənayesinin inkişaf etdiyini göstərirdi. Neftin emalı üçün zəruri olan kükürd turşusunu kimya zavodları başlıca olaraq kükürd kolçedanından alırdılar. Hələ keçən əsrin 90-cı illərində Simens qardaşları cəmiyyəti ilə «Nobel qardaşları» şirkəti arasında bağlanmış müqaviləyə görə Gədəbəydə çıxarılan mis və kükürd kolçedanının hamısı «Nobel qardaşları» şirkətinə məxsus olan kimya zavodlarına göndərilirdi. 1901-ci ildə bağlanmış başqa bir müqaviləyə əsasən təkcə Gədəbəy deyil, Çaykənd və b. kükürd kolçedanı mədənləri də «Nobel qardaşları» şirkətinin tabeliyinə keçdi. Mis və kükürd kolçedanı bu şirkətin icazəsi ilə digər kimya zavodlarına da satılırdı.

XX əsrin əvvəllərində Bakıdan kənarda – Quba, Şamaxı və Cavad qəzalarında neft inhisarları, nəhəng ticarət-səhmdar bankları və yüksəkrütbəli məmurlar tərəfindən təkində neft olması güman edilən 330 min desyatindən çox torpaq sahəsi icarəyə götürülmüşdü. 1913-cü ildə Quba, Şamaxı və Cavad qəzaları ərazilərindəki neft mədənlərindən 1 milyon puddan çox neft çıxarılmışdı.

Gəncə quberniyasında neft, əsasən Naftalanda çıxarılırdı. 1890-cı ildə Göran dəmiryol stansiyası yaxınlığında alman kapitalistləri dəyəri 200 min man. olan neftayırma zavodu inşa etdirmişdilər. 1894-cü ildə neft mədənləri və bu zavod əsasında «Naftalan neft sənayesi və ticarəti» şirkəti yaradıldı. Şirkətə məxsus olan quyular ildə 15-20 min pud neft verirdi. Naftalan neftinin müalicə əhəmiyyəti olduğuna görə, onun pudunu 40-50 manata satırdılar. Zavodun nəzdindəki dərman sexində «Naftalan» adlı dərman və «Kojalan» mazı hazırlanırdı. Bu dərmanlar Avropa ölkələrində şöhrət qazanmışdı. 1911-ci ildə şirkətə məxsus əmlak əsasında əsas kapitalı 1 mln. manat olan «Qaraman-Naftalan» neft sənayesi və ticarəti səhmdar cəmiyyəti təsis edildi. Cəmiyyətin ixtiyarında 2500 des. neftli torpaq sahəsi vardı. Dünya müharibəsi illərində cəmiyyət fəaliyyətini davam etdirirdi.

Birinci Dünya müharibəsi ərəfəsində İngiltərə, Fransa və Almaniya inhisarları arasında Bakı neftini ələ keçirmək uğrunda rəqabət güclənmişdi. Lakin bu mübarizədə «Nobel qardaşları» inhisarı öz müstəqilliyini qoruyub saxlaya bilmişdi.

1911–1914-cü illərdə Azərbaycanın neft sənayesinə qoyulan kapitalın az qala yarısı «Oyl», «Şell» beynəlxalq inhisarlara və «Nobel qardaşları» konserninə məxsus olmuşdu.

## § 2. Sənayenin başqa sahələri

Azərbaycanın iqtisadi geriliyi, onun sənaye kapitalizmi mərhələsini keçməməsi haqqında vaxtilə İ.Stalin tərəfindən söylənmiş yanlış və qərəzli müddəanın əksinə olaraq, XX əsrin əvvəllərində kapitalist münasibətləri yalnız Bakıda deyil, Azərbaycanın qəzalarında da inkişaf etmişdi.

Stalinin «Azərbaycan ən geridə qalmış feodal-patriarxal münasibətləri ölkəsidir» müddəasını ehkama çevirmiş bir qrup tarixçi uzun illər ölkəmizin iqtisadi tarixinin öyrənilməsinə mane olmuşdur.

Torpağımızın qiymətli sərvəti təkcə ona dünyada şöhrət gətirən neftdən ibarət deyildi. Ölkəmizin təbii sərvətləri sənayenin başqa sahələrinin – dağ-mədən, mexaniki istehsal, energetika, toxuculuq, pambıqtəmizləmə, ipək emalı və yeyinti sənayesi sahələrinin, eləcə də nəqliyyat, rabitə, bank-kredit sistemi, ticarət və şəhərlərin inkişafına imkan verirdi.

Əsrin əvvəllərində həmin sahələrdə texniki yeniliklərin tətbiq olunması istehsalın inkişafını sürətləndirmişdi. Lakin iqtisadiyyatı bürümüş böhran qəzaların iqtisadi həyatından yan keçməmişdi. Sənayenin başqa sahələrində iqtisadi böhranın təsiri müxtəlif idi. Məsələn, böhran yüngül və yeyinti sənayesi sahələrinə elə bir ciddi zərbə vura bilməmişdi. Lakin dağ-mədən sənayesi ilə bilavasitə bağlı olan sənaye sahələrinin inkişafını ləngitmişdi.

Bakının mexaniki istehsal sahəsində maşınqayırma xüsusi yer tuturdu. Maşınqayırma zavodları neft quyuları üçün dəzgah və başqa avadanlıq, eləcə də ağ neft-yağ zavodlarında istifadə edilən qazanlar və s. istehsalı ilə məşğul olurdular. Bu müəssisələrin çoxu «Vulkan» və digər səhmdar cəmiyyətlərinə məxsus idi. Bakıdakı bu növ 12-13 zavodun illik məhsulunun ümumi dəyəri 3-4 mln. manatdan çox olurdu.

Podrat qazma işlərini görən iri müəssisələrə M.Muxtarovun, «Molot», «Votan», «Robur» və b. şirkətlərin zavodlarını aid etmək olar. Qazma üzrə 30-40 müəssisədə 7 mindən çox fəhlə qazma işi ilə məşğul olurdu.

Ümumi yükgötürmə qabiliyyətinə görə Rusiya limanlarını çox geridə qoyan Bakıda gəmilərin təmiri böyük əhəmiyyətə malik idi. Xəzər dənizində 350-dən çox gəmisi olan neftdaşıyan donanma vardı. Bu gəmilərin təmir edildiyi zavodların çoxu «Qafqaz və Merkuri», «Xəzər neft sənayesi və ticarəti», «Nobel qardaşları» və digər səhmdar

cəmiyyətlərinin əlində cəmləşmişdi. Azərbaycanlı kapitalistlərdən – H.Z.Tağıyev, İ.Vəliyev, Hüseynov və Dadaşov qardaşları və başqalarının da gəmi təmiri müəssisələri vardı. İqtisadi yüksəliş illərində 12-dən çox gəmi təmiri zavodunda 2 min nəfərdən çox fəhlə çalışırdı. Gəmiçilik sahəsində də inhisarlar yaranmışdı. Hələ 1897-ci ildə «Kaspi» Gəmiçilik cəmiyyətini ələ keçirmiş H.Z.Tağıyev bu sahədə öz mövqeyini getdikcə gücləndirirdi. 1904-cü ildə Tağıyev «Kür-Xəzər» səhmdar cəmiyyətini təsis etdi. Nəqliyyat üzrə bu iri səhmdar cəmiyyətinin gəmiləri ildə 5 mln. puddan çox mal daşıyırdı. 1907-ci ildə «Kür-Xəzər» cəmiyyətinin yaxından iştirakı ilə «Gəmi sahibləri ittifaqı» inhisarı yaradıldı. İnhisarın 45 iştirakçısından çoxunu azərbaycanlılar (Tağıyev, Aşurovlar, Bünyadov qardaşları, Hüseynov qardaşları, Manafov və b.) təşkil edirdi. Sindikat 1911-ci ilədək gəmiçilikdəki digər inhisar qrupları ilə rəqabəti davam etdirmişdi. Bütün bunlarla yanaşı, 4 min nəfərdən çox adamın işlədiyi 60-70 müəssisə qazan, polad kəndir, kabel istehsalı və poladtökmə işləri ilə məşğul idi.

Bakı neft rayonunda yerləşən bu növ müəssisələrdə, həmçinin tikinti materialları istehsalı sahələrində 30 min nəfərədək fəhlə işləyirdi.

Neft sənayesi ilə yanaşı, Azərbaycanda əlvan metallurgiya yüksək inkişaf mərhələsinə çatmışdı. Gəncə quberniyasındakı 8 mis zavodu içərisində «Simens qardaşları» səhmdar cəmiyyətinə məxsus olan Gədəbəydəki mis zavodları fərqlənirdi. Gədəbəy misi dünyada ən təmiz və qiymətli mis hesab edilirdi. Azərbaycanda hələ keçən əsrdən misi saflaşdıran Qalakənd zavodunda istehsal prosesində alınan qiymətli metalların sonrakı emalı Almaniyada davam etdirilirdi.

XX əsrin əvvəllərində Moskvada bu növ zavodlar inşa edildiyinə görə, Qalakənd zavodu 1906-cı ildə istehsalını dayandırmışdı.

Əsrin əvvəllərində Azərbaycanın Gədəbəy bölgəsində professor Fyodorov tərəfindən yeni mis filizi ehtiyatları aşkar edildikdən sonra mis istehsalında bəzi texniki yeniliklər həyata keçirildi. Filizçıxarma zamanı qazma işində ağır əl əməyini elektrik enerjisi əvəz edirdi. Almazla qazma üsulunun tətbiqi genişləndirildi. Hətta Qalakənd çayı üzərində ikiturbinli elektrik stansiyası tikildi. Buradakı missaflaşdırma zavodu həmin stansiyanın enerjisi ilə işləyirdi. Onu da qeyd edək ki, bu, Azərbaycan qəzalarında yaradılmış ilk su-elektrik stansiyası idi. Lakin bütün bunlara baxmayaraq, iqtisadi böhran filizin çıxarılması və mis istehsalına da müəyyən təsir göstərdi. 1903-cü ildə Azərbaycanda mis istehsalı 1900-cü ildəki 148 min puddan 84 min puda enmişdi.

## § 2. Sənayenin başqa sahələri

Azərbaycanın iqtisadi geriliyi, onun sənaye kapitalizmi mərhələsini keçməməsi haqqında vaxtilə İ.Stalin tərəfindən söylənmiş yanlış və qərəzli müddəanın əksinə olaraq, XX əsrin əvvəllərində kapitalist münasibətləri yalnız Bakıda deyil, Azərbaycanın qəzalarında da inkişaf etmişdi.

Stalinin «Azərbaycan ən geridə qalmış feodal-patriarxal münasibətləri ölkəsidir» müddəasını ehkama çevirmiş bir qrup tarixçi uzun illər ölkəmizin iqtisadi tarixinin öyrənilməsinə mane olmuşdur.

Torpağımızın qiymətli sərvəti təkcə ona dünyada şöhrət gətirən neftdən ibarət deyildi. Ölkəmizin təbii sərvətləri sənayenin başqa sahələrinin – dağ-mədən, mexaniki istehsal, energetika, toxuculuq, pambıqtəmizləmə, ipək emalı və yeyinti sənayesi sahələrinin, eləcə də nəqliyyat, rabitə, bank-kredit sistemi, ticarət və şəhərlərin inkişafına imkan verirdi.

Əsrin əvvəllərində həmin sahələrdə texniki yeniliklərin tətbiq olunması istehsalın inkişafını sürətləndirmişdi. Lakin iqtisadiyyatı bürümüş böhran qəzaların iqtisadi həyatından yan keçməmişdi. Sənayenin başqa sahələrində iqtisadi böhranın təsiri müxtəlif idi. Məsələn, böhran yüngül və yeyinti sənayesi sahələrinə elə bir ciddi zərbə vura bilməmişdi. Lakin dağ-mədən sənayesi ilə bilavasitə bağlı olan sənaye sahələrinin inkişafını ləngitmişdi.

Bakının mexaniki istehsal sahəsində maşınqayırma xüsusi yer tuturdu. Maşınqayırma zavodları neft quyuları üçün dəzgah və başqa avadanlıq, eləcə də ağ neft-yağ zavodlarında istifadə edilən qazanlar və s. istehsalı ilə məşğul olurdular. Bu müəssisələrin çoxu «Vulkan» və digər səhmdar cəmiyyətlərinə məxsus idi. Bakıdakı bu növ 12-13 zavodun illik məhsulunun ümumi dəyəri 3-4 mln. manatdan çox olurdu.

Podrat qazma işlərini görən iri müəssisələrə M.Muxtarovun, «Molot», «Votan», «Robur» və b. şirkətlərin zavodlarını aid etmək olar. Qazma üzrə 30-40 müəssisədə 7 mindən çox fəhlə qazma işi ilə məşğul olurdu.

Ümumi yükgötürmə qabiliyyətinə görə Rusiya limanlarını çox geridə qoyan Bakıda gəmilərin təmiri böyük əhəmiyyətə malik idi. Xəzər dənizində 350-dən çox gəmisi olan neftdaşıyan donanma vardı. Bu gəmilərin təmir edildiyi zavodların çoxu «Qafqaz və Merkuri», «Xəzər neft sənayesi və ticarəti», «Nobel qardaşları» və digər səhmdar

cəmiyyətlərinin əlində cəmləşmişdi. Azərbaycanlı kapitalistlərdən – H.Z.Tağıyev, İ.Vəliyev, Hüseynov və Dadaşov qardaşları və başqalarının da gəmi təmiri müəssisələri vardı. İqtisadi yüksəliş illərində 12-dən çox gəmi təmiri zavodunda 2 min nəfərdən çox fəhlə çalışırdı. Gəmiçilik sahəsində də inhisarlar yaranmışdı. Hələ 1897-ci ildə «Kaspi» Gəmiçilik cəmiyyətini ələ keçirmiş H.Z.Tağıyev bu sahədə öz mövqeyini getdikcə gücləndirirdi. 1904-cü ildə Tağıyev «Kür-Xəzər» səhmdar cəmiyyətini təsis etdi. Nəqliyyat üzrə bu iri səhmdar cəmiyyətinin gəmiləri ildə 5 mln. puddan çox mal daşıyırdı. 1907-ci ildə «Kür-Xəzər» cəmiyyətinin yaxından iştirakı ilə «Gəmi sahibləri ittifaqı» inhisarı yaradıldı. İnhisarın 45 iştirakçısından çoxunu azərbaycanlılar (Tağıyev, Aşurovlar, Bünyadov qardaşları, Hüseynov qardaşları, Manafov və b.) təşkil edirdi. Sindikat 1911-ci ilədək gəmiçilikdəki digər inhisar qrupları ilə rəqabəti davam etdirmişdi. Bütün bunlarla yanaşı, 4 min nəfərdən çox adamın işlədiyi 60-70 müəssisə qazan, polad kəndir, kabel istehsalı və poladtökmə işləri ilə məşğul idi.

Bakı neft rayonunda yerləşən bu növ müəssisələrdə, həmçinin tikinti materialları istehsalı sahələrində 30 min nəfərədək fəhlə işləyirdi.

Neft sənayesi ilə yanaşı, Azərbaycanda əlvan metallurgiya yüksək inkişaf mərhələsinə çatmışdı. Gəncə quberniyasındakı 8 mis zavodu içərisində «Simens qardaşları» səhmdar cəmiyyətinə məxsus olan Gədəbəydəki mis zavodları fərqlənirdi. Gədəbəy misi dünyada ən təmiz və qiymətli mis hesab edilirdi. Azərbaycanda hələ keçən əsrdən misi saflaşdıran Qalakənd zavodunda istehsal prosesində alınan qiymətli metalların sonrakı emalı Almaniyada davam etdirilirdi.

XX əsrin əvvəllərində Moskvada bu növ zavodlar inşa edildiyinə görə, Qalakənd zavodu 1906-cı ildə istehsalını dayandırmışdı.

Əsrin əvvəllərində Azərbaycanın Gədəbəy bölgəsində professor Fyodorov tərəfindən yeni mis filizi ehtiyatları aşkar edildikdən sonra mis istehsalında bəzi texniki yeniliklər həyata keçirildi. Filizçıxarma zamanı qazma işində ağır əl əməyini elektrik enerjisi əvəz edirdi. Almazla qazma üsulunun tətbiqi genişləndirildi. Hətta Qalakənd çayı üzərində ikiturbinli elektrik stansiyası tikildi. Buradakı missaflaşdırma zavodu həmin stansiyanın enerjisi ilə işləyirdi. Onu da qeyd edək ki, bu, Azərbaycan qəzalarında yaradılmış ilk su-elektrik stansiyası idi. Lakin bütün bunlara baxmayaraq, iqtisadi böhran filizin çıxarılması və mis istehsalına da müəyyən təsir göstərdi. 1903-cü ildə Azərbaycanda mis istehsalı 1900-cü ildəki 148 min puddan 84 min puda enmişdi.

Rus-yapon müharibəsinə hazırlıqla əlaqədar olaraq, misə olan tələbat xeyli artmış, bu da öz növbəsində ölkəmizdə mis istehsalının artmasına səbəb olmuşdu. 1907-ci ildə Cənubi Qafqazda istehsal edilmiş misin 33%-ni (109 min pud) Azərbaycan verirdi. Maraqlı cəhət ondan ibarətdir ki, 1900-cü ildə «Simens qardaşları və K» cəmiyyəti ilə «Voqau və K» konserni arasında bağlanmış müqaviləyə görə, istehsal edilmiş mis Moskva mis prokatı zavodlarına bu inhisar vasitəsilə satılmalıydı. Bu müqavilə ölkəmizin əlvan metallurgiya sənayesi ihisarlaşmasının başlanğıcı oldu.

1907-ci ildə Rusiyada 7 mis zavodunun məlum ittifaqı – «Mis» sindikatı yaradıldı. Gədəbəy mis zavodu 1917-ci ilədək inhisarın tərkibində idi. 1914-cü ildə inhisara daxil olan zavodlar rus imperiyasında istehsal edilmiş misin 91%-ni (1793 min pud) vermişdilər. 1913-cü ildə «Voqau və K» konserni Azərbaycanın digər yerlərində mis istehsalı ilə məşğul olan sahibkarlarla müqavilə bağladı. Müqaviləyə görə Gədəbəydən kənarda hər il əldə edilmiş 14 min pud mis də bu inhisara satılmalı idi. Bununla da ölkəmizdəki irili-xırdalı bütün mis istehsalı müəssisələri bu inhisar birliyinin və «Mis» inhisarının asılılığına düşmüş oldular. «Voqau və K» inhisarının bağladığı bu müqavilə Azərbaycanın əlvan metallurgiya sənayesinin inhisarlaşması mərhələsini başa çatdırdı.

Birinci Dünya müharibəsi ərəfəsində Rusiyadakı sənaye yüksəlişi Azərbaycanda mis istehsalının geriləməsinin qarşısını ala bilmədi. 1914-cü ildə mis istehsalı, yarıbayarı azalaraq 56 min puda enmişdi. İstehsal edilmiş misin yalnız az bir hissəsi Azərbaycanda saxlanılırdı. Əksəriyyəti Rusiyanın mis prokatı zavodlarına satılırdı. Müharibə başlandıqdan sonra 1914-cü ilin sentyabrında çarın fərmanı ilə düşmən təbəələrinin Rusiyadakı müəssisələri müsadirə olunmağa başladı. Lakin «Simens qardaşları» cəmiyyətinə məxsus Gədəbəy zavoduna qoyulmuş kapitalın çox cüzi hissəsini alman kapitalı təşkil etdiyinə görə, müəssisə fəaliyyətini sonralar da davam etdirmişdi.

Daşkəsəndə çox zəngin dəmir filizi yatağından kifayət qədər istifadə edilmirdi. Çıxarılan dəmir filizindən mis zavodlarında aşqar kimi istifadə olunurdu.

«Simens qardaşları» cəmiyyəti Daşkəsəndə istehsal etdiyi kobaltı Almaniya, İsveç, Norveç və başqa ölkələrə satırdı. Daşkəsəndəki dəmir filizi yataqlarından birgə istifadə etmək məqsədilə cəmiyyət 1914-cü ildə Almaniyanın 6 nəhəng metallurgiya zavodunu xammalla təmin edən «Ştuden Gezelşaft» inhisarı ilə 30 il müddətinə müqavilə bağladı.

Lakin Birinci Dünya müharibəsi işləri yarımçıq qoydu. 1917-ci ildə isə Staxeyev ticarət-sənaye səhmdar cəmiyyəti ilə bağlanmış yeni müqaviləyə görə Daşkəsəndə ildə 20 mln. puddan az olmamaq şərtilə filiz çıxarılmalıydı.

Azərbaycan başqa faydalı qazıntı yataqları ilə də zəngin idi. Cavanşir qəzasında Mehmanada və Naxçıvanda Gümüşlüdə ildə təxminən 15 min puda qədər gümüş-qurğuşun filizi çıxarılırdı.

**Yüngül sənaye sahələri**

Ölkəmizin qiymətli sərvətlərindən olan ipək əsrlər boyu dünyada Azərbaycanın şöhrətini yüksəltmişdi. Azərbaycanın ipək emalı fabriklərini xammal ilə iki mindən çox kənddə barama becərənlər təchiz edirdilər. Kümdarlar hər il fabriklərə 260 min puddan çox barama satırdılar. Xammal bolluğu ipək emalı fabriklərinin sayca artmasına şərait yaradırdı.

Əsrin əvvəlində Rusiya iqtisadiyyatını bürüyən iqtisadi böhran Azərbaycanın ipək sənayesinə ciddi zərər yetirə bilmədi. Doğrudur, 1902-ci ildə 30 xırda müəssisə dayansa da bütövlükdə istehsalda sabitlik pozulmadı.

İpək sənayesi ölkəmizin şimal-qərb və cənub-qərb hissəsində geniş yayılmışdı. Cənubi Qafqazda ipək emalı sənayesinin mərkəzi olan Nuxa (Şəki) haqlı olaraq «Qafqaz Lionu» adlandırılırdı. 1900-cü ildə xırda müəssisələr nəzərə alınmasa, Nuxa-Zaqatala zonasında 46 fabrik vardısa, 1915-ci ildə onların sayı 87-ni keçmişdi. Müvafiq illərdə Qarabağda və Naxçıvanda, xüsusən Ordubad şəhərində, 14 və 36 fabrik işləyirdi. Bütün fabriklər əcnəbi ölkələrdən gətirilmiş avadanlıqla təchiz edilmişdi.

Rusiyada iqtisadi yüksəliş illərində (1910-1914) xam ipəyə artan tələbatla əlaqədar olaraq, Azərbaycanda onlarla yeni ipək istehsal edən müəssisə meydana gəlmişdi. Bəhs edilən dövrdə ipək emalı sənayesində şirkətlər və səhmdar cəmiyyətləri mühüm rol oynayırdılar. İstehsal edilmiş məhsulun beşdə dördündən çoxunu onlara məxsus müəssisələr verirdi. 1913-cü ildə Azərbaycanın ipək sənayesinin illik istehsal məbləği 20 milyon manat olmuşdu.

Ölkəmizdə istehsal edilən ipək dünya bazarlarında uğurla rəqabət aparırdı. Sahibkarlardan Hacı Məmməd Hacı Rəsul oğlu, Salam Lətifov, Rzaqulu Rzayev, Ə. və H.Rəhimov qardaşları, Ağa Musa Məmmədov, İ.Nağıyev, M.Babayev, Ş. və A.Sərkərov qardaşları və başqalarının fabriklərində istehsal edilən xam ipək beynəlxalq və ümumrusiya sərgilərində qızıl və gümüş medallar almışdı. Azərbaycanın xam

ipəyindən tək ölkəmizin özündə deyil, Moskvanın, Lodzun, Milanın, Marselin və Lionun ipəktoxuma sənayesində də istifadə edilirdi.

Bu dövrdə pambıqçılığın inkişafı ilə yanaşı, pambıqtəmizləmə sənayesi də irəliləməkdə idi. İlk pambıqtəmizləmə zavodunun keçən əsrdə meydana gəlməsinə baxmayaraq, sənayenin coşqun inkişafı əsrin əvvəlinə təsadüf edir. Bu dövrdə Şimali Azərbaycanda 100-dən çox pambıqtəmizləmə zavodu vardı.

Bu sahədə Gəncə quberniyası birinci yerdə gedirdi. 1908-ci ildə quberniyada 15 zavod olmuşdusa, 1912-ci ildə onların sayı 28-ə çatmışdı. Gəncədə pambıqtəmizləmə zavodları «Xlopok», «Ulduz», «Ümid» şirkətlərinə, Ağdaşda «Səmədov qardaşları», «Hacı İbrahim Əfəndiyev və K°» ticarət evlərinə, Hacıağa Vahidova, Şuşa qəzasında «Qafqaz pambığı» səhmdar cəmiyyətinə, Hindarxda Fərrux bəy Vəzirova və b. məxsus idi.

Bakı quberniyasındakı 23 zavodun bir hissəsi Ucarda, Kürdəmirdə, Göyçayda, Hacıqabulda, qalanı isə quberniyanın kəndlərində yerləşirdi. Cavad qəzasının Xıllı kəndindəki zavod H.Z.Tağıyevə məxsus idi.

1912-ci ildə Naxçıvan qəzasında irili-xırdalı 51 pambıqtəmizləmə zavodu vardı. Zavodların çoxu texnika ilə təchiz edilmişdi. Azərbaycanlı sahibkarlar İrəvan quberniyasının Eçmiədzin və başqa yerlərində 80-dən çox pambıqtəmizləmə zavodu tikdirmişdilər. Quberniyadakı bütün pambıqtəmizləmə zavodlarının 60%-ə qədəri azərbaycanlı sənayeçilərə məxsus idi.

Pambıqtəmizləmə zavodları ildə 2 milyon puddan çox mahlıc istehsal edirdilər. Sənaye məhsulunun illik dəyəri 32 milyon manatdan yuxarı idi. İri zavodların hər biri ildə 10-50 min puddan artıq, ən iri zavodlar isə 100-150 min pud mahlıc istehsal edirdi. Pambıqtəmizləmə sənayesinə qoyulan kapitalın 80%-i milli kapitala mənsub idi.

Mahlıcın müəyyən hissəsi H.Z.Tağıyevin Bakıda və Petrovsk (Mahaçqala) şəhərlərindəki, Mahmudbəyov qardaşları və Məstanzadənin Tiflisdəki toxuculuq fabriklərinə satılırdı, qalanı isə Rusiyanın və Polşanın pambıq-parça toxuculuğu sənayesi sahibləri tərəfindən alınırdı. Polşanın əsas kapitalı 10 mln. man. olan 4 iri səhmdar cəmiyyəti, o cümlədən «İ.K.Poznanski» ticarət və sənaye cəmiyyəti Azərbaycanda, həm də pambıq becərməklə məşğul idi.

Pambıqtəmizləmə sənayesində 14 səhmdar cəmiyyət və onlarla şirkət fəaliyyət göstərirdi. Bu cəmiyyət və şirkətlər sənayedə hakim rol oynayırdılar. Bu sahədə kapitalın mərkəzləşməsi və istehsalın təmərküzləşməsi özünün yüksək mərhələsinə çatmışdı.

Azərbaycanda maldarlığın geniş yayılması gön-dəri istehsalı üçün hərtərəfli imkanlar açırdı. Azərbaycanın, eləcə də Rusiyanın gön-dəri sənayesi üçün ildə 600 min ədəd dəri satılırdı. 1900-cü ildə Gəncə quberniyasında olan 70 belə müəssisənin 50-dən çoxu Nuxa şəhərində və kəndlərdə yerləşirdi. Bütövlükdə həmin ildə Azərbaycandakı 160 gön-dəri müəssisəsi 0,5 milyon manatlıq məhsul istehsal etmişdi.

1913-cü ildə Azərbaycanın gön-dəri istehsalı müəssisələrinin sayı o qədər də dəyişməmişdi. Lakin iri, hər birində 40 nəfərdən çox fəhlə çalışan zavodların sayı artmışdı. Bütövlükdə ölkəmizin gön-dəri müəssisələri müharibə ərəfəsində artıq 2 milyon manatlıq 100 min pudadək məhsul vermişdilər.

**Yeyinti sənayesi**

Azərbaycanın yeyinti sənayesinin mühüm sahələrindən olan şərabçılığın, spirt və konyak istehsalının xammal mənbəyini üzümçülük təşkil edirdi. Hər il becərilən 5-6 milyon pud üzümün böyük hissəsi Azərbaycanda emal edilirdi. 1900-cü ildə ölkəmizdə 1000-dən çox şərab-spirt və araq istehsal edən zavod vardı. Həmin ildə 1 mln.345 min vedrə* şərab, 20 milyon dərəcə spirt və araq əldə olunmuşdusa, 1913-cü ildə şərab istehsalı 4 milyon vedrəyə, spirt, araq və konyak istehsalı 29 milyon dərəcəyə qalxmışdı. Şərab hazırlanmasında Gəncə qəzası xüsusilə fərqlənirdi. Əgər qəzada 1903-cü ildə 880 min vedrə şərab alınmışdısa, 1913-cü ildə bu, iki dəfədən çox, yəni 1 mln. 992 min vedrə olmuşdu. Bakı quberniyasında hazırlanan şərabın, demək olar ki, hamısını Şamaxı və Göyçay qəzalarının müəssisələri verirdilər. Azərbaycanın təkcə 4 qəzası (Gəncə, Şuşa, Şamaxı, Göyçay) şərabın 74%-ni istehsal edirdi. Cənubi Qafqazda istehsal edilən şərabın üçdə bir hissəsini Azərbaycan verirdi.

Azərbaycanda 5-7 rektifikasiya (təmizlənmiş) spirti istehsal edən zavod vardı. 1913-cü ildə bu zavodların 4-ü Gəncə quberniyasında və 3-ü Bakı quberniyasında yerləşirdi. Həmin ildə ölkəmizdəki 9 konyak zavodundan 3-ü Bakı quberniyası və 6-sı Gəncə quberniyasında idi. İstehsal gücünə görə iri müəssisələr hesab edilən Ağdam, Gəncə və Kürdəmir konyak zavodları yüksəkkeyfiyyətli konyak istehsal edirdilər.

1913-cü ildə Cənubi Qafqazda hazırlanan konyakın 45%-ni Azərbaycan vermişdi. İqtisadi böhrandan sonrakı illərdə sənayenin bu sahələrində şirkət və səhmdar cəmiyyətlərin sayı artmışdı. Onlara məxsus

---

* Bir vedrə – 10-12 litrə bərabərdir.

zavodlar hazırlanan şərab, araq, spirt və konyakın yarıdan çoxunu verirdilər. Müharibə ərəfəsində hər il ölkəmizdə 21 milyon manatdan çox dəyəri olan şərab, araq, spirt və konyak hazırlanırdı.

Azərbaycanda pivə də istehsal edilirdi. 1903-cü ildə Cənubi Qafqazdakı 15-dən çox pivə zavodunun 4-ü ölkəmizdə yerləşirdi. İri pivə zavodları Zığda (Bakı) və Yelenendorfda (indiki Xanlar) yerləşirdi. 1911-ci ildə hər iki zavod 538 min vedrə pivə hazırlamışdı ki, bu da Cənubi Qafqazdakı pivə zavodlarının istehsal etdiyi pivənin 62%-ni təşkil edirdi.

Yeyinti sənayesində mühüm yer tutan tütünçülük ən çox Zaqatala dairəsində, Nuxa, Cavanşir və Şamaxı qəzalarında intişar tapmışdı. Tütün əkilən sahələr 238 desyatindən 1914-cü ildə 587 desyatinə çatmışdı. Müharibə ərəfəsində illik tütün yarpağı yığımı 46 min puda bərabər idi. Bakı, Gəncə, Nuxa, Şamaxı və Ağdaşda 10 tütün fabriki və papiros gilizi hazırlayan müəssisə vardı.

Azərbaycanda Məşədi Həsən Dadanova məxsus olan ilk tənbəki fabriki hələ keçən əsrin ikinci yarısında Nuxada fəaliyyətə başlamışdı. XX yüzilliyin əvvəllərində burada bu növ daha 2 fabrik işə salınmışdı. Belə fabriklər Gəncə, Ağdaş, Şamaxıda da fəaliyyət göstərirdi. Fabriklər ildə 15 min puddan çox tənbəki verirdilər. Bakıdakı tütün fabrikləri istehsal gücünə görə daha iri idilər. Cənubi Qafqazda tənbəki yalnız Gəncə, Nuxa, Ağdaş və Şamaxıda istehsal olunurdu. 1913-cü ildə Azərbaycandakı tütün və tənbəki fabriklərində 40 min pud məhsul istehsal edilmişdi.

Azərbaycan təbiətinin qiymətli sərvəti olan balıq dünya bazarlarına çıxarılan ənənəvi mallardan idi. XX əsrin əvvəlində Azərbaycanın 7 qəzasında balıqçılıqla məşğul olunurdu. Balıq çaylarda və göllərdə ovlanırdı. Xəzərdə balıq ovuna keçən əsrin sonunda başlanılmışdı. 1901–1906-cı illərdə dənizdə ovlanan balığın miqdarı 55 milyon ədəddən 138 milyon ədədə qalxmışdı. Dənizdə, əsasən, siyənək balığı ovlanırdı. Balıq vətəgələri hərrac yolu ilə 3 ilə icarəyə verilirdi. Dəniz sularını əhatə edən 44 vətəgədə 1913-cü ildə 8,5 milyon pud siyənək balığı tutulmuşdu. Bu növ balıq və balıq məhsulları başlıca olaraq Rusiya şəhərlərinə satılırdı.

Azərbaycanın çay və göllərində balıqçılıq və balıq emalı ilə 31 vətəgə məşğul olurdu. Kür çayı boyunca yerləşmiş iri vətəgələrdə ovlanmış balıqlar duzlanır və konservləşdirilirdi. Nərə balıq növləri təzə halda da satılırdı. Bu qiymətli balıqlar ticarətdə «Qırmızı», yəni bahalı, əla adlandırılırdı. Nərə, uzunburun, ağbalıq və qayabalığı bu növə daxil idi. Ölkəmizin su arteriyası olan Kür və onun qollarından hər il yüz

minlərlə nərə balığı ovlanırdı. İldə onlardan alınan təkcə 50 min pud qara kürü 8 milyon manatadək gəlir verirdi.

1906-cı ildən başlayaraq balıq sənayesinə milli kapital axını güclənmişdi. 1906, 1909 və 1912-ci illərin hərracında bir çox iri vətəgə azərbaycanlı sahibkarların – H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, T.Səfərəliyev, Baxışbəy Rüstəmbəyov və b-nın əlinə keçmişdi. H.Z.Tağıyev 1912-ci ildə Xəzərin Yalama-Dəvəçi hissəsində və Dağıstanda 30 vətəgə icarəyə götürmüş, onların hər cür avadanlıqla təchizinə, soyuduculara, buz istehsal edən və çəllək zavodlarının tikintisinə və başqa işlərə 6,5 milyon manat xərcləmişdi. Maraqlı cəhət ondadır ki, 1912-ci ildə balıq sənayeçilərinin 70%-ni azərbaycanlı kapitalistlər təşkil edirdilər. 1913-cü ildə dənizdən, çay və göllərdən ümumi dəyəri 34 milyon manatdan çox olan 12800 min pud balıq tutulmuş və balıq məhsulları hazırlanmışdı. Bəhs edilən dövrdə balıq sənayesində də səhmdar cəmiyyətləri və şirkətlər hakim rol oynayırdılar.

Ölkəmizdə balıqçılıq təsərrüfatı və balıq sənayesinin məhsulu Rusiyaya və oradan da xarici ölkələrə göndərilir, az bir hissəsi isə Cənubi Qafqaz bazarlarında xırıd edilirdi. 1913-cü ildə Polşa, Almaniya, Fransa, Avstriya və Amerikaya 7 milyon manatdan çox balıq məhsulları ixrac olunmuşdu. Alqı-satqı işlərində Almaniyanın «Dikman və Qanzen» səhmdar cəmiyyəti mühüm rol oynayırdı. Qara kürünün, demək olar ki, hamısı bu cəmiyyət vasitəsilə həmin ölkələrə satılırdı.

Bəhs edilən dövrdə balıqçılıq və balıq sənayesinə qoyulmuş 25 milyon man. kapitalın 92%-i şirkətlər və səhmdar cəmiyyətlərinə məxsus olduğundan, bu sahələrdə məhz onlar ağalıq edirdilər. Satış bazarlarında da qiymətləri onlar müəyyənləşdirirdilər. Qeyd etmək lazımdır ki, məhsulun ümumi dəyəri və fəhlələrin sayına görə balıq sənayesi neft sənayesindən sonra ikinci yerdə gəlirdi.

1912-ci ildə Azərbaycanda balıqçılıq təsərrüfatı və balıq sənayesinə xidmət edən donanmaya 5900-dən çox şxun, avarlı gəmi, motorlu barkas və s. daxil idi. Onların yükgötürmə qabiliyyəti 2,5 milyon puddan yuxarı olmuşdu.

Rusiyada biyan kökü emalı ilə məşğul olan 7 zavoddan 4-ü Azərbaycanda yerləşirdi. Çünki dünyanın ən keyfiyyətli biyanı məhz bizim ölkədə yetişirdi. XX əsrin əvvəllərində də bu sənayenin inkişafı ingilis kapitalı ilə bağlı olmuşdur.

1902-ci ildə Gəncə, Kürdəmir, Ucar və Ləkidəki biyan kökü emalı zavodları «Mak-Andryus və Forbs» şirkətinin nəzarətinə keçmişdi.

Azərbaycanda hər il 20 mindən çox kəndlinin yığdığı 5-6 milyon pud biyan kökü bu zavodlarda emal olunurdu. Emal prosesində alınan maye-cövhər başlıca olaraq yeyinti sənayesində işlənirdi. Onu tütünə, siqara, konfetə, pivəyə, likora və b. məhsullara qatırdılar. Əczaçılıqda müxtəlif dərmanların hazırlanmasında, eləcə də texnikada, xüsusən sarı, sarı-qonur rəngli parçalar istehsalında və s. istifadə edilirdi.

Bu dövrdə meydana gəlmiş sənaye sahələrindən biri də çiyid yağı istehsalı idi. 1902-ci ildə yerli kapitalla inşa edilmiş Ləki çiyid yağı zavodunda əla keyfiyyətli yağ istehsal olunurdu. 1906-cı ildə müəssisə əsasında «Qafqaz yağ zavodu» səhmdar cəmiyyəti təsis edildi. Zavodun istehsal etdiyi əla növ yağ yeməyə, konserv düzəldilməsinə, aşağı növ isə zavodun nəzdindəki sexdə müxtəlif çeşidli sabunların istehsalına və digər texniki məqsədlər üçün işlənirdi. Zavodda jmıx da hazırlanırdı. 1911-ci ildən etibarən Ləki yağ zavoduna «Rus-Asiya bank» inhisarı nəzarət edirdi.

Azərbaycanda duz istehsalı qədim tarixə malik olsa da, onun bir yeyinti sənayesi sahəsi kimi əsl inkişafı XX əsrin əvvəllərinə təsadüf edir. Daş duz mədənləri Naxçıvan qəzasında Sust və Şıxmahmud kəndləri arasındakı dağlarda yerləşirdi. Dövlətə məxsus duz mədənləri icarəyə verilirdi. Daş duz böyük miqdarda bu mədənlərdən çıxarılırdı, «Kəlbalıxanov qardaşları» şirkətinin istismar etdiyi Sust mədənləri duz ehtiyatına görə zəngin idi. Lakin xəzinə duz mədənləri ilə rəqabətdə üstünlük qazanmasın deyə hökumət şirkətə 100 min puddan çox duz çıxarılmasını qadağan etmişdi. Ona görə də ayrı-ayrı illərdə hər iki mədəndən 400–500 min pud duz alınırdı.

Azərbaycanda 30-dan çox göldən şor duz əldə edilirdi. Bu göllərin yarıdan çoxu Abşeronda, qalanı Cavad qəzasında yerləşirdi. XX əsrin əvvəllərində göllərdən şor duz alınması da icarədə idi. 1903-cü ildə Bakı qəzasındakı göllərdən 233 min pud, Cavad qəzasında bundan xeyli az şor duz yığılmışdısa, yeni iqtisadi yüksəliş dövründə hər iki qəzada 350 min puddan çox şor duz əldə edilmişdi. Rusiyadan külli miqdarda şor duz gətirilməsi şor duz istehsalına mənfi təsir göstərirdi.

XX əsrin əvvəllərində Azərbaycanın xalq təsərrüfatında kapitalist münasibətlərinin inkişafı əhalinin artımına, şəhər təsərrüfatına, ticarətə, nəqliyyatın və rabitənin inkişafına da müəyyən təsir göstərirdi. 1913-cü ildə Azərbaycanın 2 mln.453 min nəfər əhalisinin 24%-ni şəhər əhalisi təşkil edirdi. Şəhərətrafı qəsəbələrlə birlikdə Bakıda 300 mindən çox, Gəncədə 57 min, Şuşada 42 min və Nuxada 52 mindən

artıq adam yaşayırdı. Sənayenin xüsusi çəkisi və fəhlələrin sayına görə Nuxa şəhəri Bakıdan sonra ikinci yerdə gedirdi. Başqa sözlə, Nuxa ölkəmizin ikinci sənaye mərkəzi idi.

Kapitalizmin inkişafı şəhərlərdə özünə uyğun maliyyə-kredit və bank müəssisələri yaradırdı. Ölkəmizin müxtəlif yerlərində 34 bank və bank şöbələri, eləcə də 80-dən çox borc-əmanət kassaları vardı. Bakıdakı iri ticarət səhmdar banklarının sahibləri arasında H.Z.Tağıyev və M.Nağıyev başda olmaqla milli burjuaziyanın nümayəndələri də təmsil olunmuşdu.

Bakı əlverişli dəniz limanı və Cənubi Qafqazı Rusiya ilə birləşdirən dəmiryol qovşağı idi. Həmin yollarla Rusiyadan müxtəlif növ sənaye malları, ərzaq məhsulları, tikinti materialları və s. gətirilir, Azərbaycandan isə neft, mahlıc, yun, mis, balıq və balıq məhsulları, şərab, konyak, quru meyvə və s. aparılırdı. İqtisadi böhranın ticarət dövriyyəsinə təsir göstərməsinə baxmayaraq, tacirlərin və ticarət müəssisələrinin sayı ildən-ilə artmaqda idi. Azərbaycanda 25 minədək tacir müxtəlif sahələrdə ticarətlə məşğul idi.

Sənaye və ticarət mərkəzi kimi Bakıda hər il təşkil edilən satış yarmarkasında xaricdən, Rusiyadan və Azərbaycanın qəzalarından gətirilmiş mallarla qızğın ticarət gedirdi.

Daxili və xarici ticarətin inkişafında Bakı, Lənkəran, Astara limanları mühüm rol oynayırdı. Xəzərdəki ticarət donanması gəmilərinin sayı 830-dan artıq idi. Ölkəmizdə istehsal edilən çoxçeşidli məhsullar Ağstafa, Şəmkir, Gəncə, Yevlax, Ucar, Kürdəmir, Biləcəri, Culfa və Naxçıvan dəmiryolu stansiyaları ilə daxili və xarici bazarlara daşınırdı.

Əsrin əvvəlində Bankə qəsəbəsində 27 verst uzunluğunda telefon xətti çəkilmişdi. 1910–1911-ci illərdə Bakını Quba və Xaçmazla birləşdirən telefon xətti vardı. 1912-ci ildə Bakı və Tiflis şəhəri arasında birbaşa teleqraf xətti çəkilmişdi. Lakin rabitənin inkişaf səviyyəsi aşağı idi. Azərbaycanda cəmi 93 poçt-teleqraf müəssisəsi vardı ki, bu da Rusiyanın başqa yerləri ilə müqayisədə çox az idi.

Bəhs edilən dövrdə Azərbaycanın bütün sənaye sahələrində, eləcə də nəqliyyatda 200 min nəfərdən çox fəhlə çalışırdı. Əgər kənd təsərrüfatında işləyən 106 min daimi fəhləni də buraya əlavə etsək, onda 1913-cü ildə ölkəmizdə 306 min nəfərdən çox fəhlə olduğunu deyə bilərik. Bu, 1913-cü ildə Azərbaycanın ümumi əhalisinin (2 mln. 453 min) 12,5%-ni təşkil edirdi. Başqa sözlə desək, Azərbaycanda fəhlələrin sayının əhalinin ümumi sayına nisbəti (12,5%) ümumrusiya göstəricisindən (10%) yüksək olmuşdur.

Beləliklə, ölkəmizdə sənayenin inkişafına dair gətirilmiş statistik materiallar, onların təhlili və aparılmış hesablamalara əsaslanaraq tam inamla, demək olar ki, on illər boyu Sovet (xüsusən Azərbaycan) tarixşünaslığında Azərbaycanın geriliyi haqqında hakim olmuş müddəanın heç bir elmi əsası olmamışdır. Deməli, XX əsrin əvvəllərində Şimali Azərbaycan bütövlükdə kapitalist inkişaf mərhələsini keçmiş və öz ictimai-iqtisadi inkişaf səviyyəsinə görə nəinki qonşu ölkələrdən, hətta Mərkəzi Rusiyanın sənayecə inkişaf etmiş bir sıra quberniyalarından yüksəkdə durmuşdu.

## § 3. Kənd təsərrüfatı. Çarizmin köçürmə siyasəti

**Kənd təsərrüfatı** Bəhs olunan dövrdə də kənd təsərrüfatının əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Ölkəmizdə əkin sahələri ildən-ilə genişlənirdi. Kapitalizmin inkişafı kənd təsərrüfatında, xüsusilə əkinçilikdə təkmil alətlərin tətbiqini xeyli genişləndirmişdi. Birinci Dünya müharibəsi ərəfəsində 1,3 milyon des. əkin üçün yararlı sahənin yarıdan çoxunda buğda, arpa və düyü əkilirdi. Əkinçilikdə dəmir kotanlar mühüm rol oynayırdı. Öyrənilən dövrün sonunda əkinçilikdə 70 min ədədə qədər dəmir kotandan istifadə olunurdu. Bundan başqa, mülkədar bəylərin və varlı kəndlilərin təsərrüfatlarında traktorlar, dəmir dırmıxlar da geniş şəkildə tətbiq edilirdi. Aqrotexniki qaydalar mənimsənilirdi. Texnikanın çoxu bu təsərrüfatların payına düşürdü.

Əkin sahələri genişləndikcə və məhsul istehsalı artdıqca əmtəəlik məhsullar da çoxalırdı. 1903-cü ildə Azərbaycanda 40 milyon puddan çox taxıl yığılmışdı. Sonrakı dövrlərdə, xüsusilə 1913-cü ildə taxıl istehsalının inkişafında xeyli fərq gözə çarpırdı. Həmin ildə ölkəmizdə 60 milyon puda qədər taxıl əldə edilmişdi. Bunun 41 milyon pudunu buğda, 12 milyon pudunu arpa, 5,5 milyon pudunu düyü və s. təşkil edirdi.

İctimai təbəqələşmə nəticəsində meydana gəlmiş kənd burjuaziyası – qolçomaqlar kənd əhalisinin az bir hissəsini təşkil etmələrinə və təsərrüfatların 10%-nə sahib olmalarına baxmayaraq, əmtəəlik taxılın böyük bir hissəsini onlar verirdilər. 1913-cü ildə onlara məxsus təsərrüfatlar 20 mln. puda qədər taxıl vermişdi ki, bunun da 15 mln. pudu satışa getmişdi.

Kapitalistcəsinə təşkil edilmiş mülkədar-bəy təsərrüfatlarında da taxılın müəyyən hissəsi bazar üçün istehsal edilirdi. Mülkədarların əllərində 757 min des-dən çox torpaq sahəsi vardı. Gəncə quberniyasında yalnız 28 mülkədar 285 min des. torpağa sahib idi ki, bu da bütün

mülkədar torpaqlarının az qala üçdə birini təşkil edirdi. Kəndlilərin isə bir hissəsinin torpağı yox idi və əksəriyyəti aztorpaqlılar təşkil edirdilər. Torpaqsız kəndlilər də az deyildilər. 1917-ci ilin əvvəllərində Gəncə və Bakı quberniyalarında 16 min ailənin (76 min nəfər) torpağı yox idi. Aztorpaqlı və torpaqsız kəndlilər ya varlıların torpaqlarını ağır şərtlərlə icarəyə götürür, ya da bir parça çörək qazanmaq üçün kəsbkarlığa gedirdilər.

Kəndlilərdən alınan müxtəlif vergilər onların vəziyyətini ağırlaşdırırdı. Sahibkar kəndliləri bəy-mülkədar torpaqlarından istifadə əvəzində məhsulun onda bir hissəsindən yarısına qədərini torpaq sahibinə verirdilər. Məhsulun onda birini təşkil edən bu vergi *malcəhət* adlanırdı. Bundan başqa, kəndlilər ot pulu, tüstü pulu və başqa vergilər də verirdilər. Dövlət kəndliləri də bir sıra mükəlləfiyyət yerinə yetirməklə bərabər çöp pulu, torpaq vergisi və s. verməli idilər. 1901-ci ildən torpaq pulu vergisi töycü ilə əvəz edilmişdi.

Kənd təsərrüfatında texnikanın ləng tətbiq olunmasının bir sıra obyektiv səbəbləri vardı. Azərbaycanın özündə kənd təsərrüfatı maşınları istehsal edən zavodlar, demək olar ki, yox idi. Belə maşınları kənardan gətirmək isə baha başa gəlirdi. Yuxarıda göstərilən dəmir kotanların bir hissəsi məhz kənardan gətirilmişdi. Onları varlı kəndlilər alırdılar. Yerlərdə istehsal edilən əkin alətləri ehtiyacı ödəmirdi. İxtisaslı mütəxəssislərin az olması da işə mənfi təsir göstərirdi.

Taxıla və texniki bitkilərə tələbatın artması suvarılan torpaq sahələrinin genişləndirilməsini tələb edirdi. Köhnə suvarma kanallarının yenidən bərpası, yararlı hala salınması ilə yanaşı, çayların sahilində suvuran qurğular qurulur, kanallar çəkilirdi. Əsrin əvvəllərində Kür və Araz çaylarının sahillərində 150-yə qədər suvuran qurğu qurulmuşdu. Yeni iqtisadi yüksəliş dövründə Muğan və Mildə uzunluğu 500 km qədər olan əsas və qol kanalları çəkilmişdi. Pambıqçılığı genişləndirmək məqsədi güdən çar hökuməti suvarma şəbəkələrinin inkişafına maliyyə vəsaiti buraxmağa məcbur idi. Kanalların çəkilməsi, həm də rus kəndlilərinin bu ərazilərə köçürülməsinə şərait yaradırdı.

Taxılçılıq sahəsində Lənkəran, Gəncə, Nuxa, Ərəş, Şuşa qəzaları daha çox fərqlənirdi. Çəltik bir neçə qəzada becərilsə də Azərbaycanda onun əsas vətəni Lənkəran idi. Cənubi Qafqazda becərilən çəltiyin 86%-i Azərbaycanın payına düşürdü.

Azərbaycanda hər desyatin torpaq sahəsindən orta hesabla 42 pud taxıl götürülürdü ki, bu da Mərkəzi Rusiyadakından az deyildi.

Məhsuldarlığın aşağı olması səbəblərindən biri torpağın aqrotexniki tələblərə uyğun becərilməməsi idi. Bu işdə təbii fəlakətlərin də rolu az deyildi.

XX əsrin əvvəllərində texniki bitkilər əkini, xüsusilə pambıqçılıq xeyli genişlənmişdi. Sənaye pambıqçılığının inkişafı da bu dövrə təsadüf edir.

1900–1913-cü illərdə pambıq əkini sahələri 19 min desyatindən 105 min desyatinə çatmış, yəni 5,5 dəfə artmışdı. Pambıq əkinində kotanlarla bərabər, traktorlardan da istifadə olunurdu. 1913-cü ildə Rusiyada əkinçilikdə istifadə edilən 152 traktordan 6-sı Azərbaycanda idi. F.Vəzirovun «Hindarx» mülkündə 1, Həsənbəy Hüseynovun Yevlaxdakı mülklərində 1 və Ağdamda fəaliyyət göstərən «Qafqaz pambığı» səhmdar cəmiyyətinin təsərrüfatlarında 2 traktor vardı. Bakı quberniyasının Cavad qəzasında M.Karamzinin «Qaraçala» mülkündə və Benkendorfun Quba qəzasındakı mülklərində də traktorlardan istifadə edilirdi. Cənubi Qafqazdakı pambıq əkilən sahələrin 70%-dən çoxu Azərbaycanın payına düşürdü. Becərmədə xeyli irəliləyiş gözə çarpırdı. Pambıqçılıq təsərrüfatlarında cərgəli əkin üsulu getdikcə üstünlük təşkil edirdi. Təkcə onu demək kifayətdir ki, yalnız Muğanda 15 min des. sahədə cərgəli üsulla pambıq becərilirdi. Əlbəttə, bütün bunlar məhsulun artımına təsir göstərirdi. Azərbaycanda hər il orta hesabla 6-7 mln. pud pambıq yığılırdı. Toplanan pambıq yerli pambıqtəmizləmə zavodlarına satılırdı. Becərilən pambıqdan məişətdə də istifadə edirdilər. Azərbaycanda pambıqçılıq Göyçay, Cavad, Ərəş, Cavanşir, Şuşa və Naxçıvan qəzalarında geniş yayılmışdı. Bu qəzalarda əldə edilən pambıqdan hər il milyonlarla manat gəlir götürülürdü. Lakin bu milyonların çox az hissəsi pambıqçılara çatırdı. Çünki möhtəkirlər onların min bir zəhmətlə becərdikləri pambığı əvvəlcədən verilmiş beh hesabına ucuz qiymətə alırdılar. Kəndli öz məhsulunu möhtəkirə satmağa məcbur olurdu. Möhtəkirlər kəndlilərlə sənayeçilər arasında vasitəçilik edirdilər. Lakin 1909-cu ildən etibarən Azərbaycanda borc-kredit şirkətlərinin təşkili vəziyyəti dəyişmişdi. 1913-cü ildə burada 129-dan artıq kredit şirkəti və borc-əmanət kassaları fəaliyyət göstərirdi. Bunlar möhtəkirlərin fəaliyyətini məhdudlaşdırırdılar.

Azərbaycanda inkişaf etmiş ipək sənayesinin əsasını geniş yayılmış ipəkçilik təşkil edirdi. XX əsrin əvvəllərində ipəkçiliklə-kümdarlıqla məşğul olan kəndlərin sayı artdıqca tut-çəkil plantasiyalarının sahələri də genişlənirdi. 1914-cü ildə Azərbaycanda çəkil plantasiyalarının

ümumi sahəsi 60 min des-nə bərabər idi. Baramaçılıqla məşğul olan kəndlərin sayı keçən əsrdəkinə nisbətən iki dəfə artaraq 2200-ü ötmüşdü. İpəkçilik kapitalist əmtəə istehsalının inkişaf etdiyi kənd təsərrüfat sahələrindən birinə çevrilmişdi.

1901-ci ildə ölkəmizdə 182 min pud barama becərilmişdisə, bu, 1914-cü ildə 260 min pudu keçmişdi. Cənubi Qafqazda əldə edilən baramanın 81%-i Azərbaycanın payına düşürdü.

Azərbaycanda becərilən baramanın, demək olar ki, hamısı yerli ipək fabriklərində emal edilirdi. Lakin onun az bir hissəsindən kəndlilər məişətdə işlənilən müxtəlif növ məmulat hazırlayırdılar. İpək fabriklərindəki mövcud texnika aşağı növ baramanı (tompal və s.) emal etməyə imkan vermədiyinə görə, onu İtaliya və Fransanın Milan, Marsel və Lion şəhərlərinə ixrac edirdilər. Ölkəmizin ipək emalı fabriklərində işlənən, kəndlilərin məişət ehtiyacları üçün istifadə olunan və ölkənin sərhədlərindən kənara göndərilən baramanın ümumi dəyəri 6 mln. manatdan yuxarı idi.

XX əsrin əvvəlində Azərbaycanda tütünçülüyün inkişaf etdirilməsi üçün hər cür şərait vardı. Tütünə tələbat artdıqca tütün yarpağı becərilən plantasiyaların sahələri də genişlənirdi. Tütünçülük ən çox Zaqatala dairəsində, eləcə də Nuxa, Cavanşir, Şuşa, Quba və Şamaxı qəzalarında yayılmışdı. Əlbəttə, başqa yerlərdə, xüsusən Lənkəran, Cavad, Göyçay və digər qəzalarda da məhdud miqyasda tütün becərilirdi. Əsrin əvvəllərində sənaye tütünçülüyü geniş vüsət almışdı. Zaqatala dairəsi bu cəhətdən xeyli fərqlənirdi. Burada (əsasən Balakən və Qabaqçöldə) sarı tütün – Trabzon və Samsun növləri yetişdirilir və yüksək məhsul götürülürdü. Bu növ tütün yarpağı, yerli növə nisbətən 1,5 dəfə baha satılırdı. Zaqatala becərilən tütün yarpağının yarıya qədərini verirdi. Azərbaycanda tütünçülük gəlirli sahə olmasına baxmayaraq, tütün becərilən sahələr 2,5 dəfədən çox artmamışdı. Əgər 1900-cü ildə 238 des. sahədə tütün yarpağı becərilirdisə, 1914-cü ildə bu, 587 des-nə qalxmışdı. Cənubi Qafqazda ən böyük tütün plantasiyası (40 desyatin) Zaqatalada yerləşirdi. Tütünə olan yüksək tələbat plantasiyaların ümumi sahələrini genişləndirir və bu da öz növbəsində becərmədə canlanmaya səbəb olurdu. 1900-1914-cü illərdə tütün yarpağı yığımı 24,5 min puddan 46 min puda çatmışdı. Artım o qədər də böyük deyildi. Azərbaycanda yığılan tütün yarpağı, əsasən, yerli fabriklərdə emal edilir, az bir qismi isə İrana ixrac olunurdu. 1902-ci ildən ixraca gedən tütünə yüksək gömrük haqqı qoyulması İrana göndərilən tütün ixracına, demək olar ki, son qoydu.

Azərbaycanda tütünçülüyün, eləcə də tütün məmulatının geniş miqyas almamasına əngəl olan başlıca amil yüksək aksiz vergisi alınması (puda 3-4 manat) idi. Dövlət xəzinəni doldurmaq məqsədilə 1914-cü ildə bu vergini hələ bir qədər də artırdı.

Azərbaycanda üzümçülük qədim tarixə malikdi. Lakin onun sənaye bağçılığına çevrilməsi keçən əsrin sonunda baş vermişdir. Azərbaycanın bütün qəzalarında üzümçülüklə məşğul olurdular. Lakin Gəncə quberniyasında Şuşa və Gəncə, Bakı quberniyasında isə Şamaxı və Göyçay üzüm istehsalında fərqlənirdi. Üzümlüklər, əsasən bu və ya digər şəkildə su çıxarılması mümkün olan sahələrdə salınırdı. Əlbəttə, məhdud miqyasda dəmyə torpaqlarda da üzümlüklərə rast gəlmək mümkün idi. Üzüm istehsalı sahibkarlardan xeyli kapital və aqrotexniki qulluq tələb edirdi.

Əsrin ilk illərində Gəncə quberniyasında üzümlüklərin sahəsi 11,7 min desyatin idisə, 1913-cü ildə bu, 15,3 min desyatinə çatmışdı. Artım 2 min desyatinə qədər olmuşdu. Eyni dövrdə Bakı quberniyasında üzüm sahələri 10,4 min desyatindən 11,3 min desyatinə qalxmışdı. Naxçıvan qəzasında artım iki dəfə olduğu halda, Zaqatala dairəsində üzümlüklərin ümumi sahəsi dəyişməmişdi. 1901-1913-cü illərdə Azərbaycanda üzümlüklərin ümumi sahəsi 23,7 min desyatindən 29 min desyatinə çatmışdı. Cənubi Qafqazdakı üzüm bağlarının üçdə biri Azərbaycanda yerləşirdi. Əldə olunan üzümün 45%-i də Azərbaycanda istehsal olunurdu. 1901-1913-cü illərdə ölkəmizdə üzüm istehsalı 3,2 milyon puddan 6,2 milyon puda qalxmışdı. Əhalinin qida üçün istifadə etdiyi üzümü də nəzərə alsaq, onda sonuncu rəqəm 7-8 mln. pud götürülməlidir.

Üzümlüklərin böyük bir hissəsi mülkədarların, qolçomaqların və ayrı-ayrı şirkətlərin əllərində cəmləşmişdi. Bütün üzüm bağlarının 9%-ə qədəri qolçomaqlara məxsus idi. İri şirkətlər həm üzüm, həm də şərab istehsalında həlledici rol oynayırdılar. Becərilən üzümün müəyyən hissəsi yeyintiyə, qalanı isə ölkəmizdəki çoxsaylı şərab zavodlarına emal üçün satılırdı.

Azərbaycanda maldarlığın inkişafı üçün kifayət qədər şərait vardı. Ona görə də maldarlıq qəzaların hamısında bu və ya digər dərəcədə inkişaf etmişdi. Maldarlığın əsas növləri qoyunçuluq, iri buynuzlu malqara və atçılıq idi. Bunlardan başqa, keçi, dəvə, donuz və qatır da saxlanılırdı. Maldarlıqla məşğul olanlar bir neçə qrupa bölünürdü. Bilavasitə əkinçiliklə və ya kənd təsərrüfatının başqa sahəsi ilə məşğul

olanlar üçün maldarlıq, ancaq istehlak məqsədi daşıyırdı. Belə ailələrdə mal-qaranın sayı minimum həddə idi. Bilavasitə maldarlıqla müntəzəm məşğul olan kəndlilər üçün əmtəə maldarlığı fərqlənirdi.

XX əsrin əvvəlində Azərbaycandakı alman kolonistlərinin, habelə Rusiyadan köçürülmüş kəndlilərin yaşadığı yerlərdə baytarlıq məntəqələrinin, təcrübə stansiyalarının yaradılması, müxtəlif xəstəliklərə qarşı mübarizə tədbirləri maldarlığın inkişafına köməklik etməklə yanaşı, yerli maldarların bilik və təcrübəsinin artmasına köməklik göstərirdi.

Maldarlar mal-qaranı yayda yaylağa aparır, payızda qışlağa qaytarırdılar. Yaylaqlar və qışlaqlar, əsasən dövlətə məxsus olduğundan maldarlar onu ağır şərtlərlə icarəyə götürürdülər.

Maldarlığın daha çox inkişaf edən və faydalı sahəsi qoyunçuluq idi. Qoyunlar qaba yunlu idi. Lakin 50-60 min baş zərif yunlu qoyun yalnız Gəncə qubemiyasında saxlanılırdı.

1903-cü ildə Azərbaycanda 3 mln. baş qoyun və 1,5 mln-dan çox iribuynuzlu mal-qara var idisə, 1913-cü ildə davarların və mal-qaranın sayı 5 mln. başı keçmişdi. Ölkəmizdə müxtəlif illərdə orta hesabla 200 min başadək at olmuşdur. Kəndlilərin böyük bir hissəsinin malqara və atı yox idi. Heyvanların çoxu mülkədarlara, qolçomaqlara və qismən ortabab kəndlilərə məxsus idi. On minlərlə baş mal-qarası olan mülkədar və qolçomaq təsərrüfatları vardı. Təkcə onu demək kifayətdir ki, maldarlıq təsərrüfatlarının 12-13%-ni təşkil edən 5 minə qədər varlı maldarlıq təsərrüfatında bütün xırda buynuzlu heyvanların 60%-i cəmlənmişdi. İri maldarlıq təsərrüfatlarında əmtəə südçülüyü, eləcə də əmtəəlik mal-qara yetişdirilməsi geniş miqyas almışdı. Hər il 10-12 mln. manatlıq süd sağılırdı. Qoyunun pendiri, əti, yunu və dərisi xeyli gəlir gətirirdi. Hər il ölkəmizdə əldə edilən 0,5 mln. pud yunun 300–350 min pudu ixrac edilirdi. Ölkə daxilində yundan hər cür istifadə olunurdu. Azərbaycan xalçaları dünya bazarında böyük həvəslə alınırdı və onlar hal-hazırda əcnəbi ölkələrdəki bir çox muzeylərin bəzəyidir.

Hesablamalara görə, hər il Azərbaycanda orta hesabla 300 mindən 750 min başa qədər mal-qara satılırdı. İqtisadi yüksəliş dövründə Azərbaycanın tələbatını ödədikdən sonra Rusiyanın mərkəzi-sənaye rayonundakı gön-dəri sənayesinin ehtiyacı üçün hər il təxminən 600 min ədəddən çox dəri göndərilmişdi.

Kənd təsərrüfatında iribuynuzlu qaramalın, xüsusən kəllərin, öküzlərin, həmçinin atın və dəvənin faydası çox idi. Torpağın şumlanmasın-

da, təsərrüfat işlərinin görülməsində, yüklərin mənzil başına çatdırılmasında, eləcə də minik və nəqliyyat sahəsində atın və dəvənin rolu misilsiz idi. Ölkəmizin məşhur cins atlarına dünya bazarında böyük maraq vardı.

XX əsrin əvvəlində bağçılıq və meyvəçilik kənd təsərrüfatının faydalı sahəsi kimi əhəmiyyətini saxlamışdı. Rusiyanın daxili quberniyalarında və dünya bazarlarında meyvəyə, xüsusilə quru meyvəyə böyük tələbat vardı. Qubanın, Şamaxının, Göyçayın, Ordubadın iqtisadiyyatında meyvəçilik mühüm yer tuturdu. Gəncə quberniyasında Qazax, Gəncə, Cavanşir, Şuşa qəzalarında meyvəçilik yaxşı inkişaf etmişdi.

Azərbaycanın ən iri meyvəçilik rayonu Quba və Göyçay qəzaları idi. Məhz bu qəzalardan ən çox quru meyvə ixrac olunurdu. Naxçıvan qəzası da onlardan geri qalmırdı. 1912-ci ildə Bakı quberniyası və Naxçıvan qəzasından 1,1 mln. puddan çox meyvə qurusu ixrac edilmişdi. Gəncə quberniyasından göndərilən meyvə də nəzərə alınsa, onda bu rəqəm xeyli artmış olar. Zaqatala dairəsindən hər il 350 min puddan çox qoz-fındıq və başqa meyvələr satışa gedirdi.

Meyvə qurusu ixracında Quba, Naxçıvan və Ordubad daha çox fərqlənirdi.

Azərbaycanın kənd təsərrüfatında kapitalizmin inkişafı muzdlu əməyin tətbiqini genişləndirmişdi. Təsərrüfatların müəyyən hissəsi kapitalist əsaslarla qurulmuşdu. Birinci Dünya müharibəsi ərəfəsində Azərbaycanın kənd təsərrüfatında 106 min nəfər daimi kənd təsərrüfatı fəhləsi və 250 min nəfərədək mövsümi və günəmuzd işçi əməyindən istifadə edilirdi. Bu fəhlələr, başlıca olaraq 30 min qolçomaq və 4-5 min mülkədar-bəy təsərrüfatında, eləcə də kənd təsərrüfatında fəaliyyət göstərən, onunla bu və ya digər şəkildə bağlı olan şirkətlərin, həmçinin səhmdar cəmiyyətlərinin plantasiyalarında işləyirdilər. Kənd təsərrüfatında hər il Cənubi Azərbaycandan gəlmiş on minlərlə kəsbkarın da əməyindən istifadə edilirdi.

**Çarizmin köçürmə siyasəti**

Azərbaycanda kəndlilərin pay torpağının azlığına baxmayaraq, çarizmin müstəmləkəçilik və ruslaşdırma siyasəti nəticəsində Rusiyadan buraya köçürülənlərin sayı get-gedə artırdı. Onlar yerli kəndli torpaqlarının hesabına torpaqla təmin edilirdilər. Hesablamalara görə, əsrin birinci beş ilində təkcə Bakı quberniyası ərazisində köçürülənlər üçün 44 min desyatin yararlı torpaq sahəsi ayrılmışdı. Quberniyada bəzən bütöv bir kəndin torpaqlarını gəlmə rus kəndlilərinə verirdilər. Rəsmi çar məmurlarından biri etiraf edirdi ki,

indi Alar kəndinin camaatı öz yerlərindən «köçürülüb torpaqla təmin edilmədən başlı-başına buraxılmışdır». Muğanda və Mildə yalnız 4 kəndin 2 mindən çox kəndli ailəsi öz ata-baba yurdlarından qovulmuşdu. 1909-cu ildə Quba qəzasında ən münbit torpaqların bir hissəsi buraya Kiyev quberniyasından köçürülmüş 2 min kəndliyə verilmişdi.

Çarizmin köçürmə siyasəti Azərbaycanda zorla həyata keçirilirdi. Əslində bu, çarizmin hələ keçən əsrdən başladığı müstəmləkəçi və ruslaşdırma siyasətinin davamı idi. Təkcə 1908-1910-cu illərdə Azərbaycana üç mindən artıq kəndli ailəsi köçürülmüşdü. Bəzi rəsmi sənədlərdə qeyd edildiyi kimi, köçürmə fondu yerli əhalinin torpaq hüququnu biabırcasına pozmaq yolu ilə yaradılırdı. Nəticədə köçürülənlərlə yerli əhali arasında açıq düşmənçilik münasibəti yaranırdı. Yerli əhalinin haqlı hüquqları pozulurdu. Xalqın etiraz səsi silah gücünə susdurulurdu. Köçürmə siyasəti üzündən aztorpaqlı və torpaqsız kəndlilərin sayı ildən-ilə artırdı.

Yalnız Bakı Quberniyasında torpağı olmayan ailələrin sayı 16 mini keçmişdi. Gəncə quberniyası və başqa yerləri də nəzərə alsaq, onda torpaqsız kəndli ailələrinin sayı yuxarıda verilmiş rəqəmdən iki dəfə çox olar.

Əhalinin etirazlarına məhəl qoymayan çar hökuməti müstəmləkəçi köçürmə siyasətini davam etdirirdi. 1911-ci ildə Muğana köçürülən min nəfər rus kəndli ailəsinə beş min desyatin torpaq verilmişdi. 1912-ci ildə Rusiyadan müxtəlif vaxtlarda Muğana köçürülmüş 20 min əhalinin yaşaması üçün 49 kənd salınmışdı. Yerli kəndlilərdən qorunmaq üçün Muğandakı rus kəndlilərinə dövlət rəsmi olaraq silah verirdi. Qafqaz canişini etiraf edərək bildirirdi ki, torpaq münasibətlərindəki qarışıqlığa dözmək olmaz. Xüsusən ona görə ki, bu münasibət yerli əhalidə hakimiyyətə nifrət oyatmaqla yanaşı, inqilabi əhvali-ruhiyyəni gücləndirirdi. Canişinin gətirdiyi dəlillər belə, çarizmi bu siyasətdən çəkindirmirdi.

## § 4. Yeni aqrar qanunlar

Azərbaycanda kəndlilərin vəziyyəti ağır idi. Yenə də torpağın 70%-ə qədəri dövlətin əlində idi ki, orada kəndlilərin 68%-i məşğul idi. 1,5 milyon kəndlinin üçdə bir hissəsi mülkədarların və bəylərin torpaqlarından istifadə edirdi. Çarizmin müstəmləkəçi köçürmə siyasəti kəndlilərin vəziyyətini daha da ağırlaşdırmışdı. Torpaqsızların sayı ildən-ilə artırdı.

1907-ci ildə Şuşa, Cəbrayıl, Gəncə, Cavanşir, Qazax və Naxçıvan qəzalarında torpaqsız kəndlilərin sayı 110 minə çatmışdı. Təkcə Şuşa qəzasında isə var-yoxu əllərindən çıxmış 38 min nəfərə qədər kəndli vardı.

1870-ci il kəndli islahatı Azərbaycanda aqrar məsələni yarımçıq həll etdi. Kəndlilərin şəxsən azad edilməsinə baxmayaraq, onlara veriləcək pay torpağı məsələsini 1912-1913-cü illərin aqrar qanunlarına qədər reallaşdırmaq mümkün olmadı. Yeni aqrar qanunların qəbuluna qədər Bakı quberniyasında sahibkar torpaqlarında olan 115 min kəndlinin yalnız az bir hissəsi öz pay torpağını satın almağa müvəffəq ola bilmişdi.

Lakin 1882-ci ildə Kəndli torpaq bankının təşkilindən sonra kəndlilərin az bir qismi və ayrı-ayrı şirkətlərdə birləşmiş kənd əhalisi müəyyən qədər torpaq sahəsi almağa müvəffəq olmuşdu. 1883-cü ildən 1912-ci il qanunu veriləndək keçən müddətdə Bakı quberniyasındakı iki kəndli şirkəti Kəndli torpaq bankı vasitəsilə 3314 desyatin torpaq satın almışdı. Gəncə quberniyasında isə bir kəndin əhalisi 1472 desyatin, beş kəndli şirkəti 2530 des. və 67 kəndli ailəsi 2134 desyatin pay torpağı satın ala bilmişdilər. Əlbəttə, bu, sahibkar kəndlilərin satın almalı olacaqları pay torpaqlarının ümumi sahəsi ilə müqayisədə çox cüzi idi. Məsələni çətinləşdirən amillərdən biri də Azərbaycanda pay torpaqlarının satınalma qiymətinin Rusiyadakından dəfələrlə baha olması idi. Bakı quberniyası üzrə pay torpaqlarının satınalma qiyməti Rusiyanın daxili quberniyalarındakından 8 dəfəyə yaxın, Gəncə quberniyasında isə 17 dəfə baha idi. Ona görə də kəndlilər pay torpaqlarını ala bilmirdilər. İslahatdan sonra kəndlilər istifadə etdikləri pay torpağı əvəzində islahata qədərki vergiləri verməyə və mükəlləfiyyətləri daşımağa məcbur idilər. Başqa sözlə, «müvəqqəti mükəlləfiyyətli» münasibətlər Rusiyada 1881 və 1886-cı illərdə ləğv edildiyi halda, Azərbaycanda eyni vəziyyət 40 ildən çox davam etmişdi. 1870-ci il kəndli islahatından sonrakı dövrdə mülk sahibləri ilə kəndlilər arasındakı torpaq münasibətini müəyyən etmək üçün nəzərdə tutulan torpaq nizamnamələri çox ləng tərtib edilirdi. Məsələn, 1873-cü ilin sonunadək Bakı quberniyasında 6603 kəndli həyətini əhatə edən 126, 1872-ci ildə Gəncə quberniyasında 5419 kəndli həyətini (14154 nəfəri) və 46222 desyatin torpağı əhatə edən 147 torpaq nizamnaməsi tərtib edilmşdi. XX əsrin əvvəllərində bu iş bir qədər sürətlənmişdi. 1905-ci ildə Bakı quberniyası üzrə satın alınacaq pay torpaqlarının 94%-ni və Gəncə quberniyası

üzrə isə 69%-ni əhatə edən nizamnamələrin tərtibi başa çatdırılmışdı. 1912-ci ilin sonuna yaxın quberniyalar üzrə müvafiq faiz nisbəti 100 və 87 olmuşdu.

XX əsrin əvvəlinə qədər hökumət dövlət kəndində torpaq münasibətlərini nizama salmaq məqsədilə elə bir ciddi tədbir görməmişdi. Hərçənd dövlət kəndlisinin istifadəsindəki torpaq sahəsi sahibkar kəndlisinin istifadə etdiyi torpaqdan üç dəfə çox idi.

Kənddə ictimai təbəqələşmənin dərinləşdiyi şəraitdə torpaq alqı-satqı vasitəsinə çevrilmişdi. Kənd təsərrüfatında kapitalist əmtəə istehsalı artdıqca torpağın qiyməti də sürətlə yüksəlirdi. Ona görə də qolçomaqlar və bəylər kəndlinin istifadəsində olan pay torpaqlarını müxtəlif yollarla ələ keçirirdilər.

Hər iki əsrin ayrıcında – 1900-cü il mayın 1-də hökumət dövlət kəndində torpaq münasibətlərini qaydaya salmaq haqqında qanun verdi. «Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu haqqında» adlı bu qanun dövlət kəndlilərinə icma torpaqlarından nəsli istifadə hüququ verirdi. Bunun üçün isə kənd icması yığıncaqlarının razılığı olmalı idi. Qanunun bu maddəsi icma torpaq mülkiyyətinə çox böyük zərbə vurdu.

1900-cü il may qanununun 14-cü maddəsinə uyğun olaraq, 1903-cü il aprelin 21-də «Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında» əsasnamə verildi. Qanuna görə, pay torpaqlarının planı hazırlanarkən istifadə edilən mövcud sərhədlər əsas götürülməli idi. Əsasnamədə isə hazırlanmış planların torpaq quruluşu komissiyalarında təsdiq edilməsi irəli sürülürdü.

Məsələnin belə çətinləşdirilməsi icma torpaqları sərhədlərinin müəyyənləşdirilməsini xeyli ləngitdi. Torpaqların müəyyənləşdirilməsi başa çatdırılan kəndlərdə vergilər xeyli artırıldı. Çünki lazımsız torpaqlar kəndlilərin istifadə etdikləri torpaq sahələrinə əlavə edilməklə ümumi sahə genişləndirilirdi. Bundan başqa, kəndlilər pay torpaqlarının planlarını almaqdan ötrü xeyli pul verməli olurdular. Ona görə də dövlət kəndlilərinin vəziyyəti yaxşılaşmaq əvəzinə daha da pisləşmişdi. Lakin xəzinə torpaqlarının vaxtaşırı icma üzvləri arasında bölüşdürülməsi qaydası, demək olar ki, ləğv edildiyi bir şəraitdə və qanunların verdiyi imkanlardan istifadə edən varlı kəndlilər torpaqların əsas hissəsini öz əllərində toplamaqla dövlət kəndində ictimai təbəqələşmə prosesini genişləndirirdilər. Əsasnamədəki yenilik kəndlilərə əlavə pay

torpaqları verilməsi, çəmən, otlaq və meşələrdən pay ayrılması qaydalarından ibarət idi. Lakin nə qanun, nə də əsasnamə dövlət kəndlilərinin torpaq quruluşu məsələsini həll edə bilmədi. Kəndlilərin istifadəsində olan pay torpaqları, əsasən dövlətin mülkiyyətində qaldı.

Çarizmin müstəmləkəçilik siyasəti iqtisadi inkişafın qarşısını ala bilməzdi. Mübahisə mövzusuna çevrilmiş «müvəqqəti mükəlləfiyyətli» münasibətlər məsələsini dəfələrlə müzakirə etdilər. Yeni layihələr və təkliflər irəli sürüldü. Orada qeyd edilirdi ki, kəndlilərin maddi imkanları olmadığından problemi həll etməyin yeganə çıxış yolu Kəndli torpaq bankının şöbələrinin açılması ola bilər. Təşkil olunmuş komissiya və komitələrin təqdim etdiyi layihələrdə pay torpaqlarının satın alınması əməliyyatının məcburi şəkildə həyata keçirilməsi və torpaq haqqının nağd pulla ödənilməsi nəzərdə tutulurdu.

1905-ci ilin noyabrında Qafqaz canişini Vorontsov-Daşkov «Qafqazda kəndli işinin nizama salınması haqqında Qeydlər»ini hazırladı. 1905-ci il hadisələri göstərdi ki, kəndlilərdən mükəlləfiyyət tələb etmək, hətta onları torpaq pulu verməyə məcbur etmək qeyri-mümkündür. Ona görə də canişin «Qeydlər»də sahibkar kəndlilərinin torpaq pulu verməkdən azad edilməsini nəzərdə tuturdu.

Torpaq pulu ödəməkdən azad edilmiş kəndlilər 1907-ci ilin yanvarından xüsusi mülkiyyətçilər qrupuna daxil edilməli idilər. «Qeydlər»də Kəndli torpaq bankı şöbələrinin açılması da nəzərdə tutulmuşdu. Canişin öz «Qeydlər»ini 1906-cı ildə Nazirlər Şurasına təqdim etdi, lakin bunlar müsbət qarşılanmadı. Vorontsov-Daşkov hökumətinin tapşırığı ilə təkmilləşdirilmiş layihə 1910-cu ilin mayında canişin idarəsi tərəfindən bəyənildi və Daxili İşlər Nazirliyi yanında idarələrarası müşavirəyə təqdim edildi. Layihədə nəzərdə tutulurdu ki, kəndli nizamnamə əsasında istifadəsində olan pay torpağını icbari şəkildə satın ala bilər. Torpağın satın alınması pulu keçən əsrin 60-cı illərinin kənd təsərrüfatı məhsulları qiymətləri ilə hesablanmalıdır. Yararsız torpaq sahələri pulsuz olaraq kəndlinin mülkiyyətinə keçməlidir. Dövlət pay torpağının dəyərini kəndlinin əvəzinə nağd pul şəklində deyil, 5 %-li bank kağızı ilə ödəməlidir. Kəndli dövlətin ona verdiyi borcu faizi ilə birlikdə 28-56 il müddətində dövlət xəzinəsinə qaytarmalı idi. Bu vaxtacan kəndlinin mülkədarla qarşılıqlı razılıq əsasında istifadə etdiyi çəmən, otlaq, meşə, su mənbəyi satın alınıb onun mülkiyyətinə keçə bilməzdi. İstifadə əvvəlki qaydada olmalı idi. Layihənin müzakirəsi bir neçə il çəkdi. Azərbaycanın mülkədar-bəyləri canişinin layihəsinə eti-

raz etdilər. Gəncə quberniyası mülkədarları adından Fərrux bəy Vəzirovun canişin idarəsinə yazdığı etiraz məktubu cavabsız qaldı. 1910-cu ilin sonunda torpaq sahiblərinin nümayəndələri Cəfərqulu xan və Abbasqulu xan Peterburqa getdilər və təkliflərini idarələrarası müşavirəyə təqdim etdilər. Onlar yenə də torpaq pulunun kənd təsərrüfatı məhsullarının 60-cı illərdəki qiymətlərlə hesablanmasının əleyhinə çıxırdılar. O vaxtki məhsulun qiyməti ucuz olduğundan bu, kəndlinin xeyrinə idi. Lakin mülkədarlar təklif edirdilər ki, hesablama 1910-cu ilin qiymətləri ilə aparılmalıdır. Bu vaxt məhsulun qiyməti baha olduğundan bu, mülkədarlara sərf edirdi. Təklifin qəbul edilməsi kəndlilərin müflisləşməsinə səbəb olardı. Ona görə də dövlət onların təklifini rədd etdi. Mülkədarlara pay torpağı əvəzində 5%-li bank kağızı deyil, nağd pul verilməsi qərara alındı.

Qanun layihəsi 1911-ci ilin martında Nazirlər Şurası tərəfindən təsdiq edildikdən sonra sentyabr ayında Dövlət Dumasına təqdim edildi. III Dumada layihənin müzakirəsində Azərbaycandan olan deputat Xəlil bəy Xasməmmədov da iştirak edirdi.

Dövlət Duması Qanun layihəsini təsdiq etdikdən sonra Dövlət Şurasına göndərdi. 1912-ci il dekabrın 19-da Şuranın 36 üzvünün razılığı ilə, heç bir dəyişiklik edilmədən qanun layihəsi qəbul edildi. Dekabrın 20-də qanun çar tərəfindən imzalandıqdan sonra qüvvəyə mindi. Deməli, 1912-ci il dekabrın 20-də «Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında qanun» verildi. Qanunla birlikdə onun həyata keçirilməsi üçün «Qaydalar» da təsdiq olundu. «Qaydalar»a görə, Azərbaycanda sahibkar kəndliləri 1913-cü il yanvarın 1-dən mükəlləfiyyət daşımaqdan azad olurdu. Elə həmin vaxtdan onların xüsusi mülkiyyəti elan edilmiş pay torpağını məcburi şəkildə satın almalı idilər. Qanunda qeyd edildiyi kimi, kəndli yalnız torpaq nizamnaməsində göstərilmiş torpağı öz mülkiyyətinə keçirə bilərdi. İcarəyə verilən torpaqlar isə mülkədarın mülkiyyətində qalmalı idi. Həmçinin kəndli çəmən, otlaq və meşə sahələrini satın ala bilməzdi. Həmin yerlərdən əvvəldə olduğu kimi torpaq sahibinin razılığı ilə istifadə edə bilərdi. Su arxları mülkədarların xüsusi mülkiyyətində qalırdı. Mülkədarlar torpaq üçün əvəz haqqını dövlət xəzinəsindən alır, dövlət xəzinəsi isə torpaq pulunu müəyyən müddət ərzində kəndlilərdən toplamalı idi.

«Qaydalar»a əsasən, mülkədar pay torpağı üçün hesablanmış ümumi illik məbləğin 4,5%-ni əvvəlcədən almalı idi. Pay torpağının sahəsi

və qiymətini hesablamaq üçün münsiflər heyəti yaradılmışdı. Həmin heyət torpaq pulunun illik məbləğini hesabladıqdan sonra onun qabaqcadan veriləcək faizinin miqdarını elan edirdi.

Qanuna görə cəmi 1163 mülk üzrə Bakı quberniyasında 132 min və Gəncə quberniyasında 271 min des. pay torpağı icbari şəkildə satın alınmalı idi. Kəndlilər malcəhət (məhsulun onda biri həcmində vergi) və bəhrə əvəzində də pul ödəyirdilər. Əkinçilik üçün yararsız olan torpaqlar kəndlilərin mülkiyyətinə pulsuz keçirdi. Pay torpaqlarında salınmış bağ yerləri əvəzində pul ödənilmirdi. Hər iki quberniyada sahibkar mülklərində yaşayan kəndlilər 403 min desyatin torpaq üçün 10,2 mln. manat verməli idilər. Üstəlik dövlət xəzinəsinə həmin pulun 10,5 mln. manata qədər olan faizini ödəyirdilər. Deməli, sahibkar kəndliləri mülkədarlara və dövlətə 20,7 mln. manatdan yuxarı pul verməli idilər. Ayrı-ayrı qəzalarda pay torpağının qiyməti müxtəlif idi. Orta hesabla bir desyatin torpağın qiyməti 15,5 manatdan 44 manata qədər idi.

1912-ci il aqrar qanunu Zaqatala dairəsinin kəndlilərinə şamil edilmədi. Bu, kəndlilərin haqlı narazılığına səbəb oldu. Hökumət bunu nəzərə alaraq 1912-ci il qanununa müvafiq olaraq Dağıstan və Zaqatala dairəsində asılı münasibətlərin ləğv olunması haqqında layihəni 1913-cü il iyulun 7-də qəbul etdi. Qanuna görə, ləğv edilmiş mükəlləfiyyətlər əvəzində bəylərə və kəşgəl sahiblərinə birdəfəlik mükafat olaraq 284 min manat verilirdi. Kəndlilərin əvəzində dövlətin verdiyi bu borc 20 il ərzində xəzinəyə qaytarılmalı idi.

1912–1913-cü illərin aqrar qanunlarının sahibkar kəndlilərini pay torpaqlarının xüsusi mülkiyyətçisinə çevirməsinə, «müvəqqəti mükəlləfiyyətli» münasibətlərdən azad etməsinə baxmayaraq, onları uzun müddətə dövlət xəzinəsinin borclusu etmişdi. Bütün nöqsanlarına baxmayaraq, bu qanunlar Azərbaycan kəndində ictimai təbəqələşməni, eləcə də kapitalist münasibətlərinin inkişafını sürətləndirdi. 1917-ci il kənd təsərrüfatı sayımına görə Azərbaycanın yalnız iki quberniyasında 15837 torpaq sahibinin ixtiyarında 790 min des-ə qədər torpaq sahəsi vardı.

## II FƏSİL

## XX ƏSRİN ƏVVƏLİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

### § 1. Mövcud quruluşa qarşı etiraz çıxışları

Azərbaycan iqtisadiyyatına mənfi təsir edən 1900–1903-cü illərin iqtisadi böhranı əhalinin güzəranını daha da pisləşdirdi. Onlarla müəssisə bağlandı və minlərlə adam işsiz qaldı. Bakıda fəhlələrin xeyli hissəsi küçəyə atıldı, bir hissəsi isə yalnız ayın yarısını işləyə bilirdi. Azərbaycanın sənaye müəssisələrində işsizlərin sayının artmasına baxmayaraq, buraya müəyyən qədər fəhlə axını vardı. Bakını ruslaşdırmaqla əhalinin milli tərkibini dəyişmək məqsədi güdən müstəmləkəçilər bu işə rəvac verirdilər.

Sənaye müəssisələrində iş günü 10–14 saata çatırdı. Fəhlələrin əməkhaqqı 20–25% azalmışdı. Qeyri-qanuni cərimələrin sayı çoxalmışdı. Fəhlələrin iş və mənzil şəraiti dözülməz idi. Rəsmi sənədlərdə qeyd edildiyi kimi darısqal, qaranlıq, rütubətli otaqların hər birində 12–15 fəhlə yaşayırdı. Sabunçu kəndində, hətta qayaların arasındakı mağaralardan mənzil kimi istifadə edilirdi. Qəzalardakı fəhlələrin əməkhaqqı çox az, iş və mənzil şəraiti daha ağır idi. Yüngül və yeyinti sənayesi fəhlələri dözülməz iş şəraitində gündə 10–12 saat işləmələrinə baxmayaraq, cüzi əməkhaqqı alırdılar. Sənayenin bütün sahələrində, xüsusən ipək emalı müəssisələrində uşaq və yeniyetmə əməyindən geniş miqyasda istifadə edilirdi. Uzun iş günü və ağır üzücü əmək uşaqların hələ möhkəmlənməmiş orqanizmini zədələyirdi.

Fəhlələrə göstərilən tibbi yardımın vəziyyəti qaneedici deyildi. İpək sənayesi fəhlələrinin böyük bir hissəsi kəndlərdəki fabriklərdə işlədiyinə görə, tibbi yardımdan məhrum idi. Balıq sənayesində vəziyyət daha dözülməz idi. Burada tibbi-sanitariya son dərəcə ağır vəziyyətdə olduğundan balıq vətəgələrində vaxtaşırı epidemiya başlayırdı. Xəstəliyə tutulmuş fəhlələrlə çox zaman maraqlanan belə olmurdu. Bəzən xəstə fəhlələri «düzün ortasında Allah ümidinə qoyub çıxıb gedirdilər». Bütün bunlar sənayeçilərə qarşı narazılıq yaradırdı.

Başqa müəssisələrdə də iş şəraiti pis idi. Adi sanitariya və təhlükəsizlik qaydalarına əməl olunmurdu. Texniki nəzarət və əməyin mühafizəsi üçün çox az tədbir görüldüyünə görə, ölüm və şikəstliklə nəticələnən hadisələr tez-tez baş verirdi. Neft mədənlərində hər bir təzə quyunun qazılması ondan çox adamın ölümü və ömürlük şikəst olması hesabına başa gəlirdi. İş zamanı əmək qabiliyyətini itirən fəhlənin taleyi ilə az maraqlanırdılar.

Belə bir şərait fəhlələrin siyasi cəhətdən oyanmasına və inqilabi hərəkatın başlanmasına zəmin yaradırdı.

Azərbaycanın, xüsusən Bakının sənaye müəssisələrində Rusiyadan gəlmiş on minlərlə fəhlə çalışırdı. Onların çoxu tətil hərəkatı təcrübəsinə malik idi. Onların içərisində peşəkar inqilabçılar da vardı. Bakıda tətil hərəkatının təşkilatçıları və iştirakçılarının böyük bir hissəsini beləleri təşkil edirdi. Tətillərdə müsəlman fəhlələri zəif iştirak edirdilər. Milli istiqlalımızın öndəri M.Ə.Rəsulzadənin obyektiv olaraq qeyd etdiyi kimi, bolşeviklərin ideologiyası onların əxlaqına və təbiətinə yad idi. Lakin onlar ətrafda baş verən siyasi hadisələrdən kənarda qala bilməzdilər. Tədricən tətil və nümayişlərdə azərbaycanlı fəhlələrin sayı çoxalırdı.

1901-ci ilin əvvəlində Bakıda 15-ə qədər sosial-demokrat dərnəyi fəaliyyət göstərirdi. Həmin dərnəklərin əsasında RSDFP-nin Bakı təşkilatı yaradılmışdı. Onun rəhbər heyətində bir nəfər də olsa müsəlman yox idi.

Bakı sosial-demokratları 1901-ci ildə «İskra» qəzetinin redaksiya heyəti ilə əlaqə yaratmışdılar. Bakıda gizli mətbəə də təşkil edilmişdi. «İskra»nın matrisaları 1901-ci ilin sentyabrından gizli yollarla Bakıya gətirilirdi. Onun hər nömrəsi burada çoxaldılıb ölkəyə yayılırdı. Mətbəədə, həmçinin tanınmış sosial-demokratların bəzi əsərləri, inqilabi sənədlər çap edilirdi. Bu mətbəə müəyyən fasilələrlə 1906-cı ilin əvvəllərinə qədər Bakıda fəaliyyət göstərdikdən sonra Peterburqa köçürüldü. Sosial-demokratlarla yanaşı, Bakıda başqa siyasi cərəyanların nümayəndələri də fəaliyyət göstərirdilər.

İqtisadi böhran illərində Azərbaycanda tətil hərəkatı genişlənirdi. 1901-ci ilin yanvarında Bakıda tütün fabrikinin fəhlələri tətilə başladılar. Mart ayında Sabunçuda «Remont» mexaniki emalatxanasının fəhlələri tətilə qoşuldular. Həmrəylik günü sayılan 1 May bayramı daha mütəşəkkil keçdi. Orada 200 nəfər iştirak etdi. İyun ayında Sabunçuda mexaniki emalatxana fəhlələri və sentyabrda Balaxanı şosesindəki mexaniki zavodun fəhlələri tətil etdilər. Gəncə dəmiryolçuları arasında da həyəcanlar baş verdi. İlin sonunda Tovuz dəmiryolu stansiyasında işlə-

yən 150 fəhlə əməkhaqqının verilməməsinə etirazlarını bildirdilər və podratçının vəkilini döydülər. Müdiriyyət fəhlələrin tələbini müzakirə etməyə məcbur oldu.

Bakıdakı ilk tətillər tələblərə və mübarizə formasına görə əvvəlki illərdəki tətillərə oxşasa da, şüurluluq səviyyəsinə və qətiyyətinə görə xeyli fərqlənirdi. Polis hərəkatın qarşısını əvvəlki üsullarla ala bilmirdi. Tez-tez şəhərin ətrafında fəhlələrin yığıncaqları keçirilir, qarşıda duran vəzifələr müzakirə edilir, sahibkarlara təqdim ediləcək tələblər hazırlanırdı.

1902-ci ilin aprelində Bakının mərkəzində fəhlə rayonlarından gəlmiş minlərlə fəhlə ilk dəfə açıq nümayişə çıxdı. Onlar «Rədd olsun mütləqiyyət!» və «Yaşasın azadlıq!» şüarları söyləyirdilər. Şəhərin mərkəzindəki izdihamla bir vaxtda Balaxanıda və Sabunçuda da nümayişlər keçirilirdi. Hökumət çətinliklə də olsa nümayişi dağıtmağa və onun fəallarını həbs etməyə müvəffəq oldu.

Həmin il iyunun əvvəlində «Nobel qardaşları» şirkətinin Balaxanıda və Sabunçudakı dülgərlik emalatxanasının azərbaycanlı fəhlələri iki gün tətil etdilər. Şəhərdə fanarçıların bir neçə gün davam edən tətili onların tələblərinin yerinə yetirilməsi ilə başa çatdı. Beləliklə, bütün bu tətillər Azərbaycan fəhlələrinin gələcək ümumi çıxışlarının hazırlanmasında mühüm mərhələ oldu.

Azərbaycanda fəhlə hərəkatı 1903-cü ildə geniş miqyas aldı. Martın 2-də Bakı fəhlələri mütləqiyyətə qarşı açıq küçə nümayişi keçirdi. Üç saata qədər davam edən nümayiş zamanı polis və kazaklarla qanlı toqquşma baş verdi. Nümayiş hökuməti qorxuya saldı. Kütləvi həbslər başlandı. Nümayişin fəal iştirakçılarından 60 nəfəri həbs edildi. Aprelin 27-də Bakı fəhlələri dünya zəhmətkeşləri ilə həmrəylik əlaməti olaraq 1 May nümayişinə çıxdılar. Həmin gün şəhərin müxtəlif rayonlarında 10 mindən artıq fəhlə nümayişə başladı. Onların arasında qadınlar da az deyildi. Polislə toqquşmada 12 nəfər ağır yaralandı. Hökumət dairələri nümayişi silah gücünə dağıtdı və qabaqcıl fəhlələr tutulub həbsxanaya salındılar.

İyunun 18-də Bibiheybətdəki mexaniki emalatxana fəhlələri əməkhaqqının artırılması haqqında tələblər irəli sürərək tətilə başladılar. Vəziyyətin gərginləşdiyini hiss edən müdiriyyət iyulun 1-dən maaşları artıracağını vəd etdiyinə görə tətil dayandırıldı. Lakin sahibkar verdiyi sözə əməl etmədi. Ona görə də elə həmin gün tətil yenidən davam etdirildi. Bu tətil iyulun 4-də şəhərin, demək olar ki, bütün rayonlarının fəhlələrini də ayağa qaldırdı və ümumi şəkil aldı. Dəmiryolunda hərə-

kət kəsilmiş və elektrik stansiyası işləmirdi. Şəhərin sənaye həyatı, demək olar ki, dayanmışdı. İqtisadi tələblərlə başlanan tətil tədricən mütəşəkkil tətillərlə əvəz olunurdu. Tələblərin hazırlanması üçün qabaqcıl fəhlələrdən ibarət tətil komitəsi yaradılmışdı. Tətil komitəsinə müsəlman fəhlələrin nümayəndələri də daxil edilmişdilər. Tətil komitəsi böyük nüfuza malik olduğundan neft maqnatları onu «fəhlə hökuməti» adlandırırdılar. Tətil komitəsinin hazırladığı tələbnaməyə 8 saatlıq iş günü, əvvəlki nümayişlərdə iştiraka görə həbs edilən fəhlələrin azad edilməsi, işdən qovulanların geri qaytarılması, əməkhaqqının artırılması, nəzakətli rəftar və s. tələblər daxil edilmişdi. İyulun 8-nə qədər gəmi təmiri emalatxanaları fəhlələrinin, mədənçilərin, qulluqçuların, Gəncə, Yevlax, Ağstafa, Hacıqabul, Biləcəri dəmiryolçularının tətilə qoşulmaları ilə tətilçilərin sayı 45–50 min nəfərə çatdı. Müsəlman fəhlələr tətildə qətiyyətlə iştirak edirdilər. Bakıdakı hadisələrdən vahiməyə düşən hökumət Bakıya əlavə hərbi hissələr göndərilməsini təşkil etmişdi. İyulun 8-də bu hissələr şəhərə gəldi. Hədələyici ultimatumla tətilçilərə təsir göstərmək mümkün olmadı. İyulun 14-də Cənubi Qafqazda bakılılarla həmrəy olduqlarını bildirən on minlərlə fəhlə tətilə başladı. İyulun 15-də isə mədənlərdə qəsdən yanğın törədildi. Yüzlərlə buruq sıradan çıxdı. Sahibkarlar və rəsmi dairələr bunun təqsirini fəhlələrin üzərinə atmaq istədilər. Qoşunlara başçılıq edən generalların əmri ilə tətilçilərə divan tutuldu. Bakı fəhlələrinin 22 gün davam etmiş ilk ümumi tətili iyulun 22-də qəddarcasına yatırıldı. Sahibkarlar tətillərdə iştirak edən 42 iri şirkətin fəhlələrindən az bir hissəsinə güzəştə getdi. Onların tələblərinin çoxu ödənilmədi. Lakin buna baxmayaraq, fəhlələr mənəvi cəhətdən qələbə çaldılar və onların mütəşəkkilliyi artdı. Tətil hökumətə və sahibkarlara fəhlələrin böyük qüvvə olduğunu anlatdı. Yüksək rütbəli çar məmurunun «Bakı, elektrik zənginin düyməsinə bənzər bir şeydir... Həmin düyməni basan kimi bütün Rusiyanı həyəcan bürüyür» sözləri bu fikri təsdiq edir, həqiqətən də, Bakıdakı ümumi tətilin yatırılmasına baxmayaraq, bu tətil bütün ölkədə əks-səda doğurdu, Cənubi Qafqaz və Rusiyanın cənubunda inqilabi yanğının başlanmasına səbəb oldu. Bakı fəhlələrinin iyulda keçirilən ümumi tətili Avropada da yüksək qiymətləndirildi. Alman sosial-demokratlarının liderlərindən biri 1903-cü ildə dünyada fəhlə hərəkatının iki mühüm qələbəsindən danışarkən Bakı fəhlələrinin ümumi tətilinin adını birinci sırada çəkmişdi.

Kütləvi tətillərin baş verdiyi dövrdə qəzalarda kəndlilərin çıxışları başlandı. Bu çıxışlar Bakı, Lənkəran, Şuşa, Gəncə, Nuxa və Şamaxı

qəzalarının kəndlərində, habelə Muğanda rus kəndlilərinin məskunlaşdığı ərazilərdə özünü qabarıq şəkildə büruzə verirdi. 1900–1904-cü illərdə Azərbaycanda 100-dən artıq kəndi əhatə edən 120-dən çox kəndli çıxışı olmuşdu. 1903-cü ilin iyulunda Lənkəran qəzasının Cəngəmiran kənd əhalisinin torpaq sahiblərinin özbaşınalığına qarşı çıxışı bəylərin silahlı dəstələri və kazaklarla toqquşmaya səbəb oldu. Lerik kəndində də kəndlilər müqavimət göstərməyə hazırlaşmışdılar. Gəncə quberniyasında kəndli çıxışları Gəncə, Qazax, Cavanşir, Şuşa, Nuxa qəzalarında və Zaqatala dairəsində baş verirdi. 1900–1904-cü illərdə 4-dən çox kəndi əhatə edən Göynük kənd cəmiyyətinin üzvləri onların istəmədikləri adamın kətxuda seçilməsinə qarşı çıxmış və öz nümayəndəsini kətxuda seçməyə nail olmuşdular. Bundan istifadə edən yerli hökumət idarələri kəndliləri sıxışdırmağa başlamışdılar. 1900–1902-ci illərdə polis dəstələri və kəndlilər arasında baş vermiş 12 toqquşmanın hamısı kəndlilərin xeyirinə qurtarmışdı. Göynüklülərin çıxışlarının ətraf ərazilərə də sirayət edəcəyindən qorxan qubernator və Nuxa qəza rəisi yüz nəfərdən çox əsgəri polis dəstələrinin köməyinə göndərdikdən sonra yalnız 1904-cü ildə Göynük kəndlilərinin hərəkatı yatırıldı və hərəkatın 5 nəfər ən fəal üzvü həbs edildi. 1903-cü ildə Gəncə qəzasının Qarabulaq kəndində Burcalar qaçaqları rəsmi idarələrin qeyri-qanuni tədbirlərinə qarşı çıxdılar. Qarabulaqlıları soyub-talayan kətxudaya və hökumətin digər nümayəndələrinə qarşı etiraz edərək əhalinin daha mübariz hissəsi Burcalar dərəsinə köçdü və orada təsərrüfatla məşğul olmağa başladı. Onlar hər cür vergi verməkdən və mükəlləfiyyət daşımaqdan imtina etdilər və kətxudaya buraya gəlməməyi məsləhət gördülər. Onlar Aslan Həsən oğlunun başçılığı ilə qaçaq dəstəsi yaratdılar. Qaçaqları həbs etməyə gəlmiş pristavın dəstəsi ilə toqquşma baş verdi.

Pristava köməyə göndərilmiş 300 nəfər kazak da burcalarlıların müqavimətini qıra bilmədi. Qaçaqların hökumətin silahlı dəstələrinə qarşı mübarizəsi uzun müddət davam etdi.

Cəbrayıl-Qaryagin və Şuşa qəzalarında qaçaq Süleyman Ağahüseynoğlunun böyük bir dəstəsi mövcud quruluşa qarşı mübarizə aparırdı. Süleyman kəndlilərə hər cür kömək və müdafiə etdiyinə görə əhali arasında böyük hörmət qazanmışdı. Onun qaçaq dəstəsi 15 ildən çox mübarizəni davam etdirmişdi. Lakin bütün bunlara baxmayaraq, kəndli çıxışları yenə də mütəşəkkil deyildi.

1904-cü ilin yanvarında başlayan rus-yapon müharibəsində çar ordusunun dalbadal biabırcasına məğlubiyyəti ölkədə siyasi vəziyyəti

yenidən gərginləşdirdi. İmperiyanın bütün ərazisində olduğu kimi, onun müstəmləkəsi Azərbaycanda da ümumi iqtisadi və siyasi vəziyyət mürəkkəb idi. Belə bir şəraitdə 1904-cü ilin qışında Xəzər dənizində naviqasiyanın kəsilməsi tətil keçirmək üçün əlverişli deyildi. Buna baxmayaraq, fəhlələrin təkidi ilə Bakı fəhlələrinin dekabr tətili başlandı və imperiyada böyük əks-səda doğurdu. Əvvəlcədən nəzərdə tutulduğu kimi, 1904-cü il dekabrın 13-də Balaxanı mədənlərində başlanan tətil tezliklə digər müəssisələri də əhatə etdi. Az müddətdə Balaxanı, Sabunçu rayonunun bütün fəhlələri, Bibiheybət neftçiləri, Qara şəhər və Ağ şəhər müəssisələri də tətilə başladı. Həmin gün tətilçilərin sayı 30 min nəfəri keçdi və ümumbakı tətili xarakteri aldı. Səhəri gün tələblər hazırlayıb sahibkarlara vermək üçün tətil komitəsi təşkil edildi. Komitənin işində M.Məmmədyarov, S.M.Əfəndiyev, S.Yaqubov, Ə.Axundov, A.Rəsulzadə və başqaları fəal iştirak edirdilər. Hazırlanmış tələbnaməyə 34 bənd daxil edilmişdi. Tələblərin çoxu iqtisadi xarakterdə olsa da, siyasi tələblər də az deyildi: 8 saatlıq iş günü, 1 May günü işin dayandırılması, söz, mətbuat, yığıncaq azadlığı, ittifaqlar təşkil etmək, məktəblər və klublar açmaq, həftədə bir gün istirahət vermək, əməkhaqqını saxlamaqla ildə bir dəfə məzuniyyət vermək, gecə növbəsini ləğv etmək, mübahisəli məsələləri həll etmək üçün sənayeçilərin və fəhlələrin nümayəndələrindən ibarət mədən məhkəmələri təşkil etmək və başqa tələbləri göstərmək olar. Dekabrın ikinci yarısında Bakıda tətil etməyən bir müəssisə belə qalmamışdı və tətilçilərin sayı 50 min nəfəri keçmişdi. Belə bir vəziyyətdə neft maqnatları 15 nəfərdən ibarət komissiya yaratdılar. Dekabrın 19-dan 21-dək neft sənayeçiləri bu komissiyada tələblərin müzakirəsini keçirdilər. Komissiya fəhlələrin bəzi iqtisadi tələbləri ilə razılaşıb, siyasi tələbləri rədd etdi. Komissiya, həm də xüsusi olaraq qeyd edirdi ki, qəbul edilmiş tələblər yalnız neft sənayesi fəhlələrinə şamil ediləcəkdir. Belə olan halda mexaniki istehsal və bir çox başqa sahələrdə çalışan fəhlələr kənarda qalırdı. Ona görə də elan edilmiş hərbi vəziyyətə, polis və kazak hücumlarına məhəl qoymayan Bakı fəhlələri yeni qüvvə və əzmlə tətili davam etdirdilər. Dekabrın 23-də Balaxanıda polislə toqquşmada 15 nəfərə qədər adam öldürüldü. Hökumət xəfiyyəsi fitnə mexanizmini işə salaraq ayın 25-dən 30-dək mədənlərdə yanğın törədib təqsiri fəhlələrin üzərinə atdı. Yanğın nəticəsində 225 buruq məhv oldu. Tətili yatıra bilməyəcəklərini yəqin edən sahibkarlar güzəştə getməyə, fəhlələrin nümayəndələri ilə danışıq aparmağa məcbur oldular. De-

kabrın 30-da neft sənayeçiləri ilə fəhlələr arasında müştərək müqavilə imzalandı. Fəhlələr bu müqaviləni «mazut konstitusiyası» adlandırdılar. Tətil dekabrın 31-də fəhlələrin qələbəsi ilə başa çatdı. Məğlub olmuş sahibkarlar 9 saatlıq iş günü, ayda 4 dəfə istirahət günü və ildə bir dəfə məzuniyyət verilməsi, əməkhaqqının artırılması, xəstəlik üzündən işləyə bilməyən fəhlələrə əməkhaqqı verilməsi və s. məsələlərdə güzəştə getdilər. Fəhlələrin orta əməkhaqqı 20–25% artırıldı. Lakin sahibkarlar bu güzəşti, ancaq bilavasitə neft sənayesində çalışan fəhlələrə aid etdilər. Halbuki, yuxarıda deyildiyi kimi, tətillərdə Bakıda və onun rayonlarındakı bütün sənaye müəssisələrinin fəhlələri iştirak etmişdi. «Mazut konstitusiyası»nın verdiyi imtiyazdan məhrum edilmiş həmin qəbildən olan minlərlə fəhlə, başlıca olaraq mexaniki istehsalda çalışanlar, özlərinin 17 maddədən ibarət tələblərini hazırladılar. Onların tətili 1905-ci ilin yanvarında da davam etdirildi və məqsədlərinə nail oldular. Müştərək müqavilə fəhlələrin həm neft sahibkarları, həm də çarizm üzərində qazandıqları çox böyük qələbə idi.

Çətinliklə əldə edilən qələbə fəhlələrin güzəranını bir qədər yaxşılaşdırdı. «Mazut konstitusiyası» qəbul edildikdən sonra Bakıda zavod komissiyaları meydana çıxdı. Qazanılmış uğurlardan biri də tətilçilər və onların liderləri sırasında azərbaycanlıların sayca çoxalması idi.

Dekabr tətili ölkədə mütləqiyyətə qarşı çıxan bütün qüvvələr üçün mübarizə məktəbi oldu. Bakıda və qəzalardakı kütləvi tətillər, nümayişlər, kəndli çıxışları, milli hərəkat imperiyanın milli ucqarı olan Azərbaycanı da təlatümə gətirmişdi. Bakı fəhlələrinin dekabr tətili, həm də birinci rus inqilabının müjdəçisi oldu.

### § 2. Azərbaycan birinci rus inqilabı dövründə

1905-ci il yanvarın 9-da «Qanlı bazar» hadisəsi ilə Rusiyada çoxdan yetişməkdə olan XX əsrin birinci xalq inqilabı – 1905–1907-ci illər burjua-demokratik inqilabı başladı. Qanlı bazar günü haqqında xəbər həmin gün Bakıya da çatdı. Peterburq fəhlələri ilə həmrəyliyə çağıran vərəqələr hazırlanıb H.Z.Tağıyev teatrında keçirilən mitinq iştirakçıları arasında paylandı. Təkcə yanvar ayında Bakıda və Bakı quberniyasının ərazisində 25 müəssisənin fəhləsi tətil etdi. Tətil qəzalardakı sənaye müəssisələrinin fəhlələrini də əhatə etdi. Gədəbəy mis mədənlərinin, Ləki yağ zavodunun, Nuxa və Şuşa ipək emalı fabriklərinin fəhlələri tətilə qoşuldular. Yanvarın 25-də Gəncə dəmiryol stansi-

yasının 200-dən çox fəhləsi tətilə başladı. Şəhərdəki gimnaziya tələbələri də tətilçilərə qoşuldular. Tətil polis və əsgərlərin köməyi ilə yatırıldı. Tətil hərəkatının getdikcə genişlənməsi hökumət dairələrini bərk narahat edirdi. Hərəkatın qarşısını almaq, əhalini başqa istiqamətə yönəltmək məqsədilə çarizm dəfələrlə sınaqdan çıxarılmış üsuldan–millətlərarası qırğından istifadə etdi. Bakı qubernatoru təlimatlandırılmaq üçün paytaxta çağırıldı. Bakıya qayıtdıqdan sonra qubernator imperiyanın başçıları adından danışaraq özünü həm ermənilərin, həm də türklərin himayədarı kimi qələmə verərək, onları milli qırğına sövq etdi. Bakıda fevralın 6-dan 9-dək davam edən qırğında ermənilərin əli ilə minlərlə azərbaycanlı qarət olundu və qətlə yetirildi. Qırğın başqa yerlərdə də törədildi.

Polisin təzyiqini gücləndirmək üçün Qafqazın idarə sistemində dəyişiklik edildi. Fevralın 26-da əvvəllər ləğv edilmiş canişinlik bərpa olundu. Vorontsov-Daşkov canişin təyin edildi. Bakıda hərbi qubernator vəzifəsi təsis olundu. Bakı şəhəri və Bakı quberniyası ərazisində hərbi vəziyyət elan edildi.

Hökumətin gördüyü tədbirlərin köməyi az oldu. 1905-ci ilin yazında Azərbaycanda tətil hərəkatı daha da genişləndi. Martın 19-da Gəncədə dəmiryolçuların tətili başlandı. Səhərisi gün gimnaziya tələbələri də onlara qoşuldu. Tətil tezliklə Bakı, Hacıqabul, Kürdəmir, Yevlax, Ağstafa və Cənubi Qafqazda əsas dəmiryol stansiyalarının əksəriyyətini bürüdü. Aprelin 1-də Bakı deposunda başlanan tətil 12 gün davam etdi. Bakının hərbi qubernatoru 400 fəhləni həbs etdirdi. Tətil qoşunun gücü ilə yatırıldı. Mədən və zavod fəhlələri də dəmiryolçularla həmrəylik əlaməti olaraq çıxışlara başladılar. Həmin il Bakıda, Gəncədə, Nuxada, Yevlaxda 1 May nümayişləri mütəşəkkil keçdi. Mayın 10-da başlamış yeni tətil az sonra yüzə qədər şirkətin müəssisələrini əhatə etdi və ümumi tətilə çevrildi. Fəhlələr sahibkarlara 26 siyasi və iqtisadi tələbdən ibarət tələbnamə təqdim etdilər. Lakin tələblərin çox az bir hissəsi yerinə yetirildikdən sonra ayın 19-da tətil dayandırıldı. 1905-ci ilin iyun-iyul aylarında Bakıda və qəzalardakı sənaye müəssisələrinin 75%-ni tətil dalğası bürümüşdü. İyunda Nuxa ipək emalı fəhlələri, iyulda Gədəbəy metallurgiya zavodu və Şuşa ipək fabriklərində çalışanlar da tətilə başladılar. Şuşa şəhəri və qəzanın bir sıra kəndində ipəkçi fəhlələr sənayeçilərə 17 maddədən ibarət tələbnamə verdilər. Lakin bu tələblərin az bir hissəsi yerinə yetirildi və fəhlələr işə başladılar. İyulun 10-dan 30-dək Şimali Qafqazdan Biləcəriyədək olan ərazilərdə dəmiryolçuların tətili oldu. İnqilabi hərəkatın yüksəlişi zəmi-

nində avqust ayında Bakıda ümumi tətil keçirmək qərara alındı. M.Məmmədyarov, B.Ağayev, S.Yaqubov və başqalarından ibarət tətil komitəsi yaradıldı. Əvvəlcədən nəzərdə tutulduğu kimi, avqustun 16-da səhər tezdən zavodların fit səsi ilə tətil başlandı. Hökumət ənənəvi fitnəsini işə saldı. Avqustun 16–21-də Şuşada, 20–26-da Bakıda yenidən qırğın təşkil etdi. Ayın 20-də mədənlərdə yanğınlar və partlayışlar törədildi. Nəticədə Abşerondakı 3133 buruqdan 1795-i məhv edildi. 68 neftayıran zavoddan 24-ü dayanmışdı. Avqustun 22-də Bakıda mühasirə vəziyyəti elan edildi. Tətilçilərə qarşı qoşun yeridildi. Sabunçu xəstəxanasını səngərə çevirmiş fəhlələr mühasirəyə alındı. Kütləvi həbslər başlandı. Minlərlə adam Bakıdan sürgün edildi.

Oktyabrın 7-də Moskva-Kazan dəmiryolunda başlanan və ümumimperiya tətilinə çevrilib 2 milyon nəfərdən çox adamı əhatə edən bu tətilin təsiri ilə oktyabrın 16-da Ağstafa stansiyasında və bütün Cənubi Qafqaz dəmiryollarında fəhlələr işi dayandırdılar. Azərbaycanın Ağstafadan Bakıya və Xaçmaza qədər iri stansiyalarında tətil komitələri və döyüş drujinaları yaradıldı. Tətil ayın 24-dək davam etdirildi. Dəmiryolçulardan başqa Bakının, Gəncənin, Gədəbəyin, Nuxanın, Şuşanın sənaye müəssisələri və Kür boyundakı balıq vətəgələri fəhlələri də tətilə qoşuldular. Geri çəkilməyə məcbur olan Çar hökuməti oktyabrın 17-də manifest verərək söz, mətbuat, yığıncaq, ittifaq azadlığı tətbiq etməyi və qanunverici dumaya seçkilər keçiriləcəyini vəd etdi. Çarın manifestindən sonra «Hümmət» təşkilatının çağırışı ilə oktyabrın 19-da on minlərlə adamın iştirak etdiyi siyasi nümayiş keçirildi və nümayişçilər siyasi məhbusların azad edilməsini tələb etdilər. Bayılda polis və kazaklar nümayişçiləri atəşə tutdular, bu zaman 17 nəfər öldürüldü və yaralandı. Bununla belə, hökumət öz məqsədinə nail ola bilmədi. Məhbusların bir hissəsini azad etməyə məcbur oldular. Gəncə nümayişçiləri də məhbus yoldaşlarının bir çoxunu azad edə bildilər. Azərbaycanda nümayişlər «Rədd olsun mütləqiyyət!», «Yaşasın azadlıq!» və başqa şüarlarla ayın axırına qədər davam etdirildi. Çar manifestindən sonra imperiyanın mərkəzində və milli ucqarlarda bir sıra siyasi partiyalar yarandı.

Oktyabrın axırlarından başlayaraq mədənlərdə, fabriklərdə və zavodlarda fəhlə komissiyaları təşkil olundu. Bunlar fəhlə deputatları sovetinin yaranması üçün ilk addımlar idi.

Bakıda mədən-zavod komissiyalarından seçilmiş nümayəndələrin 1905-ci il noyabrın 25-də keçirilən iclasında rəsmi olaraq 226 nəfərdən ibarət Bakı Fəhlə Deputatları Soveti yaradılması elan edildi. Ayın 27-dəki

ilk iclasda menşeviklər sovetdə yerlərin əksəriyyətini tutmağa və rəhbərliyi ələ keçirməyə müvəffəq oldular. Lev Şendrikov Sovetin sədri seçildi. Sovetdə sosial-demokratların azlıqda qalan bolşevik fraksiyasının tərkibində azərbaycanlı fəhlələrdən M.Məmmədyarov, A.Zərgərov, Q.M.Ağasiyev və başqaları da vardı. Fəhlələrin təşəbbüsü və yardımı ilə dekabrın 16-dan «Bakı şəhəri Fəhlə Deputatları Sovetinin əxbarı» adlı qəzet buraxıldı. Fəhlələrin təzyiqi ilə Bakı Soveti əhalinin ehtiyaclarını ödəmək üçün bəzən qərarlar da çıxarırdı. Lakin inqilabın yüksəldiyi şəraitdə yaranmış Bakı Soveti uzunömürlü olmadı. 1906-cı il yanvarın 4-də qəzetin nəşri, fevralın 23-də isə Sovetin fəaliyyəti dayandırıldı. Bakı qubernatorunun əmri ilə Sovetin bütün üzvləri həbs edildi. Az yaşamasına baxmayaraq, Sovet fəhlələrinin şüurunda müəyyən iz buraxa bildi.

Noyabrın sonlarında Nuxadakı ipəkçi fəhlələrin və Ağdamda «Badior» səhmdar cəmiyyətinin pambıqtəmizləmə zavodunda tətil başlandı. Xəzər ticarət donanmasında iş dayandı. Dənizçilərin həmkarlar ittifaqı yarandı.

Dekabrın 7-də Moskvada başlanan silahlı üsyan Azərbaycan fəhlələrinə güclü təsir göstərdi. Azərbaycanda dekabr tətili də moskvalılarla həmrəylik bayrağı altında başladı. Ayın 8-də Biləcəri dəmiryolçuları birinci olaraq tətilə başladılar. Dekabrın 9-da Yevlax dəmiryol stansiyasında çalışanlar tətilə qoşuldular. Azərbaycan dəmiryolçularının bu tətilləri ayın axırınadək davam etdirildi.

Dekabrın 10-da Cənubi Qafqaz və Şimali Qafqaz dəmiryolçularının başladıqları tətil ayın 24-nə qədər davam etdi. Tətil ölkəmizin yüzlərlə sənaye müəssisəsini əhatə etmişdi.

Çar hökumətinin təqiblərinə və ağır həyat şəraitinə baxmayaraq, Azərbaycan fəhlələri mübarizəni davam etdirirdilər. Qanlı yanvarın ildönümündə Bakı və digər şəhərlərdə fəhlələrin tətil mübarizəsi başladı. Bakı və Gəncə tələbələri bu tətillərdə fəal iştirak edirdilər. 1906-cı ilin yaz-yay aylarında tətil hərəkatı böyük vüsət aldı. Mayda Bakı fəhlələrinin 75%-i işə çıxmadı. Bakı toxuculuq fabrikində iyunun 6-da başlamış tətil 40 gündən çox davam etdi. Tətilçilərin, demək olar ki, hamısı azərbaycanlılardan ibarət idi. Avqust ayında başlanmış ümumi tətil uzun sürdü. Noyabr-dekabr aylarında iri inhisarlara məxsus mədən və müəssisələrin 15 min nəfər fəhləsinin tətil mübarizəsi iki aya qədər davam etdi. 1906-cı ildə tətil hərəkatının nisbətən zəifləməsinə baxmayaraq, il ərzində bütün tətillərdə 60 min nəfərədək adam iştirak etmişdi.

1907-ci il ölkəmizdə tətil hərəkatının güclənməsi ilə fərqlənirdi. İlin birinci yarısında Bakı fəhlələrinin 82%-dən çoxu tətil etmişdi. Təkcə Bakıda deyil, Şuşada, Gəncədə, Nuxada, Gədəbəydə, Kür çayı sahillərindəki Bankə qəsəbəsində və digər yerlərdə də tətil hərəkatı geniş vüsət almışdı.

Fevralda ipəkçi fəhlələrin, metalçıların və mədənçilərin əzəmətli tətili baş verdi. İqtisadi və siyasi tələblər irəli sürülmüşdü. Mayın sonu–iyunun əvvəllərində tətil hərəkatı yenidən gücləndi. Fəhlələrin tələbnamələrinə 8 saatlıq iş günü, əməkhaqqının artırılması və bir çox başqa tələblər daxil edilmişdi. Nuxada və Şuşada tətilçilərin sayı 2 min nəfəri ötmüşdü. İyunda Nuxa və Şuşa fəhlələrinin yeni tətili oldu. Bakı neftçilərinin və Gədəbəy metalçılarının tətilləri də ara vermirdi. Xəzər ticarət donanması dənizçilərinin əzəmətli mart-aprel çıxışları may ayında bütün balıq sənaye fəhlələrini ayağa qaldırdı.

Bu dövrdə Azərbaycanda milli-azadlıq hərəkatının tərkib hissələrindən biri də kəndli hərəkatı idi. Kəndli hərəkatı Gəncə quberniyasında daha kəskin şəkildə gedirdi. 1905-ci ilin fevralında Dəllər və Alabaşlı kəndlərinin camaatı qolçomaqların mülklərini dağıtdılar. Bunun əvəzinə kəndlər top atəşinə tutuldu, evlər dağıdıldı. Qaradolaq kəndində Abasqulu bəy, Hacı Süleyman bəy və Rəhim bəyin silahlı dəstələri ilə kəndlilər arasında silahlı toqquşma baş verdi. Kəndlilərin bir neçə nəfəri öldürüldü. Avqust ayında Cavad qəzasında kəndlilər Əbdürrəhman bəy Kərim bəy oğlunu öldürüb naxırını və qoyun sürüsünü ələ keçirdilər. Yenə həmin qəzada 800 nəfər kəndli mülkədarlardan Cavad oğlu və Surxay İsmayılbəylinin malikanələrini dağıtdı. Payızda Qazax qəzasında Haqverdibəyli kəndinin kəndliləri mülkədarın torpaqlarının bir hissəsini tutdular. Bəyin silahlı dəstəsinə ciddi müqavimət göstərildi. Şuşa və Qaryagin qəzalarında kəndli hərəkatı geniş miqyas almışdı. Zaqatala dairəsində də kəndli çıxışları güclü idi. Burada aqrar hərəkatın mərkəzi olan Qabaqçöldə kəndlilər hökumət nümayəndələrinə və sahibkarlara daha ciddi müqavimət göstərirdilər. Qabaqçöl kəndliləri toplarla silahlanmış hökumət hissələrinin və torpaq sahiblərinin həmlələrini böyük mərdliklə dəf edirdilər. Şamaxıda, Qubada, Lənkəranda, Göyçayda, Ağdaşda və digər qəzalarda kəndlilər bəylərə, qolçomaqlara və mülkədarlara qarşı daha inadla mübarizə aparırdılar.

1905-ci ildə Azərbaycanın hər yerində xalq intiqamçılarının – qaçaqların hərəkatı geniş miqyas almışdı. İmperiyanın hər yerində olduğu kimi, Azərbaycanda da kəndli hərəkatının ənənəvi mübarizə formala-

rından: hökumətin sərəncamını yerinə yetirməkdən boyun qaçırmaq, xəzinəyə vergi verməkdən, mülkədarın xeyrinə mükəlləfiyyətləri yerinə yetirməkdən imtina etmək, mülkədar malikanələrini yandırmaq, meşələri qırmaq, çar məmurlarına, kazaklara və bəylərə silahlı müqavimət göstərmək və s. istifadə edilirdi. XX əsrin ilk 5 ilində Bakı quberniyasında kəndlilər 2650 və Gəncə quberniyasında 2450 dəfə yanğın törətmişdilər.

1906–1907-ci illərdə Şuşa qəzasında ən böyük kəndli çıxışlarından biri Bahadur bəy Qalabəyovun mülklərinin dağıdılması ilə başladı. Bir müddət sonra bu çıxışın təsiri ilə qonşu qəzalarda da kəndlilərin mülkədar-bəylərə və çar məmurlarına qarşı mübarizəsi genişləndi.

İnqilab dövründə Azərbaycanda qaçaq hərəkatı geniş vüsət almışdı. Qaçaq hərəkatının görkəmli rəhbərləri Kərəm, Dəli Alı, Məşədi Yusif, Məşədi Qədir, Qandal Nağı, Qaçaq Zahid və onlarca başqalarına rəsmi dairələrdə böhtanlar, iftiralar atılır, onları yolkəsən quldur, qarətçi kimi qələmə verməyə, gözdən və nüfuzdan salmağa çalışırdılar. Əslində qaçaqlar mənsub olduğu xalqın təəssübünü, qeyrətini çəkən namuslu, qorxmaz və igid adamlar idilər. Onlar müstəmləkəçi çar məmurlarının, harınlamış mülkədarların və bəylərin özbaşınalığına, acgözlüyünə, ədalətsizliyinə qarşı mübarizə aparırdılar və xalqı qoruyurdular. Ona görə də xalq qaçaqları sevir, onları himayə edir və saxlayırdılar. Əslində qaçaqların gücü xalqa arxalanmalarında idi. Göyçay və Şamaxı qəzalarında qaçaq Zahidin, Zaqatala dairəsində Yusifin, Gəncə və Qazaxda Qandal Nağının və Həsən Ləzgi oğlunun dəstəsi daha böyük şöhrət qazanmışdı. Dəfələrlə sürgündən qaçan və xalq arasında «Qandal» ləqəbi qazanan Nağı təkcə mülkədarları, bəyləri deyil, pristavı və çar məmurlarını da vahiməyə salmışdı. Döyüşlər zamanı pristavı və onun strajniklərini öldürmüş və yaralamışdı. Qaçaqlıq yolunu seçənlərin hamısı cəsur adamlar idi. Bütün müsbət cəhətlərinə baxmayaraq, kəndli çıxışları və qaçaq hərəkatı ölkəmizdə özünü müstəqil və mütəşəkkil qüvvə kimi göstərə bilmədi. Muğandakı rus kəndliləri istisna olmaqla, başqa qəzalarda yaşayan azərbaycanlı kəndlilər içərisində sosial-demokrat işi yox dərəcəsində idi. Bolşevik ideologiyası isə onların ruhuna yad idi.

Ölkənin siyasi həyatında baş verən hadisələr əsgərlərin də əhvalına təsir göstərirdi. İnqilabi hərəkatın genişləndiyi şəraitdə Bakıda və Gəncədə hərbi dəstələr içərisində iqtisadi və siyasi tələblər irəli sürən nümayişlər və mitinqlər baş verirdi. 1905-ci il iyunun 18-də Gəncədə

Aslandüz batalyonunun əsgərləri keyfiyyətsiz yeməyi qəbul etməkdən boyun qaçırdılar. Şamaxı alayının əsgərləri köhnə paltarları geyinməkdən imtina etdilər. Noyabrın sonlarında Bakıda Kurinski alayının əsgərləri komandanlığın əmrinə tabe olmaqdan boyun qaçırdılar. Kiyevdən Bakıya göndərilmiş 132-ci Bəndər və 131-ci Tiraspol alaylarının əsgərləri də inqilabi hərəkata qoşuldular. Dekabrın əvvəllərində Bəndər alayı və digər hərbi hissələrin əsgərlərinin izdihamlı nümayişi oldu. Nümayişi dağıtmaq üçün göndərilmiş Salyan, Samur və başqa alayların əsgərləri öz yoldaşlarına atəş açmaqdan boyun qaçırdılar. Əsgərlərin etiraz çıxışları Gəncədə də güclü idi. Zaqatala hərbi hissəsində də sakitlik pozulmuşdu. Qazaxdakı alayın kazakları yoldaşlarına atəş açmaqdan və polisin göstərişlərini icra etməkdən boyun qaçırdılar. Dekabrda Gəncədəki alayların əsgərləri 44 maddədən ibarət tələbnaməni komandanlığa verdilər. Kuban kazak dəstəsinin14-cü piyada batalyonunda həyəcan daha kəskin idi. Bu batalyon tətil etmiş dəmiryolçular və kəndlilərə qarşı çıxmaqdan qəti imtina etdi. Onlar Yevlaxda dəmiryolçulardan xüsusi qatar alaraq Kubana – öz stansiyalarına getdilər.

Qeyd etmək lazımdır ki, Azərbaycanda inqilabi hərəkata qoşulmuş alaylardakı əsgərlərin xristian olmalarına baxmayaraq, imperiyanın mərkəzində və digər əyalətlərində olduğu kimi, burada da ordu şüurlu və mütəşəkkil şəkildə inqilab tərəfinə keçmədi.

1905-ci ildə inqilabın yüksəldiyi dövrdə Dumaya seçkilər keçirmək haqqında qanun verildi. 1906-cı ilin mayında Dumaya seçkilər başlandı. Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərindən İ.Ziyadxanov, Ə.Topçubaşov, M.Əliyev, Ə.Muradxanov, Ə.Xasməmmədov birinci Dumaya deputat seçildilər. Dumada müsəlman fraksiyasına görkəmli hüquqşünas Ə.Topçubaşov sədr seçildi. Lakin birinci Duma 1906-cı ilin iyulunda çar tərəfindən buraxıldı.

Birinci Duma buraxılan kimi deputatlardan bir qrupu, o cümlədən Ə.Topçubaşov və İ.Ziyadxanov «Vıborq müraciətnaməsi»nı imzaladılar. Qəzəblənmiş çar müraciəti imzalayanları deputat olmaq hüququndan məhrum etdi və hər biri 3 aylıq həbsə alındı. 1906-cı ilin sonu – 1907-ci ilin əvvəlində Azərbaycanda ikinci Dövlət Dumasına seçkilər keçirildi. İkinci Dumaya Azərbaycandan Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, İsmayıl Tağıyev, Mustafa Mahmudov, Zeynal Zeynalov deputat seçildilər. 1907-ci il fevralın 20-də II Duma açıldı. Dumadakı azərbaycanlı deputatlar, əsasən, müsəlman fraksiyasına daxil olmuşlar və «Kadet» partiyasının mövqeyini müdafiə edirdilər.

Müsəlman fraksiyasının Ə.Topçubaşov tərəfindən hazırlanmış proqramı ayrıca kitabça halında çap edilmişdi. İkinci Dumanın tərkibi hökumətin ürəyincə deyildi. Ona görə də 1907-ci il iyunun 3-də hökumət dövlət çevrilişi edərək Dumanı qovdu. Sosial-demokrat fraksiyasının üzvləri həbs edildi və III Dumaya seçkilər haqqında yeni qanun verildi. Yeni seçki qanunu son dərəcə müstəmləkəçi xarakter daşıyırdı. Qafqaz, Orta Asiya və Sibir xalqları siyasi cəhətdən «qeyri-yetkin» hesab edildilər və onların seçki hüquqları xeyli məhdudlaşdırıldı. Cənubi Qafqaza verilən deputat yerlərinin sayı bir neçə dəfə azaldıldı.

Azərbaycandan III Dumaya yalnız görkəmli hüquqşünas Xəlil bəy Xasməmmədov seçildi.

Dumada tək olduğuna baxmayaraq, Xəlil bəy öz üzərinə düşən vəzifələri çox böyük məsuliyyət və peşəkarlıqla yerinə yetirirdi. 3 iyun çevrilişindən sonra Azərbaycanın hər yerində, xüsusilə Bakıda inqilabi hərəkatın əvvəlki hərarəti qalmaqda idi. İyunun 8-də mədən-zavod komissiyalarının ümumi yığıncağında tətil etmək üçün tələblər hazırlandı.

Tətili neftdaşıyan gəmilərin Xəzər dənizində işlədiyi yay vaxtına təyin etdilər ki, onun davam etdiyi hər bir gün sahibkarlara külli miqdarda zərər vursun. Hazırlanmaqda olan tətildən qorxuya düşən sahibkarlar və hökumət dairələri tətili pozmağa və yaxud heç olmasa payıza qədər təxirə salmağa çalışdılar. Məqsədlərinə çatmaq üçün 1905-ci ildə olduğu kimi, yenə də sahibkarlarla fəhlə nümayəndələri arasında müşavirə kampaniyası keçirməyə cəhd göstərdilər və məqsədlərinə qismən nail ola bildilər.

Bununla belə, Bakıda və qəzalarda tətil və nümayişlər davam etməkdə idi.

1907-ci il iyunun 21-də Kür çayı sahilindəki Bankə qəsəbəsində balıq sənaye fəhlələri işi dayandırdılar. Balıq vətəgələri idarəsinin müdiri Canişin dəftərxanasına məktubunda tətil haqqında belə yazırdı: «Balıq vətəgələrində baş vermiş tətillər Bakının neft mədənləri və zavodlarındakı tətillərin acınacaqlı nəticəsidir». Balıq sənayesi fəhlələri ağır iqtisadi güzəranlarını yaxşılaşdırmaq üçün 46 maddədən ibarət tələbnamə irəli sürdülər. Maraqlı orasıdır ki, tələbnamədə qadınların əməkhaqqının həcmi barədə ayrıca maddə yazılmışdı. Onlara da kişilər qədər məvacib verilməsi tələb olunurdu. Tətili yatırmaq üçün Bakıdan buraya göndərilmiş 100-ə yaxın silahlı əsgərin gəlişini fəhlələr istehza ilə qarşıladılar. İyulun 15-dək davam edən tətil fəhlələrin qələbəsilə başa çatdı. Bankə və ətrafdakı balıq vətəgələrində işləyən

fəhlələrin əzəmətli iyun-iyul tətili başqa balıq vətəgələri üçün, necə deyərlər, örnək və sınaqdan çıxarılmış bir təcrübə oldu. Avqustun 14-də Kür boyundakı balıq vətəgələrinin 3 mindən çox fəhləsi yenidən tətilə başladı. Avqustun 25-də sahibkarlar fəhlələrin çoxsaylı tələblərini yerinə yetirməyə məcbur oldular. İyun-iyul və avqust ümumi tətilləri hökumətin yerli orqanlarını elə lərzəyə salmışdı ki, hətta tətillər qurtarandan sonra da vətəgələr polis nəzarətində saxlanılırdı. Hələ bir qədər əvvəl isə iyulun 3-də Şuşa qəzasının 2500 nəfərə qədər ipəkçi fəhləsi tətilə başlamış və sahibkarlara 31 maddədən ibarət tələbnamə təqdim etmişdilər. Bir aydan çox davam edən bu tətil tələblər yerinə yetirildikdən sonra dayandırıldı.

Hökumətin sərt tədbirləri və «fövqəladə polis nəzarəti» müddətinin yenidən uzadılmasına baxmayaraq, Azərbaycanda tətil mübarizəsi davam edirdi. 1908-ci il fevralın sonuna qədər Bakının 30-dan artıq sənaye müəssisəsinin 10 mindən çox fəhləsi tətillərdə iştirak etmişdi. Həmin il imperiyada tətilçilərin sayı kəskin şəkildə azaldığı halda, Bakıda əvvəlki illərin səviyyəsi saxlanılmış və tətilçilərin sayı 47 min nəfərə çatırdı. Halbuki bu müddətdə inqilabın mərkəzi sayılan Peterburqda 17 min, Moskvada 10 min nəfər tətil etmişdi. 1909-cu ilin 1 May nümayişində xeyli adam iştirak etdi.

1909-cu ildən başlayaraq iqtisadiyyatda baş verən canlanma və yüksəliş fəhlə hərəkatında da müəyyən canlanmaya səbəb oldu.

Sənayenin inkişafı istehsalın genişlənməsi ilə yanaşı, fəhlələrin sayca artmasına və təmərküzləşməsinə gətirib çıxarmışdı. Fəhlələr ən iri müəssisələrdə cəmləşmişdi. Lakin onların iş və mənzil şəraiti ağır idi. İstehsalda texniki təhlükəsizlik işləri qaydasında deyildi. İş günü 10–14 saat davam edirdi. Tibbi xidmət yarıtmaz vəziyyətdə idi. Belə bir şəraitdə fəhlələrin aldıqları əməkhaqqı çox hallarda onların minimum ehtiyaclarını belə ödəmirdi. Ona görə də yeni iqtisadi yüksəliş dövründə fəhlələr bütün bu kəm-kəsirlər üçün sahibkarlara müraciət edir, tələbləri yerinə yetirilməyəndə işi dayandırıb tətilə başlayırdılar. 1910–1911-ci illərdə Bakıda bir sıra pərakəndə tətillər baş verdi. Çox az iştirakçısı olan bu tətillərdə ancaq iqtisadi tələblər irəli sürülürdü. 1912-ci il aprelin 4-də Sibirdə Lena mədənlərində fəhlələrin güllələbaran edilməsi Azərbaycanda inqilabi hərəkatın yüksəlişinə təkan verdi. Bakı fəhlələri yüksək şüurluluq göstərərək bir günlük əməkhaqlarını toplayıb Lenada öldürülən fəhlələrin ailələrinə göndərdilər. Tətil təkcə Bakıda deyil, qəzalardakı iri sənaye müəssisələrini də əhatə etdi.

Mayın 7-də Azərbaycanın ikinci sənaye şəhəri olan Nuxada sənaye müəssisələrinin yarısından çoxunda işlər dayandırıldı. Mayın 12-də tətil ümumi xarakter aldı. Bir neçə dəfə küçələrdə polis dəstələri ilə toqquşmalar baş verdi, hər iki tərəfdən yaralananlar oldu. Sahibkarlar, nəhayət, fəhlələrin tələblərini müzakirə etməyə məcbur oldular. Mayın 15-də sahibkarlarla fəhlələr arasında bağlanmış müştərək müqavilə Gəncə qubernatoru tərəfindən təsdiq edildi. Müqaviləyə əsasən, iş günü qısaldıldı və əməkhaqqı artırıldı. Tətilçilərin sayına görə Nuxadakı may tətili imperiyada müvafiq sənaye sahəsində ən böyük tətil idi. Bu tətildə 6 min nəfərdən çox fəhlə iştirak etmişdi. 1912-ci ilin sentyabrında Nuxanın ipək sənayesi fəhlələrindən 3 min nəfəri yenidən tətilə başladı. Onlar öz tələblərinin yerinə yetirilməsinə nail oldular.

1912-ci ildə dördüncü Dövlət Dumasına seçkilər keçirildi. Azərbaycandan vəkil Məmmədyusif Cəfərov Dövlət Dumasına deputat seçildi. O, Dumadakı çıxışlarından birində göstərdi ki, milli zülm heç vaxt indiki miqyasda olmamış və rəhmsiz bürokratik aparat milli hisslərə heç zaman indiki qədər laqeyd qalmamışdır.

1913-cü ilin aprelində neft mədənləri və zavodlarda tətil komitələri yaradıldı. Fəhlələr bir günlük əməkhaqlarını tətil fonduna keçirdilər. Ümumi tələblər hazırlandı. 1913-cü il iyulun 22-dən 23-nə keçən gecə xəfiyyəçilər tətil komitəsinin 9 nəfər üzvünü həbs etsələr də tətilin qarşısını ala bilmədilər. İyulun 6-dan başlayaraq «Votan» zavodunda, Xəzər-Qara dəniz şirkətinin mədənlərində, Rotşildin zavodunda, ayın 22-dən etibarən Balaxanıda, Suraxanıda, Qara şəhər və Bibiheybətin mədən və zavodlarında tətillər baş verdi. İyulun 28-də tətillər geniş vüsət aldı və tətilçilərin sayı 40 mini keçdi. Avqustun 8-də Bakı fəhlələrinin 90%-i tətilə qoşulmuşdu. İki aya qədər davam etmiş tətil tələblərin ödənilməsindən sonra dayandırıldı.

Əməkhaqları 25–30% artırıldı. Qabaqcıl fəhlələrin bir hissəsi həbs olundu. Bununla belə, bu tətil fəhlələrin mütəşəkkilliyini və mübariz ruhunu nümayiş etdirdi, yeni, daha qüdrətli çıxışlar üçün şərait yaratdı. İyulun 23-də Nuxa ipək sənaye fəhlələri və Gədəbəy metallurqları da tətilə başladılar.

1914-cü ilin fevral-mart aylarından tətil və nümayişlərin sayı xeyli artmışdı. 1 May nümayişində 30-a qədər sənaye müəssisəsinin və mətbəənin 10 minə qədər fəhləsi iştirak etmişdi. Nəzərdə tutulmuş ümumi tətilə rəhbərlik etmək üçün tətil komitəsi yaradıldı. Mayın 28-də başlanan tətil iki aya qədər davam etdi. İyunun əvvəlində tətilçilərin sayı 50 mini

keçmişdi. Təşvişə düşmüş hökumət Bakıda hərbi vəziyyət elan etdi. Bakı qarnizonu 600 nəfər əlavə kazakla xeyli gücləndirildi. Ayın axırına yaxın Daxili İşlər nazirinin müavini general Cunkovski Bakıya göndərildi. İki min fəhlə işdən qovuldu. 3500 nəfər fəhlə Bakıdan sürgün edildi. Yüzlərlə fəhlə həbsxanalara salındı. Sabunçuda həbs edilmiş fəhlələrdən 300 nəfərinin arvadı körpə uşaqlarını qucaqlarına alaraq nümayişə çıxdı. Ərlərinin azad edilməsini tələb edən qadınları və onların uşaqlarını kazaklar qamçı ilə döydülər. Qadınlardan 40 nəfəri həbs edildi. Birinci Dünya müharibəsi başlanana yaxın hökumət tətilləri güclə yatıra bildi.

Yeni iqtisadi yüksəliş illərində Azərbaycan qəzalarında kəndli çıxışları da genişlənmişdi. Kəndli çıxışları 1909-cu ildən etibarən daha da artmışdı. Gəncə qəzasının Seyfəli və Goranboy-Əhmədli kəndliləri ilə polis dəstələri arasında toqquşmalar baş vermişdi. Gəncə quberniyasında üsyankar qaçaq dəstələrindən birinə Kərbalayı Əsgər və digərinə Məşədi Qədir başçılıq edirdi. Gəncə qəzasının Yuxarı Ayıplı kəndindən olan Əsgərin dəstəsi 1911–1914-cü illərdə kəndliləri iri torpaq sahiblərindən Qarabəyov, Sultanov, Şamxorski və başqalarının təzyiqindən qorumuş və onların mülklərinə hücum etmişdi. 1914-cü ildə Qarabəyovlar yerli çar məmurlarının köməyi ilə Yuxarı Ayıplı kəndlilərinin suyunu əllərindən almışdı. Kəndliləri heç vaxt darda qoymayan Əsgər bu dəfə də öz dəstəsilə onların köməyinə gəlmiş, altı saat davam edən döyüşdə hökumətin və bəylərin silahlı qüvvələrini darmadağın etmişdi.

Bu döyüşdən bir neçə gün sonra polis dəstələrinin mühasirəsinə düşən Əsgər və onun qaçaq döyüşçüləri bütün günü müqavimət göstərdilər. Lakin döyüşdə Əsgər və 6 nəfər silahdaşı yaralandı. Onları tutub Gəncəyə gətirdilər və az sonra Əsgər ömürlük Sibirə sürgün edildi.

Cavanşir qəzasının Qarapirim kəndliləri yerli mülkədarın torpaqlarını zəbt etmiş, buraya göndərilmiş polis dəstələri ilə döyüşə girmişdilər. Qarabağın cənub-qərbində bəylərin və hökumət nümayəndələrinin qənimi olan qaçaq Süleymanı ələ keçirmək üçün edilən bütün cəhdlər boşa çıxmışdı. Çünki əhali onu qoruyub-saxlayırdı.

Qaçaq Süleymanın dəstəsi 1913-cü ildə Örənqalada Şuşa polis rəisinin başçılıq etdiyi böyük silahlı bir dəstə ilə qarşılaşmışdı. Bir neçə saat davam etmiş döyüşdə qaçaqlar qələbə çalmış, qəza rəisi və polislərdən bir neçə nəfəri öldürülmüşdü.

Qazax qəzasında atası qaçaq Kərəmin yolunu davam etdirən Cahangir Salahlı kəndlilərini müdafiə etdiyinə görə hələ 1908-ci ildə

həbsə alınmışdı. 1910-cu ildə həbsxanadan qaçmış Cahangir böyük qaçaq dəstəsi təşkil etmiş, hökumətin, bəy və qolçomaqların birləşmiş silahlı dəstələri ilə 20 dəfə döyüşə girmiş və qələbə çalmışdı. 1913-cü ildə dəstənin bir neçə üzvünü, o cümlədən Cahangiri təqib edən polis dəstələrindən xilas olmaq üçün Tiflisə gedən qaçaqlar orada pusquya düşərək həbs olundular və oktyabr ayında Tiflisdə öldürüldülər. 1911–1912-ci illərdə Lənkəran qəzasının Ərus və Butasər kəndlərində mülkədarlara qarşı çıxışlar baş verdi. Kəndlilər mülkədar Mir Əhməd xan Talışinskinin torpağını zəbt etdilər. Kəndlilərdən 15 nəfəri həbs edildi.

Qaçaq hərəkatı bir sıra qəzalarda hökumət dairələrini, mülkədarları və bəyləri lərzəyə salmışdı. Qandal Nağının və 1910-cu ildə Saxalin sürgünündən qaçıb gəlmiş Məşədi Yolçunun dəstəsi Gəncəbasarda misilsiz şöhrət qazanmışdı. Müharibənin başlanması kəndli hərəkatının da qarşısını bir qədər aldı.

## § 3. Azərbaycanda çarizmin milli qırğın siyasəti

Bakı fəhlələri «Qanlı bazar» günü ilə əlaqədar ümumi tətil və silahlı nümayişlər keçirməyi qərara almışdılar. Silah almaq üçün əməkhaqlarından pul toplamış və öz sıralarından silahlı dəstələr təşkil etmişdilər.

Hökumət Azərbaycanda milli qırğın törətmək üçün paytaxtda tədbirlər planı hazırlamışdı. Onu həyata keçirmək Bakı qubernatoru Nakaşidzeyə və onun köməkçilərinə tapşırılmışdı.

Azərbaycandakı qırğına qədər çarizm bu üsuldan Polşada, Baltik sahili ölkələrində və digər milli ucqarlarda istifadə etmişdi. Təsadüfi deyil ki, Rusiya imperiyası «xalqlar həbsxanası» adlanırdı. Bura qeyri-rus xalqlardan ötrü ikiqat həbsxana idi. İmperiyanın əsarətində olan xalqlar bir-birinə qarşı qoyulur, milli ləyaqətləri təhqir edilir, qan yaddaşları unutdurulur və soyköklərindən uzaqlaşdırılırdılar. Milli dövlətçiliyin bərpası haqqında fikirləşmək yasaq edilmişdi. Müstəmləkəçilik siyasətindən irəli gələn inzibati bölgü nəticəsində xalqların tarixən sabitləşmiş sərhədləri pozulmuşdu. Ona görə qonşu millətlər arasında münaqişə salmaq üçün bəhanələrdən istənilən vaxt istifadə etmək mümkün idi.

1905–1906-cı illərdə Azərbaycanda törədilən milli qırğında daşnaklar, sadəcə olaraq, bir alət idi. Əslində, bu milli qırğın dövlət səviyyəsində hazırlanıb həyata keçirilən tədbir idi. İblis libasına girmiş çar

və onun Cənubi Qafqazdakı yüksək rütbəli məmurları qırğına rəvac verirdilər. Ermənilərin hamisi və türkləri görmək istəməyən Qafqaz canişininin göstərişi ilə hər yerdə rus qoşunlarına və kazaklara «tatarlara» (Azərbaycan türklərinə – *red.*) atəş açmaq əmri verilmişdi. Rəsmi çıxışlarında və məlumatlarında mənfur erməniləri işgüzar və siyasi cəhətdən yetkin hesab edən canişin onları qanunun və sabitliyin tərəfdarı kimi təqdim edirdi. O, Türkiyə ilə müharibəyə açıqdan-açığa tərəfdar olan ali rütbəli məmurlardan idi. Türkiyə ilə müharibədə ermənilərə rusların sədaqətli dayağı kimi baxırdı. Canişin Vorontsov-Daşkov çara yazdığı məktubunda xatırladırdı ki, hələ I Pyotrun vaxtında Qafqazda türklərə qarşı mübarizədə ermənilər sədaqətlərini sübut etmişlər.

Birinci rus inqilabı dövründə Azərbaycanda və Cənubi Qafqazın müsəlmanlar yaşayan bölgələrində törədilən milli qırğın çar ordusunun və rəsmi dövlət adamlarının, məsələn, Bakıda Nakaşidzenin, Deminskinin, Lileyevin, İrəvan vitse-qubernatoru Baranovskinin, Naxçıvan qəza rəisi Angilin, Şuşada Kalaşakovun və başqalarının gözləri qarşısında baş verirdi. Onlar günahsız insanların faciəsinə qəsdən göz yumurdular. Ordu və polis bu milli qırğını soyuqqanlılıqla seyr edirdi. Milli qırğında çarizmin riyakarlığını kəskin surətdə ifşa edən «Molla Nəsrəddin» jurnalı yazırdı: «Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla oldular ki, təbiblər onların çölə çıxmalarını rəva görmürlər».

Hökumətin qırğın siyasətinin həyata keçirilməsində mənfur «Daşnaksütyun» partiyası və erməni quldurları həlledici rol oynayırdılar. Natamam məlumata görə, milli qırğınlar nəticəsində Azərbaycanda minlərlə adam qətlə yetirilmiş, 158 müsəlman kəndi dağıdılmış, evlər yandırılmış və on minlərlə adam evsiz-eşiksiz qalmışdı. Yalnız 1905–1906-cı illərdə erməni quldurları və terrorçuları tərəfindən müsəlmanlara qarşı törədilmiş 500-ə qədər cinayət hadisəsi qeydə alınmışdı. Milli münaqişələrin ilk təşəbbüskarı və günahkarları ermənilər olmuşdu. Onu da demək lazımdır ki, əvvəlcədən silahlanmalarına, silahdan nisbətən yaxşı istifadə etmələrinə və hərbi işdə təcrübəli olmalarına baxmayaraq, döyüşlərdə daha çox itki verən, meydandan qaçan və məğlub olan da ermənilər idi.

Daşnaklar zahirən muxtariyyət tələbi ilə çıxış etsələr də bunun arxasında sərsəm Ermənistan dövləti yaratmaq xülyası dayanırdı. Erməni millətçi liderləri Avropanın iri dövlətlərinin paytaxtlarına ayaq döyərək ümidverici vədlər aldıqdan sonra öz xalqını fəlakətə sürüklədilər. Hələ

keçən yüzilliyin 60–80-ci illərində ingilislərin Türkiyə ərazisində ermənilərə muxtariyyət verilməsinə kömək edəcəklərini vəd etdikdən sonra Sasun, Zeytun və Vanda (Türkiyə vilayətləridir – *red.*) kütləvi erməni-türk qırğınları baş verdi. 90-cı illərdə ermənilərin törətdikləri qırğınlarda on minlərlə azərbaycanlı məhv edildi. Ermənilərdən də az qırılmadı. Bundan ibrət dərsi almayan ermənilər Cənubi Qafqazda muxtariyyət fikrinə düşdülər. Bu ideyanın müəllifi ifrat millətçi, sərsəm yazıçı Arsurini idi. Onun ölümündən sonra müxtəlif dövrlərdə şərəfsiz varisləri həmin ideyanı davam etdirmək istəyirdilər. Daşnaklar murdar niyyətlərinə çatmaq üçün Rusiyaya daha çox bel bağlayırdılar.

Fitnənin baş tutmasının, adamların qətlə yetirilməsi və kəndlərin dağıdılmasının səbəblərindən biri də Azərbaycan türklərinin məkrli qonşularına inanmaları, rəhmdil və humanist olmaları idi. Qarı düşmən onları asanlıqla aldadırdı. Hiyləgər və satqın ermənilər bir qəzada sülh bağlayır, digərində isə qırğın törədirdilər. «Daşnaksütyun» İrandan və Türkiyədən könüllü erməni dəstələri gətirir, onları silahlandırır və özünün hərbi hissələrinə qəbul edirdi. Natamam məlumata görə, 1905-ci ildə daşnak hərbi hissələrində 100 min nəfərə qədər əsgər vardı və onların saxlanılmasına daşnak partiyası hər il 10 mln. manata qədər pul xərcləyirdi. Bütün bunlara baxmayaraq, ermənilərin itkisi və dağıntısı daha çox idi. Bunun əsas səbəblərindən biri bizim könüllü gənclərimizin cəsarəti və igidliyi idi. Azərbaycanın bir sıra qəzalarında kəndlilər partizan müharibəsi bayrağı qaldırmışdılar. Döyüşlərdə əfsanəvi qaçaqlar böyük ad qazanmışdılar. Onlardan bir neçəsi Gəncə quberniyasının qərb hissəsini nəzarətdə saxlayırdı. Onlar təkcə ermənilərə qarşı deyil, həm də onları bilavasitə himayə edən imperiya qoşunları və məmurları əleyhinə vuruşurdular.

Çarizmin Azərbaycanda milli qırğın siyasətinin doğurduğu faciənin miqyasının genişlənməsində XX əsrin əvvəllərində «Hınçaq» və «Daşnaksütyun» partiyalarının Gəncədə, Şuşada, Bakıda və ayrı-ayrı kəndlərdə yaradılmış şöbələrinin üzvlərinin çox fəal iştirak etmələri idi. «Daşnaksütyun»un hələ 1894-cü ildə Balaxanı kəndində təşkil edilmiş şöbəsi Bakıda törədilən qırğına bir növ başçılıq edirdi. Yeri gəlmişkən onu da demək lazımdır ki, 1905-ci ilin noyabrında «Hınçaq» terrorçu partiyası Rusiya Sosial-Demokrat fəhlə partiyasının (RSDFP) bolşevik fraksiyası ilə rəsmi olaraq birləşmişdi. Deməli, azərbaycanlılar, həm də hınçaq-bolşevik birliyinə qarşı dururdu.

Bəhs edilən dövrdə obyektiv olaraq bu partiyaların əleyhinə danışan onlarla hökumət nümayəndəsi «Daşnaksütyun» terrorunun qurbanı olmuşdu. Bakı qubernatoru Nakaşidze, Gəncə qubernatorunun müavini Andreyev, qəza rəislərindən Boquslavski, Neşşanski, Pavlov, Şmerlinq, polis-meyster Saxarov, pristav Şumakeviç, sərhəd qoşunları polkovniki Bıkov, jandarm zabitləri Appel, Burakski, quberniya həkimi Urazov və bir çox başqaları buna misal ola bilər.

1905-ci il fevralın əvvəllərində Bakıdakı milli qırğın ərəfəsində daşnaklar hər yerdə gecə-gündüz müsəlmanların qaniçən və vəhşi olduqlarını təbliğ edirdilər. Ermənilər hər vasitə ilə və çirkin yollarla Azərbaycan türklərini doğma yurdlarından didərgin salmağa çalışırdılar. Fevralın 2-də Bakıda Ağarza adlı azərbaycanlı erməni komitəsi tərəfindən öldürüldü. Polis idarəsi buna reaksiya vermədi. Sonra ikinci cinayət baş verdi – erməni əsgəri istintaqa apardığı müsəlman dustağını da yolda öldürdü. Bu qətllər əvvəlcədən hazırlanmış plana əsasən həyata keçirilirdi. Bunlar kütləvi qırğınlar üçün ilk qığılcımlara çevrildi. Həmin gün bir erməni və bir nəfər rus öldürüldü. Hər iki tərəfdən şiddətli döyüşlər başlandı. Döyüşün ikinci günü küçələrdən 50 erməni meyidi götürüldü. Balaxanıda yanğın törədildi. Evlər dağıdılır, mal-mülk qarət edilirdi. Qubernator, ixtiyarında kifayət qədər əsgər və polis olsa da, baş verən qırğını yatırmaq üçün heç bir tədbir görmürdü. Şəhər pristavlarından biri qoşun komandanına qırğını yatırmaq üçün xahiş etdikdə o bildirdi ki, «Sizə borc deyil, biz öz qulluğumuzu yaxşı bilirik». Fevralın 6-dan 10-a qədər Bakıda davam edən qırğın nəticəsində hər iki tərəfdən mindən çox adam öldürüldü. Senator Kuzminski Bakı qırğını haqqındakı rəsmi arayışında öldürülən və yaralananların sayı haqqında məlumat verirdi. Şəhərə dəyən zərərin miqdarı milyonlarla hesablanırdı. Qırğına əvvəlcədən yaxşı hazırlaşsalar da ermənilərin itkisi daha çox idi.

Ermənilər Bakıdakı məğlubiyyətin əvəzini Naxçıvanda çıxmaq istədilər. Naxçıvanın ərazicə ermənilərə yaxın olması onlarda böyük ümid yaratmışdı. Daşnaklar qəflətən hücum edəcəkləri xəbəri ilə Azərbaycan türkləri içərisində vahimə salmağa çalışırdılar. 1905-ci il mayın 5-dəki döyüşdə üç nəfər yaralandı və az sonra bir nəfər də öldürüldü. Naxçıvanlıların İrəvan qubernatorunun müavini Baranovskiyə ermənilərin cinayət əməllərindən şikayət etmələrinə məhəl qoyulmadı. Bu, ermənilərə əl-qol açmağa imkan verdi. Vəziyyət gündən-günə pisləşirdi. Baranovskinin göstərişi ilə ermənilər şəhərin müsəlmanlar

yaşayan məhəllələrini kütləvi şəkildə atəşə tutdular. Adamlar öldürüldü, dükanlar yandırıldı və qarət edildi. Döyüşü müşahidə edən polis rəisi Angin qırğına mane olmadı. Bir qədər sonra Azərbaycan türkləri ilə ermənilərin birlikdə yaşadığı Cəhri kəndində dəhşətli faciə baş verdi. Ayın 26-da kazaklarla birləşən erməni caniləri bir neçə ailəni qətlə yetirdikdən sonra kəndi xarabaya çevirdilər. Çoxlarına bir daha aydın oldu ki, erməniləri qızışdıran və qırğına rəvac verən hökumət özüdür.

Bakıda və Naxçıvanda törədilən qırğınların nəticəsi erməniləri təmin etmədi. Onlar İrəvan şəhəri və onun ətrafındakı bölgələrdə yaşayan müsəlmanlardan qisas almaq istədilər. Məkrli niyyətlərini həyata keçirmək üçün yaradılmış könüllü quldur dəstələrindən istifadə etməyi qərara aldılar. İrəvan türkləri belə bir qırğının burada da törədiləbiləcəyini güman etmədiklərindən lazımi müdafiə tədbirləri görməmişdilər. Mayın 24-də ermənilər şəhərin azərbaycanlılar yaşayan hissəsinə qəflətən hücum edərək on bir nəfəri qətlə yetirdilər. İrəvan azərbaycanlılarını ermənilərin soyqırımından xilas etmək üçün qonşu qəzalardan, Türkiyədən və İrandan müsəlman könüllüləri İrəvana doğru hərəkət etdilər. Bu könüllülərin yaxşı silahlanmamalarına və döyüş təcrübələrinin az olmasına baxmayaraq, onlar böyük rəşadətlə döyüşə atıldılar və böyük itki verdilər.

İyunun 30-da erməni hissələri Gəzəcik kəndini atəşə tutdular. Əhali, o cümlədən qonşu Məngus kəndliləri yaşayış yerlərini tərk etməyə məcbur oldular. Yalnız Məngus kəndinin müdrik ağsaqqalı Novruz Kazım oğlu kəndi tərk etmədi. O həmkəndlilərinə: «Hara qaçırsınız, torpağı müdafiə etmək lazımdır» – deyə müraciət etdi. Son güllə qalana qədər vuruşan qoca onlarla erməni vəhşisini məhv etdi. Novruz kişini tutub bir keşişə verdilər, keşiş qocanın başını kəsdi. Kəndə od vurub yandırdılar. Düşmənlər iyun ayında Güllücə və Kamal kəndlərini viran etdilər. Onlarla adamı vəhşicəsinə öldürdülər. İyunun 3-də Uşu kəndində 8 saat fasiləsiz davam edən döyüşdə könüllülər erməni başkəsənlərinə layiqli dərs verdilər. Ermənilər yaralıları və meyitlərini belə, səngərlərdə qoyub qaçırdılar. Məğlubiyyətin əvəzini çıxmaq üçün onlar iki gündən sonra daha böyük qüvvə ilə hücuma keçdilər. Lakin məğlubiyyətə uğradılar. İyunun 9-u və 10-da düşmən yaxşı silahlanmış yeni qüvvələrlə Uşu və Təkyə kəndlərinə hücuma keçdi. Düşmənin sayca çoxluğu və bizimkilərə kənardan lazımi kömək göstərilməməsi əhalini hər iki kəndi tərk etməyə məcbur etdi. Lakin bu döyüşlərdə 180 nəfərdən çox erməni qulduru öldürüldü və bir o qədər də ağır yaralandı.

1905-ci il iyunun 16-da daşnaklar Cəbrayıl qəzası əhalisinin nümayəndələrini Ağoğlan monastırına dəvət etdilər. Haradansa gəlmiş üç nəfər erməni növbə ilə çıxış edərək rus-yapon müharibəsində çar ordusunun rüsvayçılıqla məğlubiyyətindən, imperiyanın dağılacağından danışdı. Sonra da bizləri qorxutmaq məqsədilə ermənilərin əllərində kifayət qədər silah anbarlarının olduğunu xatırlatdı. Qacar kəndinin nümayəndələri bu hədyanlara dözməyib onlara təhqirlə cavab verdilər və bütün nümayəndələr nümayişkaranə surətdə monastırı tərk etdilər.

Zəngəzurun erməni kəndlərindən və başqa yerlərdən toplanan quldur dəstələri az sonra Sokratın rəhbərliyi altında qəflətən hücuma keçərək Veysəlli kəndini yandırdılar. 150 evdən ibarət olan Qacar kəndinin igidləri 6 saatdan çox davam edən döyüşdə düşməni pərən-pərən saldılar. Aşot adlı zabitin başçılıq etdiyi alay bütünlüklə məhv edildi. Qonşu müsəlman kəndlərindən yeni könüllü dəstələr gəldilər. Onlar döyüş meydanından qaçan erməniləri təqib etdilər. Əfşar adlı erməni kəndi yandırıldı və xeyli quldur əsir götürüldü. Daşnak zabitləri üç min quldurla Qacar kəndinə yeni hücuma keçdilər. Lakin döyüşdə qələbə çalan qacarlılar və könüllülər çox az itki ilə 400 nəfər ermənini məhv etdilər.

Müsəlman süvariləri Şeyxməli kəndində məşq edən min nəfərlik quldur üzərinə qəflətən hücum etdilər. Bütün günü davam edən döyüşün sonunda ermənilər xeyli itki verdikdən sonra qaçıb Düdüklü kəndinə sığındılar. Lakin igidlərimiz onları vurub bu kənddən də çıxartdılar və onların İşxan adlı zabitini əsir götürdülər. Həmin günün səhəri müsəlman süvariləri Çəmənli kəndinə hücum edən erməniləri ağır məğlubiyyətə uğratdılar. Qələbənin qazanılmasında qorxmaz kəşfiyyatçılarımızın misilsiz rolu oldu. Bu məğlubiyyətdən və itkilərdən sonra ermənilər Xırmancıq kəndinə 2500 quldur topladılar. Hər tərəfdən dağlarla əhatə edilmiş bu kəndi hücumla almaq son dərəcə çətin idi. Oraya yalnız bircə yerdən tək atlının keçə biləcəyi yol vardı. Müsəlman könüllüləri ermənilərin ələ keçirmək istədikləri Arış kəndinə toplaşmışdılar. Kəşfiyyatın düşmən haqqında topladığı dəqiq məlumat döyüşün uğurla nəticələnməsində həlledici rol oynadı. Döyüşdən əvvəl komandir döyüşçülərimizə müraciət etdi: «Övladlarım! Bu saatda bizlərə... yalnız xəncər-patron köməyə gələr. Bəli! Sülh vaxtı sülh etmək, müharibə vaxtı mərdanəlik göstərmək lazımdır... Ona görə qorxu və hürküyə qəlbimizdə yer olmamalıdır. Bizim bu müharibədə müzəffər olduğumuz, əlbət ki, tarix səhifələrinə düzülüb millət istiqbalına və vətən övladına yadigar qalacaqdır». Komandirin çıxışı əsgərləri coşdur-

du. Seçilmiş düzgün döyüş taktikası ermənilәri әzmәyә imkan verdi. Quldurlar atlarını vә silahlarını qoyub qaçdılar. Alınmaz hesab edilәn Xırmancıq kәndi әsgәrlәrimiz tәrәfindәn tutuldu. Pristav Davıdovun öz strajniklәri ilә ermәnilәrә kömәyi dә nәticә vermәdi. Buna baxmayaraq, Cәbrayıl vә Qaryagin qәzalarında milli münaqişә davam edirdi. Ermәnilәr hәr dәfә yeni hәrbi toqquşma törәdirdilәr. Onlar bizim kәndlәrdәn Veysәlli, Divanәlilәr, Süleymanlı vә b. yandırmış, xeyli insan tәlәf etmişdilәr.

Yuxarıda qeyd edildiyi kimi, rәsmi dövlәt nümayәndәlәri, pristavlar, zabitlәr münaqişәni qızışdırır vә ermәnilәri müdafiә edirdilәr. Pristav Davıdovun әmәli buna sübutdur.

1905-ci ilin hadisәlәri içәrisindә Şuşa faciәsi daha kәdәrli idi. Qәzalardakı qırğının qarşısını almalı olan әsgәrlәr qәsdәn Şuşada saxlanırdı. Mәqsәd müsәlmanların soyqırımında onlardan istifadә etmәk idi. Ermәnilәr Şuşa döyüşünә böyük hazırlıq işlәri görmüş vә canlı qüvvә toplamışdılar. Avqustun 8-dә növbәti fitnә törәdildi – Cәnubi Azәrbaycandan gәlmiş vә mәktәbin tәmirindә işlәyәn 17 fәhlә qәtlә yetirildi. Bir hәftә sonra, yәni avqustun 16-da kilsәnin döyüşә çağırış zәngi ilә silahlı ermәnilәr azәrbaycanlıları atәşә tutdular. Rus ordusunda qulluq edәn 15 nәfәr ermәni әsgәri komandanlığın razılığı ilә silahlarını götürüb vuruşan quldurlara qoşuldular. Tiflisdәn isә 100 ermәni kömәyә gәlmişdi.

Azәrbaycan türklәri qatı düşmәnә layiqli cavab vermәk üçün şәhәrin müxtәlif yerlәrindә 5 sәngәr qurmuşdular. Hәr sәngәrә bacarıqlı vә seçilәn adamlar başçılıq edirdilәr. Onlardan Abbas bәy Talıb oğlu, Әfrasiyab Hacı Әzim oğlu, Mәşәdi Abış Bәylәr bәy oğlu vә b. xüsusi olaraq fәrqlәnirdilәr. Şuşaya әtraf kәndlәrdәn xeyli atlı dәstәlәri kömәyә gәlmişdilәr. Elә hәmin gün ermәnilәrin hücumlarının qarşısı mәrdliklә alındı. Sәhәri gün döyüşçülәrimiz şir kimi meydana atılaraq yüzlәrlә quldurı qanına qәltan elәdilәr. «Qoçaq» ermәnilәr evlәrini qoyub qaçırdılar. Çoxunun qorxudan sәngәrdә ürәyi partlayıb ölmüşdü. İki-üç gün әrzindә ermәnilәrin bütün mövqelәri әlә keçirildi. Avqustun 19-da ermәnilәr tәrәfindәn yandırılan binalar içәrisindә teatr vә qız mәktәbinin binası da vardı. Ermәnilәr bir yerdә göz yaşı axıdaraq sülh istәyir, başqa yerdә isә yeni fitnәlәr törәdirdilәr. 1905-ci il avqustun 16-dan 21-dәk Şuşada davam edәn milli qırğın Azәrbaycan türklәrinin qәlәbәsi ilә başa çatdı. Әslindә bu, haqqın vә әdalәtin qәlәbәsi idi. Çünki bizim nahaq qan tökülmәsindә heç vaxt marağımız olmamışdır.

Şuşanın Ağdamla əlaqəsinin müvəqqəti kəsilməsi, çoxları kimi, Əhməd bəy Cavanşirin qızı, görkəmli ədibimiz M.Cəlilin zövcəsi Həmidə xanımı da narahat etmiş və o, 200 atlı ilə Ağdama gəlmiş, ağdamlılar qarşısında çıxış edərək hər cür köməklik göstərəcəyini bildirmişdi (200 pud un, böyük məbləğdə pul vermişdi). Bu çətin günlərdə ölkəmizin hər yerindən, xüsusən Bakıdan, döyüş yerlərinə ərzaq göndərilir və pul yardımı edilirdi. Məsələn, H.Z.Tağıyev 750 pud un, 105 pud qənd-çay, xeyli neft və digər şeylər, M.Muxtarov xeyli məbləğdə pul, Məşədi Xəlil Hacı Həsən oğlu və başqaları da pul göndərmişdilər. Uzaqlarda yaşayan qarabağlılar da həmvətənlərinə kömək etməyi unutmamışdılar.

1905-ci ilin noyabr ayında Kolanı elinin Umudlu kənd əhalisinin faciəsi dəhşət doğurur. Mühasirəyə düşmüş kəndlilər çətinliklə də olsa kənddən çıxmağa imkan tapdılar və qəza rəisi Pivovarovdan özlərini müdafiə etmək üçün kömək istədilər. Lakin Pivovarov müxtəlif bəhanələrlə umudluların xahişini rədd etdi.

Yolda erməni kəndi Heyvalının kətxudası Abram Həsən Calalov qaçqınlara rast gəldi və camaatı dilə tutub Heyvalıya apardı. Buradakı erməni silahlı dəstələri azərbaycanlıları əhatəyə aldılar. Kişiləri ayırıb hamısının başlarını kəsdilər. Hamilə qadınların qarınlarını xəncərlə yarıb körpələri kənara tulladılar. Umudlu sakinlərindən yalnız 30 nəfərə qədəri qaçıb canlarını qurtara bilmişdi.

Mənfur ermənilər 1905-ci ilin sentyabrında Qazaxda, noyabrın ortalarında Gəncədə və noyabrın axırında isə Tiflisin azərbaycanlılar yaşayan yerlərində qırğın törətdilər.

Avqust ayının məğlubiyyətləri daşnaklara dərs olmadı. Onların Gülablıda, Malıbəylidə, Kosalarda, Kolanı elinin Papravənd və başqa kəndlərində tökdükləri qanların qisası layiqincə alındı. Cənubi Azərbaycandan köməyə gəlmiş süvari dəstələr bir-iki gün Ağdamda qaldıqdan sonra ermənilərin yaşadıqları Aranzəmin və Pircamal kəndlərinə hücuma keçdilər. Qanlı döyüşdə 213 nəfərdən çox erməni öldürüldü və sağ qalanlar qaçıb meşələrdə gizləndilər. Bütün bunlardan nəticə çıxarmayan düşmən 1906-cı ilin iyulunda general Kalaşakova 10 min man. rüşvət verdikdən sonra Şuşada və ətraf kəndlərdə yeni cinayətlər törətmək üçün kazak dəstələri, piyada rus əsgərləri və on minə yaxın könüllü quldur dəstəsini bir yerə topladı. Rus topunun hər atəşinə 15 man. vəd edilmişdi. İyulun 12-də həmin qüvvələr hücuma keçdilər. Qırğının davam etdiyi beş gün ərzində müsəlman evləri top atəşi ilə dağıdıldı və

yandırıldı. Lakin gənclərimiz rus-erməni birləşmiş silahlı qüvvələrinin hücumlarından sarsılmadılar. Əks-hücuma keçərək döyüşü mərdliklə davam etdirdilər. Döyüşün beşinci günü general Kalaşakov qərargahda olan bütün rus əsgərlərini döyüşə göndərdi. Belə ağır gündə köməyə gəlmiş Sultan bəy Paşa bəy oğlu və İbrahim bəy Əli Məhəmməd bəy oğlunun bir neçə yüz nəfərlik dəstələri gecəyarı şəhərə daxil oldular. Birləşmiş qüvvələr onlardan qat-qat çox olan və yaxşı silahlanmış erməni-rus qüvvələrinin üstünə hücuma keçdilər. Şəhərdə əli silah tutan cavandan qocaya qədər hamı döyüşə atıldı. Onların qətiyyəti kazakları heyran etdi. Düşmən rüsvayçılıqla qaçmağa başladı. Ermənilərin xəzəl kimi torpağa sərilmiş yüzlərlə meyidi qaldı. Kalaşakovun fitnəsi ilə baş verən bu döyüşdə azərbaycanlılardan 30 nəfər öldürülmüş, 21 nəfər yaralanmışdı; düşmən tərəfdən isə 500 nəfərdən çox adam öldürülmüş və 290 nəfər yaralanmışdı. 1906-cı ilin avqustunda Zəngəzur qəzasının Oxçu-Şəbadək kəndindən Ordubada getməyə məcbur olan azərbaycanlılar yolda erməni quldurlarının mühasirəsinə düşdülər. Molla Həsən Əfəndi əlində Quran düşməndən uşaqlara, qocalara və qadınlara rəhm etməyi xahiş etdi. Lakin erməni başkəsənləri Quranı mollanın əlindən alıb yandırdılar, Həsən Əfəndini isə tikə-tikə doğradılar. Qaçmağa çalışan qadın və uşaqları qəddarlıqla öldürdülər. Qırğın yerinə gəlmiş ordubadlılar 62 qadın cəsədi və 15 nəfər günahsız körpənin kəsilmiş başını gördülər.

1905–1906-cı illərdə çarizmin Azərbaycanda törətdiyi milli qırğın bununla bitmir. Sonrakı tarixi dövrlərdə xalqın imperiya əsarətinə qarşı milli-azadlıq hərəkatı coşduqda bu tədbirə təkrar-təkrar əl atılmışdır. Hər dəfə də imperiya himayədarlarının fitvası ilə ermənilər türklərin qanına susamış və qətl-qarətlər törətmişdilər.

## § 4. Milli hərəkatın genişlənməsi

Rusiyanın Qafqazdakı hakimiyyəti dövründə qonşu xalqlara nisbətən Azərbaycanda milli və ictimai zülm daha dözülməz idi. Qonşu ölkələrdə milli məktəblər, kilsələr, milli mətbuat, müxtəlif xeyriyyə cəmiyyətləri olduğu halda, bunlar xalqımız üçün, əsasən, yasaq edilmişdi. Xristian kilsəsinə etimad və qayğı göstərildiyi halda, məscidlərimiz təqib olunurdu. Rus məmurlarının razılığı olmadan yeni məscid binası tikmək mümkün deyildi.

Keçən əsrin sonlarında mütərəqqi rus ziyalılarının azadlıq ideyaları imperiyanın tədricən müstəmləkələrində, o cümlədən Azərbaycanda da əks-səda doğururdu. Millətin qabaqcıl ziyalılarının milli mənlik şüurunda bir oyanış, təbədüllat baş verməkdə idi.

XX əsrin başlanğıcında Rusiya gerçəkliyinin doğurduğu labüd siyasi hadisələrin (rus–yapon müharibəsi, imperiyanı sarsıdan 1905–1907-ci illər inqilabı, kütləvi tətillər və s.) təsirilə mütləqiyyət bəzi demokratik dəyişikliklər etməyə məcbur oldu. Belə bir tarixi şərait Azərbaycanda milli burjuaziyanın formalaşmasına və milli şüurun inkişafına təsir göstərirdi. İstedadlı gənclərin imperiyanın və dünyanın müxtəlif təhsil ocaqlarına göndərilməsi müsbət səmərəsini verirdi. Bu gənclər təhsillərini başa vurub Vətənə qayıtdıqdan sonra milli demokratik hərəkatın yaranmasında və inkişafında böyük rol oynayırdılar. Avropadakı qabaqcıl ideyalarla tanış olan gənc mütəxəssislər tədricən anlayırdılar ki, böyük ideyalara qovuşmaq üçün, ilk növbədə qan yaddaşına qayıtmaq, özünü dərk etmək, millətinin tarixini, mənəvi dəyərlərini araşdırmaq lazımdır.

Bu istiqamətdə müəyyən işlər görülür, milli məktəblərin açılması planlaşdırılır, proqramlar hazırlanır, dərsliklər yazmağa təşəbbüs göstərilirdi. Ayrı-ayrı xarici müəlliflərin ən yaxşı əsərləri dilimizə tərcümə edilirdi.

Bu dövrdə Azərbaycanda özünüdərkə, milli hərəkatın güclənməsinə təsir edən amillərdən biri də çarizmin milli-müstəmləkə əsarətinə qarşı fəhlələrin inqilabi mübarizəsi, kəndli hərəkatı və orduda etiraz çıxışlarının eyni vaxtda baş verməsi idi. 1904–1905-ci illərin rus-yapon müharibəsində çarizmin biabırçı məğlubiyyəti imperiyanın türk-müsəlman xalqlarına qarşı çevrilmiş Şərq siyasətinə mənfi təsir göstərdi. Milli hərəkatda «Milliyyət və hürriyyət», «Məşrutə və müsavat» ideyaları geniş vüsət almışdı. Xalqın düşüncəsində Azərbaycan məfhumu coğrafi mənadan daha çox fikir və əməl şəklində təcəssüm edirdi. Məhəmməd Əmin Rəsulzadənin dediyi kimi, «millət inanmağa başladı ki, istiqlal xaricində onun üçün əlavə Azərbaycan yoxdur».

O dövrki milli ziyalılarımızın qabaqcıl nümayəndələrindən Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Əlimərdan bəy Topçubaşov, Firidun bəy Köçərli, Məhəmməd Əmin Rəsulzadə və başqaları mətbuatda çıxış etməklə xalqın şüurunun oyanmasında və

millətin formalaşmasında mühüm rol oynayırdılar. Bu işdə Həsən bəy Zərdabinin və Məhəmməd Əmin Rəsulzadənin millətçilik və dövlətçilik, Cəlil Məmmədquluzadənin demokratizm və azərbaycançılıq ideyaları misilsiz dərəcədə təsir gücünə malik idi.

Formalaşan milli təfəkkürümüz türk aləminin görkəmli mütəfəkkirləri İsmayıl Qasprinski, Əli bəy Hüseynzadə, Yusif Ağçuraoğlu, Əhməd bəy Ağayev, Ziya Göyalp və başqalarının türkçülüyə dair fikirlərindən bəhrələnirdi. Onlar obyektiv olaraq Azərbaycanın milli müstəqilliyini ümumtürk azadlığının tərkib hissəsi kimi qarşıya qoyurdular. Vaxtilə Türkiyə cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk belə demişdi: «Müstəmləkə halında yaşayan hər hansı bir xalq özü üçün ibrət dərsi götürə bilər. Müstəqilliyini əlindən vermiş hər hansı bir millət hansı həyat şəraitində yaşayırsa yaşasın, o mədəni bəşəriyyətin gözündə yaltaq nökərdən başqa bir şey deyildir. Azadlıq şirin şeydir. Lakin bunu heç vaxt iki əllə gətirib xalqlara vermirlər. Azadlıq qanla alınır».

Əsrimizin əvvəlində ilk addımlarını atmağa başlayan milli hərəkatın hələ lazımi təcrübəsi və əsaslandırılmış konsepsiyası yox idi. Milli hərəkatın əsas aparıcı qüvvəsi milli burjuaziya və demokratik ziyalılar idi. Lakin bu qüvvələrin hər ikisi siyasi cəhətdən hələ yetkin deyildi. Siyasi muxtariyyət haqqında proqramlar dəqiqləşməmişdi. Onlar obyektiv olaraq imperiyanın müstəmləkə zəncirini qırmaq üçün yollar axtarırdılar. Çar hökumətinin böyük dövlətçilik siyasəti, milli zülmün gücləndirilməsi, xalqların hüquqlarının məhdudlaşdırılması və s. cəmiyyətin bütün təbəqələrinin nümayəndələrini milli məsələ ətrafında birləşdirirdi. Millətin taleyindən narahat olan cəmiyyətin mütərəqqi hissəsi mövcud quruluşun yeniləşməsini, islahatlar keçirilməsini daha qətiyyətlə tələb edirdi. Xalqın hər cür hüquqsuzluğu, onun arzu və amalları haqqında çar idarələrinə bildirmək və demək imkanı yaranmışdı. Bu məsul işi həyata keçirmək milli ziyalıların öhdəsinə düşürdü.

1905-ci ilin yazında Azərbaycanın liberal ziyalıları petisiya kampaniyasına başladılar. İlk petisiya Cənubi Qafqaz müsəlmanları adından 1905-ci ilin aprelində Ə.Topçubaşov tərəfindən yazılmış və Nazirlər Kabinetinə təqdim edilmişdi. Petisiyanı Ə.Topçubaşov, Ə.Ağayev, M.Vəkilov, Ş.Əsədullayev, Ə.Ziyadxanov, Q.Zülqədərov və başqaları imzalamışdılar. Bu petisiya əslində Qafqazın, o cümlədən Azərbaycanın qanunvericilik əsasında yenidən qurulması üçün ümummilli proqram idi. İctimai və təsərrüfat həyatında müsəlmanlar üçün qoyulan

məhdudiyyətlər çox aydın şəkildə göstərilirdi. Qafqazda zemstvo tətbiqi xüsusi qeyd olunmuşdu. Petisiyada müsəlmanlara demokratik azadlıqlar verilməsinə xüsusi yer ayrılmışdı.

Az sonra Gəncə quberniyası müsəlmanları adından, demək olar ki, eyni məzmunlu petisiya Peterburqa göndərilmişdi. Zaqatala dairəsi, eləcə də Nuxa və Cavad qəzalarının müsəlman əhalisinin Qafqaz canişininə petisiyaları ünvanlandı. 1905-ci ilin iyununda Ə.Topçubaşovun yeni yazdığı petisiya Qafqaz canişini qraf Vorontsov-Daşkova şəxsən təqdim edildi. Burada müsəlman əhalisinə ruslarla bərabər siyasi, mülki və dini hüquqların verilməsi ayrıca qeyd edilirdi. Canişin ana dilində məktəblərin açılmasına icazə verəcəyini vəd etdi. Bundan az sonra dal-badal ana dilində «Həyat» (redaktorları Ə.Ağayev, Ə.Hüseynzadə), «İrşad» qəzetləri və «Füyuzat» jurnalının nəşrinə başlanıldı. Ə.Topçubaşov məqalələrindən birində yeni yaranan siyasi partiyaların əlbir fəaliyyət göstərmələrini təklif etmişdi. Cənubi Qafqazda qanunvericilik səlahiyyəti olan siyasi partiyaların yaradılmasını da o irəli sürmüşdü.

Cənubi Qafqaz müsəlman ziyalılarının təşəbbüsləri Krım və Kazan ziyalıları tərəfindən böyük həvəslə müdafiə edildi.

Xaricdə təhsil alıb Vətənə qayıdan türk xalqlarının ziyalıları ilk vaxtlar siyasi həyatda, əsasən, Rusiya sosial-demokratlarının mövqeyində dayanırdılar. Onların yaratdığı ilk siyasi təşkilatlar bu məqsədə xidmət edirdi. Lakin zaman keçdikcə onlar başa düşürdülər ki, müstəmləkə əsarətində olan xalqın azadlığı bolşeviklərin məramnaməsində nəzərdə tutulan sinfi mübarizədən daha çox milli-demokratik mübarizəni ön plana çəkməyi tələb edir.

1905–1907-ci illər inqilabı türk xalqları içərisində milli hərəkatın yüksəlişinə təkan verdi. Türk məmləkətləri milli burjuaziyasının qabaqcıl ziyalıları imperiyaya qarşı birgə mübarizəni təşkil etmək üçün ümumi siyasi partiyanın yaradılmasını məqsədəuyğun hesab etdilər.

Bu işin əsas təşəbbüskarlarından və təşkilatçılarından biri Azərbaycanın görkəmli ictimai və siyasi xadimi Əlimərdan bəy Topçubaşov idi. Müstəmləkə əsarətinə qarşı mübarizə üçün partiya yaratmaq ideyası müsəlmanlar yaşayan bütün bölgələrdə – Qafqazda, Krımda, Tatarıstanda, Mərkəzi Asiyada, Sibirdə və s. yerlərdə maraqla qarşılandı.

1905-ci ilin iyununda Rusiya müsəlmanlarının 500 nəfər nümayəndəsi Çistopola yığışdı. Burada əsas demokratik azadlıqları saxlamaq şərti ilə Konstitusiyalı monarxiya quruluşu haqqında qətnamə qəbul edildi. Müsəlman ittifaqı yaradılması da qərara alındı.

1905-ci il avqustun 15-də Nijni-Novqorodda «Müsəlman ittifaqının» («İttifaqi–müslimin») təsis qurultayı keçirildi. Qurultay gizli çağırılmışdı. Sədrliyə «dildə, fikirdə və əməldə birlik» sözlərinin müəllifi İ.Qasprinski seçildi. Qurultayı görkəmli Azərbaycan ziyalısı Ə.Topçubaşov açdı. Qurultayda Rusiyanın bütün müsəlmanlarını birləşdirən siyasi partiyanın yaradılmasından söz açıldı.

«Konstitusiyalı müsəlman partiyası» «İttifaqi-müslimin»in II və III qurultayları da formalaşdı. II qurultay 1906-cı ilin yanvarında Peterburqda, III qurultay isə həmin ilin avqustunda Nijni-Novqorodda keçirildi. Həmin qurultaylarda partiyanın Ə.Topçubaşov tərəfindən yazılmış proqram və nizamnaməsi qəbul edildi. II qurultayda T.Qarabəyov və Ə.Axundov da iştirak edirdilər. «İttifaqi-müslimin»in proqramı, demək olar ki, Kadet partiyasının proqramını təkrar edirdi. Partiyanın III qurultayında Mərkəzi Komitə seçildi. Komitənin daimi yeri Bakı şəhəri seçilmişdi.

Partiyanın Mərkəzi Komitəsinə seçilən 15 nəfər arasında İ.Qasprinski, Ə.Topçubaşov, R.İbrahimov, U.Akçura və b. vardı. I Dövlət Duması buraxıldıqdan sonra 1906-cı ilin noyabrında MK-nın keçirilmiş iclasında Konstitusiyalı müsəlman partiyası Kadet partiyasından ayrıldığını elan etdi. Partiya yarımleqal şəraitdə fəaliyyət göstərirdi. Partiyanın IV qurultayı 1914-cü ilin iyununda Peterburqda keçirildi.

Ə.Topçubaşov təsis qurultayında «Rusiya imperiyası daxilində türklərin vəziyyəti və problemləri» mövzusunda çox maraqlı məruzə etdi. Elə həmin gün işini tamamlayan qurultay türk xalqlarının siyasi taleyində mühüm və cəsarətli addım atdı. Türkçülük və müsəlmançılıq əsasında birləşmənin vacibliyi qeyd edildi. I qurultayda Azərbaycanı Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Şəmsi Əsədullayev, Haşım bəy Vəzirov, Səfər Tağızadə və başqaları təmsil edirdilər.

Çarın 1905-ci il 17 oktyabr manifestindən sonra qurultayda nəzərdə tutulan partiyanın yaradılması reallaşdı. Həmin ilin sonunda çarizmin Azərbaycanda törətdiyi milli qırğınla əlaqədar şikayətə gedən Ə.Topçubaşov və Ə.Ağayev paytaxtda Əbdürrəşid İbrahimovla birlikdə «Müsəlman ittifaqı»nın nizamnaməsini və proqramını hazırladılar.

Ümumrusiya müsəlman ittifaqının nümayəndələri II qurultayı tərk edərkən türklərin mənafeyinə namusla qulluq edəcəklərinə and içdilər. 1906-cı ilin aprelində fəaliyyətə başlayan I Dövlət Duması «Müsəlman parlament fraksiyası»nın təşəbbüsü ilə həmin il avqustun 16–23-də Nijni-Novqorodda Ümumrusiya müsəlmanlarının III qurultayı keçirildi.

Bu dəfə də qurultayın iclaslarının əksəriyyətinə Ə.Topçubaşov sədrlik etdi. Bu, türk ziyalıları içərisində onun nüfuz və mövqeyinin yüksək olduğunu göstərirdi.

Qurultayda vacib siyasi problemlərlə yanaşı, türklər yaşayan bölgələrdə yenitipli məktəblərin yaradılması, ibtidai icbari təhsilə keçilməsi, təhsilin ana dilində aparılması, rus dilində təhsil alan müsəlman gənclərə ana dili və şəriət təlimi, mədrəsələrin yenidən təşkili, milli kadrlar hazırlamaq üçün Bakıda, Kazanda və Baxçasarayda pedaqoji institutların açılması, milli ənənələrə diqqətin artırılması və s. məsələlər də müzakirə edildi.

Özündən əvvəlki qurultayların prinsiplərini davam və inkişaf etdirən III qurultay Rusiya türklərinin birliyinin yaradılması və möhkəmləndirilməsi sahəsində faydalı iş gördü. Məhz bu qurultayların təsiri nəticəsində türk bölgələrində məktəblər şəbəkəsi genişləndirilmişdi. Milli mətbuat çoxalmışdı. Lakin Rusiyada baş verən hərbi-siyasi hadisələr nəzərdə tutulan məsələlərin çoxunu həyata keçirməyə imkan vermədi.

Kommunist partiyası sənədlərində və xeyli tarix ədəbiyyatında Azərbaycan milli burjuaziyasının inqilab dövründə milli hərəkatda iştirakı tamamilə təhrif edilmişdir. O dövrə həsr edilmiş əsərlərdə ticarət və sənaye burjuaziyasının başda Hacı Zeynalabdin Tağıyev olmaqla, çoxsaylı nümayəndələrinin müstəqil mübarizəyə qadir olmadıqları və xalqın milli-azadlıq hərəkatından yalnız öz məqsədləri üçün istifadə edərək çardan bir sıra islahat keçirməsini tələb etdikləri göstərilir ki, bunların hamısı həqiqətdən uzaqdır.

Bütün həyatı boyu xalqının yaxşı yaşamasına səy göstərmiş, qeyrətli, səxavətli, xeyirxah H.Z.Tağıyev və onun həmkarları haqqında belə fikirlər söyləmək ən azı ədalətsizlikdir. Onlar milli burjuaziyanın nümayəndələri kimi mənsub olduqları millətin qarşısında vicdani borclarını imkan daxilində yerinə yetirirdilər.

Mütləqiyyət quruluşunu lərzəyə salmış 1905–1907-ci illər inqilabı Azərbaycanda milli-azadlıq hərəkatını gücləndirmişdi.

Bu dövrdə milli burjuaziyanın nümayəndələri və ziyalılar xalqı maarifləndirmək və milli şüuru inkişaf etdirmək məqsədilə xeyriyyə cəmiyyətləri təşkil edir, məktəblər açır, qəzetlər nəşr edir, istedadlı gəncləri öz xərcləri hesabına Rusiyanın və Avropanın ali təhsil ocaqlarına oxumağa göndərirdilər. Təəssüflər olsun ki, belə xeyirxah əməllərin sahiblərinin adları iftixarla çəkilməyə layiq olduğu halda, onlar sonrakı nəsillərə xalqın düşməni kimi təqdim edilmişlər.

Milli kadrların təşəkkülündə mətbu sözün qüdrətini yaxşı başa düşən ziyalılar ana dilində qəzet nəşri məsələlərini dəfələrlə rəsmi dairələr qarşısında qoymuşdular. 1905-ci ilin iyununda ana dilində nəşr edilən «Həyat» qəzeti işıq üzü gördü. Elə ilk nömrəsində qəzet yazırdı ki, biz müsəlman olduğumuz üçün iqtisadi və siyasi tərəqqi istəyirik. Biz müsəlman olduğumuza görə, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, din qardaşlarımıza tərəqqi arzu edirik. Biz türkük və ona görə də bütün türklərə hər yerdə və daima firavanlıq və xoşbəxt həyat diləyirik.

1905-ci ilin payızında «Müsəlman Cəmiyyəti-xeyriyyə» və «Müdafiə cəmiyyəti, müsəlman kübarları, ziyalılarının və ali müsəlman təbəqələrinin ittifaqı» təsis edildi. Birinci cəmiyyətin maarifin yayılmasında böyük xidməti olmuşdur. İkinci cəmiyyət üzvləri Bakı şəhərinin adlı-sanlı adamlarına müraciətdə hökumət əleyhinə çevrilmiş milli-azadlıq hərəkatını müdafiə etdiklərini bildirirdilər.

1906-cı ildə H.Z.Tağıyev və M.Muxtarovun xeyriyyəçiliyi ilə təşkil edilmiş «Nəşri maarif», eləcə də «Nicat» maarif cəmiyyətləri əhalinin maariflənməsində, milli şüurun oyanmasında və milli-azadlıq hərəkatının güclənməsində böyük xidmətlər göstərmişdilər.

Milli hərəkatın inkişafında demokratik ziyalıların da rolu az deyildi. Onların qabaqcıl nümayəndələrindən C.Məmmədquluzadə, M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Əzimzadə və başqaları «Molla Nəsrəddin» jurnalının ətrafında birləşməklə milli-müstəmləkə zülmünə, ictimai ədalətsizliyə qarşı çıxır, xalqımıza siyasi azadlıqlar və milli hüquq bərabərliyi tələb edirdilər.

H.Zərdabi, Ü.Hacıbəyov, F.Köçərli və başqaları publisist yazıları ilə xalqı milli intibaha səsləyirdilər.

Milli hərəkatın tələblərindən biri milli dilin azad inkişafı və təhsilin ana dilində olması idi. Bu tələbi xalq müəllimləri və ziyalıları təkidlə müdafiə edirdilər. Azərbaycan müəllimlərinin 1906-cı ilin avqustunda keçirilmiş I qurultayının əsas qayələrindən birini məhz bu tələb təşkil edirdi.

Qurultayda rus-tatar məktəblərində Azərbaycan dilinin icbari fənn kimi keçilməsi, yeni dərs proqramlarının tərtibi, müəllimlərin həyat şəraitinin yaxşılaşdırılması, müəllim seminariyalarının təşkili kimi cəsarətli tələblər irəli sürülmüşdü.

İnqilabın məğlubiyyətindən sonra Azərbaycanda milli-azadlıq hərəkatının nümayəndələri ciddi təzyiqə məruz qaldılar. Azadlıq ideyala-

rını təbliğ etdiklərinə görə bəzi qəzet və jurnallar «zərərli istiqamətlərinə» görə bağlanıldı. Bolşevik mətbuatında isə milli-azadlıq hərəkatının layiqli nümayəndələrinə qara yaxılmağa başlanıldı. Məhəmməd Əmin Rəsulzadə, Məmməd Həsən Hacınski, Qara Qarabəyov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə və bir çox başqalarının milli-azadlıq hərəkatının inkişafındakı xidmətləri saxtalaşdırılırdı. Çox təəssüf ki, bəzən tarixşünaslıqda da belə təhrif və saxtakarlığa haqq qazandırılır.

1910-cu ildən ölkədə tətil və kəndli hərəkatının yeni dalğası başlandı. Birinci Dünya müharibəsi ərəfəsində milli münasibətlər yenidən pisləşdi. İmperiyanın müstəmləkələrində milli istiqlal uğrunda hərəkat geniş vüsət aldı.

## § 5. Milli partiyaların yaranması və fəaliyyəti

Rusiya imperiyasının siyasi həyatında baş verən təlatümlü hadisələr onun müstəmləkə ucqarlarında əksini tapırdı. Birinci Rus inqilabı belə hadisələrdən idi.

Azərbaycanda xalqın milli şüurunun oyanmasında və milli ideologiyanın formalaşmasında inqilabın təsiri şəksizdir. Qabaqcıl milli ziyalılar tarixin yaratdığı şansı düzgün dərk edirdilər. Əhalini birləşdirib təşkilatlandırmaq üçün siyasi partiyaların yaradılmasını vacib bilirdilər.

İmperiyanın müstəmləkə buxovlarından azad olmaq məqsədilə ilk gizli siyasi təşkilatların yaradılmasına başlanılmışdı. Bakı texniki məktəbinin 17 yaşlı şagirdi, sonralar Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olmuş Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə 1902-ci ildə «Müsəlman gənclik təşkilatı» yaradıldı. Az sonra həmin təşkilat «Müsəlman demokratik «Müsavat» cəmiyyəti»nə çevrildi. Gizli fəaliyyət göstərən cəmiyyətin xeyli üzvü vardı. Cəmiyyətin yığıncaqlarında vacib məsələlərə aid qızğın və işgüzar müzakirələr gedirdi.

Bakıdakı nümayişlərdə və kütləvi tətillərdə müsəlman fəhlələrinin fəallığı tədricən hiss edilməkdə idi. Bakının neft mədənlərində, mexaniki istehsalda, başqa sənaye sahələrində, eləcə də dəmiryolu və dəniz limanında çalışan fəhlələrin böyük əksəriyyətini müsəlmanlar təşkil edirdilər. Bundan əlavə, qəzalardakı sənaye sahələrində çalışan on minlərlə fəhlənin, demək olar ki, hamısı azərbaycanlılardan ibarət idi. Onların çoxu savadsız və azsavadlı kəndlilərdən ibarət idilər. Əslində ana dilində nə kifayət qədər mətbuat orqanı, nə də ədəbiyyat vardı. Belə bir vəziyyətdə fəhlələrin milli şüurunun oyadılması istiqamətində

iş görmək çətinləşirdi. Mövcud şəraiti nəzərə almaqla münasib çıxış yolları axtarmaq lazım idi.

Bakı bolşevikləri və menşevikləri ilk vaxtlar şəhər fəhlələrinin yarısını təşkil edən azərbaycanlılar arasında siyasi iş görülməsinə əhəmiyyət vermirdilər. Lakin əsrin əvvəllərində azərbaycanlı ziyalıların bir qrupu öz fəaliyyətlərində bu işə böyük əhəmiyyət verməyə başladılar. Onlardan S.M.Əfəndiyev, Ə.Axundov və b. RSDFP-nin üzvləri idi. İlk vaxtlar sosial-demokrat ideyasına rəğbət bəsləyən M.Ə.Rəsulzadə, M.Mirqasımov, M.Hacınski, A.Kazımzadə də bu qrupa daxil idilər.

1903-cü ildə M.Ə.Rəsulzadə və həmkarları tərəfindən təşkil edilmiş «Azərbaycanın gənc inqilabçıları dərnəyi» sonra «Hümmət»in yaradılmasında əsas oldu. 1904-cü ilin oktyabrında müsəlman dünyasında ilk sosial demokrat təşkilatı olan «Hümmət» (Güc) fəaliyyətə və eyniadlı qəzet nəşrə başladı. «Hümmət» təşkilatı bütün dövrlərdə, qısa fasilələr nəzərə alınmasa, öz müstəqilliyini qoruyub saxlamışdı. «Hümmət» təşkilatına S.M.Əfəndiyev, S. Mövsümov, M.Ə.Rəsulzadə, İ.Aşurbəyov, T.Tağızadə, Q.Qarabəyov, S.Yaqubov, M.Axundov, H.Sultanov, M.Hacınski və b. daxil idilər. 1905–1907-ci illərdə təşkilatın rəhbərliyi 11–12 nəfərdən ibarət olmaqla yanaşı təşkilatın fəal üzvlərinin sayı isə 60 nəfərdən yuxarı idi. 1905-ci ildən «Hümmət» təşkilatının nüfuzu xeyli artmışdı. Hümmətçilərin İran inqilabında iştirakı güclənmişdi. 1909-cu ildə İrana getmiş M.Ə.Rəsulzadə orada «İran-i-Nou» (Yeni İran) qəzetinin nəşrinə başladı.

«Hümmət» təşkilatı Mehdibəy Hacınskinin «İrşad» mətbəəsində sosial-demokrat istiqamətli «Dəvət-Qoç» (Çağırış), «Təkamül» və 1907-ci ilin sentyabrından «Yoldaş» qəzetlərini nəşr edirdi. Bu qəzetlərin səhifələrində M.Mövsümov, M.Mirbağırov, M.Hacınski və b-nın dövrün mühüm problemlərinə həsr edilmiş məqalələri çap edilmişdi. 1908-ci ildən M.Ə.Rəsulzadə sosial-demokratiyadan uzaqlaşmağa başlayır. «Nicat» mədəni-maarif cəmiyyətinin sədri kimi M.Ə.Rəsulzadə, eləcə də digər hümmətçilər bu sahəyə xüsusi diqqət yetirirdilər. M.Ə.Rəsulzadə 1909-cu ildən İrana gedənədək «Hümmət»lə sıx əməkdaşlıq etmişdi. Ə.Ağayev rəsmi olaraq bu təşkilatın üzvü olmasa da, onunla sıx əlaqə saxlamışdı. «Hümmət» təşkilatının Gəncədə, Şuşada, Naxçıvanda, Culfada şöbələri fəaliyyət göstərirdi. Siyasi fəallığına və üzvlərinin sayının çoxluğuna görə 1905-ci ildə təşkil edilmiş Tiflis şöbəsi xüsusi olaraq seçilirdi. «Hümmət»in Tiflis şöbəsi formal olaraq menşevik istiqamətini əsas tuturdu. M.B.Mirheydərzadə, K.Ca-

malbəyov, Ə.Yüzbaşev, Ə.Bayramov, H.Tağızadə, T.Novruzov və başqaları Tiflis şöbəsinin ən fəal üzvlərindən idilər. Tiflisdəki «Hümmət» təşkilatının Azərbaycanın, demək olar ki, bütün şəhərlərində, eləcə də İrəvanda, Qarsda, Batumda, Petrovskdə, Vladiqafqazda və digər şəhərlərdə şöbələri vardı. Bu təşkilatın Naxçıvan şöbəsi bürosuna M.Mirheydərzadə, Ə.Yüzbaşev, A.Sultanov, N.Nəcəfov, M.Bektaşev, N.Şeyxov, H.Məmmədov, K.Camalbəyov daxil edilmişdilər. Tiflis «Hümmət»inin ayrıca proqramı vardı və onu 1909-cu ildə jandarm nümayəndələri Naxçıvanda Məmmədəli Kərbalayı İsmayıl oğlunun evində axtarış zamanı tapmışdılar. Proqramın 13-cü maddəsində demokratik azadlıqlardan bəhs edilirdi. Məhz Bakı və Tiflis hümmətçilərinin yaxından iştirakı ilə İran inqilabına, xüsusən Təbriz üsyançılarına könüllü köməyə gedənlərin sayı 800 nəfərdən çox olmuşdu.

1905-ci ilin oktyabrında Bakıda milli eser təşkilatı «İttifaq» meydana çıxdı. «İttifaq» özünü sosialist-inqilabçılar partiyasının müsəlman təşkilatı elan etmişdi. Təşkilatın üzvləri, əsasən xırda burjua nümayəndələrindən, ziyalılardan və fəhlələrdən ibarət idi. Təşkilatın liderləri R.Şərifzadə, M.Cuvarlinski və R.Məlikov olmuşdu. Əli Hacı Yaqub oğlu (Mikayılov), Ş.Poladov, tələbə Mehdiyev də «İttifaq»ın üzvlərindən idilər. Təşkilat 1907-ci ilin payızınadək fəaliyyətini davam etdirmişdi. Milli mənafeləri nəzərə alan ittifaqçılar hümmətçilərlə bir cəbhədən çıxış edirdilər.

1906-cı ilin yanvarında Kadet partiyasının Bakı bürosu fəaliyyətə başladı. Bakı kadetləri bütünlüklə Kadet partiyasının proqramını qəbul etmişdilər. Kadet partiyasının Bakı bürosuna Azərbaycan ziyalılarından Ə.Topçubaşov, M.T.Əlibəyov, İ.Səfərəliyev, İ.Hacıyev, İ.Hacınski və başqaları daxil idilər.

Bakı kadetləri Rusiyada yaşayan bütün xalqların ehtiyac və tələbləri ilə yanaşı, Qafqaz xalqlarına muxtariyyət də tələb edir və göstərirdilər ki, Qafqaz xalqlarının muxtariyyət şəklində yaşamağa böyük ehtiyacları vardır.

Müxtəlif vaxtlarda İngiltərənin və Rusiyanın vədlərinə aldanan erməni xəyalpərəstləri Türkiyə ərazisində Ermənistan dövləti yaratmaq planına 1904-cü ildə Cənubi Qafqazın bir hissəsi də əlavə edildi. Halbuki çarizmin son inzibati bölgüsünə əsasən Cənubi Qafqazdakı 54 qəzadan yalnız 5-də ermənilər bir qədər çoxluq təşkil edirdilər. Ermənipərəst Qafqaz canişini Vorontsov-Daşkov onların Qafqaza dair planlarını açıqlayaraq çara yazmışdı: «Daşnaksütyun partiyası təkcə er-

mənilərin yaşadığı bütöv bir ərazi yaratmaq istəyir ki, gələcəkdə Ermənistana muxtariyyət tələb edə bilsinlər».

İmperiyada ermənilərin «Daşnaksütyun» kimi təcrübəli partiyası, rus ordusunda qulluq etmiş əsgər və zabitləri vardı və kifayət qədər silah toplamışdılar. Dövlət idarələrinin müxtəlif pillələrində çalışan ermənilər münaqişəli məsələləri öz xeyirlərinə həll etdirməyə nail ola bilirdilər. Ruslar erməniləri xristian olduqlarına görə müdafiə edirdilər. Azərbaycanlıların qan düşməni olan daşnaklar kütləvi qətllər və təhdidlər yolu ilə onları ata-baba yurdlarından didərgin salmaqla torpaqlarını ələ keçirməyə çalışırdılar. Bu əməllərinə görə çar hökuməti tərəfindən cəzalandırılmayan quldurlar daha da azğınlaşırdılar. Hökumətin xəyanətini başa düşən Azərbaycan türkləri ermənilərin silahlı təcavüzündən qorunmaq üçün müxtəlif müdafiə təşkilatları yaratmağı qərara aldılar.

XX əsrin ilk illərinin siyasi hadisələri Azərbaycan cəmiyyətinin həyatında bir növ dönüş məqamı oldu. 1905-ci il sırf milli partiyaların yaranma ili oldu. Bunlardan birincisi Azərbaycanın sosialist-federalistlərinin «Qeyrət» adlanan partiyası idi. Gəncə XX əsrin əvvəllərində milli-azadlıq hərəkatının mərkəzinə çevrilmişdi. 1905-ci ilin fevralında Türk Sosial-Federativ İnqilabi Komitəsinin buraxdığı iki bəyannamədə əhali ümumi düşmənə – çarizmə qarşı mübarizəyə çağırılırdı. İkinci bəyannamədə Azərbaycanın ilk təşkilatı kimi Rusiya federativ quruluşunda Azərbaycana muxtariyyət verilməsi irəli sürülmüşdü. Məhz bu Komitə 1905-ci ilin yayında Gəncədə təşkil edilmiş «Qeyrət» partiyasının əsasını təşkil edirdi. Partiya özünü «Sosialist-federalist inqilabçıların partiyası» hesab edirdi.

Partiyaya Ə.Rəfibəyov, Ə.Xasməmmədov və A.Quliyev rəhbərlik edirdilər. Partiyanın özəkləri Şuşa və Bakıda da fəaliyyət göstərirdi. Partiya 1912-ciılədək fəaliyyət göstərmiş və 1917-ci ildə isə yenidən fəaliyyətini bərpa etmişdi. «Qeyrət» partiyasının bir çox üzvü «Difai» (Müdafiə) partiyası sıralarına qəbul edilmişdi.

1905-ci ilin oktyabr siyasi tətili günlərində xalq kütlələrinin təzyiqi altında çar 17 oktyabr manifestində söz, mətbuat, yığıncaq, ittifaq azadlığı, ictimai-siyasi partiyalar, təşkilatlar yaratmağa icazə verdi. Manifestdən sonra Azərbaycanda da müxtəlif partiyalar yaradıldı və milli mətbuat nəşrə başladı.

1905-ci ilin yayında və payızında Azərbaycan türklərinə qarşı milli qırğınlar faciəvi hal aldığı üçün milli burjuaziya və mülkədarların

nümayəndələri, həmçinin ziyalılar siyasi partiyalar və silahlı müdafiə üçün cəmiyyətlər yaratmağa məcbur oldular. «Difai» partiyası 1906-cı il fevralın 26-dan martın 6-dək Canişin qraf Vorontsov-Daşkovun sədrliyi ilə keçirilmiş erməni-azərbaycanlıların barışdırıcı qurultayından sonra təsis edilmişdi. Qurultayda görkəmli ziyalılardan Ə.Topçubaşov, Ə.Ağayev, İ.Ziyadxanov, İ.Hacıyev, Q.Qarabəyov iştirak edirdilər.

1906-ci ilin birinci yarısında Qarabağda, Naxçıvan və İrəvanda baş vermiş qırğınlar «Difai» partiyasının yaranmasını zəruri etmişdi. Bu dövrdə Xankəndində kazakların gözü qabağında azərbaycanlı qadın və uşaqların qətlə yetirilməsi, K.Mehmandarov və Nəcəfqulu ağa Cavanşirin malikanələrinin ermənilər tərəfindən yandırılması silahlanmış azərbaycanlılardan ibarət dəstələrin hiddətinə səbəb oldu. Həmin ilin iyulunda ermənilər Şuşada yenidən azərbaycanlıları qırmağa başladılar. Avqustun əvvəlində Şuşaya gəlmiş Ə.Ağayev burada ağsaqqalları toplayaraq bildirdi ki, hökumətin rəsmi nümayəndəsi general Kalaşakov erməni başkəsənləri ilə birləşərək müsəlmanları qırırlar. Bizim ümidimiz özümüzədir. Kərim bəy Mehmandarovun alovlu nitqi buraya toplaşanlar tərəfindən rəğbətlə qarşılandı. Yenicə yaradılmış «Difai» partiyasının Mərkəzi Komitəsi Bakıda yerləşsə də qəzalarda onun şöbələri fəaliyyət göstərirdi. MK-ya Ə.Ağayev, Q.Qarabəyov, M.H.Hacınski, İ.Aşurbəyov, B.Cavanşir, N.Behbudov daxil idilər. Göründüyü kimi, hümmətçilərin bir qismi «Difai» sıralarına keçmişdi.

«Difai» partiyasının qəza şöbələrinin hər birinə 7-15 nəfər daxil idi. Deməк olar ki, o qədər də təbliğatçı vardı. Azərbaycanın 7 şəhərində (Bakı, Şuşa, Gəncə, Ağdam və b.) Difai fəallarının sayı 160 nəfərdən çox olmuşdu. Şuşa komitəsinin 400 nəfərdən çox üzvü vardı. 1907-ci ildə partiyanın bütün döyüş drujinalarında 1000-dən çox döyüşçü vuruşmuşdu. Partiyanın Gəncə təşkilatına böyük nüfuza malik olan axund M.Pişnamazzadə sədrlik edirdi. Buraya H.Usubbəyov, Ə.Xasməmmədov, M.Rəfiyev, Muxtar bəy və Cavid bəy Qaziyev qardaşları, Molla İsmayılzadə, Hacı Mirqasım Həmzəyev də daxil idilər. Üzvlərinin sayına və nüfuzuna görə ən böyük şöbə Şuşada yerləşirdi. 1907-ci ilin ortalarından şöbə «Qarabağın birlik məclisi» adlandırıldı. H.Z.Tağıyev və Ş.Əsədullayevin təklifi ilə Qarabağda ermənilərdən torpaqların çox hissəsi satın alınaraq, bu torpaqlarda da azərbaycanlılar məskunlaşdırılmalı və bütövlükdə «Qarabağ müsəlman əyalətinə» çevrilməli idi.

«Qarabağın birlik məclisi»nin fəaliyyəti ətraf qəzaların hamısını əhatə edirdi. Məclisin sədri Kərim bəy Mehmandarov idi. Məclisə Cahangir xan Nurubəyov, Xuduş Quliyev, Məşədi Şamil Hacıyev, Muxtar bəy Muradov, İsmayıl bəy Axundov, Süleyman Əsgərov, Hacı Sadıx Məmmədov, Məşədi Əhməd Əzimov, Hacı Hüseyn Munşiyev və bütövlükdə 18 nəfər daxil idi.

Ağdam komitəsinə Zülfüqar bəy Haqverdiyev sədrlik edirdi. Komitə üzvləri Səlim bəy Rüstəmov, Baxış və Şükür bəy Kazımbəyov qardaşları, Cəfər bəy Vəzirov, Qəhrəman ağa Cavanşir, Qasım bəy Vəzirov və b. daxil idi.

Bərdə komitəsinə Məşədi Mehdiqulu Hacı Şərif sədrlik edirdi. Komitə üzvləri və təbliğatçılar sırasına Musa Quliyev, Hüseynəli Kərbəlay oğlu, Allahverdi Hacı Pənah oğlu və b. daxil idilər. Eyni komitələr Tərtərdə, Qarabulaqda (Qaryagində), Cəbrayılda və digər yerlərdə də fəaliyyət göstərirdilər.

Döyüş təşkilatı kimi təsis edilmiş «Difai» öz xalqını əzab-əziyyətlərdən xilas etmək üçün düşməni–erməni quldurlarını məhv etməyi ön sıraya çəkmişdi. Partiyaya Bakıdakı «Nicat», «Nəşri-Maarif», Gəncədəki «Cəmiyyəti-Xeyriyyə», Şuşadakı «Hidayət» və b. xeyriyyə cəmiyyətləri yaxından köməklik göstərirdilər. Partiyanın rəsmi çap orqanlarının üzərində aypara, altıguşəli ulduz və başqa işarələr əks olunmuşdu.

Əhalinin siyasi səviyyəsini qaldırmaq məqsədilə geniş mədəni-maarif işləri görülürdü. Müsəlmanların birliyini, maarifin genişləndirilməsini, mövcud cəmiyyətdə qanun-qayda yaradılmasını və bir çox başqa məsələləri təbliğ edirdi.

«Difai» partiyası verdiyi bəyanatda bildirirdi ki, ermənilər yenə də qan tökmək niyyətində olsalar, onda onlar layiqli cavab alacaqlar. «Daşnak firqəsi əmin olsun ki, heç bir vaxt biz öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin xoşbəxt həyat qurmasına yol verməriк», həmçinin partiyanın bəyanatında milli qırğın törədən hökumət dairələri lənətlənir və ermənilərə ciddi xəbərdarlıq edilirdi ki, tökülən günahsız qanlara görə onlar ən amansız cəza alacaqlar. Həqiqətən də, təşkilatın üzvləri azğınlaşmış erməni quldurlarına divan tuturdular. «Difai» təşkilatı imperiyanın yerlərdəki qəddar ali rütbəli məmurlarını da vahiməyə salmışdı.

Partiyanın fəaliyyətində kütləvi qırğınları törədənlərin qətli nəzərdə tutulurdu. Məsələn, general Kalaşakovun qətlinə bir qrup, başda

Məşədi Şamil Hacıyev, Məşədi Səlim Ağa oğlu, Cahangir xan Nurubəyov olmaqla böyük hazırlıq işləri görmüşdü. Qətli Gülablı kənd sakini Hüsü Əli oğlu Tiflisdə həyata keçirmişdi. Partiyanın yaydığı bəyannamədə bildirilirdi ki, xalqımızın qəddar düşməni Kalaşakov öz ömrünü biabırcasına başa vurdu. Yaşasın, «Difai».

Kalaşakovun dəftərxanasının rəisi Kleşinskinin qətlinə də hökm verilmişdi. Bu işə rəhbərlik Gəncə komitəsinin üzvü Pişnamazzadəyə həvalə edilmişdi. Sui-qəsdi 1907-ci ildə Seyid Miri həyata keçirdi. Beləliklə, yüzlərlə günahsız öldürülmüş azərbaycanlının qanı yerdə qalmadı. «Difai» partiyası İran inqilabçılarına və gənc türklərə öz üzvlərini köməyə göndərməklə və pul vəsaiti ilə də kömək edirdi. Şuşadan Səttar xana dəyəri 3 min manatdan çox olan silah göndərilmişdi.

1908-ci ildə «Difai»nin fəaliyyəti hökumət idarələrini lərzəyə salmışdı. Ona görə də Qafqaz canişini partiyanın dağıdılması barədə göstəriş vermişdi.

İl ərzində partiya fəallarının bir hissəsi jandarm idarəsi tərəfindən həbs edilmişdi. Repressiyalar partiyanın fəaliyyətinə ağır zərbə vursa da partiya 1912-ci ilədək öz işini davam etdirməyə müvəffəq ola bilmişdi. Difaiçilərin çoxu 1911-ci ildə yaradılmış «Müsavat»ın sıralarına qəbul edilmişdi. Natamam məlumata görə, «Difai» Birinci Dünya müharibəsi dövründə də öz işini davam etdirmişdir. Difaiçi Aslan xan Xoyskinin (Fətəli xan Xoyskinin qardaşı oğlu) 1915-ci ilin fevralında Ənvər Paşa ilə Ərzurumdakı görüşü zamanı o, bunu bir daha təsdiq etmişdi.

1907-ci il mayın ortalarında «Müdafiə» partiyasının yaradılması haqqında məlumat verilmişdi. Partiyanın fəaliyyəti ölkəmizin qərb qəzalarını, eləcə də Borçalını əhatə edirdi. Partiyanın təşkilində Ağa bəy Qiyasbəyov, Hacı Kərim Saniyev (Sanılı), Əlibəy Xəlilbəyov və M.R.Vəkilov fəal iştirak etmişdilər. Partiyanın sədrliyinə podpolkovnik M.Vəkilov seçilmişdi. İsmayıl xan Ziyadxanovu partiyanın fəxri sədri hesab etmək olar, çünki o, 1907-ci ili bütünlüklə Peterburqda keçirmişdi.

A.Qiyasbəyov və H.Saniyevin tərtib etdikləri bəyannamədə partiyanın məqsəd və vəzifələri müəyyən edilmişdi. Bəyannamə Cənubi Qafqazın bütün müsəlmanlarına müraciətlə yazılmışdı. «Müdafiə» partiyası bildirirdi ki, sülh tərəfdarıdır, lakin xalqın bəlalarını törədənləri amansızlıqla cəzalandıracağını vəd edirdi. «Müdafiə» 1909-cu ilədək fəaliyyətini davam etdirmişdi. «Müdafiə» təşkilatı, həm də əhali içərisində maarifin yayılmasına, onların hüquq və mənafelərinin qorunmasına, kəndlilərin məişətinin yaxşılaşdırılmasına kömək etməyi nəzərdə

tuturdu. Bununla yanaşı, təşkilatın proqramında hökumət məmurlarının əhalinin mənafeyinə toxunmaq cəhdlərinin qarşısını almaq və digər vacib məsələlər də qoyulmuşdu.

Birinci Dünya müharibəsi ərəfəsində çarizm açıq müdaxilə yolu ilə İranda və Cənubi Azərbaycanda məşrutə hərəkatını boğdu. Balkanlarda Türkiyə əleyhinə geniş hərbi-siyasi kampaniya başladı. Rusiya Balkan xalqlarını hərbi və maliyyə cəhətdən təchiz edərək Türkiyəyə qarşı müharibəyə qaldırdı. Xristian aləmini türklərə qarşı səlib yürüşünə çağırdı. Rus şovinizmi imperiyanın müstəmləkələrində, o cümlədən Azərbaycanda xalqın oyanmasına təkan verdi. Milli-azadlıq ideyalarının xalq içərisində təbliğində yuxarıda göstərilmiş cəmiyyətlər, eləcə də «Nicat», «İşıq», «Səda», «İqbal» və başqa qəzetlər misilsiz rol oynayırdılar. Burada «Səda» qəzetinin redaktoru Haşım bəy Vəzirovun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Mətbuat milli mədəniyyətin və milli şüurun inkişafına təsir göstərdikcə Azərbaycanda çarizmin milli-müstəmləkə zülmünə qarşı geniş xalq kütlələrinin müqaviməti də güclənirdi. 1912–1913-cü illərin müharibəsində təklənmiş türklərə maddi və mənəvi yardım hərəkatı başlandı. Azərbaycan qadınları qiymətli zinət əşyalarını yığıb göndərirdilər. Müəllim və tələbələr könüllü şəkildə cəbhələrdə vuruşan türk ordusuna qoşuldular.

1911-ci ilin oktyabrında yaradılmış «Müsavat» (Bərabərlik) partiyası xalqımızın siyasi cəhətdən birləşməsində mühüm rol oynadı. Partiyanın bəyannamələrinin birində deyilirdi: «Müsavat» partiyası müsəlman dünyasının dağılmış qüvvələrini birləşdirmək və müsəlmanların milli və insani haqlarını müdafiə etmək məqsədilə açıq mübarizə meydanına atılmışdır. «Müsavat»ın yaradıcıları Abbasqulu Kazımzadə, Tağı Nağıyev və Məmmədəli Rəsulzadə idi.

«Müsavat»ın 1912-ci ildə çap edilmiş səkkiz maddədən ibarət proqramında müsəlman xalqlarının birliyinə, müstəqillik və dövlətçiliyinin bərpasına maddi və mənəvi yardım göstərmək vəd edilirdi. Həmçinin müsəlmanların birliyinə və tərəqqisinə çalışan partiyalarla əlaqə yaratmaq kimi mütərəqqi müddəalar da nəzərdə tutulmuşdu.

Azərbaycanda milli-azadlıq hərəkatına rəhbərlik etmək, əsarətdə olan türk xalqlarını ümumi düşmənə – çarizmə qarşı mübarizəyə cəlb etmək üçün belə nüfuzlu partiyanın yaradılması zəruri idi.

Partiyada türkçülük, islamçılıq və müasirləşmək ideyaları ilə yaşayan vətənin qeyrətli oğulları toplaşmışdı. Yazıçı Seyid Hüseyn də partiyanın ilk üzvlərindən idi.

1909-cu ildə İrana getməyə məcbur olmuş M.Ə.Rəsulzadə xalqımızın milli qəhrəmanları Səttarxanla, Bağırxanla tanış olmuş və Təbrizin inqilabi hərəkatında iştirak etmişdi. Çar hökumətinin tələbindən sonra buradan İstanbula gedən M.Ə.Rəsulzadə orada Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Yusif bəy Akçuraoğlu və türk dünyasının mütəfəkkirlərindən biri olan Ziya Göyalpla birgə işləməli oldu. M.Ə.Rəsulzadə vətənə qayıtdıqdan sonra «Müsavat» partiyasının ideya istiqaməti və qayəsi tamamilə yeniləşdi. O, Əli bəy Hüseynzadənin hələ 1904-cü ildə irəli sürdüyü «türkləşmək, islamlaşmaq və müasirləşmək» haqqındakı məşhur şüarını başlıca istiqamət kimi irəli sürdü.

Azərbaycandan başqa Qafqazın və müsəlmanlar yaşayan digər bölgələrin iri şəhərlərində «Müsavat» partiyasının şöbələri yaradıldı. Belə şöbələr azərbaycanlıların təhsil aldığı mərkəzi şəhərlərin ali təhsil ocaqlarında da təşkil edilirdi. Sonralar partiyanın Kiyev universitetində Yusif Vəzir Çəmənzəminlinin rəhbərliyi ilə yaradılmış şöbəsinin işində Şəfi bəy Rüstəmbəyov və başqaları fəal iştirak edirdilər.

Balkan müharibələri dövründə partiyanın yaydığı bəyanat Qafqazda böyük əks-səda doğurdu. Bəyannamədə türk xalqlarına müraciət edərək onları Türkiyəyə yardım etməyə çağırırdı. Orada deyilirdi: «Dindaşlar! Bilin və agah olun ki, yeganə ümidimiz və nicat çarəmiz Türkiyənin istiqlal və tərəqqisindədir». Çağırış çar hökumətini çox narahat etmişdi. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar verilmiş əfvi-ümumidən sonra Vətənə qayıtmış M.Ə.Rəsulzadə «Müsavat»ın daimi liderinə çevrildi.

1915-ci ilin sentyabrında böyük knyaz Nikolay Nikolayeviç Qafqaz canişini təyin edildi. Azərbaycandan keçərək Tiflisə gedən canişin Biləcəridə Bakı şəhəri başçılarına və qabaqcıl ziyalılara vəd etdi ki, xalqa lazımi azadlıqlar veriləcəkdir. Mətbuat sahəsində verilmiş güzəştlərlə yanaşı, canişin «Açıq söz» qəzetinin nəşrinə şəxsən özü icazə vermişdi. «Gündəlik türk qəzeti»ndə oktyabr ayından Mirzə Bala Məmmədzadə və başqaları əməkdaşlığa başladılar. Qəzet səhifələrində M.Ə.Rəsulzadə və onun əqidə dostlarının Azərbaycanın ictimai həyatının müxtəlif məsələlərinə dair məqalələri çap olunurdu.

## III FƏSİL

# CƏNUBİ AZƏRBAYCAN 1905–1911-ci İLLƏR İRAN İNQİLABINDA

### § 1. Cənubi Azərbaycan inqilab ərəfəsində və başlanğıcında

**İnqilab ərəfəsində sosial-siyasi vəziyyət**

XX əsrin başlanğıcında Cənubi Azərbaycanda gərgin sosial-siyasi vəziyyət yaranmışdı: kəndlərdə feodal istismarı şiddətlənmiş, o cümlədən dövlət vergilərinin həcmi çoxalmış, İranın Rusiya və İngiltərə kimi dövlətlərdən asılı olması və onların yarımmüstəmləkəsi halına düşməsilə əlaqədar sosial tarazlığı pozulmuş, rüşvətxorluq və ədalətsizlik artmış, möhtəkirlik bütün ölkəni bürümüş, maliyyə sistemi acınacaqlı vəziyyətə düşmüşdü. Bu durum inqilab ərəfəsində İranda, o cümlədən Cənubi Azərbaycanda hakim dairələrin daxili və xarici siyasətindən narazı qüvvələrin sayı və əhatə dairəsini xeyli genişləndirmişdi. İnqilab ərəfəsində Cənubi Azərbaycandan, başlıca olaraq kəndlərdən qazanc dalınca təkcə Rusiyaya getməyə məcbur olan 300 minlik kəsbkar bu narazı qüvvələrin kiçik bir dəstəsi idi.

Cəmiyyətin narazı sosial təbəqələri içərisində yaranmaqda olan yeni təbəqə – burjuaziya da xüsusi seçilirdi. Ticarət sahəsində, sənaye ocaqları yaradılmasında fəaliyyət göstərən burjuaziya həmin fəaliyyətin qorunması üçün ölkədə qanun-qayda yaradılmasına, ilk növbədə xüsusi mülkiyyətin toxunulmazlığının hüquqi cəhətdən təmin olunmasına, vahid daxili bazar yaranmasına çalışırdı. Burjuaziya, eyni zamanda onun fəaliyyətinə, xüsusilə sənaye müəssisələri yaratmasına qəti surətdə mane olan xarici kapitala, hər şeydən əvvəl, İrandakı ingilis şahənşah bankı və rus kredit borc bankı kimi alətlərinə qarşı mübarizə aparırdı.

Xaricdən sənaye mallarının axını nəticəsində müflisləşərək dözülməz əmək şəraitində qismən fəhlə kimi çalışmağa məcbur olan, qis-

mən isə şəhər yoxsulları cərgəsinə keçən sənətkarlar və xırda tacirlər şəhər əhalisinin ən çox narazı olan hissəsini təşkil edirdilər.

Bütün bunlar əyalətlərdə də mübariz ab-hava doğurur, geniş kütlə içərisində inqilabçı burjua meyillərinin artmasına şərait yaradırdı. İranda ayrı-ayrı millətlərin, ilk növbədə farslarla yanaşı, Azərbaycan türklərinin bir millət kimi təşəkkül tapmağa başlaması prosesi də inqilabçı burjua əhvalının yayılmasına səbəb olurdu, qonşu Rusiya vasitəsilə Avropanın demokratik ideyalarının daha çox təsir etdiyi Cənubi Azərbaycanda – iqtisadi cəhətdən İranın digər yerlərinə nisbətən daha çox inkişaf etmiş bu əyalətdə burjua milliyyətçiliyi ideyaları da yaranır və formalaşırdı.

Ölkədə yaranmaqda olan bir sıra maarifçi və gizli siyasi təşkilatlar həmin yeni burjua məfkurəsinə istinad edirdi. Bu təşkilatlar ölkədə müstəbid şah idarəçiliyinin məhdud monarxiya ilə əvəz olunması, qanunverici orqan, ədalətli idarə üsulunun yaranması və digər tələblər irəli sürürdülər. Bu kimi maarifçi və gizli siyasi qruplar Təbrizdə də fəaliyyət göstərirdi. Bunlardan bəziləri öz məqsədlərini kütlələr arasında gizli vərəqlər vasitəsilə yayırdı.

XX əsrin ilk illərində şah sarayının xarici dövlətlərdən (başlıca olaraq Rusiyadan) aldığı borclar, bu borcların ölkəyə və xalqa heç bir xeyir vermədən şah və saray xadimləri tərəfindən xərclənməsi, xaricilərlə ölkə üçün sərfəli olmayan müqavilələrin bağlanması və gömrük tarifi sisteminin xaricilərin ixtiyarına verilməsi Azərbaycanda da şiddətli etiraz və həyəcanlara səbəb oldu. Cənubi Azərbaycanın Təbriz, Zəncan, Ərdəbil şəhərləri narazılıq mərkəzinə çevrildi. Artıq 1905-ci ildə həyəcanlar az qala bütün İranı bürümüşdü. Təbrizdə və bir sıra başqa şəhərlərdə çıxışlar baş verirdi.

**Tehran çıxışlarının Cənubi Azərbaycanda əks-sədası**

İranda bütün bu həyəcan və etirazların siyasi partlayışa çevrilməsi bir qığılcıma bənd idi. 1905-ci il dekabrın 12-də Tehranda baş vermiş hadisə – baş nazir Eynüddövlənin qəndin qiymətinin bahalanmasını bəhanə edərək paytaxtda 17 taciri həbs etdirərək döydürməsi bu qığılcım rolunu oynadı. Bu təhqiramiz hərəkətə cavab olaraq şəhərdə bütün bazar bağlandı. Tacir və sənətkarların, milli burjuaziya nümayəndələrinin, demokratik ruhlu ruhanilərin, görkəmli din xadimlərinin evlərində, müqəddəs yerlərdə bəstə oturması ilə İranda inqilab başlandı.

Tehranla yanaşı, Təbrizdə, Ərdəbildə, Xoyda, Zəncanda və Cənubi Azərbaycanın digər şəhərlərində də bazar və dükanlar bağlandı, etiraz nümayişləri, çıxışlar başlandı.

İnqilab iştirakçılarının əsas tələbləri konstitusiya (məşrutə)[1] verilməsi, məclis çağırılması, xarici məmurların tutduqları vəzifələrdən kənar edilməsi və ölkədən qovulması və s. ibarət idi.

Arasıkəsilməyən çıxışlar nəticəsində şah hakimiyyəti inqilabçıların tələblərini ödəməyə məcbur oldu. 1906-cı il avqustun 5-də şah konstitusiya haqqında fərman verdi, bunun ardınca məclisə seçkilər barəsində fərman elan edildi. Xalq hər yerdə bəst yerlərini tərk etdi, bazar-dükan açıldı. Lakin tezliklə məlum oldu ki, irtica yuvası olan şah sarayı xalqın demokratiya tələblərinə uyğun atdığı addımlardan geri çəkilmək, Təbrizdə isə vəliəhd Məhəmmədəli Mirzə hərəkata qarşı çıxmaq niyyətindədirlər. Tehranda olduğu kimi Təbrizdə də mübariz qüvvələr, gizli siyasi cəmiyyətlər, ilk növbədə «İslamiyyə əncüməni» hərəkətə gəldi. Sentyabrın 20-də bir dəstə ruhaninin Təbrizdə ingilis konsulxanasında bəstə oturması bütün şəhəri ayağa qaldırdı. Fəhlə, sənətkar, tacir, milli burjuaziya, xırda və orta ruhanilər, şəhər yoxsulları, məktəblərin müəllim və tələbələrindən ibarət minlərlə adam qismən Təbrizin «Samsam xan» məscidində bəstə oturdu, qalan hissə məscidin ətrafında toplandı. Bəstə oturan 6000 nəfərdən çox adamın andiçmə mərasimi keçirildi. Onlar məşrutə – konstitusiya yolunda mübarizəyə sadiq qalacaqları, bu yolda can və mallarını əsirgəməyəcəkləri haqqında Qurana and içdilər. Bütün şəhəri bürüyən hərəkatın xərcini ödəmək üçün «Konstitusiya tərəfdarlarının məxaric kassası» yaradıldı. Varlı tacirlər, xüsusilə gizli siyasi cəmiyyətlərə mənsub olan tacirlərdən Hacı Mehdi Küzəkunani, Hacı Rəhim Badkubəçi, Hacı Əlinağı Kənceyi, Hacı Məhəmmədəli Badamçı və başqaları xərclərin ağırlığını öz üzərlərinə götürdülər. Şəhərdə tətil, mitinq və etiraz nümayişlərinin arası kəsilmirdi. Hərəkat iştirakçıları öz tələblərini Tehrana – şaha da çatdırdılar. Sentyabrın 29-da şah sarayı Təbrizə göndərdiyi cavabında Azərbaycandan məclisə nümayəndələr seçilməsinə icazə verildiyini və tezliklə seçki nizamnaməsinin göndəriləcəyini qeyd edirdi. Məhəmmədəli Mirzə bu cavabı Təbrizdəki hərəkat iştirakçılarına elan etməli oldu. Xalqın irtica üzərində bu ilk qələbəsinin təkcə Azərbaycan deyil, bütün İranda inqilabi hərəkatın inkişafı üçün böyük əhəmiyyəti oldu. Təbrizdəki 1906-cı il sentyabr hadisələri Əsas Qanunun qəbul olunmasına və məclisin açılmasına kömək etdi.

---

[1] Bu başlıca tələbə uyğun olaraq inqilab İran tarixinə məşrutə hərəkatı (nehzəte məşrutiyyət) kimi daxil olmuşdur.

Göstərilən hadisələrdə Təbrizdə hələ inqilabdan bir il əvvəl yaranmış «İctimaiyyunəl-amiyyun», yəni sosial-demokrat qrupu artıq siyasi bir təşkilat kimi mühüm rol oynadı. Qeyd edilməlidir ki, 1905-ci ildə Nəriman Nərimanovun bilavasitə iştirakı ilə Bakıda müxtəlif peşələrdə çalışan Cənubi Azərbaycandan olan inqilabçılar tərəfindən İran «İctimaiyyunəl-amiyyun» («Mücahid») partiyasının təşkili İranın özündə, o cümlədən Təbrizdə sosial-demokrat təşkilatlarının yaranması prosesini xeyli sürətləndirdi.

1906-cı ilin sentyabr hadisələri zamanı Bakıdan gələn «İctimaiyyunəl-amiyyun» («Mücahid») partiyası üzvlərinin (onlar Nəriman Nərimanovun Azərbaycan türkcəsinə tərcümə etdiyi RSDFP-nin proqramının nüsxələrini özləri ilə gətirmişdilər) iştirakı ilə Təbriz sosial-demokrat təşkilatı yaradıldı. Təbrizin ardınca həmin təşkilatlar Urmiya və Xoyda da yaradıldı. 1905–1911-ci illər inqilabı dövründə Təbriz təşkilatı və onun «Gizli mərkəz» («Mərkəze-qeybi») adlandırdığı rəhbərlik mərkəzi geniş fəaliyyət göstərdi. «Gizli mərkəz»in üzvlərindən olan Əli Müsyö, Hacı Əli Davafruş, Hacı Rəsul Sədəqyani və başqaları (cəmi 12 üzv), xüsusilə təşkilatın yaradıcısı olan Əli Müsyö şəxsi qəhrəmanlıq göstərməklə yanaşı, bacarıqlı təşkilatçılar kimi fərqləndilər. «Gizli mərkəz» inqilabın başlanğıcından sonunadək Cənubi Azərbaycanda hərəkata rəhbərlik etmiş, başlıca olaraq şəhər zəhmətkeşlərini, sənətkarları, xırda tacirləri, inqilaba rəğbət bəsləyən bütün demokratik qüvvələri birləşdirmək və silahlandırmaqda mühüm işlər görmüşdür.

**Azərbaycan əyalət əncüməninin yaranması**

1906-cı il sentyabrın 29-da qazanılmış ilk qələbədən sonra Təbrizdə böyük ruh yüksəkliyilə məclisə seçkilər başlandı. Bu məqsədlə hərəkat başçılarından əncümən seçildi. Əncümənə müxtəlif təbəqələrdən Hacı Mehdi Küzəkunani, Mir Haşım, Mirzə Hüseyn Vaiz, Məlukuttuccar və başqaları (cəmi 20 nəfər) seçildilər. Müxtəlif adlarla və müxtəlif mahiyyətlə fəaliyyət göstərmiş bu əncümən daha çox «Azərbaycan əyalət əncüməni» kimi tanınmış və bu ada uyğun olaraq əyaləti idarə edən hakimiyyət orqanı funksiyası daşımışdır. Təbrizin ardınca əncümənlər Cənubi Azərbaycanın Urmiya, Ərdəbil, Marağa, Salmas, Maku, Zəncan, Xalxal və başqa şəhərlərində də yaradıldı. Əncümənlər Təbrizin timsalında İranın Tehran, İsfahan, Kirman, Məşhəd, Rəşt kimi şəhərlərində də yaradıldı. Bütün İranda, xüsusilə Cənubi Azərbaycanda

yaradılmış bu demokratik əncümənlər inqilab dövründə yerlərdə demokratik qayda-qanun yaradılmasında, feodal özbaşınalığına qarşı tədbirlər həyata keçirilməsində, rüşvətxorluğun və möhtəkirliyin qarşısının alınmasında, bu məqsədlə köhnə hakimiyyət aparatının dəyişdirilməsində mühüm işlər gördü.

Azərbaycan əyalət əncüməninin siyasi hakimiyyət orqanı kimi fəaliyyət göstərməsində, bu sahədə püxtələşməsində Təbriz sosial-demokrat təşkilatı, onun rəhbər mərkəziyyəti – «Gizli mərkəz» mühüm rol oynamışdır. Hər iki orqanın əlbir işi və hərəkata birgə rəhbərliyi Cənubi Azərbaycanda inqilabın demokratik məcrada getməsinə şərait yaratmış, inqilabın silahlı qüvvəsi olan mücahid dəstələrinin[1] təşkilinə imkan vermişdi. Mücahid dəstələrinin əksəriyyətini fəhlələr, şəhər yoxsulları, sənətkarlar, xırda burjuaziya və kəndlilər təşkil edirdi. Bu qüvvələrə arxalanaraq əncümənlər yerlərdə əks-inqilab basqınlarını müvəffəqiyyətlə dəf edə bilirdilər.

Məclisə nümayəndələr seçilməsi Təbrizdə noyabrın 5-də, bütün Azərbaycanda isə dekabrın əvvəllərində başa çatdırıldı. Az sonra nümayəndələr Bakıya, oradan da Tehrana yola düşdülər.

1906-cı il dekabrın 30-da ölüm yatağında olan Müzəffərəddin şah hələlik birinci hissəsi hazırlanmış konstitusiyanı imzaladı. Lakin keçmiş vəliəhd, indisə artıq 1907-ci il yanvarın 19-da taxta əyləşmiş Məhəmmədəli Təbrizdə və ümumiyyətlə, bütün Cənubi Azərbaycanda yürütdüyü əks-inqilabi siyasəti bütün İran miqyasında həyata keçirməyə başladı. O, atasının imzaladığı konstitusiyanı tanımaq istəmirdi.

Bu xəbər iqtisadi tətillərin baş verdiyi və siyasi mübarizənin davam etdiyi Təbrizdə hərəkatın daha da dərinləşməsinə səbəb oldu.

---

[1] Qafqazdan gələn və özlərini «İctimaiyyunəl-amiyyun. Mücahid» təşkilatı ilə bağlı olaraq mücahid adlandıran iranlılar İranda «Qafqaz mücahidləri» kimi tanınmışdılar (onların qafqazlılara məxsus geyimdə olması da nəzərə alınmalıdır). Geniş mənada isə mücahid (mübariz, fədakar deməkdir) və eləcə də fədai (fəda olan) əqidə və azadlıq uğrunda mübariz, özünü fəda etməyə hazır olanlara, bir sözlə, inqilabın bütün fəal iştirakçılarına deyilirdi. Onlar içərisindən yaradılan silahlı hissələr döyüşkən mücahid və fədai dəstələrini təşkil edirdi.

## § 2. Təbrizdə silahlı üsyan. Əncümənin fəaliyyəti

1907-ci il fevralın 5-də fəhlə və qulluqçulardan, məktəb müəllimləri və tələbələrdən ibarət tətilçilər teleqrafxana ətrafında toplandılar. Səhərisi gün şəhərdə bütün bazar və dükanlar bağlandı, fevralın 8-də isə «Gizli mərkəz»in başçılığı ilə İran inqilabı dövründə bütün ölkədə ilk silahlı üsyan baş verdi. Önündə mücahidlər gedən inqilabçılar həmin gün bütün dövlət idarələrini, hərbi kazarmaları, cəbbəxananı tutdular. Silahlar və hərbi ləvazimat inqilabçıların əlinə keçdi. Üsyançılara müqavimət göstərən qüvvələr, o cümlədən əyalətin valisi Nizamül-mülk, rabitə, gömrükxana və başqa idarə başçıları həbsə alındılar. Nizamül-mülk may ayında Təbrizi tərk etməli oldu. İnqilab əlaməti olaraq küçələrdə al bayraqlar asıldı. Şəhərdə real hakimiyyət əyalət əncüməninin əlinə keçdi.

Təbrizdə üsyanın qələbəsi haqqında teleqraf vasitəsilə Tehrana xəbər verildi və üsyançıların konstitusiya ilə bağlı tələbləri şaha çatdırıldı.

Avqust ayında şah Fərman-Fərmanı Azərbaycana vali təyin etdi. Bu isə əyalətdə əncümənlərin tədricən hakimiyyət orqanına çevrildiyi bir halda Təbrizdə və vilayətlərin çoxunda ikihakimiyyətliliyin yaranmasına səbəb oldu.

**Azərbaycan nümayəndələrinin Tehrana gəlişi**

Bütün İranda böyük əks-səda doğurmuş Təbrizdəki üsyan dövründə Tehranda Məhəmmədəli şahın şəxsində özünün inadkar başçısını tapmış irtica ilə demokratik qüvvələr, o cümlədən məclis üzvləri arasında qarşıdurma yaranmışdı. Fevralın 8-də Azərbaycan nümayəndələrinin Tehrana gəlməsilə bu qarşıdurma daha kəskin şəkil aldı.

Artıq inqilabın simvoluna çevrilmiş Azərbaycanın nümayəndələri paytaxt əhalisi tərəfindən bu vaxtadək görünməmiş son dərəcə böyük bir təntənə ilə qarşılandılar. Əbəs yerə deyildir ki, İran tarixçiləri bu gəlişi Fransa inqilabı zamanı (1789–1794) inqilabi-demokratik cinahı təşkil edən yakobinçilərin Parisə daxil olmalarına bənzədirlər[1].

Azərbaycan nümayəndələrinin fəaliyyətə başlaması ilə məclisin işində böyük canlanma və ümumiyyətlə, paytaxtda və bütün ökədə inqilabi hərəkatda yüksəliş yarandı. Onların tələbi ilə çağırılmış məclisin

---

[1] *Bax:* **H.Həllac.** İran inqilabının tarixi. Tehran, 1312, s.38.

birinci fövqəladə iclasında, ilk növbədə Azərbaycan nümayəndələrinin təqdim etdiyi əyalət əncüməninin şah sarayına verdiyi tələblər müzakirə olundu.

Tələblərin canını konstitusiyanın ardının – onun tamamlayıcı hissəsinin məclisə təqdim olunması, bütün ölkədə konstitusiya üsuli-idarəsinin, o cümlədən əyalət və vilayət əncümənlərinin fəaliyyətinin bərqərar edilməsi kimi mühüm məsələlər təşkil edirdi. Lakin şah sarayı məclisin bəyəndiyi və şaha ultimatum şəklində göndərdiyi həmin tələbləri rədd etdi.

Buna cavab olaraq Təbrizdə yenidən dükan və bazarlar bağlandı, nümayiş və mitinqlər təşkil olundu. Bu halda, Tehranda Azərbaycan nümayəndələrinin təşəbbüsü ilə Məclis vəkilləri sarayın susmağına etiraz əlaməti olaraq məclis binasında bəstə oturduqlarını elan etdilər.

Təbriz və Tehranda hərəkatın qüvvətlənməsi bütün İrana öz təsirini göstərdi – mart ayında bir çox yerlərdə həyəcan və çıxışlar baş verdi.

Nəhayət, şah bütün tələbləri eynilə qəbul etməyə məcbur oldu.

Azərbaycan nümayəndələrinin tələbləri məclisdə bəyənildikdən sonra demokratik qüvvələrin, o cümlədən Təbriz inqilabçılarının təzyiqi nəticəsində şah tərəfindən qəbul olunması bir daha göstərdi ki, həmin şəhər İran inqilabında mühüm və həlledici mövqeyə malik idi. Və 1907-ci ilin fevralında «İranda inqilabın mərkəzi, hətta öz şərtlərini Tehran parlamentinə diktə edən Təbrizdir» kimi bu və digər xəbərlərin verilməsi təsadüfi deyildi. Həqiqətən də, əgər inqilabın başlanmasında, konstitusiya haqqında fərman verilənə (5.08.1906) və seçki əsasnaməsi təsdiq edilənə (9.09.1906) qədər Tehran aparıcı idisə, bundan sonra inqilabın ağırlıq mərkəzi tədricən Təbrizə keçməyə başlamış, İran inqilabının, onun nailiyyətlərinin taleyi bu şəhərdə həll olunmağa doğru getmişdir. Təbriz isə öz sayıqlığını itirmirdi və yuxarıda qeyd olunan növbəti tələblər qəbul edildikdən sonra da burada hərəkat davam etməkdə idi.

**Təbrizdə konstitusiyaya əlavələr uğrunda mübarizə**

Demokratik qüvvələrlə irtica arasında qarşıdurmanı kəskinləşdirən növbəti məsələ konstitusiyanın ikinci – tamamlayıcı hissəsinin qəbulu və təsdiqi uğrunda gedən mübarizə idi. Əyalət əncüməninin qəbul olunan tələblərindən biri üzrə Məclisin xüsusi komissiyasının tez bir zamanda hazırladığı «Konstitusiyanın tamamlayıcı hissəsi» («Mutəmmeme-qanune-əsasi») əhalinin hüquqları, o cümlədən hər bir şəxsin həyatının, ev və əmlakının, izzət və mülkiyyətinin toxunulmazlığı, söz və mətbuat,

cəmiyyət və yığıncaq azadlığı, dövlət quruluşu, məclis və senat nümayəndələrinin hüquqları, şahın hüquqları, nazirlər, məhkəmə hakimiyyəti, vilayət və əyalət əncümənləri, maliyyə və ordu haqqında məsələləri əhatə edirdi. Cəmi 107 maddədən ibarət olan bu tamamlayıcı hissə konstitusiyanın əsas demokratik ruhunu əks etdirirdi. Buna görə inqilabçılar məhz bu hissənin məclisdən keçirilməsində və təsdiq olunmasında israr edirdilər. İrticanın başında duran şah sarayı isə öz növbəsində inadkarlıqla həmin demokratik hüquqları xalqa vermək istəmirdi.

Qeyd etmək lazımdır ki, Təbrizdə konstitusiya, onun tamamlanması uğrunda gedən həmin mübarizə tətil hərəkatı ilə, o cümlədən ölkədə xaricilərin iqtisadi ağalığına qarşı yönəlmiş tətillərlə müşayiət olunurdu.

İnqilabın əvvəlində ondan istifadə etmək məqsədilə hərəkata qoşulmuş, sonradan isə inqilabın dərinləşməsindən qorxuya düşmüş iri ruhanilər, komprador burjuaziya və mülkədar nümayəndələrinin hərəkatdan uzaqlaşmaları və aprelin 6-da xüsusi müşavirə çağıraraq Təbriz sosial-demokrat təşkilatı üzvlərinə qarşı, onların şəhərdən çıxarılmaları haqqında qərar qəbul etmələri Təbrizdə yenidən mitinq və nümayişlərin başlanmasına səbəb oldu. Mitinq və nümayiş iştirakçılarının qəti tələbi nəticəsində iri ruhanilərin, mülkədarların və komprador burjuaziyasının 8 nəfər ən iri nümayəndəsi şəhəri tərk etməyə məcbur oldu.

Digər tərəfdən Azərbaycan əyalət əncüməni regionda əsas hakimiyyət orqanına çevrilirdi. Əyalət əncüməni öz nümayəndələrini Cənubi Azərbaycanın vilayət və mahallarına, o cümlədən Ərdəbilə, Marağaya, Makuya göndərdi. Əyalət əncüməni mütləqiyyətin keçmiş məmurlarının Azərbaycan idarələrindən uzaqlaşdırılmasına başlamış, bütün məhkəmə işlərini mütərəqqi ruhanilərin, əhali tərəfindən seçilmiş yerli əncümənlərin iştirakı ilə təşkil edilmiş məhkəmələrin ixtiyarına vermişdi.

Əyalətdə hakimiyyətin demokratikləşməsi maarif və mədəniyyət sahəsində də bir sıra yeniliklər tətbiq edilməsinə imkan yaratdı. Yenitipli məktəblərin açılması sahəsində daha böyük nailiyyətlər qazanıldı. Cənubi Azərbaycanın təkcə böyük şəhərlərində (Təbriz, Urmiya, Marağa, Ərdəbil) deyil, Miyana, Sərab və başqa vilayət mərkəzlərində də dünyəvi elmləri tədris edən yeni üsullu məktəblər açıldı. Leqal mütərəqqi mətbuat son dərəcə genişləndi. Təbrizdə onlarla qəzet dərc olunmağa başladı.

Təbrizdə başlanan ümumi tətil və nümayişlərdə, eləcə də Azərbaycan əyalət əncüməninin Tehrana məclisin ünvanına göndərdiyi te-

leqramlarda konstitusiyanın tamamlayıcı hissəsinin təsdiqi əsas tələb olaraq qalırdı. Tehranda fəaliyyət göstərən əncümənlər, o cümlədən burada yaşayan azərbaycanlılar əncüməni, İsfahan, Şiraz, Rəşt, Qəzvin, Kirmanşah, Urmiya və b. şəhərlərdəki vilayət əncümənləri təbrizlilərin bu mühüm tələbinə qoşuldular.

Şah sarayı demokratiyanın bu haqlı tələbinə yeni fitnə və hücumlarla cavab verdi.

Sarayın başçılıq etdiyi əks-inqilabın basqın və hücumları ilə üzləşən Azərbaycandakı demokratik qüvvələr irticaya qarşı mübarizədə inqilabın silahlı dəstələrinin yaradılması zəruriliyini dərk edirdilər. Aprel – iyun ayları ərzində yaradılmış bu dəstələrdə silahlı qüvvələrin sayı minlərlə idi. Onlar hər gün hərbi təlim keçirdilər. Bütün Təbriz silahlı inqilabçılar düşərgəsinə çevrilmişdi.

Vaxtında yaradılmış bu silahlı qüvvələr Qaradağdakı qırğından (25 may, 1907) sonra Təbriz üzərinə yeriyən əksinqilabçı Böyük xan atlı dəstəsinin hücumunun qarşısının alınmasına imkan verdi. Şəhərdə keçirilən mitinqlərdə ilk dəfə olaraq Məhəmmədəli şahın hakimiyyətdən kənar edilməsi tələbi irəli sürüldü.

Qaradağdakı qırğın İran şəhərlərini həyəcana gətirdi. May ayının 26-da Tehranda əhali təbrizlilərlə həmrəylik bildirərək tətil elan etdi. Mitinqdə Məhəmmədəli şahın Fransa Kralı XVI Lüdovik kimi məhkəməyə verilməsi və cəzalandırılması tələb olundu.

Təbriz və Tehrandakı hadisələr İranın digər şəhərlərinə də sirayət etdi. Bir sıra şəhərlərdə ümumi tətillərdə təbrizlilərlə həmrəylik bildirildi.

Mayın 26-da məclis Qaradağ hadisəsini müzakirə etdi. İnqilabi hərəkatın yenidən yüksəlməsi nəticəsində əks-inqilab güzəştə getməyə və Azərbaycan əyalət əncüməninin tələblərini qəbul etməyə məcbur oldu: Böyük xan hökumət işlərindən qovuldu, onun atası Qaradağ tayfalarının elbəyisi Rəhim xan həbsə alındı. Məclis eyni zamanda əyalət və vilayət əncümənləri haqqında əsasnaməni təsdiq etdi.

Bununla da Təbriz əhalisinin bir aylıq inadlı mübarizəsi, Tehran və başqa şəhərlərin təbrizlilərlə həmrəylik hərəkatı irtica qüvvələrinin əks-inqilabi çevriliş etmək planlarını pozdu.

Yalnız bundan sonra Tehranda, paytaxtın ardınca başqa yerlərdə ümumi tətil dayandırıldı, dükan-bazar açıldı.

Təbrizdə isə Əsas Qanuna əlavələr uğrunda hərəkat davam etməkdə idi. Hərəkatın bu dövrü üçün səciyyəvi cəhət bundan ibarət idi ki, inqilabın ilk dövrünün iştirakçılarından olan burjuaziya, mülkədarlar və

iri ruhanilərdən fərqli olaraq, geniş demokratik kütlə – sənətkarlar, fəhlələr, xırda tacirlər, şəhər yoxsulları bütün tələblərə nail olmaq əzmində idilər. Geniş kütləleri təmsil edən bu qütb Təbrizdə hərəkatın aparıcı qüvvəsinə – hegemonuna çevrilmişdi. Odur ki, əyalət əncüməninda burjua-mülkədarların çoxluq təşkil etməsinə baxmayaraq, «Gizli mərkəz» ətrafında birləşən həmin hegemon kütlə əncüməni özünə tabe edə bilmişdi. Əyalətin idarə işləri tamamilə əncümənin əlində idi. Vali Nizamül-mülkün hakimiyyəti isə formal xüsusiyyət daşıyırdı. 1907-ci ilin iyun ayında onu əvəz etmiş daha enerjili şahzadə Fərman-Fərman da bütün cəhdlərinə baxmayaraq, əyalətin əsas idarə işlərini öz əlində cəmləyə bilmədi və 1908-ci ilin əvvəllərində o istefa verdi.

Eyni vaxtda Tehrandakı «Azərbaycan əncüməni» inqilab xatirinə fəal iş aparırdı.

Lakin ayrı-ayrı feodalların qaragüruhçu dəstələri Maku, Xoy, Urmiya və b. vilayətlərdə kəndləri çapıb-talayır və inqilab tərəfdarlarına divan tutmaqda davam edirdilər.

Bunlara baxmayaraq, demokratik hərəkatın qarşısını ala bilməyəcəyini görən şah 1907-ci il oktyabrın 7-də Əsas Qanuna əlavələri imzalamağa məcbur oldu.

**1907-ci ilin dekabrında əks-inqilabi çevriliş təşəbbüsü**

Şah Əsas Qanunun tamamlayıcı hissəsini imzalasa da, eyni zamanda gizlincə əks-inqilabi dəstələri ölkənin müxtəlif yerlərində yeni hücumlara hazırladı. Şah sarayının göstərişi və təhrikilə həyata keçirilən əks-inqilabi fitnələrin başlıca hədəfi Cənubi Azərbaycan, onun mərkəzi Təbriz şəhəri idi.

Təbrizdə yeni vali Fərman-Fərma bu məqsədlə əks-inqilabi ünsürləri pul və başqa vəsaitlə təmin edərək inqilabçılara qarşı çıxışlara təhrik edirdi.

Açıq-aşkar fəallaşan irticanın hücumlarının qarşısını almaq üçün Təbrizdə əməli tədbirlər həyata keçirilirdi. Yayılan inqilabi intibahnamələr vasitəsilə şəhər əhalisi əsl vəziyyətlə tanış edilir, mitinq və nümayişlər ara vermir, əhali könüllü surətdə mücahid dəstələrinə yazılır, inqilabın silahlı dəstələrinin müntəzəm hazırlığı davam etdirilirdi. Təbrizlilərin yenidən ayağa qalxması İranın digər əyalət və vilayətlərini də hərəkətə gətirdi. Gilanda, İsfahanda və b. vilayətlərdə mücahid dəstələri möhkəmləndirildi.

Tehranda hərbi qüvvələrin cəmləşdirilməsinə və çevriliş cəhdinə cavab olaraq İranın mühüm şəhərlərində ümumi tətil elan edildi, könüllü fədai dəstələri yaradılmağa başlandı.

«Gizli mərkəz»in və mücahidlərin təşəbbüsü ilə yenə də Təbriz bir sıra mühüm və faydalı tədbirlər həyata keçirdi. Ən mühüm iş bundan ibarət oldu ki, Azərbaycan əyalət əncüməni Əsas Qanuna sadiq qalacağı haqqında içdiyi andını pozduğu üçün Məhəmmədəli şahı hakimiyyətdən devrilmiş elan etdi və bu barədə teleqramı dekabrın 6-da şaha, məclisə, bütün ölkənin böyük şəhərlərinə və xarici dövlət nümayəndələrinə göndərdi. Təbriz əncüməninin bütün İranda həmrəylik doğurmuş bu qərarından sonra ölkə yenidən üsyan həddinə çatdı. Təbrizin özündə dekabrın 6 (19)-dan ümumi tətil elan olundu, bazar və dükanlar bağlandı, ertəsi gün izdihamlı nümayiş təşkil edildi.

Belə bir vəziyyətdə əks-inqilabi çevrilişin mümkün olmayacağını dərk edən şah yenə də güzəştə getməyə məcbur oldu. O, Konstitusiyaya sadiq qalacağına və xalqın hüquqlarını qoruyacağına yenidən and içdi.

Beləliklə, Azərbaycan əyalət əncüməninin çevik tədbirləri ilə bütün İranda demokratik qüvvələri ayağa qaldırması irticanı dövlət çevrilişi həyata keçirmək planından müvəqqəti də olsa əl çəkməyə məcbur etdi.

**İrticanın Cənubi Azərbaycanda yeni hücumları. Tehranda əks-inqilabi çevriliş**

Dekabrda geri çəkilməyə məcbur olan irtica öz planlarından əl çəkməmişdi. Əksinqilab xalqın əldə etdiyi bütün demokratik nailiyyətləri, o cümlədən məclisi və əncümənləri məhv etmək üçün hazırlıq görürdü. 1908-ci ilin birinci yarısında bir çox əyalət və vilayətlərdə əks-inqilabçı ünsürlər ayağa qaldırıldı.

Əks-inqilabi çıxışlar və toqquşmalar bütün İranda inqilabi hərəkatı qidalandıran, onu sönməyə qoymayan Cənubi Azərbaycanda xüsusi fəallıq və diqqətlə hazırlanırdı. Bu işdə şah yenə də külli miqdarda pul və başqa vəsaitlə təchiz etdiyi Mir Haşımın dəstəsinə və onun başçılıq etdiyi «İslamiyyə» əncüməninə arxalanırdı. Həmin dəstə ilə demokratik qüvvələr arasında ciddi silahlı toqquşmalar baş verdi. Digər tərəfdən Tehranda həbsdə saxlanılan Rəhim xan şahın göstərişilə azad edilərək hər cür təminatla Cənubi Azərbaycana göndərildi. Təbrizdən kənar edilmiş bir neçə iri ruhani tədricən geri qaytarıldı.

Şah sarayı 1908-ci ilin may-iyun aylarında mərkəzdə inqilaba qarşı yenidən hücuma keçdi. Kütləvi həbslər başlandı. Həmin hadisələrlə eyni vaxtda «İslamiyyə» əncümənində toplanan irtica qüvvələri Təbrizdə inqilabçılar üzərinə hücuma keçdilər.

1908-ci il iyunun 23-də şahın bilavasitə göstərişi ilə İran-kazak briqadasının komandiri, rus polkovniki Lyaxov məclis və Azərbaycan ən-

cüməni binalarını top atəşinə tutdurdu, kazakların hücumu nəticəsində məclis dağıdıldı, inqilabçılara divan tutuldu. Bununla da, paytaxtda 1908-ci ilin əvvəlindən hazırlanan əks-inqilabi çevriliş həyata keçirildi. Əks-inqilab bütün İranda konstitusiya tərəfdarlarına, demokratik qüvvələrə qarşı hücuma keçdi. Bir çox vilayətlərdə, bunların mərkəzlərində əncümənlər dağıdıldı, əncümən başçılarına, görkəmli inqilabçılara divan tutuldu.

Əks-inqilab Cənubi Azərbaycanda xüsusi hiddət və sərtliklə başladı. Ərdəbil və Meşkin şəhərlərində irtica demokratik qüvvələrə üstün gələ bilsə də, başqa şəhərlərdə vilayət əncümənləri, demokratik təşkilatlar öz fəaliyyətlərini dayandırmadılar. Təbrizdə isə şah sarayının gözlədiyinin tam əksinə olaraq, hərəkat daha yüksək pilləyə qalxdı. Bu dövrdən Tehrandan başlamış hərəkatın taleyində, inqilabın nailiyyətlərinin əldə edilməsində həlledici rol oynamış Cənubi Azərbaycan artıq İrandakı inqilabın mərkəzi səviyyəsinə qalxdı.

## § 3. Cənubi Azərbaycanın 1905–1911-ci illər İran inqilabının mərkəzinə çevrilməsi

**İrticanın Təbriz üzərinə mütəşəkkil hücumları**

Hələ çevrilişdən əvvəl Təbrizdə fəallaşmış irtica qüvvələri iyunun 23-də Tehranda əks-inqilabi çevriliş həyata keçirildiyi anlarda «İslamiyyə»-nin yerləşdiyi Dəvəçi məhəlləsindən əyalət əncüməninə, mücahid qüvvələrinin yerləşdiyi mərkəzlərə qarşı hücuma keçdilər. Hücumlarda qaragüruhçu feodal atlı dəstələri və kazak briqadası hissələri iştirak edirdi. İnqilabçı qüvvələrin kəskin müqavimətinə baxmayaraq, qaragüruhçu dəstələr şəhərin bir neçə məhəlləsini ələ keçirə bildilər. Mücahid mərkəzləri isə Təbrizin ayrı-ayrı məhəllələrində möhkəmləndi. Bu dövrdə Təbrizdə olan 12 rəsmi məhəllədən Əmirəxız, Dəvəçi, Sorxab, Şeşgilan və Bağmeşə şəhərin şərqindən qərbə doğru axan Meydan çayının (Mehranrud) sağında, Nobar, Xiyaban, Əhrab, Qaraməlik, Maralan və digər iki məhəllə çayın sol sahilində yerləşirdi. Vuruşmalar getdiyi dövrdə Əmirəxız istisna olmaqla çayın sağında yerləşən və varlı təbəqələrin yaşadığı məhəllələr əks-inqilabçıların, sol tərəfi isə inqilab dəstələrinin əlində olmuşdur. Buna görə də artıq bu dövrdən Təbrizdəki üsyan əslində vətəndaş müharibəsinə çevrilmişdi. Sol sahildəki Dəvəçi, Sorxab, Bağmeşə və Şeşgilan məhəllələri əks-inqilab-

çı qüvvələr tərəfindən iyunun axırınadək artıq ələ keçirilmişdi. Sol sahildəki Əmirəxız məhəlləsi isə Səttarxanın başçılıq etdiyi fədai dəstələrinin yerləşdiyi alınmaz qalaya çevrilmişdi. Əks-inqilabın hücumlarını müvəffəqiyyətlə dəf edən digər bir dəstə – Bağırxanın başçılığı altında olan müşahidlər Nobar və Xiyaban məhəllələrində möhkəm mövqe tutmuşdular.

Təbriz sosial-demokrat təşkilatı Əli Müsyö, Hacı Əli Davafuruş kimi başçılarının fəaliyyəti nəticəsində mücahidlərin və ümumiyyətlə, bütün inqilab tərəfdarlarının əks-inqilaba qarşı müqavimətini təşkil etdi, Dəvəçi, Sorxab və Bağmeşə məhəllələrində arasıkəsilməyən hücumlarına qarşı çıxdı.

Əyalət əncüməni başçıları isə paytaxtda əks-inqilabi çevriliş xəbərini alan kimi dağılışdılar. Beləliklə də, başlıca olaraq əncüməndə təmsil olunan burjua-mülkədar başçılar hərəkatın ən ağır anında onun sıralarını tərk etdilər.

İnqilabın aparıcı qüvvəsi olan fəhlələr, şəhər yoxsulları və orta təbəqəyə mənsub sənətkarlar, xırda burjuaziya, kiçik dövlət qulluqçuları, ziyalılar və başqaları isə hərəkata sadiq qaldılar. Şah sarayının Təbriz üzərinə bir-birinin ardınca nizami ordu hissələri və qeyri-nizami feodal hərbi dəstələri göndərməsi onların iradəsini qıra bilmədi. Təbriz döyüşçüləri əks-inqilab qüvvələri qarşısında tam on bir ay mətanətlə durdular. Onların hər biri tarixə şücaətlərlə dolu qəhrəmanlıq səhifələri yazdı. Bu qeyri-bərabər döyüşlərdə İranın Azərbaycan türkləri içərisindən istedadlı xalq sərkərdələri də yetişdi. Bunlardan Səttarxan özünün ağlagəlməz şücaətləri ilə dünya şöhrəti qazandı.

**Səttərxan**

Cənubi Azərbaycanda inqilabi döyüşlərin əfsanəvi qəhrəmanına çevrilmiş Səttarxan 1867-ci ildə Qaradağda xırda tacir ailəsində anadan olmuşdur. Atası Hacı Həsən və böyük qardaşı İsmayıl azadlıqsevən şəxslər olmuş, buna görə də hökumət məmurlarının daim təqib və zülmünə məruz qalmışlar. Gənc yaşlarından hökumət məmurlarının Səttarxan ailəsinə vurduğu zərbələr (İsmayıl Şimali Azərbaycan üsyançılarından məşhur qaçaq Fərhadı gizlətməsinə görə həbs edilərək Təbrizdə vəliəhd Müzəffərəddin Mirzənin əmri ilə öldürülmüşdü) onda zülmə, mütləqiyyətə qarşı nifrət hissi yaratmışdı. O özü kimi silahdaşları ilə birlikdə silahlı qaçaq dəstəsi yaradaraq, ayrı-ayrı yerlərdə dövlət məmurlarının ədalətsiz, zalım hərəkətlərinə qarşı zəhmətkeş kütlələrin müdafiəçisi kimi çıxış etmiş, dəfələrlə həbsə alınmışdı. Bunlar Səttarı xalqın sevimlisi etmişdi; xalq

onu hörmət əlaməti olaraq Səttarxan çağırırdı. Təbrizdə mütləqiyyətə qarşı üsyan başladıqda inqilab döyüşçüləri sırasında Səttarxan da var idi. 1908-ci ilin əvvəllərində Təbriz sosial-demokrat təşkilatının təşəbbüsü ilə şəhərin hər məhəlləsində fədai mərkəzləri yaradıldıqda Səttarxan yaşadığı Əmirəxız məhəlləsinin mücahidlərinə başçı təyin olundu. Bundan sonra Səttarxanın döyüş bacarığı və fitri hərbi sərkərdəlik istedadı özünü tam göstərdi.

**Təbrizin irtica üzərində tarixi qələbəsi**

Səttarxan öz silahdaşları Bağırxan, Hüseynxan Bağban, «Gizli mərkəz»in başçıları Əli Müsyö, Hacı Əli Davafuruş və başqaları ilə birlikdə Təbrizin on bir aylıq müdafiəsini mərdliklə təşkil etdilər.

Təbriz inqilabçıları iyulun 1-də şahın əmri ilə hücuma keçmiş və Böyük xan Çələbyanlunun başçılıq etdiyi 1000 nəfərlik Qaradağ atlısını məğlubiyyətə uğradaraq, onları qaçmağa məcbur etdilər. Təbrizlilərə asanlıqla qalib gələcəyini zənn edən şah yanıldığını görərək bu döyüşkən şəhər üzərinə yeni qüvvələr – Tehrandan Məlayir alayını, Qaradağdan Rəhim xanın 1500 nəfərlik silahlı atlı dəstəsini göndərdi. Həmin dəstələr iyulun 13-də şəhərə daxil olaraq Bağe Şimalda yerləşdilər. İranın hər tərəfindən dövlət qoşunları, feodal tayfa başçılarının silahlı qüvvələri Təbriz üsyançılarına qarşı səfərbər edilmişdi.

Rəhim xan atlılarının və digər dəstələrin Təbrizə daxil olması burada irtica qüvvələrini xeyli gücləndirdi. İrtica şəhərin digər hissələrinə, xüsusilə Səttarxan dəstələrinin yerləşdiyi Əmirəxız məhəlləsinə aramsız hücumlar etdi. Rəhim xanın əmrilə Təbrizə gələn yollar, su arxları və dəyirmanlar bağlandı. Şəhərdə aclıq başlandı. Feodal qaragüruhçu dəstələr şəhərdə qarətə başladı. Digər tərəfdən mücahidlər içərisində könüllü surətdə silahları təhvil vermək və irticanın mənasız hesab etdiyi müqavimətdən əl çəkmək haqqında təhrikçi təbliğat aparılırdı. Bu cəhətdən Rusiyanın Təbrizdəki baş konsulu xüsusi fəallıq göstərirdi. O, yaranmış çaşqınlıqdan istifadə edərək ağ bayraqlar paylayır və əhaliyə öz əmlakının talandan qorunması üçün bu bayraqları evlərindən asmağı məsləhət görürdü. Nəticədə Təbrizin 12 məhəlləsindən 11-i tədricən təslim oldu. Bu məhəllələrin evləri üzərində ağ bayraqlar yellənməyə başladı (lakin bu heç də hamını qarətdən xilas etmədi).

Təbrizin bir məhəlləsi ağ bayraq qaldırmamışdı. Bu yeganə məhəllə Səttarxanın silahlı dəstələrinin yerləşdiyi Əmirəxız məhəlləsi idi.

İyulun 18-də Səttarxan inqilabın tarixində çox mühüm dönüş nöqtəsi yaradan bir fədakarlıq etdi. O, öz kiçik dəstəsi ilə hücuma keçərək

Təbrizin mərkəz hissəsində bütün damlardan, darvazalardan və eləcə də məscidlərdən təslim əlaməti olan ağ bayraqları vurub salaraq, onların yerinə inqilabi hərəkatın davam etdiyini bildirən qırmızı bayraqlar sancdı.

Təbriz inqilabçılarına son dərəcə böyük təsir göstərmiş, heç kəsin gözləmədiyi bu mühüm hadisə və Səttarxanın öz dəstəsi ilə qazandığı digər hərbi uğurlar ilk əvvəl Əmirəxızın, daha sonra Təbriz və bütün Azərbaycanın İran inqilabının mərkəzinə çevrilməsinin əsasını qoymuş oldu. Bu gündən etibarən üsyançıların cərgələri sürətlə artmağa, əhali yenidən silahlanmağa başladı.

Üsyanın rəhbərliyi silahlı qüvvələrin hərbi cəhətdən təşkili məqsədilə Səttarxan, Əli Müsyö, Bağırxan, Hacı Əli Davafuruş və Mir Haşım xanın daxil olduğu «Hərbi şura» yaratdı. Səttarxanın başçılıq etdiyi hərbi şura Təbriz üsyanında iştirak edən və sayı 20 minə çatan silahlı qüvvələrin – fədailərin və mücahidlərin tərkibində köklü dəyişiklik yaratdı. Üsyan rəhbərliyi eyni zamanda dağılmış Azərbaycan əyalət əncümənini bərpa etdi, onun üzvlərini bu dəfə inqilabın sadiq qalmış görkəmli nümayəndələrindən, o cümlədən «Gizli mərkəz»in üzvlərindən müəyyən etdi (həmin dövrdə seçkilər keçirmək mümkün deyildi). Təbriz sosial-demokrat təşkilatının təşəbbüsü ilə əncümən «yardım komissiyası» yaratdı. İanə əhalinin başlıca olaraq varlı təbəqələrindən toplanırdı. Bundan əlavə, şəhərin qadınlarından bir çoxu qiymətli bəzək əşyalarını gətirib inqilabın xeyrinə təqdim edirdilər.

Təbrizin dörd ay davam etmiş müdafiəsi dövründə Əmirəxıza və mücahidlərin yenidən toplandığı Xiyabana (orada Bağırxan döyüşlərə başçılıq edirdi) hücumlar edən düşmən qüvvələr hər dəfə böyük itkilər verərək geri çəkilməyə məcbur edilmişdilər.

Əks-inqilabla Təbriz üsyançıları arasında ən gərgin döyüşlər iyulun 21-dən avqustun 10-dək və avqustun 24-dən sentyabrın 11-dək aramsız olaraq davam etmişdir. Bu müddət ərzində Əmirəxız və Xiyaban məhəllələrini dörd bir tərəfdən mühasirəyə almış irtica başçılarının təslim haqqında bütün ultimatum və danışıq təkliflərini Səttarxan inqilabın silahlı dəstələrinin fədakarlıq və şücaətlərinə arxalanaraq rədd etdi. Həmin döyüşlərdə şəxsi şücaətilə seçilən Səttarxanın bir sərkərdə kimi həyata keçirdiyi hərbi cəhətdən yüksək və düşmən üçün gözlənilməz taktiki fəndlər onun dəyanətli və qələbə əzmli dəstəsinə sayca çox olan (40 min nəfərlik) birləşmiş əks-inqilab qüvvələri üzərində həlledici, heç kəsin təsəvvür edə bilmədiyi qələbələr qazanmasına imkan

yaratdı. Bu tarixi qələbələr daxildə və xaricdəki dostları heyran qoymuş, düşmənləri isə qaçmağa vadar etmişdi.

1908-ci ilin sentyabr vuruşlarındakı qızğın döyüşlərdə qazanılan uğurlardan sonra üsyançılar müdafiədən əks-hücumlara keçdilər. Oktyabrın 12-də əks-inqilab yuvası «İslamiyyə» əncüməni başçıları və orada cəmlənmiş qaragüruhçu dəstələr qaçmağa üz qoydular. Dəvəçi, Sorxab, Bağmeşə və Şeşgilan məhəllələrinin əhalisi hücumları davam etdirən inqilabçılar tərəfinə keçdilər və evlərinin üzərində qırmızı bayraqlar qaldırdılar. Bütün şəhər əks-inqilab qüvvələrindən təmizləndi və al bayraqlara büründü.

Bu uğurlar Təbriz üsyançılarının bütün İranda irtica qüvvələri və bunların başında duran Məhəmmədəli şah üzərində böyük qələbəsi idi. Qələbənin qazanılmasında Səttarxanın xidmətləri ölçüyəgəlməz idi. Təbrizin mühasirəsi dövründə Xiyaban məhəlləsindəki döyüşlərə başçılıq etmiş Bağırxan da çox əmək sərf etmişdi. Fədailərin, mücahidlərin, ümumiyyətlə, geniş kütlənin öz içərisindən çıxmış bu qəhrəmanları – Səttarxanı «Sərdare-milli», Bağırxanı «Salare-milli», yəni hər ikisi milli sərkərdə (başçı) mənasını verən adlarla çağırması, əlbəttə əbəs deyildi (az sonra Azərbaycan əyalət əncüməni xüsusi qərarla bu adları rəsmiləşdirmişdi). Bu tarixi döyüşlərdə «Gizli mərkəz» və onun başında duran Əli Müsyö və digərləri də böyük fədakarlıqlar göstərdi.

Təbrizdə sentyabr-oktyabr aylarındakı qələbə sorağı Azərbaycanın, demək olar ki, bütün vilayətlərinə təsir etdi. Təbrizdən qovulmuş qaragüruhçu dəstələr Azərbaycan vilayətlərinə daraşaraq, əhalini talayıb çatırdılar. Əyalət əncüməni və sosial-demokrat təşkilatının göndərdikləri fədai dəstələri və onlara qoşulmuş yerli mücahidlərin birgə fəaliyyəti nəticəsində noyabr-dekabr və 1909-cu ilin yanvar ayları ərzində tək Maku istisna olmaqla Azərbaycanın bütün qərb vilayətləri (Xoy, Salmas, Marağa, Urmiya, Mərənd, Culfa) əks-inqilabçılardan təmizləndi. Bu vilayətlərdə əncümən hakimiyyəti bərqərar edildi. Azərbaycanın şərq vilayətlərində də irticaya qarşı etirazlar baş qaldırdı.

Təbriz üsyançılarının qələbəsi İranın digər yerlərində inqilabçılarda böyük ruh yüksəkliyi yaratdı və inqilabi hərəkatın yeni yüksəlişinə səbəb oldu. Bu parlaq qələbə İrandan xaricdə də güclü əks-səda doğurdu. Bakı, Tiflis, İstanbul, Nəcəf, hətta Peterburq, Paris və digər böyük şəhərlərdən Azərbaycan əyalət əncüməni və Səttarxanın ünvanına təbrik teleqramları göndərildi.

İstər Təbrizin müdafiəsi, istərsə də bundan sonrakı aylarda xaricdən Azərbaycan və ümumiyyətlə, İran inqilabçılarına tutarlı yardım da göstərilmişdir.

**Cənubi Azərbaycan inqilabçılarına xarici yardım**

Məşrutə inqilabı dövründə, xüsusilə 1908-ci il iyun çevrilişindən sonra Təbrizdə yenidən şiddətlənmiş və vətəndaş müharibəsi səviyyəsinə yüksəlmiş üsyan zamanı İran inqilabçılarına xarici ölkələrdən, ilk növbədə Qafqazdan, Mərkəzi Asiyadan, eləcə də Türkiyə və başqa yerlərdən mütəmadi şəkildə hər dürlü köməklik göstərilmiş, vuruşların taleyində həlledici əhəmiyyəti olan yardımlar edilmişdi.

İnqilaba ilk yardımı qonşu ölkələrə müvəqqəti iş üçün getmiş İran təbəələri göstərdilər. Bunlar başlıca olaraq Qafqaz, Mərkəzi Asiya və Volqaboyunun sənaye mərkəzlərində, limanlarında, müxtəlif nəqliyyat işlərində və eləcə də kənd təsərrüfatı sahəsində çalışan və böyük əksəriyyəti Cənubi Azərbaycandan gəlmiş fəhlələrdən ibarət idi. Onlar inqilab xəbərini eşidən kimi konstitusiyanı qorumaq üçün vətənə qayıtmağa və məşrutə hərəkatına yardım məqsədilə fəaliyyətə başladılar. Göstərilən vilayətlərdə sakin olan Cənubi azərbaycanlı tacir, xırda alverçi, sənətkar və digər iş sahibləri, o cümlədən İranın bəzi konsulxana məmurları da bu işdə fəal iştirak etdilər. Toplanılan pula silah və s. hərbi sursat alınır və gizli yollarla Təbrizə və b. şəhərlərə göndərilir, könüllülərin dəstə-dəstə İrana qayıtması təşkil olunurdu. Bu sahədə işlərin istiqamətləndirilməsində 1906-cı ilin sonlarından etibarən Qafqazın və Mərkəzi Asiyanın əsas şəhərlərində yaranmağa başlayan İranın sosial-demokrat «İctimaiyyunəl-amiyyun» («Mücahid») partiyası təşkilatları, xüsusilə partiyanın Bakı və Tiflis komitələri müstəsna rol oynayırdı.

Bu dövrdə təkcə Qafqazda yaşayan iranlılar deyil, eyni zamanda Qafqaz xalqlarının – Azərbaycan, gürcü, dağlı və b. xalqların mütərəqqi nümayəndələri, o cümlədən Qafqaz inqilabçıları, Təbriz üsyanına istər silah, pul və s. vəsait, istərsə də döyüşçü göndərmək cəhətdən ardıcıl və əvəzsiz kömək göstərmişlər. Qafqazda yaşayan iranlıların və qafqazlıların göstərdikləri yardım bir-birilə sıx əlaqədə həyata keçirilmişdir.

1908-ci il iyun ayının sonlarından etibarən Təbrizdə şiddətli vuruşmalar başladıqdan sonra Təbriz «İctimaiyyunəl-amiyyun» təşkilatı RSDFP-nin Qafqaz Ölkə Komitəsinə müraciət edərək ondan yardım istədi. RSDFP-nin Qafqaz təşkilatları bu müraciətdən sonra İran inqilabına maddi və mənəvi yardımı daha da gücləndirdilər.

Ölkə komitəsinin qərarından sonra Qafqaz inqilabçıları özləri ilə silah, bomba və partlayıcı maddələr götürməklə dəstə-dəstə Təbrizə getməyə başladılar. Bu işdə Bakı və Tiflisdə yaranmış yardım komitələri, «İctimaiyyunəl-amiyyun» təşkilatları mütəşəkkil fəaliyyət göstərdilər. Qafqazdan gedən mücahidlər Rusiyanın müxtəlif şəhərlərindən aldıqları silahdan əlavə, Təbrizə bomba hazırlanması üzrə mütəxəssislər də aparmışdılar.

Təbriz, Xoy, Salmas, Zunuz və digər şəhərlərdə gedən vuruşmalarda Qafqaz inqilabçılarının göstərdiyi fədakarlıq xüsusilə diqqətəlayiqdir. Təkcə Təbrizdə onlardan 800 nəfərə qədər iştirak etmişdir. Onlar öz bacarığı, qorxmazlığı və igidliyi ilə inqilabçıların, ümumiyyətlə, əhalinin dərin hörmətini qazanmışdılar. Təkcə Təbriz vuruşmalarında Qafqaz sosial-demokratlarından 22 nəfər həlak olmuş, bir çoxları yaralanmışdı.

Həmin illərdə Qafqazda, xüsusilə Bakıda nəşr edilən «İrşad», «Həyat», «Tazə həyat» və digər qəzetlər, «Molla Nəsrəddin» jurnalı İran inqilabına böyük mənəvi yardım göstərirdi.

Bakı və ümumiyyətlə, Şimali Azərbaycan varlılarının müəyyən cinahı da İranda demokratik quruluşun yaranması ilə maraqlanır və İran inqilabına yardım göstərməkdən çəkinmirdilər. Azərbaycan milli burjuaziyasının ən görkəmli nümayəndəsi məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin İran inqilabçılarına hərtərəfli yardımı xüsusi qeyd edilməlidir.[1]

Mərkəzi Asiyanın Aşqabad, Buxara, Mərv, Səmərqənd, Cərcou və başqa şəhərlərində sakin olan və müxtəlif peşə sahələrində çalışan iranlılar də vətəndə demokratik quruluşun yaranmasında iştirak etmişlər. 1908-ci ilin iyun ayından Təbrizdə başlanmış silahlı üsyan zamanı onların Aşqabad və digər şəhərlərdə yaratdığı əncümənlər İranda konstitusiya bərpa edilənədək on minlərlə manat miqdarında topladıqları pula tüfəng, patron, bomba, tapança, barıt və s. hərbi ləvazimat alır, gizli yollarla Krasnavodskdan Bakıya, oradan da Təbrizə və ya Rəştə göndərirdilər.

İran inqilabının qələbəsi Türkiyə şəhərlərində yaşayan və əsasən ticarətlə məşğul olan iranlılara da (bunların da əksəriyyəti azərbaycanlı

---

[1] Azərbaycan iri burjuaziyası nümayəndələrindən H.Z.Tağıyevin, habelə Teymurxan şuradan N.Mütəllibovun İran inqilabına yardım olaraq böyük miqdarda pul vəsaiti və silah göndərməsini həm çar Rusiyasının İrandakı rəsmi nümayəndələri, həm də Bakı şəhərinin mühafizə bölməsinin baş məmuru 1908–1909-cu illərdəki rəsmi məlumatlarında qeyd edirdilər. (*Bax:* Gürcüstan SSR MDTA, f.3, iş 78. vər. 61,147.)

idi) təsir göstərmiş, onlarda İranın yeni inkişaf yoluna düşəcəyi inamını gücləndirmişdi. Onlar 1908-ci il iyun çevrilişindən sonra Təbrizdə başlayan üsyan xəbərini alan kimi Təbrizə və İranın başqa vilayətlərinə yardım göstərməyə başladılar. Bu məqsədlə həmin ilin iyul ayında İstanbulda iranlıların səadət əncüməni («Əncüməne-Səadəte-İraniyan») təşkil edildi.

İstanbulda, Londonda, Parisdə və Avropanın başqa ölkələrinin paytaxtlarındakı məşrutə tələb edən «Məşrutə tələban» komitələri də Təbriz üsyançılarına pulla və silahla yardım göstərirdilər.

Beləliklə, Təbriz inqilabçılarının, ələlxüsus Səttarxanın silahlı dəstəsinin qələbəyə qırılmayan inamla müşayiət olunan böyük fədakarlığı və xaricdəki məsləkdaşların yerində və vaxtında göstərdiyi yardımı nəticəsində Təbrizdə, daha sonra Cənubi Azərbaycanın əksər bölgələrində irtica üzərində qələbə çalmaq mümkün oldu. İnqilabın mərkəzinə çevrilmiş Təbrizin həmin tarixi qələbəsi bütün İranı yenidən ayağa qaldırdı. Bununla da konstitusiyanın bərpa edilməsinə və İranda digər demokratik tədbirlərin həyata keçirilməsinə şərait yarandı.

**Cənubi Azərbaycanda həyata keçirilən demokratik tədbirlər**

1908-ci ilin oktyabrında Təbrizdəki qələbə ilə İranın məşrutə hərəkatı tarixində və Azərbaycan xalqının mübarizəsində yeni dövr başladı.

Təbrizdə əyalət əncüməni yeni tərkibdə işə başlamaqla yanaşı, Azərbaycan vilayətləri irtica qüvvələrindən təmizləndikcə həmin bölgə mərkəzlərindəki əncümənlər də öz fəaliyyətini bərpa etdi. Eyni zamanda Azərbaycanın digər vilayətlərinin əks-inqilabdan təmizlənməsi davam etdirildi və əyalətin iqtisadi və mədəni həyatının bərpası sahəsində tədbirlər həyata keçirildi.

İlk öncə dörd ay mühasirə və hərb şəraitində yaşamış Təbrizdə normal və adi həyatı bərpa etmək sahəsində geniş fəaliyyətə başlanıldı. İlk növbədə şəhərin iqtisadi mərkəzi olan bazar yenidən açıldı. Yaradılmış xüsusi komissiyanın fəaliyyəti nəticəsində yaxın rayonlardan taxılın və digər ərzaq mallarının Təbrizə gətirilməsi təmin olundu. Hökumət idarələri vətənpərvər qulluqçuların əli ilə yenidən təşkil edildi. Şəhər bələdiyyə əncüməni şiddətli vuruşmalar dövründə qərbdən şərqə doğru şəhərin ortasında yaranmış səngərləri və barrikadaları ləğv etdi. Uçub dağılmış və yandırılmış binalar, dükanlar və s. sürətlə təmir edilməyə, şəhər abadlaşmağa başlandı. Şəhərdə təhlükəsizliyi və asayişi möhkəmləndirmək üçün 400 nəfər polis qulluqçusu, 500 nəfər atlı, 1000 nəfər piyada polisdən ibarət şəhər polis idarəsi yenidən təşkil

edildi. Məktəblər (o cümlədən yeniləri), kitabxanalar açıldı. Vilayət mərkəzlərində də yenitipli məktəblər açıldı. Məktəblərdə ilk dəfə olaraq dərslər ana dilində keçilməyə başlandı. Bütün İranda ilk dəfə Təbrizdə ictimai xəstəxana açıldı. «Naleye-millət», «Əncümən» və «Müsavat» qəzetləri nəşr edilməyə başladı.

Bu və digər tədbirləri Cənubi Azərbaycanda ali hakimiyyət orqanı kimi fəaliyyət göstərən Azərbaycan əyalət əncüməni «Gizli mərkəz» ilə sıx əlaqədə olmaqla yenidən bərpa etdiyi «Ədliyyə», «Nəzmiyyə», «Maliyyə», «Bələdiyyə», «Maarif» idarələri şəklində hakimiyyət strukturları vasitəsilə həyata keçirirdi. Əyalət əncüməni əyalətin hərbi cəhətdən möhkəmləndirilməsinə xüsusi diqqət verirdi. Oktyabrın 19-da Əyalət əncüməninin iclasında Hərbi Şuranın başçısı Səttarxan inqilabi qoşunun Ali baş komandanı, Bağırxan isə onun müavini seçildi.

**İranın digər yerlərində inqilabın yenidən dirçəlməsi**

Sentyabr-oktyabr qələbələrinin təsirilə ölkənin paytaxtı Tehranda, Xorasan və Kirman əyalətlərində, Gilan, İsfahan, Buşehr və başqa vilayətlərdə konstitusiya tərəfdarları yenidən hərəkətə gəldilər. İranda inqilab yenidən canlandı. İnqilabı öz ardınca aparmaqdan əlavə, təbrizlilər və yerlərdə yaradılmış «Səttar komitələri» İranın digər əyalət və vilayətlərində, məsələn, İsfahan və Rəştdə olduğu kimi, üsyançılara bilavasitə yardım da göstərirdilər. Məhz bu yardım nəticəsində 1909-cu ilin yanvarında İsfahanda üsyan uğur qazandı. Qarşıda Tehrana hücum planı dururdu. Hücumun hazırlanması və həyata keçirilməsi haqqında Səttarxan isfahanlılar və rəştlilərlə danışıqlar aparırdı.

Ən əhəmiyyətlisi bu idi ki, mərkəzi Tehran hökuməti iflic vəziyyətinə düşdüyü bir halda, İranın üsyan etmiş bir çox əyalət və vilayətləri şah hakimiyyətini tanımaq istəmir, öz nümayəndələrini seçərək Təbrizə göndərirdilər. Həmin nümayəndələr əyalət əncüməninin İranın milli məclisi yerində, Səttarxanı isə yeganə başçı görmək istədiklərini bildirirdilər. Bu cəhət də çox əlamətdardır ki, gələn nümayəndələr yerlərdə toplanmış dövlət vergilərini də özləri ilə gətirərək Azərbaycan əyalət əncüməninə təhvil verirdilər.

Deməli, inqilabi əyalət və vilayətlər Azərbaycana, onun baş şəhəri Təbrizə inqilabın siyasi və mənəvi mərkəzi kimi baxmaqla yanaşı, onun əyalət əncüməni Ümumiran miqyasında yeganə hakimiyyət orqanı kimi qəbul edirdilər.

Bu etimada arxalanan Səttarxan oktyabr qələbəsindən sonra şaha göndərdiyi ultimatum xüsusiyyətli teleqramla konstitusiyanın bərpası,

hərəkat iştirakçılarına əfv-ümumi verilməsi və s. kimi mühüm tələblər irəli sürməkdə özündə mənəvi haqq görürdü. Bu haqlı tələbləri yerinə yetirmək əvəzinə şah bütün İranda inqilabın və demokratiyanın dayağı olan Cənubi Azərbaycan, ilk növbədə Təbriz şəhəri üzərinə yeni-yeni silahlı dəstələr yollamaqda davam edirdi.

## § 4. Əks-inqilabın Təbriz üzərinə yeni hücumları və xarici hərbi qüvvələrin köməyi ilə inqilabın yatırılması

**Azərbaycanda hərbi-siyasi vəziyyətin gərginləşməsi**

Azərbaycan üzərinə göndərilən silahlı qüvvələrin böyük bir hissəsi Təbriz ətrafında cəmləşdirilirdi. 1909-cu il yanvarın axırlarından etibarən Təbriz şəhəri yenidən əks-inqilab qüvvələri tərəfindən mühasirəyə alındı. Burada şiddətli döyüşlər başlandı. Şah sarayının ardı-arası kəsilməyən Təbriz üzərinə ağır hərbi texnikanın müşayiətilə göndərdiyi bütün qüvvələrin hücumlarını onlardan sayca az olan inqilabçılar uğurla dəf etdilər. Lakin şəhərin mühasirəsi davam edirdi.

Təbrizin mühasirəsi davam etdirildiyi aylarda Azərbaycanın digər bölgələrində də feodal qaragüruhçu dəstələrin inqilabçılara hücumları başlandı. Yerlərdə mücahidlər dəyanətlə vuruşurdular. Martın 5-də Mərənd, 15-də isə Culfa əks-inqilab qüvvələri tərəfindən tutuldusa da, bu qüvvələr Xoy, Urmiya və Salmas mücahidlərinin müqavimətini qıra bilmədilər.

Mart ayı ərzində, xüsusilə əks-inqilabi qüvvələrin Təbriz üzərinə martın 5-də başladıqları baş hücum zamanı Təbriz mücahidləri düşmən qüvvələr üzərində son dərəcə mühüm qələbələr qazandılar.

Lakin mühasirə hələ də davam edir və öz təsirini göstərirdi, belə ki, Təbrizdə aclıq başlandı. Hələ bir qədər əvvəl polkovnik Lyaxovun vasitəsilə İranda əks-inqilabi çevrilişin həyata keçirilməsinə nail olan çarizm Təbrizə ərzaq malları çatdırmaq, xarici təbəələri qorumaq bəhanəsi ilə aprelin 25-də Cənubi Azərbaycana qoşun yeritdi. Aprelin 29-da xarici qoşun Təbrizə çatdı. Lakin Təbriz sosial-demokrat təşkilatının və əyalət əncüməninin qərarına əsasən Səttarxan və hərbi şura çar qoşunları ilə hər cür toqquşmanı mücahidlərə qadağan etdi.

Çar qoşunları Təbrizə çatdıqdan sonra şah qoşunları Təbrizin ətrafından uzaqlaşdılar. Beləliklə, döyüşlər dayandırıldı. May ayının ilk günlərindən etibarən çar əsgərləri Təbrizdə silahlı mücahidləri tərk-si-

lah etməyə başladılar. Mücahidlər silahları verməkdən imtina etdikdə, toqquşmaların başlanması şəhərdə vəziyyəti xeyli gərginləşdirdi. Çar komandanlığı və konsulluğu, ilk növbədə inqilabın hərbi qüvvələrinin tərk-silah olunmasını, Rusiya təbəəsi olan Qafqaz inqilabçılarının Cənubi Azərbaycandan çıxıb getməyini tələb etdilər. Qafqaz inqilabçılarının da əksəriyyəti Təbrizi tərk etməyə, vətənə qayıtmağa məcbur oldu, müqavimət göstərənlərin bəziləri çar qoşunları ilə toqquşmalarda həlak oldular, bir çoxları isə çar zindanlarına və sürgünlərə göndərildilər.

**Konstitusiyanın bərpası və əncümənlərin Cənubi Azərbaycan vilayətlərində möhkəmlənməsi**

1909-cu il aprel ayının axırlarında çar hökuməti Təbrizə və Azərbaycanın digər vilayətlərinə qoşun yeritdikdən sonra şah qoşunlarına qarşı döyüşlər dayandırılsa və üsyana son qoyulsa da Təbriz hadisələri İranın digər vilayətlərində, xüsusilə Gilan və İsfahanda inqilabi qüvvələrin ayağa qalxmasına, onların Tehran üzərinə yürüşə başlayıb, paytaxtı əks-inqilab qüvvələrindən azad etməsinə şərait yaratmış oldu. Paytaxta yürüş etmiş qüvvələrin başçılarının iştirakı ilə Tehranda keçmiş parlament nümayəndələrindən, nazirlərdən, varlı tacirlərdən, iri ruhanilərdən ibarət yaradılmış «Ali məclis» (və ya «Fövqəladə şura») 1909-cu il iyulun əvvəllərində Məhəmmədəli şahın devrildiyini, onun 14 yaşlı oğlu Sultan Əhmədin şah elan olunduğunu bildirdi. Konstitusiya bərpa edildi. Lakin yaradılmış yeni hökumətin tərkibinə xalq içərisindən çıxmış və hərəkatı qələbəyə çatdırmış inqilab rəhbərləri deyil, köhnə feodal zadəgan ünsürləri daxil edildiyinə görə əks-inqilaba qarşı gözlənilən ciddi tədbirlər həyata keçirilmədi.

1909-cu ilin aprel və may aylarından etibarən Azərbaycanın bəzi şəhərlərində çar qoşunlarının yerləşdirilməsinə, Ərdəbil və Meşkində əncümənlərin dağıdılmasına və inqilabçılara divan tutulmasına baxmayaraq, Təbriz üsyanının ümumi qələbəsi nəticəsində Urmiya, Xoy, Salmas, Mərənd, Sulduz, Miyana, Xalxal, Sarab, Astara, Zəncan və digər yerlərdə konstitusiyalı quruluşa uyğun olaraq əncümən hakimiyyəti bərqərar edildi və möhkəmləndi.

**İnqilab qüvvələrinin tərk-silah edilməsi**

Konstitusiyanın bərpası uğrunda hərəkatda iştirak edən müxtəlif sinif və təbəqələrin mübariz qüvvələri mütləqiyyətə qarşı növbəti qələbədən sonra bir-birindən ayrıldılar. Onlar öz ictimai və sinfi mənafelərinə uyğun olaraq müxtəlif yollar seçdilər. Konstitusiyanın bərpası ilə hərəkatı bitmiş hesab edən liberal qüvvələr Tehranda «Etidaliyyun» adlı siyasi partiya yaratdılar və onun ətrafında toplandılar. İnqilabın müvəffəqiyyətlərini möhkəm

qorumaq, demokratik azadlıqları həyata keçirmək məqsədi daşıyan qüvvələr, o cümlədən inqilabçı ziyalılar 1909-cu il noyabr ayının 15-də «İran demokrat partiyası»nı (İDP) yaradaraq, mübariz kütlələri bu partiya ətrafında toplamaq üçün fəaliyyətə başladılar. Partiyanın siyasi orqanı «İrane-nou» qəzeti idi. Qəzetin redaktoru 1908-ci ildə İrana gəlmiş, o cümlədən Cənubi Azərbaycan şəhərlərində, Rəştdə olmuş, sonra Tehrana gələrək buradakı iranlı dostları və həmkarları ilə İDP-nin yaradılmasında iştirak etmiş olan Məhəmməd Əmin Rəsulzadə idi. İran demokrat partiyasının şöbəsi isə Azərbaycanda yalnız 1910-cu ilin sentyabr ayında partiyanın sədri Seyid Həsən Tağızadənin iştirakı ilə yaradıldı. «Şəfəq» qəzeti bu partiyanın Azərbaycan əyalət komitəsinin orqanı idi.

Tehranda Sepəhdarın başçılığı ilə təşkil edilmiş hökumətin isə əsas məqsədi inqilabın dayağı olan mücahid və fədai dəstələrini tərk-silah etmək və dağıtmaq idi. 1909-cu il noyabrın 15-də açılan və Azərbaycan nümayəndələrinin də iştirak etdiyi ikinci məclis nümayəndələrinin əksəriyyəti Sepəhdar hökumətinin bu haqda təklifilə razılaşdı.

Hökumət Səttarxan və Bağırxanın Təbrizdən uzaqlaşdırılmasına Azərbaycan fədailərinin tərk-silah edilməsinin əsası və başlanğıcı kimi baxan İngiltərə və çar Rusiyasının təzyiqinə, hədələrinə cavab olaraq başda Səttarxan və Bağırxanın durduğu mücahidlərin Təbrizdən çıxarılmasına çalışırdı.

Bu məqsədlə 1910-cu il martın 11-də daxili işlər naziri Sərdar Əsəd Səttarxanı Tehrana dəvət etdi. Bütün təkidli dəvətlərə, arasıkəsilməyən teleqramlara baxmayaraq, Səttarxan Tehrana getməkdən imtina etsə də, imperialist dövlətlərin qan tökməyə hazırlaşdıqları haqqında məlumat aldıqda, bunun qarşısını almaq məqsədilə Təbrizdən çıxmağa razılıq verdi.

1910-cu il martın 19-da Təbrizdə təntənə ilə yola salınan Səttarxan və Bağırxan 100 nəfər fədainin müşayiətilə aprelin 15-də Tehrana çatdıqda məclis nümayəndələrindən, dövlət üzvlərindən, Tehran əhalisinin bütün sosial qüvvələrinin nümayəndələrindən ibarət möhtəşəm bir izdiham tərəfindən son dərəcə böyük hörmətlə qarşılandılar. O dövrün mətbuatının yazdığına görə, həmin vaxta qədər heç bir siyasi, ictimai xadim, heç bir ruhani və xarici qonaq, hətta şah belə təntənə ilə qarşılanmamışdı.

Tərk-silah haqqında fədai başçıları ilə əldə edilmiş razılığa baxmayaraq, Səttarxan və onun ətrafındakı mücahidlərə, onlara Tehranda qoşulmuş fədailərə qarşı daşnak Yefremin başçılıq etdiyi 6 min nəfərlik müxtəlif silahlı dəstələr tərəfindən xaincəsinə basqın edildi. Mücahid-

lərdən 18 nəfər həlak oldu, 40 nəfər, o cümlədən Səttarxan yaralandı, 300-ə yaxın fədai həbsə alındı. Bundan sonra Səttarxan və Bağırxan Təbrizə qayıtmaq istəsələr də, Tehran hökuməti icazə vermədi. Bu isə əslində sürgündə qalmaq demək idi.

1910-cu ilin noyabr ayında Cənubi Azərbaycan xalq hərəkatının görkəmli başçılarından Əli Müsyö həyatdan köçdü.

Bu hadisələrdən sonra vali Müxbirüssəltənənin Azərbaycanda demokratik qüvvələrə qarşı təqibləri daha da gücləndi. 1911-ci ilin əvvəllərində o, bir sıra siyasi və ictimai xadimləri həbs etdirdi. Bu təqiblər Təbrizdə əhalinin həyəcanına səbəb oldu. Əhali Müxbirüssəltənənin Təbrizdən çıxarılmasını tələb etdi. Məclis Təbriz əhalisinin tələbini yerinə yetirməyə məcbur oldu. Müxbirüssəltənə valilikdən götürüldü.

Təşkilati cəhətdən xeyli zəifləyən əncümənə yeni seçkilər başlandı. İnqilab başçılarının birliyi ilə əncümən hakimiyyəti yenidən möhkəmləndi, demokratik qüvvələr, xüsusilə Təbriz sosial-demokrat təşkilatı, demokrat partiyasının Azərbaycan təşkilatı bütün vilayətlərdə vəziyyəti qaydaya salmaqda əyalət əncüməninə, müvəqqəti vali Amanulla Mirzəyə yardım göstərdilər. Az müddət ərzində Mərənd, Xoy, Salmas və s. vilayətlərdə əncümən hakimiyyəti yenidən bərqərar edildi və möhkəmləndirildi.

**İnqilabın yatırılması**

İngiltərə və çarizmin keçmiş şah Məhəmmədəlinin 1911-ci ilin iyulunda İrana qayıtmasına şərait yaratması ilə ölkədə siyasi vəziyyət yenidən gərginləşdi. İrtica baş qaldırdı.

1911-ci il avqustun 24-dən əks-inqilab qüvvələri Təbriz üzərinə hücuma başladılar. Təbrizdə şiddətli vuruşmalar oktyabrın əvvəllərinədək davam etdi. Əks-inqilab qüvvələrinin şəhərin müxtəlif istiqamətlərindən hücumlarına baxmayaraq, onlar Təbriz fədailəri qarşısında məğlubiyyətə uğradılar. Cənubi Azərbaycan mücahidləri yenə qalib gəldilər. Azərbaycanın bir sıra başqa şəhərlərində yenidən könüllü fədai dəstələrinin təşkilinə başlanıldı.

İranın digər vilayətlərində də keçmiş şahın əks-inqilabi yürüşünə qarşı əhalinin geniş kütlələrinin şiddətli vuruşması müvəffəqiyyətlə nəticələndi. Şah bu dəfə ölkəni həmişəlik tərk etməli və Rusiyaya dönməli oldu. Lakin ruspərəst Məhəmmədəli şahı hakimiyyətə qaytarmaq cəhdi baş tutmadıqda Rusiya diplomatiyası İranda inqilabı boğmaq üçün yeni bəhanə arayıb tapdı. Bu qayda ilə çar səfiri İrana dəvət olunmuş amerikalı müşavir M.Şusterin ölkədə fəaliyyətinin guya Rusiyanın

mənafeyinə zidd olmasına istinad edərək noyabrın 29-da İran dövlətinə Amerika maliyyə müşavirlərinin ölkədən çıxarılması və başqa tələbləri əhatə edən ultimatum notası verdi. Məclis böyük əksəriyyətlə ultimatumu rədd etdi. Bundan sonra çar qoşunları Rəştdən Qəzvinə doğru hərəkətə başladılar. Tehranda və digər böyük şəhərlərdə, o cümlədən Azərbaycan şəhərlərində ultimatuma qarşı etiraz mitinqi və nümayişləri başlandı.

Bunlara baxmayaraq, dekabrın 25-də hökumətin silahlı dəstələri məclis binasını mühasirəyə alaraq bütün nümayəndələri oradan qovub çıxartdılar. Baş nazir Samsamüssəltənə çar hökumətinin ultimatumunu qəbul etdi. Ölkənin hər yerində xarici qoşunlar ultimatuma və müdaxiləyə qarşı çıxmış inqilabçılara divan tutdular.

1911-ci il dekabr ayının 20-də Təbrizdə çar qoşunları ilə başlanmış döyüşlər dekabrın 28-dək davam etdi. Dekabrın 26-da Təbrizə külli miqdarda çar qoşunu gətirildi. Əyalət əncüməni və hərəkat başçıları qüvvələrin qeyri-bərabər olduğunu nəzərə alaraq döyüşü dayandırdılar. Şəhər çar qoşunları tərəfindən tutuldu. Dekabrın 28-də silahlı mücahid və fədai başçılarından təxminən 300 nəfəri Türkiyəyə getməyə məcbur oldu.

1912-ci ilin ilk aylarında çarizmin və ölkənin cənubunda İngiltərənin silahlı qüvvələrinin müdaxiləsi nəticəsində İranın inqilab mərkəzləri dağıdıldı, inqilab başçılarına divan tutuldu, inqilabın nailiyyətləri ləğv edildi.

Çar zabitləri tərəfindən Təbrizdə hərbi məhkəmə təşkil edildi. 1906-cı ildə inqilabi hərəkata başçılıq edən Təbriz sosial-demokrat təşkilatının görkəmli rəhbərlərindən Hacı Əli Davafuruş, iri ruhanilərdən Siqqətulislam, həmçinin Səttarxanın qardaşı və qardaşı oğlanları, sosial-demokrat təşkilatının rəhbəri Əli Müsyönün kiçik oğlanları, onlarla görkəmli ictimai xadim, Qafqaz mücahidlərindən bir çoxu həmin məhkəmələr tərəfindən ölümə məhkum edilərək edam olundular.

Daxili əks-inqilab və təcavüzkar qüvvələr Azərbaycanın digər şəhərlərində də inqilab başçılarına divan tutdular. Ərdəbil, Xoy, Salmas və Urmiya şəhərlərində inqilab mərkəzləri və vilayət əncümənləri dağıdıldı.

Təbrizdə və bütün Cənubi Azərbaycanda terror və irtica hökm sürməyə başladı. İnqilabın bir çox nailiyyətləri məhv edildi. Azərbaycan əhalisi uzun müddət Şüscüddövlənin zülmünə məruz qaldı.

Beləliklə, 1905–1911-ci illər İran burjua inqilabında, onun ən gərgin anlarında mühüm, həlledici rol oynamış və irtica qüvvələrinin onun qarşısında aciz qaldığı Azərbaycandakı hərəkat yalnız xarici müdaxiləçilərin ordusu tərəfindən yatırıla bildi.

# IV FƏSİL

# AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ

## § 1. Müharibənin başlanması. Azərbaycanın vəziyyəti

Dünyanı yenidən bölmək uğrunda iki hərbi bloka daxil olan üçlər ittifaqı və Antanta dövlətlərinin sürətlə silahlanmaları dəhşətli Birinci Dünya müharibəsinə gətirib çıxartdı.

1914-cü ilin iyununda Avstriya vəliəhdinin serb millətçisi tərəfindən öldürülməsi çoxdan hazırlanmaqda olan Dünya müharibəsinin başlanması üçün bir bəhanə oldu. Müharibəyə dünyanın 40-a qədər ölkəsi cəlb edilmişdi. Yetmiş üç milyon nəfərdən çox adam cəbhəyə səfərbər olunmuşdu. Müharibədə o dövrün bütün silah növlərindən istifadə edilirdi. Bəşər tarixində baş vermiş müharibələr içərisində ən dəhşətlisi olan bu müharibədə 35 milyona qədər adam öldürülmüş və yaralanmışdı.

Birinci Dünya müharibəsi hər iki blok üçün işğalçılıq müharibəsi idi. Hərbi bloklara daxil olan dövlətlərdən hər birinin işğalçılıq planı vardı. Bu hərbi planlarda son dərəcə əlverişli coğrafi mövqedə yerləşmiş Azərbaycan və onun nefti mühüm yer tuturdu. Müharibə ərəfəsində Azərbaycan neft sənayesində hakim mövqe tutmaq uğrunda əcnəbi inhisarların mübarizəsi kəskinləşmişdi. Bu mübarizədə alman və ingilis inhisarları daha çox rəqabət aparırdılar.

Yaxın Şərqdəki zəngin neft yataqları ilə kifayətlənməyən alman inhisarları Bakı neftinə xüsusi maraq göstərirdilər. Almaniya öz məqsədinə nail olmaq üçün yaxın müttəfiqi Türkiyədən də istifadə etmək istəyirdi. Türkiyənin müharibəyə hazırlanmasında alman generalları və hərbi mütəxəssisləri yaxından iştirak edirdilər. Alman hakim dairələri Türkiyənin başqa dövlətlərin təsir dairəsinə düşməsinə yol vermək niyyətində deyildilər. İstanbuldakı alman səfiri bu fikri təsdiq edərək bildirmişdi ki, «həm indi, həm də gələcəkdə almanlar heç bir kənar

əlin Anadolu üzərinə qoyulmasına icazə verməyəcəkdir». Alman hökuməti Türkiyənin iştirakı ilə Qafqazı və Ön Asiyanı nüfuz dairəsində saxlamaq, Hindistana, həmçinin Əfqanıstana yol açmaqla Rusiyanın və İngiltərənin bu regionlardakı mövqelərinə zərbə vurmaq istəyirdi.

Əsrlərdən bəri boğazları ələ keçirməyə can atan, Türkiyəni bir dövlət kimi məhv edib ərazisini bölüşdürməyə çalışan və türk dünyasına düşmən kəsilmiş çar Rusiyasına qarşı mübarizədə Türkiyənin Almaniya ilə yaxınlaşması təbii idi.

Türkiyənin hərbi planında Qafqazda və Rusiyada yaşayan müsəlmanların çarizmin müstəmləkə əsarətindən xilas olunmasında bilavasitə iştirak etmək nəzərdə tutulurdu.

Dünya müharibəsinin Qərb və Cənub-qərb cəbhələri ilə yanaşı, ikincidərəcəli hesab olunan Qafqaz cəbhəsində qanlı döyüşlər gedirdi. Qara dənizdəki rus limanlarının, xüsusən Sevastopolun top atəşinə tutulmasından bir neçə gün sonra, yəni oktyabrın 20-də Rusiya Türkiyəyə müharibə elan etdi.

Qafqazda quruda və dənizdə hərbi əməliyyatlar başlandı. Türk qoşunları Qars-Batumi istiqamətində Cənubi Qafqaza hücumla bərabər, Cənubi Azərbaycan ərazisinə girdilər. Türkiyənin almanların köməyi ilə tərtib olunmuş hərbi planlarında yol verilmiş kobud səhvlər müharibə gedişində özünü göstərdi.

Türkiyənin hərbi naziri Ənvər Paşa və onun qərargahı Qafqaz cəbhəsindəki döyüşlərə böyük ümid bəsləyirdi. Hərbi əməliyyat üçün buraya 90 min canlı qüvvəni birləşdirən 3-cü türk ordusu göndərilmişdi. Qələbəyə böyük inam bəsləyən Ənvər Paşa Qafqaz cəbhəsindəki əməliyyatlara şəxsən özü komandanlıq edirdi.

Plana əsasən, rus ordusuna əsas zərbə Sarıqamış ətrafında endirilməli idi. Hərbi əməliyyat 1914-cü il dekabrın 9-da başlandı və 1915-ci il yanvarın 18-nə kimi davam etdi. Güclü şaxta və çovğun şəraitində gedən döyüşlərdə türk ordusu böyük itkilər verdi və məğlub oldu.

Qafqaz cəbhəsində ruslar 170 min əsgər və 350-dən çox top cəmləşdirmişdilər. Canlı qüvvə və texnika üstünlüyü Sarıqamışda ruslara qələbə qazandırdı. Bu qələbədən az sonra Təbrizi tutan rus qoşunları yanvarın axırlarından başlayaraq türk hərbi hissələrini Cənubi Azərbaycandan sıxışdırıb çıxartdılar. 1916-cı ilin yaz-yay aylarında rus qoşunları Ərzurum, Ərzincan, Trapezund və b. yerləri işğal etdilər. Müharibənin sonuna qədər Qafqaz cəbhəsində elə ciddi dəyişiklik baş vermədi.

Məlumdur ki, Rusiya imperiyasında yaşayan müsəlmanlar, o cümlədən azərbaycanlılar orduya çağırılmırdılar. Onlar bu yol ilə qəsdən silah işlətmək vərdişindən və döyüş təcrübəsindən məhrum edilirdilər. Çar hökuməti orduda xidmət edən müsəlmanların cəbhələrdə Osmanlı ordusuna qarşı vuruşmayacağından ehtiyat edirdi. Hakim dairələr onların silahı rus müstəmləkəçilərinə qarşı çevirə biləcəyindən də qorxurdu. Halbuki çar ordusunda xüsusi erməni və gürcü milli hərbi hissələri yaradılırdı. Antantanın qələbəsindən sonra Ermənistan dövləti yaradılması ümidi ilə yaşayan daşnaklar türklərə qarşı döyüşlərə ermənilərdən ibarət könüllü dəstələr göndərirdilər.

Rus ordusunda xidmətə yalnız ali müsəlman silkinə mənsub olan cavanlar, yəni bəy-xan, varlı ailələrin uşaqları qəbul edilirdilər və onlar hərbi məktəbləri qurtardıqdan sonra orduda xidməti davam etdirirdilər.

Birinci Dünya müharibəsi illərində rus ordusu və donanmasında 200 nəfərdən çox azərbaycanlı zabit qulluq edirdi. Onların əksəriyyəti döyüşlərdə göstərdiyi igidliyə görə müxtəlif orden və medallarla təltif edilmişdi. Artilleriya generalları Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski və Hüseyn xan Naxçıvanskinin adları rus hərb sənəti tarixinə əbədi olaraq yazılmışdır.

Çar ordusunun artilleriya general-leytenantı rütbəsinə qədər yüksəlmiş Əlağa Şıxlinski (1865–1943) şərəfli bir döyüş yolu keçmişdi. Paytaxtda artilleriya məktəbi bitirən Ə.Şıxlinski mənalı ömrünü hərb sənətinə bağlamışdı. Rus-yapon müharibəsi illərində Port-Arturun müdafiəsində göstərdiyi şəxsi igidliyə görə Azərbaycanın igid oğlu qızıl qılıncla mükafatlandırılmışdı. Onun hərb sənətinə, xüsusilə topçuluğa gətirdiyi yeniliklər o vaxtkı hərbi məktəblərdə tədris olunurdu. Ə.Şıxlinskinin sərkərdəlik məharəti bu müharibədə daha parlaq şəkildə üzə çıxdı. Paytaxtın toplarla müdafiə olunmasının ona tapşırılması təsadüfi deyildi. O, müharibə zamanı bir sıra məsul ali komandanlıq vəzifələrini yerinə yetirmiş, Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, sonra isə ordunun komandanı olmuşdu.

Artilleriya general-leytenantı Səməd bəy Mehmandarov (1857– 1931) da hələ keçən əsrin yetmişinci illərində taleyini hərb sənətinə bağlamışdı. S.Mehmandarov 1898-ci ildə podpolkovnik rütbəsində uzaq Şərqə Çinlə sərhəddə göndərilmişdi. 1902-ci ildə polkovnik S.Mehmandarov Mancuriyada mühüm hərbi tapşırıqlar yerinə yetirirdi. Rus–yapon müharibəsinin ilk günlərindən topçu diviziyonunun komandiri olan S.Mehmandarov özünü bir daha mahir sərkərdə kimi göstərdi.

Bu müharibədə göstərdiyi qəhrəmanlığa görə o, «Müqəddəs Georgi» ordeninin bütün dörd dərəcəsi ilə təltif edildi və ona general-mayor rütbəsi verildi. Bir neçə il sonra, yəni 1908-ci ildə general-leytenant rütbəsi aldı. Birinci Dünya müharibəsi illərində 21-ci diviziyaya komandanlıq edən general dəfələrlə düşmənin hərbi planlarını pozmuş və ona ağır zərbələr endirmişdi. 1914-cü ilin payızında alman generalı Makenzinin qoşunları bir sıra şəhərləri aldıqdan sonra sürətlə irəliləyərək Lodz uğrunda əməliyyata başladı. Geri çəkilməkdə olan rus qoşunları ağır vəziyyətə düşmüşdü. İki rus ordusunun mühasirəyə düşmək təhlükəsi yaranmışdı. Belə ağır bir vəziyyətdə hücuma keçən 21-ci diviziya sürətlə irəliləyən alman qoşunlarına sarsıdıcı zərbə endirdi və Makenzinin sürətli hücum planlarını puça çıxartdı. Hər iki rus ordusunu isə mühasirəyə düşmək rüsvayçılığından qurtardı. Lodz əməliyyatı zamanı göstərdiyi böyük sərkərdəlik məharəti və şəxsi rəşadəti ona şöhrət qazandırmış və Səməd bəy Mehmandarova tam artilleriya generalı rütbəsi verilmişdi. O, 1915-ci ildə isə ikinci Qafqaz ordu korpusuna komandan təyin edilmişdi...

General-leytenant Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanski (1863–1919) də Qərb cəbhəsində süvari diviziyaya komandanlıq edirdi. S.Mehmandarov və Ə.Şıxlinski artilleriya sahəsində hansı zirvəyə qalxmışdılarsa, Hüseyn xan Naxçıvanski də süvari qoşunları birləşmələrinə komandanlıqda həmin zirvəyə çatmışdı. Birinci Dünya müharibəsi illərində göstərdiyi sərkərdəlik məharəti və əldə etdiyi qələbələrə görə ona 1916-cı ildə süvari qoşunların tam general rütbəsi verilmişdi.

Bu dövrdə general İbrahim ağa Vəkilov ordu qərargahında qulluq edirdi. Onun oğlu podpolkovnik Qalib Vəkilov isə Qərb cəbhəsində mühəndis polkunda göstərdiyi qəhrəmanlığa görə «Müqəddəs Georgi» ordeni ilə təltif olunmuşdu. Nijeqorod alayının rotmistri Teymur Novruzov qeyri-adi igidlik göstərərək qəflətən düşmən üzərinə atılıb, onları qılıncdan keçirdiyinə və iki ağır top qənimət götürdüyünə görə «Müqəddəs Georgi» ordeninin bütün dörd dərəcəsi ilə təltif edilmişdi. Kapitan Tərlan Əlyarbəyov da döyüşlərdə göstərdiyi rəşadətə görə o zaman çox az adama nəsib olmuş «Müqəddəs Georgi» ordeninin bütün dörd dərəcəsinə layiq görülmüşdü. Bu Vətən oğullarının hər birinin döyüşlərdə göstərdiyi rəşadət qəlbimizdə iftixar hissi doğurur.

İlk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbov Tiflisdə və Peterburqda hərbi məktəb bitirmişdi. Müharibə illərində «İlya Muromets» təyyarəsi ilə dəfələrlə hava döyüşlərində iştirak etmiş və hər

dəfə komandanlığın tapşırığını layiqincə yerinə yetirmişdi. Bir qayda olaraq, F.Qayıbova düşmənin strateji əhəmiyyətli obyektlərini məhv etmək tapşırığı verilirdi. Neman çayı üzərindəki körpünü partlatmaq üçün edilən ilk hücum uğurla başa çatdırıldı. O, 1916-cı ilin sentyabrında Vilnüs səmasında növbəti hücum zamanı düşmənin dörd təyyarəsi ilə qarşılaşdı və həmin təyyarələrdən üçünü məhv etdi. F.Qayıbov bu döyüşdə qəhrəmancasına həlak oldu və ölümündən sonra «Müqəddəs Georgi» ordeni ilə təltif edildi.

Müharibə zamanı azərbaycanlılardan, eləcə də başqa müsəlman gənclərindən ayrıca «Tatar süvari alayı» təşkil edilmişdi. Döyüşlərdə düşmənə qənim kəsilmiş qorxubilməz bu alayı çar generalları və şovinistlər həqarətlə «vəhşi diviziya» adlandırırdılar. Müharibə dövründə bu alay döyüşlərdə misilsiz rəşadət göstərmişdi.

Cəbhələrdəki məğlubiyyətlə əlaqədar olaraq, imperiya daxilində sabitlik pozulmuşdu. Rusiya tərkibində olan Polşa, Ukrayna və Finlandiya kimi ucqarlarda istiqlaliyyət meyilləri güclənmişdi. Bu, Azərbaycana da öz təsirini göstərirdi. Azərbaycanda milli hərəkatın başçıları tarixi şəraitdən istifadə edərək ölkəni müstəmləkə əsarətindən azad etmək istəyirdilər.

Belə çətin bir zamanda Türkiyədə mühacirətdə olan Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayev türk xalqları nümayəndələri ilə birlikdə cəbhə xəttini keçərək Avstriya-Macarıstana və Almaniyaya getmiş, o ölkələrin hökumətlərinə müraciət edərək müsəlman vilayətlərinin Rusiyanın müstəmləkə əsarətindən azad edilməsinə əməli yardım göstərilməsini xahiş etmişdilər.

## § 2. Müharibənin iqtisadiyyata təsiri və əhalinin vəziyyətinin pisləşməsi

Birinci Dünya müharibəsinin Rusiyaya vurduğu ziyan ölçüyəgəlməz dərəcədə böyük idi. Rus-yapon müharibəsinin bir ilinə məsarif edilmiş vəsait bu müharibənin bir ayında xərclənirdi. Müharibə başlanan vaxtdan 1917-ci ilin fevralınadək xəzinədən 39 milyard manat xərclənmişdi ki, bunun da 30 milyard manatından çoxu bilavasitə hərbi ehtiyaclara sərf olunmuşdu.

Xarici dövlətlər Rusiyaya 10 milyard man. kredit vermişdilər. Bir çox sahələrdə istehsal dayandırılmışdı. Ağır maliyyə, yanacaq və ərzaq

böhranı başlanmışdı. Cəbhə boyu ərazilərdən əhalinin köçürülməsi, eləcə də xaricdən texniki avadanlıq gətirilməməsi, yanacaq, enerji, xammal çatışmaması üzündən minlərlə sənaye müəssisəsi bağlanılmış və yüz minlərlə fəhlə işsiz qalmışdı. Rusiyanın iqtisadiyyatını sarsıdan müharibə onun müstəmləkələrinə, o cümlədən Azərbaycana da təsir göstərmişdi.

Cəbhənin təchizi üçün bir çox sənaye sahələri hər vəchlə inkişaf etdirilirdi. İqtisadiyyatı hərbi relslərə keçirmək məqsədilə hərbi-sənaye komitələri təşkil edilmişdi. Cənubi Qafqazda cəbhə üçün işləyən müəssisələrin istehsal səviyyəsi yüksək idi. Bu isə istehsalın son dərəcə təmərküzləşməsinə və kapitalın mərkəzləşməsinə səbəb olmuşdu. Belə bir vəziyyət, öz növbəsində iri inhisarlarla dövlət aparatının qarışıb-qovuşmasına gətirib çıxartmışdı.

Müharibə Azərbaycan iqtisadiyyatının mühüm sahəsini təşkil edən neft sənayesindəki durğunluğu daha da dərinləşdirdi. Müharibə dövrünün tələbatı ilə əlaqədar olaraq duru yanacağa olan ehtiyac o qədər yüksək idi ki, neft hasilatının mövcud səviyyəsi nə sənayenin, nə də hərbi idarənin tələbatını ödəmək iqtidarında idi. 1916-cı ilin ortalarında Mərkəzi hərbi-sənaye komitəsinin Xüsusi müdafiə müşavirəsinə göndərilən məktubda deyilirdi ki, bütün sənayenin əsasını təşkil edən yanacağın azlığı dövlətin müdafiəsi üçün işləyən sənayeni çıxılmaz vəziyyətdə qoya bilər. Müharibə dövrünün özünəməxsus amilləri (nəqliyyatdakı bərbad vəziyyət, metal «aclığı», neft emalı üçün zəruri olan kimyəvi turşuların alınmasında ortaya çıxan çətinliklər və s.) neft böhranını daha da gücləndirmişdi.

Qazıma işləri getdikcə azalırdı. 1914-cü ildə 52 min sajen quyu qazılmışdısa, 1916-cı ildə bu, 43,5 min. sajenə və 1917-ci ildə isə 24 min sajenə enmişdi. Başqa sözlə, azalma iki dəfədən çox olmuşdu.

Qazıma işlərinin getdikcə azalması Azərbaycanın neft sənayesində ümumi tənəzzülün ilk əlaməti idi. Lakin hökumət və iri inhisarlar nəyin bahasına olursa-olsun hasilatın səviyyəsini qoruyub saxlamağa çalışırdılar. Ona görə də hasilat sahəsində cüzi də olsa artım gözə çarpırdı. Əgər 1914-cü ildə Azərbaycanda 431,7 mln. pud neft hasil edilmişdisə, 1915-ci ildə bu, 450 mln. puda, 1916-cı ildə 476,8 mln. puda qalxmış və 1917-ci ildə isə 402 mln. puda enmişdi.

Təkcə Abşeronda deyil, ölkəmizin çox yerində neft çıxarılırdı. «Qaraman-Naftalan» neft sənayesi və ticarəti səhmdar cəmiyyətinə məxsus Naftalan mədənləri 1915–1917-ci illərlə 60 min puddan çox

neft vermişdi. 1915-ci ildə «Salyan düzü»ndəki mədənləri istismar etmək üçün Rus-Asiya bank inhisarı əsas kapitalı 5 mln. manat olan «Kür–Kaspi neft sənayesi və ticarəti» səhmdar cəmiyyətini təsis etdi. Həmin ildə Cavad və Şamaxı qəzalarında neft hasilatı ilə məşğul olmaqdan ötrü «Hacıqabul» (əsas kapitalı 2 mln. man.), «Kaspi» sahili neft sənayesi və ticarəti» və «Hacınski-Bakı neft sənayesi və ticarəti səhmdar cəmiyyətləri təşkil edilmişdi. 1916-cı ildə hələ də neft sənayesində fəaliyyətini davam etdirən H.Z.Tağıyev, əsas kapitalı 3 min. manat olan «H.Z.Tağıyev və K°» səhmdar cəmiyyəti təsis etdi. Həmin ildə Şamaxı qəzası ərazisində neftli torpaqlardan neft çıxarmaq məqsədilə əsas kapitalı 6 mln. manat olan «M.S.Səlimov və K°» 2 səhmdar cəmiyyəti yaradıldı. Neft hasilatı Quba qəzasında da davam etdirilirdi. Həmin illərdə Rusiyada hasil edilən neftin 80%-dən çoxu Azərbaycanın payına düşürdü.

Müharibə illərində «Oyl» inhisar qrupuna məxsus olan «Tovuz» portland sementi və digər tikinti materialları istehsalı səhmdar cəmiyyətinə məxsus zavodun verdiyi sementdən başlıca olaraq neft mədənlərində mancanaqların bərkidilməsində, həmçinin çəkilişinə 1915-ci ildə başlanılmış Ələt-Culfa dəmiryolunun tikintisində istifadə edilirdi. Lənkəran qəzasının yeraltı və yerüstü sərvətlərindən hərtərəfli istifadə etmək məqsədilə 1916-cı ildə bilavasitə Rus-Asiya bank inhisarının nəzarəti altında əsas kapitalı 16 mln. manat olan «Astara mahalı» səhmdar cəmiyyəti təsis olunmuşdu. Çox təəssüf ki, Dünya müharibəsi yenicə başlanmış bu nəhəng işləri tam həyata keçirməyə imkan vermədi.

Neftin emalı üçün lazım olan turşuları Bakıda 15 kimya zavodu istehsal edirdi. Müharibə illərində bu zavodların çoxu hərbi məhsullar istehsalına keçmişdi. Neftin emalı üçün son dərəcə vacib olan kükürd kolçedanını «Nobel qardaşları» şirkəti hələ keçən əsrin 90-cı illərindən ölkəmizin qərbində yerləşən kükürd kolçedanı mədənlərindən alırdı. Gədəbəy və Çaykənd mədənləri daha zəngin idi. XX əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Azərbaycanda olan kükürd kolçedanı istehsalı «Nobel qardaşları» inhisar birliyinin əlində idi. Birinci Dünya müharibəsi dövründə xarici ölkələrdən Rusiyaya kükürd kolçedanı idxalının arası kəsildiyinə görə, Azərbaycandakı mədənlər tam gücü ilə istismar edilirdi. Əgər 1914-cü ildə ölkəmizdə 400 min pudadək kükürd kolçedanı çıxarılmışdısa, 1915-ci ildə bu rəqəm 500 min pud olmuş, 1916-cı ildə isə iki dəfə artaraq 1 mln. puda çatmışdı. 1917-ci ildən başlayaraq bu istehsal sahəsində də geriləmə baş vermişdi. Neft

məhsullarının əldə edilməsində mühüm aşqar olan kükürd turşusu istehsalında az müddət coşqun inkişaf baş vermişdi. Bu da, heç şübhəsiz ki, neft məhsullarına cəbhənin artan tələbindən irəli gəlirdi.

Cəbhə üçün vacib olan toluol və benzol istehsalı ilə məşğul olan zavodlarda 1917-ci ildə 50 min pud toluol və 90 min pud benzol əldə edilmişdi.

1916-cı ildə 15 neft-yağ zavodundan ikisi, 9 yağ zavodundan beşi işləyirdi.

Neft emalı sənayesi xroniki surətdə neft hasilatından geri qalırdı. Əgər 1913-cü ildə neftayırma zavodlarına 320 mln. pud neft verilmişdisə, 1917-ci ildə bu 225 mln. puda bərabər olmuşdu. Lakin zavodlar 1917-ci ildə bu qədər neftin yalnız 69,5 mln. pudunu (31%) emaldan keçirmişdi. Dəmiryolu nəqliyyatı, əsasən Müdafiə Nazirliyinin xidmətinə verildiyindən, mülki yüklərin daşınması çətinləşmişdi. Dəniz yolu isə daşımaların öhdəsindən gələ bilmirdi.

Müharibə dövründə istehsalın təmərküzləşməsi yüksək və neftçıxarmada iri cəmiyyətlərin rolu böyük idi. Altı iri səhmdar cəmiyyəti («Nobel qardaşları», «Bakı neft cəmiyyəti», «Xəzər-Qara dəniz cəmiyyəti», rus «Neft» cəmiyyəti və başqaları) 1915-ci ildə çıxarılan neftin 38,6%-ni, 1916-cı ildə isə 40%-ə qədərini vermişdi. 1916-cı ildə təkcə «Nobel qardaşları» şirkəti 76 mln. pud neft hasil etmişdi. Neft emalında da bu cəmiyyətlər hakim rol oynayırdılar. Emal məhsullarının 33%-ni «Nobel qardaşları», «S.M.Şibayev» və «A.Mantaşev» şirkətləri vermişdilər.

İmperiyanın hər yerində olduğu kimi, Azərbaycanda da dəmiryol və su nəqliyyatının işi pozulmuşdu. Hətta hazır məhsullar belə, daşınıb aparıla bilmirdi. Bu vəziyyətdən ən iri inhisar birlikləri istifadə edərək nəqliyyat vasitələrini öz əllərində cəmləşdirmişdilər. Təsadüfi deyildir ki, 1916-cı ildə neft məhsullarının 70%-ni cəbhə üçün işləyən müəssisələrə yalnız «Nobel qardaşları» konserni satmışdı. Müharibə şəraiti maliyyə vəsaitinə son dərəcə böyük ehtiyac yaratmışdı. İri banklarla inhisarların işgüzar əlaqələri güclənmiş və bankların nüfuzu artmışdı. 1917-ci ilədək əsas kapitalı 318 mln. manat olan 60 neft sənayesi müəssisəsi səhmdar kommersiya banklarının iqtisadi təsiri altına düşmüşdü.

Müharibə ilə bağlı olaraq bütün məhsulların qiymətləri durmadan artırdı. Dövlət istehsalı və qiymətləri tənzim etmək üçün bir sıra təşkilatlar yaratmış və sabit dövlət qiymətləri qoymuşdu. Yanacaq istehsal edən sahələrdə tənzim üçün yaradılmış «OSOTOP» – dövlətin müda-

fiəsi üçün və ictimai müəssisələri və nəqliyyatı yanacaqla təmin etməkdən ötrü lazım olan tədbirləri müzakirə etmək üçün yaradılmış xüsusi müşavirə də ümidi doğrultmadı. Hökumətin tənzim siyasəti istənilən nəticəni vermədi. İqtisadi həyatı bürümüş təsərrüfat dağınıqlığı və böhran daha da dərinləşmişdi.

Neft sənayesindəki çətinliklərdən biri də işçi qüvvəsi məsələsi idi. Bakı neft mədənlərində, zavod və fabriklərdə çalışan və xristian əhalidən olan 13 min nəfərə qədər fəhlə cəbhəyə aparılmışdı. İstehsal sahələrində onları azərbaycanlılar əvəz etmişdilər və ona görə də müharibə illərində sənaye sahələrində çalışan azərbaycanlı fəhlələrin xüsusi çəkisi xeyli yüksəlmişdi.

Azərbaycanda ümumi təsərrüfat dağınıqlığı neft sənayesi ilə bərabər digər sahələri də bürümüşdü. Dünya müharibəsi başlanandan sonra Azərbaycanın əlvan metallurgiya sənayesinin əsasını təşkil edən Gədəbəy zavodu da Rusiyanın «Mis» sindikatının üzvü kimi dövlətin hərbi sifarişlərinin yerinə yetirilməsinə cəlb olunmuşdu. 1911–1917-ci illər üçün bağlanmış müqaviləyə görə, «Mis» sindikatı üzvlərinin, o cümlədən Gədəbəy zavodunun istehsal etdiyi misi satmaq hüququ bütünlüklə «Voqau və K°» konserninə verilirdi. Misi axıradək emaldan keçirmək imkanı olmayan bu zavodların çoxu Moskvanın mis prokatı zavodları inhisarı ilə mübarizə apara bilmir, əksər hallarda ona tabe olmaq məcburiyyətində qalırdı. Birinci Dünya müharibəsi illərində «Mis» sindikatı ilə mis prokatı zavodları inhisarı arasında gedən mübarizə gah birincinin, gah da ikincinin üstünlüyü ilə gedirdi. 1915-ci ildə Mərkəzi hərbi-sənaye komitəsinin Metal şöbəsi nəzdində yaradılmış xüsusi Komitəyə hökumət nümayəndələri ilə yanaşı, inhisarların idarə heyətlərinin üzvləri də daxil edilmişdilər. Komitə imperiyada mis istehsalına və idxal olunan misə nəzarət etməli, bu misi mis prokatı zavodları arasında bölüşdürməliydi. Dövlət-inhisar təşkilatı olan Komitə Azərbaycanın əlvan metallurgiya sənayesinin hərbi sifarişlərinin vaxtında yerinə yetirilməsinə də nəzarət edir, bu məhsul hərbi yüklər sırasında dəmiryolları ilə birinci yola salınır və gecikmə halları olmasın deyə, ona, əksər hallarda normadan artıq vaqon göndərilirdi. Hökumətin metallurgiya sahəsindəki tənzim siyasəti uğur gətirmir, ölkə daxilindəki istehsal getdikcə zəifləyirdi. Gədəbəy zavodu bu prosesdən kənarda qalmamışdı. Ona görə də mis istehsalı 1914-cü ildəki 56 min puddan 1917-ci ildə 23 min puda düşmüşdü. Zavodun məhsulu bu dövrdə, başlıca olaraq Moskvaya, Tulaya, Donetsk-Yuryev metallurgi-

ya zavoduna və b. yerlərə göndərilirdi. Gədəbəy zavodu dövlətin hərbi sifarişini yerinə yetirdiyinə görə, ona müəyyən güzəştlər də edilmişdi (fəhlələrə möhlət verilmiş və s.). Müharibə qurtarandan sonra vəziyyətin yaxşılaşacağına böyük ümid bəsləyən sahibkarlar istehsalda texniki yenilik etməyə də təşəbbüs göstərirdilər. 1917-ci ilin ilk aylarında Gədəbəydə tikintisi başa çatdırılmış xüsusi sobada sement misinin saflaşdırılmasına başlanılmışdı. Həmin ildə Staxeyev ticarət-sənaye səhmdar cəmiyyəti ilə Daşkəsəndə ildə 20 milyon pud dəmir filizi çıxartmaq haqqında bağlanılmış müqavilə də deyilənlərə bir daha sübutdur.

Müharibənin ilk ilində mahlıc istehsalında hələ geriləmə baş verməmişdi. Əksinə, yeni müəssisələr inşa edilirdi. 1915-ci ildə borsunlu Məşədi İsgəndərin oğlanları Borsunlu, Kürəkçay, Şamxor və Gəncədəki müəssisələri əsasında «Rəfiyev qardaşları», Cavad qəzasının Petrovavlovka kəndində şamaxılı M.İsgəndərov əsas kapitalı 0,5 mln. manat olan «Muğan» səhmdar cəmiyyətini, mühəndis-texnoloq Baxış bəy Rüstəmbəyov və başqaları Salyanda yeni pambıqtəmizləmə zavodunu təsis etmişdilər. Ümumiyyətlə, 1914–1917-ci illərdə təkcə Bakı və Gəncə quberniyalarında 44 pambıqtəmizləmə zavodu vardı. Naxçıvan qəzasında da təxminən bu qədər zavod işləyirdi. Müharibə dövrünün dağıntıları bu sənayeyə də getdikcə mənfi təsir göstərirdi. Bununla belə, Dünya müharibəsi illərində Azərbaycanda istehsal olunan mahlıcın Cənubi Qafqazdakı xüsusi çəkisi hələ yenə yüksək idi. 1916-cı ildə burada istehsal olunmuş mahlıcın (1502 min pud) 72,4%-ini (1087 min pud), 1917-ci ildə isə 801800 min pud məhsulun 71,4%-ini, yəni 573 min pudunu Azərbaycanın pambıqtəmizləmə sənayesi vermişdi. Mahlıc istehsalı müəssisələri cəbhə üçün işləyən pambıq-parça fabriklərini xammalla təchiz etməli idilər. 1915-ci ildə bu məqsədlə yaradılmış «Pambıq təchizatı» dövlət Komitəsinə azərbaycanlı kapitalistlərin nümayəndələri də daxil edilmişdi. Komitənin əsas vəzifəsi, hər şeydən əvvəl, vahid dövlət inhisar qiyməti qoymaq, alınmış xam-malı fabriklər arasında bölüşdürmək, bütöv bir sənaye sahəsinə istiqamət verməkdən ibarət idi. Başqa sənaye sahələrində olduğu kimi, pambıq-parça sənayesində də inhisarçı kapitalla dövlət aparatı qarışıb-qovuşmuşdu.

H.Z.Tağıyevin 1914-cü ilin payızında hökumətlə bağladığı müqaviləyə əsasən, Azərbaycan və Dağıstanda ona məxsus olan toxuculuq fabrikləri də cəbhə üçün işləyirdi. 1915-ci ildə bu müəssisələrdən cəbhəyə 4 milyon arşın bez və 300 min arşın parusin göndərilmişdi. Bunlardan əlavə, müxtəlif müəssisələrə 100 minlərlə arşın məmulat satıl-

mışdı. Birinci Dünya müharibəsi illərində sənayenin bu sahəsində iri kapitalın ağalıq etməsinə və hökumətin həyata keçirdiyi bir sıra tədbirlərə baxmayaraq, 1917-ci ilin yazından etibarən pambıqtəmizləmə sənayesinin vəziyyəti ağırlaşdığına görə pambıq-parça sənayesinin tələbini tam şəkildə ödəyə bilmirdi.

Birinci Dünya müharibəsi dövründə Moskva ipəktoxuma müəssisələrinin 30%-dən çoxunun dayanmasına baxmayaraq, xam ipəyə olan tələb hələ yüksək idi. Ona görə də Azərbaycanın xam ipəyi böyük həvəslə alınırdı. Azərbaycan təriqi ilə xaricə göndərilmək üçün Mərkəzi Asiyadan gətirilmiş barama ölkəmizin ipək emalı fabriklərinə satılmışdı. Məhz belə bir şəraitdə dayandırılmış müəssisələr belə işə salınmışdı. 1915-ci ildə buxar mühərriki ilə işləyən 123 ipək fabrikinin 85-i Nuxada, 2-si Zaqatalada, 24-ü Qarabağın ayrı-ayrı şəhər və kəndlərində, 12-si isə Naxçıvan qəzasında yerləşirdi. Sənaye məhsulunun 95%-dən çoxunu məhz bu fabriklər verirdilər.

Azərbaycanda istehsal edilən xam ipək dünya bazarlarında uğurla rəqabət aparırdı. İlk mənbələrdən birində göstərilir ki, Azərbaycan ipəyini çox zaman Lion ipəyindən seçmək olmurdu. Ona görə də 1914–1916-cı illərdə ölkəmizdə istehsal edilmiş ipəyin az bir qismi istisna edilməklə, qalanı pudu 650–700 manata Rusiyanın ipəktoxuma sənayesi sahibkarlarına satılmışdı. Təkcə 1915-ci ildə Azərbaycanın ipək emalı sənayesi dəyəri 27 milyon manatdan çox olan 65 min pud xam ipək istehsal etmişdi. 1917-ci ildə ipək emalı sənayesində tənəzzül baş vermişdi.

Müharibə dövründə gön-dəri istehsalı və yeyinti sənaye sahələri də hökumətin hərbi sifarişlərini yerinə yetirirdilər. Gön-dəri məmulatlarına ordunun tələbatı gündən-günə artırdı. Gön-dəri sənayesi piyada, süvari, top və mühəndis hərbi hissəsindən sonra beşinci «silah növü» hesab edilirdi. Dövlətin gördüyü tədbirlərə baxmayaraq, bu sənaye sahəsi hələ də lazımi səviyyəyə qalxa bilməmişdi. Azərbaycanda 4500-dək fəhlənin çalışdığı gön-dəri sənayesində Nuxa qəzası aparıcı rol oynayırdı. 1915-ci ildə qəzada 70-dən çox müəssisə işləyirdi. Müəssisələrin üçdə ikisini təşkil edən gön-dəri müəssisələrinin hər birində orta hesabla 60 fəhlə çalışırdı. Azərbaycanda belə müəssisələr sayca 100-ə qədər idi. Müharibə dövründə gön-dəri sənayesi hər il 2-3 mln. manatlıq məhsul verirdi. 1915-ci ilin oktyabrında verilmiş qanuna əsasən gön-dəri sənayesini xammalla təchiz etmək məqsədilə xüsusi Komitə yaradıldı. Komitəyə nazirliklərin, eləcə də sənaye və ticarət firmalarının nümayəndələri daxil edilmişdilər. Komitəyə həvalə olun-

muş işləri müvəffəqiyyətlə yerinə yetirmək və bu işlərə nəzarət etmək məqsədilə 1916-cı ilin iyulunda iri regionlar üzrə xüsusi komissiyalar təşkil etmək haqqında qanun verildi. Qafqaz dairəsi intendant idarəsinin xüsusi Qafqaz gön-dəri komissiyası yaradıldı. Belə komissiyalar Gəncə və Bakıda da təşkil olunmuşdu. Qafqaz dairə intendantlığı Azərbaycanda gön-dərini bu komissiyaların köməyi ilə tədarük edirdi. Xammala və məmulata sabit dövlət qiymətləri qoyulsa da, möhtəkirliyin öhdəsindən gəlmək mümkün olmurdu.

Azərbaycanın yeyinti sənayesində mühüm rol oynayan balıq emalı müharibə dövründə cəbhə üçün işləyən istehsal sahələri sırasında idi. Balıq sənayesi sahəsindəki mövcud çətinlikləri nəzərə alan Nazirlər Şurası 1915-ci il 16 yanvar qərarı ilə balıq vətəgələrinin icarəsi müqabilində xəzinəyə verilməli olan nağd pul əvəzində banklarda müəssisələri girov qoymağa icazə verdi. Beləliklə, balıq sənayesi sahibləri milyonlarla manat pul girov qoymaqdan xilas oldular və bu vəsaiti istehsala qoymaq imkanı yarandı.

Əsasən iri kapitalın hökmranlıq etdiyi balıq sənayesində milyonlarla manat kapitala sərəncam verən kapitalistlər dövlət sifarişlərini yerinə yetirliklərinə görə hər cür imtiyazdan istifadə edirdilər. Belə bir şəraitdə iri səhmdar cəmiyyətlərindən 1916-cı ildə 12 mln. manat kapitalla təsis edilmiş «Kaspi-Tağıyev», «Rıbak» və başqaları istehsalda aparıcı rol oynayır və qiymətləri diktə edirdilər. Məhz iri kapitalistlərin tələbi ilə balıq məhsulları hərbi yüklərdən sonra daşınırdı. 1914–1915-ci illərdə çay-göllərdə və dənizdə ovlanmış qırmızı balıqların[1] və əldə edilmiş qara kürünün miqdarında ciddi dəyişiklik baş verməmişdi. 1914-cü ildə 425 min ədəd bu növ balıq tutulmuş və onlardan 21 min pud qara kürü alınmışdısa, 1915-ci ildə müvafiq olaraq 529 min ədəd və 22 min pud olmuşdu. Həmin illərdə 35 mln. ədəd axçalı balıqlar da tutulmuşdur. Natamam məlumata görə, 1916-cı ildə 175 min pud qırmızı və 1,6 mln. pud axçalı balıq ovlanmışdısa, 1917-ci ilin iyununa qədər 92 min pud qırmızı və 1,5 mln. pud axçalı, eləcə də başqa növ balıq tutulmuşdu.

Həmin illərdə müvafiq olaraq 14,3 min pud və 9,2 min pud qara kürü alınmışdı. Əgər nəzərə alsaq ki, bu rəqəmlər yalnız ilin birinci yarısını əhatə edir, onda qətiyyətlə demək olar ki, 1917-ci ildə balıq sənayesində geriləmə hələ başlamamışdı. Əsasən fəhlələrin, müharibə

---

[1] Qırmızı balıqlara nərə, ağ balıq, uzunburun daxildir.

dövründə isə əsgərlərin ərzaq məhsuluna daxil edilmiş siyənək balığının ovlanmasında isə geriləmə baş vermişdi. 1915-ci ilə cəbhəyə və sənaye müəssisələrinə 6,5 mln. pud siyənək balığı göndərilmişdisə, 1916-cı ildə bu, 5,3 mln. puda və 1917-ci ildə isə 5 mln. puda enmişdi.

Tütün məmulatına artan tələbat bu sahəyə kapital axını yaratmışdı. Müharibənin ilk iki ili ərzində məhsul istehsalının çoxalması məhz tütün məmulatına ehtiyacın birə-beş artması ilə əlaqədar idi. 1916-cı ildən Azərbaycanın tütün emalı fabrikləri cəbhə üçün işləyən müəssisələr siyahısına daxil edilmiş və bu istehsal sahəsi dövlət inhisarında olmuşdu. Məmulat sabit dövlət qiymətləri ilə xırıd olunurdu. Birinci Dünya müharibəsi dövründə, əvvəlki illərdə olduğu kimi, Azərbaycanda 10 tütün fabriki işləyirdi. 1915-ci ildə 20 min pudadək tütün məmulatı göndərilmişdi. Dövlətə tütünün pudu 32 manata, dövlət inhisarından kənarda isə daha baha satılırdı.

Spirtli içkilər və duz istehsalı dövlət inhisarında idi. 1915-ci ildə xəzinəyə məxsus daş duz mədənlərindən 200 min pud, «Kəlbalıxanov qardaşları və K°» şirkətinin mədənlərindən isə 150 min pud, 1916-cı ildə həm dövlətin və həm də şirkətin mədənlərindən 370 min pud və nəhayət, 1917-ci ildə isə bundan 1,5 dəfə çox daş duz çıxarılmışdı. Bundan başqa, Bakı quberniyası ərazisindəki göllərdən təxminən elə bu qədər şor duz əldə olunurdu. Naxçıvan daş duz mədənlərində Rusiya Müdafiə Nazirliyinin əsgərləri işləyirdilər və çıxarılan duz birbaşa hərbi idarələrə göndərilirdi.

Birinci Dünya müharibəsi dövründə spirtli içkilər istehsalı sahəsində əsas kapitalı 10 mln. manat olan 3 iri səhmdar cəmiyyəti yaradılmışdı. «Zaqafqaziya şərabçılığı» və «Cənub şərabçılığı» səhmdar cəmiyyətləri «Hümmel qardaşları» və «Forer qardaşları» şirkətləri əsasında təsis edilmişdilər. Cəmiyyətlərin müəssisələri Gəncə quberniyası ərazisində yerləşirdi. Azərbaycanda 8–9 konyak zavodu işləyirdi. Ölkəmizdə hər il 500–600 min vedrə pivə istehsal olunurdu.

Bu istehsal sahələrində əldə edilən içkilər sabit hökumət qiymətlərilə müvafiq dövlət idarələrinə satılırdı.

Azərbaycanın yeyinti sənayesində biyan kökü emalı, xüsusilə fərqlənirdi. Müharibənin ilk ilində bu sahədə bir qədər geriləmə olsa da, sonrakı ildə istehsalda vəziyyət düzəlmişdi. 1915-ci ildə 3,5 mln. manatlıq biyan kökü emal edilmişdi.

İngiltərədə və Amerikada quru biyan kökünün pudu 2,5–3 manata, hazırlanmış cövhərin pudu isə 40 manatdan yuxarı gedirdi.

Müharibə illərində ölkəmizdə çiyid yağı istehsalında da tənəzzül baş verməmişdi. 1915-ci ildə 600 min pud çiyiddən 60 min pud yağ və 240 min pud jmıx əldə edilmişdi. Həmin ildə Ləki çiyid yağı istehsalı zavodu yeni təsis edilmiş «Pambıq və yağ» səhmdar cəmiyyətinin ixtiyarına keçmiş və cəmiyyət sabun istehsalı üçün ayrıca zavod tikdirmişdi. 1917-ci ilin əvvəllərində çiyid və çiyid yağının ayrı-ayrı şəxslərə və firmalara satılması qadağan edildi. İstehsal edilmiş çiyid və çiyid yağı icbari şəkildə Ümumqafqaz ölkə ərzaq idarəsinə təhvil verilməli, onların xırıd edilməsi bütünlüklə bu idarəyə həvalə edilmişdi. Başqa sözlə desək, mühüm bir istehsal sahəsi də dövlət inhisarına keçmişdi.

Azərbaycanda kənd təsərrüfatı müharibənin törətdiyi çətinliklərlə əlaqədar ağır vəziyyətə düşmüşdü. Azərbaycanda əkin sahələri ixtisar edilmiş və mal-qaranın sayı xeyli azalmışdı. Vergilər kəndlilər üçün ağır yük olaraq qalırdı, üstəlik müharibəyə çağırılmadığına görə hər bir çağırışçı ailəsindən xüsusi vergi alınırdı. Lakin 1915-ci ildən arxa cəbhədə yardımçı işlərdə istifadə etmək üçün Azərbaycandan 50 mindən artıq gənc səfərbər olunmuşdu. Əkin sahələri 910 min desyatindən 1915-ci ildə 620 min desyatinə enmişdi. Sonrakı illərdə azalma davam etmişdi. Taxıl istehsalı 50% azalmışdı. 1917-ci ildə 1913-cü ilə nisbətən davarların sayı 500 min baş, iribuynuzlu mal-qaranın sayı isə 480 min baş azalmışdı. Hündürlüyü iki arşından yuxarı olan atların çox hissəsi cəbhəyə səfərbər olunmuşdu. Ona görə də iş heyvanları çatışmırdı. Elə qəzalar vardı ki, iş heyvanları 50%-dən çox deyildi. Kəndli ailələrinin yarıya qədərinin heç bir əmək aləti və qoşqu qüvvəsi yox idi. Kəndlərdə işçi və qoşqu qüvvəsi çatışmadığından torpağı əkib becərmək daha da çətinləşmişdi.

Müharibə illərində əkinçiliyin bütün sahələri kimi texniki bitkilər əkini sahələri də kəskin ixtisar edilmişdi. 1916-cı ildə pambıq əkin sahələri 1913-cü ildəki 105 min desyatindən 68 min desyatinə və 1917-ci ildə isə 37 min desyatinə düşmüşdü. Həmin ildən bu istehsal sahəsi tənəzzülə uğrayırdı, yəni əkin sahələrinin üçdə iki hissəsində pambıqçılıqla məşğul olunmurdu. Bununla belə, 1916-cı ildə Cənubi Qafqazda becərilən pambıq əkinlərinin (94300 des.) 72,2%-i (68089 des.), 1917-ci ildə isə 52700 des. torpağın 70,2% (37027 des.) yenə də Azərbaycanın payına düşürdü.

1915-ci ildə Azərbaycanda cəmi 139 min pud barama əldə edilmişdi. Bu isə əvvəlki illərdə becərilən baramanın təxminən 50%-ə qədəri idi. 1917-ci ildə Azərbaycanda 130 min pud barama becərilmişdi.

Bu, hər şeydən əvvəl, ümumi təsərrüfat dağınıqlığı və əcnəbi ölkələrdən ipək qurdu toxumu almağın çətinləşməsilə bağlı idi.

Müharibə başlayandan sonra üzümçülükdə geriləmə müşahidə edilirdi. 1915–1916-cı illərdə Gəncə quberniyasında üzümlüklərin sahəsi 13 min des-ə qədər olmuşdu. Bakı quberniyasında da elə ciddi bir dəyişiklik baş verməmişdi.

Naxçıvan qəzasında isə azacıq artım vardı. Lakin kənd təsərrüfatının başqa sahələrində olduğu kimi, 1917-ci ildə üzümlüklərin də ümumi sahəsində azalma başlamışdı.

Müharibə illərində tütün yarpağına olan tələbat görünməmiş səviyyəyə qalxmışdı. 1915-ci ildə Azərbaycanda 46 min pudadək tütün yarpağı toplanmışdı. Bu, 1913-cü ildəkindən çox idi. Belə bir vəziyyət müvəqqəti idi və az sonra təsərrüfatın bu sahəsində tənəzzül əlamətləri özünü göstərdi.

Dünya müharibəsi əhalini səfalətə düçar etmişdi; fəhlələrin yaşayış səviyyəsi daha da aşağı düşmüşdü. 1916-cı ildə mədən fəhlələri ayda 30 man. əməkhaqqı alırdılar. Sement istehsalında aylıq orta əməkhaqqı təxminən o qədər olmuşdu. Metallurgiya sənayesində, peşədən asılı olaraq, əməkhaqları 30–67 man. arasında tərəddüd edirdi.

1915-ci ildə ipək emalı sənayesində yaşlı fəhlələrin əməkhaqları ayda 25–30 man., yeniyetmələr 15–20 man. və azyaşlılarınkı 12–15 man. idi. Balıq emalı sənayesində də orta aylıq əməkhaqqı həmin ildə peşəyə uyğun olaraq 30–60 man. olmuşdu.

Çoxişlənən malların bazar qiymətlərinin bahalığı üzündən fəhlələrin, eləcə də bütövlükdə əhalinin alıcılıq qabiliyyəti çox aşağı idi. Ona görə də nominal və real əməkhaqqı felən bir-birindən kəskin surətdə fərqlənirdi. Müharibə illərində nominal əməkhaqqının bir qədər artmasına baxmayaraq, ümumi nisbət yenə əvvəlki kimi qalmaqda idi.

1916-cı ildə duzun pudu 7–8 dəfə, təsərrüfat mallarının qiymətləri 1,5 dəfə, geyim şeyləri 2 dəfə bahalaşdığı halda, ölkəmizin 300 min nəfərdən çox olan fəhlə ordusunun əməkhaqları 77% artırılmışdı. Demək olar ki, bütün sənaye sahələrinin cəbhə üçün işləmələrinə baxmayaraq, fəhlələrin ərzaqla təchizi yarıtmaz vəziyyətdə idi.

Müharibə ərəfəsində Gəncə quberniyasının bütün qəzalarında (Nuxa, Şuşa, Ərəş, Qaryagin, Qazax və b.) orta qiymətlərlə unun pudu 1 man. 20 qəpiyə, kərə yağı 16,5 manata, duz 60–70 qəpiyə, kartof 80–90 qəpiyə, mal əti 3,5 man. və qoyun əti 4,5 manata satıldığı halda, müharibə dövründə qiymətlər bir neçə dəfə bahalaşmışdı.

Məsələn, 1914-cü ilin payızında Qazax qəzasında unun pudu 2,5 man., qoyun əti 7 man. satılırdısa, az sonra vəziyyət xeyli pisləşmişdi. 1915-ci ilin yayında Nuxada unun pudu 3 man., qəndin pudu 9 man., duzun pudu 2,5 man., kərə yağı 31 man., ağ neft 2,5 man., düyünün pudu 5 man. satıldığı halda, 3–4 ay sonra yağın pudu 38 man., qənd 10,5 man., qoyun əti 16 man., 1917-ci ilin yanvarında isə unun pudu 8 man., camış əti 16 man., qoyun əti 32 man. (girvənkəsi 80 qəp.), düyünün pudunun qiyməti 15–16 man-a qalxmışdı. Bakı və Gəncə quberniyalarının bütün qəzalarında qiymətlər təxminən eyni idi. Göründüyü kimi, qiymətlərin, xüsusən ərzaq mallarının, görünməmiş dərəcədə bahalaşması əhalinin böyük əksəriyyətinin güzəranını pisləşdirmişdi.

Hökumətin müharibə şəraiti ilə əlaqədar həyata keçirdiyi bəzi tədbirlər vəziyyəti daha da pisləşdirmişdi. 1916-cı il iyulun 30-da Dövlət Şurası və Dövlət Dumasının təsdiq etdikləri qaydaya görə həftənin dörd günü ət və ət məhsulları bir yerdən başqa yerə aparılıb satıla bilməzdi.

Azərbaycanın sənaye müəssisələri cəbhə üçün işləsə də fəhlələrin ərzaqla təchizi yarıtmaz halda idi. 1917-ci ilin əvvəlində vətəgə sahibləri Bakı balıq idarəsinə yazırdılar ki, fəhlələr daha işləmək istəmirlər, çünki onlara ərzaq verə bilmirik. Dörd yüz qramlıq Lənkəran fətirini 1,5 manata «gizli» satın almaq mümkün deyildir. Elə bu vaxt Gədəbəy zavodunun müdiriyyəti Gəncə qəzası ərzaq komitəsinə yazırdı ki, bizə heç olmasa un və qənd göndərin. Fəhlələrin 80%-ni təşkil edən azərbaycanlıların əsas qidası çörək və çaydır.

Şəhərlərin ərzaqla təchizini nisbətən qaydaya qoymaq məqsədilə Bakıda, Gəncədə, Nuxada, Gədəbəydə, Lənkəranda və Şuşada müstəqil ərzaq komitələri yaradılmışdı.

Orduya səfərbər edilmiş ailə başçılarının vəziyyəti çıxılmaz idi. 1914-cü ilin avqustunda verilmiş qaydaya görə belə ailələrin üzvlərinə, onların sayından asılı olaraq, əməkhaqqının müəyyən hissəsinin verilməsi belə, onların səfalətli həyatlarını yaxşılaşdırmadı. Şamaxı, Şuşa, Cəbrayıl, Qazax, Lənkəran və digər qəzalardan hakimiyyət orqanlarına göndərilən müraciətlərdə həyəcanla bildirilirdi ki, «ət və qənd kimi, bazarda çörək də yoxa çıxmışdır».

Dəmiryolu ilə başlıca olaraq hərbi yüklər daşındığından Şimali Qafqazdan Azərbaycana taxıl və un gətirilməsi, demək olar ki, dayanmışdı. Hər il Bakıya 330 vaqon taxıl və un gətirildiyi halda, müharibə dövründə bu, yarıbayarı azalmışdı.

Azərbaycan Qafqaz döyüş cəbhəsinə yaxın olduğundan təsərrüfat dağınıqlığı və böhran burada başqa yerlərə nisbətən daha çox hiss edilirdi.

Cəbhə rayonlarından Azərbaycan qəzalarına və Bakıya hər gün yüzlərlə yaralı və şikəst gətirilirdi. Bundan əlavə, Bakıda iri qoşun hissələri yerləşdirilmişdi. Müharibə illərində qaçqınların və əsgərlərin hesabına Bakı əhalisinin sayı 70 min nəfər artmışdı. Ərzaq böhranı şəraitində buraya əhali axını vəziyyəti daha da gərginləşdirirdi. Qıtlıq və aclıq ölkəni fəlakətə doğru sürükləyirdi.

Kəndlilərin vəziyyəti daha dözülməz idi. Aclıq, demək olar ki, qəzaların əksəriyyətini bürümüşdü. Müharibənin törətdiyi dağınıqlıq üzündən əkinə yararlı torpağın az qala yarıya qədəri becərilmirdi. Məhsuldarlıq aşağı düşmüşdü. Toxum tapmaq böyük bir problemə çevrilmişdi. Torpaq vergisinin artırılması kəndlilər üçün böyük zərbə idi.

Qazax, Gəncə, Cavanşir, Lənkəran, Naxçıvan, Şuşa qəzalarından Qafqaz canişini və çarın ünvanına yazılan şikayət məktublarında mülkədarlar və varlı kəndlilər tərəfindən kəndli torpaqlarının və su mənbələrinin zorla zəbt olunmasından şikayətlənilirdi. Kənd əhalisinin güzəranı ildən-ilə ağırlaşırdı. Ölkədəki haqsızlıqlara qarşı kəndli çıxışları güclənmişdi. Qaçaq hərəkatı geniş miqyas almış, onlar əsl xalq intiqamçılarına çevrilmişdilər.

### § 3. Çarizmin devrilməsi və Azərbaycan

Dünya müharibəsi imperiyada iqtisadi və siyasi böhranı dərinləşdirmişdi. Bu, yerlərdə də özünü açıq şəkildə büruzə verirdi. 1916-cı ilin yayından Azərbaycanda fövqəladə vəziyyət tətbiq edilmişdi. Bakı quberniyasında hərbi qubernator qeyri-məhdud səlahiyyətə malik idi. Bakı şəhər dumasının 5 illik müddəti ötmüşdü. Deputatların dörddə bir hissəsi çıxıb getmişdi. Əslində duma fəaliyyətsiz idi.

1916-cı ilin sonu – 1917-ci ilin əvvəllərində inqilabi və milli-azadlıq hərəkatının yüksəlişi, cəbhələrdəki hərbi məğlubiyyətlər liberal-monarxist burjuaziyanın və mülkədarların narahatlığını artırmışdı.

Yaxınlaşmaqda olan inqilabın qarşısını almaq üçün həm çarizm, həm də burjuaziya inqilaba qarşı sui-qəsd hazırlamağa başladılar. Çar Dövlət Dumasını buraxmaq, Almaniya ilə separat sülh bağlamaq, sonra isə bütün qüvvələri yaxınlaşmaqda olan inqilabın boğulmasına yönəlt-

mək istəyirdi. Antanta tərəfindən müdafiə edilən rus burjuaziyası çarın qardaşı Mixailin xeyrinə sülalə çevrilişi etmək, sonra almanlarla birtərəfli sülh bağlamağa mane olmaq və inqilabı darmadağın etmək planı hazırlamışdı. Lakin fevral inqilabı bu planı pozdu. 1917-ci il yanvarın 9-da «Qanlı bazar günü»nün 12-ci ildönümü münasibətilə Rusiyanın iri sənaye şəhərlərində, həmçinin Bakıda tətillər başlandı. Yanvarın 19-da şəhərdə 57 müəssisənin fəhlələri işi dayandırdılar. Üç gün ərzində tətilçilərin sayı 10 min nəfəri keçdi. Ayın 25-dək tətil 87 müəssisənin 22 min nəfərə qədər fəhləsini əhatə etmişdi.

Fevralın 18-də Petroqradda Putilovun zavodunda başlanan tətil ayın 25-də şəhərin bütün müəssisələrini bürüdü. Fevralın 27-də başlanmış üsyan qələbə çaldı. Xalqın tələbi ilə çar II Nikolay hakimiyyətdən əl çəkməyə məcbur oldu. 300 ildən artıq hökmranlıq edən və Rusiyanı xalqlar həbsxanasına çevirən Ramanovlar sülaləsinə son qoyuldu. «Molla Nəsrəddin» jurnalında Fevral inqilabı alqışlanır, mütləqiyyətin devrilməsi Rusiyada yaşayan xalqlar üçün xoşbəxtlik hesab edilirdi. 1917-ci il martın 2-də burjuaziya və mülkədarların nümayəndələrindən ibarət knyaz Lvovun başçılığı ilə Müvəqqəti hökumət yaradıldı. Martın 2-də təşkil edilmiş Müvəqqəti hökumət bir gün sonra siyasi məhbusları əfv etdi. Azərbaycanda 600 nəfərə qədər belə məhbus azadlığa çıxdı.

Martın 4-də hökumətin qərarı ilə qubernatorlar, onların müavinləri və qəza rəisləri vəzifələrindən uzaqlaşdırıldılar. Onları quberniya və qəza zemstvo idarələrinin sədrləri əvəz etdilər. Azərbaycanda zemstvo idarələri olmadığına görə bu iş şəhər idarələri başçılarına həvalə edilirdi. Yeni təyin edilmiş başçılar hökumətin komissarları hesab edilirdilər. Fevral inqilabından sonra burjuaziya və fəhlə deputatları Sovetinin ikihakimiyyətliliyi meydana gəlmişdi. Martın 2-dən 4-dək Bakının küçələrində, zavod və mədənlərində nümayişlər və mitinqlər keçirildi. Martın 3-də Balaxanıda keçirilən mitinqdə 15 min nəfər iştirak edirdi. Martın 17-də qələbə şərəfinə keçirilən nümayişdə 100 min nəfərə qədər adamın iştirak etdiyi qeyd edilir. Fəhlə, əsgər və matrosların iştirakı ilə keçirilən nümayişin tələbi ilə martın 5-də Bakı qarnizonunun və hərbi donanmasının komandiri, martın 9-da şəhər rəisi, Bakı quberniyası qubernatoru, martın 10-da isə Bakı dəmiryol idarəsinin rəisi işdən kənar edildilər. Çarizmin yıxılması haqqında xəbər qəzalara da yayılmışdı. Martın 2–3-də Gəncədə mitinq keçirildi. Gəncə quberniyasının qubernatoru şəhərdən qovuldu. Mart ayında digər qəzalarda və şəhərlərdə də mitinq və nümayişlər keçirildi. Fevral inqilabı bütün imperiya

xalqları kimi Azərbaycan xalqının da həyatında və mübarizəsində dönüş yaratdı.

Novruz bayramı günü Bakıdakı 30-dan çox müsəlman ictimai təşkilatının adından F.Xoyski Petroqrada Rodzyankoya və Müsəlman fraksiyasının sədrinə teleqram göndərmişdi. Teleqramda M.Əsədullayevin, M.Ə.Rəsulzadənin də imzaları vardı. Teleqramda əsrlərdən bəri müsəlmanları hər cür hüquqlardan məhrum etmiş rejimin süqutunun bəyənildiyi ifadə edilirdi.

Çarizmin devrilməsindən sonra Azərbaycanda gizli işləyən bütün siyasi partiyalara fəaliyyət azadlığı verildi. İmperiyanın mərkəzi şəhərlərinin ardınca Azərbaycanda fəhlə deputatları Sovetləri yaranmağa başladı. Martın 4-də Bakının müəssisələri Bakı Sovetinə nümayəndələrini seçdilər. Martın 6-da Bakı Sovetinə seçkilər keçirildi. Seçkilərdə Bakı Sovetinə 52 nəfər deputat seçilmişdi. Onlardan yalnız 9 nəfəri bolşevik idi. Qeyd etmək lazımdır ki, nə Sovetə, nə də onun icraiyyə komitəsinə bir nəfər də olsun azərbaycanlı seçilməmişdi. Sovetdə, əsasən menşevik, daşnak, eser və bolşeviklər təmsil olunmuşdular. Sovetin tərkibindən bir daha görünür ki, Azərbaycanın mərkəzində yaranmış hakimiyyət onun milli mənafeyinə tamamilə yabançı hakimiyyət idi. Həmin gün şəhərdə zabit və əsgər deputatlarının əlahiddə Sovetləri də meydana çıxdı. 1917-ci il aprel ayının 20–22-də keçirilən yeni seçkilər nəticəsində Bakı Sovetində deputatların sayı 52-dən 113-ə, bolşeviklər isə sayca 9 nəfərdən 25 nəfərə çatdırıldı. Deputatlar sırasında bolşeviklərin ideologiyasına qoşulmuş iki nəfər azərbaycanlı da vardı. Mart-aprel ayları ərzində Gəncədə, Qazaxda, Gədəbəydə, Şamaxıda, Lənkəranda, Qubada, Şuşada, Qaryagində, Naxçıvanda, Culfada, Nuxada, Zaqatalada və s. yerlərdə də fəhlə və əsgər deputatları Sovetləri meydana gəldi. Natamam məlumata görə, aprel ayında Azərbaycan qəzalarında 25 belə Sovet var idi. Sovetlərin təşkili işi sonrakı aylarda da davam etdirilmişdi. Göyçayda və Bakı quberniyasının bəzi qəzalarında kəndli deputatları Sovetləri də yaradılmışdı. Bu Sovetlər, əsasən rus kəndlərində yaranırdı. 1917-ci ilin may ayının 25–26-da Muğan və Şirvan rayonları kəndlilərinin I qurultayı keçirildi. Qurultayda sənaye, kənd təsərrüfatı, ərzaq, eləcə də siyasi məsələlər müzakirə edildi. Orada kəndliləri birləşdirmək məqsədilə kəndli ittifaqının yaradılması məqsədəuyğun hesab edildi.

Müvəqqəti hökumət tezliklə yerlərdə də öz hakimiyyət orqanlarını yaratmağa başladı. Martın 3-də Bakı şəhər Dumasının iclasında Mü-

vəqqəti hökumətə tam etimad göstərildi və «Yeni quruluş»u yaratmaqda ona köməklik göstəriləcəyi bildirildi. Martın 9-da Müvəqqəti hökumətin qərarı ilə Qafqaz canişinliyi ləğv edildi və onun yerində IV Dövlət Dumasının beş üzvündən ibarət (M.Y.Cəfərov da buraya daxil idi) Xüsusi Zaqafqaziya Komitəsi təsis edildi. Komitə martın 18-də rəsmi olaraq işə başladı.

1917-ci il martın 17-də Müvəqqəti hökumətin Bakıda yerli hakimiyyət orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı. İcraiyyə Komitəsinin sədrliyinə əvvəlcə L.N.Bıç sonra E.Frolov seçildi. Ümumiyyətlə, İcraiyyə Komitəsinə Şəhər Dumasının, fəhlə və əsgər deputatları Sovetlərinin, neft sənayeçiləri qurultayı şurasının, həmkarlar ittifaqlarının, kooperativlərin və s. təşkilatların nümayəndələri daxil edilmişdilər. Komitənin tərkibində bolşeviklərin nümayəndəsi də vardı. Martın ortalarından etibarən İcraiyyə Komitəsi tək şəhərdə deyil, quberniyada da hakimiyyəti öz üzərinə götürdü. Bakı İctimai təşkilatların İcraiyyə Komitəsi üzvlərinin çoxunu ruslar və başqa xalqların nümayəndələri təşkil edirdi. İctimai Təşkilatların İcraiyyə Komitəsi ilə yanaşı, Bakı Şəhər Duması da fəaliyyətini davam etdirirdi. Onun tərkibi əvvəlki kimi qalırdı. Azərbaycanın digər şəhərləri və qəza mərkəzlərində də İctimai Təşkilatların İcraiyyə Komitələri yaradılırdı. Martın 6–10-da Gəncədə, Lənkəranda, Nuxada, Qubada, Qazaxda, Şamaxıda, Ağdamda, Göyçayda və s. yerlərdə belə komitələr təşkil olundu. Gəncə İcraiyyə Komitəsində azərbaycanlılar çox idi. X.Xasməmmədov quberniya komissarı və İcraiyyə komitəsinin sədri, şəhər milis rəisi vəzifəsində Ziyadxanov, qəza rəisliyinə A.Səfikürdski təyin edilmişdilər. Lənkəran komitəsinin sədri Sultan bəy Qulubəyov idi. Qarabağ İcraiyyə Komitəsinin sədrliyinə və tərkibinə Xosrov bəy Poladov, Zeynal bəy Vəzirov və başqaları seçilmişdilər. Göyçay İcraiyyə Komitəsinə Mirhaşımxan Talışxanov sədrlik edirdi. 1917-ci il aprelin 27-də Xüsusi Zaqafqaziya Komitəsi «Zaqafqaziyada (Cənubi Qayqazda – *red.*) yerli hakimiyyətin təşkili haqqında» xüsusi qərar qəbul etdi. İyirmidən çox maddə olan bu sənəddə İcraiyyə komitələrinin təşkili, onların tərkibi, eləcə də komissarların seçilməsi qaydası, hakimiyyət orqanlarının vəzifələri, səlahiyyətləri və fəaliyyət dairələri müəyyən olunurdu. Qərara görə mövcud İcraiyyə komitələrini demokratik yolla seçilmiş yeni komitələr əvəz etməli idilər. Lakin bir sıra amillər yeni komitələrə seçkilər keçirməyə mane olur və bu da öz növbəsində seçkilərin vaxtını uzadırdı. Məsələn, 1917-ci ilin

oktyabrın 1-dək Bakı quberniyası ərazisindəki kənd cəmiyyətlərinin yalnız 71,5%-də seçkilər keçirilmişdi. Gəncə quberniyasında bu, 53% təşkil edirdi. Digər yerlərdə də vəziyyət təxminən belə idi. Müvəqqəti hökumətin hakimiyyət orqanları ilə yanaşı, Azərbaycanda müxtəlif təşkilatlar və ittifaqlar da meydana gəlirdi.

İnqilaba qədər gizli fəaliyyət göstərən milli siyasi partiyalar açıq işə keçmişdilər. M.Ə.Rəsulzadənin, M.H.Hacınskinin, A.Kazımzadənin başçılıq etdiyi «Müsavat» partiyası bu cəhətdən xüsusilə fərqlənirdi. Martın 15-də partiyanın qəbul etdiyi müraciətnamədə Rusiyada burjua respublikası quruluşunun bəyənildiyi bildirilirdi.

1917-ci il martın sonunda Gəncədə N.Usubbəyov başda olmaqla və Şəfi bəy Rüstəmbəyov, Həsən bəy Ağayeyin iştirakı ilə «Federalistlərin türk partiyası» yaradıldı. «Qeyrət» partiyası ənənələrini davam etdirən partiya Rusiya məkanında federativ respublika ideyasını irəli sürmüşdü. Az müddətdə partiya sıralarına 500 nəfərdən çox adam qəbul edildi. Mitinqlərdə partiya «Yaşasın, demokratik respublika!», «Yaşasın, Azərbaycan muxtariyyəti!» şüarları ilə çıxış edirdi. Burada «Azərbaycan» sözü ilk dəfə rəsmi olaraq deyilmişdi.

Federalistlər partiyasının fikrincə, Rusiyada yaşayan türk xalqları vahid Federasiyada birləşməli və öz hüquqlarını müdafiə etməlidirlər. Onların proqram tələbi «Müsavat» partiyasının proqramına uyğun gəlirdi.

İri dövlətlərin himayəsində olan «Daşnaksütyun» partiyası da fəaliyyətini canlandırmışdı. Onların əsas şüarı müharibəni son qələbəyədək davam etdirmək idi. Daşnaklar güman edirdilər ki, müharibə qələbə ilə qurtarandan sonra himayədarlarının köməyi ilə «Böyük Ermənistan» dövləti yarada biləcəklər.

1917-ci ilin martın sonunda müsəlman ictimai təşkilatları Müvəqqəti Komitəsinin Milli bürosuna M.Hacinski, M.A.Əlizadə, M.Əsədullayev, B.X.Cavanşir, M.Ə.Rəsulzadə və başqaları, İcraiyyə Komitəsinə isə Ə.M.Topçubaşov, F.Xoyski, N.Nərimanov və Ə.Əmircanov daxil edilmişdilər.

Aprel ayında Müvəqqəti Komitə öz məram və məqsədi barədə bəyannamə elan etdi. Burada demokratik respublikanın yaradılmasının zəruriliyi göstərilirdi. Komitənin işlərində leqal vəziyyətə keçmiş «Müsavat»ın üzvləri fəal iştirak edirdilər. Müsəlmanların ictimai təşkilatlarının təsis edilmiş Milli Şurası və onun orqanı olan «Açıq söz» qəzetinin nəşrinə Musa Nağıyev 25 min man. vəsait vermişdi.

Fevral inqilabını təntənə ilə qarşılayan M.Ə.Rəsulzadə «Müsavat»ın 1911-ci ildə qəbul edilmiş proqramında yeni şəraitə uyğun olaraq əsaslı dəyişiklik etmək qərarına gəlmişdi. Cənubi Qafqazdakı milli şuralar içərisində ən nüfuzlusu Bakı Müsəlman Milli Şurası idi.

Lənkəran, Qusar, Xudat, Quba, Nuxa, Şamaxı, Gəncə və başqa yerlərdə də müsəlman Milli Şuraları və komitələri yaradılmışdı. Bu milli şuralar və komitələr milli burjuaziyanın gələcək siyasi hakimiyyətinin rüşeymləri idi.

## § 4. 1917-ci ildə Azərbaycanda milli hərəkat

Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra milli-azadlıq hərəkatında tamamilə yeni bir mərhələ başlandı. Bu mərhələnin əsas cəhətləri, hər şeydən əvvəl, milli hərəkatın daha kütləvi və siyasi səciyyə alması, konkret iqtisadi tələblərin irəli sürülməsi, milli dövlətçilik ideyası ətrafında əhalinin bütün təbəqələrinin birləşdirilməsi və s. ilə fərqlənirdi.

İmperiyanın milli ucqarlarına bəzi siyasi azadlıqlar verilmişdi. Bütün siyasi partiyalar leqal işə keçmişdilər. Şəhərlərdə və qəza mərkəzlərində fəaliyyət göstərən siyasi partiyalar və müsəlman milli şuraları milli burjua ziyalıları, burjuaziya və mülkədarların qabaqcıl nümayəndələrindən təşkil edilmişdi.

İnqilabın ilk günlərindən milli-azadlıq mübarizəsi meydanına atılan Azərbaycanın qeyrətli ziyalıları milli hərəkata vahid rəhbərlik məqsədilə Bakıda yaradılmış Müsəlman Milli Şurasının Azərbaycanın şəhər və qəzalarında şöbələrini yaratmışdılar. Milli Şura öz fəaliyyətini demokratik prinsiplər əsasında quraraq, müsəlman əhalisinin bütün təbəqələrini siyasi milli partiya və təşkilatların ətrafında toplamışdı. Hazırlanmış tədbirlər planında öz fəaliyyətini keçmiş imperiyanın məzlum müsəlman xalqlarının hərəkatı ilə əlaqələndirmək nəzərdə tutulmuşdu. Əslində fevral inqilabından sonra müsəlmanlar yaşayan bütün bölgələrdə milli hərəkat genişlənmişdi. Bu xalqların qabaqcıl burjua və demokratik ziyalıları görürdülər ki, böyük vüsət almış milli-azadlıq hərəkatı və demokratik proseslər çevik münasibət tələb edir. Əslində müsəlman xalqlarının qarşısında iki yol vardı: ya əvvəldə olduğu kimi, yenidən müstəmləkə boyunduruğu altına girməli, ya da öz milli müqəddəratlarını təyin etməklə soy-köklərinə qayıdaraq dövlətçiliyi

bərpa etməli idilər. Bu taleyüklü suala cavab tapmaq məqsədilə müsəlman xalqlarının nümayəndələri 1917-ci ilin mart-aprel aylarında Krımda, Daşkənddə, Orenburqda və digər yerlərdə müzakirələr keçirməyə başladılar.

1917-ci il aprelin 15–20-də Bakıda keçirilən Qafqaz Müsəlmanlarının I Qurultayı Rusiyadakı türklüyün gələcək siyasi istiqaməti və taleyi baxımından uğurlu addım oldu. Qurultayda M.Ə.Rəsulzadə ərazi muxtariyyəti haqqında danışdı və imperiyadakı digər müsəlman vilayətlərinə muxtariyyət verilməsi barədə xüsusi qərar qəbul edildi. Qurultay Rusiya müsəlmanlarının birləşdirilməsi şüarı altında keçdi. Qurultayda «Federalist»lərlə «Müsavat»çılar əsas prinsipial məsələlər üzrə həmrəy çıxış etdilər. Məhz bu qurultayda hər iki partiyanın gələcəkdə birləşməsi üçün zəmin hazırlandı.

1917-ci il iyunun ikinci yarısında «Müsavat» partiyası ilə «Federalistlər partiyası» birləşdi və beləliklə, «Federalistlərin türk demokratik Müsavat partiyası» yarandı. Bu birləşmədən sonra iki səlahiyyətli bürodan ibarət Mərkəzi Komitə yaradıldı. Partiyanın Mərkəzi Komitəsinin Bakı bürosuna M.Ə.Rəsulzadə, M.H.Hacınski, M.Rəfiyev, M.Vəkilov və Mərkəzi Komitənin Gəncə bürosuna Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, M.M.Axundov, Şəfibəy Rüstəmbəyov və başqaları daxil oldular. «Federalistlərin türk demokratik müsavat partiyası»nın təkcə Azərbaycanda deyil, həm də Həştərxan, Stavropol, Moskva, Kiyev, Xarkov, Daşkənd, Aşqabad, Tiflis, İrəvan, Təbriz, Rəşt, İstanbul və başqa şəhərlərdə şöbələri fəaliyyət göstərirdi.

Rusiyada burjua respublikası çərçivəsində müsəlmanlara mədəni-milli muxtariyyət verilməsini tələb edən tatar burjuaziyasından fərqli olaraq, federalistlər Rusiyada federativ burjua respublikası çərçivəsində ərazi muxtariyyətinin tərəfdarı idilər. Bu ideyanı əsasən Azərbaycanın milli sənaye burjuaziyası nümayəndələri (Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Mirzə Əsədullayev, Ağabala Quliyev və b.) müdafiə edirdilər. Onlar Qafqazda, Türküstanda və başqa müsəlman regionlarındakı federalistlərə mənəvi və maddi kömək göstərirdilər. Bu müxtəlif fikirləri, təklifləri müsəlmanların ali məclisində müzakirə edib ümumi bir qərara gəlmək lazım idi. Ona görə Ümumrusiya müsəlmanlar qurultayına hazırlaşmaq üçün IV Dövlət Dumasının müsəlman fraksiyası duma vəkili Əhməd Salikovun başçılığı ilə «Rusiya müsəlmanlarının müvəqqəti mərkəzi bürosu»nu təşkil etmişdi. «Büro» 109 maddədən ibarət təkliflər hazırlamışdı. Ümumru-

siya müsəlmanları qurultayı 1917-ci il mayın 1-dən 11-dək Ş.Əsədullayevin xərci ilə Moskvada tikilib müsəlmanların sərəncamına verilmiş binada açıldı. Qurultaya nəzərdə tutulmuş 500 nəfər əvəzinə 900-ə qədər nümayəndə gəlmişdi.

Qurultayda imperiyanın müxtəlif bölgələrindən gəlmiş onlarla qeyri-müsəlman nümayəndəsi də iştirak edirdi. Qurultayın gündəliyində milli-məhəlli muxtariyyət, maarif və mədəniyyət, müəssislər məclisi, torpaq, əsgəri qurumlar, siyasi təşkilatlar və digər məsələlər qoyulmuşdu. Gündəlikdəki milli-məhəlli muxtariyyət, Rusiyanın idarə forması və s. məsələlərə münasibətdə türk xalqları liderlərinin fikirləri köklü şəkildə fərqlənirdi.

Mayın 3-də Əhməd Salikovun məruzəsindən dərhal sonra mübahisələr başlandı. Onun və tərəfdarlarının fikrincə, Rusiya unitar dövlət kimi qorunub saxlanılmalı, milli azlıqlara, o cümlədən türk xalqlarına yalnız mədəni muxtariyyət verilməli idi. Bu təklif M.Ə.Rəsulzadənin qəti etirazına səbəb oldu. Federalizm tərəfdarı olan Rəsulzadənin irəli sürdüyü milli-məhəlli muxtariyyət təklifini bəyənənlər çoxluq təşkil edirdi. Müzakirə olunan məsələlərlə əlaqədar qurultayın rəyasət heyətinə göndərilən təkliflərin, demək olar ki, hamısında milli-məhəlli muxtariyyət məsələsi irəli sürülmüşdü. Rusiyada dövlət quruluşunun milli-məhəlli prinsipi əsasında təşkili məsələsinə səsvermədə M.Ə.Rəsulzadənin təklifi 446, Əhməd Salikovun təklifi isə 271 səs aldı. Bu, o demək idi ki, unitaristlərlə federalistlər arasında davam edən mübahisə sonuncuların – federalistlərin parlaq qələbəsi ilə bitmişdi. Beləliklə, nümayəndələrin böyük əksəriyyəti Rusiyanın demokratik federativ respublika kimi saxlanılmasına və türk xalqlarına milli-məhəlli muxtariyyət verilməsinə tərəfdar çıxdılar. Qurultayın qətnaməsində ibtidai təhsilin icbari və pulsuz, eləcə də təhsilin ana dilində olması, bu prinsipin orta və ali məktəblərdə də gözlənilməsi, həmçinin rus dilinin yalnız xarici dil kimi keçilməsi və digər tələblər daxil olunmuşdu.

Qurultayın işində fəal iştirak edən Ə.Topçubaşov və M.Ə.Rəsulzadə türkçülük, milliyyətçilik və istiqlalçılığa xüsusi diqqət verirdilər.

Ə.Topçubaşov çıxışlarının birində Bakıda, İrəvanda, Qarsda və Qafqazın digər yerlərində ermənilərin ruslarla gizli ittifaqa girərək müsəlmanların yenidən kütləvi qırğınına hazırlaşdıqlarını qeyd etdi. Bir müddətdən sonra həmin yerlərdə daşnakların müsəlmanlara qarşı başladıqları kütləvi qırğınları Ə.Topçubaşovun uzaqgörənliyini sübut etdi. Bu fikir qurultay nümayəndələrinin böyük narahatçılığına səbəb

oldu və Müvəqqəti hökumətə məlumat vermək üçün mayın 9-da Ə.Topçubaşovun rəhbərliyi ilə paytaxta nümayəndə heyəti göndərildi. Bundan başqa, imperiya daxilində türk xalqlarının problemlərini həll etmək məqsədilə 30 nəfərdən ibarət Milli Şura yaradıldı. Rusiya müsəlmanlarının növbəti qurultayını həmin ilin avqust ayında Kazanda çağırmaq qərara alındı. 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanlarının I qurultayı türk xalqlarının özünüdərkində, siyasi cəhətdən oyanmasında, türkçülük, milliyyətçilik, istiqlalçılıq ideyasının genişlənməsində misilsiz rol oynadı. Lakin imperiyadakı siyasi vəziyyətin qeyri-sabitliyi nəzərdə tutulmuş qurultayları çağırmağa imkan vermədi.

1917-ci il martın əvvəlində «Hümmət»in keçdiyi müstəqil tarixi yol nəzərə alınaraq yenə də onun müstəqil fəaliyyət göstərəcəyinə qərar verildi, yəni Bakı Komitəsinə birləşdirilmədi. İyun ayında «Hümmət» təşkilatının daimi Komitə və Bürosu yaradıldı. «Hümmət»in şəhər Komitəsinə N.Nərimanov, M.İsrafilbəyov, S.M.Əfəndiyev, R.Nağıyev, M.Əliyev və b. (cəmi 14 nəfər) daxil edilmişdi. İlin ikinci yarısında «Hümmət» təşkilatı RSDFR Bakı Təşkilatından daha da uzaqlaşdı.

Tiflis hümmətçiləri əvvəllərdə olduğu kimi, yenə də menşevik mövqeyində qalırdı. Təşkilatın rəhbərliyinə İ.Əbilov, S.Ağamalıoğlu, Ə.Qarayev, Ə.Pepinov və b. daxil idi. Oktyabr ayında Tiflisdə hümmətçilərin bolşevik mövqeyində duran qrupuna isə Ə.Yüzbaşev, Ə.Tağızadə, T.Hüseynzadə, N.Bağırov və digərləri daxil edilmişdi.

1917-ci ilin yazında «Hümmət»dən cənubluları təmsil edən «Ədalət» və tatarların təmsilçisi olan «Birlik» qrupları ayrıldı. «Ədalət»in fəallarından olan Kamran Ağazadənin yazdığına görə, bu təşkilat hələ 1914-cü ilin yay tətili günlərində fəaliyyətə başlamış, yalnız 1916-cı ildə formalaşmışdı. 1917-ci ilin iyununda «Ədalət» təşkilatı «Bayraqi ədalət» qəzetinin nəşrinə başladı. 1917-ci ilin sonuna yaxın təşkilatın silahlı döyüş dəstələri təşkil edilmişdi.

Təşkilatın üzvlərindən Əsədulla Qafarzadə, Bəhram Ağayev, Məhərrəm Ağayev, Əsədulla Axundov, Dadaş Hüseynzadə və başqaları xüsusilə fərqlənirdilər.

Bakının neft mədənlərində və sənaye müəssisələrində Volqaboyu quberniyalardan gəlmiş yüzlərlə fəhlə çalışırdı. Müsəlman fəhlələri içərisində «Birlik» təşkilatı böyük siyasi iş görürdü. Təşkilata Hənifə Terequlov rəhbərlik edirdi.

Milli hərəkatın geniş miqyas almasında və milli Azərbaycan dövlətinin yaradılmasında «Müsavat»ın rolu misilsiz idi. Partiyanın liderləri real vəziyyətdən çıxış edərək xalqın bütün demokratik qüvvələrini milli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəyə çağırırdılar. 1917-ci ilin payızında təkcə Azərbaycanda deyil, Cənubi Qafqazın hər yerində «Müsavat»ın siyasi nüfuzu artmaqda idi. Burada dövlətçilik ideyası diqqəti daha çox cəlb edirdi. 1917-ci il oktyabrın 26-da «Müsavat» partiyasının I qurultayını açan M.Ə.Rəsulzadə giriş sözündə «müstəqil Azərbaycan dövlətinin yaradılacağını və bu yeni dövlətin müstəqil dövlətlərlə bir ittifaqda olacağını» söyləmişdi. Tarixin sonrakı gedişi onun uzaqgörənliyini təsdiq etdi.

1917-ci ilin sentyabrında Azərbaycanda milli hərəkata rəhbərlik etmək üçün Rusiyada «Müsəlmanlıq partiyası» və Gəncədə «İttihadi-islam» partiyası yaradıldı. «İttihadi-islam» partiyasının Bakı təşkilatına Qara bəy Qarabəyov, Bəşir bəy Aşurbəyov, Soltan Məcid Qənizadə, həkim Kərim bəy Sultanov, Ağa Zeynal Tağıyev və başqaları rəhbərlik edirdilər. Milli-azadlıq uğrunda mübarizədə ittihadçılar muxtariyyət məsələsində unitaristlərin mövqeyində dayanaraq, Rusiya tərkibində Azərbaycana mədəni muxtariyyət verilməsini tələb edirdilər.

1917-ci ildə Azərbaycanda milli-azadlıq hərəkatında mübarizə üç istiqamətdə aparılırdı. Hər şeydən əvvəl, Müvəqqəti hökumətin əsarətdə olan xalqlar barəsində yeritdiyi müstəmləkəçilik siyasətinə qarşı mübarizəni qeyd etməliyik.

Müvəqqəti hökumət çarizmin müsəlman xalqlarına qarşı yeritdiyi müstəmləkəçilik siyasətini «daha incə və daha qapalı» şəkildə davam etdirir, azərbaycanlıları seperatizmdə təqsirləndirir və qəsdən milli-azadlıq hərəkatını boğmağa çalışırdı. Cənubi Qafqazda hökumət xristian əhaliyə üstünlük verir, gürcülərə və digər xalqlara milli qoşun yaratmaq üçün hər cür şərait yaradır, azərbaycanlıları isə bu imkandan məhrum edirdi. Müvəqqəti hökumətin xalqımıza qarşı mürtəce siyasəti ümumxalq qəzəbi doğurmaya bilməzdi. İkinci istiqamət «inqilabçı demokratların» rəhbərlik etdiyi Sovetlərə qarşı mübarizədən ibarət idi. Əvvəldə göstərildiyi kimi, Fevral inqilabından dərhal sonra Bakı və digər şəhərlərdə ikinci hakimiyyət orqanı kimi fəhlə və əsgər deputatları Sovetləri yaradılmışdı. Onların içərisində nisbətən nüfuzlusu Bakı Soveti hesab edilirdi. Sovetlərin fəaliyyəti, demək olar ki, Azərbaycan xalqının mənafeyinə yabançı idi. Bakıdakı fəhlə və əsgər deputatları Sovetinin tərkibində azərbaycanlılar yox dərəcəsində idi.

Sovetin tərkibi və rəhbər heyəti bütünlüklə ermənilərdən və ruslardan ibarət idi. Eser-menşevik daşnak blokunun rəhbərlik etdiyi bu Sovet «vahid» və «bölünməz» Rusiya ideyasını təbliğ edirdi. Ən xoşagəlməz cəhət ondan ibarət idi ki, azərbaycanlılar monarxiya tərəfdarı kimi qələmə verilirdilər. Hətta işi o yerə çatdırmışdılar ki, Azərbaycanın mərkəzi Bakıda üstünlük təşkil edən Cənubi Azərbaycandan olan fəhlələri xarici ölkə təbəəsi bəhanəsi ilə bütün seçkilərdən məhrum etməklə müsəlmanların ümumi qüvvəsini parçalamağa və zəiflətməyə çalışırdılar. Nəhayət, üçüncü istiqamət imperiyanın dağıldığı bir şəraitdə kəskinləşən erməni-müsəlman (azərbaycanlı) düşmənçiliyi idi. Əslində ermənilərin azərbaycanlılara qarşı tarixi düşmənçiliyinin güclənməsi Azərbaycanda milli-azadlıq hərəkatına təkan vermişdi. Ruslarla vahid blokda çıxış edən ermənilərə qarşı amansız mübarizə aparmaq üçün Azərbaycan xalqının bütün təbəqələrinin ümumi birliyi lazım idi. Siyasi baxışından və ictimai mövqeyindən asılı olmayaraq bütün müsəlman partiyaları ermənilərə – qatı amansız düşmənə qarşı mübarizədə eyni cəbhədə birləşmişdi.

Milli-azadlıq hərəkatının diqqəti cəlb edən mühüm bir cəhəti də hərəkata milli ziyalıların rəhbərlik etməsi idi.

1917-ci il oktyabrın 25-də Petroqradda bolşeviklərin üsyanı nəticəsində Müvəqqəti hökumət devrildi. Oktyabrın 25–26-da burada keçirilən II Sovetlər qurultayında sülh və torpaq haqqında dekretlər qəbul edildi. Lenin başda olmaqla Sovet totalitar rejiminin əsası qoyuldu.

# V FƏSİL

# CƏNUBİ AZƏRBAYCAN 1912–1917-ci İLLƏRDƏ

## § 1. Birinci Dünya müharibəsi ərəfəsində sosial-iqtisadi və siyasi vəziyyət

Bəhs edilən dövrdə bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da əhalinin böyük əksəriyyəti yenə də kənd təsərrüfatı ilə məşğul olurdu. Burada kənd təsərrüfatının taxılçılıq, geniş miqyasda bağçılıq, texniki bitkilərdən ipəkçilik, pambıqçılıq, nisbətən az miqyasda tütünçülük, tərəvəz və bostançılıq kimi sahələrinin inkişafı davam etdirilirdi. Cənubi Azərbaycan kəndlilərinin məşğul olduğu əsas peşələrdən biri də maldarlıq qalmaqda idi. Maldarlıqla yarımköçəri həyat tərzi keçirən tayfalarla (şahsevən və b.) yanaşı, oturaq əkinçi əhali də geniş surətdə məşğul olurdu.

Cənubi Azərbaycanda ticarət əkinçiliyi və ticarət maldarlığı daha da genişlənirdi. Cənubi Azərbaycandan xarici ölkələrə ixrac edilən əkinçilik və maldarlıq məhsullarının miqdarı çoxalırdı. İxrac edilən pambıq, qurudulmuş meyvə, püstə, badam, fındıq, gön-dəri, yun və s. böyük əksəriyyəti yenə də Rusiya bazarlarına aparılırdı. Kənd təsərrüfatının əsas sahələrində əmtəə istehsalının artması və ölkənin dünya bazarına cəlb olunması Cənubi Azərbaycanda natural təsərrüfatın dağılmasına, kəndlilər içərisində təbəqələşmənin artmasına və onların istehsal vasitələrindən getdikcə daha çox məhrum olmasına gətirib çıxarırdı. Kənddə baş vermiş bu yeniliklər nəticəsində aqrar münasibətlərdə, o dövrün əsas istehsal vasitəsi olan torpaq üzərindəki feodal torpaq mülkiyyətində müəyyən dəyişikliklər baş vermişdi. Nəzərdən keçirilən dövrdə Cənubi Azərbaycanda aşağıdakı torpaq mülkiyyəti formaları vardı:

1. Ərbabi və ya mülk-xüsusi şəxslərin mülkiyyəti. Bunlar əkinçilik üçün yararlı torpaqların artıq 66%-ni təşkil edirdi.

2. Xalisə – dövlətə məxsus torpaqlar. Bütün İranda bunlar əkilən torpaqların və otlaqların 4%-ni təşkil edirdi. Əkin üçün yararlı olmayan

və meşələrlə örtülmüş sahələr də xalisəyə aid edilirdi. Xalisə torpaqlar iltizama verilir, yaxud da dövlət məmurları tərəfindən idarə olunurdu.

3. Vəqf – dini idarələrə, mədrəsələrə və s. məxsus, qismən də ruhanilərə bağışlanmış torpaqlar; bunlar əkilən torpaqların 10%-ni təşkil edib vergilərdən azad idi.

4. İlati – ayrı-ayrı qəbilələrə məxsus otlaqlar və qismən əkin yerləri; bunlar istifadəyə yararlı torpaqların 14%-ni təşkil edirdi. Bu qəbilələr otlaqlardan və əkin yerlərindən istifadə üçün dövlətə müəyyən vergi verməli idilər. Çox zaman bu torpaqlar tayfa başçılarının mülkiyyətinə çevrilirdi.

5. Xırdamalik – xırda mülkədar və ayrı-ayrı kəndlilərə məxsus torpaqlar; bunlar əkinəyararlı torpaqların 3,5%-ni təşkil edirdi. Bəhs edilən dövrdə bu növ torpaqlar iri mülkədarlar tərəfindən zəbt edildiyindən torpaq mülkiyyəti formaları içərisində azlığı təşkil edirdi və xırdamalik torpaqlar cərgəsində bilavasitə kəndlilərə məxsus torpaqlar çox cüzi qalmışdı.

6. Ümumi – keçmiş icma torpaqlarının qalıqları; bunlar kənd təsərrüfatı üçün yararlı torpaqların cəmi 1%-ni təşkil edirdi.

İranda torpaqların yarıdan çoxuna sahib olan iri mülkədar-feodallar, təkcə icma və xırdamalik torpaqlarını deyil, həm də şəriətə görə satıla bilməyən vəqf torpaqlarını da dolayısı yollarla satın alırdılar.

İri mülkədarların əlində böyük torpaq mülkiyyəti cəmlənmişdi. Belə feodallar, adətən öz mülklərini «Dövlətdə dövlət» hesab edir və mərkəzi hökuməti tanımırdılar. Qarabağ vilayəti torpaqlarının böyük hissəsini öz əlində cəmləmiş Əmir Ərşəd, Maku xanı Sərdar İclalüccəltənə, Ərdəbildə Nəcəfqulu xan Əmir Firuz və başqaları belə güclə və son dərəcə yerli feodallardan idi. Sərəncamında bir-iki min silahlı atlı dəstələri olan bu xanlar asılı kəndliləri ən kəskin şəkildə istismar etməkdən əlavə, torpaq mülklərini zəbt edirdilər. Cənubi Azərbaycanda iri torpaq sahiblərinin bir hissəsini ruhanilər təşkil edirdilər. Onların geniş hüquqları var idi. Təxminən bütün məhkəmə işləri yüksək rütbəli şəxslərin – müctəhid, şeyxülislam və b. nəzarəti altında idi, onlar, həmçinin mülki idarə işlərində də iştirak edirdilər. Əsrin əvvəllərindən etibarən ruhanilərin hüquqları məhdudlaşdırılmış və gəlirlərinin bir hissəsi xəzinəyə keçməyə başlamışdı. Lakin buna baxmayaraq, onlar xalqı talan etməkdə davam edirdilər.

Beləliklə, Cənubi Azərbaycanda torpaqlar getdikcə daha çox iri torpaq sahiblərinin əlində cəmlənmişdi.

# V FƏSİL

# CƏNUBİ AZƏRBAYCAN 1912–1917-ci İLLƏRDƏ

## § 1. Birinci Dünya müharibəsi ərəfəsində sosial-iqtisadi və siyasi vəziyyət

Bəhs edilən dövrdə bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da əhalinin böyük əksəriyyəti yenə də kənd təsərrüfatı ilə məşğul olurdu. Burada kənd təsərrüfatının taxılçılıq, geniş miqyasda bağçılıq, texniki bitkilərdən ipəkçilik, pambıqçılıq, nisbətən az miqyasda tütünçülük, tərəvəz və bostançılıq kimi sahələrinin inkişafı davam etdirilirdi. Cənubi Azərbaycan kəndlilərinin məşğul olduğu əsas peşələrdən biri də maldarlıq qalmaqda idi. Maldarlıqla yarımköçəri həyat tərzi keçirən tayfalarla (şahsevən və b.) yanaşı, oturaq əkinçi əhali də geniş surətdə məşğul olurdu.

Cənubi Azərbaycanda ticarət əkinçiliyi və ticarət maldarlığı daha da genişlənirdi. Cənubi Azərbaycandan xarici ölkələrə ixrac edilən əkinçilik və maldarlıq məhsullarının miqdarı çoxalırdı. İxrac edilən pambıq, qurudulmuş meyvə, püstə, badam, fındıq, gön-dəri, yun və s. böyük əksəriyyəti yenə də Rusiya bazarlarına aparılırdı. Kənd təsərrüfatının əsas sahələrində əmtəə istehsalının artması və ölkənin dünya bazarına cəlb olunması Cənubi Azərbaycanda natural təsərrüfatın dağılmasına, kəndlilər içərisində təbəqələşmənin artmasına və onların istehsal vasitələrindən getdikcə daha çox məhrum olmasına gətirib çıxarırdı. Kənddə baş vermiş bu yeniliklər nəticəsində aqrar münasibətlərdə, o dövrün əsas istehsal vasitəsi olan torpaq üzərindəki feodal torpaq mülkiyyətində müəyyən dəyişikliklər baş vermişdi. Nəzərdən keçirilən dövrdə Cənubi Azərbaycanda aşağıdakı torpaq mülkiyyəti formaları vardı:

1. Ərbabi və ya mülk-xüsusi şəxslərin mülkiyyəti. Bunlar əkinçilik üçün yararlı torpaqların artıq 66%-ni təşkil edirdi.

2. Xalisə – dövlətə məxsus torpaqlar. Bütün İranda bunlar əkilən torpaqların və otlaqların 4%-ni təşkil edirdi. Əkin üçün yararlı olmayan

və meşələrlə örtülmüş sahələr də xalisəyə aid edilirdi. Xalisə torpaqlar iltizama verilir, yaxud da dövlət məmurları tərəfindən idarə olunurdu.

3. Vəqf – dini idarələrə, mədrəsələrə və s. məxsus, qismən də ruhanilərə bağışlanmış torpaqlar; bunlar əkilən torpaqların 10%-ni təşkil edib vergilərdən azad idi.

4. İlati – ayrı-ayrı qəbilələrə məxsus otlaqlar və qismən əkin yerləri; bunlar istifadəyə yararlı torpaqların 14%-ni təşkil edirdi. Bu qəbilələr otlaqlardan və əkin yerlərindən istifadə üçün dövlətə müəyyən vergi verməli idilər. Çox zaman bu torpaqlar tayfa başçılarının mülkiyyətinə çevrilirdi.

5. Xırdamalik – xırda mülkədar və ayrı-ayrı kəndlilərə məxsus torpaqlar; bunlar əkinəyararlı torpaqların 3,5%-ni təşkil edirdi. Bəhs edilən dövrdə bu növ torpaqlar iri mülkədarlar tərəfindən zəbt edildiyindən torpaq mülkiyyəti formaları içərisində azlığı təşkil edirdi və xırdamalik torpaqlar cərgəsində bilavasitə kəndlilərə məxsus torpaqlar çox cüzi qalmışdı.

6. Ümumi – keçmiş icma torpaqlarının qalıqları; bunlar kənd təsərrüfatı üçün yararlı torpaqların cəmi 1%-ni təşkil edirdi.

İranda torpaqların yarıdan çoxuna sahib olan iri mülkədar-feodallar, təkcə icma və xırdamalik torpaqlarını deyil, həm də şəriətə görə satıla bilməyən vəqf torpaqlarını da dolayısı yollarla satın alırdılar.

İri mülkədarların əlində böyük torpaq mülkiyyəti cəmlənmişdi. Belə feodallar, adətən öz mülklərini «Dövlətdə dövlət» hesab edir və mərkəzi hökuməti tanımırdılar. Qarabağ vilayəti torpaqlarının böyük hissəsini öz əlində cəmləmiş Əmir Ərşəd, Maku xanı Sərdar İclalüccəltənə, Ərdəbildə Nəcəfqulu xan Əmir Firuz və başqaları belə güclə və son dərəcə yerli feodallardan idi. Sərəncamında bir-iki min silahlı atlı dəstələri olan bu xanlar asılı kəndliləri ən kəskin şəkildə istismar etməkdən əlavə, torpaq mülklərini zəbt edirdilər. Cənubi Azərbaycanda iri torpaq sahiblərinin bir hissəsini ruhanilər təşkil edirdilər. Onların geniş hüquqları var idi. Təxminən bütün məhkəmə işləri yüksək rütbəli şəxslərin – müctəhid, şeyxülislam və b. nəzarəti altında idi, onlar, həmçinin mülki idarə işlərində də iştirak edirdilər. Əsrin əvvəllərindən etibarən ruhanilərin hüquqları məhdudlaşdırılmış və gəlirlərinin bir hissəsi xəzinəyə keçməyə başlamışdı. Lakin buna baxmayaraq, onlar xalqı talan etməkdə davam edirdilər.

Beləliklə, Cənubi Azərbaycanda torpaqlar getdikcə daha çox iri torpaq sahiblərinin əlində cəmlənmişdi.

Cənubi Azərbaycan kəndi üçün səciyyəvi olan daha bir cəhət torpaq sahibləri sırasında tacirlərin xüsusi çəkisinin artması meyili idi. Məsələn, Urmiya rayonunda 1911-ci ildən sonrakı dövrdə mülkədar torpaqlarının 40%-ni iri tacirlər almışdılar.

Demək olar ki, bütün torpaq sahibləri torpaqları, bir qayda olaraq, xırda sahələrə bölüb icarə əsasında yardar-kəndlilərə paylayırdılar.

Cənubi Azərbaycanın əsas kənd əhalisi yenə də rəiyyətlərdən – torpaqsız yardar-kəndlilərdən və azsaylı torpaq sahiblərindən – xırdamaliklərdən ibarət idi. Cənubi Azərbaycan kəndliləri arzu və istəklərini sözsüz yetirdikləri mülkədarlardan tamamilə asılı idilər. Mülkədarlar heç nədən çəkinmədən kəndlilərlə istədikləri kimi rəftar edirdilər. Bəzən onlar kəndliləri yerlərindən qovur, onların əmlakını – ev, bağ və s. öz əllərinə keçirirdilər.

Rəiyyətlərin bir qisminin mal-qarası, sadə istehsal vasitələri, bağ-bağçası və s. var idi. Təsərrüfatı olmayanların bəziləri ən varlı xırdamaliklərin təsərrüfatlarında günəmuzd işləyir, bəzən xırda sənətkarlıqla məşğul olur, çox zaman da kəsbkarlığa gedirdilər. Rəiyyətlərin əksəriyyəti mülkədarların torpağını son dərəcə ağır şərtlərlə icarəyə götürməyə məcbur olurdular, xüsusilə mal-qarası, toxumu, istehsal alətləri olmayan belə kəndlilər isə mülkədar torpaqlarında çox ağır şəraitdə işləyirdilər. Əgər istehsal aləti və iş heyvanı olan kəndli məhsulun 40%-ni alır, qalan 60%-ni torpaq sahibinə verirdisə, çox zaman iş heyvanı və istehsal aləti olmayan kəndli isə məhsulun 20%-ni özünə götürməklə 80%-ni mülkədara verirdi. Sonuncular faktik olaraq muzdlu kənd təsərrüfatı fəhlələri idilər.

Xırdamalik kəndlilər tam mülkiyyət hüququ ilə xırda torpaq sahəsinə, istehsal alətlərinə, heyvanlara və s. sahib idilər. Varlı kəndlilər çox vaxt torpaqsız kəndlilərlə mülkədarlar arasında vasitəçi rolunu oynayırdılar, onlar mülkədarlardan götürdükləri iri torpaq sahələrini torpaqsız kəndlilərə icarəyə verir, əvəzində məhsulun 80–85%-ni alır və mülkədarlara isə 15–20%-dən çox vermirdilər.

Cənubi Azərbaycanda əkinçilik alətləri aşağı səviyyədə qalmaqda idi. Kəndlilər torpaqları ən sadə alətlərlə becərirdilər. Aqrotexniki vasitələrin tətbiqi barədə isə heç söhbət belə açmağa dəyməzdi. Ona görə kənd təsərrüfatında məhsuldarlıq çox aşağı səviyyədə idi. Kəndli öz ailəsini minimum təmin etmək üçün çox gərgin işləməli olurdu.

Kəndlilər torpaq sahibinə məhsulun müəyyən hissəsini ödəməkdən əlavə, hələ də bir çox feodal mükəlləfiyyətlərini də daşımalı olur-

dular. Feodallar siyasi-inzibati hüquqlara malik olduqlarından kəndlilərdən dövlət vergilərini də öz mübaşirləri vasitəsilə toplayırdılar. Yeri gəlmişkən qeyd edək ki, dövlət tərəfindən kənd əhalisindən alınan əsas vergi «maliyyəte ərzi» (torpaq vergisi) torpaq sahibinin gəliri – asılı kəndlilərdən aldığı torpaq rentası üzərinə deyil, bir qayda olaraq yenə də kəndlilərin əldə etdiyi ümumi məhsul üzərinə qoyulur, eləcə də baş pulu və digər vergilər alınırdı. Müstəqim dövlət vergilərinin ağırlığı kənd zəhmətkeşlərinin, şəhərlərdə isə sənətkar və tacirlərin üzərinə düşürdü. Bəhs edilən dövrdə qeyri-müstəqim vergilərin az tətbiq olunmasına baxmayaraq, bunlar eyni zamanda kəndlilərin dövlət məmurları və ya torpaq sahibinin nümayəndəsi tərəfindən soyulmasına əlavə imkan yaradırdı.

Nəticədə hər bir kəndli 20-dən çox adda vergi və mükəlləfiyyət ödəməli və ya icra etməli olurdu. Bunlardan əvvəllərdə olduğu kimi biyar, əvariz və s. kimi mükəlləfiyyətlər feodalların asılı kəndlilər üzərində qeyri-iqtisadi məcburiyyəti həyata keçirməsinə, kəndlilərin ucuz əməyindən istifadə olunmasına, onların torpaq sahibini müxtəlif ərzaq malları ilə məcburən təchiz etməsinə və s. imkan yaradırdı.

Dövlət vergilərini bilavasitə dövlət nümayəndələri topladığı hallarda kəndlilər bu məmurların acgözlüyü ilə üzləşirdilər. Ümumiyyətlə, Cənubi Azərbaycanda əyalətin idarə olunmasında, bununla bağlı dövlət vergilərinin toplanmasında tətbiq olunan iltizam üsulu ən varlı və gəlirli olan bu əyalətin, onun əhalisinin soyulmasına əsas verirdi.

Əyalətin inzibati idarəsində də dəyişiklik yaranmamışdı.

Cənubi Azərbaycan yenə də dörd əyalətdən birini təşkil edirdi. Əyalət, öz növbəsində vilayətlərə, vilayətlər isə mahal və bölgələrə bölünürdü. Əyalətin mərkəzi Təbriz şəhəri şah canişininin – vəliəhdin iqamətgahı, İran dövlətinin bir növ ikinci paytaxtı hesab olunurdu. Əyalət mərkəzdən göndərilən vali və digər yüksək məmurlar tərəfindən idarə olunurdu. Mərkəzi hökumət və ya vəliəhd vilayət və mahal hakimi vəzifələrini bununla da dövlət vergilərini toplamaq ixtiyarını çoxlu rüşvət müqabilində çox zaman elə yerli xanlara, bəylərə və digər şəxslərə satırdı.

Vəliəhd və hökumət, bəzən bu hakimləri ildə iki dəfə dəyişir və hər dəfə yeni hakimlərdən çoxlu rüşvət alırdılar. Yeni hakimlər isə, hər şeydən əvvəl, kəndlilərdən vergi yığmaq haqqında düşünürdülər. Hakimlərin müxtəlif kəndlərə səfəri kəndlilər üçün müsibət idi.

Cənubi Azərbaycana şahın canişini təyin edilən vəliəhd, vali (general-qubernator) və İran hökumətinin digər nümayəndələri azərbaycanlıları çapıb-talayırdılar. Mətbuatda qeyd edildiyi kimi, vəliəhd «Azərbaycanda olduğu müddətdə soyğunçuluq yolu ilə çoxlu var-dövlət toplamışdı».

1916-cı ildə vəliəhd öz amansızlığı və rüşvətxorluğu ilə məşhur olan Azərbaycan valisi Sərdar Rəşidlə birlikdə Qaradağa növbəti səfər təşkil etmiş, Qaradağ kəndlərini talamış və cüzi müqavimət göstərməyə cəhd edən kəndliləri güllələtmişdi.

Bütün bu qarətlər zəhmətkeş kütlələrin, xüsusən də «validən tutmuş məmura, vali atlısına qədər – hamının axırıncı tikəsindən məhrum edə bildiyi» kəndlilərin onsuz da ağır vəziyyətini daha da pisləşdirirdi.

Fars məmurları Azərbaycan xalqının milli və digər hüquqlarına da qəsd edirdilər.

Birinci Dünya müharibəsi zamanı əhalinin vəziyyəti, xüsusilə pisləşdi. İranın hər yerində aclıq və yoluxucu xəstəliklər tüğyan edirdi. 1917-ci ilin ikinci yarısında Təbrizin ətraf kəndlərinin əhalisi ağır aclıq çəkirdi. Şəhərdə və şəhər ətrafında çörəyin qiyməti xeyli artmışdı. İranın hakim dairələri aclıq, bahalıq və möhtəkirliyə qarşı mübarizə üçün heç bir tədbir görmürdülər. Əksinə, Sərdar Rəşid Ərşadxan adlı birisinə təzə məhsula qədər ehtiyat kimi saxlanan 4000 xalvar buğda satmışdı, vəliəhd və onun tabeliyində olan məmurlar Təbriz qarnizonu üçün hər ay ayrılan ərzaq və pulu özləri mənimsəmişdilər.

Ölkədə hökm sürən rüşvətxorluq və qanunsuzluq zəhmətkeş kütlələrin narazılığına səbəb olurdu.

Kəndlilər və şəhər yoxsulları feodal və milli zülmə qarşı çıxırdılar. Cənubi Azərbaycanın zəhmətkeşləri ayrı-ayrı şah məmurları və feodallara qarşı deyil, həm də, ümumiyyətlə, şah hökumətinə qarşı çıxırdılar. Bir sıra kəndlərdə ağır istismara məruz qalan kəndlilər üsyan edir, vergi verməkdən boyun qaçırır, mülkədarları öldürür və onların torpaqlarını tuturdular. Məsələn, 1917-ci ilin yazında Ərdəbil kəndliləri mülkədar Mispahülmülkü qovmuş, Astaranın kəndlərindən birində isə üsyan etmiş kəndlilər mülkədarları qovmuş və torpaqlarını tutmuşdular.

Deyilənlərdən bir daha görünür ki, kəndlilərin vəziyyəti dözülməz dərəcədə ağır idi. Bu hal onları zalımlara – xanlara, mübaşirlərə və dövlət məmurlarına qarşı çıxışlara qaldırır, Cənubi Qafqaz kəndlilərinin mülkədarlarla mübarizə xəbərləri onları öz feodalları və şah hökuməti ilə mübarizəyə ruhlandırırdı. Xüsusilə aşağıda görəcəyimiz kimi, Şimali Azərbaycanda kəsbkarlıqda olub qayıdanlarda siyasi şüur daha yüksək idi.

Cənubi Azərbaycanda şəhər zəhmətkeşlərinin də vəziyyəti yaxşı deyildi.

Cənubi Azərbaycanda çoxlu miqdarda xırda əmtəə istehsalı ocaqları, azsaylı sadə kapitalist kooperasiyası və manufaktura müəssisələri var idi.

Kustar emalatxanalarında (xüsusilə xalçaçılıqda) orta hesabla 10–12 nəfər işləyirdi. Emalatxanaların bir çoxunda cəmi 2–3 nəfər işçi çalışırdı.

Təbrizdə, Ərdəbildə, Xoyda, Marağada və digər şəhərlərdə xalçaçılıq, əyirmə, dulusçuluq, qab-qacaq istehsalı inkişaf etmişdi. Təbrizdə xalça, keçə, başmaq, boyaqçılıq, şüşə, papaq və misgərlik emalatxanaları var idi. Şəhərdə belə emalatxanaların sayı 2 minə çatırdı. Təbrizin kustar sənaye istehsalında əsas yeri məhsulu xaricə ixrac olunan xalçaçılıq tuturdu.

İranda 1891-ci ildə rusların açdıqları İran hesab-borc bankının hesabatlarının birində Təbrizdə sənətkarlığın vəziyyəti haqqında deyilirdi: «Şəhərin böyüklüyünə baxmayaraq, sənətkarlıq zəif və son dərəcə az tələbkar əhaliyə zəruri olan miqyasda inkişaf etmişdir. Bizim başa düşdüyümüz mənada fabrik-zavod sənayesi yoxdur. Sənaye daha çox ən bəsit üsullardan istifadə edən kustar xarakter daşıyır. Buraya, hər şeydən əvvəl, xalça və kilimlərin geniş istehsalını, sonra yerli əhəmiyyətli istehsal sahələrini; şüşə (yerli butulka), dulusçuluq məmulatı, kərpic, yerli istehlak üçün dəri aşılanmasını aid etmək lazımdır».

Birinci Dünya müharibəsi ərəfəsində Cənubi Azərbaycanda xarici kapitalistlər (əsasən almanlar) tərəfindən açılmış fabrik-zavod tipli müəssisələrdən xalçatoxuyan və əyirici fabriklər (Təbrizdə), şüşə və pambıqtəmizləyən zavodlar, kibrit fabriki, düyütəmizləyən zavod və dəyirman mövcud idi.

Fəhlələr bu kimi müəssisələrdə və emalatxanalarda, Təbriz–Culfa dəmir yolunda, limanlarda və Xəzər dənizi balıq vətəgələrində, Urmiya gölünün körpülərində, mətbəələrdə və s. işləyirdilər.

Xarici kapitalistlərin müəssisələrində işləyən fəhlələrin vəziyyəti çox ağır idi. Xalça toxunan emalatxanalarda, əsasən qadınlar və azyaşlı uşaqlar işləyirdi. Fabrik-zavod və kustar müəssisələrinin əməkçiləri rəhmsizcəsinə istismar olunurdular: xalça emalatxanalarında kişi fəhlələr 12–14 saatlıq iş günü üçün 2–3 qran[1], qadınlar daha az, uşaqlar cəmisi 5–10 şahı alırdılar.

---

[1] Bir qran 20 şahıya bərabər gümüş sikkədir.

Bundan əlavə, bu müəssisələrdə iş şəraiti dözülməz idi. Emalatxanalar, xüsusən də xalça toxunan emalatxanalar, qaranlıq yarımzirzəmilərdə və zirzəmilərdə yerləşir, bunlarda ən adi gigiyena qaydaları gözlənilmirdi. Buna görə də xalça emalatxanalarında işləyən çoxlu qadınlar, uşaqlar traxoma, yel və vərəm xəstəliklərinə tutulurdular.

1912-ci ildə alman kapitalistləri Təbrizdə kapitalı 3 mln. marka olan və sonra 10 mln. markaya çatan «Fars xalça şirkəti» təsis etdilər. Şirkət Təbrizdə yun əyirmək və rəngləmək üçün yaxşı təchiz edilmiş bir fabrik tikdi. Kustar-sənətkarlarla geniş əlaqə yaradan bu şirkət xalçaları onlardan alıb böyük qazancla ABŞ və digər ölkələrdə satırdı.

İngilis və Amerika sahibkarları da Cənubi Azərbaycan xalçası üzrə apardığı ticarətdən böyük gəlir əldə edirdilər. Məlumdur ki, 10–12 funt sterlinqə başa gələn xalça İngiltərədə 120 funt sterlinqə satılırdı.

Dulusçuluq, dəri və digər emalatxanalarda çalışanların da vəziyyəti yaxşı deyildi. Adətən bu müəssisələrdə 16 saatlıq iş günü mövcud idi.

Qara fəhlələrin vəziyyəti daha pis idi. Onlar ən hüquqsuz, əzilən və dağınıq fəhlə dəstələrini təşkil edirdilər.

«Onlar... şəhərin hər yerinə: bağlara, bostanlara, tövlələrə, malikanələrə səpələniblər. Onlar əsl qullara oxşayırlar, nə əmr edilsə, sahibkar nə qədər tələb etsə, o qədər iş görməyə məcburdurlar. Hər cür təhqirə, döyülməyə dözməlidirlər». Onların aylıq əməkhaqqı 6–7 tüməndən çox olmurdu.

Fəhlələrin mənzil şəraiti olduqca ağır idi. Onların ailələri sınıq-sökük daxmalarda yaşayırdılar, bu da müxtəlif xəstəliklərin yayılmasına səbəb olurdu.

Fəhlələrin mənafeyini müdafiə edən heç bir qanun mövcud deyildi. Fəhlələr siyasi hüquqlardan məhrum idilər, onların təşkilatları yox idi. Təkcə 1906-cı ildə ilk dəfə Təbrizdə yaradılmış və 1911-ci ildə qovulmuş həmkarlar ittifaqı yalnız 1917-ci ildə milli-azadlıq hərəkatı başlandıqdan sonra yenidən bərpa edilmişdi.

Xarici kapitalın fəaliyyəti təkcə fəhlələri istismar etməklə məhdudlaşmırdı. Ölkədə getdikcə daha çox mövqelər ələ keçirən xarici kapital, ölkə bazarlarını fəth edən xarici sənaye malları eyni zamanda milli burjuaziyanın fəaliyyətini məhdudlaşdırırdı. Çox hallarda yerli burjuaziyaya məxsus olan müəssisələr xarici malların rəqabətinə dözməyə qadir deyildilər. Xarici kapital nümayəndələri hər vasitə ilə yerli sənayenin yaranmasına mane olaraq və daxili bazarı öz inhisarında saxlamağa cəhd edərək, tezliklə bu müəssisələrin bağlanmasına nail olurdular.

Ölkə iqtisadiyyatının əcnəbi dövlətlərin mənafeyinə tabe edilməsi xalq kütlələrini var-yoxdan çıxarır və ölkəni daha artıq xammal mənbəyinə və xarici mallar üçün satış bazarına çevirirdi. Xırda əmtəə istehsalı və manufaktura sənayesi iflasa uğrayırdı.

Kustar istehsalçıların, xırda tacirlərin müflisləşməsi və kəndlilərin torpaqsızlaşması nəticəsində ölkədə işsizlərin sayı artırdı. Bu işsizlərin az bir hissəsi Cənubi Azərbaycanın özündə, çoxu isə qonşu vilayətlərə, böyük əksəriyyəti, əvvəllərdə olduğu kimi, qazanc ardınca xaricə, xüsusilə fəhlə əllərinə böyük tələbat olan neft Bakısına getməyə məcbur olurdular. Rusiyanın əkinçilik naziri Nazirlər şurasına 1916-cı ilə 19 aprel tarixli məruzəsində yazırdı ki, hələ neft mədənləri, dəmiryolu və başqa yolların tikintisi, kənd təsərrüfatı bir yana qalsın, təkcə hərbi idarəyə 100 min fəhlə tələb olunurdu. Nazir kənd təsərrüfatı fəhlələrini Bakıdakı fars podratçılarına müraciət etmədən İranın özündə işə götürməyə təklif edirdi.

Rusiyaya gələn fəhlələrin sayı ildən-ilə artırdı. İran gömrükxanalarının rəsmi məlumatına görə, 1911-ci ildə 200 minə yaxın fəhlə getmişdi. Pasportsuz sərhəddi keçənləri də nəzərə alsaq, onda kəsbkarlığa gedənlərin sayı xeyli artar.

Sonrakı illərdə Rusiyaya kəsbkarlığa gedən işsizlərin sayı daha sürətlə, təqribən iki dəfə artmış və Birinci Dünya müharibəsi ərəfəsində onların sayı 400 minə yaxın olmuşdur. Birinci Dünya müharibəsi illərində təkcə Bakının neft rayonunda və ətraf qəzalarda 100 minə yaxın Cənubi azərbaycanlı fəhləsi çalışırdı.

Əksəriyyəti keçmiş kəndlilər olan bu fəhlələr vətənə qayıdarkən özləri ilə yeni, inqilabi ideyalar və çoxmillətli Rusiya ictimaiyyətinin mübarizə təcrübəsini aparırdılar.

Çoxsaylı şəhər xırda burjuaziyası (xırda tacirlər və kustarlar) ölkədə xarici mal və kapitalın nüfuzunun güclənməsi nəticəsində müflisləşmənin daimi təhlükəsi altında yaşayırdı. Odur ki, şəhərlərin xırda burjua əhalisinin bu təbəqələri öz antiəcnəbi əhvali-ruhiyyəsinə görə fəhlələrlə yaxınlaşır və onlarla birlikdə əcnəbi təzyiqə, mürtəce şah rejimi və hakim təbəqənin rüşvətxorluğu və satqınlığı əleyhinə çıxırdı. Milli ruhda olan orta burjuaziya da xarici kapitalın ölkənin iqtisadiyyatına nüfuzundan narazı idi. Azərbaycan tacirlərindən biri bu barədə belə yazırdı:

«Fabriklər tikməyə cəhd etdik, lakin xaricilər hökuməti ələ alaraq onları məhv etdilər, yaxud da işi öz rəqabətləri ilə boğdular. Avropa rəqabəti bizim köhnə kustar istehsalımızı məhv etdi və bizə təkcə Firəngistana (Avropaya – *red.*) xammal tədarük etməyi saxladı. Biz

oradan hazır çit parça, qənd, kibrit, şüşə alırıq. Bu bizim xaricilərlə bağlı olan iri tacirlərimiz üçün əlverişlidir. Biz, orta tacirlər isə öz milli sənayemizi yarada bilmədiyimizə görə əziyyət çəkirik». Buna görə də Cənubi Azərbaycan xırda burjuaziyası kimi, orta burjuaziyası üçün də antiəcnəbi və antişah əhvali-ruhiyyəsi səciyyəvi idi.

Xarici kapital nümayəndələri ilə bağlı olan iri ticarət burjuaziyası xarici ölkələrə bəslənən rəsmi siyasəti müdafiə etməklə, öz xalqının mənafeyinə xəyanət edirdi. Bu komprador burjuaziya, həm də sələmçiliklə məşğul olur, yerli bazar və yerli kustar istehsalla bağlı olan tacir və sənətkarları özündən tam asılı vəziyyətdə saxlayırdı.

Beləliklə, feodal mükəlləfiyyətləri və hədsiz vergilər altında əzilən kəndlilərin, amansızcasına istismar edilən və çox cüzi əməkhaqqı alan fəhlələrin, həmçinin hər addımda xarici malların rəqabəti ilə qarşılaşan xırda və orta burjuaziyanın narazılığı, milli zülm və əhalinin hüquqsuzluğu – bütün bunlar sosial-sinfi ziddiyyətləri kəskinləşdirir və əhalinin geniş təbəqələrini inqilabiləşdirirdi.

## § 2. Cənubi Azərbaycan Birinci Dünya müharibəsi zamanı

Birinci Dünya müharibəsi ölkədəki ziddiyyətləri daha da kəskinləşdirdi, xırda burjuaziya, kəndli və fəhlələrin yaşayış şəraitini son dərəcə pisləşdirdi və ölkənin siyasi həyatında böhranlı vəziyyət yaratdı.

Müharibəni doğuran səbəblərdən biri iri dövlətlər arasındakı ziddiyyətlərin toqquşduğu düyün nöqtələrindən olan İran uğrunda mübarizə idi. Biri digərinə zidd planla hərəkət etsələr də, Antanta ittifaqına daxil olan İngiltərə ilə Rusiyanın, habelə üçlər ittifaqının üzvləri Almaniya ilə Türkiyənin İran barəsində planları mövcud idi. Digər tərəfdən müharibə dövründə neytral mövqe tutan ABŞ da, öz növbəsində İranda nüfuzunu artırmağa çalışırdı. Cənubi Azərbaycanın Təbriz, Urmiya şəhərlərində Amerika təsirini yayan missionerlərin fəaliyyəti, xüsusən Birinci Dünya müharibəsi ərəfəsi və dövründə çox artmışdı.

Müharibənin əvvəlində özünü bitərəf elan etməsinə baxmayaraq, İranın, xüsusən Cənubi Azərbaycanın ərazisi hərbi əməliyyatlar meydanına çevrilmişdi. 1914-cü ilin sonlarından başlayaraq, Cənubi Azərbaycan gah Türkiyə, gah da çar Rusiyası qoşunlarının əlinə keçdi. 1914-cü ilin axırında Mosuldan Urmiya, Xoy, Soucbulaq istiqamətində hərəkət edən türk qoşunları Cənubi Azərbaycanın çox hissəsini tutdu. Türkiyə hərbi hissələri ilə Cənubi Azərbaycan ərazisində olan rus qoşun dəstələri arasında toqquşma baş verdi. Bununla da İranın şimal-

qərb rayonunda Birinci Dünya müharibəsinin Qafqaz cəbhəsinin davamı olan yeni cəbhə açıldı. Türk hərbi komandanlığı Cənubi Azərbaycanda öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Lakin türk qoşunlarının 1915-ci ilin yanvarında Sarıqamış altında rus ordusu tərəfindən məğlub edilməsi alman-türk blokunun planını pozdu. Rus qoşunları türk hərbi hissələrini Cənubi Azərbaycandan çıxarmaq üçün hücuma keçdilər. Yanvarın 15-də Sofiyan yaxınlığında (Təbrizdən şimal-qərbdə) rus hərbi hissələri tərəfindən məğlub edilən türk qoşunları blokun hərbi planlarından əl çəkərək Cənubi Azərbaycanı tərk etməyə məcbur oldular. Yanvarın 17–20-də rus qoşunları Təbrizi tutdular. Bunun ardınca bütün Cənubi Azərbaycanı işğal etdilər və alman-türk qoşunlarını İranın qərbinə sıxışdırdılar. Artıq 1917-ci ilin əvvəllərində İran şimalda rus, qərbdə alman, türk, cənubda ingilis qoşunu tərəfindən işğal olunmuşdu. Lakin 1917-ci ilin fevral ayından başlayaraq (daha sonra çarizmin xarici siyasətinə sadiq qalan Müvəqqəti hökumət tərəfindən davam etdirilməklə) rus qoşunlarının və bunun ardınca ingilis ordu hissələrinin İranın qərb rayonlarına yeni hücumları nəticəsində aprel-may aylarında İranın qərb rayonları da Antantanın hərbi hissələri tərəfindən zəbt edilmiş oldu.

İranın bitərəfliyi ilə hesablaşmayaraq ölkənin xeyli hissəsini hərbi əməliyyatlar meydanına çevirən xarici qoşunların İranda, o cümlədən Cənubi Azərbaycanda olması ölkə zəhmətkeşləri üçün ağır yük idi və dağıntılar, aclıq və yoluxucu xəstəliklərə səbəb oldu. Həmin illərdə İranda olmuş ingilis generalı Denstervilin verdiyi məlumata görə, müharibə zamanı İranda bir xalvar buğdanın qiyməti 12 tüməndən 230 tümənə qalxmışdı, başqa sözlə, təxminən 20 dəfə artmışdı. İranda fəaliyyət göstərən rus hesab-borc bankı idarə heyətinin yazılarında da çoxişlənən malların son dərəcə bahalaşması qeyd edilir və göstərilirdi ki, bu, ölkənin başının üstünü almış ən ciddi təhlükədir.

Dünya müharibəsi Azərbaycanın xarici ticarətinə böyük zərər vurdu. Xüsusilə həyat əhəmiyyəti olan Rusiya ilə ticarət dövriyyəsi xeyli dərəcədə aşağı düşdü. Məlumdur ki, İranın Rusiya ilə xarici ticarətində Cənubi Azərbaycan əsas rol oynayırdı və bu ticarət əlaqələri müharibə ərəfəsində də daima artırdı. Belə ki, əgər 1911-ci ildə Rusiyadan Cənubi Azərbaycana 44,5 milyon manatlıq mal gətirilmiş və buradan Rusiyaya 35,4 milyon manatlıq məhsul aparılmışdısa, artıq 1915-ci ildə bu rəqəmlər müvafiq olaraq 51,2 və 52,9 milyon manata çatmışdı.

Cənubi Azərbaycanın ticarət dövriyyəsində Rusiya ilə yanaşı, bəzi Avropa ölkələri də iştirak edirdilər. Lakin Cənubi Azərbaycanın xarici ticarətində Rusiya birinci yeri tutmaqda davam edirdi.

Müharibə dövründə ticarət əlaqələrində başlayan tənəzzül Fevral inqilabı baş verdikdən sonra, xüsusilə Rusiyada vətəndaş müharibəsi və xarici müdaxiləçilərə qarşı mübarizə illərində daha də dərinləşdi.

İxracatın tənəzzülü nəticəsində kənd təsərrüfatı malları və kustar məmulatı istehsalı azalırdı, çoxlu kəndli və sənətkar müflisləşirdi. İş qüvvəsinə tələbatın azalması işsizlərin sayını artırdı. Cənubi Azərbaycan mülkədarlarının bir hissəsi ticarətlə bağlı olduqları, tacirlərin çoxunun, eyni zamanda, həm də torpaq sahibləri olduğu üçün rus-İran ticarətinin azalması onların da mənafeyinə zərər vururdu. Lakin demək olmaz ki, buna görə onların vəziyyəti pisləşirdi. Məsələ burasındadır ki, müharibə zamanı onların əksəriyyəti çox işlənən malların bahalığından istifadə edərək möhtəkirlik, rus qoşunlarına sursat (çörək, mal-qara, ələf) satmaq hesabına varlanırdı. Müharibədən sonra ticarət burjuaziyası itirilmiş bazarların qaytarılması və bu qəbildən İranın Rusiya ilə ticarət əlaqələrinin bərqərar edilməsi uğrunda çıxış edirdi.

Müharibə dövründə İranın siyasi həyatında da vəziyyət çox gərgin idi. Müharibə başlandıqdan sonra fəaliyyətə başlamış üçüncü məclisin deputatlarının əksəriyyəti və xüsusilə ölkədə ən nüfuzlu siyasi təşkilat olan İran Demokrat Partiyasının (İDP) rəhbərliyi alman–türk blokuna tərəfdar çıxdı. Bununla da İDP bir hərbi bloka qarşı digər bir hərbi blokla həmkarlığa rəğbət bəsləməklə ciddi səhvə yol verdi və hər iki bloka qarşı mübarizə aparan geniş kütlələrdən özünü ayrı saldı.

İDP ardıcıl surətdə xarici ölkələrin nüfuzuna qarşı dura və İranda xalqların mübarizəsini təşkil edə bilmədi. Məhz buna görə də İDP rəhbərliyinin və başqa alman-türk tərəfdarlarının Qumda və Kirmanşahda yaratdıqları «milli hökumət» xalq kütlələrinin etimadını qazana bilmədi. İDP-nin Təbriz təşkilatı isə müharibə edən hərbi ittifaqların, nəinki heç birinə qoşulmadı, hətta onların hər ikisinin əleyhinə çıxmaqla xalq kütlələrinin mübarizəsinə başçılıq etdi.

Əyalətin şəhərlərində keçirilən yığıncaqlarda çarizmin müstəmləkə siyasəti və mövcud şah idarəçiliyinin fəaliyyəti pislənilirdi. Təbrizdə belə gizli siyasi yığıncaqların təşkilatçılarından biri Əhməd Kəsrəvi idi. Başqa bir qrupun keçirdiyi yığıncaqlar demokratların, İDP-nin hələ 1910-cu ildə təşkil olunmuş Azərbaycanın Əyalət Komitəsinin fəaliyyəti ilə bağlı idi. Birinci Dünya müharibəsi başlayan zaman partiyanın Cənubi Azərbaycandakı təşkilatları zəif də olsa müəyyən iş aparırdı. 1915–1916-cı illərdə əyalətdə xarici qoşunların olması ilə əlaqədar xalq içərisində narazılıq artdığı bir şəraitdə burada hələ rüşeym halında olan təşkilatlarda canlanma yarandı. Bu dövrdə həmin komitəyə Mirzə

Əli Çayçı, Mirzə Əli xan Postxana və Hacı Məhəmmədəli Badamçı başçılıq edirdi. Tezliklə öz siyasi hazırlığı və təşkilati bacarığı ilə seçilən Şeyx Məhəmməd Xiyabani həmin komitənin başçısı oldu.

Şeyx Məhəmməd Xiyabani hicri[1] 1297-ci (1879–80) ildəTəbriz yaxınlığındakı Xamnə qəsəbəsində tacir ailəsində anadan olmuşdur. Onun atası Hacı Əbdülhəmid otuz ilə yaxın Rusiyanın Petrovsk (indiki Mahaçqala) şəhərində yaşayaraq ticarətlə məşğul olmuşdur. Məhəmməd Xiyabani ilk təhsilini Xamnədə aldıqdan sonra Petrovska gələrək ticarət işlərində atasına kömək etmişdir. O, Təbrizə qayıtdıqdan sonra təhsilini davam etdirmiş, dünyəvi elmlərlə yanaşı, dini elmlərə də yiyələnmiş, rus və fransız dillərini öyrənmiş və müxtəlif peşələrdə çalışmışdır. Xiyabani 1905–1911-ci illər İran inqilabının ən fəal iştirakçılarından və başçılarından biri kimi yetişir.

Təbriz üsyanı zamanı Məhəmməd Azərbaycan əyalət əncüməninin ən fəal üzvü kimi çalışır, bir çox tədbirlərin təşəbbüsçüsü kimi çıxış edir, əlində silah yaşadığı Xiyaban məhəlləsində barrikada vuruşlarında qəhrəmanlıqla döyüşdüyündən Xiyabani adını qazanır və İkinci məclisə (1909–1911) nümayəndə seçilir. Tehranda məclisdə olduğu vaxt Xiyabani sol nümayəndələrlə yaxınlaşır və yenicə təşkil edilmiş İDP-yə daxil olur. Məhəmməd Xiyabani 1914-cü ildə Təbrizə qayıtdıqdan sonra orada bir dükan açaraq xırda ticarətlə məşğul olur və apardığı ədəbi-fəlsəfi dərnəkdən gizli siyasi fəaliyyət üçün istifadə edir. Bu dərnəkdə Xiyabani onun həmməsləkləri – İDP Azərbaycan əyalət komitəsinin üzvləri günün vacib siyasi məsələlərini müzakirə edir, eləcə də Cənubi Azərbaycan ərazisində yerləşmiş xarici qoşunların ölkədən çıxarılmasını tələb edən intibahnamə və vərəqələr yayır, İran hökumətinin satqın siyasətinə qarşı nümayişlər keçirirdilər. Bu nümayişlərin hədəflərindən biri də çarizmin İrandakı işğalçılıq siyasətinə xidmət göstərən vəliəhd, rüşvətxorluq və qəddarlıqda ondan geri qalmayan vali Sərdar (Hacı xan Rəşidülmülk) idi.

Bu dövrdə əyalətin başqa şəhərlərində və demokratların mütəşəkkil qrupları fəaliyyət göstərir və əhali arasında xarici qoşunlar əleyhinə təbliğat aparırdı.

Beləliklə, mövcud sosial-iqtisad və siyasi vəziyyət geniş xalq kütlələri içərisində narazılıq doğursa da, müxtəlif vaxtda, müxtəlif şəkildə baş vermiş çıxışlara səbəb olsa da, bu çıxışlar hələlik pərakəndə və qeyri-mütəşəkkil xarakter daşıyırdı.

---

[1] **Hicri** – 1297-ci il – miladi tarixlə 21 mart 1879-dan 21 mart 1880-ci ilə müvafiqdir.

## V I F Ə S İ L

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MƏDƏNİYYƏT

### § 1. Maarif

Bu dövrdə ictimai-iqtisadi və siyasi həyatda baş verən dəyişikliklər öz əksini mədəniyyətdə də tapırdı. Milli şüurun oyanması və millətin ideologiyasının formalaşmasında xaricdə təhsil almış istedadlı gənclərimiz mühüm rol oynayırdılar. Onlar inanırdılar ki, soykökünə, qan yaddaşına qayıtmadan, millət kimi özünü dərk etmədən, mənəvi dəyərlərin sahibi olmadan bəşəri ideyalara qovuşmaq olmaz . Gəncləri kütləvi şəkildə təhsilin müxtəlif sahələrinə cəlb etmədən xalqı gerilik buxovlarından xilas etmək mümkün deyildir. Millətin görkəmli şəxsiyyətləri bu məqsədlə milli məktəblərin yaradılması üçün layihələr düşünür, proqramlar tərtib edir, dərsliklər yazırdılar.

Azərbaycan müəllimlərinin 1906-cı ildə çağırılmış birinci qurultayında, habelə Rusiya müsəlmanlarının qurultaylarında türk xalqları yaşayan bölgələrdə yeni tipli məktəblərin yaradılması ibtidai icbari təhsilə keçilməsi, təhsilin ana dilində aparılması, rus dilində təhsil alan gənclərə ana dili və şəriət dərslərinin keçirilməsi və b. məsələlər haqqında qərarlar qəbul edilmişdi. Həmçinin unutdurulmuş milli və dini ənənələri yaşadan tədbirlərin həyata keçirilməsi tələb edilirdi. Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda maarifin inkişafını ləngidən səbəblərdən biri də təhsilin, əsasən rus dilində aparılması idi. Xalqın əsrlərlə yaratdığı milli dəyərlər, əxlaqi və dini ənənələr unutdurulurdu. Təbii ki, bu məsələlər millətin ziyalılarını, müdrik və xeyirxah adamlarını narahat edir və onları çox düşündürürdü. Ona görə də müsəlman xeyriyyə cəmiyyətlərinin təşəbbüsü və vəsaiti ilə mədrəsələr təşkil edilir və Türkiyədəki məktəblərin proqramına uyğun yeni məktəblər açılırdı.

Maarifimizin fədakarlarından H.Zərdabi, N.Nərimanov, H.Mahmudbəyov, M.Mahmudbəyov, S.M.Qənizadə, R.Əfəndiyev, Ü.Hacı-

bəyov, M.Ə.Sabir, M.Cəlil, M.Şahtaxtinski, A.Şaiq, S.S.Axundov və başqaları imperiyanın Azərbaycanda təhsil sahəsindəki müstəmləkə siyasətini tənqid edir, mütərəqqi pedaqoji prinsiplər əsasında yeni məktəblərin yaradılmasını, təhsilin icbari və pulsuz olmasını tələb edirdilər. Onların əksəriyyəti məktəblərdə çalışır və qazandıqları zəngin təcrübə əsasında dərsliklərin yazılmasında iştirak edirdilər. Böyük mütəfəkkir şair M.Ə.Sabir Balaxanı kəndindəki məktəbdə dərs demiş, S.S.Axundovun Bakıda yeni ruhlu məktəbi açılmışdı. A.Şaiq, H.Mahmudbəyov başqa müəlliflərlə birlikdə «Uşaq çeşməyi», «Gülzar», «İkinci il», «Üçüncü il», «Yeni türk əlifbası», «Türk ədəbiyyatına ilk qədəm» və başqa dərsliklər yazmışdılar. R.Əfəndiyevin 1910-cu ildə çapdan çıxmış «Uşaq aləmi» müntəxəbatı maraqla qarşılanmış və təkrar olaraq çap edilmişdir.

XX əsrin əvvəllərində məktəblərin sayı bir qədər artmışdı, 1902-ci ildə Azərbaycanda 240-a qədər ibtidai məktəbdə 15 min nəfərdən çox şagird oxuyurdu. Ruhani təhsil sahəsində də müəyyən dəyişiklik edilmişdi. 1900-cü ildə Mərəzə kəndində, 1905-ci ildə Salyanda, 1907-ci ildə Lənkəranda, 1908-ci ildə Şamaxıda, Ağdaşda, 1909-cu ildə Nuxada, Gəncədə, Gədəbəydə, Balakəndə 1913-cü ildə Qaxda, Nuxada və başqa yerlərdə yeni tipli ruhani məktəbləri açılmış, 1901-ci ildə Şuşada, 1906-cı ildə Gəncədə və 1907-ci ildə Bakıda yeni mədrəsələr fəaliyyətə başlamışdı. Bu məktəb və mədrəsələrdə dərslər vahid proqram əsasında keçilmirdi. Azərbaycanda 210 ruhani məktəbində 3200 nəfər təhsil alırdı.

Əsrin əvvəlində Azərbaycanda orta və natamam orta məktəblər çox az idi. 1902-ci ildə iki quberniyada 6 gimnaziya, realnı məktəb və bunlara bərabər olan digər təhsil ocaqları var idi.

Birinci rus inqilabı illərində hökumət maarif sahəsində müəyyən güzəştlərə getməyə məcbur oldu. 1908-ci ildə təkcə Gəncə quberniyası üzrə ibtidai məktəblərdə 21 min nəfərədək şagird oxuyurdu. Azərbaycandakı 11 şəhər məktəbində isə təxminən 3 min nəfər şagird vardı. Həmin ildə Bakı və Gəncə quberniyalarındakı 8 orta məktəbin 5-i kişi, 3-ü qadınlar üçün idi. Orta məktəblərdə 5520 şagird təhsil alırdı. Bundan başqa, Bakıda bir ticarət, dənizçilik və sənət məktəbləri də açılmışdı. Ölkəmizdəki 4 natamam orta məktəbdə 1040 şagird oxuyurdu.

Sonrakı dövrlərdə, xüsusən 1910–1914-cü illərdə, bütün imperiyada olduğu kimi, Azərbaycanda da xalq maarifi sahəsində müəyyən canlanma müşahidə edilirdi. 1915-ci ilin yanvarında Azərbaycandakı 920

ibtidai məktəbdə 63 min nəfərə qədər şagird təhsil alırdı. Onların bir hissəsini qız uşaqları təşkil edirdilər. İbtidai məktəblərin az bir qismi Rus-Azərbaycan məktəblərindən ibarət idi. 1914-cü ilin sonunda Azərbaycanda 25 belə məktəbdə 3 min nəfər şagird təhsil alırdı. Bu məktəblərdə H.Mahmudbəyovun ana dili kitabı oxunurdu.

1912-ci il «Əsasnaməsi»nə görə şəhər məktəbləri ali ibtidai məktəblərə çevrildi. Belə məktəblərə ibtidai məktəbləri bitirənlər daxil olurdular. 1915-ci ilin yanvarında ölkəmizdəki 21 ali ibtidai məktəbdə 4300 nəfər şagird oxuyurdu. Bundan əlavə, 11 gimnaziya vardı ki, bunun 5-i kişi, 6-sı qadın gimnaziyası idi. Gimnaziyanı qurtaranlar universitetlərə daxil ola bilərdilər. Gimnaziya və progimnaziyalarda 4600 nəfərdən çox şagird oxuyurdu.

1915-ci ildə Azərbaycanda orta təhsil hüququ verən 4 realnı məktəbdə 1800 nəfərə qədər şagird təhsil alırdı. Bunların 1146 nəfəri Bakı və Balaxanı məktəbində, 470 nəfər Şuşa və 175 nəfər Şamaxı realnı məktəbində oxuyurdu.

Azərbaycanda qız məktəbləri də açılırdı. Ən nümunəvi qız məktəbi 1901-ci ildə Bakıda H.Z.Tağıyevin açdığı məktəb idi. 1916-cı ildə bu ikisinifli məktəb ali ibtidai məktəbə çevrildi. Məktəbdə 104 qız təhsil alırdı. 1902-ci ildə Gəncədə açılmış məktəbdə yalnız azərbaycanlı qızlar oxuyurdular. Belə məktəblər 1907-ci ildə Ağdaşda, Qazax qəzasının Salahlı kəndində, Nuxada, sonra Ağdamda, Balaxanıda, Qaryagin qəzasının Qarğabazar kəndində, Şuşada, Şamaxıda və başqa yerlərdə də açılmışdı. Bakıdakı qız məktəblərində, xüsusən H.Z.Tağıyevin açdığı məktəbdə, dövrünün tanınmış qadın pedaqoqlarından H.Məlikova, Ş.Əfəndizadə, S.Axundzadə, R.Hacıbababəyova, S.Əbdürrəhmanova, K.Əliyeva, S.Vəzirova, B.Hacıbəyova, A.Nərimanova onlarla başqaları qızların təhsili və tərbiyəsilə məşğul olurdular. Qəzalarda açılmış qız məktəblərində isə M.Qiyasbəyli, G.Cəfərzadə (Şövqiyyə), H.Cavanşir-Məmmədquluzadə, B.Köçərli, Nigar və Gövhər Qaibova bacıları və bir çox başqaları fəaliyyət göstərirdilər.

Birinci rus inqilabı illərində fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri də məktəblər açaraq maarifi yayırdılar. Nizamnaməsi 1906-cı ilin avqustundan təsdiq edilmiş «Bakı quberniyası müsəlman əhalisi içərisində savadlılığı yayan Bakı cəmiyyəti» (1907-ci ildən etibarən «Nəşri-Maarif» adlanır) maarifin yayılmasında böyük işlər görürdü. Cəmiyyətin idarə heyətinin əsasını ziyalılar təşkil edirdilər. Müxtəlif vaxtlarda Ə.Ağayev (katib), İ.Əliyev, A.Aşurov (sədr müavini), İ.Aşurbə-

yov, Ə.Axundov, M.Hacınski (sədr müavini), İ.Heydərov, Ə.Cəfərov, Q.Qarabəyov, H.Mahmudbəyov, M.Əfəndiyev və b. idarə heyətində işləmişdilər. H.Z.Tağıyev cəmiyyətin daimi sədri olmuşdur. 1914-cü ildə «Nəşr-Maarif» cəmiyyətinin Bakı qəzasının ayrı-ayrı kəndlərində açdığı 13 məktəbdə 940 şagird oxuyurdu. 1917-ci ildə bu cəmiyyətin məktəblərinin sayı 26-ya çatmışdı.

1906-cı ildə Ə.Ağayev, Ə.Axundov, B.Axundov, M.Hacınski, H.Həsənov, M.Səlimbəyov və b-nın təşəbbüsü ilə «Nicat» maarif cəmiyyəti yaradıldı. Cəmiyyətin büdcəsinin 40%-i müsəlman şagirdləri və tələbələrinin ehtiyaclarına xərclənirdi. Cəmiyyət kitabxanalar, qiraətxanalar açılmasına, nəşriyyat işlərinə, Azərbaycan şair və yazıçıları yaradıcılığının təbliğinə xüsusi fikir verirdi. «Nicat» cəmiyyətinə müxtəlif illərdə M.Səlimbəyov, M.Ə.Rəsulzadə, M.Muxtarov, İ.Aşurbəyov, Ə.Topçubaşov və digər şəxslər başçılıq etmişdilər.

1908-ci ildə «Səadət» xeyriyyə cəmiyyətinin açdığı ibtidai və orta məktəbdə 132 uşaq təhsil alırdı. Xeyriyyə cəmiyyətlərinin məktəblərində Azərbaycanın görkəmli ziyalıları dərs deyirdilər.

1916-cı ildə Bakı ticarət məktəbində 472, dənizçilik məktəbində 182, texniki məktəbdə 545, Zaqatala sənət məktəbində 33 şagird oxuyurdu. Bütün bu məktəblərlə yanaşı, yaşlılar üçün axşam kursları təşkil edilmişdi.

Azərbaycan məktəbləri üçün müəllimləri, uzun müddət Qori Müəllimlər Seminariyasının müvafiq şöbəsi hazırlayırdı.

1914-cü ilədək şöbəni 242 nəfərdən çox müəllim qurtarmışdı. Bu da Qafqazın pedaqoji müəssisələrini bitirmiş bütün azərbaycanlıların 14%-ni təşkil edirdi. Başqa sözlə desək, Azərbaycan və Rus–Azərbaycan məktəblərində 1700-dən çox müəllim tədrislə məşğul idi. Lakin bu, tələbatı ödəmirdi. Azərbaycanın şəhərlərinin birində belə bir təhsil ocağının açılmasına böyük ehtiyac vardı. F.Köçərli bu haqda yazırdı: «Seminariyanın tatar (Azərbaycan – *red.*) şöbəsi otuz ildir ki, müsəlman mərkəzindən kənar bir şəhərdə qalıbdır, onu müsəlman şəhərlərinin birinə gətirmək lazımdır». Müəllimlər seminariyasını açmaq üçün uzun illər yazışma davam etmişdir.

Gəncədə belə bir seminariya açmaqdan ötrü 8 il danışıqlar getmişdir. Nəhayət, 1914-cü ildə qədim Gəncədə müəllimlər seminariyası açıldı. İki il sonra, yəni 1916-cı ildə isə belə bir seminariya Bakıda fəaliyyətə başladı.

Bəhs edilən dövrdə dini təhsil müəssisələrinin də sayı çoxalmışdı. 1914-cü ilin sonunda yalnız Gəncə quberniyasındakı 153 məktəbdə

5200 nəfər, mədrəsələrdə isə 110 uşaq oxuyurdu. Bakı quberniyasında 633 dini məktəbdə 7221 şagird təhsil alırdı. Dini təhsil verən 37 və xüsusi məktəblərdə 3207 şagird vardı. Göründüyü kimi, 1917-ci ilədək həm dini və həm də dünyəvi təhsil müəssisələrində 100 min nəfərdən çox şagird təhsil alırdı.

Əsrin əvvəllərində mədəniyyətin zəif inkişaf etmiş sahəsindən biri mədəni-maarif müəssisələri idi. Şəhər məktəblərinin nəzdində kiçik kitabxanalar vardı. Onların kitab fondu çox az idi. Kitabxana-qiraətxanaların çoxalması adamların öz-özünə təhsil almaları imkanını nisbətən genişləndirirdi. Kitabxanalar qəza mərkəzlərində – Şuşada, Şamaxıda və başqa yerlərdə də açılmışdı. Kitabxanalar əsrin əvvəllərində bir sıra xarici ölkələrin nəşriyyatları ilə əlaqə saxlayaraq 30-dan artıq dildə qəzet, jurnal və kitab alırdılar.

Milli-azadlıq hərəkatının təsiri altında kütləvi kitabxanaların sayı xeyli artmışdı. Belə kitabxanaların əksəriyyəti xeyriyyə cəmiyyətləri tərəfindən yaradılır və maliyyələşdirilirdi. Dünya müharibəsi ərəfəsində 18 min nüsxə kitab fondu olan 25 kütləvi kitabxana vardı. Onların əksəriyyəti qəzalardakı şəhərlərdə idi.

Bakı ticarət məktəbinin nəzdindəki sənaye, Xalq məktəblərinin Bakı–Dağıstan müdiriyyəti nəzdindəki pedaqoji və Rus texniki cəmiyyəti Bakı şöbəsi nəzdində olan texniki muzeyləri nəzərə almasaq, Azərbaycanda muzey işi inkişaf etməmişdi. Bu muzeylərə əslində muzey demək olmazdı, çünki onlar kiçik eksponatlar kolleksiyasından başqa bir şey deyildi.

Səhiyyə xidmətinin vəziyyəti qeyri-qənaətbəxş idi. Kapitalizmin inkişaf etdiyi Bakı şəhərində 38 xəstəxana tikilmişdi. Bakı quberniyası üzrə olan 105 həkimdən 40-ı şəhərdə işləyirdi. Bundan əlavə, burada 50 feldşer və 103-dən artıq tibb işçisi çalışırdı. Şəhərdə 30 aptek vardı. Digər şəhərlərdə və qəzalarda 60-a yaxın müxtəlif səviyyəli müalicəxana və xəstə qəbulu məntəqəsi fəaliyyət göstərirdi. Əhalinin hər 50 min nəfərinə orta hesabla bir həkim düşürdü.

1917-ci ilədək ölkəmizdə fəaliyyət göstərən hər bir həkimin iş stajı 17–30 ilə bərabər idi. Peterburq tibb-cərrahiyyə akademiyasını hələ 1877-ci ildə bitirmiş Əbdülkərim bəy Mehmandarov 1883-cü ildən başlayaraq Gəncə quberniyasında işləyirdi. Peşəkar həkimlərin yaşlı nəslinə X.Rəfibəyov, M.Vəkilov, H.Ağayev, Ə.Axundov, B.Axundov, Q.Qarabəyov, N.Nərimanovu, gənc həkimlər nəslinə isə M.Qaibov, Ə.Cavadov, B.Sultanov, B.Əliverdibəyov, M.Şərifov,

B.Qaibov, İ.Cəfərov, M.Sultanov, X.Sultanov, M.Rəfiyev, K.Sultanov, A.Şahtaxtinski və b. aid etmək olar. Bəhs edilən dövrdə ilk azərbaycanlı qadınlardan S.Rəhimova və S.Axundova həkimliyə başlamışdılar. Lakin Azərbaycanda həkimlərə hər yerdə ehtiyac vardı. Onlar sayca çox az idilər. Tibbi xidmətin zəif inkişaf etməsi üzündən əhali arasında kütləvi yoluxucu xəstəliklər böyük tələfata səbəb olurdu.

## § 2. Elmin inkişafı

İqtisadi inkişafın tələblərinə uyğun olaraq bəzi sahələrdə də irəliləyiş gözə çarpırdı. Azərbaycanda işləyən rus alimlərindən V.D.Qolubyatnikov və İ.M.Qubkinin elmi axtarışlarında neft yataqlarının geoloji cəhətdən öyrənilməsi mühüm yer tuturdu. Onlar Abşeronun neft yataqlarında neftin yatım şəraiti və neft yatağı olan rayonların geoloji quruluşu haqqında elmi cəhətdən əsaslandırılmış məlumatlar vermişdilər.

Təcrübəli mühəndislər Xəzər dənizindəki neft sərvətinin istismar olunmasının mümkünlüyü haqqında təkliflər irəli sürmüşdülər.

Keçən əsrin sonu – XX əsrin əvvəllərində neft sənayesində mühəndislərin böyük bir dəstəsi çalışırdı. Onlardan F.Vəzirov, F. və B.Rüstəmbəyov qardaşları, H.Talışxanov, A.Rzayev, T.Mehmandarov, İ.Səfərəliyev, B.Cavanşir, B.Mustafabəyov və b. göstərmək olar.

Müxtəlif turşular və qələvilərlə neftin emalı texnologiyası haqqında L.Q.Qurviçin və görkəmli kimyaçı alim N.D.Zelinskinin böyük xidmətləri olmuşdu.

Sevindirici haldır ki, Bakıdakı müxtəlif elmi laboratoriyalarda 30-dan çox azərbaycanlı alim-mühəndis çalışırdı. Onlardan M.Xanlarov, A.Mirzəyev, İ.Rzayev, F.Rüstəmbəyov və başqalarını göstərmək olar.

Biologiya və kənd təsərrüfatı elmi sahəsində tədqiqat işlərinin nəticəsi daha maraqlı idi. Rus alimlərinin «Qafqazda bitki sahələri», «Qafqazın bitkiləri», «Qafqazın botaniki-coğrafi əyalətlərə bölünməsi prinsipləri»nə həsr edilmiş əsərlərində Azərbaycan florasının maraqlı məsələləri işıqlandırılırdı. Əsrin əvvəllərində Qazax-Ağstafa bölgəsində əkinçiliyə dair təcrübə təsərrüfatlarının əsası qoyulmuşdu. H.Zərdabi dənli bitkilərin seleksiyası sahəsində təcrübələrini davam etdirir və əkinçilərə faydalı məsləhətlər verirdi.

Kənd təsərrüfatı sahəsində çalışan görkəmli mütəxəssislərdən N.Vəzirov, C.Əliyev, B.Vəkilov, H.Hüseynbəyov və b-nın xidmətləri böyük idi.

Tarixşünaslıq – XX əsrin əvvəlində Rəşid bəy İsmayılov «Müxtəsər Qafqaz tarixi» adlı əsərini yazmışdı (1904). Əsər bolşevik mətbuatında tənqidlə qarşılanmışdı. R.İsmayılov XIX əsr salnaməçi tarixçilərdən fərqlənirdi. O, A.Bakıxanovun yolu ilə gedərək elmi mənbələrə və arxiv sənədlərinə istinad etmişdi.

Ali müsəlman ruhanilərindən olan Hacı Şeyx Həsən Mollazadə Gəncəvi 1853-cü ildə Nuxuda anadan olmuş və sonralar Gəncədə ruhani təhsil almışdı. O, Cəbrayıl və Tiflis qəzalarının qazisi, Cənubi Qafqaz şiə ruhani idarəsinin üzvü, şeyxülislam və başqa vəzifələrdə işləmişdi. H.Ş.Mollazadə Azərbaycan dilində yazdığı dörd cildlik «Zübtətil təvarix» («tarixlərin ən yaxşısı») əsərini 1905–1913-cü illərdə nəşr etdirmişdi. Birinci cild Tiflisdə, qalan cildlər isə Gəncədə çapdan çıxmışdı. Birinci-üçüncü cildlərdə ən qədim dövrlərdən ərəb xilafətinin süqutuna qədərki dövrlərdə baş vermiş tarixi hadisələr əhatə edilmişdir. Dördüncü cild iki hissədən ibarətdir. Hər iki hissədə Teymurun yürüşlərindən başlayaraq, XX əsrin əvvəllərinədək cərəyan edən hadisələr işıqlandırılır. Əsər 1905–1911-ci illərin İran inqilabi hadisələrinin təsviri ilə qurtarır. Əsərdə Azərbaycan tarixinin müxtəlif dövrlərinə də toxunulmuşdur. Müəllif Rus–İran müharibələrindən bəhs edərkən göstərir ki, əgər İngiltərə və Fransanın işə qarışması olmasaydı Rusiya Azərbaycanın cənub torpaqlarını da işğal edəcəkdi. Müəllif öz əsərində Şamil hərəkatından böyük rəğbətlə bəhs etmişdir. Əsərdə İrandakı şahlıq istibdadı da pislənilmişdir.

«Fəna» təxəllüsü ilə yazıb-yaradan şair Mirzə Rəhim 1912-ci ildə «Tarixi-cədidi-Qarabağ» («Qarabağın yeni tarixi») adlı əsər yazmış, lakin onu çap etdirə bilməmişdi. Müəllif əsərdə XVIII–XIX əsrlərdə Qarabağın siyasi tarixi haqqında məlumat verirdi.

Adları çəkilən əsərlərdən başqa dövri mətbuat səhifələrində Azərbaycan tarixinə dair bir sıra məqalələr çap edilmişdi.

Rus tarixçilərinin (İ.L.Seqal, S.P.Avaliani, O.Syomin və b.) Cənubi Qafqazın aqrar və sənaye tarixinə həsr edilmiş əsərlərində Azərbaycan tarixinə də toxunulurdu.

Coğrafiya elminin müxtəlif sahələrinin öyrənilməsində fəal iştirak edən azərbaycanlıların uğurları diqqəti cəlb edirdi. Rusiya paytaxtında hərbi topoqrafiya məktəbində işləyən Məmməd Qasım Əliyev Finlandiyanın və Şimali Mancuriyanın topoqrafik-coğrafi tədqiqi ilə məşğul idi. General İbrahim Ağa Vəkilov topoqrafik xəritələrin tərtibində bütün ölkədə məşhur idi. 1904-cü ildə Hacı Şeyx Həsən Molla-

zadənin coğrafiyanın ümumi məsələlərindən bəhs edən kitabı Azərbaycan dilində çap olunmuşdu. 1910-cu ildə Qafur Rəşad Mirzəzadənin «Qafqaz coğrafiyası haqqında» əsəri, 1914–1915-ci illərdə isə Yusif Əliyev və Fərhad Ağazadənin Avropa ölkələrinə həsr edilmiş coğrafi əsərləri çap olunmuşdu.

## § 3. Mətbuat

XX əsrin əvvəllərində mətbuat və nəşriyyat işləri pis vəziyyətdə idi. Az-çox buraxılan qəzet, jurnal və kitablar poliqrafik cəhətdən yaxşı təchiz olunmamış Bakı mətbəələrində çap edilirdi. Birinci Dünya müharibəsi ərəfəsində Azərbaycanda 275 adda 200 min nüsxə kitab, onlarla jurnal və qəzet nəşr edilirdi. İnqilabi və milli-azadlıq hərəkatının yüksəlişi dövründə müxtəlif ictimai-siyasi zümrələr və partiyalar arasında məfkurə mübarizəsinin əsas meydanı mətbuat idi. Ana dili, məktəb, qadın azadlığı, milli məsələ və əsrin ortaya atdığı bir çox vacib problemlər dövri mətbuatın gündəlik müzakirəsinə çevrilmişdi.

Azərbaycanda müxtəlif vaxtlarda işıq üzü görən 390-dan çox dövri nəşrin təxminən yarıya qədərini milli mətbuat təşkil edirdi. Azərbaycan yazıçı və şairlərindən N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, C.Məmmədquluzadə, M.Sabir, Ə.Görani, Ə.Hüseynzadə, Ə.Nəzmi, M.Hadi, H.Cavid, S.Hüseyn, B.Talıblı, Y.Çəmənzəminli və onlarla başqaları mətbuat səhifələrində dövrün ictimai-siyasi hadisələrinə, mədəniyyət tarixinə dair maraqlı yazılarla çıxış edirdilər.

1901–1917-ci illərdə Azərbaycanda mətbuatı ideya istiqamətinə görə demokratik, milli burjuaziya, bolşevik mətbuatına bölürdülər. İnqilabın və milli-azadlıq hərəkatının təsiri nəticəsində senzura qismən aradan qaldırılmış və mətbuat azadlığı əldə edilmişdi.

Bolşevik məfkurəsini təbliğ edən və rus dilində çıxan «Bakinski raboçi», «Prizıv», «Qudok», «Bakinski proletari» və s. mətbuat orqanları ilə yanaşı, Azərbaycan dilində «Dəvət», «Hümmət», «Təkamül», «Yoldaş» və s. qəzet və jurnallar da nəşr edilirdi. Azərbaycan dilində çıxan bolşevik mətbuatını Ə.Axundov, Ə.Qafarzadə, N.Nərimanov, D.Bünyadzadə, T.Şahbazi, H.Sultanov və başqaları redaktə edirdilər. Həmin mətbuat səhifələrində sinfi mübarizə amilini əsas götürən marksizm ideologiyası təbliğ olunurdu. Bu, müstəmləkə vəziyyətində olan Azərbaycanda milli hərəkatın tələblərinə əsaslı cavab verə bilməzdi.

C.Məmmədquluzadə, M.Şahtaxtinski, S.Hüseyn, Ə.Faiq, Ü.Hacıbəyov və başqaları milli demokratik mətbuatımızın bünövrəsi sayılan «Əkinçi» və «Kəşkül»ün ən yaxşı ənənələrini davam etdirmək üçün yeni demokratik mətbuatın yaradılması uğrunda mübarizə aparırdılar. Bu baxımdan əsrin əvvəlində M.Şahtaxtinskinin (1848–1930) redaktorluğu ilə ana dilində nəşrə başlayan «Şərqi-rus» qəzeti ilk qəzetlərdən biri oldu. Qəzetin təcrübəsi C.Məmmədquluzadəyə və həmkarlarına yeni ideyalar verdi. Bu ideyalar daha ciddi addımlar atmaq – inqilabi-demokratik fikirlər yaya bilən, Vətən övladını intibaha və milli dirçəlişə, milli şüurun oyanmasına, özünüdərkə və qan yaddaşına qayıtmağa səsləyən bir orqan yaratmaq fikrinə saldı. Belə bir orqan inqilabi və milli-azadlıq hərəkatının təsiri ilə işıq üzü görən «Molla Nəsrəddin» jurnalı idi. C.Məmmədquluzadənin etiraf etdiyi kimi, «Molla Nəsrəddin»i təbiət özü yaratdı, zəmanə özü yaratmışdı», 1906-cı ilin aprelində işıq üzü görən jurnal 25 il fəaliyyət göstərdi. Jurnal 1917-ci ilədək Tiflisdə, sonralar isə Təbrizdə və Bakıda nəşr olunurdu. «Molla Nəsrəddin»in kəsərli silahı siyasi satira idi. Jurnal millətin oyanmasında misilsiz rol oynamışdı. Yaxın və Orta Şərqin onlarla ölkəsində özünə həmfikirlər və pərstişkarlar tapmışdı. Vətənin və millətin təəssübbünü çəkən onlarla qeyrətli ziyalı, jurnalist və yazıçı «Molla Nəsrəddin»in ətrafına toplaşmışdı. M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, R.Nəcəfov, Ö.Faiq, M.S.Ordubadi, Ə.Nəzmi və başqaları jurnalla daha yaxından əməkdaşlıq edirdilər. Jurnalın nəşrə başlaması təkcə Azərbaycanda deyil, bütün Şərqdə yüksək mədəni hadisə kimi qiymətləndirilirdi. Xalqın taleyi, müqəddəratı ilə bağlı məsələləri jurnal müntəzəm olaraq diqqət mərkəzində saxlayırdı. «Molla Nəsrəddin» jurnalı bu gün də mətbuat tariximizin ən parlaq səhifəsini təşkil edir.

Bakıda milli mətbuatın inkişafı Cənubi Azərbaycanda onun yaranmasına müsbət təsir göstərirdi. 1906–1907-ci illərdə Təbrizdə ana dilində doqquz mətbuat orqanı işıq üzü görmüşdü. Görkəmli redaktorlardan Mirzə Ələkbər xanı, S.Şəbüstəri və b. göstərmək olar. Şimali Azərbaycandan olan görkəmli xadimlərdən A.Səfərov «Azərbaycan» jurnalının, S.Hüseyn «Ədalət» və «Ana dili» qəzetlərinin redaktorları kimi geniş fəaliyyət göstərirdilər. 1910-cu ildə M.Ə.Rəsulzadə «İranenou» («Yeni İran») qəzetinin nəşrinə başlamışdı.

Azərbaycanda görkəmli redaktorlar nəsli yetişmişdi. Ana dilində çap olunan mətbuat orqanlarını M.Şahtaxtinski, Ə.Ağayev, Ə.Hüseynzadə, C.Məmmədquluzadə, H.Vəzirov, Ü.Hacıbəyov və digər görkəmli xadimlər redaktə edirdilər.

Birinci Dünya müharibəsi ərəfəsində milli-azadlıq hərəkatında yeni bir yüksəliş başlamışdı. Belə tarixi şəraitdə ictimai və milli əsarətə, sosial ədalətsizliyə, mədəni geriliyə və ictimai həyatın digər sahələrindəki həlli çətin olan problemlərə qarşı daha kəsərli söz deməyə – satirik jurnalistikaya meyil güclənmişdi. Azərbaycan ziyalılarının nümayəndələrindən M.Ə.Sabir, M.S.Ordubadi, S.Hüseyn, Ə.Nəzmi, H.Qasımov, Ə.Əzimzadə, Ə.Əliyev, C.Bünyadzadə, H.Vəzirov, Ə.Axundov, Ə.Müznib və başqaları müxtəlif illərdə nəşr olunan «Zənbur», «Babayi-Əmir», «Kəlniyyat», «Bəhlul», «Tuti» satirik jurnallarında yaxından əməkdaşlıq edirdilər.

Uşaqlar, valideynlər və maarif işçiləri arasında siyasi tərbiyə işini canlandırmaq məqsədilə qabaqcıl pedaqoqların, jurnalistlərin rəhbərliyi ilə «Dəbistan» (Ə.Cəfərzadə), «Rəhbər» (M.Mahmudbəyov), «Məktəb» (Q.R.Mirzəzadə, Ə.Əfəndizadə) jurnalları buraxıldı. Həmin jurnallarda gənclərin tərbiyəsi ilə əlaqədar faydalı fikirlər söylənilir və məsləhətlər verilirdi.

Böyük xeyriyyəçi H.Z.Tağıyev başda olmaqla, M.Muxtarov, İ.Aşurbəyov və başqalarının vəsaiti ilə onlarla qəzet və jurnal nəşr olunurdu. Sovet mətbuatında və Azərbaycan tarixşünaslığında millətçi burjua mətbuat orqanı kimi qələmə verilən bu qəzet və jurnalları Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.M.Topçubaşov, H.Vəzirov, M.Ə.Rəsulzadə və digər görkəmli ziyalılar redaktə edirdilər. Əslində pantürkist və qatı islamçı kimi təqdim olunan bu şəxslərin əsas idealı xalqın istiqlaliyyəti, azadlığı və xoşbəxtliyi uğrunda mübarizə aparmaq idi. Onların yaxından iştirakı və rəhbərliyi ilə müxtəlif illərdə nəşr olunan «Həyat», «İrşad», «Tərəqqi», «Nicat», «İşıq», «Qurtuluş», «Füyuzat», «Tazə həyat»,«Yeni Füyuzat», «Şəlalə», «İqbal», «Açıq söz» və s. qəzet və jurnal səhifələrində millətin taleyüklü problemləri müzakirə edilir, dövrün feodal geriliyi, kəndlilərin ağır həyatı təsvir olunurdu. Mədəniyyət, ədəbiyyat, dil məsələlərinə diqqət verilirdi. Bu qəzet və jurnalların səhifələrində milli şüurun oyanmasına, milli dövlətçiliyin bərpasına, bir sözlə, millətin ideologiyasının formalaşmasına çalışırdılar. Xədicə xanım Əlibəyovanın redaktor olduğu «İşıq» jurnalının bütün əməkdaşları qadınlar idi. Jurnal öz səhifələrində Azərbaycan qadınının problemlərini müzakirə edirdi. H.Zərdabi, N.Vəzirov, M.Ə.Sabir, S.Hüseyn, N.Nərimanov bir çox əsərlərini həmin jurnallarda nəşr etdirirdilər.

1915-ci ildə M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşrə başlayan «Müsavat» partiyasının «Açıq söz» qəzeti daha vacib ictimai-siyasi problemləri əks etdirirdi.

Azərbaycanda nəşriyyat işləri də qənaətbəxş deyildi. 1905-ci ildə C.Məmmədquluzadə və Ö.Faiq tərəfindən yaradılan «Qeyrət» mətbəəsi mədəniyyətin inkişafında misilsiz rol oynadı. Bundan sonra Bakıda, Gəncədə, Naxçıvanda, Şuşada, Nuxada bir sıra yeni mətbəələr yaradılmışdı. İnqilab illərində Bakı quberniyasında 15 xırda mətbəə təşkil edilmişdi. Müharibə dövründə təkcə Gəncə quberniyasında 11-dən çox mətbəə işləyirdi. Bu illərdə yalnız Bakıda fəaliyyət göstərən 35-dən çox mətbəə, kitab, jurnal və qəzet nəşrinin miqyasını artırmağa imkan verirdi.

Naşirlər Azərbaycan ziyalılarının xüsusi qrupunu təşkil edirdilər. 1905–1917-ci illərdə ana dilində milli mətbuatın və kitab nəşrinin inkişafında Orucov qardaşları, Ə.Ağayev, H.Vəzirov, İ.Aşurbəyov, Ə.Müznib, M.Mikayılov, M.Mirbağırov, M.Abdullazadə, M.Əlibəyov, M.Hacınski və digər naşirlərin misilsiz xidmətləri olmuşdur.

## § 4. Ədəbiyyat

XX əsrin əvvəllərində ictimai-siyasi həyatda baş verən hadisələr öz əksini, ilk növbədə ədəbiyyatda tapırdı. Yeni əsrin mürəkkəb tarixi şəraitini əks etdirən bu dövr ədəbiyyatı mövzu və mündəricə zənginliyi, məsələlərin genişliyi və dərinliyi baxımından yeni bir ədəbiyyat kimi, milli ədəbiyyat tarixində yüksək bir mərhələ idi.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında tənqidi realizmin bütöv yaradıcılıq metodu kimi təşəkkülü başa çatır. Tənqidi realizm, hər şeydən əvvəl, mövcud həyat tərzinə, ictimai münasibətlərə, siyasi quruluşa qarşı barışmaz bir mövqe tutması ilə səciyyələnirdi.

Tənqidi realizmi C.Məmmədquluzadəsiz (1869–1932) təsəvvür etmək mümkün deyildir. Bədii yaradıcılığa müəllimlikdən gəlmiş ədib bu dövrdə «Ölülər» (1909) pyesini, «Poçt qutusu» (1905), «Usta Zeynal» (1906), «Qurbanəli bəy» (1907) və digər klassik hekayələri ilə bədii nəsr və dram janrlarının tənqidi realizm metodunda yazılmış gözəl nümunələrini yaratmışdı. Sadə, geniş oxucu kütləsi üçün aydın bir dildə yazılan bu əsərlər bədii ümumiləşmə qüvvəsilə seçilirdi.

Şeir sahəsində tənqidi realizm ən yüksək zirvəsinə böyük xalq şairi M.Ə.Sabirin (1862–1911) simasında çatmışdır. Yeni əsrin mürəkkəb ictimai-siyasi hadisələrini bütün rəngarəngliyi və ziddiyyətləri ilə sənət dilinə çevirən şair böyük bir məktəbin – «Sabir ədəbi məktəbi»nin əsasını qoymuşdu.

Xalq mövzusu Sabirin poetik yaradıcılığında çox mühüm yer tuturdu. Doğma xalqına son dərəcə sadiq bir sənətkar kimi o, özünün ən yaxşı əsərlərini xalqa həsr etmişdi. Azərbaycan kəndinin ağır həyatı şairin əsərlərində özünün mükəmməl bədii əksini tapmışdır.

Sabir şeirinin təsir gücü və əhatə dairəsi çox geniş idi. O, təkcə vətəni Azərbaycanda deyil, həmçinin Yaxın Şərq və Mərkəzi Asiyanın bir çox ölkələrində tanınır, oxunur və sevilirdi.

Sabir ədəbi məktəbinin qüdrətli nümayəndələri M.Ə.Möcüz, Ə.Nəzmi, Ə.Qəmküsar və başqa satiriklər olmuşlar. Bu şairlər öz müəllimlərinin ənənələrini ideya-bədii cəhətdən öyrənərək davam etdirmiş, satirik şeirin gözəl nümunələrini yaratmışlar.

Tənqidi realistlərdən Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli isə başlıca olaraq nəsr və dramaturgiya sahəsində çalışmış, realist bədii ədəbiyyatın ideya-bədii keyfiyyətlərlə zənginləşməsində, dram, faciə, hekayə və roman janrlarının inkişafında böyük xidmət göstərmişlər. Ə.Haqverdiyev «Xortdanın cəhənnəm məktubları» (1907), «Marallarım» (1910) və b. əsərlərində cəhaləti, mövhumatı, tüfeyliləri acı satira atəşinə tutaraq qamçılayırdı. Y.V.Çəmənzəminlinin «Divanə» (1912), «Həyat səhifələri» (1913), «Cənnətin qəbzi» (1913) kitablarında qadın hüquqsuzluğu, satqınlıq, yalançı millətçilik və s. tənqid edilirdi.

İnqilabi-demokratik publisistikanın fəal nümayəndələrindən biri kimi Üzeyir Hacıbəyov öz məqalələrində zəhmətkeş kütlənin istismarı, ağır güzəranı, ictimai və milli zülmü və digər məsələləri kəskin şəkildə tənqid atəşinə tuturdu. O, eyni zamanda Azərbaycan dramaturgiyasını yeni surətlərlə, orijinal sənətkarlıq keyfiyyətləri ilə zənginləşdirmişdi. Onun dünya şöhrəti qazanmış «O olmasın, bu olsun» (1910), «Arşın mal alan» (1913) komediyaları, əslində o dövrün publisistikasında irəli sürülən aktual, ictimai-siyasi problemləri böyük sənətkar qələmi ilə əks etdirən klassik komediyalar idi.

XX əsrin əvvəllərində realizmin Ə.Talıbov, S.S.Axundov, S.M.Qənizadə, İ.Musabəyov, M.S.Ordubadi kimi görkəmli nümayəndələri qələmə aldıqları mövzularda həyat gerçəkliyini elm-maariflə əlaqədar şəkildə işıqlandırırdılar.

Bir neçə romanın müəllifi məşhur alim və publisist Mirzə Əbdürrəhim Talıbov Təbrizi (1834–1911) son romanı «Kitabi-Əhməd»in axırıncı cildini əsrin başlanğıcında tamamlamışdı. «Kitabi-Əhməd» maarifçilik mövqeyindən yazılmış pedaqoji roman idi. Əhməd yeni dünyanın mədəni-maarif ideyalarının müdafiəçisi kimi çıxış edirdi,

əsərdə mütləqiyyət quruluşunun kəskin tənqidi islahatçılıq mahiyyəti daşıyırdı.

Şimali Azərbaycanda da roman janrına ilk dəfə, əsasən maarifçi-realistlər müraciət etmişdilər. Bu dövrdə M.S.Ordubadinin «Bədbəxt milyonçu...» (1907), İ.Musabəyovun «Neft və milyonlar səltənətində», A.Səhhətin «Əli və Aişə» romanları yazılıb nəşr olunmuşdu. Bu əsərlər milli romanın ilk nümunələri kimi çox qiymətli idi və ədəbi prosesə öz müsbət təsirini də göstərmişdi.

O dövr ədəbi cərəyanlarından biri də mütərəqqi romantizm idi. Bu cərəyanın ideya-bədii prinsipləri realizm ilə bəzi nöqtələrdə yaxınlaşırdı. Ədəbiyyatın bu iki cərəyanı heç də bir-birini rədd etmir, yanaşı yaşayır və ədəbi prosesdə qabaqcıl rol oynayırdı. Mütərəqqi romantizmin M.Hadi (1879—1920), H.Cavid (1882–1941), A.Səhhət (1874–1918), A.Şaiq (1881–1959), A.S.Divanbəyoğlu (1883–1936) kimi nümayəndələri çarizmə və onun müstəmləkəçilik siyasətinə qarşı mübarizəni əks etdirən, Cənubi Azərbaycanı xilas etməyə çağıran, milli mədəniyyətin tərəqqisini təbliğ edən klassik sənət əsərləri yaratmaqla böyük iş görmüşdülər.

Romantizmin əsasını qoyanlardan biri olan Məhəmməd Hadi öz şeirlərində Vətənin azadlığını tərənnüm edir, xalqını mədəni xalqlar səviyyəsinə ucaltmaq həsrəti ilə yanıb-yaxılırdı.

Romantizmin səciyyəvi xüsusiyyətlərini öz zəngin yaradıcılığında əks etdirən H.Cavid dram janrına daha çox meyil edirdi. Onu narahat edən dövrün ictimai-fəlsəfi problemləri «Ana» (1910), «Maral» (1912), «Şeyx Sənan» (1914) kimi əsərlərində qoyulurdu. Şair bu və digər pyeslərində mürəkkəb və dərin həyati səhnələri əks etdirir, problemlərin qoyuluşu və onların bədii həllində romantik tünd boyalardan istifadə edirdi.

Abbas Səhhət ilə Abdulla Şaiq öz yaradıcılıq xüsusiyyətlərinə görə bir-birinə daha yaxın sənətkarlar idi. Realist ədəbiyyata güclü meyil göstərən, əsərlərində maarif, mədəniyyət, təlim-tərbiyə, əxlaq məsələlərini ön plana çəkən hər iki yazıçı maarifçi romantiklər sırasında gedirdilər. A.Səhhət «Yad et» (1908), «Tərcümeyi-halım» (1912), «Oxucularıma» (1912) şeirlərində yüksək amallarla yaşayan, lakin bu amallara çatmağın yollarını ayırd edə bilməyib fikirləşən, ziddiyyətli, mütərəddid hallar keçirən ziyalıların əhvali-ruhiyyəsini əks etdirmişdi. Səhhət yaradıcılığının zirvəsi sayılan «Şair, şeir pərisi və şəhərli» (1916) poeması şairin romantikasının yüksək zirvəsi idi, onun qüdrətli qələm sahibi kimi yüksəldiyini göstərirdi.

Bütün yaradıcılq təbiəti ilə romantik olan A.Şaiq «Köç» (1908), «Bədbəxt ailə» (1913), «İblisin hüzurunda» (1914) hekayələrində, eləcə də, «Şair və qadın» (1911), «İdeal və insanlıq» (1914) və başqa şeirlərində kənd həyatının təsviri, romantik şairin keçirdiyi daxili böhran onun köhnə dünyanın haqsızlıqları ilə barışmadığının, gələcəyə böyük ümidlə baxdığını nümayiş etdirirdi. İnsan və onun tarixi faciəsi Şaiq sənətinin mərkəzi mövzusu idi.

A.S.Divanbəyoğlu «Can yanğısı»nda (1910) sevgi, ailə-məişət məsələləri, şəhərlərdə yaranmış ədalətsizliklərə nifrət, kənd həyatına məhəbbət tərənnüm olunurdu. Ədib iki sevgilinin faciəli aqibətinə səbəb olan cəmiyyəti qamçılayır, insanı hər cür əsarətdən azad olmağa səsləyirdi.

Azərbaycan romantikləri öz əməl və çağırışlarında ardıcıl ola bilmirdilər, mövcud cəmiyyətin ictimai bəlaları ilə axıra qədər mübarizə aparmaq yollarını seçməkdə çətinlik çəkirdilər, bu bəlaları törədən səbəbləri müəyyən edə bilmədiklərinə görə bəzən, hətta küskünlüyə qapılırdılar. Onlar gələcəyə necə və hansı qüvvələrlə getməyi aydın təsəvvür edə bilmədiklərinə görə, onların gələcək haqqındakı təsəvvürləri də utopiya olaraq qalırdı.

XX əsrin əvvəllərində, maarifin yayılmasına, təlim-tərbiyə işlərinin yaxşılaşmasına olan böyük ehtiyac uşaqlar üçün ayrıca əsərlər yazmaq zərurəti doğurmuşdu. O dövrdə çap olunan «Dəbistan», «Rəhbər» və «Məktəb» jurnalları yenicə başlayan ədəbi prosesə xeyli kömək etmişdi. Bu prosesin bilavasitə təsiri ilə az sonra M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, S.S.Axundov, S.M.Qənizadə kimi yazıçılar uşaqlar üçün müxtəlif janrlarda əsərlər yazmağa başladılar. Azərbaycan uşaq ədəbiyyatının klassik nümunələri məhz bu dövrdə yaranmış və yeniyetmələrin tərbiyəsinə güclü təsir göstərmişdir.

Bu dövrdə Azərbaycan şifahi xalq ədəbiyyatında vətənpərvərlik, xalqın öz azadlığı və xoşbəxtliyi uğrunda mübarizə motivləri daha da güclənmişdi. Məhəbbət dastanlarında ülvi sevgi, qəhrəmanlıq dastanlarında isə xalqın zülmə, istibdada qarşı üsyankar etirazları aparıcı – ana xətti təşkil edirdi.

XX əsrin əvvəllərində aşıq şeirində də canlanma müşahidə edilirdi. Klassik aşıq şeiri ilə yanaşı, bir sıra yeni formalar yaranır, məzmun təzələnir, tənqid obyektləri konkretləşir, ictimai-siyasi motivlər güclənir, hətta açıq siyasi mübarizə səciyyəli şeirlər də yaranırdı. Çoban Əfqan (1886–1924), Aşıq Əsəd (1874–1951), Aşıq Hüseyn Bozalqanlı

(1860–1941), Xəyyat Mirzə (1885–1920) kimi aşıq və el şairlərinin yaradıcılığı daha maraqlıdır.

Xalqın başına gətirilən min-bir müsibəti 1914-cü ildə «Görünmür» rədifli şeirində Çoban Əfqan belə təsvir etmişdi:

*Bu necə əyyamdı, necə zamandı?*
*Ürəklər qan ağlar, Allah, amandı!*
*İşləyən rəiyyət, kef çəkən xandı,*
*Ağlayana bir inayət görünmür.*

Dədə Ələsgərin böyük aşıq məktəbinin onlarla yetirməsi də öz yaradıcılığı ilə bu sənəti daha da zənginləşdirirdi.

Bu dövrdə şifahi xalq ədəbiyyatı nümunələrinin toplanılması, öyrənilməsi və onların dərsliklərə salınması geniş miqyas almışdı. Bu işdə F.Köçərli, S.Hüseyn, A.Şaiq, M.Mahmudbəyov, R.Əfəndiyev, Y.V.Çəmənzəminli və başqalarının xidmətləri misilsizdir.

Azərbaycan ədəbiyyatının ayrılmaz hissəsi olan ədəbi tənqid də ölkənin ictimai-siyasi və ədəbi həyatında baş verən hadisələrdən, fikri ixtilaf və mübarizələrdən kənarda qalmamışdı. Demokratik tənqid əsrin ən kütləvi tənqidi cərəyanı idi. Bu cərəyanın Firidun bəy Köçərli (1863–1920), Seyid Hüseyn (1887–1938), Eynəli bəy Sultanov (1862–1935), Hüseyn Minasazov (1881–1932), Əli bəy Hüseynzadə (1864–1940), Əhməd bəy Ağayev (1869–1939), Əlimərdan bəy Topçubaşov (1863–1934) kimi nümayəndələri milli ədəbiyyatın ənənələrini müdafiə edir, ictimai-siyasi və elmi-nəzəri məsələlərin işıqlandırılmasında xalqın, millətin mənafeyini ön plana çəkirdilər. Ə.Hüseynzadə öz mətbuat orqanlarında Azərbaycan şair və yazıçılarının əsərlərini çap etdirir və onları yüksək qiymətləndirirdi. Ə.Ağayev dünya ədəbiyyatı korifeylərinin yaradıcılığına yüksək qiymət verməklə bərabər qızğın publisistik fəaliyyət göstərir, Azərbaycan ədəbiyyatının spesifik xüsusiyyətlərinin müəyyənləşdirilməsində, bilavasitə ədəbi proseslərin ehtiyaclarının göstərilməsində fəal iştirak edirdi.

## § 5. İncəsənət

Əsrin əvvəllərində milli hərəkatın genişləndiyi şəraitdə aktyorların yaradıcı birlikləri yaranmağa başladı. 1904-cü ildə «Müsəlman artistləri cəmiyyəti» təşkil edildi. «Nicat», «Səfa», «Nəşri-maarif» kimi xeyriyyə cəmiyyətlərinin nəzdində teatr qrupları və şöbələri meydana gəldi. 1914-cü ildə Cahangir Zeynalov «Səfa» cəmiyyəti nəzdindəki teatr qrupunun rəhbəri oldu. Bakıdakı teatr qruplarında fəaliyyətə başlayan C.Zeynalov, H.Ərəblinski, C.Hacınski, A.Rzayev, M.A.Əliyev, S.Ruhulla, H.Sarabski və başqaları sonralar Azərbaycan milli teatrının ən parlaq ulduzları səviyyəsinə yüksəldilər.

Hüseyn Ərəblinski (1881–1919) «Balaxanı dram dərnəyi»nin rejissoru kimi ilyarım ərzində 140 tamaşa göstərmişdi. O, bir sıra ölməz surətlər yaratmışdı. Teatrın inkişafında böyük xidmətləri olmuş H.Ərəblinski 1916-cı ildə C.Məmmədquluzadənin «Ölülər» pyesi tamaşasının rejissoru olmuş və həmin ildə «Neft və milyonlar səltənətində» adlı ilk Azərbaycan filminin yaradılmasında yaxından iştirak etmişdi.

«Azərbaycan səhnəsinin zinəti» adlandırılan H.Sarabski (1879– 1945), həmçinin Sidqi Ruhulla (1886–1959), Mirzəağa Əliyev (1883– 1954) bir sıra parlaq səhnə obrazları yaratmışdılar. Azərbaycan teatrlarının repertuarında mərkəzi yeri Azərbaycan dramaturqlarının (N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə və b.) əsərləri tuturdu. Bununla bərabər, Avropa klassiklərinin, xüsusən Şillerin «Qaçaqlar»ı, Şekspirin «Otello»su və s. tamaşaya qoyulurdu.

Tez-tez qəzalara qastrola gedən Bakı artistlərinin köməyi ilə Gəncədə, Naxçıvanda, Şuşada, Nuxada, Lənkəranda və digər şəhərlərdə teatr həvəskarları yetişir, onlar da dram əsərlərini tamaşaya qoyurdular.

Azərbaycan artistləri qonşu ölkələrdə, xüsusilə Mərkəzi Asiyada qastrol səfərlərində olur, tamaşalar göstərirlər. 1915-ci ildə Əhməd Qəmərlinskinin qrupu Aşqabadda Ü.Hacıbəyovun «Məşədi İbad» operettasını göstərmişdi.

1909-cu ildə S.Ruhulla, C.Zeynalov və H.Ərəblinskinin yaxından köməyi ilə Təbrizdə teatr təşkil edildi. Uzun illər Təbriz aktyorları Azərbaycan Teatrının yolunu davam etdirmişdilər. İlk azərbaycanlı aktrisalardan Göyərçin xanım Əliyeva Ü.Hacıbəyovun qəhrəmanlarının rolunda çıxış etmişdi.

1912-ci ildən səhnə fəaliyyətinə başlamış Ş.Məmmədova bu cəsarətli addıma görə təqiblərə məruz qalsa da sənətə olan sonsuz məhəb-

bəti onu seçdiyi yoldan döndərə bilmədi. Ona qədər qadın rollarında kişilər çıxış edirdilər. Adları çəkilən böyük sənətkarların yaratdığı məktəb çoxlarını həvəsə gətirmişdi. Həvəskar aktyorların ifasında tez-tez dram əsərləri tamaşaya qoyulurdu. 1917-ci ildə «Müsəlman artistləri cəmiyyəti»nin köməkliyi ilə Naxçıvanda «El güzgüsü» adlı yerli teatr cəmiyyəti yaradıldı. Tamaşaların əksəriyyətinə R.Təhmasib rəhbərlik edirdi.

İncəsənətin başqa sahələrində olduğu kimi, əhali arasında musiqiyə daha böyük maraq vardı. Musiqi mədəniyyəti abidələrinin toplanması, nəşri və yayılması sahəsində ilk addımlar atılırdı. Əsrin başlanğıcında H.Zərdabi tərəfindən «Türk nəğmələri məcmuəsi» nəşr olunmuşdu. M.M.Nəvvab 1913-cü ildə Bakıda muğamlara həsr etdiyi «Vüzuhəl-ərqam» («Rəqəmlərin şərhi») adlı kitabını çap etdirdi.

Ü.Hacıbəyov, M.Maqomayev, Z.Hacıbəyov, C.Qaryağdı oğlu, H.Sarabski, Q.Pirimov və b. milli musiqimizin inkişafında və zənginləşməsində, musiqi irsinin təbliğində böyük xidmətlər göstərmişlər. Görkəmli bəstəkar, milli opera sənətimizin banisi Ü.Hacıbəyovun (1885–1948) xidməti, xüsusilə təqdirəlayiqdir. 1908-ci il yanvarın 12-də «Leyli və Məcnun» operası ilk dəfə tamaşaya qoyuldu. Məcnun rolunda H.Sarabski, Leyli rolunda Ə.Fərəcov çıxış etdi. Sonralar Leyli rolunu böyük istedada malik olan Əhməd Ağdamski oynamışdı. Böyük mədəni hadisəyə çevrilən «Leyli və Məcnun» operasından sonra Ü.Hacıbəyov bir-birinin ardınca «Şeyx Sənan», «Rüstəm və Söhrab», «Əsli və Kərəm», «Şah Abbas və Xurşid Banu», «Harun və Leyla» operalarını yaratdı.

Azərbaycanda musiqili komediyaların da banisi ölməz sənətkarımız Ü.Hacıbəyovdur, «Ər və arvad», «O olmasın, bu olsun», «Arşın mal alan» komediyalarının tamaşaya qoyulması teatr sənətimizi zənginləşdirməklə yanaşı, müəllifə dünya şöhrəti qazandırdı.

M.Maqomayevin (1885–1937) 1916-cı ildə tamaşaya qoyulan «Şah İsmayıl» operası tamaşaçıların hədsiz marağına səbəb oldu və musiqi sənətimizin qızıl fonduna daxil edildi.

Zülfüqar Hacıbəyov (1884–1950) «Evlikən subay», «Əlli yaşında cavan» musiqili komediyaları və «Aşıq Qərib» operası ilə musiqi sənətimizə yeni qiymətli töhfələr verdi.

Azərbaycanda və onun hüdudlarından uzaqlarda ad-san qazanmış xanəndələrdən Hacı Hüsü, Cabbar Qaryağdı oğlu, İslam Abdullayev, Əbdülbağı Zülalov, Məmməd Fərzəliyev, Məcid Behbudov, Keçəçi

Məmməd, sonralar isə Seyid Şuşinski, nuxalı Ə.Əbdullayev və başqaları musiqi tarixində ədəbi izlər qoymuşlar.

Mətbuatın və teatr sənətinin inkişafı təsviri incəsənətə müsbət təsir göstərirdi. Bu sənətin nümayəndələri – rəssamlar o zaman jurnalların və teatrların ətrafına toplaşmışdılar. Satirik qrafikanın inkişafında böyük rol oynayan Əzim Əzimzadə (1880–1943) 20 ildən artıq «Molla Nəsrəddin» jurnalında əməkdaşlıq etmişdi. 1914-cü ildə M.Ə.Sabirin «Hophopnamə»sinə çəkdiyi illüstrasiyalar onun şöhrətini daha da artırmışdı.

Bəhruz Kəngərli (1892–1922) xüsusi rəssamlıq təhsili almış peşəkar rəssam idi. Çox cavankən dünyasını dəyişməsinə baxmayaraq, 300-dən artıq şəkil və karikatura yaratmışdı. «Yatmış uşaqlar» əsəri böyük marağa səbəb olmuşdu. Naxçıvanda qoyulmuş teatr tamaşalarının bədii tərtibatının çoxunu B.Kəngərli vermişdi.

Tətbiqi incəsənət özünü daha çox xalçaçılıqda göstərməkdə idi. Şuşalı Səfər, şamaxılı Əliqulu, salyanlı Məcid və digərlərinin hazırladığı müxtəlif milli ornamentli və naxışlı şəkillər əsasında toxunan xalçalar dünya muzeylərinin bəzəyinə və qiymətli eksponatına çevrilmişdi.

Sürətlə inkişaf edən kapitalist şəhəri Bakıda XIX əsrin 90-cı illərində başlanmış tikinti memarlıq işləri XX əsrin əvvəllərində də davam etdirilirdi. Nadir memarlıq üslubunda tikilmiş əzəmətli abidələr, yaraşıqlı yaşayış binaları şəhərə gözəllik bəxş edirdi. Tək Bakıda deyil, onun ətrafında da varlılar bir-birindən gözəl yaşayış binaları inşa etdirmişdilər.

Şəhərlərin ümumi inkişafı ilə əlaqədar Azərbaycanın digər şəhərlərində də tikinti-abadlıq işləri geniş vüsət almışdı. Gəncədə, Nuxada, Qubada, Şamaxıda, Şuşada, Lənkəranda yeni binaların tikintisi genişlənmişdi. Görülən bütün bu işlər həmin şəhərlərin memarlıq görkəmini xeyli dəyişdirmişdi.

## VII FƏSİL

## 1918-ci İLİN YAZINDA VƏ YAYINDA AZƏRBAYCANDA VƏZİYYƏT

### § 1. Bakı Soveti və onun xalqa zidd siyasəti

1917-ci ilin Oktyabr çevrilişi Azərbaycan türklərinin rus inqilabına olan ümidini qırdı. İlk günlər bolşeviklərin təntənəli bəyanatlarla çıxış etməsinə baxmayaraq, Oktyabr çevrilişi rus müstəmləkəçiliyinə yeni təkan verdi. Tezliklə aydın oldu ki, sülh haqqında dekret, Rusiya xalqlarının hüquq bəyannaməsi, Rusiyanın və Şərqin müsəlman zəhmətkeşlərinə müraciəti real əməli məqsədlərdən uzaq olub, daha çox təbliğatı məzmuna malikdir.

Bolşeviklərin Petroqradda hakimiyyəti ələ alması Azərbaycanda, xüsusilə Bakıda onların fəallaşmasına səbəb oldu. Lakin Rusiya mərkəzlərindən fərqli olaraq, Azərbaycanda bolşeviklərin sosial bazası çox zəif idi. Xüsusilə yerli əhali arasında onların nüfuzu aşağı idi. Bunu Oktyabr çevrilişi ərəfəsində Bakı Sovetinə keçirilən seçkilər əyani şəkildə sübut edirdi. Oktyabrın 22-də keçirilən seçkilərdə bolşeviklər, vəziyyətin onlar üçün əlverişli olmasına baxmayaraq, 3770 səs almışdılar ki, bunun da 2600-dan çoxu Bakı qarnizonunun payına düşürdü. Halbuki seçkilərdə ilk dəfə iştirak edən «Müsavat» partiyası 25 min seçicidən 10 mininin – yəni 40% səsini ala bilmişdi. Təkcə Azərbaycan ziyalıları deyil, Bakı sənayesində çalışan azərbaycanlı fəhlələr də öz səslərini milli ideyanın daşıyıcısı olan «Müsavat» partiyasına vermişdi. Bu dövrdə müsavatçılar nəinki ümummilli mənafeyi uğurla təmsil edən, eyni zamanda Azərbaycan fəhlə demokratiyasına da rəhbərlik edən milli demokratik partiyaya çevrilmişdi. Oktyabr seçkiləri Azərbaycan milli hərəkatının geniş vüsət aldığını əməli şəkildə nümayiş etdirdi. Petroqraddakı Oktyabr hadisələrinin astanasında Bakıda siyasi qüvvələrin nisbətini Bakı Sovetinə keçirilən seçkilər aydın nümayiş etdirdi. Müsavatçıların qələbəsi təkcə bolşevikləri deyil, eser, menşe-

vik və daşnakları da bərk narahat etməyə başladı. Oktyabrın 24-də bolşeviklər partiyasının Bakı komitəsi özü üçün əlverişli olmayan seçkilərin nəticəsini saxta bəhanələrlə ləğv etdi. Lakin Müsavat və digər demokratik partiyalar Bakı Sovetinə daxil olmayacaqlarını bildirdikdə, təbii olaraq Sovetdə vəziyyət bolşeviklərin xeyrinə dəyişdi. Nəticə etibarilə Sovetdə 84 sol eser, 6 menşevik beynəlmiləlçi, 15 daşnak, 31 bolşevik, 52 tərəddüd edən və 15 müstəqil nümayəndə qaldı. Belə vəziyyətdə Sovetdə qalan nümayəndələr, əsasən bolşeviklərdən və sol eserlərdən ibarət icraiyyə komitəsi seçdilər və hadisələrin sonrakı gedişinə ciddi təsir göstərən Qırmızı Qvardiya yaratdılar.

Oktyabr çevrilişi haqqında xəbər Bakıya ayın 26-da çatdı. Bakıda bolşeviklər oktyabrın 26 və 27-də keçirilən iclaslarda bütün hakimiyyətin Bakı Sovetinə verilməsinə, Petroqraddakı hadisələrin müdafiə edilməsinə və Xalq Komissarları Sovetinin tanınmasına nail ola bilmədilər.

Əksinə, Bakı fəhlə və əsgər deputatları sovetinin iclasında «bolşeviklərin Petroqradda başladıqları üsyanı ləğv etmək» və «demokratik hakimiyyət» yaratmaq haqqında qətnamə qəbul edildi. Lakin oktyabrın 31-də bolşeviklər Bakı Sovetinin yeni iclasının çağırılmasına nail oldular, onlara tərəfdar olan bir sıra mədən-zavod komissiyaları, polk, batalyon, rota və gəmi komitələri nümayəndələrini bu iclasa çağıraraq hakimiyyəti ələ almaq barədə qətnamə qəbul etdilər. Noyabrın 2-də isə həmin tərkibdə Bakı Sovetinin konfransını çağırıb Bakıda Sovet hakimiyyəti elan etdilər. İcraiyyə komitəsinin sədri vəzifəsinə S.G.Şaumyan seçildi. Yəni vaxtilə, 1917-ci ilin mart ayında S.Şaumyan öz yerini eserlərin lideri Sako Saakyana verdiyi kimi, bu dəfə də əksinə oldu. Beləliklə, Bakı qarnizonunda olan rus və erməni əsgərlərinə arxalanaraq bolşeviklər hakimiyyəti ələ keçirməyə başladılar.

Cənubi Qafqazda öz hakimiyyətini quracağına ümid bəsləyən bolşeviklərin «Rusiya xalqlarının hüquq bəyannaməsi», «Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə» müraciət kimi sənədlərində irəli sürülən xalqların öz müqəddəratını təyin etmək hüququ Azərbaycan türklərinə aid edilmirdi. 1917-ci ilin noyabrında tərkibində Azərbaycan türklərinin də təmsil edildiyi Cənubi Qafqaz komissarlığı təsis edildikdə Bakı onun səlahiyyətindən kənarda qalan yeganə şəhər idi. S.Şaumyan başda olmaqla bolşeviklər sözdə muxtariyyətin əleyhinə olmasalar da, işdə bunu inkar etmək üçün müxtəlif bəhanələrə əl atırdılar. O, muxtariyyət məsələsini hakimiyyət məsələsi ilə əlaqələndirirdi. Öz çıxışlarında o qeyd edirdi ki, indiki ağır şəraitdə Azərbaycan

türkləri arasında muxtariyyətin elan edilməsi hakimiyyəti «Müsavat» partiyasına verməyin başlanğıcı olardı.

1917-ci ilin dekabrında Xalq Komissarları Soveti Cənubi Qafqazdakı vəziyyəti müzakirə edib İ.Stalinin təklifi üzrə S.Şaumyanı dekabrın 16-da Qafqazın fövqəladə komissarı təyin etdi. İki gün sonra V.İ.Leninin imzası ilə ona 500 min manat pul ayrılması barədə sərəncam verildi.

Lakin bolşeviklərin cidd-cəhdlərinə baxmayaraq, onlar Bakının idarə olunması işini ələ ala bilmədilər. Şəhər duması və müxtəlif milli şuralar Bakının həyatında aparıcı rola malik idilər. Müsəlman ictimai cəmiyyətləri şurası şəhərin azərbaycanlı əhalisinin qayğıları, milli partiyaların möhkəmlənməsi, müsəlman əhalisinin təhlükəsizliyinin müdafiəsi ilə bağlı bir sıra faydalı işlər görmüşdü. Şəhər duması isə maliyyə işlərinə rəhbərlik edir, kağız pullar buraxır və şəhər nəqliyyatını öz ixtiyarında saxlayırdı.

Cənubi Qafqaz hökumətindəki Azərbaycan nümayəndələri, komissarlıqdakı milli müsəlman fraksiyası elə ilk gündən Bakının bolşeviklərdən təmizlənməsi uğrunda mübarizəyə başlamışdılar. Lakin Bakı «bolşevikləri» Cənubi Qafqaz komissarlığında oturan erməni daşnakları və bir sıra sol partiyaların nümayəndələri ilə gizli əlaqədə olduqlarından bu mübarizənin güclü effekti olmadı.

Noyabr ayının axırında Məclisi Müəssisana keçirilən seçkilər milli partiyaların nüfuzunun xeyli artdığını nümayiş etdirdi. Bu seçkilərdə gürcü menşevikləri 11, müsavatçılar 10, daşnaklar 9, müsəlman sosialist bloku və ittihadçılar 3 yer əldə etdikləri halda, bolşeviklər Bakı dairəsinin hesabına cəmisi 1 yer ala bilmişdilər. Seçkilərin gedişi göstərdi ki, Azərbaycan əhalisinin əksəriyyəti «Müsavat» partiyasının arxasınca gedir. Belə olduqda bolşeviklər Cənubi Qafqazda sovet hakimiyyəti qurmaq fikrindən daşınıb daşnaklarla və digər sağ partiyalarla əməkdaşlıq əsasında Bakıda möhkəmlənməyi üstün tutdular.

Bu məqsədlə bolşeviklər yeni seçki qanunu qəbul edib 1917-ci ilin dekabrında Bakı Sovetinə yeni seçkilər keçirdilər. Azərbaycan milli şura və cəmiyyətlərinin təqibi şəraitində keçən seçkilərdə 190 deputat yerindən 51-ni bolşeviklər, 41-ni isə daşnaklar əldə etdilər. Bakı Sovetinin icraiyyə orqanının yaradılması ilə bağlı S.Şaumyan təklif verdi ki, yalnız Sovet hakimiyyətini müdafiə edən partiyaların nümayəndələri icraiyyə orqanına daxil olacaqdır. Sağ eserlər və daşnaklar bu təkliflə razı olduqlarını bildirdilər. Bununla da Bakı Sovetində gah gizli, gah

açıq şəkildə özünü göstərən bolşevik-daşnak ittifaqı rəsmi xarakter almağa başladı. Dekabr ayının 31-də keçirilən iclasdakı çıxışında M.Ə.Rəsulzadə bu oyunun əsl mahiyyətini ifşa etdi və «Müsavat» partiyasının antiazərbaycan yuvasına çevrilən icraiyyə komitəsinə girməyəcəyini bildirdi

1917-ci ilin axırlarından etibarən hakimiyyət məsələsini qəti həll etmək üçün bolşeviklər Bakıda hərbi cəhətdən möhkəmlənməyə başladılar. Dekabrın 5-də imzalanmış Ərzincan barışığından sonra Qafqaz cəbhəsindən Rusiyaya qayıdan rus əsgərləri bolşeviklərin fitnəsi ilə öz yollarını Bakıdan salır və onlar keçdikləri yol boyu Azərbaycan kəndlərini talan edir, aclıq və səfalət içərisində olduqlarından Bakı sovetinin xidmətində qalmağı üstün tuturdular.

Digər tərəfdən isə cəbhədən qayıdan rus ordusu öz silah və hərbi sursatını erməni və gürcülərə, Bakı bolşeviklərinə verdiyindən Azərbaycan əhalisi silahlı düşmən qarşısında əliyalın qalmışdı. Belə vəziyyətdə Cənubi Qafqaz komissarlığındakı Azərbaycan fraksiyası bərabər silahlanmaq tələbini irəli sürdükdə hökumət geri qayıdan rus polklarından birinin tərksilah edilib silahlarının azərbaycanlılara verilməsinə razılıq verdi. Buna uyğun olaraq, 1918-ci ilin yanvarında Şamxor stansiyasından keçən rus polku tərksilah edildi. Hər iki tərəfdən ölən və yaralanan olsa da bu əməliyyat Azərbaycan əhalisi üçün zəruri addım idi.

S.Şaumyan başda olmaqla bolşeviklər bu hadisədən milli qırğın törətmək və Azərbaycan türklərinə divan tutmaq üçün istifadə etməyə cəhd göstərdilər. Lakin bu təxribat baş tutmadı.

Bolşeviklər və ermənilər Bakıda hərbi cəhətdən möhkəmlənmək üçün daha bir addım atdılar. 1917-ci ilin dekabrında Qafqaz ordusunun II diyar qurultayında Q.N.Korqanovun başçılığı ilə yaradılmış hərbi inqilabi komitə Tiflisdən çıxarıldıqdan sonra Bakıya gətirildi.

1918-ci il yanvarın axırlarında Qırmızı Qvardiya və donanmanın Bakı sovetinə tabe edilməsi haqqında qərar qəbul edildi. Ter-Stepanov, Afanasyev, Mirzoyan və Trexovdan ibarət Qırmızı Qvardiya qərargahı yaradıldı. Martın əvvəllərində isə milis dəstələri Bakı sovetinin ixtiyarına keçdi və S.Ter-Qabrielyan şəhər idarəsinin rəisi təyin edildi.

Mart ayının 3-də S.Şaumyan İ.Stalinə yazdığı ilk məktubunda Bakının sürətlə hərbiləşməsi üçün vəsait göndərilməsi, Qafqaz ordusu hərbi inqilab komitəsinin Bakıda mərkəzləşməsi, hərbi donanmanın yenidən təşkilinə başlanmasını zəruri hesab edirdi. Daşnak hərbi hissələrini daha da silahlandırmaq üçün o belə yazırdı: «Daşnaklar üçün top

məsələsini, xahiş edirəm elə rəsmiləşdirəsiniz ki, məsələnin qəti həlli burada məndən asılı olsun. Biz isə şəraitə uyğun burada həll edirik». Bakıda mart hadisələri ərəfəsində Dünya müharibəsi cəbhələrindən qayıdan 8 min silahlı erməni toplanmışdı. Böyük maliyyə imkanlarına malik olan Daşnak partiyası cəbhədən fərarilik edən rus əsgərlərindən külli miqdarda silah almışdı. Bundan əlavə, Qafqaz cəbhəsindən və İrandan qayıdan rus əsgərlərinin də bir hissəsi müxtəlif bəhanələrlə aldadılaraq Bakıda saxlanılmışdı. Nəticədə mart hadisələri ərəfəsində Bakıda düşmən 20 minlik silahlı qüvvə toplamışdı. Bakı qanlı günlər ərəfəsində idi.

**Azərbaycanda türk-müsəlman soyqırımı**

Bakıda bolşeviklərin və erməni partiyalarının ən güclü rəqibi müsavatçılar idi. Müsavatçıların ərazi muxtariyyəti uğrunda mübarizəsi və onların müsəlman əhalisi arasında nüfuzunun artması Bakı sovetini bərk narahat edirdi. 1917-ci ilin oktyabr ayında keçirilən birinci qurultay «Müsavat» partiyasının təşkilatlanmasında böyük rol oynamışdı. Partiyanın yeni proqramının qəbul edilməsi milliyyətçilik ideyasının inkişafına böyük təkan vermişdi. Təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda Müsavatın nüfuzunun artmasından qorxuya düşən S.Şaumyan yazırdı ki, ilk başlanğıcda Cənubi Qafqazda ən zəif partiya olan «Müsavat» inqilabın başlanğıcında heç bir təşkilata, partiya ənənələrinə və hakimiyyətə malik olmadığı halda, inqilabın ikinci ilinin başlanğıcında bu regionda ən güclü siyasi partiyaya çevrilmişdi. Mart qırğınını törətməklə bolşeviklər Bakıda müsavatçıların sosial bazasını məhv etməyə nail olmaq ümidində idilər. Belə bir şəraitdə Bakı soveti əlverişli məqamın yetişdiyini dəqiqləşdirib fəaliyyətə başladı. Martın 15-də Bakı sovetinin iclasında «Cənubi Qafqazda işlərin vəziyyəti» mövzusunda məruzə edən S.Şaumyan əslində türk-müsəlman soyqırımına başlamağa «xeyir-dua» verdi.

Hələ 1918-ci ilin yanvarında Bakıya gəlmiş müsəlman korpusunun komandanı general Talışinskinin həbs edilməsi şəhərin müsəlman əhalisinin həyəcanına səbəb oldu. Bu təxribatdan istifadə edərək ermənilər müsəlmanları bolşeviklərə və ermənilərə qarşı silahlı üsyana təhrik etməyə çalışırdılar. Lakin məscidlərdə keçirilən mitinq və yığıncaqlarda çıxış edən azərbaycanlı ziyalılar müsəlman əhalisini sakitliyə, sıxıntı və zorakılığa dözməyə çağırırdılar. Natiqlər xalqa başa salırdılar ki, ermənilər öz məqsədlərinə nail olmaq üçün xırda təxribatlar törətməklə müsəlman əhalisini qırğına sürükləyirlər. Öz növbəsində onlar bolşevikləri, Bakıda olan xristian əsgər və matrosları da yerli əhaliyə qarşı qızışdırır, barışıq üçün mümkün olan bütün yolları bağlayırdılar.

Martın 24-də Lənkərana yola düşmək ərəfəsində şəxsi heyəti müsəlmanlardan olan «Evelina» gəmisinin bolşeviklər tərəfindən tərkisilah edilməsi əhalinin səbr kasasını daşdıran son damla oldu. Bu hadisəyə cavab olaraq şəhər məscidlərində toplanan müsəlman əhalisi sovet tərəfindən müsadirə edilmiş silahların qaytarılmasını tələb etdilər. Bolşeviklər bu tələbin ödəniləcəyinə vəd verdilər. Lakin bunun əksinə olaraq martın 30-da qarşıdakı döyüşlərə rəhbərlik etmək üçün Bakı Sovetinin inqilabi müdafiə komitəsini yaratdılar. Komitəyə S.Şaumyan, A.Çaparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan, M.Yolçiyan daxil oldular. N.Nərimanov da qiyabi şəkildə bura daxil edilmişdi. Martın 30-da M.Ə.Rəsulzadə Azərbaycan diviziyasından alınmış silahları «Hümmət» komitəsi vasitəsilə geri qaytarmağa cəhd göstərsə də, bu bir nəticə vermədi. Həmin gün müsəlman xeyriyyə cəmiyyətinin binası «İsmailiyyə»də azərbaycanlıların yığıncağı keçirilərkən Bakı şəhərinin keçmiş rəisi Qaik Ter-Mikaelyans iclasa gələrək Erməni Milli Şurası və «Daşnaksütyun» partiyası adından bildirdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər onlara qoşulacaq və bolşevikləri Bakıdan qovmaqda kömək edəcəklər. Az sonra məlum oldu ki, bu bolşeviklərlə əlbir fəaliyyət göstərən ermənilərin növbəti fitnəsi imiş.

Martın 30-da axşam saat 5-də Bakıda ilk atəşlər açıldı. Mart qırğını başlanana qədər özlərinin bitərəfliyini elan etmiş daşnaksütyun və Erməni milli şurası S.Şaumyan başda olmaqla Bakı Sovetini müdafiə etdi. Nəinki silahlı erməni əsgərləri, habelə Bakıdakı erməni ziyalıları da Sovet tərəfindən döyüşlərə daxil oldular.

Ermənilərin fitnəsi ilə hərbi gəmilər şəhərin müsəlman hissəsini toplardan atəşə tutdular, onlar rus matroslarını inandırmışdılar ki, guya müsəlmanlar rus əhalisini qırırlar. Matroslar bunun fitnəkarlıq olduğunu bildikdə atəşi dayandırdılar.

Ermənilərin bolşeviklərlə birgə onsuz da qeyri-bərabər olan döyüşə girməsi kütləvi qırğınla nəticələndiyindən azərbaycanlılar martın 31-də müqaviməti dayandırdılar. İnqilabi müdafiə komitəsinin ultimatumunun qəbul edilməsinə baxmayaraq, hadisələrin əsl faciəli mərhələsi bundan sonra başlandı. Şəhərin bütöv azərbaycanlılardan ibarət olan «Məmmədli» və «Zibilli dərə» deyilən məhəllələrinin əhalisi tamamilə məhv edildi. Bu məhəllələrə soxulan erməni əsgərləri sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yandırılmış evlərin içinə atır, südəmər uşaqları süngülərin ucuna keçirirdilər. Qırğın zamanı düşmənlər müsəlmanların əmlakını məhv edir, qiymətli

əşyaları qənimət kimi götürürdülər. Müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər. Sonralar təkcə bir yerdə dəhşətli şəkildə qətlə yetirilmiş – qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 37 müsəlman qadınının meyidi tapılmışdı.

Nikolay küçəsində hücuma keçmiş erməni əsgərlərinə, əsasən erməni ziyalılarının nümayəndələri rəhbərlik edirdilər. Məsələn, bu dəstələrdən biri müsəlman evinə soxularaq səkkiz qadın və uşağı güllələmişdi. Başqa dəstə isə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək doqquz azərbaycanlı ziyalını küçəyə çıxardıb kilsə meydanında güllələmişdilər.

Şəhərdə Azərbaycan türklərinə məxsus olan bütün ictimai binalar, milli rəmzlər, mədəniyyət ocaqları dağıdıldı. «Kaspi», «Açıq söz» qəzetlərinin redaksiyası, Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi «İsmailiyyə» binası yandırıldı.

Daşnak – bolşevik qətllərinin tüğyan etdiyi dövrdə ruslar və gürcülər mümkün olan yerlərdə azərbaycanlıları xilas edirdilər. Şəhərin rus ictimaiyyəti ermənilərin vəhşiliklərindən hiddətlənir və buna öz etirazlarını bildirirdilər. Artıq qanlı xarakter almış türk-müsəlman soyqırımı aprel ayının 2-si gecə yarıyadək davam etdi. Sağ qalmış müsəlmanlar Bakıdan çıxdılar. Üç gün davam edən qanlı qırğında 12 mindən çox azəri türkü öldürüldü. Uzun müddət bolşeviklər və sovet tarixçiləri bu hadisələri vətəndaş müharibəsi kimi qələmə versələr də, qanlı mart hadisələri türk soyqırımı kimi tarixə daxil olmuşdur. Mart hadisələrinin hansı məqsədlərlə törədildiyi bolşevik mətbuatında, siyasi liderlərin çıxışlarında, xüsusən S.Şaumyanın XKS-nə 13 aprel tarixli məruzələrində daha ətraflı açılır. O, yazırdı ki, «biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir». O, «Daşnaksütyun» partiyasının köməkliyi ilə müsəlman «əks-inqilabının» ləğv edilməsində, Bakını Azərbaycan xalqının paytaxtına çevirmək xülyasına düşən müsavatçıların və digər müsəlman milli cəmiyyətlərinin dağıdılmasından sonra bolşeviklərin Bakıya tam sahib olduğunu bildirirdi.

Məlum olduğu kimi, mart hadisələri təkcə Bakı ilə məhdudlaşmadı. Aprel ayının ilk günlərindən etibarən Bakıda törədilmiş cinayətlər eynilə Şamaxıda, Quba-Xaçmazda, Lənkəranda, Hacıqabul və Salyanda törədildi. Daşnak talanlarından ən ağır ziyan çəkən Şamaxı qəzası oldu. Aprel ayının 3-ü ilə 16-sı arası Şamaxı şəhərinin və onun kəndlərinin müsəlman əhalisi böyük itki verdi, sağ qalanlar isə Şamaxını tərk etdilər. Fövqəladə istintaq komissiyasının sənədlərində göstərilirdi ki,

hələ yanvar ayında Bakıdan Mədrəsəyə 16 araba silah gətirmişdilər. Martın ortalarında isə Bakı Soveti tərəfindən Şamaxıya 2 min erməni əsgəri, 60 araba silah göndərilmişdi. Yerli ermənilərlə danışıqlardan sonra bir neçə gün sakitlik oldusa da bu çox çəkmədi. Martın 30-da (Bakıda hadisələr başlanan gün) səhər tezdən Mədrəsə tərəfindən Şamaxı topa tutuldu. Bu qarşıdurmada neytrallığını elan etmiş Şamaxının rus (molokan) əhalisi ermənilərlə saziş əsasında müsəlman əhalisinə qarşı mübarizəyə daxil oldu.

Şamaxıda tam üstünlüyə malik olan ermənilər bu qəzanı azərbaycanlılardan təmizləməyə başladılar. Erməni milli dəstələrinin əməliyyatlarına S.Şaumyandan bilavasitə təlimat alan köməkçisi S.Lalayev başçılıq edirdi. Erməni əsgərlərinin böyük bir dəstəsinin başında Şamaxıya gələn S.Lalayev əmr vermişdi ki, birinci olaraq müsəlmanların qocaları, qadınları və uşaqları yerləşdikləri bütün məscidləri mühasirəyə alsınlar, küçəyə çıxanları güllələsinlər və məscidləri yandırsınlar. Sənəddə göstərilir: «Çoxlu uşaq və qadınla məsciddə gizlənmiş Axund Molla Cəfər Qulu öldürüldü. Onlar güman edirdilər ki, ermənilər hörmətli Axunda əl qaldırmayacaqlar. Ermənilər məscidə soxuldular, Axundu tapdılar, onun gözlərini çıxartdılar, dilini, burnunu və qulaqlarını kəsdilər, üzünün və başının dərisini soydular və nəhayət, güllələdilər. Axundun evində və məsciddə olan bütün qadınları öldürdülər». Bir neçə gün ərzində Şamaxı şəhəri, demək olar ki, dağıdıldı. Qəzanın müsəlman kəndləri ağır terrora məruz qaldı. Nəticədə təkcə mart ayında Şamaxı qəzasının 58 kəndi Bakı Sovetinin erməni qoşunları tərəfindən dağıdıldı, 7 minə qədər adam öldürüldü, bunun da 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi. Şamaxıda terror aprel ayının axırlarına qədər davam etdi. Arada kiçik fasilədən sonra Şamaxı əhalisi iyunun axırı–iyulun əvvəllərində «Kommuna» qoşunlarının Gəncə istiqamətində hücumu zamanı yenidən zorakılığa məruz qaldılar. Qanlı hadisələri yaşamış Şamaxı şəhəri uzun müddət özünə gələ bilmədi. 1918-ci ildə 15 min əhalisi (80%-dən çoxu türk idi) olan Şamaxıda 1921-ci ildə cəmi 1700 nəfər yaşayırdı.

Quba qəzasında cəza dəstəsinə S.Şaumyan tərəfindən xüsusi səlahiyyət alan Amazasp rəhbərlik edirdi. Aprel ayında qəzanın 122 müsəlman kəndi dağıdılmış, yüzlərlə türk və ləzgi əhalisi məhv edilmişdi. Göyçay, Kürdəmir, Salyan və Lənkəran da erməni cəza dəstələrindən ciddi ziyan çəkmişdi. 2 min nəfərlik erməni qoşununun Lənkəranda həyasızlığı o dərəcəyə çatmışdı ki, bölgədə olan gürcülər silah gücünə

onların soyğunçuluğunun qarşısını almışdı. Bakı quberniyasında türk-müsəlman soyqırımı 1918-ci ilin sentyabrında – yəni Bakı düşməndən azad edilənə qədər davam etmişdi.

Bakıda və qəzalarda Azərbaycan əhalisinə qarşı yönəldilmiş soyqırımı siyasətində erməni kilsəsi fəal iştirak etmişdir.

Azərbaycanda mart-aprel faciəsini törətməkdə daha böyük məqsədlər qarşıya qoyulmuşdu. Məqsəd Bakı quberniyasında qələbə çaldıqdan sonra Gəncəyə hücum edib bütün Azərbaycanı işğal etmək idi. Bakı, Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran şəhərləri tutulduqdan sonra silahlı quldurların hədəfi Gəncə idi. Onlar bu dəfə Qarabağ erməniləri ilə sövdələşib qüvvələrini birləşdirərək Gəncəyə hücum etməyə hazırlaşırdılar. Bunu S.Şaumyan may ayında Xalq Komissarları Sovetinə məlumatında etiraf edirdi. Onun fikrincə, Sovet qoşunlarını Yevlax körpüsünü ələ keçirib Kür boyunda müdafiə xətti tutduqdan sonra «tez Yelizavetpola yeritmək lazımdır ki, orada, sonra isə başqa yerlərdə ermənilər üsyan etsinlər».

Lakin 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması yadelli düşmənlərin bu planlarını pozdu.

## § 2. Bakı Xalq Komissarları sovetinin devrilməsi və ingilislərin müdaxiləsi. Bakıda vəziyyət və XKS-nin yaranması

1918-ci ilin yazında Bakıda siyasi vəziyyət bolşeviklərin xeyrinə dəyişməyə başladı. Qanlı mart-aprel hadisələrindən sonra, demək olar ki, şəhərdə azərbaycanlı qalmamışdı. Qalib erməni ordusu özünü Bakının əsl sahibi kimi aparır, erməni siyasi partiyaları hakimiyyəti bolşeviklərlə bölüşmək üçün müxtəlif planlar cızırdılar. Mərkəzi Rusiya vilayətlərindən fərqli olaraq, bolşevizm Bakıda xeyli dərəcədə erməni libasında zühur etmişdi. Ona görə 1918-ci ilin martından sentyabrına qədər mahiyyətcə erməniləşmiş hakimiyyət şəhərin idarəçiliyində qalır və aparıcı rol oynayırdı.

Mart hadisələrindən sonra inqilabi müdafiə komitəsinin qəbul etdiyi bir sıra qərarlar bolşeviklərin hakimiyyətə yolunu təmizlədi. Aprelin ortalarında bolşeviklərin və erməni siyasi partiyalarının mətbuat orqanlarından başqa, qalan bütün qəzet və jurnallar bağlandı. Ordunu

möhkəmləndirmək üçün iri müəssisələrdən 50 milyon təzminat tələb edilirdi. Hərbi səfərbərlik və inzibati-təsərrüfat işlərini ələ almaq üçün Bakı soveti icraiyyə Komitəsi aprel ayının 10-da evlər komitəsinin yaradılması barədə qərar verdi. Elə həmin gün yeni əmək komissarlığı yaradıldı. Bakı qubemiya ərzaq komitəsinin əvəzinə isə Bakı Sovetinin Ərzaq direktoriyası təsis edildi. İnqilabi Müdafiə Komitəsinin qərarı ilə şəhərin bütün nəqliyyatı Bakı Sovetinin sərəncamına verildi. Şəhərin komendantı və qarnizon rəisi dəyişdirildi. B.Avakyan Bakı və ətraf rayonların yeni komendantı təyin edildi. «Erməni Milli Şurasından» başqa bütün milli şuraların fəaliyyəti qadağan edildi və aprelin 20-də Şəhər Duması buraxıldı. Bütün bu tədbirlərin məntiqi davamı olaraq aprelin 25-də hakimiyyət orqanı kimi Bakı Xalq Komissarları Soveti yaradıldı. S.Şaumyan Xalq Komissarları Sovetinin sədri və xarici işlər komissarı seçildi. Beləliklə, bolşeviklər mart hadisələri qurbanlarının meyidləri üzərindən addımlayaraq hakimiyyətə gəldilər. Onlar iqtisadiyyata nəzarət etmək üçün Bakı neft sənayesinin «milliləşdirilməsinə» xüsusi diqqət yetirirdilər. S.Şaumyan tərəfindən aprel ayında Moskvaya göndərilən məktubda deyilirdi ki, «artıq indi neft bizim əlimizdədir. Nümayəndəmiz Saak Ter-Qabrielyanla artıq üç gəmi neft yola salmışıq».

RSFSR XKS Rusiya neft sənayesini 1918-ci ilin iyunun 20-də milliləşdirdiyi halda, Bakı XKS-i bu addımı 18 gün əvvəl, yəni iyunun 2-də atmışdı və buna uyğun olaraq Xəzər ticarət donanması da «milliləşdirilmişdi». Əgər əvvəllər Rusiyaya gündə 600–700 min pud neft daşınırdısa, bu addımlardan sonra neft daşınmasının gündəlik həcmi 1 milyon 400 min puda çatdırıldı. Əgər 1917-ci ilin noyabrından – 1918-ci ilin martınadək Rusiyaya 4 milyon 313 min pud neft daşınmışdısa, 1918-ci ilin dörd ayı ərzində, yəni apreldən iyulun axırlarınadək bu rəqəm 80 milyon 25 min puda çatdırılmışdı. Neft yataqlarının vəhşicəsinə istismarı qısa müddətdə neft sənayesinə ağır zərbə vurdu və neft hasilatı xeyli aşağı düşdü.

Sovet Rusiyası Bakını əldə saxlamaq üçün bolşeviklərə maddi, mənəvi, diplomatik yolla yardım göstərirdi. Lakin bu yardım yerli dayağı olmayan Bakı sovetinin ehtiyaclarından çox aşağı idi. Bakının Azərbaycan kəndləri ilə əlaqəsinin kəsilməsi, Bakı sovetinin müsəlman kəndlilərinə düşmən münasibəti şəhərdə ciddi ərzaq böhranına gətirib çıxarmışdı. Bakı Sovetini Rusiyadan alınan hərbi yardım da xilas edə bilmədi. Çoxlu silah (80 top, 160 pulemyot, 10 min tüfəng, 20 milyon

patron və s.) və hərbi sursatla yanaşı, K.K.Petrovun başçılığı ilə böyük hərbi dəstə də öz qərargahı ilə birlikdə Bakıya göndərilmişdi. Lakin «sovetləşdirmə» adı altında Azərbaycanı işğal etmək üçün Bakı XKS daha çox ermənilərə arxalanırdı. May ayının axırlarına qədər Bakı Soveti Ordusunun erməniləşdirilməsi prosesi başa çatdırıldı. Mayın 22-də Moskvaya XKS-yə göndərdiyi məruzədə Q.Korqanov yazırdı ki, Kommuna Ordusunun sayı 18 mindir, əsgərlərin böyük hissəsi, yəni 13 minə qədəri, zabitlərin isə, demək olar ki, hamısı ermənilərdir. Orduya ümumi komandanlıq müsəlman əhalisinə qarşı soyqırımında ad çıxarmış polkovnik Z.Avetisov, N.Qazaryan və «xalq qəhrəmanı» Hamazaspın əlində idi. Bununla kifayətlənməyərək S.Şaumyan Ermənistanda olan ermənilərlə də əlaqə yaradıb Azərbaycanı işğal etmək planını həyata keçirmək üçün qüvvələri birləşdirməyə çalışırdı. O, Türk xalqının qəddar düşməni Andronikə radioqramlarında yazırdı ki, sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram, türk süngüsündən ziyan çəkən bütün cəsur döyüşçülərə salam yetirin.

Beləliklə, istər Bakı Soveti olsun və istərsə də onun XKS Azərbaycan mühitinə yad bir qurum idi, yeritdiyi siyasətə, məqsəd və mahiyyətinə görə antiazərbaycan xarakterində olan bu rejimi devirmək, yadelliləri Bakıdan qovmaq yeni yaranan Azərbaycan dövlətinin, bütün milliyyətpərvər qüvvələrin əsas amalı idi.

**Gəncəyə hücumun iflası. XKS-nin devrilməsi**

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xəbəri Bakıya ertəsi gün çatdı. Bu xəbərdən bərk narahat olan Şaumyan Ön-Qafqazın milli Cümhuriyyətlərini «üç milli satraplıq» adlandırırdı. O başa düşürdü ki, Azərbaycanda millətinə, torpaqlarına və sərvətlərinə sahib duran milli hökumətin yaranması «Kommuna»nın sonu deməkdir. Ona görə də, elə ilk gündən Bakı XKS milli hökumətə qarşı mübarizəyə başladı. Azərbaycan hökuməti Gəncəyə köçən gün S.Şaumyan Moskvaya yazdığı məktubda Gəncə üzərinə yürüşə qızğın hazırlıq getdiyini bildirdi.

Hələ Gəncə üzərinə yürüşə başlamazdan əvvəl V.İ.Leninin tapşırığı ilə S.Şaumyan türk qoşunlarının Azərbaycana yolunu bağlamaq üçün Gürcüstan hökumətinin başçısı N.Jordaniya ilə əlaqəyə girdi. O, Jordaniyaya vəd edirdi ki, əgər Gürcüstan türk qoşunlarını öz ərazisindən Azərbaycana buraxmazsa Sovet Rusiyası onun müstəqilliyini tanıyacaqdır. Ermənistan hökuməti ilə də bu məzmunda sövdələşmələr aparıldı. Lakin nə Gürcüstan və Ermənistanın uğursuz cəhdləri, nə də

Gürcüstanda möhkəmlənən Almaniyanın təzyiqi türk qoşunlarının Azərbaycana gəlişinin qarşısını ala bilmədi.

İyunun 10-da Bakı Sovetinin qoşunlarının Gəncə üzərinə yürüşü başlandı. Onların hücumu əvvəlcə uğurlu gedirdi. İyunun 12-də Kürdəmiri işğal edib, iyunun 27-də Göyçaya yaxınlaşdılar. Yeni yaranan Azərbaycan hökumətini dağıtmaq üçün XKS-nin ordusu qısa müddətdə Yevlağı tutmalı, Gəncə quberniyasının üsyan qaldıran erməni kəndliləri burada onlara birləşməli və Azərbaycanın müvəqqəti paytaxtı üzərinə birgə hücumu keçməli idilər. Lakin bu baş tutmadı. Azərbaycan–Osmanlı hərbi qüvvələrinin birgə hücumu bu niyyəti puça çıxartdı.

İyunun 27-si ilə iyulun 1-i arasındakı dörd günlük gərgin vuruşma cəbhənin taleyini həll etdi. Göyçay vuruşmasında «Kommuna» qoşunlarının Gəncəyə yürüşünün qarşısı alındı və «İslam Ordusu» Bakı istiqamətində hərəkətə başladı. İyul ayının axırlarında Bakı ətrafına gəlib çıxdı. İyunun axırlarında Rusiyadan gətirilən silah və hərbi sursat, o qədər də böyük olmayan hərbi qüvvə vəziyyəti dəyişə bilmədi.

İyulun 20-də Bakı istiqamətində mühüm strateji əhəmiyyətə malik olan Şamaxı azad edildi.

Sovet Rusiyasından effektli hərbi yardım ala bilməyən Bakı XKS cəbhədə vəziyyət ağırlaşdıqda Moskvanın diplomatik yardımına və İranda olan rus hərbi dəstələrindən birinin başçısı L.Biçeraxovun köməyinə ümid bəsləyirdi.

Sovet Rusiyasının Almaniya vasitəsilə işə qarışması Azərbaycan hökumətinin Bakıya daxil olmasını xeyli yubadırdı. Kommuna qüvvələri vasitəsilə Azərbaycan-Türk hücumunun qarşısını ala bilməyəcəyini nəzərə alan Sovet Rusiyası 1918-ci ilin iyununda Almaniya ilə danışıqlara girib diplomatik yolla Bakını əldə saxlamaq istəyirdi. Lakin Bakı barəsində alman-rus sövdələşməsi onun azad edilməsini yubatsa da, nəticə etibarilə bu işə mane ola bilmədi.

Bakı XKS-nin İranda öz vəhşilikləri ilə ad çıxarmış çar polkovniki L.Biçeraxovun alayından istifadə etmək niyyəti də baş tutmadı. Biçeraxovun dəstəsi Xəzər dənizi vasitəsilə iyulun 5-də Ələtə çıxarıldı. İyulun 7-də o, Bakı müdafiə xəttinin sağ cinahının komandanlığını qəbul etdi. Lakin cəbhədə vəziyyət ağırlaşdığından L.Biçeraxov vuruşmadı və iyulun axırlarında öz dəstəsini cəbhə xəttindən çıxarıb Şimala doğru getdi.

İyulun son günlərində Bakıda ağır vəziyyət yaranmışdı. Bakı XKS-nin kəndlilərə, müsəlman əhalisinə qarşı yeritdiyi zorakılıq siyasəti ətraf

kəndlərin Bakı ilə əlaqəsinin kəsilməsinə səbəb olmuşdu. Artıq iyulun 24-də Bakıda keçirilən qeyri-müsəlman fəhlələrin kütləvi mitinqlərində eser-menşevik-daşnak liderləri Türk–Azərbaycan hücumlarından müdafiə məqsədi ilə ingilislərin dəvət olunmasına tərəfdar çıxdılar. Ayın 25-də Bakı Sovetinin təcili iclası çağırıldı. S.Şaumyan siyasi və hərbi vəziyyət haqqında məruzə etdi. O, ingilis qoşunlarının çağırılması təklifinə etiraz etdi və bu barədə Mərkəzi Sovet hökumətindən alınmış teleqramın V Ümumrusiya Sovetlər qurultayı tərəfindən təsdiq edilmiş mətnini oxudu. S.Şaumyan bildirdi ki, Bakı RSFSR-in ayrılmaz hissəsi olduğundan Sovet Rusiyasının bu göstərişləri Bakı Soveti üçün məcburidir. Azərbaycan–Türk qoşunlarının Bakının astanasında dayanması mart hadisələrini törətmiş Bakı Sovetini dəhşətli vahiməyə salmışdı. Sovetin iclasında çıxış edənlər Sovet Rusiyasının Bakıya heç bir yardım göstərmək iqtidarında olmadığını qeyd edərək, ingilisləri dəvət etməyi zəruri hesab edirdilər. Nəticədə gərgin mübahisələrdən sonra 236 səsə qarşı 259 səslə ingilisləri Bakıya dəvət etmək, koalision hökumət yaratmaq barədə qətnamə qəbul edildi. Belə olduqda bolşevik fraksiyası hakimiyyətdən əl çəkmək məcburiyyətində qaldı. İyulun 30-da «Kommuna» ordusunun rəhbərlərindən biri Avetisov Bakı Sovetinə məlumat verdi ki, müqavimətin davam etdirilməsi əhəmiyyətsizdir. Elə həmin gün XKS-yə gələn Erməni Milli Şurasının rəhbərləri bolşeviklərdən hakimiyyəti təhvil verməyi tələb etdilər. İyulun 31-də XKS öz səlahiyyətinin qurtardığını bildirdi və komissarlar «Ərdəhan» gəmisində Həştərxana yola düşdülər. Lakin onlar hələ şəhərdən uzaqlaşmamış, əsasən Erməni Milli Şurasının və daşnakların əlində olan eser-menşevik-daşnak ittifaqı zəminində «Sentrokaspi və Sovetin Müvəqqəti İcraiyyə Komitəsinin Rəyasət heyəti diktaturası» deyilən mürtəce hökumət təşkil edildi. Hökumətin təcili qərarı ilə Bakı XKS-ni tam heyətdə Həştərxana aparan gəmi sahilə qaytarıldı və komissarlar həbsə alındı. Zavod komitələrinin yeni hökuməti müdafiə məqsədilə keçirilən konfransında qəbul olunmuş qətnamədə göstərilirdi ki, keçmiş komissarlar nəinki öz vəzifələrini tərk etmiş, Bakı əhalisi üçün ölümcül təhlükə yarandığı bir dövrdə cəbhəni öz başına qoymuşlar, eyni zamanda müdafiə üçün zəruri olan ərzağı, hərbi sursatı və silahı aparmağa xaincəsinə cəhd göstərmişlər. Konfrans, komissarları xalqa xəyanətdə günahlandırıb onları xalq düşməni hesab etdi. Sentrokaspi diktaturasının ilk addımlarından biri Ənzəlidə olan ingilislərin Bakıya gəlişini sürətləndirmək oldu.

**İngilislərin müdaxiləsi**

Erməni milli Şurası və daşnak liderləri hələ iyun ayında İranda olan general L.Denstervil ilə əlaqə yaratmışdılar. 1918-ci il iyul ayının ortalarında Erməni Milli Şurası öz nümayəndəsi S.A.Ter-Qazarovu ingilisləri çağırmaq üçün Ənzəli şəhərinə, İranda ingilis ordusu komandanı general Denstervilin yanına göndərmişdi.

1918-ci ilin avqust ayının əvvəllərində beş diktatordan – üç donanma zabitindən və iki matrosdan ibarət olan Setrokaspi hökuməti bolşevikləri və şəhərdə olan kiçik sayda almanları həbs edib yardım üçün Britaniya qüvvələrinə müraciət etdikdə avqust ayının 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk ingilis dəstəsi Bakıya gəldi. Az sonra avqustun 9–17 arası üç batalyon, bir səhra artilleriya batareyası və bir neçə zirehli maşından ibarət olan ingilis hərbi qüvvələri Bakıya daxil oldular. Avqustun 17-də Denstervil Bakıya gəldiklə türklərin hücumundan bərk qorxuya düşən ermənilər onu böyük sevinclə qarşıladılar. Lakin Britaniya yardımının təəccüb doğuracaq qədər az – min nəfərə qədər olması şəhərin xristian əhalisini hiddətləndirdi. Halbuki Bakıda yardıma gələn ingilis ordusunun sayının 20–30 min olması barədə təbliğat aparılırdı. Son nəticədə aydın oldu ki, ingilis qoşunları Bakı şəhərini düşmənlərdən təmizləmək məqsədilə gələn Azərbaycan–Türk hərbi hissələrinin qarşısını almaq iqtidarında deyildirlər.

## § 3. Yadellilərə qarşı mübarizə

**Setrokaspi hakimiyyəti**

1918-ci il avqustun əvvəllərində İstanbuldakı Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadədən alınan məktubda Bakının azad edilməsinin sürətləndirilməsindən danışılırdı. 1918-ci ilin yayında Qərb cəbhəsində Almaniyanın məğlubiyyəti beynəlxalq vəziyyəti tamamilə dəyişdirə bilərdi. Ona görə M.Ə.Rəsulzadə Azərbaycan hökumətinə göndərdiyi məktubda yazırdı ki, hansı yolla, nəyin bahasına olursa-olsun Bakı tezliklə azad edilməlidir. Bakıya doğru hərəkət yalnız Azərbaycanın adından olmalıdır. O, yazırdı: «Əgər Bakı alınmasa hər şey bitdi. Əlvida Azərbaycan!»

Britaniya Ordusunun Bakıda sayca az olduğunu bilən İslam Ordusu şəhəri azad etmək üçün son hərbi əməliyyatlara hazırlaşırdı. Sentrokaspi diktaturasında formal şəkildə hakimiyyət Xəzər donanması zabit və matroslarının əlində olsa da, əslində real hakimiyyət Erməni Milli şurası, «Daşnaksütyun» partiyası və digər erməni cəmiyyətlərinə məxsus idi. Azərbaycan–Türk hücumuna qarşı şəhərin müdafiəsinə onlar

rəhbərlik edirdi. Avqust ayının ilk günlərində Bakı şəhəri və rayonlarının səfərbərlik işləri komissarı R.Bekzadyanın və komissarlığın katibi Qukasyanın imzaladığı əmrdə göstərilirdi ki, avqustun 3-də saat 6-dan gec olmayaraq bütün mənzil idarələri şəhərin kişi əhalisinin dəqiq sayı və uçotu barədə məlumatları Mərkəzi səfərbərlik idarəsinə təqdim etməlidirlər. Eyni zamanda elə həmin gün L.Biçeraxovdan alınmış teleqram rus və erməni dillərində plakat formasında böyük şriftlərlə çap edilib bütün şəhərdə yayılmışdı. Orada göstərilirdi ki, guya köhnə hökumət düşmənə qarşı mübarizədə onun əl-qolunu bağlamışdı. İndi isə L.Biçeraxov Sentrokaspi qüvvələri və ingilislərlə vahid cəbhə təşkil edib düşməni əzməyə hazır olduğunu bildirirdi. Biləcəri stansiyasını avqust ayının 2-də azad etmiş İslam Ordusuna Biçeraxov kazaklarının hücum etməsi işi bir qədər çətinləşdirdisə də, lakin kazakların hücumu uzun çəkmədi. Yuxarıda qeyd edilən təntənəli teleqrama baxmayaraq, heç bir məlumat vermədən L.Biçeraxov öz dəstəsini dəmiryolu boyunca Dərbənd istiqamətində şimala çəkdi. Bolşeviklərin təsiri altında olan silahlı qüvvədən sonra min nəfərə yaxın kazakın da cəbhəni tərk etməsi Bakını Sentrokaspi hökumətinin əlində saxlamağını qeyri-mümkün edirdi.

Avqustun 3-də Şərq cəbhəsində Osmanlı Ordusunun komandanı Mürsəl Paşa Bakıda olan Erməni Milli Şurasının sədrinə məktubla müraciət etdi. Orada qeyd edilirdi ki, Bakı uğrunda Osmanlı Ordusu hərbi əməliyyatlar aparır. Əgər siz şəhəri döyüşsüz versəniz, onda dinindən və milliyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquqları təmin ediləcəkdir, ermənilər istərlərsə onların Bakıdan Ermənistana maneəsiz gedişi təmin ediləcəkdir. Lakin müqavimət göstərsəniz onsuz da şəhər alınacaq və bu halda tökülən qanların və dəyən ziyanın məsuliyyəti sizin üzərinizə düşəcək. Əgər siz şəhəri verməyə hazırsınızsa öz nümayəndənizlə cavab göndərin. Lakin Erməni Milli Şurası üzvləri ilə Sentrokaspi nümayəndələri məktubu müzakirə etdikdən sonra Britaniya hökuməti tərəfindən və L.Biçeraxovdan yardım alacağına ümid bəsləyərək Mürsəl paşaya cavab vermədilər. Bu artıq hərbi əməliyyatların davam etdirilməsi demək idi.

Bakıda bir az qaldıqdan sonra Denstervil də ingilisləri bura dəvət edən hökumətin oyuncaq, şəhərin müdafiəsinin isə zəif olduğunu tezliklə başa düşdü. Ona görə də diktatura ilə ingilislər arasında ziddiyyətlər elə ilk gündən meydana çıxdı. Sentrokaspi liderləri Britaniya yardımının azlığından pərt olmuşdular. İngilislər isə yerli ordunun heç nəyə qadir olmadığından ümidsizləşmişdilər. Halbuki ingilislər yeni yaranmış Setrokaspi hökumətinin hələ bir müddət yaşayacağına arxayın

olduqlarına görə İranda olan hərbi qərargahı Bakıya köçürdükdən sonra Rəştdə olan Böyük Britaniya konsulluğu tam heyətdə Bakıya gətirilmişdi. Lakin Bakını əldə saxlamaq üçün heç bir real imkanın olmadığını görən Denstervil ingilis əsgərlərini sentyabrın 1-nə kimi şəhərdən aparmağı qərara almışdı. Belə olduqda Sentrokaspi hökuməti limanı tərk edəcək hər hansı gəmini atəşə tutacağını bildirdi. Əslində Bakıya daxil olduqdan bir həftə sonra general Denstervil diktaturasının elan olunmamış hərbi əsirinə çevrilmişdi və türklərin sonuncu hücumunu səbirsizliklə gözləyirdi.

Avqustun axırlarında Bakı «diktatorlarına» göndərdiyi yeni məktubda Denstervil qeyd edirdi ki, şəhərin müdafiəsinin uzadılması, vaxtı və insanların həyatını boş yerə qurban vermək deməkdir. Onun fikrincə, yaranmış vəziyyətdə dünyada heç bir qüvvə Bakını türklərdən xilas edə bilməz. L.Denstervil bir hərbçi kimi haqlı olaraq fikrini onunla əsaslandırırdı ki, yerli əhali (*azərbaycanlılar – C.H.*) Bakını türklərdən müdafiə edən hökumətə düşmən münasibət bəsləyirdi.

Avqust ayının 22-də gürcü sosial-demokratı İ.Ramişvili Sentrokaspi hökumətinin üzvlərinə bu işdə Almaniyanın vasitəçiliyini təklif etdi. Lakin alman vasitəçiliyinin heç bir əhəmiyyəti olmadı. Türklər almanların xoşuna gəlib-gəlməyəcəyindən asılı olmayaraq, Azərbaycan hökumətinin təklifi ilə Bakını azad etməkdə öz yardımlarını göstərmək əzmində idilər. Ona görə İ.Ramişvili Sentrokaspi diktaturasına məlumat verdi ki, mübahisəni vasitəçiliklə həll etmək mümkün deyildir. O, bunu Bakı barədə Azərbaycan hökumətinin qəti və dəyişməz mövqeyi ila izah edirdi. İ.Ramişvili yazırdı: «heç bir şübhə ola bilməz ki, azərbaycanlılar Bakıya daha çox can atırlar, nəinki türklər».

**Alman–rus sövdələşməsi**

Almaniyanın Bakı məsələsində ikibaşlı oyunu Türkiyəni öz müttəfiqindən narazı salmışdı. Almaniya siyasətçiləri son nəticədə Bakının Sovet Rusiyasının əlində qalmasını istəyirdilər və əvvəllər qeyd olunduğu kimi, ehtiyat edirdilər ki, türklər Bakını tutarsa Almaniyanın ciddi ehtiyac duyduğu neft hasilatı və onun əldə edilməsi məsələsi sual altında qalacaqdır. Digər tərəfdən Bakıda bolşevik hakimiyyətinin devrilməsi Sovet Rusiyasını da çətin vəziyyətə salmışdı. İndi Rusiya Almaniyanın diplomatik yardımına daha çox ehtiyac duyurdu. Azərbaycan–Türk qoşunlarının Bakıya gəlib çatması tərəflərin mövqelərini bir-birinə daha da yaxınlaşdırırdı. İngilislərin Bakıya daxil olması ilə vəziyyət dəyişsə də Sovet Rusiyası böyük neft ehtiyatlarına malik olan Abşeron yarımadasının ona qayta-

rılmasına bütün vasitələrlə çalışırdı. Avqust ayının axırlarında Berlin danışıqlarında Almaniya Bakıya türklərin hücumunun dayandırılmasına bu şərtlə razılıq verirdi ki, Sovet Rusiyası ingilisləri Bakıdan çıxartsın.

Nəhayət, Berlində üç aya qədər davam edən Alman-rus danışıqları Türkiyədən gizlin Brest müqaviləsinə əlavə Almaniya ilə Sovet Rusiyası arasında 27 avqust sazişinin imzalanması ilə nəticələndi.

Burada göstərilirdi: Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü bir dövlətə heç bir yardım göstərməyəcəkdir. O təsir göstərəcəkdir ki, Qafqazda üçüncü dövlətin hərbi qüvvələri Kür çayının mənsəbindən Petropavlovsk kəndinə qədər Şamaxı qəzasının sərhədləri boyunca Əyrioba kəndinə qədər, Bakı, Şamaxı və Quba qəzaları sərhədləri boyunca Bakı qəzasının Şimal sərhədlərində dənizə qədər olan ərazilərə keçməsin, Rusiya Bakı vilayətində neft çıxarılması və istehsalını bütün imkanları daxilində artıracaqdır. Hər ay çıxarılan neftin dörddə bir hissəsini Almaniyaya verəcəkdir.

27 avqust sazişi gizli imzalansa da, onun məzmunu gizli qalmadı, avqustun son günlərində türk mətbuatı böyük hiddətlə onun haqqında məlumat verdi.

Sentyabrın 1-də İstanbulda olan Azərbaycan nümayəndələrinin başçısı M.Ə.Rəsulzadə həyəcanla Azərbaycan hökumətinə bildirirdi: «Berlindən alınan məlumatlara görə, bolşeviklərlə Almaniya arasında əlavə müqavilə imzalanmışdır. Qafqaz dövlətlərindən bolşeviklər yalnız Gürcüstanın müstəqilliyini tanımışlar və almanlar isə Bakıda çıxarılan neftin bir hissəsini almaq müqabilində Rusiyanın Bakını və onun neft rayonlarını özündə saxlamaq arzularına etiraz etməmişlər. Bu xəbər hamımızı sarsıtdı, qəzetlər onu hiddətlə çap edir. Tələt Paşa Berlinə getməyə hazırlaşır. Necə olursa-olsun Bakını almaq, almaq və almaq lazımdır».

İstanbulda olan Azərbaycan nümayəndələri Azərbaycan hökumətindən göstəriş gözləməyərək respublikaya qarşı yönəlmiş bu sazişə qarşı mübarizəyə başladılar. Sentyabr ayının 12-də İstanbulda olan Azərbaycan nümayəndələri Osmanlı dövlətində olan Almaniya səfirliyinə Azərbaycan hökumətinin etiraz notasını təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya–Macarıstan və Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. Azərbaycan hökuməti adından Almaniya səlahiyyətli nümayəndəsinə təqdim edilən notada deyilirdi ki, Azərbaycan əhalisi Bakını geri qaytarmaq arzusundan heç bir zaman əl çəkə bilməz. Bu məsələ Azərbaycan üçün yalnız ərazi məsələsi deyil, ölüm-dirim məsələsinə çevrilmişdir.

Sentyabr ayının əvvəllərində beynəlxalq vəziyyətin Antantanın xeyrinə dəyişməsi Almaniyanın 27 avqust sazişinə marağını zəiflətdi. Məlum oldu ki, Sovet Rusiyası ingilisləri Bakıdan çıxarmaq imkanına malik deyildir. Halbuki 27 avqust sazişindən az sonra Almaniya bu fikirdə idi ki, bolşeviklər Bakını ingilislərdən təmizləyə biləcəklər. Deməli, mövcud vəziyyətdə Almaniya üçüncü dövlətə qarşı Bakını ingilislərin xeyrinə müdafiə etmiş olurdu. Ona görə Almaniya Azərbaycana münasibətdə öz mövqeyində təcili dəyişikliklər etdi. Türkiyə və Azərbaycanın təkidi Almaniyanın 27 avqust sazişindən imtina etməsində az rol oynamadı. İndi Almaniya Baş qərargahı Bakının azad olunmasına öz «töhfəsini» vermək barədə düşünməyə başladı. General Hindenburq Bakının ingilislərdən azad edilməsində iştirak etmək üçün iki alman briqadasının Cənubi Qafqaza göndərilməsi barədə Osmanlı dövlətinə məlumat verdi. Lakin məlum olduğu kimi Bakıda ingilislərin elə böyük qüvvəsi yox idi. Azərbaycan hərbi hissələri Türkiyənin yardımı ilə bu işin öhdəsindən gələ bilərdi.

**Bakının azad edilməsi**

1918-ci ilin yayında və payızında ciddi hərbi, diplomatik hazırlıqdan sonra sentyabrın 24-də Bakıya həlledici hücum başlandı. Həmin gün ingilis hərbi qüvvələri Bakını tərk etdilər. Denstervildən narazı olan sentrokaspi diktaturasının əmri ilə Bakı dəniz artilleriyası onun gəmilərinə atəş açdı. Axşama yaxın cəbhədən qaçan erməni dəstələrinin bir hissəsi «hərbi nazir» general Baqratuni başda olmaqla Ənzəliyə yola düşdü. Sentyabrın 15-də Azərbaycan ordusu Bakıya daxil oldu. Bakının azad edilməsi ilə bağlı M.Ə.Rəsulzadə yazırdı: «Altı ay tamam xuni-cigər yeyən əhvali islamiyyənin üzü gülüyor. Qurban bayramı kimi məsud bir gündə Bakı təkrar kəndi sahiblərinin əlinə keçiyor... Qafası məşhur Gilyotin məngənəsində bulunan bir adamın xilası nasıl bir həyati-novin isə Bakının istirzadı dəxi o nisbətdə ecazkar bir vaqiə idi». «Xalq qoşunu» adı ilə Bakını «müdafiə» edənlər indi limana tərəf qaçıb birinci çatdıqları gəmiyə minirdilər. Ermənilərin şəhəri tərk etmək cəhdləri mart hadisələrinə cavabdehlik qorxusundan irəli gəlirdi. Lakin sentyabrın 18-də Bakıya daxil olan Azərbaycan hökuməti milli qırğın törədilməsinin qarşısını aldı. Sonralar Azərbaycan parlamentinin açılışında hökumətin hesabatı ilə çıxış edən F.Xoyski bu məsələyə toxunaraq göstərirdi: «Doğrudur, şəhər alınarkən bəzi müəssəfi hadisələr vaqe olmuşdur. Hökumət bunu gizlətmiyor və gizlətməyi layiq bilmiyor. Doğrudur, çox adam əziyyət çəkmişdir, fəqət mümkün idimi ki, hökumət bu hadisənin qabağını tamamilə ala idi? Zənnimizcə, insaf gözü ilə baxanlar etiraf edərlər ki, dünyada heç bir hökumət ala bilməzdi,

burada müsəlmanlar qırılmış, hüquqları ayaqlar altında tapdalanmış, şəhər üç ay dava etdikdən sonra alınmış, nəticədə acıqlı camaat – hökumət, əlbəttə, acıqlı deyildir və əsgər şəhərə girərkən hadisənin özünü almaq mümkün idimi? Bilxassə ki, hökumət şəhərə ancaq üç gün sonra daxil olmuşdur. Hökumətin vuruşunadək nə olmuşsa da ondan sonra heç bir şey vaqe olmamışdır».

Şəhərə daxil olan kimi hökumət məlumatı elan edildi. Orada göstərilirdi ki, respublikanın paytaxtı Bakı şəhərinə daxil olan Azərbaycan hökuməti şəhərin və ətrafının bütün əhalisinə bildirir ki, Azərbaycanda yaşayan bütün vətəndaşlar milliyyətindən və dinindən asılı olmayaraq, eyni hüquqa malikdirlər. Hökumət bərabər qaydada bütün vətəndaşların həyatını, əmlakını və hüququnu qoruyacaqdır. Soyğunçular, qatillər və ümumiyyətlə, sakitliyi, ictimai qaydaları pozan şəxslər müharibə dövrü qanunlarının, ölüm hökmü də daxil olmaqla, bütün ağırlığı ilə cəzalandırılacaqlar.

F.Xoyski tərəfindən imzalanmış bu bəyanat çoxdan bəri hərcmərclik hökm sürən, daxili çəkişmələr və bolşeviklərin, onun ardınca sentrokaspiçilərin avantürist siyasəti nəticəsində dağıdılmış şəhərdə qayda-qanunun bərpa edilməsində mühüm addım oldu. Sentyabrın 18-də şəhər ətrafında dayanmış Türk qoşunları Bakıya daxil oldu. Şəhərin əsl sahibi olan azərbaycanlı əhali onları böyük hərarətlə, xilaskar kimi qarşıladı. Osmanlı qoşunları Bakıya daxil olduqda bildirdilər ki, onlar Azərbaycan hökumətinin arzusuna uyğun olaraq Bakının azad edilməsində iştirak ediblər. 1918-ci ilin 28 mayından sonra Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi. Bakı azad edildi və Azərbaycan hökuməti tam heyətdə əsl paytaxtına köçürüldü.

Bakının azad edilməsi ilə Azərbaycan hökuməti öz hakimiyyətini respublikanın ərazisində bərqərar etdi. Bu münasibətlə hökumətin yerləşdiyi kişi gimnaziyasının qarşısında şəhər ictimaiyyətinin çox böyük mitinqi oldu. Hökumət üzvləri əhali qarşısında təbrik nitqi ilə çıxış etdilər.

Bakının ingilislərə arxalanan mürtəce sentrokaspi qüvvələrindən təmizlənməsi münasibəti ilə Nazirlər Kabinəsinin sədri F.Xoyski demişdi: «Bizim də həyatda azad yaşamaq hüququmuz vardır. Heç bir zirehli maşın, hidroplan, aeroplan, kanonerka, məftilli çəpər, mina və sairə texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır».

# VIII FƏSİL

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI VƏ FƏALİYYƏTİ

## § 1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması

May ayının 26-da Cənubi Qafqaz seyminin sonuncu iclası keçirildi. Elə həmin gün gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi. Cənubi Qafqaz seyminin buraxılması ilə əlaqədar yaranmış böhranlı siyasi vəziyyəti müzakirə etmək üçün mayın 27-də Azərbaycan seymin fraksiyasına daxil olan nümayəndələrin fövqəladə iclası keçirildi. Yaranmış vəziyyətin ciddiliyini nəzərə alaraq iclas yekdilliklə Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürməyi qərara aldı, özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. H.Ağayev və M.Seyidov sədrin müavinləri seçildilər.

Sonra isə müxtəlif sahələrdə işlərə rəhbərlik etmək üçün Milli Şuranın doqquz nəfərdən ibarət icraiyyə orqanı yaradıldı. Fətəli xan Xoyski yekdilliklə icraiyyə orqanının sədri seçildi. May ayının 28-də Milli Şuranın ilk iclası keçirildi.

İclasda ən mühüm məsələ seymin buraxılması və Gürcüstanın istiqlaliyyətinin elan edilməsi ilə bağlı Azərbaycanın vəziyyəti barədə məsələ idi. Şuranın üzvü X.Xasməmmədov bu məsələ barəsində məruzə ilə çıxış edərək təxirəsalınmadan Azərbaycanın müstəqil Cümhuriyyət elan edilməsinin zəruriliyini əsaslandırdı. Bu təklif ətrafında geniş müzakirələrdən sonra Milli Şura iki nəfər bitərəf qalmaqla 24 səslə Azərbaycanın müstəqilliyini elan etmək haqqında bəyannamə qəbul etdi.

Beləliklə, 1918-ci il mayın 28-də axşam saat 8-ə on dəqiqə işləmiş Azərbaycanın istiqlalı elan edildi. Azərbaycan Milli Şurasının katibi Həsən bəy Ağayev tərəfindən oxunan istiqlal bəyannaməsində deyilirdi: «Böyük Rusiya inqilabının gedişində Rusiyada, rus qoşunlarının Cənubi Qafqazı tərk etməsinə gətirib çıxaran və dövlət orqanizminin

ayrı-ayrı hissələrini dağıdan siyasi quruluş meydana gəldi. Öz gücləri hesabına Cənubi Qafqaz xalqları Qoşma Cümhuriyyəti yaratdılar. Fəqət siyasi hadisələrin sonrakı gedişatında gürcü xalqı Cənubi Qafqaz federasiyasının tərkibindən çıxıb müstəqil Gürcüstan Xalq Cümhuriyyəti yaratmaq qərarına gəldi.

Rusiya və Osmanlı imperiyası arasında yaranan müharibənin dayandırılması ilə əlaqədar Azərbaycanın indiki siyasi vəziyyəti, həmçinin ölkədə yaranmış hədsiz anarxiya Cənubi Qafqazın cənub və şərq qismini təşkil edən Azərbaycana – Azərbaycan xalqlarının düşdükləri daxili və xarici vəziyyətdən çıxarmaq naminə öz dövlətini yaratmağı hökm edir. Yuxarıda sadalananların əsasında xalq səsverməsi yolu ilə seçilən Azərbaycan Müsəlman Milli Şurası bu gündən bütün xalqa bəyan edir:

1. Azərbaycan tam hüquqlu və müstəqil dövlətdir.

Cənubi Qafqazın cənub və şərq hissələrindən ibarətdir.

Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvlərinə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.

4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.

5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.

6. Məclisi-müəssisan çağırılana qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır».

İclasda iştirak edən bütün Milli Şura üzvləri istiqlal bəyannaməsini ayaq üstündə dinlədilər. İstiqlal Bəyannaməsinin elan olunmasında Milli Şuranın aşağıdakı üzvləri iştirak etmişlər:

Həsən bəy Ağayev, Mustafa Mahmudov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əsgər bəy Aslan bəy Qardaşov, Soltan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy

Şahtaxtinski, Firidun bəy Köçərli, Cəmo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrovpaşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Axundzadə.

M.Ə.Rəsulzadə və M.H.Hacınski hələ may ayının əvvəllərindən Türkiyə ilə aparılan sülh danışıqlarında olduqlarından bu tarixi iclasda iştirak edə bilməmişdilər.

İstiqlal Bəyannaməsi elan olunduqdan sonra Azərbaycan hökumətinin yaradılmasını Milli Şura Fətəli xan Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra F.Xoyskinin hökumətin yaradılması haqqında məruzəsini dinləmək üçün Milli Şuranın iclası öz işini davam etdirdi. İlk Azərbaycan Müvəqqəti hökuməti aşağıdakı tərkibdə yarandı:

Nazirlər Şurasının sədri və daxili işlər naziri – Fətəli xan Xoyski, Hərbi nazir – Xosrovpaşa bəy Sultanov, Xalq maarifi və maliyyə naziri – Nəsib bəy Yusifbəyli, Xarici İşlər naziri – Məmməd Həsən Hacınski, Poçt-Teleqraf və Yollar naziri – Xudat bəy Məlik-Aslanov, Əkinçilik və Əmək naziri – Əkbər ağa Şeyxülislamov, Ədliyyə naziri – Xəlil bəy Xasməmmədov, Ticarət və Sənaye naziri – Məmməd Yusif Cəfərov, Dövlət nəzarət naziri – Cəmo bəy Hacınski idi.

May ayının 30-da Azərbaycan Cümhuriyyətinin yaranması barədə məlumat radioteleqrafla bir sıra ölkələrin paytaxtlarına – İstanbul, Berlin, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Oslo və Kopenhagenə göndərildi.

Bununla da Azərbaycan Milli Şurası Azərbaycan Türk milləti qarşısında çox böyük bir tarixi missiyanı yerinə yetirdi.

Türk mənşəli bütün dövlətlər, əsasən dini təməl üzərində qurulduğu halda, Azərbaycan Respublikası dünyəvi təməl üzərində qurulan ilk türk dövləti idi. Azərbaycan milli dövlətinin yaradılması bir çox səbəblərə görə millətin taleyində tarixi hadisə idi. M.Ə.Rəsulzadə bu barədə yazırdı: «28 mayıs 1918-ci il Bəyannaməsini nəşr etməklə Azərbaycan Şurayi-millisi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Belə ki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafik və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur».

Bir çox cəhətlərinə görə 1918-ci ilin mayında Azərbaycan Respublikasının yaradılması Rusiyada, Cənubi Qafqazda və dünyada gedən sosial-siyasi proseslərin tərkib hissəsi olduğu üçün, keçmiş rus imperiyasının dağılması baxımından (digər yeni respublikaların təşəkkülü ilə birlikdə) beynəlxalq əhəmiyyətli hadisə idi.

**Türkiyə yardımı** Yeni yaranmış Azərbaycan dövlətinin ilk addımlarından biri Osmanlı imperatorluğu ilə qarşılıqlı münasibətlər yaratmaq oldu. Mayın 11-də tərkibində azərbaycanlıların da olduğu Cənubi Qafqaz hökumətinin başladığı Batum danışıqları iyunun 4-də Azərbaycanla Türkiyə arasında sülh və dostluq müqaviləsi imzalamaqla nəticələndi. «Osmanlı imperator hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq müqaviləsi»ni Türkiyə tərəfindən Ədliyyə naziri Xəlil Mentəşə, Qafqaz cəbhəsinin baş komandanı Vehib paşa, Azərbaycan tərəfindən Xarici İşlər naziri M.H.Hacınski və Milli Şuranın sədri M.Ə.Rəsulzadə imzaladılar. Müqavilənin birinci bəndində göstərilirdi ki, Osmanlı imperatorluğu ilə Azərbaycan Cümhuriyyəti arasında daima sülh və möhkəm dostluq bərqərar olacaqdır. Bu müqavilə ilə Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk xarici dövlət oldu.

Batum müqaviləsinin dördüncü bəndi Azərbaycan üçün daha əhəmiyyətli idi. Orada göstərilirdi ki, dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün, əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Cümhuriyyətinə hərbi yardım göstərməyi öz üzərinə götürər. Bu maddəyə istinad edərək Batumda olan M.Ə.Rəsulzadə və M.H.Hacınski Azərbaycan hökuməti ilə razılaşdıqdan sonra Türkiyə hökumətindən hərbi yardım istədilər. Bu müraciətə cavab olaraq iyun ayının birinci yarısında ilk Osmanlı hərbi dəstəsi Azərbaycana daxil oldu. Türkiyənin Qafqazdakı hərbi hissələrinin baş komandanı hərbi nazir Ənvər paşanın ögey qardaşı Nuru paşa öz qərargahı ilə birlikdə Gəncəyə gəldi. Bolşevik-erməni zülmündən əzab çəkən Azərbaycan xalqı Osmanlı əsgərlərini hərarətlə qarşıladı. Bu yardım ikitərəfli müqaviləyə əsaslandığından dövrün beynəlxalq hüququna və beynəlxalq münasibətlərə tam uyğun idi.

**İyun böhranı** Tiflisdəki 18 günlük fəaliyyətindən sonra Milli Şura və hökumətin Gəncəyə gəlişi o qədər də uğurlu olmadı. Bu zaman Azərbaycanın hər yerindən qaragüruhçu klerikal dairələrin nümayəndələri Gəncəyə axışmağa başladı. Onların məhdud dünyagörüşlü mürtəce hissəsi Milli Şuranın və hökumətin demokratik, inqilabi əhval-ruhiyyəli şəxslərdən təşkil olunmasından narazı idilər. Azərbaycanın müstəqilliyinin əleyhdarları olan bu dairələr Milli Şuraya qarşı fəal kampaniyaya başlayaraq Nuru Paşanı öz tərəflərinə çəkə bildilər. Mürtəce və ilhaqçı dairələr tərəfindən birtərəfli və qərəzli şəkildə məlumatlandırılmış Nuru Paşa bildirdi ki, solçulardan və müsavatçılardan daha çox mühafizəkar-islamist dairələrə rəğbət bəsləyər. O, hökumə-

tin və Milli Şuranın tamamilə buraxılmasını və onun hüquqlarının Paşanın öz arzusu ilə təşkil edəcəyi hökumətə verilməsini istəyirdi. Lakin Azərbaycanın siyasi xadimləri buna qəti şəkildə etiraz etdilər və belə bir addımın Azərbaycanı beynəlxalq münasibətlər baxımından işğal faktı qarşısında qoyacağını bildirdilər. Yalnız güclü müqavimətdən sonra Türk komandanlığı yeni hökumət kabinəsinin Milli Şura tərəfindən təşkil olunmasına, Milli Şuranın isə bütün səlahiyyətini yeni təşkil olunmuş hökumətə verib özünü buraxmasına razılıq verdi.

İyun ayının 17-də Milli Şuranın say etibarilə yeddinci iclası gərgin bir vəziyyətdə keçirildi. Sosialist bloku ilə Hümmətçilər Milli Şuranın tərkibindən çıxmaq barədə bəyanat verdilər. İclasa M.Ə.Rəsulzadə sədrlik edirdi. O, türk komandanlığı ilə danışıqları barədə məlumat verib vəziyyətdən çıxış yolunun araşdırılmasını zəruri hesab etdi. Onun çıxışında iyun ayının ortalarında Azərbaycandakı böhranlı vəziyyət, onu doğuran səbəblər Azərbaycan demokratlarının rus inqilabına (fevral inqilabına) müsbət münasibəti ətraflı şəkildə şərh edilmişdi. M.Ə.Rəsulzadə öz çıxışında Milli Şuranın buraxılmasını təklif edib göstərdi; ola bilsin ki, bu qərar sevindirici deyildir, lakin yaranmış vəziyyətlə əlaqədar biz onu qəbul etməliyik. Əgər biz yaranmış vəziyyətdən çıxış yolu tapmasaq, hakimiyyətə qaragüruhçuların keçmək təhlükəsi vardır.

Müzakirələrin nəticəsində iki qətnamə qəbul edildi. Birinci qətnamə yeni yaradılacaq Müvəqqəti hökumətin hüquq və vəzifələrinə aid idi. Orada deyilirdi ki, Müvəqqəti hökumət dövlət müstəqilliyini və mövcud siyasi azadlıqları ləğv etmək, aqrar və buna bənzər inqilabi qanunları dəyişdirmək hüququna malik deyildir, o, altı ay müddətindən gec olmayaraq Məclisi-müəssisanı çağırmağa borcludur, qalan məsələlərin idarəsində tam hüquqa malikdir. İkinci qətnamə isə Azərbaycan Milli Şurasının buraxılmasına aid idi. Milli Şura Azərbaycanın daxili və xarici vəziyyətindəki gərginliyi nəzərə alaraq bütün hakimiyyəti Fətəli xan Xoyskinin rəhbərliyi ilə təşkil edilən hökumətə verir və ona tapşırır ki, yaxın vaxtlarda çağırılacaq Məclisi-müəssisandan başqa öz hakimiyyətini heç kimə güzəştə getməsin.

Beləliklə, iyun böhranı Milli Şuranın fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə nəticələnsə də, hər halda, Milli Şura öz əsas vəzifəsini yerinə yetirmiş oldu – Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxladı.

İyunun 17-də axşam F.Xoyskinin rəhbərlik etdiyi ikinci hökumət kabinəsi yaradıldı. On iki nəfərdən ibarət olan hökumət kabinəsinə köhnə hökumətin altı üzvü və altı yeni nazir daxil edildi.

İyunun 19-da yeni hökumətdə nazir portfelləri aşağıdakı qaydada bölüşdürüldü: F.Xoyski – Nazirlər Şurasına və Ədliyyə Nazirliyinə, M.H.Hacınski – Xarici İşlər Nazirliyinə, B.Cavanşir – Daxili İşlər Nazirliyinə, X.Məlik-Aslanov – Yollar Nazirliyinə, Ə.Əmircanov – Maliyyə Nazirliyinə, X.Sultanov – Əkinçilik Nazirliyinə, N.Yusifbəyli – Xalq Maarif Nazirliyinə, A.Aşurov – Ticarət və Sənaye Nazirliyinə, X.Rəfibəyli – Xalq Səhiyyə-himayəçilik Nazirliyinə rəhbərlik etməyə başladı. Hökumət kabinəsinə daxil edilmiş Ə.Topçubaşov, X.Xasməmmədov, M.Rəfiyev portfelsiz nazir oldular. Müvəqqəti olaraq Poçt və Teleqraf Nazirliyinə rəhbərlik etmək X.Məlik-Aslanova, Ərzaq Nazirliyinə rəhbərlik etmək A.Aşurova, Nəzarət Nazirliyinə rəhbərlik etmək M.H.Hacınskiyə tapşırıldı. İyun ayının 19-da Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Osmanlıların Beşinci piyada diviziyası və general Ə.Şixlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında təşkil edilmiş İslam ordusuna tapşırıldı ki, hərbi vəziyyətə uyğun olaraq Daxili İşlər Nazirliyinin rəhbərliyi altında fəaliyyət proqramı hazırlasınlar.

Yeni yaranmış hökumətin ilk addımı Dördlər İttifaqı və Qafqaz dövlətlərinin İstanbulda keçirilməsi planlaşdırılan konfransına M.Ə.Rəsulzadə başda olmaqla nümayəndə heyəti göndərmək oldu. Gəncədə Milli dövlət aparatının yaradılması istiqamətində faydalı addımlar atıldı və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Bakını azad etmək uğrunda qəhrəmanlıqlarla zəngin olan çətin mübarizə dövrü başlandı.

## § 2. Azərbaycan Cümhuriyyətinin daxili siyasəti

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu parlamentli respublika idi. Azərbaycan dövlətçiliyinin Xalq Cümhuriyyəti formasında bərpa edilməsi Azərbaycan xalqının tarixi nailiyyəti hesab edilə bilər.

1918-ci il 28 mayda elan olunmuş İstiqlal Bəyənnaməsinə görə tam hüquqlu müstəqil dövlət olan Azərbaycanda ali hakimiyyət xalqa məxsus idi, ölkənin siyasi quruluşu Xalq Cümhuriyyəti idi. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlara siyasi hüquqlar verirdi.

Dünyəvi zəmində yaranmış Azərbaycan dövləti ilk gündən etibarən üç mühüm qayəni öz həyat idealına çevirmişdi: «Türkləşmək, İs-

lamlaşmaq və Müasirləşmək». Bu ideallar Cümhuriyyətin dövlət rəmzi olan üçrəngli bayrağında öz əksini tapmışdı. Millətin idealını özündə əks etdirən bu üç boyalı bayrağın al rəngi türklüyə, yaşıl rəngi islamlığa, mavi rəngi müasirliyə söykənirdi. Azərbaycan Cümhuriyyətinin gücü də elə bu üç amilin güclü şəkildə birləşdirilməsində idi.

**Dövlət quruculuğu**

Azərbaycanda dövlətin parlamentli respublika formasında qurulması hakimiyyətin bölünməsi prinsipində öz əksini tapırdı. Qanunverici hakimiyyət parlamentə, icraedici hakimiyyət isə hökumətə məxsus idi. Hökumət parlament qarşısında məsul idi. Azərbaycanın dövlət quruluşu haqqında M.Ə.Rəsulzadə yazırdı: «Millət məclisi, məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlanmaz, heç bir barışıq imzalanmazdı. Hökumət məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə – vəzifə də yox idi. Parlament hakimi mütləq idi».

1918-ci ilin dekabrında Azərbaycan parlamenti açılana qədər onun funksiyasını Milli Şura yerinə yetirirdi. Milli Şura bir çox cəhətlərinə görə Azərbaycan parlamentinin özəyi hesab edilə bilər. Milli Şuranın üzvləri 1917-ci ilin noyabrında Rusiya Müəssislər məclisinə seçilən müsəlman deputatları idi. Ümumi, bərabər, qapalı seçkilərdə milli partiyalar bir milyondan çox səs toplayaraq 14 deputat yeri əldə etmişdilər. Müəssislər məclisi qovulduqdan sonra Cənubi Qafqazdan seçilən deputatlar müvafiq şəkildə yerləri üç dəfə artırmaqla Cənubi Qafqaz seymini yaratdılar. Odur ki, müsəlman deputatlarının sayı səsvermənin nəticələrinə uyğun olaraq 44-ə çatdı. Onlar seymin müsəlman fraksiyasını təşkil edirdilər. Mayın 26-da seym dağıldıqda müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi və yaranmış böhranlı vəziyyətdə Azərbaycanın taleyini öz əlinə aldı. İstiqlal Bəyannaməsindən sonra Milli Şura qarşısında cavabdeh olan ilk hökumət kabinəsi yaradıldı. 1918-ci ilin iyununda yaranmış böhran Milli Şuranın fəaliyyətinin müvəqqəti dayandırılması ilə nəticələndi və Şuranın qərarı ilə Azərbaycanda bütün hakimiyyət Fətəli xan Xoyskinin başçılığı ilə yaradılmış Müvəqqəti hökumətə verildi. Bu hökumət isə Məclisi-müəssisan çağırılana qədər Azərbaycanın dövlət quruluşunu dəyişdirmək ixtiyarına malik deyildi.

Azərbaycan Müvəqqəti hökuməti hələ Gəncədə olarkən dövlət müstəqilliyini möhkəmləndirmək, dövlət atributlarını yaratmaq istiqa-

mətində faydalı addımlar atdı. Hökumətin qərarı ilə daxili işlər orqanları quruldu, ordu yaradılmasına başlandı. Keçmiş müsəlman korpusu Azərbaycan korpusu adlandırıldı. Bunun əsasında da milli ordu yaradıldı. İyul ayının əvvəllərində ölkədə səfərbərlik keçirildi və 1894–1899-cu illərdə doğulmuş vətəndaşlar orduya çağırıldı. Dövlət quruculuğuna müqavimət göstərən bütün milli komitələr ləğv və onların əmlakı müsadirə edildi. Azərbaycanda fövqəladə vəziyyət elan edildi. Hökumət kabinəsinə daxil olan bütün nazirliklərin daxili təşkilati quruluşu, onların fəaliyyət prinsipləri hökumət fərmanı ilə müəyyənləşdirildi. Avqust ayının 23-də Azərbaycan təbəəliyi haqqında qərar qəbul edildi.

Dövlət quruculuğunun gedişində milli rəmzlərin yaradılmasına xüsusi qayğı göstərilirdi. İyunun 21-də dövlət bayrağı və iyunun 27-də türk dilinin dövlət dili olması barədə hökumət fərmanları elan edildi. 28 avqust qərarı ilə məktəblər milliləşdirildi. Milli Şuranın 17 iyun qərarına uyğun olaraq Müəssislər məclisinə seçkilər keçirmək üçün 1918-ci ilin sentyabrın 14-də komissiya yaradıldı. Oktyabrın 21-də isə himayəçilik naziri Musa bəy Rəfiyev başda olmaqla komissiyanın tərkibi təsdiq edildi.

**Azərbaycan parlamenti və hökuməti**

Bakının azad edilməsinin çətinlikləri, Türkiyənin Birinci Dünya müharibəsində məğlub olmasının doğurduğu siyasi böhran, 1918-ci ilin noyabrında ingilislərin Bakıya daxil olması ümumazərbaycan Müəssislər məclisinə seçkilər keçirməyə imkan vermədi.

Belə şəraitdə, 1918-ci il noyabrın 16-da Milli Şura beş aylıq fasilədən sonra yenidən fəaliyyətə başladı və noyabrın 19-da «Azərbaycan parlamentinin yaradılması haqqında» qanun qəbul etdi. Yaranmış fövqəladə şəraitdə ümumazərbaycan Müəssislər məclisini çağırmaq mümkün olmadığı üçün Milli Şuranı ümumdövlət qanunvericilik orqanına – Azərbaycan parlamentinə çevirmək qərara alındı.

Bu qanuna əsasən təkpalatalı parlament 120 deputatdan ibarət olmalı idi. Milli Şuranın 44 üzvündən əlavə yerli müsəlman əhalisindən daha 36 deputat seçilməsi nəzərdə tutulurdu. Ölkə əhalisinin çoxmillətli tərkibi nəzərə alınaraq parlamentdə 21 yer ermənilərə, 10 yer ruslara verilməli idi. Yəhudi, alman, gürcü, polyak nümayəndələrinə hər biri üçün bir yer, Bakı həmkarlar təşkilatı üçün 2 yer nəzərdə tutulmuşdu. Son nəticədə erməni və rusların bir hissəsi onlara verilmiş yerlərdən imtina etsə də, parlament haqqında qanunda nəzərdə tutulmuş 120 deputatın əksəriyyətinin toplanması ilə dekabr ayının 7-də Azər-

baycan parlamentinin açılışı oldu. Bu ölkənin istər daxili və istərsə də beynəlxalq həyatında mühüm hadisə idi.

Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açıb böyük təbrik nitqi söyləmişdi. Tez-tez alqışlarla kəsilən nitqində M.Ə.Rəsulzadə «firqə ehtirasları, şəxsi-qərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında sofla (aşağı – *red.*) qalan qərəzləri atıb, vətən qayğısı və millət duyğusunu hər şeydən yüksək tutmağa çağırmışdı».

Məhəmməd Əmin Rəsulzadə nitqini bitirib, parlament sədrini və sədr müavinini seçməyi təklif etdi. Şəfi bəy Rüstəmbəylinin təklifi ilə bitərəf hüquqşünas, geniş dünyagörüşə malik, zəmanəsinin tanınmış siyasi xadimi Əlimərdan bəy Topçubaşov Azərbaycan parlamentinin sədri, «Müsavat» partiyasının üzvü, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Topçubaşov bu iclasda iştirak etmədiyindən (bu zaman o, İstanbulda Azərbaycan Respublikasının nümayəndəsi idi) iclasın sonrakı gedişi Həsən bəy Ağayevin sədrliyi ilə keçdi. Ona göstərilən böyük etimad müqabilində Həsən bəy parlamentə təşəkkürünü bildirib katib seçilməsini təklif etdi. Ənənəyə uyğun olaraq parlamentin ən gənc üzvü Rəhim bəy Vəkilov katib seçilmişdi.

Daha sonra parlamentin xitabət kürsüsünü Nazirlər Şurasının sədri Fətəli xan Xoyski tutub, Müvəqqəti hökumətin istefası ilə bütün hakimiyyətin parlamentə təhvil verilməsini elan etdi. Hökumətin fəaliyyətini o, dərindən təhlil edərək çıxışının sonunda bildirdi: «Hökumətin fəaliyyətində nə qədər qüsur və nöqsan olmuşsa da, yol göstərən işıqlı yıldızı bu olmuşdur: – Millətin hüququ, istiqlalı və xeyri. Parlamentin qərarı ilə hökumətin istefası qəbul edilib yeni kabinetin təşkilinə qədər ona öz işini davam etdirməsi tapşırıldı. Yeni hökumətin təşkil edilməsi yenidən Fətəli xan Xoyskiyə tapşırıldı. Dekabrın 26-da yeni hökumət kabinəsinin tərkibi elan edildi. Yeni hökumətin yaradılmasından iki gün sonra Antanta dövlətlərinin Bakıda olan nümayəndəsi V.Tomson Azərbaycan hökumətini tanıdığını bildirdi. Dekabrda təşkil edilən Azərbaycan hökuməti koalisiyalı kabinə idi. Burada üç nəfər rus naziri də təmsil edilmişdi. Koalisiyon yeni kabinə partiya prinsipi üzrə deyil, parlament fraksiyalarının hökumət başçısına və proqramına etimad prinsipi üzrə təşkil edilmişdi. 1919-cu ilin mart və dekabr aylarında olan hökumət dəyişikliyində də həmin prinsip əsas tutulmuşdu. Son iki kabinəyə «Müsavat» partiyasının liderlərindən biri olan Nəsib bəy Yusifbəyli başçılıq etdi. Onun hökumət proqramı Fətəli xan Xoyskinin

hökumət proqramının bilavasitə davamı idi. 1918-ci ilin dekabrından 1920-ci ilin aprelinə qədər müstəqil Azərbaycan hökuməti dövlət quruculuğu, milli mənafeyin və milli təhlükəsizliyin qorunması xarici siyasət, iqtisadiyyat və mədəniyyətin inkişafı baxımından tarixi əhəmiyyətli işlər gördü. Ən böyük fraksiya bitərəf demokratların müsavatçılarla birləşməsi ilə yarandı. Ona M.Ə.Rəsulzadə başçılıq edirdi. Bu fraksiyanın 38 üzvü var idi. Bitərəf demokratlardan bir neçə nəfər Müsavat fraksiyası ilə birləşmək istəmədiyindən bitərəflər (3 nəfər) və partiyasızlar (4 nəfər) fraksiyalarını yaratdılar. Müsəlman sosialistlər ittifaqı ilə hümmətin üzvləri 13 nəfərdən ibarət sosialistlər fraksiyasında birləşdilər. Fraksiyanın sədri S.Ağamalıoğlu idi.

İttihad partiyasının parlamentdə 11 nümayəndəsi var idi. Müsavat fraksiyasının əsas rəqibi hesab edilirdi. Fraksiyanın sədri Q.Qarabəyli idi. Əhrar partiyasının, rus-slavyan ittifaqının və digər milli azlıqların da parlament fraksiyası var idi.

Parlament qanunverici və icraedici hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq millət vəkilinin dövlət orqanlarında işləməsini məqbul saymadı. Dövlət qulluğunda işləyən parlament üzvü bir neçə gün ərzində iki vəzifədən birini seçib parlamenti rəyasət heyətinə birdirməli idi.

Parlamentin istifadə etdiyi dil türk dili idi. Qeyri-türk deputatların rus dilində çıxış etmələrinə icazə verilmişdi. Lakin rəsmi sənədlərin hamısı dövlət dilində – yəni türk dilində tərtib edilirdi.

Azərbaycan parlamentinin mövcud olduğu dövrdə 140-a qədər ümumi iclası olmuşdur. Həmin dövrdə cəmi 315 qanun layihəsi təqdim edilmiş, bunlardan 10–12-si rədd edilmişdi. Qalanları barədə ya qanun qəbul edilmiş, ya da onların komissiyalarda müzakirəsi davam etdirilmişdi.

Azərbaycan parlamentinin qanunvericilik və mərkəzi dövlət orqanlarını formalaşdırmaq, onların səlahiyyətini müəyyən etmək fraksiyasında başqa bu və ya digər orqanın hesabatını dinləyib, onlar haqqında müvafiq qərar qəbul etmək, eləcə də ali dövlət nəzarətini həyata keçirmək funksiyaları da var idi. Parlament iclaslarının gündəliyinin xeyli hissəsi bu məsələlərə həsr edilmiş və bu barədə xüsusi qərarlar qəbul olunmuşdu. Azərbaycan parlamenti ölkədə ali qanunvericilik orqanı hesab edildiyindən bir sıra köklü məsələlər müəssislər məclisində həll edilməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin konstitusiyası da burada qəbul edilməli idi. Müəssislər məclisinə seçkilərin əsaslarını hazırlamaq üçün parlamentdə böyük komissiya yaradılmışdı. Bu ko-

missiyaya bütün fraksiyaların nümayəndələri cəlb edilmişdi. Uzun müzakirələrdən sonra 1919-cu ilin iyulun 21-də Azərbaycan Respublikasının Müəssislər məclisinə seçkilər haqqında əsasnamə qəbul edildi. Əsasnaməyə görə Müəssislər məclisinə seçkilərdə cinsindən, dilindən, milliyyətindən asılı olmayaraq, 20 yaşına çatmış bütün respublika vətəndaşları iştirak edə bilərdilər.

Seçkilər aprelin 20-nə təyin edildi. Lakin ölkənin xarici siyasi vəziyyətinin kəskin surətdə dəyişməsi Azərbaycan Müəssislər məclisinə seçkilərin keçirilməsinə mane oldu. Parlament aprelin 27-dəki sonuncu iclasında işğal faktı qarşısında qalaraq hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında qərar qəbul etdi.

**İqtisadiyyat**

Dünya müharibəsi, daşnak və bolşevik talanları, ingilis müdaxiləsi dövründə Azərbaycanın iqtisadi həyatı tamamilə pozulmuş, onlarla şəhər, yüzlərlə kənd viran edilmiş, xeyli dərəcədə insan itkisi verilmişdi. Əslində 1918–1920-ci illərdə Azərbaycan müharibə təhlükəsi şəraitində yaşamışdır. Ona görə də iqtisadiyyatı əsaslı surətdə bərpa etmək üçün nə vaxt, nə də əsaslı vəsait olmuşdu. Lakin, bununla belə, Azərbaycanın iqtisadi vəziyyəti qonşu cümhuriyyətlərə nisbətən bir qədər yaxşı idi. Bu xeyli dərəcədə Azərbaycanın zəngin təbii ehtiyatlara malik olması ilə bağlı idi. Abşeron yarımadasında çıxarılan neft o dövrün qiymətləri ilə respublikanın xərcini ödəmək səviyyəsində idi. Azərbaycanın mis mədənləri, yeni aşkar edilmiş filiz yataqları, ənənəvi ipək emalı, pambıqtəmizləmə müəssisələri, balıq vətəgələri, əhalinin intellektual səviyyəsi, əlverişli coğrafi vəziyyəti onun güclü iqtisadi potensiala malik olmasından xəbər verirdi. Belə güclü iqtisadi potensial hesabına böyük dağıntıya və təsərrüfat çətinliklərinə baxmayaraq, 1919-cu ildə Azərbaycan dövlət büdcəsinin mədaxili ilə məxarici tarazlaşdırılmışdı.

Azərbaycan Cümhuriyyətinin ilk aylarında iqtisadi çətinliklər hədsiz idi. Əvvəlki iqtisadi bazis dağıdılmış, istehsal görünməmiş şəkildə aşağı düşmüş, istehsal vasitələri məhv edilmiş, torpaqların isə az bir qismi əkilirdi. Ölkənin sərvətləri kütləvi şəkildə xaricə daşınırdı. Belə bir şəraitdə iqtisadiyyatı bərpa etməyin böyük çətinlikləri var idi. Hökumətin ilk addımlarından biri sərvətlərin xaricə daşınmasının qarşısını almaq oldu. Ərzaq Nazirliyinin 24 iyun 1918-ci il qərarında göstərilirdi ki, əhalinin və ordunu zəruri məhsullarla təmin etmək üçün respublikadan kənara mal çıxarılması, habelə şəxsi istehlakdan lazım olan miqdardan artıq taxıl alveri qadağan edilir. Bu qərara uyğun olaraq iyunun

27-də elan edilmiş hökumət fərmanına görə taxıl və taxıl məhsullarının, pambıq, yun, dəri, ipək və onlardan hazırlanan məmulatın, metal və metal məhsullarının, heyvanların və ət məhsullarının Azərbaycandan kənara çıxarılması qadağan edildi. Bakı azad edildikdən sonra isə dövlətin sərhəd keçid məntəqələrində, dəmiryol, dəniz və çay nəqliyyatında gömrük xidməti yaradılmağa başlandı. Ticarəti və daxili bazarı dirçəltmək məqsədilə 1918-ci il avqustun 27-də azad ticarətin yaradılması haqqında fərman verildi. Fərmanda göstərilirdi ki, Azərbaycanın hüdudlarında bitən məhsulların azad ticarəti məqsədəuyğun hesab edilsin. Daxili ticarəti inkişaf etdirmək məqsədilə oktyabrın 30-da ticarət donanmasının fəaliyyətinin bərpası haqqında qərar qəbul edildi.

Azərbaycan hökuməti Bakıya gəldikdən sonra birinci olaraq neft sənayesinin dirçəldilməsinə diqqət yetirməyə başladı. Oktyabrın 1-də elan edilmiş hökumət fərmanı ilə neft sənayesinin və ticarət donanmasının «milliləşdirilməsinə» aid Bakı Sovetinin qəbul etdiyi bütün qərarlar ləğv edildi. Mədənlər, zavodlar, gəmilər və neft sənayesi ilə bağlı «milliləşdirilmiş» bütün mülkiyyət əvvəlki sahiblərinə qaytarıldı. Hüquqları bərpa edilmiş sənayeçilər bu fərmana uyğun olaraq neft və neft məhsullarının ehtiyatı, habelə dağıdılmış müəssisələrin ehtiyacı barədə Ticarət və Sənaye Nazirliyinə məlumat verməli idilər. Hökumət mədən sənayesinin əvvəlki sahiblərinə qaytarılması və bütün müəssisələr üzərində dövlət nəzarətini həyata keçirmək üçün xüsusi komissiya yaratdı. Daxili bazarda və xarici ticarətdə neftin qiymətinin müəyyənləşdirilməsini dövlət öz əlində saxlayırdı. Artıq 1919-cu ilin yayından başlayaraq xarici firmalar neft alınması ilə bağlı Azərbaycan hökuməti ilə iqtisadi sazişlər, ticarət kontraktları bağlamağa başladılar.

Bakı neftinin dünya qiymətləri ilə Avropa ölkələrinə daşınması üçün Versal müqaviləsinin 89-cu paraqrafına uyğun olaraq Azərbaycana Batum limanından istifadə etmək hüququ verildi.

Hökumətin iqtisadi siyasətində sosial məsələlər, xüsusilə fəhlə məsələsi başlıca yer tuturdu.

Azərbaycan parlamentinin açılmasına dair bəyannamə ilə çıxış edən «Müsavat» partiyasının fəhlə məsələsinə dair maraqlı proqramı var idi. Bu proqramda deyilirdi: Partiya 8 saatlıq iş gününə tərəfdardır; hər bir zəhmətkeş həftədə bir günlük istirahət hüququna malikdir; gecə işləri qadağan edilir; məktəbyaşlı uşaqların (16 yaşa qədər) işə cəlb edilməsi qadağan edilir; 16–18 yaşlı şəxslərin iş günü 6 saatdan artıq ola bilməz; qadınlara ancaq onların sağlamlığına ziyan gətirməyən

işdə çalışmağa icazə verilir; qadın əməyi tətbiq edilən müəssisələrdə südəmər uşaqlar üçün körpələr evi olmalıdır; fəhlələrin iş qabiliyyətinin tam və qismən itirilməsi ilə bağlı onların sığortası kapitalistlərdən yığılan vergilər hesabına yaradılmış xüsusi fonddan ödənilməlidir; bütün müəssisələrdə fabrik müfəttişliyi təyin edilməlidir, fəhlə mənzillərinin sanitariya və gigiyena vəziyyəti, fəhlə nümayəndələrinin iştirakı ilə yerli idarəetmə orqanları tərəfindən yoxlanılmalıdır; sahibkarlardan asılı olmayaraq, hər bir fabrik, zavod və digər müəssisələrdə sanitar nəzarətçiləri olmalıdır; fəhlələr haqqında qanunları pozan sahibkarlar məsuliyyətə cəlb olunmalıdırlar; hər bir müəssisədə meydana çıxan münaqişənin həll edilməsi üçün fəhlələr və sahibkarlar tərəfindən eyni miqdarda nümayəndələrdən ibarət komissiya təşkil edilməlidir; fəhlə təşkilatlarının nümayəndələri ilə əmək birjası təşkil edilməlidir və s.

«Müsavat» partiyasının inqilabi məzmuna malik fəhlə proqramını həyata keçirmək bir sıra çətinliklərlə qarşılaşsa da, az-çox sabitliyə nail olunduqdan sonra bu proqram hökumətin sosial siyasətinin özəyini təşkil edirdi. Əmək Nazirliyinin razılığı olmadan fəhlələrin kütləvi şəkildə işdən çıxarılması qadağan edilmişdi. Hökumətin iqtisadi siyasətinin ən mühüm sahəsini aqrar məsələ təşkil edirdi. Bu Azərbaycan əhalisinin üçdə iki hissəsindən çoxunun kənddə yaşaması ilə bağlı idi. Azərbaycanda hərc-mərcliyin hökm sürdüyü bir dövrdə hökumət 22 iyun 1918-ci il fərmanı ilə Müəssislər məclisi çağırılana qədər Cənubi Qafqaz seyminin torpaqları kəndlilərə vermək haqqında qanununu dayandırdı. Aqrar məsələyə münasibətdə hökumətin daxilində ziddiyyət olmasına baxmayaraq, ümumilikdə dövlətin kəndli siyasəti mütərəqqi məzmuna malik idi. Parlamentin ikinci iclasında müsavat fraksiyası torpaq haqqında belə bir bəyanatla çıxış etmişdi. İstər mülkədarlara, istərsə də keçmiş rus dövlət xəzinəsinə məxsus olmasından asılı olmayaraq, bütün torpaqlar əvəzsiz olaraq kəndlilərə paylanmalıdır; kəndlilərə onlara verilmiş torpağın sahibi olmaq hüququ təsdiq edilməli və torpaq əməkçi kəndlinin tam mülkiyyətinə keçməlidir; kəndlilərin xüsusi mülkiyyətinə keçmiş torpaq sahələrinin hüdudları müəyyən edilmiş maksimum normadan artıq olmamalı idi; torpağı müsadirə edilənlərə və həmin torpaqlara sərmayə sərf edənlərə əmlak vergilərindən əldə olunan gəlir hesabına mükafat verilməlidir (yəni əvəzi ödənilməlidir).

Şübhəsiz ki, aqrar məsələnin belə qoyuluşu torpaq sahibkarlarının müqaviməti ilə qarşılaşdı. Ona görə də bu proqramı həyata keçirmək o

qədər də asan deyildi. Milli hökumət dövründə Azərbaycanda yararlı torpaq sahələrinin 30%-i xəzinəyə, 50%-i kəndlilərə, 20%-i mülkədarlara məxsus idi. Kəndlinin torpağa olan arzusu hökumətin səbrindən daha böyük olduğu üçün, rus inqilabının təsir etdiyi ərazilərdə kəndli çıxışları müşahidə edilirdi.

1920-ci ilin martında milli hökumət aqrar siyasətlə bağlı Əmək Nazirliyinin aqrar şöbəsinin hazırladığı qanun layihəsini müzakirə etdi. Azərbaycan kəndində yaşayan bütün əhalinin torpaqla təmin edilməsi (kəndlilər üçün 7 desyatindən – 50 desyatinə qədər, şəhər əhalisi üçün 1 desyatindən – 12 desyatinə qədər) qanun layihəsinin əsas qayəsini təşkil edirdi. Lakin bu işlər həyata keçirilmədi.

Beləliklə, çox çətin şəraitdə yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin hüdudlarında olan milli sərvətlərə sahib çıxmış və Azərbaycan xalqının mənafeyinə uyğun istifadə edə bilmişdi.

## § 3. Azərbaycan milli ordusu

**Milli ordunun yaradılması**

Azərbaycan Cümhuriyyətinin uğurlu addımlarından biri milli ordunun yaradılması oldu. Bu cəhətdən Azərbaycanın vəziyyəti Cənubi Qafqaz respublikalarına nisbətən xeyli ağır idi. İmperiya dağıldıqda, demək olar ki, azərbaycanlıların ixtiyarında milli hərbi hissələr yox dərəcəsində idi. Çar Rusiyasının müsəlman xalqlarına həqarətli münasibəti, onların orduda xidmətdən «azad» edilməsi bu xalqların hərbi işləri yadırğamasına gətirib çıxarmışdı.

1917-ci ilin dekabrında Rusiya ilə Türkiyə arasında imzalanmış Ərzincan barışığından sonra rus qoşunları Qafqaz cəbhəsindən geri çəkilməyə başladı. Əslində bu cəbhə Rusiya üçün dağıldı. Cənubi Qafqaz hökuməti 1917-ci ilin dekabrında Qafqazda olan rus ordusunun tərksilah olunması haqqında əmr verdi və həmin əmrə əsasən Qafqazda olan hərbi hissələr yalnız milli korpuslar halında saxlanıldı.

Ordunun milli zəmində yaradılması komissarlığa daxil olan millətlərin hərbi şurasının yaradılması ilə nəticələndi. Hərbi şura hökumət strukturunda yeganə orqan idi ki, cəbhədən qayıdarkən fərarilik edən rus ordusunun soyğunçuluğunun qarşısını almağa cəhd göstərirdi.

Erməni və gürcü milli ordusu hissələrinin yaradılması bir qədər asanlıqla oldu, çünki Qafqaz cəbhəsində rus ordusunun tərkibində onlar, xüsusən ermənilər könüllü hərbi dəstələr adı ilə fəaliyyət göstərir-

dilər. Onlar üçün ordunun özəyini təşkil edən zabit heyətini də qısa müddətdə yaratmaq mümkün idi. Lakin erməni və gürcü milli korpusları türklərdən müdafiə olunmaq zərurətindən yarandısa da, çox vaxt daxili milli münaqişələrdə iştirak edirdi. Xüsusən yarandığı gündən etibarən rəhbərliyi avantürist və qatı millətçi dairələrin əlində olan 17 min nəfərlik erməni hərbi hissələri Azərbaycan türklərinə qarşı terror əməliyyatına başladılar.

Qafqaz cəbhəsinin komandanı Vehib paşa general Odişelidzeyə və Prjevalskiyə müraciət edərək müsəlman əhalisinə qarşı törədilən cinayətləri, hətta bəzi adamların diri-diri yandırılması barədə vəhşilikləri xatırlatdı. Yanvar ayı ərzində 1500 nəfər müsəlman əhalisinin öldürülməsi türk komandanlığında ciddi narazılıq yaratmışdı. Erməni hərbi hissələrinin belə vəhşilikləri xeyli dərəcədə «Qafqaz çərçivəsində türklərin qüvvəsi yoxdur» fikrinə inamdan irəli gəlmişdi. Ərzincan danışıqlarında iştirak edən Camalyan təsdiq edirdi ki, «bütün demorkasiya xətti boyunca onlar bir nəfər də türk əsgəri ilə qarşılaşmamışlar, hamı aclıq və soyuqdan qaçmışdır». Əlverişli məqamdan istifadə etmək üçün komissarlıq tərəfindən general-mayor titulu almış Andronik erməni xalqının milli hissləri ilə oynayaraq belə bir çağırışla çıxış etmişdi: «Erməni xalqı ya onun xalq qəhrəmanı adını geri alsın, ya da ona o qədər döyüşçü versin ki, o, vətən qarşısında öz borcunu şərəflə yerinə yetirsin». Cəzasız qalacaqlarına əmin olan daşnak hərbi hissələri «dənizdən dənizə Erməni dövləti yaratmaq» sərsəm iddiası altında yerli türk əhalisinə qarşı açıq vəhşiliklərə əl atdı.

Bu vəhşiliklərə münasibətdə Cənubi Qafqaz hökumətinin tərəddüdləri Tükiyəni işə qarışmağa sövq edirdi. Fevral ayının 12-də Türk komandanlığı ermənilərin törətdiyi vəhşiliklərin davam etdirildiyini bir daha xatırladıb Türk ordusunun müsəlmanların qırılmasında, sadəcə, müşahidəçi olmayacağını bildirdi. Vehib Paşa öz ordusuna hücum etmək əmri verdi. Yerli əhalinin qırğınında fərqlənən erməni ordu hissələri müharibədə döyüş qabiliyyətinə malik olmadıqlarını nümayiş etdirdilər. Ərzurumun müdafiəsinə cavabdeh olan Andronik erməni ordusunun kütləvi fərariliyinin qarşısını ala bilmədi. Sayca üstün olmalarına baxmayaraq, ermənilər, demək olar ki, Ərzurumu və Qarsı döyüşsüz verməli oldular. Lakin Qarsın müdafiəçiləri və oradan çıxan silahlı ermənilər intiqam hissini yol boyu yerli türk əhalisinə qarşı zorakılıq və terror hesabına soyutmağa başladılar. Qarsdan sonra zorakılıq dalğası İrəvan quberniyasına keçdi. Qısa müddətdə Qars vilayətində 82,

İrəvan quberniyasında 211 müsəlman kəndi yandırıldı, əhalisinin bir hissəsi qırıldı, qalan hissəsi isə didərgin düşdü. İrəvan quberniyasında olan qaçqınların sayı 80 min nəfəri keçirdi. Qars vilayətində ermənilərin törətdikləri vəhşilikləri ermənilərlə bərabər Qarsı tərk etmiş yunanlar belə təsvir edirdilər: «Türk ordusu qarşısında geri çəkilən silahlı erməni qaçqınları ətrafdakı müsəlman kəndlərini yer üzündən silərək hər bir şeyi atəş və qılıncdan keçirir, təsəvvürə gəlməz bir dəhşət və fəlakət törətdilər. «Qalib» erməni ordusu hərbi qənimətləri, yəni süngü ucuna taxılmış südəmər uşaqlarla keçdikləri yolların ətrafında soyundurulmuş müsəlman qadınlarını düzürdülər. Bu cəhənnəm əzabından ağlını itirmiş qadın və uşaqların ürək parçalayan iniltilərini, qocaların ümidsiz nalələrini dinləmək üçün adamın qəlbi daş olmalıydı. Səksən iki kənddən ibarət bir sancaq bu təsvir edilən fəlakətə düçar olmuşdur». Sənəddə göstərilir ki, general Areşevin və kapitan Movsesyanın dəstələrinin vəhşilikləri nəticəsində Qars vilayəti 1915-ci ilin əvvəllərindəki faciəni xatırladırdı. İndi bütün Qars vilayəti nəhəng bir qəbiristanlığı xatırladırdı ki, onun hər bir daşı həmişəlik insan simasını itirmiş erməni quldurlarının vəhşilikləri, əxlaqsızlıqları və həyasızlıqları barədə şahidlik edə bilər.

Digər tərəfdən isə 1917-ci ilin axırlarında tərxis olunan rus ordusunun vətənə qayıtması ciddi bir problemə çevrilmişdi. Geri qayıdan silahlı rus əsgərləri aclıq və səfalət içində olduğu üçün keçdiyi yol boyunca talançılıqla məşğul olurdu. Ordunun qayıtmasından isə ən çox ziyan çəkən Azərbaycan əhalisi idi. Hətta rus müəllifləri də etiraf edirlər ki, qəzəblənmiş və dağılmış rus ordusu cəbhədən qayıdan zaman, əsasən müsəlman əhalisini soyur və talayırdılar. Bu əməliyyat zamanı 200 müsəlman kəndi dağıdılmışdı. Göründüyü kimi, ordunun olmaması Azərbaycan türklərinə görünməmiş müsibətlər gətirmişdi.

Bu təhlükəni Azərbaycanın qabaqcıl siyasi xadimləri artıq 1917-ci ilin əvvəllərində hiss edirdilər və ona görə də Fevral inqilabından sonra onlar Müvəqqəti hökumətə müraciət edərək Milli Ordunun yaradılmasına icazə istədilər. Lakin müsbət cavab almadılar. 1917-ci ilin payızında baş verən məlum hadisələrdən sonra Müsəlman Milli fraksiyası Milli ordunun yaradılması istiqamətində əhəmiyyətli addımlar atdı. Milli fraksiyanın təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə müsəlman hərbçilərinin yığıncaqları keçirildi. Hərbi hissələrin yaradılması böyük çətinliklərlə qarşılaşdı. Ordunu yaratmaq üçün zəruri olan zabit heyəti çatışmırdı, silah və hərbi sursat isə yox dərəcə-

sində idi. Azərbaycan milli hərbi korpusunun əsasını Petroqraddan köçürülən «vəhşi diviziya»nın tatar süvari polku təşkil edirdi. General Ə.Şıxlinski ümumi komandanlığı öz üzərinə götürdü. Qafqaz cəbhəsindən tərxis olunan zabitlər, ilk növbədə isə müsəlmanlar milli qoşun birləşməsinə götürüldü. 1917-ci ilin payızında Bakıda kadet məktəbində yerli zabit kadrlarının hazırlanması işinə də başlanıldı. Çətinlik bir də onunla bağlı idi ki, Ermənistan və Gürcüstandan fərqli olaraq Azərbaycanın əsas sənaye şəhəri olan Bakı bolşeviklərin nəzarəti altında olduğundan bolşeviklər milli hərbi hissələrin yaradılmasına güclü müqavimət göstərib, ordunu sinfi əlamət üzrə yaratmaq istəyirdilər və bu da qüvvələri parçalayırdı.

Müstəqilliyini elan edən Azərbaycan Cənubi Qafqaz hərbi qüvvələrində xidmət göstərən azərbaycanlı korpusu ilə birgə seymdən çıxdı. Yeni yaranmış respublika müsəlman könüllü dəstələrindən ibarət 600 nəfərlik hərbi hissəyə malik idi. Bu qüvvə ilə öz müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti nə öz ərazi bütövlüyünü, nə də suverenliyini qoruya bilərdi. Ona görə də 1918-ci ilin 4 iyun müqaviləsi əsasında Osmanlı dövlətindən hərbi yardım alındı və Azərbaycan ordusunun yaradılmasını sürətləndirmək üçün Türkiyədən hərbi müşavirlər dəvət edildi.

Azərbaycan hökuməti 1918-ci il iyunun 19-da bütün ölkədə hərbi vəziyyət elan etməklə ordu quruculuğunu daha da sürətləndirdi. Müsəlman korpusu «əlahiddə Azərbaycan korpusu» adlandırıldı və burada xidmət edəcək zabit kadrları hazırlamaq üçün qısamüddətli kurslar açıldı.

1918-ci ilin avqustunda hökumət fərmanı ilə hərbi səfərbərlik başlandı. Orada göstərilirdi:

19 yaşı tamam olmuş şəxslər hərbi qulluğa çağırılmaq üçün çağırışçı hesab edilsinlər:

a) 1894–1899-cu illərdə anadan olmuş müsəlman dininə etiqad edən, Azərbaycan Cümhuriyyətinin bütün vətəndaşları Azərbaycan ordusuna hərbi xidmətə çağırılsınlar;

b) hərbi qulluğa çağırışa tabe olmayanlar müharibə dövrünün hərbi qanunları ilə mühakimə olunsunlar.

Orduda xidmət edən hər bir sıravi əsgər üçün 50 man., yefreytor üçün 60 man., kiçik unter zabiti üçün 90 man. və feldfebel üçün 120 man. miqdarında aylıq maaş müəyyən edilmişdi. Bununla yanaşı, hərbçilər üçün də aylıq maaşa əlavə verilirdi.

1918-ci il avqustun 1-də Azərbaycan Respublikasının Hərbi Nazirliyi təsis edildi və dərhal da nazirliyi yaratmaq üçün 10 milyon man verildi.

İngilislər Bakıya daxil olduqdan sonra Azərbaycan ordusunun qərargahı Gəncəyə köçürüldü. İstedadlı general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əlağa Şıxlinski hərbi nazirin müavini, az sonra Krım hökumətinin keçmiş başçısı general Süleyman Sulkeviç Azərbaycan ordusunun baş qərargahının rəisi təyin edildi.

1919-cu il üçün 25 min nəfərlik müntəzəm milli ordu yaratmaq vəzifəsi irəli sürüldü. Bu məqsədlə dövlət büdcəsindən 400 milyon manat vəsait ayrılmışdı. 1919-cu ilin yazında milli ordunun qərargahı yenidən Bakıya qaytarıldı.

Şimaldan Denikin təhlükəsinin qüvvətlənməsi milli ordunun döyüş qabiliyyətinin, texniki təchizatının gücləndirilməsini zəruri edirdi. Bu təhlükə ilə bağlı 1919-cu il iyunun 11-də Azərbaycanda ikinci dəfə hərbi vəziyyət elan edildi və yeni yaranmış Dövlət müdafiə komitəsi hərbi vəziyyətin tələblərinə uyğun ümumi qərarlar hazırladı və Şimal sərhədləri möhkəmləndirildi. İyun ayının 16-da isə Gürcüstanla Azərbaycan arasında hərbi müdafiə paktı imzalandı. Bu pakta görə Denikin təcavüzünə məruz qalan tərəf müttəfiqinin hərbi yardımına ümid edə bilərdi. Paktın imzalanmasından bir qədər sonra Gürcüstan tərəfindən əvəzi neft və neft məhsulları ilə ödənilmək şərti ilə Azərbaycan ordusuna silah, top və başqa hərbi ləvazimat verilməsi, Azərbaycan ordusuna gürcü zabitləri göndərilməsi, Azərbaycandan zabit və əsgərlərin Gürcüstandakı mövcud məktəblərə qəbulu və s. haqqında gizli müqavilə bağlanır. Müqavilənin şərtlərinə əsasən tezliklə general Murad Girey Tlexasın başçılığı ilə Tiflisə hərbi komissiya göndərilir. Bu komissiya gürcülərdən 12 kiçik top, 12 dağ topu və bunlara lazımi qədər mərmi, 3000 beşatılan tüfəng, 211 topçu və süvari qılıncı, 795 nizə, 24 pulemyot, səfər mətbəxi və başqa hərbi ləvazimat aldı.

Denikin təhlükəsinə qarşı mübarizə tədbirlərinə Azərbaycan ordusunda qulluq edən rus zabitlərinin Azərbaycanın istiqlaliyyətinə loyallığını yoxlamaq da daxil idi. İlkin yoxlamalar göstərdi ki, bu zabitlərin xeyli hissəsi general Denikinə rəğbətlə yanaşır, hətta onun xeyrinə Azərbaycanda casusluqla məşğuldular. Azərbaycan ordusunda Denikinin casusluq təşkilatı aşkar edildi, rus zabitlərinin xeyli hissəsi milli ordudan xaric olunub, Azərbaycandan sürgün edildilər.

Gənc Azərbaycan ordusunun ilk hərbi təcrübəsi 1919-cu ildə Zəngəzura təcavüz edən erməni quldur dəstələrinin müqavimətini qırmaq

və Muğanda milli hökumətə qarşı qaldırılmış «molokan qiyamını» yatırmaq oldu. Muğana göndərilmiş general Həbib Səlimovun iki alayı polkovnik İlyaşeviçin hərbi dəstələrini darmadağın etdikdən sonra hərbi nazirin əmrində deyildiyi kimi, «Muğan və Lənkəranın ana yurd Azərbaycana qaytarılması» başa çatdı və hərbi qənimət kimi bir təyyarə, 24 top və 60 pulemyot ələ keçirildi.

Azərbaycan ordusu öz gücünü Qarabağda Əsgəran müharibəsi adlanan döyüşdə xüsusilə göstərdi. 1920-ci ilin martında Novruz bayramı gecəsi ermənilər qiyam qaldıraraq Əsgəran keçidini tutdular. Qiyamçılara Ermənistandan göndərilən nizami ordu kömək edirdi. Əsgəranı tutmaqla ermənilər Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq istəyirdilər. Qiyamı yatırmaq üçün Azərbaycan hökuməti Əsgəran istiqamətində Həbib Səlimovun başçılığı ilə qoşun göndərdi. 1920-ci il aprelin 3-də səhər tezdən Azərbaycan ordusu hücuma keçib ermənilərə zərbə vurdu. Əsgəran qalası üzərində yenə də Azərbaycan bayrağı dalğalanmağa başladı. Ertəsi gün Şuşa qalası da qiyamçılardan təmizlənərək gözətçi əsgərlərə təhvil verildi.

Azərbaycan ordusunun döyüş əməliyyatları qiyamçıların və nizami erməni hissələrinin məğlubiyyəti ilə nəticələndi. Qarabağ qiyamı yatırıldı. Hərbi nazir general Mehmandarov əsgərlərə müraciətində demişdi. «Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində, bir çox müharibələrdə oldum, fəqət sizin qədər qəhrəman əsgərlərə nadirən təsadüf etdim. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu mühafizə etdiniz».

Ordunun yaranma prosesi 1920-ci ilin yanvarı üçün əsasən başa çatdırıldı və 40 minlik nizami Azərbaycan ordusu yaradıldı. Onun 30 mini piyada, on mini isə süvari qoşun hissələrindən ibarət idi.

Azərbaycan Ordusunun rəhbərliyi peşəkar hərbçilərlə möhkəmləndirilmişdi. Dünya şöhrətli S.Mehmandarov, Ə.Şıxlinski, H.Naxçıvanskilə yanaşı, tanınmış yüksək rütbəli hərbi mütəxəssislərdən – İbrahim ağa Usubov, İbrahim ağa Vəkilov, Həmid Qaydabaşı, Kazım Qacar, Murad Girey Tlexas, Süleyman bəy Sulkeviç, İsrafil bəy Yadigarov, Cavad Şıxlinski, Həbib Səlimov və digər generalların Azərbaycan milli ordusunun yaradılmasında və möhkəmləndirilməsində əvəzsiz xidmətləri olub.

1919-cu ilin yayında Bakını tərk edən ingilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatı və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə verdilər. İngi-

lislərin verdiyi gəmilər əsasında Azərbaycan Xəzər donanması yaradıldı. Azərbaycan hökumətinin öz dəniz sərhədlərini qorumaqla bağlı atdığı bu mühüm addım az sonra Denikinin rəhbərlik etdiyi Cənubi Rusiyanın Silahlı qüvvələrinin etirazına səbəb oldu. Könüllü ordunun dəniz donanmasının vitse-admiralı Gerasimovun Azərbaycan hökumətinə verdiyi Notada Azərbaycan Xəzər donanmasının ləğv edilməsi tələb edilirdi. Notada deyilirdi ki, Xəzərdə hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsusdur. Bu əsassız Notanı Azərbaycan dövlət müdafiə komitəsi öz iclasında müzakirə edərək Xarici İşlər Nazirliyinə tapşırdı ki, Cənubi Rusiya silahlı qüvvələrinin Baş komandanlığının nümayəndəsinə bildirsin ki, Azərbaycanın limanları və ticarət gəmiləri vardır və bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir. Eyni zamanda Dövlət Müdafiə Komitəsi rusların belə tələblərini Azərbaycanın suveren hüquqlarına qarşı yönəlmiş akt kimi qiymətləndirdi və Xarici İşlər Nazirliyinə tapşırdı ki, bu məsələ ilə bağlı müttəfiqlərin Ali komissarları qarşısında etiraz notası ilə çıxış etsin.

Buna uyğun olaraq Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ, Böyük Britaniya və İtaliyanın Cənubi Qafqazda olan missiyalarına etiraz notası verdi və özünün Tiflisdə, Parisdə, Kuban hökumətində olan diplomatik nümayəndələrinə məlumat göndərdi ki, mümkün olan diplomatik vasitələrlə könüllü ordunun Azərbaycan hərbi donanmasının yaradılmasına qarşı yönəldilmiş təcavüzkar məqsədlərini dəf etsinlər. Kuban hökumətindəki diplomatik nümayəndə C.B.Rüstəmbəyov vasitəsilə general Denikinə çatdırıldı ki, öz milli donanması olan Azərbaycan hökuməti razı ola bilməz ki, onun donanması özgə bayrağı altında üzsün.

1919-cu ilin axırları – 1920-ci ilin əvvəllərində hərbi nazirlik donanma yaratmaq sahəsində də xeyli iş görmüşdü.

1919-cu ilin sonunda bir neçə hərbi gəmi və sualtı qayıq Xəzər sularında dövlətimizin sərhədlərini qoruyurdu. General İ.Usubovun başçılıq etdiyi Azərbaycan hərbi missiyası donanma üçün xaricdən 6 birtoplu qırıcı-kater, 12 qırıcı-kater, 6 sualtı qayıq, 92 gəmi topu, 10 sahil topu, simsiz teleqraf qurğuları və s. almışdı.

## § 4. Azərbaycan Cümhuriyyətinin xarici siyasəti

Yeni müstəqillik qazanmış Azərbaycan Cümhuriyyəti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirirdi. Çünki istiqlaliyyətin qorunub saxlanması təkcə daxili amillərlə deyil, daha çox xarici amillərlə bağlı idi. Dünya müharibəsinin getdiyi mürəkkəb beynəlxalq şəraitdə, vuruşan ölkələrin Qafqaz – onun zəngin guşələrindən olan Azərbaycan uğrunda hərbi əməliyyatlarının genişləndiyi dövrdə Azərbaycanın müstəqilliyini qorumaq XX əsrdə ilk addımlarını atan diplomatiyamızdan xüsusi bacarıq, çeviklik, hər an dəyişən vəziyyətə uyğun siyasi manevr tələb edirdi. Bu çətin vəzifənin öhdəsindən gəlmək üçün 1918–20-ci illərdə yaradılmış müxtəlif hökumət kabinələrində Xarici İşlər Nazirliyinin möhkəmləndirilməsinə, onun təşkilatı strukturunun təkmilləşdirilməsinə böyük diqqət yetirilirdi.

Bu dövrdə xarici siyasət idarəsinə dövrünün qabaqcıl ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik Fətəli xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlı başçılıq etmişdir. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, C.Hacıbəyli, İ.Mehdiyev, İ.Məhərrəmov, Ə.Haqverdiyev, Y.Vəzir və digərləri yaxından iştirak etmişlər.

Qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olub, onun çıxış nöqtəsini təşkil edirdi. Böyük dünya siyasəti baxımından Azərbaycan Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci il may–oktyabr), Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr – 1920-ci il yanvar), geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü (1920-ci il yanvar-aprel).

**Azərbaycan–Türkiyə əməkdaşlığı**

Azərbaycanın milli-azadlıq mübarizəsində öncüllərimiz Osmanlı dövlətinə böyük ümid bəsləyirdilər.

Dünya müharibəsinin son mərhələsində Azərbaycan türklərinin müstəqillik arzusu Türkiyənin Qafqaz siyasəti ilə çarpazlaşmadığından tərəflər arasında bir-birinə olan təbii meyil, onların sosial-siyasi, hərbi-iqtisadi əməkdaşlığında maddiləşməklə yeni mərhələyə daxil oldu. Bu yeni mərhələnin səciyyəvi cəhəti ondan ibarət idi ki, Azərbaycan türklərinin Osmanlı dövlətinə söykənməyi milli idealla yanaşı, xeyli dərə-

cədə millətin fiziki varlığının xilas edilməsi zərurətindən irəli gəlirdi. Çünki 1918-ci ilin bolşevik yazı Azərbaycan türklərinə görünməmiş müsibətlər gətirmişdi.

1918-ci ilin əvvəllərində Trabzon və Batum danışıqları Cənubi Qafqaz seyminə daxil olan xalqların Türkiyəyə münasibətdə köklü fikir ayrılıqlarını üzə çıxartdı. Trabzon danışıqları dayandırıldıqdan sonra Batuma səfər edən Ənvər Paşa Trabzonda Cənubi Qafqaz sülh heyətinin üzvü M.H.Hacınski ilə danışıqlarında bu hökumətin dağılacağı təqdirdə Türkiyə ilə geniş sərhədləri olan müstəqil Azərbaycan dövlətinin yaradılmasına tərəfdar olduğunu və bu dövlətin Türkiyə tərəfindən müdafiə ediləcəyini bildirdi. Mayın 28-də Azərbaycan Cümhuriyyətinin yaradılması ilə Azərbaycan–Türkiyə münasibətləri yeni mərhələyə, dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu.

Bu mərhələdə Azərbaycan–Türkiyə münasibətlərinin hüquqi əsasını 4 iyunda imzalanmış Batum müqaviləsi təşkil edir. Müqavilədə göstərilirdi: «Bir tərəfdən Osmanlı imperator hökuməti, digər tərəfdən isə müstəqilliyini elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə qarşılıqlı surətdə razılığa gəlirlər». 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan çoxtərəfli sazişlər Azərbaycan–Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi. Azərbaycanın taleyində mühüm rol oynayan 4 iyun müqaviləsi əsasında hələ Batumda olan M.Ə.Rəsulzadə və M.H.Hacınski xarici hərbi müdaxiləyə son qoymaq və daxili asayişi qorumaq məqsədilə hərbi yardım göstərilməsi barədə Türkiyəyə Azərbaycan tərəfinin müraciəti qəbul edildi. Osmanlı hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət «İslam Ordusu» yaradıldı.

Azərbaycan–Türkiyə münasibətlərinin inkişafında 1918-ci ilin iyununda keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilməsinin böyük əhəmiyyəti oldu. Nümayəndə heyətinə səlahiyyət verilmişdi ki, İstanbul beynəlxalq konfransına dəvət edilmiş Osmanlı, Almaniya, Avstriya–Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar dövlətlərinin nümayəndələri ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparsınlar və müqavilələr bağlasınlar. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu. İyun ayının axırlarından oktyabrın axırlarına qədər Azərbaycan nümayəndələri

Osmanlı və İstanbulda olan digər dövlətlərin nümayəndələri ilə səmərəli danışıqlar apardılar.

Sentyabrın əvvəllərində Azərbaycan nümayəndələri Tələt Paşa tərəfindən qəbul edildi. Danışıqlar zamanı Tələt Paşanın Berlinə səfəri ərəfəsində Bakı məsələsində Almaniyanın tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə edildi.

Az sonra Berlinə gedən Tələt Paşa təcili şəkildə 27 avqust sazişini ləğv etməsini Almaniyadan tələb etdi.

Sentyabrın 6-da isə Azərbaycan nümayəndələri Sultan VI Mehmed Vahideddin tərəfindən qəbul edildi. Həmin gün Sultan taxta çıxması münasibətilə İstanbulda olan diplomatik nümayəndələr üçün audiyensiya təşkil etmişdi. Gözləmə zalında bir çox xarici nümayəndəliklərin olmasına baxmayaraq, Sultanın şəxsi təşəbbüsü ilə birinci Azərbaycan nümayəndələri qəbul edildilər. Azərbaycan nümayəndələrini Ənvər Paşa qarşılayıb Sultana təqdim etdi. Azərbaycan Respublikası adından VI Mehmedi təbrik edən M.Ə.Rəsulzadə yüzillik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz istiqlaliyyətini və hürriyyətini qoruyub saxlamaq yolunda qardaş Türkiyəyə arxalandığını bildirdi. Sultan cavabında qeyd etdi: «Sevimli Azərbaycanımızın nümayəndələri tərəfindən təbrik edildiyimi həyatımda xoşbəxt bir hadisə kimi qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir. Azərbaycanın həyat və qüvvət kəsb edərək bizimlə birlikdə ümumi düşmənlərimizə qalib gələcəyinə ümid edirəm. Salamımın bütün Azərbaycan qardaşlara çatmasını arzu edirəm».

Bu qəbul barədə Azərbaycan hökumətinə məlumat verən M.Ə.Rəsulzadə yazırdı: «Biz çıxanda Sultanın Ənvər Paşa həzrətlərinə yaxınlaşaraq «bu dəqiqələr ömrümün ən xoşbəxt dəqiqələridir» dediyini eşitdik və bundan köksümüz iftixarla doldu».

Azərbaycan–Türkiyə münasibətlərinin inkişafında Ə.Topçubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başladı.

Berlin danışıqlarından sonra oktyabrın 2-də Ə.Topçubaşovu qəbul edən Tələt Paşa məlumat verərkən bildirmişdi ki, Azərbaycanın mənafeyi naminə nə mümkündürsə hamısını etmişdir. Danışıqlar zamanı Tələt Paşa Berlindəki rus səfiri V.A.İoffenin Azərbaycana münasibətdə qərəzli mövqeyini də açıqladı.

1918-ci ilin sentyabrında Ə.Topçubaşov oktyabr ayı ərzində İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin 1918-ci ilin payızında Dördlər İttifaqı məğlub oldu. Oktyabr ayının 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Respublikası üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Barışığın on birinci maddəsinə görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, on beşinci maddəyə görə Türkiyə Cənubi Qafqaz dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi.

Noyabrın 3-də Ə.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Lakin bunun elə bir əhəmiyyəti olmadı.

Azərbaycan xalqı vaxtilə türk ordusunu böyük hərarətlə qarşıladığı kimi, onu dərin hörmət və ehtiramla yola saldı. Noyabrın 10-da Azərbaycan hökuməti respublikanı tərk edən türk ordusunun şərəfinə ziyafət verdi. Həmin gün türk qoşunları Bakıdan, az sonra isə bütün Azərbaycandan çıxdı. Bununla da Azərbaycan xarici siyasətinin Türkiyə oriyentasiyası başa çatdı.

**Qərb meyilinin güclənməsi**

Elə həmin gün, noyabr ayının 10-da baş nazir Fətəli xan Xoyski və Xarici İşlər naziri vəzifəsini icra edən Adil xan Ziyadxanlı Dünya müharibəsinin son mərhələsində həlledici dövlətə çevrilmiş ABŞ-ın prezidenti Vudro Vilsona teleqramla müraciət etdilər. Teleqramda Azərbaycan Respublikasının müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına prezident V.Vilsonun kömək etməsi xahiş edilirdi. N.Yusifbəyli, Ə.Ağayev və M.Rəfiyevdən ibarət Azərbaycan nümayəndələri Ənzəliyə yollanıb, müttəfiqlərin Şimali İrandakı ordusunun komandanlığı ilə danışıqlar apardılar.

1918-ci ilin noyabr ayının 17-də müttəfiqlərin qoşunları Mudros barışığına əsasən Bakıya daxil oldu. Müttəfiqlərin gəlişi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının cidd-cəhdlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra general V.Tomson Azərbaycan hökumətini tanıdı.

1918-ci ilin noyabrında Azərbaycan istiqlalını xilas etmək, Bakıya daxil olan müttəfiq komandanlığı tərəfindən tanınma respublika diplomatiyasının çevikliyini, böhranlı vəziyyətdən bacarıqla çıxmaq iqtidarına malik olduğunu göstərdi.

Dekabr ayının 26-da yeni yaradılmış hökumətin ilk addımı həmin ayın 28-də Paris Sülh konfransına göndəriləcək nümayəndə heyətinin

tərkibini və statusunu müəyyən etmək oldu. Hökumətin təqdimatı ilə M.H.Hacınski, Ə.Ağayev, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Mehdiyev, M.Məhərrəmovdan ibarət təşkil edilmiş Azərbaycan sülh nümayəndə heyətinə tanınmış siyasi xadim, Respublika Parlamentinin sədri Ə.Topçubaşov rəhbərlik edirdi. Bu zaman İstanbulda olan Ə.Topçubaşov Türkiyə dövlət başçıları və İstanbulda olan İngiltərə, ABŞ, İtaliya, İsveç, İran, Hollandiya, Rusiya, Ukrayna və Ermənistan hərbi və diplomatik nümayəndələri ilə bir sıra faydalı görüşlər keçirmişdi.

Azərbaycan nümayəndələri Parisə viza almaq üçün ciddi çətinliklərlə qarşılaşdı. Üç ay İstanbulda gözlədikdən sonra nümayəndəlik İstanbul–Saloniki–Pirey (Afina)–Neapol–Roma xətti ilə Parisə yollandı.

May ayının 2-də ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan məsələsi Versal konfransının Dördlər Şurasının iclasında müzakirə edildi. Parisə gəldikdən sonra Azərbaycan nümayəndələri may ayı ərzində Polşa, Gürcüstan, Dağlı Respublikası, Emənistan və İran nümayəndələri ilə görüşlər keçirdilər. Mayın 23-də Versalda olan İngiltərə nümayəndə heyətinin üzvü L.Mallet Ə.Topçubaşovu qəbul etdi. Danışıqlar zamanı siyasi, hərbi və iqtisadi vəziyyətlə bağlı fikir mübadiləsi edildi. May ayının 28-də günün birinci yarısı Versalda olan Amerika diplomatı Q.Morqentau, günün ikinci yarısı isə prezident V.Vilson Azərbaycan nümayəndələrini qəbul etdi. Görüş zamanı Ə.Topçubaşov bildirdi ki, Azərbaycan nə Kolçakı, nə Denikini, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri-birisini tanıyacaqdır. Danışıqlar zamanı Azərbaycan Respublikasının memorandumu V.Vilsona təqdim edildi.

Azərbaycan diplomatlarının prezident V.Vilson tərəfindən qəbul edilməsi respublikanın beynəlxalq vəziyyətinə müsbət təsir göstərən mühüm siyasi hadisə idi. Bu görüş Avropa siyasi dairələrinin və mətbuatının diqqətini Azərbaycana cəlb edən uğurlu diplomatik addım oldu.

Azərbaycanın himayəçilik prinsipinə meyili xeyli dərəcədə xarici təhlükə ilə bağlı idi. Xüsusilə köhnə və yeni Rusiyanın Azərbaycana forma etibarilə fərqli, mahiyyət etibarilə eyni olan münasibəti böyük dövlətlərin simasında himayəçi axtarmağı tarixi zərurətə çevirmişdi. Dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq siyasi vəziyyət köklü surətdə dəyişdiyindən həmin himayəçi dövlət Fransa, Böyük Britaniya, ABŞ və İtaliyadan biri ola bilərdi.

Azərbaycana və ümumilikdə Qafqaz dövlətlərinə Fransa himayədarlığı o qədər də real deyildi. Fransa işgüzar dairələrinin Qafqaza ma-

rağı güclü olsa da, Klemanso hökumətinin «vahid və bölünməz Rusiya» ideyasına sədaqəti daha üstün idi.

İngilis qoşunları Bakıya daxil olduqdan üç ay sonra, 1919-cu ilin fevralında Lloyd Corc hökuməti qoşunları Cənubi Qafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı. Lakin ingilislər elə etmək istəyirdilər ki, nə amerikalılar, nə də fransızlar bu regionda birtərəfli qaydada qüvvətlənməsinlər. Belə olduqda italyanların Qafqaza cəlb edilməsi ideyası ilk dəfə ingilislər tərəfindən irəli sürüldü. Bununla, həm də italyanların sülh konfransından narazılığı aradan qaldırılırdı.

İyun ayının 28-də Böyük Britaniya hökuməti ingilis ordusunun Qafqazdan çıxarılması barədə Paris Sülh konfransına rəsmi məlumat verdi. Müttəfiqlər Qafqazdan çıxan ingilis ordusunu İtaliya ordusu ilə əvəz etmək haqqında qərar qəbul etdilər. Orlando hökuməti Azərbaycanda və Gürcüstanda olmuş polkovnik M.Qabbanın məlumatını dinlədikdən sonra Azərbaycana və Gürcüstana ordu göndərməyə razılıq verdi.

Lakin bu dövrdə İtaliyada hökumət kabinəsinin dəyişilməsi Qafqaz siyasətində əsaslı dəyişikliyə səbəb oldu. İyul ayının 31-də yeni hakimiyyətə gəlmiş F.Nitti hökumətə bildirdi ki, Britaniya qoşunlarını əvəz etmək üçün İtaliya ordusu Cənubi Qafqaza göndərilməyəcəkdir.

Nitti hökumətinin bu qərarı avqust ayında oriyentasiya məsələsini yenidən qarşıya qoydu. Azərbaycan və Gürcüstan nümayəndələri Versalda keçirdikləri birgə iclasda qərara gəldilər ki, yalnız Böyük Britaniyanın himayədarlığı Qafqaz respublikalarının mənafeyinə uyğundur. Bu məqsədlə ingilis nümayəndələri ilə aparılan danışıqlar müsbət nəticə vermədi. Avqust ayının axırlarında sonuncu ingilis əsgərləri Azərbaycanı tərk etdilər.

Avropa dövlətləri ilə yanaşı, Qafqaz mandatına namizədlərdən biri də ABŞ idi. Böyük Britaniya, Fransa və İtaliyadan fərqli olaraq, Amerikanın Qara dəniz boğazları, İstanbul və bütövlükdə Qafqaz mandatını qəbul etməkdə marağı var idi. Bu məqsədlə iyul ayının 5-də ilk addımlar atıldı, Sülh konfransının «Onlar Şurası» Amerika təqdimatı əsasında polkovnik V.Haskeli Ermənistana ali komissar təyin etdi.

Haskelin Ermənistana müttəfiqlərin ali komissarı təyin edilməsi Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Ermənilər indi ABŞ vasitəsilə Azərbaycana olan ərazi iddialarını həll etmək istəyirdilər. Avqustun axırlarında Bakıda apardığı danışıqlarda Haskel Qarabağın və Zəngəzurun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq etdi. Bununla belə, Haskel tək-

lif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində–Naxçıvan və Şərur–Dərələyəzdə ABŞ general-qubernatoru tərəfindən idarə olunan neytral zona yaradılsın.

Oktyabr ayının 24-də Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılması barədə V.Haskelin bəyanatı elan edildi və Amerika polkovniki Edmund Delli bu zonaya qubernator təyin edildi. Lakin Azərbaycan hökumətinin ciddi müqaviməti Naxçıvan əhalisinin kəskin etirazı nəticəsində amerikalılar burada general-qubernatorluq yarada bilmədilər. Polkovnik Delli isə Naxçıvanda general-qubernator kimi deyil, Sülh konfransının nümayəndəsi kimi fəaliyyətə başladı.

1919-cu ilin noyabrında Versal müzakirəsində V.Haskelin vəkalətinin Azərbaycana və Gürcüstana aid edilməsi barədə ABŞ-ın cəhdləri İngiltərə və Fransanın ciddi müqaviməti nəticəsində baş tutmadı.

Amerikalıların Qafqaz mandatında təkid göstərməmələri Kiçik Asiya və Qafqaza göndərilmiş digər bir missiyanın–Harbord missiyasının prezident V.Vilsona hazırladığı məlumatla bağlı idi.

Mandatlıq məsələsi ilə bağlı qeyd etmək lazımdır ki, böyük dövlətlər içərisində Azərbaycan üçün yalnız Böyük Britaniya himayədarlığı məqbul idi. 1919-cu ilin axırlarında beynəlxalq vəziyyətin yaxşılığa doğru dəyişməsi ilə bağlı hər hansı böyük dövlətin Cənubi Qafqaz respublikalarını mandatlığa götürməsi öz əhəmiyyətini itirməyə başladı.

Yeni respublikaların taleyində hiss ediləcək dönüş Böyük Britaniyanın Baş naziri Lloyd Corcun 1919-cu ilin noyabrında İngiltərə Parlamentinin icma palatasındakı çıxışı ilə başlandı. Lloyd Corcun çıxışında açıq deyilməsə də, aydın hiss edilirdi ki, o, Azərbaycanın istiqlaliyyətinin tanınmasına və ona yardım göstərilməsinə tərəfdardır. Britaniya baş nazirinin belə mövqeyi Denikinin məğlubiyyətindən sonra bolşevizmin Yaxın və Orta Şərqə yayılmasının qarşısını almaq zərurətindən irəli gəlirdi. 1919-cu ilin noyabr–dekabr aylarında müttəfiqlər arasında aparılan danışıqlar Azərbaycanın müstəqilliyinin tanınmasını artıq reallaşdırmışdı. 1920-ci ilin yanvar ayının 2-də RSFSR xarici işlər naziri K.Çiçerindən hədələyici notanın alınması bu prosesi daha da sürətləndirdi.

**Qonşu dövlətlərlə münasibətlər**

Azərbaycan xarici siyasətinin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gür-

cüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: «Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan Cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər».

Azərbaycan hökuməti Dağlılar respublikası ilə əməkdaşlığı inkişaf etdirmək üçün 1918-ci ilin oktyabr–noyabr aylarında bir sıra müqavilələr bağladı. İki dövlət arasında bağlanmış müqaviləyə əsasən Azərbaycan hökuməti ciddi maliyyə çətinlikləri ilə qarşılaşmış Dağlılar hökumətinə 10 milyon manat həcmində yardım göstərmişdi. Dağlılar hökuməti Denikinin təcavüzünə məruz qaldıqda Azərbaycan hökuməti əlində olan bütün vasitələrlə ona yardım göstərəcəyini bildirdi. 1919-cu ilin mart ayının əvvəllərində general Tomsona etiraz notasında Azərbaycan hökuməti bildirirdi: «Dağlılar üçün ağır bir zamanda Azərbaycan hökuməti onlara lazımi köməklik göstərməyi özünə borc bilir».

Təkcə Dağıstanı deyil, bütün Qafqazı hədələyən ağ və qırmızı Rusiyaya münasibətdə Azərbaycan hökumətinin mövqeyi respublika XİN-in Kuban hökumətindəki səlahiyyətli nümayəndə C.Rüstəmbəyova məktubunda öz əksini tapmışdır. Orada deyilirdi: «Bizim hökumətin fikri belədir: kim olursa-olsun, bolşevik, menşevik, denikinçi və i.a. Azərbaycan istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir».

Ümumqafqaz həmrəyliyinin yaradılmasında Azərbaycan diplomatiyası Gürcüstanla əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. 1919-cu ilin iyununda iki dövlət arasında hərbi müdafiə paktının imzalanması diplomatiyamızın dəyərli addımı hesab edilməlidir. Bu pakta görə Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olunduğu təqdirdə müqavilədə olan tərəflər bir-birinə hərbi yardım göstərməyə borclu idilər. İranla münasibətlərdə də əvvəlki narazılıqlar 1919-cu ilin ortalarından etibarən öz yerini əməkdaşlıq meyillərinə verməyə başladı. 1919-cu ilin payızında yaradılan birgə Azərbaycan–İran komissiyasının gərgin işi nəticəsində iki dövlət arasında münasibətlərin bütün tərəflərini əhatə edən müqavilə və saziş hazırlandı. Türkiyə ilə də əlaqələr bərpa edilməyə başlamış, tanınmış yazıçı Y.Vəzir İstanbula səfir təyin edilmişdi. Azərbaycan diplomatiyası Avropa və Qafqazdakı fəaliyyətində həyatla ölüm arasında mübarizə aparan Anadolu türklərinin də mənafeyini müdafiə edirdi. Rusiya və Ermənistanla münasibətlər bütün dövr ərzində qeyri-stabil olaraq qaldı. Azərbaycan diplomatiyasının cidd-cəhdlərinə baxmayaraq, «böyük dövlətçilik» mövqeyindən çıxış edən bu dövlətlərlə normal münasibətlər yaratmaq mümkün olmadı.

Azərbaycanın həyati mənafeyi Sovet Rusiyası ilə normal münasibətlər yaradılmasını tələb edirdi. Yeni iqtisadi əlaqələrin hələ yaradılmadığı və ənənəvi əlaqələrin pozulması ilə Azərbaycan nefti, pambığı və digər xammalın Rusiya bazarından məhrum olması da Azərbaycan hökumətini şimal qonşusu ilə münasibətləri normallaşdırmağa vadar edirdi.

M.Ə.Rəsulzadənin parlamentin açılışında söylədiyi nitq Azərbaycan hökumətinin Rusiyaya münasibətini göstərmək baxımından diqqəti cəlb edir: «Bizim Rusiya camaatına qarşı heç bir ədavət və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya, çarizm Rusiyası istibdadıdır... Bizcə, mənfur olan Rusiyaya, millətləri əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır. Hər bir millət müstəqil və hürr olmalı, hürr olduğundan sonra digər millətlərlə ürəyi istədiyi kimi əqdi-ittifaq etməlidir... Biz Rusiyanın səadətini istəriz, Rusiya səadətini sevəriz. Fəqət kəndi istiqlalımızı da əziz tutarız». 1919-cu ilin yazında Nazirlər Şurasının yeni seçilmiş sədri N.Yusifbəyli təşkil etdiyi hökumətin proqramında Sovet Rusiyası ilə iqtisadi-ticarət əlaqələrinin bərpası vəzifəsini də irəli sürmüşdü.

Beləliklə, Rusiya ilə münasibətlərinin çətinliklərinə baxmayaraq, Azərbaycan xalqının milli mənafeyinə uyğun xarici siyasət yeridilməsi, mürəkkəb beynəlxalq vəziyyətdə Azərbaycanla qonşu dövlətlər arasında mehriban münasibətlər yaratmaq, onu dünya birliyinin bərabərhüquqlu üzvünə çevirmək Azərbaycan diplomatiyasının başlıca məqsədi idi.

## § 5. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü

1915-ci ildə «Daşnaksütyun» on minlik könüllü hərbi dəstələr yaradıb rus ordusu ilə bərabər Türkiyəyə qarşı müharibəyə başladı. Müharibənin əvvəllərində on minlərlə dinc türk əhalisi bu cəza dəstələrinin qurbanı oldu.

Vaxtilə çar II Nikolayın ermənilərə vəd etdiyi muxtariyyəti Sovet Rusiyası 29 dekabr (11 yanvar) 1917-ci il tarixli «Türkiyə Ermənistanı» haqqında dekretlə həyata keçirdi.

Son yüzillikdə 29 dekabr (11 yanvar) dekreti Ermənistan dövləti yaratmağa rəvac verən ilk rəsmi sənəd idi.

Cənubi Qafqaz seyminin dağılması nəticəsində meydana gələn yeni dövlətlərdən biri də Ermənistan, yaxud Ararat Respublikası idi.

1918-ci ilin mayında Ermənistan dövlətini yaratmaq üçün ona münasib paytaxt lazım idi. Gümrü türklərin əlində olduğundan belə şəhər əhalisi əsasən türk-müsəlmanlardan ibarət olan İrəvan şəhəri ola bilərdi. Gərgin müzakirələrdən sonra Azərbaycan Milli Şurası İrəvan şəhərini siyasi mərkəz etməkdən ötrü ermənilərə güzəştə getdi. Bu zaman Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında da sərhəd məsələləri ilə bağlı danışıqlar aparılırdı. Razılıq əldə edildi ki, Azərbaycan Aleksandropol quberniyası hüdudlarında Erməni dövlətinin yaradılmasına razıdır. İrəvan şəhəri də bu şərtlə ermənilərə güzəştə gedir ki, ermənilər Yelizavetpol (Gəncə) quberniyasının bir hissəsinə, yəni Qarabağın dağlıq hissəsinə olan iddialardan imtina edirlər. Bu addım Azərbaycan Milli Şurasının və yeni yaranan Azərbaycan dövlətinin ilk səhvlərindən biri idi.

Lakin Ermənistan Cənubi Qafqazda çox kiçik–10 min km$^2$ ərazisi olan bir dövlət idi. Türkiyə ilə imzalanmış Batum müqaviləsinə görə Brest sülhü Ermənistan tərəfindən tanınır, Üçmiədzin və Gümrü Türkiyəyə keçirdi. Batum müqaviləsinə əsasən Ermənistan onun ərazisinə düşmüş torpaqlarda yaşayan müsəlman əhalisinin təhlükəsizliyini və azad inkişafını təmin etmək, ana dilində təhsil almaq, dini ayinləri azad şəkildə icra etməyə şərait yaratmaq barədə öz üzərinə təəhhüdlər götürürdü. Nə qədər ki, türk qoşunları Cənubi Qafqazda idi, ermənilər onun şərtlərinə az-çox riayət edir, yerli müsəlman əhalisinə və Azərbaycana münasibətdə təmkinli olduğunu nümayiş etdirməyə cəhd göstərirdi. Müharibədə Türkiyənin məğlubiyyəti 1918-ci ilin axırlarında yenidən ermənilərin fəallaşması ilə nəticələndi. Artıq dövlət siyasəti səviyyəsinə qaldırılan «dənizdən dənizə Ermənistan» iddiaları yerli türk əhalisinə görünməmiş müsibətlər gətirdi.

Belə bir vəziyyətdə Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifə erməni hərbi dəstələrinin zorakılığının qarşısını almaq və Ermənistanla normal qonşuluq münasibətləri bərqərar etmək idi. Lakin Azərbaycan hökumətinin dəfələrlə müraciətinə baxmayaraq, Ermənistanın təcavüzkar siyasəti nəticəsində iki dövlət arasında normal münasibətləri yaratmaq mümkün olmadı. Əksinə, Ermənistan açıq və gizli yollarla qədim Azərbaycan torpaqları olan Zəngəzur, Naxçıvan və Qarabağın dağlıq hissəsini özünə ilhaq etmək xəyalına düşdü.

1918-ci ilin yayından başlayaraq türk xalqının qəddar düşməni Andronik Naxçıvan və Zəngəzur bölgələrində Azərbaycan sərhədlərini pozub dinc əhaliyə qarşı kütləvi qırğınlara başladı. 1918-ci ilin payızın-

da Azərbaycan torpaqlarının müsəlman əhalisindən təmizlənməsi əməliyyatına Ermənistan hökuməti bilavasitə rəhbərlik etməyə başladı. Daşnaklar 1918-ci ilin axırlarında Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21, İrəvan quberniyasının 60-dan çox Azərbaycan kəndini məhv etdilər. 100 mindən artıq türk əhalisi öz yurdundan qovuldu. Andronik Gorusu zəbt edərək, oranı Azərbaycan Respublikasına qarşı pozuculuq mərkəzinə çevirmişdi. Şuşanı üzdəniraq «kiçik Ermənistan» deyilən bir dövlətin mərkəzinə çevirmək istəyən ermənilər dəfələrlə Zabux dərəsindən Şuşaya girməyə cəhd göstərdilər. Lakin Azərbaycan hökuməti belə fitnəkarlıqların qarşısını aldı. Bu istiqamətdə hökumətin ilk addımı 1919-cu il yanvarın əvvəlində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla, həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğu yaratmaq oldu. Həmin il fevralın 12-dən Xosrovbəy Sultanov general-qubernator təyin edildi. Onun bir azərbaycanlı, bir erməni köməkçisi, iki azərbaycanlı və iki erməni məsləhətçisi vardı. Azərbaycan hökuməti general-qubernatora tapşırdı ki, Qarabağda separatçı hərəkatı ləğv edib orada qayda-qanun yaratsın və yerli hakimiyyəti təşkil etsin.

1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın Qarabağda suverenlik hüquqları bərpa edildi. Ümumiyyətlə, Qarabağın dağlıq hissəsində–Zəngəzurda və ermənilərin planlarına daxil olan digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun böyük rolu oldu. Onun ciddi təkidi və müttəfiqlərin yardımı ilə qaniçən Andronik, nəinki Azərbaycanı, eləcə də Cənubi Qafqazı tərk etdi.

«Böyük Ermənistan» planına daxil olan ərazilərdən biri də Naxçıvan bölgəsi idi. Naxçıvanda hələ 1918-ci ilin iyul-avqust aylarında Araz-Türk respublikası yaranmışdı. Respublikanın ərazisi Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Şərur, Naxçıvan, Ordubad qəzalarından ibarət idi. Paytaxt Naxçıvan şəhəri idi. Hökumətin Bakı uğrunda döyüşlər apardığı bir dövrdə bu respublika əhalinin daşnak hücumlarından qorunmasında faydalı iş gördü. Daşnak hökuməti hələ 1918-ci ilin noyabrında türk qoşunları Azərbaycandan çıxdıqdan sonra Naxçıvan və Şərur-Dərələyəz, Eçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, bu ərazilərdə Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin bu yerlərin müsəlman əhalisinin güclü müqaviməti bu planın həyata keçməsinə mane oldu.

Naxçıvanlıların dəyanəti ilə Azərbaycan hökumətinin səyləri nəticə etibarilə Ermənistanın Naxçıvana yiyələnmək niyyətlərini puça çıxartdı.

Ermənistanla Azərbaycan arasında 1919-cu ilin noyabrın 23-də imzalanan sazişdən sonra Azərbaycan böyük səhvə yol verərək öz hərbi hissələrini Zəngəzurdan geri çağırdı. Bağlanan sazişə görə toqquşmalar dayandırılmalı, mübahisəli məsələlər, o cümlədən sərhəd məsələləri danışıqlar vasitəsilə həll edilməli idi. Lakin Ermənistan bu sazişi kobud surətdə pozub Zəngəzura nizami qoşun hissələri göndərdi. Azərbaycan kəndlərinin talanı və dinc azərbaycanlı əhalisinə vəhşicəsinə divan tutulması geniş miqyas aldı. 1919-cu il dekabrın 14-də Azərbaycan hökumətinin təşəbbüsü ilə Bakıda erməni-Azərbaycan konfransı açıldı. Lakin konfrans ermənilərin günahı ucbatından tərəflər arasında ziddiyyəti həll edə bilmədi və yarımçıq dayandırıldı.

1920-ci ilin yanvarında Ermənistanın hərbi fəaliyyəti daha da gücləndi. Belə bir şəraitdə Azərbaycan hökuməti öz qoşun hissələrini Qarabağda cəmləşdirməyə başladı.

1920-ci ilin martında Novruz bayramı gecəsi Ermənistanın fitnəkarlığı, daşnak dairələrinin təhriki və başçılığı ilə erməni silahlı dəstələri qəflətən Şuşada, Xankəndində, Əsgəranda və Tərtərdə yerləşmiş Azərbaycan qoşun hissələrinə hücum etdilər. Dağlıq Qarabağda Azərbaycan əleyhinə erməni qiyamı başlandı, lakin tezliklə Azərbaycan silahlı qüvvələri tərəfindən yatırıldı, Qazax-Dilican istiqamətindən Azərbaycanın pozulmuş sərhədləri bərpa edildi.

Ermənilər Parisə bir deyil, iki nümayəndəlik göndərmişdilər. Birincisi, milli erməni diasporunun nümayəndəliyi idi. Ona Qərbdə, xüsusilə Fransa siyasi dairələrində yaxşı tanınan Poqos Nübar Paşa başçılıq edirdi. İkincisi, Ermənistan respublikasının nümayəndəliyi idi ki, ona az əvvəl İstanbul konfransına gələn erməni nümayəndə heyətinə rəhbərlik etmiş, erməni Milli Şurasının sədri Avetik Aqoronyan rəhbərlik edirdi. Poqos Nübar Paşa ermənilərin razılaşdırılmış aşağıdakı ərazi tələblərini sülh konfransına təqdim etdi:

1. Türkiyənin yeddi şərq viayəti–Van, Bitlis, Diyarbəkr, Xarput, Sivas, Ərzurum və Trabzon.

2. Dörd Kilikiya sancaqlığı: Marş, Xozan, Cabal Berket və Aleksandretto şəhəri ilə birlikdə Adana.

3. Bütün İrəvan quberniyası, Tiflis quberniyasının cənub hissəsi, Gəncə quberniyasının cənub hissəsi, Qars və Ərdahan. Ərazi iddia-

larından əlavə, ermənilər təzminat da tələb etmişdilər. Ermənilərin irəli sürdüyü ərazi iddiaları o qədər böyük idi ki, bununla razılaşmayan Lloyd Corc bildirdi ki, ermənilərin arzuları həddindən çoxdur. Onlar Aralıq dənizindən Qara dənizədək böyük əraziləri tələb edirlər, lakin bu ərazilərdə ermənilər əhalinin çox aşağı faizini təşkil edirlər.

Lakin Versalda, bütün Avropada və Amerikada olan erməni nümayəndələri Azərbaycan türklərinə qarşı öz iyrənc mübarizələrini dayandırmadılar. Onların bu cidd-cəhdlərinə baxmayaraq, Versal Ali Şurası 1920-ci ilin yanvarında Azərbaycanı müstəqil dövlət kimi tanıdı.

1920-ci ilin yazında beynəlxalq vəziyyətin yaxşılaşdığı bir dövrdə London müşavirəsi və San-Remo konfransında da ermənilər Azərbaycan Respublikasına qarşı əssasız ərazi iddiaları ilə çıxış etdilər. Beynəlxalq konfranslarda öz qonşularına qarşı daimi təxribatçılıq törədib qeyri-stabil vəziyyət yaratmaqla Azərbaycanın və Gürcüstanın müstəqilliyinə ağır zərbə vuran Ermənistan öz müstəqilliyini də qurban verməli oldu.

## § 6. Beynəlxalq və daxili siyasi vəziyyət

**Azərbaycanın Versal Ali Şurası tərəfindən tanınması**

Cənubi Qafqazda bolşevik təhlükəsinin güclənməsi Antanta ölkələrini ciddi şəkildə düşünməyə və real əməli addımlar atmağa vadar edirdi. Hamı bilirdi ki, Qırmızı Ordunun Cənubi Qafqaza təcavüzü bolşevik ideyasının İrana və Ön Asiyaya yayılmasına səbəb olacaq, bütün Yaxın və Orta Şərqi həyəcan bürüyəcəkdir. Ona görə də bütün Avropa siyasətçilərinin çoxu bu fikirdə idi ki, Azərbaycan və Gürcüstanın müdafiəsini möhkəmləndirmək, onları müdafiə vasitələri ilə təmin etmək lazımdır ki, Sovet hücumuna qarşı dura bilsinlər. Lakin müstəqilliyi tanınmayan hökumətlərə yardım göstərmək, müharibədən sonra bərqərar olan beynəlxalq münasibətlər baxımından ciddi çətinliklərlə qarşılaşırdı. Digər tərəfdən yaranmış şəraitdə bu respublikaların müstəqilliyinin tanınmasına mane ola biləcək «vahid və bölünməz Rusiya» ideyası artıq öz əhəmiyyətini itirmişdi. Onun tərəfdarlarının ümidləri doğrulmamışdı. Ona görə də hadisələrin çox sürətlə cərəyan etdiyi bir vaxtda Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz bir vəzifə kimi meydana çıxmışdı. Bu məqsədlə Böyük Britaniyanın təşəbbüsü ilə 1920-ci il yanvar ayının 10-da Paris sülh konfransı Ali şurası-

nın sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiyanın isə sülh konfransındakı nümayəndələri və Fransadakı səfirləri iştirak edirdi. Ciddi müzakirələrdən sonra yanvarın 11-də Müttəfiqlərin Ali Şurası İngiltərənin Xarici İşlər naziri Lord Kerzonun təklifi ilə bu məzmunda bir qərar qəbul etdi: «müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar».

Yanvar ayının 15-də Azərbaycan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət edildilər. Azərbaycan nümayəndələrindən Ə.Topçubaşovu və M.Məhərrəmovu Nazirliyin Baş katibi Jül Kambon, ingilis nümayəndəsi Filipp Kerr və İtaliya nümayəndəsi Markiz de-la Torreta qarşıladılar. Jül Kambon Ali Şuranın üzvləri və birlik ölkələri tərəfindən Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh konfransının rəsmi qərarını Ə.Topçubaşova təqdim etdi. O, nümayəndələri təbrik edib bildirdi ki, bundan sonra Azərbaycan müstəqilliyi tanınmış dövlət kimi Sülh konfransına zəruri məsələlərlə bağlı rəsmən müraciət edə bilər.

Yanvar ayının 15-də günün ikinci yarısı Versalda hərbi ekspertlər Şurası Azərbaycan və Gürcüstana hərbi yardım göstərmək məsələsini müzakirə etdi. Şuranın içində iştirak etmək üçün təcili surətdə Böyük Britaniyanın hərbi naziri U.Çerçill, İmperiya Baş qərargahının rəisi feldmarşal H.Vilson, admirallığın birinci lordu U.Lanq, admiral Lord Bitti və digərləri Londondan Parisə gəldilər. Hərbi ekspertlərin iclası, yüksək rütbəli ingilis hərbçilərinin Parisə dəvət edilməsi müxtəlif şayiələrin yayılmasına səbəb oldu. Fransa radiosu belə bir xəbər yaydı ki, on min ingilis əsgəri Bakıya yola düşmək üzrədir və Lloyd Corc guya Klemansodan xahiş etmişdir ki, Almaniyada olan işğal ordusunun sayının artırsın, oradakı ingilis ordusunu o, çıxarıb Bakıya göndərmək istəyir. Lakin bütün bunlar hamısı şayiə idi. Aprel hadisələrinə qədər nə Bakıya, nə də Tiflisə nəinki ingilis ordusu, heç ingilis hərbi müşavirləri də göndərilmədi.

Yanvarın 19-da hökumət başçılarının iştirakı ilə Paris sülh konfransının Ali Şurasının İclası Cənubi Qafqaz respublikaları məsələsini ətraflı müzakirə etdi. Artıq həmin gün Azərbaycan nümayəndələri tam heyətdə Paris sülh konfransının iclasında iştirak edirdi. İclasa dövrün böyük siyasi xadimləri–Lloyd Corc, Klemanso, Nitti, Kambon, Matsi, Kerzon, Çerçill, Foş, Bitti, Vilson və digərləri toplanmışdı.

İclasda Marşal Ferdinand Foş müttəfiqlərin hərbi ekspertlər Şurasının məruzəsi ilə çıxış etdi. Ən böyük mübahisə yardımın necə və hansı

formada göstərilməsi barədə idi. Hərbi ekspertlərə başçılıq edən Marşal Fon Cənubi Qafqaza bir neçə diviziya göndərməyi zəruri hesab edirdi. Feldmarşal Vilson Ferdinand Foşu müdafiə edərək əlavə etdi ki, Britaniya donanması Xəzər dənizində təşəbbüsü ələ almasa Cənubi Qafqazı saxlamaq mümkün olmayacaq. Hərbi nazir U.Çerçill Henri Vilsonla razılaşdı və bildirdi ki, İngiltərə Xəzər dənizində ağalıq etməsə, oraya göndərilən bütün silah bolşeviklərin əlinə keçəcəkdir. Lakin Lloyd Corc hərbi ekspertlərin təklifinə qəti şəkildə etiraz etdi. Beləliklə, Klemanso, Foş, Çerçill bilavasitə ordu göndərməklə, Lloyd Corc və Nitti silah, hərbi sursat verilməsi ilə yardım göstərməsinə tərəfdar oldular. İclasa yekun vuran Lloyd Corc Cənubi Qafqaz respublikalarına təcili şəkildə silah, hərbi sursat və paltar göndərilməsi ilə yardım göstərilməsini vacib hesab etdi. Azərbaycan və Gürcüstana ordu göndərmək məsələsinə gəldikdə isə o, etiraf etdi ki, bu mümkün deyildir. Bu respublikalar özləri və hərbi qüvvələrini möhkəmləndirmək üçün tədbirlər görməlidirlər və Bakının müdafiəsi, xüsusilə möhkəmləndirilməlidir. Beləliklə, Versal Ali Şurasının bu yarımçıq qərarı, Azərbaycanı gözlənilən bolşevik təcavüzündən müdafiə etmək üçün Qafqaza Ordu göndərməməsi, sonra Sovet Rusiyasının Azərbaycanı işğal etməsinə şərait yaratdı.

Lakin, buna baxmayaraq, 1920-ci ilin yanvarında Paris Sülh konfransında Azərbaycan Respublikasının siyasi cəhətdən tanınması Ə.Topçubaşov başda olmaqla Azərbaycan nümayəndələrinin uğurlu diplomatik fəaliyyəti hesab edilməlidir.

**Aprel işğalı ərəfəsində Azərbaycanın beynəlxalq vəziyyəti**

Azərbaycanın müstəqilliyinin tanınması ona olan marağı artırdı. Belçika, İsveçrə, Hollandiya, Çexiya, Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını, İtaliya isə diplomatik nümayəndəliyini açmağa başladılar. ABŞ-ın «Yaxın Şərqə Yardım komitəsi» ilə Azərbaycan hökuməti arasında iqtisadi müqavilə imzalandı. Belə bir müqavilə Qafqazda olan ingilis nümayəndələri ilə imzalanmış sazişlər italyanları da tələsməyə vadar edirdi. Senator S.E.Konti başda olmaqla 35 nəfərdən ibarət İtaliya iqtisadi komissiyası Bakıda, hökumət üzvü X.Məlik-Aslanov və general İ.Usubov başda olmaqla Azərbaycan nümayəndələri Romada danışıqlar aparırdılar. 1920-ci ilin əvvəllərində İtaliya hökuməti və ayrı-ayrı firmaların nümayəndələri Azərbaycanda neft və neft məhsulları, pambıq, yun, ipək və digər məhsullar almaq, Azərbaycana silah, hərbi sursat və ərzaq məhsulları satmaq barədə sazişlər bağladılar.

1920-ci ilin fevralında Azərbaycanın müstəqilliyinin tanınmasına baxmayaraq, Denikinin ordusunun məğlub olması respublikanın rahat nəfəs alması üçün mühüm hadisə idi. Qonşu dövlətlərdən Gürcüstan və İranla hərtərəfli əməkdaşlığın bərqərar edilməsinə başlanırdı. Ağa Seyid Ziyaəddin Təbatəbai başda olmaqla İran missiyası Bakıda, Adil xan Ziyadxanlı başda olmaqla Azərbaycan diplomatik missiyası Tehranda danışıqlar aparırdı. Nəticədə 1920-ci il mart ayının 20-də Novruz bayramı axşamı İranla Azərbaycan arasında sülh və dostluq haqqında müqavilə imzalandı. Müqaviləyə görə İran hökuməti Azərbaycanın müstəqilliyini de-yure tanıyır, tərəflər öz aralarında möhkəm dostluq və iqtisadi münasibətləri yaratmağı üzərlərinə götürür, Azərbaycan Tehranda, İran isə Bakıda səfirliklərini açmalı idi. Bundan əlavə, həmin gün İranla-Azərbaycan arasında gömrük, ticarət, poçt-teleqraf, konsulluq əlaqələri haqqında sazişlər imzalandı. Qısa müddətdə Tehranda Azərbaycan səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə, Məşhəddə, Xoy və Əhərdə isə konsulluq idarələri işə başladı. Ənzəlidə isə Azərbaycan konsulluğu fevral ayından işə başlamışdı.

1920-ci ilin əvvəllərində Bakıda Polşa konsulluğu fəaliyyətə başladı. Polşa hökumət nümayəndəsi ilə aparılan danışıqlarda Rusiya imperiyasından çıxmış yeni dövlətlərin müdafiə xarakterli vahid blokunun yaradılması ideyası müzakirə edilirdi. Bu bloka Polşa, Finlandiya, Estoniya, Latviya, Litva, Gürcüstan və Azərbaycan daxil olmalı idi. Rumıniyanın da bloka cəlb edilməsi nəzərdə tutulurdu. Lakin sonralar Qafqazda baş verən hadisələr və Polşa-Rusiya müharibəsinin başlanması nəticəsində danışıqları başa çatdırmaq mümkün olmadı.

1920-ci ilin aprel ayının ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəlik təsis etmək haqqında qanun qəbul etdi. İran, Türkiyə, Gürcüstan, Ermənistan kimi qonşu dövlətlərlə rəsmi diplomatik münasibətlər genişləndirildi. Bakıda isə 20-dən artıq xarici dövlətin diplomatik missiyası işə başlamışdı.

Versal sülh konfransı rəsmən 1920-ci il yanvar ayının 20-də başa çatdıqdan sonra Azərbaycanın Avropadakı sülh heyəti Versal Ali Şurasının fevral-mart aylarında keçirilən London görüşündə və aprel ayında keçirilən San-Remo konfransında iştirak etdilər.

Konfransda Azərbaycanı maraqlandıran bir sıra məsələlər – Batum məsələsi, Türkiyə ilə hazırlanan sülh müqaviləsinin layihəsi, Türkiyə-

Ermənistan sərhədləri, rus məsələsi, Cənubi Qafqaz respublikalarına yardım göstərilməsi və digər məsələlər müzakirə edilmişdi. San-Remo konfransına Azərbaycan nümayəndələrinin təqdim etdiyi memorandumda göstərilirdi ki, respublikanın Qərb ölkələri ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün Gürcüstan ərazisindən istifadə edilməsi Versal müqaviləsinin 89-cu paraqrafı ilə tənzimlənməlidir. Versal müqaviləsi Azərbaycanın dənizə çıxış yolunu Batumdan təmin etməlidir. Ciddi müzakirələrdən sonra Versal Ali Şurası Batumu azad liman elan etdi və Azərbaycan Cümhuriyyətinin batum limanından azad surətdə «İstifadə etmək hüququ» saxlanıldı.

Göründüyü kimi, 1920-ci ilin aprel işğalı ərəfəsində Azərbaycan Cümhuriyyətinin beynəlxalq aləmdə təcrid olunması artıq aradan qaldırılmış, onun diplomatik cəhətdən geniş tanınması və müstəqil Azərbaycanın hərtərəfli beynəlxalq əlaqələr sisteminə daxil olması prosesi başlanmışdı.

**Daxili siyasi durum**

1920-ci ilin əvvəllərində ölkənin daxili vəziyyəti xeyli sabitləşmişdi. Dekabr ayının axırlarında (1919-cu il) Nəsib bəy Yusifbəylinin təşkil etdiyi hökumət kabineti dövlətin möhkəmləndirilməsi, iqtisadi vəziyyətin tənzimlənməsi, daxili nizam-intizamın gücləndirilməsi baxımından bir sıra əməli addımlar atmışdı. Azərbaycanın beynəlxalq təsdiqlənməsi ölkənin daxilində əhvali-ruhiyyəni xeyli qaldırmış, xalqın yaradıcılıq əzmini gücləndirmiş, sabahkı günə ümidi artırmışdı. Bu dövrdə Azərbaycanda olmuş ingilis hərbi jurnalisti gördüklərini belə nəql edirdi: «Mənə deyirdilər ki, burada qarışıqlıqla rastlaşacağam, amma heç bir qarışıqlıq görmədim. Tam qayda-qanun vardı. Mənə deyirdilər ki, küçələrdə qan və dəhşətli səhnələr görəcəyəm. Əvəzində əmin-amanlıq və sakitlik gördüm. Mənə deyirdilər ki, ordu yerinə başıpozuq yığnaq görəcəyəm, lakin mən nizam-intizamlı, güclü, odlu-alovlu cavanlarla rastlaşdım. Həqiqətən də, müharibə başlanandan (Birinci Dünya müharibəsi–*red.*) bəri Bakıda hələ misli görünməmiş nizam-intizam və sakitliyin şahidi oldum... Azərbaycanda dəmir intizam hökm sürür, elə bir intizam ki, Rusiyada belə yoxdur».

1920-ci ilin əvvəllərində Azərbaycanın sərhədləri xeyli sabitləşmişdi. Cümhuriyyətin ərazisi 97,3 min. kv. kilometr idi. Şimal sərhədləri Samur çayı və Baş Qafqaz sıra dağları boyunca müəyyən olunmuşdu. Qərbdə Gürcüstanla sərhədlər az bir mübahisəli hissəsini çıxmaq şərtilə, əsasən dəqiqləşdirilmişdi. Ermənistanla sərhədlər Göyçə

gölünün tən ortasından keçərək, Basarkeçər və Zəngəzuru əhatə etməklə Baş Noraşenin qərbində Türkiyə sərhədlərinə çıxırdı. Bundan əlavə, Borçalı, Qarayazı və Sığnax mahallarında bütövlükdə Azərbaycan türkləri yaşayan 8,7 min kv. kilometrlik, Ermənistan hökumətinin tabeliyində olan İrəvan, Eçmiədzin, Sürməli, Yeni Bəyazid mahallarının türklər yaşayan 7,9 min kv. kilometrlik ərazisi Azərbaycan hökuməti tərəfindən mübahisəli ərazi hesab edilirdi.

Lakin Azərbaycanın daxili siyasi həyatında yaranan sabitlik meyili uzun sürmədi. Qırmızı bolşevik təhlükəsi ölkəni ucu Dağıstanın işğalından sonra Azərbaycan sərhədlərinə çatmış Sovet Rusiyası Azərbaycanı daxildən zəiflətmək üçün siyasi böhran yaratmaq məqsədilə bir sıra istiqamətlərdə təxribatlar törətməyə başladı. Azərbaycanın daxilində «beşinci kolonna» fəallaşdırıldı. 1920-ci il fevralın 11-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının birinci qurultayı işə başladı. Qurultayın təşkili üçün RK(b) P külli miqdarda vəsait sərf etdi. Təkcə fevralın 7–10-u arasında Qafqaz komitəsi bu işə 200 min manat buraxmışdı. Qurultay RK(b)P Bakı Komitəsi, bolşevik «Hümmət» və iranlı fəhlələrin kommunist təşkilatı «Ədalət»in vahid təşkilat şəklində birləşməsi haqqında qərar qəbul etdi. Qurultay Bakıda dövlət çevrilişi xətti götürdü. Bu xəttin həyata keçirilməsi üçün onun ixtiyarına istənilən qədər pul və silah göndərilirdi.

Yerli bolşeviklər açıq şəkildə fəaliyyət göstərərək xalqı qanuni hökumətə qarşı çıxmağa çağırır və Azərbaycan siyasi partiyaları arasında təfriqə salır, onların bəzi üzvlərini ələ alır, xüsusi tapşırıq əsasında ölkədə siyasi böhran yaratmağa çalışırdılar. Bu yolda daxili və xarici düşmənlər birgə fəaliyyət nəticəsində Qarabağda erməni qiyamı qaldırmağa nail oldular. Qaldırılmış qiyamla bağlı Ə.Qarayev və digər bolşeviklər Sovet Rusiyasını köməyə çağırmağı təklif edirdilər. Parlamentin 1920-ci il 1 aprel tarixli iclasındakı çıxışında M.Ə.Rəsulzadə deyirdi: «Əfəndilər, üsyan çıxaranın adı Əliheydərmi olsun, Vartazarmı olsun, ikisi də düşməndir»... Bolşeviklərin bütün cidd-cəhdlərinə baxmayaraq, onlar yerli əhali arasında nüfuz qazana bilmədilər. Aprel işğalı ərəfəsində onların sayı iki-üç min idi. Son ayda aydın oldu ki, Azərbaycan kommunistləri öz qüvvələrinə arxalanıb dövlət çevrilişi etmək iqtidarında deyildir. Onlar daha çox Rusiyanın hərbi təcavüzünə ümid bağlayırdılar.

Sovet Rusiyası Azərbaycanın işğal edilməsində türkiyəli kommunistlərdən, «İttihad və tərəqqi» partiyasının keçmiş üzvlərindən də mə-

harətlə istifadə etdi. Xalq arasında nüfuzu olan Xəlil paşa, Nuru paşa kimi xadimləri bolşevik təbliğatı öz toruna sala bilmişdi. Ona görə də Xəlil paşa və onun dəstəsi «Türkiyə ölüm-dirim mücadiləsindədir. Qırmızı Ordu Türkiyənin yardımına tələsir, ingilispərəst «Müsavat» hökuməti isə buraxmır» səpkisində təbliğat aparır, əhalini milli hökumətə qarşı qaldırmağa çalışırdılar. Burada böyük vətəndaş M.Ə.Rəsulzadənin uzaqgörən sözlərini qeyd etmək yerinə düşər: «Elə eləməyin, bizi öz başımıza buraxın, yüz ildən bəri təhti əsarətində qaldığımız rusları biz sizdən yaxşı tanıyırıq. Onlar hiylə ilə gələr, sonra bizi əzərlər».

Aprel işğalı ərəfəsində Azərbaycanın siyasi həyatında ən ciddi hadisə hökumət böhranının yaranması idi. Rusiya təhlükəsinin güclənməsi hökumətin daxilində ixtilafları dərinləşdirmişdi. 1919-cu ilin dekabrında Parisdən qayıdan və N.Yusifbəyli kabinetində Daxili İşlər naziri vəzifəsini tutan M.H.Hacınski və onun tərəfdarları belə hesab edirdilər ki, Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlaliyyətini tanıtdırmaq olar. Lakin Xarici İşlər naziri Fətəli xan Xoyski və onun tərəfdərları isə çıxış yolunu ölkədə güclü rejimin yaradılmasında görürdülər. Bu məqsədlə Fətəli xan təklif edirdi ki, Hacınskinin yerinə kommunizmlə mübarizəyə hazır olan adam təyin edilməli, hökumətdə olan sosialistləri sərt xəttin tərəfdarları ilə əvəz etməli, parlamenti buraxmalı, ölkəni müdafiə məqsədilə hökumətə fövqəladə hüquqlar verməli və Azərbaycanda Müəssislər məclisinə yaxın altı ayda seçkilər keçirilməlidir.

Fətəli xan Xoyski qrupunun təkidilə fevral ayında M.H.Hacınski Daxili İşlər naziri vəzifəsindən çıxarıldı, lakin o, hökumətin tərkibində Ticarət və Sənaye naziri kimi saxlandı. Hacınski qrupu bu uğursuzluğa baxmayaraq, öz fəaliyyətini dayandırmadı və təbliğat işlərini genişləndirdi.

Martın axırlarında pozuculuq işlərində əlləri olduğu üçün bir sıra sosialistlər hökumət tərəfindən həbs edildi. Bu hadisə ilə bağlı parlamentin sosialist fraksiyası N.Yusifbəyli kabinetini müdafiə etməkdən imtina etdi. Belə bir etimadsızlıq ittihadçılar tərəfindən də göstərildikdə aprel ayının 1-də N.Yusifbəyli kabineti istefa verdi. Yeni kabinetin təşkil edilməsi M.H.Hacınskiyə tapşırıldı. O, kommunistlər də daxil olmaqla sol qüvvələrdən ibarət koalisyon hökumət yaratmaq istəyirdi. Onun bolşeviklərlə danışıqları 20 gündən çox çəkdi. Dövlət çevrilişinə hazırlaşan bolşeviklər son anda hökumətə daxil olmaqdan imtina etdilər. Aprel ayının 22-də M.H.Hacınski yeni hökumət yaratmağın mümkün olmadığı haqda parlamentə məlumat verdi. Bu, Azərbaycanda siyasi böhranın dərinləşməsində son addım oldu.

Yeni hökumət yaratmaq mümkün olmadığı üçün N.Yusifbəyli kabinəsi öz vəzifəsini müvəqqəti icra edirdi. Beləliklə, xarici təhlükə ilə yanaşı, aprel ayının əvvəllərindən başlanan hökumət böhranı Azərbaycanda siyasi vəziyyətin gərginləşməsində az rol oynamadı.

## § 7. Azərbaycan Cümhuriyyətinin devrilməsi

**Diplomatik addımlar**

Sovet Rusiyası Azərbaycan Cümhuriyyətinə münasibətdə təcavüzkar niyyətlərini ölkədə vətəndaş müharibəsinin başlanması və bu müharibənin qızışması ilə uzun müddət reallaşdıra bilmədi. Lakin 1919-cu ilin axırı – 1920-ci ilin əvvəllərində vətəndaş müharibəsinin cəbhələrində Sovet ordusunun qazandığı qələbələr onun mövqeyini möhkəmləndirdi. Hərbi qələbələr öz növbəsində qonşu dövlətlərə diplomatik təzyiqi gücləndirmək və bolşevik təbliğatı üçün əlverişli şərait yaradırdı. Azərbaycana münasibətdə bu təzyiq 1920-ci ilin yanvarından–martınadək diplomatik qarşıdurma səviyyəsinə qədər yüksəlmiş notalar mübadiləsində öz əksini tapmışdı. Ermənistan respublikasının Azərbaycan ərazilərinə qarşı qəsbkarlıq planlarını həyata keçirdiyi bir vaxtda Sovet Rusiyasının çağırışı üzrə Azərbaycanın denikinçilərə qarşı müharibəyə daxil olub iki cəbhədə vuruşması onun üçün əlverişli deyildi. RSFSR Xarici İşlər komissarı G.V.Çiçerin isə 1920-ci il 2 yanvar tarixli notasında, əslində Azərbaycan hökumətindən Denikinə qarşı tələsik müharibəyə girməyi tələb edirdi.

Yanvarın 6-da N.Yusifbəylinin sədrliyi ilə Azərbaycan Dövlət Müdafiə Komitəsinin təcili iclası keçirildi. İclasda Xarici İşlər naziri Fətəli xan Xoyski Sovet Rusiyasının Azərbaycanla və Gürcüstanla hərbi saziş bağlamaq təklifi barədə məruzə etdi.

Məruzə bu təklifin arxasında Rusiyanın işğalçılıq niyyətlərinin, Denikinin əli ilə Azərbaycan dövlətinin ləğv edilməsi planı dayandığı açıqlandı.

Gürcüstanla məsləhətləşmədən sonra Xarici İşlər naziri Fətəli xan Xoyski G.V.Çiçerinə cavab notasında Denikinə qarşı mübarizənin Rusiyanın daxili işi olduğunu qeyd edərək Azərbaycan Respublikasının Sovet Rusiyası ilə mehriban qonşuluq münasibətləri yaratmaq məqsədilə danışıqlara başlamağa hazır olduğunu bildirdi.

Bununla belə, Fətəli xan «Azərbaycan Respublikası hökumətinin rus və Azərbaycan xalqları arasında hər iki dövlətin suverenliyi prinsi-

pinə əsaslanan mehriban qonşuluq münasibətlərinin yaradılmasına hazır olduğunu» bildirirdi.

Lakin, görünür, Azərbaycan Respublikasının belə mövqeyi Sovet Rusiyasını təmin etmirdi və RK(b)P MK-nın Siyasi Bürosu Fətəli xan Xoyskidən alınmış cavabı və ümumiyyətlə, Azərbaycan hökumətinə münasibət məsələsini yanvarın 17–18-də keçirilən iclasda müzakirə etdi. G.V.Çiçerinin məruzəsi və V.İ.Leninin təklifi üzrə iclas Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə ruhunda qərar qəbul etdi. Orada göstərilirdi: «Xalq xarici işlər komissarlığına tapşırılsın ki, Azərbaycan hökuməti barəsində... etimadsızlıq siyasəti yeritsin, çünki o, Denikinə qarşı birgə hərbi əməliyyat aparmaq təklifimizdən imtina etmişdir və Xəzər dənizində bizə qarşı çıxan İngiltərə hərbi qüvvələrinə xidmət göstərir, hər bir millətin zəhmətkeş kütlələrinin öz müqəddəratını təyin etməsi hüququnu dönmədən qəbul etdiyimizi tam müəyyən şəkildə qeyd etməklə, xalq xarici işlər komissarlığı Azərbaycan hökumətinin bu cür davranışına qarşı qəti protest etməlidir».

1920-ci ilin yanvar ayının 23-də RSFSR Xalq Xarici İşlər komissarı G.V.Çiçerindən ikinci nota alındı. Birinci nota ilə müqayisədə ikinci nota daha təcavüzkar məzmuna malik idi. Çiçerin notasında F.Xoyskinin 14 yanvar tarixli birinci notaya cavabı təhlil edilir və orada Denikinlə mübarizədən imtina edilməməsinə baxmayaraq, dolayısı yolla Azərbaycan Respublikasının mübarizədən imtina etməsi təsdiq edilir, Azərbaycan hökumətinin Rusiyanın daxili işlərinə qarışmamaq mövqeyi Denikinlə mübarizədən imtina kimi qiymətləndirilirdi.

1920-ci il fevralın axırı – martın əvvəllərində edilmiş notalar mübadiləsi də təxminən əvvəlkilərlə eyni məzmunda idi. Fərqli cəhət bundan ibarət idi ki, Qırmızı ordu artıq Azərbaycanın sərhədlərinə yaxınlaşmış, hökumət daxilində yaranmış təhlükə ilə bağlı müxtəlif fikirlər meydana çıxmışdı. Fətəli xanın cavab notasını almış RSFSR xalq xarici işlər komissarlığı Azərbaycan hökumətinə münasibət məsələsini yenidən müzakirə etdi. Bu dövrdə açıq təcavüzün çətinliklərini nəzərə alaraq Azərbaycan hökumətinin tanınması məsələsi barədə Rusiya XXİK RK(b)P Qafqaz Diyar Komitəsi və RK(b)P Bakı komitəsinin fikrini öyrənmək üçün sorğu göndərdi. Qafqaz Diyar Komitəsi Komissarlığın sorğusuna müsbət cavab verdi, yəni Azərbaycan hökumətini tanımağı məqsədəuyğun hesab etdiyini bildirdi. Lakin bunun əksinə olaraq yenicə yaranmış AK(b)P MK-sı Çiçerinin sorğusunu müzakirə edərək Azərbaycanın müstəqilliyinin tanınmasına heç bir ehtiyac olmadığı

haqda qərar verdi. Bu qərar onunla əsaslandırıldı ki, guya «Azərbaycanın fəhlə-kəndli kütlələri tanınmanın əleyhinədirlər». Yaranmış vəziyyətdən yenicə təşkilatlanmış Azərbaycan kommunistləri dövlət çevrilişi etməyə cəhd göstərirdilər. Bu dövrdə birbaşa hərbi müdaxiləyə cürət etməyən Sovet hökuməti daxili intriqaların qızışdırılmasına üstünlük verirdi. 1920-ci ilin martında Çiçerin Leninə yazırdı: «Azərbaycana qarşı zor işlətməyimiz beynəlxalq aləmdə dostlarımızı bizə qarşı qaldıra bilər. Lansberi və onun kimilər balaca Azərbaycan xalqından riqqətə gəlmişlər. Konversi, bizim əziz dostumuz, «balaca azad Azərbaycan» haqqında hərarətli məqalələr yazır. Bizi imperialist hesab etməmələri üçün gərək onlara bəhanə verməyək».

**Hərbi hazırlıqlar**

1920-ci il martın ortalarından Sovet Rusiyasının Azərbaycana tərəddüdlü münasibəti işğalçılıq meyillərinin artması ilə əvəz olundu. Sovet hökuməti Azərbaycan Cümhuriyyəti ilə müzakirələrə başlamaqdan və Azərbaycanın müstəqilliyini tanımaqdan imtina etdi. Azərbaycan hökumətinin ümid etdiyi Qərbin hərbi yardımının gəlib çıxmaması da bu işdə az rol oynamadı.

1920-ci ilin yanvarından başlanan diplomatik qarşıdurmanın arxasında, həm də Bakı xammalına sahib olmaq iddiaları dururdu. V.İ.Leninin mart ayının 17-də Qafqaz cəbhəsinin qərbi inqilab şurasına göndərdiyi teleqramda Bakının işğal edilməsi məsələsi açıq-aydın göstərilmişdi. Teleqramda deyilirdi: «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında baş komandanla şərtləşin». Bu teleqramın arxivdə saxlanan surəti üzərində Q.K.Orconikidze yazmışdır: «Teleqram Bakıya hücum hazırlanması dövrünə aiddir. Əməliyyat hazırlanmışdı...» Şimalın soyuq küləyi Azərbaycanın üzərindən əsdikcə ölkə daxilində bir-birindən ağır hadisələr törədilirdi. Sovet Rusiyasının hücumu ərəfəsində Moskvaya gəlmiş erməni nümayəndələri ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək işində öz yardımını təklif edirdilər. Şübhəsiz ki, mart ayının ortalarında Qarabağda Moskvanın təhriki ilə erməni qiyamının baş verməsi və Azərbaycan ordusunun Qarabağa cəlb edilməsi əvvəlcədən hazırlanmış təxribatçılığın nəticəsi idi.

1920-ci ilin martında Qarabağın dağlıq hissəsində Azərbaycan Respublikasına qarşı qaldırılan qiyamda, Qazax və Naxçıvana Ermənistan tərəfindən təcavüzdə məqsəd nizami Azərbaycan ordu hissələrini

Bakıdan çıxartmaq idi. Daşnak quldur dəstələrinin Xankəndi qarnizonuna hücumu ilə başlanan Qarabağ qiyamını yatırmaq üçün ordu hissələri təcili surətdə Bakıdan və Dağıstan sərhədlərindən Qarabağın dağlıq hissəsinə göndərildi. Beləliklə, aprel işğalı ərəfəsində Samur istiqamətində Azərbaycanın sərhədləri müdafiəsiz qaldı. Aprel ayının ortalarında Qırmızı Ordu hissələrinin Azərbaycan sərhədlərində toplanması Azərbaycan hökumətinin ciddi narahatçılığına səbəb olmuşdu. Aprelin 15-də Fətəli xan Xoyski G.Çiçerinə göndərdiyi teleqramda yazırdı ki, Dağıstan denikinçilərdən təmizləndikdən sonra Azərbaycan xalqı bu ümiddə idi ki, şimaldan təhlükə qurtarmışdır, o, qardaş dağlı xalqları və xalqların təyini müqəddəratını elan etmiş rus xalqı ilə dostcasına yaşayacaqdır. Bu teleqramdan iki gün sonra RSFSR Xarici İşlər nazirinin müavinindən Sovet Rusiyasının ticarət-iqtisadi münasibətlərə dair danışıqlara hazır olması barədə teleqram alınsa da, bu xeyli dərəcədə taktiki mülahizələrlə bağlı idi.

Lakin aprel ayının 18-də Quba qəza rəisi Daxili İşlər Nazirliyinə göndərdiyi gizli teleqramda Azərbaycanın sərhədlərinə toplanmış Sovet hərbi hissələrinin hərbi hazırlıq planları barədə məlumat verirdi.

Aprel ayının 21-də Qafqaz cəbhəsi komandanlığının XI Ordu rəhbərliyinə və Volqa–Xəzər donanmasına göndərdiyi direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvəsi öz dövlətinin qərb cəbhəsində məşğuldur. Ona görə XI orduya və Volqa–Xəzər donanmasına Tuxaçevski, Orconikidze və Zaxarovun imzası ilə göndərilən direktivdə əmr edilirdi ki, aprel ayının 27-də Azərbaycan sərhədini keçib, beş gün ərzində Yalama – Bakı əməliyyatını yerinə yetirsinlər. Aprel ayının 23-də bu direktivdə dəyişiklik edildi və sərəncam verildi ki, XI ordunun son vəzifəsi Bakı quberniyasını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirməkdir.

**XI ordunun Azərbaycanı işğal etməsi**

Aprel ayının 26-da Azərbaycan ordusu tərəfindən Zəngəzurda və digər sərhəd rayonlarında məğlub edilən Ermənistan hökuməti barışıq imzalamaq xahişi ilə çıxış etdi. Azərbaycanın taleyi artıq Moskvada həll edilmişdi. Ölkə daxilində təxribatçılıq işi ilə məşğul olan bolşeviklər öz fəaliyyətlərini XI ordunun komandanlığı ilə, xüsusilə hərbi İnqilab Şurasının üzvü Q.K.Orconikidze ilə sıx əlaqələndirirlər. A.M.Mikoyan başda olmaqla «Azərbaycan bolşevikləri XI ordunun Azərbaycanı işğal etmək planlarının həyata keçirilməsində, işğal əməliyyatının vaxtının müəyyən edilməsində fəal iştirak edirdilər.

Q.K.Orconikidzenin yazılarından birində göstərilir ki, Bakıya hücum əməliyyatı hazırlanmışdı və biz Levandovskinin başçılığı ilə aprelin 25–26-da Azərbaycan sərhədlərini aşdıq. Hərbi qüvvələr, əsasən Qərb cəbhəsində olduğu üçün Qırmızı Orduya qarşı əsaslı müqavimət olmadı. Hərbi nazir S.Mehmandarovun aprel ayının 27-də ordunun yerləşdiyi qərb cəbhəsinə vurduğu təcili teleqramın da elə bir əhəmiyyəti olmadı. O bildirirdi: «Bolşeviklər Yalama stansiyasına hücum edib, içəriyə doğru hərəkət edərək Xudatı tutmuşlar, vəziyyət böhranlıdır. Əmr edirəm, elə bu gün hər birində 500 tüfənglidən az olmayaraq Qazaxdan bir batalyonu, Gəncədən bir batalyonu Qızılburuna gətirin».

Sovet Rusiyası tərəfindən təcavüzə məruz qaldığı və sərhədlərinin pozulduğu barədə Azərbaycan hökuməti aprelin 27-də müttəfiqlərin Tiflisdəki nümayəndələrinə təcili məlumat göndərdi. Azərbaycan hökuməti müttəfiqlərin nümayəndələrindən xahiş edirdi ki, Azərbaycana yenidən hücum etməməsi üçün Ermənistan hökumətinə təsir göstərsinlər. Çünki baş vermiş təcavüz aktı ilə əlaqədar hökumət öz qoşunlarını Qarabağdan və Ermənistanla sərhəd rayonlardan çıxarır. Müttəfiqlərin nümayəndələri elə həmin gün Ermənistan hökuməti ilə əlaqəyə girdilər. Aprel ayının 28-də Ermənistan hökuməti bildirdi ki, onların orduları dayandıqları mövqelərdə qalacaqlar.

Sovet Ordusunun Bakıya yaxınlaşdığı məqamda – aprelin 27-si gündüz saat 4-də Azərbaycan bolşevikləri, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından XI Ordu Biləcəri stansiyasında dayanmasına arxalanaraq respublika Parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum təqdim edildi.

Aprelin 27-də parlamentin sonuncu iclasına M.Ə.Rəsulzadə rəhbərlik edirdi. Kəskin diskussiyaların gedişində sosialist fraksiyası və ona yaxın olan fraksiyalar hakimiyyətin bolşeviklərə verilməsi tələbini müdafiə etdilər.

M.Ə.Rəsulzadənin və Şəfi bəy Rüstəmbəyovun kəskin etirazlarına baxmayaraq, iclas axşam saat 23-də hakimiyyəti dinc yolla bolşeviklərə vermək haqqında qərar qəbul etdi. Hökumət öz fəaliyyətini dayandırdı.

Hakimiyyəti təhvil vermək haqqında iclasın qərarında deyilirdi:

Sizin 27 aprel tarixli məktubunuzu müzakirə edərək, onun məzmununu indiki vəziyyətlə tutuşduraraq bizim seçdiyimiz komissiya sizin təklifinizi, o cümlədən:

1) Sovet hakimiyyətinin idarə etdiyi Azərbaycanın tam müstəqilliyinin qorunub saxlanılmasını;

2) Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumətin müvəqqəti orqan olacağını;

3) hər hansı kənar təzyiqdən asılı olmayan Azərbaycanın əsl idarə formasının fəhlə, kəndli və əsgər deputatlarının timsalında Azərbaycanın yüksək qanunvericilik təşkilatını təyin edəcəyini;

4) hökumət idarələrindəki qulluqçuların tutduğu vəzifədə qalmasını (yalnız vəzifəli şəxslər əvəz olunur);

5) yeni yaradılmış kommunist hökumətinin hökumət və parlament üzvlərinin (keçmiş -*red*) həyat və mülkiyyətinin toxunulmazlığını təmin edəcəyini;

6) Qırmızı Ordunun döyüşlə Bakı şəhərinə daxil olmasına yol verməmək üçün tədbirlər görüləcəyini;

7) yeni hökumətin Azərbaycanın müstəqilliyini tapdalamaq məqsədilə hər hansı bir kənar həmləyə (haradan olursa-olsun) qarşı qəti tədbirlərlə və əldə olan bütün vasitələrlə mübarizə aparacağını nəzərə alıb, Azərbaycan parlamenti bu şərtlərə əməl edəcəklərini bildirdikləri üçün səs çoxluğu ilə hakimiyyəti müsəlman kommunistlərinə vermək barədə qərar qəbul edir». Lakin cəmisi bir neçə saat sonra bu razılaşmanın əksinə olaraq Anadoluya getmək bəhanəsi ilə Biləcəri stansiyasına gəlib çatmış XI Qırmızı Ordu Bakıya daxil oldu. Az sonra isə bu müqavilənin heç bir bəndinə əməl edilmədi. Bununla da Azərbaycanın tarixində mühüm hadisə olan 23 aylıq istiqlala son qoyuldu və Azərbaycan yenidən Rusiya tərəfindən işğal olundu.

İndiyə qədər yazılanların əksinə olaraq, qeyd etmək lazımdır ki, 1920-ci ilin aprelində xarici təcavüz nəticəsində beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq dünya ölkələri tərəfindən tanınmış suveren Azərbaycan dövləti zor işlətməklə devrildi. Bolşeviklər hakimiyyəti qəsb etdilər. Bakıda olan xarici dövlətlərin diplomatik nümayəndələri həbs edildi.

Aprel hadisələrinin bilavasitə icraçılarından biri olan və milli hökumətə hakimiyyəti bolşeviklərə vermək barədə ultimatum təqdim etmiş Həmid Sultanov 1920-ci ilin oktyabrında keçirilmiş AK(b)P-nin qurultayındakı çıxışında göstərirdi ki, hakimiyyətin devrilməsi üçün MK heç bir fəhlə, heç bir kəndliyə göstəriş verməmişdi. O, deyirdi: «Hakimiyyətin devrilməsində mən yaxından iştirak etmişəm. Ona görə də əla bilirdik ki, arxamızda burada MK-dan olan əziz yoldaşlarımız deyil, bizim Yalamada olan qırmızı süngümüz dayanır. Mən hökumətə tələbləri verməyə gedəndə qətiyyən MK-ya arxalanmırdım... Mən bilirdim

ki, indi də olmasa, sabah, ya birisi gün qırmızı süngü burada olacaqdır. Belə də oldu. Biz Sovet hakimiyyətini hazır formada aldıq, onu bizə boşqabda gətirdilər».

Aprel ayının 28-də San-Remo konfransında iştirak etmiş Azərbaycan nümayəndələri bu xəbəri alan kimi müttəfiq dövlətlərin Ali Şurasına, İtaliya hökumətinə və xarici dövlətlərin Romada olan səfirliklərinə suveren Azərbaycan dövlətinin Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada göstərilirdi: «Azərbaycan nümayəndələri ümid edirlər ki, Sülh konfransı müstəqilliyin bərpa olunmasında Azərbaycana köməklik göstərəcəkdir». Lakin bunların heç bir əhəmiyyəti olmadı. Parisdəki nümayəndələri isə Azərbaycan siyasi mühacirlərinin ilk dəstəsinə çevrildilər.

Uğursuz sonluğuna baxmayaraq, Azərbaycan Cümhuriyyətinin iki illik fəaliyyəti Azərbaycan xalqının tarixində və taleyində mühüm hadisə idi. Azərbaycan Cümhuriyyətinin yaradılması ilə XIX əsrin əvvəllərində itirilmiş dövlətçilik ənənələri bərpa edildi. O, qısa vaxtda öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan Demokratik respublikaya çevrildi.

## § 8. Azərbaycan hökumətinin mədəniyyət sahəsində tədbirləri

**Maarif**

Azərbaycan mədəniyyətinə və xalq maarifin inkişafına milli hökumət xüsusi qayğı ilə yanaşmışdır. Belə bir qayğı Azərbaycan milli ziyalılarının uzun illərdən bəri milli məktəb uğrunda apardıqları gərgin mübarizənin bilavasitə təzahürü idi. Böyük vətəndaşlıq qayəsi ilə maarifpərvər ziyalılar «nə qədər ki, milli məktəb yoxdur, milli tərbiyə də olmayacaqdır» məramını əsas tutub çar üsul-idarəsi kimi mühafizəkar bir imperiya daxilində milləti maarifləndirmək üçün təkcə varidatlarını deyil, canlarını da qoyurdular.

Azərbaycan Cümhuriyyəti özünün qısamüddətli fəaliyyəti dövründə xalqın milli şüurunu özünə qaytarmış, mənəviyyatda böyük dəyişikliklər etmişdi.

İyunun 30-da Xalq Maarif Nazirliyinin ştatı təsdiq olundu. Nazirliyin məktəblər idarəsi nəzdində ali və orta ixtisas təhsili, xalq təhsili və peşə təhsili üzrə üç müstəqil şöbəsi yaradıldı.

Azərbaycan hökumətinin həyata keçirdiyi ilk tədbirlərdən biri 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan dilinin dövlət dili elan edilməsi oldu. Lakin Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrlar çatışmadığından müvəqqəti olaraq inzibati idarə orqanları, məhkəmə işi və digər sahələrdə rus dilindən istifadəyə də yol verilirdi.

Azərbaycan Cümhuriyyəti təhsilin milliləşdirilməsinə xüsusi əhəmiyyət verirdi. Azərbaycan hökumətinin 1918-ci il 28 avqust qərarı ilə bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılır, dövlət dili olan Türk dilinin tədrisi məcburi surətdə həyata keçirilirdi.

Bu zaman Azərbaycan hökuməti tədris işini milliləşdirərkən azlıqda qalan millətlərin mənafeyini də nəzərə almışdı.

Hökumətin 1918-ci il 7 sentyabr tarixli qərarı ilə əgər sinifdə on nəfərdən az olmayaraq başqa millətdən olan şagird var idisə, onlara öz dillərində ilahiyyat və ana dili dərsləri keçirilirdi. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda 23 orta ixtisas, 637 ibtidai məktəb fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qadın tədris müəssisəsi, politexnik və kommersiya məktəbi var idi. 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. 1919-cu ilin iyulundan Lənkəran kişi və qadın gimnaziyaları da Xalq Maarif Nazirliyinin sərəncamına keçdi. Həmin il avqustun 11-də Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı müqəddəs Nina qız tədris müəssisələrinin adı dəyişdirildi. Bakıda birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Şəkidə isə qız gimnaziyaları adlandırıldı. 1919-cu ildə Göyçay şəhərində realnı məktəb açıldı.

Müəllimlər seminariyasında oxuyanlar istisna olmaqla 1919–1920-ci tədris ilində Azərbaycan orta məktəblərində 9611 şagird təhsil alırdı. Bakı kommersiya və politexnik məktəbləri, Bakıdakı bir sıra kişi, qadın gimnaziyalarından başqa qalan bütün orta ixtisas təhsili müəssisələri milliləşdirilmişdi. Lakin dərslərin rus dilində aparıldığı siniflərdə məcburi surətdə həftədə 3–4 saat türk dili dərsləri keçirilirdi.

Xalq təhsilini milli zəmin üzərində qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac var idi. Bunun üçün 1918-ci il iyulun 22-də Azərbaycanın tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti hazırlamaq haqqında Azərbaycan hökuməti xüsusi qərar qəbul etdi. Hökumət Türkiyə həya-

tı ilə yaxşı tanış olan Əhməd bəy Ağayevi bu işləri qaydaya salmaq üçün İstanbula ezam etməyi Xalq Maarif Nazirliyinə tapşırdı.

1919-cu ilin yayında ibtidai və orta məktəblərin aşağı siniflərini müəllim kadrları ilə təmin etmək üçün qısamüddətli pedaqoji kurslar təşkil olundu. Bakıda, Gəncədə və Nuxada kişi və qadın; Şuşada, Qazaxda, Qusarda, Salyanda və Zaqatalada isə kişi pedaqoji kursları açıldı. Hər kursda ən azı 50 nəfər müəllim təhsil alırdı.

Xalq Maarif Nazirliyi məktəblər üçün dərsliklərin hazırlanması və nəşri ilə də ciddi məşğul olurdu. 1919-cu ildə «Türk əlifbası», «Təzə elmi hesab», «İkinci il», «Yeni məktəb», «Ədəbiyyat dərsləri», «Müntəxəbat», «Türk çələngi», «Tarixi-təbii», «Rəhbər cəbr» dərslikləri qısa müddətdə kütləvi tirajla nəşr olundu. Azərbaycan maarifi və ədəbiyyatının görkəmli xadimləri Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağayev, Ağabəy İsrafilbəyov, Abdullabəy Əfəndizadə və başqaları bu işdə fəal iştirak edirdilər. Bundan əlavə, Azərbaycan məktəblərinin kitabxanaları Türkiyədən alınmış türkdilli dərsliklər, dərs vəsaitləri və başqa kitablarla da təmin olunurdu.

1919-cu il 18 sentyabr tarixli qərarı ilə Azərbaycan Respublikasının parlamenti məktəblər üçün türk dilində yeni kitablar almaq üçün Xalq Maarif Nazirliyinin hesabına bir milyon manat vəsait ayırdı.

Azərbaycan Xalq Cümhuriyyəti qarşısında duran ən ümdə vəzifələrdən biri də Azərbaycan ali təhsilinin təşkili və ali təhsilli milli kadrların hazırlanması idi. Odur ki, üç ali məktəbin – Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyasının açılması ən vacib məsələ kimi qarşıya qoyulmuşdu. Lakin o dövrdəki şərait və imkanlar yalnız Bakı Dövlət Universitetini açmağa imkan verdi.

1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Bakı Dövlət Universitetinin təsisi haqqında qanun qəbul etdi. Qanunda universitetin dörd fakültədən ibarət açılması nəzərdə tutulurdu. Bunlar tarix-filologiya, hüquq, fizika-riyaziyyat və tibb fakültələri idi.

1919-cu il noyabr ayının 15-də Bakı Dövlət Universitetində ilk dərslər başlandı. Bu münasibətlə «Azərbaycan» qəzeti yazırdı: «Yeni millət, yeni elm, yeni fəlsəfə demək isə hər darülfünunda yeni bir məbəd olması icad edər... Azərbaycan Darülfünunu, əlbəttə, bir türk (Azərbaycan–*red.*) Darülfünunudur, çünki türk milləti, türk parlamanı, türk hökuməti tərəfindən türk gəncliyi üçün açılmışdır... Darülfünunun həyat və məşğuliyyətə başlaması tarixi olan 15 noyabr yeni bir tərəqqi

dövrünün açılmasının bir ibtidası olacaqdır». Birinci il Universitetə 1094 tələbə və azad dinləyici qəbul edildi.

Universitetin açılmasında əvəzsiz xidmətləri olan böyük mütəfəkkir M.Ə.Rəsulzadə tarix–filologiya fakültəsində «Osmanlı ədəbiyyatı tarixindən» mühazirələr oxumuşdu.

Parlamentin 1 sentyabr tarixli iclasında 1919–1920-ci ildə 100 tələbənin xarici ölkələrin ali məktəblərinə oxumağa göndərilməsi üçün 7 milyon man. vəsait ayrılması haqqında ikinci mühüm bir qərar qəbul edildi.

Avropaya göndərilən hər bir tələbəyə min frank yol xərci, dörd yüz frank aylıq təqaüd, Rusiyaya göndərilən hər bir tələbəyə isə üç min manat yol xərci və üç min manat aylıq təqaüd verilsin. Dövlət təqaüdü hesabına oxuyan tələbələr təhsilini qurtardıqdan sonra hökumətin müəyyən etdiyi yerdə dörd il müddətində qeyd-şərtsiz xidmət etməyə borclu idilər.

Yüz nəfərdən onu İngiltərəyə, iyirmi üçü İtaliyaya, qırx beşi Fransaya, doqquzu Türkiyəyə göndərildi. Rusiyada baş verən hadisələrlə əlaqədar ora on üç nəfərin göndərilməsi müvəqqəti dayandırıldı.

Azərbaycan Cümhuriyyətində yaşlı əhali də təhsildən kənarda qalmamışdı. Onlar üçün dövlət hesabına savad kursları, qeyri-türklər üçün türk dili kursları təşkil edilmişdi. Azərbaycan Cümhuriyyətində hökumət tərəfindən rəğbətlə qarşılanmış əlifba islahatı məsələsi də hamılıqla savadlanma vəzifələrinə xidmət etməli idi.

Beləliklə, qısa müddət ərzində Azərbaycan hökumətinin maarif sahəsində siyasəti formalaşmış, onun əsas cəhətləri müəyyən edilmiş və əməli addımlar atılmışdı.

**Mədəni-maarif işləri**

İstiqlal dövründə öz fəaliyyətlərinə hələ xeyli əvvəl başlamış mədəni-maarif cəmiyyətləri mühüm rol oynamaqda davam edirdilər. «Səfa», «Nicat», «Nəşri-maarif», «Tərəqqi» və digər cəmiyyətlər mart hadisələrindən böyük ziyan çəkmiş və onların binaları dağıdılmış, əmlakları müsadirə edilmişdi. Lakin daxili-siyasi həyat sabitləşdikcə bu cəmiyyətlər tədricən bərpa olunur, sosial-mədəni həyatda fəal iştirak edirdilər. Bu cəmiyyətlərin işində «Nəşri-maarif»in fəxri sədri, məşhur xeyriyyəçi H.Z.Tağıyev yaxından iştirak edirdi.

Azərbaycanda yeni yaranmış milli cəmiyyətlər içərisində 1918-ci ildə təşkil olunmuş «Türk ocağı» xüsusi yer tuturdu. Cəmiyyətin məqsədi osmanlı türkləri ilə Azərbaycan türklərini daha da yaxınlaşdırmaq idi. Bu cəmiyyətin işində vətənsevər milliyyətçi ziyalılardan A.Şaiq,

A.Kazımzadə, N.Nağıyev, Məhəmməd Əmin Rəsulzadə (şair) və digərləri yaxından iştirak edirdilər. 1919-cu ilin axırlarında «Türk ocağı»nın siyasi klubu açıldı. Bu klub əhali arasında azərbaycançılıq ideyalarının təbliğində, siyasi mövzular ətrafında müzakirələrin keçirilməsində faydalı iş gördü. Onun müzakirələrində tanınmış müsavatçılardan M.Ə.Rəsulzadə, Q.R.Şərifzadə, Ş.Rüstəmbəyov, R.Ağabəyov, Seyid Hüseyn və digərləri tez-tez çıxış edirdilər.

Bununla yanaşı, Bakıda «Qurtuluş» cəmiyyəti və onun «Turan şöbəsi», «Yaşıl qələm» və «İslam incəsənətini və mədəniyyətini mühafizə cəmiyyəti» də fəaliyyət göstərirdi. Bu cəmiyyətlər, əsasən milli ruhlu şairləri, ədibləri, mədəniyyət xadimlərini birləşdirirdi.

Azərbaycan hökuməti Bakıya köçdükdən sonra kitabxanalar şəbəkəsi genişləndirilməyə başladı. Xəzərsahili «Kooperasiya» ittifaqı respublikanın türk əhalisinə xidmət etmək üçün 1919-cu ilin martında xeyli kitab fondu olan kitabxana açdı. Bu Azərbaycanda türk dilində ilk böyük kitabxana idi. Milli kitabxananın yaradılması istiqamətində də mühüm işlər görülürdü. Onu Bakının mərkəzi hissəsində açmaq nəzərdə tutulurdu. Bu kitabxanada toplanacaq Azərbaycana aid kitabları və əlyazmaları toplamaq üçün hökumət tərəfindən Qahirəyə, Beyruta, İstanbula və bir sıra Avropa paytaxtlarına mütəxəssislər ezam edilmişdi.

1919-cu ilin dekabrında milli-muzeyin – «istiqlal» muzeyinin açılması Azərbaycan mədəniyyət tarixində böyük hadisə idi. Onun açılışında parlament üzvləri, nazirlər, ruhanilərin nümayəndələri iştirak etmişdilər. Muzeyin ilk eksponatları arasında qılınclar, Quranın əlyazmaları, müxtəlif əşyalar üzərində dualar, gümüşdən, fil sümüyündən əşyalar, müxtəlif kitabların əlyazmaları və s. var idi. Milli mədəniyyət nümunələrini toplamaq üçün muzeyin rəhbərliyi xalqa müraciət etmişdi.

**Milli irsin və ənənələrin inkişafı**

İstiqlal dövründə milli ruhun və milli ideallların qüvvətlənməsi ilə əlaqədar olaraq tarixi ənənələrə, milli irsin tədqiqinə və təbliğinə maraq artmışdı.

Azərbaycanın tarixi, ədəbiyyatı, iqtisadiyyatı, təbiəti ilə bağlı bir çox əsərlər meydana çıxmışdı. Azərbaycan, rus, ingilis, fransız, fars dillərində xaricdə Azərbaycanın təbliği üçün nəzərdə tutulmuş kitabçalar, sənədlər çap edilmişdi. Bunların içərisində Ə.Topçubaşovun İstanbulda nəşr olunmuş «Azərbaycanın təşəkkülü», A.Ziyadxanlının «Azərbaycan» kitablarını, Ə.Şeyxülislamovun 1919-cu ildə Parisdə fransızca nəşr etdirdiyi «Qafqaz Azərbaycanı Respublikası» kitabçası,

Versal sülh konfransına C.Hacıbəyli tərəfindən hazırlanmış materialları və s. qeyd etmək lazımdır.

M.Ə.Rəsulzadə tarixi mövzuda yazdığı «İran və Azərbaycan», «Azərbaycanın paytaxtı» məqalələrində Azərbaycan türklərinin mənşəyi, qonşu ölkələr və xalqlarla münasibət, Bakı şəhərinin yaranması və inkişaf tarixi ilə bağlı qədim tarixçi və coğrafiyaşünasların materiallarına əsaslanan, elm üçün indi də öz əhəmiyyətini saxlayan bir sıra orijinal fikirlər söyləmişdir. Publisist F.Ağazadənin «Azərbaycan professorları» məqaləsi isə dil və ədəbiyyat sahəsində tanınmış elm adamlarının xidmətlərindən bəhs edir. Milli tarixi, mədəniyyəti və ədəbiyyatı təbliğ etmək məqsədilə 1919-cu ildə «Övraqi-nəfisə» adlı məcmuənin nəşrinə başlandı. Bu məcmuənin nəşri ilə bağlı Y.Vəzir yazırdı ki, biz gərək «əvvəlcə ərəb və fars aləmini təsvir etməkdən daşınıb, türk aləmini və bilavasitə Azərbaycanı təsvir edək».

Məcmuənin səhifələrində musiqi, teatr, memarlıq abidələri ilə əlaqədar məqalələr və şəkillər çap olunurdu. Orada «İsmailiyyə» binasının, Azərbaycan ədiblərindən Haşım bəy Vəzirovun, aktyor Xəlil Hüseynzadənin, şairlərdən Mirzə Əbdülqadir Vüsuqinin şəkli, Azərbaycan şairi Məhəmməd Əmin bəyin (təxəllüsü–Yurdaqul;–*red.*), məşhur publisist Əli bəy Hüseynzadənin, şair Mir Bədrəddin əl-Hüseynin tərcümeyi-halları, Zülfüqar Hacıbəylinin, Əliabbas Müznibin şeirləri verilmişdi.

Azərbaycan hökumətinin ilk tədbirlərindən biri Azərbaycan xalqının milli yaddaşının özünə qaytarılması, tarixi yer, qəsəbə və şəhər adlarının bərpası idi. Hökumətin 1918-ci il 30 iyul tarixli qərarı ilə Yelizavetpol yenidən Gəncə, Qaryagin qəzası ilə Cəbrayıl qəzası adlandırıldı. Şəhərlərə, küçələrə milli xüsusiyyətlərə uyğun olan görkəmli şəxslərin, ədiblərin, şairlərin adları verilmişdi.

Azərbaycan tarixi və mədəniyyətinin öyrənilməsi və təbliği sahəsində Bakı Universiteti nəzdində yaradılmış «müsəlman şərqini öyrənən cəmiyyət» böyük iş gördü. Cəmiyyətin əsas təşkilatçıları Cavad bəy Rəfibəyov, Azərbaycan ədəbiyyatının bilicisi R.Əfəndiyev, Qafqaz Tarix Arxeologiya İnstitutunun üzvü İ.A.Belyayev, şərq numizimatikası üzrə mütəxəssis Y.A.Paxomov, şərq-qərb münasibətləri üzrə mütəxəssis A.İ.Platonov və şərqşünas L.A.Zimin idilər. Cəmiyyətin məqsədi müsəlman dininə etiqad edən xalqların yaşadığı ölkələrin, habelə müsəlman mədəniyyətinin inkişafına bu və ya başqa dərəcədə təsir etmiş tarixi və mədəni amillərin öyrənilməsi idi. Cəmiyyət gələcək

işlərində Tiflisdə ərəb, fars və türk dillərində tarixi məzmunlu, Azərbaycana və müsəlman şərqinə aid olan materialları araşdırmağı, Zaqatalanın arxeoloji baxımdan öyrənilməsini, Şabran şəhərinin axtarılmasını, Gəncədə Nizaminin qəbirüstü abidəsinin və Bakı ətrafında tarixi abidələrin öyrənilməsini planlaşdırmışdı.

Beləliklə, Azərbaycan tarixi və mədəniyyəti dövlət səviyyəsində öyrənilir və təbliğ edilir, Azərbaycanın dünyaya tanıdılması üçün təsirli addımlar atılırdı.

**Mətbuat**

Azərbaycan Cümhuriyyətinin zəngin və orijinal mətbuatı olmuşdur. Milli hökumətin mətbuat sahəsində siyasəti söz və vicdan azadlığı, vətəndaş hüquqları prinsipləri ilə ümumdemokratik normalarla müəyyən edilirdi. Onun hüquqi normaları parlamentin qəbul etdiyi «Mətbuat haqqında Nizamnamədə» öz əksini tapmışdır.

1918–1920-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarla qəzet və jurnal nəşr olunmuşdur. Azərbaycan hökumətinin rəsmi orqanı türk və rus dillərində əvvəlcə Gəncədə, sonra isə Bakıda nəşr olunan «Azərbaycan» qəzeti idi. İctimai-siyasi, ədəbi, iqtisadi xarakterli bu gündəlik qəzetin türkcəsinin redaktoru Ceyhun və Üzeyir Hacıbəyli qardaşları, ruscasının redaktoru isə Şəfi bəy Rüstəmbəyli idi. Türk və rus dillərində çıxan «Azərbaycan hökumətinin əxbarı» qəzeti də hökumətin yarımrəsmi orqanı idi.

«Müsavat» partiyasının orqanları «İstiqlal», «Açıq söz», rus dilində «Naş put» qəzetləri idi. «Əhrar» partiyası «El», hümmətçi menşeviklər «Doğru yol», eserlər «Xalqçı», «Fəhlə və əkinçi» qəzetlərini nəşr edirdilər. İttihadçılar «Müsəlmanlıq» qəzeti ilə təmsil olunmuşdu. Yaradıcı ziyalılar «Məktəb» və «Bəsirət» məcmuələrini, bolşeviklər «Füqəra sədası», «Haqq sədası», «Yoldaş», «Məşəl», «Gənc işçi», iranlı demokratlar «Bayrağı-ədalət», «Hürriyyət», «Sədayi-İran» qəzetlərini nəşr edirdilər. Belə rəngarəng mətbuat dövrün ümumi mənzərəsini, müxtəlif siyasi, ədəbi-mədəni qüvvələrin əhvali-ruhiyyəsini, baxışlarını və siyasi istiqamətlərini özündə əks etdirirdi.

1919-cu ilin martında Azərbaycan teleqraf Agentliyinin yaradılması haqqında Nazirlər Şurası qərar qəbul etdi. Bu qərarı 1920-ci ilin martında həyata keçirmək mümkün oldu. Azərbaycanın bülletenlərinə yazılış başlandı.

Azərbaycan haqqında həqiqəti dünyaya yaymaq üçün Avropa ölkələrində mətbuat orqanı yaradılmasına böyük diqqət yetirilirdi. 1919-cu ilin payızında Versalda olan sülh heyətimizin «Azərbaycan haqqında

İnformasiya bülleteni» buraxılması ilk uğurlu addım idi. Fransa, ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya, İsveçrə və digər ölkələrdə yayılan informasiya bülletenində rəsmi materiallar, diplomatik yazışmalar, notalar, Azərbaycanın siyasi və iqtisadi həyatının xronikası verilirdi. 1919-cu ilin sentyabrından – 1920-ci ilin aprelinə qədər bülletenin 11 nömrəsi çıxdı. Bundan başqa, Azərbaycan nümayəndələri Cenevrədə çıxan «L» Europe Orientale» jurnalı ilə müqavilə bağlanmışdılar ki, 20 min nüsxəyə abunə yazılmaq müqabilində jurnal hər nömrəsində Azərbaycan haqqında material versin. Avropa ölkələrində geniş yayılan «Limace» jurnalı bir nömrəsini bütövlükdə Azərbaycana həsr etmişdi. Fransanın teleqraf və telefon kampaniyası Azərbaycan Respublikasının poçt-teleqraf işlərini ümumdünya standartlarına uyğunlaşdırmaq və Gəncə radiostansiyasında Eyfel qülləsindəki Avropa radiostansiyalarına qoşmaq üçün yeni qurğular qurmuşdular. 1919-cu ilin noyabrında Parisdə olan Ə.Topçubaşovun Eyfel radiostansiyası ilə çıxışı Azərbaycanda eşidildi. O deyirdi: «Əziz vətənimizin iqtisadi və mədəni tərəqqisində böyük rol oynayacaq ilk Azərbaycan radiosunun fəaliyyətə başlaması münasibətilə Sizi təbrik edirəm».

**Ədəbiyyat və incəsənət**

Cümhuriyyətin yaranması, onun bir dövlət kimi formalaşması, müstəqillik yolunda atdığı addımlar ədəbiyyatda canlamaya, milli ruhun güclənməsinə səbəb olmuşdu. İndiyə qədər, əsasən, «pantürkist» və «panislamist» ədəbiyyat kimi damğalanan bu dövrün ədəbi prosesi dərin yaradıcılıq coşqunluğu, milli ruhun və vətənpərvərliyin qüvvətlənməsi ilə diqqəti cəlb edir. Əslində isə bütövlükdə bu dövr çoxəsrlik Azərbaycan ədəbiyyatının inkişafında ayrıca bir mərhələ təşkil edir. Hüseyn Cavid, Məhəmməd Hadi, C.Məmmədquluzadə, Əhməd Cavad, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyli, Yusif Vəzir, Seyid Hüseyn, Əliabbas Müznib, Abdulla Şaiq, Salman Mümtaz, Um Gülsüm və başqaları milli ruhun istiqlal ideyasının təmsilçiləri idilər. Ədəbiyyatda milli özünüdərk və milli mənlik şüurunun formalaşmasından doğan milli qürur və vətənpərvərlik dövrün aparıcı mövzularından idi. İslamçılıqdan türkçülüyə keçid, siyasətdə olduğu kimi, ədəbi-bədii prosesdə də müşahidə olunurdu. Azərbaycançılıq ideyası, ziyalıların əksəriyyətinin və əhalinin müəyyən hissəsinin şüurunda möhkəm yer tutmuşdu.

Milli Azərbaycan hərəkatı, istiqlal arzusunun tərənnümü Azərbaycan xalqının tarixinin ən həyəcanlı günlərində ədəbiyyatın əsas amalı kimi səslənirdi. Sonralar Sibirə sürgün edilmiş şair Əliyusif yazırdı:

*Bütün Turan, Oğuz nəsli, hətta bütün şərq bəlkə,*
*Yenə onu təsdiq ilə ziyarətgah edəcək.*
*Ey türk oğlu, səni Tanrı Şərqə hadi göndərdi,*
*Yatmış yurdu qardaş kimi dirilt, qaldır, oyandır,*
*Ürəyində sönməyəcək bir həqiqi od yandır.*

Bu dövrdə nəşr edilmiş Hüseyn Cavidin «Şeyx Sənan»ı, Məhəmməd Hadinin «Eşq ilahəsi», Əhməd Cavadın «Qoşma»sı, Cəfər Cabbarlının «Qız qalası» milli ədəbiyyatımızın iftixarı hesab edilə bilər.

Milli istiqlal hərəkatının nəğməkarı hesab edilən Əhməd Cavad 28 may münasibətilə yazdığı «Nədən yarandın» şeirində xalqın milli ruhunu dərin həssaslıqla, böyük şövqlə tərənnüm etmiş, istiqlal odunun xalqın öz qəlbində yanıb alovlandığını son dərəcə lirik formada qələmə almışdır.

O yazırdı:

*Sən qüdrətin aşıb, coşan vaxtında*
*Mələklərin gülüşündən yarandın!..*
*Qaranlıqda qırılarkən ümidin,*
*Dan ulduzu yürüşündən yarandın!*
*Qələm əldə ilhamımı dinlərkən,*
*Sən qəlbimin duruşundan yarandın!*

Böyük ədib Mirzə Cəlilin «Kamança» pyesi, «Anamın kitabı» əsərləri bir sıra hekayə və felyetonları da bu dövrün məhsuludur. Yeni müstəqillik əldə etmiş Azərbaycanın öz kökü, öz dili, mədəniyyəti və mənəviyyatı zəminində inkişafı «Anamın kitabı»nın əsas qayəsini təşkil edir. İxtiyar baba oğullarına öyüd verərək ananın kitabından – yəni qədim köklü, dərin məzmunlu, əsrlərin yaddaşından süzülüb gələn milli Azərbaycan mədəniyyətindən, mənəviyyat və əxlaqından uzaqlaşmamağı tövsiyə edir. Çünki dünyanın hər üzünü görmüş Mirzə Cəlil yaxşı bilirdi ki, cəmiyyətin öz ana kökündən ayrılması milli faciənin başlanğıcı, milli mədəniyyətin və zehniyyətin məhvi demək idi.

Bu dövr Azərbaycan ədəbiyyatının inkişafı milli teatrın tərəqqisinə də təkan verirdi. 1917–1918-ci illərin qarışıq hadisələrindən sonra Azərbaycan teatr truppası təşkil etmək sahəsində göstərilən səylər tezliklə öz nəticəsini verdi. 1918-ci ilin oktyabrında Bakıda «Hacıbəyli qardaşları» müdiriyyəti tərəfindən yeni teatr truppası yaradıldı. Truppanın H.Ərəblinski, H.Sarablı, Q.Şərifzadə, M.Əliyev, Ü.Hacıbəyli kimi

böyük sənətkarlar daxil idi. Truppa həftədə iki dəfə türk dilində tamaşa göstərirdi. Bu truppa əsasında 1919-cu ilin noyabrında dövlət türk opera-dram teatrı təşkil edildi. Teatrın ehtiyacları üçün dövlət xəzinəsindən 500 min rubl pul ayrıldı, türk teatrı milliləşdirildi və dövlətin himayəsinə verildi. Dövlət teatrının direktoru Qulamrza Şərifzadə 1919-cu ilin axırlarında elan etmişdi ki, bundan sonra Maarif Nazirliyinin tapşırığı ilə opera, operetta və dram tamaşaları dövlətə mənsub olacaqdır. Aktyorların bədii ustalığını, təhsilini və ixtisasını artırmaq üçün dövlət teatrının, «Səfa» və «Nicat» cəmiyyətlərinin təşkil etdiyi dram kursları yaradılmışdı.

Xeyriyyə məqsədilə teatr tamaşalarının verilməsi tez-tez təsadüf edilən bir hal idi. «Azərbaycan» qəzetində şəhid ailələrinin, yoxsul şagirdlərin nəfinə teatr tamaşaları verilməsi haqqında elanlar verilirdi.

1918–1920-ci illərdə teatrların repertuarında N.Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük», «Müsibəti-Fəxrəddin», Ə.Haqverdiyevin «Bəxtsiz cavan», Namiq Kamalın «Akif bəy, yaxud namus», Ü.Hacıbəylinin «O olmasın, bu olsun», «Arşın mal alan», Z.Hacıbəylinin «50 yaşında cavan», «11 yaşlı gəlin», ərəb müəllifi Zeydanın «Yezid» kimi pyesləri və operettaları əsas yer tuturdu. Eyni zamanda istiqlal mübarizəsinin tarixinə, o dövrün mürəkkəb hadisələrinə həsr edilmiş, vətənpərvərlik ruhu ilə aşılanmış dram əsərləri yaradılırdı. C.Cabbarlının «Ədirnə fəthi», «Bakı müharibəsi», Mirzəbala Məmmədzadənin «Bakı uğrunda müharibə», İsabəy Aşurbəyovun «Azərbaycan» pyesləri bu qəbildən idi.

Musiqi, rəssamlıq, heykəltəraşlıq, memarlıq sahəsində də bəzi yeniliklər və layihələr mövcud idi. 1919-cu ildə Xəzəryanı istehlak kooperasiyası ittifaqının musiqi studiyası öz fəaliyyətinə başlamışdı. 1919–1920-ci illərdə studiyanın təşkil etdiyi tematik konsertlər Bakının musiqi həyatında mühüm hadisə idi.

Rəssam Bəhruz Kəngərli öz tablolarında, əsasən, qaçqınların, qadın və uşaqların acınacaqlı vəziyyətini əks etdirirdi. O, qaçqınlar mövzusuna dair bütöv bir rəsm qalereyası yaratmışdı. 1919-cu ildə Bakıya gələn görkəmli rəssamlar A.K.Şerşavidze və N.İ.Butkovskaya Azərbaycanda rəssamlıq studiyasının yaradılmasında faydalı iş gördülər.

1919-cu ilin martı üçün Bakıda 16 kinematoqraf fəaliyyət göstərirdi.

Heykəltəraşlıq və memarlıq sahəsində də müəyyən təşəbbüslər göstərilmişdi. 1918-ci ildə Bakının azad edilməsi uğrunda gedən döyüşlər zamanı şəhid olan türk əsgərləri ilə azərbaycanlı döyüşçülərə

abidə-memarlıq kompleksi tikilməsi layihəsi işlənib hazırlanmışdı. Bakı xeyriyyə cəmiyyətinin təşəbbüsü ilə 1918-ci ilin sentyabrında başlanan bu iş 1920-ci ilin sentyabrın 15-nə qədər tamamlanmalı idi. Bu cür abidələr təkcə Bakıda deyil, Gəncədə də nəzərdə tutulmuşdu. Bundan başqa, Gəncədə Nizamiyə heykəl qoyulması planlaşdırılmışdı.

Beləliklə, Azərbaycan Cümhuriyyətində mədəni-maarif işinə, ədəbiyyat və incəsənətə onun daxili demokratik məzmunundan irəli gələn humanist münasibət nümayiş etdirilmişdir. Mədəni-maarif cəmiyyətləri və müəssisələrinin işində Azərbaycan dövlətçiliyi və milli mənafelər müəyyənedici amil olmuşdur. Ədəbiyyat və incəsənət dövlət himayəsinə alınmış, bunlarda aparıcı ideyalar türkçülük və azərbaycançılıq olmuşdur. Bütövlükdə Azərbaycan cəmiyyəti milli-mədəni yüksəliş dövrü keçirmişdir.

## IX FƏSİL

# 1917–1920-ci İLLƏRDƏ CƏNUBİ AZƏRBAYCANDA MİLLİ-AZADLIQ HƏRƏKATI

## § 1. Milli-azadlıq hərəkatının başlanması

**Rusiyada çarizmin devrilməsi və Cənubi Azərbaycanda siyasi vəziyyət**

1917-ci ildə Rusiyada Fevral burjua-demokratik inqilabı qələbə çaldığı və çarizmin devrildiyi vaxt Cənubi Azərbaycan rus qoşunlarının işğalı altında idi. Buradakı demokratik qüvvələrin həm İran irticasının, həm də işğalçıların təzyiqi altında olması acı həqiqətlərdən idi. Odur ki, Rusiyada çarizmin devrilməsi xəbəri İrandakı rus əsgərlərində inqilabi coşqunluq yaratmaqla yanaşı (Təbriz, Xoy, Maku, Şərəfxana və b. şəhərlərdə əsgər deputatları sovetləri canlandı), həmçinin Cənubi Azərbaycana da böyük ruh yüksəkliyi və ümidlər gətirdi. İran irticasının arxası olan çarizmin süqutu, burada bütün demokratik qüvvələr tərəfindən Tehran hakimiyyətinin yerlərdə, o cümlədən Cənubi Azərbaycanda zəifləməsi kimi qəbul edildi.

Fevral burjua-demokratik inqilabının qələbə çalması və bu vaxtadək İranda da milli-azadlıq qüvvələri qarşısında əsas maneələrdən biri olan çarizmin süqutu ölkənin şimal əyalətlərində, o cümlədən Cənubi Azərbaycanda milli-azadlıq və demokratik hərəkatın canlanması üçün şərait yaratdı.

Cənubi Azərbaycanda əhalinin çıxışlarına əsas siyasi orqan – İDP-nın əyalət komitəsi istiqamət verirdi. Fevral inqilabı baş verərkən Azərbaycan əyalət komitəsi İDP-nin nəzərəçarpacaq dərəcədə fəaliyyət göstərən yeganə təşkilatı idi. Komitəyə İran məşrutə inqilabının (1905–1911) dalğalarında mətinləşmiş Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi.

Fevral inqilabının qələbəsi xəbərindən sonra İDP-nin Azərbaycan əyalət komitəsi açıq işə keçdi. Aprelin 7-də konstitusiya elan olunmasının 10 illiyi ilə əlaqədar Təbrizin Topxana meydanında keçirilmiş

təntənəli mitinqdə əyalət komitəsi ilk dəfə olaraq açıq surətdə kütlələr qarşısında çıxış etdi.

Leqal şəraitdə işə keçdikdən sonra təşkilatların fəaliyyəti xeyli genişləndi. 1917-ci ilin ortalarına doğru İDP-nin bir-birinə zidd qruplara parçalandığı və təşkilatlarının çoxu dağıldığı bir vaxtda Azərbaycan əyalətindəki təşkilatlar formalaşırdı. Təbrizin bəzi məhəllələrində partiya özəkləri, əyalətin bir sıra vilayət mərkəzlərində – Sərab, Ərdəbil, Zəncan, Urmiyada isə partiya komitələri fəaliyyət göstərirdi.

Azərbaycan əyalət komitəsi təşkilatın mətbuat orqanı kimi «Təcəddüd» («Yeniləşmə») qəzetini nəşr etməyə başladı. Qəzetin ilk nömrəsi 1917-ci il aprelin 9-da çıxdı. Qəzet fars dilində nəşr edilir, nüsxələri Tehrana və ölkənin başqa şəhərlərinə də göndərilirdi.

Azərbaycan əyalət komitəsi öz sosial tərkibi etibarilə də partiyanın digər təşkilatlarından fərqlənirdi. Komitəni, əsasən, orta və xırda burjuaziyanın, orta mülkədarların, ziyalıların və ruhanilərin aşağı zümrələrinin nümayəndələri təşkil edirdi. Buraya fəhlə və kəndlilərin də nümayəndələri daxil idi. Demokratlar əhalini xarici işğalçıların ölkədən qovulması və Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizəyə çağırırdılar. Cənubi Azərbaycandakı hərəkatın başlanğıcı üçün «Azad İran», «Bütün xalqların qardaşlığı» kimi ümumbəşəri arzuların ifadəsi, rus ordusundakı sosial-demokratların bilavasitə təsirilə gələn «Yaşasın sosializm», «Bütün xalqların zəhmətkeşləri, birləşin!» kimi solçu şüarlar səciyyəvi idi.

Cənubi Azərbaycanda mübarizə əhvali-ruhiyyəsi getdikcə artırdı. Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı həyəcan və çıxışlar baş verirdi. Təbrizdə vəziyyət xüsusilə kəskin şəkil almışdı. Burada 1917-ci il iyunun 17-də başlanmış çıxışlar vali Sərdar Rəşidə qarşı çevrilmişdi. Sərdar Rəşidin şəhərdən qovulması təkidlə tələb edilirdi.

Vəliəhd Məhəmməd Həsən Mirzə Sərdar Rəşidin istefaya çıxması haqqında fərmana qol çəkməyə məcbur oldu. Xalqın inqitamından qorxan keçmiş vali Ala-Qapıda (Təbrizdə vəliəhdin iqamətgahı) gizləndi və iyunun 21-də gecə ikən Təbrizi tərk etdi (üç gündən sonra Şərifüddövlə Cənubi Azərbaycana yeni vali təyin olundu). Urmiyada da xalq kütlələri mahalın baş hakimi Etimadüddövlənin özbaşınalığına qarşı çıxdı. Etimadüddövlə həbs olunaraq ölüm cəzasına məhkum edildi.

1917-ci il avqustun 24-də Təbrizdə İDP-nin əyalət komitəsinin konfransı açıldı. Konfransda Təbrizdən və Azərbaycanın müxtəlif vila-

yətlərindən 480 nümayəndə iştirak edirdi. Konfrans Azərbaycan Demokrat Partiyasını (ADP) müstəqil elan etdi. Xiyabani başda olmaqla onun Mərkəzi Komitəsi seçildi.

Konfrans partiyanın vəzifələrini müəyyənləşdirən geniş qətnamələr qəbul etdi. Konfrans həmin qətnamələrdə İDP proqramının əsas ruhunu bir daha təsdiqləməklə, o cümlədən təşkilatın təkamül (tədrici inkişaf) yolunun seçməsini xüsusi qeyd etməklə partiyanın yeni şəraitdə hərəkət xəttini müəyyənləşdirdi.

**ADP-nin fəaliyyəti**

1917-ci ilin yayından sonra ADP-nin fəaliyyətində və onun başçısı Xiyabaninin dünyagörüşündə, siyasi baxışlarında yeni bir mərhələ başlandı. Bu mərhələdə radikal xırda burjua inqilabçısı, siyasi partiya başçısı kimi yetkinləşmiş Xiyabani o dövrdəki İran şəraiti üçün milli-demokratik inqilabın tələblərinə əsasən cavab verən mövqedən çıxış edirdi. O özünün bu siyasi-nəzəri platformasını «təcəddüd», yəni «yeniləşmə məsləki» adlandırırdı.

Bu dövrdən etibarən ADP-nin fəaliyyət dairəsi xeyli genişlənmiş, partiya Cənubi Azərbaycanda yetişən xalq hərəkatının rəhbər təşkilatı kimi formalaşmışdı. Astara, Miyana və başqa şəhərlərdə, eləcə də bir sıra kəndlərdə partiyanın yeni təşkilatları yaranmış, Təbrizin hər məhəlləsində partiya özəkləri fəaliyyətə başlamış və bunlara nəzarət artırılmışdı. Partiyanın güclü təşkilatlarından biri də Bakı təşkilatı idi. Bakı təşkilatı 1918-ci ilin əvvəllərində «Azərbaycan» adlı siyasi, ictimai, ədəbi qəzet nəşr etməyə başlamışdı (qəzetin ilk nömrəsi yanvarın 28-də çıxmışdı).

Bununla yanaşı, partiyanın daxilində hələ əvvəlcədən mövcud olan ikitirəlik qalmaqda idi. Müxtəlif təbəqələri təmsil edən ADP içərisində də müəyyən mənada qütbləşmə gedirdi. Sol cinah partiya üzvlərinin böyük əksəriyyətini təşkil edirdi. Xiyabani tərəfdarlarından ibarət olan sol cinahın ADP-də rəhbərliyi ələ alması və getdikcə möhkəmlənməsilə barışmaq istəməyən və hələ konfransdan əvvəl «demokrate qanuni» adı altında öz dəstəsi olan sağ qrup (partiya üzvü Əhməd Kəsrəvi sağlara meyil edirdi) partiya konfransından sonra yaranmış yeni mərhələdə partiyanı sağa, daha doğrusu, əslində fəaliyyətsizliyə sövq edirdi. Sağ qrup dil məsələsində də ADP-nin əsas xəttilə razılaşmırdı. Bu dəstə partiyanın danışıq dilinin də yazılı işlər kimi farsca olmasını tələb edirdi.

Bu dövrdə Azərbaycanda əsas siyasi partiya olan ADP-dən başqa daha bir neçə partiya fəaliyyət göstərirdi. Onlardan İran sosial-demokrat partiyası olan «İctimaiyyun-Amiyyun. Mücahid»in Təbriz təş-

kilatının (1912-ci ildə dağıdılmışdı) keçmiş üzvləri olan mücahidlərin (sosial-demokratlar) fəaliyyəti diqqəti cəlb edirdi. Onların əksəriyyəti ADP ilə həmkarlıq edirdi. Mücahidlərin bir qismi isə 1917-ci ilin mayında Bakıda iranlı fəhlələr tərəfindən təşkil edilmiş «Ədalət» fəhlə partiyasının İranın özündə, o cümlədən Cənubi Azərbaycanın Təbriz və başqa şəhərlərində şöbələrinin yaranmasında iştirak etmişdi. Bir qayda olaraq, mücahidlər ADP ilə əlaqə saxladığı halda, qalan kiçik partiyalar – mərkəzi Tiflisdə yerləşən «Mütərəqqi iranlılar» partiyasının Cənubi Azərbaycandakı şöbələri, «Nüsrət», «Əhrar» və s. ilə vahid blokda birləşərək, özlərini ADP-yə qarşı qoyurdular.

Lakin ADP ilə mücahid təşkilatları arasında da ziddiyyət güclü idi. Onlar eyni məqsəd uğrunda vuruşsalar da mübarizə üsulları müxtəlif idi. Demokratlar sülh, saziş və danışıq yolu ilə getməyə üstünlük verdikləri halda, mücahidlər silahla hərəkət etmək tərəfdarı olmaqla terrorçu yol seçmişdilər.

1917-ci ilin noyabr və dekabr aylarında Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. şəhərlərdə keçirilən izdihamlı mitinqlərdə əhali ingilislərin əlində oyuncağa çevrilmiş Büsuqüddövlə hökumətinin istefa verməsini, demokratik hökumət təşkil olunmasını tələb edirdi. 1917-ci il noyabrın 28-də və dekabrın 3-də Təbrizdə keçirilmiş iki mitinq, xüsusilə izdihamlı olmuşdu.

Təbriz və digər şəhərlərdə keçirilən mitinqlərin çoxunun təşkilatçısı ADP idi, lakin bunlarda başqa partiyaların nümayəndələri də iştirak edirdi. Digər partiyalar, o cümlədən Təbriz sosial-demokrat təşkilatı da İran hökumətinin satqın siyasətinə qarşı izdihamlı yığıncaqlar təşkil edirdilər. Məsələn, 1917-ci il dekabrın 19-da sosial-demokrat partiyasının («Ədalət»in) Təbriz təşkilatının keçirdiyi mitinqin ardınca yığıncaq iştirakçıları teleqrafxananı tutmaq istədikdə partiya başçılarının hamısı polis tərəfindən həbs edilmişdi.

«Ədalət» partiyasının açıq fəaliyyət göstərə bilməyən şöbələri, eləcə də bəzi digər təşkilatlar istər Təbrizdə, istərsə də digər şəhərlərdə ADP ilə əməkdaşlıq edirdilər. Sosial-demokratlar və mücahidlər ADP-nin hövzə iclaslarında da iştirak edirdilər.

Bu çıxışlarla yanaşı, ADP-nin aparıcı qüvvələri, eyni zamanda daha ciddi addımlar atmağa başladılar. Onlar xalqı üsyana çağırırdılar. Partiyanın Bakı təşkilatının orqanı olan «Azərbaycan» qəzeti də azərbaycanlıları üsyana çağırırdı. Qəzetdə bu mühüm məsələ daha geniş planda və daha operativ qoyulurdu. Qəzet iranlıları və «məxsusən inqilab

səhnəsinin birinci qəhrəmanları olan qeyrətli Azərbaycan millətini,... milli alaylar, müsəlləh qüvvələr təsis edərək cəngəlilərlə birləşib... mülkədar əşrəf hökumətinə üsyan elan etməyə... darəlşüranı (məclisi–*red.*) açaraq, həqiqi bir milli hökumət təşkil etməyə» çağırırdı.

Cənubi Azərbaycanı bürüyən və İranın başqa yerlərində də genişlənən çıxışlar nəticəsində bəzi müvəffəqiyyətlər qazanıldı, o cümlədən Vüsuqüddövlə və onun əlaltıları 1917-ci ilin sonunda istefa verməyə məcbur oldular.

**İngilislərin Cənubi Azərbaycanı işğal etməsi**

1918-ci ilin əvvəllərində Rusiya öz qoşunlarını İrandan çıxardı. İngiltərə hərbi komandanlığı isə əksinə, müstəmləkə siyasətini gücləndirməklə İrandan qonşu dövlətlərə qarşı hücum meydanı kimi istifadə etməyi planlaşdırırdı. 1918-ci ilin yanvarında ingilislər general Denstervilin komandanlığı altında İrana xüsusi hərbi dəstə göndərdi. Bu dəstə Ənzəli və Rəşti, sonra isə Bakını işğal etməli idi. Cənubi Azərbaycana isə başqa dəstələr göndərildi.

1918-ci ilin yazınadək ingilislər Zəncan və Miyanəni işğal etməyə nail oldular. Onlar Türkiyə «təhlükəsini» bəhanə edərək Cənubi Azərbaycanın digər şəhərlərini, məsələn, Xoy və Urmiya şəhərlərini ələ keçirərək, orada ingilis zabitlərinin komandanlığı altında polis və qoşun dəstələri yaratdılar. İngilislər Cənubi Azərbaycanda öz planlarını həyata keçirmək üçün buraya ən təcrübəli məmurlarını göndərirdilər. Belə ki, «özünün Cənubi İranda aktiv fəaliyyəti ilə məşhur olan Şirazdakı ingilis baş konsulu Təbrizə gətirilmişdi». İngilislər, eyni zamanda açıq ingilispərəst siyasət yürüdən Vüsuqüddövlənin yenidən hakimiyyət başına gəlməsinə nail oldular.

Digər tərəfdən keçmiş çar və fransız zabitlərinin, Amerika missionerlərinin və başqalarının təhrikilə Cənubi Azərbaycanın şimal-qərbində aysorlar, ermənilər və kürdlərin azərbaycanlılara qarşı qırğınları törədilirdi. ADP Cənubi Azərbaycanda işğalçılıq siyasəti yeridən ingilislərə qarşı başlanmış çıxışlara istiqamət verir, əyaləti bürümüş aclıqla əlaqədar yaratdığı yardım komitələrinin köməyilə bir sıra tədbirlər görür, taxıl möhtəkirlərilə mübarizə aparır, ən başlıcası isə fitnəkar qırğınların qarşısını almaq üçün ciddi əməli tədbirlər həyata keçirirdi.

1918-ci ilin əvvəllərində Şimali Azərbaycana qarşı şiddətli erməni təcavüzünə son qoymaq üçün Türkiyə hərbi hissələrinin şərqə doğru irəliləməsilə eyni vaxtda türk qoşunlarının Cənubi Azərbaycana daxil olması da bu qırğınların qarşısını aldı. Onlar mart ayında Maku xanlı-

ğını, mayda Urmiya və Salması, bir qədər sonra Təbrizi tutdular və 1918-ci il noyabrın sonunda Birinci Dünya müharibəsində tam məğlubiyyətə uğrayanadək əyalətdə qaldılar.

1918-ci ilin noyabrında Türkiyə Cənubi Azərbaycanda yerləşdirdiyi 9-cu ordusunu buradan çıxartdıqdan sonra ingilislər İranın şimal-qərbini ələ keçirdilər. Tikmədaşda (Təbrizin 60 km-liyində), Marağa və Miyanə yaxınlığında yerləşən ingilis hərbi hissələri – hind sipahiləri (İngiltərənin müstəmləkəsi olan Hindistanın əhalisindən təşkil edilmiş hərbi hissələr) bütün Cənubi Azərbaycanı, o cümlədən Təbrizi zəbt etdilər.

## § 2. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının yüksəlişi

1919-cu il avqustun 9-da ingilislərin İran hökuməti ilə bağladığı saziş Cənubi Azərbaycanda genişlənən milli-azadlıq hərəkatının yeni pilləyə qalxmasına təkan verdi, əyalətdə ingilislər və İran hökumətinə qarşı mübarizə şiddətləndi. Hərəkat həmin aylarda yüksəliş dövrü keçirir, öz kulminasiyasına – Təbriz silahlı üsyanına doğru gedirdi. Hərəkata başçılıq edən ADP-nin bu dövrdəki fəaliyyəti üçün səciyyəvi cəhət o idi ki, partiya tədricən passiv mübarizə mövqeyindən uzaqlaşır, hökumətə öz tələblərini qəti şəkildə bildirir, xalqı daha ciddi mübarizəyə çağırırdı. Belə ki, partiyanın proqramında nəzərdə tutulan taktika dəyişildi, dinc çıxışlarla yanaşı, silahlı üsyana hazırlaşmaq planı 1920-ci ilin yazında daha böyük inamla həyata keçirildi. Xiyabaninin aşağıdakı sözləri bu planı aydınlığı ilə açıqlayır: «Ağıllı bir xalq teleqrafxanaya toplaşıb öz qulluqçu və nökərlərindən ədalət və azadlıq istəməz... Bu dilənçilikdir, bu zillət və əsarətdir. Bu, qəhrəman və diri xalqa yaraşmaz». Xiyabaninin bu sözləri partiyada təkamüldən inqilabi çağırışa qəti dönüş yarandığını göstərirdi.

Xiyabani bu yeni yönümlü siyasi mübarizədə özünün dəfələrlə təkrar etdiyi kimi nə sağ, nə də çox sol olmayan «orta xətt» götürməyə çalışırdı və buna uyğun olaraq, o, öz siyasi platformasını «təcəddüd məsləki» adlandırırdı. Xiyabani öz nitqlərində bu məsləki irticaçı və mühafizəkar siyasi cərəyanlara qarşı qoymaqla öz siyasi mövqeyini, baxışlarını təcəddüd, yəni yenilikçi bir əqidə kimi səciyyələndirirdi.

Hərəkatın rəhbərləri üsyanın hazırlanmasında, ümumi şəkildə desə, zəhmətkeş qüvvələrə əsaslanırdılar. Zəhmətkeş dedikdə, Xiya-

bani və başqaları öz iş qüvvəsini satan azsaylı fəhlələr və torpaqsız kəndlilərlə (rəncbərlər) yanaşı, o dövrki Cənubi Azərbaycan şəhərlərinin başlıca sosial qüvvələrini təşkil edən və başqasının əməyini istismar etməyən sənətkarları, xırda tacirləri, ziyalıları, xırda dövlət qulluqçularını və eləcə də xırda torpaq sahibi olan kəndliləri nəzərdə tuturdular.

Üsyana hazırlıq hökumətin Cənubi Azərbaycanda yenidən bir çox cəza tədbirləri həyata keçirdiyi bir şəraitdə aparıldı. 1920-ci il aprelin ilk günlərində ADP-nin üzvlərindən bir neçəsinin həbs edilməsi üsyanın başlanmasına təkan verdi. Aprelin 6-da (16 həməl) demokratlar silahlanaraq «Təcəddüd» qəzeti redaksiyasının binasında toplandılar. Yaranmış son dərəcə gərgin vəziyyət Təbrizdə silahlı üsyanın başlanmasını labüd etdi.

## § 3. 1920-ci il Təbriz üsyanı

Aprelin 7-nə keçən gecəni redaksiya binasında keçirən ADP rəhbərliyi silahlı üsyan planını hazırladı. Həmin gecə keçmiş «İctimaiyyun-Amiyyun, Mücahid» partiyasına mənsub və sonradan «Ədalət» partiyasının Təbriz təşkilatına üzv olmuş köhnə mücahidlərin bir dəstəsi və başqaları demokratlara qoşuldular. Digər tərəfdən isə ADP daxilində olan, Xiyabaninin başçılıq etdiyi əksəriyyətlə bir sıra məsələlərdə, xüsusilə silahlı mübarizə məsələsində müxalifət təşkil edən doktor Zeynalabdinxan və Əhməd Kəsrəvinin ətrafındakı demokratların bir hissəsi üsyanda iştirak etməməyi qərara aldı.

Üsyanın başlanması ilə Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. Hərəkat silahlı üsyan xarakteri aldı.

Üsyanın elə ilk günü Təbriz bazarı bağlandı, bütün tacirlər, sənətkarlar, məktəb müəllimləri və əhalinin digər nümayəndələri demokratların haqlı tələbləri ilə həmrəy olduqlarını bildirdilər. Ümumi sayı iki minə yaxın olan süvari və piyada kazak dəstələrindən başqa, Təbrizdəki bütün silahlı qüvvələrin hamısı üsyançılara qoşuldu. Küçə nümayişi zamanı hərəkata qoşulmuş şagirdlər istibdadın qalığı olan dar ağaclarını yaxıb yandırdılar.

Üsyana rəhbərlik etmək üçün İctimai İdarə Heyəti (İİH) təşkil olundu. ADP-nin fəal üzvlərindən (Mirzə Tağıxan Rəfət, Zeynalabdin və b.) ibarət bu heyətə Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi.

İİH-nin rəhbərliyi altında üsyançılar iki gün müddətində, demək olar ki, bütün dövlət idarələrini ələ keçirdilər. Təbrizə daxil olmuş polis dəstəsi şəhəri tərk etməyə məcbur oldu. Silahlı üsyan qan tökülmədən qələbə çaldı. Üsyanın qələbə çaldığı gün – aprelin 7-də Xiyabaninin Təbriz əhalisi qarşısında söylədikləri hərəkatın mahiyyətini aydınlığı ilə göstərirdi: «Bu gün bütün dünya camaatına rəsmən bildiririk ki, biz Vüsuqüddövlə və ingilis talançı sazişini (1919-cu il sazişi–*red.*) bağlamış hökumət əleyhinə üsyan etmişik». Xiyabani həmin çıxışında, eyni zamanda qeyd etmişdir ki, «Azərbaycanın adını Azadistana dəyişərək bu gündən bu adı rəsmi ad kimi elan edirik». Bəzi tarixçilər (Ə.Kəsrəvi, Ə.Şəmim, T.Svetoçovksi) bunu Şimalda Azərbaycan Demokratik Respublikasının həmin adı daşıması və respublikanın cənubi Azərbaycanla birləşmək niyyətində olması ilə bağlayırlar.

ADP-nin bu məsələ ilə bağlı heç bir rəsmi izahı olmadığından həmin müəlliflərin məntiqi nəticəsi ilə razılaşmalıyıq. Həqiqətən də, Xiyabani və onun həmfikirlərinin azadlığı yolunda ölümə hazır olduqları bu müqəddəs diyarın tarixi adından rəsmi ad kimi imtina edilməsinin, şübhəsiz, ciddi siyasi mənası və yozumu var idi. Bu zaman regionda yaranmış son dərəcə mürəkkəb siyasi durum Azərbaycanın bu iki ayrı-ayrı hissələrində ilk baxışda qəribə nəzərə çarpan təzadlı vəziyyət yaratmışdı. Azərbaycanın bir hissəsi (Cənub) bolşeviklərin saxta təbliğatına uyaraq ilk dövrdə onlara inanmaqla yanaşı, İngiltərənin İranda (ümumiyyətlə, bütöv bölgədə) mövqeyini həqiqətdə olduğu kimi işğalçı bir siyasət, bu siyasətin kölgəsində daldalanmaq və bununla hakimiyyətdə qalmaq istəyən Vüsuqüddövlələri xain hesab edirdi və bunlara qarşı üsyana qalxmışdı. Azərbaycanın digər hissəsində isə Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi, əksinə, şimaldan Denikin təhlükəsi, daha sonra XI Ordunun yaxınlaşması, Cənubi Qafqazın özündə Azərbaycan türklərinin kütləvi qırğını ilə müşayiət olunan daşnak təcavüzü ilə qarşılaşmışdı. Bu vəziyyət yenicə doğulmuş respublikanı məhv olmaqdan qorumaq üçün son dərəcə çevik hərəkət etməyi tələb edirdi. Şimal və Cənub faktiki olaraq biri-digərinə tam zidd olan iki müxtəlif siyasi mövqedə durmuşdu. Xiyabani və onun tərəfdarlarının AXC-yə rəğbətlə yanaşmasını gözləmək çətindir. Odur ki, Təbriz üsyanı zamanı Şimaldan fərqli bir ad seçilməsi (istər AXC, istərsə də 28 aprel çevrilişindən sonrakı aylarda) müəyyən mənada təbii sanılmalıdır.

İİH milli azadlıq və demokratik hüquqlar uğrunda mübarizə apardığını Təbrizdəki xarici dövlət konsulluqlarına rəsmən bildirdi.

İİH öz fəaliyyətinə, ilk növbədə Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları idarə işlərindən kənar edərək Təbrizdən qovmağa başladı. Onların yerinə ADP-nin tanınmış üzvləri təyin olundu. Həmin idarələrdə müəyyən islahat işləri aparıldı. Üsyan zamanı partiya orqanı «Təcəddüd» qəzetindən başqa, ADP-nin gənclər təşkilatının orqanı olan aylıq «Azadistan» jurnalının nəşrinə başlandı.

İran hökuməti üsyan xəbərini alan kimi Təbrizdə mərkəzi hökuməti təmsil edən dövlət məmurlarına (ilk növbədə Mərzbana) o dövrdə İranın ən yaxşı silahlı qüvvəsi olan və üsyançılar tərəfindən tərk-silah edilməyən kazak dəstələri vasitəsilə hərəkatı yatırmaq haqqında göstəriş verdi. İran hökumətinin başçısı Vüsuqüddövlə bu tələbi hər gün məxfi teleqramlar vasitəsilə təkrar edirdi. Lakin kazak dəstələri komandanlığı hələlik bitərəf mövqe tutduğundan, şəhərin digər silahlı qüvvələri isə üsyançılar tərəfinə keçdiyindən bu tələblər yerinə yetirilmədi.

Azərbaycan əyalətinə vali göndərilən və Təbrizə gəlməyə cəsarət etməyən Eynüddövlə üsyanın başlanmasından sonra Tehrandan verilən göstərişə əsasən Miyanadan çıxaraq Təbrizə tərəf hərəkət etdi. Eynüddövlə öz gəlişi haqqında yoldan Xiyabaniyə xəbər göndərdikdə İİH ADP-nin mübariz üzvlərindən sayılan Mötəmedüttüccarı onunla danışığa göndərdi. Təbrizin yaxın kəndlərindən olan Hacıağadakı danışıqlar zamanı Mötəmedüttüccar İİH-nin 8 maddədən ibarət tələblərini Eynüddövləyə bildirdi. Eynüddövlə zahirən bütün şərt və təəhhüdləri qəbul etdi və aprelin 20-də Təbrizə daxil oldu. Ümumiyyətlə, «bizim valiyə ehtiyacımız yoxdur» əqidəsində olan üsyan rəhbərləri Eynüddövləni qarşılamadılar, lakin onun öz dəstəsi ilə birlikdə yerləşdiyi binanı – Ala Qapını nəzarət altında saxladılar.

Demokratların tələblərini sözdə qəbul etmiş Eynüddövlə üsyanı yatırmaq haqqında mərkəzin göstərişini həyata keçirmək məqsədilə dərhal bir sıra tədbir görməyə başladı və ilk növbədə Tehrandan külli miqdarda pul tələb etdi. O, baş nazir Vüsuqüddövlənin gizli tapşırıqla Təbrizə göndərdiyi Hüseynağa Fişəngçinin vasitəsilə üsyan başlanarkən ADP-dən uzaqlaşmış Mirzə Əli Heyət, Soltanzadə, doktor Zeynalabdinxan, Əhməd Kəsrəvi və başqalarından ibarət «Tənqidiyyun» («Tənqidçilər») adlanan qrupun demokratlara qarşı qiyamını təşkil etməyə çalışırdı. Təbrizdə üsyanın başlamasından təşvişə düşmüş ingilislər də həmin planın hazırlanmasında iştirak edirdilər. İranda İngiltərə səfirliyinin siyasi idarə rəisi mayor S.C.Edmond və b. məhz bu məqsədlə Təbrizə göndərilmişdilər. Mayor Edmond da «Tənqidiyyun» qru-

punun üzvləri, o cümlədən Əhməd Kəsrəvi ilə görüşərək onları üsyançılara qarşı çıxmağa sövq etmişdi.

Mayın 10-da həmin planı həyata keçirməyə çalışan şəxslər qiyamın hazırlanmasından xəbərdar olan demokratlar tərəfindən Eynüddövlənin evindən çıxdıqları vaxt həbs edildilər. Onların bir qismi Tehrana (Heyət və Təliyyə), başqaları Kürdüstana (Sultanzadə, doktor Zeynalabdin və Ələkbər Həriri) sürgün edildi, Fişəngçi, Sərdar Əşair və b. Təbriz həbsxanasında saxlandılar (bunların bir qismi sonra Tehrana sürgün edildi). Qalanları, o cümlədən Əhməd Kəsrəvi bir neçə gün gizləndikdən sonra Tehrana qaçdılar.

S.C.Edmondun müxalif qrupları təhrik etmək işi baş tutmadıqda Xiyabani ilə danışığa girdi. Danışıqlar zamanı Xiyabani üsyan haqqında, hərəkatın guya separatçı xüsusiyyət daşıması haqqında Tehran mətbuatının boşboğazlıqlarını, xarici xəbərlər agentlərinin eyni xüsusiyyətli yalanlarını əsaslı surətdə təkzib edərək Azərbaycanın (Azadistanın) İrandan ayrılmaq fikrinin olmadığını, üsyanın mövcud konstitusiyanı həyata keçirmək və bütün İranın vəziyyətini islah etmək məqsədi daşıdığını söylədi. O, danışığın sonunda Azərbaycanda saxlanan hind sipahiləri dəstəsinin Təbrizdən çıxarılmasını tələb etdi. Bu danışıqlardan sonra hind sipahiləri Təbrizdən çıxarılaraq Zəncan yolu ilə Azərbaycandan kənar edildilər. Danışıqlardan heç bir fayda əldə edə bilməyən S.C.Edmond Tehrana qayıtmağa məcbur oldu.

Hərəkat öz hüdudlarını genişləndirməkdə davam edirdi. Təbrizdə başlamış üsyan tədricən cənubi Azərbaycanın başqa mahal və şəhərlərini də əhatə edirdi. Bu üsyanların çoxuna bir qayda olaraq, ADP-nin yerli təşkilatları başçılıq edirdi. Artıq iyunun əvvəllərinə doğru üsyan Cənubi Azərbaycan çərçivəsində geniş bir dairəni – Zəncan, Marağa, Əhər, Xoy, Ərdəbil və s. əhatə edirdi.

Təbriz üsyanı dövründə bütün İranı ingilislərə və daxili irticaya qarşı etiraz hərəkatı bürümüşdü. Uzaq və yaxınlığından asılı olmayaraq, İranın mühüm məntəqələrində Təbriz üsyanına açıq hüsn-rəğbət və həmrəylik güclü idi, bəzi hərəkat mərkəzlərindən isə üsyançılara qardaşlıq köməyi təklif edilirdi. İlk növbədə qeyd olunmalıdır ki, Tehranda Təbriz üsyanına rəğbət bəsləyən güclü qrup mövcud idi. Əksəriyyəti paytaxtda yaşayan azərbaycanlılardan, İDP-nin sol cinahını təşkil edən üzvlərindən, ümumiyyətlə isə demokratik əhvali-ruhiyyəli və Azərbaycan məsələlərinə rəğbətlə yanaşan şəxslərdən ibarət olan qrup üsyanın və şəxsən Xiyabaninin tərəfdarı kimi çıxış edirdi.

1920-ci ilin mayında Rusiya Denikin qüvvələrini təqib etmək adı ilə İranın Ənzəli limanına hərbi qüvvə – sovet donanmasını göndərdi. Bu donanmaya Bakıdakı iranlı kəsbkar fəhlələrdən təşkil olunmuş İran Qırmızı Ordu dəstələri və İran kommunistlərinin böyük bir qrupu daxil idi. Həmin qrupa solçu kommunistlərdən ibarət olan bir dəstə, o cümlədən Mikaelyan (Sultanzadə) kimi siyasətbazlar istiqamət verirdi. Mayın 18-də sovet qoşunları Ənzəli və Rəştə girdilər. Denikin qüvvələrinin qalıqları məhv edildi, ingilislər geri çəkilməyə başladılar. Bakıdan gələn dəstələr yerli inqilabi qüvvələrlə birləşərək Gilanda Sovet Respublikası elan etdilər. İyunun 5-də Kiçik xanın başçılığı ilə Müvəqqəti hökumət və hərbi inqilabi komitə yaradıldı. Burada respublika elan olunduqdan sonra Azərbaycan (Azadistan) demokratları ilə əlaqələr yaratmağa səy edildi. Kiçik xan qrupundan – cəngəlilərdən olan Mahmud Reza Tulu və Mirəhməd Ketabfuruşun başçılıq etdiyi nümayəndə heyəti Təbrizdə səmimiyyətlə qarşılandı, ingilislərə və daxili irticaya qarşı mübarizədə birlik haqqında razılıq əldə edildi. Lakin Mikaelyanın (Sultanzadə) başçılıq etdiyi kommunistlərin Gilanda həyata keçirdiyi ifrat solçu tədbirlər hərəkatda iştirak edən müxtəlif sosial-siyasi qüvvələrin parçalanmasına səbəb oldu. İyulun 19-da Müvəqqəti hökumət dağıldı və Mirzə Kiçik xan öz dəstəsi ilə meşələrə çəkildi.

İyul ayında Tehran üzərinə yürüşə başlayan Gilan Sovet Respublikası qoşunları Məncili tutduqdan sonra Qərb istiqamətində Zəncana doğru irəliləyərək Xiyabaniyə əməkdaşlıq təklif etdi. Gilandakı hadisələri diqqətlə izləyən xiyabaniçilər xarici münasibətlərdə kredo kimi qəbul etdikləri «İranı iranlı azad etməlidir» prinsipinə uyğun olaraq xarici hərbi qüvvələrə əsaslanan həmin qoşunun yardımından imtina etdilər. Digər tərəfdən bu fakt da məlumdur ki, təqribən eyni vaxtda Şimaldan VII Şirvan alayı Astara tərəfdən sərhədi keçərək Ərdəbilə daxil olmuşdu. Həmin hadisələr nəticəsində xiyabaniçilərdə bolşeviklərə əvvəlki inam və rəğbət artıq qalmamışdı. Bu aylar ərzində Bakıda hakimiyyətin əslində rusların əlində olması, Gilandakı sovetlərin dəstəklədiyi solçu kommunistlərin siyasətinin əsl mahiyyəti onun üçün aydınlaşdı. Getdikcə Xiyabani bu hadisələrə tamamilə başqa prizmadan yanaşmış və artıq avqustun 7-də «Yuq Rossii» («Rusiyanın cənubu») qəzetinin müxbirinə müsahibəsində fikrini bolşevizmi «çarizmin o biri üzü» adlandırmaqla yekunlaşdırmışdı. Buna görə də Xiyabaninin qəsbkar bir ordunun yardımından imtina etməsi və «İranı iranlı azad etməlidir» deməsi tamamilə təbii idi. Bununla da Gilan və Cənubi

Azərbaycanda eyni vaxtda davam edən hərəkat arasında əlaqələrin işgüzar şəklə düşməsi və əsas məqsəd olan ingilislərin İrandan çıxarılması yolunda həmkarlıqda müəyyən razılıq əldə edilsə də baş tutmadı.

Təbriz üsyançılarına daha bir neçə hərbi yardım təklifi edilmişdi. Məlumdur ki, İrəvan quberniyasında və AXC-nin qonşu kəndlərində əks-inqilabi terrorçu daşnak qüvvələrə qarşı mübarizə aparan Abasqulu bəy Şadlinski 1919-cu ilin yayında ətrafındakı silahlı kəndli dəstələri ilə birlikdə Şahtaxtı-Maku-Xoy-Mərənd istiqamətində hərəkət etməklə, Cənubi Azərbaycana çəkilməyə məcbur olmuş, 1920-ci il sentyabrın əvvəllərinədək Mərənddə qalmışdı. O, üsyan ərəfəsində Təbrizdə olduğu az müddətdə Xiyabani ilə görüşmüşdü. Onun öz dəstəsinin köməyi haqqında təklifini Xiyabani rədd etmişdi. Bu da diqqəti cəlb edir ki, Xiyabani eyni prinsipə sadiq qalaraq Türkiyədən Mustafa Kamalın kömək təklifini də qəbul etməmişdi.

1920-ci il iyunun 23-də ADP müvəqqəti hakimiyyət orqanı kimi fəaliyyət göstərən İİH əsasında Milli hökumət (MH) yaratmağı qərara aldı. ADP hələ üsyanın başlanğıcında mərkəzi hökumətin razılığını almaqla mövcud İran konstitusiyası əsasında ümumi seçkilər keçirərək yerli hakimiyyət orqanı – əyalət əncüməni yaratmağı nəzərdə tuturdu. Lakin Tehran Azərbaycan demokratlarının başqa tələbləri kimi bu qanuni tələbini də cavabsız qoydu. Az bir müddət ərzində üsyanın Cənubi Azərbaycan miqyasında uğur qazanması və yerlərdə hakimiyyətin demokratların əlinə keçməsi ADP-yə İran konstitusiyası çərçivəsindən kənara çıxaraq Cənubi Azərbaycanda əyalət əncüməni əvəzinə tam muxtar hüquqlara və silahlı qüvvələrə malik MH yaratmağa əsas verdi. Xiyabaninin rəhbərliyi ilə yaranmış (sənəddə Xiyabaninin bu vəzifəyə rəis seçildiyi yazılır) MH iyunun 24-də üsyandan əvvəl mərkəzi dövlət idarələrinin yerləşdiyi və vəliəhdin iqamətgahı olan binaya – Ala Qapıya köçürüldü.

MH-nin tələbilə vəliəhdin hərəmxanası və xidmətçiləri Ala-Qapını boşaldaraq Tehrana yollandılar. Mərkəzi dövlətin nümayəndəsi kimi bütün fəaliyyəti tamamilə iflic edilmiş vali Eynüddövlə də Təbrizi tərk etməkdən başqa çıxış yolu görməyərək əhatəsindəki məmurlarla birlikdə həmin karvana qoşuldu. Beləliklə, Təbrizdə mərkəzdən göndərilmiş bir nəfər də məmur qalmadı.

MH-nin Ala-Qapıya köçməsi Təbriz əhalisinin ümumi bayramına çevrildi. Həmin gün idarələr, məktəblər, bazarlar bağlandı.

Yerli icraiyyə orqanı olan MH demokratik respublika qaydalarına əsaslanırdı. Xiyabaninin sədrlik etdiyi MH-nin tərkibinə ADP-nin üzv-

lərindən 20 nəfər daxil idi. MH-nin üzvləri, əsasən ticarət burjuaziyasına (Məhəmmədəli Badamçı, Əli Nağı Gənceyi və b.) və ya bir qismi Xiyabani kimi ticarət burjuaziyası ilə bağlı olan ziyalı təbəqəsinə mənsub idi. MH-nin üzvləri içərisində orta və xırda mülkədarların (Haşım Neysari, Mahmud Əmin), ziyalıların (Mirzə Tağıxan Rəfət, İsmayıl Əmir Xizi, Əbülqasım Fiyuzat, Məhəmmədhüseyn Səfvət) və qulluqçuların (Nurullaxan Yekani, Nüsrətulla Neysari) nümayəndələri də var idi. MH-nin tərkibinə iri ticarət burjuaziyasının hərəkata təsadüfi və şəxsi mənafeləri xatirinə qoşulmuş bəzi nümayəndələri və ya Xiyabaninin adlandırdığı «dövlətlilər» də daxil idi.

Üsyanın hərəkətverici qüvvələri emalatxanalarda çalışan sənətkar və fəhlələrdən, yoxsullardan, xırda tacirlərdən ibarət idi. Üsyanda ziyalıların, milli burjuaziyanın, liberal mülkədarların, ruhanilərin orta və aşağı təbəqələrinin nümayəndələri və Təbriz mahalının kəndliləri də iştirak edirdilər. Hərəkatın rəhbərliyi xırda ticarət burjuaziyasına və ziyalılara məxsus idi.

MH ticarət burjuaziyasının aşağı və orta təbəqələrinin şəxsiyyət və xüsusi mülkiyyətin toxunulmazlığının təmini ilə əlaqədar tələb və arzularına ilk növbədə daha çevikliklə yanaşırdı.

İranın demokratikləşməsini qarşıya qoyan bu siyasət, eyni zamanda qəti surətdə irticanın Cənubi Azərbaycana münasibətdə yürütdüyü ayrı-seçkiliyə qarşı çevrilmişdi. Odur ki, hərəkatın milli azadlıq cəhəti öz əksini, digər tərəfdən yaradılacaq demokratik İranın tərkibində Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizədə tapırdı.

MH rəhbərliyi Təbrizdə başlamış üsyanın bütün İrana yayılmasında, ümumxalq üsyanının qələbəsi nəticəsində İranda xalq nümayəndələrindən ibarət hökumət heyətinin təşkilində Azərbaycanın və azərbaycanlıların, xüsusilə Təbrizin mühüm rol oynayacağına əmin idilər. Xiyabani deyirdi ki, «Təbriz İrana nicat verəcəkdir». Üsyan başçıları göstərirdilər ki, onlar Azərbaycanın səadətinə və azadlığına bağlı olmaqla bərabər, İranın istiqlaliyyətini möhtərəm sayır və azərbaycanlılar Azərbaycan demokratları vasitəsilə üsyanı bütün İrana yaymaq əzmindədirlər. Xiyabani MH-nin Ala Qapıya köçürülməsi ərəfəsində – iyunun 23-də söylədiyi nitqində deyirdi: «Bu gün Təbrizdə hökumət demoktarların əlindədir. Bu demokratik hökumət Təbrizdən başlayacaq və İranın ən ucqar şəhərlərinə də şamil olacaqdır. Biz yavaş-yavaş bu ali məqsədimizə çatacayıq. Bütün icarə və məqamlar bizim nəzarətimiz altında olacaq». Xiyabani gələcəkdə İranda, əslində hakimiyyət başında məhz azərbaycanlıları görmək əzmini ifadə etmişdir. Onun

Azərbaycan demokratlarına müraciətdə «bütün qüvvələr sizin əlinizdə mərkəzləşəcəkdir» – deməsi də bunu sübut edirdi. Hərəkat rəhbərləri üsyanın ilk günlərində mövcud konstitusiyanın bərpası və təkmilləşdirilməsi tələbini irəli sürürdülərsə, deməli, konstitusiyalı monarxiya tərəfdarları kimi çıxış edirdilərsə, bir neçə aydan sonra, yəni Azərbaycanda MH yarandıqdan sonra artıq diqqəti İranda şahlığın ləğvi və respublika yaradılması ehtimalına yönəldirdilər. Bu cəhətdən Xiyabaninin iyulun 6-da söylədikləri çox əlamətdardır: «Xalq iradəsi hər şeydən üstün olmalıdır. O, istədiyi vaxt şahı taxtdan salmalı və rədd etməlidir, əgər istərsə və lazım bilərsə, respublika elan etməlidir».

Milli hökumət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və s. sahələrdə islahatlar və başqa tədbirlər həyata keçirməyə başladı.

Milli müdafiə qüvvələrinin təşkili üçün də layihə hazırlandı. Bu layihəyə əsasən şəhər əhalisindən və Təbrizə gəlmiş kəndlilərdən gələcəkdə ümumi sayı 12 minə çatdırılacaq qoşun hissəsi – milli qvardiya yaradılmasına başlanıldı. Milli hökumət, eyni zamanda şəhər əhalisindən yeni jandarm və polis dəstələri təşkil etdi və üsyançılara qoşulmuş jandarm dəstələrində nizam-intizam yaratdı. Onların təlimi üçün xüsusi polis məktəbi açıldı. Jandarm və polis işçilərindən ibarət olan həmin silahlı dəstələrin sayı 2000 nəfərə yaxın idi. Bu qüvvələr MH-nin əsas silahlı dayağı idi.

Təbrizdə xalça fabriki tikilməsinə başlanılmış, şəkər zavodu, toxuculuq və dəri fabrikləri tikilməsi, kənd təsərrüfatı bankı və milli bank açılması, pul islahatı, şəhər əncüməninə seçkilər keçirilməsi və s. planlaşdırılmışdı. Milli hökumətin mühüm sahələr – maarif, mədəniyyət, səhiyyə, ədliyyə, vəqf, hərbi işlər və s. üzrə idarə və nazirliklər yaradılmışdı. İdarə və müəssisələrdə Azadistan adını göstərən yeni lövhələr vurulmuş və bunların üzərində İran dövlətinin gerbi (Şiri-Xurşid) eynən saxlanılmaqla Azadistan adını əks etdirən öz blankları var idi.

**İngilislərin və şah hakimiyyətinin hücum tədbirləri**

Təbriz üsyanı dövründə İngiltərənin Tehrandakı nümayəndəsi Persi Koksla Xarici İşlər naziri Lord Kerzon arasında davam etmiş yazışmalardan bəlli olur ki, Cənubi Azərbaycandakı hərəkatın müvəffəqiyyətlərinin İranda Vüsuqüddövlə kabinetinin süqutuna, İngiltərə-İran bağlaşmasının «kağız parçasına çevrilməsinə», ümumiyyətlə, bu ölkədə ingilis nüfuzunun zəifləməsinə gətirib çıxaracağı onları son dərəcə çaşdırmışdı. Persi Koksun Lord Kerzona 14 may tarixli məktubunda deyilirdi: «... əvvəllərdə qeyd olunduğu kimi, {İranda} başlıca təhlükəli yer vəziyyətin son dərəcə xoşagəlməz olduğu İran Azərbaycanıdır. Əgər bu əyalət

Mərkəzi hökumətin öz vəzifələrini icra edə bilməməsi üzündən dözə bilməyərək ayrılarsa, o zaman bu hadisənin İranda ümumi vəziyyətə təsiri kifayət qədər təhlükəli olacaqdır. Kabinet, əlbəttə, yıxılacaq, siyasət, o cümlədən saziş (İngiltərə-İran sazişi–*red.*) isə təhlükə altına alınacaqdır».

İngilislər özləri üçün «təhlükəli» hesab etdikləri Cənubi Azərbaycandakı hərəkata qarşı planlar hazırlayırdılar. Vali Eynüddövlə vasitəsilə MH rəhbərliyi ilə aparılan danışıqlar, general Edmondun köməkliyi ilə üsyana qarşı tədbirlər, o cümlədən demokratların sağ qrupunun Təbrizdə qiyamı, bölgələrdə isə feodal qaragüruhçu dəstələrin üsyan tərəfdarları üzərinə hücumları baş tutmadıqda, onlar yeni planlar cızmağa başladılar. Danışıqlarla üsyançılara təsir edə bilməyəcəyini görən İranın yeni baş naziri Müşirüddövlə ingilislərin yaxından köməyi və bilavasitə rəhbərliyi ilə üsyançılara qarşı hücuma hazırlaşmağa başladı. Hücumu təşkil etmək üçün namizədliyi Lord Kerzonla razılaşdırılmış Hidayət Müxbirüssəltənə sentyabrın ilk günlərində vali sifətilə Təbrizə daxil oldu. Müxbirüssəltənə baş nazirin məktubunu Xiyabaniyə çatdırıb, onunla «danışıqlara» başladı. Danışıq davam etdiyi müddətdə isə Müxbirüssəltənə Təbrizin kənarında düşərgə salmış və MH tərəfindən tərk-silah edilməmiş İran kazak briqadası qarnizonunun komanda heyətini (heyət üsyançılara münasibətdə neytral mövqe tutmuşdu) öz tərəfinə çəkərək şəhərə birgə hücum planını hazırladı. Marağadakı kazak süvari dəstələri də Təbrizə çağırıldı. Müxbirüssəltənə, eyni zamanda MH-nin silahlı qüvvələrini Təbrizdən uzaqlaşdırmaq üçün jandarm dəstəsinin rəhbəri Mir Hüseyn Haşimini ələ ala bildi. Mayor Haşimi ətrafındakı quldur dəstələri ilə mübarizə aparmaq bəhanəsilə silahlı qüvvələri MH-nin razılığını almadan şəhərdən çıxardı.

Müxbirüssəltənə hücumun başlanacağı haqqında İngiltərə və Amerika konsulluqlarına da xəbər verərək sentyabrın 11-də gecə ikən heç bir müqavimətə rast gəlmədən şəhərdən çıxdı. Əks-inqilabi qüvvələr sübh çağı üsyançıların mərkəzini qəflətən bombalayaraq hücuma keçdilər.

ADP-nin silahlı üzvlərinin ciddi müqavimətinə baxmayaraq, əks-inqilabi qüvvələr sentyabrın 12-də Ala-Qapını ələ keçirdilər, sentyabrın 14-də isə «Təcəddüd» qəzeti binasını dağıtdılar. Əks-inqilabi qüvvələrin sayca üsyançılardan çox olmasına baxmayaraq, üsyançılar sentyabrın 14-dək son damla qanlarınadək qəhrəmancasına vuruşdular. İrticaçılar üsyançılara amansız divan tutdular. Onların evləri yandırıldı, yüzlərlə üsyançı həbs, edam və ya sürgün edildi. Sentyabrın 14-də başqa demokratlar kimi, Xiyabani də qəhrəmancasına həlak oldu. İran irticasının başçısı Müşirüddövlə isə Cənubi Azərbaycanda və İranın müxtəlif yerlərində xalq hərəkatının

yatırılmasındakı «xidmətlərinə» görə şah tərəfindən birinci dərəcəli «Taci Kəyan» nişanı ilə təltif edildi. Beləliklə, Təbriz üsyanı və bunun ardınca, bir neçə yer istisna olmaqla, bütün Cənubi Azərbaycandakı hərəkat ingilislərin bilavasitə köməyilə İran irticası tərəfindən yatırıldı.

Bir sıra məhdudiyyətlərinə və nöqsanlarına, üsyan zamanı buraxılan səhvlərə və təqribən beş aylıq uğurundan sonra məğlub edilməsinə baxmayaraq, Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə həyata keçirilmiş 1920-ci il Təbriz üsyanı və bütün hərəkat Cənubi Azərbaycanda, ümumiyyətlə, İranda yaşayan xalqların tarixində parlaq bir dövrü təşkil edir. Üsyan məğlub olsa da, bu hərəkat Cənubi Azərbaycan türklərinin İranda əcnəbi ağalığına, irtica özbaşınalığına qarşı mübarizəsində mühüm bir səhifədir. Təbriz üsyanının nəticələrindən biri bu oldu ki, Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatı 1920-ci il iyunun 25-də Vüsuqüddövləni istefaya çıxmağa məcbur etdi. İranda Müşirüddövlənin başçılığı ilə yeni dövlət kabineti təşkil edildi. İngilislərə qarşı mübarizənin ən kəskin vaxtında hakimiyyət başına gələn Müşirüddövlə xalqın nifrət və qəzəbindən qorxaraq, 1919-cu il İngiltərə-İran sazişinin həyata keçirilməsinin məclis tərəfindən təsdiq olunanadək təxirə salındığını elan etdi və bu qərar 1921-ci ildə sazişin ləğvilə nəticələndi.

Təbriz üsyanının İran türklərinin – azərbaycanlıların öz milli varlığı uğrunda mübarizə tarixində də yeri son dərəcə böyükdür. Təbrizdəki bu tarixi üsyana və bütün hərəkata rəhbərlik etmiş Şeyx Məhəmməd Xiyabaninin şəxsiyyəti isə Cənubi Azərbaycanda hələ keçən əsrin sonlarından rüşeym halında təzahür edən milli şüurun, millətin inkişaf prosesində xüsusi bir səhifə, xüsusi bir mərhələ təşkil edir.

Xiyabani İranda müstəqillik və demokratik azadlıqlar uğrunda mübarizə aparmış ictimai-siyasi xadimlər içərisində xüsusi yer tutur. O, Şərqin və Qərbin qabaqcıl ictimai fikrinin bəhrələrini mənimsəyən, inqilabiliklə elmliliyi öz fəaliyyətində birləşdirə bilən nadir siyasi xadimlərdəndir.

Bu uca və üstün keyfiyyətlərinə görə Məhəmməd Xiyabani əsrin nəbzini tutmuş, dünyada baş verən inqilabi, siyasi proseslərdən düzgün nəticə çıxara bilmişdir. Çarizm devrildikdən sonra ilk başlanğıcda bolşeviklərin rəsmi müraciətlərinə inanaraq Rusiyadakı çevrilişlərin bütün bəşəriyyət üçün əhəmiyyətini qəbul edən Xiyabani bir çox siyasi xadimlərdən fərqli olaraq, çox erkən onların sözləri ilə əməlləri arasında uçurumun varlığından duyuq düşmüşdü. O, tezliklə Sovet dövlətinin xarici siyasətinin çarizmin siyasətindən fərqlənmədiyini görmüşdür.

Xiyabaninin «Azərbaycan və Azərbaycan demokratiyası» adlı məqaləsi azərbaycanlılara bu gün də qürur, dəyanət və mübarizlik dərsi verir.

# X FƏSİL

# AZƏRBAYCAN SSR 20–30-cu İLLƏRDƏ

## § 1. Azərbaycanın sovetləşdirilməsi

**Sovet Rusiyasının hərbi təcavüzü. Siyasi böhranın kəskinləşməsi**

XI Qırmızı Ordu 1920-ci il aprelin 27-də Azərbaycan Respublikasının ərazisinə soxuldu. Bu ordunun 72 min əsgər və zabiti vardı. Atıcı diviziyalar Yalama-Bakı dəmiryolu boyunca hücum edib 5 gün ərzində Bakı quberniyasını, süvari korpus isə aprelin 30-na qədər Şamaxı-Ağsu rayonunu tutmaq, Kürdəmir yaxınlığında Bakı-Gəncə dəmiryolunu kəsmək, Volqa-Xəzər Hərbi Donanması Azərbaycanın neft donanmasını ələ keçirmək, mədənləri yanğından qorumaq üçün Ələt stansiyasına desant çıxarmaq tapşırığı almışdı. Dəmiryol döyüş sahəsinin rəisi M.Q.Yefremov dörd zirehli qatar və 28-ci atıcı diviziyanın 299-cu polku ilə sürətlə hücum edib Bakını tutmalı idi. Qüvvələr qeyri-bərabər olduğundan müqavimət göstərməyin səmərəsiz olacağını əvvəldən görən general Əlağa Şıxlinski minalanmış körpülərin partladılması əmrini ləğv etmişdi. Lakin Azərbaycan Ordusunun vətənpərvər, cəsur döyüşçüləri işğalçılara qarşı mərdliklə vuruşurdular. Yalama, Xudat, Xaçmaz, Xırdalan dəmiryol stansiyalarında qanlı döyüşlər baş vermişdi. Quba süvari polkunun praporşiki Ağaəli Babazadənin komandanlığı altında 4 top və 10 pulemyot ilə silahlanmış iki rota, habelə 300 nəfərdən ibarət könüllü süvari eskadronu və 200 nəfərlik jandarm dəstəsi Qırmızı Ordu süvariləri ilə Yalama stansiyası yaxınlığında iki saat qızğın döyüş aparmışdılar. Xaçmaz stansiyasında Azərbaycan döyüşçüləri körpünü yandırıb, yoldəyişdiriciləri sıradan çıxartmışdılar. Lakin işğalçı ordunun sürətli hücumunun qarşısını almaq mümkün olmadı.

XI Qırmızı Ordu komandanlığı ilə əvvəldən – aprelin 25-də Petrovskdə razılaşdırılmış əlbir hərəkət planı üzrə fəaliyyət göstərən, öz siyasi ambisiyalarını vətənin müstəqilliyindən üstün tutan qüvvələr, xüsusən yaranmış hərbi-siyasi şəraitdə onlar üzərində liderliyi ələ alan

bolşevik rəhbərlər sayca o qədər də çox olmayan (təqribən 1200 nəfərədək) tərəfdarlarını, əsasən Bakının qeyri-müsəlman fəhlələrini üsyana qaldırmışdılar. Bu işdə Rusiya Kommunist Bolşeviklər Partiyasının (RK(b)P) Bakı komitəsini, bolşevik «Hümmət» və «Ədalət» təşkilatlarını birləşdirərək tələm-tələsik təşkil edilmiş (1920-ci il 11–12 fevral) Azərbaycan Kommunist Bolşeviklər Partiyası (AK(b)P) az rol oynamadı. Hələ 1920-ci ilin yanvarında Bakı Komitəsi yanında Ə.Qarayevin sədrliyi ilə silahlı üsyan təşkil etmək üçün «operativ qərargah» yaradılmışdı. Partiyanın Mərkəzi Komitəsinin hərbi-texniki komissiyası aprelin 24-dən silahlı üsyana hazırlığı öz üzərinə götürdü. Azərbaycan hökumətinə qarşı qiyamçı dəstələrin silahlandırılmasında erməni daşnak-kommunist Kamo və onun dəstəsi xüsusi fəallıq göstərirdi. Kommunistlərin Bakı, Gəncə, Qarabağ, Qaryagin, Qazax, Lənkəran qəzalarında, Gədəbəy, Tovuz və Zaqatalada silahlı dəstələri vardı və onlar hər vaxt rus işğalçılarının hücumunu gözləyirdilər. Bolşeviklərin «Novıy mir» qəzetinin 24 aprel tarixli nömrəsi «Rədd olsun müsavat xan-bəy hökuməti!», «Yaşasın sovet hakimiyyəti!», «Yaşasın müstəqil qırmızı Sovet Azərbaycanı!» şüarları ilə çap olunmuşdu.

Xalq arasında Azərbaycan hökumətini gözdən salmaq üçün xeyli vaxt idi ki, bu hökumətin əcnəbilərin dostu, Türkiyənin düşməni olması, Qırmızı Ordunun yunanlara qarşı müharibə də Anadoluya köməyə getməsinə mane olması haqqında yalanlar geniş təbliğ olunurdu. Camaatın böyük əksəriyyəti kommunizm haqqında bolşevik xülyalarına uymasa da hökumətin Türkiyəyə pis münasibəti haqqında yalanlara inanmışdılar. Bunun müəyyən səbəbləri var idi. Mustafa Kamal paşa Atatürkün 1920-ci il aprelin 26-da Sovet hökumətinə göndərdiyi məktubda Moskva ilə Ankara arasında siyasi və hərbi iş birliyi yaranmasına razılıq bildirilmişdi. Mustafa Kamal Kazım Qarabəkir paşanın rəhbərliyi ilə Bakıya bir heyət göndərmişdi. Qarabəkir paşa bildirirdi ki, «bu gün Anadolunun qurtuluşu üçün bizim bolşevik ordusunun köməyinə ehtiyacımız vardır. Xəlil paşa və Türkiyənin digər siyasət adamları da buraya gəlmiş RK(b)P Qafqaz Komitəsi ilə sıx əlaqədə fəaliyyətə başlamışdılar.

Bolşeviklər xalqı aldatmaq, əməllərinin əsl mahiyyətini gizlətmək üçün silahlı dəstələrinin bir çoxuna türkiyəli zabitləri komandir təyin etmişdilər. Zirehli avtomobilləri idarə edən, donanmada xidmətdə olan türkiyəli zabitlər də bolşeviklərin tərəfinə keçmişdilər. Azərbaycan Ordusunun könüllülərdən təşkil edilmiş və bütün zabitləri türkiyəli

olan Bakıdakı «Yardım alayı», 7-ci piyada alayı da Azərbaycan hökumətinə xəyanət etdilər. Aprelin 27-də Xəzər hərbi donanmasının bir dəstə döyüşçüsü Çingiz İldırımın rəhbərliyi ilə Bayıl yüksəkliyindəki sahil artilleriya batareyalarını və radiostansiyanı ələ keçirdi. Donanmanın gəmiləri Bakı körfəzində reydə çıxıb topları ilə Azərbaycan hökumətinin binasını nişan aldılar.

Parlamentdə isə islam birliyi məfkurəsi daşıyan ittihadçılar müsavatçılara qarşı sol sosialist və kommunistlərlə birləşib tarazlığı pozmuşdular.

**Bolşevikcəsinə «müstəqil» dövlətin təşkili**

Respublikada hakimiyyəti yeni yaradılan oyuncaq Müvəqqəti Hərbi İnqilab Komitəsi ələ aldı. Komitənin sədri Nəriman Nərimanov idi. Azərbaycan müstəqil dövlət – Sovet Sosialist Respublikası elan olundu (istila olunmuş bir ölkədə formal olsa da dövlət aparatının qalması, şübhəsiz, əhəmiyyətli bir hadisə idi və 71 il sonra Azərbaycanın müstəqilliyinin bərpasında mühüm rol oynadı). Həmin gün Azərbaycan SSR Xalq Komissarları Soveti təşkil edildi. Bu təşkilatın geniş səlahiyyətləri yox idi. İnqilab komitəsi kimi onun da tərkibi azərbaycanlı kommunistlərdən ibarət idi. Real hakimiyyət, əslində RK(b)P-nin yerli təşkilatı olan AK(b)P-yə məxsus idi, çünki kadr siyasətini həll etmək mərkəz tərəfindən ona həvalə olunmuşdu. Kommunist partiyası diktaturasını təmin edən amillərdən biri də Azərbaycandakı rus ordusu hissələri idi. Respublikanın müstəqilliyi tam formal xarakter daşıyırdı. Aprelin 29-da Azərbaycan Müvəqqəti Hərbi İnqilab Komitəsi Sovet Rusiyası hökumətinə, V.İ.Leninə Qırmızı Ordu dəstələri göndərməklə təcili real kömək göstərmək xahişi ilə müraciət etdi.

Lakin istilaçı XI Ordu artıq iki sutka idi ki, Azərbaycana soxulmuşdu. Onun baş zirehli qatarı aprelin 28-də saat 4-də Bakıya daxil olmuşdu. Qırmızı Ordunun əsas qüvvələri, süvari hissələr paytaxta aprelin 30-da çatmışdılar. Həmin gün 7-ci süvari diviziyanın hissələri Şamaxı və Ağsunu tutdu. Mayın 1-də 28-ci atıcı diviziyanın desant dəstələrinin köməyi ilə zirehli qatar Azərbaycan Ordusunun müqavimətini qıraraq Gəncə stansiyasına, Volqa-Xəzər Hərbi donanmasının esminesləri Bakı buxtasına soxuldular. XI Ordu hissələri Ağsu-Göyçay rayonundan hücum edib Nuxanı (1968-ci ildən Şəki adlanır) tutdu. Sovet donanmasının Lənkərana yaxınlaşan hərbi gəmiləri mayın 3 və 4-də Lənkəran və Astaraya desant çıxartdı. Mayın 5-də düşmənin zirehli qatarı Ağstafa və Poylu stansiyalarını tutdu. Həmin gün onun süvari

hissələri Qazağa, mayın 7-də isə Yevlağa soxuldular. Buradan 32-ci atıcı diviziyanın iki süvari korpusu Qarabağa hücum etdi. Mayın 12-də Şuşa, Cəbrayıl, Cavanşir qəzalarını tutdu. Düşmən mayın 10-da Zaqatalanı, 12-də isə Balakəni ələ keçirdi. Mayın ortalarında XI Ordu Şimali Azərbaycanın, demək olar ki, bütün ərazisini nəzarət altına almışdı.

İstilaçı ordunun belə sürətlə irəliləməsinə, ciddi müqavimətə rast gəlməməsinə səbəb mövcud sosial-psixoloji şərait idi. Adamların bir hissəsi müharibələrdən, xüsusən erməni təcavüzündən, siyasi çəkişmələrdən cana doymuşdu. Rusiyaya, bolşeviklərə qarşı müqavimətin mənasız olduğuna inananlar, sovetləşmiş Azərbaycanın müstəqil olacağı şüarına uyanlar da az deyildi. Bəziləri XI Ordunun Azərbaycandan keçib Türkiyəyə köməyə gedəcəyini güman edirdilər. Azərbaycanda yaşayan ruslar, ermənilər, hətta bir çox aldadılmış azərbaycanlılar bu ordunu xilaskar kimi, şadlıqla qarşılayırdılar.

Qarşısına qoyulan vəzifəni müvəffəqiyyətlə yerinə yetirmiş ordunun əsgər və zabitlərinə Rusiya hökuməti yüksək mükafatlar verdi. Hətta Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi (MİK) M.Q.Yefremovu 1920-ci ildə iki dəfə Azərbaycanın «Qırmızı Bayraq» ordeninə layiq gördü. Azərbaycan SSR adından ona qiymətli daşlarla bəzədilmiş qılınc bağışlandı.

XI Ordu tutduğu ərazilərdə özbaşınalıqlar törədir, müqavimət göstərən vətənpərvərləri məhv edirdi. Əsgərlər və zabitlər bir həftə tutduqları ərazidə soyğunçuluq edirdilər. Əhali, xüsusən kəndlilər, banklar talanırdı. Yığılan sərvətlər, qızıl-gümüş, 300 min ton neft, 750 min pud pambıq və çoxlu ipək əvəzsiz olaraq Rusiyaya daşınırdı. Ordu hissələri terror və diktaturanın əsas silahı idi.

İşğalçı ordunun hücumunu gözləyən və hakimiyyətə can atan qüvvələr birləşib yerlərdə də oyuncaq inqilab komitələri yaradırdılar. Aprelin 29-da Gəncə quberniyasında, 29–30-da Lənkəran qəzasında və bütün Muğanda, Şamaxıda, Salyanda, Zaqatalada, Şuşada, Ağdamda artıq sovet hakimiyyəti qurulmuşdu.

Azərbaycan kəndlərinin böyük əksəriyyətində bolşevizmin, demək olar ki, heç bir sosial dayağı yox idi. Yeni rejimin yerli idarələrini – qəza, kənd, sahə inqilab komitələrini yaratmaq üçün birinci Ümumbakı konfransının qərarı ilə (1920-ci il 5 may) qəzalara fəhlə nümayəndə heyətləri, bolşeviklər göndərilir, burada onların köməyi ilə ilk «sosialist tədbirləri» həyata keçirilirdi. Bunun üçün xüsusi «kəndli həftələri» təşkil olunurdu.

Ələ keçirilmiş yerlərdə köhnə idarəçilik aparatı ləğv edilirdi. Polis əvəzinə fəhlə-kəndli milisi təşkil olunurdu. Mülki və cinayət işlərinə baxmaq üçün xalq məhkəmələri yaradılırdı. Bu məhkəmələrə yalnız fəhlə və kəndlilər üzv seçilə bilərdilər. Əks-inqilaba, təxribata və alverçiliyə qarşı mübarizə üçün Fövqəladə Komissiya (FK) təşkil edilmişdi. Siyasi işlərə Ali İnqilabi Tribunal hökm verirdi. FK hələ zəif olduğundan ilk illər onun funksiyasını XI Ordunun xüsusi şöbəsi həyata keçirirdi. Bu şöbənin rəisi V.Pankratov yerli rəhbərlərdən heç kimlə hesablaşmırdı. Mövcud rejimin şübhəli hesab etdiyi adamlar, ləğv edilmiş partiyaların fəalları, hətta sıravi üzvləri, varlılar, adi, yoxlanılmamış məlumatlar əsasında həbs edilir, güllələnirdilər. Bakıda (Nargin adasında), Gəncədə, Nuxada, Qazaxda və başqa yerlərdə «inqilab düşmənlərinin» güllələnməsi üçün xüsusi yerlər ayrılmışdı. Terrordan profilaktika, qorxu yaratmaq vasitəsi kimi istifadə olunurdu. Dövlət xadimləri, hərbçilər – A.Ziyadxanov, X.Rəfibəyev, H.Səlimov, N.Yusifbəyov, R.Şıxlinski, F.Xoyski, N.Ağayev və başqaları siyasi terrorun qurbanı oldular. Yalnız N.Nərimanovun səyi nəticəsində Ə.Şıxlinski və S.Mehmandarov güllələnmədən xilas oldular.

Daşnak hökumətinin devriləcəyinə və Ermənistanı ələ keçirəcəyinə arxayın olan ruslar ermənilərə daha çox Azərbaycan torpağı qəsb etməyə imkan yaratmaq üçün respublikanın qərb sərhədlərini möhkəmləndirmirdilər. Onlar Naxçıvanı da sovetləşdirməyə tələsmirdilər. Bundan istifadə edən ermənilər Qarabağda, Zəngəzurda, Naxçıvanda və başqa sərhəd bölgələrində təcavüzü davam etdirirdilər. 1920-ci il iyunun axırları – avqustun əvvəllərində onlar Zəngibasarı dağıtdılar və Naxçıvan istiqamətində hücuma başladılar. Bu zaman türk qoşunları Naxçıvanı tam nəzarət altına almağa məcbur oldu. Yalnız bundan sonra Türkiyənin Zəngəzuru da nəzarəti altına alacağından qorxan ruslar Gorusu zəbt etdilər.

İyulun ikinci yarısında XI Ordunun hissələri Naxçıvana soxuldu. Razılaşmaya əsasən burada onlar sayca daha çox olan Türkiyə qırmızı əsgərləri ilə sıx əlaqədə hərəkət edirdilər.

İngilis-daşnak təcavüzünə qarşı mərdliklə mübarizə aparan Kəlbalı xanın başçılığı altında Naxçıvan özünümüdafiə dəstələri dağıldı. Özünümüdafiə təşkilatının üzvləri Arazı keçib İrana getdilər.

XI Ordu hissələri Naxçıvana soxulduqdan sonra iyulun 28-də burada da oyuncaq İnqilab Komitələri təşkil olundu. Oktyabrın 5-də fövqəladə komissarlıq yaradıldı. B.Vəlibəyov burada Azərbaycanın föv-

qəladə komissarı təyin edildi. Sentyabrın axırlarında Rusiyanın təhriki ilə Türkiyə və daşnak Ermənistanı arasında müharibə başlanarkən Şərur-Dərələyəz, Naxçıvan və Ordubad ağsaqqallarının göndərdiyi elçilərin dəvəti ilə buraya yeni Türkiyə hərbi hissələri gətirildi. Bu qoşunların siyasi işlər üzrə komissarı Veysəl bəy də özünü Naxçıvanın fövqəladə komissarı elan etdi. İkihakimiyyətlilik yarandı. Mübarizə gərginləşdi.

## § 2. Sovet Rusiyasından asılılıq şəratinin yaranması

**Hərbi və iqtisadi asılılıq. Yeni iqtisadi siyasət**

Rusiya Azərbaycanda müstəmləkə iqtisadiyyatı yaratmaq, onu tez bir zamanda özündən iqtisadi və hərbi cəhətdən asılı vəziyyətə salmaq üçün tədbirlər görürdü. Çevrilişdən heç bir ay keçməmiş Rusiya hökuməti Azərbaycana nota göndərərək onu daimi qarşılıqlı münasibət formaları yaratmaq üçün dərhal danışıqlara çağırdı. 1920-ci il sentyabrın 30-da RSFSR və Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilə bağlandı, Azərbaycan Ordusu, xalq təsərrüfatını və xarici ticarəti idarə edən orqanları, təchizat orqanları, dəmiryol və su nəqliyyatı, poçt-teleqraf idarələri, maliyyə işləri Moskvaya tabe edildi.

Azərbaycan xalqını köməksiz qoymaq üçün işğalçılar elə ilk günlərdən Azərbaycan milli ordusunu dağıtmağa başladılar. Azərbaycan Ordusunun komanda heyəti, ümumiyyətlə, 266 hərbçi mayın axırlarında həbs olunub güllələndi. Onların arasında 12 general, 27 polkovnik, 6 podpolkovnik, 46 kapitan, ştabs-kapitan, poruçik vardı. Azərbaycan Ordusundan yalnız kiçik bir dəstə xaricə gedib Anadoluda milli-azadlıq hərəkatına qoşuldu.

1920-ci il mayın 7-də Azərbaycan SSR-in ordusu və donanmasının təşkil edildiyi, onların XI Orduya və Rusiya donanmasına tabeliyi elan olundu. Milli atıcı diviziya – Azərbaycan diviziyası yaradılmağa başlandı.

Kommunist partiyasının mütləq hakimiyyətinə yalnız təsərrüfat həyatının əsas sahələrində onun amiranə mövqeyini təmin etməklə nail olmaq mümkün idi. Bunun üçün tezliklə mülkiyyəti ictimailəşdirmək, ona sərəncam vermək hüququnu bir qrup partiya-təsərrüfat işçisinin simasında bolşevik rəhbərlərə vermək vacib idi. Mayın 5-də inqilab komitəsi torpağın milliləşdirilməsi haqqında dekret verdi. Vergi

alınması müqabilində torpaq kəndlilərə istifadəyə verildi (1920–1922-ci illərdə kəndlilərə 2,4 milyon desyatin torpaq paylanmışdı). Əvvəllər hərbi kommunizm siyasətinə uyğun olaraq kəndlilər acından ölməmək üçün məhsulun yalnız kiçik bir hissəsini saxlamaqla qalan hissəsini dövlətə verməyə məcbur idi. 1920-ci il avqustun 26-dan taxıl ticarəti dövlət inhisarına alınmışdı. Elə həmin vaxtlar Bakının, əsasən erməni və rus fəhlələrindən təşkil edilmiş xüsusi ərzaq dəstələri kəndlərə göndərilir, camaatın öz kasıbçılığı üçün saxladığı taxıl, yağ, mal-qara, yem əllərindən alınırdı. Mülkədarlar, varlı kəndlilər sovetləşmənin elə ilk günlərindən mülklərini, təsərrüfatlarını atıb getmiş və ya mübarizə aparmaq üçün gizlənmişdilər. Buna görə də zərbə, əsasən zəhmətkeş ortabab və yoxsul kəndlilərə dəyirdi. Onlar dilənçi vəziyyətinə düşmüşdülər. Mövcud sistem fəhlələrlə kəndlilər, şəhərlə kənd arasında ziddiyyətləri, sənaye və kənd təsərrüfatı arasında əlaqələrdə qeyri-ekvivalentliyi durmadan dərinləşdirirdi. Kəndlilərin getdikcə artan narazılığından və bundan hökumətə müqavimət göstərən vətənpərvər qüvvələrin istifadə etməsindən qorxuya düşən hökumət Leninin məsləhəti ilə oktyabr ayından başlayaraq Quba və Cavad qəzalarından başqa bütün qəzalarda taxıl tədarükünü dayandırdı. Lakin digər kənd təsərrüfatı məhsulları yenə də amansızlıqla kəndlilərin əlindən alınırdı. Əməkçinin əli işdən soyuyurdu.

Milliləşdirmə sahəsində digər tədbirlər də iqtisadiyyata rəhbərliyi bir əldə – bolşeviklərin əlində cəmləşdirməyə və mərkəzin mənafeyinə uyğun qurulmağa şərait yaratdı. 1920-ci il mayın 15-də meşələr, sular, yeraltı sərvətlər dövlət mülkiyyəti elan olundu. Mayın 24-də neft sənayesi, bütün iri sənaye sahələri milliləşdirildi, neft və neft məhsulları ticarəti dövlət inhisarına alındı. İyunda banklar, Xəzər ticarət donanması, balıq sənayesi müəssisələri, tütün fabrikləri, sement, şüşə, yağ, sabun zavodları, sentyabrda dəmir, mis filizi mədənləri, oktyabrda pambıqtəmizləmə zavodları milliləşdirildi. Sosialist təsərrüfatçılıq formaları, iqtisadiyyatın qeyri-iqtisadi, inzibati-amiranə idarə metodları tətbiq olunmağa başlandı. Təsərrüfatı idarə etmək üçün Azərbaycan Xalq Təsərrüfatı Şurası (sədri əvvəllər S.P.Solovyov, az sonra B.Talıblı) təşkil edildi. Yüngül və yerli sənaye sahələrində firmalar ləğv edildi, 200-dən çox müəssisə milliləşdirildi. Əvvəllər neft təsərrüfatını idarə edən 272 xüsusi neft sənaye firması ləğv olundu. Neft sənayesi və ticarətini idarə etmək üçün birbaşa Moskvaya tabe olan özünü «hökumət içində hökumət» hesab edən «Azneftkom» yaradıldı. Hətta Azərbaycana

nefti Moskva ayırırdı. Neftin cəmi 15 faizi onun həqiqi sahibinə – Azərbaycana əta olunmuşdu. Lakin bunu da respublika tam ala bilmirdi. Azərbaycanda əhaliyə neft başqa respublikalardakından baha satılırdı.

Vətəninin qarət olunduğunu, neftinin pulsuz daşınıb aparıldığını, respublikanın asılı vəziyyətə düşdüyünü görən əməkçiləri işə cəlb etmək, məhsuldar işləməyə məcbur etmək üçün inzibati-amirlik metodlarını daha da gücləndirmək lazım gəlirdi. Güclə təşkil edilən «kommunist» iməciliklərinə hər dəfə 10–12 minə qədər adam cəlb edilir və pulsuz işlədilirdi. Kənd təsərrüfatında da əməyin sosialist təşkilat formaları tətbiq olunmağa başlamışdı. 1920-ci ilin sonunda 3 min yoxsul kəndlini birləşdirən 32 kənd təsərrüfatı arteli kommuna və sovxoz vardı. Bu təsərrüfatlar üçün İnqilab Komitəsi xüsusi fond yaratmışdı. Lakin kəndli, təbii ki, ümumi təsərrüfata ögey münasibət bəsləyirdi, əmək məhsuldar deyildi. Elə buna görə də ilk kollektiv təsərrüfatların çoxu tezliklə dağılmışdı.

Təsərrüfat idarəçiliyində tətbiq olunan qeyri-iqtisadi metodlar işçilərin maddi və mənəvi maraqlarını təmin etmirdi. Dövlət inzibati əmək intizamını gücləndirmək üçün tədbirlər görürdü. 1920-ci il iyunun 9-da Fəhlə-Kəndli Müfəttişliyi təşkil edilmiş, sentyabrın 24-də ümumi əmək mükəlləfiyyəti haqqında xüsusi dekret imzalanmışdı. Lakin bunların da səmərəsi çox deyildi. Bakı mədənləri neft qəbiristanlığını xatırladırdı. Yeni quyular, demək olar ki, qazılmırdı. 40 neft emalı müəssisəsindən cəmi 18-i, o da fasilələrlə işləyirdi. Gədəbəy mis, Zəylik zəy, Tovuz, Keşlə sement zavodları dayanmışdı. Tağıyev fab-rikində dəzgahların yalnız üçdə biri işləyirdi. Nuxadakı 69 baramaaçan müəssisədən üçü fəaliyyət göstərirdi. 46 pambıqtəmizləmə zavodundan ikisi işləyirdi. 1920-ci ildə respublikada sənaye məhsulu istehsalı 1913-cü ildəkindən 57 faiz, neft çıxarılması 2,6 dəfə, neft emalı 2,5 dəfə, sement istehsalı 5 dəfə, pambıq-parça istehsalı 3 dəfə, Naxçıvanda duz istehsalı 48 faiz azalmışdı.

Kənd təsərrüfatı bərbad vəziyyətdə idi. Suvarma sistemi dağılmışdı. 150 suvuran qurğudan 24-ü salamat qalmışdı. Muğan kanallarının suötürmə qabiliyyəti 4 dəfə azalmışdı. Əkin sahələrinin 38 faizi, 200 min desyatin suvarılan sahə, 3 min desyatin üzümlük, tut bağlarının yarısı sıradan çıxmışdı. 1920-ci ildə baxımsızlıq üzündən 200 min desyatin sahədə kənd təsərrüfatı məhsulları məhv olmuşdu. Qaramalın sayı 1916-cı ildəkinə nisbətən 30 faiz azalmışdı. 1920-ci ildə respublikada 1913-cü ildəkindən 35 faiz az kənd təsərrüfatı məhsulu istehsal olunmuşdu.

İqtisadi tənəzzülün qarşısını almaq üçün çıxış yolunu rəhbərlər iqtisadi siyasəti dəyişməkdə, təsərrüfat idarəçiliyində iqtisadi maraqlara üstünlük verməkdə gördülər.

RK(b)P X qurultayı (1921-ci il, mart) Leninin Yeni İqtisadi Siyasət («NEP») doktrinasını qəbul etdi. Bu siyasət kompleks tədbirlər sistemi idi, əmtəə-pul mübadiləsini, ticarət azadlığını, əməyə şəxsi marağın artmasını, idarəçiliyin, xüsusən planlaşdırmanın təkmilləşdirilməsini, kapitalistlərin icarə vasitəsilə iqtisadiyyatın təşkilində iştirakına icazə verilməsini, təsərrüfata rəhbərlikdə inzibati-amirlik metodlarının, bürokratizmin aradan qaldırılmasını nəzərdə tuturdu. Yeni İqtisadi Siyasət, həm də milli ucqarları əldə saxlamaq üçün xalqların mərkəzə, bolşevik rejiminə qarşı mübarizəsini zəiflətmək məqsədi güdürdü. Təsadüfi deyildi ki, 1921-ci il 14 aprel tarixli məktubunda Lenin Qafqaz kommunistlərinə sosializmə daha aramla, daha ehtiyatla keçmək, xırda burjuaziyaya, ziyalılara, xüsusən kəndlilərə qarşı daha mülayim olmaq, daha artıq güzəştə getmək, ziyalıları təsərrüfat strukturuna cəlb etmək üçün bütün vasitələrə əl atmağı məsləhət görmüşdü.

Tezliklə Yeni İqtisadi Siyasət əməli şəkildə həyata keçirilməyə başlandı. Əmtəə istehsalı bərpa olundu. Xüsusi ticarətə, torpağın icarəsinə, muzdlu əməkdən istifadəyə icazə verildi. Ərzağın bütün növlərinin satışındakı dövlət inhisarı götürüldü. Ərzaq sapalağı ləğv edildi, əvəzinə ərzaq vergisi qoyuldu. Bütün bu tədbirlər adamların istehsala iqtisadi marağının artmasına səbəb oldu.

Azərbaycan Xalq Təsərrüfatı Şurasına (AXTŞ) tabe olan 20-yə qədər yüngül sənaye, habelə 37 baramaaçan müəssisə, 13 pambıqtəmizləmə zavodu, 71 balıq emalı müəssisəsi, bəzi kiçik neftli torpaqlar icarəyə verildi. Xarici kapitalistlər müəssisələri, neft mədənlərini icarəyə götürməyə çalışırdılar. Genuya və Haaqa konfranslarında (1922-ci il) xarici ölkələr onlara məxsus milliləşdirilmiş müəssisələrin və borcların qaytarılmasını tələb etdilər. Lakin istəklərinə nail ola bilmədilər.

Qısa müddətdə AXTŞ yenidən quruldu: Azipək, Aztekst, Aztütün, Azduz, Azmis və başqa iri təsərrüfat birlikləri – trestlər təşkil olundu. «Azneftkom» «Azneft» trestinə çevrildi, Dövlət Plan Komitəsi, Dövlət Bankı yaradıldı.

Ölkədə yanacaq böhranını aradan qaldırmaq üçün Bakı neft yataqlarının potensialından daha geniş istifadə etmək planları hazırlanırdı. Bu işlə Lenin şəxsən məşğul olurdu. Onun təklifi ilə Bakıya xüsusi komissiya göndərilmişdi. Komissiya yerdə vəziyyəti əhatəli şəkildə

öyrənib konkret təkliflər söyləmiş və bunların əsasında xüsusi tədbirlər müəyyən edilmişdi. 1921-ci ildə neft sənayesi üçün 500 min manat qızıl pul, Bakı fəhlələrinə 660 ton taxıl ayrılmışdı. «Azneft»ə neft və neft məhsulları satıb özünə vacib olan avadanlıq almaq üçün müəyyən xarici ticarət müstəqilliyi verilmişdi. Neft hasilatını artırmaq üçün yeraltı ehtiyatları üzə çıxarmaq məqsədilə 1920-ci ildə Geoloji kəşfiyyat bürosu təşkil olunmuşdu. Bu büronun fəaliyyətində D.V.Qolubyatnikov, İ.M.Qubkin və b. yaxından iştirak edirdilər. 1922-ci ildə Balaxanı-Sabunçu rayonunda zəngin neft yataqları aşkara çıxarıldı, ilk sovet mədəni yaradıldı. Mühəndis P.N.Pototskinin rəhbərliyi altında Bayıl buxtasında dəniz dibinə torpaq tökməklə yaradılmış sahələrdə 1923-cü ilin aprelində yeni mədənin («İliç buxtası») istismarına başlanıldı. Neft mədənlərində xaricdən alınan, o zaman üçün mütərəqqi texnika sayılan burğulu qazma maşınları, qazma turbinləri, dərinlik nasosları və kompressorlar tətbiq olunurdu. Müəssisələrdə zərbəçi əmək briqadaları təşkil edilir, qara və qırmızı lövhələr asılırdı. Tez-tez keçirilən iməciliklərə minlərlə adam cəlb olunurdu. Müəssisələrdə istehsalat müşavirələri keçirilirdi. Bütün bu tədbirlər istehsalın xeyli yüksəlməsinə kömək edirdi, 1921–1922-ci illərdə respublikada neft hasilatı 2 dəfəyə qədər artmışdı.

Respublikanın iqtisadi potensialının artması xeyli dərəcədə burada enerji istehsalının çoxalmasından asılı idi. 1924-cü ildə Gəncədə, Xankəndində (1923–1991-ci illərdə Stepanakert adlanırdı) və Zaqatalada elektrik stansiyaları istifadəyə verilmişdi.

Sənayenin digər sahəsi – maşınqayırma da xeyli inkişaf etmişdi. Şmidt adına (indiki Səttarxan adına) iri neft maşınqayırma zavodu təşkil olunmuşdu. 1923-cü ildə Bakıda Perm quberniyasından gətirilmiş avadanlıqdan kənd təsərrüfatı alətləri istehsalı zavodu quraşdırıldı. Gəncədə 1924-cü ildə mahud fabriki tikildi, 1925-ci ildə ət, sabun kombinatının inşasına başlandı. Bakıdakı toxuculuq fabrikində istehsal artıb 1913-cü il səviyyəsinə çatmışdı. Şəhərdəki iki tütün fabriki birləşdirilib iri tütün fabrikinə çevrilmişdi. Kiçik tikiş emalatxanaları əsasında 1924-cü ildə Volodarski adına tikiş fabriki təşkil edilmişdi. 1925-ci ildə Gəncə, Ləki, Ucar, Salyan pambıqtəmizləmə zavodları bərpa edilmiş, Noraşen və Yevlaxda yeni pambıqtəmizləmə zavodları tikilmişdi. Bakı sement zavodu yenidən işə salınmışdı. Nuxada, Xankəndində, Ordubadda baramaaçan müəssisələr, Gədəbəydə misəritmə zavodu, Tovuzda sement zavodu fəaliyyət göstərirdi.

Bütün bunların sayəsində 1925-ci ildə ümumi sənaye məhsulu istehsalı 1913-cü ildəkinin 72 faizinə çatdırılmışdı.

Bu illərdə respublikada kommunikasiya vasitələrinin inkişafına diqqət xeyli artmışdı. Bakı–Culfa dəmiryolunun tikintisi davam etdirilirdi. 1924-cü ildə bu yolun artıq 165 versti istifadəyə verilmişdi.

Yeni İqtisadi Siyasət kənd təsərrüfatında da nəzərə çarpacaq dəyişikliklər yaratmışdı. 1921-ci il mayın 17-də güzəranı olduqca ağır olan Azərbaycan kəndlilərindən ərzaq vergisi alınması 1922-ci ilə qədər təxirə salınmışdı. «Könüllü» elan olunsa da kəndlilərdən zorla «çanaq» vergisi (20 girvənkə taxıl) alınırdı. Volqada baş vermiş aclıqla əlaqədar oraya məhsul göndərilməsi kəndlinin güzəranını pisləşdirirdi. Bununla belə, torpağın kəndliyə verilməsi onun istehsala marağını xeyli artırmışdı. 1922-ci ildə respublikada əkin sahələri 2 dəfədən çox artırılıb 514 min desyatinə çatdırılmışdı.

Azərbaycan kəndinin mövcud potensialından daha səmərəli istifadə etmək üçün burada məhsuldar qüvvələri inkişaf etdirmək lazım idi. 1921-ci ildə Mil-Muğan Su Tikinti İdarəsi təşkil edildi. Muğanda irriqasiya işlərinə Əmək və Müdafiə Şurası qızıl pulla 800 min manat vəsait, 220 traktor ayırdı. Muğandan yığılan vergi hesabına «irriqasiya fondu» yaradıldı. Mil-Muğan düzlərində Govurarx kanalı, Yuxarı Muğan, Qolıtsin irriqasiya sistemi, Naxçıvanda Fərhad arxı, Xanlıqlar arxı yenidən quruldu, 1925-ci ildə Samux çölündə Qarasaqqal kanalının tikintisinə başlandı. Yuxarı Qarabağda Madagiz, Qazax qəzasında Şıxlı kanalları çəkildi. Kəndli əməyinin və istehsalın təşkili sahəsində də müəyyən işlər görülmüşdü. 1923-cü ildə «Azkəndtəsərrüfat bankı», 1924-cü ildə «Köy birliyi», «Azərbaycan kənd təsərrüfatı kooperativləri birliyi» yaradılmışdı. 1924-cü ildə respublikada 80, 1925-ci ildə isə artıq 150 kənd təsərrüfatı kooperativi – kredit, maşın, meliorasiya, heyvandarlıq və s. şirkətləri vardı. Taxıl istehsalını artırmaq üçün dövlət kəndliyə yardım göstərir, texnika, toxum və s. alınmasına şərait yaradırdı.

1920-ci il noyabrın 27-də Mərkəzi Asiyada və Azərbaycanda pambıqçılığı inkişaf etdirmək haqqında dekret verilmişdi. Pambıq istehsalındakı inhisarın ləğv edilməsi də pambıqçılığın inkişafına münasib şərait yaratmışdı. Pambıq satışı azad elan olunmuşdu. Kəndlinin bu qiymətli məhsul istehsalına marağı xeyli artmışdı. 1924-cü ildə respublikada pambıq əkini sahəsi 85,2 min des. 1925-ci ildə isə artıq 106 min des. idi.

Respublikada ipəkçiliyin inkişafına da diqqət artırılmışdı. 1921-ci ildə Zaqatalada barama toxumu tədarükü stansiyası təşkil edilmişdi. Çəkil bağlarını genişləndirmək üçün xüsusi proqram işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdı.

Aqrar sahədə Yeni İqtisadi Siyasət illərində həyata keçirilən tədbirlər nəticəsində 1925-ci ildə artıq respublikada kənd təsərrüfatı məhsulları istehsalı 1913-cü ildəkinin 72,8 faizinə, təsərrüfatlarda qaramalın sayı isə 83,5 faizinə çatmışdı. 1922-ci ildə ümumi kənd təsərrüfatı məhsulunun 4 faizi ərzaq vergisi kimi alınmışdı. Guya kəndlilər özləri vergi planını ikiqat yerinə yetirmək istəmiş və dövlətə 1 milyon pud əvəzinə 2 milyon pud taxıl vermişdilər. 1923-cü ildə ərzaq vergisi pulla ödənilən vahid kənd təsərrüfatı vergisi ilə əvəz olunmuşdu.

İstehsalın artmasına ticarət azadlığı mühüm təsir edirdi. Mal dövriyyəsinin 70 faizi xüsusi ticarətin əlində cəmləşmişdi. Dövlət-qarışıq səhmdar cəmiyyəti təşkil olunmuşdu. Ticarət birjası açılmışdı. İstehlak kooperasiyası – müstəqil özünüidarə edən cəmiyyət fəaliyyət göstərirdi. Bakıda yarmarkalar təşkil olunmağa başlanmışdı. 1922–1925-ci illərdə bu yarmarkalara gətirilən malların həcmi 7 dəfə çoxalmışdı.

Lakin şəhərlə kənd arasında iqtisadi əlaqələrdə mütənasiblik pozulmuş, sənaye malları həddindən artıq baha, kənd təsərrüfatı məhsulları isə çox ucuz olduğundan fərqlər yaranmışdı. Bu həm sənaye mallları satışına, həm kənddə istehsalın artmasına maneçilik törədir, həm də mövcud rejimin sosial bazasına – «fəhlə-kəndli» ittifaqına» ziyan vururdu. 1922–1924-cü illərdə qiymətləri nizama salmaq sahəsində görülən tədbirlər nəticəsində «qayçı» aradan qaldırıldı. 1924-cü ilin aprelində pul islahatı keçirildi, qiymətdən düşmüş kağız pullar sabit, beynəlxalq dəyərli sovet çervonu ilə əvəz olundu.

Yeni İqtisadi Siyasətin üstünlükləri göz qabağında idi. Lakin təsərrüfatın iqtisadi metodlarla idarə olunması, müəssisələrə müstəqillik verilməsi bolşevik rəhbərlərinin iqtisadi və onun əsasında da siyasi amirliyini xeyli zəiflədirdi. Buna görə də Leninin vəfatından sonra Yeni İqtisadi Siyasət zəiflədi. 1922-ci ilin aprelindən RK(b)P MK-nın baş katibi seçilmiş, mühüm vəzifələrə öz adamlarını yerləşdirməklə əlində hədsiz hakimiyyət cəmləşdirmiş İ.V.Stalin təsərrüfat çoxukladlılığını ləğv etməyə, iqtisadiyyata rəhbərlikdə inzibati-amirlik metodlarını möhkəmləndirməyə başladı.

**Siyasi asılılıq. «Parçala və hökmranlıq et» siyasəti**

Sovet Rusiyası Azərbaycanda öz maraqlarını təmin etmək üçün elə bir siyasi vəziyyət yaratmağa çalışırdı ki, burada xalqın taleyinə və mülkiyyətinə sərəncam vermək hüququ Moskvanın təyin etdiyi və ona sadiq olan bir ovuc oyuncaq bolşevik rəhbərlərin əlində cəmləşsin, xalq, onun ictimai təşkilatları dövlət idarəçiliyindən uzaq olsun, Moskva canişinlərinin kommunist partiyası vasitəsilə siyasi sistemin bütün dairələrində hegemonluğu təmin edilsin. 1920-ci il mayın 12-də xüsusi dekretlə bütün çinlər ləğv edilmişdi. İdarəçiliyə cəlb olunarkən imtiyazı yalnız kommunist partiyasına, habelə yoxsul təbəqələrə mənsubluq verirdi. Əvvəllər qanunverici və icraedici hakimiyyət bu prinsiplə yaradılmış Azərbaycan İnqilab Komitəsinin əlində cəmləşdirildi. Azərbaycan SSR Xalq Komissarları Soveti (XKS) də elə bu prinsiplər üzrə təşkil edildi.

Dörd minə qədər üzvü olan Azərbaycan Kommunist Partiyası Moskvadakı ağalarının əlində oyuncaq, xalqı parçalamaq, diz çökdürmək vasitəsi idi. Demokratik mərkəziyyət prinsipi ilə üzvlərinin müstəqilliyini tam buxovlayan bu partiyanın sıraları, əsasən hakimiyyətə can atan, müəyyən fərdi, qrup mənafeləri güdən adamlar, habelə kəmsavad fəhlələr, yoxsul kəndlilər, «ziyalılar» hesabına sürətlə genişlənirdi. Kommunistlərin sayı bir ildə 11 min nəfərə qədər artmışdı. Onların ancaq yarısını azərbaycanlılar təşkil edirdi. Bolşevik ideologiyası müsəlmanlara olduqca yad idi. 1921-ci ildə partiyada təmizləmə keçirərkən Qafqaz Diyar yoxlama komissiyasının sədri təmizləmə işinin nəticəsi haqqında məruzəsində qeyd etmişdi ki, Azərbaycanda müsəlmanlar arasında səbatlı kommunist yoxdur. Azərbaycanlı kommunistlər arasında, demək olar ki, birlik yox idi və mərkəz onun yaranmasına hər vasitə ilə mane olurdu.

Azərbaycan İnqilab Komitəsinin və Azərbaycan SSR XKS-nin sədri təyin edilmiş Nəriman Nərimanov kommunist ideallarına fanatikcəsinə inanan, onların Şərqin reallıqları ilə uzlaşacağına ümid bəsləyən, bütün xalqların, o cümlədən azərbaycanlıların xoşbəxtliyini bu ideyaların həyata keçirilməsi ilə bağlayan, şərq xalqları arasında tanınan və sayılan bir şəxs idi. Onun Şərqə pəncərə açmaq üçün Azərbaycanda müstəqil, nümunəvi, sovet respublikası yaratmaq, bu zaman Rusiya sovetləşdirilərkən edilmiş səhvlərə – «sərt tədbirlərə», terrora yol verməyib yerli şəraiti nəzərə almaq, iri sənayeni milliləşdirmək, xırda sənayeni və ticarəti azad buraxmaq haqqında hələ 1919-cu ilin əvvəllərində irəli sürdüyü ideyalar xeyli tərəfdar qazanmışdı. Qərbdə

kommunist inqilabının yaxın vaxtlarda perspektivsiz olduğunu dərk edən, bütün ümidlərini Şərqin «oyanmasına» bağlayan Moskva N.Nərimanovu inandırmışdı ki, Şərqin qapısı olan Azərbaycanda nümunəvi sovet respublikası qurulmasında, həqiqətən, maraqlıdır.

Sərt tədbirlərə, terrordan geniş istifadə olunmasına üstünlük verən mərkəzə yarınmaq üçün qəsdən «solçuluq» edən rəhbərlər arasında keçmiş müsavatçılar (M.D.Hüseynov və b.), menşeviklər (Ə.H.Qarayev və b.), eserlər (Ə.Ş.Xanbudaqov, R.Ə.Axundov və b.), daşnaklar (A.İ.Mikoyan, L.İ.Mirzoyan və b.) və başqaları vardı.

«Parçala və hökmranlıq et!» siyasətini davam etdirən Moskva, xüsusən o zamankı millətlər komissarı İ.V.Stalin bu vəziyyətdən məharətlə istifadə edərək milli rəhbər kadrlar arasında ixtilaf yaranmasına rəvac verirdi. Bu işdə onlar mərkəzdəki «daşnak-kommunistlərə» arxalanırdılar. Erməni millətçiləri sərsəm «Böyük Ermənistan» xülyası ilə yaşayır, Azərbaycanda güclü hökumətin olmasını, təbii ki, istəmirdilər. Azərbaycan Kommunist Partiyasında, dövlət orqanlarında bir-biri ilə didişən «sağ» və «sol» təmayüllər, müxtəlif sosial qruplar, Azərbaycan türkü, rus və erməni əhalisi arasında ziddiyyətlərin hər vasitə ilə güclənməsinə şərait yaradılırdı. Bakıda açıq ruslaşdırma siyasəti yeridilirdi. İstanbuldakı ağqvardiyaçı ruslardan on mini Bakıya köçürülmüşdü. Burada yüksək vəzifələrə, idarəçilik işlərinə, əsasən erməni, rus və yəhudilər irəli çəkilirdilər. 1923-cü ildə Bakı Sovetinin 52 məsul işçisindən cəmi 6 nəfəri, rəyasət heyətinin 10 üzvündən 2-si azərbaycanlı idi. Mərkəzi dövlət aparatında da azərbaycanlılar azlıq təşkil edirdilər. Yalnız 1928-ci ildə onların sayı bu aparatda 28 faizə çatmışdı. Əhali dövlət idarələrinə rus dilində müraciət etməyə məcbur edilirdi.

XI Ordu respublikanın qərb sərhədlərini möhkəmləndirmədi, erməni quldur dəstələrinə qarşı mübarizə aparmadı. Lakin müsəlmanları tərk-silah etdi və yağı düşmən qarşısında onları əliyalın qoydu. Rusların fitvası ilə 1920-ci ilin mayında daşnak hökumətinə qarşı üsyan məğlubiyyətə uğradıqdan sonra üsyançı ermənilərə qaçıb Azərbaycana gəlməyə imkan yaradıldı. Onları təqib edən erməni qoşunları Azərbaycanın Şəmkir, Qazax bölgələrindəki kəndlərə, iyulda, həm də Xankəndinə, Malıbəyliyə və Quşçulara soxulub qarət və qırğınlar törətdilər.

Azərbaycan torpaqlarının, xalqının parçalanmasında, milli rəhbər kadrları arasında nifaq salınmasında bolşeviklərin «ən möhkəm təşkilatı» sayılan Bakı Komitəsinin katibliyini sanki varisliklə bir-birinə ötürən ermənilər – A.İ.Mikoyan, Sarkis (A. Ter-Danilyan), L.İ.Mirzoyan

xüsusilə fərqlənirdilər. Mərkəzin nümayəndələri – Stalin, Orconikidze, Kirov, Stasova sollara arxa dururdular. Mövcud şəraitdə qəsdən «sol»çuluğa meyil edən Nərimanov və onun tərəfdarları M.Hacıyev, Qədirli, S.M.Əfəndiyev, əvvəllər D.Bünyadzadə, H.Sultanov və başqaları ilə açıq mübarizə aparan M.D.Hüseynov, Ə.Qarayev, R.Axundov və başqaları onların əlində oyuncağa çevrilmişdi. Onlar yaxın keçmişdə başqa siyasi partiyalarda fəaliyyətlərinə görə təqib olunmamaq üçün qəsdən «solçuluq» edirdilər. «Sollar» «nərimanovçulardan» fərqli olaraq, əsasən milliləşdirmə məsələsində «sol» mövqe tutur, xırda burjuaziya və ortabab kəndlilərin də mülkiyyətinin müsadirə olunmasını tələb edirdilər.

1920-ci ilin noyabrında Serqo Orconikidze mərkəzin nümayəndəsi kimi Azərbaycan İnqilab Komitəsinə ümumi siyasi rəhbərliyə göndərildi. Azərbaycan KP MK-nın birinci katibi Q.Kalinski təyin edildi. Bu, əslində Nəriman Nərimanovu respublikaya rəhbərlikdən uzaqlaşdırmaq idi. 1921-ci ilin iyulunda S.M.Kirov AK(b)P MK-nın birinci katibi «seçildi». Stalin qvardiyasından olan M.C.Bağırov 1921-ci ilin əvvəllərində Azərbaycan Fövqəladə Komissiyasının (ÇK-nın) sədri təyin edildi. Rusiyanın Azərbaycandakı siyasətinin əsl mahiyyətini başa düşən və ona qarşı etiraz edən N.Nərimanovu respublikadan uzaqlaşdırmaq üçün 1922-ci ildə yaradılmış Zaqafqaziya Respublikaları Federativ İttifaqında ittifaq soveti, 1923-cü il yanvarın 2-də isə Sovet Sosialist Respublikaları İttifaqı Mərkəzi İcraiyyə Komitəsi (SSRİ MİK) sədrlərindən biri vəzifəsinə seçmişdilər. 1921-ci ildə kommunist partiyası daxilində «təmizləmə» keçirilərkən, əsasən Nərimanov tərəfdarlarından 35 min nəfər partiyadan çıxarılmışdı. Bakı partiya təşkilatında daşnak və rusların hegemonluğunu təmin etmək üçün Sarkis partiya sıralarından 500 nəfər iranlını qovdu. Mirzoyan isə iranlı fəhlələrin partiyaya qəbuluna süni maneə yaratmışdı. Azərbaycanda Azərbaycanı təmsil edən kommunist partiyası yox idi. AK(b)P Azərbaycanı simasızlaşdırmaq siyasətini həyata keçirmək üçün daşnak-kommunistlərin əlində bir alət olmuşdu.

Azərbaycan SSR II Sovetlər qurultayına (1922-ci il 28 aprel), MİK və XKS-yə susmağı bacaran və tez yola gələn S.H.Ağamalıoğlu və Q.M.Musabəyov gətirilmişdi.

**Sovet quruculuğu**

Bakı soveti 1920-ci ilin mayında seçilmişdi. Seçkilərdə yüz desyatindən az torpağı olan kəndlilər (yoxsul və ortabablar), fəhlələr, 20-dək fəhləsi olan müəssisə sahibləri, habelə Bakıda olan rus ordusunun zabit əsgər və motrosları

seçib-seçilmək hüququna malik idilər. Təbii ki, bu cür seçki paytaxt sovetində xristian deputatların çoxluğunu təmin edirdi. Bu, Bakı ilə respublikanın digər bölgələrinin mənəvi birliyinin qırılmasına, onlar arasında ziddiyyətlərin artmasına, gələcəkdə şəhərin Azərbaycandan qoparılıb birbaşa Moskvaya tabe edilməsinə şərait yaratmağa xidmət edirdi.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 23 sentyabr tarixli dekreti ilə kənd və sahə inqilab komitələri əvəzinə «seçkili» (sədr və 4 nəfər üzvdən ibarət) müvəqqəti hakimiyyət orqanı – Yoxsul Komitələri («kombed»lər) təşkil olunmağa başlanmışdı. Bakı kəndlərində kənd sovetləri fəaliyyət göstərirdi. Sovet hakimiyyəti mövqelərinin nisbətən möhkəmlənməsi, ona qarşı açıq çıxışların azalması ilə əlaqədar 1921-ci ilin baharında inqilab və yoxsul komitələri ləğv olunub, əvəzinə fəhlə və əsgər deputatları sovetləri «seçilməyə» başlandı. Respublikada 30 min nəfər deputatı olan 1400 kənd soveti seçildi.

1921-ci il mayın 6-da Bakıda Azərbaycan SSR I Sovetlər qurultayı keçirildi. Qurultayda Azərbaycan SSR-in Konstitusiyası qəbul olundu. Proletar diktaturası, əslində Moskvaya tabe olan oyuncaq bolşevik rəhbərlərin hakimiyyəti, respublikada yaranmış siyasi və iqtisadi sistem qanuniləşdirildi. Fəhlə sinfinə hüquqi üstünlüklər verildi. Bu isə xalqın parçalanmasına daha əlverişli şərait yaratdı. Şəhərlə kənd arasındakı ziddiyyətlər daha da dərinləşdirildi. Sovetlər qurultayına şəhər sovetləri hər min, kənd sovetləri isə hər beş min nəfərdən bir deputat göndərirdi. Qurultay qanunverici orqan – Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsini (MİK) (sədri M.Hacıyev) və icraedici orqan – Xalq Komissarları Sovetini (XKS) (sədri N.Nərimanov) seçdi.

Başqa ictimai təşkilatlar da bolşeviklərin rəhbərliyi altında, onların diktəsi ilə fəaliyyət göstərirdilər. İttihadçıların, menşeviklərin, xalqçı sosialistlərin çoxu bolşevik platformasını qəbul etdilər. Qalanları gizli fəaliyyətə başladılar. «Əhrar» partiyası fəaliyyətini dayandırdı. Onun üzvlərinin bir hissəsi gizli fəaliyyət göstərən «Müsavat» partiyasına daxil oldular.

«Kommunizm işinə sadiq, bolşevik rəhbərlərə müti, qeyri-təşəbbüskar gənc nəsil yetişdirmək işində komsomol təşkilatına xüsusi rol ayrılırdı. 1920-ci ilin ortalarında Azərbaycan Kommunist Gənclər İttifaqının I qurultayı ərəfəsində bu təşkilata 10 minə qədər oğlan və qız cəlb olunmuşdu. Bolşeviklərin rəhbərliyi altında fəaliyyət göstərən həmkarlar ittifaqlarının 120 min nəfər üzvü vardı.

Əslində heç bir real hüququ olmayan sovetlərdə və ictimai təşkilatlarda birləşdirilmiş adamlar dövlətin və təsərrüfatın idarə olunmasında

yalnız formal şəkildə iştirak edirdilər. Onların böyük əksəriyyəti siyasi fəaliyyət təcrübəsi olmayan fəhlələr, əsgərlər, yoxsul və ortabab kəndlilər idilər. Kommunist rəhbərlərin gücü də elə xalqın böyük əksəriyyətinin siyasi mədəniyyətinin azlığında, mövcud sistemin adamlarda doğurduğu siyasi laqeydlikdə idi.

Sovetlərin hamısının işinə bolşevik rəhbərliyini təmin etmək, istiqlal uğrunda mübarizə taktikasını dəyişib mövcud sistemi daxildən parçalamağa çalışan vətənpərvərlərin sovet orqanları rəhbərliyinə gəlməsinə imkan verməmək üçün 1923-cü ildə kənd sovetləri iriləşdirilərək sayı 600-ə endirildi. 1925-ci ilin əvvəllərində kəndlərdə 62 sahə və 440 kənd soveti vardı. Kənd yerlərində dövlət siyasi idarəsi agenturasının dərin kök salması, bolşeviklərin etibarlı adamlarının sayının artması, habelə böyük ərazidə işi təşkil etməyin, nəzarətin çətinliklərini aradan qaldırmaq ehtiyacı kənd və sahə sovetləri şəbəkəsinin genişləndirilməsinə səbəb oldu. 1925-ci ildə 135 sahə və 1428 kənd soveti yaradıldı. Kənd sovetlərinə 46 min nəfər deputat seçildi ki, bu da əvvəlkindən 26 min nəfər çox idi. İstiqlal, azadlıq uğrunda mübarizələrin bəziləri sovetlərə daxil olaraq imkan daxilində xalqa yabançı olan mövcud siyasi sistemin eybəcərliklərini açıb göstərməyə çalışırdılar.

**Respublikanın ərazi bütövlüyünün pozulması. Yuxarı Qarabağın və Naxçıvanın statusunun müəyyənləşdirilməsi**

Azərbaycanın ərazisi də hərraca qoyulmuşdu. XI Ordu Ermənistanı istila edib sovetləşdirdikdən 3 gün sonra – 1920-ci il dekabrın 1-də Moskvanın təzyiqi altında Azərbaycan İnqilab Komitəsi tərəfindən verilən bəyanatda artıq Azərbaycanla Ermənistan arasında sərhəd mübahisəsinin mövcud olmadığı elan olundu. Bu, daşnakların Naxçıvan, Zəngəzur, Dilican və Göycəyə olan iddiaları ilə razılaşmaq demək idi. Yuxarı Qarabağ əhalisinə referendumla öz müqəddəratını təyin etmək imkanı yaradıldı. Naxçıvan əhalisinin bu bəyanata qarşı etiraz çıxışları baş verdi. Hələ 1920-ci il iyulun 28-də Naxçıvan SSR yaradılmışdı. Naxçıvan İnqilab Komitəsi onu Azərbaycanın ayrılmaz tərkib hissəsi elan etmişdi. Dekabrın 28-də Ermənistan İnqilab Komitəsi Naxçıvanı Müstəqil Sovet Respublikası kimi tanıdı. 1921-ci ilin əvvəllərində burada Türkiyə, RSFSR, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə əhalinin rəy sorğusu (referendum) keçirildi. Naxçıvan camaatının böyük əksəriyyəti (90 faizi) Azərbaycanın tərkibində qalmaq arzusunu bildirdi. Bununla əlaqədar, 1921-ci ilin yanvarında Naxçıvan İnqilab Komitəsi əvəzinə Naxçıvan Ölkə İnqilab Komitəsi təşkil olundu. Naxçıva-

nın statusu 1921-ci il martın 16-da Moskvada RSFSR və Türkiyə arasında imzalanmış xüsusi müqavilə ilə həll olundu. Tərəflər razılaşdılar ki, Naxçıvan ərazisi Azərbaycanın tərkibində qalmaq şərti ilə Naxçıvan SSR təşkil edilə bilər. Müqavilədə (III bənd) göstərildi ki, bu torpağı üçüncü dövlətə güzəştə getmək olmaz, əks təqdirdə onun hər hansı bir hissəsi Türkiyəyə güzəşt edilə bilər. Apreldə Türkiyə qoşunları Naxçıvanı tərk etdi. 1921-ci il oktyabrın 13-də Rusiyanın iştirakı ilə, bir tərəfdən Türkiyə, o biri tərəfdən Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları birlikdə (Moskva onların hər birinin ayrılıqda müqavilə bağlamasına icazə vermirdi) dostluq haqqında müqavilə imzaladılar. Xəritə çəkildi və orada Naxçıvanın ərazisi dəqiq göstərildi.

1921-ci ildə daşnaklar Ermənistanda qiyam qaldıranda Yapon adlı qiyamçının silahlı quldur dəstələri Noraşen dəmiryol stansiyasını tutmaq üçün hücum edib Sədərək, Yaycı, Cəfərli və Arpa kəndlərini ələ keçirmişdilər. Erməni quldurları dinc əhaliyə yenə də zülm edirdilər. Qatı düşmənə qarşı Abasqulu bəy Şadlinskinin rəhbərliyi ilə Qırmızı tabor qəhrəmanlıqla vuruşdu. Danzik ətrafında döyüşdə daşnak quldur dəstələri darmadağın edildilər.

Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Moskvanın təzyiqi ilə Azərbaycanın Borçalı ərazisi də Gürcüstana güzəştə gedildi. Eyni zamanda Bakını Azərbaycandan ayırıb Rusiyaya vermək planları da hazırlanırdı. Lakin bu hiylə baş tutmadı. 1929-cu ildə yenidən 13 min hektar Azərbaycan ərazisi – Nüvədi, Tutut və Ernazon kəndləri, habelə Naxçıvandan 9 kənd (582,9 des.), Qaymaqlı və Kürumuzlu arasındakı sahələr (228,9 hektar) Ermənistana verildi. 1938-ci ildə Ermənistanla Azərbaycan arasında sərhədi dəqiqləşdirmək bəhanəsi ilə «bərabərtərəfli» komissiya yaradıldı. Azərbaycan tərəfdən də komissiyaya erməni, torpaq komissarlığının sədri İsaxanyan rəhbərlik edirdi. Martın 5–7-də imzalanmış protokola əsasən Laçının Qaragöl yaylağı, Qubadlının Çayzəmi adlanan sahəsi, Qazağın Kəmərli kəndi və Kəlbəcərin Zod sahəsi Ermənistana verildi. Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 5-də bu protokolu təsdiq etdi. Lakin azərbaycanlılar müqavimət göstərir, öz torpaqlarını əldən vermirdilər.

Əhalisinin milli ruhu hələ də yüksək olan Azərbaycanı parçalamaq, onu ciddi problemlər qarşısında qoyub tam asılı vəziyyətində saxlamaq üçün Moskva yeni tədbirlər görürdü. Yuxarı Qarabağda milli münaqişə ocağı qızışdırıldı. Mərkəzdəki havadarlarına arxalanan Ermənistan hökuməti hələ 1921-ci ilin iyununda Azərbaycanın suveren hüquqlarını

kobudcasına pozaraq guya onun razılığı ilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında dekret verdi. Azərbaycanın razılığı haqqında fikrin ağ yalan olduğu AK(b)P MK siyasi və təşkilat bürolarının iclasında (1921-ci il 27 iyun) ifşa olundu. Erməni kəndliləri Yuxarı Qarabağın Azərbaycandan ayrılmasını istəmirdilər, ona görə ki, bu bölgə Azərbaycanla, ən əvvəl Aşağı Qarabağla iqtisadi cəhətdən sıx bağlı idi. Bunu Yuxarı Qarabağda 1923-cü ilin avqustunda keçirilmiş referendum da sübut etdi. Lakin Ermənistan hökumətinin, L.Mirzoyanın himayəsi ilə Yuxarı Qarabağdakı daşnak müəllimlərin təhrikçi hərəkətləri nəticəsində bu münaqişəli məsələnin RK(b)P MK-nın Qafqaz bürosunda prinsipcə həll olunması vacib bilindi. Qafbüronun 1921-ci il 5 iyul tarixli plenumu RK(b)P MK rəyini əsas tutaraq qərara aldı ki, müsəlmanlarla ermənilərin milli barışıq zəruriliyi, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələrinin vacibliyi nəzərə alınaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüquqlarında saxlanılsın, ona inzibati mərkəzi Şuşa şəhəri olmaqla geniş vilayət muxtariyyəti verilsin. (Bir gün əvvəl Qafbüronun iclasında səs çoxluğu ilə Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında qərar qəbul olunmuşdu. Nəriman Nərimanovun təkidi ilə bu məsələnin RK(b)P MK-nın qəti razılığı ilə həll olunması haqqında qərar qəbul edilir. Görünür, Moskva Qafbüronun 5 iyul plenumuna qədər qəti sözünü deyibmiş.)

Doğrudur, Azərbaycan rəhbərləri, xüsusən Aşağı Qarabağ rayonlarının nümayəndələri belə bir bölgüyə etirazlarına bildirdilər. Hətta AK(b)P MK siyasi və təşkilat bürolarının iclasında (1921-ci il sentyabr) qəbul edilən qətnamədə Qafbürodan Dağlıq Qarabağa geniş muxtariyyət verilməsi haqqında qərara yenidən baxılması xahiş edildi. Qafbüronun 1923-cü il 27–28 iyun plenumu isə əksinə, AK(b)P MK-ya az qala ultimatum şəklində bir ay müddətində Dağlıq Qarabağa muxtariyyət verilməsi işini başa çatdırmağı tapşırdı. Azərbaycan SSR MİK 1923-cü il iyulun 7-də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradılması haqqında dekret verdi. Qədim Xankəndi 1923-cü il 10 avqust tarixli fərmanla Stepanakert adlandırıldı (1991-ci il noyabrın 26-dək).

Naxçıvan Ölkə İnqilab Komitəsi 1921-ci il sentyabrın 10-da səlahiyyətlərini Naxçıvan MİK və XKS-yə verdi. Dövlət aparatının saxlanılmasının iqtisadi çətinlikləri ilə bağlı 1923-cü ilin əvvəllərində Naxçıvan Respublikasının respublika muxtariyyəti ləğv edildi, ona ölkə muxtariyyəti verildi. Naxçıvan Ölkə İcraiyyə Komitəsi yaradıldı.

1924-cü il fevralın 9-da isə Azərbaycan MİK Naxçıvan Ölkəsinin Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar SSR-ə çevrilməsi haqqında qərar qəbul etdi.

**Azərbaycanın RSFSR-ə və SSRİ-yə qatılması. Formal «müstəqilliyin» ləğvi**

Rusiya Azərbaycanda silah gücünə milli hökuməti devirib oyuncaq sovet respublikası yaratdıqdan sonra onu imperiyaya birləşdirmək planlarını məharətlə həyata keçirməyə başladı. Moskvanın təhriki ilə əvvəl Cənubi Qafqaz respublikaları öz dəmir yollarını (1922-ci il 14 aprel), xarici ticarət idarələrini (1922-ci il 2 iyun) birləşdirdilər. Hər şey elə quruldu ki, guya Cənubi Qafqaz xalqları siyasi ittifaq qurmağı arzu edirlər. RK(b)P Mərkəzi Komitəsinin Qafqaz bürosu (1921-ci il noyabrın 3-də bu respublikaların federativ ittifaqa girməsinə tərəfdar çıxdı və bu məsələ tez bir zamanda partiya təşkilatlarında sovetlərdə «müzakirə olundu» və «bəyənildi». Belə ittifaq yaratmaq vaxtının hələ yetişmədiyini bildirənləri (R.Axundovu, M.D.Hüseynovu və başqalarını) də bu yolun düzlüyünə «inandırdılar». Əvvəl bu respublikalar Zaqafqaziya Respublikaları Federativ İttifaqında (ZRFİ-də) birləşdirildilər. 1922-ci il martın 12-də Azərbaycan, Gürcüstan və Ermənistanın Mərkəzi İcraiyyə Komitələrinin səlahiyyətli konfransı bu respublikalar arasında ittifaq müqaviləsini təsdiq etdi. Hərbi işə, maliyyəyə, xarici ticarətə, yollara, rabitə vasitələrinə, əks-inqilabla mübarizəyə rəhbərlik edən İttifaq Soveti və iqtisadi siyasəti müəyyənləşdirən Ali İqtisadi Şura təşkil olundu. Tezliklə ZRFİ ZSFSR-ə – Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına çevrildi.

Cənubi Qafqaz sovetlərinin Bakıda keçirilmiş I qurultayında (1922-ci il 10–13 dekabr) ZSFSR-in Konstitusiyası qəbul edildi, ali orqan – Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi seçildi. MİK Rəyasət Heyətinin sədrləri – Azərbaycandan S.Ağamalıoğlu, Gürcüstandan M.Sxakaya və Ermənistandan S.Ambarsumyan seçildilər. MİK-in sessiyasında Zaqafqaziya Xalq Komissarları Soveti yaradıldı. Yerli xüsusiyyətlərlə daha çox bağı olan daxili işlər, maarif, səhiyyə, əkinçilik və başqa komissarlıqlar birləşdirilmədi. 1923-cü il yanvarın 10-dan ZSFSR vahid pul sisteminə keçdi, vahid büdcə tərtib olundu. Vahid büdcənin yaradılması iqtisadiyyatı zəif olan Ermənistanın və Gürcüstanın Azərbaycanın istismarı hesabına daha sürətli inkişafı üçün şərait yaratdı.

Sovet Rusiyasının rus dövlətini 1914-cü il sərhədləri daxilində bərpa etmək uğrunda növbəti addımı uzun illər boyu qılınc və qanla ələ keçirdiyi ərazilərdə 1917-ci ildən sonra meydana gəlmiş respublikala-

rın özünün hegemon olduğu vahid bir dövlətdə birləşdirməsi oldu. 1922-ci ilin avqust-sentyabr aylarında kommunistlərin təzyiqi ilə Azərbaycanda RSFSR-lə birləşmək «arzusunu» ifadə edən yığıncaqlar keçirildi. Avqust ayında Moskvada sovet respublikaları arasındakı münasibətlərin təşkili məsələsi üzrə müşavirə oldu. Respublikaların, o cümlədən Azərbaycanın nümayəndəliyi daxil olan xüsusi komissiya yaradıldı. Bu komissiya respublikaların muxtariyyət hüququ ilə RSFSR-ə daxil olması haqqında tezisləri qəbul etdi. Bu tezislərin müəllifi, demək olar ki, İ.V.Stalin idi. Lakin Lenin formal da olsa respublikaların «suverenliyinin və bərabərliyinin» saxlanılmasını vacib bildi.

Cənubi Qafqaz sovetlərinin I qurultayı federativ respublikanın Sovet Sosialist Respublikaları İttifaqına (SSRİ-yə) daxil olmasına tərəfdar çıxdı.

1922-ci il dekabrın 30-da Moskvada SSRİ Sovetlərinin I qurultayında RSFSR, Ukrayna SSR, ZSFSR və Belarusiya SSR SSR İttifaqında «könüllü surətdə» birləşdilər. Nəriman Nərimanov SSRİ Mərkəzi İcraiyyə Komitəsi sədrlərindən (dörd sədrdən) biri seçilib Azərbaycandan daha da uzaqlaşdırıldı.

## § 3. Müqavimət hərəkatı

**Hərəkatın təşkili. Xalq üsyanları**

«Müsavat» partiyası çox ağır bir şəraitdə yaşayır və mübarizəsini davam etdirirdi. Hələ 1920-ci il aprelin 27-də axşam Bakıda (Cəfər Cabbarlının dağlı məhəlləsindəki evində) M.Ə.Rəsulzadənin təşəbbüsü ilə istilaçılara qarşı mübarizə aparmaq üçün gizli Müqavimət Komitəsi təşkil olunmuşdu. Komitənin sədri M.Ə.Rəsulzadənin yaxın silahdaşı M.B.Məmmədzadə, baş katibi isə Cəfər Cabbarlı idi. Səhəri gün «Müsavat» partiyasının fövqəladə konfransı keçirildi. Bu konfransın Azərbaycan İnqilab Komitəsinə göndərilmiş qərarında deyilirdi ki, əgər bolşeviklər verdikləri vədlərə sadiq qalsalar, respublikanın müstəqilliyini qoruyub saxlasalar «Müsavat» partiyası onlara qarşı loyal olacaq, əks-təqdirdə isə müxalifətə keçəcəkdir.

Bakıda və qəzalarda, müəssisələrdə və orduda gizli siyasi iş aparılırdı. Bakıda (MK-nın lap yaxınlığında) gizli siyasi mətbəə təşkil edilmiş, qeyri-leqal «İstiqlal» qəzetinin 19 sayı çap olunub yayılmışdı. Burada çap olunan bülletenlər xalqı istilaya, bolşevik avantürasına qarşı

birləşib mübarizəyə qalxmağa çağırırdı. Fəaliyyət göstərən gizli ali siyasi məktəbdə, kurslarda istiqlal məfkurəsi təlim olunurdu.

«Müsavat» partiyasının gizli komitəsinin fəal siyasi işinin nəticəsi idi ki, respublikanın, demək olar ki, bütün dövlət müəssisələrində, komissarlıqlarda, ali məktəblərdə, rabfaklarda, hətta komsomol təşkilatlarında, kommunist partiya məktəblərində belə, daxilən mövcud rejimə müxalif olanlar, milli istiqlal arzulayanlar çoxluq təşkil edirdilər. Müsavatçılar çarizm dövründə istifadə etdikləri gizli sistemi bərpa etmişdilər. Tələbələr və məktəblilər, fəhlələr və kəndlilər arasında təbliğat işi aparılırdı. Ordu hissələrində də gizli müsavat təşkilatları fəaliyyət göstərirdi. Açıq təbliğat vasitələrindən, klub və kitabxanalardan da istifadə edilirdi. Gizli təşkilatlar kiçik qruplar şəklində fəaliyyət göstərirdi. Ən güclü təşkilatlar Bakıda və Qarabağda idi. Gəncədə, Qazaxda və başqa şəhərlərdəki təşkilatlar da fəal iş görürdülər.

«İttihad» partiyası üzvlərinin bir qrupu «Vətən və ya ölüm» təşkilatı yaratmışdılar. Eser və menşeviklər də siyasi mübarizənin müxtəlif formalarından istifadə edirdilər.

28 aprel çevrilişindən sonra Tiflisə getmiş Fətəli xan Xoyskinin başçılığı ilə bir qrup siyasi xadim burada Azərbaycan Qurtuluş Komitəsi təşkil etmişdi. İstilaçı rus ordusuna, yeni rejimə qarşı ilk üsyanların təşkilində, müqavimət hərəkatında onun da rolu olmuşdur.

Yadelli işğalçılara qarşı tez-tez silahlı üsyanlar baş verirdi. Əvvəllər üsyançıları əsasən milli ordunun döyüşçüləri təşkil edirdi. 1920-ci il mayın 23-də Cavanşir qəzasında Nuxa süvari alayı rus hərbi hissəsinə qarşı hücuma keçib düşmən əsgərlərini tərk-silah etmişdi. İstilaçılara qarşı ən böyük üsyan Gəncədə oldu. Üsyanın başlanmasına bəhanə burada Azərbaycan Ordusu diviziyası (3-cü atıcı alay, 3-cü Nuxa süvari alayı və diviziya qərargahının komendant dəstəsi – cəmi 1800 nəfər) komanda heyətinin XI Ordu qərargahından göndərilmiş zabitlərlə əvəz edilməsi oldu. Şəhərin komendantı Məhəmməd Mirzə Qacar vəzifəsindən götürüldü. Bu, Gəncədə və onun qərbindəki Nüzgar kəndi yaxınlığında toplanmış yeni hökuməti tanımayan Azərbaycan Ordusu hissələrində narazılığı daha da artırdı. Şəhərin erməni əhalisi yaşayan hissəsində rus ordusunun iki polku, bir qədər cənubda – Zurnabad kəndi yaxınlığında süvari briqadası, atlı batareyası, 8 pulemyotdan ibarət hərbi hissəsi, habelə 6–7 km kənarda iki topdan ibarət batareyası vardı. Üsyan hazırlığından xəbər tutan yeni komendantın əmri ilə mayın 25-dən 26-a keçən gecə Azərbaycan Ordusu əsgərləri postlardan

götürüldü, diviziya kazarmaları mühasirəyə alındı. Podpolkovnik Cahangir bəy Kazımbəyovun başçılığı ilə 3-cü atıcı alay üsyana qalxıb döyüşlə mühasirəni ləğv etdi. Azərbaycan döyüşçüləri şəhərin müsəlman əhalisi yaşayan hissəsində yerləşən XI Ordu hissəsini tərk-silah edib onun şəxsi heyətini (600 nəfərə qədər) həbsə aldılar.

Üsyan etmiş orduya Gəncənin və ətraf kəndlərin müsəlman əhalisi də qoşulmuşdu. Üsyançıların ümumi sayı 10 min nəfərdən çox idi. Şəhərin ermənilər yaşayan hissəsini tutmaq mümkün olmadı. Ermənilər hərbi dəstələr təşkil edib ruslara kömək göstərirdilər.

Mayın 26-da üsyana rəhbərlik etmək üçün general Cavad bəy Şıxlinskinin, Məhəmməd Mirzə Qacarın, Cahangir bəy Kazımbəyovun və başqalarının iştirakı ilə hərbi şura yaradıldı. Şəhərin müsəlmanlar yaşayan hissəsi bir həftə üsyançıların əlində qaldı. Onlar mayın 26-da axşama yaxın dəmiryol stansiyasını tutdular. Bakının Qazaxla əlaqəsi kəsildi. Lakin bu uzun sürmədi. Qazaxdan göndərilən zirehli qatarın köməyi ilə düşmən yenidən dəmiryol stansiyasını ələ keçirdi. Mayın 27-də sayca üstün olan rus ordu hissələri – süvari briqada cənub-qərbdən, polk isə şimali-qərbdən şəhərin müsəlman əhalisi yaşayan hissəsini mühasirəyə aldı. Şəhərin mühasirəsinə mane olmağa çalışan yaxın kəndlərin əhalisi itkilər versə də üsyançılarla əlaqə yarada bilmədilər. Azərbaycan Ordusunun əsgərləri şimalda – dəmiryol istiqamətində mühasirəni yarmağa çalışdılar. XI Ordunun süvari polku artilleriya və Bakıdan göndərilmiş zirehli qatarın köməyi ilə bu hücumu dəf etdi.

Azərbaycan İnqilab Komitəsi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin göstərişi ilə mayın 27-də geniş səlahiyyətlərə malik Azərbaycan Fəhlə-Kəndli Müdafiə Şurası təşkil etdi. İnqilab Komitəsinin və XI Ordu hərbi şurasının əmri ilə mayın 28-də üsyançılara qarşı Gəncəyə yeni hərbi hissələr – 18-ci süvari diviziya, polk, divizion və 4 zirehli qatar gətirildi. Şəhər atəşə tutuldu. Dağıntılar törəndi. Sursat anbarı partladıldı. Düşmən ordusu səhəri gün hücuma keçib şəhərin müsəlmanlar yaşayan məhəllələrinə soxuldu. Küçə döyüşləri başlandı. Azərbaycan əsgərləri, üsyançı xalq qəhrəmanlıqla vuruşur, müdafiə olunurdu. Qalib gələ bilmədiyini görən düşmən mayın 30-da şəhərə daha iki yeni polk, yüngül artilleriya divizionu, dağ batareyası və avtozirehli divizion gətirdi. Döyüşlərdə düşmənin artıq 5 atıcı, 6 süvari polku, 7 əlahiddə hərbi hissəsi və dəstəsi, 57 topu, 2 zirehli maşını, bir neçə zirehli qatarı iştirak edirdi. Üsyançılar isə, demək olar ki, əliyalın idilər. XI Ordu mayın 31-də artilleriyanın kö-

məyi ilə şəhərin şimalında qəti hücuma başladı. Azərbaycan əsgərləri və əhali qəhrəmancasına müdafiə olunurdu. Lakin düşmən topları şəhəri xarabazara çevirmişdi. Şəhərin erməni əhalisi həmişə olduğu kimi, satqınlıq edərək arxadan zərbələr vurmağa başladı. Axşam şəhər düşmənin əlinə keçdi. Azərbaycan ordusunun yalnız kiçik bir hissəsi mühasirəni yarıb dağlara çəkilə bildi. Yadelli işğalçılara qarşı üsyanda minlərlə vətənpərvər, o cümlədən qadın, qoca, uşaq, habelə Azərbaycanın görkəmli alimi Firidun bəy Köçərli şəhid oldular. Ələ keçmiş üsyançılara divan tutuldu. Bu işdə daxili işlər komissarı, habelə inqilab komitəsinin Gəncə üzrə fövqəladə komissarı Həmid Sultanov xüsusi qəddarlığı ilə fərqləndi. Ümumiyyətlə, Gəncə üsyanı və sonrakı «təmizləmə» vaxtı 13 min nəfərdən çox vətənpərvər şəhid oldu. Düşmən də xeyli (8500 nəfərdən çox) itki vermişdi. Yerli düşmənlər – ermənilər də rus əsgərləri ilə birlikdə qan içində inləyən şəhəri 3 gün qarət etdilər. Lakin bunlar xalqın azadlığı uğrunda mübarizə ruhunu qıra bilmədi.

Qarabağ bölgələrinə Azərbaycan Ordusunun Nuxa, Cavanşir, Ağdam, Tərtər süvari alayları, habelə Bakı piyada alayı və iki topçu divizionu (6 minə qədər əsgər və zabit) nəzarət edirdi. Qırmızı Ordunun iki diviziyasına bu milli ordu hissələrini tərk-silah etmək tapşırılmışdı. İyunun 5-də Tərtərdə, Ağdamda və Şuşada istilaçılara qarşı üsyanlar baş verdi. Tərtər üsyançıları rus ordusunun bir alayını darmadağın etdilər. Ağdamda da ruslar böyük tələfat verdilər. Yuxarı Qarabağda daşnaklar rus ordu hissələri ilə əlbir hərəkət edirdilər. Onlar vəziyyətdən istifadə edib əzəli Azərbaycan torpağı olan Qarabağı ələ keçirmək istəyirdilər. Şuşa əhalisini üsyana qaldıran səbəblərdən biri də bu idi.

Bu zaman Qafqazda və Cənubi Qafqazda Qırmızı imperiyaya qarşı mübarizə aparan qüvvələri birləşdirməyə cəhdlər göstərilirdi. Dağıstandan bir qrup türk zabiti və əsgəri general Nuru paşanın rəhbərliyi ilə Şuşaya üsyan etmiş xalqa köməyə gəldi. Üsyançılar Qarabağda sovet hökumətini devirib Qarabağ inqilab komitəsi üzvlərini həbs etdilər. Nuru paşa Qarabağın hakimi elan olundu. Bərdə əhalisi də üsyana qoşuldu. Lakin XI Ordunun əlavə kömək almış hissələri ermənilərin yaxından iştirakı ilə azadlıq uğrunda mübarizəyə qalxmış əliyalın əhalini qırmağa başladı.

İyunun 10-da rus hərbi təyyarələri Tərtərdə Azərbaycan Ordusu mövqelərini atəşə tutdu. Azərbaycan Ordusu igidliklə vuruşsa da, qeyri-bərabər döyüşdə geri çəkilməyə məcbur oldu. Qırmızı Ordu Tərtəri ələ keçirdi. Əhaliyə divan tutuldu, bir neçə kənd yerlə yeksan edildi.

Bərdədə və Ağdamda xalqa divan tutan istilaçı ordu iyunun 15-də Şuşanı da ələ keçirdi. Azərbaycan Ordusunun hissələri, Nuru paşa Qaryagin və Cəbrayıl istiqamətində geri çəkilib ölkəni tərk etdilər.

İyunun əvvəllərində Zaqatala, Nuxa, Göyçay, Quba və başqa bölgələrdə də xalq üsyanları baş vermişdi.

Zaqatalanın Tala kəndində üsyana başlayan silahlı kəndlilər iyunun 5-də rus qarnizonunu məğlub edib Zaqatalaya daxil oldular. Şəhər qalası ələ keçirildi. Milli ordunun bu bölgədə olan süvari alayı da kəndlilərə qoşuldu. Birləşmiş qüvvələrə Əhmədiyev və Nafiz Əfəndi rəhbərlik edirdilər. İyunun 7-də üsyançılar hücumla Qaxı da azad etdilər. Qum çayı sahilindəki döyüşdə rus ordu hissələri məğlub edildi. Üsyanı yatırmaq üçün iyunun 16-da Qarabağda olan rus ordu hissələri Zaqatalaya doğru yeridildi. Qax ətrafında baş vermiş qeyri-bərabər döyüşdə üsyançılar məğlub oldular. Düşmən iyunun 18-də yenidən Zaqatalanı ələ keçirdi. Üsyançıların əksəriyyəti Gürcüstana çəkildilər.

1920-ci ilin yayında Şəmkir qəzasının Müşküllü kəndi ətrafında silahlı kəndli dəstələri təşkil olunmuşdu. Qırmızı Ordu hissələri ilə döyüşlərdə üsyançılar, hətta qadın və uşaqlar da qəhrəmanlıq göstərirdilər. Döyüşdə 29 kişi, 49 qadın şəhid olmuşdu. Düşmən say çoxluğundan istifadə edib üsyançı dəstəni dağıda bildi. Payızda Şəmkir kəndlilərinin üsyanına Namaz adlı bir kəndli rəhbərlik edirdi. 500 nəfər döyüşçüsü olan üsyançı dəstə düşmən ordusunun bir hissəsini məhv etmiş, qəzanın böyük bir hissəsini öz nəzarəti altına almışdı. Üsyançılara qarşı Qırmızı ordunun 4 diviziyası göndərildi. Üsyan yatırıldı. Düşmən bir neçə kəndin əhalisini məhv etdi, evləri yandırıb, külünü göyə sovurdu.

Cavanşir qəzasında Sultan bəyin başçılığı ilə silahlı kəndli dəstəsi mübarizə aparırdı. Qəza inqilab komitəsi sədri Adil Sultanov və azərbaycanlılardan ibarət hərbi hissələr də üsyançılara qoşulmuşdular. Qubada və Lənkəranda da üsyanlar baş vermişdi. 1920-ci ildə qaçaqlar Kürdən Astarayadək bütün Xəzərsahili ovalıqları əldə saxlayırdılar. Yayda Kamal Paşanın rəhbərlik etdiyi silahlı kəndlilər rus ordusunun 200 nəfərlik atlı dəstəsini darmadağın etdilər. Bolşeviklərə, onlara yarınan satqınlara divan tutdular. Rus ordusu bu dəstəni çox çətinliklə, yalnız yarım il mübarizədən sonra dağıda bildi. 1921-ci ilin yanvarında təqib olunan üsyançılar sərhədi keçib İrana çəkildilər. Onları təqib edən rus əsgərləri Ərdəbil şəhərinədək getdilər. Kamal Paşa döyüşdə həlak oldu.

Xalqın fəal müqaviməti, üsyanlar yeni hökuməti qorxutmuşdu. Moskva Azərbaycanı itirəcəyindən ehtiyat edirdi. Heç olmazsa Abşeronu, neft Bakısını əldə saxlamaq üçün Qırmızı Ordu komandanı 1920-ci il iyunun 2-də hər ehtimala qarşı şəhər ətrafında möhkəmləndirilmiş müdafiə xətti yaradılması haqqında tapşırıq vermişdi. Həmin ilin noyabrında Azərbaycana daha 7 divizion gətirilmişdi. Yalnız ordunun gücü, qorxu ilə xalqı itaətdə saxlamaq mümkün idi. Təkcə 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda 48 min adam, əsasən ziyalılar qırmızı terrorun qurbanı oldular.

Yadellilərə, yeni rejimə qarşı mübarizə ideoloji pərdə altında gedirdi. Ağdamda, Nuxada, Göyçayda islamı müdafiə bayrağı altında Hüseyn Əfəndinin başçılığı ilə xüsusi təşkilat – «Azərbaycan Milli-Müdafieyi İslam Firqəsi» fəaliyyət göstərirdi. Sovet hakimiyyətinə qarşı mübarizə aparan bu təşkilat 1921-ci ilin ortalarında aşkar olunub məhv edilmişdi. Lənkəran qəzasında Şahverdinin başçılığı ilə vətənpərvərlər yadelli işğalçıların qurduğu müstəmləkə rejiminə, Sovet hökumətinə qarşı inadla mübarizə aparırdılar. 1921-ci ilin yanvar-fevral aylarında Naxçıvan ölkəsində də yeni quruluşa qarşı çıxışlar baş vermişdi. Həmin ilin payızında Zəngəzurda X.Sultanovun başçılığı ilə üsyan qalxmışdı.

Regionda öz mövqelərini möhkəmləndirməyə çalışan ruslar burada milli münaqişə ocaqlarını daim közərdirdilər. Onlar gizlicə erməni daşnaklarını silahlandırır, onların Azərbaycan ərazisinə iddialarını qızışdırırdılar. 1921-ci ildə Yuxarı Qarabağda keçmiş çar zabiti daşnak Tevon Stepanyanın və Zəngəzurda Njdenin rəhbərliyi ilə törədilən erməni azğınlıqlarının əsl mahiyyəti bundan ibarət idi.

1922-ci ilin avqustunda və 1923-cü ilin oktyabrında Qubadlı qəzasında ruhanilərin başçılığı ilə xalq üsyana qalxmış, sovet hakimiyyətinə qarşı cihad (müqəddəs müharibə) elan etmişdi. 1923-cü ilin fevralında Kürdəmir və Göyçay bölgələrində, 1924-cü ildə Gülmalı xanın başçılığı ilə Qarabağda və Zəngəzurda sovet hökumətinə qarşı üsyan etmiş xalq silahlı partizan dəstələri yaradaraq mübarizəni davam etdirirdi.

Ümumiyyətlə, 1920–1924-cü illərdə istilaçı rus ordusuna, bolşevik rejiminə qarşı 54 silahlı üsyan baş vermişdi. Lakin qüvvələr qeyri-bərabər olduğundan xalq azadlıq uğrunda nə qədər cəsarət və fədakarlıqla mübarizə aparsa da, qalib gələ bilmədi. Üsyanlar, çıxışlar yatırıldıqdan sonra ələ keçən vətənpərvərlərə divan tutulur, onlar güllələnir, qohum-əqrəbaları həbs edilir, şəhərlər və kəndlər qarət olunurdu.

Bolşevik rejiminə qarşı mübarizənin başqa forması müəssisələrdə, ilk növbədə neft sənayesi müəssisələrində sabotaj, tətillər təşkil edilməsi idi. 1921-ci ilin əvvəllərində Balaxanı mədənlərində fəhlələr tətil etmişdilər. Bakıda «Yanar Ürək» adlı diversiya qrupu fəaliyyət göstərirdi. Bu qrup 1921-ci ilin yayında Sabunçu mədənlərində böyük yanğın törətmişdi. 1922-ci ilin aprelində Suraxanı mədənlərində eserlərin törətdiyi yanğın sovet hökumətinə böyük iqtisadi ziyan vurmuşdu.

1923-cü ilin sentyabrında Müsavatın gizli mətbəəsi təsadüfən aşkar olundu. Yenidən həbslər başlandı. Ələ keçənlərin ən fəallarını şimala – Ağ dənizdə Solovki adalarındakı sovet ölüm düşərgələrinə sürgün etdilər. Gənc müsavatçılar 14 avqust bəyannaməsi ilə çıxış edib siyasi fəaliyyəti dayandırdıqlarını bildirdilər. Onlar arasında C.Cabbarlı, S.Hüseyn də vardı.

Müsavatın üzvləri Azərbaycanda, hətta Azərbaycan Kommunist Partiyası daxilində də öz gizli fəaliyyətlərini davam etdirirdilər. Yeni İqtisadi Siyasətin dayandırılması, iqtisadi və siyasi rəhbərlikdə daha qəddar inzibati-amirlik metodlarına keçilməsinin cəmiyyətdə doğurduğu narazılıq 1925–1928-ci illərdə yenidən minlərlə adamın həbs edilib zindanlara salınmasına səbəb oldu. 1928-ci ilin sentyabrında Mirzoyanın Bakı partiya təşkilatının iclasındakı təhrikçi çıxışından sonra vətənpərvərlər «müsavatçı» adı ilə kommunist partiyasından, müəssisələrdən, xüsusən ordudan, məktəblərdən müxtəlif bəhanələrlə qovuldular və həbs edilib sürgün olundular.

**Siyasi mühacirətin fəaliyyəti**

Siyasi mühacirlər xaricdə fəal siyasi iş görürdülər. Əlimərdan bəy Topçubaşov Azərbaycanın Rusiya tərəfindən istila edilməsinin, azadlıq uğrunda mübarizlərə divan tutulmasının qeyri-qanuniliyi haqqında beynəlxalq təşkilatlarda, xüsusən Millətlər Cəmiyyətində (1920-ci il noyabr), London, Genuya (1922-ci il), Lozanna (1923-cü il) konfranslarında ifşaedici çıxışlar edərək bolşevizmin yırtıcı mahiyyətini açıb göstərmişdi.

Gizli fəaliyyətdə olan M.Ə.Rəsulzadə konspirasiya məqsədilə Lahıcda gizlənərkən XI Ordunun xüsusi şöbəsi tərəfindən 1920-ci ilin oktyabr ayında həbs olunub Bakıya gətirilmişdi. O, RSFSR-in Millətlər komissarı, keçmiş həmkarı Stalin tərəfindən azad edilib Moskvaya aparılmış, bir müddət burada Millətlər komissarlığının mətbuat müvəkkili işləmiş və Şərqşünaslıq institutunda dərs demişdi. Müsavat gizli Mərkəzi Komitəsinin təşəbbüsü ilə o, 1922-ci ildə elmi-tədqiqat işi aparmaq adı ilə Leninqrada getmiş və oradan tatar maarifçisi M.Bağı-

yevin köməyi ilə Finlandiyaya keçmişdi. Sonra Almaniya və Fransaya, oradan isə Türkiyəyə gedən M.Ə.Rəsulzadə 1922-ci ildə İstanbul şəhərində «Müsavat» partiyasının xarici bürosunu təşkil edir və siyasi mübarizəsini davam etdirir. Azərbaycanda gizli fəaliyyət göstərən M.B.Məmmədzadə isə 1924-cü ildə xaricə – əvvəl İrana, sonra isə Türkiyəyə mühacirət etdi.

İstiqlal mübarizəsini davam etdirmək üçün 1924-cü ildə İstanbulda Azərbaycan Milli Mühacirət Mərkəzi təşkil edilmişdi. O, Gürcüstan və Şimali Qafqaz Siyasi mühacirlərinin təşkil etdikləri mühacirət mərkəzləri ilə əlaqədə fəaliyyət göstərirdi. Bu mərkəzlər birləşib «Üçlər şurası» adlı vahid mübarizə təşkilatı yaratmışdılar. 1924-cü il iyunun 21-də Parisdə bu mərkəzlər Qafqazda bolşevizmə qarşı əlbir mübarizə aparmaq üçün «dördlər şurası» təsis etdilər. Əməkdaşlıq, hərbi ittifaq, mübahisələri tənzimləmək üçün arbitraj yaradılması haqqında Bəyannamə qəbul etdilər. Bolşevizm üzərində qələbədən sonra Qafqaz konfederasiyası yaradılması fikri ilə razılaşmayan daşnaklar 1924-cü ildə «Dördlər şurası»nı tərk etdilər. Azərbaycan, Gürcüstan və Şimali Qafqaz mərkəzləri Vahid İstiqlal Təşkilatı yaratdılar. Ukrayna mərkəzi də onlara qoşuldu. 1925-ci ilin iyununda Parisdə bu dörd mərkəzin bolşevizmə qarşı, istiqlal uğrunda mübarizə aparmaq barədə bəyannaməsi imzalandı.

Xaricdəki mühacirət mərkəzi, siyasi mühacirlər beynəlxalq ictimaiyyət qarşısında Sovet Rusiyasının qəsbkar planlarını və əməllərini ifşa edirdilər. Azərbaycan, Gürcüstan və Şimali Qafqaz milli mühacir mərkəzlərinin nümayəndələri Cenevrəyə, Millətlər Cəmiyyətinin VII məclisinə Qafqaz problemləri barədə» memorandum göndərərək (1925-ci il 5 sentyabr) Rusiyanın Hind okeanına çıxmaq, İstanbulu ələ keçirib Qara dənizi öz daxili gölünə çevirmək və bunun üçün III Komintern xətti ilə dövlətləri sinfi mübarizəni alovlandırmaqla içəridən dağıtmaq siyasəti yeritdiyini açıqladılar. Onlar Kiçik və Ön Asiyaya çıxmağa çalışan bolşevizmin yolunu bağlamaq üçün Millətlər Cəmiyyətinin himayəsi altında Qafqazda müstəqil konfederativ dövlət yaradılmasını təklif etdilər.

İstanbulda M.Ə.Rəsulzadənin rəhbərliyi altında «Müsavat» partiyasının xarici bürosu da Azərbaycanın istiqlalı uğrunda fəal siyasi iş görürdü. 1923-cü ilin sentyabrından «Yeni Qafqasiya» məcmuəsinin nəşrinə başlanmışdı. Həmin il İstanbulda M.Ə.Rəsulzadənin «Azərbaycan Cümhuriyyəti, keyfiyyəti, təşəkkülü, indiki vəziyyəti» adlı

əsəri çap olundu. Kitab, demək olar ki, bütün Avropada geniş yayıldı və dərin əks-səda doğurdu. Rəsulzadə bolşevizmi, onun Azərbaycandakı siyasətini ifşa edir, peyğəmbərcəsinə yazırdı: Kommunizm süquta məhkumdur. Kommunizm süquta məhkum olduğu kimi süni vasitələrlə mərkəzi idarəçilik yaratmaq istəyən Moskva sistemi də (yəni SSRİ – *red.*) məhkumi-zəvaldır. Müdhiş bir terrorist olan bu firqə (Kommunist partiyası – *red.*) üçün... mötədil bir hökuməti ərsiyyə şəklinə gətirmək ruhiyyat nöqteyi-nəzərindəni qeyri-mümkündür. Üsyan və qanla sərkərə gələn bir qüvvət üsyan və qanla da gedəcək. Bu gün bu üsyanı yapan müntəzəm bir qüvvət yoxsa da, sabah o qüvvət, kommunizmin kəndi vücudə gətirdiyi təşkilat hüceyrəsindən olsa da, doğulacaqdır».

Siyasi mühacirlərin xaricdə, xüsusən Türkiyədə fəaliyyəti sovet imperiyasını çox narahat edirdi. O, siyasi vasitələrlə 1927-ci ildə «Yeni Qafqasiya» məcmuəsinin bağlanmasına nail olur. Lakin mühacirlər 1928-ci ildə «Azəri Türk», o bağlandıqdan sonra isə 1929–1931-ci illərdə «Odlu yurd» məcmuəsini və «Bildiriş» qəzetini nəşr etdirirlər. Sovet imperiyası siyasi şantajla Türkiyədə siyasi mühacirətin fəaliyyətinin tam dayandırılmasına nail olur. Hətta SSRİ Hökuməti Türkiyəyə sığınan yüzlərlə azərbaycanlını geri qaytarmağı tələb edir, bu adamların çoxu elə sərhəddəcə ruslar tərəfindən güllələnirdilər. Lakin siyasi mühacirlər öz fəaliyyətlərini dayandırmadılar. 1932–1934-cü illərdə Berlində «İstiqlal» qəzeti, 1934–1938-ci illərdə isə «Qurtuluş» məcmuəsi nəşr olundu. «Qurtuluş»un almanca əlavəsi də çıxırdı. Fransız dilində «Azərbaycan» qəzeti, türkcə «Müsavat» bülleteni buraxılırdı. Azərbayan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün «Prometey» birliyinin orqanı olan fransız dilində çıxan «Prometey» məcmuəsindən də istifadə olunurdu.

Azərbaycanda baş verən hadisələr diqqətlə izlənilir, onların həqiqi mahiyyəti açılıb göstərilirdi. 1930-cu il mayın 9-da Ə.Topçubaşov Millətlər Cəmiyyətinə nota göndərərək Azərbaycanda kollektivləşdirmənin qeyri-humanist, zorakı yollarla aparıldığını, hərb cəza dəstələri tərəfindən kəndlilərə divan tutulduğunu göstərmiş və dünya ictimaiyyətini sovet imperiyasında baş verən bu hadisələrə etiraz səsini ucaltmağa çağırmışdı.

Lakin onu da qeyd etmək lazımdır ki, xaricdəki Azərbaycan mühacir mərkəzlərinin, bəzi siyasi xadimlərin arasındakı lüzumsuz çəkişmələr ümumi işə, şübhəsiz, mənfi təsir göstərirdi.

Xaricdəki mühacir mərkəzləri Azərbaycanda gizli fəaliyyət göstərən təşkilatlarla əlaqə saxlayırdılar. İrandakı mühacir təşkilatı ilə Lən-

kərandakı gizli təşkilat arasında əlaqələr daha sıx idi. 1927-ci ildə Müsavat təşkilatının Lənkəran qəza və Masallı rayon komitələri dağıdıldı və üzvlərinin çoxu həbs edildi. Lakin azadlıqda qalan üzvlər təşkilatı yenidən bərpa etdilər. Onlar xaricdəki mühacir təşkilatın köməyi ilə təbliğat işi aparır, regiondakı silahlı gizli qruplarla əlaqə saxlayır, xalqı bolşevik rejiminə qarşı üsyana hazırlamağa çalışırdılar.

Bolşeviklər «zəif, cahil, anarxizmə meyilli rus xalqını Avropanın xilaskarı, dünyanın mənəvi rəhbəri olmağa çağırırdı». (Maksim Qorki) Şərq müstəmləkələrini Avropaya qarşı qaldırmaq bunun mühüm vasitəsi hesab edilirdi. Moskva dünyanın bu hissəsini öz nüfuz dairəsinə salmaq üçün orada inqilabi prosesləri canlandırmaq işində təbii, iqtisadi və mənəvi potensialının cüzi bir hissəsi ilə tezliklə seçilən və cəlbedici ölkəyə çevrilə biləcək Azərbaycanı «Şərqin qapısı» kimi qiymətləndirir, ona xüsusi yer verirdi. Şərq xalqlarının I qurultayının (1920-ci il 1–7 sentyabr), Şərq gəncləri qurultayının (1920-ci il 9–10 sentyabr) Bakıda keçirilməsi heç də təsadüfi deyildi. Şərq xalqları arasında inqilabi təbliğat işi aparmaq və milli-azadlıq hərəkatlarını idarə etmək məqsədilə xüsusi şuralar da təsis edilmişdi. Lakin şərq xalqları sovet Azərbaycanındakı iqtisadi və mədəni tərəqqinin bitərəfliliyini, bunun müstəmləkə rejiminin möhkəmlənməsinə xidmət etdiyini görürdülər. Bu işdə Azərbaycan siyasi mühacirətinin də az rolu olmadı.

**Milli təmayülçülük cəhdləri**

Moskvanın yerli xristian rəhbər işçilərə və fəhlələrə arxalanaraq Azərbaycanı Rusiyanın əsl müstəmləkəsinə çevirmək, onun sərvətlərini daha intensiv qarət etmək, geosiyasi mövqeyindən bəhrələnmək, milli kadrların, milli fəhlələrin inkişafını açıqca ləngitmək siyasətinə qarşı artıq yerli kommunistlər arasında belə narazılıqlar artırdı. Hətta «beyinləri millətçilikdən dumanlanan kommunistlər» 1922-ci ildə burada çevriliş edib burjua-demokratik respublikası qurmağı planlaşdırmışdılar. «Müsavat» partiyasının xaricdəki bürosu Azərbaycanda Kommunist Partiyasında olan milli təmayülçülərlə əlaqə saxlamağı, hətta N.Nərimanovu da milli istiqlal uğrunda birgə fəaliyyətə cəlb etməyi yerli təşkilata məsləhət görmüşdü. Milli təmayülçülər iqtisadi inkişaf planlarının məmləkətin iqtisadi müstəqilliyini boğmağa istiqamətləndirilməsini, respublikada toplanan vergilərin yerli xalqın ehtiyaclarına sərf edilməsini, Azərbaycana rusların köçürülməsi siyasətinə son qoyulmasını tələb edirdilər. Əvvəllər özünü N.Nərimanova və onun tərəfdarlarına qarşı barışmaz mübariz kimi göstərən, S.Orconikidze və Mirzoyanın köməyi ilə Azərbaycan

Kommunist Partiyası Mərkəzi Komitəsi katibi vəzifəsinə qalxan Əyyub Xanbudaqov 1924-cü ildə Azərbaycanda partiya və sovet işlərinə Moskvanın hədsiz müdaxiləsinə, respublikanın simasızlaşdırılmasına, buraya rusların köçürülməsinə qarşı açıq çıxış etdi. O bildirdi ki, Azərbaycanın iqtisadi və mədəni geriliyini aradan qaldırmaq üçün heç bir iş görülmür, Xanbudaqov milli fəhlə kadrları hazırlanmasını və başqa millətlərdən olan fəhlələrin tezliklə bu kadrlarla əvəz olunmasını tələb edirdi. O, milli rəhbər kadrları Kirova və Mirzoyana, ümumiyyətlə, başqa millətlərdən olan rəhbər kadrlara qarşı qaldırmaq üçün gizli əməli iş aparırdı. O, bir neçə dəfə cəhd göstərsə də hadisələri və qüvvələri daha real qiymətləndirən N.Nərimanovu bu işə cəlb etməyə müvəffəq olmadı. 1924-cü ildə XIII Ümumbakı partiya konfransında və Azərbaycan Kommunist Partiyasının VI qurultayında (1924-cü il, may) Xanbudaqov və onun tərəfdarları ciddi tənqid olundular, rəhbər işlərdən uzaqlaşdırıldılar, partiyadan qovuldular. Komsomolçuların 40 faizi milli təmayülçülükdə təqsirləndirilib təşkilatdan çıxarıldılar.

## § 4. Sosializmin iqtisadi əsaslarının qurulması

**Yeni İqtisadi Siyasətdən iqtisadi diktaturaya. Birtərəfli sənayeləşdirmə və zorakı kolxozlaşdırma**

Sovet Rusiyası çar hökuməti zamanı ələ keçirilmiş torpaqların əksəriyyətini sovet imperiyasında birləşdirdikdən sonra xalqların, xüsusən milli ucqarlarda yaşayan əhalinin böyük məhrumiyyətlərə düçar edilməsi, istismarın və qarətin gücləndirilməsi sayəsində hərbi potensialını artırmaq, cəlbedici kommunist şüarları ilə kapitalizm üzərinə hücuma keçmək, ölkələrdə «sosialist inqilabı» törətməklə dünya ağalığına nail olmaq planlarını tədricən reallaşdırmağa başladı. Hərbi qüdrəti yarıdağılmış belə bir ölkədə qısa müddətdə sürətlə artırmaq üçün güclü iqtisadiyyat və polad inzibati intizam, bütün bunlar üçün isə daha amansız diktatura qurulmalı idi. Lakin Yeni İqtisadi Siyasətin yaratdığı istehsal münasibətləri iqtisadi və siyasi diktaturanı inkar edirdi. Bununla yanaşı, partiyada liderlik uğrunda Stalin, Trotski, Zinovyev və Kamenyev arasında kəskin mübarizə gedirdi. Mütləq hakim olmağa can atan Stalin mövqeyindən istifadə edib siyasi rəqiblərini bir-birinə qarşı qoyaraq zəiflətmək və məhv etmək üçün ölkənin iqtisadi inkişafına rəhbərlik məsələsi üzrə diskussiya açılmasına imkan yaratdı. ÜİK(b)P XIV qurultayında (dekabr,

1925-ci il) ölkənin sənayeləşdirilməsi, XV qurultayında (dekabr, 1927-ci il) kollektivləşdirmə xətti qəbul edilsə də, qəsdən onların həyata keçirilməsinin sürəti və metodları haqqında konkret qərarlar verilmədi. Bu problemlərlə əlaqədar diskussiyaların gedişində Stalin öz rəqiblərini partiyaya və xalqa qarşı xəyanət etməkdə təqsirləndirib rəhbərlikdən uzaqlaşdırdı. Trotski ifrat sənayeləşdirmə ilə kəndlini sovet hakimiyyətinə qarşı qoymaq cəhdinə görə, Buxarın «varlı kəndlilərin ideoloqu» olmaqda günahlandırılırdı. Stalin siyasi rəqiblərini aradan götürdükdən sonra sürətlə sənayeləşdirmə və kollektivləşdirmə siyasətini həyata keçirməyə başladı. Bu, həm ölkənin məlum məqsədlər üçün hərbi-iqtisadi gücünü artırmaq, həm də sosialist istehsal üsulunu bərqərar etmək vasitəsi idi.

Azərbaycanda sənayeləşdirmənin başlıca məqsədi neft hasilatını, emalını və Rusiyaya daşınmasını sürətləndirmək, bunun üçün müəyyən iqtisadi infrastruktur yaratmaq idi. İşçiləri təmin etmək üçün istehlak malları istehsal edən müəssisələr yaradılması da nəzərdə tutulurdu. Hələ 1926-cı ilin əvvəllərindən təşkil olunmuş respublikanı sənayeləşdirmə üzrə komissiya da Q.Musabəyovun sədrliyi ilə bu məqsədə xidmət edirdi. 1926–1928-ci illərdə işlər beşillik sənayeləşdirmə planı üzrə gedirdi. Sonra ölkənin iqtisadi idarəçiliyində yeni forma – beşillik ümumi planlar tətbiq olundu. Sənayeləşdirmə partiyanın daha da ciddiləşən amirliyi altında adamların mənafeyinin, qanının, canının qurban verilməsi hesabına aparıldı. Fəhlələrin iş normasını heç bir əsas olmadan həddindən çox artırmaq hesabına ciddi qənaət rejimi yaradılmışdı. İşçilərə «könüllü şəkildə» əməkhaqqı əvəzinə 1926 və 1927-ci illərdə buraxılmış 12 milyon manatlıq dövlət daxili və xüsusi sənayeləşdirmə istiqrazları verilirdi. Özünün və vətəninin istismar olunduğunu görən və əməyə yadlaşan adamları yalnız polad inzibati əmək intizamı ilə işləməyə məcbur edirdilər. Formal şəkildə keçirilən istehsalat müşavirələri, komsomolçu-gənclər kollektivləri, sosializm yarışları, zərbəçi briqadalar, «staxanovçular» «novatorlar» (1935-ci ildən), «ikiminçilər» (1936-cı ildən) hərəkatı və s. işdə qeyri-iqtisadi məcburetməni pərdələmək vasitələri idi və hay-küylə geniş təbliğ olunurdu.

Sənayeləşdirmə kəndlinin istismar edilməsini və var-yoxdan çıxmasını daha da gücləndirirdi. Sovet hökumətinin əsl simasını görən kəndlilər ondan üz döndərdilər.

Kəndlilər taxılın çox ucuz qiymətə alınmasına, sənaye mallarının isə baha satılmasına etiraz edirdilər. 1926-cı ildə kənd sovetlərinə tək-

rar seçkilərdə, inzibati tədbirlərə baxmayaraq, kəndlilərin cəmi 40 faizi, 1927-ci ildə isə 60 faizi iştirak etmişdilər. 1928-ci ildə taxıl fövqəladə tədbirlərlə, inzibati-zorakı yollarla kəndlidən alındı. ÜİK(b)P MK-nın 1928-ci il iyun plenumunda Stalin bu tədbirləri pislədi və taxılın satınalma qiymətini artırmağı vacib bildi. Lakin sonra kollektivləşmə yolu ilə kəndlini istismar etmək xətti götürüldü. Sənayeləşdirmə Azərbaycanın iqtisadiyyatının birtərəfli inkişafını, onun mərkəzdən iqtisadi asılılığını daha da dərinləşdirdi. Lakin onun yüzlərlə iş yeri açmaqla (1927-ci ildə respublikada 32 mindən çox işsiz vardı), fəhlələrin ümumi texniki səviyyəsini, gəlirlərini artırmaqla əhalinin maddi güzəranını nisbətən yaxşılaşdırmaqda rolunu da qeyd etmək vacibdir.

Sənayeləşdirmə illərində Azərbaycanın neft kəşfiyyat işləri genişləndirildi. 20-ci illərin ikinci yarısında Puta, Qaraçuxur, 30-cu illərdə Lökbatan, Neftçala, Qala, Artyom, (Pirallahı) adası, Şonqar, Pirsaat, Siyəzən, Goradiz zəngin neft yataqları istismara verildi.

Neftçıxarma sənayesində 1923-cü ildən başlanan texniki yenidənqurma işləri davam etdirildi və 1928-ci ildə onun birinci mərhələsi başa çatdırıldı. Qazma işində köhnə zərbəştanq metodu əvəzinə, yeni qazma, turbin maşınları, dərinlik nasosları, kompressorlar, buxar maşınları əvəzinə elektrik mühərriklərinin tətbiqi ilə daha məhsuldar texnologiyalardan istifadə olunmağa başlandı. 1927-ci ildə qazma işində tədricən avtomat sistem tətbiq olunmaqda idi. 30-cu illərin axırlarında dərin neft quyuları qazılması, quyuların təkrar istismarı texnologiyaları mənimsənildi. Nəticədə neft hasilatı 1920-ci ildəki 2,9 milyon tona nisbətən 1928-ci ildə 7,7 milyon tona, 1940-cı ildə isə 22,2 milyon tona çatdırıldı.

1927-ci ildən respublikada neft emalı sənayesində yenidənqurma işləri başlandı. Məqsəd benzin və s. neft məhsulları istehsalını artırmaq və daşıyıb aparmaq idi. 1927–1928-ci illərdə Bakıda güclü turbalı ağ neft benzin, kükürd turşusu, karbomid, yağ krekinq zavodları tikildi. 1939-cu ildə Bakı qaz zavodu işə düşdü.

Bu illərdə neft maşınqayırma sənayesi də xeyli inkişaf etdirildi. 1926-cı ildə Suraxanıda dərinlik nasosları istehsal edən mexaniki zavod istifadəyə verildi. 1927-ci ildə Şmidt adına zavodda güclü elektrik metal əridən soba istismara verildi. 1934-cü ildə Bakıda bonder dəzgahqayırma zavodu işə düşdü. Neftin rahat daşınıb aparılması üçün 1930-cu ilin əvvəllərində Bakı-Batum neft kəməri istifadəyə verildi (822 km).

Lakin mərkəz hələ də Azərbaycanın neft sərvətlərinin istismar olunması sürətindən narazı idi. 1940-cı ilin yanvarında partiya və höku-

mət «Azərbaycanda neft hasilatını və emalını sürətləndirmək tədbirləri haqqında» xüsusi qərar qəbul etdi. Bu, ən səmərəli sahəyə kapital qoyuluşunu artırıldı.

Sənayeləşdirmə illərində Azərbaycanda yeni sənaye sahələri meydana gəldi. Kimya sənayesinin ilk müəssisələri – 1926-cı ildə Bakıda oksigen-asetilin və yod brom, 1930-cu ildə Suraxanıda yod, 1931-ci ildə Neftçalada yod-brom zavodları, 1938-ci ildə Qaradağda his (duda) zavodu istifadəyə verildi.

Elektrikləşdirmə sahəsində də iş davam etdirildi. 1927–1928-ci illərdə Salyan, Qaryagin istilik, Nuxa Aşağı Zurnabad, Xankəndi və Zaqatala, 1938–1939-cu illərdə Qubadlı Su, Ucar, Astara, Kürdəmir, 1941-ci ildə Sumqayıt istilik elektrik stansiyaları işə salındı. 1920–1940-cı illərdə Azərbaycanda elektrik enerjisi istehsalı 0,1 milyard kvt. saatdan 1,8 milyard kvt. saata çatdı. Bu, onun məhsuldar qüvvələrinin, əhalinin məişət tərzinin inkişafına mühüm təsir göstərdi.

Xalq istehlakı mallarına tələbatı ödəmək üçün toxuculuq, yüngül, yeyinti, tikinti sənayesi sahələri, əsasən qəzalarda inkişaf etdirilirdi. Gəncə ikinci sənaye mərkəzinə çevrilirdi. 1926-ci ildə burada yağ-sabun zavodu, 1928-ci ildə toxuculuq kombinatı və pambıqtəmizləmə zavodu işə düşdü. Ucar və Yevlaxda pambıqtəmizləmə zavodları (1926–1927-ci illərdə), Lənkəran və Ordubadda konserv zavodları (1927–1928-ci illərdə), Bakıda çörək zavodu (1927-ci ildə), Əli Bayramlıda tikiş fabriki (1928-ci ildə), ayaqqabı fabriki (1930-cu ildə), Xankəndində baramaaçan fabrik (1931-ci ildə), Nuxada ipək kombinatı (1932-ci ildə), Gəncədə gil zavodu (1933-cü ildə), Bakıda tikiş fabriki (1934-cü ildə), ət kombinatı, Keşlə qənnadı fabriki (1933-cü ildə), Salyan və Bərdədə pambıqtəmizləmə zavodları (1938–1939-cu illərdə), Xaçmazda konserv zavodu (1940-cı ildə), Bakıda qənnadı fabriki (1940-cı ildə), çaybükmə fabriki (1941-ci ildə) istifadəyə verildi. Xalq istehlakı malları xeyli çoxaldı.

20–30-cu illərdə respublikada nəqliyyat vasitələri də xeyli inkişaf etdi. 1926-cı ilin iyulunda Bakı-Suraxanı elektrik dəmiryolu istifadəyə verildi. 1940-cı ildə Bakı–Culfa dəmiryolunun çəkilişi başa çatdırıldı (409 km). 1924-cü ildə (8 yanvar) Bakı–Tbilisi, 1937-ci ildə Moskva–Bakı arasında müntəzəm hava əlaqəsi yaradıldı. 20-ci illərin sonunda Xəzər dənizində iri tonnajlı 11 neft tankeri, iki sərnişin teploxodu, yük teploxodları işləməyə başladı. 1920–1940-cı illərdə Azərbaycan SSR-də 11 min km-dən çox (3 min km bərk örtüklü) avtomobil yolları çəkilmişdi.

Sürətlə sənayeləşdirmə kənd təsərrüfatının kollektivləşdirilməsini tələb edirdi. Kəndlilər belə sənayeləşdirmə xəttini müdafiə etmirdilər. Onların çoxu Yeni İqtisadi Siyasətin xeyrini, əlverişli olduğunu görmüşdü. 1925-ci illədək 70 min yoxsul kəndli təsərrüfatı ortabab təsərrüfata çevrilmişdi. Varlı (qolçomaq) təsərrüfatları kəndlərdəki təsərrüfatların 3 faizini təşkil edirdi. 1928-ci ildə artıq Azərbaycan SSR-də kəndli təsərrüfatlarının 6,8 faizi varlı, 51,4 faizi ortabab təsərrüfatlar idi. 1920–1928-ci illərdə respublikada 54 min yeni kəndli təsərrüfatı yaranmışdı. Onların sayı 354 minə çatmışdı. Bu təsərrüfatlarda 58 min və ya 1920-ci ildəkindən 28 min ədəd çox dəmir kotan vardı. 1925-ci ildə tarlalarda 200, 1928-ci ildə artıq 500 traktor işləyirdi. Yoxsul kəndlilərin bir hissəsi kooperativlərdə birləşirdilər. Maşını, torpağı birgə becərmə sahəsində şirkətlər təşkil olunmuşdu. 1926-cı ilin martında pambıqçılıq təsərrüfatlarını idarə edən «Pambıq birliyi» yaradılmışdı. Sənaye və kənd təsərrüfatı müəssisələri arasında əlaqə yaranması üçün xüsusi sistem mövcud idi. Bundan başqa, istehlak kooperasiyası da sənaye ilə kənd təsərrüfatı arasında möhkəm iqtisadi əlaqəni təmin edirdi.

1928-ci ildə respublikada 289 kolxoz (4,5 min əsasən yoxsul kəndli təsərrüfatlarını birləşdirən) və 13 sovxoz vardı. Onların təşkilinə və fəaliyyətinə kömək etmək üçün «Azkolxozsentr» və «Azsovxozsentr» təşkil olunmuşdu.

Lakin Azərbaycan kəndində elliklə kollektiv təsərrüfatlar təşkil etməyə şərait yox idi. Burada patriarxal uklad, məişət və təsərrüfat ənənələri (xüsusən köçmə heyvandarlıq təsərrüfatları) güclü idi. Bundan başqa, kollektivləşdirmə siyasətini həyata keçirmək üçün bolşeviklərin kənddə arxalana biləcəyi möhkəm dayaq hələ mövcud deyildi. Buna görə də kollektiv təsərrüfatların sayı çox az idi. 1929-cu ilin sonlarında Azərbaycan SSR-də kəndli təsərrüfatlarının cəmi 3,4 faizi kollektivləşdirilə bilmişdi.

Yerli şəraitdə kollektivləşdirmənin ən münasib forması birliklər idi. Burada torpaq və əmək ümumi olur, heyvanlar və istehsal vasitələri isə şəxsi istifadədə qalırdı. Kollektiv təsərrüfatların 52,3 faizini belə birliklər təşkil edirdi.

1928-ci ildə respublikada mövcud olan 354 min kəndli təsərrüfatından 113,3 mini kooperativlərdə birləşmişdi, 24 min varlı (qolçomaq), 182 min ortabab, 148 min yoxsul təsərrüfatı vardı. Belə çoxukladlı təsərrüfatçılıq istehsalın artmasına kömək edirdi. Kənd təsərrüfatı məhsulları istehsalının həcmi artıq 1913-cü il səviyyəsini ötüb keçmişdi.

Yeni İqtisadi Siyasət xəttindən geri çəkilmək, sənaye ilə kənd təsərrüfatı arasında əmtəə mübadiləsini pozmaq, kəndi istismar etməklə sənayeləşdirməni sürətləndirmək siyasətindən ən çox varlı və ortabab kəndlilər narazı idilər. Hökumətin sinfi prinsipə əsaslanan vergi siyasəti (bütün kənd təsərrüfatı vergisinin 33 faizi varlı təsərrüfatlardan alınırdı), taxılın satınalma qiymətlərinin aşağı olması işgüzar kəndliləri təmin etmirdi. 1928-ci ildə ölkədə taxıl tədarükü çətinləşərkən varlı kəndlilərə qarşı sıxışdırma tədbirləri daha da şiddətlənmişdi. Onlar üçün icarənin müddəti, icarəyə götürülən torpaqların sahəsi, iş qüvvəsini satınalma imkanları məhdudlaşdırılmışdı. Belə ədalətsizlik yoxsul kəndlilərin də varlanmaq marağını qırırdı. Dövlətin verdiyi imtiyazlar (onlardan vergi alınmır, varlılardan müsadirə edilən taxılın bir hissəsi onlara paylanır və s.) onları passivləşdirirdi.

Sovet hökumətinin kəndliyə qarşı apardığı siyasət kəndin müqavimət qüvvələrinin təşkil olunmasına və mübarizəyə qalxmasına səbəb olurdu. Kəndlilər, əsasən varlılar və ortababların xüsusi dəstələr təşkil edir, bolşeviklərdən, sovet orqanları işçilərindən qisas alır, zəmiləri yandırır, taxılı gizlədirdilər. Hərəkat kolxozlara, kooperativlərə qarşı deyil, öz zəhməti və təsərrüfatçılıq qabiliyyəti ilə varlanmaq, firavan dolanmaq kimi təbii tələbatını ödəməyə çalışanlara qarşı siyasət aparan hökumətə qarşı çevrilmişdi. İstiqlal uğrunda gizli mübarizə aparan qüvvələrin təsiri ilə onda milli-azadlıq motivləri durmadan artırdı. Lakin yuxarı dairələr başa düşürdülər ki, kənddə kolxoz yaratmadan əsas istehsalçı olan varlı və ortabab kəndli təsərrüfatlarını məhv edə, milli təsərrüfat ənənələrini qorumaq bayrağı altında qalxan milli-azadlıq hərəkatını cilovlaya bilməyəcəklər.

1929-cu il iyunun 21-də ÜİK(b)P MK və SSRİ XKS «Kolxoz sistemini möhkəmləndirmək tədbirləri haqqında» qərar qəbul etdi. 1930-cu il yanvarın 5-də ÜİK(b)P MK-nın kollektivləşdirmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbirləri haqqında qərarında milli rayonlar üçün kollektivləşdirmənin konkret son müddətləri göstərildi. Lakin yerli mənsəbpərəst rəhbərlər işi daha sürətlə apardılar. 1929-cu ilin dekabrında ÜİK(b)P Zaqafqaziya ölkə komitəsi bahar səpini vaxtı Azərbaycanda kollektivləşdirməni təkcə kəndlər və dairələr üzrə deyil, həm də mahallar (1929-cu ilin aprelində Ümumazərbaycan sovetlər qurultayının qərarı ilə mahal, dairə və kənd sovetləri yaradılmış, əvvəllər mövcud olan 13 qəza ləğv edilmiş, 8 mahal, 59 dairə təsis olunmuşdu) üzrə elliklə kollektivləşdirmə keçir-

məyi təklif etdi. Azərbaycan K(b)P MK 1929-cu il dekabr plenumunda Bərdə, Xıllı, Ucar dairələrində və Gəncə mahalında yaz əkini dövründə elliklə kollektivləşdirmə keçirməyi qərara aldı. Lakin Quba, Nuxa, Zaqatala, Lənkəran, Qarabağ və b. mahalların, DQMV-nin rəhbərləri də təşəbbüs qaldırıb bu rayonları elliklə kollektivləşdirmə rayonları elan etdilər. Hətta Gəncə və Sabirabad dairələri arasında bir neçə aya kollektivləşdirməni başa çatdırmaq üzrə yarış müqaviləsi də bağlanmışdı.

1929-cu ilin sonunda kommunist partiyası qolçomaq adlandırdığı varlı kənd təsərrüfatçılarını sıxışdırmaq siyasətindən onları bir təbəqə kimi ləğv etmək siyasətinə keçdi. Kənd yoxsulları və muzdurlardan ibarət qruplar yaratmağa başladı (1929-cu ilin sonu, 1930-cu ilin əvvəllərində iki həftə belə qrupların təşkili kampaniyası keçirildi). Onlar silahlandırıldılar. Respublikada 1500-dən çox belə silahlı qrup təşkil edilmişdi. Bu qruplar Dövlət Siyasi İdarəsi və Daxili İşlər Komissarlığının silahlı qüvvələrinə kömək edirdilər. Varlı kəndlilərin, kolxoza gəlmək istəməyən ortababların var-dövləti müsadirə edilir, özləri isə güllələnirdilər. 1929-cu ildə respublikada 16 mindən çox varlı və ortabab kəndli təsərrüfatı dağıdılmışdı. Xalqın gözündə qanlı qırğına haqq qazandırmaq üçün hökumət orqanları çox vaxt təhrikçilik edir, kolxoza, «fəallara» qarşı müxtəlif cinayətlər törədir, təqsiri «qolçomaq»ların üstünə atırdılar. Hətta bəzi rəhbər kommunistlər də bu cinayətkar metodları tənqid edirdilər. Belə haqsızlıqlar kəndlilərin silahlı üsyana qalxmasına səbəb olurdu. Naxçıvanda, Nuxa-Zaqatala mahalında kəndlilər üsyan edib sovet, partiya orqanlarını devirdilər. Kürdəmirdə və Ağdaşda da hökumətə qarşı mübarizə ciddi xarakter kəsb etdi.

1926–1929-cu illərdə Qazax rayonunda antisovet beynəlmiləl hərəkat baş vermişdi. «Həqiqət ordusu» adlı gizli təşkilat yaradılmışdı. Onun «Əzrayıl firqəsi» adlı terrorçu qrupu da fəaliyyət göstərirdi. Hərəkatın ictimai bazası geniş idi. Ona varlı kəndlilərdən tutmuş yoxsullara qədər kənd əhalisi, din xadimləri, müəllimlər, hətta sovet idarəsi işçiləri də qoşulmuşdular. 1929-cu ilin baharında təşkilatın «Haqq idarəsi» adlı rəhbər mərkəzi Qazaxda intibahnamələr yaymış, bolşeviklərdən dinə qarşı mübarizədən çəkinmək, camaata ticarətlə məşğul olmaq hüququ vermək tələb olunmuşdu. Təşkilatın məqsədi imperiyada vəziyyət gərginləşən zaman, müharibə başlanarsa silahlı antisovet çıxışlar təşkil etmək, bolşeviklərə qarşı terror aktları həyata keçirmək idi. Fəallar əhali arasında antisovet təbliğatı aparır, mövcud üsul-idarədən narazı adamları toplayıb qruplaşdırırdılar. Lakin bu təşkilat tezliklə aşkara çıxarılıb ləğv edildi.

1930-cu ilin fevralında Naxçıvanın Keçili kəndində Sovet Hökumətinə qarşı üsyan qalxdı. Qonşu Badamlı, Sələsuz, Tirkeş, Cəhri və b. kəndlərin əhalisi də üsyana qoşuldu. Üsyançı dəstədə 200-dək adam birləşmişdi. Yeni üsyançı dəstələr yaranırdı. Onlar xaricdə olan Kəlbalı xanın dəstələri ilə birləşib Naxçıvanda Sovet hökumətini devirmək istəyirdilər. Bolşeviklərin xalqa zidd siyasətindən narazı olanların hamısı – varlılar, ortabablar, hətta yoxsullar, bəzi partiya və komsomol işçiləri belə üsyana qoşulmuşdular. Sovet Ordusunun Naxçıvandakı sərhəd dəstələri və milis üsyanı yatıra bilmədi. Buraya ordunun xüsusi səhra qoşun hissələri çağırıldı. Üsyançılar bir neçə həftə ordu və milis hissələri ilə qəhrəmancasına döyüşdülər. Qeyri-bərabər döyüşlərdə 100 nəfər üsyançı şəhid oldu və 120 nəfər ələ keçirilib həbs edildi. Lakin hökumət qüvvələri üsyançı dəstələri tam məhv edə bilmədi. 30–40 nəfər üsyançı dağlara çəkildi. Kiçik Keçili dəstəsi tez-tez ordu hissələrinə hücum edir, camaatı yenidən üsyana qaldırmaq istəyirdilər. 1931-ci ilin qışında onu məhv etmək üçün, hətta dağ artilleriyası da Sovet ordusuna kömək edə bilməmişdi. Lakin 1932-ci ilin aprelində üsyançı dəstə Sarı dağın ətəyində mühasirəyə alındı və ələ keçdi.

Nuxada 1930-cu il aprelin 13-dən 16-dək davam edən kəndli üsyanı da hökumətin cəza dəstələri tərəfindən qan içində boğuldu. Vətənpərvər, istiqlalçı qüvvələr xalqı təşkil edib mübarizəyə qaldırmaq üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Onların ruhanilərlə birlikdə 1930-cu ilin martında Şamxor rayonunun Bitdili kəndində «şəfa verən imamın» zühur etməsi haqqında uydurduğu şayiə hökumət tərəfindən dinin, çoxəsrlik mədəniyyət ənənələrinin kobudcasına sıxışdırılması və təhqir olunmasından, amansız istismardan, ədalətsizliyin tüğyan etməsindən narazı olan əhali arasında sürətlə yayıldı, minlərlə adam buraya pənah gətirməyə, üsyankar qüvvələr burada toplanmağa başladılar. Mövcud şəraitdə belə açıq və geniş təşkil olunmaq taktikası səhv addım idi. Qorxuya düşən hökumətin cəza orqanları qocaya, qadına, uşağa, şikəstə baxmadan «pirə» toplaşanların hamısına divan tutdu.

Bəzi, xüsusən hələ kolxozlar təşkil edilməyən heyvandarlıq rayonlarında varlı kəndlilərin təsərrüfatları ləğv edilir, onların var-dövləti isə «zirək» rəhbərlərin əlinə keçirdi. Belə kobud və amansız metodlarla respublikada varlı kəndli təsərrüfatları məhv edilir, qabiliyyətli təsərrüfatçılar sıradan çıxarılır, məcburi şəkildə kolxozlar və kommunalar yaradılırdı. 1930-cu ildə 3 ay ərzində respublikada kolxozların sayı 535-dən 1670-ə çatmışdı. Hətta Şirvan, Gəncə mahallarında, DQMV-də kom-

munalar da təşkil olunmuşdu. Kolxozlara imtiyazlar verməklə kolxozlar və kolxozçular iki il heyvanlar üçün alınan vergilərdən azad edilir, onlara maliyyə köməyi göstərilir, faizsiz taxıl borc verilir, kəndlilər əvvəlki illərin kənd təsərrüfat vergisi üzrə borclardan azad edilirdilər. Lakin güclə, süni şəkildə yaradılmış kolxozların bir hissəsi tezliklə dağıldı. 1930-cu ilin aprel-sentyabr aylarında 351 kolxoz dağılmışdı. Bu müvəffəqiyyətsizliyin təqsirini kolxozlardan uzaqlaşan ortabablarda görən hökumət onları da «qolçomaq»lar sırasında məhv etdi.

ÜİK(b)P MK-nın iqtisadi cəhətdən zəif olan milli rayonlarda kollektivləşmə və qolçomaqlara qarşı mübarizə haqqında 1930-cu il 20 fevral və kolxoz hərəkatında partiya xəttinin əyilməsi hallarına qarşı mübarizə haqqında 1930-cu il 14 mart qərarlarında bu işdə yol verilmiş tələsiklik, kobud metodlar pisləndi və Azərbaycan da daxil olmaqla iqtisadi cəhətdən zəif olan rayonlarda elliklə kollektivləşmə üçün hazırlıq tədbirləri görməyin, şərait yaratmağın vacib olduğu göstərildi. Ciddi inzibati təzyiqlə belə bir şərait yaradılmağa başlandı. Maşın Traktor Stansiyalarının (MTS-lərin) və sovxozların sayı artırıldı. 1930-cu ildə respublikada 19 MTS, MTK, 26 sovxoz vardı, 1937-ci ildə MTS-lərin sayı 57-yə, sovxozların sayı 50-yə çatdırılmışdı. İctimai təsərrüfatların texniki təchizatı yaxşılaşmışdı. Kolxoz və sovxoz tarlalarında 1931-ci ildə 2,8, 1937-ci ildə isə 5,6 min traktor işləyirdi.

Kənddə partiya təşkilatları da möhkəmləndirilmişdi. MTS və sovxozlarda siyasi şöbələr təşkil edilmişdi. Onların inzibati amiranə rəhbərliyi ilə kəndlərdə partiya özəklərinin, kommunistliyə namizəd qruplarının sayı artırıldı. Siyasi şöbələrin qəzetləri kənd əhalisinin «tərbiyə» olunmasında, elliklə kolxozlaşmanın sürətlənməsində əhəmiyyətli rol oynadılar.

Kollektivləşmə illərində Azərbaycanda ailələri ilə birlikdə varlı kəndlilər və ortabab kəndlilərin bir hissəsi – 200 mindən çox kəndli Sovet hökumətinin, kolxozun düşməni kimi məhv edildi, sürgünə göndərildi.

Azərbaycanda kənd təsərrüfatının kolxozlaşdırılması işi, əsasən ikinci beşillikdə (1933–37-ci illərdə) başa çatdırıldı. 1937-ci ildə kəndli təsərrüfatlarının artıq 86,5 faizi kolxozlarda birləşdirilmişdi. 1940-cı ildə respublikada 3429 kolxoz və 50 sovxoz vardı. Əkin sahələrinin, demək olar ki, hamısı onlara məxsus idi. Kənd təsərrüfatı üçün xeyli mütəxəssis hazırlanmışdı. Torpaqların suvarılması üçün 200-dək orta və kiçik suvarma kanalları istifadəyə verilmişdi. 1926-cı ildə Muğan

suvarma kanalı, 1927–1930-cu illərdə Mil kanalı çəkilmişdi. 1939-cu ilin oktyabr – 1940-cı ilin aprel aylarında 30 mindən çox kolxozçunun çox böyük və ağır əməyi bahasına iri hidrotexniki qurğu – Samur-Dəvəçi kanalının birinci növbəsi (107 km) tikilib istifadəyə verilmişdi. Bu, 67 min ha torpağın suvarılmasına şərait yaratmışdı. Qazaxda Qapıçay-Zəyəm çay kanalı, Naxçıvan MSSR-də Arazdayan-Noraşen kanalı çəkildi. 20–30-cu illərdə həyata keçirilən meliorasiya quruculuğu sayəsində respublikada suvarılan torpaq sahələri 70 min ha artıb 726 min ha-a çatdırıldı.

Həm kolxozlaşdırma, həm də maddi-texniki bazanın möhkəmlənməsi Azərbaycan kəndinin iqtisadi potensialından mərkəzin xeyrinə gen-bol istifadə olunmasına xidmət edirdi.

Respublikanın kənd təsərrüfatında ixtisaslaşma elə aparılırdı ki, onun mərkəzdən iqtisadi asılılığı artsın. Heyvandarlıq, taxılçılıq, çəltikçilik kimi ənənəvi sahələrin inkişafına lazımi qayğı göstərilmirdi. Mərkəz Azərbaycanı istehsalında az qala qul əməyi qədər ağır zəhmət tələb edən pambıqçılıq üzrə ixtisaslaşdırmağa başlamışdı. 1920-ci ildə burada cəmi 2 min ha sahədə pambıq əkilirdi. Artıq 1940-cı ildə pambıq əkini sahələri-188,1 min ha-a, 1920–1940-cı illərdə respublikada pambıq istehsalı 2,2 min tondan 154,2 min tona çatdırılmışdı.

Azərbaycanı ittifaqın sitrus bitkiləri, çay yarpağı istehsalı bazasına çevirmək təşəbbüsləri də göstərilirdi. 1934-cü ildə Lənkəran-Astara zonasında ilk sitrus sovxozları təşkil olunmuşdu. 1938-ci ildə burada yaşıl çay yarpağı istehsalına başlanmışdı.

Ümumiyyətlə, 1940-cı ildə Azərbaycan SSR-də 1920-ci ildəkindən 2 dəfə çox kənd təsərrüfatı məhsulu, 70 dəfədən çox pambıq, 1,3 dəfədən çox taxıl, 1,2 dəfədən çox ət, 1,4 dəfədən çox süd istehsal olunurdu.

Sənayeləşdirmə və kolxozlaşdırma siyasəti ilə partiya həm öz amirliyinin iqtisadi dayağını, qeyri-iqtisadi xarakter daşıyan sosialist təsərrüfatçılıq sistemini yaratdı, həm də mövcud rejimə qarşı mübarizə aparan milli qüvvələrə ciddi zərbə endirdi. Azərbaycanın iqtisadiyyatı birtərəfli inkişaf etdirilir və o, mərkəzdən daha çox asılı vəziyyətə salınırdı.

**Sosial dəyişikliklər** Azərbaycanın maddi və mənəvi potensialından öz məqsədləri üçün daha səmərəli istifadə etməyə çalışan imperiya burada ucuz əmək ehtiyatları yaradılmasında çox maraqlı idi. Əhalinin sayının artması, kəndlərdən sənaye mərkəzlərinə axın, qadınların istehsalata geniş cəlb olunmasına səy bunun əsas vasitələri idi. 1920–

1940-cı illərdə respublikada əhalinin sayı 1,9 milyondan 3,3 milyona çatdı. Kənddə təbii artımın sürətli olmasına baxmayaraq, şəhər əhalisinin sayı daha intensiv çoxalırdı. Qadınlara kişilərlə bərabər hüquqlar verilmişdi. Ailə-məişət ənənələrinin bəzi cəhətlərini – bir sıra rayonlarda çadra örtülməsini, qadınların cəmiyyət arasına çıxmasına, savad almasına, işləməsinə icazə verilməməsini bayraq edən bolşeviklər xalqın, türklüyün milli mənəvi-psixoloji dayaqlarına qarşı mübarizədə qadınları öz tərəfdarına çevirməyə çalışırdılar. 1921-ci ildə Azərbaycan qadınlarının birinci qurultayı elə bu məqsədlə təşkil edilmişdi. Ailə-məişət ənənələri inqilabi yolla, çox vaxt xalqın hissiyyatına kobudcasına toxunaraq dağıdılırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan qadınları xalqın sağlam ailə-məişət ənənələrinin həqiqi qoruyucusu kimi qalırdılar.

Azərbaycan iqtisadiyyatının inkişafında qadın əməyindən geniş istifadə olunurdu. Fəhlə və qulluqçu qadınların sayı 1920-ci ildəki 17 mindən 1940-cı ildə 165 minə çatmışdı. Kənd təsərrüfatında, xüsusən çox ağır zəhmət tələb edən pambıqçılıqda qadın əməyindən daha geniş istifadə edilirdi.

Azərbaycan çoxmilli respublika idi. 30-cu illərin əvvəllərində burada 950-yə qədər xalqın nümayəndələri, o cümlədən 1,6 milyon Azərbaycan türkü, 300 minə qədər erməni, bir o qədər rus, 89 min talış, 79 min ləzgi, 60 min tat, 22 minə qədər avar, 15 min saxur, 9 min yəhudi və b. məskun idilər.

Bolşevik rəhbərlər yalnız fəhlələrin milli ucqarlarda, o cümlədən Azərbaycanda qeyri-müsəlman fəhlələri öz hakimiyyətinin etibarlı dayağı hesab edirdilər. Çünki fəhlələr maddi istehsalda mühüm rol oynayırdılar, siyasi və mədəni səviyyələri aşağı idi, kommunist partiyası sıralarına daha çox cəlb edilir və onun vasitəsilə idarə olunurdular. «Proletar diktaturası» adlanan diktatura fəhlələri də əzən diktatura idi (M.Ə.Rəsulzadə). Lakin onların maddi tələbləri başqa zəhmətkeş qruplara nisbətən yaxşı ödənilirdi. Fəhlələrə müəyyən üstünlüklər verməklə bolşeviklər xalq kütləsini parçalamaq, onun daxilində bir-biri ilə münaqişədə olan qruplar yaratmağa çalışırdılar. Bakı Soveti yanında fəhlələrin məişətini yaxşılaşdırmaq üçün xüsusi komissiya fəaliyyət göstərirdi. Azərbaycan SSR XKS-nin 1921-ci il 9 noyabr tarixli dekreti ilə Bakıdakı bütün iri xüsusi evlər (1350 ev) milliləşdirilib, əsasən qeyri-müsəlman fəhlələrə, bir qismi də mənsəb sahibi olan bolşeviklərə paylanmışdı. Paxtaxtda fəhlə qəsəbələri – 1923–1925-ci illərdə Razin

(indiki A.Bakıxanov), 1928–1929-cu illərdə Zabrat, Ağşəhər, Suraxanı, 30-cu illərin əvvəllərində Şaumyan və Montin qəsəbələri (indiki Xətai və Nərimanov rayonları ərazisində) salınmışdı. Bakıda müsəlman fəhlələrin sayının artmasına süni surətdə mane olmaq üçün kəndlərdən gələnlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına barmaqarası baxılırdı. Bu dövrdə şəhərdə tikilmiş evlərin böyük əksəriyyəti qeyri-müsəlman fəhlələrə verilmişdi.

İmperiya burada istehsalın sosial infrastrukturunun müəyyən hədlər daxilində inkişafına imkan yaratmağa məcbur idi, çünki bunlarsız istismar etmək üçün işçi qüvvəsi kifayət qədər istehsal və təkrar istehsal oluna bilməzdi. Mənzil tikintisinə diqqət artırılmışdı. Ümumiyyətlə, 20–30-cu illərdə respublikada 6,5 milyon kv. m. yaşayış sahəsi olan evlər (o cümlədən dövlət tərəfindən 2 milyon kv.m.) tikilmişdi.

Respublikada şəhərlərin sayı 20–30-cu illərdə iki dəfə artıb 26-ya çatmışdı. 1921–1925-ci illərdə Bakı şəhəri memarlıq baxımından yeniləşdirildi. Yeni küçə və meydanlar, bağ və parklar salındı. Görkəmli memarlar M.Ə.Hüseynovun və S.Ə.Dadaşovun layihələri üzrə Politexnik İnstitutunun (1931–1933-cü illərdə), «Nizami» kinoteatrının (1937–1939-cu illər), Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin (1940-cı ildə) yaraşıqlı binaları tikildi. 1924-cü ildə Bakıda tramvay, 1941-ci ilin əvvəllərində isə trolleybus xətləri işləməyə başladı. 1933-cü ildə Gəncədə tramvay xətti istifadəyə verildi. Şəhərlərin su təchizatı nisbətən yaxşılaşdı. Su kəməri olan şəhərlərin sayı 3-dən 18-ə qalxdı. Bakıda Şollar su kəməri bərpa olundu və nisbətən genişləndirildi. 1934-cü ildən ikinci Bakı su kəmərinin tikintisinə başlandı, lakin bu tikinti çox ləng gedirdi. Bu illərdə Göyçay, Salyan, Ağdam, Qazax, Quba, Ağdaş və başqa şəhərlərə su kəmərləri, elektrik xətləri çəkildi. Gəncə, Nuxa xeyli abadlaşdı. DQMV-də Xankəndi kəndi şəhərə çevrildi.

Əhalini ərzaqla təmin etmək üçün 1928, 1934–1935-ci illərdə kartoçka sistemi tətbiq olundu. Pərakəndə ticarət xeyli artdı.

Fəhlə və qulluqçuların əməkhaqqı 1924–1925-ci illərdə 1913-cü il səviyyəsinə çatdırılmışdı. 1933–1937-ci illərdə işçilərin bu qruplarının əməkhaqqı 2,2 dəfə çoxalmışdı. Bu illərdə kolxozlarda əmək ödənişinin həcmi 3,7 dəfə artmışdı. Lakin bolşevik rəhbərlər aldıqları əməkhaqqının verdiyi imkanlarla müqayisə olunmaz dərəcədə firavan yaşayırdılar.

Əhalinin səhiyyə xidməti də nisbətən yaxşılaşmışdı. 1921-ci ildə Bakıda Südəmər uşaq evi, Mərkəzi uşaq xəstəxanası, 20-ci illərin

birinci yarısında göz xəstəxanası, vərəm dispanseri, 1928–1929-cu illərdə cərrahiyyə xəstəxanası açılmışdı. Rayonlarda xəstəxana və ambulatoriyalar təşkil olunurdu. Mərdəkan və Buzovnada sanatoriyalar istifadəyə verilmişdi. Ümumiyyətlə, 1920–1940-cı illərdə respublikada xəstəxana çarpayılarının sayı 6 dəfədən çox artıb 12,6 minə, həkimlərin sayı 500-dən 3300-ə çatmışdı.

## § 5. Totalitar siyasi rejimin güclənməsi

**Bolşevikcəsinə «demokratiya»**

Bolşevik üsul-idarəsi cəmiyyətin siyasi sistemini elə qurmağa nail olmuşdu ki, hakimiyyət aparatının bütün dairələri xalqın təşəbbüsünü buxovlaya bilsin, «yuxarıların» iradəsi həyata keçirilsin. Bunun əsas vasitəsi partiya təşkilatlarının möhkəmləndirilməsi, kommunistlərin bütün ictimai-siyasi təşkilatlarda, yerli sovetlərdə aparıcı mövqe tutması idi. 1921-ci ildə respublikada cəmi 586 partiya təşkilatı, 14,8 min nəfər kommunist, 1940-cı ildə isə artıq 4343 partiya təşkilatı və 80 min kommunist vardı. İdarə və müəssisələrdə 50 min komsomolçu və 480 min həmkarlar ittifaqı üzvü onların bilavasitə rəhbərliyi altında fəaliyyət göstərirdi.

Sovetlərə «yuxarıların» lazım bildiyi, onlara arxa olacaq adamlar irəli çəkilir və «seçilirdi». Onların çoxu lazımi qədər təhsili, idarəçilik qabiliyyəti və marağı olmayan, siyasətdən uzaq adamlar idi. Məsələn, 1930–1931-ci il seçkilərində deputatların 75 faizini yoxsullar və fəhlələr təşkil edirdi. Seçkilər ciddi nəzarət və təzyiq altında keçirilirdi.

Bolşevik rəhbərlər Rusiyada və imperiyanın başqa müstəmləkələrində öz hakimiyyətlərini möhkəmləndirə, onun iqtisadi və siyasi dayaqlarını yarada bildilər, təsərrüfat çoxukladlılığını, bazar münasibətlərini ləğv etdilər. Onlara qarşı mübarizə aparan qüvvələri, təcrübəli, işgüzar təsərrüfatçıları «qolçomaq», «xalq düşməni» adı ilə sıradan çıxartdılar, etibarsız hesab etdiklərinin «səsini aldılar». İqtisadiyyatı inzibati metodlarla, amirliklə idarə etməyə başladılar, bütün mülkiyyətə sərəncam vermək hüququnu, bölgünü öz əllərinə aldılar, siyasi sistemi öz mənafelərinə işləməyə məcbur etdilər, ictimai şüurun bütün formaları üzrə öz ehkamçı ideologiyalarının inhisarını təmin etdilər. Bütün bu mövqeləri 1936-cı il dekabrın 25-də qəbul etdikləri Yeni SSRİ Konstitusiyasında qanuniləşdirdilər. Bu Konstitusiya əmək, istirahət, təhsil, sosial təminat hüquqları, habelə əslində heç bir real təminatı

olmayan bir sıra siyasi hüquq və azadlıqlar elan etdi. Çoxpilləli seçkilər ümumi, birbaşa seçkilərlə əvəz olundu. Yeni SSRİ Konstitusiyasına görə ZSFSR ləğv olundu. Azərbaycan, Gürcüstan və Ermənistan SSRİ-nin tərkibinə suveren respublikalar kimi daxil oldular. 1937-ci il martın 14-də Azərbaycan sovetlərinin IX qurultayı SSRİ Konstitusiyasına müvafiq Azərbaycan SSR Konstitusiyasını qəbul etdi, SSRİ-də və Azərbaycan SSR-də «sosializmin tam qələbə çaldığı» elan olundu.

**İstiqlal uğrunda gizli mübarizə. Qanlı terror**

Bolşevik rejiminin bütün cəhdlərinə baxmayaraq, xalq kütləsi içərisində milli özünüdərk, milli-azadlıq meyilləri, xüsusən məktəblərdə, elm və mədəniyyət müəssisələrində, hətta dövlət idarələrində kök salırdı. Təkcə 1928–1930-cu illərdə Sovetlərdə keçirilən təmizləmə kampaniyalarında 6,3 min adam bu orqanlardan qovulmuşdu.

«Müsavat» partiyası əhali içərisində siyasi iş görürdü. 1930-cu ildə Xəlil İbrahimov Müsavatın xaricdəki bürosu ilə gizli əlaqə yaratmış, onun direktivləri əsasında qeyri-leqal mərkəz təşkil etmişdi. Gizli müxalif qruplar əsasında əlaqələr yaranmaqda idi. Azərbaycan KP-nin 1932-ci ildə keçirilmiş qurultayı müsavata qarşı təkcə daxildə deyil, həm də xaricdə mübarizə aparmağın vacibliyini qeyd etmişdi. Lakin bütün qurbanlara baxmayaraq, bu partiya gizli fəaliyyətini davam etdirirdi. 1936-cı ilin avqustunda Varşavada onun konqresi keçirilmişdi. Burada müsavatçılıq, milli birlik, milli ittifaq, milləti sinifləri bölməmək, hər cür zümrə hakimiyyətini inkar etmək ideyalarını əks etdirən yeni Proqram qəbul olundu.

1925-ci ildən SSRİ-də türk xalqlarının birləşib sovet imperiyasından azad olmaq uğrunda mübarizə aparan gizli təşkilat fəaliyyət göstərirdi. Onun Azərbaycandakı gizli təşkilatında müxtəlif müxalif qüvvələr, müsavatçılar, millətçi kommunistlər, yeni millətçilərin nümayəndələri birləşmişdilər. Bu təşkilatın üzvləri içərisində S.M.Əfəndiyev, D.Bünyadzadə, R.Axundov, M.Quliyev, o zaman Azərbaycanda işləyən türkoloq alimlərdən B.Çobanzadə, Q.Qubaydullin, Z.Zakirov və başqaları da vardı. Onun üzvləri Ə.Haqverdiyev, Ə.Cavad, M.Bahарlı, T.Şahbazi və başqaları ilə əlaqə yaradaraq elmi, ədəbi əsərlər, mühazirələr və başqa vasitələrlə türk xalqlarının birliyi və azadlığı uğrunda birgə mübarizə ideyalarını təbliğ edirdilər. 1926-cı ildə Bakıda keçirilmiş türkoloji qurultayın da, hökumətin təşəbbüsü ilə keçirilməsinə baxmayaraq, türkçülük ideyasının yayılmasında az təsiri olmadı.

Ruhanilər müsəlman ruhanilərinin Ümumrusiya qurultayında (1926-cı il, 2 noyabr, Urfa şəhəri) ağıllı taktiki addımlar ataraq üzdə sovet hökumətinə sədaqət və kömək vəd etdilər, hökumətə loyal münasibətlə bəzi güzəştlər qazandılar. 1926-cı ildə şeyx Hüseyn Hacı Mirzənin fitvası ilə bütün şiə məscidlərinin qapısı qadınların üzünə açıldı. Məqsəd dini qoruyub saxlamaq, ailədə, gənc nəsildə Allaha, dinə məhəbbət tərbiyə etmək üçün qadınlara ibtidai dini biliklər vermək idi. 1927-ci ildə Bakıda «Təzə pir» məscidinin mütəvəllisi S.Mirzəyevin təşəbbüsü ilə keçirilən yığıncaqda dini həyatı fəallaşdırmaq üçün qərara alındı ki, şəhərdə hər gün məscidlərdən biri açıq olsun, məhərrəmlik mərasimlərində rövzə və mərsiyə oxunması təşkil edilsin. Bununla belə, ruhanilər gizli məscidlər açır, uşaqlara Qurani Kərimi oxumağı öyrənirdilər. 1933-cü ildə belə mədrəsələrdən bir neçəsi Balakəndə, Zaqatalada fəaliyyət göstərirdi. Gizli şəkildə İrana müqəddəs Məşhədə gedib dini təhsil alanlar da vardı.

1931-ci ildən Azərbaycan partiya təşkilatı daxilində ölkədə və partiyada demokratiyanın boğulmasına, Stalin qrupunun diktaturasına, mənəvi əsarətə, ictimai elmlərin buxovlanmasına qarşı mübarizə aparan gizli trotskiçi mərkəz fəaliyyətə başlamışdı. Bu mərkəz Moskva və Leninqraddakı trotskiçi-zinoyevçi təşkilatlarla əlaqədar idi. Professorlar X.Qarber, E.Nikolayev, B.Tixomirovun başçılığı ilə mərkəzin üç qrupu fəaliyyət göstərirdi. Müxtəlif qruplarda birləşmiş və Azərbaycanda işləyən rus professorları (prof. İ.İ.Şirokoqorov qrupu – Juze, Uar-Uar, Belyayev, Oşman, Paxomov v b. konstitusiyalı monarxiya, prof. İşkov və Baqri qrupu burjua-demokratik dövlət tərəfdarı idilər) da yerli millətçi təşkilatlarla əlaqə saxlayırdılar.

Orduda da millətçi təşkilatlar fəaliyyət göstərirdi. Azərbaycan diviziyasının komandiri Vəzirov, qərargah rəisi İbrahimov, bir çox rayon hərbi komissarları milli təşkilatların üzvləri idilər. Hərbi komissarlıqlarda yerli üsyançı təşkilatlar yaradılmışdı.

1934-cü ildə gizli «Azərbaycan milli təşkilatı» fəaliyyətə başladı. Onun başında «yeni millətçilərin» lideri Ruhulla Axundov dururdu. Təşkilatın məqsədi sovet rejiminə qarşı olan bütün qüvvələrlə əlaqə yaratmaq, əlbir olub silahlı üsyanla SSRİ-ni dağıtmaq, Azərbaycanı Rusiya və İran əsarətindən qurtarıb vahid burjua-demokratik respublika qurmaq idi. Azərbaycan milli təşkilatı partiya daxilində tronskiçi mərkəzlə blok yarada bildi (Qarber – Axundov müqaviləsi). Sonra bu gizli bloka digər müxalif qüvvələr – milli təmayülçülər, müsavatçılar,

ittihadçılar, türkçülər, habelə Azərbaycanın yaradıcı ziyalılarının ən yaxşıları birləşdilər. Birlikdə silahlı üsyan planı üç (variantda) hazırlandı. Respublikanın idarə və müəssisələrinin, kolxoz və sovxozlarının bir çoxunda belə gizli təşkilatlar fəaliyyət göstərirdi. Üsyan bütün ölkədə birdən qalxmalı, müharibə və ya hər hansı bir ciddi beynəlxalq konfliktin başlanması dövrünə düşməli idi.

Müxtəlif idarəçilik orqanlarında mühüm vəzifələr tutmağı məqsədə çatmaq uğrunda mübarizə vasitələrindən biri kimi baxılırdı. Qarşıdakı 1927-ci il SSRİ və 1938-ci il Azərbaycan SSR Ali Sovetlərinə seçkilərə müəyyən ümid bəslənilirdi. Stalin də mühüm vəzifələrdə öz adamlarını möhkəmləndirirdi. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə 1934-cü ildə Mir Cəfər Bağırov gətirildi.

Lakin Stalin hakimiyyətin əldən çıxacağından ehtiyat edirdi. 1935-ci ildə XVII partiya qurultayında nümayəndələrin 292 nəfəri onun əleyhinə səs vermişdi. Sonradan sənədlər saxtalaşdırılmışdı, lakin qorxu qalırdı. Stalin qurultayın nümayəndələrinin çoxuna müxtəlif bəhanələrlə divan tutdurmuş, seçki komissiyasının 63 üzvündən 60-ı güllələnmişdi. Qarşıdakı seçkilərdə öz mövqeyini itirəcəyindən qorxan Stalin 1937-ci ildə ÜİK(b)P MK-nın fevral plenumunda «sosializm inkişaf etdikcə sinfi mübarizənin kəskinləşməsi» tezisini irəli sürdü. Ağıllı adamlara, bacarıqlı siyasətçilərə qarşı cəza maşını işə düşdü. İmperiyaya qarşı SSRİ-nin müsəlman və türk xalqlarının apardığı ədalətli mübarizə «pantürkizm», «panislamizm», «panturanizm» adı ilə damğalanıb amansız təqiblərə məruz qaldı. 1937-ci ilin iyun ayında Həmid Sultanovun başçılığı altında Şamaxı rayonunun Təklə, Mərəzə, Leninabad, Çuxuryurd, Əngəxaran, Saqiyan, Xilmilli və b. kəndlərində fəaliyyət göstərən antisovet, üsyançı milli təşkilat aşkara çıxarılıb məhv edildi. Rayonun Leninabad və Əngəxaran kəndlərinin bütün kişi əhalisi öldürüldü və ya sürgün edildi. Hərbi hissələrdə, maarif, energetika, neft sənayesi müəssisələrində, Xəzər Dəniz Gəmiçiliyində, İsmayıllı, Salyan, Qazax, Qasım İsmayılov rayonlarında və başqa yerlərdə milli üsyançı təşkilatlar aşkara çıxarılıb darmadağın edildi. 18 xalq komissarı və onların müavinləri, 32 rayon partiya komitəsi rəhbəri, 28 rayon icraiyyə komitəsi sədri, 88 hərbi işçi millətçi, üsyançı fəaliyyətdə təqsirkar bilindi. Azərbaycan xalqının ən yaxşı oğullarına divan tutulmasında Y.Sumbatov-Topuridze, R.Markaryan, X.Qriqoryan, S.Yemelyanov, T.Borşov kimi Azərbaycan xalqının qəddar düşmənləri xüsusi canfəşanlıq edirdilər. Dəhşətli terror illərində 29 min azərbaycanlı ziyalı

məhv edildi, sürgün olundu. Hüseyn Cavid, Əhməd Cavad, Yusif Vəzir Çəmənzəminli, Mikayıl Müşfiq, Tağı Şahbazi, Seyid Hüseyn, Soltanməcid Qənizadə, Salman Mümtaz, Əli Nəzmi, H.Sanılı, M.Baharlı kimi yazıçı, şair və alimləri, R.Axundov, D.Bünyadzadə, S.M.Əfəndiyev, M.D.Hüseynov, Ə.H.Qarayev, Q.Musabəyov, H.Sultanov, Ç.İldırım və b. siyasi xadimlər, Azərbaycan diviziyasının Qambay Vəzirov, Cabir Əliyev, M.Talıbzadə kimi istedadlı komandirləri qanlı 1937–1938-ci illərin qurbanları oldular. Demək olar ki, yaradıcı ziyalıların əksəriyyəti məhv edildi. Repressiyalara məruz qalanların sayı 200 mindən çox idi. Sovet imperiyasına, milli əsarətə qarşı mübarizə aparan azərbaycanlılara qarşı cəza orqanlarının gördüyü tədbirlər bu orqanlarda inhisar yaratmış rus şovinistlərinin, erməni quldurlarının və onlara yarınanların qərəzliliyi üzündən daha qəddar və amansız olurdu.

İmperiya türk xalqlarının birliyi və azadlığı ideyasından elə qorxmuşdu ki, onları bir-birinə və xarici türk aləminə bağlayan bütün telləri qırmağa çalışırdı. Heç bir zərurət olmadan Azərbaycan SSR Ali Sovetinin 1939-cu il 11 iyul tarixli qərarı ilə Azərbaycan yazısı latın qrafikasından kiril qrafikasına keçirildi (1928-ci ildə Türkiyə latın qrafikalı yazıya keçmişdi). Xalqa türk olduğunu unutdurmaq üçün bu vaxta qədər «türk» adlandlırılan əhali indi rəsmi sənədlərdə «azərbaycanlı» adlandırılmağa başlandı. Respublikada yaşayan azsaylı xalqların rəsmi sənədlərdə tədricən bu adla adlandırılması da onları türklərə qarşı qoymaq, narazılıq salmaq məqsədi güdürdü. 30-cu illərin əvvəllərində Şimali və Cənubi Azərbaycan arasında əlaqələr, demək olar ki, tam kəsildi, sərhədlər möhkəmləndirildi. Cənubdan gəlmiş 10 min azərbaycanlı 1937–1939-cu illərdə İrana sürgün edildi.

1938-ci ilin aprelində Sovet Ordusunda vahid komplektləşdirmə sistemi tətbiq edildi. Milli diviziyalar ləğv olundu. Azərbaycan diviziyası 77-ci dağ-atıcı diviziyaya çevrildi.

## § 6. Bolşevik ideologiyası inhisarı və mənavi həyat

**Dinin sıxışdırılması. Xalqı milli dəyərlərinə özgələşdirmək cəhdləri**

Bolşevik elitasının ağalığını, inzibati-amirlik metodlara əsaslanan təsərrüfatçılığı yalnız adamları cəlbedici kommunist ideallarına inandırmaqla mənəvi cəhətdən buxovlamaq hesabına qoruyub saxlamaq və möhkəmləndirmək olardı. İctimai şüurun bütün formaları üzərində kommu-

nist ideologiyası inhisarının təmin olunması bu illərdə həyata keçirilən mədəni inqilabın əsas qayəsi idi. Yeni uydurma, utopik ideyalara yer etmək üçün beyinlərdən köhnə ehkamları silib atmağa çalışırdılar, mənəvi həyatda güclü təsirə malik olan din ardıcıl surətdə sıxışdırılmağa başlamışdı. Respublika Xalq Maarif Komissarlığı hələ 1920-ci il mayın 10-da məktəblərdə dini etiqad təliminin və dini ayinlərin icrasının qadağan olunması haqqında qərar qəbul etmişdi. Həmin il mayın 15-də qəbul olunmuş «Vicdan azadlığı haqqında» dekretdə dini etiqad azad elan olunsa da, tezliklə məscidlər bağlanmağa, ruhanilərə, dini adət-ənənələrə qarşı zorakı tədbirlər görülməyə başlandı. 20–30-cu illərdə respublikada 2800-dək məscid bağlanmışdı. 30-cu illərin axırlarında burada cəmi 20 məscid vardı. Bakıdakı məşhur Bibi Heybət məscidi, Nuxada və Maştağada qədim minarələr, yüzlərlə başqa müqəddəs ocaqlar dağıdılmışdı. Başqa dinlərə məxsus abidələr, o cümlədən Bakıdakı Aleksandr kilsəsi yerlə yeksan edilmişdi. Xalqın əsrlərlə etiqad etdiyi pirlərin ziyarət edilməsi, demək olar ki, qadağan olunmuşdu. «Yuxarılar»ın təzyiqi ilə 1924-cü ildə şəhər və kəndlərdə «Allahsızlar Cəmiyyəti» təşkil olunmağa başlamışdı. Azərbaycan SSR MİK və XKS 1924-cü ilin iyununda məhərrəmlik mərasimləri keçirilməsini qadağan etmişdi.

Bolşevik ideoloqları xalqı öz tarixi köklərinə, milli dəyərlərinə özgələşdirmək üçün mədəni irsə nihilist münasibət yaratmaq kimi, hətta sonralar Lenin tərəfindən tənqid edilən proletkultçu metodlardan istifadə edirdilər. Qədim kitablar cəhalət, fanatizm mənbəyi kimi məhv olunurdu. Əvvəllər rəsmi şəkildə qeyd olunan, hətta 1921-ci ildən qeyri-iş günü kimi elan edilən Novruz bayramının 30-cu illərdə qeyd olunması qadağan edilmişdi. Tar, kamança, saz kimi milli musiqi alətləri, şifahi xalq yaradıcılığı abidələri, xüsusən dastanlar ciddi tənqid atəşinə tutulurdu. Xalqın milli-psixoloji xüsusiyyətlərinə kökündən zidd olan uydurma süjetli «Qız qalası» əfsanəsi isə geniş təbliğ olunmağa başlanmışdı. Belə qondarma süjet əsasında «Qız qalası əfsanəsi» adlı ikiseriyalı bədii film çəkilmiş (1924-cü il), balet yazılmış və tamaşaya qoyulmuşdu (1940-cı il), 30-cu illərin əvvəllərində «proletariatın mübariz ruhuna» guya yabançı olan tara qarşı geniş kampaniya başlanmışdı. Bu mövzuda açıq diskussiya – «tarın məhkəməsi» keçirilmişdi. Yalnız Üzeyir Hacıbəyov, Mikayıl Müşfiq, Qurban Pirimov kimi qabaqcıl ziyalıların səyi nəticəsində tara bəraət qazandırmaq mümkün olmuşdu.

Yazıda ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya keçid başlanmış, bu iş 1929-cu ildə tam başa çatdırılmışdı. Lakin Azərbaycan əlifbası yenidən dəyişdirildi, yazıda kiril qrafikası tətbiq olunmağa başlandı.

**Yeni təhsil sisteminin yaranması**

Cəlbedici olsa da yeni ideoloji ehkamlar mövcud dini ehkamlardan çox mürəkkəb idi. Onların dərk olunması savad, müəyyən bilik səviyyəsi tələb edirdi. Həm də Azərbaycanın böyük iqtisadi və mənəvi potensialından imperiyanın mənafeyinə səmərəli istifadə etmək üçün burada məhsuldar qüvvələri inkişaf etdirmək, müəyyən bilik və bacarıqları olan işçilər hazırlamaq lazım idi.

Savadsızlığın ləğvinə sovetləşmənin elə ilk aylarından başlanılmışdı. Bunun üçün xüsusi kurslar – «likbez»lər təşkil olunmuşdu. Savadsızlıqla mübarizə üçün 1923-cü ildə XKS yanında xüsusi komitə təsis edilmişdi. Əhalinin artıq 1926-cı ildə 25, 1933-cü ildə isə 51 faizi oxuyub-yazmağı bacarırdı. 30-cu illərin ortalarında savadsızlığın ləğvi ümumxalq hərəkatı elan olunmuşdu. AHİŞ və Xalq Maarif komissarlığı 1933-cü ildə «Elliklə savadlılıq istiqrazı» buraxdı, əldə olunan vəsait savadsızlığın ləğvinə sərf edildi. Üç aylıq «likbez»lər böyüklər üçün 10 aylıq kurslarla əvəz olundu. Bu tədbirlərin əhalinin savadsızlığını tədricən aradan qaldırmaqda müəyyən rolu oldu.

Respublikada ümumtəhsil məktəblərinin inkişafına böyük diqqət göstərilirdi. 1920-ci ildə burada cəmi 965 ümumtəhsil məktəbi vardı. Bu məktəblərdə 79 min şagird təhsil alırdı. 700 mindən çox məktəbyaşlı, o cümlədən 100 mindən çox kimsəsiz uşaq təhsildən kənarda qalmışdı. Respublikanın şəhər və kəndlərində 20–30-cu illərdə 3471 yeni ümumtəhsil məktəbi açılmış, 838 məktəb binası tikilmişdi. Əvvəllər beşillik birdərəcəli (ibtidai) və dördillik ikidərəcəli (orta) məktəblər təşkil olundu. 1924-cü ildən fəhlələr, 1926-cı ildən isə kəndli gənclər üçün yeddiillik məktəblər açıldı. 1931/32-ci dərs ilindən 8–10 yaşlı uşaqlar üçün icbari ibtidai təhsil tətbiq olundu. 1933/34-cü dərs ilindən Bakı, Gəncə və Nuxa şəhərlərində artıq yeddiillik icbari təhsilə keçilmişdi.

Ümumtəhsil məktəblərinin strukturu 1935-ci ildə yenidən dəyişdirildi, bir və ikidərəcəli məktəblər ləğv edildi və əvəzində ibtidai (1–4-cü siniflər), natamam orta (1–7-ci siniflər) və orta (1–10-cu siniflər olan) məktəblər açıldı. Respublikada 1940-cı ildə artıq 4436 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 22 mindən çox müəllim

dərs deyir, 695 min şagird təhsil alırdı. 1939-cu ildə əhali sayımına görə əhalinin yaşı on və ondan yuxarı olan hər min nəfərindən 113-nün orta təhsili (tam və natamam) vardı.

Azərbaycan SSR-də ixtisaslı kadrlar hazırlanması işi də sürətlə genişlənirdi. 20-ci illərin əvvəllərində 9 qısamüddətli pedaqoji kurs təşkil olunmuş və onlarda mindən çox ibtidai sinif müəllimi hazırlanmışdı. 1920-ci ildə respublikada 8 orta ixtisas məktəbi, o cümlədən Bakı, Gəncə, Nuxa və Qazaxda müəllimlər seminariyası açılmışdı. Orta ixtisas məktəblərinin sayı 1927-ci ildə 39-a, 1940-cı ildə isə 91-ə çatdırılmışdı. Bu məktəblərdə 1920-ci ildə 5 min, 1941-ci ildə isə artıq 17 min tələbə təhsil alırdı.

Respublikada ali təhsil də xeyli inkişaf etmişdi. M.Ə.Rəsulzadə adına Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) tibb və tarix fakültələri ilə yanaşı, 1920-ci ildən fizika, riyaziyyat, 1922-ci ildən şərq, 1924-cü ildən pedaqoji, 1928-ci ildən hüquq fakültələri fəaliyyət göstərirdi. 1921-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitututu (indiki Azərbaycan Dövlət Pedaqoji universiteti, 1927–1930-cu illərdə ADU-nun pedaqoji fakültəsinə çevrilib), Qadın Məktəbəqədər Tərbiyə İnstitutu (sonralar APİ-yə birləşdirilib), Azərbaycan Politexnik İnstitutu, şərqdə ilk Konservatoriya (indiki Bakı Musiqi Akademiyası), habelə Ali Rəssamlıq məktəbi açıldı. 1929-cu ildə Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (indiki Azərbaycan Kənd Təsərrüfatı Akademiyası) fəaliyyətə başladı.

Azərbaycanda ali təhsilin təşkilində A.D.Qulyayev, V.S.Yelpatovski, Q.Q.Pisarevski, P.Y.Rastovsev, V.V.Bartold, B.İ.Tixomirov, A.O.Makovelski kimi rus alim-pedaqoqlar, professorlar mühüm rol oynamışdılar. 1928-ci ildən RSFSR-in ali məktəblərində də Azərbaycan üçün kadrlar hazırlamağa başlanmışdı.

1920-ci ildə Bakıda, 1924-cü ildə Gəncədə və Nuxada fəhlələrin ali məktəblərə qəbula hazırlanması üçün fəhlə fakültələri – «rabfak»-lar təşkil olunmuşdu. 1932/33-cü dərs ilində 8 rabfakda 8 minə qədər fəhlə təhsil alırdı.

Respublikada ali məktəblərin şəbəkəsi 30-cu illərdə daha da genişləndi. 1930-cu ildə universitet bağlandı, onun fakültələri əsasında Azərbaycan Tibb İnstitutu (indiki Azərbaycan Tibb Universiteti), Sovet quruculuğu və Hüquq İnstitutu (sonralar Sosial-İqtisadiyyat İnstitutu adlandı), habelə Gəncədə Zaqafqaziya Pambıqçılıq, Mühəndis-Hidromeliorasiya və Azərbaycan Zootexnik-Veterinar İnstitutları (1933-cü

ildə hamısı Kənd Təsərrüfatı İnstitutuna birləşdirildi) açıldı. Sənaye Akademiyası, Zaqafqaziya İdman İnstitutu (sonralar Azərbaycan İdman İnstitutuna çevrildi) və başqa institutlar təşkil olundu. Politexnik İnstitutu Neft İnstitutuna çevrildi. Ali məktəblərdə qiyabi və axşam şöbələri, aspiranturalar yaradıldı.

Azərbaycan Dövlət Universiteti 1934-cü ildə yenidən fəaliyyətə başladı. Həmin il Sosial-İqtisadiyyat və Ticarət-Kooperasiya İnstitutları birləşdirilib Xalq Təsərrüfatı İnstitutu, Neft və İnşaat İnstitutları birləşdirilib Sənaye İnstitutu yaradıldı. 1935-ci ildə Azərbaycan Pedaqoji İnstitutu yanında yeddiillik məktəblər üçün müəllim kadrları hazırlayan Müəllimlər İnstitutu açıldı. 1938-ci ildə o, müstəqil instituta çevrildi. Bir il sonra Gəncədə və Nuxada Müəllimlər İnstitutu təşkil olundu.

1940/41-ci dərs ilində Azərbaycan SSR-də artıq 15 minə qədər tələbənin təhsil aldığı 16 ali məktəb fəaliyyət göstərirdi. Təsərrüfatın müxtəlif sahələrində, mədəniyyət müəssisələrində 48 min, o cümlədən 20 min ali təhsilli mütəxəssis işləyirdi.

20-ci illərdə və 30-cu illərin birinci yarısında respublikada azsaylı xalqların öz ana dilində təhsil almasına xüsusi qayğı göstərilirdi. Xalq Təhsili Komissarlığında milli azlıqların təhsili şöbəsi təşkil edilmişdi. Təkcə 1926–1930-cu illərdə savadlılıq səviyyəsi ləzgilərdə 9,9 faizdən 22,3 faizə, talışlarda 3 faizdən 15 faizə, kürdlərdə 4,3 faizdən 16,7 faizə, tatlarda 5,8 faizdən 18,2 faizə, avarlarda 3,8 faizdən 16,2 faizə qalxmışdı. 20-ci illərdə ləzgilər, talışlar, kürdlər, dağ yəhudiləri, tatlar, saxurlar və udinlər üçün latın qrafikası əsasında əlifba yaradıldı, onların dilində dərsliklər və ədəbiyyat çap edilməyə başlandı. Talışlar üçün Lənkəranda, ləzgilər üçün Qusarda, kürdlər üçün Laçında pedaqoji texnikumlar açıldı. Avarlara və tatlara dərs demək üçün də milli kadrlar hazırlandı. Əvvəllər respublikada təhsil 3 dildə – Azərbaycan, rus və erməni dillərində keçirilirdi. 1926/27-ci dərs ilində tədris 11, 1934/35-ci dərs ilində isə artıq 16 dildə təşkil olunurdu. 30-cu illərin ortalarında Azərbaycan SSR-də yaşayan məktəbyaşlı rusların hamısı, ermənilərin 85 faizə qədəri, talışların 77 faizə qədəri, kürdlərin 50 faizdən çoxu, aysorların 70 faizə qədəri, tatların 62 faizi öz doğma dillərində təhsil alırdılar.

Milli azlıqlara orta ixtisas və ali məktəblərə qəbulda imtiyazlar verilirdi.

Lakin 30-cu illərin sonlarında «millətçiliklə mübarizə» bayrağı altında Azərbaycan SSR-də milli azlıqların dillərində məktəblərin sayı xeyli azaldı.

Respublikada rəhbər partiya-sovet kadrları hazırlamaq sahəsində də geniş iş görülürdü. Bakıda 1920-ci ildə 3 aylıq sovet-partiya məktəbləri, 3–6 aylıq mərkəzi sovet-partiya məktəbi təşkil olunmuşdu. Qəzalarda da belə məktəblər açılırdı. 1930-cu ildə Bakı sovet-partiya məktəbi Mərkəzi Partiya məktəbinə çevrildi. Bakı Kommunist Universiteti açıldı. Kommunist Universiteti 1932-ci ildə kənd təsərrüfatı üçün rəhbər kadrlar hazırlayan Ali Kommunist Kənd Təsərrüfatı məktəbinə çevrildi. Başqa şəhərlərdə, habelə Zaqafqaziya Kommunist Universitetində də partiya təşkilatları və sovetlər üçün rəhbər kadrlar hazırlanırdı.

Məktəblərin başlıca vəzifəsi mərkəzin maraqlı olduğu sahələrdən ötrü müəyyən bilik və qabiliyyətlərə yiyələnən, mövcud quruluşa sadiq icraçı kadrlar hazırlamaq idi və onların işi buna müvafiq şəkildə qurulmuşdu. 20-ci illərdə tədris proqramlarından, dərsliklərdən türkçülük, islamçılıq ideyalarını, xalqın mənəvi dəyərlərini təbliğ edən mövzular çıxarıldı. Azərbaycan müəllimləri qurultaylarındakı (1921 və 1925-ci illərdə) təzyiqedici tədbirlərə baxmayaraq, məktəb hələ xeyli vaxt bolşevizmə yad olan ideoloqların təsiri altında qalmaqda idi.

Təhsilin ideya-siyasi məzmununa diqqət 30-cu illərdə əsaslı şəkildə artdı. 1931/32-ci dərs ilindən ümumtəhsil məktəbləri yeni plan və proqramlar üzrə işləməyə başladılar. Müəllim və şagirdlərə tədris prosesində xeyli müstəqillik verən briqada-laboratoriya üsulu ləğv edilib sinif-dərs sistemi tətbiq olundu. SSRİ XKS və ÜİK(b)P MK-nın 1934-cü il 16 may tarixli qərarı ilə əlaqədar məktəblərdə tarix, coğrafiya fənlərinin tədrisinə diqqət və nəzarət gücləndirildi. Tarix dərslərindən ideoloji silah kimi istifadə olunurdu. Sovet cəmiyyəti ideal bir cəmiyyət kimi təqdim edilirdi. «SSRİ tarixi» əslində Rusiya tarixi kimi tədris olunurdu. Ədəbiyyat dərslərində də sovet reallıqları kobud surətdə saxtalaşdırılırdı.

Hakim bolşevik ideologiyasını beyinlərə yeritməyin mühüm vasitələrindən biri də məktəbdənkənar təhsil sistemi idi. 1920-ci ildə respublikanın şəhər və kəndlərində cəmi 107 klub, 61 kitabxana vardı. Həmin il Azərbaycan tarixi muzeyi təşkil edilmişdi. 1923-cü ildə Respublika Dövlət Kitabxanası (1939-cu ildən M.F.Axundovun adını daşıyır), 1925-ci ildə Dövlət Kitab Palatası fəaliyyətə başlamışdı. Tarix muzeyinin incəsənət şöbəsi əsasında 1936-cı ildə Azərbaycan İncəsənət Muzeyi (1943-cü ildən R.Mustafayev adına) yaradıldı. Sonrakı illərdə mədəni-maarif müəssisələri şəbəkəsi xeyli genişləndi. 1940-cı

ildə Azərbaycan SSR-də artıq 1389 kitabxana, 1633 klub vardı. Kitabxanaların fondunda kitabların sayı 1920-ci ildəkindən 11 dəfə çox – 3,3 milyon nüsxə idi.

Elm

Respublikanın sərvətlərindən daha çox bəhrələnmək, buna münasib maddi və mənəvi imkanlar yaratmaq üçün imperiya Azərbaycanın elmi potensialını artırmağa və ondan səmərəli istifadə etməyə çalışırdı. 1920-ci ildə «Azneft»də xüsusi geoloji kəşfiyyat bürosu təşkil edildi. 1921-ci ildə Bakı Dəniz observatoriyası fəaliyyətə başladı. 1923-cü ildə Azərbaycan SSR Geologiya Komitəsi yaradıldı. Müttəfiq respublikaları, o cümlədən Azərbaycanı tədqiq etmək üçün SSRİ Elmlər Akademiyası yanında xüsusi komissiyalar təşkil olunmuşdu. 1923-cü il noyabrın 2-də Ə.Haqverdiyevin sədrliyi ilə «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti» – Azərbaycanı öyrənən cəmiyyət, habelə onun Naxçıvan, Xankəndi, Nuxa və Şamaxı şöbələri təsis olunmuşdu. Həmin il Respublika Maarif Komissarlığı yanında elmi işlərə rəhbərlik etmək üçün Elmi Şura yaradılmış və o, 1926-cı ildə Dövlət Şurasına çevrilmişdi. Sonrakı illərdə respublikada elmi müəssisələrin şəbəkəsi xeyli genişləndi. 1925-ci ildə Ümumittifaq Energetika və Elektrikləşmə Elmi-Tədqiqat İnstitutunun Bakı bürosu, Mərkəzi Külək-Energetika İnstitutunun Azərbaycan şöbəsi, Heyvandarlıq və Veterinariya Elmi-Tədqiqat İnstitutu təşkil olundu. 30-cu illərin əvvəllərində Tətbiqi Mineralogiya İnstitutunun Azərbaycan şöbəsi, Azərbaycan Elmi-Tədqiqat Tikinti İnstitutu, Azərbaycan Neft Tədqiqat və Neft Maşınqayırma İnstitutları, habelə başqa elm ocaqları təşkil edildi.

Azərbaycanı öyrənən cəmiyyətdə 1928-ci ildə artıq mindən çox elmi işçi çalışırdı. Onun tətbiqi elmlər şöbəsi açılmışdı. 1929-cu ildə bu cəmiyyətin əsasında Dövlət Elmi-Tədqiqat İnstitutu yaradıldı. Bu institutun təbiət, biologiya, tarix və etnoqrafiya, dilçilik, ədəbiyyat və incəsənət, fəlsəfə, dövlət və hüquq, Sovet Şərqi və xarici Şərq bölmələri vardı. Bir il sonra bu institutdan respublikanın təbii məhsuldar qüvvələrini öyrənən Tədqiqat İnstitutu ayrıldı.

1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi təşkil edildi. Şöbəyə R.Axundov rəhbərlik edirdi. Azərbaycanda elmin inkişafında F.Y.Levinson-Lessinq, A.A.Qrossheym, İ.M.Qubkin, N.Y.Marr, İ.İ.Meşşaninov, A.N.Derjavin, İ.Q.Yesman və başqa məş-

hur sovet alimlərinin böyük rolu olmuşdur. Bu elm mərkəzində B.Çobanzadə, A.Tağızadə, Salman Mümtaz, M.Əfəndiyev, V.Xuluflu kimi istedadlı alimlər yetişmişdi. 1935-ci ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi SSRİ EA Azərbaycan filialına çevrildi. Onun tarix, etnoqrafiya, arxeologiya, dil və ədəbiyyat, kimya, biologiya, zoologiya institutları, fizika, energetika, geologiya və torpaqşünaslıq bölmələri təşkil olundu.

Azərbaycanın təbii sərvətlərinin, xüsusən enerji ehtiyatlarının öyrənilməsi və istifadə olunması üzrə elmi-tədqiqat işləri sürətlə genişlənirdi. Geologiya elmi, əsasən neft və başqa təbii sərvətlərin aşkara çıxarılması istiqamətində inkişaf edirdi. Bu sahədə rus alimləri M.V.Abramoviç, D.V.Qolubyatnikov, İ.M.Qubkin fəal iş aparırdı. Neft çıxarılması, emalı, daşınması, neft kimyası və energetika sahələrində nəzərə çarpacaq elmi-texniki irəliləyişlər baş vermişdi.

Respublikanın pambıqçılıq rayonlarında torpağın, habelə heyvan və bitki aləminin, otlaqların öyrənilməsi sahəsində də mühüm tədqiqat işləri aparılırdı. 1929-cu ildə Qızılağac, Zaqatala qoruqları yaradıldı. 1934-cü ildə Bakıda 41 ha sahədə 2500 növdən ibarət bitki kolleksiyası toplanmış Botanika bağı salınmış, Mərdəkan qəsəbəsində onun filialı yaradılmışdı. Lakin biologiya elmi birtərəfli inkişaf etdirilirdi. Genetika antimarksist elm kimi sıxışdırılırdı. Canlı aləmin inkişafında mühitin, tərbiyənin rolu çox şişirdilir, genlərlə keçən təbii imkanların əhəmiyyəti nəzərə alınmırdı.

İctimai elmlər sahəsində öz dəst-xətti ilə fərqlənən iki mərkəz yaranmışdı. Bunlardan biri, əsasən «köhnə mütəxəssislərin» cəlb olunduğu Azərbaycanı öyrənən cəmiyyət idi. Onun işində Simurq (T.Şahbazi), Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, B.Çobanzadə, İ.İ.Meşşaninov, Məhəmmədhəsən Vəlili (Baharlı) və başqaları fəal iştirak edirdilər. Burada Azərbaycan xalqının tarixi, maddi və mənəvi mədəniyyətinin obyektiv şəkildə öyrənilməsinə cəhdlər göstərilirdi. İlk mənbələr aşkara çıxarılır, öyrənilir, tərcümə edilir və çap olunurdu. 1923–1929-cu illərdə bu cəmiyyətin «Xəbərləri» nəşr edilirdi. Bu illərdə görkəmli iqtisadçi-alim Məhəmmədhəsən Vəlilinin (Baharlı) «Azərbaycan–coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat», R.İsmayılovun «Azərbaycan tarixi», Y.Paxomovun «Azərbaycan tarixinin qısa kursu» və başqa əsərlər çap olunmuşdu.

1922-ci ildə təşkil olunmuş Azərbaycan Arxeologiya Cəmiyyəti fəal işləyirdi. 1923-cü ildə bu cəmiyyət Arxeologiya Komitəsinə,

1927-ci ildə isə Tarix, İncəsənət və Təbiət Abidələrinin Mühafizəsi Komitəsinə çevrildi. Respublikada böyük arxeoloji abidələr – Xocalı-Gədəbəy, Yaloylutəpə, Qızıl-Vəng arxeoloji mədəniyyətləri aşkar edildi.

Fəlsəfə, ədəbiyyat, dilşünaslıq sahələrində də müəyyən irəliləmələr əldə olunmuşdu. Klassik şair və yazıçıların əsərləri, habelə görkəmli ədəbiyyatşünas F.Köçərlinin ədəbiyyat tarixinə dair tədqiqatları çap edilmişdi.

Azərbaycan xalqının ədəbi irsinin toplanması və sistemləşdirilməsində Salman Mümtaz mühüm rol oynayırdı.

1926-cı ildə Bakıda I türkologiya qurultayı keçirildi. Qurultayda SSRİ-dən və xarici ölkələrdən çoxlu nümayəndə iştirak edirdi. O, türkologiyanın inkişafında mühüm rol oynadı. 1933–1938-ci illərdə türk dilinin qrammatikası dərslikləri hazırlanıb çap olundu. Lakin bu sahədə başlanmış işlər imperiyanın antitürk siyasətinə qurban verildi. Qurultayın Azərbaycan SSR-dən olan 16 nümayəndəsindən 15-i repressiyalara məruz qaldı.

Azərbaycanın XX əsr tarixinin öyrənilməsini Azərbaycan K(b)MK və BK yanında təşkil olunmuş partiya tarixini öyrənən xüsusi komissiya («AZİSTPART»), demək olar ki, öz inhisarına almışdı. Bu komissiya 1928-ci ildə Partiya Tarixi İnstitutuna çevrilmişdi. 1939-cu ildə bu institut əsasında ÜİK(b)P MK yanında Marks, Engels və Lenin İnstitutunun filialı (1956-cı ildən Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutu adlanırdı) təşkil edilmişdi. Burada hazırlanan əsərlərdə Azərbaycan tarixinin son dövrləri ciddi şəkildə saxtalaşdırılırdı.

Azərbaycanın müasir dövr tarixi o zaman xaricdə mühacir olan ziyalıların əsərlərində də işıqlandırılırdı. 1923-cü ildə Türkiyədə M.Ə.Rəsulzadənin «Azərbaycan Cümhuriyyəti», C.Zeynalovun «Müxtəsər Azərbaycan tarixi» kitabları çap olundu. İstanbulda «Azərbaycan yurd bilgisi» adlı elmi məcmuə nəşr edilirdi. Görkəmli tarixçi M.B.Məmmədzadə 1927-ci ildə «Azərbaycan misaki millisi», 1938-ci ildə «Milli Azərbaycan hərəkatı» adlı dəyərli əsərlərini yazmışdı. Əhməd bəy Ağayev hüquq tarixi və siyasət, Ceyhun bəy Hacıbəyov, Əlibəy Hüseynzadə dil və ədəbiyyat problemlərinə aid maraqlı əsərlər yaratmışdılar.

20–30-cu illərdə Azərbaycan SSR-də elm və təhsilin inkişafına mənəvi həyatda hələ böyük nüfuza malik olan «köhnə» ziyalıların təqib olunması, 1937-ci ildən isə açıq repressiyalara məruz qalmaları olduqca ləngidici təsir göstərirdi. Bir çox görkəmli alim və maarifçilərin,

orijinal təfəkkür sahiblərinin, o cümlədən Vəli Xuluflu, Məhəmmədhəsən Vəlili, Tağı Şahbazi, Salman Mümtaz, Bəkir Çobanzadə və onlarla başqalarının həbs olunub məhv edilməsi Azərbaycan mədəniyyətinin gələcək inkişafına da əvəzi ödənilə bilməyən ziyan vurdu.

**Kütləvi informasiya vasitələri**

Kütləvi informasiya vasitələrinin rəsmi ideologiya inhisarı altına alınması bolşevik ehkamlarını şüurlara yeritməyin, xalqı öz tarixinə, soykökünə, milli dəyərlərinə özgələşdirməyin mühüm yollarından biri idi. Bu sahədə «Pravda», «İzvestiya», «Kommunist», «Bakinski raboçiy» qəzetləri ilə yanaşı, yeni təsis olunan qəzet və jurnallar da mühüm rol oynayırdı. Respublikada 1920-ci ildən «Xalq təsərrüfatı» (1922-ci ildə «Azərbaycan neft təsərrüfatı» adlanırdı). 1920–1921-ci illərdə «Molodoy kommunist», 1921-ci ildən «Əkinçi» (1925–1932-ci illərdə «Yeni kənd» adlanırdı) jurnalları, 1922–1939-cu illərdə latın qrafikası ilə «Yeni yol» qəzeti, 1922–1926-cı illərdə «Molla Nəsrəddin» jurnalı, 1923-cü ildən «Maarif və mədəniyyət», 1928–1936-cı illərdə «İnqilab və mədəniyyət» (1936–1941-ci illərdə «Revolyutsiya və kultura» adlanırdı), «Şərq qadını» (1938-ci ildən «Azərbaycan qadını» adlanır) jurnalları, 1923–1941-ci illərdə «Molodoy raboçiy» və «Gənc işçi» qəzetləri, 1924-cü ildən «Yeni məktəb» (1930–1933-cü illərdə «Müəllimə kömək» adlanırdı), 1934–1941-ci illərdə «Literaturnıy Azerbaydjan» jurnalları, 1928-ci ildən «Vışka», 1934-cü ildən «Kommunist maarifi» (1938–1941-ci illərdə «Müəllim qəzeti» adlanırdı), «Ədəbiyyat», 1938-ci ildən «Azərbaycan pioneri» qəzetləri, habelə başqa qəzet və jurnallar nəşr olunurdu. Respublikada yaşayan azsaylı xalqların dilində – erməni, rus, alman, talış, tat dillərində də qəzetlər buraxılırdı. Ümumiyyətlə, respublikada artıq 1928-ci ildə 23, 1940-cı ildə isə 185 adda qəzet və jurnal nəşr edilib yayılırdı.

Azərbaycan SSR-də kitab nəşri sahəsində də mühüm irəliləmələr baş vermişdi. Əgər 1920–1926-cı illərdə burada cəmi 858 adda kitab və kitabça çap edilmişdisə, təkcə 1940-cı ildə onların sayı 1141-dən çox olmuşdu. «Marksizm klassiklərinin» – Marksın, Engelsin, Leninin və ən çox Stalinin əsərləri kütləvi tirajla nəşr edilirdi. Təkcə 1923–1938-ci illərdə onların 184 əsəri Azərbaycan dilinə tərcümə edilib çap olunmuşdu. XIX–XX əsrlərin tarixini kobud şəkildə saxtalaşdıran «ÜİK(b)P tarixinin qısa kursu» 1938–1940-cı illərdə tərcümə olunub bir neçə dəfə nəşr edilmişdi.

20–30-cu illərdə respublika sürətlə radiolaşdırılırdı. Bakıda ilk radioqurğu 1924-cü ildə işə salınmışdı. Sonralar uzun və qısadalğalı ra-

diostansiyalar istifadəyə verildi. Radioefirdə ilk dəfə «Danışır Bakı» sözləri 1926-cı ildə eşidildi. Respublikada 1930-cu ildə artıq 269, 1940-cı ildə isə 51 min radiotranslyasiya nöqtəsi vardı.

**Ədəbiyyat** İdeoloji təzyiq nə qədər güclü olsa da – M.Ə.Rəsulzadənin qeyd etdiyi kimi – 1937-ci ilədək ədəbiyyatda əsl hakimiyyət inqilabdan əvvəlki qələm sahiblərinin əlində idi. Poeziyada «Cavad-Cavid stili» hakimiyyətini hələ saxlayırdı.

Bu illərdə Əhməd Cavad rəmzlər vasitəsilə siyasi lirikanın gözəl nümunələrini yaradır. «Göy göl» şeirində (1925-ci il) o, gözəl, şöhrətli, lakin yaralı, öz dərdi ilə təklənmiş, qeyrətli övladlarından ayrı düşmüş, səsi-sədası heç kəsə çatmayan Vətən obrazı yaradır. Şair «Kür» poemasında (1930-cu il) Kürü xalqa bənzədir. Qürurlu, genişqəlbli, incə, işvəli, bəzən də dəliqanlı olan Kürə indi başqasının qarşısında əyilmək, qatır olmaq, yük daşımaq, yer qazmaq əmri verilib. Şeir oxucuda etiraz oyadır. «Səsli qız» poemasında Əhməd Cavad müstəqilliyini itirmiş ölkənin labüd olaraq düşdüyü vəziyyəti təsvir edir:

*...Gülmək zatən yox idi,*
*Ağlamaq oldu yasaq.*
*Zavallı məğlub ölkə,*
*Sana nə hüquq, nə haqq...*

Əhməd Cavadın şeirləri böyük təsir gücünə malik idi. Şair mövcud rejim tərəfindən təqib olunsa da, onun şeirləri əldən-ələ gəzirdi.

Hüseyn Cavid 1922–1923-cü illərdə yazdığı «Peyğəmbər» mənzum pyesində tarixi materialdan istifadə edərək öz dövrünü tənqid atəşinə tutur:

*Öylə bir əsr içindəyəm ki, cahan,*
*Zülmü vəhşətlə qovrulub yanıyor.*
*Üz çevirmiş də tanrıdan insan,*
*Küfrü haqq, cəhli mərifət sanıyor.*
*Başçıdır xalqa bir yığın cani,*
*Həp münafiq, şərəfsiz, əxlaqsız.*

H.Cavid «Topol Teymur» pyesində (1925-ci il) türk dünyasının ümumi qəhrəman tipini yaradır. Türkləri birliyə çağırır. O, «Nil yavrusu» (1926-cı il), «Azər» dastanı, «Telli saz», «Kor neyzən» (1930-cu il), «Xəyyam» (1935-ci il) əsərlərində İstibdada, müstəmləkə zülmünə, milli əsarətə qarşı çıxır, azadlıq ideyalarını tərənnüm edir. «Səyavuş» pyesində (1933-cü il) şair rifahını öz xalqının birliyində

deyil, gah bir sələfi olan İranda, gah da başqa sələfi olan Turanda axtaran igid, lakin federalist təbiətli Səyavuşun faciəsini göstərir. «İblisin intiqamı» dramında (1936-cı il) Cavid faşizmin inkişafından, dünya müharibəsi təhlükəsinin artmasından dərin narahatlığını ifadə edir.

Cəlil Məmmədquluzadənin 1921-ci ildə yazdığı «Danabaş kəndinin məktəbi» pyesində yadelli ağalardan Azərbaycan kəndlisinin xeyir görmədiyi, həm də xeyir gözləmədiyi, onların hərəkətində haqlı olaraq həmişə «şər» axtardığı açıqlanır. Ədib «Dəli yığıncağı» komediyasında (1926-ci il) adamların taleyini, xalqın ruhunu, mənəviyyatını duya, dərk edə bilməyən yad hakimlərə və həkimlərə tapşırılması «dəlilərdən» fəna olan «ağıllıların» dəli əməli kimi kəskin tənqid edir.

S.S.Axundovun «Laçın yuvası» pyesində (1921-ci il) bolşevik «inqilabının» Azərbaycan dağlarında heç bir ictimai bazaya əsaslanmadığı və buna görə zorakılığa, böyük insan müsibətlərinə səbəb olduğu açıqlanır.

Cəfər Cabbarlının «Aydın» (1921-ci il), «Oqtay Eloğlu» (1923-cü il) romantik faciələrində qəhrəmanların istismara, zülmə, milli ayrı-seçkiliyə qarşı anarxistcəsinə üsyanının labüd uğursuzluğu göstərilir. Dramaturqun «Od gəlini» pyesində (1928-ci il) xalqın yadelli işğalçılara və onların mənəvi bayrağı olan yeni ideologiyalara qarşı mübarizəsi təqdir olunur, «1905-ci ildə» pyesində (1931-ci il) «Parçala və hökmranlıq et» siyasəti yeridən rus imperializminin millətlər arasında qanlı ədavət törətməsinin mexanizmi ustalıqla göstərilir.

Hacı Kərim Sanılı «Aran köçü» poemasında (1924-cü il) çoban həyatını, xalqın ənənələrini, əməksevərliyini, qonaqpərvərliyini təsvir edir, gözəl təbiət lirikası nümunələri, poetik lövhələr yaradır, oxucuya vətənpərvərlik ruhu aşılayır. Şair «Namus davası» tarixi poemasında (1927-ci il) Vətən namusunun, hətta ailə namusundan üstün olduğunu göstərir.

Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, A.Şaiq, S.Hüseyn, M.S.Ordubadi də bu illərdə yazdıqları əsərlərdə xalqın həyatından canlı, realist səhnələr vermişdilər.

Sabit Rəhmanın 1933-cü ildə yazdığı «Vəfasız» əsərində sovet reallıqları, başqa cür düşündüyü üçün təqib olunan insanın faciəsi inandırıcı boyalarla verilmişdir. Yazıçının 1938-ci ildə yazdığı «Toy» komediyasında mövcud idarəçilik sistemi, onun hakimiyyətə soxularaq dərəbəylik etməyə imkan yaratdığı küt «rəhbərlər» kəskin satira atəşinə tutulur. Həmid Axundlunun 1940-cı ildə yazdığı «Kələfin ucu» romanında, hətta «inqilabçı proletar mühitində» – Bakıda belə kommunist olmağın qeyri-mümkünlüyü, təbii olaraq milli ruhun üstün gəlmə-

sini təsvir etmişdir. Qantəmirin (Qafur Əfəndiyev) 1935-ci ildə yazdığı «Kolxozistan» povestində Azərbaycanda kollektivləşdirmənin üsulları, əhalidə onlara müxtəlif münasibət təbii boyalarla, canlı obrazlarla əks olunmuşdur.

Bolşeviklər Azərbaycan ədəbiyyatını, ədəbi qüvvələrini imperiyaya, onun cəfəng ehkamlarına xidmətə cəlb etməyə çalışırdılar. 1922-ci ildə «Zəhmətkeş Ədib və Şairlər İttifaqı», 1925-ci ildə «Ədəbiyyat Cəmiyyəti» yaradılmışdı. Lakin əsasən, artıq püxtələşmiş, müqtədir sənətkarların birləşdiyi bu təşkilatlara yuxarıdan təzyiq göstərmək, demək olar ki, qeyri-mümkün idi. Buna görə də 1925-ci ildə «Kommunist» qəzeti yanında «Qızıl Gənc Qələmlər» cəmiyyəti də təşkil olunmuşdu. 1926-cı ilin noyabrında «Ədəbiyyat Cəmiyyəti» və «Qızıl Gənc Qələmlər» cəmiyyəti «Qızıl Qələmlər» ittifaqında birləşdirildi. Bu ittifaqın əsasında 1928-ci ildə «Azərbaycan Proletar Yazıçılar Cəmiyyəti» yaradıldı. Lakin bolşevikləri bu da qane etmirdi. Partiyanın diktəsi ilə işləyən müti aparat yaratmaq mümkün olmur, təşkilatların adı dəyişdirilsə də onlarda ustad sənətkarların nüfuzu qalırdı. «Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında ÜİK(b)P MK-nın 1932-ci il 23 aprel tarixli qərarı ilə əlaqədar «Azərbaycan Yazıçılar İttifaqı» təsis edildi, partiyanın, habelə imperiya təhlükəsizlik orqanlarının bu təşkilata, yazıçı və şairlərin yaradıcılığına nəzarəti gücləndirildi.

20-30-cu illərdə ədəbiyyata yeni gələn istedadların bir hissəsi bolşevik ideyalarının carçılarına çevrilmişdi. Lakin onların arasında müxtəlif təsvir vasitələrindən istifadə etməklə imkan daxilində xalqa xidmət göstərməyə çalışan şair və yazıçılar da vardı. Mikayıl Müşfiqin şeirlərində Azərbaycan xalqının daxili aləmi, təbiətlə mənəvi bağlılığı, saflığı lirik boyalarla tərənnüm olunurdu. Səməd Vurğunun lirikası bənzərsiz və xalqın mənəvi dünyasına olduqca doğma idi. Onun «Komsomol» poemasında (1931-ci ildən yazmağa başlayıb) sovetləşmənin Azərbaycan kəndinə zorla gətirdiyi yeniliklərin varlı-kasıblı bütün xalqın, o cümlədən əlinə hakimiyyət keçmiş təcrübəsiz, kəmsavad zümrənin böyük faciəsinə səbəb olması ustalıqla açıqlanırdı. S.Vurğun «Vaqif» dramında tarixi mövzuya həddindən artıq sərbəst yanaşıb, ciddi təhriflərə yol versə də iqtidarı ilə ziyalısı dilbir olmayan xalqın daxili faciəsini göstərməyə müvəffəq olmuşdur. Qan iyi gələn 1937-ci ildə yazdığı bu əsəri şair Vidadinin dili ilə:

*«Xudaya! İnsanın halı yamandır,*
*Nələr çəkdiyimiz sənə əyandır»*

– deyə, başlayır. S.Vurğun «Zərdüştün xülyaları» adlı şeirində «işıqlı bir günə yol göstərənlər»in bəşər mənəviyyatını tapdalamasına qarşı çıxırdı.

20-ci illərin əvvəllərində xalq nəğməkarı Aşıq Ələsgərin yazdığı qoşmalar və satirik bəndlər geniş yayılmışdı. Yuxarıların təzyiqi ilə 1926-cı ildə toplanmış Aşıqlar Qurultayı «yeni həyat»ı ilhamla tərif etməyə çağırmasına baxmayaraq, bir çox aşıqlar, xüsusən Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmkir, Aşıq Mirzə və başqaları xalq yaradıcılığının bu formasının təmizliyinin qorunub saxlanılmasında mühüm rol oynadılar.

Şimali Azərbaycan sovetləşdikdən sonra mühacirətə getməyə məcbur olmuş ədiblərin yaradıcılığı da Azərbaycan ədəbi prosesinin ayrılmaz bir hissəsi idi. Xaricdə yaşayan Əmin Abidin (Gültəkin), Almas İldırımın, Yaycılı Kərimin və başqalarının yaradıcılığında istiqlal həsrəti və azadlığa tükənməz ümid başlıca yer tuturdu:

*«Qaldıqca ruslarda diyarım mənim,*
*İntiqam olacaq şüarım mənim»*

– deyən Gültəkin xalqın istiqlal əzmini tərənnüm edirdi. Almaz İldırım «dəmir pərdə arxasındakı» qızıl dünyanın kölələr cənnətinə» lənətlər yağdırırdı. «Bir gün gələcək» şeirində o yazırdı:

*Lənət hürr bir aləmdə insan hürriyyətinə,*
*Məlun bir qüvvət kimi zəncir vurana lənət!*
*Qapılıb bir zümrənin zor güdən niyyətinə,*
*Müqəddəs diləklərə qarşı durana lənət!*

20–30-cu illərdə dünya ədəbi xəzinəsinin ən qiymətli inciləri, o cümlədən Nizaminin poemaları və şeirləri, V.Şeksprin və İ.Şillerin faciələri, A.S.Puşkinin «Yevgeni Onegin» mənzum romanı Azərbaycan dilinə tərcümə olunmuşdu. 1924-cü ildə M.Füzulinin, 1928-ci ildə M.F.Axundovun, 1932-ci ildə M.Ə.Sabirin yubileyləri, Ə.Nəvainin 500, A.S.Puşkinin 100, Ş.Rustavelinin 750, Firdovsinin 1000 illiyi geniş qeyd edilmişdi.

Azərbaycan o zamankı ədəbi mühitinə S.Yeseninin (1923–1924-cü illərdə), V.Mayakovskinin (1926–1927-ci illərdə), A.Borbyusun (1927-ci ildə), N.Hikmətin (1927-ci ildə), M.Qorkinin (1928-ci ildə) və başqa xarici yazıçı və şairlərin burada olması da az təsir göstərməmişdir.

**İncəsənət** Sovet hökuməti bolşevik idealları təbliğində ictimai şüurun daha asan qavranılan formalarından olan incəsənətə, xüsusən teatr, kino, musiqi sənətinə, monumental rəssamlığa, heykəltəraşlığa, memarlığa səmərəli vasitələrdən biri kimi baxırdı.

1920-ci ildə mövcud teatr qrupları əsasında Birləşmiş Dövlət Teatrı, 1922-ci ildə onun truppası əsasında Azərbaycan Dram Teatrı (1942-ci ildən Dövlət Akademik Dram Teatrı, indi Akademik Milli Teatr adlanır), 1924-cü ildə Birləşmiş Dövlət Teatrının opera və balet qrupu əsasında Azərbaycan Dövlət Opera və Balet Teatrı yaradıldı. 1920-ci ildə təşkil olunan Rus Azad Tənqid və Təbliğ Teatrı 1923-cü ildə Bakı İşçi Teatrına, 1937-ci ildə isə Azərbaycan Dövlət Rus Dram Teatrına çevrildi. 1921-ci ildə Bakıda Azərbaycan Tənqid-Təbliğ Teatrı fəaliyyətə başladı. 1925-ci ildə bu teatr Azərbaycan Fəhlə-Kəndli Teatrına çevrildi. 1928-ci ildə Bakıda Rus Uşaq Teatrı, 1929-cu ildə onun Azərbaycan bölməsi təşkil olundu. 1936-cı ildən bu teatr Gənc Tamaşaçılar Teatrı adlanmağa başladı. 1930-cu ildə Bakıda Fəhlə-Gənclər Teatrı, 1931-ci ildə Azərbaycan Kukla Teatrı, 1933-cü ildə Gəncə Dövlət Teatrı yaradıldı. 1938-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının musiqili komediya qrupu əsasında Azərbaycan Musiqili Komediya Teatrı təşkil edildi. 1940-cı ildə Azərbaycan SSR-də artıq 18 teatr, o cümlədən Naxçıvanda, Gəncədə, Xankəndində və Nuxada dövlət teatrları vardı. Respublikada erməni, yəhudi, tat, talış, gürcü, tatar milli teatrları milli folklor dərnəkləri fəaliyyət göstərirdi.

Teatr üçün kadrlar əsasən Azərbaycan Dövlət Konservatoriyasında və 1923-cü ildə şərqdə ilk dəfə olaraq təşkil olunmuş Bakı Teatr Texnikumunda hazırlanırdı.

Azərbaycan İncəsənətində də, ədəbiyyatda olduğu kimi, milli ənənələr o qədər güclü idi ki, hətta müasir mövzulara həsr olunmuş əsərlərin çoxunda bolşeviklərin vəd etdikləri «işıqlı gələcəyə» aparan qeyri-insani, zorakı yollar, onların doğurduğu münasibətlər ustalıqla açıqlanırdı. Teatr dövlətin əlində olsa da, imperiyadan daha çox xalqa, onun mənəvi zənginləşməsinə, maariflənməsinə xidmət edirdi. Azərbaycan səhnəsində Cəfər Cabbarlının, Hüseyn Cavidin, V.Şeksprin, İ.Şillerin, S.Vurğunun və b. dramaturqların əsərləri müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu. Milli teatrın inkişafında A.A.Tuqanov, İ.Hidayətzadə və Ə.İsgəndərov kimi müqtədir rejissorların, A.Şərifzadə, M.A.Əliyev, M.Davıdova, S.Ruhulla, Ü.Rəcəb, R.Təhmasib, Ə.Ələkbərov kimi aktyorların böyük xidməti olmuşdur.

1934-cü ildə Opera və Balet Teatrında R.Qlierin «Şahsənəm», 1935-ci ildə M.Maqomayevin «Nərgiz», 1937-ci ildə Ü.Hacıbəyovun «Koroğlu» operalarının tamaşaya qoyulması respublikanın mənəvi həyatında böyük hadisə idi. Liberetto mətni uğursuz olsa da Ə.Bədəlbəylinin «Qız qalası» baleti tarixə (1940-cı ildə) ilk Azərbaycan baleti kimi daxil oldu. Azərbaycan opera sənətinin inkişafında Bülbülün (Murtuza Məmmədov), Hüseynqulu Sarabskinin, Şövkət Məmmədovanın, Fatma Muxtarovanın, Həqiqət Rzayevanın, Hüseynağa Hacıbabəyovun, balet sənətinin inkişafında Qəmər Almaszadənin, Leyla Vəkilovanın və başqalarının rolu əvəzsiz olmuşdur.

Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyovun rəhbərliyi ilə 1926-cı ildə Azərbaycanda ilk çoxsəsli xor, 1931-ci ildə ilk notlu Azərbaycan Xalq Çalğı Alətləri Orkestri, 1936-cı ildə respublika konsert mərkəzi– Filarmoniya, Azərbaycan Dövlət Xoru və Xalq Rəqs Ansamblı, 1938-ci ildə Mahnı və Rəqs, habelə Sazçılar ansamblları və Azərbaycan Dövlət Simfonik Orkestri fəaliyyətə başladı. 1934-cü ildə «Azərbaycan Bəstəkarlar İttifaqı» yaradıldı. Azərbaycan oyun havalarının, xalq mahnılarının, təsniflərin və muğamların toplanması təşkil olundu. Azərbaycan milli musiqisinin inkişafında və yayılmasında məşhur xanəndələr Cabbar Qaryağdı oğlunun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Zülfi Adıgözəlovun və başqalarının böyük xidmətləri olmuşdur. Musiqi ifaçılığında milli avazla yanaşı, çoxsəsli Avropa avazı sistemi də inkişaf edirdi.

20–30-cu illərdə Azərbaycan kino sənəti də xeyli inkişaf etdi. 1923-cü ildə respublika fotokino idarəsi, 1926-cı ildə onun əsasında kinostudiya təşkil olunmuşdu. Milli kinorejissor və aktyor kadrları hazırlanmasında 1925-ci ildə fotokino idarəsi yanında təşkil edilmiş studiya mühüm rol oynadı. «Qız qalası» əfsanəsi (1924-cü il), «Bismillah» (1924-cü il), «Gilan qızı» (1927-ci il), «Hacı Qara», «Sevil», «Lətif» (1929-cu il), «26-lar» (1931-ci il), «İsmət» (1934-cü il), «Almaz» (1936-cı il), ilk səsli film «Mavi dənizin sahilində» (1936-cı il), «Bakılılar» (1938-ci il), «Kəndlilər» (1940-cı il) və başqa filmlər çəkilib ekranlara buraxıldı. 1936-cı ildən Azərbaycanda cizgi filmləri çəkilməyə başlandı. Respublikanın şəhər və kəndlərində 1920-ci ildə cəmi 7, 1940-cı ildə isə artıq 426 kinoqurğu vardı.

Respublikada yeni rəssamlıq, habelə heykəltəraşlıq məktəbləri formalaşmağa başlamışdı. 1920-ci ildə Bakıda qrafika studiyası, bədii studiya, heykəltəraşlıq emalatxanası açılmışdı. Bədii studiya əsasında

həmin il yaranmış Ali Rəssamlıq Məktəbi, 1927-ci ildən isə rəssamlıq texnikumu təsviri sənət sahəsində ixtisaslı kadrlar hazırlayırdı. 1932-ci ildə «Azərbaycan Rəssamlar İttifaqı» təşkil olunmuşdu. Ən yaxşı təsviri sənət nümunələri milli məzmun və üslubda yaradılırdı. Bəhruz Kəngərli 1920–1922-ci illərdə realist ifadəçilik tərzi, bədii dəyəri ilə qiymətli olan portret və mənzərələr yaratmışdı. Onun dəzgah boyakarlığı məktəbi başqa rəssamlar tərəfindən davam etdirilirdi. Əzim Əzimzadənin milli qrafika ənənələrini müasir rəssamlıq mədəniyyəti ilə əlaqələndirən əsərləri, xüsusən 30-cu illərdə yaratdığı «Köhnə Bakı tipləri» satirik rəsmləri gözəl sənətkarlıq nümunələri idi.

Sovet hökuməti Leninin monumental təbliğat ideyasını Azərbaycanda geniş həyata keçirirdi. 1923-cü ildə Bakıda 26-lara böyük abidə açıldı. Şəhər və kəndlərdə bolşevik rəhbərlərə, inqilab öncüllərinə heykəllər qoyulurdu. Bakıda 1918-ci ilin martında bolşevik-daşnak quldurlarının törətdiyi azərbaycanlı soyqırımının qurbanları dəfn edilmiş dağüstü qəbiristanlıq sökülüb, yerində salınmış parkda 1939-cu ildə S.M.Kirovun 25 m hündürlüyü olan heykəli ucaldılmışdı.

Bu illərdə Sovet hökumətinin böyük qayğısı sayəsində «formaca milli, məzmunca sosialist mədəniyyət» formalaşırdı. 1937-ci il bu prosesi xeyli sürətləndirdi. Qanlı terror nəticəsində milli yaradıcı ziyalıların, o cümlədən Əhməd Cavadın, Hüseyn Cavidin, Y.V.Çəmənzəminlinin, Mikayıl Müşfiqin, A.Şərifzadənin, Ü.Rəcəbin və başqalarının həbsi, Sibirə sürgün edilməsi və məhv olunması Azərbaycan ədəbiyyatının və incəsənətinin inkişafını ləngitdi, bolşevik ideologiyasının bu sahələrə təsirinin güclənməsinə şərait yaratdı.

# XI FƏSİL

## CƏNUBİ AZƏRBAYCAN 1920–1930-cu İLLƏRDƏ

### § 1. 20-ci illərin birinci yarısında Cənubi Azərbaycanda ictimai-siyasi vəziyyət

20-ci illərin birinci yarısında ictimai-siyasi vəziyyət mütərəqqi, liberal-demokratların deyil, əks-təmayüllərin və qüvvələrin xeyrinə dəyişməyə başlayır. Bu, əlbəttə, birinci növbədə bu zaman üçün yaranmış daxili obyektiv amillərdən – sosial-iqtisadi gerilikdən, ictimai şüurun səviyyəsinin aşağı olmasından irəli gəlirdi. Bu isə, öz növbəsində tamamilə qanunauyğun olaraq bütün ictimai-siyasi, inqilabi hərəkatların, o cümlədən liberal-demokratik hərəkatın məhdudluğuna, ziddiyyətliliyinə, qeyri-ardıcıllığına gətirib çıxarırdı. Bu da həmin hərəkatların nəticə etibarilə məğlubiyyətinə gətirib çıxaran əsas səbəblərdən biri oldu. Cənubi Azərbaycanda əlavə olaraq belə bir amil də özünü göstərdi ki, öz əsas sosial-siyasi məzmununa görə liberal-demokratik məsləkli 1918–1920-ci illər hərəkatı bu zaman üçün artıq tarixi məcburiyyət olmuş milli-demokratik səviyyəyə yüksəlmədi. Halbuki Şimali Azərbaycanda, Türkiyədə məhz belə oldu və bu da hər iki halda hərəkatların qələbəsini təmin etmiş ən mühüm amil rolunu oynadı.

Lakin 20-ci illərin birinci yarısında Cənubi Azərbaycanda gedən ictimai-siyasi mübarizəyə, onun gedişi və nəticələrinə bu zaman xarici amil də böyük təsir etmişdir ki, bu da onillərcə İranda ağalıq etmiş İngiltərə və Rusiyanın siyasəti idi.

İlk vaxtlar Böyük Britaniya İranda ən sağ, mürtəce feodal ünsürlərə yardım siyasətini davam etdirməyə çalışırdı, çünki məhz feodallar demokratik hərəkata qarşı mübarizədə İngiltərədən kömək almaq üçün ona böyük güzəştlərə getməyə hazır idi və İranın məhdud suverenliyinə, İngiltərədən yarımasılı vəziyyətdə qalmasına çalışırdı. Bu mənada

İranın hakim feodal dairələrinə (o zaman bunlara baş nazir vəzifəsində olmuş Vüsuqüddövlə, Qəvamüssəltənə qardaşları, iri ruhanilərin rəhbəri Müdərris və başqaları rəhbərlik edirdi) qəbul etdirilən 1919-cu il İngiltərə-İran sazişi xüsusi rol oynamalı idi. Lakin İngiltərə çox tez əmin oldu ki, həmin sazişi İranın, əslində bütün siyasi qüvvələri rədd edir, ona qarşı qətiyyətlə mübarizə aparır. Məhz buna görə də İngiltərə az da olsa İrandakı nüfuzunu qoruyub saxlamaq və buradakı köhnə rəqibi olan Rusiyanın nüfuzunun güclənməsinə yol verməmək üçün burada siyasətini «yeniləşdirməyə», mülkədar-burjua «Millətçilərinə» tərəfdarlıq etməyə başladı. Bu da 1921-ci ilin fevralında ingilislərin Tehranda dövlət çevrilişi təşkil etməsində öz ifadəsini tapırdı.[1]

Sonrakı illərdə də İngiltərənin İrandakı siyasəti burada hakimiyyət uğrunda 1921–1925-ci illərdə mübarizə aparan müxtəlif sosial qüvvələrin ən sağ ünsürlərinə tərəfdarlıq etmək olmuş, məhz onların dövlətçiliyini möhkəmləndirməyə yönəlmişdi. Əlbəttə, İngiltərə İrana təzyiq etmək, özü üçün ən əlverişli şərtlərə nail olmaq üçün ayrı-ayrı feodal nümayəndələrindən, xüsusən qəbilə başçılarının separatist çıxışlarından istifadə etməkdən də çəkinmirdi. Hər halda, İngiltərənin bu zaman və xeyli sonralar da İranda siyasəti geniş xalq kütlələrinin, demokratik qüvvələrin, partiya və təşkilatların inkişafına, demokratik ideyaların yayılmasına deyil, yalnız iri mülkədar-burjua təbəqələrinin mücərrəd «dövlətçilik» ideyaları və təsisatlarının bərqərar edilməsinə yönəlmişdi.

Cənubi Azərbaycanda demokratik ideyaların və hərəkatın güclənməsi qarşısında ciddi maneə olan digər xarici amil – Sovet Rusiyasının siyasəti idi. 1917-ci ildə öz xarici siyasətini Şərq ölkələrinin azadlığı uğrunda, müstəmləkəçilik əleyhinə şüarlar ilə başlamış Sovet hökuməti tezliklə özü də qəsbkarlıq, yəni üstüörtülü müstəmləkəçilik planlarına başladı və bunları əməldə həyata keçirmək tədbirlərinə əl atdı.

---

[1] «Millətçi» kimi tanınmış siyasi xadim Seyid Ziyaəddin və İranda müasir ordu hazırlığı olan kazak diviziyası zabiti, polkovnik Rza xanın başçılıq etdiyi bu çevriliş, əslində ingilislərin özləri tərəfindən təşkil olunmuşdu. Seyid Ziyaəddin zahirən antiingilis mövqe tutaraq tezliklə 1919-cu il sazişini ləğv etdi. Lakin bütün bunlar onlarla razılaşdırılmış tədbirlər idi və gözdən pərdə asmaq məqsədini güdürdü. Azərbaycan Demokratik Respublikasında İranın səfiri olmuş Seyid Ziyaəddin Bakıda rus dilində çap etdirdiyi kitabçasında 1919-cu il sazişinin İran üçün zərərli deyil, əksinə, onun milli mənafeyinə cavab verdiyini dönə-dönə iddia edirdi. Çevriliş hazırlanarkən İngiltərənin İranda yeni «liberal» siyasət tərəfdarı olan səfiri Norman onu çevrilişin rəhbəri və hökumət başçısı sifətilə irəli sürmüşdü.

Azərbaycan Demokratik Respublikasını silah gücünə devirdikdən və Şimali Azərbaycanı tutduqdan sonra, Sovet hökuməti boş bir bəhanə altında İranın şimal sahillərinə (Ənzəliyə) qoşun çıxarıb buradakı inqilabçıları öz təsiri altına alaraq, hətta «Gilan Sovet Respublikası»nın elan edilməsinə nail oldu, onun vasitəsilə Tehrana yürüş təşkil etməyə başladı. Sovet hökumətinin bu planları boşa çıxdıqdan sonra o, həm Qərbdə (xüsusilə Polşadakı məğlubiyyətdən sonra), həm də Şərqdə yalançı «dinc və yanaşı yaşamaq» prinsipini irəli sürərək «bərabərhüquqlu» müqavilələr bağlamaq siyasətini üstün tutdu və bu da 1921-ci ilin fevralında Sovet Rusiyası ilə İran hökuməti arasında müqavilə imzalanması ilə nəticələndi.[1] Bu zaman Moskva Cənubi Azərbaycanda fəal qəsbkarçılıq siyasəti aparmırdı, çünki o, Şimali Azərbaycanda yaradılmış sovet rejimi vasitəsilə gələcəkdə burada da hər hansı bir şəkildə öz ağalığını qura biləcəyinə ümid edirdi. Başlıcası isə o idi ki, Cənubi Azərbaycanda (Gilandan fərqli olaraq) demokratik ideyalar daha dərin kök salmışdı, bu isə Rusiyada demokratik qüvvələrin ən qəddar düşməni, 1917–1918-ci illərdə bu kimi partiyaları, ictimai-siyasi təşkilatları darmadağın etmiş, onların minlərlə xadiminə divan tutmuş Sovet hakimiyyətinin siyasətinə zidd idi.

Doğrudur, məhz Cənubi Azərbaycanda demokratik meyillərin inkişafına müsbət təsir göstərə biləcək daha bir xarici amil də var idi. Bu amil, osmançılıqdan imtina edərək milli istiqlaliyyət uğrunda 1921–1922-ci illərdə qələbə çalmış və sonrakı illərdə demokratik dövlət quruculuğu, əsaslı sosial, siyasi, mədəni islahatlara başlamış, feodal-teokratik ideyaları və təsisatları dağıtmış Türkiyə Respublikası idi. Hər iki xalqın etnik, dil, mədəni ümumiliyi Türkiyə xalqının milli istiqlaliyyət, demokratik quruluş uğrunda mübarizəsi təcrübəsinə yiyələnməyə, yardımına arxalanmağa imkan verirdi. Lakin bu illərdəki konkret şərait belə bir imkanın həyata keçirilməsi yolunu bağlayırdı. Bu, əsrlər boyu davam edən sünni-şiə düşmənçiliyinin hələ də güclü qalıqlarının kütləvi şüurda, psixologiyada (xüsusilə Cənubi Azərbaycanda bunlar ruhanilərin əksəriyyəti tərəfindən qızışdırılırdı) hökm sürməsinin nəticəsi idi. Başlıcası isə budur ki, Cənubi Azərbaycanda cəmiyyət hələ öz ideya inkişafı cəhətdən xeyli geri qalmışdı, burada milli demokratik ünsürlər hələ çox zəif idi. Cənubi Azərbaycan ziyalıları və ümumiyyətlə, şə-

[1] Müqavilə yenə də bərabərhüquqlu deyildi. Belə ki, onun 6-cı bəndinə əsasən Sovet dövləti istədiyi vaxt İrana «müvəqqəti olaraq» qoşun yeridə bilərdi.

hər təbəqələri hələ də Ümumiran «millətçiliyi» və dini ideyalar əsarətindən çıxmamış, demokratik yollarda öz spesifik milli mənafeyini irəli çəkmək zərurətini dərk etməmişdi.

Xiyabani üsyanı yatırılarkən darmadağın edilmiş demokratlar öz məğlubiyyətləri ilə hələ bir müddət barışmayaraq, sıralarını bərpa etmək, demokratik hərəkatı canlandırmaq ümidində idilər. 1921-ci ilin sentyabrında ADP-nin sağ qalmış fəalları Təbrizdə Xiyabaninin qətlinin ildönümü münasibətilə 10 minədək adamın iştirakı ilə mitinq keçirdilər. Mitinqdə, antiingilis və antifeodal mübarizəni yenidən genişləndirmək, demokratik islahatlar keçirmək şüarları səsləndi. Mitinqin iştirakçıları Xiyabani üsyanının yatırılmasında xüsusilə qəddarlıq göstərmiş və sonra Azərbaycanın valisi təyin olunmuş Müxbirüssəltənənin Təbrizdən qovulmasını tələb etdilər. Oktyabrın əvvəllərində ADP-nin Təbriz şəhər təşkilatının konfransı çağırıldı. Konfransda ADP rəhbərlərindən Ağa Mirağa hesabatla çıxış etdi. Konfrans xüsusi qətnamə qəbul edərək hazırkı vəziyyətdə partiyanın vəzifələrini göstərdi. Hərəkata rəhbərlik üçün 9 nəfərdən ibarət yeni rəhbər komitə seçildi. Bundan sonra əyalətin başqa şəhərlərində də demokratik təşkilatların işini canlandırmaq səylərinə başlandı.

Demokratların siyasi mübarizəni kütləvi xalq hərəkatı səviyyəsinə qaldırmaq yolunda son təşəbbüsü 1921-ci ilin axırı – 1922-ci ilin əvvəllərində jandarm qoşunlarının çıxışı ilə bağlı hadisələr oldu.[1]

Bu çıxış əvvəl hərbi qiyam kimi başlanmışdı. Maaşlarının müntəzəm olaraq gecikdirilməsindən və xüsusən mərkəzi hökumətin hərbi islahat keçirmək niyyətlərindən narazılıq hökumətin hərbi islahat keçirmək niyyətlərindən narazılıq edən jandarmların bir hissəsi Urmiya, Şərəfxana yaxınlığındakı mövqelərini buraxaraq mayor Lahutinin (milliyyətcə fars idi) komandanlığı altında Təbrizə yürüş etdilər və 1922-ci il yanvarın 1-də azsaylı qarnizonu qaçmağa məcbur edib şəhəri tutdular, ən mühüm dövlət idarələrini ələ keçirdilər. Hələ bundan bir

---

[1] İranda jandarm hissələrinin əsas vəzifəsi sərhədləri qorumaq, qaçaqçılığa qarşı mübarizə aparmaq idi. Bu hissələrə, xüsusən 1905–1911-ci illər inqilabından sonra, Birinci Dünya müharibəsi dövründə xeyli liberal ruhlu, vətənpərvər zabit və əsgər daxil olmuşdu. Bilavasitə şah və baş nazirə tabe olan, müəyyən üstünlüklərdən istifadə edən jandarmlar 1921-ci ildə mərkəzi hökumətin, ən əvvəl hərbi nazir Rza xanın başladığı hərbi islahat nəticəsində ləğv edilməli idi. 1920–1926-cı illərdə onların çoxu Azərbaycanın qərb rayonlarında cəmləşdirilmiş və buradakı şəhər və kəndlərə basqınlar edən kürd, şahsevən feodallarına qarşı vuruşurdu.

qədər əvvəl jandarm zabitlərilə əlaqə yaratmış ADP liderləri, o cümlədən Təbrizin nüfuzlu ictimai xadimi Etimadüttüccar və digər demokratlar jandarmlara qoşuldu və onların təsiri altında hərbi qiyam antifeodal, antiingilis xarakterli xalq üsyanı şəklini almağa başladı. Üsyançılar Tehran hökumətindən tələb etdilər ki, təxirə salmadan bütün siyasətini dəyişsin, demokratik islahatlara başlasın. Lakin tamamilə dəyişmiş siyasi şərait, xüsusən həmin vaxt Gilandakı hərəkatın hökumət tərəfindən darmadağın edilməsi nəticəsində bu təşəbbüs də müvəffəqiyyətsizliyə uğradı. Təbriz şəhərindən kənara çıxmayan üsyanı hökumət nisbətən asanlıqla boğa bildi. Yanvarın sonlarında çoxlu qoşun hissələri şəhəri mühasirəyə aldılar, əyalətin müvəqqəti valisi İclalülmülkün, Etimadüttüccarın və bir neçə digər nüfuzlu şəxslərin hökumətlə üsyançılar arasında məsələni dinc yolla həll etmək təklifini rədd etdi və fevralın 7–8-də qanlı vuruşmalardan sonra şəhəri tutdu, demokratlara qarşı yeni repressiyalar başlandı.

İranda antifeodal, antiingilis xalq hərəkatının boğulması mülkədar-burjua cəbhələri arasında hakimiyyət uğrunda, yeni tarixi şəraitdə dövləti necə, hansı sosial, ictimai təbəqələrin mənafeyinə uyğun şəkildə aparmaq mübarizənin güclənməsinə təkan verdi və 1922–1925-ci illərdə ölkədə siyasi həyatın əsas məzmununu təşkil etdi. Aydındır ki, həm feodal, həm də mülkədar-burjua cəbhəsi öz tərkibi, ictimai-siyasi meyilləri, ideologiyası cəhətdən yekcins deyildi, onların hər birinin daxilində də ziddiyyətlər özünü göstərirdi.

Feodal cəbhəsinin sağ cinahını İranda yaşayan çoxsaylı köçəri və yarımköçəri tayfaların yuxarı təbəqəsi, iri xanlar təşkil edirdi. Onlar həmin tayfalar içərisində böyük nüfuza malik olub, xeyli hissəsi mərkəzi hakimiyyətlə çox zəif bağlı olduqlarına, ondan yarımmüstəqil vəziyyətdə olduğuna görə daim separatist mövqedə dururdular. Buna görə də tayfa başçıları köhnə ictimai və siyasi sistemin keşiyində durur, dövlətin quruluşunda hər hansı bir ciddi dəyişikliyə, dövlətin güclü olmasına qarşı çıxırdı. Cənubi Azərbaycanda beləlləri Maku, Xoy xanları, şahsevən, talış və xüsusilə kürd feodalları idilər. Feodal cəbhəsinin ikinci böyük və ən nüfuzlu dəstəsini çoxdan bəri mərkəzi hakimiyyətə, dövlət aparatına başçılıq edən, böyük torpaq sahələrinə malik olan feodal zadəgan ailələri (bir qayda olaraq nazirlər, əyalət və vilayət hakimləri, iri şəhərlərin valiləri, yüksək rütbəli generallar, diplomatlar bu

ailələrdən çıxırdılar), habelə Qacar sülaləsinin çoxsaylı şahzadələri[1], saray dairələri təşkil edirdi. Birincilərdən fərqli olaraq, bu dəstənin nümayəndələri mərkəzi hakimiyyəti, dövlət aparatını möhkəmlətməyə, onu müasir şəraitə bir qədər uyğunlaşdırmağa çalışır, eyni zamanda öz siyasi, iqtisadi mənafeyinə zidd ola biləcək hər hansı dəyişikliklər əleyhinə çıxırdı. Feodal cəbhəsini ali ruhanilərin əksəriyyəti, onların çoxsaylı təşkilatları[2] da müdafiə edirdi, çünki onlar, məhz təkcə xalqın mənəvi, ictimai-siyasi həyatı üzərində öz nüfuzunun müdafiəçisi kimi deyil, eyni zamanda hələ də əllərində cəmlənmiş vəqf sərvətlərinin qalmasının təminatçısı kimi baxırdılar.

Mülkədar burjua cəbhəsi öz sosial meyillərinə, daxili hərəkətverici qüvvələrinə və siyasi meyillərinə görə feodal cəbhəsində olduğu kimi daxilən ziddiyyətli idi. Əslində bu cəbhə ən müxtəlif təbəqələrin, ictimai qüvvələrin konqlomeratı, yalnız feodal cəbhəsinə qarşı mübarizə aparmaq ümumiliyi ilə zəif bağlı olan ittifaq idi. Bu cəbhənin həlledici və ən sağ qanadını mülkədarlar, birinci növbədə iri və orta mülkədarlar təşkil edirdi. Onların əksəriyyəti kapitalistcəsinə təsərrüfat, yəni muzdlu əmək əsasında yüksək əmtəəli təsərrüfat aparan, beləliklə də, ölkənin iqtisadi inkişafına xidmət edən qüvvə deyil, ənənəvi feodal istehsal münasibətləri əsasında torpaqsız kəndlilərin çoxpilləli icarə formaları üzərində qurulmuş, iqtisadi tərəqqi yolunda ən ciddi maneə törədən iri latifundiyaçılar idi. Buna görə də onların başlıca marağı elə bir dövlət sistemi yaradılmasını tələb edirdi ki, mövcud istehsal münasibətlərini tam qanuniləşdirsin, məhdud siyasi, ictimai mənafeləri qorusun. Onlar sərt mərkəzləşdirilmiş dövlət tərəfdarı olub, hər şeydən əvvəl, liberal ideyaları rədd edir, totalitar məzmunlu «qanun-qayda», «sabitlik» şüarlarını irəli sürürdülər.

Bu cəbhənin ikinci mühüm hissəsini iri və orta ticarət-sələmçi burjuaziya təşkil edirdi (bu zaman bütün İranda olduğu kimi, Cənubi

---

[1] Fətəli şahdan başlayaraq Qacarlar sülaləsi saysız-hesabsız şahzadələrə malik olmuşdur. Onların bir hissəsi feodalların ən yüksək təbəqəsini təşkil edirdi, çoxu isə vaxt keçdikcə nəvə-nəticə səviyyəsində öz sosial, ictimai statusunu itirir və orta təbəqələrlə qarışır, onların ideologiyasını, görüşlərini qəbul edirdi və hakim sülaləyə mənsubiyyətini göstərən yalnız bir əlaməti qalırdı – adından sonra «Mirzə» sözünü yazmaq hüququ. Belə şahzadələrdən biri də 1905–1911-ci illər inqilabı dövründə sol məsləkli siyasi xadim kimi tanınmış, siyasi fəaliyyətini Cənubi Azərbaycanla bağlamış (buradan deputat seçilirdi) Süleyman Mirzə olmuşdur.

[2] Birinci növbədə Məşhəddə İmam Rza məscidi, Qumda Məsumeyi-Fatimə məscidi, İraq ərazisində yerləşən və şiəliyin nüfuzlu mərkəzi olan Kərbəla məscidi.

Azərbaycanda da müasir kapitalist sənayesi və müvafiq olaraq sənaye burjuaziyası yox dərəcəsində idi və siyasi həyata, əslində təsir göstərmirdi). Ölkənin iqtisadi inkişafının mühüm amillərindən biri olan ticarət burjuaziyası, müəyyən hallarda siyasi hadisələrin də gedişinə təsir göstərməyə qadir idi, çünki onların geniş kütlələrlə bilavasitə əlaqələri olub, onları özlərinə lazım gəldikdə hər hansı bir siyasi cərəyana qoşulmağa və ya əksinə, ona qarşı çıxmağa sövq etmək imkanlarına malik idi. Bu özünü xüsusilə iri şəhərlərdə (Təbrizdə, Ərdəbildə, Qəzvində) göstərirdi. Buradakı bazarların (yəni ticarət və sənət mərkəzlərinin dövlət orqanları nazirlərinin siyasətinə, konkret tədbirlərinə qarşı etiraz əlaməti olaraq) bağlanması ümumi tətil xarakteri kəsb edirdi. Bu mənada Təbriz bazarının mövqeyi təkcə Azərbaycanda deyil, bütün İran miqyasında birinci dərəcəli rol oynayırdı və bütün siyasi xadimlər, təşkilatlar bununla hesablaşmalı olurdu. Lakin o, digər tərəfdən ticarət burjuaziyasının həm iqtisadi qüdrətinin, həm də ideya səviyyəsinin aşağı olması, yəni özünün məhdud mənafeyi ilə ümummilli mənafeləri düzgün əlaqələndirməkdə uzaqgörənlik göstərmək bacarığının kifayət qədər olmaması üzündən müxtəlif, bəzən ziddiyyətli təsirlərə məruz qalır, konkret fəaliyyətində ardıcıl hərəkət etmirdi. Bundan başqa, ticarət burjuaziyasının müxtəlif qrupları arasında da ictimai-siyasi fərqlər böyük idi. Onun ən yuxarı təbəqəsinin, yəni iri burjuaziyanın xeyli hissəsi xarici kapitalla və mövcud dövlət strukturları ilə bağlı olan komprador burjuaziyanı çox vaxt bütövlükdə burjuaziyanın mənafeyinə zidd olan sövdələşmələrə sürükləyirdi. Hər iki cəbhə konstitusiya quruluşunun toxunulmazlığını, onun müddəalarının tam şəkildə həyata keçirilməsi labüdlüyünü əsas şüarlar kimi irəli sürür və hakimiyyət uğrundakı mübarizə gedişində bunları kobudcasına pozur, sonsuz sosial və siyasi demaqogiyaya əl atırdı.[1]

Feodal və mülkədar burjua cəbhələri arasındakı mübarizə bütün İranı əhatə etmişdi. Həm də əgər bu mübarizə iri şəhərlərdə, əsasən siyasi («dinc») xarakter daşıyırdısa, ucqarlarda, xüsusən dağlıq rayonlarda daha çox hərbi qarşıdurma formasında keçirdi. Mülkədar-burjua cəbhəsinin əsas sosial dayağı təkcə şəhər təbəqələri deyil, eyni zamanda siyasi sabitsizlik, hərc-mərclik nəticəsində, birinci növbədə

[1] Feodal dairələri hələ 1905–1911-ci illər inqilabı dövründə konstitusiyaçılıq prinsiplərini islama zidd kimi, ümumiyyətlə, rədd edir və «dövlət-e məşrute» (konstitusiyalı dövlət) prinsipinə qarşı «dövlət-e məşruə» (şəriət dövləti) prinsipini irəli sürürdü.

əzilən oturaq əhali, əkinçilik rayonlarının dövlət intizamına daha çox riayət edən kəndli kütlələri idi. Feodal cəbhəsinin əsas dayağı isə təkcə Tehran və digər iri şəhərlərin bürokratik zadəganları, saray dairələri deyil, xeyli dərəcədə ənənəvi olaraq öz başçılarına, xanlarına riayət edən, müəyyən sərbəstliyə malik olan, dövlət aparatına nisbətən az tabe olunan və istismar edilən köçərilər kütləsi idi.[1]

Tehranda siyasi mübarizə ilk vaxtlar feodal cəbhəsinin üstünlüyü ilə keçirdi. Bu, birinci növbədə mərkəzi hökumətə kimlərin başçılıq edəcəyində özünü göstərirdi.[2] Hökumətin təşkili rəsmən parlamentin səlahiyyətinə daxil idi və şah tərəfindən yalnız təsdiq edilirdi. Müharibə başlandıqdan sonra parlamentə seçkilər keçirilməmişdi. Seçkilər yalnız 1919–1920-ci illərdə keçirildi və 1921-ci ilin iyununda növbəti (IV çağırış) sessiyası işə başladı. Deputatların əksəriyyətini feodal dairələrinin nümayəndələri və ya heç bir möhkəm ictimai-siyasi əqidəyə malik olmayan, yalnız şəxsi mənayefini güdən siyasətbazlar təşkil edirdi. Zahirən dövlətin siyasi müqəddəratını rəsmən legitim olan, müxtəlif siyasi partiyaların fraksiyaları əsasında fəaliyyət göstərən parlament həll edirdi. Lakin iş burasındadır ki, bu zaman meydana çıxmış bir çox partiyaların, demək olar, heç biri nə ölkənin real vəziyyətinin yaxşılaşdırılmasına, nə də xalqın mənafeyinə cavab verən inkişafına deyil, yalnız ayrı-ayrı qrupların hakimiyyət uğrunda mübarizəsinə xidmət edirdi və bunların fəaliyyəti, əsasən Tehranın çərçivələrilə məhdudlaşırdı. Bunların içərisində «İran demokrat partiyası»nı, İran sosial-demokrat partiyasının qalıqları əsasında yaradılan «İran sosial-demokrat partiyasını» (rəhbəri Süleyman Mirzə), «Müstəqil sosialist partiyası»nı, «Birləşmiş sosialist partiyası»nı və bir sıra başqalarını

---

[1] İctimai, siyasi qüvvələrin belə mövqeyi, hərəkəti, əlbəttə, ümumi xarakter daşıyırdı. Konkret şəraitdən, zaman və məkandan, o cümlədən subyektiv amillərdən də asılı olaraq real həyatda bu sahədə gözlənilməyən dəyişikliklər də baş verirdi. Məsələn, iri şəhərlərdəki çoxsaylı, iqtisadi və ictimai həyat proseslərindən kənarda qalmış yoxsulların hər hansı bir tərəfə qoşulacağını irəlicədən söyləmək mümkün deyildi. Onlar az-çox sabit sosial-ictimai şüura, əqidəyə, psixologiyaya malik olmayıb, hər hansı bir cərəyan, siyasətbaz tərəfindən öz məqsədləri üçün istifadə oluna biləcək «yanacaq materialı» idi.

[2] 1921-ci ilin mayında Seyid Ziyaəddinin başçılıq etdiyi ilk «antifeodal» hökuməti istefaya çıxarıldıqdan sonra (onun istefası yalnız feodal deyil, eyni zamanda mülkədar-burjua dairələrinin nümayəndəsi olan hərbi nazir Rza xanın işə qarışmasının nəticəsi idi) 1923-cü ilin oktyabrınadək altı hökumət dəyişmişdi və bunların çoxuna da feodal cəbhəsinin liderləri daxil idi.

göstərmək olar. 1923-cü ildə Rza xanın göstərişilə «Təcəddüd» partiyasının yaranması elan edildi. Onun əsas məqsədi feodal qüvvələrə qarşı deyil, əsasən mülkədar-burjua cəbhəsini təşkil edən həmin partiyalara qarşı maneə yaratmaq və gələcəkdə yeganə hökumət partiyasına çevrilmək idi. Yenə də həmin vaxt feodal qüvvələr öz siyasi partiya və cəmiyyətlərini yaratmaq təşəbbüslərinə əl atırdılar.

Bütün bu partiyaların real siyasi həyata təsiri çox cüzi idi. Əslində onların heç birinin arxasında kütləvi qüvvə olmadığı üçün fəaliyyətləri də, əsasən parlametdə fraksiyalar təşkil etməkdən, hökumətin tərkibinə öz nümayəndələrini keçirməkdən ibarət idi. Təbiidir ki, belə partiyalar heç bir nəzərəçarpacaq nüfuza malik olmadığı üçün onların parlament fraksiyaları da prinsipsiz, şəxsi sövdələşmələr yolu ilə gedən müvəqqəti birləşmələrdən başqa bir şey deyildi.

Tehrandakı siyasi mübarizə nə qədər qızğın xarakter daşısa belə, (bir sıra hallarda, hətta qanlı xarakter alsa da) onun son nəticəsi yerlərdə, əyalətlərdə real hakimiyyəti kimin ələ keçirə biləcəyindən asılı idi. Bu mənada İranın şimal əyalətləri xüsusi əhəmiyyət kəsb edirdi. Ən çox iqtisadi potensiala, əlverişli geosiyasi mövqeyə, əhalisinin daha yüksək ictimai şüur səviyyəsinə, uzun illərdən bəri daha dərin siyasi mübarizə təcrübəsinə malik olan Cənubi Azərbaycan bu mənada həlledici rol oynamalı idi.

Hələ 1920–1922-ci illərdə Cənubi Azərbaycanda da demokratik hərəkatın silah gücünə yatırılması gedişində buraya göndərilmiş hökumət qoşunları, əsasən hərbi nazir Rza xanın komandanlığı altında olan kazak diviziyasının hissələri Təbrizi və digər şəhərləri tutdular və həmin şəhərlərdə hərbi vəziyyət elan edərək bütün bu yerlərdə real hakimiyyəti ələ keçirdilər. 1924-1925-ci illərdə Təbriz, Ərdəbil, Miyanə, Diklidaş nahiyələrində yaşayan tayfalar silahsızlaşdırıldıqda, xüsusən Azərbaycanın şimal-qərb rayonlarında kürdləri əzmək üçün hərbi əməliyyat gedişində eyni proses davam edirdi. Beləliklə, bütün dövlət orqanları, xüsusən maliyyə-vergi, bələdiyyə, polis, poçt-teleqraf idarələri, gömrükxanalar və s. bilavasitə hərbi komandanlığa tabe olunur və onlar hökumətin, müvafiq nazirliklərin deyil, yalnız hərbi nazir Rza xanın göstərişlərini yerinə yetirir, Azərbaycandan alınan bütün dövlət vergiləri onun sərəncamına keçirdi. Bu qüvvəyə arxalanan Rza xan, əslində hərbi diktator kimi hərəkət edir, hərbçilər isə İranın ən yüksək hakim dairələrinə çevrilirdilər. Beləliklə, Cənubi Azərbaycan İranda hakimiyyət uğrunda mübarizədə mülkədar-burjua cəbhəsinin əsas isti-

nadgahına çevrilir və Tehranda mərkəzi hakimiyyət orqanlarının səlahiyyətindən çıxırdı. Cənubi Azərbaycanda bütün yüksək vəzifəli şəxslər daha Tehran hökuməti tərəfindən deyil, Rza xan tərəfindən təyin olunur və ya kənar edilirdi. Artıq 1922-ci ilin əvvəllərində onun əmrilə Azərbaycana hökumət tərəfindən yenicə təyin olunmuş yarımliberal məsləkli Müsəddiqüssəltənə Azərbaycanın hakimi vəzifəsindən kənar edildi[1] və onun yerinə Rza xanın köməkçilərindən biri Abdullaxan Təhmasib təyin edildi.

Cənubi Azərbaycanın mülkədar-burjua dairələri ilk vaxtlar Rza xanın dövlət qanun-qaydalarını bərqərar etmək səylərinə müstəqim və ya qeyri-müstəqim şəkildə yardım göstərirdi, çünki bu onların mənafeyinə uyğun idi. Lakin Rza xan getdikcə daha artıq dərəcədə diktatura qurmağa meyil göstərdikcə, ordu isə ölkədə daxili siyasətin başlıca vasitəsinə çevrildikcə, həmin dairələrin içərisində narazılıq artmağa başlayırdı. Konstitusiyaya müvafiq olaraq Azərbaycan əyalət əncüməni məhdud da olsa, müəyyən muxtariyyətə sahib olmalı idi. Rza xan, hərbçilər nəinki bunu bərqərar etməyə çalışır, əksinə, bu sistemi tamamilə ləğv etməyə doğru gedir, beləliklə də, Azərbaycanın burjua dairələrini öz mənafelərini müdafiə etmək, mərkəzi dövlət orqanlarında təmsil olunmaq imkanlarından məhrum edirdi. Bu narazılıq 1922-ci il oktyabrın əvvəllərində Azərbaycan ticarət burjuaziyasının ən varlı və nüfuzlu tacirlərindən biri olan Məhəmməd Mötəmədüdtüccarın Tehranda parlametdəki çıxışında öz ifadəsini tapdı. O, Rza xanı konstitusiyanı pozmaqda, mülki işlərə qarışmaqda, siyasi rəqiblərinə qarşı mübarizədə terrorçu üsullara əl atmaqda ittiham edib, hərbi valilər və hərbi vəziyyət sisteminə son qoyulmasını tələb etdi. Eyni zamanda belə ittihamlarla, lakin tamamilə başqa mövqelərdən daha bir neçə deputat, xüsusən ən sağ dairələrin nümayəndəsi, iri ruhani xadim Müdərris də çıxış etdi. Rza xan parlamentdə tərəfdarlarının azlığını, yeni hərbi çevriliş üçün isə hələ tam şərait olmadığını nəzərə alaraq geri çəkilməyi lazım bildi və o, parlamentdə tövbə xarakterli qısa nitqlə çıxış edib, konstitusiyaya riayət edəcəyini, maliyyə məsələlərində özbaşınalığa yol verməyəcəyini bildirdi.

Bundan sonra Rza xan daha ehtiyatla hərəkət etməyə, hakimiyyətin «qanuni» yolla ələ keçirilməsini təmin etmək üçün siyasi-ideoloji

---

[1] Əslən feodal təbəqəsinə mənsub olan Müsəddiqüssəltənə liberal-konstitusiyaçı məsləkli və Rza xanın özbaşınalığına qarşı müqavimət göstərən siyasi xaimlərdən biri idi.

baza yaratmağa başladı. Bu məqsədlə onun tərəfdarları, ən yaxın siyasi məsləhətçiləri (Davər, Teymurtaş) demaqoqcasına geniş təbliğata əl ataraq ən əvvəl ziyalıları, qəzet redaktorlarını «İranın birliyi və əzəməti» uğrunda şovinist şüarları irəli sürərək onları öz tərəfinə çəkməyə çalışırdılar. Eyni zamanda 1922-ci ilin sonları – 1923-cü ilin əvvəllərindən daha bir kampaniyaya başlandı ki, bunun da məqsədi feodal cəbhəsinin ən güclü xadimlərini, Əhməd şahı nüfuzdan salmaq idi. Bunun köməyilə 1923-cü il yanvarın 25-də Qəvamüssəltənənin, yəni feodalların ən nüfuzlu siyasətçisinin başçılıq etdiyi hökumətinin istefaya getməsinə nail olundu. Doğrudur, baş nazir vəzifəsinə Rza xanın irəli sürülməsi təşəbbüsü parlamentdən keçmədi və sonrakı doqquz ay ərzində daha iki hökumət dəyişikliyi də eyni nəticəni verdi. Əslində isə real hakimiyyət artıq büsbütün Rza xanın, hərbçilərin əlində idi. Bunun rəsmiləşdirilməsinə mane ola biləcək yeganə qüvvə parlament qalırdı və buna görə 1923-cü ilin yazından növbəti parlament seçkilərinə hazırlıq başlandı. Bu seçkilərin nəticəsi isə irəlicədən aydın idi, çünki İranın əsas əyalət və vilayətlərində tam hakimiyyət artıq hərbçilərin əlinə keçmişdi.

Bu mənada bütün İrandan siyasi müqəddəratın həlli, birinci növbədə Cənubi Azərbaycandakı vəziyyətdən, onun mövqeyindən asılı idi. Bu zaman artıq Cənubi Azərbaycanda mülkədar burjua qüvvələrinin və ən əvvəl hərbçilərin mövqeyi o dərəcədə möhkəmlənmiş və onların diktaturası o qədər hərtərəfli şəkil almışdı ki, indi onlara burada daha siyasi manevrlərə, kompromislərə getməyə ehtiyac qalmırdı. Onların ən mühüm sosial dayağını buradakı məhz mülkədarlar, yəni həmin cəbhənin ən sağ cinahı təşkil edirdi. Hərbçilərin xeyli hissəsi məhz mülkədar nümayəndələrindən idi və buna görə də hərbçilər onların mənafeyini, birinci növbədə müdafiə edirdi. Burjua dairələrinə, yəni təkcə tacir və sənətkarlara deyil, ümumiyyətlə, şəhər təbəqələrinə (ziyalılar, məmurlar, müəllimlər və s.) gəldikdə isə onlar iqtisadi cəhətdən daha zəif, inzibati orqanlardan daha çox asılı və xüsusən də siyasi-ideoloji cəhətdən daha pərakəndə idi və buna görə onların baxışları, tələblərilə artıq hesablaşmamaq da olardı. Həm də Tehranın siyasi dairələri ilə hərbçilərin qarşıdurmasında bu dairələrin Cənubi Azərbaycana arxalanması burada belə təsəvvür yaradırdı ki, onlar gələcəkdə də bütün dövlət sisteminin, hakimiyyətin başlıca dayağı rolunu oynayacaqlar.

Lakin mülkədar-burjua cəbhəsinin yarımliberal dairələrinin bu ümidləri doğrulmadı. Məhz demokratik qüvvələrdən daha çox qorxan, onlara arxalanmaq istəməyən, ölkənin demokratik inkişaf yoluna keç-

məsini arzulamayan bu dairələr hərbçilərin diktatına, Rza xanın avtoritarizminə qarşı müqavimət göstərməyə qadir olmayıb, onların əmrlərinin müti icraçısı kimi çıxış etməyə başladı. Bu, xüsusilə Rza xanın baş nazir vəzifəsinə irəli sürülməsi tələblərində və yeni parlamentə seçkilər kampaniyasında özünü göstərdi. 1923-cü ilin əvvəlləri və yayında Rza xanın qəsdən qızışdırdığı hökumət böhranları zamanı həmin tələblər məhz Cənubi Azərbaycandan daha qəti səslənirdi. İyun ayında IV çağırış məclisin səlahiyyəti bitdikdən sonra isə məhz «xalqın» bu tələblərinin təzyiqi altında oktyabrın 27-də Əhməd şah yeni hökumətin təşkilini Rza xana tapşırdı. Parlamentə seçkilər isə hərbçilərin ağalığı şəraitində keçmişdəkindən də artıq dərəcədə antidemokratik, siyasi oyunbazlıq kimi keçirdi. Beləliklə, seçilmiş parlamentin əksəriyyətini Rza xanın tərəfdarları təşkil etdi, bu da onun hakimiyyət uğrundakı mübarizədə tam üstünlük əldə etməsinə imkan verdi.

İranda hakimiyyət uğrunda siyasi mübarizənin sonrakı mərhələsində Cənubi Azərbaycanın mülkədar-burjua dairələri tərəfindən Rza xana göstərilən yardım həlledici rol oynadı. Hələ 1923-cü ilin oktyabrında Rza xan öz birinci hökumətini təşkil edərkən, onun tərkibinə bir neçə liberal siyasi xadimi, o cümlədən Süleyman Mirzəni, habelə Mirzə Qasım xan Sur-e İsrafili daxil etmişdi.[1]

Bunda məqsəd geniş şəhər təbəqələrinin dözülməz iqtisadi vəziyyətdən, dilənçilikdən, hüquqsuzluqdan getdikcə artan narazılığını lazımi istiqamətə yönəltmək, liberal ünsürləri aldatmaq və eyni zamanda feodal cəbhəsinə təzyiq göstərərək onları sövdələşməyə məcbur etmək idi. Buna görə 1924-cü il fevralın ortalarında başlanmış və Rza xan tərəfdarlarının mətbuatda, qondarma mitinq və nümayişlərdə qızışdırdığı «respublika hərəkatı» demaqoji və fitnəkar, çox gurultulu kampaniyadan başqa bir şey deyildi. Bir ay ərzində onlarla «respublikaçı» partiya və cəmiyyətin yaranması elan olundu. Təbriz, Ərdəbil və digər şəhərlərdən (habelə İranın başqa şimal vilayətlərindən) parlamentin, siyasi xadimlərin, ruhani başçılarının adına minlərlə teleqramlar göndərilir, Qacarların devrilib respublika qurulması tələb olunurdu.[2] Hökumətin bilavasitə qızışdırdığı bu

---

[1] Mirzə Qasım xan İranda 1905–1911-ci illər inqilabı gedişində ilk liberal məsləkli «Sur-e İsrafil» qəzetinin naşiri kimi geniş şöhrət qazanmışdı və qəzetin adı onun soyadı oldu.

[2] Məşhur İran tarixçisi H.Məkkinin yazdığına görə, bir çox adamı məcbur edirdilər ki, qacarlar əleyhinə teleqramlar göndərsin. Teleqraf idarələrinə isə göstəriş verilmişdi ki, bunlar üçün pul alınmasın. Lakin Qacarlar sülaləsi devrildikdən və Pəhləvi sülaləsi taxta çıxdıqdan sonra süngüyə arxalanan teleqraf idarələri teleqramların pulunu son qəpiyinədək aldılar.

kampaniya öz rolunu oynadı. Artıq martın ortalarında feodal cəbhəsinin 40-dək görkəmli xadimi Tehranda keçirilən üç günlük müşavirədən sonra Rza xanla görüşərək xüsusi bəyanatla çıxış edib bildirdilər ki, tamamilə ona tərəfdardırlar. Martın axırlarında isə Rza xan müqəddəs Qum şəhərini ziyarət edib ali ruhanilərlə görüşdü. Bununla da, gurultulu «respublika hərəkatı» bitdi, lakin Qacarlar əleyhinə kampaniyaya nəinki son qoyulmadı, hətta daha da gücləndi. 1924-cü ilin aprel-avqust aylarında Rza xan öz ikinci kabinetindən liberal xadimləri çıxarıb feodal cəbhəsi nümayəndələrilə əvəz edərək, 1924-cü ilin ikinci yarısı – 1925-ci ilin birinci yarısından taxta çıxmaq üçün son hazırlığa başladı.

Feodal cəbhəsi və mülkədar-burjua cəbhələri arasında əldə olunmuş kompromis Rza xan başda olmaqla hərbçilərə imkan verdi ki, liberal ünsürlərlə daha hesablaşmayıb, demokratik qüvvələrə qarşı repressiyaları genişləndirsinlər. 1925-ci ilin avqustunda Rza xan hökumətin tərkibinə feodal nümayəndələrini daxil etdikdə və Süleyman Mirzə bu xadimlərin irticaçı olduğunu məclis iclaslarından birində söylədikdə, Rza xan onun sözünü kəsərək «keçmişi xatırlamağın yeri deyil... biz burada tarix öyrənməyə gəlməmişik» – deyib, iclası əda ilə tərk etmişdi. 1925-ci ilin iyulunda Rza xan Cənubi Azərbaycana səfər edib Təbriz, Xoy, Salmas, Ərdəbil şəhərlərində oldu. Səfərə çıxmamışdan əvvəl Rza xan xüsusi bəyanatında bildirdi ki, 1924-cü ilin yazında və yayında Azərbaycanın fövqəladə xidmətlərini nəzərə alaraq bu səfəri edir. Əslində isə bu səfərdə məqsəd, Azərbaycandakı bütün qüvvələri səfərbər edib Qacarları devirməyə hazırlıq idi. Oktyabrın 29-da Təbriz əhalisi adından nəşr olunmuş bəyanatda bildirilirdi ki, Təbriz Tehranla əlaqəsini kəsir. Hətta paytaxta yürüş üçün «könüllü» dəstələr təşkil olunmasına başlanması elan olundu. Yenə də çoxlu cəmiyyətlər, o cümlədən «İran millətçiləri cəmiyyəti», «Azərbaycan milli hərəkatının birləşmiş komissiyası», «Müstəqil vətənpərvərlər komitəsi» və başqalarının yaradılması elan olunur, bunların adından vərəqələr yayılırdı və s. Təbrizin bir qrup taciri Rza xana teleqram göndərərək şikayətlənmişdi ki, guya hökumət dairələri onların Qacarları devirmək haqqındakı teleqramlarının dərc olunmasına maneçilik törədir. Şikayət məktubunun üzərində Rza xan belə bir dərkənar qoymuşdu: «Hərbi hakimiyyət dairələrinə! Azərbaycan tacirləri nümayəndələrinin tələbinə uyğun olaraq onlardan alınan teleqramların dərc edilməsinə icazə verilir».

Belə bir şəraitdə, 1925-ci il oktyabrın axırlarında məclis bir neçə gün «Ölkədə vəziyyət haqqında» məsələni müzakirə edərkən Rza xan

tərəfdarlarının təklifi ilə gündəliyə yeganə qanun layihəsi qoyuldu. Bu layihədə deyilirdi: «Vahid maddə. Xalqın səadəti naminə məclis Qacarlar sülaləsinin devrildiyini elan edir və konstitusiya, mövcud qanunlar çərçivəsində ölkənin idarə olunmasını cənab Rza xan Pəhləviyə tapşırır». Əslində Rza xanla sövdələşmiş feodal cəbhəsinin başda Müdərris olmaqla deputatları ya bunun lehinə, ya əleyhinə səs verməmək üçün zalı tərk etmiş, ya da «xəstəliyə görə» iclasa gəlməmişdilər. Səsvermə layihənin lehinə 80, əleyhinə 15 səslə keçdi (əleyhinə yalnız Süleyman Mirzə, Seyid Həsən Tağızadə[1], Müsəddiqüssəltənə və daha iki nəfər səs vermişdi). Məclis habelə Müəssislər məclisinin seçilməsi haqqında qərar qəbul etdi. Noyabrın 5-də Rza xan tərəfindən hökumət başçısı vəzifəsinə liberal ruhlu tarixçi və ictimai xadim Zükaülmülk Foruqi təyin olundu. Noyabrın axırlarında Müəssislər məclisinə təcili seçkilər başlandı və on gündən sonra başa çatdı. Qacarların devrilməsi münasibətilə hökumətin göstərişilə Tehranda, Təbrizdə, İsfahanda və başqa iri şəhərlərdə «xalq» nümayişləri keçirilir, küçələr xalçalarla bəzədilir, tacirlər, mülkədarlar, əyanlar, kasıblar üçün qonaqlıq, hökumət nümayəndələri və məmurlara ziyafətlər verirdi, qəzetlərdə çoxlu təbrik teleqramları dərc olunur və yalnız Rza xanın şah ola biləcəyi fikri beyinlərə aşılanırdı. Dekabrın 12-də Müəssislər məclisi Rza xanın «Pəhləvi» soyadı ilə nəsli şah olaraq seçilməsini elan etdi.[2]

Beləliklə, 1921–1925-ci illərdə feodal cəbhəsi ilə mülkədar-burjua cəbhəsi arasında hakimiyyət uğrunda, ölkənin gələcək inkişafı yolları, buna hansı sosial, siyasi, ictimai qüvvələrin başçılıq edəcəyi uğrunda mübarizə birincinin sol, ikincinin isə sağ cinahları arasında sövdələşmə ilə nəticələndi.

---

[1] Seyid Həsən Tağızadə – Cənubi Azərbaycanın hələ 1905–1911-ci illər İran inqilabı dövründə ardıcıl liberal kimi geniş şöhrət qazanmış siyasi xadimlərindən biri idi. Tağızadə hələ inqilab ərəfəsində nəşr etdirdiyi «İranın bugünkü vəziyyətinin tarixi mülahizələr əsasında tədqiqi» adlı tarixi-nəzəri əsərin, sonrakı illərdə bir çox tarixi-siyasi publisist əsərlərin müəllifi idi.

[2] «Pəhləvi» sözünü (əfsanəvi qədim fars sülalələrindən birinin adı olmuşdur) Rza xan öz rəsmi soyadı kimi seçmişdi. Rəvayətə görə, hələ bundan xeyli əvvəl ikinci dərəcəli bir siyasi xadim bunu soyadı kimi götürmüşdü. Rza xan ona təzyiq göstərib xəbərdarlıq etmişdi ki, bu addan imtina etsin.

## § 2. Cənubi Azərbaycan Rza şah diktaturası dövründə

20-ci illərin ikinci yarısı – 30-cu illərdə Cənubi Azərbaycanda müəyyən sosial iqtisadi, siyasi və mədəni dəyişikliklər baş verirdi. Bunlar kapitalist münasibətləri və burjua qaydaları qurmaq istiqamətində idi. Lakin Pəhləvi rejiminin təmsil etdiyi sosial-siyasi qüvvələr bu sahədə dərin dəyişikliklərin həyata keçirilməsini arzulamırdı və yalnız öz hakimiyyətinin əsaslarını möhkəmlətmək məqsədi güdən səthi islahatlarla kifayətlənirdi.

Bu meyil aydın şəkildə aqrar sahədə özünü göstərdi. Cənubi Azərbaycanın iqtisadi özülünü (80%-ə qədərini) təşkil edən kənd təsərrüfatı Birinci Dünya müharibəsi dövründə və sonrakı bir neçə ildə ictimai, siyasi hadisələrin törətdiyi dağıntıdan nisbətən qısa müddətdə çıxa bildi və 20-ci illərin ortalarında müharibədən əvvəlki səviyyəyə çatdı, hətta bəzi sahələrdə bunu da ötüb keçdi. Lakin unudulmamalıdır ki, bu səviyyənin özü kəndlilərin böyük əksəriyyətinin torpaqsız yarıdar – icarədar olduğu, yarımdilənçi həyat sürdüyü şəraitdə istehsalın ən bəsit formalarına əsaslanan təsərrüfatçılıq səviyyəsi idi. Bu vəziyyətdən çıxmaq üçün ən birinci şərt – kəndlinin torpaq ilə təmin edilməsi, aqrar islahatın həyata keçirilməsi idi. Lakin dövlət bunu etmək niyyətində deyildi. Digər tərəfdən kənd təsərrüfatının dirçəlməsi və inkişafını nəzərdə tutan Rza şah rejimi bu məqsədlə bəzi tədbirlər görmək məcburiyyətində qaldı. Bu tədbirlərdən biri torpaq üzərində xüsusi mülkiyyətin, torpağın alınıb-satılmasını rəsmiləşdirmək haqqında 1925–1937-ci illərdə qəbul olunmuş qanunlar oldu. Ən böyük ümid doğuran tədbirlərdən biri də dövlət (xalisə) torpaqlarının, habelə iri feodalların bir hissəsinin müsadirə edilmiş torpaqlarının, dini (vəqf) əmlakının bir hissəsinin kəndlilərə satılması qərarı oldu. Xalisə torpaqlarının satılması özü-özlüyündə aqrar məsələni həll edə bilməzdi, çünki bu dövr üçün bunlar becərilməyə yararlı olan torpaqların çox az hissəsini (10–12 faizini) təşkil edirdi. İkincisi və başlıcası isə budur ki, yarımdilənçi kəndlilərin heç bir vəsaiti yox idi və torpaq almağa qadir deyildi. Doğrudur, dövlətin yaratdığı xüsusi kənd təsərrüfatı bankı və başqaları kredit şəklində pul verirdi, lakin bunun müqabilində tərpənməyən əmlakdan girov tələb olunurdu, kəndlinin isə belə əmlakı yox idi. Buna görə həmin torpaqların xeyli hissəsini tacirlər, məmurlar alır və sonra da köhnə qaydalara uyğun olaraq həmin kəndlilərə icarəyə verirdilər. Bu məsələdə heç bir real nəticə əldə edə bilməyən Rza şah hökuməti

kəndlilərin və ümumiyyətlə, torpaq sahiblərinin kooperasiyasına kömək etmək qərarına gəldi və bir neçə il ərzində İranda yüzlərlə kooperativ şirkətləri təsis olundu. Bunların ən irilərindən biri 20-ci illərin ortalarında Təbrizdə yaranmış şirkət oldu. Lakin bu tədbir də gözlənilən nəticəni vermədi, yəni aqrar məsələdə az-çox irəliləyiş üçün təkan olmadı. Bunun səbəblərindən biri də o idi ki, bu kooperativlərin böyük əksəriyyəti ticarətlə məşğul olur, kəndlilərdən, xırda torpaq mülkiyyətçilərindən (xırdamaliklərdən), mülkədarlardan məhsul alır və satırdı. Lakin bu, istehsalatı əhatə etmirdi. Dövlətin bəzi tədbirləri, məsələn, kənd təsərrüfat maşınlarının, süni gübrələrin idxalının gömrük tədiyyələrindən azad olunması kəndlilərin vəziyyətini yaxşılaşdıra biləcək nəticələr vermədi, çünki onların buna da vəsaiti yox idi. Orta və iri tacirlər, xırdamaliklərin yuxarı təbəqəsini isə kənd təsərrüfatı işinin mexanikləşdirilməsi maraqlandırmırdı, çünki onlar məhsulun yarıdan beşdə birinə qədərini icarə haqqı olaraq kəndlidən renta şəklində əldə edilməsinə əsaslanan icarə sistemini üstün tuturdular. Bütün bunların nəticəsində kəndli təsərrüfatında ən bəsit, dədə-babadan qalmış alətlərdən istifadə edilirdi. Məsələn, 20-ci illərin ortalarında Cənubi Azərbaycanın Maku və Xoy nahiyələrində hər on kəndə bir kotan düşürdü və torpaqlar xışla becərilirdi; 30-cu illərdə isə əyalətdə bir neçə traktor (bütün İranda cəmi 100 traktor) və atla işləyən otbiçən, toxumsəpən, taxıldöyən maşın olmuşdur. Dövlətin və kooperativlərin köməyi ilə yeraltı kanalların (kəhrizlərin) və quyuların təmiri bir qədər qənaətbəxş idi, bu hamıya, o cümlədən xırdamaliklərə, orta mülkədarlara da lazım idi. Dövlətin hesabına, habelə bir neçə baytarlıq stansiyası, kənd təsərrüfatı zərərvericilərinə qarşı mübarizə məntəqəsi açılmışdı. Lakin bunların miqdarı çox az olduğundan aqrar isitehsal sahəsində mühüm dönüş yarada bilmirdi.

Cənubi Azərbaycanda kənd təsərrüfatının inkişafına mane olan amillərdən biri də SSRİ-in İrana qarşı yeritdiyi ticarət siyasəti oldu. Əgər Sovet hakimiyyətinin ilk illərində ölkədə hökm sürən aclıqla əlaqədar olaraq, bu siyasət nisbətən liberal, İran istehsalçıları və tacirləri üçün əlverişli idisə, 1927–1928-ci ildən başlayaraq bu sərt himayəçilik tədbirləri ilə əvəz olundu. Cənubi Azərbaycanın kənd təsərrüfatı və qismən sənət məmulatı (ənənəvi mis qablar, bəzi parçalar) bir neçə il müvəffəqiyyətlə fəaliyyət göstərmiş Bakı və Nijni-Novqorod yarmarkalarının bağlanması nəticəsində mühüm bazarları itirdi, daxili bazar isə bu itkini ödəmirdi.

Cənubi Azərbaycan şəhərinin, şəhər iqtisadiyyatının mühüm sahəsi olan sənətkarlıq emalatxanalarının (manufaktura tipli), xırda və orta, maşınlı sənaye müəssisələrinin, ticarət, maliyyə təsisatlarının, pul tədavülünün və s. inkişafı qarşısında keçmişdə olduğu qədər güclü feodal və yarımfeodal qalıqları kimi maneələr (mülkiyyət formalarında, istehsal, əmək münasibətlərində) yox idi və varlı təbəqələrin mənafeyi daha əsaslı islahatlar keçirilməsini tələb edirdi. Lakin tacirlərin, sahibkarların xeyli hissəsi eyni zamanda torpaq mülkiyyətçisi olduğundan onların «islahatçılığı» da yarımçıq xarakter daşıyırdı. 1925-ci ildən başlayaraq dövlət ticarətin, sənayenin inkişafı üçün yol açan bəzi tədbirlər görməyə başladı. Bunların içərisində ən mühümləri kapitulyasiyalar rejiminin ləğv edilməsi (1927–1928)[1], müstəqil gömrük sisteminin yaradılması, İranı xarici dövlətlərin maliyyə təzyiqindən qoruyan Milli bankın, habelə sənaye və ticarətə kapital qoyuluşunu asanlaşdıran digər bankların təsis olunması, pul islahatının keçirilməsi, bir sıra iqtisadi, hüquqi qanunların, mülki və cinayət kodekslərinin qəbul edilməsi və başqaları idi. Bundan əlavə, milli kapitalın zəifliyi şəraitində dövlət, bir tərəfdən iri şirkətlərin yaranmasına kömək edir (əlverişli şərtlərlə kredit verilməsi və s.), digər tərəfdən isə infrastruktur yaratmaq işini (başlıca olaraq şose yolları və transiran dəmiryolunun çəkilməsi, rabitə, elektrik stansiyalarının yaradılması, iri şəhərlərdə abadlıq işləri) və nəhayət, sənaye müəssisələrinin yaradılmasına kapital qoyuluşunu öz üzərinə götürür, bununla da müəyyən mənada dövlət kapitalizmini inkişaf etdirirdi.

20–30-cu illərdə Cənubi Azərbaycanda xüsusi kapitalın səyləri nəticəsində onlarca xırda, orta və iri sənaye müəssisəsi tikildi. Bunların içərisində əsasən Təbrizdə təmərküzləşmiş trikotaj – corab, pambıq və yun parça, kibrit fabriklərini, düyü, pambıqtəmizləyən, gön-dəri, taxta-şalban zavodlarını göstərmək olar. Bunun nəticəsində Cənubi Azərbaycanda milli sənaye kapitalının özülü qoyuldu. Sənaye müəssisəsinin

[1] XX əsrin 30-40-cı illərindən Rusiya və İngiltərənin (sonralar isə başqa Qərb dövlətlərinin də) İrana zorla qəbul etdirdiyi kapitulyasiyalar rejimi ölkənin təkcə siyasi deyil, həm də iqtisadi əsarət altına alınmasının başlıca alətlərindən biri oldu. Məsələn, İran xarici mallara 5 faizdən artıq olmayan gömrük haqqı qoya bilməzdi, xarici təbəəliyi qəbul edən tacirlər və sahibkarlar (böhranların xeyli hissəsi ya yerli ermənilər, ya da Rusiyada, əsasən Bakıdakı erməni tacir və sahibkarlar idi) Cənubi Azərbaycan tacirlərindən üstün mövqe tutaraq, ən mürtəce komprador burjuaziyanı təşkil edərək, Rusiya diplomatiyasının, Rusiya hesab-borc bankının Təbriz şöbəsinin yardımına arxalanırdı.

tikilib istifadəyə verilməsi çoxlu vəsait tələb edirdi. Azərbaycan sahibkarları içərisində belə kapital qoyuluşuna gücü çatan çox az adam var idi. Bu səbəbdən dövlətin himayəçilik etdiyi tacir və sahibkarların şirkətlər yaratmaq siyasəti də lazımi nəticə vermirdi. Məsələn, 1925-ci ildə Təbrizdə ümumi kapitalı 23,3 milyon rial olan 35 sənaye şirkəti var idi.

İkinci mühüm maneə daxili bazarın məhdudluğu və sənaye məhsullarının xarici bazara çıxarılmasının çətinliyi idi. Daxili bazarın məhdudluğu əsasən əhalinin geniş kütlələrinin alıcılıq qabiliyyətinin çox aşağı səviyyəsindən irəli gəlirdi. Şimali Azərbaycanın yüngül sənaye mallarına yüksək gömrük haqqı qoyulmuşdu və bu da həmin malların Cənubi Azərbaycana ixracı imkanlarını heçə endirirdi.

Nəhayət, Cənubi Azərbaycanın sənayeləşməsinə mane olan daha bir səbəbi də göstərmək lazımdır ki, bu da daxili siyasətdə şovinizm prinsiplərini rəhbər tutan Rza şah dövlətinin Azərbaycana münasibətdə qərəzkarlığı ilə bağlı idi. Məsələn, 1931–1941-ci illərdə bilavasitə dövlət kapital qoyuluşu hesabına İranda 103 müəssisə tikilmişdisə, bunun yalnız biri Cənubi Azərbaycanın payına düşmüşdü. Beləliklə, Azərbaycanda yaranmaqda olan milli sənaye buradakı iqtisadi potensialdan xeyli geri qalırdı.

20–30-cu illərdə də həm müəssisələrin, həm də bunlarda çalışanların sayına, əhalinin əksəriyyətini öz məmulatı və xidmətləri ilə təmin etmək qabiliyyətinə görə əsas sahə – sənətkarlıq istehsalı qalırdı. Sənətkarlıq müəssisələri və peşə xidmətləri Cənubi Azərbaycanın bütün şəhərlərində var idi. Təbriz yenə də sənətkarlığın bütün sahələrinin cəmləşdiyi əsas mərkəz idi. Təbrizin özündə isə onların, ən əvvəl xırda sənətkar emalatxanaları, müxtəlif peşə müəssisələri bazarda yerləşirdi və bunların əksəriyyəti öz məmulatını elə buradaca satırdı. Azərbaycanın digər şəhərlərində, xüsusilə vilayət mərkəzlərində (Urmiya, Xalxal, Salmas, Ərdəbil, Zəncan və başqalarında) həmin yerlərin iqtisadi, coğrafi xüsusiyyətinə uyğun olaraq müxtəlif sənətkarlıq emalatxanaları və peşə xidmətləri var idi. Ən geniş yayılmış sənətkarlıq və peşə müəssisələri əhalinin gündəlik tələbatını ödəyən, bir qayda olaraq sahib-ustanın, habelə 2-3 şagirdin, muzdlu fəhlənin çalışdığı müəssisələr idi (çörəkçilər, halva və digər şirniyyat hazırlayanlar, kababçı və aşpazlar, dəlləklər, dərzilər və s.). Əsasən orta və iri sənətkar emalatxanalarında 7-8 nəfərdən 20 nəfərədək şagird, usta köməkçisi, muzdlu fəhlə çalışırdı. 20-ci illərin sonunda təkcə Təbrizdə 5 minədək xalçaçılıq emalatxanası var idi və bunlarda 12-14 minədək sənətkar,

bütövlükdə Azərbaycanda isə 50 minədək sənətkar çalışırdı. İri xalçaçılıq emalatxanaları çox vaxt xalça alverçilərinin və ya dəllalların (bunlar varlı xalça ixracatçılarının nümayəndəsi kimi çıxış edirdi) sifarişi ilə işləyirdi. Ümumiyyətlə, bu dövrdə sənətkarlıqda ixtisarlar baş verirdi. Bu proses ən əvvəl yun və pambıq parçalar, ayaqqabı, şüşə istehsalı, yəni həm yerli sənaye müəssisələrinin, həm də xeyli dərəcədə xaricdən gətirilən ucuz və keyfiyyətli malların rəqabətinin nəticəsi idi.

Cənubi Azərbaycan iqtisadiyyatında (əsasən şəhərlərdə) baş vermiş bu proseslər cəmiyyətin ümumi sosial strukturunda ciddi dəyişikliklər yaratmasa da, hər halda, ona yeni elementlər gətirmişdi ki, bunlardan da ən mühümü – sənaye burjuaziyasının və sənaye fəhlələrinin, yəni burjuaziya və fəhlələrin həm sayca, həm ictimai istehsalda xüsusi çəkisinə və həm də ictimai fikrə təsir dərəcəsinə görə cüzi hissəsini təşkil edirdi. Məsələn, 30-cu illərin sonunda Təbrizdə fabrik-zavod fəhlələrinin sayı 3 min nəfərdən artıq olmadığı halda, buradakı təkcə toxuculuq emalatxanalarında 12 min nəfərədək fəhlə çalışırdı, digər sənətkarlıq sahələri də nəzərə alınarsa bu nisbət fərqi daha artıq idi. Təqribən eyni şeyi sənaye burjuaziyası ilə ticarət burjuaziyası haqqında da demək olar. Doğrudur, mülkədarlar tərkibcə xeyli yeniləşmişdi, onların əsas hissəsini artıq 20–30-cu illərdə feodal zadəganlarından, Rza şahın siyasi rəqiblərindən tamamilə və ya qismən müsadirə olunmuş torpaqları ələ keçirmiş yeni mülkədarlar təşkil edirdilər.[1] Lakin bu «yeni» mülkədarların kəndli kütlələri üzərindəki ağalığı yenə də köhnə feodal istehsal münasibətləri çərçivəsində qalırdı. Beləliklə, Cənubi Azərbaycanda da hakim təbəqəni yeni aristokratiya təşkil edirdi. Məhz bu təbəqənin nümayəndələri dövlət sənayesi, xüsusilə ordu, polis, məhkəmə sistemi və digər ən mühüm idarələrin başında dururdular.

Nəhayət, bu dövrdə sosial strukturda baş vermiş dəyişikliklərdən biri də vaxtilə ən güclü və nüfuzlu təbəqələrdən olan ruhanilərin (və onlara yaxın duran dərvişlərin, seyidlərin) sayının azalması və onların mövqeyinin zəifləməsi oldu. Yeni tarixi şəraitdə bütün dövlət sisteminin, xeyli dərəcədə ictimai-siyasi həyatın dünyəvilik prinsipləri əsasında yenidən qurulmasının labüdlüyü ən geri qalmış təbəqələrdən başqa çoxları üçün, xüsusən şəhər təbəqələri üçün aydın idi. Cənubi Azərbaycan bunu artıq çoxdan başa düşmüş, on illər boyunca dünyəvi döv-

[1] Xırda, torpağı az olan, xan ailəsindən çıxmış, bu yolla çoxlu münbit torpaqları zəbt etməklə İranın ən iri mülkədarına çevrilmiş Rza şah öz yaxın adamlarının da iri mülkədarlara çevrilməsinə kömək etmişdi.

lət quruluşu prinsipini təbliğ edən maarifçi mütəfəkkirlərinin (Ə.Talıbov, Z.Marağayi, S.H.Tağızadə, İ.Zəncani və başqaları[1]) ideyaları mülkədar-burjua dairələrinin bir hissəsində, ziyalılar içərisində artıq kök salmışdı.

Rza şah, bütün diktatorlar kimi, heç bir müxalif qüvvələrlə hesablaşmayan və siyasətdə əsas vasitəni zorakılıqda görən dövlət başçısı idi. Özünü yeganə düzgün siyasətin təcəssümü, Allah tərəfindən İrana bəxş edilmiş dövlət başçısı, «Millətin atası» hesab edən Rza şah şəxsən iradəli, qətiyyətli və eyni zamanda qəddar bir adam idi. Rza şah təkcə sağdan və soldan olan siyasi düşmənlərinə deyil, hətta onu iş başına gətirmiş silahdaşlarına da amansızcasına divan tuturdu. Məsələn, Cənubi Azərbaycanda keçirilən hərbi islahatın təşəbbüsçülərindən və təşkilatçılarından biri, zabitlər içərisində böyük nüfuz qazanmış Amanulla xanın, yenə də burada siyasi-inzibati dairələrin rəhbərlərindən biri olan Abdulla xan Təhmasibin müqəddəratı belə olmuşdu.

Lakin İranda diktatura xarakterini alan dövlət sistemi yalnız Rza şahın şəxsi keyfiyyətləri ilə müəyyən olunmurdu. Bunun əsasını, eyni zamanda mürtəce mülkədarlar və burjuaziyanın, başlıca olaraq onun ticarət-sələmçi təbəqəsinin diktatura xarakterli dövlət sisteminə can atmaları təşkil edirdi. Onların fikrincə, yalnız belə quruluş xalq kütlələrini itaətdə saxlaya bilər. Burjuaziyanın öz sıralarında, ziyalılar və ümumiyyətlə, şəhər təbəqələri içərisində liberal, demokratik meyillərin güclənməsinin qarşısını ala bilərdi. Diktatura sistemi hələ Rza şahın hakimiyyət uğrunda mübarizəsi dövründə, 1921–1925-ci illərdə təşəkkül tapmağa başlamışdı və ilk vaxtlar əsasən bu və ya digər regionda, şəhərdə hərbi vəziyyət elan olunması, bütün səlahiyyətlərinin general-qubernatorlara verilməsi, konstitusiyaya əsasən mərkəzdən təyin edilmiş valilərin isə bu səlahiyyətlərdən məhrum edilməsi, bir növ ikihakimiyyətlilik şəklini alırdı. 1925-ci ildən sonra isə ikihakimiyyətliliyə son qoyuldu və bütün hakimiyyət Rza şahın, onun təyin etdiyi

---

[1] XX əsrin əvvəllərində bir sıra müsəlman ölkələrində yayılmağa başlamış və Qərb aləmində «İslam moernizmi» adını almış bu cərəyan (onun ən görkəmli nümayəndələrindən biri Əl-Kəvakibi olmuşdur) o zamankı tarixi şəraiti nəzərə alaraq həmin ölkələrdə ictimai-siyasi fikrin ən real və mütərəqqi ideyalarını təbliğ edən cərəyanlardan idi. Bunun əksinə olaraq, yenə də bu dövrdə həmin ölkələrdə meydana çıxmış və əsas müddəaları real olmayan (vahid müsəlman dövləti), yaxud mürtəce xarakter daşıyan (teokratik dövlət quruluşu) ideyaları təbliğ edən və s. «panislamizm» adını almış (bunların ən görkəmli ideoloqlarından biri Seyid Cəmaləddin Əfqani idi) cərəyan birincisi ilə qarışdırılmamalıdır.

nazirlərin, dövlət aparatının əlində cəmləşdi, cəmiyyətin hər hansı bir nəzarətindən, o cümlədən parlamentin, yerlərdəki «seçkili» orqanların (əncümənlərin) nəzarətindən çıxarıldı, parlamentin özü məşvərətçi orqana çevrildi. Doğrudur, ən mühüm dövlət aktları nəticə etibarilə parlament qanunları şəklini alırdı, lakin əslində o, yalnız hökumətin, şəxsən Rza şahın daxili və xarici siyasətə dair hazırladığı layihə və təklifləri, sadəcə olaraq, təsdiq edirdi, bunların deputatlar tərəfindən azad müzakirə edilməsindən isə söz belə ola bilməzdi. Həm də deputatların böyük əksəriyyəti iri bürokratiya, saray dairələri, hərbi və polis dairələrinin təyin etdiyi və əsasən əyalətlərdə, kənd yerlərində olan «seçkilər» nəticəsində deputatlığa irəli sürülən, hakimiyyətə müti tabe olan şəxslərdən ibarət idi. Nadir hallarda hakimiyyət, geniş dünyagörüşünə, dərin biliklərə və vətəndaşlıq qeyrətinə malik, satqın olmayan elm xadimlərini dövlət quruculuğuna, ictimai işə cəlb etməklə onların nüfuz və bacarığından öz məqsədləri üçün istifadə edirdi.[1]

Pəhləvi monarxiyasının avtoritar diktaturası 1926–1927-ci illərdə bütün siyasi partiyaları bağladı və 1941-ci ildə Rza şah diktaturası dağılanadək İranın siyasi həyatında partiyasızlıq dövrü başlandı (hər hansı bir siyasi fəaliyyətə şübhə ilə yanaşan Rza şah, hətta özünün «Təcəddüd» partiyasını da bağlatdırdı). Bu da öz növbəsində bütün ictimai həyatda və ilk növbədə dövlət quruculuğu sahəsində öz əksini tapdı: müxtəlif sosial-iqtisadi, siyasi mədəni mənafeləri təmsil və müdafiə etmək, lazım gəldikdə müəyyən kompromisə gedərək ümumi razılığa gəlmək imkanı verən siyasi partiyaların, təşkilatların olmaması şəraitində parlamentarizm də öz mənasını itirir, yalnız diktaturanı cəmiyyətə təlqin edən bir orqana çevrilirdi.

Bu mənada yalnız İran Kommunist Partiyasının aqibəti bir qədər başqa oldu. 1922-ci ildə kommunistlər Gilanda inqilabi hərəkatda öz məğlubiyyət səbəblərini təhlil etmək və gələcək fəaliyyət proqramını müəyyən etmək üçün Bakıda ikinci qurultaya toplandılar. Qurultayda N.Nərimanovun Sovet Azərbaycanını Şərqdə inqilabi hərəkatın avan-

---

[1] Bu mənada S.H.Tağızadənin nümunəsi, xüsusilə əyanidir. Müharibə illərində bir çox liberal siyasi xadimlərlə bərabər xaricə (Almaniyaya) mühacirət etmiş Tağızadə, vətənə qayıtdıqdan sonra IV (sonralar V, VI) çağırış məclislərə deputat seçilmişdi. Rza şah şəxsən onu dövlətin idarə olunması işinə, xarici siyasəti bilən şəxs kimi, cəlb etməyə çalışaraq müxtəlif vəzifələr təklif etmişdi. İlk vaxtlar Tağızadə buna razı olmuşdu, lakin mürtəce diktatura quruluşunun getdikcə gücləndiyini görərək daha bu sistemə qulluq etməmək üçün bütün həmin vasitələrdən əl çəkdi və yenidən mühacirətə gedib, yalnız 1941-ci ildə rejim iflasa uğradıqdan sonra vətənə qayıtdı.

postuna çevirmək, inqilabi mübarizədə yerli, o cümlədən İran şəraitini nəzərə almaq lüzumu haqqında ideyaları üstünlük qazandı. Lakin nəticə etibarilə bolşeviklər partiyası və onun hökmranlıq etdiyi Komintern qurultayın qərarlarını rədd etdilər və beləliklə, İKP-də mövcud olan fikir ayrılıqları aradan qaldırılmadı. Buna baxmayaraq, İran kommunistləri öz fəaliyyətinin ağırlıq mərkəzini Cənubi Azərbaycana keçirmək təşəbbüsü etdilər və ilk vaxtlar bəzi müvəffəqiyyətlərə nail oldular. 1922–1923-cü illərdə onlar bir neçə həmkarlar ittifaqının fəaliyyətində iştirak edərək, fəhlələrin tətil hərəkatına başçılıq edə bilmiş, onların «Həqiqət» qəzetinin nəşrinə nail olmuşdular. Lakin bütövlükdə onlar ciddi müvəffəqiyyət qazana bilmədilər, partiyanın sıraları genişlənmədi, digər sosialist tipli partiyalarla əlaqə yaradılmadı. Buna görə 1922–1925-ci illərdə İrandakı gərgin siyasi mübarizə gedişində İKP mühüm rol oynaya bilmədi. Belə ki, bu zaman parlament seçkilərində (IV və V çağırış məclislərə) İKP-dən bir nəfər də olsun namizəd irəli sürülmədi və seçilmədi. 1925-ci ildən sonra Pəhləvi monarxiyası getdikcə daha açıq şəkildə diktaturaya çevrilməyə başladıqda, İKP yenə də Bakıda öz II qurultayına toplaşdı (qurultayın çap olunmuş sənədlərində onun guya Cənubi Azərbaycanda, Salmas şəhərində keçirildiyi göstərilmişdi). Qurultay ən mühüm proqram müddəalarına (proletariat diktaturası, aqrar və milli məsələlər haqqında və s.) İran şəraitini nəzərə alan bir sıra düzəlişlər etdi, partiya sıralarının genişləndirilməsinə və İranda fəaliyyətinin gücləndirilməsinə dair qərarlar çıxardı. Lakin ölkədə ümumi siyasi vəziyyətin gərginləşməsi, həbslər və sürgünlər İKP-nin fəaliyyətini ciddi surətdə pozurdu. 1930-cu ilin dekabrında kommunist və fəhlə həmkarlar hərəkatının bir qrup xadimi həbsə alındıqda o zaman üçün tanınmış siyasi xadim və publisist Seyid Cəfər Pişəvəri də onların içərisində olmuşdu. 1931-ci ildə İranda kommunist təşkilatlarını və kommunist təbliğatını qadağan edən qanun çıxarıldıqdan sonra isə İKP-nin İranda fəaliyyəti üçün heç bir real imkan qalmadı. 1937-ci ildə hökumət yeni həbslər keçirib «53-lər məhkəməsi» adını almış və qəsdən şişirdilmiş açıq məhkəmə prosesi təşkil etdikdən sonra İKP tamamilə darmadağın edilmiş oldu. Eyni zamanda İKP-yə ikinci zərbə SSRİ tərəfindən vuruldu: 30-cu illərdə ÜİK(b)P və Komintern sıralarında Stalin repressiyaları İKP-nin buradakı üzvlərinə, xadimlərinə də toxundu və həm İranın özündə, həm də xaricdə partiya tamamilə dağıdıldı. Beləliklə də, əməli siyasi fəaliyyətində siyasi mübarizə səhnəsində digər (liberal-demokratik məsləkli) partiyalardan

da az müvəffəqiyyət qazandı və obyektiv səbəblərə görə başqa cürə ola da bilməzdi. Çünki onun bolşevik prinsiplərindən doğan şüarları və siyasəti geniş xalq kütlələri tərəfindən, nəinki qəbul olunmur, çox vaxt başa da düşülmürdü.

Bununla belə, Cənubi Azərbaycanda İKP ilə bağlı olan türk ziyalıları içərisində müasir, materialist dünyagörüşünün yetkinləşməsinə təsir göstərən faktlar da qeyd edilməlidir. 20-ci illərdə kommunist və kommunistlərə yaxın olan, xaricdə çıxan «Həqiqət», «Setareye-sorx» («Qırmızı ulduz») qəzetlərinin, «Peykar» jurnalının və xüsusilə 1934-cü idə digər tanınmış siyasi xadim, alim və publisist Təqi Əraninin Tehranda nəşrə başladığı «Dünya» jurnalının buna xeyli təsiri olmuşdur. Şübhəsiz ki, 20–30-cu illərdə çıxmış və İran ziyalıları içərisində böyük nüfuz qazanmış, əslində İranda ilk elmi nəşrlər olan «Ərmağan» («Hədiyyə»), «Ayənde» («gələcək»), «Vəfa», «Şərq» jurnalları İranda tarixi, fəlsəfi, sosioloji, iqtisadi məsələlərə dair məqalələrin xarakteri bu təsiri özündə əks etdirmişdir. Adları çəkilən qəzet və jurnalların əksəriyyəti, onların naşir və redaktorları, müəlliflərin xeyli hissəsi məhz azərbaycanlılar olmuş (Ə.Kəsrəvi, Mirzə Məhəmmədəli xan Tərbiyət, Mahmud Əfşar, A.İqbal və bir çox başqaları) və onlar əvvəllərdə olduğu kimi, İranda ictimai, siyasi, tarixi fikrin, çap işinin inkişafında mühüm rol oynamışlar.

Pəhləvi monarxiyasının diktaturaya çevrilməsi təkcə siyasi partiyaların qadağan edilməsi ilə, cəmiyyətin həyatından normal, qanuni siyasi mübarizə yollarının bağlanması ilə məhdudlaşmayıb, siyasi azadlıqların hamısının, o cümlədən konstitusiyada təsbit edilmiş azadlıqların – yığıncaq və nümayişlər, söz, mətbuat, peşəkar birləşmələri (həmkarlar ittifaqları) yaratmaq və s. azadlıqların qadağan edilməsi ilə müşayiət olunurdu. Bütün cəmiyyətdə, dövlətdə yuxarıdan aşağıya, mərkəzdən ən kiçik inzibati vahidlərə qədər sərt mərkəzləşdirilmiş sistem hökm sürürdü. Prinsipcə dövlətə lazım olan yeni inzibati bölgü də (1937) iri əyalətlərin, o cümlədən Cənubi Azərbaycanın ostanlara (vilayətlərə) parçalanması bu mənada yalnız sərt, bürokratik mərkəzləşdirmə məqsədlərinə xidmət edirdi.

Beləliklə, bütün Azərbaycan, həm Şimali, həm də Cənubi Azərbaycan 20–30-cu illərdə diktatura quruluşu şəraitinə düşmüş oldular. Lakin bu diktaturalar arasında, bütün diktaturalara xas olan ümumi cəhətlərə yanaşı, (birinci növbədə siyasi, ictimai iqtisadi azadlıqların

olmaması, kiçik azlığın öz iradəsini böyük əksəriyyətə zorla qəbul etdirməsi və s.) fərqlər və xüsusiyyətlər də var idi ki, bu da hər ikisinin vəziyyətinə və sonrakı inkişafına təsir göstərməyə bilməzdi. Bu xüsusiyyət İrandakı diktaturanın dövlət siyasəti səviyyəsinə çatdırılmış və başlıca olaraq Cənubi Azərbaycan türklərinə qarşı çevrilmiş, onların milli şüurunu, dilini və mədəniyyətini, hətta milli varlığını da inkar etməyə, boğmağa yönəldilmiş milli zülm idi.

## § 3. 20–30-cu illərdə milli zülm

Məlum olduğu kimi, milli zülm, habelə digər milli problemlər, əhalisi polietnik tərkibli dövlətlərdə, onların tarixi inkişafının müəyyən mərhələsində – feodalizmdən kapitalizmə keçid və kapitalist münasibətlərinin bərqərar olması mərhələsində meydana çıxmağa başlayır. Qacarlar dövləti həmin mərhələyə XIX əsrin sonu – XX əsrin əvvəllərində qədəm qoymağa başlamışdı.

İrandakı Azərbaycan türkləri 20-ci illərə özlərinin milli keyfiyyətlərini, ənənələrini, dil birliyi və mədəni ümumiliyini qoruyub saxladığı halda daxil olmuşdular. Bu keyfiyyətlərə malik olduğu üçün Azərbaycan türkləri İranda yaşayan digər qeyri-fars xalqlara nisbətən iqtisadi cəhətdən olduğu kimi, öz milli inkişafında da etnos kimi, yaranmaqda olan millət kimi daha yüksək mövqedə olmuşdular. Xüsusilə 1920-ci il Təbriz üsyanı Azərbaycan türklərinə bu baxımdan daha əlverişli psixoloji üstünlük vermişdi. Bu psixoloji özül o qədər güclü idi ki, üsyanın yatırılması, hərəkat başçılarının öldürülməsi və iştirakçılarına divan tutulması demokratik qüvvələrdə milli süstlük yaratmamışdı və əyalətdəki sonrakı siyasi ab-hava bunu aydın göstərirdi. 1924–1925-ci illərdə İranda qondarma «respublika hərəkatı» zamanı Azərbaycan əyalətinin inqilabi əhvali-ruhiyyəsindən də özünəməxsus üsulla bəhrələnməklə bu əhvalın dalğalarında hakimiyyətə gəlmiş Rza xan bütün diktatorlara xas olan xəyanətkarlıqla digər istinad nöqtələri kimi bu dayağı da «zərərsizləşdirməyi» həyati məsələ kimi qarşıya qoydu. Bu vaxtadək İranın siyasi, sosial-iqtisadi və mədəni inkişafında aparıcı mövqe tutan Azərbaycanı və Azərbaycan türklərini hər cəhətdən, xüsusilə iqtisadi və mənəvi cəhətdən zəiflətmək, əvəzində farsları hakim millət kimi ucaltmaq və digər milli qurumları tədricən hakim farslar içərisində əritmək siyasəti Rza şahın mərkəzləşmiş qüdrətli dövlət yaratmaq

siyasətinin ideoloji dayaqlarından birini təşkil edirdi. Rza şah hökumətinin planlı şəkildə həyata keçirdiyi bu siyasət 30-cu illərin ikinciyarısında alman faşizminin irqçilik nəzəriyyəsindən bəhrələnərək ölkədəki qeyri-hakim millətlərin açıqcasına assimilyasiya edilməsi məqsədini gücləndirməyə xidmət edirdi.

Rza şahın dövlət səviyyəsinə qaldırdığı, paniranizmə söykənən milli zülm siyasəti qeyri-fars xalqlara, o cümlədən Azərbaycan türklərinə qarşı maddi və mənəvi varlığın, demək olar ki, bütün sahələrində həyata keçirilirdi.

Qeyri-fars xalqların, ilk növbədə Azərbaycan türklərinin assimilyasiya edilməsində, onların etnik və milli şüurunun, milli-mədəni inkişafının qarşısının alınmasında və nəticə etibarilə bir millət kimi məhv edilməsində istifadə edilən ən təsirli vasitə onları öz doğma türk dilindən məhrumetmə siyasəti idi. Bir filosofun «hər hansı bir xalqı məhv etmək istəsən, onun dilini əlindən al» kəlamı sanki Rza şahın Azərbaycan türklərinə münasibətdə yürütdüyü siyasəti nəzərdə tutmuşdu. Cənubi Azərbaycanda xüsusi təzyiq və qəddarlıqla həyata keçirilən bu siyasətə uyğun olaraq burada ana dilində təhsil, kitab və qəzet nəşri, tamaşalar verilməsi, məktəblərdə, idarələrdə türkcə danışmaq, hətta yastəziyə məclislərini ana dilində aparmaq qadağan edilmişdi.

Bununla birlikdə əski türk kitabları, Təbriz şairlərinin daşbasması əsərləri və əlyazmaları toplanılıb yandırılırdı. Türkcə coğrafi adlar – dağlar, çaylar, şəhər və kənd adları, tarixi türk əsərləri və abidələrin adları və s. sistematik olaraq farslaşdırılırdı (Urmiya şəhəri və gölü – Rezaiyyə, Acıçay–Təlxrud, Qarasu–Siyahrud və s.). Maraqlı müqayisə yerinə düşər: Şimalda da şəhər adlarının ruslaşdırılması (Gəncə–Kirovabad), coğrafi adların erməniləşdirilməsi (Goranboy – Şaumyan, Xankəndi – Stepanakert), Bakıda rus və erməni mənşəli saysız qəsəbə və küçə adlarının peyda olması və s. Soyadları fars yazılışına və fars mənşəyinə uyğunlaşdırılırdı (Şimalda «ov», «yev» sonluqları).

Diktaturanın əli çatdığı bütün yerlərdə (başlıca olaraq şəhərlərdə və bunlara yaxın yaşayış məntəqələrində) Şimaldakı oxşar adət-ənənələr, gözə çarpan oxşar mədəniyyət və məişət ünsürləri qadağan edilmişdi. 30-cu illərin əvvəllərində – SSRİ-nin «dəmir pərdə» siyasətinin gücləndiyi bir dövrdən İranın Azərbaycan SSR ilə əlaqələrinin tam kəsilməsi siyasəti də qismən Azərbaycan ölkəsi və xalqının etnik vahidliyi həqiqətinə qarşı çevrilmiş bir tədbir idi. Bu tədbir Rza şahın göstərişi ilə 20-ci illərin sonlarında bünövrəsi əslən Azərbaycan türkü olan

Əhməd Kəsrəvi və başqaları tərəfindən qoyulmuş «nəzəriyyə» ilə əsaslandırılırdı. Azərbaycanın iki qonşu dövlət arasında bölünməsi və öz vahid dövlətçiliyini itirməsindən sui-istifadə edilərək icad edilmiş bu qondarma nəzəriyyəyə görə həmin diyarın şimal hissəsi guya heç vaxt Azərbaycan adını daşımamış (Alban-Aran adına sahib olmuş), şimalda və cənubda yaşayan əhali isə tarixən və müasir dövrdə etnik cəhətdən müxtəlif uluslara mənsub olmuşdur. Uydurulmuş və tarixi həqiqətlərə, tarixi mənbələrin verdiyi məlumatlara tamamilə əks olan bu «nəzəriyyə» sahibləri xalqın böyük bir hissəsini – cənubda yaşayan əhalini onun əslən fars mənşəli olmasına, əslən fars dilinin yerli bir ləhcəsi kimi qələmə verdikləri dilin sonradan Səlcuqların gəlişi ilə türkləşməsinə inandırmağa çalışırdılar.

Rza şahın mərkəzləşmiş güclü dövlət yaratmaq məqsədilə apardığı inzibati siyasəti də qeyri-fars millətlərin varlığına, onların milli təmərküzləşməsinə qarşı çevrilmişdi. Rza şah hakimiyyətinin azərbaycanlılara qarşı apardığı antitürk siyasəti 30-cu illərin sonlarında apardığı yeni inzibati bölgüdə öz zirvəsinə yetdi. Belə ki, 1937-ci ilin noyabrında təsdiq edilmiş yeni inzibati bölgüyə görə İran 10 ostana (vilayətə) bölündü və Azərbaycan ərazisi üçüncü («Şərqi Azərbaycan», mərkəzi Təbriz şəhəri), dördüncü («Qərbi Azərbaycan», mərkəzi Urmiya şəhəri) və əsasən Azərbaycan torpaqlarından ibarət olan birinci («Gilan», mərkəzi Rəşt şəhəri) ostanlara ayrılmış oldu. Azərbaycanın tarixi ərazisi olan Həmədan vilayəti isə beşinci («Kürdüstan», mərkəzi Senəndəc şəhəri) ostana qatılmışdı (sonrakı dövrlərdə bu bölgüdə başlıca olaraq qeyri-fars millətlərdə milli formalaşma proseslərinə əngəl yaratmaq məqsədilə daha bir sıra mühüm dəyişikliklər edildi, o cümlədən Azərbaycan adını daşıyan ostanların ərazisi yeni bölgülərə və azalmalara məruz qaldı).

Beləliklə, Rza şah hakimiyyəti İranda feodal zülmünü müəyyən qədər məhdudlaşdırmış olsa da, ölkədə keçmişdə görünməmiş amansız milli zülm siyasətinin əsasını qoydu. Azərbaycan türklərinə qarşı daha çox qəddarlıqla həyata keçirilən bu siyasət mahiyyətcə Azərbaycanın və Azərbaycan türklərinin vahidliyinə qarşı çevrilmişdi.

# XII FƏSİL

# AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

## § 1. Müharibənin başlanması. Xalqın faşizmə qarşı mübarizəyə səfərbər edilməsi

**Tərəflər və niyyətlər**

Beynəlxalq vəziyyət 30-cu illərdə xeyli gərginləşmişdi. Dünya müharibəsi təhlükəsi yaranmışdı. Xammal mənbələri, bazarlar, müstəmləkələr, dünya ağalığı uğrunda mübarizə artıq dinc siyasi vasitələrlə davam etdirilə bilmirdi. İngiltərə və Fransa öz müstəmləkələrini qoruyub saxlamağa, yeni torpaqlar, nüfuz dairələri ələ keçirməyə, Almaniyanı və SSRİ-ni qarşı-qarşıya qoymağa, onların hər ikisini zəif salmağa, həm faşizmə, həm də dünya inqilabına can atan kommunizmə öldürücü zərbələr vurmağa çalışırdılar. Almaniya, İtaliya və Yaponiya xammal, satış bazarları, təsir dairələri əldə etmək, bunun üçün dünyanı yenidən bölüşdürmək istəyirdilər. Avropada yaranmış siyasi nisbətləri saxlamağa hələlik tərəfdar olan ABŞ Şərqi və Cənub-Şərqi Asiyada öz mövqelərini möhkəmləndirmək niyyətində idi. Böyük Britaniya, Fransa və ABŞ-ı ən çox narahat edən SSRİ-nin maddi sərvətlərinin onun sosializm yoluna çəkməyə çalışdığı Almaniyanın texnoloji imkanları ilə birləşdirilməsi təhlükəsi idi. Buna görə də onlar Almaniyada faşistlərin hakimiyyətə gəlməsinə və möhkəmlənməsinə, demək olar ki, kömək etdilər. Bu ölkələr Almaniyanın Mərkəzi Avropadakı maraqlarının qismən təmin olunmasına, Avstriyanın, Çexoslavakiyanın ona birləşdirilməsinə razılıq verən Münhen sövdələşməsinə (1938-ci il 29 sentyabr) faşizmi kommunizmə qarşı qoymaq vasitəsi kimi baxırdılar. Onlar Yaxın Şərqdəki mövqelərini möhkəmləndimək üçün Cənub-Şərqi Avropaya, Qara dəniz boğazlarına, Cənubi Qafqaza, xüsusən Azərbaycana, Bakı neftinə sahib olmağa can atırdılar.

SSRİ şimalda Finlandiyanı, cənubda İran körfəzinə qədər ərazini, Bolqarıstanı öz nüfuz dairəsinə almaq, Şimali Saxalində Yaponiyanın neft və kömür çıxarmaq hüququnu ləğv etmək, Kerzon xəttindən (Versal sülhünə görə Polşanın şərq sərhədi) şərqdə Polşa, Pribaltika, Qərbi Ukrayna, Qərbi Belorusiya, Bessarabiya və Şimali Bukovinanı ələ keçirmək, Bosfor və Dardaneldə hərbi bazalar yaratmaq istəyirdi. O, qərb dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsinə, hərbi toqquşmalar nəticəsində onların zəifləməsinə, dünya inqilabı, kommunist rejimi ölkələrin çoxalması üçün münasib şərait yaranmasına çalışırdı.

İri dövlətlərin heç biri SSRİ-yə ciddi hərbi-iqtisadi qüvvə, müttəfiq kimi yanaşmırdılar. Generalları «xalq düşməni» elan edilib başsız qalmış ordusu, inkişaf sürətini xeyli azaltmış sənayesi və tez-tez büdrəyən kənd təsərrüfatı olan bu ölkəyə belə münasibət təbii idi. Xarici dövlətlər SSRİ-yə zorla birləşdirilmiş, mərkəzdən və bir-birindən asılı vəziyyətə salınmış, istismar olunduğunu dərk edən və gizli münaqişədə olan xalqların süni ittifaqı kimi baxır, onun davamlılığına inanmırdılar. «Kazarma sosializmi»nin ölkəni ekstremal hallarda vahid düşərgəyə çevirmək, səfərbər etmək imkanları düzgün qiymətləndirilmirdi. Bununla belə, bu dövlətlərin heç biri SSRİ-nin digər dövlətlərlə yaxınlaşmasını istəmirdilər. Beynəlxalq təhlükəsizlik sistemi yaratmaq sahəsində qeyri-ciddi cəhdlər göstərməklə, bir tərəfdən bu işin təşəbbüsçüsü olan SSRİ, digər tərəfdən Böyük Britaniya və Fransa, əslində bir-birini Almaniya ilə müqavilə bağlamaqdan çəkindirməyə çalışırdılar. Buna görə də 1939-cu ilin martından beş ay davam etmiş danışıqların nəticəsi olmadı.

Öncə ABŞ, Böyük Britaniya və Fransa ilə yaxınlaşan və onlarla birlikdə Yaponiyanı SSRİ-yə qarşı qoyan faşist Almaniyası Qırmızı Ordunun Uzaq Şərqdəki qələbələrindən nəticə çıxarıb (Sovet Ordusu 1938-ci ilin iyul-avqust aylarında Xasan gölü rayonunda SSRİ, 1939-cü ilin may-avqust aylarında isə Xalxin-qol tərəfdə onun müttəfiqi olan Monqolustan ərazilərinə hücum etmiş yapon silahlı qüvvələrini ağır məğlubiyyətə uğratmışdı) mövcud qüvvələri ilə şərqdə müvəffəqiyyət qazana bilməyəcəyinə əmin olaraq Qərbi Avropanı özünə tabe etmək üçün Moskva ilə yaxınlaşmağa başladı və ona müqavilə bağlamağı təklif etdi. İki ölkə arasında 1939-cu il avqustun 23-də on il müddətinə hücum etməmək haqqında müqavilə bağlandı. Bu vasitə ilə SSRİ iki cəbhədə – qərbdə və şərqdə müharibə aparmaq təhlükəsindən qurtardı, ölkənin müdafiə qabiliyyətini artırmaq üçün vaxt qazandı (baxmayaraq ki, bu

imkandan mümkün qədər səmərəli istifadə olunmadı), «kapitalın zəifləməsi», «dünya kommunist inqilabı»nın qələbəsi üçün münasib şərait yaranmasına – imperialist qruplaşmaları arasında müharibə başlanmasına nail oldu. SSRİ XKS sədri V.M.Molotov o vaxt yazırdı ki, indi hitlerizmi məhv etmək üçün müharibə aparmaq cinayətdir.

İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücumu ilə başlandı. Sentyabrın 28-də SSRİ və Almaniya dostluq və sərhədlər haqqında müqavilə bağladılar, dövlətlərin suveren hüquqlarını tapdalayaraq Şərqi Avropanı öz nüfuz dairələrinə böldülər. 1939-cu ilin sentyabrında Sovet Ordusu hücum edib Qərbi Ukrayna və Qərbi Belarusiyanı tutdu. SSRİ fitnəkarlıq törədərək Finlandiya ilə müharibəyə başladı. Bağlanan Moskva sülhünə (1940-cı il 12 mart) görə SSRİ Leninqraddan (Sankt-Peterburqdan) şimalda öz sərhədlərini genişləndirdi. Xanko yarımadasını hərbi məqsədlə icarəyə götürdü. SSRİ 1939-cu ilin payızında Pribaltika hökumətləri ilə qarşılıqlı yardım haqqında müqavilə imzaladı, qoşunlarını onların ərazisində yerləşdirdi. 1940-cı ilin iyun ayında buraya əlavə qoşunlar yeridildi. Bir aydan sonra ordunun və yerli kommunistlərin köməyi ilə bu ölkələrdə hakimiyyət orqanlarına seçkilər adı altında kommunist çevrilişi baş verdi, yaradılmış sosialist respublikaları SSRİ-yə birləşdirildi. 1940-cı ilin yayında Sovet Hökuməti Rumıniyaya hədə-qorxu gələrək onu Bessarabiyanı geri qaytarmağa, habelə Bukovinanın şimalını güzəştə getməyə məcbur etdi. 1940-cı ilin əvvəllərində SSRİ Almaniya, İtaliya və Yaponiya ilə birlikdə təcavüzkar dövlət kimi Millətlər Cəmiyyətindən xaric edildi (SSRİ bu beynəlxalq təşkilata 1934-cü ildə qəbul olunmuşdu).

Faşist Almaniyası şərqdən təhlükəsizliyini təmin edib müttəfiqi İtaliya ilə birlikdə qısa bir zamanda Qərbi və mərkəzi Avropanın, demək olar ki, bütün ölkələrini işğal etdi və ya özündən asılı vəziyyətə saldı. SSRİ-nin kapitalist ölkələri arasında müharibənin uzun və üzücü olacağı haqqında ümidləri puça çıxırdı. İstila olunmuş ölkələrdə başlanmış milli-azadlıq hərəkatı mövcud siyasi mübarizəni üstələdi. Almaniyanın hərbi qüvvələri əsarət altına alınmış ölkələrin hərbi və iqtisadi potensialı hesabına müharibənin əvvəlindəkinə nisbətən iki dəfə çoxaldı. İndi ona dünya ağalığına nail olmaq yolunda əsas maneə öz müttəfiqi olan SSRİ idi. Hitler artıq 1940-cı ilin yayından alman ordusunun baş qərargahına SSRİ-yə qarşı müharibə planı hazırlamağı əmr etmişdi. Bu plan həmin il dekabrın 18-də təsdiq olunmuşdu.

1941-ci il iyunun 22-də faşist Almaniyası qəflətən SSRİ-yə hücum etdi. «Barbarossa planı» «İldırımsürətli müharibə» strategiyasına əsaslanır və bir neçə gözlənilməz güclü zərbə ilə Sovet Ordusunu darmadağın etməyi, qışa qədər Arxangelsk–Həştərxan xəttinə çıxmağı nəzərdə tuturdu.

Mühüm strateji, geosiyasi əhəmiyyətə malik Azərbaycan, neft Bakısı faşist Almaniyasının istilaçılıq planlarında xüsusi yer tuturdu. «Müsəlman monqoloidləri dağıdıcı qüvvə» kimi qiymətləndirən Hitler «Mənim mübarizəm» kitabında yazırdı ki, onlar ali irqin qullarına çevrilməlidir. Almaniya hökuməti Bakı neftini ələ keçirməyi şərqdə istilaçılıq siyasətini reallaşdırmağın mühüm amili kimi qiymətləndirirdi. Rozenberqin «Qafqazın idarə olunması planı»na görə ilk zamanlar Azərbaycanda idarəedici orqan – komissarlıq yaradılmalı və o, iqamətgahı Tiflisdə yerləşəcək Qafqaz reyxkomissarlığına tabe edilməli idi.

Almaniya Rusiya üzərində qələbədən sonra müharibəni davam etdirib İran körfəzinə, Hind okeanına qədər əraziləri ələ keçirmək istəyirdi. Türk xalqları yaşayan ərazilərdə Almaniyadan asılı oyuncaq «Böyük Türküstan» dövləti yaradılması planlaşdırılırdı. Bu dövlətin ərazisinə Şimali və Cənubi Azərbaycanla bərabər Mərkəzi Asiya, Qazaxıstan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstan daxil olmalı idi.

Hələ 1941-ci il martın 27-də Almaniyanın «Kontinental neft cəmiyyəti»nə tapşırılmışdı ki, o, Bakıda neftin çıxarılması, emalı və aparılması ilə məşğul olacaqdır. Artıq Azərbaycandakı iri sənaye müəssisələrinə «ali irqdən» rəhbərlər də təyin olunmuşdu. Onlar ucuz iş qüvvəsi hesabına maya dəyəri aşağı olacaq məhsullardan gələcək yüksək gəliri son qəpiyinədək Almaniyaya çatdırmaq tapşırığı almışdılar.

Hitlerin neft Bakısı haqqında xüsusi planları vardı. 1941-ci il iyulun 16-da o, hökumət rəhbərlərinin yığıncağında qeyd etmişdi ki, Bakı neft istehsalı ilə məşğul olan hərbi məntəqəyə çevrilməlidir. Bakının, Abşeronun mühüm sənaye və hərbi əhəmiyyətli göstərilən dəqiq xəritə-planlar tərtib edilmişdi.

SSRİ-nin qərb sərhədlərində yerləşdirilmiş, hələ tam komplektləşdirilməmiş hərbi birləşmələri ilk döyüşlərdə Almaniyanın və onun müttəfiqlərinin yaxşı silahlanmış və döyüş təcrübəsi olan ordularının güclü hücumuna qarşı davam gətirə bilmədi, böyük itkilər verə-verə, sürətlə geri çəkildi.

**Azərbaycan SSR-də hərbi, iqtisadi və mənəvi səfərbərlik**

Müharibə başlanan kimi Sovet imperiyası rəhbərliyi əhalini, xüsusən milli respublikalarda yaşayan xalqları düşmənə qarşı səfərbər etmək, təsərrüfatı müharibənin tələbləri əsasında yenidən qurmaq üçün mövcud inzibati-amirlik üsul-idarəsini daha da sərtləşdirdi. 1941-ci il iyunun 30-da ölkədə bütün hakimiyyət Dövlət Müdafiə Komitəsinin, onun sədri İ.V.Stalinin əlində cəmləşdirildi. Bir ay sonra arxa cəbhə baş idarəsi yaradıldı. Siyasi və ideoloji təbliğat orqanları yenidən quruldu. Orduda hərbi komissarlar sistemi təsis olundu. 1941-ci il avqustun 25-də Sovet ordusu İranın şimalına daxil oldu. Bu əməliyyatda 77-ci Azərbaycan diviziyası da (1920-ci ildə təşkil olunub) iştirak edirdi. SSRİ cənub sərhədlərini möhkəmləndirə bildi.

Sovet imperiyasının hər yerində olduğu kimi, Azərbaycanda da M.Bağırovun başçılığı ilə inzibati idarəçilik sistemi daha da möhkəmləndirildi. Bu işdə partiya komitələri, onların yeni yaradılmış sahə şöbələri, habelə MTS-lər yanındakı siyasi şöbələr, dövlət təhlükəsizlik və daxili işlər orqanları mühüm rol oynadılar.

Respublikada müharibənin ilk həftəsində 40 min nəfərdən çox oğlan və qız cəbhəyə – faşistlərə qarşı müharibəyə getmək üçün hərbi komissarlıqlara ərizə verdilər. Avqust ayına kimi burada 123 min nəfər xalq qoşunu dəstələrinə yazıldı. 1941-ci ilin sonunda bu dəstələrdə 187 min nəfərə qədər döyüşçü vardı, onların 30 min nəfərdən çoxu qadın idi. Casuslara, təxribatçılara qarşı mübarizə aparmaq üçün 12 min nəfər döyüşçüsü olan 87 qırıcı batalyon, habelə 15 min nəfərlik hava hücumundan müdafiə, təkcə Bakıda 1124 özünümüdafiə dəstələri təşkil olundu. Bu dəstələrin yardım qruplarına 44 min nəfərdən çox adam cəlb edildi.

Azərbaycanda 1941-ci ilin avqustunda 402-ci, oktyabrında 223-cü, 1942-ci ilin mart-sentyabr aylarında 416-cı, avqust-sentyabr aylarında isə 271-ci milli atıcı diviziyalar təşkil olundu. 1941-ci ilin dekabrında Krımın müdafiəsində iştirak etmiş, Ağ Manay rayonundakı döyüşdə şəxsi heyətinin çoxunu itirmiş 77-ci Azərbaycan diviziyası yenidən 1942-ci ilin mayında respublikada komplektləşdirildi. Ümumiyyətlə, müharibə illərində Azərbaycandan Sovet ordusuna 640 min nəfərə qədər adam, o cümlədən 10 min nəfərdən çox qadın səfərbər edilib cəbhəyə göndərildi.

Respublikanın xalq təsərrüfatı qısa müddətdə hərbi qaydada yenidən quruldu. İyunun 26-dan fəhlə və qulluqçular üçün iş günü 11 saata

qaldırıldı, məzuniyyətlər ləğv edildi. Əmək intizamı möhkəmləndirildi. İşdən özbaşına çıxıb getmək üstə azadlıqdan 5 ildən 8 ilə qədər məhrum edilmək cəzası müəyyən olundu. 1941-ci ilin noyabrından ərzaq, 1942-ci ilin aprelindən isə sənaye malları satışı üzrə kartoçka sistemi tətbiq edildi.

Orduya səfərbər olunanların yerinə qadınlar, yeniyetmələr gətirildi. Onlardan 43 min nəfərdən çox ixtisaslı fəhlələr hazırlandı. Müəssisələrdə plan tapşırıqlarını 200, 300 faiz yerinə yetirmək uğrunda «cəbhəçi», «komsomolçu» briqadalar təşkil edildi. Sənaye cəbhə üçün məhsullar istehsal etməyə başladı.

Müharibə illərində Bakı Sovet ordusunun mühüm cəbhəxanalarından birinə çevrildi. Vəziyyət ağır idi. Maşınqayırma zavodları şərqə köçürülmüşdü. 1943-cü ilədək neft avadanlığı istehsal olunmadı. 1944-cü ilədək yeni neft quyuları qazılmadı. Texnikanın və iş qüvvəsinin çatışmazlığı üzündən böyük çətinliklərə düçar olmasına baxmayaraq, neftçilər müharibə illərində ölkəyə 75 milyon tona qədər neft verdilər. Bu, o zaman ölkədə çıxarılan neftin dörddə üç hissəsini təşkil edirdi. 1941–1945-ci illərdə Bakının neft emalı müəssisələrində 22 milyon ton benzin, sürtkü yağı və başqa neft məhsulları istehsal olundu. Yüksək oktanlı benzin istehsalına başlandı. Cəbhəyə təyyarə benzininin 85–90 faizini Bakı verirdi. Sovet hərbi təyyarələrinin hamısında bu benzindən istifadə olunurdu. 1941-ci ildə Bakıda müdafiə əhəmiyyətli ilk hidrogen qurğusu işə salındı.

Bakının maşınqayırma müəssisələrində silah, habelə məşhur «Katyuşa» – reaktiv artilleriya döyüş maşını, «Şpagin» pulemyotu, hərbi təyyarələr üçün hissələr istehsal olunurdu. 1942-ci ildə burada 130 növ silah, silah hissələri və sursat istehsal edilirdi. 1941-ci ildə böyük hərbi və xalq təsərrüfatı əhəmiyyəti olan Culfa-Mincivan, Osmanlı-Astara, Salyan-Neftçala, Popanin-Hacıqabul xətləri istifadəyə verildi. Bakı avtomobil zavodunun əsası qoyuldu. Yüngül və yerli sənaye müəssisələri də cəbhə üçün lazımi mallar istehsal edirdi. 1944-cü ildə Bakıda yeni ayaqqabı, 1945-ci ildə çaybükmə fabrikləri işə salındı.

Azərbaycanın dəmiryol nəqliyyatçıları müharibə illərində 1300 min vaqon və 600 min sistern, habelə Xəzər dəniz gəmiçiləri 20 milyon ton hərbi və xalq təsərrüfatı yükləri daşıdılar. Yanacağın dəmiryolu ilə daşınması mümkün olmadığı 1942-ci ildə Xəzər dənizçiləri tankerlər çatışmadığı üçün dünya təcrübəsində ilk dəfə neft doldurulmuş sistern və çənləri gəmilərin yedəyinə alıb Krasnovodskiyə aparırdılar.

Azərbaycan kəndliləri də müharibə illərində məhsuldar qüvvələrin olduqca zəifləməsinə baxmayaraq, ölkəyə yüz min tonlarla ərzaq məhsulu, pambıq, tütün, barama və s. verdi.

Azərbaycanlılar müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz verdi, tank və təyyarə dəstələri fondlarına 230 milyon manat pul köçürdülər. Cəbhəyə 1,6 milyon hədiyyə bağlamaları, 135 vaqon isti paltar göndərildi.

Azərbaycan özü ağır vəziyyətdə olsa da, mərkəzin tələbi ilə faşist işğalçılarından azad edilmiş rayonlarda xalq təsərrüfatının bərpasına fəal kömək göstərməli idi. 1943-cü ilin payızında bu məqsədlə Respublika yardım komitəsi və onun rayon komissiyaları təşkil olundu. Şimali Qafqaz neftçilərinə, Leninqrad, Stalinqrad, Stavropol, Ukrayna təsərrüfatlarına çoxlu pul, ərzaq, tikinti materialları, mal-qara, istehsal avadanlıqları və s. göndərildi.

Faşizmə qarşı müharibəyə xalq kütlələrinin bütün təbəqələrində münasibət eyni deyildi. Güclü ideoloji təzyiqlə əhalinin bir hissəsində uzun illər rəhbərlərə, «kommunizm işinə», «dünya kommunist inqilabına» inam, habelə mexaniki icraçılıq adəti tərbiyə olunmuşdu. Beləları sidq ürəklə SSRİ-ni zəhmətkeşlərin xoşbəxtliyi üçün hər cür şərait yaratmağa çalışan bir ölkə hesab edir, onu qorumağı şərəf işi sayırdı. Minlərlə adam ön və arxa cəbhədə, həqiqətən, fədakarlıq göstərirdi.

Azərbaycanın imperiya daxilində müstəmləkə olmasını, hakimiyyətin xalqdan qəsb edilməsini dərk edənlər də az deyildi. Elm və mədəniyyət xadimlərinin bir çoxu yaxşı başa düşürdü ki, Azərbaycan xalqının azadlığı faşizmin qələbəsində deyil, çünki bütün dünyanı istila etməyə çalışan faşist Almaniyası Azərbaycana istiqlal gətirə bilməz. Buna görə də xalqı daha böyük bəlalardan qorumaq, nəyin bahasına olursa-olsun faşizmə qalib gəlmək lazımdır. Görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin rəhbərliyi ilə respublikada yüksək oktanlı təyyarə benzininin istehsalı üçün orijinal və daha səmərəli texnologiya yaradıldı. Geoloqlardan Mirəli Qaşqay, Şamil Əzizbəyov və başqaları yeni strateji xammal mənbələri, nadir metalları əvəz edən materiallar kəşf etdilər. Mustafa Topçubaşov və onun tələbələri hərbi cərrahiyyədə yeni, səmərəli metodlar işləyib hazırladılar, minlərlə döyüşçünü həyata qaytardılar. Respublikada təşkil olunmuş 150-dən çox hərbi hospitalda müalicə edilən yaralıların 70 faizindən çoxu tam sağaldılıb yenidən döyüş meydanlarına qaytarılmışdı.

Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Məmməd Rahim, Mehdi Hüseyn, Rəsul Rza, Mirzə İbrahimov kimi şair və yazıçılar, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov kimi bəstəkarlar, habelə Əzim Əzimzadə, Salam Salamzadə, Tağı Tağıyev, Maral Rəhmanzadə kimi fırça, Fuad Əbdürəhmanov, Cəlal Qaryağdı kimi tişə ustaları xalqı qələbələrə ruhlandıran əsərlər yaratdılar. İctimai elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixindən, döyüş ənənələrindən bəhs edən əsərlər yazdılar.

Onlarla azərbaycanlı sərkərdə, istedadlı komandir – Həzi Aslanov, Akim Abbasov, Mehdi Mahmudov, Yaqub Quliyev, Həbibulla Hüseynov, Aslan Vəzirov və başqaları xalqı yeni, daha dəhşətli bəladan qurtarmaq amalı ilə parlaq hərbi təşkilatçılıq qabiliyyəti və əsgəri rəşadət göstərdilər.

Ruhanilər də xalqın faşizmə qarşı mübarizəyə səfərbər olunmasında fəal iştirak etdilər. 1944-cü il aprelin 14-də SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi təşkil olunmuşdu. Cənubi Qafqaz müsəlmanlarının birinci qurultayında onun sədri – şeyxülislam, sədr müavini – müfti və idarə üzvləri seçilmişdilər. İdarənin ilk sədri şeyxülislam Ağa Əlizadə Təzə Pir məscidindəki ilk moizəsində dindarları hökumətin qanunlarına itaət göstərməyə, bu yolla «dini hifz etməyə» çağırmışdı.

## § 2. Döyüş meydanlarında

**Faşizmə qarşı ön cəbhələrdə**

Sovet döyüşçülərinin böyük fədakarlığına baxmayaraq, müharibənin ilk aylarında komandanlığın ciddi səhvləri üzündən baş vermiş geriləmələri rus zabitləri özlərinə haqq qazandırmaq üçün milli, xüsusən istehza ilə «yoldaşı» adlandırdıqları türk xalqlarından olan əsgərlərin bacarıqsızlığının, qorxaqlığının nəticəsi kimi qələmə verməyə çalışırdılar. Lakin tarix bu iddiaların əsassız olduğunu sübut etdi.

Minlərlə azərbaycanlı oğlan və qız faşizmə qarşı əldə silah cəbhələrdə mərdliklə vuruşurdular. Müharibənin ilk günlərindən bir çox azərbaycanlı döyüşçü əsgəri rəşadətləri ilə fərqlənmişdi. Faşist işğalçılarının hücumundan bir aydan artıq müddətdə mərdliklə müdafiə olunan, düşmənə böyük tələfat verən Brest qalasının qəhrəman döyüşçüləri arasında 44 nəfər azərbaycanlı vardı. 1941-ci ilin oktyabr-dekabr

aylarında Moskvaya lap yaxınlaşmış faşist qoşunları ilə döyüşlərdə əsgəri rəşadətinə görə tank bölməsinin komandiri Həzi Aslanov «Qırmızı Ulduz» ordeni ilə təltif edildi. Qvardiya baş serjantı, pulemyotçu İdris Vəliyev Borodino çölündə faşistlərlə döyüşdə təkbaşına 50-dən çox düşmən əsgərini məhv etdi. Kiçik leytenant İsrafil Məmmədov Novqorod yaxınlığında Pustinka kəndi uğrunda döyüşdə böyük qəhrəmanlıq göstərdi və Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş ilk azərbaycanlı oldu. Hərbi təyyarəçi leytenant Hüseynbala Əliyev Leninqrad göylərində düşmənin 6 təyyarəsini vurub salmışdı. Son döyüşdə o, daha iki alman təyyarəsini məhv etmiş, 17 ağır yara almasına baxmayaraq, öz təyyarəsini sağ-salamat yerə endirə bilmişdi.

Sovet ordusunun 1941-ci ilin axırlarında Moskva ətrafında böyük qələbəsi, Leninqradın qəhrəman müdafiəsi alman faşistlərinin «ildırımsürətli müharibə planı»nı pozdu. Hitler ordusunun məğlubedilməzliyi haqqında əfsanə puç oldu. 1942-ci il yanvarın 2-də ABŞ, Böyük Britaniya və SSRİ daxil olmaqla 26 dövlət faşist blokunu darmadağın etmək üçün öz hərbi və iqtisadi ehtiyatlarını birləşdirmək haqqında bəyannamə imzaladı, antifaşist koalisiyası yarandı və getdikcə möhkəmləndi.

Düşmən hələ güclü idi. Bu dəfə faşistlər alman-sovet cəbhəsinin cənub istiqamətində hücuma başladılar. Onlar 1942-ci il mayın əvvəllərində Kerçi, Sevastopolu, Xarkovu ələ keçirib Volqaya doğru irəlilədilər. «Edelveys» planına görə faşistlər Xarkovu tutduqdan sonra Qafqaza hücum edib zəngin neft, digər strateji xammal mənbələri, sənaye və kənd təsərrüfatı rayonunu ələ keçirmək, Bəsrə-İran-Xəzər yolu ilə müttəfiqlərin yardımından SSRİ-ni məhrum etmək, Yaxın və Orta Şərqin istilasına yol açmaq istəyirdilər. Bunun üçün general-feldmarşal Listin komandanlığı ilə «A» ordu qrupu yaradılmışdı. Onun I tank ordusu (komandanı general-polkovnik Kleyst idi) sentyabrın 6-da Qroznı–Mahaçqala–Bakı istiqamətində hücum edib sentyabrın 25-də Bakını tutmalı idi.

Faşist qoşunları iyulun 25-də Don çayını keçib cənuba doğru hücuma başladılar və avqustda Krasnodarı, Stavropolu, Maykopu tutdular. Vəziyyət son dərəcə ağır idi.

ABŞ və İngiltərə SSRİ ilə faşizmə qarşı bir koalisiyada olmalarına baxmayaraq, Cənubi Qafqazı, xüsusən Azərbaycanı ondan almaq istəyirdilər. Onların «Vilvet» planına görə Sovet ordusu Qafqazdan çıxarılıb Stalinqrad cəbhəsinə aparılmalı, burada isə almanlara qarşı 20 hərbi hava eskadrası və Böyük Britaniyanın 10-cu ordusundan ibarət amerikan-ingilis hərbi hissələri vuruşmalı idi.

Azərbaycan əhalisinin Sovet ordusu arxasında almanlarla əməkdaşlıq edəcəyindən ehtiyat edən SSRİ rəhbərliyi azərbaycanlıların Mərkəzi Asiya və Qazaxıstana köçürülməsi planını hazırlamışdı. Lakin respublika rəhbərliyi, xüsusən M.Bağırov Stalini inandıra bildi ki, azərbaycanlıların Azərbaycandan köçürülməsi nə iqtisadi, nə də siyasi baxımdan qələbəyə xidmət edə bilməz, bu, respublikada neft və pambıq kimi strateji məhsulların istehsalını azaldar, orduda vuruşan azərbaycanlı əsgərlərə pozucu təsir göstərər. 1941-ci ilin oktyabrında köçürmə məsələləri üzrə dövlət komitəsinin rəhbəri A.Mikoyanın xüsusi səyləri ilə Bakının minalanıb təhlükə yaranarsa darmadağın edilməsini nəzərdə tutan xüsusi əməliyyat planı da tərtib olunmuşdur.

Sovet ordusunun cəbhələrdəki müvəffəqiyyətləri bu planların pozulmasında əhəmiyyətli rol oynadı.

Ali Baş Komandanlıq Zaqafqaziya respublikalarında, o cümlədən Azərbaycan SSR-də 1942-ci il sentyabrın 9-da hərbi vəziyyət elan etdi. Bakı müdafiə rayonu yaradıldı. Müdafiə-istehkam tikintisinə başlandı. Şəhər ətrafında səngərlər qazıldı, müdafiə xətləri uzaqvuran toplarla və tanklarla möhkəmləndirildi. Bakının müdafiəsi 10-cu atıcı briqadaya, hərbi-hava məktəbinə və Bakı dairəsi hava hücumundan müdafiə qoşunlarına tapşırıldı. Qırıcı təyyarəçilərin və zenitçilərin sayıqlığı sayəsində faşistlərin 1942-ci ildə 71, 1943-cü ildə isə 3 dəfə Bakı səmalarına soxulmaq cəhdi baş tutmadı. Düşmənin 96 təyyarəsi vurulub salındı. Samur çayı üzərindəki strateji əhəmiyyətli körpü də dəfələrlə edilən hava hücumlarından müvəffəqiyyətlə müdafiə edildi.

Cənubi Qafqaz cəbhəsi döyüşçüləri arasında 66,1 min nəfər azərbaycanlı vardı. Azərbaycanlı döyüşçülərin cəbhələr boyu daha çox səpələnməsi ölkə rəhbərliyinin bu xalqa tam arxayın olmamasının təzahürü idi. Lakin Qafqaz döyüşlərində azərbaycanlılar faşistlərə qarşı mərdliklə vuruşdular. Mozdoku tutmuş düşmən ciddi müqavimətə rast gəlib hücum istiqamətini dəyişdi, Bakıya deyil, Nalçik və Orconikidzeyə doğru yeridi. Mozdok rayonunda döyüşən 402, 416 və 223-cü Azərbaycan diviziyaları 44-cü Sovet ordusunun əsas zərbə qüvvəsinə daxil idi. 77-ci diviziya isə müdafiə əməliyyatlarında iştirak edirdi. Mayor Akim Abbasovun komandirlik etdiyi 833-cü polk Mozdok uğrunda döyüşlərdə böyük igidlik göstərdi, düşmənin 30 hücumunu dəf etdi, 36 tankını yandırdı.

1942-ci il oktyabrın əvvəllərində Sovet ordusu Orconikidze yaxınlığında faşistlərin əsas qüvvələrini darmadağın edib onları şimala doğru

qovdu. Bakını işğal etmək üçün Parisdən bu cəbhəyə gətirilmiş 23-cü tank diviziyası, «Brandenburq» polku və alp diviziyası kimi seçmə hərbi hissələr də məhv edildi.

Şimali Qafqazda Sovet ordusunun əks-hücumunda, şəhər və kəndlərin faşist işğalçılarından azad edilməsində 77, 223, 271, 402 və 416-cı Azərbaycan diviziyalarının döyüşçüləri böyük əsgəri hünər göstərdilər. 77-ci diviziya Kerç, Taman yarımadası, Novorossiysk, Mozdok, Mineralnıye Vodı, Stavropol, Lebedi və Rostov şəhərlərinin və başqa yaşayış məntəqələrinin faşistlərdən azad olunmasında iştirak etdi. 402-ci diviziya Mozdok rayonunda on yaşayış məntəqəsini düşməndən təmizlədi, faşistlərin çoxlu texnika və canlı qüvvəsini məhv etdi. Bu diviziya ağır döyüşlərdə şəxsi heyətinin bir hissəsini itirdiyi üçün 416-cı diviziyaya birləşdirildi. Dekabrın əvvəllərində 416-cı diviziya Novo-Lediyov və Kapustino yaşayış məntəqələrini faşistlərdən azad etdi. 1943-cü ilin yanvar-aprel aylarında bu diviziya Mozdok, Qrafskoe Linilin, Stavropol və Armaviri, habelə Azov dənizi sahillərini düşməndən təmizləməkdə fəal rol oynadı. 18-ci ordunun əsgəri Qafur Məmmədov Tuapse uğrunda döyüşlərdə igidlik göstərdi, bir döyüşdə 13 faşist əsgərini məhv etdi, həyatı bahasına komandirini ölümdən qurtardı. Ölümündən sonra ona Sovet İttifaqı Qəhrəmanı adı verildi. Döyüşlərdə göstərdiyi əsgəri rəşadətə görə 43-cü atıcı briqadanın vzvod komandiri İdris Süleymanov da bu ada layiq görüldü.

Faşist ordularının Qafqazda darmadağın edilməsi ölkənin cənub rayonlarını, o cümlədən Azərbaycanı, ilk növbədə Bakını faşist istilası təhlükəsindən qurtardı, düşmənin bu rayonla, habelə Yaxın və Orta Şərqlə bağlı planlarını pozdu.

Azərbaycanlılar Stalinqrad döyüşlərində də mərdliklə vuruşdular. İki ay ərzində Baloğlan Abbasovun snayperlər qrupu üç minə qədər düşmən əsgəri və zabitini məhv etdi. Döyüşlərdən birində igid komandir qəhrəmanlıqla həlak oldu.

Sovet ordusu 1942-ci ilin qışında əks-hücuma keçib faşist qoşunlarını mühasirəyə aldı. Döyüşlərdə podpolkovnik Həzi Aslanovun 55-ci əlahiddə tank polku böyük qəhrəmanlıq göstərdi. Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Stalinqrad ətrafında 1943-cü ilin fevralında alman-faşist ordusu tamamilə darmadağın edildi. Sovet ordusu həmin il ölkənin işğal olunmuş ərazisinin yarısını geri qaytardı. Dünyanın bütün ölkələrində antifaşist hərəkatı gücləndi. Faşist bloku daxilində böhran dərinləşdi. İtali-

yada faşist rejimi dağıldı və bu ölkə müharibədən çıxdı. Antihitler koalisiyası isə, əksinə, getdikcə güclənirdi. Müttəfiqlərin 1943-cü ilin noyabrında keçirdiyi Tehran konfransında faşist Almaniyasına qarşı Avropada ikinci cəbhə açmaq haqqında qərar qəbul edildi.

Sovet ordusunun Qafqaz və Stalinqrad döyüşlərində parlaq qələbəsi müharibənin gedişində əsaslı dönüşün başlanğıcını qoydu. 1943-cü ilin yayında Sovet ordusunun yeni qüvvətli hücumu başlandı. Bütün cəbhələrdə azərbaycanlı döyüşçülər fədakarlıqla vuruşurdular. Oryol şəhəri üzərində qələbə bayrağını ilk dəfə serjant H.Əjdərov qaldırdı. Oryol-Belqorod rayonunda leytenant M.Bağırov, Dnepr uğrunda vuruşmalarda M.Məhərrəmov, S.Kazımov, Kerç körfəzinin keçilməsində M.Quliyev böyük igidlik göstərdilər.

Hərbi təyyarəçilərdən A.Quliyev, Z.Seyidməmmədova döyüş xidmətləri ilə fərqləndilər. 416-cı diviziya 1943-cü il avqustun 30-da Taqonroq şəhərinin azad edilməsində böyük qəhrəmanlıq göstərdi və Ali Baş Komandanlığın əmrilə ona fəxri «Taqonroq diviziyası» adı verildi. Bu diviziya oktyabr ayında Melitopolun faşistlərdən azad edilməsində fərqləndi və «Qırmızı Bayraq» ordeni ilə təltif olundu. Sentyabrın əvvəllərində 271-ci diviziya «Donetsk əməliyyatında fəal iştirak etdi, göstərdiyi rəşadətə görə ona fəxri «Qorlovka diviziyası» adı verildi.

1944-cü ildə Sovet ordusunun mühüm qələbələri nəticəsində SSRİ ərazisi faşist işğalçılarından tamamilə azad edildi. Həmin il 416-cı Azərbaycan diviziyası 5-ci zərbə ordusunun tərkibində Dneprin keçilməsində, Nikolayev və Kişinyov şəhərlərinin azad olunmasında iştirak etdi. Odessa şəhərinin azad olunmasında fərqləndiyinə görə o, ikinci dərəcəli Suvorov ordeni ilə təltif edildi. 1944-cü il aprelin 13-də 77-ci Azərbaycan diviziyasının döyüşçüləri Simferopolun düşməndən təmizlənməsində böyük igidlik göstərdilər, hissəyə fəxri «Simferopol diviziyası» adı verildi. Bu diviziya Sapun-Qara yüksəkliyinin alınmasında göstərdiyi rəşadətə görə ikinci Suvorov ordeni ilə təltif edildi. 1944-cü ilin yayında 77-ci diviziya Pribaltika cəbhəsinə göndərildi, Pribaltika respublikalarının, Şərqi Prusiyanın faşistlərdən azad olunmasında iştirak etdi.

General-mayor Həzi Aslanovun komandanlıq etdiyi 35-ci qvardiya tank briqadasının döyüşçüləri 1944-cü il iyunun 23–30-da böyük igidlik göstərərək Berezna çayını keçib Pleşenitsi şəhərini, daha sonra 580 yaşayış məntəqəsini faşistlərdən təmizlədi, düşmənin çoxlu texnikasını və canlı qüvvəsini sıradan çıxartdı. 3-cü Belorusiya cəbhəsi əsas qüv-

vələrinin müvəffəqiyyətli hücumu üçün əlverişli şərait yaratdı. Cəbhə komandanlığı Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsinə təqdimat verdi. Lakin ona ikinci dəfə qəhrəman adı ölümündən 47 il sonra verildi.

Həzi Aslanovun tank briqadası Pribaltikanın azad olunmasında fəal iştirak etdi. Ölkənin rəhbərliyi, xüsusən ordudakı erməni rəhbərlər azərbaycanlılar içərisindən bacarıqlı sərkərdələrin çıxmasını narahatlıqla qarşılayırdılar. Həzi Aslanov 1945-ci il yanvarın 24-də döyüş əməliyyatları getməyən bir yerdə, çox müəmmalı şəkildə ölümcül yaralanaraq həlak oldu.

223-cü Azərbaycan diviziyası Ukraynanın cənub rayonlarının, Kişinyovun azad olunmasında, Yassi-Kişinyov əməliyyatında fərqləndi.

**Partizan dəstələrində. Avropa antifaşist hərəkatında**

Müharibə illərində əsir düşmüş, faşist hərbi əsir düşərgələrinə salınmış azərbaycanlıların bir hissəsi faşizmə qarşı mübarizəni davam etdirir, qaçıb partizan dəstələrinə qoşulurdu. Ələkbər Əliyev 1941-ci ildə Belorusiyanın Belotsk rayonunda partizan dəstəsinin təşkilində fəal iştirak etmişdi. 1942-ci ildən o, «Dyadya Kolya» partizan birləşməsində dəstə qərargahının rəisi, 1944-cü ildən Suvorov adına partizan dəstəsinin komandiri olmuşdu. Dəstə tez-tez faşist qarnizonuna hücum edirdi. Partizanlar düşmənin 11 hərbi eşalonunu, 3 təyyarəsini partlatmış, Berlin – cəbhə telefon xəttini 28 dəfə kəsmiş, yüzlərlə faşisti məhv etmiş, Almaniyaya aparılan 4 mindən çox sovet adamını əsirlikdən qurtarmışdı. Kapitan İsmayıl Əliyev 1942-ci ilin oktyabrından Kalinin vilayətində fəaliyyət göstərən partizan briqadasının qərargah rəisi idi. 50 nəfər azərbaycanlı hərbi əsir zabit Məmməd Əliyevin başçılığı ilə 1943-cü ilin sentyabrında faşist düşərgəsindən qaçaraq Krımda xüsusi 8 saylı Azərbaycan partizan dəstəsi yaratmışdı. Həmin ilin payızında daha 400 nəfər azərbaycanlı əsirlikdən qaçıb Ukrayna meşələrində Şors adına partizan dəstəsi təşkil etmişdi. 1944-cü ildə A.Məhərrəmov və H.Namazovun başçılıq etdikləri Uritski adına partizan dəstəsi çex partizanları ilə birlikdə Karpatda Dobşina kəndi yaxınlığında faşistlərin təyyarə meydanına qəfil hücum etmiş, düşmənin 21 hərbi təyyarəsini, 70-dək zabit və əsgərini sıradan çıxarmışdı. 1944-cü ildə bu partizan dəstələri başqa partizan hissələri ilə birləşdi, Ukrayna, Çexoslavakiya, Macarıstan və Polşada faşistlərə qarşı mübarizədə fəal iştirak etdi. Onlar düşmən arxasında 11 min km döyüş yolu keçdi, 2,5 mindən çox faşist əsgər və zabitini, düşmənin 32 təyyarəsini, 50-dən çox eşa-

lonunu məhv etdi, onlarla körpünü, dəmiryol xətlərini sıradan çıxartdı. S.A.Kovpakın məşhur partizan ordusunda B.Dadaşov, A.Əliyev cəsur döyüşçülər kimi tanınmışdılar. Ukrayna partizan dəstələrində 500, Belorusiya partizan dəstələrində isə 100-dən çox azərbaycanlı döyüşçü igidliyə görə təltif olunmuşdu.

Faşizmə qarşı Avropa xalqlarının partizan müharibəsində də azərbaycanlılar iştirak etmişdilər. Zabitlər Hadı Qiyasbəyov və Mirzəxan Məmmədovun başçılıq etdikləri azərbaycanlı əsirlər 1942-ci ilin yazında Polşanın Edlin şəhərindəki hərbi əsir düşərgəsində gizli antifaşist təşkilat yaratmışdılar. Payızda bu təşkilatın köməyi ilə zabitlər Z.Zeynalov və H.Novruzovun rəhbərliyi ilə bir qrup əsir qaçıb Polşa partizanlarına qoşulmuşdu. Hitlerçilər 1943-cü ilin əvvəllərində bu təşkilatın izinə düşə bildilər. H.Qayıbov bir dəstə əsir ilə qaçıb cəbhə xəttini keçərək Sovet ordusu hissələrinə qoşula bildi. Ələ keçənlərin bir hissəsi Fransadakı ölüm dəşərgələrinə göndərildi. Gizli təşkilat Rodez şəhərindəki ölüm düşərgəsində də fəaliyyətini M.Məmmədovun rəhbərliyi ilə davam etdirdi. Təkcə 1944-cü ilin mart-aprel aylarında bu düşərgədən 200 əsirin qaçırılması təşkil olunur. Həmin ilin baharında gizli təşkilat Fransa Müqavimət hərəkatı rəhbərliyi ilə əlaqə yaradır. Avqustun 15-də üsyan qaldırıb fransız partizanlarının köməyi ilə düşərgəni məhv etmək planlaşdırılmışdı. Lakin üsyan başlayacaq vaxtdan bir neçə saat əvvəl faşistlər xəbərdar olmuş və üsyanın qarşısı alınmışdı. Gizli təşkilatın rəhbərləri tapılıb güllələnməyə məhkum edildilər. Lakin onlar əsirləri güllələnməyə aparan nəzarətçilərə hücum etdilər. Vuruşda 5 nəfər, o cümlədən M.Məmmədov öldürüldü, qalanları isə qaçıb partizanlara qoşuldular, Fransadakı hərbi əsir düşərgələrindən qaçmış azərbaycanlı döyüşçülər 1-ci sovet partizan polkuna daxil oldular və Fransanın Rodez, Larzak, Kursak, Mond, Nim və başqa şəhərlərinin, onlarla kəndlərinin faşistlərdən azad edilməsində fəal iştirak etdilər. Ə.Cəbrayılov, A.Abdullayev, X.Hacıyev, R.Rzayev və başqaları Fransa Müqavimət hərəkatında mühüm rol oynadılar. 1942-ci ilin noyabr ayında Fransada faşistlərin ölüm düşərgəsindən qaçıb partizanlara qoşulmuş Əhmədiyyə Cəbrayılov «Armed Mişel» adı ilə bu ölkənin azadlıq hərəkatında fəal iştirak etmiş, şəxsi igidliyə görə paradda əsgərə generaldan irəlidə getmək kimi şərəfli hüquq verən yüksək mükafat – «Hərbi medalla» təltif olunmuşdu.

Yüzlərlə azərbaycanlı döyüşçü İtaliya və Yuqoslaviyanın azadlığı uğrunda partizan hərəkatında fəal iştirak etmişdi. Onların böyük bir

dəstəsi Yuqoslaviya Xalq Azadlıq ordusu IX korpusunun tərkibində 9 ay döyüşmüş sovet partizan batalyonunda vuruşurdu. Bu döyüşçülərdən 50 nəfəri rəşadətinə görə Yuqoslaviyanın orden və medalları ilə təltif olunmuşdu.

1942-ci ilin avqustunda ağır yaralanaraq əsir düşmüş, almanların təşkil etdiyi milli Azərbaycan hərbi hissəsinə daxil olmuş, lakin tezliklə faşistlərin əsl niyyətini başa düşərək qaçıb Yuqoslaviya partizanlarına qoşulmuş cəsur kəşfiyyatçı Mehdi Hüseynzadə – məşhur əfsanəvi «Mixaylo» düşmənə qarşı qəhrəmanlıqla mübarizə aparırdı. Yuqoslaviya Xalq Azadlıq ordusu diversiya qrupuna rəhbərlik edən M.Hüseynzadə və onun dəstəsinə daxil olan T.Əliyev, M.Seyidov, A.Məmmədov, D.İsmayılov və başqaları sloven partizanları ilə birlikdə faşistlərə böyük itkilər verdilər, müxtəlif əməliyyatlarda mindən çox alman zabitini məhv etdilər. Faşistlər Mixaylonun başına 400 min lirə mükafat ayırmışdılar. 1944-cü ilin noyabrında o, növbəti əməliyyat zamanı mühasirəyə düşdü və ələ keçməsin deyə, özünü öldürdü. 1957-ci ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Faşist hərbi düşərgələrindən qaçmış əsirlərin İtaliyada təşkil etdiyi partizan dəstələrindən birinə Ə.Babayev rəhbərlik edirdi. Şimali İtaliyanın faşizmdən azad edilməsi uğrunda döyüşlərdə V.Hüseynov, A.Mirzəyev, Ş.Məcidov və başqaları fərqlənmişdilər. Cəsur pulemyotçu Vilayət Hüseynov İtaliya faşistlərinin başçısı Mussalinini həbs edən partizanlar arasında olmuşdu.

Leytenant Hacıbəyov Çexoslavakiyada «Oraq və çəkic» adlı partizan dəstəsinin təşkilində və fəaliyyətində yaxından iştirak etmişdi. Almaniyada Veymar ətrafındakı «Buhenvald» ölüm düşərgəsində fəaliyyət göstərən gizli antifaşist təşkilatın fəal üzvlərindən biri də gənc azərbaycanlı Əkbər Ağayev idi. Ələ keçdikdə faşistlər onu ağır işgəncələrlə öldürdülər. «Mauthauzen», «Dahau» və başqa faşist ölüm düşərgələrində də əsirlərin gizli antifaşist təşkilatlarında azərbaycanlılar fəal iş aparırdılar.

**Azərbaycanın istiqlalı uğrunda mübarizə. Milli legion**

Azərbaycanlılar arasında sovet vətənpərvərləri, habelə faşizmi bolşevizmdən daha böyük bəla hesab edib ona qarşı mübarizəyə qoşulanlarla yanaşı, Almaniyanın sovet imperiyası üzərində çalacağı qələbədə vətəninin istiqlalını görənlər də vardı.

Azərbaycan zorla sovetləşdirildikdən sonra, təqiblərdən yaxa qurtarıb siyasi mübarizəni davam etdirmək üçün xaricə getmiş siyasi xadimlərin bir çoxu səhvən Almaniyanın kommunist imperiyasına son

qoyacağına, Azərbaycan xalqının milli azadlığının bərpasına münasib şərait yaranacağına ümid edirdilər. Azərbaycanda yaşayanlar, Sovet ordusunda xidmətə cəlb edilənlər arasında da belə düşünənlər az deyildi.

Xalqın daxilində ədalətsizliyə, milli ləyaqətin tapdanılmasına qarşı etiraz səsini ucaldanlar get-gedə artırdı. 1937-ci ilin dəhşətli terrorundan çox keçməsə də, mövcud quruluşa qarşı mübarizə məqsədi ilə xalq, xüsusən gənclər qüvvələrini birləşdirməyə, öz təşkilatlarını yaratmağa çalışırdılar. Gizli antisovet, milli-azadlıq uğrunda mübarizə qrupları meydana gəlirdi. Hələ 1941-ci ilin yazında sovet quruluşuna, kommunist partiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizə aparmaq, müstəqil dövlət yaratmaq məqsədilə vətənpərvər qüvvələri birləşdirmək üçün tələbə Süleyman İsgəndərovun rəhbərliyi ilə antisovet millətçi qrup fəaliyyətə başlamışdı. Lakin bu qrup çox yaşamadı, aşkara çıxarılıb məhv edildi, fəalları güllələndi. Mübarizə isə davam edir, yeni gizli qruplar yaranırdı. 1943-cü ildən tələbələr arasında gizli fəaliyyət göstərmiş «İldırım» təşkilatı da onlardan biri idi. Tələbə Gülhüseyn Abdullayevin (Hüseynoğlu) təşəbbüsü ilə yaradılmış bu təşkilat Sovet hökumətinin, kommunist partiyasının milli siyasətini, Azərbaycan dilinin sıxışdırılmasını ciddi tənqid edir, geniş təbliğat üçün imkan və vasitələr axtarırdı. Bu işdə İsmixan Rəhimov, Hacı Zeynalov, Aydın Vahidov və b. daha fəal iştirak edirdilər. 1944-cü ildən Bakının Sabunçu fəhlə qəsəbəsində bir qrup gənc fəhlə gizli beynəlmiləl təşkilat yaradıb mövcud siyasi rejimi qeyri-xəlqilikdə ifşa etməyə, üsyan qaldırıb onu devirməyə çağırışlarla təbliğat işi aparırdılar.

Sovet imperiyasına qarşı fəal mübarizə aparmaq üçün cəbhələrdə bəziləri qəsdən əsir düşür, almanların tərəfinə keçirdilər. Hərbi mütəxəssis, Moskvada hərbi akademiya bitirmiş mayor Əbdürrəhman Fətəlibəyli Düdənginski müharibənin əvvəllərində Pribaltikada elə ilk döyüşlərdə almanlara əsir düşmüş, onların tərəfinə keçərək azərbaycanlılardan ibarət hərbi hissə yaratmaq təşəbbüsü ilə 1941-ci ilin avqustunda Hitlerə müraciət etmişdi.

Faşistlər müharibənin ilk aylarında əsir aldıqları 3,6 milyon sovet, o cümlədən 150 mindən çox azərbaycanlı əsgər və zabitindən öz istilaçılıq planlarını həyata keçirmək üçün istifadə etməyi qərara almışdılar. Əsirlərlə iş aparmaq, onları almanlara sədaqətlə xidmət etməyin öz xalqlarının mənafeyinə uyğun olduğuna inandırmaq, hərbi hissələrdə birləşdirmək üçün faşist hökuməti siyasi mühacirlərin nüfuz və bacarığından istifadə etməyə çalışırdı.

Almaniyada hələ müharibədən çox əvvəllər Azərbaycan siyasi mühacirətinin niyyətləri dərindən öyrənilirdi. 1933-cü ildə Berlində M.Ə.Rəsulzadənin «Azərbaycan Respublikası haqqında bəzi qeydlər», 1936-cı ildə «Çağdaş Azərbaycan ədəbiyyatı», 1938-ci ildə «Azərbaycan problemi» kitabları, habelə onun redaktəsi ilə «İstiqlal» qəzeti (1932–1934-cü illərdə) və «Qurtuluş» jurnalı (1934–1938-ci illərdə) çap olunmuşdu. M.Ə.Rəsulzadə 1941-ci ilin payızında Xarici İşlər Nazirliyi tərəfindən Almaniyaya dəvət olundu. Hökumət nümayəndələri ilə aparılan danışıqlarda Azərbaycan tərəfinin mövqeyi xüsusi memarandumda ifadə edilmişdi. Azərbaycanlıların alman hərbi əsir düşərgələrindən xilas edilməsi, onların əsasən mülki işlərdə işlədilməsi, eyni zamanda Azərbaycan ordusunun yaradılması, ordu başçılarının azərbaycanlılardan təyin edilməsi, azərbaycanlıların yalnız Şərq cəbhəsində vuruşacağı, alman qoşunlarının Azərbaycana girəcəyi zaman, ilk növbədə milli ordunun daxil olmasına təminat verilməsi və s. (cəmi 12 maddə) bu memarandumun əsas şərtləri idi.

1941-ci il dekabrın 22-də Hitler başqa milli hərbi hissələrlə bərabər, Qafqaz müsəlmanlarından da xüsusi hərbi hissə yaradılması haqqında əmr verdi. Bu hərbi hissə Polşadakı hərbi əsir düşərgəsindəki Qafqaz müsəlmanlarından, o cümlədən azərbaycanlılardan təşkil edildi. Hərbi əsirlər arasından azərbaycanlıların tapılması, onların ölümdən xilas olunması (əvvəllər minlərlə azərbaycanlı əsir yəhudi hesab edilərək öldürülmüşdü) və Azərbaycan milli hərbi hissələrində birləşdirilməsində M.Ə.Rəsulzadə və başqa siyasi mühacirlər fəal iştirak etdilər. Milli hərbi hissələrdəki əsgərlər arasında M.Ə.Rəsulzadənin «Üç rəngli bayraq» kitabı əldən-ələ gəzirdi. Əbdüləli bəy Əmircan (AXC-nin maliyyə naziri olub), İsrafil bəy İsrafilbəyov, Nuru Paşa (Türkiyənin keçmiş hərbi ekspedisiya korpusunun komandanı olub), Məryəm xanım Əmircan və başqaları əsgərlər arasında fəal təbliğat işi aparırdılar.

Hərbi əsirlərin 70 faizi fiziki cəhətdən hərbi xidmətə yararlı idilər. Onların bir hissəsi milli hərbi hissələrdə sovet imperiyasına qarşı vuruşmaq istəyirdilər. Stalinin əsirləri «vətən xaini» adlandırması, onların və ailələrinin təqib olunması da buna mühüm təsir göstərmişdi. Faşistlər isə üzdə özlərini müsəlmanların, türklərin dostu kimi qələmə verirdilər. Müsəlmanlarla işi daha səmərəli qurmaq üçün məşvərətçi kimi Qüds müftisi Əl-Hüseyn Almaniyaya dəvət olunmuşdu. Hərbi hissələrə göstəriş verilmişdi ki, Qafqaz alınarkən yerli əhalinin milli və dini hislərinə toxunacaq əməllərə yol verilməsin, Qafqazda hərbi əməliyyatlarda işti-

rak edən tank ordusunun komandanı olmuş general Fon Makizen nümayişkaranə şəkildə islamı qəbul etmiş, məsciddə namaz qılmağa başlamışdı. Siyasi mühacirlərin köməyi ilə almanlar Köniqsberqin «Telzit» hərbi əsir düşərgəsindən azərbaycanlıları seçib «Şelezi» düşərgəsinə apardılar. Burada türk dili bilən alman zabitlərindən təlim aldıqdan sonra onlar dağlıq şəraitdə döyüşə hazırlanmaq üçün Bavariyadakı «Berqman» (dağlı) hərbi hissəsinə göndərildilər. Azərbaycanlılardan təşkil olunmuş hərbi hissələr də başqa milli hərbi hissələr kimi pis silahlandırılmışdı, kifayət qədər hərbi təlim keçmirdi. Alman zabitləri bu hissələrin döyüşçülərini həqarətlə «ikinci növ əsgərlər» adlandırırdılar.

1942-ci ilin yayında Qafqaz müsəlmanlarından təşkil olunmuş hərbi birləşmə Qafqaz cəbhəsindəki döyüşlərdə iştirak etdi. 7 min nəfərdən çox azərbaycanlı döyüşçüsü olan «Boz qurd», «Cavad xan», «Aslan», «Qorxmaz», «Dönməz», «Vətən» və başqa hərbi hissələr Qafqazın sovet imperiyasından alınması uğrunda igidliklə vuruşurdular. Onlar Mozdokun, Elbrus və Kazbekdə mühüm strateji yüksəkliklərin tutulmasında fəal iştirak etmişdilər. Qafqazda bu hərbi hissələri sevinclə qarşılayanlar, haqq işlərində onlara xeyir-dua verənlər az deyildi. Sovet ordusundan minlərlə müsəlman döyüşçü bu hissələrin tərəfinə keçmişdi. Azərbaycan hərbi hissələrinin döyüş qabiliyyətini alman baş komandanlığı yüksək qiymətləndirirdi, əsgər və zabitlərin bir çoxu «İnfantri Sturmabsixen» medalı ilə təltif olunmuşdu.

Lakin Qafqaz və Stalinqradda Sovet ordusunun təşəbbüsü ələ alıb əks-hücuma keçməsi ilə əlaqədar bu hissələr də böyük itkilər verərək geri çəkilməyə məcbur oldular və Krımda almanların inadlı müdafiə döyüşlərində iştirak etdilər.

Alman orduları Qafqazda və Volqa sahillərində darmadağın edildikdən sonra Hitler hökuməti yəqin etdi ki, yerli xalqların yaxından köməyi olmasa bu əraziləri ələ keçirmək mümkün deyildir. Sovet ordusunda döyüşən müxtəlif millətlərin övladlarına yalnız onların vətənlərinin müstəqilliyinin təmin olunacağı haqqında ümidlər verməklə təsir göstərmək, bu ordunun mənəvi gücünü sarsıtmaq olardı. Hitler bəzi güzəştlərə getməyə razı oldu. 1942-ci ilin sonlarında Berlində başqa xalqlarla bərabər türk xalqlarının xaricdəki nümayəndələrinin yığıncaqları keçirildi. 1943-cü ilin baharında Berlində Milli Azərbaycan Komitəsi təşkil olundu. M.Ə.Rəsulzadənin qeyd etdiyi kimi, bu komitə «milli Azərbaycan davasının əsaslarını alman rəhbərliyinə qəbul etdirmək üçün fəaliyyət göstərirdi».

Lakin Azərbaycan barəsində Almaniyanın öz planları vardı. Şimali və Cənubi Azərbaycan gələcəkdə yaradılacaq Almaniyadan asılı oyuncaq «Böyük Türküstan» dövlətinin tərkibində bir əyalət olmalı idi. Hitler türk xalqlarının tarixini, psixologiyasını, mədəniyyətini öyrənmək, gələcəkdə ona tabe olacaq Türküstanı idarə edəcək kadrlar hazırlamaq məqsədi ilə Drezdendə «Türküstan işçilərinin vahid cəmiyyəti» adlı xüsusi institut təşkil etməyi əmr etmişdi. 1943-cü ilin mayında azad türk diviziyası – 162-ci piyada diviziya yaradıldı. Qafqaz müsəlmanlarından təşkil olunmuş hərbi birləşmə iki hissəyə – Azərbaycan və Şimali Qafqaz legionlarına bölündü. Azərbaycan legionu 162-ci azad türk diviziyasına daxil edildi.

Ömrünü Azərbaycanın istiqlalı uğrunda mübarizəyə həsr etmiş M.Ə.Rəsulzadə vətəninin gələcəkdə almanlardan asılı oyuncaq bir dövlətin tərkibində müstəmləkə olaraq qalacağı fikri ilə razılaşa bilməzdi və razılaşmadı. Hitler hökuməti onun belə möhkəm mövqeyini görüb azərbaycanlıları parçalamaq üçün Azərbaycan legionunun almanların siyasətini qəbul edən rəhbərliyinə üstünlük verməyə başladı. 1943-cü il avqustun əvvəllərində M.Ə.Rəsulzadə Azərbaycan legionu döyüşçüləri qarşısında çıxış edib milli hərbi hissələrin, o cümlədən bu legionun hansı məqsədlə yaradıldığını, onlardan öz azadlığı uğrunda mübarizə aparan xalqlara qarşı istifadə olunduğunu bildirdi. O, qeyd etdi: «... almanlardan kömək umurdum, istiqlalımız üçün onlara bel bağlayırdım. Amma əfsus! Artıq onların iç üzü mənə aydın oldu. Müstəqil dövlətləri işğal edib özünün köləsinə çevirən bir ölkənin köləlik altında qəhr olan bir məmləkəti azad edəcəyinə bel bağlamaq sadəlövhlükmüş». Belə açıq antifaşist çıxış Almaniya hakim dairələrini qəzəbləndirdi, göstəriş verildi ki, M.Ə.Rəsulzadə ölkəni tərk etməlidir.

Hitler hökuməti Milli Azərbaycan Komitəsini tanımaqdan imtina etdi. Onun əmri ilə Azərbaycan legionu ilə ordu qərargahı arasında əlaqəni təmin etmək üçün «Rabitə heyəti» təşkil olundu.

Mövcud reallıqlarla hesablaşmağı vacib bilən bir çox siyasi mühacirlər, Azərbaycan legionunun əsgər və zabitləri Almaniya rəhbərliyi ilə əlaqələri davam etdirdilər. 1943-cü il noyabrın 6-da Berlinin Kayzerhof mehmanxanasında Azərbaycan türklərinin xaricdəki nümayəndələrinin iştirakı ilə Milli Azərbaycan qurultayı keçirildi. Nümayəndələr qurultayın qərarında qeyd etdilər ki, İkinci Dünya müharibəsi nəticəsində milli müqəddəratımızın həllinə və istiqlalımızın bərpasına sarsılmaz bir inamımız vardır. Bunun ilk şərti əbədi düşmənimizin məh-

vindən ibarətdir. Milli mənafeyimiz bizi bu gün bolşevizmə qarşı qəti döyüş aparan və tarix boyu türk xalqlarının dostu olan Almaniyaya bağlamışdır. Qurultay əsrlər boyu olduğu kimi, bu gün də Azərbaycan xalqı ilə Qafqaz qonşuları və qardaş Türküstan, İdil-Ural və Krım xalqları arasında eyni qayə və ideal birliyi müşahidə etdiyini və onlarla iş birliyini zəruri saydığını qeyd etdi. Belə mövqe alman hökumətini qane edirdi. 1943-cü ilin payızında onun himayəsi altında Berlində mühacir Azərbaycan hökuməti yarandı. Hökumətin başında Fətəlibəyli Düdənginski (Əbo bəy) dururdu. Fuad bəy Əmircan onun müavini, İsrafil bəy İsrafilbəyov, professor Cabbar Əliyev və başqaları hökumətin üzvləri idilər. Almaniya hökuməti «Mühacir Azərbaycan hökumətini» tanıdı. Bu hökumət 1944-cü ilin qışınadək fəaliyyət göstərdi.

Azərbaycan legionu 1944-cü ilin birinci yarısında Fransanın cənubunda yerləşdirilmişdi. 1944-cü il avqustun ortalarında müttəfiqlərin qoşunları Fransanın cənubuna çıxarıldı, şimal və şimal qərb istiqamətində hücum başlandı. Alman hərbi birləşmələri ilə bərabər Azərbaycan legionu da İtaliyanın şimalına doğru geri çəkildi.

Müharibə başa çatdıqdan sonra onun hissələri bitərəf ölkələrin ərazilərinə köçürülməyə başladı və tezliklə tamamilə dağıldı. Legionun əsgərləri müxtəlif ölkələrə səpələndi. Bir çoxları vətənə qayıtdılar və uzun illər təqib və sürgünlərə məruz qaldılar.

**Müharibənin başa çatması**

Sovet hökuməti SSRİ ərazisini faşist işğalçılarından təmizlədikdən sonra Şərqi Avropanı faşist əsarətindən xilas etmək, orada kommunist rejimi yaratmaq üçün müharibəni davam etdirdi. Bolqarıstan, Macarıstan, Rumıniya və Yuqoslaviyanın azad edilməsində 223-cü Azərbaycan diviziyası fərqləndi. Belqrad uğrunda ağır döyüşlərdə göstərdiyi rəşadətə görə ona fəxri «Belqrad diviziyası» adı verildi. 1945-ci ildə Vyana şəhərinin faşistlərdən azad edilməsində fəal iştirak etmiş bu diviziya «Qırmızı Bayraq» ordeni ilə təltif olundu. 77-ci diviziya müharibəni Kurlandiyada başa vurdu.

Polşanın, Çexoslovakiyanın düşməndən azad olunmasında 271-ci Azərbaycan diviziyası fəal iştirak etdi. Bu döyüşlərdə igidlik göstərmiş 20 nəfər azərbaycanlı, o cümlədən Z.Bünyadov, A.Vəzirov, M.Abdullayev və başqaları Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

416-cı Azərbaycan diviziyası düşmənin inadlı müqavimətini qırıb 1945-ci ilin fevralında Oder çayı sahilinə çıxdı. Bu diviziya Berlinə ilk yol açan hərbi hissələrdən biri oldu. O, 1945-ci ilin fevral-mart aylarında Berlinin qapısı sayılan Küstrinin alınmasında fəal iştirak etdi.

Diviziyanın döyüşçüləri aprelin 20-də Klosserdorfu tutub Reyxstaq üzərinə hücuma başladılar. 416-cı diviziyanın 1374-cü alayı Kayzer Vilhelm sarayını aldı. Berlindəki küçə döyüşlərində və Reyxstaqın alınmasında Yusif Sadıqov böyük əsgəri rəşadət göstərdi. Ona Sovet İttifaqı Qəhrəmanı adı verildi. Mayın 2-də 416-cı diviziyanın 1373-cü alayı Berlinin Brandenburq darvazasına qələbə bayrağı sancdı.

1945-ci il mayın 8-dən 9-na keçən gecə Almaniya hərbi komandanlığı danışıqsız təslim aktına qol çəkdi. 1945-ci il avqustun 9-da Sovet ordusu Yaponiyaya qarşı müharibəyə başladı. Sentyabrın 2-də Yaponiyanın təslim olması ilə İkinci Dünya müharibəsi başa çatdı.

SSRİ müharibədən qalib çıxdı. Bunun əsas səbəbi o idi ki, totalitar rejim imperiyaya birləşdirilmiş xalqları qələbə üçün səfərbər edə bilmişdi. Əhali içərisində və Sovet ordusu sıralarında həqiqi sovet vətənpərvərləri, faşizmi bolşevizmdən daha böyük bəla hesab edənlər alman faşistlərinə qarşı fədakarlıqla mübarizə aparırdılar. Döyüş meydanlarında əsgəri rəşadətə təkcə Azərbaycan SSR-dən 120 nəfər (43-ü azərbaycanlı) Sovet İttifaqı Qəhrəmanı adı ilə, 30 nəfər «Şöhrət» ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər SSRİ orden və medalları ilə təltif edilmişdi. Cəbhələrdə 400 minə qədər azərbaycanlı şəhid olmuşdu.

SSRİ xalqlarının süni birliyinin və Sovet ordusunun asanlıqla dağılacağına ümid edən faşistlər özləri də bu xalqları kölə vəziyyətində saxlamaq niyyətində idilər. Buna görə də ölkədə xalqları geniş şəkildə azadlıq hərəkatına qaldırmaq, çoxmillətli Sovet ordusunu mənəvi və maddi cəhətdən sarsıtmaq planları baş tutmadı.

Sovet imperiyası öz ərazisini, müstəmləkələrini qoruyub saxlaya bildi, torpaqlarını, nüfuz dairəsini genişləndirdi. Şərqi Avropada və Uzaq Şərqdə kommunist rejimləri hakimiyyətə gəldi.

Müharibədə SSRİ-nin qələbəsinin mənəvi nəticələri də böyük idi. Qələbə ölkədə mövcud siyasi, iqtisadi və ideoloji sistemin «üstünlüklərinə» inamı artırdı. Ölkədə xalqların yaxın zamanlarda azadlıq əldə edə biləcəyinə ümid bəsləyənlər xeyli azaldı.

# XIII FƏSİL

# CƏNUBİ AZƏRBAYCANDA MİLLİ-DEMOKRATİK HƏRƏKAT (1941–1946-cı illər)

## § 1. İctimai-siyasi vəziyyət

Cənubi Azərbaycanın ictimai-siyasi, ideya və mənəvi inkişafında İkinci Dünya müharibəsinin gedişində və nəticəsində yeni mərhələ başlandı. Müharibə illərində İran, eləcə də Cənubi Azərbaycan, hərbi əməliyyat meydanına çevrilmədi, müharibənin özü ilə gətirdiyi dağıntılara, insan tələfatlarına, tənəzzülə məruz qalmadı. Bununla belə, müharibə ilə bağlı olan hadisələr Cənubi Azərbaycanın tarixinin gedişinə güclü təsir göstərdi.

Hələ 30-cu illərin ortalarında İran hökuməti daxili siyasətini azğınlaşdırmaqla bərabər, xarici siyasətini də getdikcə daha artıq dərəcədə faşist Almaniyasına tərəf yönəldirdi ki, bu da hər iki ölkə arasında həm iqtisadi, hərbi-strateji, həm də ideoloji-təbliğati əlaqələrin artmasında ifadəsini tapırdı. Almaniya İrandan Yaxın və Orta Şərq regionlarına çıxmaq üçün bir vasitə kimi istifadə etmək planlarını hazırlayırdı. İranın hakim dairələrinə gəldikdə isə onlar faşist Almaniyasına, hər şeydən əvvəl, SSRİ tərəfindən kommunizm təhlükəsinə qarşı bir sədd kimi, İranın özündə Rza şah diktaturasının istinadgahı kimi baxırdılar. Lakin 1939-cu ilin avqust-sentyabr hadisələri (Almaniya ilə SSRİ arasında hücum etməmək və dostluq haqqında müqavilənin imzalanması və eyni zamanda Polşaya hücumla İkinci Dünya müharibəsinin başlanması) ilk vaxtlar İran hakim dairələri içərisində çaşqınlıq doğurdu. Sentyabrın 4-də İran özünün bitərəfliyinin və lazım gələrsə, bunu əldə silahla qoruyacağını elan etdisə də, onlar bir müddət Almaniya ilə SSRİ-nin İran hesabına razılığa gələcəyi təhlükəsi qarşısında (Polşada, Finlandiyada, Pribaltika ölkələrində olduğu kimi) qorxu hissinə qapılmışdılar. Lakin tezliklə müharibənin gedişi və Almaniyanın

İrandakı siyasəti belə bir təhlükənin olmadığını göstərdi. Almaniya yenə də İrana öz iqtisadi və hərbi planlarında böyük əhəmiyyət verirdi: 1939–1941-ci illərdə Almaniyanın SSRİ-dən tranzit yolu ilə İranla ticarəti xeyli artdı, Almaniya İrandan pambıq, yun, gön-dəri, düyü, taxıl, quru meyvə alırdı ki, bunların da əhəmiyyətli hissəsi Cənubi Azərbaycandan gətirilirdi. Nəhayət, 1941-ci ilin iyunundan faşist Almaniyası SSRİ-yə qarşı müharibəyə başlandıqdan və müharibənin bu mərhələsindəki ilk müvəffəqiyyətlərdən sonra Rza şah başda olmaqla hakim dairələr açıq faşistpərəst mövqe tutmuş, ölkəni Almaniya kəşfiyyatçılarının fəaliyyət meydanı etmiş və əslində onu Almaniyanın əlaltısına çevrilmək təhlükəsi qarşısında qoymuşdu. Buna görə 1941-ci il avqustun 25-də SSRİ və Böyük Britaniya hökumətləri öz qoşunlarını İrana yeritdilər. İngilis qoşunları İranın cənub, Sovet qoşunları isə şimal regionları, o cümlədən Azərbaycan əyalətini tutdu. Bir qədər sonra (1942-ci ilin sonlarında) ABŞ-ın da hərbi hissələri İrana gətirildi. Bütövlükdə İran, xüsusilə də Cənubi Azərbaycan, müttəfiqlərin Sovet İttifaqını hərbi sursat və texnika, ərzaqla təmin edən ən mühüm nəqliyyat arteriyasına (İran körfəzindən Xəzər dənizi sahillərinə qədər) çevrildi. Müharibə illərində İranın daxili işləri və xarici siyasəti, habelə müttəfiqlərin İran qarşısında təəhhüdləri bir sıra sazişlərlə (xüsusən 1943-cü ildə SSRİ, ABŞ və İngiltərənin dövlət başçılarının Tehran konfransında qəbul etdiyi bəyanatla) müəyyən edildi. Sazişlərdə nəzərdə tutulurdu ki, müttəfiqlər İranın daxili işlərinə qarışmayacaq, bütün vacib məsələləri birgə həll edəcək və müharibə qurtarandan sonra ən geci altı ay ərzində qoşunlarını İrandan çıxaracaqlar.

Rza şahın hərbi-polis rejiminin iflasa uğraması (1941-ci ilin sentyabrında müttəfiq qoşunlarına müqavimət göstərmək niyyəti puça çıxdıqda Rza şah oğlu Məhəmməd Rzanın xeyrinə taxtdan əl çəkdi və ingilislər tərəfindən İrandan sürgün edildi) nəticəsində ölkədə real hakimiyyətin parlamentə və onun təşkil etdiyi hökumətə keçməsi, konstitusiyada nəzərdə tutulmuş bəzi təsisatların, siyasi azadlıqların qismən bərpası, siyasi məhbusların azad edilməsi (bütün bunlar İran tarixində «Şəhrivər»[1] hadisələri adını almışdı) İranda ictimai-siyasi həyatın canlanması üçün əlverişli şərait yaratdı. İlk vaxtlar kortəbii çıxışlar, mitinq və nümayişlər şəklində başlanmış bu hərəkat yenidən siyasi meydana

---

[1] «Şəhrivər» – İran təqvimində avqustun 22-də sentyabrın 22-dək davam edən ayın adıdır.

çıxmış müxtəlif məsləkli partiyaların, çoxlu qəzet və jurnalların fəaliyyəti nəticəsində getdikcə mütəşəkkil ictimai-siyasi mübarizə formasını alırdı. Əsas tələblərə – dövlət quruluşunu demokratikləşdirmək, mülkədar-feodal təbəqəsinin ağalığını məhdudlaşdırmaq, zəhmətkeşlərin vəziyyətini yaxşılaşdırmaq və hüquqlarını qorumaq, ölkənin suverenliyini təmin etmək və s. daxil idi. İranın ayrı-ayrı rayonlarının ictimai-siyasi inkişaf səviyyəsindən və başqa amillərdən asılı olaraq, bu hərəkat həm radikal, ardıcıl və ya əksinə, mötədil xarakter daşıyır, həm də bəzi hallarda mürtəce şəkil alır, bu və ya digər ictimai-siyasi qüvvələrin mənafeyini əks etdirirdi.

Ölkənin siyasi həyatı zahirən normal şəkil almışdı. Yenidən meydana çıxmış siyasi partiyalar və təşkilatlar (1941–1943-cü illərdə bunların sayı 30-a çatmışdı), mətbuat, müxtəlif klublar, ictimai-mədəni təşkilatlar ölkə qarşısında duran daxili və xarici problemləri sərbəst müzakirə edir, öz proqram və tələblərini irəli sürür, parlament vasitəsilə bunları qanunlara çevirməyə çalışırdı. Lakin müharibə nəticəsində faşizmin iflasa uğrayacağı yaxınlaşdıqca İrandakı siyasi vəziyyət mürəkkəbləşir və mübarizə kəskinləşirdi. Ölkənin iqtisadi vəziyyəti pisləşirdi və bunun da əsas ağırlığı, birinci növbədə zəhmətkeş təbəqələrin – fəhlələrin, xırda burjua ünsürlərin, müəllimlərin, dövlət aparatında çalışan sıravi məmurların üzərinə düşürdü ki, bu da onların müxtəlif formalarda (tətillər, kütləvi şikayətlər və s.) çıxışlarına səbəb olurdu. Bu təbəqələrin mənafeyini ən ardıcıl surətdə (lakin, bəzən real vəziyyətlə hesablaşmayaraq) 1942-ci ilin əvvəllərində yaradılmış İran Xalq Partiyası («Hizbi Tudə») və ona yaxın olan həmkarlar ittifaqları, mətbuat orqanları (onlar «Azadlıq cəbhəsində» birləşmişdi), ictimai, mədəni təşkilatlar müdafiə edirdi. Öz kütləviliyinə, irəli sürdüyü əsas şüarlarına görə bu orqanlar, demokratik cəbhəni təşkil edirdi. İkinci, liberal cəbhəyə «milliyyətçi» tipli partiya və təşkilatlar (məsələn, mühacirətdən qayıtmış Seyid Ziyaəddin Təba-Təbainin başçılıq etdiyi «Vətən» partiyası) daxil idi, buraya yalançı həmkarlar ittifaqları, əsasən xırda və orta burjuaziya, ziyalıların xeyli hissəsi, zabitlərin orta təbəqələri qoşulurdu. Üçüncü cəbhəni əsasən iri mülkədarlar və kompradar burjuaziya, tayfa xanları, iri dövlət məmurları və yüksək rütbəli zabitlər, generallar təşkil edirdi və buna görə bu cəbhə ən mühafizəkar, mürtəce qüvvələri birləşdirirdi. Onu da qeyd etmək lazımdır ki, həmin cəbhələrdən heç biri, xüsusən hakimiyyət başında duran üçüncü cəbhə tam qanunçuluq çərçivəsində hərəkət etmirdi.

Nəhayət, müharibə dövründə, xüsusən 1943-cü ildən başlayaraq, ölkədə siyasi-ictimai vəziyyətə təsir göstərən daha bir amili – xarici dövlətlərin, yəni, bir tərəfdən SSRİ, o biri tərəfdən ABŞ və İngiltərənin İrandakı siyasətini qeyd etmək lazımdır. Onlar öz bəyanatlarında İranın daxili işlərinə qarışmayacaqlarını dəfələrlə elan etmişdilərsə də, bu prinsipi daima pozurdular. SSRİ hökuməti, ilk növbədə fəhlə və kəndlilərin, ziyalıların mütəşəkkilləşməsinə və onların sovet dövlətinin sinfi-ideoloji xarici siyasəti prinsipləri ruhunda siyasi mübarizə aparmasına bütün vasitələrlə kömək edirdi. ABŞ və İngiltərə isə öz növbəsində varlı təbəqələrə, o cümlədən mürtəce qüvvələrə arxalanaraq mərkəzi hökumət dairələrini, parlamenti, ordu və polisi öz təsiri altına almaq və onların vasitəsilə İranın daxili və xarici siyasətini «qanuni» yolla istiqamətləndirməyə çalışırdı. Bu mənada ABŞ, xüsusilə fəallıq göstərərək, 1943–1946-cı illərdə buraya çoxlu «müşavirlər» göndərmişdi (bunlardan ən mühümü 1942–1944-cü illərdə İranın bütün iqtisadi həyatını nəzarət altına almış Milsponun maliyyə missiyası, 1945–1946-cı illərdə general Şvarskopun hərbi-polis missiyası olmuşdur). Lazım gəldikdə isə ABŞ və İngiltərə hökumətləri «qanunçuluq», «demokratiya» prinsiplərini kənara ataraq İrandakı tərəfdarlarının köməyilə iş görürdü. Bu, xüsusən onlar tərəfindən «qanuni» mərkəzi hökumətin və XIII–XIV (1947-ci ildən isə habelə XV) çağırış məclislərin siyasəti və fəaliyyətinə tərəfdarlıq etməsində özünü göstərirdi. Deputatları hələ Rza şah vaxtında təyin olunmuş XIII çağırış (1941–1944) və nisbi azadlıq dövründə seçilmiş XIV çağırış (1944–1946) məclislər nə öz sosial tərkibi cəhətdən (bunların böyük əksəriyyəti mülkədarlar, iri tacir və kapitalistlər, yüksəkrütbəli dövlət məmurları, köhnə siyasətbazlar idi), nə də yeni şəraiti nəzərə almaq cəhətdən hərtərəfli daxili və xarici siyasəti həyata keçirməyə hazır olan bir orqan deyildi. Onlar müharibə şəraitinin və müharibədən sonrakı İranın mürəkkəb beynəlxalq vəziyyətini bəhanə gətirərək heç bir real demokratik islahatlara başlamaq, xüsusilə də zəhmətkeş kütlələrin ağır vəziyyətini yüngülləşdirəcək hər hansı bir tədbir görmək niyyətində deyildi və yalnız müxtəlif qruplaşmaların hakimiyyət uğrunda mübarizəsini əks etdirirdi. XIV çağırış məclisə İXP-nin 8 nümayəndəsi, habelə liberal məsləkli bir neçə deputat seçilmişdisə də, onlar məsələni həll etmirdi. Təbiidir ki, parlamentin bütün fəaliyyəti, o cümlədən hökumətin təşkili ya tam mühafizəkar, ya da açıq mürtəce xarakter daşıyırdı. Burada, o cümlədən onun təşkil etdiyi hökumətlərdə daim «azadlıq», «demokra-

tiya», «suverenlik» sözləri dönə-dönə təkrar olunur, işdə isə həqiqi demokratik qüvvələr hər vasitə ilə Sədr, Soxeyli, Saed, Həkimi, Qəvam kimi köhnə siyasətbazların başçılıq etdiyi hökumətlərin əli ilə boğulurdu.

Keçmişdə olduğu kimi, indi də Cənubi Azərbaycan Ümumiran demokratik hərəkatların əsas mərkəzlərindən biri oldu. 1941-ci ilin sentyabr-oktyabr aylarından burada geniş xalq kütlələrinin mitinq və yığıncaqları, nümayişləri genişləndi. Onların əsas tələbləri dövlət aparatını keçmiş mənfur rejimin nümayəndələrindən təmizləmək, İranda faşizm agenturasına qarşı mübarizəni gücləndirmək, faşist Almaniyasına qarşı müharibə aparan müttəfiqlərə, xüsusilə də bu zaman müharibənin başlıca ağırlığını üzərinə götürmüş və çətin vəziyyətdə olan SSRİ-yə, o cümlədən Şimali Azərbaycana mümkün olan yardımı göstərmək idi. Eyni zamanda həbsxanalardan buraxılmış və sürgündən vətənə qayıtmış siyasi xadimlərin, demokratik ruhlu ziyalıların fəallığı nəticəsində 1941-ci ilin noyabrı – 1942-ci ilin əvvəllərindən müxtəlif ictimai-siyasi, mədəni-maarif klubları, birlik və cəmiyyətlər, eləcə də yeni yaradılmış həmkarlar təşkilatları demokratik hərəkatın əsas qüvvələrinə çevrilirdilər. Onların içərisində «Azərbaycan» cəmiyyəti, «Azərbaycan zəhmətkeşlər təşkilatı», «Demokratiya tərəfdarları mərkəzi» xüsusi nüfuz qazanmışdı. Cənubi Azərbaycanda demokratik ruhlu qəzet və jurnalların (Təbrizdə «Sətareye Azərbaycan», «Ədəbiyyat səhifəsi», «Azərbaycan», «Yumruq», Urmiyada «Keyvan» və s.) nəşrinə başlanmışdı.

Cənubi Azərbaycanda 1941–1942-ci illərdə demokratik hərəkatın güclənməsindən qorxaraq bir hissəsi Tehrana və başqa yerlərə qaçmış mürtəce qüvvələr – feodal mülkədarlar və onların əlaltıları, yüksəkvəzifəli məmurlar, jandarmlar və ruhanilərin yuxarı təbəqəsinin nümayəndələr mərkəzi hakimiyyətlə vahid cəbhədə çıxış edirdilər.

Azərbaycanda demokratik hərəkat bu mərhələdə məqsəd və xarakterinə görə Ümumiran demokratik hərəkatının tərkib hissəsi kimi bütün ölkə üçün ümumi olan ictimai-siyasi prinsipləri irəli sürür, İranın demokratik qüvvələriylə əlbir işləyir, bəzi hallarda ictimai-siyasi təşkilatlarla və partiyalarla (məsələn, «İran Xalq partiyası», «Mərkəzi həmkarlar ittifaqı» və bəzi başqalarla) vahid demokratik cəbhə yaratmağa çalışırdı.

1942–1944-cü illərdə Azərbaycandakı demokratik hərəkatda əvvəllər heç bir vaxt az-çox geniş təzahür etməmiş yeni bir xüsusiyyət ön plana çıxmağa və bütün hərəkata yeni məzmun gətirməyə başladı. Bu xüsusiyyət milli şüurun misilsiz dərəcədə inkişafı idi. Diktatura reji-

mindən xilas olub azadlıq yoluna qədəm qoymuş xalq kütlələri onun əsas təzahüründən birini ana dilində danışmaq, yazıb-oxumaq, yaratmaq azadlığında görürdülər. Təsadüfi deyil ki, 1942–1944-cü illərdə Azərbaycanda çıxmağa başlayan qəzetlərin bəziləri, həm də ən nüfuzluları böyük çətinliklərə baxmayaraq, öz doğma ana dilində buraxılırdı. Dil məsələsi ictimai-mədəni həyatda ən mühüm, qızğın mübahisələr doğuran təbliğat və əks-təbliğat mövzusuna çevrilmişdi. Azərbaycan türk dili adi, məişət ünsiyyəti vasitəsindən çıxaraq ictimai-siyasi, mədəni, ədəbi inkişaf vasitəsinə çevrilməyə başlayırdı. Son dərəcə qısa tarixi bir dövrdə milli dil ideyası əlçatmaz bir arzudan ümummilli ideya səviyyəsinədək yüksəldi və təşəkkül dövrünə qədəm qoymuş milli şüurun, milli-azadlıq ideologiyasının sütunlarından biri oldu. Mühüm cəhət burasındadır ki, hərəkatın ilk mərhələsində bu ideyanı xalqın ən demokratik təbəqələri (məktəb müəllimləri, incəsənət nümayəndələri, mətbuat işçiləri və b.) öz təşəbbüsləri ilə həyata keçirməyə başlamışdılar. Məktəblərdə, bir çox dövlət idarələrində, ictimai-təşkilatlarda doğma dildə danışılır, qəzetlər və jurnallar nəşr olunmağa başlayır, səhnə tamaşaları qoyulur, mədəni-maarif cəmiyyətlərində, klublarda məruzələr, mühazirələr oxunur və s. Bu işlər böyük çətinliklərlə üzləşirdi. Əsas çətinlik müvafiq maddi bazanın, türk dilinin işlədilməsi qaydalarının, normativlərin olmamasından (Azərbaycan türk dilinin qrammatikası, terminoloji və izahlı lüğətlər və s. yox idi) irəli gəlirdi. Məhz bu işdə, Cənubi Azərbaycanda yerləşdirilmiş və tərkibində çoxlu Sovet Azərbaycanının əsgərləri olan Sovet ordu hissələrinin əsasən yerli əhali üçün çıxardığı «Vətən yolunda» (Təbrizdə), «Qızıl əsgər» (Urmiyada) qəzetlərinin böyük rolu oldu. Həmin qəzetlərin nəşrinə cəlb edilmiş yerli azərbaycanlılar burada ana dilində siyasi-ictimai, ədəbi publisistik əsərlər yaratmaq yolunda gözəl məktəb keçirdi.

Cənubi Azərbaycanda milli mədəniyyəti inkişaf etdirmək istiqamətindəki ilk addımların atılmasında Şimali Azərbaycanın təsiri həlledici əhəmiyyətə malik idi. Bu təsir, birinci növbədə hər iki Azərbaycan ziyalılarının, mədəniyyət xadimlərinin canlı yaradıcılıq əlaqələri və əməkdaşlığı formasını alırdı. 1941–1946-cı illərdə buraya, habelə İranın başqa rayonlarına çoxlu mədəniyyət xadimləri (Opera və Dram teatrlarının aktyorları; musiqi və rəqs kollektivləri, ədəbiyyat və incəsənət, maarif və elm xadimləri) gələrək konsert və tamaşalar verir, mühazirələr oxuyur, yerli əhaliyə mədəni quruculuq sahəsində konkret yardım göstərir, qarşılıqlı əlaqələri genişləndirirdi. Sovet dövlətinin

Cənubi Azərbaycanda güddüyü və həyata keçirməyə çalışdığı qəsbkar və siyasi, ideoloji məqsədlərindən asılı olmayaraq, bu əlaqələrin artması yerli azərbaycanlılarda milli mədəniyyəti inkişaf etdirmək zəruri və mümkün olması əqidəsini möhkəmləndirir, görülən əməli işlərdə bu yolda irəliləmək əzmini artırırdı.

1945-ci ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın yeni, bir sıra mühüm xüsusiyyətləri ilə fərqlənən ikinci mərhələsi başlandı. Bu, xeyli dərəcədə əsaslı surətdə dəyişmiş beynəlxalq vəziyyətlə bağlı idi. Müharibə qurtardıqdan sonra keçmiş müttəfiqlər, birinci növbədə ABŞ və İngiltərə ilə SSRİ arasında dünyanın əsas problemləri üzrə getdikcə dərinləşən ziddiyyətlər, bunların tezliklə «soyuq müharibə» şəklini alması onların İrandakı siyasətində də əksini tapmalı idi. Əgər müharibə illərində müttəfiqlər burada açıq ictimai-siyasi qarşıdurmanı qızışdırmaqdan, İranın daxili işlərinə kobudcasına qarışmaqdan çəkinirdilərsə, indi, əksinə, onlar öz xarici siyasətlərində və hərbi-strateji planlarında əsaslı dəyişikliklər etmiş, iqtisadi mənafelərinə uyğun olan qüvvələri, bilavasitə himayə edir və onları hakimiyyətə gətirməyə çalışırdılar.

Cənubi Azərbaycanın iri torpaq sahibləri, ticarət burjuaziyası və bürokratiyanın bir çox nümayəndələri demokratik hərəkatın qarşısını almaq üçün vəziyyəti hər vasitə ilə gərginləşdirməyə, etnik toqquşmaları qızışdırmağa çalışır, hətta vətəndaş müharibəsi törətməkdən belə çəkinmirdilər. Azərbaycandan kənarda, xüsusən Tehranda cəmlənmiş mürtəce qüvvələr milli-demokratik hərəkatın barışmaz düşmənləri ilə əlbir çıxış edirdilər. Onlar əlaltılarının köməyilə Azərbaycanın kənd yerlərində, kiçik şəhərlərdə silahlı dəstələr təşkil edir, kütləvi terrora əl atır, əhalinin müxtəlif qrupları, xüsusilə yarımköçəri tayfalarla oturaq əhali arasında toqquşmalar təşkil edirdilər.

Hadisələrin belə gedişi Azərbaycanın demokratik qüvvələrini və ümumiyyətlə, geniş xalq kütlələrini müdafiə tədbirləri görməyə məcbur etdi. 1945-ci ilin iyul-sentyabr aylarında Azərbaycanın bir sıra yerlərində silahlı fədai dəstələri yaranmağa başladı. Fədailər mülkədarların quldur dəstələrinin basqınlarını dəf edir, şəhər və qəsəbələrin, kəndlərin təhlükəsizliyini təmin edirdilər. Bu mübarizənin gedişində bəzi yerlərdə müvəqqəti hakimiyyət orqanları da yaradır, təxirəsalınmaz təsərrüfat, sosial-mədəni-maarif məsələlərini həll etməyə çalışırdılar.

Lakin milli-demokratik hərəkatı mərkəzi hökumətin başçılıq etdiyi birləşmiş qüvvələrin hücumundan qorumaq üçün demokratların daha

sıx birləşməsi tələb edilirdi. Buna görə 1945-ci il sentyabrın 3-də Azərbaycanın tanınmış demokratlarından bir qrupu, başda Seyid Cəfər Pişəvəri[1] və Mirzə Əli Şəbüstəri olmaqla Azərbaycan Demokrat Partiyasının (ADP) yaradılması haqqında bəyanatla xalqa müraciət etdi. On iki maddədən ibarət olan bu bəyanatda partiyanın yaradılması zərurəti, onun proqram prinsipləri, İran dövləti tərkibində Azərbaycana inzibati-təsərrüfat, mədəni muxtariyyət verilməsi, bütün İranın siyasi həyatının demokratikləşdirilməsi, geniş xalq kütlələrinin mənafeyinə uyğun olan ictimai-iqtisadi islahatların keçirilməsi və başqa məsələlər şərh olunurdu. Bəyanat milli həmrəylik əldə edilməsini nəzərdə tutur, müəyyən sosial təbəqələrin fəhlə və kəndlilərin sahibkarlara qarşı ekstremist meyillərini rədd edir, ictimai-iqtisadi islahatların təkamül yolu ilə bütün cəmiyyətin xeyrinə həyata keçirilməsini lazım bilir, milliyyətindən və dinindən asılı olmayaraq, Azərbaycanda yaşayanların hamısını bərabərhüquqlu sayırdı.

Artıq sentyabrın 13-də ADP təsisçilərinin ilk konfransı keçirildi. Konfrans 11 nəfərdən ibarət müvəqqəti komitə seçdi və ən qısa müddətə partiyanın birinci qurultayının çağırılmasını qərara aldı. Sentyabrın 5-dən ADP-nin orqanı olan «Azərbaycan» qəzeti ana dilində çıxmağa başladı.

ADP-nin yaranması, onun proqramı əhalinin ən müxtəlif təbəqələri içərisində rəğbətlə qarşılandı. «Tudə» partiyasının Azərbaycan bölməsinin üzvlərinin əvvəlcədən razılaşdırılmış plana görə avtomatik surətdə ADP partiyasına keçməsi elan olundu. Bir neçə həftə ərzində partiya sıralarına minlərlə yeni üzv – fəhlə və kəndlilər, ziyalılar, xırda və orta sahibkarlar, hətta bəzi mülkədarlar da daxil oldu.

## § 2. Milli hökumətin təşkili və fəaliyyəti. Milli demokratik hərəkatın boğulması

1945-ci il oktyabrın 2–4-də ADP-nin birinci qurultayı keçirildi. Qurultay 3 sentyabr tarixli bəyanatın əsas müddəalarını partiyanın proqram və nizamnaməsi kimi qəbul etdi və onun rəhbər orqanlarını (başda S.C.Pişəvəri olmaqla Mərkəzi Komitəni) seçdi. ADP ən əvvəl

[1] 1918–1921-ci illərdə inqilabi hərəkatın görkəmli xadimlərindən olmuş Pişəvəri 1930-cu ildə həbs edilmiş və sonra azadlığa çıxmış, nəhayət, demokratik hərəkatın liderlərindən biri kimi 1944-cü ildə Təbrizdən parlamentə deputat seçilmiş və Tehranda nəşr etdiyi «Ajir» qəzetində geniş publisistik iş aparmışdır.

siyasi mübarizəni davam etdirməyə yönəlmiş konkret fəaliyyətə, o cümlədən yerlərdə təşkilatların işini əlaqələndirməyə və genişləndirməyə başladı.

Mərkəzi hökumətin təcili surətdə demokratik hərəkata qarşı geniş silahlı hücuma keçdiyini, Azərbaycandakı hərbi qarnizonlara əlavə qüvvələr göndərilməsini, jandarmların fəaliyyətinin genişləndirilməsini, mülkədarların silahlı dəstələrinin əhaliyə basqın və talanlarını görən ADP artıq açıq şəkildə fədai dəstələri yaratmağa, onların fəaliyyətini əlaqələndirməyə başladı. ADP hərbi tədbirlərlə yanaşı, əhali içərisində izahat işini genişləndirir, xalqın bütün təbəqələrinə demokratiyanı, Azərbaycanın milli varlığını qorumaq çağırışı ilə müraciət edirdi. Noyabrın 17-dən dekabrın əvvəllərinədək Marağa, Maku, Mərənd, Sərab, Ərdəbil Astara, Zəncan şəhərləri, sonra isə Azərbaycanın digər yerlərində demokratik hakimiyyət orqanları yaradıldı. Təbrizdə isə hakimiyyət hələ oktyabrın əvvəllərindən felən demokratların əlinə keçmişdi.

Bütün bu hadisələr gedişində demokratların tədbirləri, taktikası nəticəsində, demək olar ki, qan tökülmədi, hökumət qoşunlarının bir sıra zabitləri yeni hakimiyyət tərəfinə keçdi, əks mövqedə duran silahlı hissələrin Azərbaycanı tərk etməsi tələb olundu.

Bununla bərabər, bəzi yerlərdə hələ köhnə hakimiyyət strukturları qalmaqda idi. Lakin əhali, bir qayda olaraq daha onlara deyil, yeni hakimiyyətə müraciət edir, mitinq və yığıncaqlarda getdikcə daha qətiyyətlə demokratik hakimiyyət orqanlarının yaradılmasını tələb edirdi.

Bu tələblərin təsiri nəticəsində noyabrın 21-də xalqın tanınmış xadimlərindən ibarət Azərbaycan xalq konqresi çağrıldı və o, özünü Müəssislər məclisi elan edərək, ümumi seçkilər yolu ilə Azərbaycan Milli Məclisinin çağırılması və Milli hökumət yaradılması tələbini irəli sürdü. Müəssislər məclisinin qərarında deyilirdi ki, Milli hökumət İran dövlətçiliyi çərçivəsində fəaliyyət göstərərək Azərbaycanın milli-mədəni muxtariyyətini təmin etməlidir. Bunun əsasında təcili surətdə noyabrın 27-dən dekabrın 1-dək Azərbaycanın hər yerində seçkilər keçirildi. Əhali bir qayda olaraq, ADP-nin irəli sürdüyü və ya onunla həmrəy olduğunu bildirən namizədlərə səs verirdi. Dekabrın 12-də toplanmış Milli məclis Seyid Cəfər Pişəvərinin başçılığı ilə Milli hökumət yaratdı. Hökumət 10 nazirlik, ali məhkəmə və baş prokurorluqdan ibarət idi.

Demokratik qüvvələrin nisbətən asan qələbə çalması, hər şeydən əvvəl, Cənubi Azərbaycanın hərtərəfli inkişafı üçün şərait yaradacaq

inzibati-təsərrüfat və mədəni muxtariyyət ideyasının əhalinin geniş təbəqələri içərisində, həm də təkcə kəndlilər, fəhlələr, sənətkarlar və ziyalıların böyük əksəriyyətində deyil, varlı zümrələrin, o cümlədən xırda və orta mülkədarların, tacirlərin və sahibkarların da bir hissəsi içərisində kök salması ilə izah edilməlidir. Deməli, milli-azadlıq uğrunda mübarizə ümumxalq xarakteri daşıyırdı. Belə bir şəraitdə İranın hakim dairələri, mərkəzi hökumət kütləvi terrora, cəza tədbirlərinə, əslində vətəndaş müharibəsinə başlamadan hərəkatı boğa bilməzdi. Bu işi isə həyata keçirmək 1945-ci ilin payızında bir sıra daxili və xarici amillər üzündən mümkün deyildi. Əvvəla bu zaman müttəfiqlərin qoşunları hələ İrandan çıxarılmamışdı. Bu səbəbə görə mərkəzi hökumət demokratlara qarşı geniş hərbi əməliyyata başlaya bilməzdi, çünki müttəfiqlər mütləq buna qarışmalı olardılar. İkincisi, milli-demokratik hərəkat İran Kürdüstanını da bürümüşdü və az sonra, yəni 1946-cı ilin yanvarında burada da Milli hökumət yaradıldı. İran hökuməti isə eyni vaxtda hər iki xalq hərəkatını boğmağa qadir deyildi. Hadisələrin sonrakı gedişi göstərdi ki, hökumət «danışıqlar» taktikasına əl ataraq, vaxt qazanmağa çalışırdı.

Milli hökumətin yaranması ilə Cənubi Azərbaycanda demokratik hərəkatın yeni, üçüncü – milli quruculuq mərhələsi başlandı.

Milli hökumət ən əvvəl, İran dövlətçiliyi çərçivəsində Azərbaycanın muxtariyyəti prinsipini öz proqramında bir daha təsbit edərək bildirirdi ki, İran dövlətinin bütövlüyü, toxunulmazlığı və suverenliyini rəhbər tutur. Eyni zamanda burada qeyd olunurdu ki, mərkəzi hökumət sosial iqtisadi, siyasi, mədəni sahələrdə demokratik islahatlar keçirməlidir. Milli hökumət, habelə bildirirdi ki, həm Azərbaycanın muxtariyyəti məsələsi, həm də digər mühüm məsələlər üzrə mərkəzi hökumətlə danışıqlara və əldə edilən razılıqlara tam riayət etməyə hazırdır. Bu məqsədlə Pişəvərinin başçılığı altında xüsusi nümayəndə heyəti təşkil olundu.

Milli hökumətin qarşısında duran birinci dərəcəli vəzifə – yerlərdə yeni inzibati-ərazi orqanlarının yaradılması idi. Bu məqsədlə Milli Məclis vilayət, mahal, şəhər və qəsəbə, kənd əncümənlərinə – hakimiyyət orqanlarına seçkilər haqqında qanun qəbul etdi. Seçkilər 1946-cı ilin yanvar-fevral aylarında keçirildi və müvafiq strukturların yaradılmasına başlandı.

Demokratik hərəkatın ən mühüm tədbirlərindən biri də zəhmətkeşlərin xeyrinə sosial-iqtisadi islahatların keçirilməsi idi. Buna görə Milli hökumət 1946-cı il fevralın 16-da aqrar qanun verdi. Qanuna görə

«xalisə» – dövlət mülkiyyətində olan torpaqlar, habelə Azərbaycandan qaçmış və ona qarşı mübarizəni davam etdirən mülkədarların və digər sahibkarların torpaqları kəndlilər arasında bölüşdürülməli idi. İslahat haqqındakı qanunu həyata keçirmək məqsədilə yerlərdə xüsusi komitələr yaradıldı və bu komitələr 1946-cı ilin yaz-yayı ərzində lazımi işləri, çətinliklə də olsa, həyata keçirməyə başladı. İslahat nəticəsində yarım milyon hektardan çox torpaq sahəsi kəndlilərin istifadəsinə keçdi. Lakin onlar bu torpaqların mülkiyyətçisi deyildilər, yəni onu satmaq, icarəyə vermək hüququndan məhrum idilər. Bir qədər sonra mayın 12-də qəbul olunmuş «Əmək haqqında qanun» sosial sahədə digər mühüm addım oldu. Bu qanuna görə fəhlə və qulluqçuların iş şəraiti xeyli yaxşılaşdırılır, sahibkarlar tərəfindən istismar məhdudlaşdırılır, onların həmkarlar ittifaqlarının fəaliyyəti, o cümlədən müəssisələrin işinə fəhlələrin nəzarət etmək hüququ təsdiq edilirdi. Bununla bərabər, Milli Məclisin bir sıra başqa qanunları və Milli hökumətin fərmanları Azərbaycanda ticarət və sənayenin inkişafını təmin etməyə, bu sahədə fəaliyyət göstərən sahibkarlara maliyyə cəhətdən kömək etməyə, vergi sistemini təkmilləşdirməyə yönəlmişdi. Bütün bunlar sübuta yetirirdi ki, milli hakimiyyət xalqın böyük əksəriyyətini, o cümlədən hərəkatla həmrəy olan varlı təbəqələrin də mənafeyini, sosial həmrəylik və ədalət prinsiplərini təmin etmək istiqamətində iş aparır.

Lakin milli hakimiyyətin ən böyük nailiyyəti mədəniyyət sahəsindəki, milli mədəniyyətin inkişafı əsaslarını yaratmaq yolundakı addımlar oldu. Bu istiqamətdə birinci dərəcəli tədbir 1946-cı il yanvarın 6-da Milli Məclisin qəbul etdiyi «Dil haqqında» qanun idi. Bu qanunla Azərbaycan-türk dili bütün Azərbaycan ərazisində rəsmi dövlət dili elan olundu. Bütün idarə və təşkilatlarda, məktəblərdə işlər ana dilində görülürdü. Azərbaycanda yaşayan milli azlıqların öz dillərində təhsil almaq hüququ saxlanılmışdı. Qısa bir zamanda ana dilində dərsliklərin, müxtəlif ədəbiyyat, qəzet və jurnalların nəşr edilməsinə, radio verilişlərinin təşkilinə başlandı. Az bir vaxtda onlarla kitabxana və qiraətxana açılması, əhalinin köməyi ilə yüzlərlə yeni məktəbin, xüsusən kənd yerlərində açılması, 1946-cı ilin iyununda Təbriz Universitetinin təsis edilməsi, müxtəlif yaradıcı birlik və təşkilatların, muzeylərin düzəldilməsinə başlanması əsl milli-mədəni inqilab üçün əsas yaradır, demokratik hərəkatın milli məzmununu möhkəmləndirirdi.

Açıq irticaçı Sədr və Hakimi hökumətlərinin (1945-ci ilin iyunu – 1946-cı ilin yanvarı) bütün İranda demokratik qüvvələrin qanuni tələb-

lərini rədd etmək, təqiblərə əl atmaq və əslində yeni diktatura üçün yol açmaq siyasəti boşa çıxdıqdan sonra Tehranın hakim dairələri başqa vasitəyə – həyasız yalan və iftira, demaqogiya kampaniyasına başlayıb vaxt qazanmaq, bütün qüvvələri toplayıb qəti hücuma keçmək taktikasına əl atdılar və bu məqsədlə yanvarın sonunda mahir siyasətbaz, hiyləgər, demaqoq Qəvam Səltənəni Baş nazir vəzifəsinə irəli sürdülər. O, öz fəaliyyətinə geniş islahatlar keçirmək əzmində olduğunu bəyan etməklə başladı və bu mənada, hətta bəzi gurultulu tədbirlərə də əl atdı. Qəvam birinci dərəcəli vəzifə kimi «Azərbaycan məsələsini» dinc danışıqlar yolu ilə həll etməyə çalışdığını bildirib, aprelin 28-də Pişəvərinin başçılığı altındakı nümayəndə heyətini Tehrana dəvət etdi və hər iki tərəf arasında danışıqlar başlandı. Lakin bu danışıqlar çox çətin gedirdi və tezliklə təxirə salındı. ABŞ və İngiltərədən hərbi-texniki yardım almaq üçün İran hökuməti onların təkidi ilə BMT-nin Təhlükəsizlik Şurasında «İran məsələsinin» qaldırılmasına əl atdı (rəsmən bunun üçün əsas var idi, çünki Sovet hökuməti öz qoşunlarının İrandan çıxarılmasını ləngidirdi). Eyni zamanda Qəvam Moskva ilə əlaqələri də öz xeyrinə istiqamətləndirmək məqsədilə Moskvaya yollanıb Stalinlə görüşdü və 1946-cı il aprelin 4-də Sovet dövlətinin Şimali İranda çoxdan arzuladığı neft axtarışı və çıxarılması üçün müştərək cəmiyyətin yaradılması haqqında bəyanat qəbul olundu (Qəvamın nəzərdə tutduğu kimi, sonralar İran məclisi bu sazişi rədd etdi). İctimaiyyəti aldatmaq məqsədilə Qəvam Azərbaycan milli hökumətilə danışıqları başa çatdırmaq göstərişi verdi və iyunun 13-də Təbrizdə hər iki tərəfin imzaladığı müqavilə bağlandı. Razılıq əldə edilməsi naminə milli hökumət ciddi güzəştlərə getməli oldu, bunlardan başlıcası o idi ki, Azərbaycan milli hakimiyyəti əyalət əncüməni statusunu qəbul edərək bu vaxtdan belə də adlanmağa başlayır. Müqaviləyə görə Azərbaycanı idarə edəcək xüsusi Şura yaradılmalı idi. Ən ağır güzəşt – Zəncan vilayətinin Azərbaycanın tərkibindən çıxarılaraq qonşu əyalətlərə qatılmasına razılıq verilməsi oldu. Digər tərəfdən İran hökuməti də Cənubi Azərbaycanda həyata keçirilmiş bir sıra islahatların qanuniliyini təsdiq edirdi. Beləliklə, Cənubi Azərbaycan məsələsinin dinc yolla həll olunmasına və ümumiyyətlə, İranda demokratik inkişafın gələcəyinə xidmət edə biləcək sənəd qəbul edilmiş oldu.

Azərbaycan demokratları bu müqaviləyə tam riayət etməyə hazır olduqlarını bir daha nümayiş etdirməklə sonrakı iki-üç ay ərzində Azərbaycanda müvafiq islahatların həyata keçirilməsilə məşğul idilər.

Lakin İran hökuməti boynuna götürdüyü təəhhüdləri heç də yerinə yetirmək niyyətində deyildi və müxtəlif bəhanələrlə bunları pozur, provokasiyalar vasitəsilə vəziyyəti gərginləşdirirdi. 1946-cı ilin yayı və payızında Tehran qəzetlərində Azərbaycana qarşı yeni geniş kampaniya başlandı.

Bütün bu hazırlıq işləri başa çatdırıldıqdan sonra İran hökuməti ultimatum şəklində Milli hökuməti əvəz etmiş Şuraya bildirdi ki, yeni parlament seçkiləri gedişində qayda-qanunu təmin etmək üçün Azərbaycana qoşun hissələri daxil ediləcəkdir və Azərbaycanın hərbi qüvvələri qoşuna müqavimət göstərməməlidir. Noyabrın 30-da hökumət qoşunları ilə fədailər arasında döyüşlər başlandı. Hökumət qoşunlarının hərbi-texniki cəhətdən qat-qat üstünlüyünə baxmayaraq, bir neçə cəbhədə, xüsusən Zəncan-Miyanə, Marağa istiqamətində fədailər, hətta əks-hücuma keçərək düşmənə zərbələr endirmişdilər. Lakin Qəvam hökuməti ilə sazişə gəlmiş, indi artıq Cənubi Azərbaycan demokratlarının mərkəzi hökumətə tabe olmasını istəyən sovet rəhbərləri (şəxsən Stalin) müqavimət göstərilməsinin əleyhinə idi. Sovet dövlətinin bu yeni mövqeyi ilə barışmaq istəməyən hərəkat rəhbərləri isə mübarizəni davam etdirmək əzmində idilər. Sovet dövləti Cənubi Azərbaycanda İran qoşununa müqavimətin qarşısını almaq məqsədilə ölkədəki nümayəndələrin vasitəsilə dekabrın 11-də gecə ikən hərəkat rəhbərlərini, ilk növbədə Pişəvərini Sovet İttifaqına mühacirətə getməyə məcbur etdi. Hərəkatın yeni rəhbərliyi bütün silahlı qüvvələrə döyüş meydanlarını tərk etmək haqqında göstəriş verdi. Buna baxmayaraq, bütün Azərbaycan üzrə dekabrın 20-dək İran qoşunlarına müqavimət göstərildi. Dekabrın 12-də Təbrizə daxil olan şah qoşunları minlərlə adamı güllələdi və həbsə aldı. Kütləvi təqiblər başlandı. Milli hakimiyyət dövründə az-çox siyasi fəallıq göstərən kəndlilər, fəhlələr, ziyalılar, bir çox sahibkarlar belə təqiblərə məruz qaldılar. ADP və Milli hökumətin rəhbər xadimləri isə birinci növbədə güllələnir, dar ağacından asılırdı. Cəza tədbirlərindən qurtarmaq üçün on minlərlə vətənpərvər qaçmağa mühacirət etməyə məcbur oldu. Onların bir çoxu Şimali Azərbaycana keçdi.

Beləliklə, 1941–1946-cı illər milli-azadlıq hərəkatı məğlubiyyətə uğradı. Bu məğlubiyyət, obyektiv daxili səbəblərlə yanaşı, həm də o zaman böyük təsiri olan xarici amillərlə, ən əvvəl, bir tərəfdən ABŞ və İngiltərənin, digər tərəfdən isə Sovet dövlətinin İrandakı siyasəti ilə bağlı olmuşdur. Əks mövqelərdə duran bu dövlətlər nəticə etibarilə

Cənubi Azərbaycanın milli-demokratik quruluşu uğrunda mübarizəsinin düşməni kimi çıxış etdilər.

Sovet hökuməti, sonralar da başqa yerlərdə (məsələn, Şərqi Avropa ölkələrində) olduğu kimi, xalqın mübarizəsini öz imperiya məqsədlərinə tabe etdirməyə çalışırdı. Bu, xüsusən Sovet İttifaqında sığınacaq tapmış demokratların ADP-nin fəaliyyətini bərpa etmək təşəbbüsü timsalında özünü aydın göstərdi. Sovet rejimi hər vasitə ilə, o cümlədən hərəkatın bir çox fəallarına qarşı cəza tədbirləri ilə onun xarakterini, siyasi prinsipləri və taktikasını marksizm-leninizm məfkurəsi çərçivəsinə salmağa çalışaraq, özünün antihumanist «proletar diktaturası» ehkamına tabe etdirməyə, ADP-ni İXP ilə birləşdirməklə əslində ÜİK (b)P-nin bölmələrindən birinə çevirərək, ondan öz xarici siyasət məqsədləri üçün istifadə etməyə başladı. ABŞ və İngiltərə isə o zaman bütövlükdə İranda demokratik hərəkatın, xüsusən də Azərbaycandakı milli-azadlıq hərəkatının əleyhinə idi, çünki bu hərəkatın müvəffəqiyyəti onların İrandakı mövqelərinə mənfi təsir edər, İranın onlardan asılılığını zəiflədə bilərdi.

Cənubi Azərbaycandakı milli-demokratik hərəkat məğlubiyyətə uğrasa da, ölkənin sonrakı tarixinə çox böyük təsir göstərdi, xalqda öz milli varlığı, tarixi və mədəniyyəti ideyasını möhkəmlətdi, bu məqsədlər uğrunda gələcək mübarizəsi üçün təməl daşı qoydu.

# XIV FƏSİL

# AZƏRBAYCAN SSR 1945–1991-ci İLLƏRDƏ

## § 1. 40-cı illərin II yarısı – 60-cı illərdə respublikanın iqtisadi və siyasi həyatı

**Müharibədən sonrakı onillikdə iqtisadi inkişafın xüsusiyyətləri. Əhalinin güzəranı**

İkinci Dünya müharibəsindən sonra sovet imperiyası malik olduğu beynəlxalq mövqeyini saxlamaq, sosialist sistemini genişləndirməyə və bütün bunları həyata keçirmək üçün öz hərbi potensialını qüvvətləndirməyə, nüvə silahına malik olmağa çalışırdı.

Müttəfiqlər arasında hələ müharibənin sonlarına yaxın dərinləşməyə başlayan ziddiyyətlər tezliklə «soyuq müharibə»yə gətirib çıxarmışdı. Atom silahının gücünə və psixoloji səmərəsinə arxalanan ABŞ kommunizmə qarşı «Ümumdünya əks-hücumunun təşkilinə rəhbərliyi» öz üzərinə götürmüşdü. 1947-ci ildə ABŞ Türkiyə və İranla hərbi müqavilələr bağlamışdı. 1949-cu ildə onun təsiri altında fəaliyyət göstərən «Şimali Atlantika Müqaviləsi Təşkilatı» – NATO təşkil olunmuşdu. 1950-ci ildən ABŞ İrana – SSRİ-nin cənub qonşusuna müasir silahlar satmağa başlamışdı. ABŞ Sovet imperiyasını ram etmək üçün 1948-ci ildə atom silahı ilə silahlanmış xüsusi 22 diviziya və 22 təyyarə qrupu ayırmışdı. Bütün sovet müstəmləkələrinin, o cümlədən Azərbaycanın da başı üzərindən «damokl qılıncı» asılmışdı. Əvvəllər Bakı, 1949-cu ildən isə həm də respublikanın başqa iri şəhərləri SSRİ-yə qarşı bütün hərbi planlarda atom bombaları üçün hədəfə çevrilmişdi.

Lakin Sovet imperiyası totalitar rejimi daha da gücləndirib inzibati təzyiqlə xalqların bütün imkanlarını səfərbər etdi, dövlətin hərbi-sənaye potensialını sürətlə artırdı və 1949-cu ildə atom silahına malik oldu, iki dünya sistemi – kapitalizm və sosializm sistemləri arasında nisbi hərbi bərabərlik yarada bildi.

1949-cu ildə SSRİ-nin başçılığı ilə sosialist ölkələrinin Qarşılıqlı İqtisadi Yardım Şurası, 1955-ci ildə isə Varşava hərbi bloku yaradıldı. Sovet imperiyası beynəlxalq aləmdə daha nüfuzlu bir hərbi-siyasi qüvvəyə çevrildi.

Bunlar imperiyanın xalqlarına ağır əmək, maddi və mənəvi məhrumiyyətlər, xüsusən xammal və əmək ehtiyatları ilə zəngin olan milli respublikaların, o cümlədən Azərbaycanın sərvətlərinin daha intensiv istismarı hesabına başa gəldi.

Müharibə Azərbaycanın xalq təsərrüfatına ciddi ziyan vurmuşdu. Minlərlə mütəxəssis, ixtisaslı fəhlə müharibədən qayıtmamışdı. Təcrübəli neftçilərdən bir çoxu SSRİ-nin başqa rayonlarında geoloji-kəşfiyyat və qazma işlərinə səfərbər olunmuşdu. Sənaye və kənd təsərrüfatı müəssisələrindən minlərlə texnika – maşın və mexanizm alınıb cəbhələrə göndərilmişdi. Müəssisələrin bir çoxu hərbi məhsullar istehsalı üzrə yenidən qurulmuşdu. Müharibə illərində Azərbaycan SSR-də sənaye məhsulu istehsalı xeyli azalmışdı. Neft hasilatı iki dəfə aşağı düşmüşdü. Kolxoz və sovxozlarda əkin sahələri ixtisar olunmuş, mal-qaranın sayı azalmışdı. Kənd təsərrüfatında məhsul istehsalı sürətlə azalırdı.

Moskva müharibədən sonrakı ilk beşillik planda (IV beşillik – 1946–1950-ci illər) respublikanın məhsuldar qüvvələrinə, xalq təsərrüfatına müharibənin vurduğu ziyanı aradan qaldırmaq, onun iqtisadi potensialını artırmaqla sərvətlərindən daha geniş faydalanmaq üçün münasib maddi və sosial imkanlar yaratmaq vəzifələri müəyyən etmişdi. Bu iqtisadi siyasət sonrakı illərdə də davam etdirildi. Ümumiyyətlə, bu illərdə Azərbaycan rəhbərliyi iqtisadiyyatın və əsasən sənayenin inkişafı üçün mərkəzdən böyük vəsait «qopara» bildi. Müharibədən sonrakı on ildə respublikada 108 yeni iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Fəhlə və qulluqçuların sayı 1,5 dəfə artıb 623 minə çatdı. On minlərlə mühəndis-texniki işçi hazırlanıb istehsalat sahələrinə göndərildi.

Bu illərdə Azərbaycan rəhbərliyi xalq təsərrüfatının, xüsusən sənayenin inkişafı, yeni sənaye sahələri və mərkəzlərinin yaranması sahəsində böyük inzibati təşkilatçılıq işi aparırdı. Xalq ağır inzibati təzyiq altında mərkəzin qoyduğu planların yerinə yetirilməsinə məcbur edilirdi. Bu məcburetmə «yuxarıdan» təşkil olunan «sosializm yarışları»nın, «yüksək öhdəliklər»in, «sürətçilər», «yenilikçilər», «çoxdəzgahçılar» və s. formal hərəkatların hay-küylü təbliği ilə pərdələnirdi.

Xalqın böyük əməyi sayəsində 1946-cı ildə respublikada xalq təsərrüfatının dinc dövrün tələbləri üzrə qurulması işi əsasən, başa çatdı. Artıq 1948-ci ildə burada müharibədən əvvəlki illərdəki qədər sənaye məhsulu istehsal olunmuşdu.

Müharibədən sonrakı illərdə Azərbaycanın neftçıxarma sənayesi texniki cəhətdən yenidən quruldu. İstehsalatda yeni dövr üçün daha mütərəqqi texnologiyalar tətbiq edildi. SSRİ-nin 80 zavodu Azərbaycan neft sənayesinin sifarişlərini yerinə yetirirdi. Texniki təchizat xeyli yaxşılaşmışdı.

Bu illərdə yeni Gürgan-Dəniz, Neft Daşları, Jiloy adası, Hövsan, Qaradağ, Qum adası, Zirə, Gürovdağ, Mişovdağ və başqa neft və qaz yataqlarının istismarına başlandı. 1948-ci ildə dünyada ilk dəfə olaraq açıq dənizdə neft-mədən estakadaları quruldu. 1949-cu il noyabrın 7-də ilk dəniz neft quyusu güclü fontan vurdu. Həmin il Azərbaycan Xəzər Neft Donanması fəaliyyətə başladı. Bütün bunların nəticəsində 1945–1955-ci illərdə respublikada neft hasilatı 1,4 dəfə artıb 16,6 milyon tona çatdırıldı. Azərbaycan neftçiləri Şimali Qafqaz, Volqaboyu, Qərbi Sibir, Türkmənistan, Uzaq-Şərq neft-qaz yataqlarının aşkar edilməsi və işlədilməsində yaxından iştirak edirdilər.

Respublikada neft emalı sənayesi də inkişaf etdirilirdi. Müharibədən sonrakı beş ildə 10 yeni neftayırma müəssisəsi tikilmişdi. 1953-cü ildə Yeni Bakı Neftayırma zavodu işə salındı. Neft maşınqayırma sənayesinin yeni müəssisələri istifadəyə verildi. Bakıda elektrik mühərrikləri, neft-mədən maşınları, boru və traktor təmiri zavodları, habelə yastıqlı diyircəklər (podşipnik) zavodu işə düşdü.

Azərbaycanda sənayenin başqa sahələri də inkişaf etdirilir, yeni sənaye mərkəzləri yaradılırdı. Neft hasilatı, emalı, neft maşınqayırma sənayesi ilə yanaşı, müharibədən sonrakı illərdə respublikada kimya, dağ-mədən, qara və əlvan metallurgiya, energetika sənayesi sahələri inkişaf etmişdi.

1945-ci ildə Sumqayıtda kimya zavodu fəaliyyətə başladı. Burada 1946–1948-ci illərdə iri boru prokatı zavodunun ilk sexləri, 1952-ci ildə isə zavodun özü istifadəyə verildi. 1952-ci ildə Sumqayıt sintetik kauçuk zavodu işə düşdü. 1955-ci ildə burada Azərbaycan əlvan metallurgiyasının ilk müəssisəsi olan Alüminium zavodunun birinci növbəsi işə salındı. Sumqayıt böyük kimya və metallurgiya şəhərinə çevrildi.

Respublikada enerji sənayesi istehsalı da müharibədən sonrakı on ildə sürətlə genişləndi. 1947-ci ildə Sumqayıtda istilik elektrik stansi-

yasının yeni trubini istifadəyə verildi. 1945–1950-ci illərdə Ağsu, Şəmkir, Xankəndi, Cəbrayıl və başqa yerlərdə istilik, Qazaxda su-elektrik stansiyaları tikildi. 1954-cü ildə Abşeronda «Şimal» Dövlət rayon elektrik stansiyası işə düşdü. 1945–1954-cü illərdə Mingəçevirdə Cənubi Qafqazda ən böyük su elektrik stansiyası tikilib istifadəyə verildi. Energetiklər şəhərinin əsası qoyuldu. Artıq 1955-ci ildə Azərbaycan SSR-də 4,7 milyard kVt saat, yəni 1945-ci ildəkindən 3 dəfə çox elektrik enerjisi istehsal olunurdu.

Yeni yaranan sənaye mərkəzlərindən biri də Daşkəsən idi. Burada mövcud zəngin dəmir filizi yataqlarının istismarı üçün 1948–1954-cü illərdə Azərbaycan filizsaflaşdırma kombinatı tikilib istifadəyə verildi. Azərbaycanın dəmir filizi yataqları vəhşicəsinə istismar edilməyə başlandı. Respublikada, xüsusən kənd rayonlarında işsizlik olmasına baxmayaraq, Daşkəsən filizi ilə işləyən metallurgiya zavodu Azərbaycanda deyil, Gürcüstanda inşa olundu.

50-ci illərdə Ordubadda Paraqaçay molibden mədəni və saflaşdırma fabriki istifadəyə verildi. Noraşen rayonunda Gümüşlü qurğuşun yatağının, zəylik alunit yatağının istismarına başlandı.

Müharibədən sonrakı illərdə respublikada tikinti sənayesi müəssisələrinin də sayı çoxaldı. 1948-ci ildə Bakı asbest şifer zavodu, keramik məmulatlar kombinatı işə düşdü. Naxçıvanda mebel, mərmər fabrikləri istifadəyə verildi. Şəhərlərdə sement, kərpic zavodları, mexanikləşdirilmiş daş, qum karxanaları quruldu. 1951-ci ildə SSRİ-də ən böyük tikinti müəssisələrindən olan Qaradağ sement zavodu işə salındı.

Başlıca məqsəd az məsrəflə çox qazanc əldə etmək olduğundan yeni müəssisələr, sənaye sahələri və mərkəzləri yaradılarkən ekoloji tələblər, demək olar ki, nəzərə alınmır, tikinti və istismar texnologiyası kobudcasına pozulur, təbiətə, insanların sağlamlığına ciddi ziyan dəyirdi.

Mərkəzin, nəyin bahasına olursa-olsun, xammal sənayesini, bunun üçün vacib köməkçi sahələri sürətlə inkişaf etdirmək səyləri, ağır məhrumiyyətlərə dözməyə məcbur edilən xalqın böyük zəhməti sayəsində 1945–1955-ci illərdə sənaye məhsulu istehsalı üç dəfədən çox artmışdı. Sənayenin coğrafiyası xeyli genişlənmişdi. Sənaye məhsulunun əvvəllər cəmi 10 faizi, 50-ci illərin ortalarında isə artıq 35 faizi Bakıdan kənarda istehsal olunurdu.

İmperiya Azərbaycanda öz mənafeyinə uyğun aqrar siyasət həyata keçirirdi. Məqsəd həm daşınıb aparılan xammal – pambıq, tütün, habelə sonralar tərəvəz və üzüm istehsalını artırmaq, həm də respublikanı

vacib ərzaq məhsulları sarıdan mərkəzdən tam asılı vəziyyətə salmaq idi. Buna nail olmaq üçün müharibədən sonrakı illərdə kolxozlarda daxili demokratiyanın, nizamnamə tələblərinin pozulmasını, kəndlilər tərəfindən ictimai torpaqların qanunsuz zəbt edilməsinin, istehsal və bölgünün təşkilində ciddi çətinlikləri aradan qaldırmaq adı altında aqrar sahəyə rəhbərlikdə inzibati-amirlik daha da gücləndirildi. Əvvəllər yerli şəraitə uyğun olaraq dağ və dağətəyi rayonlarda təşkil olunmuş 2200-ə qədər xırda kolxoz, camaatın narazılığına baxmayaraq, ləğv edildi və ya başqa təsərrüfatlara birləşdirildi. Mövcud 1359 iri kolxozun idarə heyəti, habelə 46 sovxozun rəhbərliyi etibarlı kommunistlərlə «möhkəmləndirildi».

Məhsuldar qüvvələri inkişaf etdirmədən kəndlini daha çox istismar etmək mümkün deyildi. Sovet İttifaqı Kommunist Partiyası (Ümumittifaq Kommunist (bolşeviklər Partiyası) XIX qurultayın qərarı ilə Sov. İKP adlanmağa başlanmışdı) Mərkəzi Komitəsinin sentyabr (1953-cü il) plenumunun qərarı ilə aqrar sahəyə əsaslı vəsait qoyuluşu artırılmışdı. Respublikanın kənd rayonlarında 1955-ci ildə artıq 106 MTS vardı. Onlara yüzlərlə yeni traktor, kombayn, yük maşını və başqa texnika verilmişdi. Traktor parkının gücü 2,6 dəfə artmışdı. 1954-cü ildə kolxoz və MTS-lər dövlət enerji sistemindən enerji almaq hüququ əldə etmişdi. 1955-ci ildə Yuxarı Qarabağ kanalının birinci növbəsi, Samur-Abşeron kanalının ikinci növbəsi istismara verilmiş, Kür-Araz ovalığındakı, Abşerondakı təsərrüfatların su ilə təminatı yaxşılaşmışdı.

Respublikanın kənd təsərrüfatı müəssisələrində 50-ci illərin ortalarında 750 mindən çox kolxozçu, fəhlə və qulluqçu işləyirdi. Bu müəssisələrin mütəxəssis və peşə ustaları ilə təchizinə diqqət artmışdı.

Lakin rayon rəhbərlərinin açıq-aşkar saxtakarlıqla bir qrup adamı özünə arxa yaratmaq üçün irəli çəkməsi kollektivləri parçalayır, işçiləri ictimai təsərrüfata daha da özgələşdirirdi. Kolxoz və sovxozlarda adamları işə cəlb etməyin ən mühüm vasitəsi güclü inzibati amiranə təzyiq idi.

Bu siyasətin nəticəsində Azərbaycan SSR-də on ildə taxıl əkini sahələri xeyli azaldı, texniki bitkilər, xüsusən pambıq, tütün əkini sahələri isə, əksinə, sürətlə artdı. Pambıq istehsalı 65 min tondan 338 min tona, tütün istehsalı 3,9 min tondan 7 min tona çatdırıldı. 1955-ci ildə respublikada 610 min tona qədər və ya on il əvvəlkindən cəmi 13 faiz çox taxıl istehsal olunmuşdu. İmperiyanın mərkəzi şəhərlərini təmin etmək üçün bağ, bostan, üzümlük və çay əkini sahələri xeyli genişləndirilmiş, meyvə, tərəvəz, üzüm, çay yarpağı istehsalı çoxalmışdı.

Mərkəz maraqlı olmadığından respublikada heyvandarlığın inkişafına lazımi şərait yaradılmırdı. İribuynuzlu mal-qaranın sayı hələ də müharibədən əvvəlki səviyyəyə çatmamışdı.

İş qüvvəsindən səmərəli istifadə edilməsi üçün ən adi şərait, heç olmazsa az-çox sosial-mədəni infrastrukturun yaradılması vacib idi. Müharibə qurtardıqdan sonra müəssisələrdə 8 saatlıq iş günü, illik məzuniyyət verilməsi bərpa edilmişdi. 1947-ci ildə kartoçka sistemi ləğv olunmuşdu. Eyni zamanda bəzi ərzaq məhsullarının qiymətləri yüksəldilmişdi. 1948-ci ildə pərakəndə satış qiymətləri 1940-cı ildəkindən 3 dəfə artıq idi. Hər il bəzi sənaye mallarının qiymətləri azaldılsa da əhalinin alıcılıq qabiliyyətini əsaslı şəkildə yaxşılaşdırmaq mümkün olmamışdı. İstiqrazların məcburi satışı da adamların güzəranına pis təsir edirdi.

Kəndlərdə əhalinin maddi vəziyyəti daha ağır idi. Kənd təsərrüfatı məhsulları ucuz qiymətə alınır, kənddə mallar şəhərdəkindən baha satılırdı. Kolxozçular qəpik-quruş qazanırdılar. 1954-cü ildə kənd təsərrüfatı məhsullarının satış qiymətlərinin artırılması da kolxozçuların vəziyyətini yaxşılaşdıra bilmədi, çünki eyni zamanda kolxozlara texniki xidmətin qiymətləri də artırıldı. Kolxozçulara avans verilməsi qərara alınsa da təsərrüfatların çoxu bunu yerinə yetirə bilmir, hesablaşma ildə bir dəfə aparılırdı.

Əvvəllər olduğu kimi, partiya və dövlət aparatlarının ali və orta dairələrində işçilərə əməkhaqqından başqa «paket» adlanan əlavə pul verilirdi. Xeyli miqdarda olan bu ödənişlər heç bir cədvəldə qeydə alınmırdı. Bu, partiya və dövlət idarələri işçilərinin başqalarına nisbətən nəzərə çarpacaq qədər firavan dolanmasına imkan verirdi.

**40-cı illərin ikinci yarısı – 50-ci illərin əvvəllərində totalitar rejimin güclənməsi**

Müharibədən sonrakı illərdə xalqı itaətdə saxlamaq, respublikaların potensial imkanlarını artırmaq və ondan bəhrələnmək hesabına sovet imperiyasını nüfuzlu beynəlxalq hərbi-siyasi qüvvəyə çevirmək, sosialist sistemini genişləndirmək üçün mərkəzdə və yerlərdə totalitar rejimi daha da gücləndirmək vacib idi. Bütün siyasi hakimiyyət imperiyada Stalinin, milli respublikalarda isə onun canişinləri olan respublika partiya mərkəzi komitələri birinci katiblərinin əlində cəmləşdirilmişdi. Sov.İKP-nin XIX qurultayından sonra Stalin, hətta Mərkəzi Komitənin Rəyasət heyətində dar büro seçilməsini tələb etmiş, bu büroda da ən yaxın adamlarından ibarət beşlik yaratmışdı. Siyasi sistemin bütün dairələri – partiya, komsomol təşkilatları, həm-

karlar ittifaqları, sovetlər birinci şəxsin və ona ən yaxın olan elitanın idarəsinə tabe idi. Siyasi hakimiyyət nərdivanında bunlardan bir pillə aşağıda vilayət, rayon, şəhər, partiya, sovet, hüquq-mühafizə və təhlükəsizlik orqanları, ictimai təşkilat, idarə, müəssisə başçılarından ibarət «partiya-təsərrüfat fəalları» adlanan qrup dayanırdı. Bu başçılardan «yuxarıların» əmr və göstərişlərini sözsüz icra etmək tələb olunurdu. Onların, demək olar ki, hamısı vəzifəyə şəxsi sədaqət, dostluq prinsiplərinə əsasən gətirilirdi. Partiya-təsərrüfat fəallarının böyük əksəriyyəti partiya sıralarına 1937-ci ildən sonra, əsasən müharibə illərində gəlmiş, sələflərinə nisbətən daha praqmatik, partiya biletindən vəzifə tutmaq, firavan dolanmaq vasitəsi kimi istifadə etməyə çalışan adamlar idilər.

Stalinin, Azərbaycanda isə, həm də Bağırovun şəxsi nəzarəti altında işləyən Dövlət Təhlükəsizlik və Daxili İşlər Nazirlikləri güclü totalitar rejimin təmin olunması üçün mühüm vasitə idi. Adamlara qarşı etimadsızlıq, gizli izləmə, düşüncələrə nəzarət, çuğulluq, satqınlıq daha da artmış, cəmiyyətdə ümumi vahimə yaradılmışdı. Hamı bir-birindən şübhələnirdi.

Totalitar rejimin güclənməsinin mühüm göstəricilərindən biri elm, ədəbiyyat və incəsənət üzərində «kommunist» ideologiyası inhisarının daha təzyiqedici xarakter alması olmuşdu. ÜİK(b)P MK-nın 1947–1951-ci illərdə fəlsəfə, biologiya, fiziologiya, siyasi iqtisad, dilçilik və başqa elm sahələri üzrə açdığı «elmi» diskussiyalara «marksist» alimlərin əli ilə verdiyi yekun ehkamlar uzun illər bu elmlərin inkişafını ciddi şəkildə ləngitdi. Mühitin və tərbiyənin canlı aləmin inkişafında rolu şişirdilir, genlərlə verilən təbii imkanlar, demək olar ki, nəzərə alınmırdı. Genetika elmi lazımsız, dialektikaya zidd, «qeyri-elmi» elan olunmuşdu. Azərbaycanda da, bütün ölkədə olduğu kimi, «Lısenko məktəbinə» uyğunlaşmayan bioloqlar – M.Ə.Axundov və başqaları ciddi şəkildə sıxışdırılırdı. İqtisad elmi Stalinin «SSRİ-də sosializmin iqtisadi problemləri» əsərindəki qeyri-elmi nəzəriyyələrin təbliğinə, iqtisadi tərəqqidə əmtəə-pul münasibətlərinin mühüm rol oynadığını, onun təsərrüfatın idarəsində nəzərə alınmasının vacibliyini iddia edən alimlərin mənəvi təqibinə xidmət edirdi. Hakim ideologiyanın tarix elmi üzərində təzyiqi daha güclü idi. XX əsrin tarixinə aid tədqiqatlar hələ 1938-ci ildə nəşr edilmiş «ÜİK(b)P tarixinin qısa kursu»nun tam təsiri altında qalmışdı. Faktlar saxtalaşdırılırdı. Azərbaycan xalqının tarixi etnogenezinin öyrənilməsində qəsdən dolaşıqlıq yaradılırdı. Şimali Azərbaycanın Rusiyaya könüllü birləşdirilməsi haqqında cəfəng

uydurmalar irəli sürülürdü. Çarizmə qarşı xalq, milli-azadlıq hərəkatlarının, milli burjuaziyanın, siyasi partiyaların, 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ciddi təhrif olunurdu. Bu hökumətin xalqa zidd siyasət yeritdiyi iddia edilirdi. Sovet üsul-idarəsinə haqq qazandırılır, təkpartiyalı siyasi sistemin, cəmiyyət həyatının bütün sahələrində partiya amirliyinin, ictimai mülkiyyətin, «sosialist» istehsal münasibətlərinin doğurduğu ziddiyyətlər örtbasdır olunurdu. Alimlər mövcud rəsmi qəliblərə uyğun gəlməyən fikirlər söyləmək üstündə kobudcasına sıxışdırılır, repressiyalara məruz qalır, işdən qovulurdu. Onların əsərləri qadağan edilirdi. İstedadlı filosof, görkəmli elm və ictimai xadim, akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş «XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən» əsərində Şamilin başçılığı ilə xalq hərəkatının çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə kimi qiymətləndirilməsi «yuxarılara» xoş gəlməmiş, qısa müddətdə bütün ölkədə məşhurlaşmış bu əsərə görə ona verilən «Stalin mükafatı» geri alınmış, təqiblər başlanmışdı. M.Bağırov respublika ziyalılarının yığıncağında və «Müridizm və Şamil hərəkatının xarakteri haqqında məsələyə dair» məqaləsində heç bir əsas göstərmədən Şamili ingilis casusu adlandırdı, akademik Hüseynovu isə ciddi tənqid edib az qala onun ardıcılı olmaqla təqsirləndirdi. Görkəmli alim ona qarşı haqsızlığa intiharla üsyan etdi.

Ədəbi jurnallar, teatr repertuarları və kino sənəti haqqında ÜİK(b)P MK-nın 1946–1948-ci illərdə qəbul etdiyi qərarlarda bədii formanın «yüksək ideyalara» tabe edilməsinin geniş proqramı verilmişdi. Ədəbiyyat və incəsənətdə fərdiliyə, milliliyə «formalizm» damğası vurulurdu. «Sosialist realizmi» ideoloji qəlibi mövcud rejimə, onun nailiyyətlərinin təbliğinə xidmət etmək silahı idi. Bununla belə, cəmiyyətin üzdə olan ziddiyyətlərinin gizlədilməsi əks-təsir göstərdiyindən «konfliktsizliyə» qarşı mübarizə başlanmışdı.

Azərbaycan xalqının dastanları feodal münasibətlərini təbliğ etməkdə, qeyri-xəlqilikdə ittiham olunurdu. Azərbaycan türklərinin görkəmli orta əsr abidəsi «Kitabi-Dədə Qorqud» «irticaçı feodal xan eposu» adı ilə damğalanmış, onun tədqiqatçıları təqiblərə məruz qalmışdılar. A.Bakıxanov idealizmdə, fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, M.M.Kazımbəy «çarizmin sadiq qulu» olmaqda günahlandırılırdı. Akademik M.A.Dadaşzadə «Türkiyə casusu» kimi damğalanmışdı. Akademik, yazıçı M.İbrahimov, professor, SSRİ EA-nın müxbir üzvü A.O.Makovelski elmi-siyasi sayıqlığı itirməkdə tənqid edilmişdi.

M.Rəfili «kosmopolit» damğası ilə işdən uzaqlaşdırılmış, S.Vəliyev sürgün olunmuşdu. M.Bağırov Azərbaycan K(b)P XIX qurultayında (1952-ci il, sentyabr) Səməd Vurğunu hədələyərək «Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan» demişdi.

Əhali, xüsusən gənclər arasında mövcud quruluşun həqiqi mahiyyətini dərk edənlər az deyildi. Təşkilatlanmaq və mübarizə aparmaq arzusunda olanlar da vardı. Gizli fəaliyyət göstərən «İldırım» təşkilatının üzvü olan bir qrup vətənpərvər və romantik gənc Azərbaycanın azadlığa çıxması üçün xalqa onun qüvvələrini birləşdirə biləcək, güclü, tanınmış bir liderin rəhbərlik etməsini vacib bilərək Səməd Vurğuna gizli məktubla müraciət etmişdilər ki, bu missiyanı öz üzərinə götürsün. Xalqı birləşdirib istibdada qarşı mübarizəyə qaldırmaq üçün hələ real şərait yox idi, buna görə də məktub cavabsız qaldı. Qarşıya qoyduğu idealları həyata keçirmək üçün imkanlar olmadığını yəqin edən təşkilat 1947-ci ilin əvvəllərində fəaliyyətini dayandırdı. 1948–1949-cu illərdə onun fəal üzvlərinin hamısı həbs edilib Sibirə sürgün olundu.

Ümumiyyətlə, 1946–1953-cü illərdə respublikada siyasi iş üstə mindən çox adam həbsə alınıb sürgün edilmişdi.

Xaricdə fəaliyyət göstərən siyasi mühacirlər də Azərbaycanda sovet imperiyasının istibdad rejiminə qarşı mübarizədə iştirak edirdilər. Bu işdə Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi «Müsavat» partiyası aparıcı rol oynayırdı. Bolşevizmə qarşı mübarizədə, Azərbaycan xalqının siyasi maariflənməsində 1945–1954-cü illərdə Münhendə (Almaniyada) ABŞ-ın təsis etdiyi «Azadlıq» radiosunun Azərbaycan şöbəsinə başçılıq etmiş Əbdürrəhman Fətəlibəyli Düdənginskinin böyük xidməti olmuşdur. 1954-cü ilin ortalarında o, Dövlət Təhlükəsizlik Komitəsinin casusu tərəfindən vəhşicəsinə öldürüldü. Siyasi mühacirətin maarifçilik işində Mirzə Bala Məmmədzadə fəal iştirak edirdi. 1951-ci ildə Ankarada onun Azərbaycan tarixinə dair bir çox əsərləri nəşr olunmuşdu. O, 1954-cü ildən Münhendə SSRİ-ni öyrənən institutun türk dilində nəşr etdiyi siyasi jurnala redaktorluq edirdi. Mühacirətdə Azərbaycan xalqının azadlıq hərəkatında Ceyhun bəy Hacıbəyov, Abdulvahab Yurdsevər, Əhməd Cəfəroğlu, Mustafa Vəkilov, Azər Təkin, Əlirza Turan və başqaları fəal iştirak edirdilər.

Sovet imperiyasının «Parçala və hökmranlıq et!» siyasəti xalqlar arasında daim münaqişə, süni konfliktlər, problemlər yaradılmasında daha aydın təzahür edirdi. Moskva Qafqazda da Azərbaycan, erməni, gürcü və başqa xalqları bir-birinə qarşı qoymaq və hamısı üzərində

hakim mövqeyini saxlamaq üçün ciddi milli münaqişə ocaqları yaratmışdı. Bunlardan ən dərini Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaratdığı muxtar vilayətdə idi. Moskvanın fitvası və havadarlığı ilə mərkəzdəki erməni lobbisinə arxalanan erməni millətçiləri, daşnaklar vaxtaşırı Azərbaycanın əsasən XIX əsrin əvvəllərindən ermənilər tərəfindən məskunlaşdırılmış bu ərazisinin ondan qoparılıb Ermənistana verilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərin ortalarında Moskvanın, bilavasitə A.Mikoyanın təşəbbüsü və Ermənistanda partiya elitasının fəal iştirakı ilə «gizli» Qarabağ hərəkatı, «Qarabağ komitəsi» yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi növbəti dəfə ÜİK(b)P MK qarşısında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ondan alınıb Ermənistana verilməsi tələbini qoyur. ÜİK(b)P MK katibi Q.M.Malenkov Azərbaycan canişini M.Bağırovun bu məsələyə münasibətini öyrənir. Bağırov əhalisinin əksəriyyəti azərbaycanlı olan Şuşa rayonundan başqa, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistana bu şərtlə verilməsinə razılığını bildirir ki, bu torpaqların əvəzinə Ermənistanın əsasən azərbaycanlılar məskunlaşmış rayonları Azərbaycana birləşdirilsin. Əslində, bu, ermənilərə böyük güzəşt olardı, çünki Azərbaycana birləşdirilməsi təklif edilən torpaqlar 1920-ci ildə onun «öz razılığı» ilə Ermənistana verilmiş ərazilərin yalnız bir hissəsi idi. Lakin bu şərt Ermənistan bir yana qalsın, heç mərkəzi də təmin edə bilməzdi. Bu, Zəngəzurun yenidən Azərbaycana qaytarılması ilə Türkiyə və Sovet imperiyasının türk xalqları arasında yaradılmış «erməni ərazisinin» ləğvi demək olardı. Əksinə, Moskva şərq və qərb türk dünyası arasında yaratdığı «sanitar kordon»u daha da möhkəmləndirmək tədbirləri gördü. Əvvəla, azərbaycanlıların Ermənistan SSR ərazisində dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərar verdi. 1948-ci il 10 mart tarixli daha bir qərarla bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Qərara görə 100 min azərbaycanlı 1948–1950-ci illərdə «könüllülük prinsipinə əsasən» Azərbaycana köçürülməli idi. Sovet hökuməti azərbaycanlıların çıxarıldığı ərazilərdə xaricdən gələn ermənilərin – axbarların yerləşdirilməsinə icazə verdi.

1948–1953-cü illərdə heç bir könüllülük prinsipi nəzərə alınmadan Ermənistan SSR-dən 100 mindən çox azərbaycanlı zorla Azərbaycan SSR-yə keçməyə məcbur edildi. Ermənistanın dağlıq bölgələrindən

Azərbaycanın Kür-Araz vadisinə köçürülən on minlərlə əhalinin taleyi daha faciəli oldu. Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib aclıq və xəstəlikdən həlak oldu.

Moskva istəyinə nail oldu: Ermənistanda azərbaycanlıların sayı azaldı. Bununla bərabər, Azərbaycanın qərb bölgələrinə – Daşkəsən, Goranboy, Şəmkir, Gəncə, Dağlıq Qarabağa, habelə Bakıya erməni ekspansiyası gücləndi. Yeni sənaye mərkəzlərinə – Sumqayıta, Əli-Bayramlıya, Mingəçevirə, Daşkəsənə başqa respublikalardan minlərlə adam, o cümlədən erməni köçürüldü.

Sovet imperiyasının Cənubi Qafqazda yeritdiyi antitürk siyasətinin bir təzahürü də Ermənistan və Gürcüstandakı qədim Azərbaycan torpaqlarında toponimlərin özgələşdirilməsinə geniş rəvac verilməsi idi. 1950-ci ildən bu iş Gürcüstanda da xeyli canlandı. Borçalı rayonu Marneuli adlandırıldı.

**50-ci illərin ortaları – 60-cı illərdə siyasi sistemi təkmilləşdirmək cəhdləri**

İ.V.Stalinin vəfatından (1953-cü il 5 mart) sonra hakimiyyətə can atan N.S.Xruşşov Sov.İKP MK katibi kimi nəzarət etdiyi partiya aparatının, ali hərbi rəhbərlərin yaxından köməyi ilə siyasi rəqiblərinə – stalinizmi bu və ya başqa şəkildə davam etdirməyə çalışan L.P.Beriyaya, Q.M.Malenkova və başqalarına qalib gəldi, 1953-cü ilin sentyabrında Sov. İKP MK-nın birinci katibi seçildi. Partiya və cəmiyyət onu yeni lider kimi qəbul edə bilmirdi. N.S.Xruşşov Stalinin şəxsiyyətinə pərəstişi məhv etməklə, populyar tədbirlərlə, islahatlarla partiyada və cəmiyyətdə nüfuz qazanmağa çalışırdı. İctimai tərəqqiyə əngəl olan köhnə siyasi sistemin, bürokratiyanın ifrat cəhətlərini, partiya-təsərrüfat fəallarına qarşı repressiyanı, cəmiyyətdəki vahiməni aradan qaldırmağa cəhdlər göstərildi. Mövcud siyasi sistemin bütün qüsurları yalnız Stalinin şəxsiyyətinə pərəstişin, partiya həyatında «Lenin normalarının» pozulmasının nəticəsi kimi qələmə verildi. Sov.İKP XX qurultayında (1956-cı il fevral) «sosialist demokratiyasını dərinləşdirməklə» sistemi, kollektiv rəhbərliyi, partiyadaxili demokratiyanı, xalqla əlaqəni genişləndirməklə partiyanı daha da möhkəmləndirmək kimi qeyri-real tədbirlər müəyyən olundu. Partiyanın Mərkəzi Komitəsi «Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında» (1956-cı il 30 iyun) qərar qəbul etdi. Stalinizm, şəxsiyyətə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi, lakin bu hadisəni törədən səbəblər mövcud rejim üçün əlverişli olmadığından açıqlanma-

dı. Yenə də təkpartiyalı inzibati-amirlik sistemi ədalətli və tarixən özünü doğrultmuş bir sistem kimi qələmə verildi. Əməli cəhətdən partiya nəzarətindən çıxmış və siyasi sistemə həddindən çox təzyiq gücünə malik olan Daxili İşlər Nazirliyi, onun yerli orqanları nəzarət altına alındı. Bu nazirlik, habelə partiya aparatı 1953-cü ilin iyun ayında hakimiyyət uğrunda mübarizədə daha çevik hərəkət edən Xruşşovun səyi ilə vəzifəpərəstlikdə, millətçilikdə, xarici kəşfiyyatla əlaqədə təqsirləndirilib həbs edilmiş L.P.Beriyanın əlaltılarından təmizləndi. Onun yaxın adamlarından biri kimi M.Bağırov da Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (1953-cü il 13 iyul) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edildi və tezliklə həbsə alındı, Bakıda SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası tərəfindən mühakimə edilib (1956-cı il, 12–26 aprel), xalq düşməni kimi ölüm cəzasına – güllələnməyə məhkum olundu. Onun respublikada cəza orqanlarına rəhbərlik etmiş əlaltıları – Y.D.Sumbatov-Topuridze, X.Qriqoryan, T.Borşov, S.Yemelyanov, A.Atakişiyev, R.Markaryan da öz qanlı əməllərinə görə mühakimə olundular.

Məhkəmə quruculuğu, mülki cinayət və məhkəmə məcəllələrinin qəbulu 1956-cı ilin mayından respublikanın öz ixtiyarına verildi.

Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil olundu. Siyasi məhbuslar saxlanılan düşərgələrə rəhbərlik edən İslah Əmək Düşərgələri Baş İdarəsi – «QULAK» ləğv edildi. Bəraətvermə prosesi başlandı. Repressiyalarda mövcud sistemi deyil, stalinizmi təqsirləndirmək, bu bəladan təmizlənən sovet siyasi sisteminin ədalətli olmasına xalqda inam yaratmaq məqsədilə bu proses mühüm siyasi kampaniya kimi planlaşdırılmışdı. Buna baxmayaraq, bəraətvermə prosesi böyük humanist addım idi. SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası, Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası çoxlarına bəraət qazandırdı. Yüzlərlə azərbaycanlının üzərindən «xalq düşməni» damğası götürüldü. Onların ailələrinin, övladlarının məruz qaldığı təqiblərə son qoyuldu, hüquqları bərpa edildi. 1956-cı ilin ortalarından başlayaraq yüzlərlə dövlət, ədəbiyyat və incəsənət xadiminə, o cümlədən Nəriman Nərimanova, Hüseyn Cavidə, Əhməd Cavada, Mikayıl Müşfiqə, Yusif Vəzir Çəmənzəminliyə və başqalarına bəraət verildi. Xalqın tarixi, ədəbi dil, folklor və etnoqrafiya baxımından çox qiymətli monumental qəhrəmanlıq dastanı olan «Kitabi-Dədə Qorqud»un üzərindən

«feodal burjua, qeyri-xəlqi ideyalar daşıyıcısı» kimi damğalar götürüldü. Yüzlərlə «həbs olunmuş» kitab, o cümlədən A.Bakıxanovun, akademik Heydər Hüseynovun əsərləri «azad» edildi. Bəraət almış şair və yazıçıların bir sıra əsərləri yenidən çap olundu.

Bununla belə, bəraətvermə prosesində minlərlə siyasi mübarizə, günahsız qurbana, habelə 20–30-cu illərdə apardığı istiqlal mübarizəsi üstə təqib olunaraq xaricə getməyə məcbur olmuş mühacirlərə bəraət verilmədi. Tarixi keçmişimizdən, türk xalqları birliyindən bəhs edən bir çox əsərlər üzərindən qadağalar götürülmədi. Hüseyn Cavidin «Topal Teymur», «Peyğəmbər» pyesləri yenə qəsdən «unuduldu». Repressiyalara məruz qalmış dörd minə qədər adam, yüzlərlə əsər yalnız 80-ci illərin ikinci yarısında bəraət ala bildi.

Partiya elitasının amiranə idarəçilik üsulu partiyanın yerli təşkilatlarının da fəaliyyətini zəiflədirdi.

Həmkarlar ittifaqları, komsomol təşkilatlarında da vəziyyət belə idi. Bu təşkilatların seçkili orqanları yenə də partiyanın ciddi nəzarəti altında formalaşdırılır və fəaliyyət göstərirdi. Həmkarlar ittifaqlarına 1958-ci ildə fəhlə və qulluqçuların əmək və məişət şəraitini yaxşılaşdırmaq tədbirlərində, təsərrüfat planlarının hazırlanması işində iştirak etmək, idarə rəhbərini dəyişdirmək haqqında məsələ qaldırmaq, əmək məsələlərinin həllində qəti qərar vermək, əmək mühafizəsi və sığorta işlərini, 1960-cı ildən isə, həm də sanatoriya və istirahət evlərini idarə etmək hüququ verildi. Lakin 60-cı illərin əvvəllərində 600 minə qədər fəhlə və qulluqçunun üzv olduğu bu təşkilat partiya elitasının diktəsi ilə işlədiyi üçün zəhmətkeşlərin mənafeyinin həqiqi müdafiəçisinə çevrilə bilmədi. Onlara, başqa ictimai təşkilatlarda olduğu kimi, əsasən daha partiyaya və quruluşa inanmayan, tutduğu vəzifədən öz mənafeyi üçün istifadə etməyə çalışan «kommunistlər» rəhbərlik edirdilər. Sıralarında 300 min oğlan və qızı birləşdirən komsomol təşkilatları da partiyanın diktəsi altında fəaliyyət göstərir və gənc nəsli bu cür tərbiyə edirdi.

Dövlət, partiya orqanlarında, idarə və müəssisələrdə rüşvət alınması, cəmiyyətin və dövlətin aldadılması adi hala çevrilməyə başlamışdı.

Mövcud təkpartiyalı siyasi sistemdə böyük hakimiyyəti olan partiya rəhbərlərinin şəxsi keyfiyyətlərindən çox şey asılı idi. 1954-cü ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirilmiş İmam Mustafayev şəraitdən istifadə edib respublikanın, xalqın vəziyyətini imkan daxilində yaxşılaşdırmağa, onun itib-batmaq təhlükəsində olan

milli dəyərlərini qoruyub saxlamağa və inkişaf etdirməyə cəhdlər göstərdi. Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində burada azərbaycanlıların sayı xeyli artdı, demoqrafik vəziyyət dəyişdi. Bu, mərkəzdəki şovinistlərin beynəlmiləl şəhər olan Bakını Azərbaycanın tərkibindən çıxarıb müstəqil inzibati vahid kimi birbaşa Moskvaya tabe etmək planını pozdu. İ.Mustafayevin respublikaya rəhbərlik etdiyi illərdə ərzaq məhsulları – taxıl, kartof, tərəvəz, meyvə, çay yarpağı istehsalı, mal-qaranın sayı çoxaldı. O, Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına çalışdı. Bu məsələ mətbuatda açıq müzakirə edilməyə başlandı. Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. Elmi işçilərin, aspirantların sayı xeyli çoxaldı. 1957–1959-cu illərdə «İncəsənət» almanaxı, 1958-ci ildən «Bakı» axşam qəzeti, uşaqlar üçün «Göyərçin» jurnalı çap olunmağa başlandı. 1956-cı ildə Bakı telestudiyası işə düşdü.

Azərbaycanda xalqın milli ruhunun oyanışı açıq hiss olunurdu. Ədəbiyyata yeni, xalqın taleyi ilə bağlı, ictimai hadisələrin təhlilinə çağıran cəsarətli mövzular daxil edildi. Bəxtiyar Vahabzadənin «Gülüstan», Rəsul Rzanın «Qızıl gül olmayaydı» poemaları bu illərin məhsulu idi.

50-ci illərin ortalarında siyasi ab-havanın nisbətən yumşalması ilə əlaqədar milli respublikalarda, o cümlədən Azərbaycan SSR-də milli dirçəliş meyilləri mərkəzdə şovinizmin güclənməsinə səbəb olmuş, ciddi müqavimətə rast gəlmişdi. N.S.Xruşşov hakimiyyətdə möhkəmləndikdən, xüsusən 1957-ci ildə Sov.İKP MK-nın iyun plenumunda mühafizəkar siyasi rəqiblərini məğlub edib partiyadan və rəhbər vəzifələrdən qovduqdan, orduda və Dövlət Təhlükəsizlik Komitəsində rəhbərliyi təzələdikdən sonra partiya və cəmiyyət üzərində şəxsi amirliyini gücləndirdi. Xruşşov «volyuntarizmi» dövrü başlandı.

1959-cu ildə millətçilik üstə İmam Mustafayev vəzifəsindən azad edildi. Vəli Axundov Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirildi. Tezliklə Azərbaycan SSR-in təhsil haqqında 1959-cu il qanununa respublikada təhsilin rus dilində aparılmasına geniş imkanlar açan əlavələr edildi. Yüksək vəzifələrdə rusların və ermənilərin sayı yenidən artdı. Xalqı qorxutmaq və müti halında saxlamaq üçün mərkəz A.Mikoyan və M.Suslovun təşəbbüsü ilə növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. Ermənistan SSR və Azərbaycan SSR-in DQMV erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə başladılar. Ermənistanda antitürk əhvali-ruhiyyəsi yenidən qızışdırıldı.

1955-ci ildə Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsi bağlandı. Yerevan Azərbaycan Pedaqoji Texnikumu Azərbaycanın Xanlar rayonuna köçürüldü. Ermənistanda əsası hələ 40-cı illərdə qoyulmuş Qarabağ hərəkatı xeyli leqallaşdı. Ermənilərin Moskvada güclü arxası olduğunu bilən, özünün isə təkləndiyini hiss edən azərbaycanlılar həyəcan içində idilər. Məsələ 1960-cı ilin sonlarında Sov.İKP MK-da müzakirə olundu. Xruşşov təklənmiş «kiçik qardaşla» da ədalətli «böyük qardaşa» ümid və inamı möhkəmləndirmək üçün, habelə sərhəd dəyişikliklərinin qəsdən mübahisəli ərazilər yaradılmış başqa respublikalarda da arzuedilməz reaksiyalar doğuracağından çəkinib Azərbaycanın hüquqlarını müdafiə etdi. 1964-cü ildə də A.Mikoyanın SSRİ Ali Sovetinin sədri kimi bu məsələnin ermənilərin xeyrinə həll etmək üçün Xruşşova təsir göstərmək cəhdi baş tutmadı. Lakin Ermənistanda antitürk psixozunun qızışdırılmasına rəvac verildi. 60-cı illərdə Ermənistanda «Qarabağ Komitəsi» açıq fəaliyyətə başladı. S.Kaputikyanın rəhbərliyi ilə bir qrup Dağlıq Qarabağdakı alban abidələrinin ermənilərə mənsub olduğunu iddia edərək onların öyrənilməsi və qorunmasının Ermənistana tapşırılması məsələsini qaldırdı.

1965-ci il aprelin 23-də uydurma «erməni genosidi»nin 50 illiyi Ermənistanda geniş qeyd edildi və bu burada ata-baba torpaqlarında yaşayan azərbaycanlıların daha da sıxışdırılmasına yeni, güclü təkan oldu. Azərbaycanlılar rəhbər vəzifələrindən qovuldular, Azərbaycan dilində çıxan rayon qəzetləri bağlandı. Bununla yanaşı, mərkəzin bilavasitə köməyi ilə 60-cı illərdə Azərbaycanda güclü erməni lobbisi yaradıldı. Bu, Moskvadakı havadarları rüşvət vasitəsilə respublikanın siyasi dairələrinə təsir göstərə bilən qabil qüvvə idi. DQMV-də erməni millətçiliyi açıq şəkildə dərinləşirdi. Azərbaycanlılar burada – öz torpaqlarında sıxışdırılırdı. Vilayətin azərbaycanlılar yaşayan məntəqələrinə kömək etmək məqsədilə 1967-ci ildə ayrılan vəsaitin Bakıda DQMV-nin rayonları üzrə konkret tələblərə bölünüb təsdiq olunması cəhdinə erməni lobbisi ciddi müqavimət göstərdi. Həmin il Xankəndində azərbaycanlılara divan tutulmuş, bir neçə nəfər qətlə yetirilmişdi. Hətta mərkəzin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının (Laçın Qaragöl yaylağı, Qubadlıda Çayzəmin adlanan sahə, Qazağın Kəmərli kəndi torpaqlarının bir hissəsi, Kəlbəcərdəki Zod adlanan sahə və s.) Ermənistana verilməsi haqqında hələ 1938-ci il 5 mayda verilmiş qərarı təsdiq etdi. Lakin az

sonra Azərbaycanda hakimiyyətə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi.

Uğursuz islahatlar, Sov.İKP-nın XXII qurultayında (1961-ci il oktyabr) elan edilən yaxın gələcəkdə SSRİ-də kommunizm qurulacağı haqqında utopik ideyalar N.S.Xruşşovu cəmiyyətdə və partiyada hörmətdən salmışdı. Partiya elitasında ona qarşı müxalifət formalaşırdı. 1961-ci ildə qəbul olunmuş nizamnaməyə görə partiyanın seçkili orqanlarına bir nəfərin dalbadal iki dəfədən çox seçilməsini qadağan edən maddə daxil edilməsi də rəhbər partiya vəzifələrində çoxdan işləyənlərin ona qarşı birləşməsinə səbəb olmuşdu. Hakimiyyəti əldə saxlamaq üçün Xruşşov partiyanı parçalamaq, siyasi məsələlərin həllində təşkilatların birgə fəaliyyətini məhdudlaşdırmaq, onların diqqətini təsərrüfat məsələlərinə, islahatlara operativ rəhbərliyə yönəltmək istədi. Sov.İKP MK-nın 1962-ci il noyabr plenumu rəhbər partiya orqanlarının istehsalat prinsipi üzrə yenidən təşkil edilməsini qərara aldı. Mərkəzi komitələrdə iki büro – sənaye, tikinti və kənd təsərrüfatına rəhbərlik üzrə bürolar yarandı. Azərbaycanda da AKP MK-ya bilavasitə tabe olan sənaye istehsal, kolxoz-sovxoz istehsalat idarələri, şəhər, dağlıq rayon partiya komitələri təşkil olundu. Başqa ictimai təşkilatlar da bu prinsip üzrə yenidən quruldu. Xruşşov partiya və dövlət nəzarətini birləşdirməklə partiyanın nəzarət funksiyasını da xeyli zəiflətdi. Lakin onun, xüsusən 1958-ci ildən SSRİ Nazirlər Sovetinin sədri olduqdan sonra xeyri intensivləşən partiya aparatını zəiflətmək cəhdlərindən narazı qalan ali partiya və təsərrüfat rəhbərləri birləşdilər. Sov.İKP MK-nın 1964-cü il 14 oktyabr plenumunda N.S.Xruşşov vəzifəsindən kənar edildi. L.İ.Brejnev Sov.İKP MK-nın birinci (1966-cı ildən baş) katibi seçildi. Partiya amirliyi yenidən güclənməyə başladı.

Partiya amirliyinin yenidən gücləndirilməsinin mühüm amillərindən biri 60-cı illərin ortalarında partiya, onunla birlikdə sovet, həmkarlar ittifaqları və komsomol orqanlarının təşkilatca yenidən ərazi prinsipi üzrə qurulması oldu. Dərhal Sov.İKP və respublika KP mərkəzi komitələrində bürolar birləşdirildi, kənd, rayon partiya komitələri bərpa olundu. İqtisadiyyata partiya rəhbərliyini gücləndirməklə tərəqqiyə nail olmaq cəhdləri göstərildi.

Partiya amirliyinin yenidən güclənməsi, xüsusən respublikalara, o cümlədən Azərbaycan SSR-ə əvvəllər verilmiş bəzi iqtisadi müstəqilliklərin yenidən geri alınması Azərbaycan rəhbərliyinin mərkəzə münasibətində müəyyən dəyişikliklərə səbəb oldu. Vəli Axundov 1965-ci

ildə vahid partiya-dövlət nəzarəti sistemini yenidən xalq və partiya nəzarəti dairələrinə bölməyə etiraz edən qüvvələr tərəfində L.İ.Brejnevə qarşı durdu. O, Azərbaycan SSR-in istehsalında az qala qul əməyi kimi ağır zəhmət tələb olunan, əhalinin sağlamlığına və təbiətə böyük ziyan vuran pambıqçılıq üzrə dərin ixtisaslaşdırılmanın əleyhinə çıxırdı. Onun rəhbərlik etdiyi illərdə respublikada texniki bitkilərin əkin sahəsi xeyli azaldılmış, tərəvəz, çay, bağ və üzümlük sahələri isə genişləndirilmişdi.

Milli dəyərlərə diqqət nisbətən artmışdı. 1966-cı ildə İranda yaşayan Azərbaycan şairi Seyid Məhəmmədhüseyn Şəhriyarın «Heydər babaya salam» poeması çap olunmuşdu. Mütərəqqi fikirli yaradıcı gənclər üçün 1967-ci ildən «Ulduz» jurnalının nəşrinə başlanmışdı. Novruz bayramı rəsmi şəkildə «Bahar bayramı» adı ilə qeyd edilmişdi. Ədəbiyyatda yenə milli motivlər, tənqidi ruh qüvvətlənmişdi.

Əvvəlki illərdə olduğu kimi bu illərdə də, bütün cəhdlərə baxmayaraq, imperiya Azərbaycan xalqının azadlıq ideyalarını məhv edə bilməmişdi. Bu ideyalar vətənpərvər şair və yazıçıların, alimlərin əsərlərində yaşayır və əks olunurdu.

Azadlıq ideyalarının yayılmasında Azərbaycan xarici ölkələrdəki siyasi mühacirləri də az iş görmürdülər. 1955-ci il martın 6-da Ankarada Azərbaycan xalqının böyük oğlu Məhəmməd Əmin Rəsulzadə vəfat etdi. Onun ölümü Azərbaycanın milli-azadlıq hərəkatı üçün böyük itki oldu. Bu hərəkata, Müsavat partiyasına 1955–1959-cu illərdə onun yaxın silahdaşı Mirzə Bala Məmmədzadə başçılıq etdi. Sovet imperiyasında əzilən xalqların siyasi mühacirləri arasında kommunizmə qarşı qüvvələri birləşdirmək meyli getdikcə artırdı. 1958-ci ildə İndoneziyada türk xalqlarının azadlığı uğrunda mübarizə aparan «Türküstan libereyşn» (Türküstan azadlığı) təşkilatı fəaliyyətə başlamışdı. ABŞ-da «Qafqaz təşkilatları birliyi» yaradılmışdı. Azadlıq ideyalarının yayılmasında «Azadlıq», «Amerikanın səsi» radiostansiyalarının, gizli gətirilib yayılan nəşrlərin böyük rolu vardı.

1962-ci il dekabrın 17-də bir çox qabaqcıl ziyalılar – Xudu Məmmədov, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə və başqaları, habelə bəzi vəzifəli şəxslər birləşib gizli «Milli Azadlıq Qərargahı» (MAQ) təşkil etdilər. Onlar liberal vasitələrlə dövlət qurumlarında vəzifəli şəxslərin fəaliyyətini xalqın milli oyanışına yönəltməyə çalışırdılar. Azərbaycanda milli azadlıq uğrunda yeni mübariz nəsil yetişməkdə idi. 60-cı illərin əvvəllərində Azərbaycan Dövlət Universitetinin azadfikirli tələbələrindən bir qrupu Əbülfəz Əliyevin (sonralar Elçibəy ləqəbi qəbul

etdi) rəhbərliyi ilə gizli siyasi mübarizəyə başlamışdılar. Onlar gizli özək təşkil etmiş, üçlük qruplar yaradaraq tələbə gəncləri azadlıq uğrunda mübariz ruhunda tərbiyə etməyə çalışırdılar. 1966-cı ilin aprelində Azərbaycanın 1920-ci ildə sovetləşdirildiyi gün kütləvi tədbir keçirməyə hazırlaşan milli ruhlu gənclərin bir qrupu həbsə alınmış və ciddi xəbərdarlıqdan sonra azad edilmişdi. Buna görə də gizli özəyin üzvləri mövcud şəraitdə fərdi təbliğatı daha səmərəli vasitə hesab edib, bu sahədə fəaliyyəti genişləndirdilər. Milli şüurun oyanmasına istiqamətləndirilmiş təbliğat işi gizli siyasi müxalifətin əsas mübarizə vasitəsi idi.

1968-ci ildən (Çexoslavakiya hadisələrindən sonra) bütün imperiyada ehkamçı ideologiyanın şüurlara təzyiqi yenidən güclənməyə başlandı.

**50-ci illərin ikinci yarısı – 60-cı illərdə iqtisadi inkişafın meyilləri. Sosial həyat**

İqtisadiyyatı inzibati metodlarla səmərəli idarə etmək yalnız güclü diktatura, totalitar rejim şəraitində mümkün idi. İqtisadiyyata inzibati rəhbərliyin azacıq belə zəifləməsi, təsərrüfat rəhbərlərinin başlıca olaraq qorxuya əsaslanan şəxsi məsuliyyətinin azalması sosialist istehsal münasibətlərinə əsaslanan iqtisadiyyatın geriləməsinə səbəb olurdu. 50-ci illərin ortalarında siyasi ab-havanın yumşalmağa başlaması şəraitində iqtisadiyyatın köhnə metodlarla idarə olunmasının davam etməsi SSRİ-də iqtisadi inkişaf sürətinin bütün əsas göstəricilər üzrə azalmasına gətirib çıxarmışdı. 1955-ci ilin iyulunda Sov.İKP MK elmi-texniki tərəqqi, istehsalın texniki səviyyəsini yüksəltməyə dair xüsusi proqram qəbul etdi. Dövlət Texnika Komitəsi, müəssisələrdə istehsalat texniki şuraları yaradıldı. Xalq təsərrüfatının idarəedilmə sistemi yenidən qurulmağa başlandı. 1954-cü ilin iyulunda SSRİ Nazirlər Sovetinin qərarı ilə Azərbaycan Neft Sənayesi Nazirliyi yaradıldı. 1956-cı ilin mayında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı ilə xalq təsərrüfatının idarə olunmasında müttəfiq respublikaların rolu artırıldı. Əsaslı tikinti, maddi-texniki təchizat, əmək məhsuldarlığı, məhsulun maya dəyəri və satışı, habelə maliyyə təsisatı məsələləri ilə artıq respublikalar özləri məşğul olmağa başladılar. 1956-cı ildə sənaye məhsulunun 84 faizi və ya 1953-cü ildəkindən iki dəfə çox hissəsi Azərbaycan SSR-in tabeliyindəki müəssisələrdə istehsal olunurdu. 50-ci illərin ortalarında kənd təsərrüfatında planlaşdırmanın yeni qaydası tətbiq olunmuşdu. İndi yuxarıdan təsərrüfatlara yalnız dövlət tədarükü tapşırıqları verilirdi. Hətta rayon kənd təsərrüfatı idarələri də ləğv edilmişdi. Lakin bütün bunlar kosmetik səciyyəli yarımçıq tədbirlər idi. Kommunist partiyasının iqtisadi və siyasi amirli-

yinin saxlandığı şəraitdə başqa cür də mümkün deyildi. Yenə də əsas məsələlər, planlar Sov.İKP MK-nın ciddi nəzarəti altında hazırlanır və həyata keçirilirdi. Ən başlıcası isə bu idi ki, əslində heç kimin olmayan, bir qrup partiya-təsərrüfat işçisinin müvəqqəti sərəncamında olan ictimai mülkiyyətə yadlaşmanı aradan qaldırmaq mümkün deyildi. Əməkçilər real vəziyyəti dərk etdikcə bu yadlaşma daha da artırdı. Ölkənin rəhbərliyi vəziyyətdən çıxmaq üçün daha yeni bir cəhd göstərdi. Sov.İKP MK-nın 1957-ci il fevral plenumunun və SSRİ Ali Sovetinin həmin ilin mayında keçirilən sessiyasının qərarlarına əsasən, sənaye və tikintinin idarə olunması sistemi yenidən qurulmağa başlandı. Təsərrüfat nazirliyi ləğv edildi, müvafiq istehsalat komitələri yaradıldı. Operativ idarəçiliyi Mərkəzdən yerlərə keçirmək üçün iqtisadi rayonlarda Xalq təsərrüfatı Şuraları təşkil olundu. 1957-ci ilin iyununda Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan iqtisadi rayonunun Xalq Təsərrüfatı Şurası yaradıldı. Respublikanın 400-dək sənaye müəssisəsi onun ixtiyarına verildi. Sənaye məhsulunun, demək olar ki, hamısı respublikaya tabe müəssisələrdə istehsal olunurdu. 1959-cu ildə Azərbaycan Neft Sənayesi Nazirliyi də ləğv edildi və onun müəssisələri də Azərbaycan Xalq Təsərrüfatı Şurasının tabeliyinə verildi.

Lakin sovet imperiyası daxilində elə iqtisadi əlaqələr, elə təsərrüfat kompleksi formalaşmışdı ki, artıq operativ rəhbərliyin yerlərə verilməsi belə, respublikalara öz xeyrinə əsaslı bir iqtisadi tədbir həyata keçirməyə imkan yaratmırdı. Hər şey yuxarıda təsdiq olunan vahid xalq təsərrüfatı planına uyğun olmalı idi. Beləliklə, bu islahat yerlərdə istehsalın inkişafına marağı artırmadı. Əksinə, əməkhaqqının normallaşdırılması prosesində vaxtamuzd sisteminin işəmuzd sistemə nisbətən xeyli artması işçilərdə maddi marağın daha da azalmasına səbəb oldu.

SSRİ Ali Sovetinin 1958-ci il 31 mart tarixli qərarına əsasən MTS-lər ləğv olunmuş, onların texnikası kolxozlara satılmışdı. Bu tədbir təsərrüfatların iqtisadi vəziyyətini xeyli pisləşdirmiş, onları borca salmışdı. Kolxozçulara pasport verilməsi demokratiya baxımından çox müsbət hal olsa da, gənclərin sistemsiz şəkildə kənddən şəhərə axınına şərait yaratmış, ictimai və yardımçı təsərrüfatlara ciddi ziyan vurmuşdu. Kənd təsərrüfatında vəziyyəti yaxşılaşdırmaq məqsədilə 1961-ci ildə məhəlli Kolxoz-Sovxoz İstehsalat idarələri yaradılmışdı. Lakin bu da səmərəli olmadı. Kəndlilərin ictimai təsərrüfatlara iqtisadi marağını artırmaq üçün onların şəxsi yardımçı təsərrüfatlarına qarşı ciddi tədbirlər həyata keçirildi. Həyətyanı torpaq sahələrinin 25 desyatindən artıq

hissəsi kəsilib kolxozçuların əlindən alındı. Bu təsərrüfatlarda bəslənən mal-qaranın sayı minimuma endirildi. İctimai təsərrüfatların inkişafına marağı artırmaq isə mümkün olmadı.

«Yuxarılar» bunu hüquqları genişləndirilmiş yerlərdə partiya rəhbərliyinin zəifləməsi ilə əlaqələndirirdilər. Sov.İKP MK-nın 1962-ci il noyabr plenumu partiyanın operativ təsərrüfat idarəçiliyinə daha geniş müdaxilə etməsinə şərait yaratmağı vacib bildi. Başqa respublikalarda olduğu kimi, Azərbaycanda da partiyanın mərkəzi komitəsində sənaye, tikinti və kənd təsərrüfatı üzrə iki büro təşkil edildi. Naxçıvan MSSR-in və DQMV-nin hər birində üç partiya komitəsi, respublikada altı şəhər, altı sənaye istehsalat, altı dağlıq rayon, iyirmi altı Kolxoz-Sovxoz İstehsalat idarəsi partiya komitələri yaradıldı. Bundan başqa, sənayeyə rəhbərlikdə yerli Xalq təsərrüfatı şuraları ilə SSRİ Dövlət Komitələrinin simasında ikihakimiyyətlilik yaranmışdı. Vəziyyətdən çıxmaq üçün 1963-cü ilin martında Ali Xalq Təsərrüfatı Şurası təşkil olundu. Lakin bu tədbirlər əks-təsir göstərdi. Partiya təşkilatlarının müəssisələrdə inzibati amirliyinin genişlənməsi təsərrüfat müstəqilliyinin buxovlanmasını, işçilərin əməyə, onun nəticəsinə özgələşməsini daha da dərinləşdirdi. Eyni zamanda hakim dairələr dərk etdi ki, iqtisadiyyatı bu metodlarla idarə etmək region mənafeyini dövlət mənafeyinə qarşı qoyur, mərkəzin yerlərə iqtisadi təsirini, rejimin iqtisadi əsaslarını zəiflədir. SSRİ Ali Sovetinin sessiyası (1965-ci il 2 oktyabr) və Sov.İKP MK-nın 1965-ci il sentyabr plenumu qərarları əsasında sənaye və tikintinin idarə orqanları yenidən quruldu. Bütün xalq təsərrüfatı şuraları ləğv edildi. Yenidən Ümumittifaq və respublika nazirlikləri yaradıldı. Sənaye və tikinti müəssisələrinin böyük əksəriyyəti, Azərbaycanda 90 faizdən çoxu ittifaq nazirliklərinə birbaşa tabe edildi.

60-cı illərin ortalarında yeni iqtisadi islahat həyata keçirildi. Bu islahat müəssisələrin tam təsərrüfat hesabı ilə işləməsini, onların istehsal fondlarından istifadə etməyə görə haqq ödəməsini, dövlət planlarının yerinə yetirilməsində təsərrüfatlara bəzi müstəqilliklər verilməsini nəzərdə tuturdu. Müəssisələrə gəlirinin ona qalan hissəsindən həvəsləndirmə fondları yaratmağa, işçilərin sosial tələblərini ödəmək üçün vəsait ayırmağa icazə verilirdi. Rayonlarda kənd təsərrüfatı idarələri bərpa edilmişdi. 1965-ci ildə Sov.İKP MK-nın mart plenumu aqrar sahədə iqtisadi, texniki və sosial siyasəti dəyişdirdi. Kənd təsərrüfatına əsaslı vəsait qoyuluşu artırıldı. Planlaşdırma və tədarük işləri təkmilləşdirildi. İstehsalın maddi-texniki bazasını, təsərrüfat hesabı müna-

sibətlərini möhkəmləndirmək, iqtisadi həvəsləndirməni təmin etmək üçün tədbirlər müəyyən olundu. Lakin köhnə iqtisadi sistem dəyişdirilmədi, qeyri-iqtisadi idarəçilik metodları saxlanıldı. İnzibati şəkildə təşkil və geniş təbliğ edilən sosializm yarışları, 50-ci illərin sonlarından «Əməyə kommunist münasibəti uğrunda», «Keyfiyyət və səmərəlilik uğrunda» və başqa hərəkatlar, əsasən formal xarakter daşıyırdı. İqtisadi inkişaf sürətinin durmadan aşağı düşməsinin qarşısını almaq mümkün deyildi.

Sovet imperiyası mövcud iqtisadi idarəçilik sisteminin qüsurları üzündən yaranan geriliyi xammal istehsal edən milli respublikaların iqtisadi potensialının əsasən ekstensiv vasitələrlə daha geniş səfərbər olunması hesabına aradan qaldırmağa çalışırdı. Bunun üçün milli respublikalarda xammal istehsalı sahələrinə vəsait qoyuluşu nisbətən çoxaldılır, yeni xammal istehsalı sahələri yaradılır, habelə bu respublikalara inzibati rəhbərlik daha da gücləndirilirdi. Bütün bunlar Azərbaycan SSR-də sənayenin, kənd təsərrüfatının, habelə xalq təsərrüfatının başqa sahələrinin inkişafına münasib imkanlar açırdı. Respublikanın təbii sərvətlərinin aşkara çıxarılması və hasilatı işi genişləndirilməkdə idi. Yeni neftli-qazlı laylar, yataqlar kəşf olunur, istismara verilirdi. Neftçıxarma texnikası və texnologiyası xeyli təkmilləşdirilmişdi. 1955-ci ildə Azərbaycanda 5 min metrə yaxın dərinliyi olan, SSRİ-də ən dərin neft quyusu qazıldı. Bununla belə, Ural və Sibirdə zəngin neft yataqlarının kəşf edilməsi ilə əlaqədar hasilatı getdikcə çətinləşən Azərbaycan neftinə mərkəzin marağı xeyli zəifləmişdi. Respublikada neft sənayesi tənəzzülə başlamışdı. Mərkəz ona az vəsait ayırırdı. Buna görə də 1965-ci ildə 21,5 milyon tona çatmış neft hasilatı sonrakı illərdə yenidən azalıb 1970-ci ildə 17 milyon tona enmişdi.

Respublikada neft emalı və neft maşınqayırma sənayesi inkişaf edirdi. 1961-ci ildə təbii qaz kondensatı emal edən Azərbaycan qaz emalı zavodu istifadəyə verildi. Başqa emal müəssisələrində yenidənqurma işləri aparıldı, istehsal texnologiyaları xeyli təkmilləşdirilməyə başlandı. Bu illərdə neft maşınqayırma zavodlarında da əsas sexlər yenidən quruldu. 1966–1968-ci illərdə l-t Şmidt adına maşınqayırma zavodunda fontan armaturu hazırlayan yeni istehsal kompleksi, mexaniki yığma və alət sexləri istifadəyə verildi. Başqa maşınqayırma müəssisələrində də yeni istehsal sahələri işə salındı.

Sənayedə struktur dəyişikliyi daha da dərinləşməkdə idi. 1958-ci ildə Mingəçevir kabel, Bakı poladəritmə zavodları, 1959-cu ildə Bakı şin zavodu istifadəyə verildi. 1960-cı ildə Sumqayıt alüminium zavodu-

nun ikinci hissəsi, 1966-cı ildə Gəncədə alüminium zavodu işə düşdü. Kimya və neft-kimya müəssisələri tikildi. 1960-cı ildə Sumqayıt aşqarlar zavodunun ilk qurğusu istifadəyə verildi. 1962-ci ildə Sumqayıt superfosfat zavodu məhsul istehsal etməyə başladı. 1960–1963-cü illərdə Sumqayıt kimya kombinatı tikildi.

İstehsalın artması enerji sənayesinin inkişafına əsaslanırdı. Respublikada yeni güclü elektrik stansiyaları, o cümlədən 1968-ci ildə Əli-Bayramlıda Dövlət rayon elektrik stansiyası istifadəyə verilmişdi. 1970-ci ildə Azərbaycan SSR-də 12 milyard kVt saat elektrik enerjisi istehsal edilmişdi.

Bu illərdə Azərbaycanda cihazqayırma sənayesi də inkişaf etdirilirdi. Elektron hesablayıcı texnika, məişət texnikası müəssisələri tikilirdi. 1964-cü ildə Naxçıvanda Bakı radio zavodunun filialı açıldı, sonralar bu müəssisə müstəqil zavoda çevrildi. 1960-cı ildə Bakı soyuducular zavodu istifadəyə verildi. 60-cı illərin əvvəllərində Bakıda mayesiz transformatorlar, təcrübi-eksperimental, «Bakı elektroişıq», «Azərelektroizolit» «Azərelektrosentrolit» zavodları işə düşdü.

Mərkəz respublikadakı əmək ehtiyatlarından daha səmərəli istifadə etmək üçün burada istehlak malları istehsal edən müəssisələrin də çoxalmasında maraqlı idi. 50-ci illərin sonu – 60-cı illərdə Azərbaycanda onlarla belə müəssisə, o cümlədən Bakıda komvol, mebel kombinatları, gön-dəri, ayaqqabı, tibb preparatları zavodları, Gəncədə xalça-mahud kombinatı, Mingəçevirdə pambıq-parça fabriki, Əli-Bayramlıda yağ ekstraktı zavodu və başqa müəssisələr tikilib istifadəyə verilmişdi. Lakin yeni müəssisə və sexlərin (xüsusən yüngül və yeyinti sənayesi sahələrində) çoxu artıq köhnəlmiş, hətta, bəzən başqa respublikalardakı zavod və fabriklərdən sökülmüş avadanlıqlarla təchiz edilirdi. Bu isə buraxılan məhsulun keyfiyyətini aşağı salırdı. Ümumiyyətlə, 50-ci illərin ikinci yarısı – 60-cı illərdə respublikada 143 yeni, iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdi. Sənaye məhsulu istehsalı, əsasən xammal sahələri üzrə 2,5 dəfəyə qədər artmışdı. Lakin sənaye məhsulu istehsalının artım sürəti, bütün ölkədə olduğu kimi nəinki artır, əksinə, azalırdı. Belə ki, bu 50-ci illərdə 2 dəfədən çox, 60-cı illərdə isə 1,9 dəfə olmuşdu. Bunun səbəbi işçilərin mülkiyyətə özgələşdiyi, maddi marağın az olduğu şəraitdə tez-tez səmərəsiz islahatlar keçirilməsi nəticəsində təsərrüfatlara inzibati-bürokratik rəhbərliyin xeyli zəifləməsi idi.

Respublikanın kənd təsərrüfatında da müəyyən irəliləmələr baş vermişdi. Aqrar sahədə istehsalın maddi-texniki bazasının nisbətən yaxşılaşmasına, meliorasiya quruculuğuna, meyvə-tərəvəz, üzüm, çay yarpağı, tütün istehsalına diqqət artırılmışdı. 60-cı illərin sonlarında kənd təsərrüfatında artıq 25 mindən çox traktor, 4 mindən çox taxılyığan kombayn, 800-ə qədər pambıqyığan maşın, 18 mindən çox yük maşını, minlərlə başqa maşın və mexanizm vardı. 50-ci illərin ikinci yarısı – 60-cı illərdə Baş Muğan, Yuxarı Şirvan kanalları, Bəhramtəpə, Xaçınçay, Ağstafaçay, Bolqarçay dəryaçaları tikildi, 185 min hektardan çox suvarılan sahə istifadəyə verildi, 630 min hektara qədər otlağa su çıxarıldı.

70-ci illərin əvvəllərində respublikada 1,2 milyon hektar əkin sahəsi vardı. Əvvəlki on beş ildə yeni meyvə bağları, üzümlüklər, çay plantasiyaları salınması hesabına əkin sahələri 50 min hektardan çox azalmışdı. Taxıl, pambıq əkini sahələri xeyli ixtisar olunmuşdu. Tütün və tərəvəz əkinləri isə genişlənməkdə idi. Təkcə 60-cı illərdə respublikada 80 min hektardan çox yeni meyvə bağları, 95 min hektardan çox üzümlük, xeyli çay plantasiyaları salınmışdı. Bütün bunlar kənd təsərrüfatı məhsulları istehsalına öz təsirini göstərmişdi. Respublikada taxıl və pambıq istehsalında nəzərəçarpacaq dəyişikliklər baş verməmiş, tütün (3,5 dəfə), tərəvəz (4 dəfə), meyvə (2,6 dəfə), üzüm (4,5 dəfə), yaşıl çay yarpağı (5,5 dəfə) istehsalı isə dəfələrlə artmışdı. 1970-ci ildə burada 336 min ton pambıq, 723 min ton taxıl, 410 min ton tərəvəz, 352 min ton üzüm, 157 min ton meyvə, 25 min ton tütün, 10 min tona qədər yaşıl çay yarpağı istehsal edilmişdi.

Respublikada iribuynuzlu mal-qara və davarın sayı 50-ci illərin axırlarında müharibədən əvvəlki səviyyəyə çatdırılmışdı. 60-cı illərin sonlarında təsərrüfatlarda 1500 mindən çox iribuyunzlu mal-qara, 4300 mindən çox qoyun və keçi vardı. Lakin dağlıq rayonlarda çoxsaylı kiçik heyvandarlıq təsərrüfatları ləğv edildiyindən, yem bazası zəif olduğundan, qayğı göstərilmədiyindən heyvandarlıq hələ də geri qalan sahə idi.

Sənayedə olduğu kimi, kənd təsərrüfatında da istehsalın nominal göstəriciləri artsa da, inkişaf sürəti getdikcə azalırdı. Belə ki, 50-ci illərdə burada kənd təsərrüfatı məhsulu istehsalı 1,5, 60-cı illərdə isə cəmi 1,3 dəfə artmışdı. Bunun səbəbi kəndlinin ictimai istehsala maddi marağı, sahibkarlıq hissinin olmadığı şəraitdə mövcud idarəçilik metodlarının tez-tez dəyişdirilməsi nəticəsində təsərrüfatlara rəhbərliyin zəifləməsi olmuşdu.

Azərbaycanda aparılan neft, neft sənayesi maşınları, kimyəvi xammallar, pambıq, tütün, alüminium, dəmir filizi və s. hesabına bura əsasən daha intensiv şəkildə xammal istehsal etməyə imkan verən məhsuldar qüvvələr yaratmaq, zavod, fabrik, elektrik stansiyaları tikmək, kanallar çəkmək üçün başqa respublikalardan maşın və mexanizmlər, avadanlıqlar və tikinti materialları, habelə ərzaq gətirilirdi.

Məhsuldar qüvvələrdən səmərəli istifadə etmək üçün mərkəz respublikada kommunikasiya vasitələrinin inkişafına müəyyən imkanlar yaradırdı. Təkcə 60-cı illərdə burada min km-dən artıq şose yolları, 156 km dəmiryolu çəkilmiş, 525 km dəmiryolu elektrikləşdirilmişdi. Abşeron yarımadasında elektrik dəmiryol xətləri daha da şaxələnmişdi. 1962-ci ildə Bakı-Krasnovodsk bərə yolu istifadəyə verilmişdi. 1967-ci ildə Yevlax-Bərdə-Ağdam dəmiryol xətləri işə salınmışdı. Nəqliyyatın başqa sahələri, xüsusən hava nəqliyyatı da xeyli inkişaf etmişdi.

60-cı illərdən, bütün imperiyada olduğu kimi, Azərbaycanda da xəlvəti iqtisadiyyat meydana gəlməyə və tərəqqi etməyə başlamışdı. Buna səbəb adamlarda ictimai mülkiyyətə sahiblik hissinin olmaması şəraitində 60-cı illərin ortalarında islahatlarla əlaqədar yerlərə bəzi müstəqilliklər verilməsi, habelə partiya təşkilatlarının sürətlə səbatsızlaşmağa, pozğunlaşmağa başlaması olmuşdu. Xəlvəti iqtisadiyyatın yaranmasında və inkişafında Moskva və yerli rəhbərlər maraqlı idilər. Bu yolla əldə olunan pulların çoxu baş idarələrdə, nazirliklərdə əyləşən məmurların, partiya rəhbərlərinin cibinə axırdı. Respublikanın sənaye və kənd təsərrüfatı müəssisələrində gizli istehsal və mübadilə ilə məşğul olan onlarla qeydə alınmamış sex, əkin sahələri, bağlar, üzümlüklər, nəqliyyat vasitələri vardı.

Bu illərdə respublikanın iqtisadiyyatında baş verən dəyişikliklər əhalinin sosial tərkibinə, istehlak tələblərinin səviyyəsinə təsir göstərmişdi. 50-ci illərin sonlarında respublikada əhalinin sayı artıq müharibədən əvvəlki səviyyəyə çatmışdı. 1959-cu ilin əvvəllərində burada 3 milyon 698 min nəfər adam yaşayırdı. 60-cı illərin axırlarında isə bu rəqəm 5 milyonu ötüb keçmişdi. Əhalinin sosial tərkibində də dəyişikliklər baş vermişdi. Şəhər əhalisinin sayı artmışdı. 70-ci illərin əvvəllərində respublika əhalisinin yarısı şəhərlərdə yaşayırdı. Sənaye müəssisələri və sovxozların inkişafı ilə əlaqədar bu illərdə fəhlələrin sayı çoxalmış, kolxozçu kəndlilərin sayı isə, əksinə, xeyli azalmışdı. Respublikada ziyalıların sayı artırdı. 60-cı illərin axırlarında burada 158 min nəfər ali təhsilli mütəxəssis vardı. Orta ixtisas təhsillilərin sayı 200 mini ötmüşdü.

50-ci illərin axırlarında Azərbaycan SSR-də əmək qabiliyyətli əhalinin 72,5 faizi, 60-cı illərin axırlarında isə artıq 74,6 faizi ictimai müəssisələrdə məşğul idi.

Azərbaycanın bir çox şəhərlərində və kənd rayonlarında məşğuliyyət problemləri, xüsusən ixtisas üzrə işlə təmin olunmada ciddi çətinliklər vardı.

Dövlət işçi qüvvəsindən səmərəli istifadə etmək üçün, heç olmazsa ən adi tələblərə cavab verən məişət şəraiti, sosial-mədəni infrastruktur yaratmağa çalışırdı. Əməkhaqqının, ictimai istehlak fondlarından ödənc və güzəştlərin nominal göstəriciləri artmışdı. Lakin ailələrin böyük əksəriyyətinin gəliri adambaşına rəsmi müəyyən olunmuş yaşayış minimumu həddindən yuxarı qalxmırdı. Buna səbəb pulun alıcılıq qabiliyyətinin durmadan aşağı düşməsi idi. Hökumət 1961-ci ildə növbəti pul islahatı keçirdi, əskinasları dəyişdirdi, amma vəziyyət yaxşılaşmadı. Çünki 1962-ci ildə ərzaq məhsullarının qiyməti xeyli artırıldı.

İstehlak malları istehsalının SSRİ-də, xüsusən Azərbaycanda ləng artması ilə əlaqədar əhalinin istehlak tələblərini ödəmək çox çətin idi. Kəndlərdə şəxsi yardımçı təsərrüfatların sıxışdırılması, 60-cı illərin ortalarından kolxozlarda əməyin natura ilə ödənilməsinə son qoyulması da əhalinin ərzaqla təmin olunmasında ciddi çətinliklər yaratmışdı. 1963-cü ildə bütün ölkədə olduğu kimi, Azərbaycanda da çörək qıtlığı baş vermişdi. Əhalinin mühüm ərzaq məhsulları və sənaye malları ilə təmin olunma səviyyəsi mövcud normalardan və SSRİ üzrə orta göstəricilərdən xeyli aşağı idi.

Bu illərdə respublikada sosial tikinti xeyli genişlənmişdi. Şəhər və kəndlərdə ümumi sahəsi 23,4 milyon kv.m olan yaşayış evləri tikilmişdi. Bakı şəhəri daha da genişlənmiş və abadlaşmışdı. Onun ətrafında «Musabəyov» (indiki «Yasamal»), «Səkkizinci kilometr» yeni yaşayış massivləri salınmışdı. Burada 50-ci illərdə Hökumət evi, Respublika stadionu, Respublika kitabxanası, müasir klub binaları, Bakı hava limanı, Akademik Dram teatrı, Mərkəzi univermaq, Dövlət sirki binaları tikilmişdi. Şəhərin baş meydanının memarlıq ansamblı yaradılmağa başlanmışdı. 60-cı illərin əvvəllərində Bakıda funikulyor istifadəyə verilmişdi. Tikintisinə hələ 1949-cu ildən başlanmış Bakı metropoliteninin 1967-ci ilin noyabrında ilk 6 stansiyası işə düşmüşdü.

60-cı illərin ortalarında respublikada 45 şəhər və 116 şəhərtipli qəsəbə vardı. Qayğısızlıq üzündən əsasən iqtisadi cəhətdən zəif olan dağ rayonlarında yüzlərlə kiçik kənd boşalıb dağılmışdı. DQMV-də res-

publika rəhbərliyinin laqeydliyi, vilayət başçılarının qatı millətçiliyi üzündən azərbaycanlılar yaşayan kəndlər getdikcə xarabazara çevrilirdi. Abşeronda 219 kənddən 40-ı qalmışdı.

Tələbatla müqayisədə sosial obyektlərin tikintisi çox ləng və keyfiyyətsiz idi. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1955-ci il 4 noyabr tarixli qərarına əsasən, birtipli sadə layihələr üzrə əvvəllər beşmərtəbəli «Xruşşov evləri», sonralar dəmir-beton panellərdən binaların tikintisi şəhərləri özünəməxsusluqdan, milli memarlıq ənənələrinin yaratdığı ovqatdan məhrum edirdi. Mənzil tikintisi xeyli artsa da, əhalinin tələbatı tam ödənilmirdi, on minlərlə ailə mənzil növbəsində dayanırdı. Böyük şəhərlərdə minlərlə ailə normal məişət şəraiti olmayan gecəqondularda («naxalstroylarda») məskən salmışdı.

Respublikanın yaşayış məntəqələri 60-cı illərin sonlarına kimi, əsasən elektrikləşdirilmişdi. Amma xidmət işləri lazımi səviyyədə olmadığından şəhər və kəndlərin elektrik enerjisi ilə təchizində tez-tez fasilələr baş verirdi.

50-ci illərdən başlayaraq respublikanın yaşayış məntəqələrinin qaz yanacağı ilə təmin olunmasına diqqət xeyli artmışdı. 1954–1958-ci illərdə Bakıda Qaradağ, Qaradağ-Şüvəlan, Qaradağ-Sumqayıt magistral qaz kəmərləri çəkildi. 1960-cı ildə Bakı-Tbilisi-Yerevan qaz kəməri («Dostluq» kəməri) istifadəyə verildi. Lakin hələ də əhalinin qaz yanacağı ilə təminatı yaxşı deyildi. 60-cı illərin axırlarında 26 şəhər və 2 qəsəbədə 488 min, habelə kənd yerlərində 33 min mənzildə yanacaq qazından istifadə olunurdu.

Rabitə xidmətində də müəyyən irəliləmələr vardı. 1956-cı il fevralın 14-də Azərbaycan televiziyası ilk dəfə fəaliyyətə başladı. Bakıda və Naxçıvanda telestudiyalar istifadəyə verildi, radio-rele xətləri çəkildi, ötürücü stansiyalar quruldu.

60-cı illərin axırlarında respublikanın şəhər və kəndlərində 185 mindən çox telefon nömrəsindən istifadə olunurdu. Mənzillərin telefonlaşdırılması işi, xüsusən kənd yerlərində çox ləng gedirdi. Kommunikasiya vasitələrinin texniki səviyyəsi çox aşağı idi.

Yaşayış məntəqələrinin sanitar vəziyyəti, əhaliyə səhiyyə xidməti də, müəyyən irəliləyişlərə baxmayaraq, qənaətbəxş deyildi. Xəstəxanaların, ambulatoriyaların, tibb işçilərinin sayı artmışdı. 60-cı illərin axırlarında respublikada xəstəxanaların sayı 779-a, ambulatoriya-poliklinika xidməti göstərən müəssisələrin sayı 1075-ə çatmışdı. Əhaliyə 13 mindən çox həkim, 40 minə qədər orta tibb işçisi xidmət göstərirdi.

Lakin tibbi xidmətin keyfiyyəti qabaqcıl ölkələrlə, hətta SSRİ-nin bir çox başqa regionları ilə müqayisədə çox aşağı idi. Kənd yerlərində səhiyyə xidməti pis təşkil olunmuşdu.

Ekoloji vəziyyətin də gündən-gündən pisləşməsi əhalinin sağlamlığına mənfi təsir göstərirdi. Sənaye müəssisələri tikilərkən, torpaqlar meliorasiya olunarkən, istehsalda kimyəvi və bioloji vasitələrdən istifadə edilərkən ətraf mühiti mühafizə tədbirləri lazımi səviyyədə həyata keçirilmirdi. Mərkəz tikintiləri planlaşdırarkən respublikanı ekoloji çətinliklər qarşısında qoyub asılı saxlamaq üçün təbiətin özünübərpa etmək imkanlarını da qəsdən daraldırdı.Sumqayıt buna parlaq misal idi. Kimya sənayesi məhsulları istehsalının 90 faizindən çoxu bu şəhərdə cəmləşdirilmişdi. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və başqa iri şəhərlərdə havaya, suya, torpağa hər gün tonlarla zəhərli maddələr atılırdı.

## § 2. Azərbaycan SSR 70–80-ci illərdə: siyasi və iqtisadi həyat

**Siyasi idarəçilik sistemi**

1969-cu ilin iyulunda Azərbaycanda rəhbərliyə gətirilmiş təcrübəli və bacarıqlı siyasətçi, 1967-ci ildən rəhbərliyə gələnə qədər Dövlət Təzlükəsizlik Komitəsinin sədri olmuş, general-mayor Heydər Əliyev respublikada idarəçilik sistemini gücləndirməyə, mərkəzdə, hakimiyyətin yuxarı eşalonlarında nüfuz qazanmağa və bundan xalqın xeyrinə istifadə etməyə çalışdı. Rüşvətxorluğa, xüsusən korrupsiyaya qarşı ciddi mübarizə başlandı. Sovet hakimiyyəti tarixində ilk dəfə cəmiyyətdə belə eybəcər hallar olduğu Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda elan olundu və ona qarşı mübarizənin vacibliyi qeyd edildi. Qısa müddətdə idarəçilik sistemi xeyli möhkəmləndirildi. H.Əliyevin ölkədə böyük nüfuzu vardı, onunla hesablaşırdılar. H.Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilmişdi. Onun hakimiyyəti illərində respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri istifadəyə verildi, 630 min nəfərlik yeni iş yerləri yaradıldı. Mütərəqqi texnologiyalara əsaslanan sənaye sahələri inkişaf etməyə başladı. H.Əliyev yapon texnologiyası ilə işləyən məişət kondisionerləri zavodunun başqa regiondan alınıb Azərbaycanda tikilməsinə nail oldu. Bakı, Sumqayıt, Gəncə və başqa şəhərlər böyüdü, ətraflarında yeni yaşayış massivləri salındı,

20 milyon kvadrat metr mənzil sahəsi, yüzlərlə müasir, yaraşıqlı ictimai bina tikildi. Kənddə istehsal dəfələrlə artdı. Pambıqçılıq və üzümçülük rayonlarında əməkçilərin gəlirləri, abad kəndlərin və qəsəbələrin sayı xeyli çoxaldı.

Milli kadr potensialı artdı. Minlərlə azərbaycanlı gənc SSRİ-nin aparıcı elm və tədris ocaqlarına göndərilmiş, gözəl mütəxəssis kimi geri qayıtmışdı. Bu illərdə Nizaminin, Əcəminin, Nəsiminin, Tusinin, Vaqifin, Aşıq Ələsgərin, Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Hüseyn Cavidin və başqa elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan teatrının yüz illiyi respublikada və Moskvada təntənə ilə qeyd olunmuşdu. Azərbaycan dilinin təbliği genişlənmişdi. Dörd cildlik «Müasir Azərbaycan dili» kitabı nəşr olunmuş və 1974-cü ildə dövlət mükafatına layiq görülmüşdü. Azərbaycan dilinə, xalqın tarixinə aid araşdırmalara yüksək dövlət mükafatları verilməsi yaradıcı ziyalıları bu sahədə fəaliyyəti genişləndirməyə ruhlandırırdı. Bir zamanlar «pantürkist» kimi damğalanmış Hüseyn Cavidin cənazəsinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilib Naxçıvanda dəfn edilmişdi. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olunmuş, bu sahədə səmərəli işlər görülmüşdü. 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqının Cənub üzrə katibi seçilmişdi. 1981-ci ildə M.Şəhriyarın «Aman ayrılıq» poema və şeirlər kitabı çap edildi, «Şəhriyar gecələri» keçirildi. Cənubi Azərbaycanla birlik, həsrət hislərinin ədəbi ifadəsinə geniş imkanlar açıldı. Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmişdi. Bu proses Heydər Əliyev tərəfindən həssaslıq və uzaqgörənliklə idarə olunur və tənzimlənirdi. SSRİ-nin, demək olar ki, hər yerində amansız «dissedent ovu» aparıldığı halda, Azərbaycanda yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti hökm sürürdü. Heydər Əliyev milli təəssübkeşlikdə suçlanan Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Əkrəm Əylisli, Ziya Bünyadov kimi istedadlı yazıçı və alimləri repressiya təhlükəsindən xilas etdi. Yer adları, tədricən incəliklə yad ünsürlərdən təmizlənirdi. «Gəncə» sözü yasaq olduğu vaxt «Gəncə» rayonu yaradılmış, «Yeni Gəncə» yaşayış massivi salınmışdı. Rayonlara «Nizami», «Nəsimi», «Babək» adları verilmişdi. Dağlıq Qarabağda «Əsgəran» rayonu təşkil olunmuşdu.

Heydər Əliyev DQMV-də vəziyyəti daim nəzarət altında saxlamağa çalışırdı. Vilayətin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmışdı. 70-ci illərdə Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Şəhərdə tarixi abidələr bərpa olundu. Yeni binalar tikildi.

Şuşa Ümumittifaq səviyyəli kurorta çevrildi. M.P.Vaqifin qəbri üzərində möhtəşəm abidə, türbə ucaldıldı. Ü.Hacıbəyovun, Bülbülün ev muzeyləri açıldı. Natəvanın heykəli qoyuldu. DQMV-də əhalinin təminatı həmişə Azərbaycan SSR üzrə orta göstəricilərdən yüksək olurdu. 1973-cü ildə Xankəndində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı açıldı. 1979-cu ildə Ağdamdan bura dəmiryolu çəkildi. H.Əliyevin hakimiyyəti dövründə erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi növbəti dəfə qaldırıldı. Lakin onun qarşısı qətiyyətlə alındı.

Bu illərdə Sovet imperiyasında qanunvericilik fəaliyyətinin genişlənməsi, sözdə sovetlərin, partiyanın ilk təşkilatlarının, komsomolun, həmkarlar ittifaqlarının hüquqlarının artırılması, lakin bu hüquqların real şəkildə təmin olunması, «xalq hakimiyyəti orqanlarında», ictimai təşkilatlarda formalizmin daha da dərinləşməsi xarakterik hal idi. Yerli sovetlər, deputatların statusu haqqında bir neçə dəfə qanunlar – SSRİ və Azərbaycan SSR qanunları qəbul olunmuş, sözdə onların hüquqları genişləndirilmişdi. 1977-ci ilin oktyabrında qəbul olunmuş yeni «SSRİ Konstitusiyası»nda mövcud siyasi, iqtisadi və ideoloji sistem bir daha təsbit edildi. Burada da sovetlərin, ictimai təşkilatların, vətəndaşların real təminatı olmayan «geniş» siyasi hüquqlarından bəhs olunurdu. Konstitusiyanın 6-cı maddəsində Kommunist Partiyasının cəmiyyətin rəhbər və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin, dövlət və ictimai təşkilatlarının özəyi olduğu göstərilmişdi. SSRİ Konstitusiyasına müvafiq olaraq 1978-ci ilin aprelində Azərbaycan SSR-in, həmin ilin mayında isə Naxçıvan MSSR-in yeni Konstitusiyaları qəbul edilmişdi.

Geniş qanunyaradıcılıq fəaliyyəti sovet cəmiyyətinin demokratikliyini hay-küylə bəyan etmək məqsədi güdürdü. Xalqın siyasi proseslərə, təsərrüfat idarəçiliyinə təsiretmə mexanizmi səmərəsiz idi. Siyasi hüquqların təmin olunması, hüquqi nihilizmin dərinləşməsi, adamları siyasətə daha da özgələşdirir, siyasi laqeydliyi artırıdı.

80-ci illərin sonlarında Azərbaycan Kommunist Partiyasının sıralarında 400 minə qədər üzv vardı. Partiyaya əsasən şəxsi ambisiyalarına nail olmaq, vəzifə tutmaq üçün çox vaxt əyri yollarla, hətta rüşvət verməklə daxil olurdular. Partiyanın mənəvi cəhətdən çürüdüyü göz qabağında idi. Gələcəkdə «partiyaya keçmək», vəzifə tutmaq istəyənlər komsomolda «tərbiyə olunmalı» idilər. Bu təşkilatın sıralarında artıq milyona qədər oğlan və qız birləşdirilmişdi. «Kommunizm məktəbi» – həmkarlar ittifaqı ən kütləvi təşkilata çevrilmişdi. 1976-cı ildən sıravi

kolxozçulara da həmkarlar ittifaqında birləşmək hüququ verildi. 90-cı illərin əvvəllərində həmkarlar ittifaqlarında 2,6 milyona qədər əməkçi birləşdirilmişdi. Lakin bu təşkilatlar partiyanın diktəsi ilə fəaliyyət göstərdiyindən əmək adamlarının həqiqi müdafiəçisinə çevrilə bilməmişdilər.

1987-ci ildə respublikada 1365 yerli sovetə 51 min 686 deputat «seçilmişdi». Formal şəkildə 9 mindən çox daimi komissiyalar yaradılmış, onların işinə 40 min deputat və on minlərlə fəal cəlb edilmişdi.

Lakin xalqı oyanmağa, azadlığı uğrunda siyasi mübarizəyə hazırlaşmağa çağıran qüvvələr də vardı. MAQ gizli fəaliyyətini davam etdirirdi. 1973-cü ildə Asəf Kərimovun rəhbərliyi ilə «Milliyyət» adlı qeyri-leqal qrup təşkil olunmuşdu. Bu qrup təbliğatdan başqa, etirazın açıq formalarından da istifadə edirdi. 1974-cü ilin yayında Litva tələbələrinin «Litvaya azadlıq» şüarı ilə dinc çıxışının qan içində boğulmasına qarşı etiraz əlaməti olaraq Bakı tələbələrinin nümayişi təşkil olunmuşdu. Nümayişçilər «Rədd olsun Sov.İKP!» şüarı ilə «Kommunist» küçəsindən keçmişdilər. Milis nümayişçi tələbələrin bir neçəsini tutub döymüşdü. Bu dövrdə Əbülfəz Əliyev gizli qruplar təşkil edir, siyasi iş aparırdı. 1975-ci ilin yayında o, DTK tərəfindən həbs edildi. Onun işinə Heydər Əliyevin səyləri sayəsində Moskvada deyil, Bakıda baxıldı, bir ildən sonra azad olundu və mübarizəsini davam etdirdi. 70-ci illərin ortalarında Bakı Baş Tikinti İdarəsinin yataqxanalarında Arif Abdullayevin və məsləkdaşlarının təşkil etdikləri üçlük qruplar da fəhlələr arasında azadlıq ideyalarının yayılmasında mühüm rol oynayırdı. 1976-cı ildə «Milliyyət» qrupu «Azərbaycan Milli Demokrat İttifaqına» çevrildi. Bu təşkilatın üzvləri həmin il Bakının baş meydanında 1 May nümayişinə Azərbaycan Demokratik Respublikasının üçrəngli, ay-ulduzlu bayrağı ilə çıxmışdılar.

Azadlıq ideyalarını təbliğ edən gizli siyasi təşkilatlar Sumqayıtda, Gəncədə və başqa şəhərlərdə də fəaliyyət göstərirdi.

Onlar əsasən millətçilik zəminində durur, Azərbaycan dilinin dar çərçivədə işlədilməsini, respublikanın xammal bazasına çevrilməsini, SSRİ-nin rəhbər orqanlarında azərbaycanlıların az olmasını tənqid edir, xalqı milli azadlığa çağırırdılar.

L.İ.Brejnevin vəfatından sonra (1982-ci il 10 noyabr) Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosuna üzv seçilib Moskvaya, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə aparıldı. Onun yerinə Kamran Bağırov təyin edildi. Lakin siyasi sistemdə çürümə prosesi də-

rinləşməyə başlamışdı. Moskva «yenidənqurma» ilə əlaqədar ölkədə mərkəzdənqaçan qüvvələrin açıq-aşkar gücləndiyi vaxtda mühüm geosiyasi əhəmiyyəti olan bir respublikada Heydər Əliyev kimi güclü siyasi xadimin nüfuzunu zəifl ətməyə çalışırdı. Bu işdə Azərbaycanı parçalayıb torpaqlarına sahib olmaq istəyən erməni millətçiləri, respublikada dərəbəylik edən mafioz qruplaşmalar, Əliyevin siyasətindən narazı olan şəxslər, mərkəzə gələn şikayətlər mühüm rol oynadı. 1987-ci ilin yayında Heydər Əliyev tutduğu vəzifədən istefa verdikdən sonra respublikada siyasi vəziyyət daha da mürəkkəbləşdi, hakimiyyətə can atan qüvvələr arasında mübarizə gücləndi.

**İqtisadi və sosial inkişafın xüsusiyyətləri**

70-ci illərdə respublikada idarəçiliyin, dövlət və plan intizamının möhkəmlənməsi, kadrlara tələbkarlığın, tapşırılan iş üçün məsuliyyətin artması nəticəsində xalq təsərrüfatında mühüm irəliləmələr baş verirdi. Respublikanın rəhbəri mərkəzdəki nüfuzundan istifadə edərək iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün müvafiq qərarlar qəbul edilməsinə, vəsait ayrılmasına nail oldu.

Neft sənayesində tənəzzülü aradan qaldırmağa cəhdlər göstərildi. Kəşfiyyat işləri genişləndirildi. Xəzərdə «28 aprel», «Bahar», «Azəri», «Günəşli» və başqa zəngin neft və qaz kondensatı yataqları aşkar edildi. Sualtı neft kəməri çəkildi. Neftçıxarma texnikası və texnologiyası xeyli təkmilləşdirildi. Dənizdə 2800–6500 metr dərinlikdə neft quyuları qazılmağa başlandı. Müasir «Xəzər», «Bakı», «Kaspmor-neft», «Şelf–1», «Şelf–3» və başqa üzən qazma qurğularından geniş istifadə olunurdu. 1970-ci ildə neft hasilatı 17,3 milyon ton olmuşdu. Azərbaycanın neft yataqlarından 1972-ci ilədək 1 milyard ton neft çıxarılmışdı. Daha dərin və zəngin qatlarda olan yataqların istismarına başlanmışdı. Lakin bu, daha çox vəsait, ən başlıcası isə müasir texnika və texnologiyalar tələb etdiyindən sonrakı illərdə hasilat durmadan azalmışdı. 1990-cı ildə respublikada cəmi 12,9 milyon ton neft və 8 milyard kub m. qaz çıxarılmışdı.

Neft emalı müəssisələri sürətlə inkişaf etdirilirdi. 1976-cı ildə Yeni Bakı Neftayırma zavodunda, 1982-ci ildə isə Bakı neftayırma zavodunda neftin ilkin emalı üçün ELOU–AVT qurğusu işə düşdü. Bu müəssisələrdə 90 adda müxtəlif neft məhsulları – təyyarə, reaktiv qurğu, avtomobil və dizel yanacağı, sürtkü yağları, aşqarlar, bitum, neft-kimya sənayesi üçün xammal istehsal olunurdu.

Bu illərdə respublikanın neft-maşınqayırma zavodlarında da əsas sexlər yenidən quruldu, yeni istehsal sahələri işə salındı. 1985-ci ildə Dərin dəniz özülləri zavodu ilk məhsulunu istehsal etdi. 90-cı illərin əvvəllərində SSRİ-də istehsal olunan neftçıxarma texnikasının 2/3-ni Azərbaycan verirdi.

1983-cü ildə Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan SSRİ-nin vahid neft kəmərinə qoşuldu. Sibir nefti emal olunmaq üçün Bakıya axmağa başladı.

Bu illərdə sənayedə struktur dəyişiklikləri davam edirdi. Yeni cihazqayırma müəssisələri yaradılırdı. 70-ci illərdə Bakı və Gəncə cihazqayırma yeni istehsal xətləri istifadəyə verildi, yenidənqurma işləri aparıldı. 1975-ci ildə Bakı məişət kondisionerləri zavodu çox qısa bir vaxtda tikilib işə salındı. Sumqayıtda məişət kompressorları zavodu istifadəyə verildi. 1984-cü ildə Bakıda ağır elektrik qaynaq avadanlığı zavodu işə başladı.

Əhalinin tələblərini ödəmək üçün istehlak malları istehsal edən müəssisələr şəbəkəsi genişləndi. 70-ci illərdə Bakıda tikiş, ayaqqabı, Sumqayıtda trikotaj, xovlu iplik fabrikləri, Gəncədə ət kombinatı, qənnadı fabriki, melixor qablar zavodu, Yevlaxda yunun ilkin emalı, Xankəndində ayaqqabı fabrikləri, 80-ci illərdə Bakıda makaron, Xırdalanda dəri mallar, Abşeronda və Siyəzəndə iri broyler fabrikləri, Xırdalanda metal örtük konstruksiyaları zavodu, habelə onlarla çörək, şərab zavodu, konserv kombinatı işə salındı. Tikinti materialları istehsalı artırıldı. Bakıda iki evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıtda şüşə zavodu, habelə bir neçə dəmir-beton konstruksiyalar istehsal edən müəssisələr işə düşdü.

Enerjitutumlu sahələrin inkişafı respublikada elektrik enerjisi istehsalının artmasını tələb edirdi. 1971-ci ildə Naxçıvan MSSR-də Araz su-elektrik stansiyası, 70-ci illərin ortalarında Tərtər su-elektrik stansiyası, 1981–1984-cü illərdə Şəmkir su-elektrik stansiyası tikilib işə salınmışdı. 70–80-ci illərdə elektrik enerjisi istehsalı 2 dəfəyə qədər artmış, 1990-cı ildə 23,2 milyard kVt saata çatmışdı.

Azərbaycanda 90-cı illərin əvvəllərində 1026 sənaye müəssisəsi vardı. Onların yarıdan çoxu ağır sənayenin payına düşürdü. 70–80-ci illərdə respublikada sənaye məhsulu istehsalı 3 dəfəyə qədər artmışdı.

Əmək ehtiyatlarını istehsalata daha geniş cəlb etmək üçün xırda və orta müəssisələrin çoxu paytaxtdan kənarda tikilirdi. 1970-ci ildə sənaye məhsulunun 32 faizi, 1985-ci ildə isə 42 faizi Bakı-Sumqayıt sənaye rayonunun hüdudlarından kənarda istehsal edilirdi.

Respublikada kənd təsərrüfatının, xüsusən pambıqçılığın, tərəvəzçiliyin, tütünçülüyün, 70-ci illərin sonlarından isə, həm də üzümçülüyün inkişafına diqqət artırılmışdı. Kənd təsərrüfatında texniki təchizat səviyyəsi, ittifaq üzrə orta göstəricilərə belə çatmasa da, xeyli yaxşılaşmışdı. 1990-cı ildə kolxoz və sovxozlarda 36,1 min traktor, 4,5 min taxılyığan kombayn, 4,2 min pambıqyığan maşın, 10 minlərlə başqa texnika vardı. Buna baxmayaraq, işlərin mexanikləşmə səviyyəsi çox aşağı idi. Pambıqçılıqda, tütünçülükdə, tərəvəzçilikdə əsasən ağır əl əməyi tətbiq olunurdu.

70-ci illərdə Baş Mil, Ciqar-Cibar, Abşeron, Lənkəran kanalları, Araz su qurğusu, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Sirab, Şəmkir, Köndələnçay dəryaçaları tikilib istifadəyə verildi. 80-ci illərdə Əyriçay, Vələşçay, Bələnyar, Qozluçay, Cavanşir, Aşağı Əkərə, İncəçay dəryaçaları yaradıldı, Yuxarı Qarabağ, Yuxarı Şirvan kanalları, Şirvan kollektorları yenidən quruldu, Şəmkir kanalı çəkildi. 80-ci illərin axırlarında respublikada 1,4 milyon hektara qədər suvarılan torpaq vardı. Texniki bitkilərin, xüsusən pambığın əkin sahələri taxıl əkini sahələrinin hesabına xeyli genişlənmişdi. 1986-cı ildə artıq 300,4 min hektar sahədə pambıq əkilirdi. Bərdə, Ağcabədi, Sabirabad və Beyləqan (o zaman Jdanov adlanırdı) iri pambıq istehsalı rayonlarına çevrilmişdi. Dənli bitkilərin əkin sahəsi ən aşağı həddə 412 min hektara endirilmişdi. Sonrakı illərdə rayonların texnikimonokultura üzrə ifrat ixtisaslaşdırılması prosesinin qarşısı alındı. Pambıq əkini sahələri ixtisar edildi. Dənli bitkilərin əkin sahələri isə yenidən artırıldı. 80-ci illərin sonlarında respublikada 245 min hektar sahədə pambıq, 652 min hektar sahədə isə taxıl əkilirdi. 70-ci illərin sonu – 80-ci illərin birinci yarısında respublikada üzümçülük intensiv surətdə inkişaf etdirildi, 90 min hektara qədər yeni üzümlüklər salındı. 1985-ci ildə burada 268 min hektar üzümlük vardı. Lakin 80-ci illərin ikinci yarısında bütün Sovet imperiyasında alkoqolizmə qarşı düşünülməmiş, tələsik mübarizə kampaniyası başlanandan sonra yüz min hektardan çox üzümlük məhv edilmiş, xalqa böyük ziyan vurulmuşdu.

Respublikanın dağlıq rayonlarında kiçik heyvandarlıq təsərrüfatlarının ləğv edilməsi burada heyvandarlığın inkişafının xeyli ləngiməsinə səbəb olmuşdu. Hətta 70–80-ci illərdə iri heyvandarlıq komplekslərinin tikilməsi, təsərrüfatlararası heyvandarlıq müəssisələrinin yaradılması, yem bazasının nisbətən genişləndirilməsi də bu sahədə köklü dəyişikliyə şərait yaratmadı. 80-ci illərin sonunda respublikada 2 milyon

başa qədər iribuynuzlu mal-qara, 6 milyon başa qədər qoyun və keçi vardı. Heyvandarlıq ən zəif sahə olaraq qalırdı.

Bu illərdə respublikada tərəvəzçilik daha da inkişaf etdirildi. Tərəvəz əkini sahələri, əsasən Lənkəran-Astara və Quba-Xaçmaz zonalarında xeyli artırıldı. 80-ci illərin axırlarında hər il 900 min tona yaxın tərəvəz istehsal edən respublikanın əhalisi tərəvəzi ölkə üzrə orta göstəricidən çox az istehlak edirdi.

70–80-ci illərdə Azərbaycan SSR-də kənd təsərrüfatı məhsulu başlıca olaraq, xammal və respublikadan kənara aparılan digər məhsullar hesabına 2 dəfə artmışdı. Lakin texniki monokultura, şəxsi təsərrüfatların zəif olması kəndlilərin, habelə bütün əhalinin ərzaqla təminatının pisləşməsinə səbəb olmuşdu. Respublika ərzaq sarıdan mərkəzdən, demək olar ki, tam asılı idi. 1990-cı ildə burada istehlak olunan taxılın cəmi 30, ətin – 43, südün – 32,3 faizini respublikanın təsərrüfatları verirdi.

Bu illərdə Azərbaycan SSR-də mühüm təsərrüfat əhəmiyyəti olan kommunikasiya vasitələrinin inkişafı da diqqət mərkəzində olmuşdu. 70–80-ci illərdə respublikada 6 min km şose, 260 km dəmir yolları çəkilmişdi. 1979-cu ildə Ağdam – Xankəndi, 1984–85-ci illərdə Yevlax–Balakən dəmiryol xətləri işə salınmışdı. 1975-ci ilədək Bakı-Böyük Kəsik (Gürcüstan sərhədindədir) və Bakı-Yalama xətlərinin elektrikləşdirilməsi başa çatmışdı. 1985-ci ildə Bakı–Aktau (Şevçenko) bərə yolu açılmışdı. Xəzər dəniz nəqliyyatı gəmiləri dünyanın 120 limanına yan alırdı. Bakıdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə hava yolları uzanırdı. Lakin respublikanın yerli avtomobil yollarına, körpülərə lazımi diqqət göstərilmirdi. Kənd yollarının çoxu payız və qış aylarında, demək olar ki, keçilməz olurdu.

Respublikada mərkəzin maraqlı olduğu sahələr üzrə sənayenin və kənd təsərrüfatının inkişafı buradan aparılan malların, xüsusən xammalın həcminin artmasına şərait yaratmışdı. 80-ci illərin axırlarında Azərbaycan SSR-də hər il istehsal olunan milli gəlirin 75 faizi qədər mal ixrac olunurdu. Onun 45–50 faizini xammal təşkil edirdi.

İmperiya Azərbaycanın 120-yə qədər müəssisəsində istehsal olunan 380 adda məhsulu 90-a qədər xarici ölkəyə satır, əldə olunan valyutanın çox az bir hissəsini ona qaytarırdı. Azərbaycana hər il 6,2 milyard rublluq məhsul gətirilirdi ki, onun da 60 faizdən çoxunu ərzaq təşkil edirdi. Hər il respublikaya gətiriləndən 1,5–2 milyard rubldan çox mal aparılırdı (1987-ci ildə 100 ABŞ dolları 68,30 rubla bərabər idi). Bu, milli gəlirin bir hissəsinin onun əlindən əvəzsiz olaraq alınması

demək idi. Bundan əlavə, Azərbaycandan mallar, xüsusən xammal olduqca ucuz, qəpik-quruşa, hətta çox vaxt maya dəyərindən də aşağı qiymətə alınırdı. 1990-cı ildə neftin tonu 42 rubla başa gəldiyi halda, dövlət onu 37 rubla alırdı. Dünyada ən keyfiyyətli hesab olunan Bakı nefti badamlı suyundan 2,5 dəfə ucuz alınıb aparılırdı. Xam şərab materialları ixrac etməklə respublika hər il 200 milyon rubl, tütün ixrac etməklə 8 milyon rubl, pambıq lifi ixrac etməklə isə 2 milyard rubl və ya dövlət büdcəsinin 50 faizi qədər pul itirirdi.

Azərbaycanın sərvətlərindən istifadə olunmasında da böyük israfçılığa yol verilirdi. Neftin emal səviyyəsi neftayırma müəssisəsində 50 faizdən (başqa ölkələrdə 80–90 faiz idi) yuxarı deyildi. Dəniz mədənlərindən çıxan qazı qəbul və nəql etmək üçün qurğular tikilmir, hər il 2,5–3 milyard $m^3$ qiymətli yanacaq havaya sovrulurdu. Kifayət qədər nəqliyyat vasitələri, ixtisaslaşdırılmış anbarlar olmadığından hər il istehsal edilən kənd təsərrüfatı məhsullarının xeyli hissəsi zay olub gedir, itib-batırdı. Azərbaycanın flora və faunasına ciddi ziyan vurulurdu. 60 min hektardan çox meşə sahəsi məhv edilmişdi. Abşeronda 60 min hektardan çox məhsuldar torpaq neftə, mazuta bulanmışdı. Xəlvəti iqtisadiyyat daha da genişlənmişdi.

80-ci illərin ikinci yarısında rəhbərliyin zəifləməsi iqtisadi inkişaf sürətinin aşağı düşməsinə səbəb olmuşdu. Belə ki, 70-ci illərə nisbətən 80-ci illərdə istehsalın artım sürəti sənayedə 1,8, kənd təsərrüfatında isə 2,3 dəfə azalmışdı.

Respublikanın iqtisadiyyatındakı vəziyyət adamların güzəranını müəyyən edirdi. Əhalinin sayı 70–80-ci illərdə xeyli artmışdı. 1989-cu ildə əhali sayımı göstərirdi ki, Azərbaycan SSR-də artıq 7 milyondan çox adam yaşayır. Burada 6 milyona qədər Azərbaycan türkü və ya dünyada yaşayan Azərbaycan türklərinin 17 faizi (Birləşmiş Millətlər Təşkilatının hesablamasına görə dünyada 38 milyon nəfərə qədər Azərbaycan türkü yaşayır), 392 min rus, 391 min erməni, 42 min ləzgi, 35 min avar, 28 min yəhudi, 21 min talış, 14 min kürd, 7 min tat, 7 min udin və başqaları, ümumiyyətlə, 82 xalqın nümayəndəsi sakin idi. Azərbaycan uzunömürlülər diyarı kimi tanınırdı. 1990-cı ildə respublikada yaşı 100-ü ötmüş 2500-dən çox adam yaşayırdı, əhalinin sayına münasibətdə bu dünyada ən yüksək göstərici idi.

Respublikada əhalinin sosial strukturunda da dəyişikliklər baş vermişdi. Urbanizasiya prosesi davam edirdi. 1990-cı ildə respublika əhalisinin artıq 54 faizi şəhərlərdə məskunlaşmışdı. Sənayedə və kənd

təsərrüfatında dövlət sektorunun inkişafı ilə əlaqədar fəhlələrin sayı daha da artmış, kolxozçu kəndlilərin sayı isə əksinə, xeyli azalmışdı. 1990-cı ildə respublikada 1,450 minə qədər fəhlə, 325 min kolxozçu vardı. Ali və orta ixtisaslı mütəxəssislərin sayı 650 mini ötmüşdü.

Əhalinin 2600 min nəfərdən çoxu xalq təsərrüfatında çalışırdı. Bununla belə, əmək qabiliyyətli əhalinin xeyli hissəsi işsiz idi. Kənd rayonlarında, sənayenin zəif inkişaf etdiyi yerlərdə işsizlik daha kəskin şəkil almışdı. 80-ci illərin ortalarında burada 250 min nəfərdən çox işsiz vardı. 80-ci illərin axırlarında Ermənistandan və Özbəkistandan azərbaycanlı və məhsəti türklərinin qovulub Azərbaycana pənah gətirməsi ilə əlaqədar onların sayı yarım milyonu ötüb keçmişdi. İşsizlərin 60 faizini gənclər, 60 faizini isə kənd əhalisi təşkil edirdi. İctimai istehsaldan kənarda zəhmətlə gəlir əldə etmək yolları, demək olar ki, bağlı idi, şəxsi yardımçı təsərrüfatlara lazımi şərait yaradılmırdı.

70–80-ci illərdə işçilərin əməkhaqqı, ictimai istehlak fondlarından gəlirləri – pensiyalar, təqaüdlər, müavinətlər və s. formal olaraq xeyli artmışdı. Pulun məzənnəsi isə durmadan aşağı düşürdü. 1990-cı ildə 1 rublun alıcılıq qabiliyyəti 1961-ci ildəkindən 5 dəfə az idi. Belə bir şəraitdə adamların güzəranını yaxşılaşdırmaq mümkün deyildi. İqtisadiyyatına lazımi qayğı göstərilməyən dağ rayonlarında əhalinin dolanacağı daha çətin idi. İqtisadi çətinlik, mənəvi cəhətdən təmin olunmamaq üzündən gənc oğlanların bir hissəsi kəndləri tərk edib şəhərlərə, respublikadan kənara qazanc dalınca getməyə məcbur olurdular. Vaxtında ailə həyatı qura bilməyən qızların, xüsusən kənd yerlərində, sayı xeyli artmışdı. Zəhmətsiz gəlirlərlə dolanan ailələr isə cəmiyyət içərisində aydın şəkildə seçilməyə başlamışdı. 80-cı illərin sonlarında iqtisadi tənəzzüllə əlaqədar əhalinin güzəranı daha da pisləşmişdi, yoxsulluq içində yaşayanların sayı durmadan artırdı.

Əhalinin istehlak tələbləri də tam ödənilmirdi. Ət, balıq, kürü, süd, meyvə, hətta üzüm, tərəvəz və s. üzrə istehlak səviyyəsini müəyyən olunmuş elmi normalara qaldırmaq mümkün deyildi. 80-ci illərin ortalarında respublikanın şəhərlərində ət, yağ, axırlarında isə həm də şəkər talonlarla verilməyə başlanmışdı.

Bazar durmadan bahalaşır, inflyasiya, qıtlıq artırdı. 70–80-ci illərdə qeyri-ərzaq mallarının, qızılın və başqa qiymətli metalların qiymətləri dəfələrlə qaldırılmışdı. Tələbat olmayan, dəbdən düşmüş malların qiymətlərinin tez-tez aşağı salınması isə əhalinin güzəranına elə bir əsaslı təsir göstərmirdi.

Respublikanın şəhər və kəndlərində mənzil tikintisi xeyli genişlənmişdi. 70–80-ci illərdə ümumi sahəsi 38 milyon kv.m, o cümlədən kənd yerlərində 14 milyon kv.m olan yaşayış evləri tikilmişdi. Lakin əhalinin mənzilə olan tələbatı yenə də ödənmirdi. 80-ci illərin axırlarında respublikada adambaşına şəhərlərdə 13, kənd yerlərində isə 12 kv.m yaşayış sahəsi düşürdü. Bu mövcud normalardan 2–4 dəfə az idi. Ev növbəsində Bakıda 75 min, Gəncədə 11 min ailə dayanmışdı. Minlərlə ailə kirayədə, o cümlədən yüzlərlə azərbaycanlı ailəsi ermənilərə məxsus mənzillərdə kirayədə, kommunal mənzillərdə, şəhərlərin ətrafında genişlənməkdə olan «gecəqondu»larda yaşayırdı. Sumqayıtın ekoloji baxımdan «ölü zona» adlanan sahəsindəki «gecəqondu»larda 1500 ailə məskən salmışdı.

Yaşayış məntəqələrində abadlıq işləri xeyli genişlənmişdi. Minlərlə məktəb, klub, kitabxana, xəstəxana, xidmət müəssisəsi, istirahət evi və başqa binalar tikilmişdi. Bakı daha da gözəlləşmişdi, böyümüşdü. Onun ətrafında yeni mikrorayonlar, Patamdar, Əhmədli, Günəşli, Hövsan kimi yeni yaşayış massivləri salınmışdı. 70-ci illərdə Bakıda Dəniz vağzalı, indiki Respublika sarayı, «Moskva» mehmanxanası, 80-ci illərdə «Gülüstan» sarayı, yeni zoopark, örtülü idman kompleksləri tikilmişdi. İndiki «Azadlıq» meydanı memarlıq ansamblı yaradılmışdı. Dənizkənarı bulvar, park və bağlar yenidən qurulmuş, yeni meydanlar, bağlar, parklar salınmışdı. Bakı metropoliteni daha da genişlənmişdi. 1990-cı ildə onun yeraltı yollarının uzunluğu artıq 28 km-dən çox idi, əhaliyə 18 metro stansiyası xidmət göstərirdi.

90-cı illərin əvvəllərində respublikada 65 şəhər, 122 şəhərtipli qəsəbə vardı.

İqtisadiyyatı inkişaf etmiş kənd rayonlarında yaşayış məntəqələrinin siması çox dəyişmişdi. Bu kəndlərdə ağ daşdan, aynabədli, müasir evlər inşa olunmuşdu. Lakin «perspektivsiz» adlandırılan kiçik, əsasən dağ rayonlarında, kəndlərə qayğı göstərilmirdi. DQMV-nin azərbaycanlılar yaşayan kəndlərində də vəziyyət belə idi.

Yaşayış məntəqələrinin enerji, su və qaz yanacağı ilə təchizi nisbətən yaxşılaşmışdı. 80-ci illərin ikinci yarısında şəhər və kəndlərə ikinci sərbəst elektrik xətti çəkilişinə başlanmışdı. Əhalinin su ilə təchizini yaxşılaşdırmaq üçün müəyyən işlər görülmüşdü. 1971-ci ilin sentyabrında Kür su kəməri işə salınmış, Kür suyu Bakıya gətirilmişdi. 1982-ci ildə Sabirabadda iri su təchizatı kompleksi istifadəyə verilmişdi. Lakin vəziyyət əsaslı şəkildə yaxşılaşmamışdı. Hələ də şəhərlərin 3, kəndlə-

rin 89 faizinin su kəməri yox idi. Baxımsızlıq üzündən kəhrizlərin çoxu dağılmışdı. Kəndlərin əksəriyyətində açıq su mənbələrindən istifadə olunurdu.

Şəhər və kəndlərdə mənzillərin qaz yanacağı ilə təchizini yaxşılaşdırmaq üçün 70-ci illərdə Əli-Bayramlı–Astara («Transiran»), Yevlax–Şəki, Dəvəçi–Xaçmaz, Yevlax–Xankəndi–Gorus–Naxçıvan, 80-ci illərdə Naxçıvan–Culfa–Ordubad, Mozdok–Qazıməmməd–Qazax yüksək təzyiqli qaz kəmərləri çəkildi. Əhalinin balonlarda qaz yanacağı ilə təchizi də yaxşılaşdı. 90-cı illərin əvvəllərində respublikanın bütün şəhərlərində və kəndlərin 76 faizində əhali qaz yanacağından istifadə edirdi. Lakin xidmət mədəniyyətinin, xətlərə texniki nəzarətin zəif olması ilə əlaqədar mənzillərin qazla təchizi, xüsusən qış aylarında, xeyli pisləşirdi.

70–80-ci illərdə televiziya verilişlərinin qəbulu və telefonlaşdırma sahəsində də mühüm işlər görülmüşdü. Onlarla radio-rele xətləri çəkilmişdi. 1989-cu ildə Xankəndində televiziya studiyası istifadəyə verilmişdi. 1990-cı ildə respublikada 150-ə qədər telestansiya vardı. 26 peyk əlaqə stansiyasından istifadə edilirdi. Respublikada əhalinin artıq 95 faizinin respublika televiziyasının verilişlərinə baxmaq imkanı vardı. Lakin Qərb zonasında telesiqnalların lazımi səviyyədə qəbul olunması üçün texniki vasitələr kifayət qədər deyildi.

Şəhər və kəndlərdə telefon şəbəkəsi xeyli inkişaf etmiş, 500 minə qədər yeni telefon sayları istifadəyə verilmişdi. Şəhərlərarası telefon rabitəsi genişlənirdi. Lakin hələ minlərlə ailə telefon növbəsində dayanırdı. Kommunikasiya vasitələrinin, telefon xidmətinin texniki səviyyəsi aşağı idi.

Xəstəxanaların, ambulatoriyaların, sanitar-epidemioloji stansiyaların sayı artsa da əhaliyə səhiyyə xidməti, şəhər və kəndlərin sanitar vəziyyəti yaxşı deyildi. 1990-cı ildə respublikada 68 mindən çox çarpayısı olan 846 xəstəxana, xeyli ixtisaslaşdırılmış tibb müəssisəsi, onkologiya, kordiologiya, neyrocərrahiyyə, diaqnostika mərkəzləri, eksperimental və klinik cərrahiyyə institutu, urologiya, travmotologiya və başqa xəstəxanalar fəaliyyət göstərirdi. Bu müəssisələrdə 26 minə qədər həkim, 63 mindən çox orta tibb işçisi çalışırdı. Yeni sanatoriya və profilaktoriyalar istifadəyə verilmişdi. Təkcə həmkarlar ittifaqının 12 min yerlik 22 sağlamlıq mərkəzi, 12 turist bazası və kompleksi vardı. Lakin əhalinin xəstəxanalarda çarpayı-yerlərlə təmin olunmasına görə respublika SSRİ-də ən axırıncı yerdə idi. Hər beş rayondan birin-

də doğum evi vardı. İki mindən çox kənddə tibbi yardım xidməti təşkil olunmasına şərait yox idi.

Sənayedə və kənd təsərrüfatında nəqliyyat vasitələrindən istifadə olunmasında, tikintidə istehsal texnologiyaları ciddi şəkildə pozulduğundan, təmizləyici qurğulardan kifayət qədər səmərəli istifadə olunmadığından respublikada ekoloji şərait gündən-günə pisləşirdi. Təkcə Bakıda il ərzində hər kv. km-ə 800–900 ton zəhərli maddə tökülürdü. Xəzər dənizinə hər gün milyon kub metrdən çox zəhərli çirkab sular axıdılırdı. Ermənistan və Gürcüstandan Azərbaycana gələn çaylar zəhərli maddələrlə təhlükəli dərəcədə çirkləndirilmişdi. Kənd təsərrüfatında ziyanvericilərə qarşı bütün dünyada hələ 60-cı illərdə işlədilməsi qadağan olunmuş DDT zəhərləyicisindən 90-cı illərə qədər geniş istifadə edilirdi. Meliorasiya kanallarının çoxuna beton vurulmadığı üçün su sızması nəticəsində 600 min hektar sahə yenidən şoranlaşıb sıradan çıxmışdı. Əkinəyararlı sahələrin, demək olar ki, yarısı eroziyaya uğramışdı.

Ekoloji vəziyyəti Sovet ordusunun olduqca zərərli hərbi obyektləri daha da ağırlaşdırırdı. Azərbaycanda radioaktiv maddələr basdırılmış «şərq qəbiristanlığı» salınmışdı. Yaşayış məntəqələrinin yaxınlığında canlı aləmə ciddi ziyan vuran güclü radioötürücü stansiyalar (ən böyüyü Qəbələdədir) qurulmuşdu. Əhalinin 75 faizi ekoloji baxımdan təhlükəli ərazilərdə yaşayırdı.

Ətraf mühit təhlükəli dərəcədə korlandığından respublikada ağ və qaraciyər, öd kisəsi, mədə-bağırsaq, şiş və digər xəstəliklər durmadan artırdı. Qadınların hər dörd nəfərindən biri zərərli istehsal sahələrində işləyirdi. Uşaq ölümü çox idi. Kəndlərdə vəziyyət daha pis idi. Yeniyetmələrin fiziki inkişaf göstəriciləri pisləşir, onlar həm boyda, həm də çəkidə geri qalırdılar. Əhalinin sayı artsa da illik artım sürəti azalırdı.

## § 3. Respublikanın mədəni həyatı

**Maarif**

Sovet imperiyası Azərbaycanda siyasi və iqtisadi ağalığının mənəvi dayaqlarını daim möhkəmləndirməyə çalışırdı. Məqsəd bu idi ki, adamlar ölkədə ən ədalətli cəmiyyət qurulduğuna, kommunist partiyasına və onun liderlərinə inansın, sovet həyat tərzini səadət kimi qəbul etsin, vacib əmək vərdişlərinə, politexniki təhsilə yiyələnsin və daha məhsuldar işləyə bilsin. Hakim

bolşevik ideologiyası uydurma ehkamlarının ictimai şüurunu bütün formaları – elm, əxlaq, din, hüquq, ədəbiyyat, incəsənət və s. üzərində rəsmi inhisarını təmin etmək bu işdə ən mühüm vasitə idi.

Məktəb məhsuldar işləmək üçün vacib bilik və bacarıqlara, müəyyən əmək vərdişlərinə malik, mövcud rejimə sadiq, icraçı işçilər, kadrlar hazırlanmasında mühüm pillə idi. İstehsal, texnologiya mürəkkəbləşdikcə işçilərin ümumtexniki təhsil səviyyəsinə tələblər daha da artırdı. Hələ müharibə illərində yaranmış axşam növbəli məktəblər şəbəkəsi xeyli genişlənmişdi. 1945-ci ildə məktəblərdə buraxılış, kamal attestatı imtahanları müəyyən olunmuş, ən yaxşı oxuyan şagirdlər üçün qızıl və gümüş medallar təsis edilmişdi. 1949-cu ildən ümumi yeddiillik təhsil elan olunmuşdu. SSRİ Ali Sovetinin 1958-ci ildə qəbul etdiyi «Məktəbin həyatla əlaqəsini möhkəmləndirmək və ölkədə xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında» qanuna əsasən 1959-cu ildən səkkizillik ümumtəhsil müəyyən olundu. Yuxarı siniflərdə əmək təliminə, şagirdlərə müxtəlif ixtisaslar öyrədilməsinə geniş yer verildi. Lakin bu tədbirlər müvafiq baza, müasir müəssisələr, kadrlar çatışmadığından gözlənilən qədər səmərəli olmadı.

Bu illərdə təhsilin ruslaşdırılması istiqamətində ciddi addımlar atıldı. Dövlət idarələrində işlərin rus dilində aparılması, bu dili mükəmməl bilməyənlərin vəzifə nərdivanı ilə yüksəlmək imkanının olmaması adamlarda rus dilində təhsil almaq meylini artırmışdı. Rus məktəblərinin sayı, xüsusən şəhərlərdə xeyli artmışdı. Bu məktəblərdə Azərbaycan dilinə az saat ayrılır, çox yerdə onun tədrisi formal xarakter daşıyırdı. Onlarda tədris elə təşkil olunurdu ki, gənc nəsil milli dəyərlərə yadlaşsın. Azərbaycan məktəblərində rus dilinin tədrisinə ayrılan saatlar xeyli artırılmışdı.

Orta təhsil 1966-cı ildən ümumtəhsil elan olundu. Yuxarı siniflərdə istehsalat təlimi dayandırıldı. Texniki-peşə məktəbləri şəbəkəsi genişləndirildi. Əməyə özgələşmənin başlıca səbəbini mövcud istehsal üsulunda deyil, təlim-tərbiyədəki qüsurlarda görən dövlət 1984-cü ilin aprelində «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri» haqqında qanun qəbul edərək hamılıqla orta təhsili peşə təhsili ilə tamamlamaq, bu işdə məktəbin rolunu fəallaşdırmaq üçün yeni cəhdlər göstərdi. Lakin iqtisadi tənəzzül bu sahəyə kifayət qədər vəsait ayırmağa, maddi bazanı inkişaf etdirməyə imkan vermirdi.

Respublikada ali təhsil də xeyli inkişaf etmişdi. 1945-ci ildə Teatr İnstitutu (1968-ci ildən İncəsənət İnstitutu, 1991-ci ildə İncəsənət Uni-

versiteti), 1946-cı ildə ikiillik Rus Dili Müəllimləri İnstitutu təşkil olunmuşdu. 1948-ci ildə Pedaqoji Xarici Dillər İnstitutu (1941-ci ildə ilk dəfə təşkil olunub və həmin il də bağlanmışdı), 1950-ci ildə Politexnik İnstitutu (1991-ci ildən Texniki Universitet), 1951-ci ildə hələ 1941-ci ildə fəaliyyətini dayandırmış Xalq Təsərrüfatı İnstitutu (1991-ci ildən İqtisadi İnstitutu) yenidən açıldı. 1952-ci ildə ikiillik Rus Dili Müəllimləri İnstitutu əsasında Rus Dili və Ədəbiyyatı İnstitutu təşkil edildi. 1959-cu ildə bu institut Pedaqoji Xarici Dillər İnstitutu ilə birləşdirildi. 1971-ci ildə hər iki institut yenidən müstəqil fəaliyyət göstərməyə başladı. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil olundu. 1969-cu ildən ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan tərxis olunanlar üçün hazırlıq şöbələri yaradıldı. Ali məktəblərdə avtomatik idarəetmə sistemi, elektrotexnika, biokimya, rabitə texnikası kimi istehsalın və elmi-texniki tərəqqinin tələb etdiyi yeni bilik sahələri üzrə mütəxəssislər hazırlanmasına başlanmışdı.

Məktəblərdə tədrisin məzmunu mövcud rejimin məqsədlərinə müvafiq şəkildə müəyyən olunurdu. Bütün tələbələrə ictimai elmlər tədris edilirdi. Orta məktəblərdə 1963–64-cü tədris ilindən «İctimaiyyat», 1975–76-cı tədris ilindən «Sovet dövlətinin və hüququnun əsasları» fənni tədris olunmağa başlanmışdı. Ali məktəblərdə «Elmi kommunizm», «Sov.İKP tarixi», marksist fəlsəfə və siyasi iqtisadın tədrisinə diqqət artırılmışdı. Məktəblərdə sovet cəmiyyəti antaqonist ziddiyyətsiz, qüsurlardan xali bir ictimai quruluş kimi təqdim və təqdir edilirdi. «Azərbaycan tarixi»nə barmaqarası baxılır, bu fənn ciddi şəkildə saxtalaşdırılmış dərsliklər və proqramlar üzrə tədris olunurdu. Əvvəllər olduğu kimi, yenə də «SSRİ tarixi» əsasən Rusiyanın tarixi kimi təqdim edilirdi.

Sovet cəmiyyətində iqtisadi inkişaf sürətinin durmadan zəifləməsi ilə əlaqədar ideoloji təzyiq xeyli güclənsə də, siyasi bilikləri ilə real həyat arasında uyğunsuzluğun dərk olunması şagird və tələbələrdə, ümumiyyətlə, bütün xalqda ictimai elmlərə, onların təbliğ etdiyi quruluşa inamsızlıq yaratmışdı.

Məktəblərə bilik öyrənməyə gələnlər də çox deyildi. Müəyyən vəzifə tutmaq üçün bilik və bacarıq deyil, diplom, tanışlıq, rüşvət əsas şərt idi. Belə şəraitdə bilikli də, biliksiz də ali məktəbə can atırdı. Mək-

təblərdə, xüsusən ali və orta ixtisas məktəblərində biliklərin qiymətləndirilməsində, qəbul imtahanlarında qeyri-obyektivlik adi hala çevrilmişdi. Tapşırıqla, rüşvətlə qiymət almaq halları geniş yayılmışdı. Buna görə də istedadlı, qabiliyyətli şəxslər ali məktəblərə, elmi müəssisələrə çox çətinliklə yol tapırdılar.

Bütün bu qüsurlara baxmayaraq, Azərbaycanda geniş, çoxşaxəli, çoxpilləli təhsil şəbəkəsi mövcud idi. Onun mühüm nailiyyətləri vardı. 1990-cı ildə respublikada artıq 4534 ümumtəhsil məktəbi, 182 texniki-peşə məktəbi vardı. Bütün texniki-peşə məktəblərində 1984-cü ildən peşə ilə yanaşı, orta təhsil də verilirdi. Ümumtəhsil məktəblərində 1 milyon 409 min, texniki-peşə məktəblərində isə 96 min şagird təhsil alırdı. Müxtəlif bilik sahələri üzrə təmayüllü internat məktəblər fəaliyyət göstərirdi. Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsini və SSRİ ali hərbi məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədilə 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış internat məktəbi təşkil olunmuşdu.

Xalq təsərrüfatının müxtəlif sahələri üçün orta ixtisaslı kadrlar hazırlayan məktəblərin sayı 1990-cı ildə 77-yə çatmışdı. Onlarda 60 min nəfər tələbə təhsil alırdı. 90-cı illərin əvvəllərində Azərbaycan SSR-də artıq 17 ali məktəb vardı. Bu məktəblərdə 105 min tələbə oxuyurdu. Bakı Universitetində 12 min tələbə təhsil alır, onlara 1200 professor, müəllim dərs deyirdi. 70–80-ci illərdə SSRİ-nin 50-dən çox şəhərində 140 ali məktəbdə respublika üçün 6 mindən çox mütəxəssis kadr hazırlanmışdı. Ali məktəblər minlərlə ixtisaslı kadr hazırlamış, elmin müxtəlif sahələrinin inkişafına əhəmiyyətli təsir göstərmişdilər. Bütün təzyiqlərə baxmayaraq, Bakı Dövlət Universiteti Azərbaycan dilinin, xalqın tarix və mədəniyyətinin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, gənclərdə milli köklərə bağlılığın möhkəmlənməsində, azadlıq ideyalarının boy atıb yayılmasında çox mühüm rol oynamışdı.

80-ci illərin axırlarında respublikada yaşı 15 və ondan yuxarı olan əhalinin hər min nəfərindən 773-ü orta, 105-i isə ali təhsilli idi.

Sovet cəmiyyəti, sosialist sistemi, kommunist partiyasının, onun liderlərinin «rəhbər və istiqamətverici rolu» haqqında uydurma ehkamları elmi dünyagörüşü adı ilə beyinlərə yeritməyin mühüm vasitələrindən biri də məktəbdənkənar təhsil idi. Müharibədən sonra bu sahəyə rəhbərlik etmək üçün Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri İşi Üzrə Komitə, 1947-ci ildə isə Siyasi və El-

mi Bilikləri yayan cəmiyyət təsis olunmuşdu. Partiya, komsomol siyasi-maarifi xeyli genişlənmişdi. Partiya kadrları hazırlamaq üçün 1946-cı ildə Azərbaycan KP MK-nın ikiillik partiya məktəbi açılmışdı. Hər il orta hesabla partiya təhsili sisteminə 60-cı illərdə 150 min, 80-ci illərdə 280 min komsomol təhsili sisteminə isə müvafiq surətdə 140 min və 310 min nəfərdən çox adam cəlb olunurdu. 60-cı illərdən şəhər və kənd rayonlarında xalq universitetləri fəaliyyət göstərirdi. 80-ci illərin axırlarında onların sayı 550-ə çatmışdı.

Müharibədən sonrakı illərdə mədəni-maarif müəssisələrinin sayı xeyli çoxalmışdı. 1945–1990-cı illərdə respublikada 4 minə qədər yeni kitabxana, 2 mindən çox klub təşkil edilmiş, 2 minə qədər kinoqurğu istifadəyə verilmişdi. 1990-cı ildə burada 4605 kütləvi kitabxana, 3680 klub və mədəniyyət evi, 2164 kinoqurğu vardı. 80-ci illərin ortalarında Bakıda stereo-filmlər kinoteatrı fəaliyyətə başlamışdı. 1945–1990-cı illərdə respublikada muzeylərin sayı 9 dəfə çoxalıb 125-ə çatmışdı. 1945-ci ildə Bakıda Nizami muzeyi (sonralar Azərbaycan ədəbiyyatı muzeyi), 1955-ci ildə Moskvadakı Mərkəzi Lenin muzeyinin Bakı filialı, 1959-cu ildə Xızıda C.Cabbarlının, Şuşada Ü.Hacıbəyovun ev muzeyləri, 1964-cü ildə Bakıda «Qız qalası» muzeyi, 1972-ci ildə «Azərbaycan xalçası və tətbiqi sənət muzeyi», Sergey Yeseninin xatirə muzeyi, 1975-ci ildə Bakıda Ü.Hacıbəyovun və S.Vurğunun, 1981-ci ildə Naxçıvanda H.Cavidin, 1982-ci ildə Bakıda C.Cabbarlının, Bülbülün ev muzeyləri, onlarla yeni tarix- diyarşünaslıq muzeyləri təşkil olunmuşdu. Azərbaycan tarixi muzeyinin fondları getdikcə zənginləşir, ekspozisiyası daim təzələnirdi. 1945-ci ildə Bakıda zoologiya parkı, 70-ci illərdə Zoologiya və Arxeologiya muzeyləri (müvafiq institutların nəzdində) yaradılmışdı.

İdeoloji işdə tarixi hadisələrin təhrif olunmuş təbliğindən, ədəbiyyatdan, incəsənətdən geniş istifadə edilirdi. Rəhbərlərin yubileyləri, «Oktyabr», «1 may» bayramları təntənə ilə qeyd olunurdu. 1964-cü ilin mayında Azərbaycanın Rusiya tərəfindən işğalının 150 illiyi «xalqın tarixində ən parlaq hadisə kimi» qeyd edildi. İşğalçı XI rus ordusunun köməyi ilə Azərbaycanda dövlət çevrilişi edildiyi gün (28 aprel) inqilab günü kimi bayram olunurdu.

Kommunist partiyası şüurları iflic etmək üçün ehkamçı, cəfəng şüarlardan geniş istifadə edirdi. Sov. İKP XXI qurultayı (1959-cu il) SSRİ-də sosializmin tam və qəti qələbə çaldığını, 1970-ci ilədək ölkədə adambaşına məhsul istehsalının inkişaf etmiş kapitalist ölkələrində-

ki səviyyəyə çatdırılacağını və onları arxada qoyacağını, Sov.İKP XXII qurultayı (1961-ci il) sovet adamlarının indiki nəslinin kommunizmdə yaşayacağını elan etmişdi. 60-cı illərdə «geniş kommunizm quruculuğu», 70-ci illərdə «inkişaf etmiş sosializm cəmiyyəti» haqqında uydurmalar da ideoloji təzyiqin əsas ehkamları idi.

İrəliləmələr, nailiyyətlər geniş təbliğ olunur və qeyd edilirdi. Azərbaycan SSR 1964 və 1980-ci illərdə «Lenin», 1970-ci ildə «Oktyabr inqilabı», 1972-ci ildə «Xalqlar Dostluğu» ordenləri ilə təltif edilmiş, 1970–1982-ci illərdə 12 dəfə müxtəlif Ümumittifaq yarışlarının keçici Qırmızı Bayrağına layiq görülmüşdü.

Şəhər və kəndlərə, küçə və meydanlara, müəssisələrə rəhbərlərin, inqilabçı bolşeviklərin adlarının verilməsi də mühüm ideoloji məqsəd daşıyırdı. Yaşayış məntəqələrinin ən görkəmli yerlərində Leninə, Stalinə (50-ci illərin ortalarına qədər), başqa inqilabçılara onlarla abidələr qoyulmuşdu. Bakıda (1955-ci il, C.Qaryağdı) və Sumqayıtda (1957-ci il, Ö.Eldarov və T.Məmmədov) Leninə, M.Əzizbəyova (1977-ci il, T.Məmmədov), XI orduya (1980-ci il, T.Məmmədov), habelə Şaumyana, Dzerjinskiyə, Çaparidzeyə, Fioletova əzəmətli heykəllər, 26 Bakı komissarlarına (1958-ci ildə qorelyef və 1968-ci ildə xatirə ansamblı) abidələr ucaldılmışdı.

**Elm**

Elmin köməyi ilə iqtisadi imkanlarını, hərbi gücünü, beynəlxalq nüfuzunu artırmaq üçün sovet dövləti milli respublikalarda intellektual potensialdan daha səmərəli istifadə etməyə çalışırdı. Müharibədən sonra Azərbaycan SSR-də 6 elmi müəssisə, 1200 elmi işçi, 150 elmlər doktoru, professor, 380 elmlər namizədi, dosent vardı. Elmi potensialı səfərbər etmək üçün SSRİ XKS-nin 1945-ci il 23 yanvar tarixli qərarı ilə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı əsasında Azərbaycan SSR-də Elmlər Akademiyası təşkil olundu. Buraya respublikanın görkəmli elm xadimləri, ziyalılar (Üzeyir Hacıbəyov, Səməd Vurğun, Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, Heydər Hüseynov, Mirəli Qaşqay, Mirzə İbrahimov, Yusif Məmmədəliyev və başqaları) akademik (cəmi 16 nəfər həqiqi üzv) seçildilər. Respublika akademiyasının ilk prezidenti akademik Mirəsədulla Mirqasımov oldu. Sonralar bu elm ocağına görkəmli alimlər Yusif Məmmədəliyev (1947–1950 və 1958–1961-ci illərdə), Musa Əliyev (1950–1958-ci illərdə), Zahid Xəlilov (1962–1967-ci illərdə), Rüstəm İsmayılov (1967–1970-ci illərdə), Həsən Abdullayev (1970–1983-cü illər), Eldar Salayev (1983–1997-ci illərdə) rəhbərlik etdilər.

1990-ci ildə respublikada artıq 125 elmi idarə, 34 min nəfərdən çox elmi işçi, o cümlədən 10 mindən çox elmlər doktoru, elmlər namizədi, professor, dosent vardı. Onlar respublikada yüksək ixtisaslı elmi kadrlar yetişdirilməsində mühüm rol oynadılar. SSRİ Ali Attestasiya Komissiyasının Azərbaycanın elmi idarələrində və ali məktəblərində namizədlik və doktorluq dissertasiyalarının müdafiəsini təşkil etmək üçün onlarla ixtisaslaşdırılmış elmi şuralar fəaliyyət göstərirdi.

Respublikanın təbii sərvətlərinin, xalqın mənəvi qüvvələrinin səfərbər edilməsində vacib olan fundamental və tətbiqi elm sahələrinin inkişafına imkanlar yaradılırdı. Elm, mərkəzi maraqlandıran sahələr üzrə inkişaf edirdi. 70-ci illərin ortalarından doktorluq və namizədlik dissertasiyalarının rus dilində yazılması tələb olundu və bu, Azərbaycan elmi dilinin inkişafını xeyli ləngitdi.

Müharibədən sonrakı illərdə respublikada elmi-tədqiqat müəssisələri şəbəkəsi daha da genişləndi. 1946-cı ildə təkcə akademiyada 16, 1990-cı ildə isə 20 elmi-tədqiqat institutu, onlarla elmi idarə və mərkəz fəaliyyət göstərirdi. Konstruktor təcrübə-istehsal təsərrüfatları olan 6 elm-istehsalat kompleksi formalaşmışdı. Neft sənayesi, kənd təsərrüfatı, tikinti, səhiyyə və başqa sahələr üzrə nazirlik və baş idarələrin iri elmi-tədqiqat müəssisələri vardı. 1946-cı ildə təşkil olunmuş Elmi-Tədqiqat Oftolmologiya İnstitutu ölkədə sanballı elm ocaqlarından biri kimi tanınmışdı. Akademiyanın Şamaxı Astrofizika Rəsədxanası (1960-cı ildə yaradılıb) SSRİ-nin ən böyük astronomik mərkəzlərindən biri idi. 1975-ci ildən «Xəzər» Elm Mərkəzində respublikanın təbii ehtiyatlarının kosmik tədqiqi aparılırdı. 1978-ci ildə Bakıda Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi fəaliyyətə başladı.

Neft geologiyasının əsası Azərbaycanda qoyulmuşdu. Faydalı yataqların aşkar edilməsi və istismar olunmasının mühüm elmi-texniki problemləri öyrənilmişdi. Azərbaycanda 300-dən çox neft, qaz, faydalı qazıntı, tikinti materialları yataqları, çoxlu mineral su mənbələri aşkar edilmişdi. Xəzər dənizinin Azərbaycan sektorunda 120-dək perspektivli neft və qaz yataqları tapılmışdı. Bu sahədə görkəmli alimlər Mirəli Qaşqay, Şəfaət Mehdiyev və başqaları mühüm rol oynamışdılar. Respublikanın bütün ərazisinin geoloji şəkli çıxarılmış, 7 cildlik «Azərbaycan SSR-in geologiyası» adlı fundamental əsər yaradılmışdı. Geoloji, geotektonik dərinlik yataqları, coğrafi və başqa xəritələr, atlaslar, o cümlədən «Azərbaycan SSR atlası» tərtib edilmişdi.

Bakı «neft akademiyası» adlanırdı. Azərbaycanın neft kimyaçıları ölkədə ilk dəfə olaraq «qaynaq layda» baş verən prosesləri öyrənmiş, onlara əsaslanan texnologiyalar üzrə işləyən qurğular hazırlamışdılar. Neftçıxarma texnologiyası, yeraltı hidrodinamika sahəsində görkəmli alim, akademik Azad Mirzəcanzadənin və onun yaratdığı elmi məktəbin nailiyyətləri böyük idi. Geologiya-mineralogiya elmləri doktoru Fərman Salmanovun rəhbərliyi altında Qərbi Sibirin neft və qaz yataqları kəşf olunmuşdu. Akademik Yusif Məmmədəliyev və onun yaratdığı elmi məktəbin nümayəndələri aviasiya benzini komponentlərinin hazırlanması və yüksək qatılığa malik birləşmələrin sintezi üçün səmərəli metodlar işləyib hazırlamışdılar. Azərbaycan astronomlarının elmi işləri bütün dünyada tanınırdı. Beynəlxalq Astronomiya İttifaqının qərarı ilə görkəmli astronom Nadir İbrahimovun şərəfinə Mars planeti kraterlərindən birinə «İbrahimov krateri», üç ostroitə «Azərbaycan», «Nizami Gəncəvi» və «ŞAR» (Şamaxı Astrofizika Rəsədxanası) adı verilmişdi. Riyaziyyat və mexanika sahəsində tanınmış elmi məktəblər yaradılmışdı. Fiziklər yeni yarımkeçirici materiallar, çoxtəbəqəli quruluşlar almış, şüalanma qəbulediciləri, elektrik və optik yaddaşlı aşırıcı qurğular yaratmışdılar. Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyində SSRİ-də ilk dəfə olaraq ətraf mühitə operativ nəzarət edən peykaltı nəzarət-ölçü sistemləri yaradılmışdı.

1958-ci ildə Turyançay, 1965-ci ildə Göygöl, 1968-ci ildə Pirqulu, 1969-cu ildə Hirkan və Şirvan, 1974-cü ildə Basutçay, 1978-ci ildə Ağgöl, Qarayazı, 1981-ci ildə İsmayıllı, 1988-ci ildə İlisu qoruqları yaradıldı. Azərbaycanın «Qırmızı kitab»ı hazırlandı. Bioloqlar 8 cildlik «Azərbaycanın florası», 4 cildlik «Azərbaycan mikroflorası», «Azərbaycanın heyvanat aləmi», «Azərbaycan SSRİ-nin torpaqları adlı dəyərli əsərlər çap etdirmişdilər, akademik İmam Mustafayev «Sevinc», «Zoğal buğda», «Qızıl buğda», akademik Cəlal Əliyev «Şiraslan», «Əlincə», «Vüqar», «Tərtər» və b. məhsuldar taxıl növləri, akademik Firuz Məlikov məşhur «Azərbaycan dağ merinosu» qoyun cinsi yetişdirmişdilər. Onlarla yeni, məhsuldar pambıq, barama, çay, zeytun, üzüm, digər meyvə və tərəvəz növləri yaradılmışdı.

Görkəmli alimlər Tofiq İsmayılovun kosmik tədqiqatların, Xudu Məmmədovun kristalloqrafiyanın, Zahid Xəlilov, Fərəməz Maqsudovun riyaziyyatın, Həsən Abdullayev, Çingiz Cuvarlının fizikanın, Mehdi Mehdizadənin pedaqogikanın, Əbdül Əlizadənin, Ağabəy Sultanovun psixologiyanın və psixiatriyanın, Ümnisə Musabəyova, Sona Vəli-

xanlı, Zərifə Əliyevanın oftalmologiyanın, Mirəsədulla Mirqasımov, Mirməmməd Cavadzadənin urologiyanın, Həsən Əliyevin torpaqşünaslığın, Budaq Budaqovun geomorfologiyanın, Cəlal Əliyevin bitki fiziologiyasının, Validə Tutayuqun Qafqaz floraşünaslığının inkişafında böyük xidmətləri olmuşdur.

Humanitar elmlər sahəsində də mühüm nailiyyətlər əldə edilmişdi. Üzeyir Hacıbəyovun «Azərbaycan xalq musiqisinin əsasları», Heydər Hüseynovun «XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən», Feyzulla Qasımzadənin «XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin oçerkləri», Əbdüləzəl Dəmirçizadənin «Kitabi-Dədə Qorqud» dastanının dili», Həmid Araslının «XVII–XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi», «Nəsimi» əsərləri, İsmayıl Hüseynovun, Zülfəli İbrahimovun, Əlövsət Quliyevin, Əbdülkərim Əlizadənin, Ziya Bünyadovun, Əlisöhbət Sumbatzadənin, Cəmil Quliyevin, İqrar Əliyevin, Sara Aşurbəylinin, Mahmud İsmayılovun, Teymur Bünyatovun, Tofiq Köçərlinin və başqalarının Azərbaycan tarixinə, Məmməd Arifin, Cəfər Xəndanın, Əziz Şərifin, Mir Cəlalın, Abbas Zamanovun, Məmməd Cəfərin, Bəkir Nəbiyevin, Yaşar Qarayevin, Kamal Talıbzadənin Azərbaycan ədəbiyyatına, Məmmədağa Şirəliyevin, Zərifə Budaqovanın, Ağamusa Axundovun, Yusif Seyidovun, Əlövsət Abdullayevin və başqalarının Azərbaycan dilinə, Firidun Köçərlinin, Fuad Qasımzadənin, Cəmil Əhmədlinin, Məqsəd Səttarovun və başqalarının Azərbaycanda fəlsəfi fikrin inkişafına dair tədqiqat işləri xalqın mənəvi sərvətlərinə çevrilmişdi. Bu illərdə üçcildlik «Azərbaycan ədəbiyyatı tarixi», üçcildlik (dörd kitabda) «Azərbaycan tarixi», «Cənubi Azərbaycan tarixinin oçerkləri», «Cənubi Azərbaycan tarixinin məsələləri», dördcildlik «Müasir Azərbaycan dili», «Azərbaycan fəlsəfi fikir tarixinin oçerkləri», «Azərbaycan memarlığının tarixi», «Azərbaycan etnoqrafiyası» (I cild) və başqa əsərlər çap olunmuşdu. Qobustan qayaüstü təsvirlərinin (arxeoloq İ.Cəfərzadə), Mingəçevir arxeoloji abidələrinin (arxeoloq S.Qaziyev), Azıx mağarasında 350–400 min il bundan əvvəl yaşamış qədim insan qalıqlarının (arxeoloq M.Hüseynov) orta əsr Şabran şəhərinin (arxeoloq R.Göyüşov) və başqa abidələrin aşkar və tədqiq edilməsi tarix elminə görkəmli töhfələr olmuşdu.

Lakin elmlərin, xüsusən ictimai elmlərin inkişafına hakim ideologiyanın güclü təzyiqi ləngidici təsir göstərirdi. Xüsusən Azərbaycan tarixinin, ədəbiyyatının, incəsənətinin sovet dövrü birtərəfli öyrənilir, mövcud dərin ziddiyyətlər və onların kökü, ictimai quruluşun, təsərrü-

fatçılıq sisteminin qüsurları ilə bağlı səbəbləri açıqlanmırdı. Nailiyyətlər, ancaq «Kommunist partiyasının diqqət və qayğısı» ilə əlaqələndirilirdi. Bununla belə, bütün təzyiqlərə baxmayaraq, Ziya Bünyadov, Mahmud İsmayılov və başqaları təhrif olunmuş tarixi həqiqətləri imkan daxilində üzə çıxarmağa, saxtakarlıqlarla mübarizə etməyə çalışırdılar. Respublikada elmin maddi-texniki bazasının inkişafına lazımi qədər vəsait ayrılmırdı. 70-80-ci illərdə burada elmə milli gəlirin bir faizindən də az (SSRİ-də 6 faiz idi) vəsait sərf olunurdu. Alimlərin əməyi kifayət qədər qiymətləndirilmirdi. Tədqiqat aparmaq üçün müasir avadanlıq, hesablama texnikası, cihazlar çatışmırdı. Alimlərə xarici ədəbiyyatdan, arxivlərdən istifadə etmək, beynəlxalq aləmə çıxmaq çətin idi.

**Din**

Din açıqca sıxışdırıldığından əhalinin çoxu ona gizlində inanır, mənəvi parçalanma baş verirdi. 40-cı illərdə respublikada cəmi 17 məscid və 70 nəfərə qədər, əsasən azsavadlı və yaşlı din xadimləri vardı. Bu, təhsil və mədəni səviyyəsi, bilik dairəsi xeyli artmış dindarların tələbatını ödəyə bilmirdi. Xüsusi səylərə baxmayaraq, ideoloji aparatın ateist təbliğatı səmərə vermirdi. Xalq milli ənənələrini qoruyub saxlamağa çalışırdı. Dini bayram və mərasimlər yarımleqal şəkildə qeyd olunurdu. Respublikadakı yüzdən çox müqəddəs pir və ocaqdan 25-i, o cümlədən «Ətağa» «Əli ayağı» (Bakı), «Babaratma» (Şəki), «Əshabi-Kəhf», «İmamzadə» (Babək), «Əli pəncəsi» (Ağdam), «Soltan xəlac» (Quba) və başqaları bütün maneələrə baxmayaraq, əsasən yaşlı və xəstə adamlar tərəfindən fəal ziyarət olunurdu. 60-cı illərdə Azərbaycanda 40-dan çox qeydə alınmamış müsəlman, habelə digər dini birliklər vardı. Müsəlman birliklərindən 12-si gizli fəaliyyət göstərirdi. 30-dan çox müsəlman dini birliyi isə ancaq məhərrəmlik vaxtı (50 gün ərzində) fəaliyyət göstərirdi. Dini birlikləri nəzarət altında saxlamaq üçün Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1976-cı ildə «Azərbaycan SSR-də dini birliklər haqqında Əsasnamə» qəbul etdi. Dini birliklərin bir neçəsi rəsmi məscidə çevrilə bildi, qalanları isə fəaliyyətini dayandırmalı oldu.

**Kütləvi informasiya vasitələri**

Kommunist ideologiyası kütləvi informasiya vasitələrini, o cümlədən dövri mətbuatı tam inhisarı altında saxlayırdı. Respublikada müharibədən sonrakı ilk illərdə 84 qəzet, 23 jurnal və başqa dövri nəşrlər çap olunurdu. 1952-ci ildən «Kirpi» jurnalı, 1958-ci ildən «Bakı», 1963-cü ildən «Baku» axşam qəzetləri, 1961-ci ildən «Elm və həyat», 1967-ci ildən

«Ulduz», 1975-ci ildən «Azərbaycan təbiəti» jurnalları, 1969-cu ildən «Qobustan» incəsənət almanaxı nəşr olunmağa başlandı. 1951-ci ildən «Azərbaycan qadını», 1954-cü ildən «Literaturnıy Azerbaydjan» jurnalları yenidən fəaliyyətlərini davam etdirdilər. Uşaqlar üçün 1946-cı ildən «Pioner», 1958-ci ildən «Göyərçin» jurnallarının nəşrinə başlandı. Bir sıra qəzet və jurnallar yeni adla nəşr edilirdi. 1945-ci ildən komsomolun mətbuat orqanları «Azərbaycan gəncləri» və «Molodej Azerbaydjana» adlandırıldı. «Müəllim qəzeti» 1946-cı ildən «Azərbaycan müəllimi», «Vətən uğrunda» (əvvəllər «Revolyutsiya və kultura» adlanırdı) jurnalı, 1946-cı ildən «İnqilab və mədəniyyət», 1953-cü ildən isə «Azərbaycan», 1953-cü ildən «Ədəbiyyat» qəzeti «Ədəbiyyat və incəsənət», «Azərbaycan kolxozçusu» qəzeti, «Azərbaycan kənd təsərrüfatı», 1960-cı ildən «Sovet kəndi», 1991-ci ildən «Bərəkət» adı altında çap olundu. Ümumiyyətlə, 1990-cı ildə respublikada artıq 168 qəzet, 91 jurnal və digər dövri nəşrlər çap olunurdu.

Bu illərdə respublikada kitab nəşri də xeyli genişlənmişdi. 1988-ci ildə 1349 adda və ya 1945-ci ildəkindən 3,4 dəfə çox kitab və kitabça nəşr olunmuşdu. Partiyanın sənədləri, «marksizm-leninizm klassiklərinin» əsərləri tərcümə və böyük tirajla çap edilir, geniş təbliğ olunurdu. 1976–1987-ci illərdə böyük informasiya tutumuna malik və yarandığı dövrün ruhunu əks etdirdiyi üçün, şübhəsiz, qiymətli olan X cildlik «Azərbaycan Sovet ensiklopediyası» (Baş redaktoru akademik Cəmil Quliyev) nəşr edilmişdi. 80-ci illərdə üççildlik «Uşaq ensiklopediyası» (Baş redaktoru akademik Cəmil Quliyev) hazırlanmış və iki cildi çap olunmuşdu. 70–80-ci illərdə klassik Azərbaycan şair və yazıçılarının əsərləri külliyyatı, 20 cildlik klassik Azərbaycan ədəbiyyatı kitabxanası, 50 cildlik dünya uşaq ədəbiyyatı kitabxanası, 100 cildlik dünya ədəbiyyatı kitabxanası, «Azərbaycan nağılları» çap edilmişdi. Görkəmli şair və yazıçıların yubileylərinin təntənə ilə qeyd olunması, poeziya günlərinin keçirilməsi ənənəyə çevrilmişdi. Bütün bunlar xalqın milli oyanışına əhəmiyyətli təsir göstərmişdir.

Azərbaycan radiosu və televiziyası xeyli inkişaf etmişdi. Respublika radiosu müxtəlif dalğalarda hər gün I proqram, «Araz» və «Stereo» proqramları ilə müxtəlif dillərdə 37 saat veriliş verirdi. Respublika televiziyası sovet həyat tərzini geniş təbliğ edirdi.

**Ədəbiyyat** Azərbaycan ədəbiyyatında tənqidi realizm, mövcud reallıqlara qarşı etiraz motivləri hələ müharibə illərində görünməyə başlamışdı. Süleyman Rəhimovun «Mehman» povestində, Sə-

məd Vurğunun «Dörd söz», «Ürək» şeirlərində bu motivlər aydın hiss olunurdu. Bu günün problemlərini işıqlandırmağa, xalqı vətənpərvərlik, azadlıq ruhunda tərbiyə etməyə çalışan bəzi şair və yazıçılar tarixi mövzulara müraciət edirdilər. M.S.Ordubadi «Qılınc və qələm» romanında müstəqil, vahid Azərbaycan dövlətinin qurulması üçün xalqın qılıncı ilə qələminin, iqtidarı ilə ziyalısının birliyinin vacib olduğunu göstərirdi.

Müharibədən sonrakı illərdə Azərbaycan ədəbiyyatında «konfliktsizlik» «saf sənət», «saf forma» kimi uydurma cərəyanlar meydana gəlmişdi. Səməd Vurğunun «Muğan» poeması poeziyada «konfliktsizlik» cərəyanının ən parlaq nümunəsi idi. C.Məcnunbəyovun, M.Təhmasibin pyeslərində ziddiyyətlər mübahisədən yuxarı qalxmırdı, bu, guya antaqonist ziddiyyətlər olmayan sosializm cəmiyyətində qanunauyğun hal kimi qiymətləndirilirdi.

Kommunist partiyası yaradıcı ziyalıları həm tənqidi realizmə uymaqda, həm də kosmopolitizmdə, Avropa mədəniyyətinə pərəstişdə, formalizmdə və konfliktsizlikdə ittiham etdi. Yaradıcı ziyalılar, o cümlədən şair və yazıçılar partiyanı, rəhbərləri, 50-ci illərin ortalarına qədər şəxsən Stalini, mövcud sistemi təbliğ etməyə, onun nailiyyətlərini şişirtməyə şirniləndirilirdilər. Azərbaycan ədəbiyyatında «Zamanın bayraqdarı», «Rəhbərə salam», (S.Vurğun), «Biz kommunistlərik», «Mərkəzi Komitə» (S.Rüstəm), «Lenin» (R.Rza) və bu kimi başqa əsərlər belə meydana gəlmişdi.

Siyasi həyatda Stalinin vəfatından sonra müəyyən mülayimləşmə yaransa da, yaradıcı ziyalılara yenə partiyanın əsgəri kimi yanaşırdılar. Ziyalıları N.S.Xruşşov partiyanın «avtomatçıları» adlandırırdı.

Lakin bütün təzyiqlərə baxmayaraq, ədəbiyyatda həyat hadisələrinə tənqidi baxış formalaşmaqda idi. S.Vurğunun «Aygün», M.Hüseynin «Qara daşlar», «Alov», «Yeraltı çaylar dənizə axır», M.İbrahimovun «Böyük dayaq», Ə.Vəliyevin «Gülşən», Ə.Məmmədxanlının «Şirvan gözəli», İ.Şıxlının «Ayrılan yollar», İ.Əfəndiyevin «Söyüdlü arx», «Sarıköynəklə Valehin nağılı», «Sən həmişə mənimləsən», Bayram Bayramovun «Ayrılıq», V.Babanlının «Vicdan susanda», İ.Qasımovun «İnsan məskən salır», H.Seyidbəylinin «Telefonçu qız» və başqa əsərlərdə konflikt insanların şəxsi keyfiyyətləri arasındakı ziddiyyətlər üzərində qurulurdu. Lakin bu keyfiyyətlərin mövcud ictimai mühitdən doğması, ictimai-iqtisadi sistemə bağlılığı, asılılığı açıqlanmırdı.

60-cı illərin əvvəllərindən Sovet cəmiyyətindəki siyasi «mülayimləşmə» mənəvi əxlaqi problematikası ilə fərqlənən «yeni nəsil»in «alt-

mışıncılar» ədəbi məktəbinin meydana gəlməsinə şərait yaratmışdı. Cəmiyyətdəki dərin, barışmaz ziddiyyətləri, insan hüquqlarının tapdalanmasını, qanunsuzluğun baş alıb getməsini, bəşəri və milli dəyərlərin deformasiyalarını, saxtakarlığı və başqa eybəcərlikləri mövcud sistemin labüd nəticəsi kimi tədqim edən əsərlər də meydana gəlirdi. Rəsul Rza «Sarı dana» əsərində Sovet cəmiyyətində insanın mal-qaradan da ucuz tutulduğunu göstərir, bu cəmiyyətin qeyri-humanist xarakterini ifşa edir. Cəmiyyətdə, ailədə, nəsillər arasında olan ziddiyyətlərin müxtəlif aşkarlıq formaları və əsas səbəbləri S.Rəhmanın «Yalan», İ.Hüseynovun «Doğma və yad adamlar», «Yanar ürək», «Tütək səsi», «Kabus», Ə.Əbülhəsənin «Tamaşa qarının nəvələri», M.Süleymanlının «Dəyirman», «Köç», Ə.Əylislinin «Kür qırağının meşələri», Anarın «Molla Nəsrəddin–66», «Ağ liman», «Yaxşı padşahın nağılı», Bayram Bayramovun «Karvan yolu», Elçinin «Ağ dəvə», «SOS», İ.Əfəndiyevin «Büllur sarayda», S.Əhmədovun «Toğana», Y.Səmədoğlunun «Qətl günü» əsərlərində məharətlə açıqlanırdı. Ədiblər xalqı öz milli dəyərləri əsasında, vətənpərvərlik ruhunda tərbiyə etməyə çalışırdılar. Ə.Məmmədxanlının «Şərqin səhəri», «Od içində», İ.Şıxlının «Dəli Kür», İ.Hüseynovun «Məhşər», Qabilin «Nəsimi», F.Kərimzadənin «Axırıncı aşırım», İ.Əfəndiyevin «Mahnı dağlarda qaldı», «Xurşidbanu Natəvan», «Şeyx Məhəmməd Xiyabani», Bayram Bayramovun «Karvan yolu», Elçinin «Mahmud və Məryəm», Ç.Hüseynovun «Fətəli fəthi» kimi əsərləri, Ə.Cəfərzadənin, C.Bərgüşadın və başqalarının tarixi romanları bu baxımdan mühüm rol oynayırdı. Bəxtiyar Vahabzadənin 1958-ci ildə yazdığı «Gülüstan» poeması gizli şəkildə yayılır, əldən-ələ gəzirdi. Şair 1967-ci ildə iqtidarın Azərbaycan dilinə ögey münasibətinə üsyan edərək «latın dili» şeirində yazırdı:

*Söylə necə azadsan ki,*
*Komalarda dustaq olub ana dilin?*
*Böyük-böyük məclislərdən,*
*İtirilib ilim-ilim?*

Bəxtiyar Vahabzadə oxucusunu dövrandan küsməyə yox, mübariz olmağa, vətəndaş olmağa çağırır.

Xalqın zəngin qaynaqları olan mənəvi aləmi öz poetik əksini Əliağa Vahidin, Osman Sarıvəllinin, Mirvarid Dilbazinin, Məmməd Arazın, Hüseyn Arifin, Qasım Qasımzadənin, Musa Yaqubun, Nəbi Xəzrinin, Xəlil Rzanın, Nəriman Həsənzadənin və başqalarının əsərlə-

rində ustalıqla tapmışdı. Bəxtiyar Vahabzadənin fəlsəfi poeziyası xalqa olduqca yaxın idi. Vahidin qəzəlləri geniş yayılmışdı. Dövrün qüsurları şifahi xalq ədəbiyyatının meyxana janrında, əsasən Bakı kəndlərində özünəməxsus şəkildə tənqid olunurdu. Yazıçı Maqsud İbrahimbəyovun əsərləri Azərbaycan kinodramaturgiyası ənənələrini novatorluqla inkişaf etdirirdi. 1962-ci ildən başlayaraq hər ilin may ayında M.Ə.Sabir poeziya günləri keçirilməsi ənənəsi yaranmışdı.

Milli şüurun oyanmasında Cənub mövzusunda əsərlərin xüsusi əhəmiyyəti vardı. Azərbaycanın böyük şairi Seyid Məhəmmədhüseyn Şəhriyarın 1954-cü ildə yazdığı «Heydərbabaya salam» poeması bütün respublikada geniş əks-səda doğurmuşdu. Süleyman Rüstəmin Cənub mövzusunda yazdığı silsilə şeirləri böyük poetik və siyasi təsir gücünə malik idi. M.İbrahimovun «Gələcək gün», «Pərvanə», P.Makulunun «Səttarxan» romanları maraqla qarşılanmışdı. Balaş Azəroğlunun, Əli Tudənin, Söhrab Tahirin, Mədinə Gülgünün, Hökümə Billurinin əsərlərində parçalanmış vətən, ayrılıq, həsrət mövzuları əsas yer tuturdu.

**İncəsənət** Müharibədən sonrakı illərdə musiqi sənəti də xeyli inkişaf etmişdi. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov musiqi obrazları təsvir vasitələrinin orijinallığı, dərin məzmunu ilə fərqlənən «Nizami» kantatasını yazdı. Onun hələ müharibə illərində «Sənsiz» və «Sevgili canan» əsərləri ilə əsasını qoyduğu romans – qəzəl musiqi janrı geniş yayılmışdı. Üzeyir Hacıbəyov məktəbinin davamçıları Qara Qarayevin «Leyli və Məcnun» simfonik poeması, «Yeddi gözəl», «İldırımlı yollarla» biletləri, «Don Kixot» simfonik qravürləri, 3-cü simfoniyası, Fikrət Əmirovun «Şur», «Kürd ovşarı», «Gülüstan–Bayatı Şiraz» simfonik muğamları, «Azərbaycan süitası», «Sevil» operası, «Azərbaycan kapriççiosu», «Nəsimi haqqında dastan» vokal-xoreoqrafik poeması, «1001 gecə» və «Nizami» baletləri, Soltan Hacıbəyovun «Karvan» simfonik lövhəsi, «Gülşən» baleti, Niyazinin «Rast» simfonik muğamı, «Çitra» baleti, Arif Məlikovun «Məhəbbət əfsanəsi» və «İki ürək dastanı» baletləri, «Axırıncı aşırım», «Metamorfozalar» simfonik poemaları, Cahangir Cahangirovun «Arazın o tayında» vokal simfonik muğamı «Füzuli», «Nəsimi» kantataları Azərbaycan musiqisini daha da şöhrətləndirdi. Simfonik muğam janrının meydana gəlməsi Azərbaycan xalqının Avropa musiqisinə, Avropanın Azərbaycan musiqisinə marağının artmasına şərait yaratdı.

Bəstəkar Şəfiqə Axundovanın «Gəlin qayası» operası, Əşrəf Abbasovun «Qaraca qız», Aqşin Əlizadənin «Babək» baletləri, Cövdət Ha-

cıyevin, Vasif Adıgözəlovun, Xəyyam Mirzəzadənin simfonik əsərləri, Fikrət Əmirovun, Səid Rüstəmovun, Süleyman Ələsgərovun, Rauf Hacıyevin, Zakir Bağırovun, Emin Sabitoğlunun komediyalara yazdığı musiqilər xalq tərəfindən böyük maraqla qarşılandı. Qəmbər Hüseynlinin, Tofiq Quliyevin, Ağabacı Rzayevanın, Ələkbər Tağıyevin, Emin Sabitoğlunun, Polad Bülbüloğlunun, Oqtay Rəcəbovun, Cavanşir Quliyevin mahnıları geniş yayılmışdı.

Respublikada ifaçılıq sənəti də inkişaf etmişdi. Xalqın sevimli müğənniləri Xan Şuşinski, Seyid Şuşinski, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Sara Qədimova, Zeynəb Xanlarova, Həqiqət Rzayeva, Əlövsət Sadıqov, Gülxar Həsənova, Tükəzban İsmayılova, Arif Babayev, Əbülfət Əliyev, Rübabə Muradova, Qədir Rüstəmov, Alim Qasımov, Səkinə İsmayılova və onlarla başqalarının vokal sənəti, tarzənlər Əhməd Bakıxanov, Bəhram Mansurov, Hacı Məmmədov, Həbib Bayramov, Əhsən Dadaşov, Ramiz Quliyev, qarmonçalan Teyyub Dəmirov, kamançaçalan Habil Əliyevin ifaçılığı özünəməxsus zəngin milli kaloriti ilə seçilirdi.

Yüksək sənətkarlığı ilə bütün dünyada şöhrət qazanmış Niyazi Azərbaycan milli dirijorluq məktəbinin formalaşmasında və inkişafında mühüm rol oynamışdı.

Rəşid Behbudovun rəhbərliyi ilə «Mahnı teatrı», İslam Rzayevin başçılığı altında «Muğam teatrı» təşkil olunmuşdu.

Azərbaycan və Qərb musiqisi ənənələri muğənnilər Müslüm Maqomayevin, Lütfiyar İmanovun, Fidan və Xuraman Qasımovaların, məşhur pianoçular Fərhad Bədəlbəylinin, Vaqif Mustafazadənin və başqalarının sənətində ustalıqla qaynayıb-qarışırdı. Azərbaycan musiqisi, ifaçılıq sənəti bütün dünyada maraqla qarşılanırdı.

Respublikanın teatr və kino sənəti də böyük inkişaf yolu keçmişdi. Azərbaycan rejissorluq məktəbinin ən yaxşı ənənələrini, milli özünəməxsusluğunu Adil İsgəndərov, Tofiq Kazımovski, Mehdi Məmmədov və başqaları müvəffəqiyyətlə inkişaf etdirirdilər. Teatrlarda dünya və Azərbaycanın klassik və müasir dramaturqlarının yüzlərlə əsərləri tamaşaya qoyulmuşdu. Görkəmli aktyorlar Ələsgər Ələkbərov, Mərziyyə Davıdova, İsmayıl Osmanlı, Hökumə Qurbanova, Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya, İsmayıl Dağıstanlı, Leyla Bədirbəyli, Möhsün Sənani, Rza Əfqanlı, Mustafa Mərdanov, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Məlik Dadaşov, Əli Zeynalov, Məmmədrza Şeyxzamanov, Əliağa Ağayev, Sofa Bəsirzadə və

onlarla başqaları Azərbaycan səhnəsində yüzlərlə orijinal və parlaq obrazlar yaratmışdılar.

Azərbaycan səhnəsində 60–80-ci illərdə Həsən Turabov, Amaliya Pənahova, Səməndər Rzayev, Fuad Poladov, Səyavuş Aslan, Yaşar Nuri, Hacıbaba Bağırov, Mikayıl Mirzə, Arif Quliyev, Hamlet Xanızadə, Əlabbas Qədirov, Cahangir Novruzov və başqalarının təmsil etdiyi yeni, istedadlı bir nəsil gəlmişdi.

1945-ci ildə lentə alınan «Arşın mal alan» (rejissorlar R.Təhmasib və N.Leşenko) filmi ilə Azərbaycan kinematoqrafı dünya ekranlarına çıxdı. Milli kino sənətinin 1956-cı ildə «O olmasın, bu olsun» (rejissor H.Seyidzadə), 1958-ci ildə «Uzaq sahillərdə» (rejissor T.Tağızadə), 1970-ci ildə «Yeddi oğul istərəm» (rejissor T.Tağızadə), 1959-cu ildə «Ögey ana» (rejissor H.İsmayılov) kimi uğurlu əsərləri meydana gəldi. Bu illərdə çəkilmiş filmlərdə xalqın tarixi keçmişi, yüksək mənəvi dəyərləri, habelə ictimai reallıqlar, onların doğurduğu bəzi eybəcərliklər öz əksini tapırdı. «Nəsimi» (1973-cü il, rejissor H.Seyidbəyli), «Babək» (1979-cu il, rejissor E.Quliyev), «İstintaq» (1979-cu il, rejissor R.Ocaqov), «Axırıncı aşırım» (1971-ci il, rejissor K.Rüstəmbəyov), «Dədə Qorqud» (1975-ci il, rejissor T.Tağızadə), «Tütək səsi» (1975-ci il rejissor, R.Ocaqov), «Ulduzlar sönmür» (1970-ci il, rejissor Ə.İbrahimov), «Yaramaz» (1989-cu il, rejissor V.Mustafayev), «Lətifə» (1990-cı il, rejissor N.Mirzəyev) və başqa filmlər bu baxımdan daha maraqlı idi. Azərbaycan cizgi filmləri yaradılmasında rejissorlar B.Əliyev və N.Məmmədovun böyük xidmətləri vardı. Bu illərdə Həsən Məmmədov, Rasim Balayev, Şəfiqə Məmmədova və başqalarının təmsil etdiyi istedadlı kino aktyorları nəsli yetişmişdi.

Azərbaycan rəssamlıq məktəbi daha da inkişaf etməkdə idi. Rəssamların, heykəltəraşların yaradıcılığına partiya öz ideallarının əyani təşviqat vasitəsi kimi yanaşsa da, müxtəlif təzyiq vasitələri ilə onları bu ideallara xidmətə təhrik etsə də, istedadlı fırça və tişə ustaları yetişmiş, bəşəri idealları tərənnüm edən yüzlərlə əsər yaranmışdı. Görkəmli rəssam Səttar Bəhlulzadənin «Qudyalçay vadisi», «Kəpəzin göz yaşları», «Şəlalə», «Xəzər üzərində axşam» mənzərələri milli rəngkarlığın ən gözəl nümunələri idi. Tahir Salahovun «Səhər qatarı», «Bəstəkar Qara Qarayevin portreti», «Təmirçilər», «Xəzər üzərində», «Ramana kəndi» və başqa əsərləri bədii əlvanlığı, estetik kamilliyi, müasirliyi və novatorluğu ilə səciyyələnirdi. Mikayıl Abdullayevin, Vəcihə Səmədovanın, Salam Salamzadənin, Toğrul Nərimanbəyovun, Tağı Tağıyevin,

Maral Rəhmanzadənin, xalçaçı rəssamlar Lətif Kərimovun, Kamil Əliyevin, plakat ustaları Elmira Şahtaxtinskayanın, Hacıağa Nəzərovun və başqalarının əsərləri sənətkarlıq baxımından yetkin və təkrarolunmaz idi.

Görkəmli heykəltəraşlar Fuad Əbdürrəhmanov «Nizami Gəncəvi» (Gəncədə 1946-cı ildə, Bakıda 1949-cu ildə qoyulub), «Azad qadın» (1960-cı il), «Səməd Vurğun» (1961-ci il), Cəlal Qaryağdı «M.Ə.Sabir» (1958-ci il), «N.Nərimanov» (1972-ci il), Ömər Eldarov «Natəvan» (1960-cı il), Tokay Məmmədov «Üzeyir Hacıbəyov» (1960-cı il), Ömər Eldarov və Tokay Məmmədov «Füzuli» (1962-ci il), Tokay Məmmədov və İbrahim Zeynalov «Nəsimi» (1980-ci il), Mirələsgər Mirqasımov «Cəlil Məmmədquluzadə» (1974-cü il, Naxçıvan), «Cəfər Cabbarlı» (1982-ci il) kimi dərin ifadəli, möhtəşəm sənət əsərləri yaratmışdılar.

# XV FƏSİL

# CƏNUBİ AZƏRBAYCAN İRAN İNQİLABI DÖVRÜNDƏ (1978–1979-cu illər)

## § 1. İnqilab ərəfəsində Cənubi Azərbaycanda sosial-siyasi vəziyyət

1941–1946-cı illərdə İranda (Cənubi Azərbaycanda və Kürdüstanda) milli-azadlıq hərəkatları yatırıldıqdan az sonra ölkədə ingilislərin inhisarında olan neft sənayesinin milliləşdirilməsi uğrunda İran xalqlarının mübarizəsi başlandı. Milli burjuaziyanın başçılıq etdiyi həmin 1949–1953-cü illər hərəkatı[1], eyni zamanda ölkənin ictimai-siyasi həyatının demokratikləşdirilməsi, İranda hökm sürən siyasi qadağanların ləğv edilməsi uğrunda gedən mübarizə idi. Bu mübarizədə Cənubi Azərbaycan fəal iştirak etmişdir, Təbriz döyüşən Tehran, İsfahan, Əhvaz və b. şəhərlər cərgəsində olmuşdur. Hərəkat beynəlxalq imperializmin (ilk növbədə ABŞ və İngiltərə) bilavasitə yardımı ilə qan dəryasında boğuldusa da, İran xalqlarının həmin illərdəki mübarizəsi ölkənin ictimai-siyasi və iqtisadi həyatının sonrakı inkişafına güclü təsir göstərdi.

1949–1953-cü illər hərəkatı nəticəsində İngiltərənin ölkənin neft sənayesi üzərində inhisarına son qoyulmasına, daha sonralar bu mühüm sahənin milliləşdirilməsi üçün əsas yaranmasına baxmayaraq, İranın ictimai-siyasi həyatında hökm sürən ziddiyyətlər aradan qaldırılmadı. Ölkəni, xüsusilə Cənubi Azərbaycanı 50-ci illərin sonu 60-cı illərin əvvəllərində güclü kəndli çıxışları bürüdü. Sosial partlayışın baş verə biləcəyi artıq hakimiyyətdə olanlara da aydın

---

[1] Hərəkatın lideri 1949-cu il oktyabrın 23-də təşkil olunmuş Milli Cəbhə adlanan milli burjuaziyaya mənsub siyasi təşkilatın başçısı doktor Məhəmməd Müsəddiq idi. D-r M. Müsəddiq 1951–1953-cü illərdə müəyyən fasilələrlə İran hökumətinin başçısı olmuşdur.

idi. Odur ki, gözlənilən sosial partlayışın qarşısını almaq məqsədilə dövlət bütün ölkədə islahatlar keçirmək qərarına gəldi.

**İranda 60–70-ci illər islahatları və Cənubi Azərbaycan**

1962-ci ildən başlayaraq 70-ci illərin ortalarınadək «ağ inqilab» adı ilə yuxarıdan – şah tərəfindən geniş miqyasda həyata keçirilən islahatlar ölkənin kapitalistcəsinə inkişafını sürətləndirməyi, İranı inkişaf etmiş sənaye və aqrar-sənaye ölkəsinə çevirməyi planlaşdırırdı. Lakin böyük hay-küylə həyata keçirilən islahatlar ölkədə, xüsusilə Cənubi Azərbaycanda mövcud olan sosial gərginliyi ləğv edə bilmədi, əksinə, bir çox sahələrdə əvvəlki ziddiyyətlər daha da dərinləşdi. «Ağ inqilab»ın tərkib hissəsi olan aqrar islahat (14.01.1962) kəndlilərin dövlətdən, başlıca olaraq iri torpaq sahiblərindən torpaq sahələri satın almasına yardım etməklə, onları ölkəni kənd təsərrüfatı məhsulları ilə təchiz edən fermerlərə çevirmək, iri və orta torpaq sahiblərini isə kapitalist istehsal üsuluna əsaslanmalarını təşviq etməklə onların mülkədar-kapitalistlər kimi yetişməsinə rəvac vermək, bununla da İranın yarımfeodal kəndləri əvəzində ölkədə kapitalist kəndi yaratmaq məqsədi daşıyırdı. Kağız üzərində olan bu islahat planı həmin tədbir ərəfəsində ölkənin böhran vəziyyətində olan kənd təsərrüfatında sıçrayışlı inkişaf vəd edirdi. İlkin təcrübələrini Azərbaycanın Marağa vilayətindən başlamış bu islahat nəticəsində Cənubi Azərbaycanda kəndlilərin təqribən 80%-i 1962–1978-ci illər ərzində torpaq sahiblərinə çevrildi. Lakin kənd təsərrüfat borc banklarının verdiyi vəsait hesabına Cənubi Azərbaycanda torpaq satın ala bilmiş kəndlilər fermer təsərrüfatı yaratmaq işində bir sıra mühüm çətinliklərlə üzləşdilər və bu çətinliklər (su, kənd təsərrüfatı maşınları, gübrə və s. təchizatın yarıtmazlığı) torpaq islahatının əhəmiyyətini əslində heçə endirdi. Keçmiş yarımfeodal torpaq sahibləri isə Cənubi Azərbaycan kəndində kapitalist təsərrüfatı yaratmaq imkanından lazımınca istifadə etmədilər. Onların əksəriyyəti islahat qanunu ilə müəyyən olunmuş normadan artıq torpaq sahələrinin satılmasından əldə etdikləri vəsaiti təsərrüfatlarını yenidən kapitalistcəsinə qurmağa, Azərbaycan kəndi və şəhərlərində sənaye obyektləri yaratmağa sərf etməyə deyil, həmin vəsaiti, bir qayda olaraq, İranın mərkəz bölgələrinə köçürməyə tələsdilər. Üstəlik Azərbaycanda da aqrar-sənaye komplekslərinin (təbii və kimyəvi gübrə istehsalı və s. üzrə) yaranması haqqında mərkəzə yalançı raportlar təqdim edildi.

Bütün bunlar Cənubi Azərbaycan kəndlilərinin sosial vəziyyətində gözlənilən köklü dəyişikliklər yaranmasına imkan vermədi. Nəticədə Cənubi Azərbaycan kəndlərində iş ardınca gedənlərin (o cümlədən tamam köçüb gedənlərin) sayı azalmaq əvəzinə daha da artdı.

60–70-ci illərdə Azərbaycanda bir sıra sənaye obyektləri – Sofyanda sement zavodu, Təbrizdə maşınqayırma, neft emalı zavodu, əsasən montaj müəssisələri olan traktor zavodu, dizel mühərrikləri buraxan zavodlar və s. yaransa da, bu inkişaf tempinə görə İranın əsas sənaye mərkəzlərindən xeyli geri qalırdı. Buna görə də Azərbaycan sənayesinin İran sənayesində xüsusi çəkisi azalırdı. 1956-cı ildə əhalinin sayına görə İranda Tehrandan sonra ikinci böyük şəhər olan Təbrizin 1976-cı ildə dördüncü yerə (İsfahan və Məşhəd şəhərlərindən sonra) keçməsi də bu qəbildən idi.

Cənubi Azərbaycanda yaranan həmin müəssisələr dövlət müəssisələri idi. Xüsusi kapital isə burada maneələrə rast gəldiyindən, o cümlədən mərkəzin milli ayrı-seçkilik siyasətilə üzləşdiyindən Azərbaycanın özündə sənayeyə, xüsusilə iri müəssisələrin yaradılmasına xüsusi kapital qoyuluşu çox az idi. Buna görə də Azərbaycan sənayesində hələ də xırda müəssisələr müəyyən rol oynayırdı. Azərbaycan burjuaziyasının kapitalı İranın digər sənaye mərkəzlərində, ilk əvvəl isə Tehranda mühüm rol oynayırdı. Hətta Tehran iqtisadiyyatını yaşadan amil məhz azərbaycanlıların ölkə paytaxtının iqtisadi həyatına qoyduqları xüsusi kapital idi.

Sənaye üzrə göstərilən ləng inkişaf bu illərdə müşahidə olunan vəziyyət üzündən torpaqdan ayrılan kəndlilərin böyük əksəriyyətinin Cənubi Azərbaycan şəhərlərində deyil, İranın digər sənaye şəhərlərində, ilk növbədə Tehranda cəmləşməsinə və məskunlaşmasına gətirib çıxartdı. Tehranda əvvəldən də çox olan azərbaycanlıların sayı inqilab ərəfəsində artıq çoxdan milyonu aşmışdı.[1]

Azərbaycanda iri sənaye obyektlərinin zəif inkişaf etməsi və sənayedə xırda müəssisələrin xüsusi çəkisinin üstünlüyü nəticəsində şəhər əhalisinin strukturunda orta təbəqələrin (xırda burjuaziyanın və sənətkarların, eləcə də müəyyən peşəsi olmayan və başlıca olaraq şəhər yoxsullarından ibarət olan marginal qüvvələrin) sayı çoxluq təşkil edirdi.

---

[1] Qeyri-rəsmi məlumata görə inqilab ərəfəsində (1976-cı ildə) Tehranda yaşayan 4,5 milyon əhalinin üçdə birini azərbaycanlılar təşkil edirdi.

Beləliklə, ölkə iqtisadiyyatının sürətlə inkişafına baxmayaraq, bu sahədə böhranın güclənməsi, bununla bağlı şəhərlərə axının artması, bunlardan əlavə, yaranan iri sənaye ocaqlarının və şirkətlərin xırda müəssisələri kütləvi şəkildə sıxışdırması, başqa sözlə desək, orta və aşağı təbəqələrin sosial-siyasi vəziyyətinin daha da pisləşməsi, eləcə də hakim Pəhləvi xanədanı elitasının azğınlıqları, Qərbin həyat tərzinin geniş təbliğ olunması və s. 70-ci illərin ortalarına doğru əhali içərisində dərin narazılıq yaratmışdı. Narazılığı artıran amillərdən biri də bütün ölkədə müxtəlif qüvvələr üzərində nəzarət edən, bilavasitə şahın başçılıq etdiyi SAVAK-ın (ölkənin asayişini qoruyan gizli polis qurumu) qəddarlığı və terror siyasəti idi. Bütün İran üçün ümumi hal olan bu vəziyyət milli azlıqların toplu halında yaşadığı ətraf əyalətlərdə qüvvədə olan güclü milli məhdudiyyətlər üzündən daha kəskin səciyyə daşıyırdı. Həmin cəhət milli-təşəkkül prosesini çoxdan keçmiş, İranda iki ən böyük millətdən biri olan çoxsaylı Azərbaycan türklərinin[1] mühüm bir hissəsinin yaşadığı Cənubi Azərbaycana xüsusilə aid idi və 1977-ci ilin sonlarına doğru burada ümumi narazılıq fonunda siyasi gərginlik yaranmışdı.

Şahlığın «milli vəhdət» adı altında apardığı şovinist milli siyasəti Cənubi Azərbaycanda xüsusi təzyiq vasitəsinə çevrilmişdi. Uzun illər ölkədə milli ayrı-seçkilik siyasəti aparan şah hakimiyyəti bəhs olunan «ağ inqilab» dövründə maarif sahəsindəki islahatlar adı altında digər xalqları farslaşdırmaq işini daha planlı şəkildə həyata keçirirdi. Bu siyasət nəticəsində başqa milli dillər kimi Azərbaycan-türk dili də yasaq vəziyyətinə düşmüş, bu dildə qəzet-jurnal, kitab nəşri dayandırılmış, əvvəllər nəşr edilən kitablar isə yığışdırılıb yandırılmışdı. Bu siyasətə qarşı çıxanlar şiddətli cəzalara məruz qalmış, bir çox ziyalı – şairə Mərziyə Üskui, yazıçı-pedaqoq Səməd Behrəngi, şairlərdən Əlirza Oqtay, Behruz Dehqan və onlarla başqaları məhv edilmişdi.

1977-ci ilin sonlarından etibarən İranın müxtəlif yerlərində baş verən siyasi hadisələr vəziyyətin sosial partlayışa doğru getdiyini göstərdi və şah hakimiyyətinin cəza tədbirlərini artırması belə bu prosesin qarşısını ala bilmədi.

---

[1] İran inqilabının başlanğıcında bütün ölkədə yaşayan Azərbaycan türklərinin sayını İran mətbuatı 13–16 milyon nəfər hüdudunda göstərmişdir. (Bax: «Geyhan», 23.03.1979; «Yoldaş», 27.04.1979, №8.)

**Cənubi Azərbaycanda ilk çıxışlar**

Ümumirana xas olan geniş narazılıqların təzahürü özünü, ilk növbədə 1977-ci ilin oktyabr-noyabr aylarında Tehran universitetində baş vermiş və ölkənin digər ali məktəblərinə təsir etmiş tələbələrin həyəcan və çıxışlarında, bir sıra ziyalıların hökumətə açıq müraciətlərində – İranın yazıçılar ittifaqının, hüquqşünas assosiasiyasının, insan hüquqları və azadlıqlarının müdafiəsi komitəsinin ölkədə heç olmazsa minimum azadlıqlar verilməsi haqqında tələblərində göstərdi. Bu qəbildən 1977-ci ilin dekabrında müxalif partiya olan və gizli fəaliyyət göstərən Milli Cəbhənin o dövrdəki İran üçün çox cəsarətli addım hesab edilən bir toplantı keçirməsi bəllidir. Həmin aylarda İranın bəzi şəhərlərində hökumət əleyhinə çıxışlar da baş vermişdi.

1977-ci ilin payızından etibarən Cənubi Azərbaycanda da bir sıra çıxışlar olmuşdur. İlin son aylarında, xüsusilə 1977-ci ilin dekabrında Təbrizdə tələbə və şagirdlər arasında həyəcanların davam etməsi, tətil və nümayişlər keçirilməsi, nümayişçilərin polislə toqquşmaları, tələbələrin həbs edilməsi gərgin vəziyyət yaratmışdı. Bu qəbildən noyabrın 28-də Təbriz bazarında hökumətin milli siyasətini pisləyən nümayiş olmuş, dekabrın 3-də isə şəhərin ali və orta məktəb müəllimlərinin yürüşü təşkil edilmişdi. Bütövlükdə götürüldükdə isə dekabr ayı Təbriz universiteti tələbələrinin hökumətə, onun antidemokratik siyasətinə qarşı çevrilmiş çıxışları ilə fərqlənmişdir. Dekabrın əvvəli tələbələrlə polis arasında toqquşmalarla başlanmışdı. Toqquşmalar dekabrın 10-dək davam etmişdir. Lakin 1977-ci ilin ən iri tələbə çıxışı 21 azər günü, yəni 1945-ci il dekabrın 12-də Cənubi Azərbaycanda Milli Hökumətin yaranması günü olmuşdur. Həmin gün göndərilən hərbi dəstələrlə tələbələr arasında ciddi toqquşma baş vermiş, sonuncular arasında ölən və yaralananlar olmuşdu. Buna baxmayaraq, tələbələr hökumət əleyhinə şüarlarla Təbrizin mərkəzi küçəsi boyunca nümayiş keçirmişlər. Əlamətdar cəhətdir ki, həmin gün polis nəfərləri tələbə nümayişinə hücum etdikdə şəhər əhalisi nümayişçilərə tərəfdarlıq etmişdir. Ara verməyən tələbə çıxışlarının daha bir səciyyəvi cəhəti bunda idi ki, bu çıxışlar zamanı Təbriz universitetinin müəllim heyətinin bir qrupu tələbə hərəkatı ilə bağlı şah qvardiyasının universitet binasında yerləşdirilməsinə qarşı çıxdı. Yeri gəlmişkən qeyd olunmalıdır ki, bu müəllim qrupunun tələbələrlə həmrəyliyi bütün İranda ali məktəb müəllimlərinin ali hərəkata qoşulmasının başlanğı-

cını qoydu, belə ki, bundan sonra digər ali məktəblərin müəllimləri Təbriz universiteti professorlarının ardınca gedərək ümumi mübarizəyə qoşuldular.

1978-ci ilin ilk günlərində ölkədə ən böyük dini mərkəzlərdən olan Qumda baş vermiş hadisələr Cənubi Azərbaycanda əks-səda doğurmaqla birlikdə inqilabi situasiyanın daha sürətlə yetişməsinə təsir etdi, hadisələrin inqilaba doğru getməsində mühüm rol oynadı.

1978-ci il yanvarın 7-də Qum şəhərində müxalif qüvvələrə qarşı cəza tədbirlərinin tətbiq olunması əleyhinə, hökumət aparatının dəyişdirilməsi, demokratik azadlıqlar verilməsi və ümumiyyətlə, konstitusiya qaydalarına riayət olunması, hətta şahlığın ləğv edilməsi tələbləri ilə nümayiş keçirilmişdi. Yanvarın 9-da Qumdakı dini məktəblərin minlərlə tələbəsinin (Qumdakı dini tələbələrin azı 17%-ni azərbaycanlılar təşkil edirdi), ruhanilərin və orta təbəqə nümayəndələrinin iştirak etdiyi növbəti nümayiş zamanı eyni tələblərlə çıxış edən nümayişçilərə polis tərəfindən atəş açılmışdı. Nəticədə nümayişçilərdən onlarla ölən, yüzlərlə yaralanan olmuşdu.

Hakim dairələrin Qumda nümayiş iştirakçılarına qarşı silah işlətməsi bütün İranı təlatümə gətirirdi. Minlərlə əhalini əhatə etmiş həmin nümayiş öz-özlüyündə hələ inqilabın başlanması demək olmasa da, bu hadisə bütün ölkədə inqilabi şəraitin yetişməsinin son həddə çatmasına səbəb oldu, yaxın gün və aylarda daha mühüm siyasi hadisələrin baş verməsini zəruri etdi.

## § 2. Təbrizdə 29 bəhmən üsyanı

Gözlənilən mühüm hadisələrin ilk sədaları yenə də Təbrizdən eşidildi. 1977-ci ilin son ayları, 1978-ci ilin əvvəllərində narahat və həyəcanlı olan Təbriz əhalisi içərisində fevralın ortalarında şəhər kinoteatrlarında nümayiş etdirilmiş «İran İkinci Dünya müharibəsi zamanı» adlı film (filmdə Azərbaycan xalqının azadlıq mübarizi Seyid Cəfər Pişəvəriyə bir sıra əsassız hücumlar edilmişdi) əlavə narazılıq yaratmışdı. Bu və digər səbəblərdən həyəcanlı olan təbrizlilərin ayağa qalxması üçün Qumdakı hadisələrin 40-cı günü astanasında həmin şəhərin din başçılarının müraciəti təkan oldu. Qumdakı azərbaycanlı din xadimlərindən baş ayətulla (ayatulla-əl-üzma) Seyid Kazım Şəriətmədari başda olmaqla, beş nəfər yüksək

rütbəli azərbaycanlı din xadiminin imzaladığı həmin müraciət Qumdakı yanvar şəhidlərinin 40-cı günündə, yəni fevarlın 18-də təbrizliləri etiraz nümayişi keçirməyə çağırırdı. Zahirən din xadimlərinin çağırışı ilə həyata keçirilmiş nümayiş böyük bir çıxışa çevrildi. 1978-ci il fevralın 18–19-da Təbrizdə 53 il hökmranlıq etmiş Pəhləvi xanədanını, o dövrki türkdilli İran mətbuatının qiymətləndirdiyi kimi, «mənfur qara səltənətin qanlı dayaqlarını lərzəyə gətirən» («Varlıq», 1980, № 10, s. 3) 100 min nəfərin iştirak etdiyi üsyan baş verdi.

Hicri tarixlə 1356-cı il bəhmən ayının 29-da (18.02.1978) başlanmış və buna görə də «29 bəhmən üsyanı» kimi artıq tarixə düşmüş üsyanın birinci günü eyni bir vaxtda – səhər saat 9-da on minlərlə təbrizli sanki bir işarə ilə şəhərin müxtəlif rayonlarında küçələrə çıxdılar. Nümayişçilər şəhərin mərkəzinə doğru irəlilədilər. Bütün mərkəzi küçələr nümayişçilərlə dolur, meydanlarda mitinqlər keçirilirdi. Qızıllı məscidin önündə on minlik xalq kütləsi toplaşmışdı. Nümayişçilər mitinqləri dağıtmaq istəyən polis nəfərlərini qaçmağa məcbur etdilər. Bundan sonra hökumət küçələrə çıxmış kütlə üzərinə təcili olaraq ordu hissələri göndərdi.

Əllərində dəyənək, daş-kəsək, bəzilərində isə alışqan maddə doldurulmuş şüşə qablar olan nümayişçilər avtomat, pulemyot və s. ilə silahlanmış polis və ordu hissələrinə, tank və zirehli maşınlara qarşı çıxdı. Bundan sonra dinc etiraz nümayişi onun təşəbbüsçüləri olan Qum ruhanilərinin də gözləmədiyi halda, mövcud quruluşa və şaha qarşı kəskin bir çıxışa – üsyana çevrildi. Ordu hissələrinin şəhərə yeridilməsi əhalinin qəzəbini çoşdurdu və onlar hökumət idarələrini, bankları, mehmanxanaları, xüsusi sahiblərə məxsus və başlıca olaraq Qərb həyat tərzini təbliğ və yarıparnoqrafik filmlər nümayiş etdirən kinoteatrları heç bir talana yol vermədən dağıdaraq, şahın paniranist siyasətinin və «böyük mədəniyyət» haqqında demoqoqcasına fikirlərinin carçısı olan hakim «Rəstaxize milləte İran» («İran xalqının dirçəlişi») partiyasının yerli şöbəsinin binasına od vurdular.

Çoxlu ölən və yaralanan olmasına baxmayaraq, üsyan ertəsi günü də davam etdi. Üsyan vaxtı bütün şəhər həyatı ölgünləşmişdi – dükan-bazar, idarə və məktəblər bağlanmış, fabrik-zavodlar dayanmış, Təbriz universitetinin fəaliyyəti isə tələbə hərəkatının mərkəzi kimi uzun müddətə dayandırılmışdı.

Təbrizdəki polisə və ordu hissələrinə etibar etməyən şah (həqiqətən də, polis yerli əhaliyə qarşı silah işlətməmişdi) ertəsi günü – fevralın 19-da Təbrizə başqa şəhərlərindən nizami hərbi dəstələr gətirtdi. Bu hissələrlə üsyançılar arasında qanlı toqquşmalar fevralın 19-da axşamadək – üsyan yatırılanadək davam etdi. Şəhərdə kütləvi həbslər və axtarışlar başlandı. Həmin gün axşam şəhər evlərinin divar və qapılarına ayətulla Şəriətmədari və digər ruhanilərin imzası ilə əhalini sakitliyə və insan tələfatının qarşısını almağa və bazar-dükanı açmağa çağıran müraciətlər yapışdırıldı.

İki gün davam edən bu üsyan zamanı İranı rəsmi məlumatının əksinə olaraq (9 nəfər ölən, 125 nəfər yaralanan) böyük tələfat – yüzlərlə ölən, minlərlə yaralanan və həbs edilən oldu. Üsyanın əsas iştirakçılarından olan gənclər (o cümlədən tələbələr) içərisində tələfat, xüsusilə çox idi.

Təbrizdəki üsyanın əks-sədası yaxın kəndlərdə (bunların əhalisinin bir çoxu üsyanda iştirak edirdi) və Cənubi Azərbaycanın digər şəhərlərində də eşidildi. Mərənd, Zinuz, Sərdrud, Şəbüstər və başqa şəhərlərdəki kütləvi həbslər həmin əks-sədanın bilavasitə nəticəsi idi.

Təbriz üsyanında ziyalılar, tələbələr, sənətkarlar, xırda tacir və sahibkarlar, fəhlələr, məktəb şagirdlərindən ibarət 100 min nəfərlik geniş kütlə iştirak edirdi. Çoxlu faktlar şəhər əhalisinin bütövlükdə üsyançılarla həmrəy olmasını göstərir.

Üsyanın ön cərgəsində, əlbəttə, 1977-ci ilin sonlarındakı çıxışlarda olduğu kimi, ilk növbədə tələbələr gedirdi.

Üsyan yatırıldıqdan sonra Təbrizin yüksək məqamlı ruhanilərinin şəhərdən uzaqlaşdırılması ruhanilərin də bu çıxışda müəyyən rolu olduğunu, daha dəqiq desək, üsyanın havadarı kimi çıxış etməsini göstərirdi.

Üsyana rəhbərlik etmiş, onu hazırlamış və həyata keçirmiş siyasi qüvvələr hansılar idi?

İranın rəsmi dairələrində «İslam marksistləri» üsyanın başçıları və təşəbbüsçüləri elan edilmişlər. Bu faktı və həmin dövrdə Cənubi Azərbaycanda (bütün İranda) ən güclü sol siyasi qüvvə olan «Xalq mücahidləri» və bir çox məsələlərdə onlara yaxın olan, Azərbaycanda güclü təşkilatlara malik «Xalq fədailəri» təşkilatlarının varlığını nəzərə alaraq bu iki təşkilatı üsyanın təşkilatçıları hesab etmək olar. Bununla bərabər çıxışın keçirilməsində hərəkatda hələ aparıcı yer tutmasalar da, ruhanilərin müəyyən rolu nəzərə alın-

malıdır. Bu halda xalq mücahidlərinin üsyanın, daha doğrusu, əvvəlcə dinc etiraz nümayişi və mitinqi kimi nəzərdə tutulan çıxışın hazırlanmasında ruhanilərlə əlaqədə olmaları müstəsna deyildir. Çıxış zamanı ən böyük mitinqin Qızıllı məscid önündə nəzərdə tutulması və keçirilməsi, hər halda, təsadüfi deyildi.

Təbriz üsyanının əsas səbəblərindən biri şahlıq idarə üsulunun ölkədə, xüsusilə son onilliklərdə rəvac verdiyi imperialist nüfuzunun artmasından və onun fəal şəkildə təbliğ etdiyi Qərb həyat tərzindən narazılıq idi. Üsyanın antiimperialist cəhəti özünü xarici bankların, maşınların yandırılmasında, Qərbin həyat tərzini təbliğ edən kinoteatrların dağıdılmasında göstərdi. Çıxışın açıq antişah istiqaməti isə daha qabarıq şəkildə, daha əhatəli miqyasda həyata keçirildi. Bu cəhətdən, yəni üsyanın Pəhləvi monarxiyasına və şəxsən müstəbid Məhəmməd Rza şaha qarşı çevrilməsi çox önəmlidir. Ölkədə açıq fəaliyyət göstərən, yeganə siyasi təşkilat olan və şahın başçılıq etdiyi hakim «Rəstaxiz» partiyasının Azərbaycandakı şöbəsi binasının yandırılıb dağıdılması, başqa sözlə, şahın bu anadək möhtəşəm və əlçatmaz hesab edilən qüdrətinə əl qaldırması öz-özlüyündə böyük cəsarət istəyirdi. Bu və digər faktlar (üsyan zamanı sayı xeyli artırılmış SAVAK xəfiyyələrinə baxmayaraq, əhalinin uzun illərdən bəri ilk dəfə olaraq küçə və bazarlarda şaha qarşı düşmən münasibətini büruzə verməsi, uşaqların şahın portretlərini daşa basmaları, şəhərin baş prospektində onun heykəlini yıxmağa cəhd etmələri və s.) əhalinin şaha qarşı nifrətinin bir anda güclü şəkildə üzə çıxmasını aydın şəkildə nümayiş etdirdi. Həmin baxımdan bu da əlamətdardır ki, üsyan zamanı Təbriz ətrafındakı kənd məktəblərindən birində bütün uşaqlar şah və arvadının portretlərini dərsliklərdən qoparıb atmışlar.

Bu kimi faktlar bir də ona görə qiymətlidir ki, İranın başqa yerlərində inqilab dövründə şaha qarşı açıq şüarlar verilməsi və onun xalqın bütün bədbəxtliyinin baisi elan edilməsi yalnız 1978-ci ilin avqustunda ayətulla Xomeyninin Pəhləvi sülaləsini yıxmaq haqqında İran xalqına müraciətindən sonra və xüsusilə şəhrivər ayındakı «qanlı cümə günü»ndən (sentyabrın 8-dən) etibarən irəli sürülməyə başlandığı halda, Cənubi Azərbaycanda şaha və ümumiyyətlə, şahlığa qarşı açıq çıxışın əsası fevral üsyanında qoyulmuşdur. «Şaha ölüm» şüarı belə kəskin şəkildə ilk dəfə məhz Təbriz üsyanı zamanı irəli sürülmüşdü.

Deməli, mahiyyət etibarilə antimonarxist və antiimperialist hərəkat olan 1978-1979-cu illər İran inqilabının sosial-siyasi səciyyəsini əslində elə inqilabın başlanğıcında 29 bəhmən üsyanı müəyyən etmişdir. Bu mənada Təbriz üsyanını İran inqilabının modeli hesab etmək olar.

**29 bəhmən üsyanının əhəmiyyəti**

İranda sükut buzunun qırılması baxımından son dərəcə mühüm hadisə olan 29 bəhmən Təbriz üsyanı ölkədə siyasi və sosial həyata təsir göstərdi. Həmin üsyandan sonra İranda baş verən inqilabi çıxışlar dalğası, tədricən bütün ölkəni bürüdü. İnqilab cəmiyyətin başlıca sosial qüvvələrini əhatə etdi, onları sel kimi öz ağuşuna aldı, halbuki 29 bəhmən üsyanınadək istər Tehranda, istər Qumda, istərsə də Təbrizin özündə baş vermiş çıxışlar əsasən gənclərin, o cümlədən tələbələrin hərəkatı idi. 100 mindən çox kütləni əhatə etmiş Təbrizdəki 18–19 fevral üsyanı isə İranda uzun illərdən bəri bütün təbliğat vasitələri ilə zahirən möhtəşəm və sarsılmaz bir qala kimi qələmə verilən Pəhləvi monarxiyasına ciddi, həm də həlledici zərbə vuran ilk xalq çıxışı idi.

İranın bir sıra azərbaycanlı din və siyasi xadimləri, eləcə də türk dilində nəşr olunan mətbuat orqanları Təbriz üsyanının siyasi əhəmiyyətinə yüksək qiymət verməklə[1], bu çıxışın ölkədəki inqilabın başlanmasına və uğurlu nəticəsinə səbəb olmasını xüsusi qeyd etmişlər. Bunlardan yuxarıda adı çəkilən ayətulla-əl-üzma S.K.Şəriətmədari qəzet müsahibəsində demişdir ki, «29 bəhməndə Təbrizdə qanlarını axıdanlar İran inqilabının təməlini qoymuşlar»[2].

Tehranda çıxan «Varlıq» jurnalı 29 bəhmən tufanının «mənfur qara səltənətin qanlı dayaqlarını lərzəyə gətirdiyini» qeyd edərək, inqilabın həmin üsyandan başlandığını yazır. Təbrizdə yayılan «Dədə Qorqud» jurnalı isə obrazlı şəkildə yazmışdır: «Tomris xanımın balaları Təbrizdə 29 bəhmən üsyanı ilə... Məhəmmədrza şahı tarixin küllüklügünə tapşırdı...» «Günəş» jurnalı isə, ümumiyyətlə, azərbaycanlıların həmin inqilabda roluna yüksək qiymət vermişdir.

---

[1] Farsdilli İran mətbuatı, bir qayda olaraq 29 bəhmən üsyanının əhəmiyyətini qeyd etmədikləri kimi, rusdilli Sovet iranşünaslığında (eləcə də mətbuat orqanlarında) 1978–1979-cu illər İran inqilabına həsr edilmiş zəngin çoxsaylı tarixi ədəbiyyatda da Təbriz üsyanı və onun inqilabın başlanmasında əhəmiyyəti üzərindən sükutla keçilmişdir.

[2] «Günaydın», 15.06.1979.

Jurnal yazırdı: «Bu əzəmətli inqilabın istərsə başlanıb ayaq tutması və istərsə də nəticələnməsində Azərbaycan xalqının mühüm və əsaslı rolu olmuşdur».

Beləliklə, 29 bəhmən Təbriz üsyanı 1978–1979-cu illərdə bütün İranı bürümüş və qələbə ilə nəticələnmiş inqilabın müjdəçisi, onun yetişməsindən xəbər verən ilk qaranquş idi.

## § 3. İnqilabın inkişafı və Cənubi Azərbaycan

Təbriz üsyanından sonra ilk mühüm çıxışlar martın 29–30-da, yəni həmin üsyanın qırxıncı günü Tehran, İsfahan, Məşhəd, Əraq, Qum, Təbriz, Zəncan və başqa şəhərlərdə baş verdi. Şahlıq quruluşuna, eləcə də bu quruluşun arxasında duran və ölkəni öz nüfuz dairəsinə almış ABŞ-a qarşı Təbrizdəki çıxış zamanı həmin nüfuzun təcəssümü kimi banklara, kinoteatrlara, eləcə də dövlət idarələrinə hücumlar olmuş, polis nəfərləri ilə qanlı toqquşmalar baş vermişdi. Xarici mətbuatın verdiyi xəbərə görə Təbrizdə xeyli ölən olmuşdu.

Martın 29–30-dakı bu hadisələr ölkə miqyasında çox geniş səsləndiyi üçün öz zəncirvari əksini həmin çıxışların qırxıncı günü – mayın 9–10-da İranın 20-dən çox şəhərində, o cümlədən Tehran, Qum vəTəbrizdə kütləvi çıxışların təşkilində tapdı. Çıxışlar yenə də Təbriz və Qumda daha geniş, daha izdihamlı keçmişdir. Bu şəhərlərdə nümayişçilər qırmızı bayraqlarla, hökumətə qarşı şüarlarla küçələrdə hərəkət etmişdir. Həmin şəhərdə nümayişin gedişində polis və SAVAK casusları ilə toqquşmalar baş vermiş, barrikadalar yaradılmışdı. Nümayişçilər içərisində ölən və yaralananlar olmuşdur.

Bütün ölkədə yüksəlişə doğru gedən hərəkatın aparıcı mərkəzlərindən olan Təbrizdə növbəti aylarda baş vermiş siyasi hadisələr içərisində avqustun 24-də imam Əlinin ölüm günündə təşkil edilmiş nümayiş bütün İranda keçirilmiş nümayişlər içərisində ən möhtəşəmi olmuşdur. Bu nümayişlərdə yüz minlərlə adam iştirak etmişdir.

Bütün bu aylar ərzində Təbriz «Azərabadəgan» Universiteti tələbələrinin hökumət əleyhinə, onun antidemokratik siyasətinə qarşı çıxışları səngimək bilməmişdir. Bu çıxışlar zamanı tələbələrin polislə toqquşması halları da olmuşdur. Mayın 8-dəki toqquşma

nəticəsində bir tələbə ölmüş, 24 tələbə və 3 polis nəfəri yaralanmışdır. Bu cəhət ona görə çox mühüm və diqqətəlayiqdir ki, universitetin professor-müəllim heyəti tələbələrlə həmrəylik bildirərək, Ali Təhsil Nazirliyi və Şərqi Azərbaycan ostandarlığına təqdim etdikləri qətnamədə bir sıra siyasi tələblər irəli sürmüşdür.

Tələbələrin bu sonuncu həyəcanından sonra «Azərabadəgan» Universitetinin bir neçə günlüyə bağlandığı elan edilmişdi. Əslində isə universitet bir neçə ay bağlı olmuşdur. Lakin bu və ya digər cəza tədbirlərinə baxmayaraq, tələbələrin hərbi polis idarə üsuluna qarşı çıxışları 1978-ci ilin bütün yayı davam etmişdi.

Yay ayları müddətində Təbrizdə universitet tələbələrinin ən böyük, ən izdihamlı toplantısı avqustun 12-də olmuşdur. Universitet tələbələrinin böyük əksəriyyətini əhatə etmiş bu toplantıda onlar 27 maddədən ibarət təkliflərinin və yuxarıda xatırlanan professor-müəllim heyətinin tələblərinin yerinə yetirilməsini irəli sürmüşlər. Tələbələr daha sonra şəhərdə geniş nümayiş keçirmişlər. Nümayiş zamanı İsfahanda təşkil olunmuş nümayişlə həmrəylik və ölənlər ilə əlaqədar başsağlığı və hüzn bildirilmişdir.

Cənubi Azərbaycanın digər şəhəri Urmiyada – Qərbi Azərbaycan ostanının mərkəz şəhərində də həmin aylarda tələbə həyəcanları baş vermişdir.

Bütün bu çıxışlar dövründə Cənubi Azərbaycan şəhərləri, xüsusilə Təbriz İranda inqilabın başlanğıcında olduğu kimi, onun yüksəlişə doğru getməsində də mühüm və qabarıq mövqe tutmuşdu (hərçənd ki, inqilaba dair tarixi ədəbiyyatda bu qiymət öz dolğun əksini tapmamışdır). Bu çıxışlarda aparıcı qüvvələr şəhər orta təbəqələri və onlara yaxın olan sosial zümrələr, o cümlədən tələbələr idi.

1978-ci ilin avqustunda hökumətin azca güzəştə getməyə – bəzi demokratik azadlıqlar (o cümlədən «qanun daxilində» partiyalar yaratmaq) verməyə məcbur olması ölkədəki siyasi gərginliyin qarşısını ala bilmədi.

**İnqilabın yeni mərhələsi**

Həmin ilin sentyabrından inqilabın ikinci, hərəkatda iştirak edən qüvvələrlə şah hakimiyyəti arasında mübarizənin həlledici mərhələsi başlandı. İranın, demək olar ki, bütün əsas sosial təbəqələri, o cümlədən fəhlələr hərəkata qoşuldular. Müxalif siyasi qruplar fəaliyyətlərini genişləndirdilər. Sənaye fəhlələrinin ən çox təmərküzləşdiyi Tehran, İsfahan və s. şəhərlərdə hərəkat geniş miqyas aldı. Təbrizdə də inqilab genişlənirdi.

İnqilabın ikinci mərhələsində hərəkata rəhbərliyin şah hakimiyyətinə müxalif olan ruhanilərin əlinə keçdiyi aydın görünürdü. Bu dövrdə, hələ 60-cı illərdən şahlığın və Amerika imperializminin ölkədəki nüfuzunun barışmaz əleyhdarı kimi tanınmış ayətulla-əl-üzma (böyük ayətulla-dini başçı) Ruhulla Musəvi Xomeyninin[1] geniş kütlə içərisində şöhrəti son dərəcə artmışdı. Buna görə də bütün əsas siyasi sol təşkilatlar da onu artıq inqilabın lideri kimi tanımalı oldular.

İnqilabın ikinci mərhələsinin ilk çıxışları şah hakimiyyəti tərəfindən sentyabrın 7-də ölkənin 12 şəhərində, Təbrizdə isə sentyabrın 8-dən başlayaraq hərbi vəziyyət elan olunması və qadağan saatları qoyulmasına qarşı etiraz nümayişləri ilə başlandı. Hərbi vəziyyət haqqında qərarın qüvvəyə minməsinə baxmayaraq, İranın bir çox şəhərlərində olduğu kimi, Təbrizdə də sentyabrın 8-də hakimiyyətə qarşı nümayiş və ümumi tətil keçirildi. Çıxışların əsas mərkəzlərində nümayişçilərin şiddətli atəşə tutulması, çoxlu ölən və yaralanan olması hərəkatın qarşısını ala bilmədi, əksinə, inqilabın daha böyük sıçrayışla vüsət almasına səbəb oldu. «Qanlı cümə günü» adını almış həmin gün əhalinin şaha qarşı qəzəb və nifrətini daha da artırdı.

Sentyabrın sonları və oktyabrın əvvəllərindən bütün İranda başlanan və getdikcə artan tətil hərəkatı, xüsusilə neft sənayesi fəhlələrinin bu hərəkata qoşulması inqilabın genişlənməsində böyük rol oynadı. Neftçi fəhlələrin noyabr ayında iki həftəlik, daha sonra isə 1978-ci ilin dekabrından 1979-cu ilin fevralın əvvəllərinədək davam etmiş aramsız ümumi tətili şah hakimiyyətinə ağır zərbə vurdu və inqilabın taleyini həll etdi. Bütün ölkəni bürümüş tətil hərəkatı zamanı başlıca olaraq SAVAK-ın (gizli polis qurumu) ləğv edilməsi, İran cəmiyyətinin demokratikləşdirilməsi və başqa tələblər irəli sürülürdü. 1978-ci ilin noyabrında Fransada ayətulla Xomeyni ilə Milli Cəbhənin başçısı Kərim Səncabinin görüşündən sonra onların birgə bəyanatında Pəhləvi sülaləsi hakimiyyətinin

[1] Məhəmməd Rza şahın daxili və xarici siyasətinə qarşı çıxışlarına görə dəfələrlə həbs edilmiş R.M.Xomeyni 1964-cü ildə Türkiyəyə sürgün edilmiş, daha sonra oradan İraqa köçmüşdü. O, 1978-ci il oktyabrın əvvəlində İraq hökumətinin təkidi ilə ölkəni tərk etməli və Parisə getməli olmuşdur. Buradan onun şahlığın devrilməsi çağırışı ilə İran xalqına müraciətləri yazılmış lent yazıları İrana gətirilərək hərbi vəziyyət şəraitində yeganə leqal yığıncaq yeri olan məscidlərdə səsləndirilməklə əhaliyə çatdırılırdı.

ləğv edilməsi zərurəti qeyd olundu. Bundan sonra hələ 29 bəhmən Təbriz üsyanı gedişində irəli sürülmüş «şaha ölüm» şüarı bütün hərəkata hakim kəsildi.

Cənubi Azərbaycanda da tətil və nümayişlər ara verməmişdi. Oktyabrın 1-də Urmiya, Zəncan, Həmədan və başqa şəhərlərdə ayətulla Xomeyninin İraqı tərk etməyə məcbur edilməsinə qarşı geniş kütlənin nümayişi keçirilmiş, bütün oktyabr-noyabr ayları ərzində Azərbaycanın Təbriz, Ərdəbil, Marağa, Urmiya, Culfa, Zəncan, Həştrud, Şahpur və b. şəhərlərində fəhlələrin, müəllimlərin, dövlət qulluqçularının, gömrük işçilərinin tətilləri keçirilmiş, geniş kütlənin, tələbə və şagirdlərin iştirakı ilə hakimiyyətə qarşı nümayişlər olmuşdur. Bu nümayişlər zamanı nümayişçilərin, bəzən polis və hərbi hissələrlə toqquşmaları da baş vermişdir.

Dekabrın 2-dən başlanan müsəlmanların müqəddəs məhərrəm ayında Azərbaycanda hakimiyyətə qarşı çıxışlar və hərbi hissələrlə toqquşmalar daha kəskin şəkil aldı. Dekabrın 11-də aşura günü bütün İranda olduğu kimi, Azərbaycanda da son dərəcə əzəmətli nümayişlər keçirilmişdir. Bütün dekabr ayında ara verməyən nümayişlər zamanı polislə toqquşmalarda onlarla ölən, yaralanan və həbs edilən olmuşdu. Dekabrın sonlarında Cənubi Azərbaycanın Sərab, Urmiya, Marağa, Ərdəbil şəhərlərində də geniş nümayişlər keçirilmiş, bunlardan birinci iki şəhərdə nümayişçilərlə ordu hissələri və polis arasında toqquşmalar baş vermişdir.

1979-cu ilin ilk günlərindən həm hərəkat rəhbərlərinin «şah getməlidir» təkidli tələbi, həm də sayı milyonları ötmüş inqilabçıların təzyiqi nəticəsində şah, nəhayət, yanvarın 16-da çalıb-çapdığı böyük sərvətlə şəxsi təyyarəsində İrandan qaçdı. İran əhalisi bu qələbəni böyük təntənə ilə qarşıladı.

Cənubi Azərbaycanın bütün şəhərlərində şahın heykəllərini vurub yıxdılar. Küçə nümayişləri ilə müşayiət olunan bu mərasimlər zamanı şaha sadiq qalmış hərbi hissələrlə inqilabçılar arasında toqquşmalar baş vermiş, ölən və yaralanan olmuşdu.

Fevralın 1-də ayətulla Xomeyninin Parisdən Tehrana gəlməsi ilə özünün qələbəsinə doğru gedən inqilabın son günləri Cənubi Azərbaycanda, xüsusilə Təbrizdə nümayişlər daha izdihamlı şəkildə davam etmişdir.

Azərbaycanlılar İranın digər başqa yerlərindəki inqilabi çıxışlarda, xüsusilə qələbə ilə nəticələnən Tehran üsyanında ən fəal surətdə iştirak etmişdilər.

Şahlığın devrilməsi və fevralın 11-də paytaxtda şah tərəfdarları üzərində qələbə çalınmasına baxmayaraq, bir çox yerlərdə, eləcə də Cənubi Azərbaycanda əks-inqilab qüvvələri hələ bir neçə gün quduzcasına müqavimət göstərdilər. Bu səbəbdən, xüsusilə Təbrizdə ölən və yaralananların sayı çox idi.

İnqilabi qüvvələr fevralın 13–14-də şahpərəst qüvvələrlə qanlı vuruşmalar aparmalı oldular. Fevralın 15-də bütün şəhər əhalisi ayağa qalxaraq hərbi qarnizonu əhatə etdi. Ciddi atışmadan sonra təbrizlilər qarnizonu ələ keçirərək oradakı zabit və əsgərləri həbs etdilər. Fevralın 16-da şahpərəstlərin tör-töküntüləri Cənubi Azərbaycanın hər yerində tamamilə zərərsizləşdirildi və burada da nəzarət xalqın əlinə keçdi.

Beləliklə, 1979-cu il fevralın 11-də Tehranda qələbə çalan inqilab Cənubi Azərbaycanda fevralın 16-da başa çatdırıldı.

1978–1979-cu illər İran inqilabı dövründə azərbaycanlılar 25 min nəfərə yaxın qurban verdilər.

# XVI FƏSİL

# SOVET İMPERİYASININ SÜQUTU. AZƏRBAYCANDA MİLLİ-AZADLIQ HƏRƏKATI

## § 1. İmperiyanı iflasdan qurtarmaq cəhdləri

**İflasın səbəbləri**

80-ci illərin ortalarında Sovet imperiyasının iqtisadi, siyasi və mənəvi həyatında böhran vəziyyəti yaranmışdı. Adamlar siyasətə, dövlətin, təsərrüfatın idarə olunmasına yadlaşmışdılar. İstehsalın artım sürəti, səmərəliliyi, əməyin məhsuldarlığı durmadan aşağı düşürdü. Mövcud üsul-idarənin mənəvi dayağı olan ehkamçı «kommunist» ideologiyası iflasa uğramışdı. Milli respublikalarda milli özünüdərk, hüquqların tapdalanmasına, sərvətlərin talan olunmasına etiraz əlamətləri güclənməkdə idi. Sonuncu, imperiyanın xammal bazasına çevrilmiş türk respublikalarına daha çox aid idi.

Sovet dövlətinin iqtisadi, siyasi və ideoloji əsaslarının ciddi şəkildə laxlamasının, labüd iflasın bir sıra mühüm daxili və xarici səbəbləri vardı.

Artıq imperiyanın respublikaları ənənəvi vasitələrlə istismar etmək, fövqəldövlət rolunu, xalqların ağır əməyi və düçar olduqları məhrumiyyətlər bahasına yaratdığı hərbi pariteti saxlamaq imkanları tükənmişdi. Güclü inzibati-amirlik üsul-idarəsi iqtisadi tərəqqini buxovlayırdı. İqtisadi iflasın başlıca səbəbi «sosialist iqtisadi modeli»nin səmərəsizliyi, adamlarda mülkiyyətə sahiblik hissinin, bazar rəqabətinin olmaması idi. Artıq xammal istehsal edən milli ucqarların istismarını gücləndirmək kimi ənənəvi vasitələrlə də iqtisadi geriliyi aradan qaldırmaq mümkün deyildi. Buna külli miqdarda yeni investisiyalar tələb olunurdu. Bu tələbi böyük hissəsi hərb maşını tərəfindən udulan milli gəlir artıq ödəyə bilmirdi.

Dövləti qanunlar deyil, partiya elitasının maraqları idarə edirdi. Sözdə elan olunmuş demokratik hüquq və azadlıqların real təminatı yox idi. İqtidar hüquqi nihilizmin dərinləşməsində maraqlı idi. Qanunsuzluğun mövcud sistemin təbii keyfiyyəti olması, ona qarşı mübarizənin səmərəsizliyi adamları siyasi həyata laqeydləşdirirdi.

«Kommunist» ideologiyasının təbliğ etdiyi ehkamlarla qurulmuş cəmiyyət və onun «böyük gələcəyi» haqqında uydurma iddialarla həyat həqiqətləri arasında ziddiyyətin dərinləşməsi də iflasın mühüm daxili səbəblərindən biri idi. Dövlət məhsuldar qüvvələri, istehsalı inkişaf etdirmək üçün adamlara müəyyən bilik və təhsil verməyə məcbur idi. Mədəni səviyyəsi, dar hüdudlar daxilində belə artan xalq isə öz real vəziyyətini düzgün dərk edir, «Kommunist» ideologiyasının dayaqları məhv olurdu.

SSRİ-nin iflası mühüm xarici səbəblərlə də şərtlənirdi. Məlumdur ki, «Bəla imperiyası» adlanan bu dövlət çox böyük çətinliklə iki sistem arasında hərbi paritet yaratmağa nail olmuşdu. Lakin dünyanın demokratik ölkələri SSRİ-yə qarşı qüvvələrini birləşdirirdilər, Ümumdünya antikommunist liqasının fəaliyyəti genişlənmişdi. Beynəlxalq müsəlman dini mərkəzlərinin nümayəndələri də bu liqaya qoşulmuşdular. Ümumdünya islam liqası (1968-ci ildə Məkkədə təşkil olunmuşdur) 1976-cı ildə kommunizmə qarşı müqəddəs müharibə elan etmişdi. 70-ci illərin sonlarında təşkil olunmuş İslam internasionalı da SSRİ-də müsəlman antikommunist və antisovet qüvvələri birləşdirmək uğrunda mübarizə aparırdı.

70-ci illərin ortalarında SSRİ Şərqi Avropada orta mənzilli raketlər yerləşdirdi. Bu, strateji tarazlığı xeyli pozdu. 1979-cu ilin dekabrında Sovet ordusu Əfqanıstana soxuldu. Nəticədə demokratik ölkələr artan sovet təhlükəsinə qarşı yeni hərbi proqramlar hazırladılar. Lakin SSRİ-nin bu tədbirlərə, xüsusən külli miqdarda vəsait tələb edən yeni hərbi proqramlara cavab verməyə artıq imkanı yox idi.

**«Yenidənqurma» cəhdləri**

80-ci illərin ikinci yarısında Kommunist Partiyası növbəti dəfə Sovet imperiyasını böhran vəziyyətindən xilas etmək üçün bir sıra cəhdlər göstərdi. M.S.Qorbaçov 1985-ci ilin martında Sov.İKP MK-nın Baş katibi vəzifəsini tutduqdan sonra Sov. İKP MK-nın həmin il çağırılmış aprel plenumunda ölkədə iqtisadi və sosial-mədəni tərəqqini «sürətləndirmək konsepsiyası»nı irəli sürdü. Sovet cəmiyyətində elmi-texniki tərəqqini, maddi texniki-bazanı inkişaf etdirmək, istehsal münasibətlərini təkmilləşdirmək, bütün siyasi, ictimai və ideoloji təsisatlar sistemini fəallaşdırmaq, «insan

amilinin rolunu yüksəltmək» üçün təşəbbüslər edildi. Tezliklə əməyin təşkili, təsərrüfat hesabının təkmilləşdirilməsi, çoxukladlı iqtisadiyyatın, eləcə də icarə sisteminin, kooperasiyanın inkişaf etdirilməsi, müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfatlar üçün imkanlar yaradılması haqqında qanunlar və qərarlar qəbul olundu. Lakin onların tətbiqi üçün münasib şərait yox idi. Əvvəlki direktiv aktlar kimi bu qanun və qərarlar da gözlənilən nəticəni vermədi. Ona görə ki, təkpartiyalı siyasi sistem, partiya amirliyi ləğv olunmadan, respublikaların suveren hüquqları özlərinə qaytarılmadan artıq iqtisadiyyatı dirçəltmək qeyri-mümkün idi. İqtidar bunu dərk edirdi. Lakin partiya elitasının üç qrupu – mühafizəkarlar, yenilikçi partokratlar və öz dünyagörüşləri ilə Avropa sosial-demokratlarına yaxın islahatçılar arasında gedən gərgin mübarizə əsaslı islahatları ləngidirdi. Qorbaçov 1987-ci ilin yanvarında Sov.İKP MK plenumunda yeni siyasətin – aşkarlıq xəttinin qəbul edilməsinə nail oldu. Əvvəllər stalinizm, 20–30-cu illərin partiya liderlərinə qarşı terror, sosializmin ideallaşdırılmış «Lenin prinsiplərindən» sapınmalar ciddi tənqid edildi. Respublika mətbuatında M.Bağırov rejimi, onun qanlı əməlləri geniş işıqlandırıldı. Konkret faktlarla partiyanın totalitar idarəçilik metodları, qeyri-humanist, milli ayrı-seçkiliyə əsaslanan, xalqları parçalamaq, düşünən başlardan məhrum etmək, mütiləşdirmək, insanları robotlaşdırmaq siyasəti ifşa olunurdu. 1988-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri vəzifəsini ələ keçirdikdən sonra Qorbaçov partiya amirliyinə qarşı daha ciddi addımlar atmağa başladı. O, Sov. İKP-nin XIX partiya konfransında (1988-ci il iyun) «Humanist, demokratik sosializm» qurmaq şüarını irəli atıb, belə bir cəmiyyət yaratmaq üçün partiya və dövlət orqanlarının funksiyaları arasında hədd qoyulmasının, partiyanın əsasən nəzəri, strateji siyasətlə məşğul olmasının vacibliyini qeyd etdi. 1989-cu ildə ilk dəfə çoxmandatlı sistem əsasında xalq deputatları seçkiləri təşkil olundu. Lakin yenə də partokratların müqavimətini qırmaq mümkün olmadı. Kadrlar partiya nomenklaturasında saxlanıldı. Partokratlar yeni qəbul edilən seçki qanunlarında deputatların üçdə birinin ittifaq üzrə orqanları olan ictimai təşkilatlardan seçilməsinə nail oldular. Bu yeni seçilən xalq deputatları içərisində partokratların çoxluq təşkil etməsinə imkan yaratdı. Azərbaycandan seçilən SSRİ xalq deputatlarının da, demək olar ki, hamısı partnomenklaturadan idilər. Lakin ölkə parlamentində «qeyri-formal» deputatlar da sanballı bir qrup təşkil edə bildilər, bu da siyasi müxalifətin formalaşmasına şərait yaratdı.

İstər iqtisadi, istərsə də siyasi sahədə «yenidənqurma» partiya elitası mühafizəkar qanadının ciddi müqaviməti nəticəsində baş tutmurdu. Siyasi idarəçilikdə mövqelərini saxlaya bilən partokratlar təsərrüfata rəhbərlikdə köhnə, qeyri-iqtisadi metodlardan əl çəkməyə imkan vermirdilər. Bu, onların hakimiyyətinin iqtisadi əsasının məhv edilməsi demək olardı. Köhnə iqtisadi idarəçilik sisteminin təzələnməsinə yönəldilən lokal tədbirlər isə uçot-hesabat dairəsini zəiflədir, partokrat işbazlara yeni-yeni gizli gəlir yolları tapmağa, xalq malının talan edilməsinə daha münasib imkanlar yaradırdı. Bərabərhüquqlu mülkiyyət müxtəlifliyinə əsaslanan çoxukladlı təsərrüfatçılıq, bazar iqtisadiyyatı sisteminə keçmək üçün radikal tədbirlər haqqında hələ yalnız söz-söhbət gedir, müxtəlif alternativ proqramlar uzun-uzadı müzakirə olunurdu. «Yenidənqurma» iqtisadiyyatı daha da pozdu, cəmiyyəti siyasiləşdirdi, partiyanın nüfuzunu sarsıtdı, imperiyanı daha da dərin ümumi böhrana saldı.

**«Parçala və hökmranlıq et» siyasətinin fəallaşması**

İmperiyada daxili sökülmə prosesləri başlandı. Belə şəraitdə mərkəzdənqaçma qüvvələrinin güclənməsindən qorxuya düşən Moskva müxtəlif pozucu tədbirlərə əl atdı. Bu dəfə də bəraətvermə (reablitasiya) prosesi birtərəfli oldu, yalnız partiya totalitarizmini ifşa etməyə yönəldildi. «Xalqları oyatmamaq üçün» repressiyaların əsas obyektləri – antisovet, millətçi, istiqlalçı, üsyançı təşkilatların fəal üzvləri, mübarizlər şəhid kimi deyil, qara böhtanların qurbanları kimi təqdim edildilər. Digər pozucu vasitə xalqlara özünü müstəqil idarə etmək, təsərrüfat qurmaq qabiliyyətinə inamsızlıq hissi aşılanması idi.

Moskvada yüksək vəzifələrdə işləyən H.Əliyev yenidənqurmanın metodlarına, gələcək milli münaqişələrə səbəb ola biləcək düşünülməmiş dövlət siyasətinə, xüsusən türk respublikalarına qarşı qərəzli siyasətə açıq və kəskin etirazını bildirirdi. Belə bir şəxsiyyətin yüksək vəzifələrdə olması, xalqa dayaq durması imperiyanın planlarını poza bilərdi. Buna görə də o, nəinki idarəçilikdən uzaqlaşdırıldı, hətta xalqın gözündən salınması üçün yalançı təbliğat obyektinə çevrildi.

Mərkəzi və yerli mətbuat Azərbaycan SSR-də Heydər Əliyevin rəhbərlik etdiyi illərdə iqtisadi və mədəni sahələrdə əldə edilmiş mühüm nailiyyətləri qərəzli, məqsədyönlü şəkildə riyakarcasına danır, xalqa qara yaxırdı. Bu, Azərbaycanda cəmiyyətin müəyyən qruplarında xalqın gücünə, idarəçilik bacarığına inamı zəiflədirdi.

Moskva mərkəzdənqaçma qüvvələrini cilovlamaq üçün ənənəvi «parçala və hökmranlıq et» siyasətindən daha geniş istifadə edib milli münaqişələri qızışdırdı, xalqlar arasında qanlı nifah saldı. İmperiyanın 30-dan çox bölgəsində əvvəldən məharətlə hazırlanmış milli münaqişə ocaqları alovlandırıldı.

«Yenidənqurma»nın elan edilən nəcib, cəlbedici məqsədləri Azərbaycan xalqında, xüsusən ziyalılarda böyük ümidlər doğurmuşdu. Xalq arasında demokratik ideyalar sürətlə yayılırdı. Bundan ciddi narahat olan mərkəz mühüm geosiyası ərazi olan Azərbaycanı və bütün Cənubi Qafqazı əldə saxlamaq üçün yenidən uydurma Dağlıq Qarabağ problemini qızışdırdı. Sovet imperiyasını dağıtmaq üçün milli münaqişələr törətməyi mühüm vasitə hesab edən Qərb dövlətləri də bu işdə fəal iştirak etdilər. Avropa parlamenti 1987-ci ilin iyulunda erməni «genosid»i qurbanlarına xatirə günü təsis etdi. Avantürist erməni jurnalisti, daşnak Zori Balayanın Azərbaycan xalqını təhqir edən, tarixi saxtalaşdıran «Ocaq» kitabı bu işdə müstəsna rol oynamışdı.

Ermənilərin hərəkətləri daha davakar, həyasız xarakter aldı. H.Əliyevin SSRİ dövlət hakimiyyətindən uzaqlaşdırılması onlarda öz niyyətlərinə çatmaq ümidini artırdı. Erməni millətçilərinin tələbi ilə Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla torpaq sahələri Ermənistana «bağışlandı». Bu, xalqda böyük narazılıq yaratdı. Hətta Qazaxda camaat onları sakitləşdirməyə gələn respublika baş nazirinin müavinini döyüb qovdu. Lakin Kamran Bağırov xalqın narazılıq çıxışlarını hərbçilərin köməyi ilə susdura bildi. Erməni təxribatçıları Bakıda Opera və Balet teatrını üç dəfə yandırdılar, şəhər nəqliyyatında partlayışlar törətdilər. Bu terrorçu aktların icraçıları həbs olunsa da artıq nifah düşmüşdü. Milli münaqişə getdikcə alovlanırdı.

**Qarabağ münaqişəsi**

Azərbaycanlılar və emənilər arasında yaratdığı Dağlıq Qarabağ münaqişə ocağını alovlandırmaq məqsədilə Moskva hələ 40-cı illərdə Ermənistanda təşkil edilmiş Qarabağ hərəkatı, «Qarabağ komitəsi»nin fəaliyyətini genişləndirmək üçün münasib şərait yaratdı. 1987-ci ilin oktyabrında Yerevanda «Qarabağ komitəsi»nin ilk mitinqi keçirildi. Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə Qorbaçovun əsabələrindən olan A.Aqanbekyanın dili ilə «Qarabağ hərəkatı»na müsbət münasibətini qeyri-rəsmi şəkildə olsa da, bütün dünyaya bildir-

məkdən çəkinmədi. Hərəkata yenə də bir qrup millətçi erməni ziyalıları arxasından kommunist-daşnaklar, Ermənistan KP liderləri, DTK agentləri rəhbərlik edirdilər. Moskvada ermənilərin «Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi» və «Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi» də bu istiqamətdə fəal iş görürdülər. Sovet imperiyası tənəzzül edərkən fəallaşmış erməni millətçilərinin ilhamçısı təkcə Moskva deyildi. Erməni millətçi-sosialist Daşnaksütyun partiyasının 1985-ci ilin dekabrında Afinada keçirilən XXIII qurultayı sərsəm «Böyük Ermənistan» uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, qüvvələri birləşdirməyə çağırmışdı. «Qarabağ komitəsi»nin Azərbaycan SSR-də, xüsusən DQMV-də uzun müddət gizli fəaliyyət göstərən yerli «Krunk» (Durna) təşkilatı bu millətçi təşkilatların bilavasitə köməyi ilə açıq, fəal mübarizəyə başladı. Dağlıq Qarabağ erməniləri arasında Ermənistanla birləşmək uğrunda «Miatsum» (birləşmə) hərəkatı genişlənirdi. Ona «55-lər komitəsi» adlı xüsusi orqan rəhbərlik edirdi.

İki xalq arasında milli ədavətin ilk qurbanları bu dəfə də Ermənistanda yaşayan azərbaycanlılar oldular. Öz dədə-baba yurdunda yaşayan azərbaycanlıların kütləvi şəkildə qovulmasının son–dördüncü mərhələsi başlandı. Bunun üçün əvvəlcədən xüsusi silahlı dəstələr hazırlanmışdı. 1987-ci ildə Ermənistanın Qafan və Mehri rayonlarından bu cinayətkar dəstələrin əməllərindən yaxa qurtaran ilk qaçqınlar Azərbaycana pənah gətirdilər. Onlar, əsasən Sumqayıt şəhərində və onun ətrafındakı məntəqələrdə məskunlaşdılar. 1988-ci il fevralın 19-da Yerevanda antitürk mitinq keçirildi. «Ermənistanı türklərdən təmizləməli», «Ermənistanda ermənilər yaşamalıdır» və s. millətçi şüarlar irəli sürüldü. Erməni vandalları fevralın 21-də Yerevanda qalmış son məscidə hücum edib bu müqəddəs ocağı dağıtdılar. Vedibasarda Azərbaycan türklərinə qarşı terror 1988-ci ilin əvvəllərində daha da genişləndirildi. Kəndlər talan olunurdu. Qızlar, gəlinlər, ağsaqqallar təhqir edilirdi. Heç yerdən köməyi olmayan, döyülmüş, alçaldılmış dörd min nəfərə qədər adam ev-eşiyini atıb böyük çətinliklə, piyada, ayaqyalın-başıaçıq qarlı dağ keçidləri ilə qaçıb Azərbaycana gəlməyə məcbur oldu. DQMV-dəki erməni millətçiləri bundan ruhlanaraq daha fəal siyasi aksiyalar keçirməyə başladılar. 1988-ci ilin əvvəllərindən Xankəndində erməni əhalisi ardı-arası kəsilməyən kütləvi mitinqlər,

nümayişlər keçirirdi. Mitinqçilərin tələbi ilə fevralın 20-də Vilayət Sovetinin sessiyası Azərbaycan SSR Ali Sovetinə DQMV-nin statusuna baxılması haqqında müraciət qəbul etdi. Moskva münaqişəni daha da qızışdırırdı. Sov. İKP MK Siyasi Bürosunun Bakıya gəlmiş üzvü sərhədləri dəyişdirməyin yolverilməzliyindən danışır, Yerevana gedən üzvü isə DQMV-dəki separatçılığa haqq qazandırırdı.

Respublikanın suveren hüquqlarının tapdalanmasına Moskvanın, Azərbaycan rəhbərliyinin qəti etiraz etmədiyini görən Azərbaycan xalqı böyük həyəcan içində idi. Kortəbii mitinqlər, etiraz nümayişləri keçirilirdi. Ermənistandan azərbaycanlıların döyülüb, alçaldılıb qovulmasına, Yuxarı Qarabağda isə ermənilərin həyasızcasına torpaq iddialarına qarşı münaqişə zonasında yaşayan azərbaycanlılar xüsusən qəti etiraz edirdilər. Aşağı Qarabağ bölgələrindən toplanaraq Yuxarı Qarabağdan satqın erməniləri birdəfəlik qovmaq, münaqişəni başlanğıcda həll etmək, onun böyüyüb qanlı müharibəyə çevrilməsinin qarşısını almaq üçün əliyalın olsa da, yürüşə hazırlaşan azərbaycanlıları rəsmi Bakının göstərişi ilə Bakıdan gələn və yerli funksionerlər dayandırdılar.

Hətta tanınmış təsərrüfatçı Xuraman Abbasova öz torpağını müdafiəyə qalxmış cavanları sakitləşdirmək, yürüşü dayandırmaq üçün baş örpəyini açıb onların qabağına atmışdı. Fevralın 24-də vilayətin Əskəran rayonunda ermənilərin iki nəfər azərbaycanlını öldürməsi, 19 nəfərin yaralanması vəziyyəti daha da gərginləşdirdi.

Erməni millətçiləri xarici ölkələrdə kök salmış lobbilərinin dünyanın əsas informasiya mərkəzlərinə təsir imkanlarından istifadə edib beynəlxalq ictimaiyyəti aldatmağa, öz istilaçılıq niyyətlərinə haqq qazandırmaq üçün ermənilərin cəfakeşliyi, azərbaycanlıların isə vəhşi, quldur, qaniçən olması haqqında yalan təsəvvürlər yaratmağa, xristian həmrəyliyinə nail olmağa, münaqişənin guya dini mahiyyət daşıdığını, hansısa qlobal xristian – islam qarşıdurmasının tərkib hissəsi olduğunu göstərməyə çalışırdılar. Öz qeyri-insani əməllərinə haqq qazandırmaq, azərbaycanlıları biabır etmək məqsədilə ermənilər böyük sensasiya yaradacaq dəhşətli bir faciə törətməyi planlaşdırırdılar. Onlar bu işdə Moskvanın himayədarlığına arxalanırdılar və Azərbaycanda sabitliyin pozulması ilə xalqın ciddi narazılığını mərkəzə çatdırmaq istəyən hakim dairələrin fəaliyyətsiz qalacağına əmin idilər. Bunun üçün ən münasib yer Sumqayıt şəhəri hesab olunurdu. Son iki ildə, xüsusən 1988-ci ilin yan-

var-fevral aylarında Ermənistandan zorla qovulmuş dörd min nəfərdən çox qaçqın buraya, qohumlarının yanına pənah gətirmişdi, milli iğtişaşa təhrikçilik üçün münasib şərait yaranmışdı.

Sumqayıt aktı dəqiq plan üzrə həyata keçirildi. Varlı ermənilər əmlakını, əmanət kassalarındakı pullarını götürüb şəhəri tərk etdilər. Ekstremist əhvali-ruhiyyə qəsdən qızışdırılan, hər an milli toqquşma baş verə biləcək şəhərdə milisə nəinki odlu silah, heç adi dəyənək də gəzdirməyə icazə verilmirdi. Prokurorluq orqanları, fevralın 28-dən 29-na keçən gecə şəhərə gətirilmiş hərbi hissə də hadisələrin ən gərgin vaxtı fəaliyyətsiz dayanmışdı.

Sifarişlə törədiləcək faciəni lentə almaq, elə səhəri gün hay-küylə bütün dünyaya çatdırmaq üçün əsas cinayətlərin baş verəcəyi yerlərdə əvvəlcədən tele, fotooperatorlar yerləşdirilmişdi.

Sumqayıtda Azərbaycanın suveren hüquqlarının tapdanmasına, Ermənistanda azərbaycanlı genosidinə qarşı kortəbii çıxışlar fevralın 20-dən başlamışdı. Təhrikçi qüvvələr, cinayətkar elementlər vəziyyətdən istifadə edərək hüquq mühafizə orqanlarının «qarışmazlıqda» təzahür edən razılığı ilə ehtirasları qızışdırırdılar. Fevralın 27-də şəhərdə böyük mitinq oldu. Səhəri gün erməni talanları başlandı. Şəhər rəhbərliyinin gətirilmiş ordu hissələrindən istifadə edib cinayətlərin qarşısını almaq tələbi cavabsız qaldı. İlk cinayət hərəkətlərini özünü azərbaycanlı kimi qələmə verən «Paşa» ləqəbli E.Qriqoryan törətdi. Cinayətkarlara erməni ünvanlarını Mənzil istismar idarəsində işləyən erməni tanışı vasitəsilə Qriqoryanın arvadı əldə edib vermişdi. Qriqoryan özü şəxsən beş erməni öldürmüşdü. Azərbaycanlılar içərisində emosiyaya qapılaraq cinayət törədənlər də olmuşdu. Lakin erməniləri evlərində gizlədən, onları ölümdən xilas edənlər də az deyildi.

Ordu və hüquq mühafizə orqanları artıq iş-işdən keçəndən sonra, ayın 29-da axşama yaxın hərəkətə gəlib cinayətlərin qarşısını almaq üçün tədbirlərə başladı.

Erməni millətçilərinin törətdiyi bu faciə nəticəsində şəhərdə 32 nəfər, o cümlədən 26 nəfər erməni və 6 nəfər azərbaycanlı öldürülmüş, 200 mənzil qarət olunmuş, onlarla ictimai bina, avtobus, şəxsi maşınlar yandırılmışdı. Bütün Azərbaycan xalqı, onun ictimai təşkilatları Sumqayıtda törədilmiş bu faciənin müəlliflərini və iştirakçılarını ciddi tənqid etdi. Lakin düşmənlər istəyinə nail oldular. Onlar baş vermiş faciənin nəticələrini ağlasığmaz uydurmalarla bəzəyib beynəlxalq ictimaiyyətdə azərbaycanlılara qarşı mənfi rəy yarada bildilər.

Sumqayıt hadisələrindən sonra Ermənistanda qanlı antitürk hərəkatının hökumətin və «Qarabağ hərəkatı» liderlərinin mütəşəkkil şəkildə təşkil etdiyi bir dövrü başlandı. Bu işdə yaxşı silahlandırılan erməni qeyri-formal hərbi birləşmələri fəal iştirak etdilər. Martın 10-da Yerevandan cənubda Mehmandan kəndinin 4 azərbaycanlı sakini qətlə yetirildi. Martın 25-də Ararat rayonunun Azərbaycan kəndlərində 100-dən çox ev talan edilib yandırıldı, əhalisi qovuldu. Mayın ortalarında Yerevan yaxınlığındakı Azərbaycan kəndlərinə yenidən basqın edildi. Şirazlı kəndinin 880 nəfər sakini SSRİ–Türkiyə sərhədinə qaçıb orada sığınacaq tapdılar. İyunun 20-də Ararat rayonunun daha beş Azərbaycan kəndinin 10 minə qədər sakini silahlı erməni quldurlarından yaxa qurtarıb onlara qoşuldu. Erməni faşistləri Quqark rayonunda daha dəhşətli faciələr törətdilər. 1988-ci il noyabrın axırları-dekabrın əvvəllərində bu rayonda 70 nəfər azərbaycanlı qətlə yetirilmişdi. Rayonun Gözəldərə kəndində 21 nəfər, o cümlədən 6 qadın və 3 körpə öldürülmüşdü. Ermənistanda azərbaycanlıların genosidi, hətta burada baş verən dəhşətli zəlzələdən (7 dekabr) sonra belə dayanmaq bilmədi.

Təbii fəlakətə düçar olmuş qonşusuna ilk kömək əlini Azərbaycan uzatdı. Dekabrın 8-də Bakıdan 80 peşəkar xilasedici, 28 güclü avtokrandan ibarət mexanikləşdirilmiş dəstə Spitaka yola düşdü, onlar təkcə ilk günlər 63 nəfəri ölümdən xilas etdilər, uçqunlar altından 320 meyit çıxartdılar. Dekabrın 11-də Azərbaycandan zəlzələ zonasına «İl-76» təyyarəsində köməyə gedən 78 nəfər, o cümlədən 50 nəfər azərbaycanlı, 1 nəfər ləzgi və başqa millətlərin nümayəndələri Leninakan yaxınlığında qəzaya uğradı. 77 nəfər həlak oldu. Lakin erməni millətçiləri azərbaycanlılara qarşı qanlı əməllərinə yenə də son qoymadılar. Nəticədə Ermənistanda bir nəfər də azərbaycanlı qalmadı. Onların son nümayəndələri – Nüvədi kəndinin əhalisi də 1991-ci il avqustun 8-də bir gün ərzində rus əsgərlərinin köməyi ilə Ermənistandan qovuldu. Beləliklə, Ermənistanda Azərbaycan türklərinin öz doğma torpaqlarında genosidi başa çatdı. 1988-ci ildə Ermənistandakı 185 azərbaycanlı kəndindən, habelə digər yaşayış məntəqələrindən 230 min nəfərə qədər azərbaycanlı qovuldu. Onlara məxsus 31 min ev, 165 kolxoz və sovxoz əmlakı, çoxlu mal-qara talandı. 225 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, bədəninin əzaları kəsildi, gözləri çıxarıldı.

Ermənistanda azərbaycanlılara qarşı törədilən cinayətlərin Moskvada, habelə müvəffəqiyyətlə aldadılan dünya ictimaiyyəti tərəfindən soyuqqanlılıqla qarşılanması Dağlıq Qarabağ sepatarçılarının əl-qolunu

daha da açdı. Moskva Azərbaycanın qanuni ərazisini ondan qoparıb Ermənistana birləşdirmək istəyən ermənilərlə öz torpaqlarını, konstitusiya hüquqlarını qorumaq üçün ayağa qalxmağa məcbur olmuş Azərbaycan xalqının mənafelərini bərabər tutmaq kimi qeyri-real, riyakar təşəbbüslər göstərirdi. Qorbaçovun hər iki xalqa müraciəti (1988-ci il 23 fevral), Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin «1988–1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» (1988-ci il 24 mart), habelə SSRİ Ali Soveti Rəyasət Heyətinin mövcud ixtilafları hər iki xalqın mənafeyinə uyğun şəkildə həll etmək haqqında (1988-ci il 18 iyun) qərarları vəziyyətdən real çıxış yolları göstərə bilmədi. Əslində Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasına icazə verildi.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti «Krunk» cəmiyyətini xalqlar arasında nifaq salmaq kimi yolverilməz bir fəaliyyətdə günahlandırıb rəsmən qadağan etsə də o, yenə də fəal iş aparırdı. İyunun 21-də DQMV Xalq Deputatları Sovetinin sessiyası vilayətin Ermənistan SSR-ə verilməsi məsələsini müzakirə etdi. Azərbaycan SSR Ali Sovetinin sessiyası bunun qeyri-qanuni, respublikanın hüquqlarına zidd olduğunu bildirdi. Ermənistan SSR Ali Soveti isə yenə kobudcasına Azərbaycanın daxili işlərinə qarışaraq vilayəti öz tərkibinə qəbul etməyə razılıq verdi.

İmperiyanın səlahiyyətli nümayəndəsi A.İ.Volskinin «iki xalq arasında kompromis yaratmaq» adı altında ermənipərəst missiyası da səmərəli oldu. Xankəndində tətil və nümayişlər ara vermirdi. Sentyabrın 18-də ermənilər azərbaycanlılar yaşayan Xocalı kəndinə hücum etdilər. Qanlı toqquşma oldu. Sentyabrın 21-də və oktyabrın 18-də Xankəndində azərbaycanlıların, Şuşada isə buna cavab olaraq ermənilərin evləri, avtomobilləri yandırıldı.

«Vəziyyəti nizama salmaq üçün» SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycanın hüquqlarını kobud surətdə pozaraq 1989-cu il yanvarın 12-də «Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında» qərar qəbul etdi. Volskinin başçılığı ilə Muxtar Vilayət Xalq Deputatları Soveti, onun İcraiyyə Komitəsi hüququnda mərkəzə tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) təşkil edildi, bütün dövlət və ictimai orqanların səlahiyyəti dayandırıldı. XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə, onun Azərbaycanla iqtisadi əlaqələrinin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasına və quldur dəstələrində birləşdirilmə-

sinə şərait yaratdı. DQMV-də Laçın, Şaumyan və Xanlar (indiki Goranboy rayonunun bir hissəsi) rayonlarının ərazisində silah, sursat cəbbəxanaları yaradıldı. Ermənistandan DQMV-nin Mardakert (indiki Ağdərə) rayonundakı gizli təyyarə meydanına silah və sursat daşınırdı. Azərbaycanlılardan isə adi ov silahları da alınırdı. SSRİ Nazirlər Sovetinin 6 may 1989-cu il qərarı ilə DQMV-dəki idarə və müəssisələr Azərbaycan SSR-in tabeliyindən çıxarıldı. İyunun 13-dən XİK-in tam imkan yaratdığı şəraitdə azərbaycanlılar yaşayan məntəqələrin blokadasına başlandı. Sovet Ordusunun köməyi ilə silahlı erməni quldurları – «saqqallılar» iyulda Xankəndindən bütün azərbaycanlıları (14 min nəfər) qovub çıxartdılar. Avqustun sonlarında isə bir hissəsi qırıldıqdan sonra azərbaycanlılar Cəmilli, Həsənabad və Daşbulaq kəndlərini tərk etməyə məcbur oldular. İyulun axırlarında Şaumyan Xalq Deputatları Sovetinin erməni deputatları «sessiya» adlandırılan yığıncaqlarında bu rayonun DQMV-yə birləşdirilməsini Azərbaycan SSR Ali Sovetindən xahiş etdilər. Avqustun ortalarında daha bir təhrikçi akt həyata keçirildi. DQMV-də xüsusi idarə rejimi pozularaq «xalq adından çıxış edən nümayəndələrin» qurultayı keçirildi və burada vilayətin bədnam ali hakimiyyət orqanı – Milli Şura «seçildi».

Azərbaycanın demokratik qüvvələrinin təkidli tələbi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda vəziyyəti normal hala salmaq üçün XİK-i ləğv etdi. Vilayətin idarəsi SSRİ Ali Soveti xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR-in Təşkilat Komitəsinə tapşırıldı. Lakin yenə də Mərkəz tərəfindən qəti tədbir görülməməsi erməniləri yeni təhrikçi hərəkətlərə şirnikdirirdi. Ermənistan SSR Ali Soveti dekabrın 1-də «Ermənistan SSR-i və Dağlıq Qarabağı birləşdirmək haqqında» qərar qəbul etdi. Xankəndində Ermənistan bayrağı qaldırıldı, təsərrüfat idarələri və müəssisələr Ermənistanın nazirlik və baş idarələrinə tabe edildi. Vəziyyət daha da gərginləşdi. 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV və başqa rayonlarda fövqəladə vəziyyət elan etdi. SSRİ Nazirlər Soveti 1990-cı il mayın 22-də Muxtar Vilayətin iqtisadiyyatını idarə etmək hüququnu yenidən Azərbaycana qaytardı. Respublika Təşkilat Komitəsi, hərbi komendatura, xüsusi təyinatlı milis dəstələri vilayətdəki azərbaycanlılar yaşayan kəndlərin blokadasını açmağa, qanunsuz silahlı dəstələri ləğv etməyə başladı. Ermənistandan buraya silah və sursat daşınmasının qarşısını almaq üçün tədbirlər görüldü. 1990-cı ilin yanvar–iyun aylarında vilayətin 43 yaşayış məntəqəsində 67 xüsusi əməliyyat aparılıb, quldurlardan silahlar alınmışdı.

Vəziyyətin nizama düşməsini istəməyən erməni millətçiləri ciddi müqavimət göstərir, Ermənistandan Azərbaycan ərazisinə silahlı basqınlar edirdilər. Naxçıvan MSSR Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tutur, dəmiryolçuları, sərnişinləri qətlə yetirirdilər. 1990-cı il yanvarın 12-də düşmən bir neçə hərbi vertolyotla Azərbaycanın Xanlar rayonunun Quşçu kəndinə desant ataraq dinc əhaliyə vəhşicəsinə divan tutdu, onlarla adam – qoca, uşaq, qadın qəddarlıqla öldürüldü. Erməni faşistləri Naxçıvanın Kərçi kəndinə basqınlar edib 320 sakini oradan qovdu və kəndi ələ keçirdi. Bu əməliyyatlarda Sovet ordusunun əsgərləri və zabitləri də iştirak edirdilər. Azərbaycan ərazisi Ermənistandakı raket atəşinə tutulurdu. 1990-cı il martın 24-də gecə üç erməni hərbi hissəsi rusların köməyi ilə Qazax rayonunun Bağanıs-Ayrım kəndinə hücum etdilər. Kənd əhalisindən yeddi nəfəri, o cümlədən iki qadını və ikiaylıq körpəni öldürüb yandırdılar.

Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd boyu (975 km) fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğuları ilə möhkəmləndirildi, onu müdafiə etmək üçün milis dəstələri yaradıldı. Bu zaman SSRİ Silahlı Qüvvələri SSRİ-nin saxlanılmasına münasibət haqqında 17 mart Ümumittifaq referendumunda iştirak etməyən Ermənistana «dərs vermək», habelə Azərbaycandakı kommunist rejimini dəstəkləmək üçün erməni silahlı dəstələrinə köməyi xeyli azaltdı. 1991-ci il mayın əvvəllərində Çaykənd və Martunaşendə pasport rejimi tətbiq edildi və hərbiləşdirilmiş erməni birləşmələri tərksilah edildi. İyulun əvvələrində Goranboy rayonunun Azadkənd, Sarısu, Manaşid, Erkeç və Buzluq kəndlərində erməni silahlı quldurlarının dayaq məntəqələri dağıdıldı. Erməni əhalisi öz razılıqları ilə bu bölgələrdən köçüb getdilər. Lakin Ermənistan yenə rusların köməyi ilə sərhəd zonalarındakı Azərbaycan kəndlərinə basqınlardan əl çəkmirdi. Avqustun 18–22-də erməni hərbi hissələri rusların köməyi sayəsində vertolyotlarla və ağır texnika ilə Qazax rayonuna hücuma keçdi. Bağanıs-Ayrım kəndi dağıdıldı, dinc əhaliyə işgəncələr verildi. Erməni hərbi hissələrinin Zəngilan, Qubadlı və Laçın rayonu kəndlərinə də hücumları ara vermirdi.

Can üstündə olan imperiya milli münaqişəni daha da dərinləşdirirdi. Lakin bütün dayaqları çürümüş imperiyanı bu yolla da xilas etmək mümkün deyildi. Onun iflası günü-gündən yaxınlaşırdı. İmperiyanın

pəncəsindən xilas olmağa çalışan Azərbaycan xalqının tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə qəbul olunması ilə əlaqədar Qarabağ münaqişəsi daha da kəskinləşdi, Ermənistanın əli ilə Azərbaycana qarşı aparılan təcavüzkar müharibəyə çevrildi.

## § 2. Xalq hərəkatının başlanması

Uzun illər əsarətə, var-dövlətinin talan edilməsinə, milli və dini hislərinin təhqir olunmasına, hüquqlarının tapdalanmasına dözmüş xalqın səbir kasası artıq dolmuşdu. İmperiyanın türk xalqları ilə Türkiyə arasında mühüm körpü olduğundan əsas zərbə hədəfi Azərbaycan seçilmişdi. Moskva Ermənistanda və Dağlıq Qarabağda Azərbaycan türklərinin soyqırımı törətmək, Azərbaycanı parçalamaq siyasətini həyata keçirirdi. Bu siyasət Azərbaycanda xalq hərəkatının yüksəlməsinə güclü təkan verdi.

1988-ci ilin əvvəllərindən ilk kütləvi etiraz tədbirləri başlamışdı. Hərəkat həmin ilin sonunadək, demək olar ki, kortəbii xarakter daşıyırdı. Doğrudur, yenicə yaranmağa başlayan ictimai-siyasi təşkilatlar – 1987-ci ilin axırlarında Dövlət Universitetində yaradılmış «Yurd» təşkilatı, 1988-ci ilin baharından fəaliyyət göstərən «Çənlibel» cəmiyyəti, «Varlıq» komitəsi, Azərbaycan Xalq Cəbhəsinin (AXC) təşəbbüs qrupu bu hərəkata istiqamət verməyə çalışırdı. Lakin yeni ictimai-siyasi təşkilatlar hələ kifayət qədər güclü deyildilər. İlk etiraz mitinqi 1988-ci il fevralın 19-da Bakıda keçirilmişdi. Ermənistanda Azərbaycan türkləri soyqırımının kütləvi hal almasına qarşı mayın 16-da universitetin qarşısında «Yurd» təşkilatının fəal iştirakı ilə böyük mitinq təşkil olunmuşdu. Mitinqçilər oradan şəhərin baş meydanına – indiki «Azadlıq» meydanına (o zaman Lenin adına meydan adlanırdı) getmişdilər. Burada davam edən mitinqdə görkəmli ziyalılar çıxış etmiş, xalqı, rəhbərləri respublikanın hüquqlarını müdafiə etməyə çağırmışdılar. Mitinqçilər mərkəzdən və respublika rəhbərliyindən erməni millətçilərinin azğın hərəkətlərinə son qoymağı tələb edirdilər. Respublikanın başqa şəhərlərində də mitinqlər keçirilirdi. Erməniпərəst Moskvada sözü keçməyən respublika rəhbərliyi xalqın ciddi narazılığını nümayiş etdirib ağalarına təsir göstərmək istəyirdi və belə mitinqlərin keçirilməsinə mane

olmurdu. Lakin tanınmış ziyalıları mitinq tribunalarına cəlb etməklə kortəbii etiraz hərəkatının böyüyüb bu milli münaqişəni törədən rejimə, onun respublikadakı canişininə qarşı ümumxalq hərəkatına çevrilməsinə yol verməməyə çalışırdı.

Həmin günlərdə «Çənlibel», «Bakı şəhər alimlər klubu», «Bakı incəsənət mərkəzi», AXC-nin təşəbbüs qrupu və başqa yeni ictimai-siyasi təşkilatlar xalq arasında siyasi maarifçilik işini genişləndirirdi. Seminarlar, diskussiyalar, konfranslar təşkil olunur, xalqın düşdüyü bəlanın əsl səbəbləri və ondan çıxış yolları axtarılırdı.

Moskva 1988-ci ilin mayında Azərbaycandakı canişinini dəyişdirib, qəsdən xalqın psixologiyasını, adət-ənənələrini, köklü maraqların yaxşı bilməyən Əbdürrəhman Vəzirovu hakimiyyətə gətirmişdi. Xalqın taleyüklü problemlərinin həll olunduğu, hamının siyasiləşdiyi, vəziyyətdən real çıxış yolları axtardığı vaxt, yeni birinci katibin on illərlə yığılıb qalan iqtisadi və sosial məsələləri «kompyuterləşdirmə», «qoz istehsalını artırmaq», «kəndlərdə hamam tikintisini genişləndirmək» və s. kimi vasitələrlə həll etmək planlarını açıqlaması tezliklə onu nüfuzdan salmışdı.

Moskvanın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi A.Volskinin ermənipərəst siyasəti, xüsusən nadir «Topxana meşəsi»ndə ermənilərin sənaye obyektləri tikintisinə başlaması xəbəri xalqı hərəkətə gətirdi. Noyabrın 15-də Bakı Dövlət Universitetinin qarşısında, səhəri gün Elmlər Akademiyasının böyük dairəvi zalında və M.Ə.Sabir adına bağda «Yurd» təşkilatının təşəbbüsü ilə mitinqlər keçirildi. Xalq hərəkatının kortəbii mərhələsinin ən yüksək dövrü noyabrın 17-dən başlandı. Həmin gün səhər universitet, akademiya, politexnik, iqtisad institutları qarşısında nümayişçi dəstələr milisin canlı maneələrini aşaraq Sabir adına bağa, oradan isə «Azadlıq» meydanına gəldilər. Meydanda mitinqçilərin tələbləri oxundu. Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan qurumun ləğv edilməsi, əks-təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyalar həyata keçirilməsi, Azərbaycandan olan deputatların SSRİ Ali Sovetinin sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblər idi. Bu tələblər Azərbaycan rəhbərliyini qane edirdi. Lakin axşam hökumət nümayəndələri mitinqi dayandırıb dağılışmağı təkid etdikdə, mitinqçilər tələblər yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini bildirdilər. Meydanda liderliyi gənc fəhlə Nemət Pənahov ələ aldı. Burada «Moskvanın fitnələri», «Suverenlik», «Azad-

lıq» sözləri eşidilməyə başlandı. Bundan Moskvaya təzyiq edib respublikada hakimiyyəti ələ keçirmək istəyən qüvvələr istifadə etməyə çalışırdılar. Bakının bəzi rayonlarında vəziyyət qəsdən gərginləşdirilir, xuliqanlıq hərəkətləri törədilirdi. Naxçıvanda dövlət orqanlarının binasına hücum edilmişdi. Gəncədə əhali ilə ordu arasında qanlı toqquşma baş vermiş, 160 nəfər yaralanmış, üç əsgər və bir uşaq öldürülmüşdü. Bunları bəhanə edərək hökumət noyabrın 24-də Bakı, Naxçıvan və Gəncə şəhərlərində fövqəladə vəziyyət və komendant saatı tətbiq etdi.

Xalq meydana Azərbaycan SSR-in oraq-çəkicli bayrağı ilə gəlmişdi, burada 1918–1920-ci illərdə mövcud olmuş müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı qaldırıldı. Xalqın mübarizə ruhu daha da artdı. Hər gün on minlərlə adam küçələri qapayan tankların, əsgərlərin arasından keçərək səngimək bilməyən meydana axışırdı. Çox vaxt mitinqçilərin sayı milyonu ötürdü. Gecələr meydanda qalanmış tonqalların ətrafında minlərlə adam qalırdı. Lakin burada macəraçılıq siyasi reallıqları tədricən üstələyirdi.

Artıq xalq dərk edirdi ki, meydan o zamankı reallıqlar şəraitində mitinqlə mümkün olan nəticəni əldə etmişdir. İndi təşkilatlanmaq, mübarizəni başqa demokratik vasitələrlə davam etdirmək lazım idi. Mitinqçilərin sayı getdikcə azalır, meydanın mühasirə həlqəsi daralırdı. Dekabrın 3-də hökumətin hərbi qüvvələri mitinqçilərdən meydanı tərk etməyi tələb etdi. Mitinqçilərin çoxu dağıldı. Dekabrın 4-də gecə hərbçilər hücum edib zorla meydanı boşaltdılar, burada gecələyən mitinqçiləri həbs etdilər.

Meydan dağıldıqdan sonra bir neçə gün Bakıda və respublikanın başqa şəhərlərində etiraz tətil və nümayişləri keçirildi.

Meydan, xalq hərəkatının birinci – kortəbii mərhələsinin zirvəsi idi. Meydan xalqda özünəinam yaratdı, ümummilli mənafe uğrunda birləşmək bacarığı aşıladı, bir çox siyasi liderlər yetişdirdi. Başlıcası isə bu idi ki, xalq artıq təşkilatlanmağın, vahid cəbhədə birləşməyin vacibliyini dərk etdi. Xalqa rəhbərlik etmək üçün qabaqcıl ziyalıları birləşdirməyə çalışan Xudu Məmmədov 1989-cu ilin oktyabrında qəfildən dünyasını dəyişdi. Siyasi fəaliyyət təcrübəsi olanlar, xüsusən, görkəmli siyasətçi, dövlət xadimi Heydər Əliyev mərkəz tərəfindən ciddi təqib olunur, onların xalqla birləşməsinə hər vəchlə maneçilik törədilirdi. Buna görə də xalq Azərbaycanın SSRİ daxilində iqtisadi və mədəni suverenliyi uğrunda mübarizə aparmağı, hüquqi dövlət, vətəndaş cəmiyyəti qurmağı proqram məqsədi elan etmiş, lakin kifayət

qədər siyasi təcrübəsi olmayan liderlərin rəhbərliyi altında fəaliyyət göstərən AXC ətrafında birləşməyə başladı. 1989-cu il martın 13-də AXC təşəbbüs qrupu və «Varlıq» komitəsi arasındakı siyasi razılaşma əsasında AXC-nin Müvəqqəti Təşəbbüs mərkəzi təşkil edildi. 1989-cu il iyunun 16-da Bakıda AXC-nin təsis konfransı keçirildi. Cəbhənin Proqram və Nizamnaməsi qəbul olundu. İdarə heyəti seçildi. Əbülfəz Əliyev AXC-nin sədri oldu.

AXC mübarizəyə qalxmış xalqın, demək olar ki, bütün təbəqələrini, o cümlədən siyasətdə radikal, liberal, barışdırıcı mövqe tutanları belə birləşdirirdi. Cəbhə demokratik mərkəziyyət prinsipindən imtina etmişdi. Onun konfederativ quruluşu, yuxarı təşkilatların qərarının üzvləri üçün yalnız məsləhət xarakter daşıması, tədbirlərdə iştirakın tam könüllü olması buna imkan yaradırdı. Cəbhə daxilində plüralizm, ən müxtəlif fraksiyaların yaradılması nəzərdə tutulurdu. AXC sədri təmsilçilik funksiyası daşıyırdı, onun hətta səsvermək hüququ yox idi.

Belə bir ifrat demokratik nizamnamə ilə xalqın taleyi həll olunan çox mürəkkəb siyasi şəraitdə ona rəhbərlik edə biləcək güclü təşkilat yaratmaq mümkün deyildi. Bundan yuxarı dairələrdə hakimiyyət uğrunda mübarizə aparan qüvvələr məharətlə istifadə edir, «öz adamlarını», xüsusi idarə agentlərini bu təşkilata yeridirdilər. Respublikada fövqəladə vəziyyət şəraitində iyun–sentyabr aylarında keçirilən kütləvi mitinq və tətillər, hətta Ali Sovetin növbədənkənar sessiyasında suverenlik haqqında qanunun qəbulu əvvəlcədən «yuxarılarda» hakmiyyətə gəlmək istəyənlərin ssenariləri üzrə baş vermişdi.

Respublikada bu zaman hələ məskunlaşdırılmamış 200 min nəfərdən çox didərgin vardı. İqtisadi çətinliklər, cinayətkarlıq gündən-günə artırdı. Vəziyyəti iyunun 13-dən DQMV-də Azərbaycan kəndlərinin, Naxçıvan MSSR-in blokadaya alınması, Ermənistandan Azərbaycanın sərhəd rayonlarının atəşə tutulması daha da gərginləşdirirdi. İyunun 29-da Bakıda ümumşəhər mitinqi keçirildi. Xalqın yeni mitinq və tətil hərəkatının genişləndiyini görən, əvvəl mitinqlərin əleyhinə olmuş AXC İdarə Heyəti onu idarə etməyi vacib bildi. Sonrakı mitinqlər AXC-nin rəhbərliyi ilə təşkil olundu. Mitinqlər üçrəngli, ay-ulduzlu bayraq altında, çox mütəşəkkil keçirilir, Üzeyir Hacıbəyovun «Koroğlu» operasının birliyə, qələbəyə çağıran uvertürası ilə başlanır və qurtarırdı. Bu mitinqlərdə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasını çağırmaq, burada AXC İdarə Heyətinin iştirakı ilə DQMV-də XİK-in ləğv olunması məsələsinə baxmaq, suverenlik, iqtisadi

müstəqillik, vətəndaşlıq haqqında qanunlar qəbul etmək, Bakıda və başqa şəhərlərdəki fövqəladə vəziyyəti ləğv etmək, AXC-ni rəsmən tanımaq və s. tələblər irəli sürüldü. Lakin Ə.Vəzirov bu tələbləri qəbul etmədi. Avqustun 14-də Bakıda birgünlük, 21–22-də Bakı və Sumqayıtda ikigünlük xəbərdarlıq tətilləri keçirildi. Bu tətillərdə yarım milyondan çox adam iştirak etmişdi. Sentyabrın 2-də Bakı ümumşəhər tətilində tələblərə cavab verilməzsə sentyabrın 4-dən bir həftəlik ümummilli tətil başlanacağı elan olundu.

İmperiya hərəkatı Vəzirovun əli ilə boğmağa çalışırdı. Tələbələrin Bakıya gəlib kütləvi mitinqlərdə iştirak etməsinin qarşısını almaq üçün məktəblərdə dərslərin başlanması oktyabrın 2-nə keçirildi.

Sentyabrın 2-də respublikanın, demək olar ki, bütün şəhərlərində izdihamlı mitinqlər keçirildi. İki gün sonra ümummilli tətil başlandı. Bakıda şəhərin normal həyat fəalliyyətini təmin edən və texnoloji rejimi, işi dayandırmağa yol verməyən neftayırma qurğularından başqa bütün müəssisələr, habelə dəmiryolçular tətilə qoşuldu. Ayın 5-də Şimali Qafqaz dəmir yolunda hərəkət tam dayandı, imperiyanın cənub rayonlarının xalq təsərrüfatına böyük ziyan dəydi. Təkcə Azərbaycan sənayesində 130 milyon manatlıq məhsul istehsal olunmadı. Sentyabrın 6-da mitinqçilər tələblərinə «istefa» tələbini də əlavə etdilər. Bundan sonra AXC və Azərbaycan KP MK arasında danışıqlar başlandı. Üç gündən sonra tələblərin ödəniləcəyi barədə razılıq əldə olundu. Tətil sentyabrın 12-də dayandırıldı. Lakin Moskvadan qayıdan Vəzirov razılığı pozduğu üçün AXC səhəri gün yenə böyük mitinq keçirdi və xalqı tətilə çağırdı. Bundan sonra AXC və Azərbaycan KP MK arasında saziş protokolu imzalandı. Sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Sessiya DQMV XİK-in ləğvi, Azərbaycan SSR Konstitusiyasına respublika sərhədllərinin yalnız ümumxalq referendumu yolu ilə dəyişdirilə bilməsini nəzərdə tutan dəyişikliklər edilməsi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qanun layihələrinin geniş müzakirəyə verilməsi haqqında qərarlar qəbul etdi.

Suverenlik haqqında qanun layihəsinin ümumxalq müzakirəsi keçirildi. Qanuna respublikada Azərbaycan SSR qanunlarının ittifaq qanunlarından üstünlüyü və onun SSRİ tərkibindən çıxmaq reqlamenti haqqında mühüm bəndlər daxil edildi. Ali Sovetin sentyabrın 23-də öz işini davam etdirən növbədənkənar sessiyası «Azərbaycan SSR-in suverenliyi haqqında» Konstitusiya qanunu qəbul etdi. Bu, xalqda qələbə

əhvali-ruhiyyəsi yaratdı, AXC-yə inamı artırdı. Noyabrın 25-də keçirilən mitinq və burada ümumtətil elan olunması Moskvanı DQMV XİK-i ləğv etməyə məcbur etdi. Noyabrın 28-də bu komitə buraxıldı.

Azərbaycan SSR Nazirlər Soveti 1989-cu il oktyabrın 5-də AXC-ni rəsmi qeydə aldı. AXC-nin bu vaxta qədər buraxılan bülleteni əvəzinə, dekabrın 4-dən «Azadlıq» qəzeti kütləvi tirajla nəşr olunmağa başladı. Azərbaycan Xalq Cəbhəsi artıq nüfuzlu kütləvi təşkilata çevrilmişdi. Onun sıralarında 300 minə qədər üzv və tərəfdar birləşmişdi.

## § 3. Azadlıq hərəkatını boğmaq cəhdləri. Qanlı yanvar

Azərbaycan Xalq Cəbhəsi böyük nüfuza malik siyasi qüvvəyə çevrilmişdi. Bir çox bölgələrdə əsl ikihakimiyyətlilik yaranmışdı: kommunist partiyasının və xalq cəbhəsinin hakimiyyəti. AXC təşkilatlarında dövlət funksiyalarını yerinə yetirən strukturlar meydana gəlirdi. Xalq cəbhəsinin qarşıdakı seçkilərdə (mart ayında keçirilməsi nəzərdə tutulurdu) tam qələbə çalaraq hakimiyyətə gələcəyinə şübhə yox idi. 1989-cu ilin payızından başlayaraq AXC liderlərinin türkçülüyə meyillərini açıq ifadə etmələri də Moskvanı çox ciddi narahat edirdi. Mərkəz belə bir təşkilatın hakimiyyətə gəlməsinə heç vəchlə razı ola bilməzdi. Xalq hərəkatını «radikallar»a və «liberallar»a bölüb onu daxildən parçalamaq, seçkiləri fövqəladə vəziyyət, komendant saatı şəraitində keçirməklə yenə kommunistlərin qalib gəlməsinə nail olmaq üçün məkrli siyasət aparılırdı.

Əsas vasitə xalqı radikallaşdırmaq, bəzi güzəştlərlə onu zorakı hərəkətlərə şirnikləşdirmək idi. Ə.Vəzirov AXC rəhbərləri ilə görüşündə açıqca demişdi: «Gücünüzü göstərin, sizinlə hesablaşaq». AXC İdarə Heyətində hakimiyyət uğrunda mübarizə aparan radikallar bu tələyə düşdülər. AXC məclisinin birinci sessiyasında (1989-cu il, 27–28 oktyabr) cəbhə daxilində «radikallar» və «liberallar» arasında ixtilaf bütün barışmazlığı ilə üzə çıxdı. «Radikallar» AXC İdarə Heyətinin «liberal» üzvlərini təslimçilikdə, xalqa xəyanətdə, qətiyyətsizlikdə təqsirləndirdilər. Onlar AXC-nin yeni rəhbər orqanları seçiləcək fövqəladə konfransının keçirilməsini tələb etdilər. Liberallar müəyyən güzəştlərə getməyə məcbur oldular. 1989-cu il dekabrın 9-da AXC-nin müşavirəsində İdarə Heyəti buraxıldı. Onun səlahiyyətini yerinə yetirən, əsasən radikallardan ibarət Müvəqqəti Təşkilat Qrupu seçildi. Bu, radikalları

daha da fəallaşdırdı. Onlar narazılığı aşıb-daşan xalq kütlələrini öz ardınca apardılar.

1989-cu il dekabrın 8-dən Cəlilabadda fasiləsiz mitinqlər, tətillər başlandı. İnzibati orqan işçiləri xalqa silah qaldırmadı, onun tərəfinə keçdi. Xalqın tələbi ilə raykomun 57 gün əvvəl təyin olunmuş birinci katibi istefa verdi. Bu dəfə də yeni katib «yuxarıdan» göndərildi. Adamların qəzəbi daha da artdı. Vəziyyəti «nizama salmaq üçün» dekabrın 27-də rayona gətirilən milis dəstələri həbslər keçirməyə başladı. Narazılıq daha da artdı. Qəzəblənmiş əhali hücum edib raykomun, milisin binalarını dağıtdı, rəhbərlərini döyüb qovdu. Toqquşmalarda 150-dən çox adam yaralanmışdı. Dekabrın 29-da burada xalqın «xalq hökuməti» adlandırdığı hökumət fəaliyyətə başladı. Sovet hökuməti Müvəqqəti Müdafiə Komitəsi ilə əvəz olundu. Müvəqqəti Təşkilat Komitəsi və Milli Müdafiə Şurası yaradıldı.

Başqa rayonlarda hadisələr əsasən dinc yolla inkişaf edirdi. 1989-cu ilin noyabr–dekabr aylarında Sabirabad və Ağcabədi rayonlarında xalq hərəkatı rayon partiya komitələri birinci katiblərinin istefası ilə nəticələndi.

Naxçıvan MSSR kimi aztorpaqlı ərazidə 17 min hektar münbit torpaq sərhədlə tikanlı məftillər arasında qalmışdı. Bu zonadakı qədim qəbiristanlığa və ziyarətgahlara da getmək mümkün deyildi. Lakin vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər.

1989-cu ilin dekabrında Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar yandırılmışdı. Xalq cəbhəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, cənublu qan qardaşları ilə əlaqə saxlamasına imkan yaratmasını tələb etdi. Lakin razılıq əldə edilmədi.

İmperiya azadlıq əldə etmək istəyən xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə adamlara müqavimət göstərməmək əmri verilmişdi.

Dekabrın 31-də saat 13-də Araz çayı boyu 137 km Sovet–İran sərhəddində həyəcanlar başladı. Sərhəd qurğuları dağıdıldı. Hər iki tərəfdən sərhəddə toplaşanlar Arazı keçib bir-birilə görüşdülər. 1990-cı il yanvarın 7-də isə SSRİ–Türkiyə sərhəddində həyəcanlar oldu. Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında da sərhəd qurğuları dağıdıldı. Əhali cənublu qan qardaşları ilə görüşdü.

Lənkəranda da hadisələr dinc yolla inkişaf edirdi. AXC Lənkəran şöbəsi rayonda hakimiyyət orqanlarının fəaliyyətini müvəqqəti dayandırmağı qərara aldı. 1990-cı il yanvarın 11-də gecə raykom, daxili işlər şöbəsi, rabitə qovşağı, mətbəə və digər dövlət müəssisələri mühasirə olundu, partiya komitəsinin, hakimiyyət orqanlarının fəaliyyəti dayandırıldı. Müvəqqəti müdafiə komitəsi təsis olundu. Yanvarın 12-də xalqa divan tutmaq üçün mexanikləşdirilmiş hərbi hissələr Lənkərana göndərildi. Lakin qonşu Salyan, Sabirabad, Kürdəmir rayonlarında xalq qoşunlar keçəcək yolda canlı sipər yaratdı.

Bütün bunlar hakimiyyət böhranının, Moskva canişini və onun aparatının respublikadakı hadisələrə nəzarəti tam itirməsinin təzahürü idi.

Ermənilərin təhrikçilik hərəkətləri, Azərbaycanın sərhəd kəndlərinə, DQMV-dəki azərbaycanlılar yaşayan kəndlərə silahlı basqınlar isə getdikcə artırdı. Yanvarın 12-də Ermənistan SSR-dən 500 nəfər silahlı quldur dəstəsi 20 vertolyotla Xanlar rayonunun Quşçu kəndinə hücum edib dinc əhaliyə divan tutmuş, onlarla sakini, qocanı, qadını, uşağı vəhşicəsinə öldürmüşdü.

Bütün bu hadisələrə müxtəlif vasitələrlə münasib şərait yaradan Moskva öz istəyinə nail olmuş, xalqı radikallaşdıra bilmişdi. Əhali AXC-nin 6–7 yanvar 1990-cı il konfransında yeni seçilən İdarə Heyətində üstünlük təşkil edən liberalların deyil, radikalların arxasınca gedirdi. Yanvarın 12-də radikallar Milli Müdafiə Şurası (MMŞ) təşkil etdilər. Məqsəd mövcud silahlı özünümüdafiə dəstələrini birləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrinin hücumlarının qarşısını almaq idi.

AXC-ni dağıtmaq, xalq hərəkatını boğmaq üçün ən münasib vaxt yetişmişdi. Yanvarın 13-də Bakıda bir ermənininin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başlandı. Talançı dəstələrin azğın əməllərinə nə yerli hüquq-mühafizə orqanları, nə də o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane oldu. AXC İdarə Heyəti öz bəyanatında bu cinayətləri qətiyyətlə pislədi, onların səbəblərini göstərdi və qeyd etdi ki, AXC humanizm, demokratiya, insan hüquqlarının müdafiəsi prinsiplərində dayanır. Əhalinin köməyi ilə ermənilərin çoxu evlərdə, məscidlərdə, hərbi hissələrdə sığınacaq tapmışdılar. Bu işdə AXC üzvləri xüsusi fəallıq göstərmişdilər. Talanların qarşısı MMŞ özünümüdafiə dəstələrinin gücü ilə yanvarın 15-də, demək olar ki, alınmışdı. MMŞ özünümüdafiə dəstələri şəhərə tam nəzarət edirdilər. Azərbaycan SSR Ali Soveti Rəya-

sət Heyətinin müraciəti əsasında SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də «DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında» fərman verdi. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görsün. Lakin respublika hökuməti iflic vəziyyətində idi.

İmperiya respublikada hakimiyyət böhranından, bəzi bölgələrdə olduğu kimi, Bakıda da Sovet hökumətinin devriləcəyindən, beləliklə, Azərbaycanı itirəcəyindən qorxub Bakının ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı. MMŞ-nin təşəbbüsü ilə şəhərin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında əhali yük, minik maşınlarını, avtobus və trolleybusları yan-yana düzüb barrikadalar qurdu, piketlər təşkil etdi. Yollarda 26 iri maneə yaradıldı. Şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmalarının yolu kəsildi.

Şəhərin hərbi komandanlığı həmin günlərdə, buna heç bir ehtiyac olmadığı halda, rusdilli əhalini, ilk növbədə hərbi qulluqçuların ailələrini Azərbaycandan köçürməyə başladı. Guya bu, onların təhlükəsizliyi, təhrikçilərin hazırladıqları basqınlardan müdafiəsi üçün edilirdi. Əslində isə məqsəd Bakıya qoşun yeridilməsinin vacibliyi haqqında beynəlxalq ictimaiyyətdə yəqinlik yaratmaq idi.

Moskvanın Bakıya göndərdiyi emissarların–SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenkonun AXC-nin radikal və liberal qanadlarının nümayəndələri ilə ayrı-ayrılıqda görüşləri müsbət nəticə vermədi. Yanvarın 17-dən Azərbaycan KP MK binası qarşısında izdihamlı mitinq başlandı, ümumi tətil elan olundu. Tələb edildi ki, Ermənistanın Azərbaycana ərazi iddialarına son qoyulsun, imperiyanın Bakı ətrafına yığdığı qoşunlar Dağlıq Qarabağa, daima basqınlara məruz qalan sərhəd bölgələrinə göndərilsin.

Başqa bölgələrdə də vəziyyət gərgin idi. Xalqın tələbi ilə Naxçıvan MSSR Ali Soveti yanvarın 19-da Muxtar Respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etmişdi.

Moskva özü radikallaşmağa məcbur etdiyi xalqa divan tutmaq, onun nüfuzlu təşkilatı olan AXC strukturlarını dağıtmaq üçün münasib şərait yarada bildi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat $24^{00}$-dan «Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq,

qırğın törətmək məqsədilə qoşunlardan istifadə etmək niyyəti, aman verilməyəcəyi, fövqəladə vəziyyətin elan olunduğu vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət, komendant saatı vaxtının əvvəlcədən elan edilməsi Moskvanın qanlı planlarını poza bilərdi.

Piketçilər Moskvanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar. Xalqa məlumat verilməsin deyə, yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat $24^{00}$-dan başlanmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən Türkan-Qala tərəfdən şəhərə yeridildi. «Bakı əməliyyatı»na SSRİ Müdafiə Naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahdan güclü atəşə tuturdular. Adamların gizlənməsi üçün bir sıra yerlərdə elektrik stansiyalarının işçiləri küçə fənərlərini söndürmüşdülər. Lakin qaçıb müxtəlif sığınacaqlarda gizlənən adamlar döyüş texnikasındakı projektorların köməyi ilə tapılır, atəşə tutulurdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların – qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən yoldan keçənləri, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər. Onlar tibb müəssisələrini dövrəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Bakıda və respublikanın digər yaşayış məntəqələrində Sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü. Evlər yandırılmış, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. Bakı əməliyyatında, əsasən, səhvən bir-birini atəşə tutmaq halları ilə əlaqədar, 25 nəfər hərbi qulluqçu ölmüş, 283 nəfər yaralanmışdı.

Fövqəladə vəziyyət haqqında fərman yanvarın 20-də saat 7-də elan olunmuşdu. Qara yanvara etiraz olaraq respublikada 40 günlük ümummilli tətil başlandı.

Moskva gizlincə respublikadan qaçmış Ə.Vəzirovun yerinə yanvarın 20-də Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın birinci katibi təyin etdi. Hərbi hökumət gərginliyi bir qədər yatırmaq üçün həmin gün radio ilə Azərbaycan SSR Ali Soveti Sədrinin Bakıda fövqəladə vəziyyət elan olunmasına və şəhərə qoşun yeridilməsinə qarşı etiraz bəyanatının yayılmasına icazə verdi. Yanvarın 21-də deputatların üçdə birinin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası keçirildi. Deputatlar baş vermiş faciəyə siyasi qiymət verməyə çalışdılar. Onu törədən ölkə və respublika rəhbərlərinə qəti etirazlarını bildirdilər. Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərmanın fəaliyyətini dayandırmaq, ordu hissələrini şəhərdən çıxarmaq barədə qərar qəbul olundu. Lakin Moskva bu qərara əhəmiyyət vermədi.

Xalqın bu ağır günlərində, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təşkil olunmuş yığıncaqda çıxış etdi, xalqla birgə olduğunu bildirdi, 20 yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi.

Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi dünya siyasətinin nüfuzlu şəxsiyyətinin, doğma oğlunun onunla olduğunu görüb, ürəkləndi.

Bakı, bütün Azərbaycan fövqəladə vəziyyət olmasına baxmayaraq, yanvarın 22-də azadlıq şəhidləri ilə vidalaşdı. Şəhər matəm libası geyinmişdi. Respublikada üç gün matəm elan olunmuşdu. «Azadlıq» meydanında böyük matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində iki milyona qədər adam iştirak edirdi. Bu, azadlıq yolunda müqəddəs şəhidlərə ehtiramın habelə Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Küçələrdə, Azərbaycan KP MK binasının divarlarında «Qorbaçov cəlladdır!», «Rədd olsun, Sov.İKP!», «İşğalçılar, rədd olub gedin!» və s. şüarlar yazılmışdı. Partiya biletlərindən tonqallar qalanırdı. Şəhidlər şəhərin ən uca yerində – dağüstü parkda dəfn edildilər.

Xalqa qarşı Sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Qanlı qırğına etirazını bildirmək üçün Bakı buxtasına gəlmiş «Xəzərneftdonanması»nın gəmiləri burada hərbi gəmilər tərəfindən mühasirəyə alınaraq güllələbaran edilmiş, onlarla dənizçi dövlət çevrilişi cəhdinin iştirakçısı kimi həbs olunmuşdu.

Sovet hökumətinin xalq tərəfindən devrildiyi bölgələrdə ordunun köməyi ilə kommunistlərin hakimiyyəti yenidən bərpa olundu. Ordu Lənkərana yeridildi. Silahlar təhvil verilməyə başlandı. Yalnız bir qrup könüllü İstisu meşəsinə çəkildi. Yanvarın 26-da meşəyə desant salındı. Qeyri-bərabər döyüşdə könüllülərdən beş nəfəri öldürüldü, bir neçəsi həbs edildi.

İmperiya istəyinə nail oldu. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. AXC, MMŞ dağıdıldı, bir çox fəal cəbhəçilər həbs olundu. AXC-nin seçkilərdə demokratik yolla hakimiyyətə gəlməsi kimi real imkan aradan qaldırıldı.

Qanlı yanvar qırğını, həm də rus şovinistlərinin erməni daşnakları ilə birgə apardıqları antitürk siyasətinin, türk soyqırımının tərkib hissəsi idi. İmperiyanın Alma-Atada, Ermənistanda, Özbəkistanda, Azərbaycanın DQMV-də tökdüyü türk qanına Qanlı yanvarda daha 117 şəhid, yüzlərlə yaralanmış azərbaycanlının qanı əlavə olundu.

Lakin imperiya qanlı əməlləri ilə Azərbaycan xalqının azadlıq hərəkatını boğa bilmədi. Əksinə, özünün dayağı olan Kommunist Partiyasını, Sovet Hökumətini xalqın gözündən daha da saldı.

Əgər Qanlı yanvara qədər Azərbaycan xalqının qabaqcıl qüvvələri respublikanın suverenliyini SSRİ daxilində mövcud siyasi və iqtisadi münasibətlərin təkmilləşdirilməsi kimi qeyri-real imkanlarda axtarırdılarsa, bu hadisədən sonra onlar başa düşdülər ki, suverenliyin yeganə yolu Sovet imperiyasından ayrılmaq, dövlət müstəqilliyini bərpa etməkdədir.

## § 4. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa olunması

Azərbaycan xalqı Qanlı yanvardan böyük dərs aldı, fövqəladə vəziyyət şəraitində partizan müharibəsi aparmaq kimi avantürist çağırışları rədd etdi, qarşıya mövcud reallıqlar daxilində həll edilməsi mümkün olan məsələlər qoymağa, mübarizəni dinc siyasi vasitələrlə davam etdirməyə başladı. Mütəşəkkil şəkildə qırx günlük ümumrespublika etiraz tətili keçirildi. Kənd əhalisinin yaxından köməyi ilə tətil edən fəhlələrə müntəzəm olaraq maddi və mənəvi yardım göstərilirdi. Tətil imperiyaya yarım milyard rubldan çox iqtisadi ziyan vurdu. Lakin tarixin bu məsuliyyətli dövründə AXC artıq xalqı rəhbərlik edə bilmədi.

Onun siyasi cəhətdən kəmsavad, uzağı görməyən, öz ambissiyalarından çıxış edən bəzi liderləri qarşıdakı parlament seçkilərində yer almaq üçün iqtidarla razılığa gəldilər. Belə ki, guya bir qrup ziyalının «75-lərin bəyanatı» adlı müraciətindən «təsirlənən» iqtidar və AXC liderləri mayın ortalarında görüşüb Məşvərət Şurası yaratdılar.

Azərbaycan SSR Ali Sovetinin sessiyası mayın 19-da, Məşvərət Şurasında əvvəlcədən əldə olunmuş razılığa əsasən prezident vəzifəsi təsis etdi və Ayaz Mütəllibovu bu vəzifəyə seçdi. İqtidar bir sıra güzəştlərə getdi. 21 may fərmanı ilə 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün – Azərbaycan dövlətçiliyinin bərpası günü elan edildi. Həmin gün demokratik qüvvələr Azərbaycan Respublikasının üçrəngli bayrağını keçmiş Azərbaycan parlamenti binası üzərində yenidən qaldırdılar. Fövqəladə vəziyyətin olmasına baxmayaraq, Bakıda, habelə Gəncədə və respublikanın başqa şəhərlərində 28 may münasibəti ilə mitinqlər, nümayişlər keçirildi. Lakin bütün bu nümayişkaranə tədbirlərə baxmayaraq, Azərbaycan xalqı xalq cəbhəsi liderlərinin qeyri-ardıcıl mövqeyini görüb bu təşkilatdan uzaqlaşmağa başladı. Qısa bir müddətdə xalq cəbhəsi üzvlərinin sayı 3 dəfəyə qədər azaldı.

Xalqın böyük bir hissəsi bütün ümidini Heydər Əliyevə bağlamışdı. Qanlı yanvar hadisələrindən sonra xalqın öz qüdrətli rəhbəri ilə birləşəcəyindən qorxan imperiya Heydər Əliyevə qarşı repressiya planları hazırladı və həyata keçirməyə çalışdı. Respublika rəhbərləri də hər vəchlə onun Azərbaycana qayıtmasına mane olurdular. Lakin tarixin bu məsuliyyətli, çətin və şərəfli dövründə xalqı ilə olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya gəldi. Xalq bu gəlişi böyük ümid və ruh yüksəkliyi ilə gözləyirdi. Lakin iqtidar, ondan hakimiyyət bölgüsü gözləyən sol müxalif qüvvələr Heydər Əliyevin Bakıda qalmasına hər cür maneə törətdilər və o, doğma diyarı olan Naxçıvana getməli oldu. Müstəqillik və azadlıq ideyalarının həyata keçirilməsini Heydər Əliyevin adı ilə bağlayan Naxçıvan əhalisi iyulun 22-də «Azadlıq» meydanında mitinq təşkil etmişdi. 60 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqdə Heydər Əliyev çıxış etdi. O, xalqın nümayəndələri ilə çoxlu görüşlər keçirdi. H.Əliyev xalqı azadlıq, müstəqillik uğrunda sonacan mübariz olmağa çağırırdı.

İyul ayından Azərbaycan SSR xalq deputatları və yerli xalq deputatları Sovetlərinə seçkilər üzrə seçki kampaniyası başlandı. İyunun 28-də respublika demokratik qüvvələrinin forumu keçirildi. 20-dən artıq ictimai təşkilatın iştirak etdiyi demokratik blok («demblok») yaradıl-

dı. Seçki komissiyalarına cəbhənin və başqa ictimai təşkilatların nümayəndələri də daxil oldu. Seçkilər alternativ əsasda keçirilirdi. 360 Azərbaycan SSR xalq deputatı mandatını almağa 1200 nəfər namizəd irəli sürülmüşdü. Seçkilər sentyabrın 30-da keçirildi. Bəzi dairələrdə oktyabrın 14-də və dekabrın 16-da təkrar seçkilər oldu. Kommunistlərin qüvvələri səfərbər etməsi, habelə fövqəladə vəziyyət, repressiyalar seçkilərin nəticəsinə ciddi təsir göstərdi. Azad və ədalətli rəqabət təşkil etmək mümkün olmadı. Qeyri-demokratik olan seçki qanununun özünü də rəhbər dairələr biabırçı şəkildə pozurdular. Bu yolla onlar seçkilərin nəticələrini saxtalaşdırıb parlamentdə yerlərin çoxunu kommunistlərə verdilər. «Demblok»un cəmi 30 nümayəndəsi Azərbaycan SSR xalq deputatı seçildi.

İqtidarın və xalq cəbhəsi liderlərinin başı hakimiyyət, vəzifə uğrunda mübarizəyə qarışdığı bir vaxtda, Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edirdi. O, Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi. Heydər Əliyev müdrik, uzaqgörən siyasəti ilə xalqın azadlıq mübarizəsini istiqamətləndirdi. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin onun sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından «Sovet Sosialist» sözlərinin götürülməsi, AXC-nin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi. Naxçıvan MR Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 yanvar hadisəsinə düzgün siyasi qiymət verdi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərləri Vəzirovun, Mütəllibovun və b-nın günahkar olduqlarını qeyd etdi, xalqa indi kimlərin ona rəhbərlik etmək istədiyini göstərdi.

Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyasındakı çıxışında mövcud siyasi vəziyyəti əhatəli təhlil etdi, böhranın, habelə Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, SSRİ və respublika rəhbərlərinin yol verdiyi ciddi qüsurları və onları aradan qaldırmağın, təcavüzkar Ermənistana qarşı müdafiə mövqeyindən çıxıb birlikdə mübarizə aparmağın vacibliyini qeyd etdi. Onun çağırışını hakim dairələr qulaqardına vursa da, xalq ruh yüksəkliyi ilə qarşıladı. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək «Azərbaycan Res-

publikası» adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı bu respublikanın da dövlət bayrağı kimi təsdiq olundu.

Respublikada kommunist rejimi hələ də yaşayırdı. Lakin onun arxalandığı partiya artıq daxildən parçalanmağa başlamışdı. 1990-cı ilin əvvəllərindən SSRİ Konstitusiyasının 6-cı maddəsini ləğv etmək şüarı altında demokratik hərəkatın genişləndiyi vaxt partiya daxilində müxtəlif cərəyanlar əmələ gəlmişdi. Azərbaycanın rəhbər kommunistləri, demək olar ki, «Sov.İKP-də demokratik platforma»nın mövqeyində dururdular. «Demokratik platforma» kommunizmə yetmək kimi utopik son məqsədi inkar edir, idarəçilikdə mövcud inzibati amirliyin tədricən demokratik metodlarla əvəz olunmasını vacib bilirdi. Lakin respublika kommunistləri içərisində SSRİ-də qurulmuş eybəcər cəmiyyətin sosializmlə heç bir əlaqəsi olmadığını bildirən, marksizm mənbələrindən öyrənməyə qayıtmağı təşkil edən «Sov.İKP-də marksist platformasının mövqeyində dayananlar da var idi. Hətta onların bir qrupu hələ 1989-cu ilin yayında təşkilatlanmış, «Hümmət» adlı dərgi buraxaraq öz məqsədlərini elan etmişdilər. Bu qrup idarəçilikdə yol verdikləri ciddi qüsurlara, cəmiyyəti böhrana saldıqlarına görə kommunist rəhbərləri tənqid edir, bütün kommunistləri xalqın xoşbəxt gələcəyi uğrunda mübarizə aparmağa çağırırdı.

«Humanist, demokratik sosializm» şüarı altında keçən Sov. İKP XXVIII qurultayında (1990, iyul) M.Qorbaçov mühafizəkarların güclü müqavimətinə baxmayaraq, «demokratik platforman»ı müdafiə etdi, qurultayın yekun sənədlərinə partiyanın sosial-demokratikləşdirilməsinə dair ideyaları sala bildi. O, Mərkəzi Komitə Siyasi Bürosunun respublikaların partiya rəhbərlərindən – birinci katiblərdən formalaşdırmasına nail oldu, bu orqanı ali hakimiyyət funksiyalarından məhrum etməklə partiyaya güclü zərbə vurdu. Lakin hələ qüvvətli olan «mühafizəkarlar» sürətlə qruplaşmağa başladılar. Azərbaycanda da belə oldu.

Hakimiyyəti əlində saxlamağa çalışan Qorbaçov «mühafizəkarlar»ı bir növ neytrallaşdırmaq, hakim dairələrdə mübarizəni səngitmək üçün «SSRİ-nin taleyi» məsələsini ortaya atdı. Azərbaycanda demokratik qüvvələr, öncə Heydər Əliyev milli respublikaların müstəqilləşməsinin qarşısını almağa yönəlmiş bu siyasəti ifşa etdi, xalqı SSRİ-nin saxlanmasına münasibət üzrə referendumda iştirak etməməyə çağırdı. Lakin, 1991-ci il fevralın 5-də Azərbaycan parlamentində «demblokun» ciddi təkidinə baxmayaraq, kommunistlər birləşib SSRİ-nin saxlanılmasına

münasibət üzrə ümumittifaq referendumunda Azərbaycanın iştirak etməsi haqqında qərar qəbul etdilər. Ermənistanın boykot etdiyi referendumda Azərbaycanın iştirak etməsinin Ermənistan–Azərbaycan münaqişəsində Moskvanın mövqeyini ikincinin xeyrinə dəyişəcəyinə ümid də bu nəticəyə az təsir göstərməmişdi.

Referendumda qanunla iki ay əvəzinə cəmi on gün hazırlıq görüldü. Demokratik qüvvələr fövqəladə vəziyyət şəraitində bu üzdəniraq «ümumxalq səsverməsini» baykot etdi. Naxçıvan MR əhalisi referendumda iştirak etmədi. Referendum martın 17-də keçirildi. Nəticələr saxtalaşdırıldı, guya səsvermədə iştirak edənlərin 95 faizi SSRİ-nin saxlanılması lehinə olmuşdular.

Aprelin sonlarında SSRİ prezidenti ilə referendumda iştirak etmiş 9 respublikanın yüksəkvəzifəli şəxsləri Moskva yaxınlığında Novo-Oqoryovadakı prezident iqamətgahında tezliklə yeni ittifaq müqaviləsi başlanacağı haqqında razılıq (niyyət) protokolu imzaladılar. Təqdim olunan müqavilə layihəsi kompromis xarakterli idi. Müqavilə bağlanandan sonra altı aydan gec olmayaraq ittifaq orqanlarına yeni seçkilər keçirilməsi və bu yolla rəqiblərin siyasi hakimiyyətdən uzaqlaşdırılması nəzərdə tutulurdu. Moskva may–iyun aylarında Goranboyda erməni quldurlarına köməyi azaltmaqla, həm Ermənistanı «cəzalandırdı», həm də Mütəllibov rejimini bir qədər populyarlaşdıra bildi. Bundan istifadə edən prezident, mövqeyini möhkəmləndirmək üçün ümumxalq prezident seçkilərinə getməyi qərara aldı. Seçkilər sentyabrın 8-nə təyin olundu.

Heydər Əliyev imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və Sovet dövlətinə açıq etirazını bildirdi, onların riyakar siyasətini ifşa etdi və kommunist partiyasının sıralarından çıxdı. O, SSRİ Nazirlər Soveti Partiya təşkilatına ərizəsində qeyd edirdi: «Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Bütün bunlar «humanist ideologiyalı» Sovet dövləti üçün adi haldır». Xalq onun bu addımını razılıqla qarşıladı.

Respublika rəhbərinin imperiyanı qoruyub saxlamaq istəyən qüvvələrlə dilbirliyi, əməkdaşlığı ümumxalq narazılığına səbəb olmuşdu. Naxçıvan MR Ali Məclisi 1991-ci il 4 sentyabr tarixli qərarı ilə prezident seçkilərini Naxçıvan MR ərazisində dayandırdı. Xalqı yolundan döndərmək üçün Azərbaycan rəhbərliyi Naxçıvana ciddi təzyiqlər

göstərdi. Muxtar Respublikaya silahlı qüvvələr yeridildi. Daxili İşlər Nazirliyinin bir qrup zabiti, Azərbaycan parlamenti deputatlarından ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanlarını bu qərarı dəyişməyə məcbur etsin. Lakin xalqın lideri Heydər Əliyev yerli televiziya vasitəsilə bəyanət verdi və xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr Muxtar Respublikanı tərk etməlidirlər, əks-təqdirdə bütün əhali ayağa qalxacaqdır. İqtidar geri çəkilməyə məcbur oldu.

Artıq «Dağlıq Qarabağ problemi» ətrafında birləşən müxtəlif siyasi qruplar bu problemin yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra həll oluna biləcəyi yəqinliyinə gəlmişdilər. Müstəqilliyin əldə edilməsi yollarını isə onlar müxtəlif cür təsəvvür edirdilər. Etibar Məmmədov AXC-nin IV konfransında (1991, 26–27 may) diskussiya açıb milli cəbhə yaratmaq, milli azadlıq demokratiyadan deyil, demokratiyaya milli azadlıqdan gəlmək konsepsiyasını irəli sürdü. İki platforma: birincisi, müstəqilliyə doğru insan hüquqlarının aliliyinə zidd olmayan yollarla getməyi vacib hesab edən «liberal-demokratlar»ın, ikincisi isə müstəqilliyə hər bir mümkün, hətta lazım gələrsə insan hüquqlarına zidd olan yollarla getməyi lazım bilən «millətçi-vətənpərvərlər»in platforması formalaşdı. AXC-nin idarə heyətində artıq fikir birliyi yox idi. Cəbhə daxilində partiyalaşma prosesi başlamışdı. Buna görə də AXC-nin I qurultayında (1991, 13–16 iyul) idarə heyəti buraxıldı. Xalqın azadlıq mübarizəsinə Heydər Əliyev rəhbərlik edirdi.

İmperiya hakimiyyətinin yuxarı eşolonlarında mühafizəkar qüvvələrin müqaviməti getdikcə güclənirdi. Onların səmərəli fəaliyyəti üçün inflyasiyanın sürətlə artması, əhalinin vəziyyətinin gündən-günə pisləşməsi münasib şərait yaradırdı. 1991-ci ilin iyununda SSRİ Ali Sovetinin gizli iclasında mühafizəkarların liderləri Nazirlər Sovetinə fövqəladə səlahiyyətlər verilməsini tələb etdilər. Bu, baş tutmadı. İrticanın növbəti hücumu 18–19 avqust dövlət çevrilişi cəhdində təzahür etdi. Onun başçıları Forostda (Krımda) istirahət edən Qorbaçovu «neytrallaşdırıb», Dövlət Fövqəladə Vəziyyət Komitəsi («QKÇP») təşkil etdilər və «demokratikləşmə»nin, «yenidənqurma»nın çıxılmaz vəziyyətə saldığı imperiyanı iflasdan qurtarmaq üçün bütün hakimiyyəti öz əllərinə aldılar. Lakin qiyamçılar səhv etmişdilər, onlar iri şəhərlərdə demokratik qüvvələrin güclü olduğunu nəzərə almamışdılar. Avqustun 19-da Rusiya prezidenti B.Yeltsenin başçılığı ilə qiyama qarşı bütün demokratik qüvvələr birləşib ayağa qalxdı. Azərbaycanda da demokra-

tik qüvvələr, o cümlədən Heydər Əliyev «QKÇP»-nin qanunazidd fəaliyyətinə qarşı çıxdılar. Lakin respublikanın əvvəlki prezidenti «QKÇP»-ni müdafiə edərək ciddi siyasi səhvə yol vermişdi.

Rusiyada demokratik qüvvələrin birgə fəaliyyəti nəticəsində dövlət çevrilişinin qarşısı alındı. Azərbaycanın hər yerində irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə, mitinqlər başlandı. Naxçıvanda da izdihamlı mitinqlər keçirildi. Hərəkatı istiqamətləndirən Heydər Əliyev idi. Mitinqlərlə Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsi tələb edilirdi. Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da saat 13.30-da Azərbaycan Respublikasının böyük müstəqilliyini bərpa etmək haqqında bəyanat qəbul etdi.

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİ BƏRPA ETMƏK HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN BƏYANNAMƏSİ

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək, 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Cümhuriyyətinin beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək, Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında konstitusiya qanunlarına əsaslanaraq,

Azərbaycan xalqının müqəddaratı və azad inkişafın təmin olunması üçün məsuliyyətini dərk edərək,

Milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan Azərbaycan Respublikasının bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulmuş bütün insan hüquqlarına və əsas azadlıqlarına təminat verərək,

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü üçün təhlükəni aradan qaldırmağa çalışaraq,

Azərbaycan Respublikasının təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək kimi müqəddəs borcu rəhbər tutaraq,

Respublikanın bütün vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyini dərk edərək,

Azərbaycan Respublikasının və onun xalqının mənafeyinə zidd olmayan beynəlxalq paktları, konvensiyaları və başqa sənədləri qəbul edərək,

SSR İttifaqına daxil olan bütün respublikalarla dostluq münasibətlərini bundan sonra da saxlamağı arzu edərək,

Beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmağa hazır olduğunu bildirərək,

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA OLUNDUĞUNU ELAN EDİR**

Azərbaycan xalqının tarixində yeni dövr başlandı.

1991-ci il sentyabrın 5-də SSRİ xalq deputatlarının V qurultayı keçid dövrünün hakimiyyəti haqqında Konstitusiya qanunu qəbul etdi və öz səlahiyyətini Respublikaların yüksəkvəzifəli şəxslərindən təşkil olunmuş SSRİ Dövlət Şurasına və tezliklə formalaşacağı nəzərdə tutulan SSRİ Ali Sovetinə verdi. Lakin respublikalarda, o cümlədən Azərbaycanda bu qərarın həyata keçirilməsinə qarşı ciddi mübarizə başlandı. Heydər Əliyevin sədrlik etdiyi (1991-ci il, 3 sentyabrdan) Naxçıvan MR Ali Məclisi 1 oktyabr tarixli qərarı ilə keçid dövrü ittifaq orqanlarında Azərbaycan Respublikasının iştirakını qeyri-mümkün saydı, respublika rəhbərliyinin müstəqillik məsələsində qeyri-ardıcıl mövqeyini tənqid etdi.

Digər respublikalar kimi, Azərbaycan da SSRİ Dövlət Şurasına öz nümayəndələrini yalnız məşvərətçi səlahiyyətlə göndərdi. Yeni ali qanunverici orqan təşkil etmək mümkün olmadı. Respublikalarda dövlət müstəqilliyi uğrunda mübarizə daha da genişləndi.

Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri baykot etməyə çağırmışdı. Naxçıvan MR-nin Ali Məclisi prezident seçkilərini Muxtar Respublika ərazisində ləğv etmişdi. Bakıda seçicilərin 30 faizə qədəri seçki məntəqələrinə gəlməmişdilər. Lakin seçkilərin nəticələri saxtalaşdırıldı və A.Mütəllibov yenidən prezident «seçildi».

Xalqın rəğbətini qazanmağa çalışan prezidentin təşəbbüsü ilə sentyabrın 14-də artıq tam iflasa uğramış Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayını çağırıb özünü buraxdı.

Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr sessiyasında «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı» yekdilliklə qəbul edildi. Mühafizəkarların cidd-cəhdlərinə baxmayaraq, müxalifətin təklifi ilə sessiya Qorbaçovun yeni ittifaq üçün iqtisadi baza yaratmaq məqsədilə irəli sürdüyü iqtisadi birlik haqqında vahid müqavilə bağlamaq təşəbbüsünə Azərbaycanın qoşulmasına etiraz etdi. Azərbaycan başqa respublikalarla birtərəfli iqtisadi müqavilələr bağlanmasına üstünlük verdi.

Noyabrın 14-də Moskva yaxınlığında Novo-Oqoryovoda yeddi respublika, o cümlədən Azərbaycan rəhbərləri yeni dövlətlərarası birlik – «Suveren Dövlətlərin İttifaqı»nı yaratmaq haqqında niyyətlərini bildirdilər. Lakin hazırlanmış müqaviləyə Qorbaçovdan başqa heç kim imza atmadı.

Demokratik qüvvələr düşmənlər tərəfindən müstəqil Azərbaycanı diz çökdürmək üçün təzyiqlərin artdığı şəraitdə iqtidarı fəaliyyətsizlikdə təqsirləndirir, vətəndaşları hakimiyyətə tabe olmamağa çağırır, qəti tədbirlər görülməsini tələb edirdi. İqtidar artıq dövləti idarə edə bilmədiyini başa düşürdü. Oktyabrın 3-də prezident və demokratik qüvvələrin liderlərinin görüşündə keçid dövrü üçün yeni, çevik ali qanunverici orqan – respublikanın xalq deputatlarından Milli Şura yaradılması haqqında razılıq əldə olundu. Eyni zamanda prezident yerlərdə tərəfdarları ilə möhkəmlənmək üçün dövlət hakimiyyət və idarəetmə orqanlarının quruluşunu və fəaliyyətini təkmilləşdirmək adı ilə oktyabrın 18-də rayonlarda, şəhərlərdə və şəhər rayonlarında icra hakimiyyəti başçıları vəzifəsi təsis etdi və bu vəzifəyə özünə dayaq hesab etdiyi adamları təyin etdi. Lakin bu tədbirlər, əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa yönəldilsə də dərin inflyasiya şəraitində heç bir real təsirə malik olmayan güzəştlər A.Mütəllibovun mövqeyini möhkəmləndirə bilmədi.

Oktyabrın 30-da qəbul olunmuş Milli Şura haqqında Qanun parlamentin bir orqanı kimi nəzərdə tutulan bu şuraya, əslində elə bir real səlahiyyətlər vermədi.

Yuxarı Qarabağda Xocavənd adlı Azərbaycan kəndinin düşmən tərəfindən ələ keçirilib vandalizmə məruz qalması ilə əlaqədar vəziyyətlə yerində tanış olmaq üçün respublikadan bir neçə yüksəkvəzifəli

şəxsi, habelə SSRİ Müdafiə Nazirliyi nümayəndələrini, Rusiya və Qazaxıstan müşahidəçilərini gətirmiş vertolyotun noyabrın 20-də Qarakənd yaxınlığında vurulub salınması, bütün sərnişinlərin və heyət üzvlərinin (23 nəfər) həlak olması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi. Noyabrın 26-da Ali Sovet Milli Şura haqqında qanuna yenidən baxdı və bu şuranın səlahiyyətlərini məhdudlaşdıran bəzi maddələri dəyişdirdi. Paritet əsasda 25 nəfər «demblok» nümayəndələrindən və 25 nəfər başqa deputatlardan ibarət Ali Sovet səlahiyyətini daşıyan Milli Şura yaradıldı. Qalan deputatların hüquqları ciddi şəkildə pozuldu.

1991-ci il dekabrın 8-də Brest şəhəri yaxınlığındakı «Viskuli» iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belarus Respublikaları rəhbərləri «Müstəqil Dövlətlər Birliyi» (MDB) yaradılması haqqında müqavilə bağladılar, «Belovejsk sazişi» adlı müqavilədə SSRİ-nin artıq bir beynəlxalq hüquq subyekti kimi mövcudluğuna son qoyulduğu elan edildi. Brest «üçlüyü» keçmiş SSRİ-yə daxil olan respublikaları da bu birliyə qoşulmağa dəvət etdi. Mərkəzi Asiya respublikaları və Qazaxıstan rəhbərləri Aşqabad görüşündə MDB-yə daxil olmaq niyyətlərini bildirdilər. Dekabrın 21-də Alma-Atada Brest «üçlüyü», Aşqabad «beşliyi», Ermənistan, Moldova və Azərbaycan rəhbərlərinin görüşündə SSRİ-nin mövcudluğunun dayandırılması və bununla əlaqədar problemlərin nizama salınması haqqında bəyannamə qəbul edildi. Azərbaycan prezidenti bu görüşdə bir sıra müqavilələr imzaladı. Lakin Azərbaycan parlamenti onları təsdiq etmədi.

Azərbaycan Respublikasında dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir sual yazılmışdı: «Siz Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya aktına tərəfdarsınızmı?» Səsvermə hüququ olanların 95 faizdən çoxu referendumda iştirak etdilər. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

# XVII FƏSİL

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI. SİYASİ VƏ İQTİSADİ HƏYAT

## § 1. Siyasi böhran. Qarabağda müharibə

Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb bir şəraitdə fəaliyyət göstərməyə başlamışdı.

Azərbaycan Respublikasının müstəqilliyini dünya dövlətləri tanımışdı. Onu ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Respublikası, sonra Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İsveçrə (23 dekabr 1991-ci il), İran (25 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il); Rusiya (10 aprel 1992-ci il, 109-cu dövlət olaraq) və başqa dövlətlər də tanıdı. 1993-cü ilin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyini artıq 116 dövlət tanımış, 70 xarici dövlət ilə Azərbaycan arasında diplomatik əlaqələr yaranmışdı. Respublika 14 beynəlxalq təşkilata üzv qəbul olunmuşdu. O, 1991-ci ilin dekabrında İslam Konfransı təşkilatına, 1992-ci ilin fevralında Türkiyə, İran və Pakistan dövlətlərinin daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına üzv oldu. Azərbaycan Respublikası Ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesini tənzimləyən Helsinki müqaviləsinin yekun aktına, yeni Avropa üçün Paris xartiyasında irəli sürülən prinsiplərə tərəfdar oldu və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinin (ATƏM) tamhüquqlu üzvləri sırasına qəbul edildi. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara qoşuldu.

Azərbaycanın Türkiyə, ABŞ, İran, Almaniya, Fransa, Böyük Britaniya və İrlandiya krallığında və b. ölkələrdə səfirlikləri açıldı.

Azərbaycan Respublikası ilk gündən başqa dövlətlərlə öz münasibətlərini dövlətlərin suveren bərabərliyi əsasında qurdu, zor işlətməklə

hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini əsas götürdü, xalqların bərabərliyini və onların öz müqəddəratını təyin etmək hüququnu tanıdı, beynəlxalq hüquqi öhdəlikləri yerinə yetirməyə çalışdı. Bununla belə, Dağlıq Qarabağ probleminin həlli üçün dünya dövlətlərinin təsirli dəstəyini qazanmaq, müharibəni dayandırmaq mümkün deyildi. İqtidar bu sahədəki fəaliyyətində problemin elə əvvəldən regionda nüfuz dairələrinin yenidən bölünməsi ilə bağlı beynəlxalq xarakter daşımasını, onu törədən və idarə edən xarici qüvvələrin siyasi və iqtisadi maraqlarının Azərbaycan üçün mümkün qədər zərərsiz təmin olunması vacibliyini lazımınca nəzərə almırdı.

Əvvəl Sovet, sonralar MDB hərbi qüvvələrinin köməyi ilə ermənilər Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirmiş, bir sıra əlverişli strateji mövqelər tutmuş, azərbaycanlıları buradan qovub çıxarmağa başlamışdılar. 1991-ci ilin sentyabrında Yuxarı Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq – «Dağlıq Qarabağ Respublikası» yaradılmışdı. Hətta referendum keçirilmiş, erməni icması buna tərəfdar çıxmışdı. Üzdəniraq, oyuncaq «respublikanın» «Ali Sovetinə» seçkilər keçirilmişdi. Bununla əlaqədar, Azərbaycan Respublikası noyabrın 26-da DQMV-nin statusunu ləğv etmişdi.

Beynəlxalq ictimaiyyət tərəfindən, demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən ermənilər daha da azğınlaşırdılar. 1991-ci ilin axırlarında Rusiya ilə Ermənistan arasında «Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə» bağlanmışdı.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 9-da «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» qanun qəbul etmişdi. Onun ilk hissələri dekabrın 8-də cəbhəyə yola salınmışdı. İlk vaxtlar könüllülük əsasında qurulmuş, təcrübəli hərbçiləri az olan orduda ciddi nizam-intizam yaratmaq mümkün deyildi. Hərbi hissələrə müxtəlif siyasi qüvvələrin təsiri böyük idi. Bəzi ictimai təşkilatların, məsələn, AXC-nin, hətta ayrı-ayrı şəxslərin hərbi dəstələri vardı. Hərb sənətini mükəmməl bilən sərkərdələr çatışmırdı. Baş qərargahın işi pis qurulmuşdu. Hərbi hissələrə pozuculuqla məşğul olan satqınlar soxula bilmişdi. Güclü informasiya axınına yol verilirdi.

Orduda korrupsiya baş alıb gedirdi. Hərbi hissələrdən silah, sursat, yanacaq oğurlanır, hətta düşmənə satılırdı. Fərariliyə qarşı ciddi mübarizə aparılmırdı.

Noyabrın 19-da 22 rayon və şəhər özünümüdafiə batalyonu yaradılması haqqında əmr verildi. Əslində bu işə oktyabr ayından başlanmışdı. Qazax, Ağstafa, Ağdam, Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan, Cəbrayıl, Tovuz, Füzuli, Goranboy, Xanlar, Yevlax, Bərdə, Tərtər, Ucar, Gədəbəy, Şəmkir rayonlarında, Gəncə və Xocalı şəhərlərində ərazi özünümüdafiə qüvvələri yaradıldı. Bu batalyonların tərkibi yerli əhalidən formalaşırdı. Bu qüvvələr müvəqqəti hesab olunurdu və sonradan ordu hissələri çağırışçılar hesabına komplektləşdiriləndə könüllülər, tədricən ehtiyata buraxılacaqdı. Özünümüdafiə batalyonlarının komandirləri, onların müavinləri rayonların hərbi komissarları tərəfindən seçilir, icra hakimiyyəti başçılarının razılığı ilə təyin edilir və Müdafiə Nazirliyinə təqdim olunurdular. Bu batalyonların komandirləri Müdafiə Nazirliyinin səlahiyyətli nümayəndələri olmaqla bərabər, həm də rayon icra hakimiyyəti başçılarının müdafiə məsələləri üzrə müavinləri idilər. Özünümüdafiə batalyonlarına rəhbərlikdə ikili tabeçilik kimi yolverilməz bir vəziyyət yaranmışdı. Respublika prezidenti icra hakimləri vasitəsilə ordunu öz əlində saxlamaq istəyirdi.

Yuxarı Qarabağın Azərbaycan kəndlərinin çoxunda əsasən 1992-ci ilin fevralında yerli əhalidən ibarət özünümüdafiə bölmələri təşkil olunmuşdu. Muğanlı, Əmirallar, Manikli, Günəşli, Orta Güneypəyə, Baş Güneypəyə, Malıbəyli, Gülablı, Çərəkdar, Xatınbəyli, Tuğ, Aşağı Əskipara, Xeyrimli, Baqanıs-Ayrım kəndlərində müstəqil hərbi bölmələr yaradılmışdı.

Tərtər rayonunda «Qurtuluş», «Çəpərxana», «Qaçaq Nəbi» adına dəstələr fəaliyyət göstərirdi. Sərhəd rayonlarında müdafiə istehkamları, kəşfiyyat və rabitə şəbəkələri qurulması işi də özünümüdafiə batalyonlarına tapşırılmışdı. Hərbi vəziyyətin kəskinləşməsi ilə əlaqədar sonralar 1992-ci ilin fevralında Ağcabədi və Beyləqanda da özünümüdafiə batalyonları yaradılmışdı. Lakin təchizatda, səfərbərlikdə ciddi qüsurlara yol verilirdi. Yerli imkanlar hesabına saxlanan batalyonların silahlanması, hərbi işə yaxşı bələd olan zabitlərlə təchizi pis vəziyyətdə idi. İkili tabeçilik də onların fəaliyyətinə mənfi təsir göstərirdi.

Lazımi döyüş qabiliyyəti, təchizatı olmayan və müdafiə taktikası götürməyə məcbur olan bu yerli özünümüdafiə qüvvələri, xeyli yaxşı silahlanmış və təlim görmüş düşmənə qarşı, təbii ki, döyüşə bilmir, tez-tez məğlubiyyətə uğrayırdı.

Formal şəkildə ordu bölmələri təşkil olunsa da, onun nə lazımınca silahı və sursatı, nə də geyimi vardı. Təlim keçirilmirdi, könüllülük

prinsipi həddən ziyadə siyasiləşmiş cəmiyyətdə orduya müxtəlif amallı və əqidəli adamların gəlməsinə səbəb olmuşdu. Orduda elə ilk günlərdən xaos yaranmağa başlamışdı.

Müxalifət də silahlı qüvvələr yaradılmasına öz səriştəsiz hərəkətləri ilə mane olurdu. Ə.Elçibəy prezidentə «Qarabağ problemi»ni həll etmək üçün 20–25 gün vaxt verilməsini tələb edirdi. Müdafiə Nazirliyini ələ keçirmək istəyən siyasi qüvvələr – Rəhim Qazıyev, Etibar Məmmədov, Fəhmin Hacıyev və b. bura hərbçinin deyil, mülki şəxsin rəhbər təyin edilməsini tələb edir, piketlər keçirirdilər. Müdafiə nazirlərinin tez-tez dəyişdirilməsi ordu quruculuğuna ağır zərbələr vururdu.

Azərbaycan Respublikasının 1991-ci il 9 oktyabr «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» qanununun qüvvəyə minməsi haqqında Ali Sovetin qərarının hərbi obyektləri, silah və texnikanı invertallaşdırıb müsadirə etmək tələblərinə baxmayaraq, rus hərbçiləri mümkün olan hər bir şeyi respublikadan çıxarmağa, şəxsi adamlara satmağa, məhv etməyə çalışırdılar.

Bu təxribatlardan biri də hərbi vertolyotları yandırmaq cəhdi oldu. Bəzi aviasiya hissələrindən isə təyyarələr aparıldı, hərbi aerodrom dağıldı, qiymətli hərbi cihazlar məhv edildi. Xəzər donanması gəmilərində də avadanlığa, yerüstü obyektlərin, demək olar ki, hamısına xəsarət yetirilmiş, sökülüb dağılmışdı.

Belə bir şəraitdə erməni hərbi hissələri MDB qoşununun köməyi ilə azərbaycanlılar yaşayan kəndlərə hücumu genişləndirirdilər. Onlar 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndlərini ələ keçirdilər. Xocalı və Şuşanın mühasirəsi getdikcə daralırdı. Yeni yaradılmağa başlanan Azərbaycan ordusunun hissələri, xüsusi təyinatlı milis və özünümüdafiə dəstələrinin müqavimət tədbirlərinin nizamsızlıq, əlaqəsizlik, satqınlıq üzündən baş tutmurdu. Azərbaycan Ordusunun Şuşanın mühasirəsini Daşaltı tərəfdən qırmaq üçün keçirdiyi əməliyyat da tam uğursuzluqla nəticələndi. Satqın bələdçilər bir taqım əsgər və zirehli maşınları minalanmış əraziyə saldılar, ordu böyük tələfat verdi, 33 nəfər həlak oldu, 34 nəfər itkin düşdü, 36 nəfər yaralandı.

Fevralın ortalarında düşmən növbəti dəfə Qaradağlı kəndinə güclü hücuma başladı. Qanlı döyüşlərdə kənd dəfələrlə əldən-ələ keçdi. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra ermənilər kəndi ələ keçirib onun 92 nəfər müdafiəçisini, 54 sakinini vəhşicəsinə öldürərək silos quyularına atdılar. Qalan əhali əsir götürüldü.

Fevralın sonunda Xocalı faciəsi törədildi. Şəhər uzun müddət mühasirədə olmuş, respublika rəhbərliyinin cinayətkar laqeydliyi üzündən müdafiə işləri lazımınca təşkil edilməmişdi. Xocalı ərazi özünümüdafiə batalyonu heç bir zirehli texnika ilə silahlanmamışdı. Ona Şıx briqadası II batalyonunun cəmi 20 nəfərdən ibarət minaatanlar batareyası kömək edirdi.

Fevralın 25-də axşam saat 9-da erməni hərbi birləşmələri, MDB qoşununun Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı, habelə xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar uzun müddət mühasirədə olan Xocalıya hücum etdilər. İlk zərbə şəhərin yaxınlığındakı hava limanına vuruldu. Şəhərin müdafiəçiləri azsaylı və pis silahlanmış olsalar da, mərdliklə vuruşurdular. Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüşdə, xüsusilə fərqlənirdi. Onun rəhbərlik etdiyi 22 nəfərlik dəstə düşmənin hava limanına güclü hücumlarını üç dəfə dəf etdi. Lakin qüvvələr bərabər deyildi. Ə.Hacıyev vəziyyətin çıxılmaz olduğunu görəndə hava limanının dispetçer məntəqəsini partladaraq düşmən əlinə keçməsinə imkan vermədi.

Sonrakı döyüşlərdə igid komandir ağır yaralanıb qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Güclü artilleriya hazırlığından sonra düşmən tankları zirehli maşınları şəhərə soxuldu, küçə döyüşləri başlandı. Cəsur komandir Tofiq Hüseynovun rəhbərlik etdiyi batalyonun 150-yə qədər döyüşçüsü qat-qat güclü olan yağı düşmənlə qəhrəmancasına vuruşurdular. Tofiq Hüseynov düşmənlə üç gün, üç gecə son nəfəsinədək döyüşdü, yağıları azdırıb onlarla adamın mühasirədən çıxmasına imkan yaratdı. Axırda özü mühasirəyə düşdü. O, düşmənin təslim olmaq çağırışına məhəl qoymayıb son gülləni özünə vurdu, ana torpağı qucaqlayaraq gözlərini əbədi yumdu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Xocalı döyüşündə yüzlərlə adam həlak oldu, yaralandı, əsir götürüldü, şəhər yandırıldı. Sağ qalanların bir hissəsi, əsasən qadınlar, qocalar və uşaqlar şəhərin şimal-şərq istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı, şaxtalı gecəni ayaqyalın, başıaçıq meşədə keçirən qaçqınların çoxunu don vurdu, yaralıların bir hissəsi tab gətirməyib öldü. Qalanları səhəri gün Xocalıdan 6–7 km aralı Qaraqaya adlı yerdə meşədən çıxarkən pusquda durmuş erməni faşistləri tərəfindən güllələbaran edildilər. Yüzlərlə köməksiz qadın, qoca, uşaq həlak oldu. Xilas olaraq Abdal-Gülablı kəndinə getməyə çalışan qaçqınları da düşmən mühasirəyə alıb atəşə tutdu. Çoxları əsir götürüldü. Erməni

silahlıları yaralılara işgəncə verir, meyitləri eybəcər hala salır, baş dərisini soyur, qadın və qızları təhqir edirdilər.

Xocalı soyqırımı XX əsrin ən böyük facilərindən biri oldu. Onun başlıca səbəbkarı erməni və rus şovinizmi idi. Rusiya Azərbaycanda öz nüfuzunu, ordusunu saxlamaq üçün təxribatlara rəvac verirdi. Lakin uzun müddət düşmən əhatəsində qalmış şəhərə lazımi kömək göstərməyən, erməni və rus hərbi hissələrinin geniş hücuma hazırlığı haqqında məlumat aldıqdan sonra belə, əhalini təhlükəsiz yerlərə köçürmək üçün təsirli tədbirlər görməyən respublika rəhbərliyi, habelə hakimiyyət uğrunda mübarizədə Qarabağ problemindən istifadə edib siyasi kapital toplamağa çalışan siyasətbazlar da bu faciədə günahkar idilər.

Xocalı soyqırımı ölkədə siyasi gərginliyi daha da artırdı. Ali Sovetin binası qarşısında çoxminli izdihamlı mitinqə toplaşmış xalqın tələbi ilə parlamentin 1992-ci il martın 5–6-da keçirilən fövqəladə sessiyasında Mütəllibov istefa verməyə məcbur oldu.

Hakimiyyətdə boşluq yaranmışdı, onu ələ keçirmək istəyən, habelə qisas almağa çalışan qüvvələr siyasi vəziyyəti daha da gərginləşdirməyə çalışırdılar.

Siyasi oyunların, çəkişmələrin növbəti qurbanı Şuşa və Laçın oldu. Şuşaya güclü hücum gözlənilirdi. Vəziyyət 1992-ci ilin martında Müdafiə Şurasında müzakirə olunmuşdu. Lakin əməli iş, demək olar ki, görülmürdü. Şəhər uzun müddət mühasirədə qalmışdı. Lazımi silah və sursatla təmin olunmurdu. 336-cı polkun 180 hərbi mütəxəssisinin 90 ağır texnika ilə ermənilər tərəfə keçməsi məlum idi.

Şuşanın müdafiəsində isə cəmi 24 ağır texnika dururdu. Düşünülmüş müdafiə planı yox idi.

Milis silahlı qüvvələri komandanlığı ilə ordu hissələri komandanlığı arasında tabeçilik münasibətləri qəti müəyyənləşdirilməmişdi. 1992-ci ilin martında Müdafiə naziri vəzifəsini ələ keçirmiş, Rusiyanın imperiyapərəst qüvvələri əlində oyuncaq olan Rəhim Qazıyev hakimiyyətə gəlmək, ölkədə hərbi diktatura yaratmaq üçün siyasi vəziyyəti daha da gərginləşdirmək məqsədilə burada vahid komandanlıq yaranmasına mane olurdu. Bununla yanaşı, ordu zabitlərinin çoxunun hazırlıqsız, nizam-intizamsız olması da uğursuzluqlara gətirib çıxartmışdı. Hərbi rabitə bərbad vəziyyətdə idi. Hücum ərəfəsində xeyli döyüşçü qısamüddətli məzuniyyətə buraxılmışdı. Şuşa batalyonunda ştatda 1500-ə yaxın döyüşçü olduğu halda, şəhərdə cəmi 500 döyüşçü vardı. Mayın 7-dən 8-nə keçən gecə düşmən şəhəri güclü artilleriya atəşinə tutdu.

Əslən Rostovdan olan Arkadi adlı bir erməninin rəhbərlik etdiyi bu hücumda 80-ə yaxın T-72 tankı, 6000-ə yaxın döyüşçü iştirak edirdi. Ermənilərin tərəfində xaricdən muzdla tutulmuş döyüşçülər də vuruşurdu.

Belə bir şəraitdə hərbi texnika Şuşadan çıxarılmağa başladı. Xüsusi milis dəstəsi döyüşçüləri şəhəri tərk etdilər. Minalanmış sahələr zərərsizləşdirildi. Mayın 9-da səhər saat 5-də şəhər ətrafında olan postların əksəriyyəti artıq tutulmuşdu. Ön mövqelərdə duran əsgərlər düşmənə qarşı qəhrəmanlıqla vuruşurdular. Səhər düşmənin üç tankı şəhərə girmişdi. Azərbaycan Ordusunun 533 nömrəli tankı onlardan birini vurdu, o biri tanklar geri qayıtmağa məcbur oldular.

Şəhərin müdafiəçilərinə kömək göstərilmədi. Axşama yaxın köməyə gələn vertolyot asfalt zavodu yaxınlığında səhvən öz mövqelərimizi atəşə tutdu, bir PDM-i məhv etdi.

Qayabaşı adlanan yerdə mövqe tutan müdafiə batalyonunun əsgərləri son nəfəsədək vuruşurdular. 40 nəfər şəhid oldu. Mühasirəyə düşüb əlacsız qalmış 38 döyüşçü özünü öldürdü. Digər müdafiə dəstələri axşama qədər müqavimət göstərdilər. Artıq ön mövqedə vuruşan 30–40 nəfərdən başqa şəhərdə heç kim qalmamışdı. Axşam onlar da müqaviməti dayandırmağa məcbur oldular. Şuşa süqut etdi. Döyüşlərdə 155 nəfər həlak oldu, 167 nəfər yaralandı.

Şuşanın süqutu, mayın ortalarında milli hərbi hissələrin Laçını tərk etməyə başlaması siyasi vəziyyəti daha da gərginləşdirdi. Mayın 14-də parlament sessiyasında eks-prezident tərəfdarlarının köməyi ilə yenidən öz vəzifəsinə qaytarıldı. A.Mütəllibov dərhal ölkədə fövqəladə vəziyyət tətbiqi haqqında fərman verdi.

Lakin demokratik qüvvələr parlamentin 14 may tarixli qərarını konstitusiyaya zidd hesab etdilər və onu yenidən totalitarizmə qayıdış kimi qiymətləndirdilər. Bakıda AXC-nin qərargahı qarşısında etiraz mitinqi başlandı. Rəsmi hökumət isə fövqəladə vəziyyət haqqında qanunauyğun tədbirlər həyata keçirə bilmədi. Cəbhə bölgələrindən Bakıya AXC-yə tabe hərbi hissələr gətirilmişdi. Xalq cəbhəsi parlamentə öz qərarını ləğv etmək tələbi ilə ultimatum verdi. Ultimatum müddəti qurtarandan sonra mitinqçilər hərbçilərin köməyi ilə Ali Sovetin binasına doğru yürüş etdilər. Yürüşün önündə zirehli texnika gedirdi. Silahlılar «Moskva» mehmanxanası və Ali Sovetin binası üstündəki atəş nöqtələrini susdurdular. Toqquşma nəticəsində bir adam öldü, iki nəfər yaralandı. Cəbhə tərəfdarları, demək olar ki, müqavimətsiz parlamentin binasına daxil oldular.

Müxalifət qüvvələri respublika teleradio şirkətini, digər mühüm obyektləri, habelə Prezident binasını ələ keçirdilər. Parlamentin 18 may sessiyasında xalq cəbhəsi liderlərindən biri olan İsa Qəmbərov Respublika Ali Sovetinin sədri seçildi. Bu sessiyada parlament səlahiyyətinin Milli Məclisə verilməsi haqqında qərar qəbul edildi.

1992-ci il iyunun 7-də Prezident seçkiləri keçirildi. Respublikanın Prezidenti Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyev oldu.

Xalq cəbhəsinin hakimiyyəti ələ keçirməsi bu təşkilatın daxildən parçalanmasını və zəifləməsini daha da sürətləndirdi. AXC fəlakətinin əsas səbəbi xalqın rifahı naminə cəmiyyəti yeniləşdirmək yollarını göstərən konstruktiv proqramın olmaması, əsasən kəmsavad, korafəhm populistlərə arxalanıb, ağıllı siyasətçiləri, aparıcı ziyalıları özündən uzaqlaşdırması idi.

Bu zaman siyasət səhnəsinə onlarla yeni partiya və hərəkat rəhbərləri atılmışdı.

1993-cü ilin ortalarından respublikada 30-a qədər siyasi partiya, cəmiyyət və hərəkat fəaliyyət göstərirdi. Bundan başqa, milli azlıqların ictimai və siyasi təşkilatları formalaşmağa başlamışdı.

1992-ci ilin iyununda «Siyasi partiyalar haqqında» qanun qəbul olunmuşdu. 1993-cü ilin fevralında AHİŞ ləğv olundu, əvəzinə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası təsis edildi.

Əhalinin təşkilatlanma tələbinin belə yüksəldiyi dövrdə meydana gəlmiş siyasi qüvvələrin marağını nəzərə almamaq AXC–Müsavat duetinin ciddi qüsuru idi.

Xalq Cəbhəsi – Müsavat hakimiyyəti dövründə respublikada siyasi və iqtisadi böhran dərinləşdi. İdarəçilik işinə, əsasən təcrübəsiz, siyasi cəhətdən qeyri-yetkin adamlar gətirildi. Dövlətçilik dağılmağa başladı. Hakimiyyəti ələ keçirənə qədər addımbaşı demokratiyadan dəm vuranlar rəhbərliyi müxtəlif siyasi ambisiyaları olan fərasətsiz siyasətbazlara verməklə güc orqanlarına nəzarəti, demək olar ki, itirmiş, ölkədə qanunsuzluq, hərc-mərclik daha da dərinləşmişdi. Ən təhlükəli hal orduya rəhbərliyin əldən verilməsi idi.

1992-ci il 15 may SSRİ hərbi əmlakının bölüşdürülməsi haqqında Daşkənd müqaviləsinə əsasən 4-cü ordu silahlarının (özü də MDB dövlət başçılarının 1992-ci il 14 fevral Minsk razılaşmasında nəzərdə tutulandan çox az) təhvil verilməsi Azərbaycan Ordusu təchizini nisbətən yaxşılaşdırdı. Operativ-taktiki hazırlıq işləri aparıldı. Bakı Ali Ümumqoşun (1991-ci il 17 dekabr) və Ali Hərbi Dənizçilik məktəbləri (1992-ci il 3 iyun) Müdafiə Nazirliyinə verilmişdi. Bakı Ali Ümumqo-

şun komandirləri məktəbi Bakı Ali Birləşmiş komandirlər məktəbi adlandırıldı. Kiçik hərbi mütəxəssislərin hazırlanması üçün iyunun 1-dən Goran təlim mərkəzi bazası ayrıldı.

Azərbaycan Hərbi Hava Qüvvələri MDB aviasiya hissəsi texniki bazasında yaradıldı. Hissənin texnikası hələ 1991-ci ilin sonlarından respublikadan çıxarılmağa başlanmışdı. Lakin burada xidmət edən azərbaycanlı zabitlərin sayıqlığı sayəsində hissədə olan 9 Mİ-24 vertolyotunun hamısı respublikada qaldı. Müdafiə Nazirliyinin rəhbərliyi ilə razılaşmaya əsasən yanvarın 26-da hərbi vertolyotlardan biri qaçırılıb mülki hava limanına gətirilir. Fevralın əvvəllərində daha bir vertolyot qaçırılır. Sonra MDB ölkələri rəhbərləri müşavirəsinin qərarına əsasən hissənin vertolyotları və texnikası Azərbaycan Müdafiə Nazirliyinə verildi. Fevralın 14-də daha 5 vertolyot gətirilərək ilk Azərbaycan avioeskadrilyası təşkil edildi və həmin gün Azərbaycan tarixinə Hərbi Hava Qüvvələri günü kimi daxil oldu. 1992-ci ilin iyununda bu eskadrilya əsasında ilk aviapolk yaradıldı.

1992-ci il aprelin 7-də Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri qərargahı, mühafizə və təminat rotası yaradıldı.

MDB qoşunları komandanlığı hərbi dəniz qüvvələri Baş qərargahı ilə danışıqlar nəticəsində aprelin 15-də «Xəzər flotiliyası qüvvə və vasitələrinin bir hissəsinin Azərbaycan Respublikasına verilməsi şərtləri və prinsipləri haqqında protokol» imzalandı.

Flotiliyanın qüvvə və vəsaitinin 25 faizi Azərbaycan Respublikasının ixtiyarına keçdi. Ali Hərbi dənizçilik məktəbi də Azərbaycan Respubilkasına verildi. İyunun 26-da «Bakılı» keşikçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. Lakin Azərbaycana verilən obyektlər, texnika heç də yaxşı vəziyyətdə deyildi. Texnika qəsdən sıradan çıxarılır, cihazlar sökülüb aparılırdı. Dağılan Sovet ordusundan Azərbaycana çatacaq silahların və texnikanın bir hissəsinin respublikada qalması yeni milli hərbi hissələrin təşkil edilməsinə imkan verdi. Mayın 25-də «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin zabit iclasları haqqında» Əsasnamə qüvvəyə mindi. İyunun sonlarından orduda yazışmaların Azərbaycan dilində aparılmasına, milli atributların tətbiqinə başlandı. Silahlı hissələr və birləşmələr yaratmaq müstəsna olaraq Müdafiə Nazirliyinin səlahiyyətinə aid edilmiş, paralel silahlı strukturların yaradılması qadağan olunmuşdu.

Lakin respublikada yenə də Müdafiə Nazirliyi strukturuna daxil olmayan, müxtəlif müdafiə komitələrinə və şuralarına tabe olan, çoxlu silah və sursatı ələ keçirən dəstələr fəaliyyət göstərirdi.

Respublikanın silahlı qüvvələrini – ordunu, daxili qoşun hissələrini, başqa silahlı dəstələri vahid mərkəzdən idarə etmək münkün deyildi. 1992-ci il iyunun 27-də prezident, Ali Baş Komandan bu hissələrin fəaliyyətini əlaqələndirmək üçün Müdafiə Nazirliyində vahid komandanlıq yaradılması haqqında dekret imzalamışdı. Bu, silahlı qüvvələrə rəhbərliyi, müvəqqəti olsa da, nizamlaya bildi.

Düşmənin öz himayədarları tərəfindən daha yaxşı silahlandırılmasına, təcrübəli hərbçilərə malik olmasına baxmayaraq, Azərbaycanın igid, qeyrətli oğulları qəhrəmancasına döyüşür, ana torpağı son damla qanlarına qədər müdafiə edirdilər. 1992-ci ildə yay hərbi əməliyyatları yeni yaranan Azərbaycan Ordusu üçün müvəffəqiyyətli oldu. Azərbaycan Ordusu xüsusi təyinatlı polis dəstələrinin köməyi ilə Vətən torpaqlarının bir hissəsini düşməndən təmizləyə bildi. 1992-ci il iyunun 12-də Azərbaycan Ordusu Ağdərədə irimiqyaslı hücuma başladı. İyul–avqust aylarında Azərbaycan Ordusunun Tərtər və Ağdam bölgələrinin qəhrəman döyüşçüləri Ağdərə rayonunu, demək olar ki, düşməndən təmizlədi. Goranboy bölgəsinin düşmən əlinə keçmiş torpaqları tam azad edildi. Avqustun əvvəllərində erməni hərbçiləri Başkənd yaşayış məntəqəsindən qovuldu. Bu döyüşlərdə Rəmzi Novruzov, Şaiq Mustafayev, Yunis Əliyev, Sərhəd Zöhrabbəyov, Vəzir Orucov, Yavər Cəbrayılov kimi yüzlərlə igid əsgəri rəşadətləri ilə düşmənə qan uddurmuşdu.

Döyüşlərdə doğma torpaq uğrunda Azərbaycanda yaşayan xalqların övladları – Azərbaycan türkləri, ləzgilər, talışlar, kürdlər və başqa xalqların oğulları çiyin-çiyinə vuruşurdular. Onlarla igid döyüşçü Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü (bu ad 1992-ci il martın 25-də təsis olunub).

Avqust ayında Azərbaycan Ordusunun cənub bölmələri də hücuma keçib ermənilərin Xocavənddəki böyük silah və sursat anbarını partlatdılar. Hərbi hissələr iki tərəfdən hücuma keçib düşmən əlinə keçmiş kəndləri azad etməyə, Ermənistanla Yuxarı Qarabağ arasındakı «dəhliz»i xeyli daraltmağa müvəffəq olmuşdular. Düşmən ciddi müqavimət göstərir, qanlı döyüşlərdə torpaqlar, yaşayış məntəqələri dəfələrlə əldən-ələ keçirdi. Azərbaycan Ordusu hərbi hissəsini Yuxarı Qarabağı erməni quldurlarından təmizləmək əməliyyatından yayındırmaq üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının sərhəd bölgələrinə etdiyi güclü hücumlar da müvəffəqiyyətlə dəf olunurdu.

Müstəqil daxili və xarici siyasət yürüdən Azərbaycan Respublikasına təzyiq göstərib onu MDB-yə qoşmaq, orduların yenidən Azərbay-

cana yeritmək üçün Rusiya artıq açıqca erməni tərəfini dəstəkləməyə başlamışdı. İmperiyapərəst dairələrin əlaltıları olan Müdafiə Naziri Rəhim Qazıyev və onu neytrallaşdırmaq üçün prezidentin korpus komandiri və Qarabağda səlahiyyətli nümayəndə təyin etdiyi, «Milli Qəhrəman» adı verdiyi Surət Hüseynov cəbhələrdə təxribat işini gücləndirdilər, ordunun müvəffəqiyyətlə gedən əməliyyatları dayandırıldı. Ordu quruculuğuna operativ rəhbərlik etmək üçün 1992-ci ilin sentyabrında Müdafiə Nazirliyində yaradılmış Hərbi Şura da vəziyyəti nizamlaya bilmirdi.

Ermənistanın silahlı qüvvələri 1992-ci il dekabrın 10-da Azərbaycanın Qubadlı və Zəngilan rayonlarına soxularaq bir neçə kəndi ələ keçirib, yandırdı. Eyni zamanda düşmən Tovuz və Gədəbəy istiqamətində hücuma keçdi. Azərbaycan Ordusu və polis qoşunları onu geri oturda bildi. Cavab olaraq Ermənistan ərazisindəki hərbi bazalar atəşə tutuldu.

Lakin düşmən Rusiyanın hərbiköməyi ilə yenidən güclü hücuma keçdi. 1993-cü il fevralın 5-nə keçən gecə Yuxarı Qarabağda Ermənistanın ekspedisiya korpusu MDB 7-ci ordusuna daxil olan 128-ci motoatıcı alayının və muzdla tutulmuş əsgərlərin, əsasən kazakların iştirakı ilə Ağdərə bölgəsinə hücuma başladı. Bir az əvvəl Rusiya açıq, ultimatum şəklində Azərbaycana bildirmişdi ki, o, ya rus qoşununun köməyindən istifadə edib MDB-yə üzv olmalı, ya da yalnız öz ordusuna arxalanmalıdır. Azərbaycan dövləti buna razı olmadı. Qəsbkarlar martın 10-dək Ağdərə bölgəsinin Ağdərə şəhərinə qədər bir çox yaşayış məntəqələrini ələ keçirdilər. Martın axırlarında düşmən həm Ermənistan, həm də Ağdərə tərəfdən Kəlbəcər rayonunu güclü atəşə tutdu. Rayonun müdafiəsi təşkil edilməmişdi. Əksinə, hərbi bölmə və texnikanın bir hissəsi rayondan çıxarılmışdı. Bu, bir tərəfdən satqın ordu rəhbərlərinin rus imperiyapərəst qüvvələrinə nökərçilik etməsi, digər tərəfdən respublika rəhbərliyinin Kəlbəcəri təslim etməklə Ermənistanı təcavüzkar dövlət kimi tanıtma cəhdi ilə bağlı idi. Aprelin 3-də Kəlbəcər düşmən əlinə keçdi. Azərbaycan silahlı qüvvələri geri çəkilərkən respublika rəhbərliyinin laqeydliyi üzündən əhalinin hamısını bölgədən vaxtında çıxarmaq mümkün olmadı. 15 min nəfərə qədər sakin erməni faşistlərinin əlinə keçdi. Ermənilər işləyə bilməyən qocaları, uşaqları yerindəcə güllələyirdilər. Evlər, müəssisələr, təsərrüfatlar qarət edilir, mal-qara sürülüb aparılırdı.

AXC –Müsavat iqtidarı, əvvəlki iqtidar kimi, səriştəsiz xarici siyasəti ilə Azərbaycanın beynəlxalq mövqelərini daha da zəiflətmişdi.

Doğrudur, Azərbaycan Respublikası 1992-ci ilin iyununda Qara dəniz hövzəsində İqtisadi Əməkdaşlıq Birliyinin təsisçilərindən biri olmuş, 1992-ci ilin iyulunda 1975-ci il Helsinki Yekun aktına, 1992-ci il Helsinki sənədinə qoşulmuşdu. 1992-ci ilin yazında Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün ATƏM-in Minsk qrupu təşkil edilmişdi. İqtidar bu geosiyasi məkanda və respublikanın sərvətlərində marağı olan bütün xarici siyasi qüvvələri nəzərə alıb, qarşılıqlı şəkildə neytrallaşdırmaq xətti götürmək əvəzinə məsuliyyətsiz bəyanatlar verir, qonşu dövlətlərlə münasibətləri daha da soyuqlaşdırır, ciddi uğursuzluqlara düçar olurdu. Minsk qrupu çox passiv fəaliyyət göstərirdi. ABŞ Azərbaycanı Ermənistanı blokadaya salmaqda günahlandırırdı. Konqres 1992-ci ilin oktyabrında «Azadlığı müdafiə aktı»na 907 saylı əlavə ilə Azərbaycana dövlət səviyyəsində yardım göstərilməsinə ciddi məhdudiyyətlər qoymuşdu.

Bu hadisələr iqtidarı tam nüfuzdan saldı. Xalq bütün ümidini Naxçıvan MR Ali Məclisinin sədri, dünyada ağıllı və tədbirli bir siyasətçi kimi tanınmış Heydər Əliyevə bağlamışdı.

Fəaliyyətinin ilk dövründə xalqın azadlıq mübarizəsinə rəhbərlik edən AXC Heydər Əliyev tərəfindən dəstəklənirdi. Lakin hakimiyyəti ələ keçirəndən sonra AXC bu böyük şəxsiyyətin xalq içərisindəki nüfuzundan qorxur, ona qarşı mübarizəyə başlayır. 1992-ci ilin iyunundan Naxçıvan Muxtar Respublikasına elektrik enerjisi verilməsi, iyuldan buraya qatarların hərəkəti dayandırılır, respublika blokada vəziyyətinə düşür. Heydər Əliyev çox ağır bir şəraitdə Naxçıvan MR-i müvəffəqiyyətlə idarə edir, 1992-ci ilin mart ayında S.Dəmirəl ilə görüşüb, danışıqlar aparır. Türkiyə Naxçıvana 100 min. dollar kredit verir və bunun hesabına ərzaq, toxum, lazımi avadanlıq göndərir. Naxçıvan MR Türkiyə elektrik şəbəkəsinə qoşulur. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında Sədərək-Dilucu «Ümid» körpüsü açıldı. 1992-ci ilin avqustunda Heydər Əliyev İran İslam Respublikası Prezidenti ilə görüşüb Naxçıvanın ehtiyaclarının ödənilməsi ilə bağlı razılaşmalar əldə etdi. İranla Naxçıvanı birləşdirən yeni körpü açıldı. Naxçıvana İrandan elektrik enerjisi verildi.

Heydər Əliyevin rəhbərliyi altında Muxtar Respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmə işlərinin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Mövcud siyasi böhran aradan qaldırıldı, iqtisadi islahatlar keçirildi, sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı, hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirildi. Keçmiş

Sovet Ordusunun bu ərazidəki bütün silahları və texnikası alınıb milli ordu hissələrinə verildi.

Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. Xalqın nümayəndələri, qabaqcıl ziyalılar dəfələrlə Naxçıvana, onun yanına gedib, yenidən böyük siyasətə qayıtmasını xahiş etmişdilər. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər ən nüfuzlu ziyalısı – alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər, əmək adamları, siyasətçilər «səs» qəzeti vasitəsilə Heydər Əliyevə bu xahişlə rəsmi müraciət etdilər. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişləndi. Heydər Əliyevin rəhbərliyi ilə «Yeni Azərbaycan Partiyası» təşkil edildi. Partiyanın təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirildi.

Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmaq təkliflərini qəbul etmir, müdrik məsləhətləri ilə xalqı yaxınlaşan daha böyük fəlakətdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. İqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Naxçıvan MR-də hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla XC-ni hakimiyyətə gətirməyə cəhd edirdi. 1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsi yerli qurumlarına məxsus silahlı dəstələr Daxili İşlər Nazirliyi binasını, televiziya studiyasını ələ keçirir. Qiyamçılar televiziya ilə xalqa müraciət edib mövcud hakimiyyət əleyhinə bəyanatlar verir. Lakin naxçıvanlılar onları müdafiə etmədilər. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Silahlı quldurlar dövlət idarələrindən qovulub çıxarıldılar. Naxçıvan MR Ali Məclisinin sessiyası iqtidarın bu respublikanın statusunu ləğv etmək kimi səfeh cəhdini də rədd etdi.

Xalq xilas yolunu Heydər Əliyevin ölkəyə rəhbərliyində gördüyü zaman iqtidarda olan və iqtidarda olmayan Xalq Cəbhəsi üzvləri, habelə hakimiyyəti itirmiş qüvvələr və onların əlaltıları arasında didişmə, satqınlıq, xəyanət yolu ilə, hətta Azərbaycanın müstəqilliyi bahasına hakimiyyəti ələ keçirmək cəhdləri baş alıb gedirdi. Güc orqanlarına nəzarəti ələ almaq üçün Rəhim Qazıyev və Surət Hüseynovun, həmçinin Daxili İşlər Nazirliyinin rəhbərlikdən uzaqlaşdırılması siyasi gərginliyi daha da artırdı. Müxalifət-iqtidar qarşıdurması siyasiləşməş orduya, cəbhədəki vəziyyətə xüsusən pis təsir edirdi.

Gəncədə 1993-cü il 4 iyun hadisələri vəziyyəti daha da ağırlaşdırdı. Burada hökumətə tabe olmayan bir qrup zabit «Hərbi birlik» yarat-

mışdı. Bu birlik Müdafiə Nazirliyinə tabe olmur, iqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi. Bu vaxt Əlikrəm Hümbətov ona tabe olan silahlı qüvvələrdən istifadə edib cənub rayonlarında hakimiyyəti ələ almağa çalışırdı. «Ləzgistan dövləti» qurmaq xülyasında olan separatçı «Sadval» təşkilatının silahlı quldurları Dağıstandan Azərbaycanın Zuxul kəndindəki sərhəd məntəqəsinə soxulmuş, atışma baş vermişdi.

Hərbi qiyamı yatırtmaq üçün hökumət Gəncəyə qoşun yeritdi. Ölkədə vətəndaş müharibəsi başlandı. İki qardaş üz-üzə dayandı, qan töküldü. Lakin hökumət qüvvələri məğlub oldu. Üsyankar hərbi hissələr Bakıya doğru yeriməyə, prezidentin, hökumətin istefaya getməsini tələb etməyə başladılar və müqavimətə rast gəlmədən paytaxta yaxınlaşdılar. İyunun 14-də Nəvai yaxınlığında ordular üz-üzə dayandı, atışma başlandı. Danışıqlar nəticəsində qiyamçıları Lökbatan yaxınlığında və Şamaxı yolunun 75 kilometrliyində saxlamaq mümkün oldu. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, Baş nazir, üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular.

## § 2. Heydər Əliyevin hakimiyyətə qayıdışı. Müstəqilliyin və dövlətçiliyin möhkəmlənməsi

Belə bir vəziyyətdə artıq xalqla bərabər hökumət və prezident də kömək üçün zəngin idarəçilik təcrübəsi, ümummilli lider, ağsaqqal nüfuzu olan Heydər Əliyevə müraciət etdilər.

Azərbaycanın görkəmli oğlu, alovlu vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublika hakim dairələrinin dəfələrlə təkidli dəvətini qəbul edib Bakıya gəldi. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı. H.Əliyev Azərbaycanda vətəndaş müharibəsini dayandırmaq üçün ağıllı, düşünülmüş siyasi manevrlər etdi, Gəncədə danışıqlar aparıb hərbi müxalifəti neytrallaşdırdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.

Öz siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, siyasi pərakəndəlik səviyyəsinə gətirib çıxarmış AXC -Müsavat iqtidarı komandası Heydər Əliyevə bu mürəkkəb problemləri aradan qaldırmaqda köməkçi olmaq əvəzinə, müxalifətə keçdi: bəziləri qaçıb gizləndi, bəziləri fəaliyyətlərini «dondurdu».

İyunun 17-dən 18-nə keçən gecə prezident Əbülfəz Elçibəy Bakını gizlincə tərk edib Naxçıvan MR-ə, doğulduğu Kələki kəndinə getdi.

Ona dəfələrlə geri qayıdıb ölkəyə rəhbərlik etmək təklif olunsa da, hər dəfə, faktiki olaraq rədd cavabı alındı. Milli Məclis iyunun 23-də prezident səlahiyyətlərini parlamentin spikeri Heydər Əliyevə həvalə etdi.

Heydər Əliyev başlanmış vətəndaş müharibəsini dayandırmaq, müxalif tərəflər arasında anlaşma yaratmaq məqsədilə idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının və revanş almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik Surət Hüseynovu öz sayıq nəzarəti altında Baş nazir vəzifəsinə təyin etdi, güc nazirliklərinə rəhbərlik də ona tapşırıldı.

Xalqın dəstəyinə arxalanan Prezidentin qətiyyətli və müdrik siyasəti, yerli əhalinin böyük köməyi sayəsində yeddi cənub rayonunu əhatə edən, avqustun 7-də elan olunmuş üzdəniraq «Talış Muğan Respublikası» avqustun 23-də ləğv olundu. Ölkənin şimal-şərq sərhəddində sadvalçıların özbaşınalığına son qoyuldu.

Xalq öz rəhbəri ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da Prezident Əbülfəz Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdi.

1993-cü il oktyabrın 3-də Heydər Əliyevi Azərbaycan xalqı alternativ əsasda səs çoxluğu ilə Respublikanın prezidenti seçdi. Bu seçkilər bütün Azərbaycan xalqının Heydər Əliyevə böyük ümidlər bəslədiyini, inandığını bir daha nümayiş etdirdi. Heydər Əliyev prezident kimi Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağa, demokratiyanı inkişaf etdirməyə, ölkənin bazar iqtisadiyyatı yolu ilə tərəqqisinə şərait yaratmağa, erməni təcavüzkarlarına qarşı xalqın ədaləti müharibəsini sülh vasitələri ilə başa çatdırmağa, respublikanın ərazi bütövlüyünü bərpa etməyə and içdi və bu istiqamətdə yorulmaq bilmədən çalışdı.

Azərbaycan dövlətçiliyinin bərpa və inkişaf etdirilməsi ictimai-siyasi sabitliyin, ərazi bütövlüyünün təmin olunması kimi mürəkkəb işə dövlət intizamının, qanunçuluğun, hüquq-mühafizə orqanlarının, ordunun möhkəmləndirilməsindən başlandı.

Başıpozuq ordu düşmən dəyirmanına su tökürdü. Əvvəlki iqtidar möhkəm, intizamlı ordu yarada bilməmişdi. Xalq öz ordusuna özgələşir, fərarilik artırdı. Yenə də torpaqların düşmənə verilməsi ilə ölkədə siyasi böhran yaranacağına, hakimiyyət çevrilişi olacağına ümid edənlərin və hakimiyyəti ələ keçirmək istəyənlərin cinayətkar satqınlığı nəticəsində 1993-cü ilin yayında və payızında Azərbaycanın ərazi bütövlüyünə yeni zərbə vuruldu. Erməni qoşunları iyulun 23-də Ağda-

mı, avqustun 23-də Füzulini, avqustun 25-də Cəbrayılı, avqustun 31-də Qubadlını, oktyabrın 27-də Zəngilanı işğal etdi. Respublika ərazisinin artıq 20 faizi düşmən tapdağı altında qalmışdı. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmışdı, 5 min nəfər əlilə çevrilmiş, 5 min nəfərə qədər əsir və girov götürülmüşdü. Qaçqınların və köçkünlərin sayı milyonu keçmişdi.

Ordu bərbad vəziyyətdə idi. Müdafiə Nazirliyinə tabe olmayan müxtəlif siyasi ambisiyalı, döyüş qabiliyyəti olmayan, nizam-intizamsız hərbi hissələri ləğv etmək, güclü nizami ordu yaratmaq, bunun üçün xalqı ayağa qaldırmaq, birləşdirmək, xüsusən paytaxtda siyasi sabitliyi təmin etmək lazım idi. Prezident Heydər Əliyev 1993-cü il noyabrın 2-də televiziya və radio vasitəsilə xalqa müraciət etdi və xalqı ölkənin qeyrət və azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı.

Bütün xalq prezidentin çağırışına ürəkdən qoşuldu. Könüllülərdən ibarət batalyonlar yaradılıb cəbhəyə göndərildi. Cəbhəyə gedənlərin işlədiyi müəssisələr cəbhəçi ailələrini himayəyə götürdü. Orduya xalq yardımı genişləndi. Hospitallarda yatan yaralı döyüşçülərə, qaçqınlara qayğı artırdı. Ziyalılar cəbhə bölgələrinə gedib əsgərləri qələbəyə ruhlandırırdılar.

Yeni Azərbaycan Ordusu yaranırdı. Köhnə başıpozuq hərbi hissələr ləğv edilir, siyasi hoqqabazlar, xainlər, düşmənlər ordudan uzaqlaşdırılırdı. Səmərəli hərbi təlim üçün xüsusi proqramlar hazırlanmış, ordunun döyüş hazırlığının yüksəldilməsi işi dövlət rəhbərliyinin ciddi nəzarəti altına alınmışdı. 1994-cü ilin sonunda milli ordu sıralarında 54 min əsgər və zabit vardı. Silahlı Qüvvələrin maddi bazası xeyli möhkəmlənmişdi. Nəticədə Azərbaycan Ordusu düşmənin respublikanın içərilərinə doğru hücumunu dayandırdı. Hətta əks-hücuma keçib bir sıra ərazini geri qaytardı.

1993-cü il noyabrın ortalarında ermənilər cəbhələrdə intensiv hücuma başlasalar da, güclü müqavimətə rast gəldilər. Dekabrın ortalarında Beyləqan istiqamətində milli ordunun əsgərləri böyük rəşadət göstərdilər. Birinci tabora hücum edən 15 düşmən tankının 7-si məhv edildi. Döyüşçülər əks-hücuma keçib 30 km irəlilədilər. Minamyotçuların komandiri Akif Xanəliyev bir döyüşdə 50-yə qədər düşmən əsgərini məhv etmişdi. Xankəndi tərəfə kəşfiyyata getmiş milli ordunun kəşfiyyat qrupu qəfildən düşmənlə üzləşsə də mərdliklə vuruşmuş, ermənilər xeyli itki vermişdilər. Döyüş dostlarını xilas etmək üçün Etibar İsmayılov tank əleyhinə qranatla özünü düşmənə köməyə gələn

tankın altına atdı. Tank partladı. Etibar İsmayılov qəhrəmancasına həlak oldu. Ona Milli Qəhrəman adı verildi.

Azərbaycan Ordusu müvəffəqiyyətli əməliyyatlar nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsini, 22 kəndi düşməndən təmizlədi. Hücumu genişləndirib Cəbrayıl rayonu ərazisinin bir hissəsini, Kəlbəcər rayonunda Bozlu, Təkaqaya, Babaşlar, Qanlıkənd, Çənli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələrini azad etdi, Çiçəkli dağı və b. strateji yüksəklikləri ələ keçirdi, Kəlbəcər–Ağdərə yolunun yuxarı sahəsini və Kəlbəcər–Laçın yolunun tunelə qədərki hissəsini nəzarət altına aldı. Döyüşlərdə düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycanın itkiləri bunlardan 1–1,5 dəfə az idi.

Ordunun möhkəmlənməsi, NATO-ya tərəf əməli addımlar respublikada müstəqilliyin dönməzliyinə şərait yaradırdı. Nəyin bahasına olursa-olsun, bunun qarşısını almaq istəyən nüfuzlu imperiyapərəst qüvvələr ermənilərə köməyi daha da artırdılar. Rusiya 1994-cü ilin aprelində regionda mövqelərini qoruyub saxlamaq, qoşunlarını atəş xəttinə yerləşdirmək, ağlasığmaz siyasi və iqtisadi güzəştlər əldə etmək üçün hüquqi əsas yarada bilən və Azərbaycana münasibətdə alçaldıcı bir saziş layihəsi təklif etdi. Azərbaycanı artıq Ermənistan tərəfindən bəyənilmiş bu layihə ilə razılaşmağa məcbur etmək üçün aprelin 10-dan bütün cəbhələrdə ermənilərin güclü hücumu başlandı. Goranboy rayonunun Talış və Gülüstan kəndləri uğrunda döyüşlərdə Azərbaycan əsgərləri qalib gəldilər, düşmən 150 əsgər və zabit itirib geri çəkildi. Tərtər rayonunun İlxıçılar və Göyarx kəndləri istiqamətində gedən ağır döyüşlərdə düşmənin 200-dən çox canlı qüvvəsi məhv edildi. Lakin ermənilər Ağdam rayonunun daha 18 kəndini, Ağdərə bölgəsi kəndlərini işğal edə bildilər. Bərdə üçün ciddi təhlükə yarandı. Azərbaycan Ordusu buraya əlavə qüvvələr gətirməklə düşmən hücumunun qarşısını aldı və əks-hücuma keçib bir neçə yaşayış məntəqəsini geri qaytardı. Azərbaycan suverenliyinə hörmət çərçivəsində qonşu Rusiyanın münaqişəni həll etmək sahəsindəki səylərindən də imtina etmədi. 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, o cümlədən Yuxarı Qarabağın erməni və azərbaycanlı icmalarının və Rusiya Federasiyasının bu niyyətini təsdiq edən Bişkek protokolu Azərbaycan Respublikası tərəfindən də imzalandı.

Azərbaycan Prezidenti Heydər Əliyevin uğurlu diplomatiyası, milli ordunun güclənməsi nəticəsində düşmən və onun havadarları artıq

münaqişəni zorakı metodlarla həll etmək cəhdlərinin perspektivsizliyini dərk edirdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəs əldə olundu.

Respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin olunması üçün gərgin iş aparılırdı.

Beynəlxalq problem kimi yaradılmış Ermənistan – Azərbaycan Dağlıq Qarabağ probleminin həlli üçün bu geosiyasi məkanda, onun sərvətlərinin mənimsənilməsində marağı olan aparıcı dünya dövlətlərinin mənafelərini nəzərə alan tarazlı siyasət yeridilirdi. 1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikası Müstəqil Dövlətlər Biriliyinə daxil oldu. 1994-cü il mayın 4-də Azərbaycan NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edən «Sülh naminə tərəfdaşlıq» proqramına qoşuldu. Avropa–Atlantika Əməkdaşlıq Şurasına üzv qəbul edildi. Dünya siyasətini müəyyən edən dövlətlərlə yaxın əlaqələr yaradıldı. Azərbaycana qarşı informasiya blokadası yaradıldı. Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin 49-cu sessiyası tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırdı, bu ölkənin sülhsevər, humanist, demokratik dəyərləri üstün tutduğunu göstərdi.

BMT-nin Baş katibi Butros-Butros Qali Azərbaycana gəldi. Heydər Əliyev ABŞ, Rusiya prezidentləri ilə görüşdü. İngiltərə, Fransa, Çin, Pakistan, İran, Türkiyə, Polşa, İtaliya, Yaponiya və b. ölkələrə səfərlərində bu məsələlər müzakirə olundu.

1996-cı ilin iyununda Azərbaycan Respublikası Avropa Şurası parlament məclisində «xüsusi dəvət olunmuş qonaq» statusu aldı. Avropada təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT-in) 1994-cü ilin dekabrında Budapeşt, habelə 1996-cı ilin dekabrında Lissabon sammitlərində Dağlıq Qarabağ münaqişəsinin bu təşkilatın Minsk qrupu vasitəsilə ədalətli, beynəlxalq prinsiplərə əsaslanaraq həll olunması vacibliyinin təsdiqlənməsinə nail oldu. Lissabon sammitində ATƏT-in fəaliyyətdə olan sədrinin üzv olan 54 dövlətdən 53-ü, o cümlədən ABŞ, Rusiya, Fransa və b. adından verdiyi və zirvə toplantısının rəsmi sənədi elan olunmuş bəyanatında bu münaqişənin sülh yolu ilə həll olunması prinsipləri göstərildi. Bu prinsiplərdən birincisi Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, ikincisi, Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksəkdərəcəli özünüidarə statusu–muxtariyyət hüququ verilməsi, üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinə, yəni erməni və azərbaycanlılara təhlükəsizlik təminatı

verilməsi idi. Lissabon sammitindən sonra Minsk qrupunun işini fəallaşdırmaq üçün ona üç nüfuzlu dövlət (ABŞ, Rusiya və Fransa) həmsədrlik etməyə başladı. 1997-ci il iyunun 20-də ABŞ-ın Denver şəhərində ABŞ, Fransa və Rusiya prezidentləri «Dağlıq Qarabağ münaqişəsinə dair birgə bəyanat» imzaladılar. Lakin bu qurumun təklif etdiyi layihələr, habelə Azərbaycan və Ermənistan dövlət başçılarının şəxsi görüşləri Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən saziş bağlanması üçün danışıqlar başlanmasına şərait yaratmırdı.

Azərbaycan Respublikası Prezidentinin dövlət müstəqilliyinin dönməzliyi istiqamətində ardıcıl siyasəti Rusiya imperiyapərəst dairələrinin respublikaya qarşı 1994-cü ilin axırlarından 1997-ci ilin mart ayınadək dəmir, şose və dəniz yollarının blokadası və s. kimi ciddi iqtisadi sanksiyalar tətbiq etməsinə, Ermənistana təkcə 1994–1996-cı illərdə, atəşkəs dövründə, ümumi dəyəri 1 milyard dollardan artıq olan müasir hərbi silah və sursat verməsinə, Rusiya–İran–Ermənistan strateji əməkdaşlıq xətti yaranmasına baxmayaraq, dəyişməz qalırdı. 1995–1997-ci illərdə Azərbaycan–Gürcüstan, Azərbaycan–Ukrayna arasında strateji əməkdaşlıq haqqında saziş bağlanmışdı. 1997-ci il mayın 5-də Azərbaycan – Türkiyə strateji əməkdaşlığını daha da dərinləşdirmək haqqında müqavilə imzalanmışdı.

Azərbaycan prezidentinin apardığı tarazlı siyasət həm Amerikanı, Fransanı, Avropanın başqa dövlətlərini, həm də Rusiyanı burada sabitlik yaranmasında, müharibəyə son qoyulmasında maraqlı edirdi.

1997-ci il iyulun 3-də Moskvada Rusiya və Azərbaycan prezidentləri «Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə» imzaladılar.

Azərbaycan Respublikası bütün ölkələrlə qarşılıqlı əməkdaşlığa hazır olduğunu, lakin onunla zor vasitələrilə danışmaq cəhdlərinin yolverilməzliyini təsdiq etdi. 1997-ci ilin mayında o, silahları artırmamaq haqqında «Cinah» sazişinə qoşuldu. 1997-ci ilin mayında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı bölüyü NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində ilk dəfə Norveçdə keçirilən hərbi təlimdə iştirak etdi. Həmin ilin iyulunda prezident Heydər Əliyev NATO-nun və Avropa–Atlantika Əməkdaşlıq Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid zirvə görüşündə iştirak etdi. Bu sammitdə qəbul edilən sənədlərdə NATO-nun tərəfdaş dövlətlərin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə

və sərhədlərinin toxunulmazlığına təminat verdiyi, onun strukturunda iştirak edən dövlətlərin bir-birinə qarşı güc işlətmək, hədə-qorxu gəlmək hüququna malik olmadığı bildirildi. Bunlar Azərbaycanın haqq işinin qorunması sahəsində böyük əhəmiyyətə malik idi. Dünya birliyində Azərbaycanın mövqeləri getdikcə möhkəmlənirdi. 1997-ci ilin iyulunda Nyu-Yorkda Heydər Əliyev NATO-nun Baş katibi ilə görüşdü, bu təşkilatla Azərbaycan arasında əməkdaşlığı genişləndirmək məsələləri müzakirə edildi.

Böyük dövlətlərin təzyiqinə, imperiya siyasətinə məharətlə sinə gərib apardığı müvəffəqiyyətli müstəqillik və «açıq qapı» siyasəti sayəsində Azərbaycan bölgədə, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilirdi.

Azərbaycan–ABŞ münasibətləri daha yüksək səviyyəyə – strateji partnyorluq mərhələsinə yüksəlmişdi.

1997-ci il iyulun 27-dən avqustun 7-dək Respublikanın Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə ABŞ-a ilk rəsmi dövlət səfərində oldu, böyük hörmət və ehtiramla qarşılandı. Avqustun 1-də Ağ evdə iki ölkə arasındakı münasibətlərin əsas prinsip və istiqamətlərini müəyyən edən böyük tarixi və siyasi əhəmiyyətə malik sənəd – Amerika–Azərbaycan münasibətləri haqqında prezidentlərin birgə bəyanatı imzalandı.

2001-ci il sentyabr ayının 11-də Nyu-York və Vaşinqtonda törədilmiş dəhşətli terror hadisələrinə cavab olaraq ABŞ beynəlxalq terrorizmə qarşı müharibə elan edərkən Azərbaycan dövləti onunla bir cəbhədə olduğunu bəyan etdi. ABŞ silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisindən istifadə etməsi üçün şərait yaratdı. ABŞ-Azərbaycan münasibətlərinin inkişafına mane olan 907-ci maddə 2002-ci il yanvarın 28-də aradan qaldırıldı.

Azərbaycan ABŞ-ın siyasətdə, təhlükəsizlik və regional məsələlərdə, iqtisadiyyatda, ticarətdə strateji tərəfdaşı səviyyəsinə qalxdı. ABŞ bir daha elan etdi ki, Dağlıq Qarabağ münaqişəsinin tezliklə, sülh yolu və ATƏT prinsipləri əsasında həll olunmasına ciddi səy göstərəcəkdir.

Bölgədə nüfuzunu itirəcəyindən narahat olan Rusiya Ermənistana dəstəyini daha da artırdı. 1997-ci il avqustun 29-da Ermənistanla Rusiya arasında «Dostluq, əməkdaşlıq, qarşılıqlı yardım haqqında» yeni müqavilə imzalandı. Bu sənədə görə əgər hərbi vəziyyət yaranarsa Rusiya rəsmi surətdə Ermənistan tərəfində çıxış etməli idi. Təbii ki, bu

beynəlxalq mövqelərini gündən-günə möhkəmlədən Azərbaycan Respublikasını müstəqillik yolundan döndərə bilməzdi. 1997-ci ilin oktyabrında Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova dövlət başçıları əməkdaşlıq haqqında kommyunike imzaladılar. Noyabrın 25-də Bakıda «GUAM» blokunun təşkilini bəyan edən rəsmi protokol imzalandı, bu ölkələr arasında iqtisadi, siyasi, hərbi təsir sahəsində mövqeləri əlaqələndirməyə imkan verən strateji partnyorluğa hüquqi əsas yarandı. 1999-cu ilin aprel ayında Özbəkistan da bu quruma qoşuldu və təşkilat «GUÖAM» adlanmağa başladı. Həmin ilin mart ayında bu dövlətlər MDB daxilində Kollektiv Təhlükəsizlik Müqaviləsinə qoşulmaqdan imtina etdilər. Belə prinsipial mövqe Rusiyanın onlara münasibətini xeyli yumşaltdı. 2001-ci ilin iyununda «GUÖAM» dövlət başçılarının Yalta görüşündə bu təşkilatın iqtisadi sahələrə üstünlük verəcəyi elan edildi. 2001-ci il yanvarın 9-da Rusiya Federasiyasının prezidenti V.Putin Bakıya rəsmi səfərə gəldi. Ölkələrarası münasibətlərinin inkişafına istiqamətləndirilmiş konkret tədbirlərin vacibliyi barədə «Bakı bəyannaməsi» imzalandı. 2002-ci ilin əvvəllərində Rusiya ilə Türkiyə arasında hərbi əməkdaşlıq müqaviləsi imzalandı. Türkiyənin Qafqazda nüfuzu xeyli artdı. 2002-ci ilin yanvarın 24-də Azərbaycan Prezidenti Rusiya Federasiyasına rəsmi səfər etdi. Bağlanmış müqavilələr iki ölkə arasında münasibətlərin inkişafına istiqamətlənmişdi. Azərbaycan Qəbələ İnformasiya mərkəzini 10 ilə Rusiyaya icarəyə verdi. Müdrik, müstəqil və prinsipial siyasət Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirirdi. Respublika 2001-ci il yanvarın 26-da Avropa Şurasına üzv qəbul edildi. Avropa Şurası Parlament Assambleyasında millət vəkili İlham Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə heyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi mahiyyətinin düzgün qiymətləndirilməsi, erməni təcavüzünün, terrorizminin və narkobiznesinin ifşa olunması istiqamətində geniş və səmərəli iş aparmağa başladı.

Ölkədə demokratiyanın, qanunçuluğun, plüralizmin inkişafına real imkanlar nəzərə alınmaqla, münasib yollar və vasitələr açılmağa başlanmışdı.

Müstəqil Azərbaycan Respublikası ilk Konstitusiyasının hazırlanması üçün prezidentin rəhbərliyi ilə xüsusi Komissiya təşkil edildi. Respublikanın ən görkəmli hüquqşünaslarının cəlb olunduğu bu komissiya Azərbaycan xalqının milli xüsusiyyətləri, habelə qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında «Azərbaycan Respublikası Konstitusiyası» layihəsini hazırladı. Bu hüquqi sənəd cəmiyyətdə geniş

müzakirə olunub dəqiqləşdirildikdən sonra 1995-ci il noyabrın 12-də referendum ilə qəbul edildi. Azərbaycanın yeni Konstitusiyası ölkədə demokratik dövlət və iqtisadiyyat, vətəndaş cəmiyyəti quruculuğuna hüquqi əsas yaratdı. Konstitusiyada Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri – Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün xalqlarla dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq bəyan olunurdu. Burada təsbit olunan 158 maddədən 48-i (təqribən 1/3-i) insan hüquq və azadlıqlarına, onların təmin olunması mexanizminə həsr olunmuşdu. 1998-ci il aprelin 28-də Naxçıvan MR-in Konstitusiyası qəbul edildi.

Şübhəsiz, yüz illərlə demokratik dövlətçilik ənənələri olan dövlətlərlə hələ keçid dövrü yaşayan Azərbaycanı müqayisə etmək olmazdı, lakin burada müstəqil dövlət, vətəndaş cəmiyyəti quruculuğu sahəsində həyata keçirilən işlər beynəlxalq hüquqi standartlara uyğun idi. Qanunların sivil dünya dövlətlərinin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünya demokratik qanunvericilik təsisatları tələblərinə uyğun hazırlanması üçün Azərbaycan Respublikası Prezidenti yanında 1996-cı ilin fevralında xüsusi «Hüquqi İslahatlar Komissiyası» yaradılmışdı. Siyasi və iqtisadi islahatlarla əlaqədar hazırlanan çox mühüm hüquqi aktların insan hüquqları və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına uyğunluğu baxımından Avropa Şurasında ekspert rəyindən keçməsi də respublikada demokratik cəmiyyət qurulmasına təsirli kömək idi.

Azərbaycan Respublikası Avropa Şurasının «Venetsiya qanunu vasitəsilə demokratiyaya doğru» komissiyasına assosiativ üzv qəbul olunmuşdu.

1998-ci ilin fevralında Prezident Heydər Əliyev «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman imzaladı.

Azərbaycan Respublikası şərqdə ölüm cəzasını ləğv edən ilk ölkə oldu. Hələ 1993-cü ildən burada ölüm cəzasına faktiki moratorium qoyulmuşdu. 1996-cı ildə Cinayət məcəlləsinin 21-ci maddəsi sanksiyasından ölüm cəzası götürüldü, qadınlara, 65 yaşdan yuxarı kişilərə ölüm cəzası verilməsi qadağan olundu. 1998-ci ilin fevralında Heydər

Əliyevin təşəbbüsü ilə respublikada ölüm hökmü tamamilə ləğv edildi. 1995-ci ilin may ayından respublikada 1996–2001-ci illərdə əfv və amnistiya təsisatları bərpa edildi. Amnistiya aktları 63,5 min nəfərdən çox şəxsə tətbiq edildi.

Dövlətçiliyin təmin olunmasının mühüm vasitələrindən biri hüquq-mühafizə orqanlarının möhkəmləndirilməsi idi. Respublikanın Daxili İşlər və Dövlət Təhlükəsizlik nazirlikləri və onların yerli təşkilatları, silahlı hissələri təsadüfi adamlardan, cinayətkar, xain və satqınlardan təmizləndi. Prezidentin 9 avqust 1994-cü il fərmanının müvəffəqiyyətlə həyata keçirilməsi mövcud cinayətkar qrup və dəstələrin, şəxslərin zərərsizləşdirilməsində, gizli cəbbəxanaların aşkar edilib götürülməsində, cəmiyyətdə əmin-amanlıq yaranmasında əhəmiyyətli rol oynadı. Bu, xüsusən hakimiyyətə qeyri-qanuni, zorakı yollarla gəlmək kimi zərərli ənənəni, dövlət çevrilişi cəhdlərini aradan qaldırmağa kömək etdi.

Uğurlu daxili və xarici siyasət, xüsusilə xarici şirkətlərlə neft müqavilələrinin imzalanması Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz olduğunu bir daha nümayiş etdirdi. Bundan daxili və xarici düşmənlər çox narahat olurdular. Onlar paytaxtda və bütövlükdə respublikada siyasi sabitliyi pozmaq üçün terror aktlarına əl atırdılar. Bakı metropolitenində yanğın və partlayışlar törədilir, prezidentə qarşı sui-qəsdlər təşkil olunur, respublikada dövlət çevrilişinə cəhdlər göstərilirdi. Çevriliş cəhdlərinə Baş nazir, S.Hüseynov rəhbərlik edirdi.

Cəmiyyətuə vahimə yaratmaq üçün 1994-cü il sentyabrın 21-dən 22-ə keçən gecə Milli Təhlükəsizlik Nazirliyi istintaq təcridxanasından dövlət cinayətlərində ittiham olunan dustaqlar qaçırıldı. Hərbi-siyasi müxalifət sentyabrın 29-da daha bir cinayət aktı törətdi. Ali Sovetin sədr müavini Afiyəddin Cəlilovu və prezident yanında xüsusi idarənin rəisi Ş.Rəhimovu qətlə yetirdi.

Oktyabrın 2-də əvvəllər müəyyən hərbi xidmətləri olsa da, pozucu qüvvələrin təsiri ilə artıq cinayət yoluna düşmüş Xüsusi Təyinatlı Polis Dəstəsinin 30-a yaxın döyüşçüsü Respublika Prokurorluğu binasını zəbt etdi. Daxili İşlər nazirinin müavini Rövşən Cavadov 40 nəfərlik silahlı dəstə ilə Daxili İşlər Nazirliyinin binasına hücum edib dəf olunduqdan sonra, prokurorluğun binasına, qardaşının rəhbərlik etdiyi dəstəyə köməyə getdi. Respublika Prezidenti Heydər Əliyevin ciddi tədbirləri sayəsində Cavadov qardaşları və onun tərəfdarları prokurorluğun binasını tərk etdilər. Bu, hərbi qiyamın başlanğıcı idi. Oktyabrın 4-də Gəncədə Surət Hüseynovun tərəfdarları olan 300-ə yaxın silahlı

adam şəhər icra hakimiyyətinin binasını və digər strateji obyektləri ələ keçirdi. Həmin gecə Bakıda iki hərbi hissənin əsgərləri artilleriya qurğularının Prezident aparatı, Ali Sovet və Müdafiə Nazirliyi binalarına tuşlayıb əmrə müntəzir dayanmışdılar. Oktyabrın 4-dən 5-nə keçən gecə Prezident Heydər Əliyev müstəqil Azərbaycanın dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi. Heydər Əliyevin çağırışı ilə gecəyarısı qısa bir vaxtda on minlərlə adam Prezident sarayı qarşısına toplandı. Prezidentin həyata keçirdiyi tədbirlər qiyamçıların qüvvələrini birləşməyə qoymadı. Vəziyyətin dəyişdiyini görən Cavadov qardaşları yalandan prezidenti müdafiə etdiklərini bildirdilər. Gəncədə də qiyam yatırıldı. Oktyabrın 5-də Bakının «Azadlıq» meydanında ümumxalq mitinqi oldu. Xalq qanuni prezidenti müstəqilliyin həqiqi qarantı kimi dəstəklədiyini bir daha nümayiş etdirdi.

Lakin düşmənlərin, xarici kəşfiyyat orqanlarının əlində oyuncaq olan hakimiyyət hərisləri yenə də öz niyyətlərindən əl çəkmədilər. 1994-cü il dekabrın 4-də Türkiyə «Azərbaycana xidmət» vəqfinin tərkibində «Azərbaycan Strateji Araşdırmalar Mərkəzi» adlı təşkilat yaradıldı. Bu təşkilat ölkədə siyasi müxalifətlə hərbi müxalifəti birləşdirib dövlət çevirilişi etməyi, qanuni prezidenti fiziki cəhətdən məhv edib, A.Mütəllibov, Ə.Elçibəy və başqalarının təmsil olunacaqları «Dövlət Şurası» yaratmağı planlaşdırmışdı. Mərkəzin işində «Müsavat» və «Doğru yol» partiyalarının nümayəndələri də fəallıq göstərirdilər. Bu zaman AXC və ona yaxın müxalif qüvvələr də xeyli fəallaşmışdılar.

1995-ci il martın 11-də Rövşən Cavadov prezidentin və Ali Sovet sədrinin istefası məsələsini qoydu. Martın 13-də Ağstafa və Qazax rayonlarında Xüsusi Təyinatlı Polis Dəstəsi əməkdaşları qiyam qaldırıb dövlət idarələrini zəbt etdilər. Prezident 16 mart tarixli fərmanı ilə bu dəstəni ləğv etdi, onun Bakıdakı əməkdaşlarını silahı könüllü təhvil verib «8-ci kilometr» qəsəbəsindəki bazanı tərk etməyə çağırdı. Lakin Cavadov qardaşları bazada toplanmış silahlıları hücum qruplarına bölüb martın 16-dan 17-ə keçən gecə Prezident aparatını, Teleradio Şirkətini və Daxili İşlər Nazirliyini tutmaq üçün həmlə ilə mühasirəni yarıb şəhərə çıxmağa çalışdılar. Lakin iqtidarın fövqəladə tədbirləri, hökumət qüvvələrinin çevik hərbi əməliyyatları nəticəsində dövlət çevrilişi cəhdi yenə də baş tutmadı.

Xalq prezidenti dəstəklədi, siyasi yetkinliyini, müstəqillik ideyalarına, dövlətçilik prinsiplərinə sadiqliyini bir daha sübuta yetirdi.

1995-ci ilin yayında, 1996-cı ilin dekabr ayında respublikada daha bir neçə siyasi terror və dövlət çevrilişi planları ifşa olundu.

Respublikada qanuni, demokratik vasitələrlə siyasi fəaliyyət və fikirlər plüralizmi üçün münasib imkanlar yaranmışdı.

1995-ci ilin ortalarında Azərbaycanda artıq 50-dən çox partiya və ictimai-siyasi təşkilat vardı. 2001-ci ildə burada artıq 32 siyasi partiya, 1350 qeyri-dövlət təşkilatı, o cümlədən 30-a qədər hüquq müdafiə təşkilatı fəaliyyət göstərirdi. Siyasi partiyalarda 410 min nəfərdən çox üzv birləşmişdi. Kifayət qədər ictimai bazası olan siyasi partiya və cəmiyyətlər dövlət tərəfindən qeydə alınırdı. Ölkədə, milli, millətçi, liberal, dini sosial-demokrat, kommunist təşkilatları fəaliyyət göstərirdi. Sağlam müxalifətin siyasi həyatda mühüm rol oynaya biləcəyini qiymətləndirən iqtidar respublikada belə bir siyasi qüvvənin formalaşmasında maraqlı idi. Müxalifətə demokratik vasitələrdən istifadə etməklə təbliğat və təşkilat imkanları yaradılırdı. Müxalif qüvvələr onlarla azad qəzet və jurnal nəşr edib yayır (əsasən özəl), televiziya və radio kanallarından istifadə edir, seçkilərdə iştirak edir, parlamentdə təmsil olunurdular.

İqtidarda olan Yeni Azərbaycan Partiyası cəmiyyətdə böyük nüfuza malik idi. Prezident Heydər Əliyevin sədrlik etdiyi bu partiyanın siyasəti Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin qorunmasına, demokratiyanın, bazar iqtisadiyyatının, milli mənəvi dəyərlərinin inkişafına istiqamətləndirilmişdi. 2001-ci ildə bu partiyanın sıralarında 230 min insan birləşmişdi.

Adamlar kimin-kim olduğunu getdikcə daha aydın dərk edir, siyasi qüvvələrin məqsəd və əməllərini düzgün qiymətləndirirdilər. Xalq demokratiya məktəbi keçirdi, mübahisəli fikirləri hay-küylə deyil, demokratik qaydada, sivilizasiyalı şəkildə müzakirə və həll etmək yollarını öyrənirdi Müxalifət cəbhəsindəki əsas partiyaların iqtidara qarşı mübarizədə birləşmək cəhdləri bu partiyaların rəhbərlərinin ambisiyaları üzündən baş tutmurdu. İnsanların böyük əksəriyyəti müxalifətdə dayanan partiyalara dəstək vermirdi.

Gənc nəslə, onun tərbiyəsi və sağlamlığına qayğı xeyli artmışdı. 1994-cü ilin iyununda Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi təsis edilmişdi. Gənclərin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də Gənclərin I respublika formu keçirildi. Prezident Heydər Əliyev forumda gənclər üçün proqram xarakterli nitq söylədi, onları – müstəqil respublikanın gələcək sahiblərini daha mütəşəkkil, müstəqilliyin, dövlət-

çiliyin, vətənin bütövlüyünün təmin olunması və möhkəmləndirilməsində fəal, mübariz olmağa çağırdı. Respublika Gənclər Təşkilatlarının Milli Şurası təşkil olundu. Respublika Uşaq Təşkilatı yaradıldı.

Bu illərdə Azərbaycan qadınlarının ictimai-siyasi fəaliyyəti də genişlənmişdi. 2000-ci ildə respublikada 40 qadın təşkilatı fəaliyyət göstərirdi. «Sevil» qadınlar cəmiyyəti, xüsusən fəal maarifçilik və xeyriyyəçilik işi aparırdı. Azərbaycan 1995-ci ilin ortalarında «qadın hüquqlarının pozulmasının bütün təzahürlərini aradan qaldırmaq haqqında» BMT konvensiyasına qoşuldu. Həmin ilin oktyabrında Azərbaycan Qadınlar Cəmiyyəti Ümumdünya Qadınlar Cəmiyyətinə üzv qəbul olundu. 1998-ci ilin yanvar ayında prezident fərmanı ilə «Qadınların Problemləri Üzrə Dövlət Komitəsi» yaradıldı.

1996-cı ilin noyabrında Azərbaycan Qırmızı Aypara Cəmiyyəti Beynəlxalq Qırmızı Xaç Komitəsi, Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyasına üzv qəbul edilmişdi.

2001-ci ildə ölkədə 40-dan çox həmkarlar ittifaqı fəaliyyət göstərirdi.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritar (100 deputat) və proporsional (25 deputat) sistemlə ilk seçkilər keçirildi. 125 deputat yerinə 600, o cümlədən birmandatlı dairlərdə 100 deputat yerinə 400 namizəd qeydə alınmışdı. Cəmiyyətdə daha çox sosial dəstəyi olan səkkiz siyasi partiya deputat mandatları uğrunda mübarizəyə qoşulmuşdu. Xalq seçkilərdə fəal iştirak etdi. Çoxmandatlı seçki dairələrində seçicilərin 86 faizdən çoxu səs vermişdi. Yeni seçilmiş parlament geniş qanun yaradıcılığı fəaliyyətinə başladı. Burada insan hüquqları, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, ekologiya və s. mühüm sahələr üzrə daimi komissiyalar təşkil olundu. Komissiyanın işinə respublikanın görkəmli alim və mütəxəssisləri də cəlb edilmişdi. Beş ildə parlament 400-dən çox qanun qəbul etdi. Azərbaycan parlamenti dünyanın qabaqcıl demokratik dövlətlərinin qanunverici orqanları təcrübəsini öyrənmək sahəsində mühüm addımlar atdı. 2000-ci il 5 noyabr parlament seçkiləri də demokratik şəraitdə keçirildi. 13 siyasi partiya seçki dairələri üzrə imza vərəqələri almışdı. Demokratik Mərkəzi Seçki Komissiyası təşkil edilmişdi.

1999-cu il dekabrın 12-də Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi.

Ölkədə yaranmış siyasi sabitlik, bu əsasda demokratiyanın, iqtisadiyyatın və mədəniyyətin inkişafı üçün münasib şəraitin yaranması Prezident Heydər Əliyevin gərgin, çoxcəhətli fəaliyyətinin nəticəsi idi.

Bunu yüksək qiymətləndirən xalq 1998-ci il 11 oktyabrda alternativ əsasda keçirilən seçkilərdə yenidən Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi.

Ölkədə siyasi sabitliyin yaranması, dövlətçiliyin inkişafı, ilk növbədə dövlət intizamının və nəzarətinin güclənməsi, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması və nüfuz qazanması iqtisadi və mədəni həyata əhəmiyyətli təsir göstərdi.

## § 3. Bazar iqtisadiyyatına keçid

80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər respublikanın iqtisadiyyatına və mədəni həyatına ağır zərbələr vurmuşdu. İstehsal sürətlə azalır, iqtisadi tənəzzül dərinləşirdi. Bunun ciddi obyektiv və subyektiv səbəbləri vardı. Sovet imperiyası dağılmış, respublikanın köhnə iqtisadi əlaqələri, demək olar ki, pozulmuşdu. Müqavilə öhdəliklərinə tam əməl olunmurdu. Xammal və materiallarla tələbat cəmi 40 faiz ödənilirdi. Müəssisələrin istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi. Respublika sənayesinin aparıcı sahəsi olan neft sənayesində vəziyyət ağır idi. Sahə zərərlə işləyirdi, borc içində idi. Neft mədənlərində dörd mindən çox quyuda hasilat dayanmışdı. Qazma dəzgahlarının 80 faizdən çoxu işləmirdi. 1992-ci ildə cəmi 11 milyon ton neft çıxarılmışdı. Yeni, perspektivli dəniz neft yataqlarının istismarına başlanması üçün xeyli investisiya tələb olunurdu ki, buna da respublikanın imkanı yox idi.

Müharibə iqtisadiyyata ciddi ziyan vururdu. Respublika öz gəlirinin üçdə birini müharibəyə xərcləməyə məcbur idi. Onun ərazisinin dörddə bir hissəsində döyüş əməliyyatları gedirdi. 72 min hektar əkin sahəsi, on min hektarlarla otlaqlar, üzümlüklər, bağlar, çoxlu qaramal və davar, 4 qızıl, 3 civə, 2 qranit, 2 mərmər, 10 mineral su mədəni, 4 daş karxanası, 5 müxtəlif inşaat materialları yatağı düşmən əlinə keçmişdi. 60 mindən çox şəxsi təsərrüfat, yüzlərlə sənaye müəssisəsi, kolxoz və sovxoz dağıdılmışdı.

Bununla belə, 1991–1993-cü illərdə respublikanın böyük iqtisadi və mənəvi potensialından, mövcud zavod və fabriklərdən, kommunikasiya vasitələrindən, yüksəkixtisaslı mütəxəssislərdən səmərəli istifadə edilmirdi. Doğrudur, respublikada yeni iqtisadi institutlar meydana gəlməyə başlamışdı. Milli, beynəlxalq, əmanət bankları, habelə özəl

banklar təşkil olunurdu. Vergi siyasəti, büdcə sistemi təshih edilirdi. Qiymətqoymanın, maddi-texniki təchizatın qaydası dəyişdirilmişdi. Milli valyuta–manat (on rubla bərabər) dövriyyəyə buraxılmışdı. Adamları sahibkarlığa maraqlandırmaq üçün əvvəllər müəyyən edilmiş yüksək sosial sığorta ayırmaları, əlavə dəyər vergisi azaldılmışdı. Xarici kapitalın köməyi ilə «Bakmil» (Azərbaycan–İtaliya), «Pet–Azəri» (Azərbaycan–Türkiyə) kimi bir neçə birgə müəssisə fəaliyyətə başlamışdı. Azərbaycan neft şirkəti «Azəri», «Çıraq», «Şahdəniz» və b. neft yataqlarının istismarı və hasilatının texniki-iqtisadi səmərəliliyini əsaslandırmaq üçün ABŞ və İngiltərənin neft şirkətləri ilə müqavilələr bağlamışdı. Neftçala rayonunda neft kəşfiyyatı və hasilatı üzrə Azərbaycan–Türkiyə birgə müəssisəsi yaradılmışdı.

Geniş iqtisadi islahat keçirmək üçün yeni iqtisadi reallıqları əks etdirən 30-dan çox, o cümlədən özəlləşdirmə haqqında qanun, torpaq haqqında kodeks qəbul olunmuşdu. Dövlət torpaq, əmlak komitələri yaradılmışdı. Lakin qəbul olunmuş mühüm iqtisadi qanunlar hələ işləyə bilmirdi, çünki onların fəaliyyətini təmin edəcək normativ aktlar yox idi.

İqtisadiyyat ilk dəfə ciddi sarsıntıya məruz qalmışdı. 1992-ci ilin əvvəllərində heç bir zəmin olmadan qiymətlərin sərbəstləşdirilməsi müəssisələrdə dövriyyə vəsaitinin qiymətdən düşməsinə, habelə əhalinin alıcılıq qabiliyyətinin kəskin azalmasına səbəb olmuşdu. Mərkəzləşdirilmiş kredit resurslarına faiz dərəcələrinin 200–250 faizə yüksəlməsi də istehsala investisiyanı dayandırdı, istehsalın maliyyə vəziyyəti pisləşdi, dövriyyə vəsaiti çatışmadı və müəssisələrin xeyli hissəsi tamam və ya qismən dayandı.

İqtisadiyyatın idarəetmə sistemi də pozulmuşdu. Köhnə inzibati-amirlik aparatı, demək olar ki, dağıdılmış, yenisi isə hələ yaradılmamışdı. Bazar münasibətləri üçün vacib olan özəlləşdirmə, çoxukladlı təsərrüfatçılığa keçid ləng gedirdi.

Yeni idarəçilik mexanizmi işləmədiyi üçün yalançı bazar – cəzasız soyğunçuluq meydana gəlmişdi. İqtisadiyyatda hərc-mərclik baş alıb gedirdi.

Respublikada «nomenklatura sahibkarlığı» yaranmışdı: işgüzar fəaliyyətlə əsasən əvvəlki illərdə əyri yollarla vəsait toplamış şəxslər, habelə yeni bəylər – imkanlı dövlət məmurları, təsərrüfat rəhbərləri, onların himayə etdiyi işbazlar məşğul olurdular. 1993-cü ilin əvvəllərində 600-ə qədər kiçik müəssisənin 70 faizdən çoxu dövlət müəssisələrinin

nəzdində fəaliyyət göstərir və əsasən onların istehsal etdikləri məhsulları satır, gəliri öz xeyirlərinə bölürdülər. Kiçik müəssisələrin bəziləri kağız üzərində «yaradılır», dövləti qarət etmək vasitəsinə çevrilirdi. Respublikanın sərvətləri talanırdı. Müştərək və kiçik müəssisələrin çoxu xaricə satdığı malın əvəzinə alınan valyutanı respublikaya qaytarmır, xarici banklardakı şəxsi hesablarında saxlayırdılar. 1991-ci ildə onlar 2 milyard dollar pulu xaricdə saxlamışdılar. 1993-cü ilin ortalarında respublikanın yalnız 8 müəssisə və təsərrüfatı 100 milyon ABŞ dolları həcmində pulu xarici banklara qoymuşdu, halbuki respublikanın beynəlxalq valyutaya böyük ehtiyacı vardı.

Bütün bunların nəticəsi idi ki, iqtisadiyyatda hərc-mərclik baş alıb gedirdi. 1992-ci ildə pambıq sahələrində 100 min tondan çox xam pambıq yığılmamış qalmışdı. Üzümçülük və digər sahələrdə də vəziyyət belə idi. İstehsal olunan məhsul bazar olmadığından anbarlarda yığılıb qalırdı. Müəssisələr bağlanır, işsizlik artır, əhalinin güzəranı sürətlə pisləşirdi. Əhalinin aztəminatlı hissəsinə kömək məqsədilə edilən güzəştlər, müəllimlərə verilən imtiyazlar da azsəmərəli idi. 1992-ci ilin yazında Bakı, Sumqayıt, Ağdam bazarlarında bir neçə dəfə alıcı qiyamları baş vermişdi.

Cəmiyyətdə orta təbəqə, demək olar ki, qalmamışdı. Minimum əməkhaqqı rəsmi istehlak minimumu həcmindən 20 dəfə az idi. Dövlət əməkhaqqını vaxtında verə bilmirdi. Manatın illik inflyasiya səviyyəsi min faizlərlə ölçülürdü. Şəhərlər xırda alverçilər və dilənçilərlə dolu idi. Bakı, Gəncə, Sumqayıt kimi şəhərlərdə ucuz iş qüvvəsi satan qeyri-rəsmi iş bazarları (bunlara «qul bazarı» deyilirdi) meydana gəlmişdi. Ölkəni 600 minə qədər gənc tərk edib getmişdi. Təminatsızlıq üzündən ali və mütəxəssislərin bir çoxu dolanışıq dalınca xaricə getməyə məcbur olmuşdu.

Respublikanın müflisləşməsi, qarət olunmasının qarşısını almaq üçün əvvəlki iqtidarlar heç bir təsirli tədbir görə bilmir, əksinə, öz səriştəsizlikləri ilə bunlara münasib şərait yaradırdılar.

Heydər Əliyev respublikada yenidən hakimiyyətə qayıtdıqdan sonrakı ilk illərdə də xarici düşmənlər və daxili müxalif qüvvələrin qeyri-sabitlik yaratmaq, dövlət çevrilişləri törətmək, terror cəhdlərinə, Ermənistanın təcavüzünə qarşı mübarizə daha çox səylər tələb etdiyinə, habelə idarəçilik sistemində hələ iqtisadi intizamsızlıqdan mənfəət götürən bəzi məmurlar köklü islahatların həyata keçirilməsinə müxtəlif vasitələrlə müqavimət göstərdiklərinə görə iqtisadi böhranı aradan

qaldırmaq mümkün olmamışdı. Azərbaycanın dövlət müstəqilliyinin ardıcıl həyata keçirilməsindən narazı olan dövlətlərin iqtisadi təzyiqi də güclənmişdi. Rusiya Federasiyası 1994-cü ilin dekabrından quru və su yollarını bağlayıb, İran İslam Respublikası isə 1995-ci ilin ortalarından bir sıra mühüm məhsulların ixracına qadağa qoyub Azərbaycan Respublikasını, demək olar ki, blokadaya salmışdı.

Hələ siyasi və hərbi sabitlik, azad iqtisadi münasibətlər üçün hüquqi baza zəif olduğundan xarici investisiya az idi.

Xarici investisiyalara mane olmaq üçün Rusiyanın təşəbbüsü ilə Xəzər dənizinin yenidən bölünməsi məsələsi ortaya atılmışdı (halbuki hələ SSRİ zamanı dənizin respublikalara aid hissələri qəti müəyyən olunmuşdu).

Ölkənin maliyyə sistemi bərbad vəziyyətdə idi. Banklar krediti təminatsız və aşağı faizlə verirdi. Kommersiya bankları Milli Bankdan vəsait alıb kredit alverinə başlamışdı.

Daxildə mafioz qüvvələr manatı qiymətdən salmaq, əhalinin güzəranını daha da pisləşdirib hökumətdən narazılıq yaratmaq üçün 1993-cü il oktyabr–noyabr aylarında milli pulun çox hissəsini yığıb gizlətdilər. Onu yenidən dövriyyəyə qaytarmaq üçün Baş nazir S.Hüseynovun təşəbbüsü ilə 1 dollar 400 manata bərabər tutuldu. Manat sürətlə qiymətdən düşdü. 1994-cü ilin avqust ayında Milli Bank Aqrarsənaye kompleksini dəstəkləmək adı altında 60 milyard manat kredit emissiya etdi. Nəticədə manatın qiyməti daha da azaldı. 1994-cü ilin sonlarında 4000 manata cəmi 1 dollar düşürdü. 1994-cü ildə inflyasiya 1600 faizə qalxmışdı, yəni istehlak qiymətləri 16 dəfə artmışdı. Hər il orta hesabla daxili ümumi məhsul 18–20, sənaye məhsulu 20–25, kənd təsərrüfatı məhsulu 7–10 faiz azalırdı. Dövlət büdcəsi böyük kəsirlə icra olunurdu.

İstehsal zəif olduğundan daxili bazar əsasən (70–80 faiz) idxal hesabına formalaşırdı. 1993-cü ildə Azərbaycan dünyanın 30, 1996-cı ildə 70 ölkəsinin 2500 şirkət və müəssisəsi ilə ticari-iqtisadi əlaqələr saxlayırdı. İdxal-ixrac əməliyyatları 1991–1996-cı illərdə 2,3 dəfə çoxalmışdı. İxracın 70 faizini strateji xammallar, idxalın böyük əksəriyyətini istehlak şeyləri təşkil edirdi. İxracda mənfi saldo 1993–94-cü ilə yaranıb artmış, sonra isə azalmağa başlamışdı. Respublikada hələlik köhnə texnologiya və standartlarla istehsal olunan mallar xaricə çıxarıla bilmir, daxili bazarda isə onların satılması üçün şərait yaradılmırdı. Hazır məhsullar anbarlarda qalıb xarab olurdu.

Xarici ticarətdə orta əsr mübadiləsi vasitəsi- barter əməliyyatlarına geniş yer verilir, bundan ayrı-ayrı dairələr külli miqdarda gəlir götürürdü.

Dövlət, hökumət orqanlarında, inzibati orqanlarda işləyən şəxslərin vəzifədən sui-istifadə etmək halları, korrupsiya cəmiyyətin ən böyük bəlası idi. Xarici Əlaqələr Nazirliyində, Gömrük Komitəsi və onun idarələrində, polis orqanlarında qeyri-sağlam münasibət, rüşvətxorluq, oğurluq hallarına yol verilirdi. Dövlət və özəl sektorda olan müəssisələrin çoxu gəlirlərini gizlədir, vergi ödəməkdən yayınırdı. Malların bir hissəsi ölkənin sərhədlərində 400-dək qeyri-rəsmi keçidlərdən ötürülür, qeydə alınmırdı.

Prezident Heydər Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitlik yaratdı və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Yeni iqtisadi münasibətlərin formalaşmasına münasib şərait yaratmaq məqsədilə yüzə qədər qanun, yüzlərlə fərman və qərar qəbul edildi. 1994-cü ilin may ayından respublikanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün qəti addımlar atıldı. Prezidentin 14 may 1994-cü il fərmanı ilə kredit siyasəti ciddiləşdirildi. Banklararası valyuta birjasının işi nizama salındı.

1994-cü il aprelin 5-də xarici ticarəti sərbəstləşdirmək haqqında fərman verildi. Maliyyə vəziyyətinin nizama salınması üçün ciddi tədbirlər görüldü. 1995-ci ilin fevralında Prezident ilk radikal addım atıb valyuta bazarı təşkili haqqında fərman verdi, valyuta ehtiyatları bazar vasitəsilə tənzimlənməyə başlandı. 1994-cü ilin əvvəllərində manat – milli valyuta respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf bankına qoşuldu. Bəzi sahələrə vəsait ayrılması dayandırıldı. Büdcə kəsirinə ciddi nəzarət edildi, onun artmasına yol verilmədi. Nəticədə 1995-ci ildə inflyasiya kəskin surətdə azaldı, 85 faizə endi. 1996-cı ildə daha mühüm iqtisadi tədbirlər görüldü, nəticədə inflyasiya səviyyəsi cəmi 6,7 faiz oldu. Büdcə kəsiri 3 faizdən çox deyildi. Manatın dollara nisbətən məzənnəsi 1996–1997-ci ilin əvvəllərində 10 faiz artdı.

1996-cı ilin ortalarında prezident daha yeni bir ciddi iqtisadi addım atdı – vergi sistemi təkmilləşdirildi. Burada ağırlıq mərkəzi istehsal üzərindən götürülüb istehlak üzərinə qoyuldu. Əvvəllər əməkhaqqı məhsulun maya dəyərinə daxil olunmur, mənfəətdən verilirdi və buna görə də əməkhaqqından əlavə 35 faiz kooperativ vergi tutulurdu.

1996-cı ilin sentyabrından əlavə vergi 50 faiz azaldıldı, 1997-ci ilin əvvəllərindən isə tamamilə ləğv edildi. Müəssisələrə ümumi vergi təzyiqi xeyli azaldı. Fiziki şəxslərdən tutulan vergilərin yuxarı dərəcəsi 55 faizdən 40 faizə endirildi, onların gəlirlərinin vergi tutulmayan hissəsi isə 40 min manatdan 60 min manata qaldırıldı. Eyni zamanda xarici iqtisadi əlaqələri fəallaşdırmaq üçün gömrük rüsumları 30–40 faizdən 15 faizə endirildi. Bu tədbirlər nəticəsində vergi tutumları və rüsumlardan büdcəyə gəlir 2 dəfəyə qədər çoxaldı. 1997-ci ildən dövlət büdcəsi xərclərini səmərəli təşkil etmək üçün maliyyə işləri xəzinədarlıq sistemi üzrə qurulmağa başlandı.

Lakin respublikanın istehsalı inkişaf etdirmək üçün lazımi investisiya imkanları yox idi. Xarici kapitalı cəlb etmək məqsədilə «açıq qapı» siyasəti yeridilməyə başlandı. Xarici investorlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunlar qəbul olundu. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Asossiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə əməkdaşlıq genişləndi. Bu, respublika maliyyə–bank sistemini dünya standartlarına uyğunlaşdırdı. Beynəlxalq maliyyə təşkilatlarının ayırdığı kreditlər ölkədə iqtisadi struktur dəyişikliklərinə, başqa iqtisadi tədbirlərin həyata keçirilməsinə kömək etdi. Təkcə 1995-ci ildə Dünya Bankı Azərbaycana reablitasiya layihəsi üçün 65 milyon dollar kredit ayırmışdı. Bu bank 1997-ci ildə ölkədə 195 milyon dollar dəyəri olan altı layihəni, o cümlədən Bakı su kəmərinin bərpası, neft-qaz sənayesində yenidənqurma, kənd təsərrüfatında özəlləşdirmə ilə əlaqədar altı nümunəvi fermer təsərrüfatı yaradılması layihələrini maliyyələşdirdi.

Dünya Bankı respublikanın işğaldan azad olunmuş ərazilərində bərpa işlərinə kömək məqsədilə «Bərpa proqramı» hazırlanmasında, onun həyata keçirilməsi üçün donor ölkələrin maliyyə vəsaitinin cəlb olunmasında fəal iştirak edirdi.

Azərbaycan Respublikası iqtisadiyyatının inkişafında neft sənayesinin dirçəldilməsi, müasir texnologiyalar əsasında yenidən qurulması çox mühüm əhəmiyyətə malik idi. Bu sahəyə respublika prezidenti Heydər Əliyev xüsusi diqqət və qayğı göstərirdi.

Azərbaycan neft sənayesində yeni era başlandı. 1994-cü il sentyabrın 20-də Bakının «Gülüstan» sarayında «Əsrin müqaviləsi» – Azərbaycan Dövlət Neft Şirkəti (ADNŞ) ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstan və sonradan onlara qoşulan Yaponiya iri neft şirkətləri daxil olan konsorsium arasında

Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» neft yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı. Razılığa görə investisiyanın 80 faizini konsorsium qoyur, Azərbaycanın ümumi gəliri çıxarılacaq neft qiymətinin 80 faizi miqdarında müəyyən olunurdu. Bundan əlavə, hasil olunacaq səmt qazı da tam Azərbaycanın ixtiyarına verilirdi. Bu müqavilənin bağlanmasında, iri neft şirkətlərinin cəlb olunmasında respublika prezidenti ilə bərabər ADNŞ-nin I vitse-prezidenti İlham Əliyevin olduqca mühüm rolu olmuşdur. 1995-ci il noyabrın 10-da Xəzərin yeni aşkar olunmuş «Qarabağ» strukturunda və ona bitişik ərazidə kəşfiyyat işləri aparılması, yatağın işlədilməsi və çıxarılan neftin bölüşdürülməsi haqqında Rusiya, İtaliya, ABŞ şirkətləri ilə yeni saziş imzalandı. Müqavilədən əldə olunan daxili gəlirin 65–80 faizinin Azərbaycana çatacağı müəyyən edildi. 1996-cı il iyunun 4-də Xəzərin «Şahdəniz» yatağının birgə işlədilməsi haqqında ABŞ ilə Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa və İran neft şirkətləri konsorsiumu müqavilə imzaladılar. Bu müqaviləyə görə ümumi gəlirdə Azərbaycanın payı 80 faiz olacağı müəyyən edilmişdi. Həmin il dekabrın 14-də Xəzərdə «Dan ulduzu» və «Əşrəfi» yataqlarının birgə işlədilməsi üzrə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiya, 1997-ci il yanvarın 13-də «Lənkəran-dəniz» və «Talış-dəniz» yataqlarının birgə istismarı üzrə Fransa neft şirkətləri ilə ADNŞ arasında sazişlər bağlandı. 1997-ci il avqustun 1-də Vaşinqtonda Ağ evdə ABŞ-ın «Şevron», «Ekson», «Mobil» və «Amoko» şirkətləri ilə ADNŞ arasında Xəzərin Azərbaycan sektorundakı «Abşeron», «Naxçıvan», «Oğuz» və «İnam» neft yataqlarında birgə iş haqqında üç yeni müqavilə imzalandı. Ümumiyyətlə, 1994–2000-ci illərdə dünyanın 14 ölkəsinin 32 neft şirkəti ilə 21 müqavilə bağlandı. Bu şirkətlərə xidmət göstərən 400-ə qədər xarici şirkətlə işbirliyi yaradıldı. Bu müqavilələrdə Azərbaycana 60 milyard dollar sərmayə yatırılması nəzərdə tutulurdu. 2002-ci ilədək artıq 6 milyard dollar xarici investisiya qoyulmuşdu.

«Azəri», «Çıraq», «Günəşli» neft yataqlarından çıxarılacaq ilkin neftin Qara dənizə Rusiya və Gürcüstandan keçən «Şimal» və «Qərb» neft kəmərləri ilə daşınacağı barədə müqavilələr bağlandı. 1997-ci ilin oktyabrında «Şimal», 1999-cu ilin aprelində isə «Qərb» kəməri istifadəyə verildi. İldə 50 milyon ton neft nəql edə biləcək 1730 km-lik Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin çəkilməsi haqqında saziş bağlandı.

Böyük siyasi və iqtisadi əhəmiyyəti olan bu müqavilələrin müvəffəqiyyətlə həyata keçirilməsi daim dövlətin və şəxsən prezidentin diqqət mərkəzində idi.

1995-ci ilin aprelində «Əsrin müqaviləsi»ni reallaşdırmaq üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), 1996-cı ilin aprelində «Qarabağ» strukturu üzrə müqaviləni həyata keçirmək üçün «Xəzər» Beynəlxalq Neft Şirkəti, habelə başqa müqavilələr üzrə Əməliyyat şirkətləri təşkil olundu. Bu şirkətlər qazma qurğularından, infrastrukturlardan birgə istifadə etmək üçün xüsusi klub yaratdılar.

ABŞ-ın «Ekson», «Amoko», «Yunokol» və «Penzoyl», Böyük Britaniyanın «Britiş», «Petrolium», Yaponiyanın «İtoçi», Norveçin «Statovl», Səudiyyə Ərəbistanın «Delta», Rusiyanın «Lukoyl», Fransanın «Elf Akiten» və «Totol», İtaliyanın «Acip» kimi dünyanın ən qabaqcıl neft şirkətləri Azərbaycanın neft, neft-maşınqayırma sənayesinə müasir texnologiyalar gətirdilər. Neft donanması, infrastruktur yenidən quruldu. «Bakı» elmi-tədqiqat geofizika gəmisi modernləşdirilib dünyanın ən mükəmməl geofizika gəmilərindən birinə çevrildi. «Xəzərdənizneft» yarımdalma qazma qurğusu yenidən bərpa edildi, «Dədə Qorqud» adı ilə ikinci həyata başladı. «Şelf-5» qazma qurğusu əsaslı şəkildə yenidən qurulmağa, müasir avadanlıqla təchiz olunmağa başlandı. 2000-ci ildə müasir çoxfunksiyalı, özüqalxan «Qurtuluş» qazma qurğusu istifadəyə verildi. «Tofiq İsmayılov» adına dalcıq, «Azərbaycan», «İsrafil Hüseynov» adına kran gəmiləri təmir edilib yeni avadanlıqlarla təchiz olundu. «Çıraq-1» platforması beynəlxalq standartlara uyğun, Qərb texnologiyası əsasında yenidən quruldu. Bu platformadan sahilədək 120 m dərinlikdə 176 km-lik neft, Neft Daşlarına 48 km-lik qaz kəmərləri çəkildi. Sanqaçal terminalı tikildi. Zığ zavodu sualtı boru istehsalı üzrə modernləşdirildi.

1994-cü ildən başlayaraq hər il Bakıda yüzlərlə xarici firma və şirkətin təmsil olunduğu beynəlxalq neft-qaz sərgiləri təşkil olundu. Yüzlərlə azərbaycanlı mütəxəssis dünyanın ən qabaqcıl neft şirkətləri bazasında yeni texnologiya və iş metodlarına yiyələndi. ABƏŞ-də 400 nəfərdən çox milli kadr işlə təmin olunmuşdu. Subpodrat işlərinin hamısını 3 minə yaxın yeni kadr yerinə yetirirdi. «Xəzər» Beynəlxalq Neft Şirkəti işçilərinin 79, «Şahdəniz» müqaviləsi üzrə işçilərin 70 faizi azərbaycanlılardan ibarət idi. Bakı neftçilərinin böyük təcrübəsi yüksək qiymətləndirilir və ondan səmərəli istifadə olunurdu.

Neft şirkətlərinin beynəlxalq tenderlərdə bağladığı müqavilələrin 20 faizdən çoxu Azərbaycan şirkətlərinin və onun xarici ölkələrin şirkətləri ilə birgə yaratdığı müəssisələrin payına düşürdü.

1996-cı ildə dənizdə ABƏŞ-in qazdığı ilk neft quyusu güclü fontan vurdu və yataqların böyük ehtiyatları bir daha təsdiq olundu. 1997-ci il noyabrın 12-də «Əsrin müqaviləsi» üzrə ilkin neftin hasilatına başlanıldı. Bu hadisə Bakıda təntənə ilə qeyd edildi.

İqtisadiyyatın başqa sahələrinə də xarici sərmayə qoyuluşu sürətlə artırdı. Xarici investisiyanın 1996-cı ildə 33, 2000-ci ildə isə artıq 50 faizdən çoxu qeyri-neft sahələrinə yönəldilmişdi. Ümumiyyətlə, respublikanın iqtisadiyyatına 1993-cü ildə 15 milyon, 1996–2000-ci illərdə isə 5 milyard dollar xarici investisiya qoyulmuş, onun 90 faizi istehsal sahələrinin inkişafına istiqamətləndirilmişdir. Azərbaycan iqtisadiyyatına Avropa birliyi «TRASEKA» proqramı üzrə «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizinin – «Yeni İpək Yolu»nun açılması da əhəmiyyətli təsir göstərdi. 1993-cü ilin mayında bu məsələ ilə bağlı «Brüssel bəyannaməsi» qəbul edildi. 1996-cı ilin mayında Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında tranzit yükdaşımaları haqqında Sarahs sazişləri imzalandı. 1996-cı ilin dekabrında Ukrayna da Avrasiya nəqliyyat dəhlizinə qoşuldu. Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7–8-də Bakıda «Böyük İpək Yolu» beynəlxalq Konqresi keçirildi. Bakıda «Böyük İpək Yolu»nun mənzil qərargahı yaradıldı. Yeni nəqliyyat dəhlizinə Qazaxıstan və Qırğızıstan Respublikaları da qoşuldular. Bu dəhliz vasitəsilə Azərbaycandan 1996-cı ildə 345 min, 2000-ci ildə isə artıq 5,7 milyon tondan çox tranzit yük daşınmışdı.

İqtisadiyyatda struktur dəyişiklikləri də getdikcə dərinləşirdi. Onun başlıca istiqaməti sahibkarlığın inkişafı, dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar islahatın həyata keçirilməsi idi. «1995–1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Dövlət Proqramı», «Sahibkarlıq fəaliyyəti haqqında», «Müəssisələr haqqında», «Səhmdar cəmiyyəti haqqında» Qanunlar, «Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərin çevrilməsinin qaydaları haqqında Əsasnamə» və başqa hüquqi aktlar qəbul edildi. «Sahibkarlığın İnkişafı üçün Milli Fond» təsis olundu. «Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi», yerlərdə «Sahibkarlıq İnkişafı Mərkəzləri», «Kiçik və Orta Sahibkarlıq İnkişafı Agentliyi», «Xarici İnvestisiyalar Mərkəzi», «İqtisadi və İşgüzar İnformasiya Mərkəzi» yaradıldı. Bu təşkilatlar sahibkarların investisiya layihələrini ekspertiza edir, onların həyata keçirilməsi üçün maliyyə yardımı göstərirdilər. Sahibkarlar üçün müxtəlif kurs və seminarlar təşkil olunurdu. Vətəndaşların xarici banklarda saxlanılan pullarının Azərbaycanda investisiya qoyuluşuna cəlb edilməsi üçün 1995-ci

ilin iyulunda qəbul olunmuş qanuna əsasən qoyulan vəsaitin mənbəyi haqqında məcburi məlumat alınması qadağan edildi.

İş adamlarının fəaliyyətini tənzimləmək, onlara istiqamət, proqnozlar vermək məqsədilə Azərbaycanda və qabaqcıl xarici ölkələrdə qarşılıqlı ticarət, sənaye palataları yaradıldı. Azərbaycan İran Birgə İqtisadi, Texniki, Elmi və Humanitar Komissiyası, Türkiyə–Azərbaycan Müştərək İqtisadi Komissiyası təşkil olundu.

1996-cı ilin avqustunda Prezident sahibkarların nümayəndələri ilə görüşdü. Kiçik və orta sahibkarlığa kömək məqsədilə Dövlət proqramı hazırlandı. Müəssisələrin dövlət qeydiyyatı işi sadələşdirildi, zonalar üzrə qeydiyyat mərkəzləri təşkil edildi.

Ölkənin böyük investisiya imkanları geniş təbliğ olunmağa başlandı. 1994-cü ilin payızında Bakıda, 1995-ci ilin qışında Londonda və Parisdə, 1996-cı ilin baharında və payızında, 1997-ci ilin baharında Bakıda və İstanbulda beynəlxalq biznes konfransları keçirildi. Bu konfranslarda prezident Heydər Əliyevin iştirakı və xarici investitorları respublikaya cəsarətlə vəsait qoymağa şəxsən dəvət etməsi çox səmərəli oldu. 1997–1998-ci illərdə ABŞ-da Amerika–Azərbaycan Ticarət Palatası tərəfindən keçirilən beynəlxalq konfranslarda respublikanın iqtisadi imkanları geniş müzakirə edildi. ADNŞ-nin vitse-prezidenti İlham Əliyevin bu konfranslarda əhatəli, inandırıcı çıxışlarının daha səmərəli təsiri olmuşdu.

Xarici investitorların Azərbaycana marağı durmadan artırdı. 2000-ci ildə respublikada 1300-dən çox xarici şirkət fəaliyyət göstərirdi.

Respublikada sahibkarlığın inkişafına beynəlxalq iqtisadi təşkilatlar da yaxından köməklik göstərirdilər. Avropa Birliyi İqtisadi Komissiyası «TASİS» – texniki yardım proqramı respublika iqtisadiyyatında struktur dəyişiklikləri, sahibkarlığın inkişafına, xüsusən kənd təsərrüfatında islahatların aparılmasına investisiyalar cəlb olunmasına, Avropa–Qafqaz–Asiya ticarət, nəqliyyat əlaqələrinin inkişafına kömək edən layihələr hazırlanmasında fəal iştirak edirdi. Onun hazırladığı Avroasiya–«TRASEKA» nəqliyyat proqramı Azərbaycan və beynəlxalq iqtisadi birliklər üçün daha əhəmiyyətli idi. «TASİS» proqramı dairəsində KOSİA–SMEDA təşkilatı və habelə Türk-Sənaye İş Adamları Birliyi, Türk İş Birliyi İnkişaf Agentliyi respublikada sahibkarlığın inkişafı sahəsində fəal iş aparırdılar.

Almaniya Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) kənd təsərrüfatını özəlləşdirmək işlərinə kömək üçün xüsusi layihə hazırlayıb Azərbaycana hədiyyə etdi.

İngiltərənin «Kayzer» firması ilə Sumqayıt Əlvan Metal İstehsalatı Birliyinin müqaviləsi əsasında Alüminium zavodu yenidən işə başladı. İtaliyanın «Porçeti SPA» firması ilə kontraktlara əsasən natrium-qələvisi, polmer istehsal edən müasir qurğular işə salındı. Səudiyyə Ərəbistanı firması ilə aşağıtəzyiqli polietilen, polivinilxlorid istehsalı qurğularının tikilməsi, «Polimer-120» qurğusunun, Yaponiya firmaları ilə Etilen-propilen zavodunda «EP-300» qurğusunun yenidən qurulması üçün və b. müqavilələr bağlandı. İtaliya firması ilə müqaviləyə əsasən Qaradağda yeni şin zavodu tikilməyə başlandı. Suraxanı maşınqayırma zavodunda ABŞ-ın «Haylənd» firması ilə müştərək müəssisə yaradıldı və dünya standartları səviyyəsində nasoslar istehsal edildi. Bakı maşınqayırma zavodunda ABŞ-ın «Red-Tul» firması ilə yaradılmış müştərək müəssisədə müasir texnologiyalara cavab verən qazma baltaları, Avstriya firması ilə birgə qazma qıfılları istehsal olunurdu. Bakı poladtökmə zavodu Türkiyə ilə müştərək müəssisə yaradıb tikinti üçün armatur istehsalına başlamışdı.

İngiltərənin «Trans Uvold Metal LTD» şirkəti Gəncə Gil-Torpaq İstehsalı birliyini icarəyə götürmüş, bərpa-quruculuq işləri aparmış, Gəncə zavodu, Daşkəsən alunit emalı müəssisəsi işə salınmış, zəy, sulfat turşusu istehsalına başlanmışdı.

Xarici investisiya təsərrüfatın başqa sahələrinə də nüfuz edirdi. Bakı tütün kombinatı məşhur «Reynold Tobakko» (ABŞ) və «Star» (Türkiyə) firmaları ilə birgə müəssisə yaradıb istehsalatı modernləşdirmişdi. Çay, meyvə-tərəvəz istehsalı üzrə də xarici kapitalın geniş cəlb olunduğu müştərək müəssisələr təşkil olunmuşdu. Xarici investisiyalar hesabına respublikanın müxtəlif bölgələrində 5 nümunəvi kənd təsərrüfatı müəssisəsi yaradılmağa başlanmışdı. Meliorasiya qurğularının bərpası və yenidən qurulması üçün xeyli xarici kredit ayrılmışdı. Türkiyənin «Polsan» şirkəti Azərbaycanda «Saro LTD» firması təşkil edərək Şri-Lankadan çay gətirib qablaşdırırdı. Bu ölkənin «İntersun» şirkətlər qrupu Bakı çayçəkici fabriki ilə müştərək «Azərsun» müəssisəsi yaratmışdı. Fabrikin sexi əsaslı şəkildə yenidən qurulmuş, müasir texnologiyalar əsasında «Məryəm», «Final», «Azər», «Mərcan» markalı çaylar istehsal edilməyə başlanmışdı. Türkiyənin «Pet Holdinq» şirkəti 2 dəri fabriki, emal müəssisələri təşkil etmişdi. Bu şirkət ADNŞ ilə birgə müəssisə yaradaraq Neftçalada iki köhnə neft mədənini işlətməyə başlamış, yeni texnologiyaların tətbiqi nəticəsində hasilat xeyli çoxalmışdı.

İranın «Şibarra», Türkiyənin «Star» şirkətləri respublikada tikinti işləri aparırdılar. Türkiyənin «BMS» sənaye və ticarət şirkəti Bakı avtomobil zavodu ilə birgə müəssisə yaradıb avtobus istehsalına başlamışdı.

İnvestisiya qoyuluşunun artması iqtisadi struktur dəyişikliklərinin dərinləşməsinə, sahibkarlığın inkişafına imkanlar açdı. Hər il orta hesabla 7–8 min özəl müəssisə yaranırdı. 1997-ci ilin əvvəllərində belə müəssisələrin sayı 60 mini ötmüşdü. 1993–1996-cı illərdə respublikada xarici şirkət və firmalarla birgə yaradılmış müəssisələrin sayı 300-dən 2000-ə çatmışdı. İslam ölkələri ilə 700 müştərək müəssisə yaradılmışdı. Lakin məlum obyektiv səbəblərə görə özəl müəssisələrin böyük əksəriyyəti istehsala deyil, daxili bazarı tutmağa maraq göstərirdi. Daxili mal dövriyyəsinin 75 faizə qədəri, xarici ticarətin 44 faizi bu müəssisələrin payına düşürdü.

Respublikada kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi, demək olar ki, 1997-ci ilin martında artıq başa çatdırılmış, 10174 kiçik müəssisə özəl mülkiyyətə, əsasən əmək kollektivi üzvlərinə verilmişdi. Böyük müəssisələrin özəlləşməsi səhmdar cəmiyyətləri yaradılması yolu ilə həyata keçirilirdi. İri və orta sənaye müəssisələri səhmləri artıq 1997-ci ilin martından əhaliyə paylanmağa başlanmış ümumi mülkiyyət bölgüsündən hər kəsə düşən payın ifadəsi olan çeklərə dəyişdirilirdi. Özəlləşən müəssisələrin göstəriciləri hərracdan ən azı 2 həftə qabaq mətbuatda dərc olunurdu. Səhmlərin 15 faizi güzəştlə, qapalı hərracda əmək kollektivinin üzvlərinə satılırdı. Dövlət Əmlak Komitəsi çeklərin hərracı üçün respublika Hərrac mərkəzi təşkil etmişdi. Çekləri toplayıb səmərəli yerləşdirmək, əldə ediləcək dividentləri bölüşdürmək üçün çek investisiya fondları yaranırdı.

Alıcılar müxtəlif vasitələrlə çeklərin qiymətini dəfələrlə aşağı salırdılar. Çeklər ayrı-ayrı qrup və ya fərdlərin əllərində cəmləşirdi.

İqtisadiyyatda struktur dəyişilmələrinin mühüm istiqamətlərindən biri də aqrar islahatın həyata keçirilməsi oldu. Əvvəllər kənd təsərrüfatında sahibkarlıq çox ləng inkişaf edirdi. 1992-ci ildə burada 320, 1995-ci ilin əvvəlində isə 830 müstəqil və kollektiv fermer təsərrüfatı vardı.

1995-ci ilin fevralında «Aqrar sektorda islahatların əsasları» və «Kolxoz və sovxozların islahatı» haqqında qanunlar qəbul edildi. Bu mühüm qanunların həyata keçirilməsi, ilk növbədə torpağa mülkiyyət münasibətinin yenidən müəyyənləşməsindən çox asılı idi. 1995-ci ilin

martında «Dövlət Aqrar islahatı Komissiyası» yaradıldı, 1996-cı il iyulun 16-da «Torpaq islahatı haqqında» qanun qəbul edildi. H.Əliyevin dediyi kimi, aqrar sektorda inqilabi, radikal bir addım atıldı.

Bu qanuna görə torpaq sosial ədalət prinsiplərinə əsasən, pulsuz kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə verildi. Respublikanın vahid torpaq fondu əsasında üç–dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyət forması müəyyən olundu. Ümumiyyətlə, kənd təsərrüfatı torpaqlarının 22 faizi 1 milyon 911 min h-ı xüsusi mülkiyyətə, 45 faizi dövlət mülkiyyətinə, 33 faizi isə bələdiyyə mülkiyyətinə verildi. Qanunun icrası üçün Prezident fərman imzaladı. «Dövlət torpaqları haqqında», «Torpaq vergisi haqqında» qanunlar, normativ aktlar qəbul olundu. Bütün rayonlarda torpaqlar istifadəçilər üzrə inventarlaşdırıldı, iqtisadi cəhətdən qiymətləndirildi. Özəl qurumların tələbatını ödəmək üçün 1996-cı ilin iyulunda aqrar kredit kassaları yaradıldı. Respublikada 3,5 milyon vətəndaşa torpaq payı ayrıldı. Aqrar islahatlar eksperiment qaydasında daha tez başlanmış, Xızı, Zaqatala, Salyan və Masallı rayonlarında bu iş 1996-cı ilin axırlarında, demək olar ki, artıq başa çatmışdı. Kolxoz, sovxoz və təsərrüfatlararası kənd təsərrüfatı müəssisələrinin ləğv edilib əmlakının özəlləşdirilməsi sürətlə davam edirdi. Artıq 2001-ci ilin yanvarında kənd təsərrüfatında sahibkarlığa əsaslanan 34 mindən çox kəndli (fermer) təsərrüfatı fəaliyyət göstərirdi. Kənd təsərrüfatına texniki xidmət üçün xüsusi özəl, kollektiv müəssisələr yaradılırdı.

1996-cı ilin oktyabrında «Sudan pullu istifadə haqqında əsasnamə»nin qəbul olunması meliorasiya xidmətinin yaxşılaşmasına imkanlar açırdı.

1996-cı ilin yazından başlayaraq ictimai kənd təsərrüfatı müəssisələrinin mal-qarası da özəl mülkiyyətə verilirdi. Artıq 1997-ci ilin əvvəllərində respublikada olan 1 milyon 760 min baş qaramalın 92,3 faizi, 4 milyon 872 min baş davarın isə 91 faizi özəl təsərrüfatlarda idi. Belə təsərrüfatlarda məhsuldarlıq daha yüksək olurdu. Kənd təsərrüfatı məhsullarının tam böyük əksəriyyətini onlar istehsal edirdi.

Azərbaycan Prezidentinin 1999-cu il 22 mart tarixli fərmanı ilə kənd təsərrüfatı məhsulları istehsalçıları 5 ilə torpaq vergisindən başqa bütün vergilərdən azad edildilər. Bu vergilər üzrə borclar silindi. 1996-cı ildən kənd təsərrüfatlarına yanacaq və neft məhsulları 50 faiz güzəştlə satılırdı. 2001-ci ilin yanvarından kənd təsərrüfatı ilə məşğul olan hüquqi və fiziki şəxslər əlavə dəyər vergisindən və obyektlərdən istifadə vergisindən azad edildilər.

İqtisadiyyatı dirçəltməyin, inkişaf etdirməyin mühüm vasitəsi olan özünütənzimləmə sisteminə əsaslanan, idarəetmə mexanizmi yaradılmasına xidmət edən institusional dəyişikliklərə xüsusi diqqət yetirilirdi. İqtisadi fəallığa mane olan büroktarik strukturlar ləğv olunmağa başlanmışdı. 1994-cü il aprelin 5-də xarici ticarətin sərbəstləşdirilməsi haqqında fərman verildi. Xarici iqtisadi əlaqələr liberallaşdırıldı, həm fiziki, həm də hüquqi şəxslər azad surətdə xarici ticarət hüququ aldılar. 1997-ci ilin yanvarında respublikada ixrac vergisi ləğv olundu. Dövlət konsernləri və şirkətləri səhmdar cəmiyyətlərinə çevrilməyə başladı. Bu, özünütənzimləmə sisteminin yaranmasına münasib imkanlar açır, rəqabət yaradırdı. Məsələn, çörək mağazaları özəlləşdirildikdən sonra işlərini elə qurdular ki, çörək qıtlığı, uzun növbələr aradan qalxdı.

2000-ci ilin avqustunda II Dövlət Özəlləşdirmə Proqramı qəbul edildi. 2002-ci ildən artıq dövlət müəssisələri bazasında 1275 səhmdar cəmiyyəti yaradılmışdı. Bütün çətinliklərə baxmayaraq, Azərbaycanda müvəffəqiyyətlə həyata keçirildi. 2000-ci ildə artıq ümumi daxili məhsulda özəl sektorun payı 68 faiz təşkil edirdi (sənayedə 44, kənd təsərrüfatında 99, ticarətdə 98, tikintidə 64, yükdaşımada 54, sərnişindaşımada 83 faiz).

Ümumiyyətlə, həyata keçirilən iqtisadi tədbirlər mövcud iqtisadi böhranı aradan qaldırmağa, sabitlik yaratmağa və tərəqqiyə yol açmağa kömək etdi. Respublika iqtisadiyyatına bütün mənbələrdən sərmayə qoyuluşu 1993-cü ildəki 29 milyard manatdan 2000-ci ildə 4,2 trilyon manata çatdı. Respublikada onlarla yeni sənaye müəssisəsi, sex, istehsalat sahəsi, qurğu işə salındı. 1993-cü ildə Bakıda çoxlaylı lövhələr istehsal edən «Peyk» zavodu, parket, plastik pəncərə fabrikləri işə düşdü. 1995–1996-cı illərdə Penzoyl (ABŞ) şirkətinin köməyi ilə Xəzərdə illərlə havaya sovrulan yanacaq qazını tutub sahilə ötürmək üçün kompressor stansiyası qurulub işə salındı və hər il orta hesabla 2 milyard 300 milyon kub. m qaz tutulub istifadəyə verildi. 600-dən çox neft, qaz quyusu yenidən istismara qaytarıldı. Şirvanın köhnə Gürovdağ neft yatağında yeni məhsuldar qatlar aşkar edildi. 1997-ci ilin yazında bu yataqda qazılan iki quyu fontan vurdu. «Bahar» dəniz neft yatağında da yeni üsulların tətbiqi nəticəsində neft quyusu fontan vurdu. Qaz emalı zavodu yenidən quruldu. 1994–1995-ci illərdə Neftayırma zavodlarında iki yeni ELOU-AVT-2 qurğusu işə salındı, mövcud ELOU-AVT-6 qurğusu modernləşdirildi və müasir avadanlıqla təchiz olundu. Qaz zavodu yenidən quruldu.

Maşınqayırma sənayesi müəssisələri xarici bazar olmadığı üçün profilini dəyişib respublika sənayesi və kənd təsərrüfatı üçün avadanlıq, texnika, ehtiyat hissələri istehsal etməyə başladılar. Müasir qazma baltası, qazma qıfılı, kultivator, toxumsəpən, kotan, nasos, reduktor, hidromkat, çuqun siyirmə istehsalı mənimsənildi. Mingəçevir yol maşınları təmiri zavodunda dəyirmanlar, xəmiryoğuran avadanlıq, şum mexanizmləri istehsalına başlandı.

1996-cı ildə Bakıda Qoz-fındıq emalı, Yağ, «Coco-Cola» sərinləşdirici içkiləri zavodları açıldı. 1997-ci ilin əvvəllərində Sumqayıtda Azərbaycan İstehsalat Birliyinin çoxdan dayanmış Avropada ən böyük marten sobalarından ikisi yenidən işə salındı. Alüminium zavodu işləməyə başladı. Gəncə Alüminium oksidi zavodu, Daşkəsən alunit mədənləri yenidən işə düşdü.

Kimya sənayesi müəssisələrində polietilen, kaustik soda, sulfat turşusu, alüminium-sulfat və s. istehsalı çoxaldı. Tullantılardan istifadə etməklə karbooksimmetelsellüloz, texniki soda, alüminium-sulfat, xam rezin əsasında pnevmatik kabel, dərman və s. kimi məhsullar istehsalı mənimsənildi.

İslahatlar nəticəsində sənaye ilə yanaşı, kənd təsərrüfatında da irəliləyişlər baş verdi. 1996-cı ildə respublikada kənd təsərrüfatında geriləməyə son qoyulmuş, istehsal 3 faiz artmışdı. Çəltik istehsalı bərpa olunmuş, şəkər çuğunduru istehsalına başlanmışdı. Taxılçılığın inkişafına diqqət artmaqda idi.

1997-ci ildə ölkədə daxili məhsul istehsalı 5,6 faiz artmışdı. İnflyasiya, demək olar ki, yox idi.

2000-ci ildə Şəmkir-Yenikənd Su Elektrik Stansiyası, Abşeron «Şimal» Dövlət Rayon Elektrik Stansiyasının enerji bloku, 1 saylı Bakı İstilik-Elektrik mərkəzində yeni qaz turbir qurğusu, «Azneftqaz» İstehsalat birliyində bitum qurğusu, 2001-ci ildə «Kaspian Fiş» balıq məhsulları istehsalı məhsulları, Bakı poladtökmə zavodu, Qaz zavodunda yeni müasir emal qurğusu, Naxçıvana elektrik enerjisi vermək üçün İmişli-Parsaband elektrik xətti istifadəyə verildi. Həyata keçirilmiş tədbirlər nəticəsində 1996-cı ildə sənayedə tənəzzülün qarşısı alındı, sabitlik yarandı. Əgər 1991–1994-cü ildə sənayedə məhsulun istehsalı 20–24 faiz azalırdısa, 1996–2000-ci illərdə 13,4 faiz artmışdı. Kənd təsərrüfatındakı istehsalatlar da səmərəli oldu. 1991–1994-cü illərdə hər il bu sahədə istehsal 15–20 faiz azalırdısa, 1996–2000-ci illərdə 19 faiz artmışdı. Şəkər çuğunduru, çəltik istehsalına başlandı. 2000-ci

ildə ölkədə ilk dəfə 1,5 milyon ton taxıl istehsal edildi. Əhalinin kənd təsərrüfatı məhsullarına tələbatı daha yaxşı ödənilməyə başlandı. 2001-ci ildə Azərbaycan Respublikası 122 xarici dövlətə ticarət əlaqəsi saxlayırdı. Xarici ticarət dövriyyəsi 1993-cü ildəki 1,3 milyard dollardan 2000-ci ildə 2,9 milyard dollara çatmışdı. 2000-ci ildə ixrac idxaldan çox olmuş, müsbət saldo yaranmışdı.

Makroiqtisadi göstəricilərin sabitləşməsi, tənəzzülün cilovlanmasına, artım meyillərinin intensivləşməsi, etibarlı tərəfdaş kimi respublikanın beynəlxalq imicinin yüksəldilməsi, xarici iqtisadi əlaqələrin, investisiya qoyuluşunun genişlənməsi, struktur və institusiyon dəyişikliklərə istiqamətlənmiş islahatların dərinləşməsi iqtisadi inkişafın dönmədən sürətlənməsinə şərait yaradırdı.

## § 4. Əhalinin məişəti

İqtisadi böhran, tənəzzül əhalinin güzəranını ağırlaşdırmış, ərzaq məhsullarının, sərnişin daşımalarının qiyməti yüz dəfələrlə artmışdı.

Əvvəllər əməkhaqqının və pensiyaların indeksasiyası üçün minimum əməkhaqqı səviyyəsi müəyyən olunmuşdu. Sürətli inflyasiya ilə əlaqədar 1993-cü ilin yayında bu səviyyə 300 manatdan 500 manata, payızında 900 manata, 1994-cü ilin payızında isə 4000 manata qaldırılmışdı. Bu, dolanacaq üçün adi xərclərin cəmi 7 faizinə çatırdı.

Orta əməkhaqqının nominal göstəriciləri artsa da, real səviyyəsi aşağı düşürdü. Orta aylıq əməkhaqqı 1993-cü ilin ortalarında 13,8 min manatdan 1995-ci ilin ortalarında 62,5 min manata çatmışdı. Lakin inflyasiyanın artım sürəti bunu dəfələrlə qabaqlayırdı. 1994-cü ilin ortalarında bir adamın normal yaşaması üçün vacib ehtiyac zənbilinin dəyəri təqribən 25,8 min manat, əmək qabiliyyətli əhalinin 64 faizini təşkil edən məşğul adamların orta aylıq əməkhaqqı isə cəmi 13,8 min manat olmuşdur. Belə vəziyyətin yaranmasında inflyasiyanın daim artmasında marağı olan və buna çalışan, əhalinin aztəminatlı təbəqələrini aldadıb var-yoxunu əlindən almaqla varlanmaq istəyən «işbazların» yaratdığı soyğunçu «Vahid», «Mərhəmət», «Aleks», «Etimad», «Xəyal» və başqa «xeyriyyə» cəmiyyətlərinin də rolu az olmadı.

1992–1994-cü illərdəki hiperinflyasiyanı cilovlamaq üçün 1995–1996-cı illərdə həyata keçirilən tədbirlər nəticəsində 1996-cı ilin birinci yarısında orta aylıq əməkhaqqının artım sürəti sürətlə zəifləyən

inflyasiyanı ilk dəfə üstələdi. 2000-ci ildə orta aylıq nominal əmək-haqqı 221,6 min manat idi. Lakin işləyən əhalinin yarıdan çoxunun pul gəliri orta aylıq əməkhaqqı səviyyəsindən xeyli az idi.

Sahibkarlıq, özəl müəssisələr inkişaf etdikcə yüzlərlə yeni iş yerləri yaradılır, işsizlər qeydə alınır, onlara müavinət verilirdi. 2000-ci ildə respublikada 43,7 min nəfərin rəsmi işsizlik statusu vardı.

Əhalinin sosial müdafiəsini gücləndirmək üçün tədbirlər görüldü. 1994-cü il iyulun 24-də «Əhalinin sosial müdafiəsi haqqında» Qanun qəbul edildi. Həmin il noyabrın 21-də Əhalinin Sosial Müdafiə Fondu təsis olundu. Bu fonda bütün müəssisələrin balans mənfəətindən 1 faiz məcburi ayırmalar verilməyə başlandı. Fond bütün təşkilatlardan sosial sığorta ayırmaları toplayır və yaranan vəsait hesabına pensiya və müavinətləri maliyyələşdirirdi.

Əhalinin 38,2 faizinə pensiya, müavinət verilirdi. 1 milyon 600 min adam – müəllimlər, veteranlar, şəhid, əlil ailələri, ahıl və yardıma ehtiyacı olanlar (800 min nəfər) sosial güzəştlərdən istifadə edirdilər. 1 milyon 200 min pensiyaçıya və aztəminatlı ailələrdə 1 milyon 650 min uşağa, habelə 240 mindən çox əlilə yardım göstərilirdi.

1998-ci ildən müharibə və 20 yanvar əlillərinə dövlət hesabına «Oka» markalı minik maşınları verilməyə başlandı. Əlillərin məişət şəraitini yaxşılaşdırmaq üçün evlər tikilib istifadəyə verilirdi.

Azərbaycanda 1 milyondan artıq qaçqın və köçkün vardı. Qaçqınların 90 faizə qədəri artıq məskunlaşdırılmış, 77 faizi işlə təmin olunmuşdu. Köçkünlərin isə 77 min nəfəri 11 çadır düşərgəsində məskunlaşmışdı. Onların 42 faizi iş yeri ilə təmin edilmişdi. Qaçqın və köçkünlərə dünyanın ayrı-ayrı ölkələrinin 50 təşkilatı, o cümlədən BMT-nin qaçqınlar üzrə Ali Baş Komissarlığı, Ümumdünya Ali Ərzaq Proqramı, Uşaq Fondu, Dünya Bankı, Avropa Birliyi ESNO-EKO xətti, Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti, ABŞ-ın Beynəlxalq Uşaqları Xilasetmə Federasiyası xətti ilə maliyyələşdirilən 6 müstəqil humanitar təşkilat, Beynəlxalq İnkişaf Agentliyi, Avropa və MBD ölkələri idarəsi, Asiya Müsəlmanları Komitəsi, Beynəlxalq İslam «Nicat» təşkilatı, İran, Türkiyə, Səudiyyə Ərəbistanı Qızıl Aypara cəmiyyətləri, Almaniya Beynəlxalq Texniki Yardım Təşkilatı humanitar yardım göstərirdi.

Respublikanın müxtəlif rayonlarına səpələnmiş köçkünlər üçün beynəlxalq humanitar təşkilatlarının yaxından köməyi ilə yaşayış məskənləri yaradılmışdı. Avropa Birliyi Humanitar Yardım İdarəsi (ESNO) Azərbaycan qaçqın və köçkünləri üçün 1993–1995-ci illərdə üç məs-

kunlaşdırma proqramı həyata keçirmiş, 1994-cü ildə Sabirabad, Ağcabədi, Dəvəçi, Goranboy, İmişli, Yevlax, Şəki və Saatlıda 20 min əhali üçün qurama evlər, 1995-ci ildə Beyləqanda 2 qəsəbə tikilməsini maliyyələşdirmiş, əhaliyə sosial xidmətlər göstərilməsini, hər ay ərzaq yardımı verilməsini təmin etmişdi. Almaniyanın köməyi ilə 1996-cı ildə Ağcabədi rayonunda Laçın köçkünləri üçün 2 qəsəbə, BMT-nin köməyi ilə Oğuz–Şəki yolunun üstündə Laçın, Kəlbəcər, Ağdam köçkünləri üçün 1, Oğuz rayonunda 2 qəsəbə salınmışdı.

1996-cı ildə ABŞ-ın «Keyə» (Qayğı) beynəlxalq humanitar təşkilatı İmişli, Saatlı, Beyləqan, Zərdab, Kürdəmir, Göyçay və Ağsu rayonlarında birtipli layihələr üzrə 1800 köçkün ailəsi üçün ev inşa etmiş, ehtiyacı olan ailələrə 6,5 min ton ərzaq vermişdi. ABŞ Dövlət Departamentinin sponsorluğu ilə 1996–1997-ci illərdə Azərbaycana dava-dərman və tibb preparatlarından ibarət böyük humanitar yardım göndərilmişdi. Ümumiyyətlə, ABŞ-ın qeyri-dövlət təşkilatları 1992–1997-ci illərdə Azərbaycana 125 milyon dollarlıq humanitar yardım göndərmişdi. İranın Hilal-əhmər, Türkiyənin və Səudiyyə Ərəbistanın Qızıl Aypara Cəmiyyətləri köçkünlər üçün 10 çadır düşərgəsi qurmuş, burada yaşayan köçkünləri ərzaqla təmin etməyə başlamışdılar. 1995–1996-cı illərdə Avropa Birliyi Azərbaycana buğda unu göndərmişdi. ABŞ, Almaniya, Hindistan, Norveç və Yaponiya Milli Qızıl Xaç Cəmiyyətləri Azərbaycanda kimsəsiz və imkansız adamlara humanitar yardım göndərirdilər.

1995-ci ilin yanvarında Prezidentin fərmanı ilə Beynəlxalq humanitar və Texniki Yardım Üzrə Respublika Komissiyası təşkil edildi, işə nəzarət gücləndi.

Beynəlxalq təşkilatlar Azərbaycanda yoxsulluğu aradan qaldırmaq, iş yerləri yaratmaq, özəl müəssisələr açmaq sahəsində fəal iş aparırdılar. BMT-nin İnkişaf Proqramı, Beynəlxalq Əmək Təşkilatı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ilə birlikdə əhalinin məşğulluğunu təmin etmək üçün müxtəlif proqramlar hazırlamışdı. Məsələn, Salyan rayonunda kiçik sahibkarlığın inkişafı üzrə belə bir xüsusi proqram həyata keçirmişdi. İslam İnkişaf Bankının vəsaiti ilə 10 rayonda iş yerləri yaradılması üçün müəssisələr tikilirdi. Qatar əmirliyi xeyriyyə cəmiyyəti Qax rayonunda xeyriyyəçilik işləri görmüş, yeni iş yerləri, tikiş sexi açmışdı.

Avropa Birliyi fermer təsərrüfatlarına kömək etmək üçün 1996-cı ilin əvvəllərində Avropa İttifaqı Partnyor Fondu yaratmışdı. BMT İnkişaf Proqramı yoxsulluq səviyyəsi daha yüksək olan Naxçıvan MR-ə

kömək göstərmək, iş yerləri açmaq üçün fəaliyyət proqramı hazırlamış, bu məqsədlə 1200 min dollar vəsait ayırmışdı.

80-ci illərin axırlarından respublikanın yaşayış məntəqələri səliqə-sahmanını, yaraşığını itirməyə başlamışdı. Əvvəlki iqtidarlar tikinti, abadlıq işlərinə, demək olar ki, diqqət yetirmirdilər. Mitinqlər vaxtı, 1990-cı il Qanlı Yanvar günlərində Sovet ordusu Bakıya soxularkən çoxlu dağıntılar törətmiş, şəhərə böyük ziyan dəymişdi. Xəzər dənizi səviyyəsinin qalxması ilə əlaqədar sahildə yerləşən yaşayış məntəqələri ciddi ziyan çəkmişdi. Bakının dünyada gözəlliyi ilə məşhur olan bulvarını su basmış, yaşıllıqlar məhv olmuşdu. Erməni işğalçıları Dağlıq Qarabağda və onun ətraf bölgələrində 700-dən çox yaşayış məntəqəsini, o cümlədən Şuşa, Laçın, Xocalı, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan şəhərlərini ələ keçirib darmadağın etmiş, 100 mindən çox ev, 4366 sosial obyekt söküb aparmış, yandırıb külə çevirmişdilər. Yüz km-lə yol, o cümlədən dəmiryolu, 8 böyük körpü bərbad hala salınmışdı. Respublikanın şəhər və kəndlərində ictimai nəqliyyat vasitələri tam köhnəlmişdi. Əhaliyə su, qaz, elektrik enerjisi verilməsində tez-tez fasilələr yaranırdı. İstirahət evləri, yataqxanalar qaçqın və köçkünlərlə dolu idi. Paytaxtda əhalinin sayı 3 milyona çatırdı. Şəhər yaşayış məntəqələrində əhali sayının kəskin artması xidmət, təminat, sanitariya işlərini xeyli çətinləşdirirdi. Mənzillər, demək olar ki, təmir olunmur, köhnə binalar sökülür-dağılırdı. Şəhərlərin ətrafında yeni yaşayış massivləri salınması işi dayandırılmışdı. İctimai mənzil tikintisi azalmışdı. Dövlət mənzil fondunun özəlləşdirilməsinə başlanmışdı. 1991–2000-ci illərdə respublikada 10129 min m², o cümlədən fərdlər və kooperativlər tərəfindən 7334 min m² mənzil sahəsi tikilmişdi.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra respublika əsl tikinti meydanına çevrilmişdi. Şəhər və kəndlərin ən yaxşı yerlərində işgüzar adamlar müasir, milli və klassik üslubda yaraşıqlı imarətlər ucaldırdılar. «Xəzər inşaat», «LTD inşaat», «Bayraqdar Holdinq», «Sarna» «(İstanbul evləri)», «Star», «Şibarra» və b. xarici firmalar müasir tikinti texnologiyası ilə onlarla gözəl bina, ticarət mərkəzləri inşa etmişdilər. Kanadanın «Stonney» firması Bakının Qanlıgöl sahəsində yaşayış evləri, Səudiyyə Ərəbistanının firması Xəzər sahillərində beşulduzlu mehmanxanalar tikməyə başlamışdı. Paytaxtda Beynəlxalq və Milli Banklar üçün yaraşıqlı «göydələnlər», onlarla yeni çoxmərtəbəli evlər tikilmişdi. «İnturist» və b. mehmanxanalar yenidən qurulub bahalı otellərə çevrilmişdi. «Naxçıvan» mehmanxanası yenidən qurulub «Həyat-

Recensi-Naxçıvan» oteli olmuş, onun yeni korpusu, «Avropa» oteli, ISR «Plaza» iş mərkəzi, Olimpiya mərkəzi, Tibb Universitetinin yaraşıqlı tədris korpusu istifadəyə verilmişdi. Bahalı xarici mallarla dolu ticarət mərkəzləri, yarmarkalar, super-marketlər, məişət xidməti obyektləri yan-yana düzülmüşdü. Bakı göz qabağında Avropasayağı modern şəhərə çevrilirdi. Prezident bir sıra işbazların müxtəlif yollarla ələ keçirdiyi ictimai binaların xalqa qaytarılmasına, yenidən qurulmasına xüsusi diqqət yetirirdi. H.Z.Tağıyevin yadigar qoyduğu teatr, Azərbaycan Milli Akademik teatrı binaları yenidən quruldu. Şəhər və kəndlərdə abadlıq işləri genişləndi. Bakı bulvarı yenidən qurulmağa başlandı. Respublikada onlarla yeni park və bağlar salındı.

1997-ci ildən respublikanın 20 bölgəsində televiziya verilişlərini peyk vasitəsilə qəbuletmə stansiyalarının quraşdırılmasına başlandı. Respubikada rabitə xidməti sisteminin inkişafında uğurlu addımlar atıldı. ABŞ, Yaponiya, Böyük Britaniya, Türkiyə, Almaniya, İsrail, Cənubi Koreya, Çin və b. ölkələrin məşhur rabitə şirkətləri ilə sıx əməkdaşlıq yaradıldı. Naxçıvan MR-də telefon və telerabitə sistemi ən müasir avadanlıqla təchiz edilərək yenidən quruldu. Burada beynəlxalq telefon stansiyası tikildi, peyk rabitə sistemi yaradıldı, fiber–optik kabel xətti çəkildi. Bakı, Gəncə, Sumqayıt, Naxçıvan və başqa yerlərdə ən müasir avtomat telefon stansiyaları quraşdırıldı.

1992-ci ildə Bakıda Beynəlxalq Telefon Stansiyası işə salındı və 4 yerüstü stansiya ilə beynəlxalq əlaqə sisteminə qoşuldu. 1995-ci ildə paytaxtda yeni beynəlxalq telefon stansiyası fəaliyyətə başladı. Respublikanın şəhər və rayonlarının böyük əksəriyyətindən dünyanın bütün şəhərləri ilə avtomat telefon rabitəsi yaratmaq mümkün oldu.

Şəhərlərdə köhnə telefon şəbəkəsi yenidən qurulmağa başladı. Azərbaycan Respublikası Rabitə Nazirliyi İsrailin «STYV» firması ilə «Bakcell» adlı birgə müəssisə yaradıb şanvari–cib telefonları şəbəkəsi qurdular. Tezliklə bu şəbəkə respublikanın bütün bölgələrini əhatə etməyə başladı. 1996-cı ilin axırlarında Rabitə Nazirliyi və «Türksell» firması «Azərcell» adlı birgə müəssisə yaradıb daha təkmil cib telefonları – sellülyar rabitə sistemi qurdular. Adamların məişətinə cib telefonları geniş daxil oldu. 2000-ci ildə hər 100 nəfərə 9 şəbəkə telefonu düşürdü. Peycer rabitə sistemi təşkil edildi.

Nəqliyyat vasitələrinin işi də xeyli yaxşılaşdı. 1995-ci ildə Naxçıvan hava limanında ağıryüklü təyyarələrin enməsi üçün müasir uçuş-enmə zolağı istifadəyə verildi. 1996-cı ildə Gəncə hava limanı bərpa

edilib, yenidən quruldu və beynəlxalq status aldı. Bakı Binə beynəlxalq hava limanı binası istifadəyə verildi. Binədə yeni, müasir uçuş zolağı istifadəyə verildi. Bakı, Naxçıvan, Gəncə şəhərlərindən dünyanın müxtəlif ölkələrinə hava yolları açıldı.

1996-cı ilin axırlarında Bakı–Horadiz, habelə Bakı–Ağstafa sürət firma qatarları işə düşdü. Üçillik fasilədən sonra 1997-ci ilin mayında Bakı–Moskva, Bakı–Kiyev, Bakı–Mahaçqala–Bakı sərnişin qatarları yenidən işləməyə başladı. Bakı limanı yenidən qurulur, yeni «İpək yolu»nun baş limanına çevrilirdi.

1996-cı ilin əvvəllərindən küçələrdə yeni xarici avtobuslar, taksilər, mikroavtobuslar görünməyə başladı. Sərnişindaşıma sahəsində birgə müəssisələr təşkil olunması səmərəli oldu. Şəxsi nəqliyyat vasitələri daha da çoxalmışdı. Küçələrdə «Mersedes», «Toyota» və b. bahalı xarici maşınlar getdikcə artırdı. 2000-ci ildə respublikada 441 min avtomobil, o cümlədən 332 min minik avtomobili vardı. Hər 100 ailədən 21-nin minik avtomobili vardı. Bununla belə, yolların təmiri, xidmət işləri hələ lazımi səviyyədə deyildi.

1996-cı ildə respublikanın işğal olunmuş və ziyan çəkmiş ərazilərinin bərpası və yenidən qurulması üzrə Dövlət komissiyası yaradıldı. BMT-nin İnkişaf Proqramının təşəbbüsü ilə işğaldan azad olunmuş torpaqların bərpasına yardım göstərilməyə başlandı. Bu məqsədlə Beynəlxalq Şura, Bərpa Agentliyi təsis edildi. Füzuli rayonunun Horadiz qəsəbəsi və işğaldan azad edilmiş 22 kənd bərpa olunmağa başlandı. 1997-ci ildə BMT bərpa işlərinə 1 milyon, Avropa Birliyi TASİS proqramı xətti ilə 3 milyon 760 min, EKO təşkilatı xətti ilə 1,8 milyon dollar vəsait ayırmışdı.

90-cı illərin birinci yarısında ağır iqtisadi şərait, məişət təminatsızlığı, pərakəndə ticarətin təşkilinə, səhiyyəyə və kommunal xidmətlərinə lazımi diqqət yetirilməməsi yaşayış məntəqələrində, xüsusən çadır şəhərciklərində sanitariya vəziyyətinin pisləşməsinə səbəb olmuş, yoluxucu xəstəliklərin kütləvi yayılma təhlükəsi yaranmışdı. İçməli suyun təmizlənməsi üçün kimyəvi maddələr çatışmırdı. Əhalinin su ilə təchizi bərbad vəziyyətdə idi. Şəhər və qəsəbələrdə əhalinin çox olduğu yerlərdə qeyri-rəsmi bazarlar, «tolkuçkalar», «sallaqxanalar» meydana gəlmişdi. Bunlar böyük antisanitariya, xəstəlik mənbələri idi.

Erməni işğalçıları ələ keçirdikləri ərazilərdə 652 tibb müəssisəsini dağıtmış, qarət etmişdilər. 2000-ci ildə respublikada 735 xəstəxana, 1614 ambulatoriya və poliklinika, 913 qadın məsləhətxanası, uşaq am-

bulatoriya və poliklinikası vardı. Bunlarda 29 min nəfərdən çox həkim, 60 mindən çox orta tibb işçisi işləyirdi. Hər on min nəfərə təxminən 88 xəstəxana çarpayısı düşürdü. Səhiyyə müəssisələrinin, xüsusən xəstəxana və ambulatoriyaların təsərrüfat hesabı üzrə yenidən qurulmağa başlaması, dərmanların qiymətinin min dəfələrlə artması əhalini böyük çətinliklər qarşısında qoymuşdu. Xəstəxanalarda müalicə olunanların sayı kəskin azalmışdı. «Ümumdünya səhiyyə təşkilatı», «Sərhədsiz həkimlər təşkilatı», «Rilif İnterneyşl», «Ekvilbr» təşkilatları, YUNİSEF Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası kimi beynəlxalq humanitar təşkilatların yaxından köməyi ilə 1995–1997-ci illərdə respublikada yoluxucu xəstəliklərə qarşı mübarizə kampaniyaları genişləndi, əhalinin, xüsusən uşaqların difteriyaya qarşı kütləvi peyvənd olunması təşkil edildi. 1996-cı ilin aprelində vərəm xəstəliyinə qarşı mübarizə aylığı keçirildi. 1994–1997-ci illərdə ABŞ-ın AMOKO şirkəti ilə «Amerikares» xeyriyyə cəmiyyəti Naxçıvan MR-də yoluxucu xəstəliklərə qarşı «soyuq zəncir» adlı immunlaşdırma proqramı həyata keçirdilər. 1997-ci ildə Yaponiya hökuməti vərəm və tənəffüs yolları xəstəliklərinə qarşı elmi-tədqiqat işləri üçün respublikamıza 1,5 milyon dollarlıq xüsusi avadanlıq bağışladı. Həmin il Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının yaxından köməyi ilə malyariyaya qarşı mübarizə kampaniyası keçirilmişdi. ABŞ-ın Xəstəliklərə Nəzarət Mərkəzi, YUNİSEF və başqa beynəlxalq səhiyyə təşkilatları köçkünlərin məskunlaşdıqları çadır şəhərciklərində sanitariya vəziyyətinin yaxşılaşmasında, xəstəliklərə qarşı mübarizənin təşkilində fəal iştirak etdilər. 1995-ci ildə Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin köməyi ilə Bakıda ortopedik mərkəz və emalatxana təşkil olunmuşdu. 1996-cı ildən ABŞ-ın özəl, könüllü AMKOR təşkilatı Abşeronda 8 tibb məntəqəsi açıb minlərlə qaçqın və köçkünə səhiyyə xidməti göstərirdi.

Azərbaycan Avropada «poliomelit» uşaq xəstəliyinin ən çox yayıldığı ölkə idi. Vəsait çatışmadığından bu ağır xəstəliyə qarşı mübarizəni səmərəli təşkil etmək mümkün deyildi. 1995–1996-cı illərdə Ümumdünya Səhiyyə Təşkilatı və YUNİSEF-in köməyi ilə respublikada poliomelitə qarşı xüsusi əməliyyat keçirildi, uşaqların, demək olar ki, hamısı peyvənd olundu. Artıq 1997-ci ildə ölkədə difteriya 4 dəfə azalmış, poliomelit isə tamamilə yox olmuşdur. ABŞ-la əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi sayəsində 1997-ci ilin sentyabrında bu ölkənin Dövlət Departamentinin təşəbbüsü ilə Azərbaycana 1,2 milyon dol-

lar dəyərində dərman preparatları gətirildi. Həmin ildə Böyük Britaniyanın «Uşaqlara birbaşa yardım» beynəlxalq humanitar təşkilatı məcburi köçkünlər üçün 7 tibb məntəqəsi təşkil etdi. 1998-ci ilin yanvarında ABŞ-dan dövlət səviyyəsində ilk humanitar yardım göndərildi.

Dövlət respublikada səhiyyə işini yenidən qurmaq, əhalinin sağlamlığını qorumaq sahəsində mühüm addımlar atdı. 1996-cı ilin iyununda respublikada prezidenti ölkədə sanitariya vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar ciddi tapşırıqlar verdi. «Əhalinin sağlamlığının qorunması haqqında» qanun hazırlandı. «Səhiyyə təşkilatlarının özünümaliyyələşdirmə sisteminə keçməsi haqqında» xüsusi proqram tərtib olundu. Burada müasir avadanlıqlarla təchiz olunmuş dövlət tibb müəssisələrində pullu xidmətə keçmək, təsərrüfat hesabı ilə işləyən səhiyyə təşkilatlarının sayını artırmaq, xarici investisiya cəlb etməklə birgə tibb müəssisələri yaratmaq və tibbi sığortanı geniş tətbiq etmək nəzərdə tutulurdu. Dünyada geniş yayılmış, sərfəli olan sığorta təbabəti sisteminin respublikada tətbiq olunması istiqamətində hazırlıq işlərinə başlanmışdı. 1998-ci ildə Bakıda ilk özəl təcili yardım xidməti – «Medi Club» açıldı, artroloji mərkəz istifadəyə verildi. YUNİSEF-in hazırladığı «Səhiyyə islahatı layihəsi» üzrə və onun maliyyə yardım ilə Quba və Masallı rayonlarında səhiyyə islahatı həyata keçirilirdi. Respublikada virus hepatitləri ilə mübarizə Milli Proqramı hazırlanmışdı.

Bütün çətinliklərə baxmayaraq, respublikada əhalinin sayı artırdı. 2001-ci ilin əvvəllərində burada artıq 8 milyon 81 min insan yaşayırdı. 1999-cu il əhalini siyahıyaalmanın nəticələri göstərdi ki, burada əhalinin 7,2 milyonu azərbaycanlı, 178 mini ləzgi, 141 mini rus, 121 minə qədəri erməni, 76,8 mini talış, 51 minə qədəri avar, 30 mini tatar, 29 mini ukraynalı, 16 minə qədəri saxur, 15 minə qədər gürcü, 13 mini kürd, 10 mini tat, 9 mini yəhudi, 4 mindən çoxu udin idi. Respublikada az sayda başqa etnik qruplar da yaşayırdı.

# XVIII FƏSİL

# MƏDƏNİYYƏT

## § 1. Maarif, elm, din

Respublikanın mədəni, mənəvi həyatında dövlət müstəqilliyi bərpa edildikdən sonra mühüm dəyişikliklər baş vermişdi. Müharibəyə, erməni işğalçıları tərəfindən yüzlərlə sosial-mədəni obyektin məhv edilməsinə, keçmiş sovet respublikaları ilə mədəni əlaqələrin zəifləməsinə və bir çox sahələrdə tam qırılmasına, vəsait çatışmazlığının, təxribatların törətdiyi çətinliklərə baxmayaraq, bu dövrdə Azərbaycan mədəniyyəti mübarizliyi, mənəvi qüvvələrin öz kökünə və bəşəri dəyərlərə daha möhkəm bağlanması ilə səciyyələnirdi.

Xalqın ümumtürk mədəniyyətinə qovuşmasının böyük əhəmiyyəti olacağını nəzərə alaraq 1991-ci il dekabrın 24-də latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında qanun qəbul edildi. 1992-ci ilin sentyabr ayından orta məktəblərin birinci sinfində dərslər bu əlifba ilə keçirilməyə başlandı. Lakin yeni qrafikaya keçid ləng gedirdi. Prezident Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli fərmanı ilə həmin il avqustun 1-dən latın qrafikalı əlifba qəti tətbiq edildi. Prezidentin «Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında» adlı bu fərmanına əsasən dövlət başçısının yanında «Dövlət Dil Komissiyası» yaradıldı.

Azərbaycanın 1992-ci ilin iyun ayında BMT-nin «Təhsil, Elm və Mədəniyyət Məsələləri Üzrə Təşkilatına»–YUNESKO-ya, az sonra İslam Konfransı Təşkilatı yanında İslam Ölkələri Elm, Mədəniyyət və Təhsil Təşkilatına – İSESKO-ya üzv qəbul edilməsi, 1996-cı ilin payızında YUNESKO ilə əməkdaşlıq haqqında memorandum imzalanması, 1997-ci ilin yazında Avropa Mədəniyyət Konvensiyasına qoşulması, habelə ayrı-ayrı ölkələrdə ikitərəfli mədəni əlaqələr

yaradılması respublikanın xarici mədəni əlaqələrinin genişlənməsinə və möhkəmlənməsinə münasib şərait yaratdı. Türkdilli xalqların mənəvi birliyini möhkəmləndirmək, mədəniyyətini inkişaf etdirmək və təbliğ etmək məqsədilə 1992-ci ilin ortalarında «Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Konseyni», 1993-cü ilin əvvəllərində isə onun icra qurumu – TÜRKSOYU (Türk Kultur və Sanatları Ortak Yönətim) fəaliyyətə başladı. 1996-cı ilin iyununda bağlanan müqaviləyə əsasən YUNESKO TÜRKSOYU tanıdı və onu dəstəkləməyə başladı. 1998-ci il fevralın 16-da Azərbaycan Respublikası Milli Məclisi «Mədəniyyət Qanunu»nu qəbul etdi. Bütün bunlar Azərbaycan mədəniyyətinin milli və bəşəri dəyərlər üzərində daha fəal inkişaf etməsinə imkanları genişləndirdi.

**Maarif**

İqtisadi, siyasi və mənəvi həyatdakı ziddiyyətlər Azərbaycan məktəbini böyük çətinliklər qarşısında qoymuşdu. Maarifə kifayət qədər vəsait ayırmaq mümkün deyildi. Məktəblərin maddi-təlim bazası zəifləyirdi. Yüzlərlə maarif müəssisəsi, o cümlədən 1145 məktəbəqədər uşaq müəssisəsi, 690 ümumtəhsil məktəbi, 4 texnikum və 1 ali məktəb binası düşmən əlinə keçmiş, qarət edilmiş və dağıdılmışdı. Nəzarətsizlik üzündən bir çox məktəb binaları, sinif otaqları «zirək» işbazların əlinə keçir və başqa məqsədlər üçün istifadə olunurdu. Lazımınca təmin olunmadığından minlərlə müəllim maarif sistemini tərk etmişdi.

Bu illərdə maarif işində müəyyən irəliləmələr də baş vermişdi. Məktəb bolşevik ideologiyası təzyiqindən xilas olmuşdu. Milli təzyiq konsepsiyası hazırlanmış və həyata keçirilməyə başlanmışdı. Təhsil haqqında qanun qəbul edilmişdi.

Məktəb sovet təhsil sisteminin müsbət ənənələrini qoruyub saxlamağa, onu müasir Avropa təhsil texnologiyası ilə zənginləşdirməyə çalışırdı. Yeni proqramlar və dərsliklər yaradılmışdı. Alim və pedaqoqların fədakar əməyi sayəsində qısa müddətdə orta məktəblər üçün yeni «Azərbaycan tarixi», «Ədəbiyyat», «Coğrafiya», «Azərbaycan dili» və başqa orijinal dərsliklər hazırlanıb çap olunmuşdu. Ali məktəblər üçün ilk dəfə «Azərbaycan tarixi» dərsliyi yaradılmışdı. Dəqiq və təbiət elmləri üzrə orijinal dərsliklər hazırlanmağa başlanmışdı. Məktəblərdə «Azərbaycan tarixi»nin tədrisinə saatlar xeyli artırılmışdı.

Qaçqın və köçkünlər üçün məktəblər təşkil olunmuşdu. BMT-nin Qaçqınlarla İş Üzrə Ali Komissarlığı xətti ilə respublikada 514 yığ-

ma sinif otağı quraşdırılmış, minlərlə məktəbli dərs ləvazimatı ilə təmin olunmuşdu.

2000–2001-ci tədris ilində respublikada 4548 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Onlarda 1654 mindən çox şagird təhsil alırdı. Bu məktəblərdə 165 mindən çox müəllim dərs deyirdi. Qaçqınlar üçün 697 məktəb təşkil olunmuşdu.

Ümumtəhsil məktəbləri sistemində müəyyən dəyişikliklər baş vermişdi. Liseylər, gimnaziyalar yaranmışdı. 1997–1998-ci tədris ilində respublikada 27 lisey, 8 gimnaziya və kollec vardı. Bakıda «Avropa» liseyi fəaliyyət göstərirdi. Türkiyə Dövlət Anadolu liseyi, Türk Dünyası Araşdırmaları Vəqfinin Atatürk liseyi, Dəyanət Vəqfinin Bakı Türk liseyi və «Çağ» Öyrətim Şirkətinin T.Ozal adına Sumqayıt, Bakı özəl Türk liseyləri, habelə onların Quba, Sumqayıt, Mingəçevir, Ağdaş, Lənkəran və b. filialları təşkil olunmuşdu. Xarici liseylər Azərbaycan məktəbinə müasir təhsil texnologiyası gətirmişdilər. ABŞ-ın «Azadlığı müdafiə aktı» çərçivəsində gənclər mübadiləsi proqramına müvafiq olaraq 1994-cü ildən müsabiqə yolu ilə seçilmiş azərbaycanlı şagirdlər Amerikanın orta məktəblərində təhsillərini davam etdirirdilər.

Orta ixtisas, peşə təhsil məktəbləri hələ tənəzzüldən çıxa bilməmişdi. 90-cı illərin birinci yarısında orta ixtisas məktəblərində şagirdlərin sayı iki dəfə azalıb 30 minə, texniki-peşə məktəblərində iki dəfə azalıb 43 minə enmişdi. Peşə ixtisasartırma və yeni ixtisasa yiyələnmə sistemində məşğul olanların sayı dörd dəfə azalıb 81 min nəfər olmuşdu. Bu məktəblərdə yenidənqurma yeni təsərrüfatçılıq sistemi ilə daha sıx bağlı olduğundan hələ ləng gedirdi.

Maarifin təşkilində mühüm dəyişikliklərdən biri 1992-ci ildən ali və orta ixtisas məktəblərinə qəbulun test üsulu ilə aparılması olmuşdu. Bu, qəbul zamanı mənfi halların qarşısını xeyli almışdı. Lakin bu sistemin təkmilləşməyə böyük ehtiyacı vardı. Abituriyentin biliyini aşkara çıxarmağa imkan verən, düşündürücü testlər tərtib etmək təcrübənin azlığı özünü göstərirdi.

1993-cü ildən respublika ali məkəblərində bakalavr və magistr sisteminə keçid başlanmışdı. 1997-ci ildə magistraturalara ilk qəbul keçirildi.

2001-ci ildə respublikada 25 dövlət ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Onlarda 11 minə qədər professor, müəllim işləyir, 91 min tələbə təhsil alırdı. Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnsti-

tutu, Lənkəran Dövlət Universiteti təşkil olunmuşdu. Bir sıra ali məktəblər – Azərbaycan Dövlət Neft-Kimya İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, Azərbaycan Dövlət Konservatoriyası akademiya kimi yenidən təşkil olunmuş, müvafiq surətdə Azərbaycan Neft-Kimya Akademiyası, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası və Azərbaycan Musiqi Akademiyası adlanmağa başlanmışdı. 1996-cı ildə Bakı Dənizçilik məktəbi əsasında Dəniz Akademiyası təşkil olunmuşdu. Polis məktəbi (1921-ci ildə təşkil olunub, 1992-ci ildən milis məktəbi adlanıb) Polis Akademiyasına çevrildi. Bakı Əmtəəşünaslıq, Kommersiya İnstitutu təşkil edildi. Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu Pedaqoji Universitet, Politexnik İnstitutu Texniki Universitet, N.Nərimanov adına Tibb İnstitutu Tibb Universiteti kimi, Bakı Ali Partiya Məktəbi Politologiya və Sosial İdarəetmə İnstitutu kimi yenidən qurulmuşdu.

2000-ci ildə bir-birini təkrarlayan dövlət ali təhsil müəssisələri birləşdirildi, iki yeni dövlət ali məktəbi yaradıldı, beş ali təhsil müəssisəsinə universitet statusu verildi, bir neçə ali məktəbin adı məzmununa uyğun olaraq dəyişdirildi. Azərbaycan Dövlət İqtisad İnstitutunun, Bakı Əmtəəşünaslıq Kommersiya İnstitutunun, Azərbaycan Kooperasiya İnstitutunun və Bakı Kooperativ Texnikumunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradıldı, Azərbaycan İnşaat-Mühəndisləri Universiteti Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırıldı. Azərbaycan Sənaye İnstitutu bazasında Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun profili genişləndirilməklə Bakı Slavyan Universiteti, Gəncə Dövlət Pedaqoji Universitetinin profili genişləndirilməklə Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Dillər İnstitutunun profili genişləndirilərək Azərbaycan Dövlət Dillər Universiteti, Azərbaycan Texnologiya İnstitutunun profili genişləndirilərək Azərbaycan Texnologiya Universiteti adlandırıldı. Azərbaycan Rəssamlıq Akademiyası və onun nəzdində İncəsənət kolleci (Azərbaycan Dövlət Rəssamlıq Texnikumu bazasında), Azərbaycan Musiqi Konservatoriyası və onun nəzdində Musiqi Kolleci (Azərbaycan Dövlət Musiqi texnikumu bazasında) təsis edildi.

Ali Hərbi Məktəbi, Ali Hərbi Dənizçilik Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbində onlarla ixtisas üzrə hərbi mütəxəssislər hazırlanırdı.

Prezident Heydər Əliyev 2001-ci ildə sentyabr ayında əlaçı ali məktəb tələbələrinə prezident təqaüdü təsis etdi.

Respublikada özəl ali məktəblərin geniş şəbəkəsi meydana gəlmişdi. «Xəzər» Universiteti, «Azərbaycan», «Asiya», «Qərb», «Təfəkkür», «Odlar yurdu», «Qafqaz» universitetləri, Ali İctimai-Siyasi Kollec, Ali Diplomatiya Koleci kimi özəl ali məktəblər fəaliyyətə başlamışdı.

Ümumiyyətlə, respublikanın şəhər və qəsəbələrində 121 özəl ali məktəb təşkil olunmuşdu. Onlardan cəmi 18-i xüsusi dövlət komissiyasından müsbət rəy almışdı. Onlarda 29 minə qədər tələbə təhsil alırdı. Özəl ali məktəblərin böyük əksəriyyəti lazımi maddi-tədris bazasına, kifayət qədər yüksək səviyyəli kadrlara malik deyildilər, rəqabətə tab gətirib yaşaya bilmirdilər.

2000–2001-ci tədris ilində ali məktəblərdə 30-dan çox xarici ölkənin iki mindən artıq vətəndaşı təhsil alırdı. Gənclərin xarici ölkələrin ali məktəblərində təhsil almasına şərait yaradılmışdı. Türkiyənin ali təhsil ocaqlarında mindən çox azərbaycanlı tələbə oxuyurdu. Azərbaycanla Böyük Britaniya arasında bağlanmış müqaviləyə əsasən ali və orta məktəb müəllimləri üçün hər iki ölkədə təkmilləşdirmə kursları açılmışdı. 1994-cü ildə Azərbaycan Beynəlxalq Fransız dili müəllimləri federasiyasına daxil oldu. 1997-ci ilin martında Azərbaycan və Türkiyə respublikaları təhsil nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalandı və bu sahədə fəaliyyətin genişlənməsinə yeni imkanlar açıldı. 1997-ci ilədək 200 nəfərdən çox azərbaycanlı gənc ABŞ-ın təhsil və elm ocaqlarında müxtəlif ixtisaslara yiyələnmişdir. 1994–1997-ci illərdə Almaniyanın Akademik və Pedaqoji Mübadilə xidmətləri 100-dən çox azərbaycanlıya Almaniyada təhsil almaq üçün təqaüd ayırmışdı.

Respublikada xalq maarifinin inkişafında əlamətdar cəhət yeni təsərrüfat sistemi, bazar iqtisadiyyatı ilə bağlı tətbiqi elmlərin, xarici dillərin, xüsusən ingilis dilinin tədrisinə, kompyuter savadının geniş yayılmasına diqqət və marağın artması, beynəlxalq hüquq, diplomatiya, beynəlxalq münasibətlər, politologiya, menecment, marketinq kimi ixtisaslar üzrə kadrlar hazırlanmasına başlanması olmuşdu.

Məktəb gənc nəslin ümumi mədəni, xüsusən siyasi səviyyəsinin yüksəlməsinə diqqəti artırmışdı. 1997-ci ildən Bakı Universitetində, Politologiya İnstitutunda, Pedaqoji Universitetdə, Naxçıvan Uni-

versitetində və başqa ali məktəblərdə «Heydər Əliyev məktəbləri» təşkil olunmuş, gənclərə müstəqilliyin, dövlətçiliyin, tərəqqinin təmin olunmasına yönəlmiş Heydər Əliyev siyasət sənətinin incəlikləri, xarakterik xüsusiyyətləri öyrədilməyə başlanmışdı.

Bununla belə, məktəblərdə, xüsusən ali məktəblərdə qiymətlərin şişirdilməsi, rüşvətxorluq halları az deyildi.

2000-ci ildə Azərbaycan Respublikasında əhalinin 2 milyon 901 min nəfəri ümumi orta, 694 min nəfəri orta ixtisas, 612 min nəfəri ali təhsilli idi. Yaşı 15-dən yuxarı olan hər min nəfərə 908 təhsilli, o cümlədən 108 ali, 122 orta ixtisas, 511 ümumi orta, 158 natamam orta təhsilli adam düşürdü.

2000-ci ildə respublikada 3354 klub müəssisəsi, fondlarında 38,7 milyon nüsxədən çox kitab və jurnal olan 4374 kütləvi kitabxana, 607 kinoqurğu, 27 peşəkar teatr və 155 muzey vardı. İşğal zamanı erməni vandalları 982 kitabxananı, 862 klubu, 1831 kinoqurğusunu, 4 teatrı, 10 parkı, 100 mindən çox qiymətli eksponatı olan 13 muzeyi, o cümlədən Ağdam «Çörək muzeyi»ni ələ keçirib qarət etmişdilər. Yüzlərlə tarixi abidə - 13 qala bürcü, 22 kurqan-təpə, 31-məscid, 44 məbəd, 2 mağara-ibadətgah təhqir olunmuş, dağıdılmışdı. Füzulidə Məhəmməd Füzulinin tunc heykəli sökülüb aparılmışdı. Şuşada Üzeyir Hacıbəyovun, Bülbülün, Natəvanın, Nəvvabın heykəlləri güllələbaran edilmişdi. Nəzarətsizlik üzündən respublikanın muzeylərindən çox qiymətli sənət əsərləri, əntiq əşyalar, xüsusən xalçalar oğurlanıb xaricə aparılmışdı. R.Mustafayev adına Dövlət İncəsənət Muzeyindən dəyəri milyon dollarlarla ölçülən 275 nadir rəsm əsəri oğurlanmışdı. Onların arasında klassik Avropa rəssamlarının qiymətli sənət inciləri də vardı.

Mədəni-maarif işi vəsait çatışmazlığı, nəzarət zəifliyi, mövcud metodların artıq səmərəli olmaması, adamları cəlb edə biləcək yeni vasitələrin ləng tətbiqi nəticəsində ciddi tənəzzül keçirirdi. Kütləvi kitabxana fondları, oxucuların sayı xeyli azalmışdı. Kinoteatrlar televiziya, video ilə rəqabətə dözə bilmir, əksər hallarda, demək olar ki, boş qalırdı. 90-cı illərin birinci yarısında kinoqurğuların sayı 2 dəfədən çox azalmışdı.

Mədəni-maarif işini canlandırmaq üçün 1993-cü ildən başlayaraq dövlət bir sıra tədbirlər həyata keçirdi. Beynəlxalq Muzeylər Şurasının (İKOM), Beynəlxalq Kitabxanalar Şurasının (İFLA) Azərbaycan Milli Komitələri yaradıldı. Hökumət kitabxana fond-

larının genişlənməsinə vəsait ayırmalarını artırdı. «Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etdi. Çətinliklərə baxmayaraq, M.F.Axundov adına Respublika kitabxanası (1998-ci ildə Milli Kitabxana statusu alıb) dünyanın 45 ölkəsindəki 60-dan çox kitabxana ilə əlaqə saxlayır, kitab mübadiləsi edirdi. Prezident Heydər Əliyev və respublikanın başqa görkəmli ziyalıları kitabxanaya çoxlu kitab hədiyyə etmişdilər.

1994-cü ildə Bakıda Cəlil Məmmədquluzadənin, Niyazinin, 1995-ci ildə Hüseyn Cavidin ev muzeyləri yaradıldı. N.Nərimanovun ev muzeyi yenidən quruldu. 1996-cı ilin payızında Naxçıvanda H.Cavidin ev muzeyi açıldı.

Bu illərdə müxtəlif yaradıcılıq qrupları, xeyriyyə cəmiyyətləri, Azərbaycan Mədəniyyət Fondu, Bakı Mədəniyyət Mərkəzi və başqa təşkilatlar meydana gəlmiş, respublikanın mədəni həyatının canlanmasında fəal rol oynamağa başlamışdı. «İnkişaf» assosiasiyası «H.Z.Tağıyev adına», Teatr xadimləri Cəmiyyəti «Qızıl Dərviş», Bakılı Beynəlxalq Mədəniyyət Cəmiyyəti «Humay» mükafatları təsis etmişdilər.

**Kütləvi informasiya vasitələri**

Respublikada kütləvi informasiya vasitələri şəbəkəsi xeyli genişlənmişdi. 90-cı illərin ortalarında İnformasiya Nazirliyində 600 adda informasiya vasitəsi qeydə alınmışdı. 1998-ci ildə 8 dildə 300-dən çox qəzet və jurnal nəşr olunurdu. Qəzetlərin cəmi ikisi dövlətə, qalanları isə siyasi partiyalara, ictimai təşkilatlara, ayrı-ayrı şəxslərə məxsus idi. Azərbaycan Respublikası Milli Məclisinin orqanı, rəsmi dövlət qəzeti «Azərbaycan» və Prezidentin işlər idarəsinin təsis etdiyi gündəlik ictimai-siyasi «Xalq» qəzeti, «Panorama», «Azadlıq», «Yeni Müsavat», «İstiqlal», «Exo» və onlarla başqa qəzet, «Xəzər», «Trend», «Yurd», «Monitor», «Tarix və onun problemləri» və başqa jurnallar mövcud reallıqları ən müxtəlif mövqelərdən əks etdirirdilər. Adamların hadisələri müstəqil qiymətləndirməsi üçün münasib imkanlar yaranmışdı. Ölkədə 20 informasiya agentliyi fəaliyyət göstərirdi. 1998-ci ildə Prezident fərmanı ilə respublikada senzura ləğv edilmişdi.

2001-ci ilin dekabrında Azərbaycan Prezidenti Heydər Əliyev «Kütləvi İnformasiya Vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında» sərəncam verdi. Bu vasitələrə bəzi güzəştlər edildi. Qəzet kağızı idxalına əlavə dəyər vergisi ləğv olundu.

Azərbaycan televiziya və radiosu xeyli inkişaf etmişdi. Respublika radiosunun verilişləri 13 dildə, o cümlədən 1992-ci ildən Avropa ölkələri üçün ingilis dilində dünyaya yayılırdı. 1992-ci ildə türkdilli ölkələrin əksəriyyətini əhatə edən Türkiyə «Avrasiya» telekanalı fəaliyyətə başladı. 1996-cı ildə Bakıda əsası hələ 1982-ci ildə qoyulmuş 310 metr hündürlüyü olan yeni teleqüllə verildi. Türkiyənin «Türksat» peyki vasitəsilə yerüstü stansiyalar əlaqələndirildi. Naxçıvanda Azərbaycan televiziyası verilişlərinin qəbulu xeyli yaxşılaşdı. 1997-ci ildən respublikanın 20 bölgəsində televiziya verilişlərini peyk vasitəsilə qəbuletmə stansiyaları quraşdırılmağa başlandı. Əhalinin böyük əksəriyyəti Azərbaycan televiziyasının I və II dövlət, habelə «ANS», «Lider», «Azad Azərbaycan» və «Space» özəl, Rusiyanın «RTR», «ORT» və «NTV», Türkiyənin «TGRT», «D» və b. proqramlarına baxmaq imkanı əldə etdi. 1996-cı ilin noyabr ayından respublika televiziyasının «Azərbaycan bu gün» populyar proqramı bazar günləri «TGRT» kanalı ilə dünyanın üçdə bir hissəsinə yayılırdı. 1998-ci ildə respublikada efirə 20 tele-radio kanalı çıxırdı. Azərbaycan televiziyasının proqramları 9 ölkənin, o cümlədən Türkiyə, ABŞ, Kanada, İngiltərə, Almaniya və başqa ölkələrin efiri vasitəsilə Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı, 1993-cü ildən respublika televiziyası ingilis dilində «Həftənin səsi» proqramını yaymağa başlamışdır.

Azərbaycana qarşı mövcud informasiya blokadası Prezident Heydər Əliyevin gərgin əməyi, rəhbərliyi sayəsində, demək olar ki, tam aradan qaldırılmışdı.

Məktəb, mədəni-maarif müəssisələri, kütləvi informasiya vasitələri Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasını, dünyəvi, demokratik dövlət quruculuğunu, respublikanın ərazi bütövlüyünün bərpa və təmin olunmasını, bəşəri, islam və milli dəyərləri, ölkədə siyasi sabitlik və vətəndaş həmrəyliyi yaranmasını, Prezident Heydər Əliyev cənablarının uğurlu daxili və xarici siyasətini geniş təbliğ edir, mövcud qüsur və çatışmazlıqlar ciddi, kəskin tənqid olunurdu. Xüsusən müstəqil və müxalif mətbuata, radio və televiziyaya münasib imkanlar yaradılmışdı.

**Elm**

Keçid dövründə Azərbaycan elmi də ciddi sınaqlarla üzləşdi. Vəsait çatışmazlığı, ənənəvi əlaqələrin qırılması elmin inkişafını xeyli ləngitdi. AXC – Müsavat hakimiyyəti dövrü Azərbaycan Elmlər Akademiyasına dövlət

qayğısı tamam unuduldu, hətta elmin bu qayda ilə təşkilinin səmərəsizliyi, Akademiyanın ləğv olunması haqqında fikirlər yayılmışdı. Alimlər cəmiyyətdə ən sayılmaz bir zümrəyə çevrilmişdilər. Onların bir hissəsi (təkcə Elmlər Akademiyasından 170 nəfər görkəmli alim) xarici ölkələrə getməyə məcbur oldu. Elmi-tədqiqat işlərinə gənclərin marağı xeyli azalmışdı. Lakin həqiqi elm fədailəri bütün çətinliklərə baxmayaraq, Azərbaycan elmini yaşadır, tədqiqat işlərini davam etdirirdilər.

Heydər Əliyevin respublikaya rəhbərliyə qayıdışından sonra elm sahəsində mühüm dəyişikliklər baş verdi. Alimlərin əməkhaqqları artırıldı, onların yaradıcılığına diqqət və qayğı ilə yanaşılmağa başlandı. Alim, tədricən cəmiyyətdə öz layiqli yerini tutdu.

90-cı illərin ortalarında təkcə Elmlər Akademiyası sistemində 35 elmi-tədqiqat institutu vardı. Yeni «Milli münasibətlər», «Arxeologiya və etnoqrafiya» institutları (1992-ci il), İnsan Hüquqları İnstitutu (1998-ci il) təşkil olunmuşdu.

1997-ci ilin fevralında Prezident Heydər Əliyevin alimlərlə görüşündə elmin strateji istiqamətləri açıqlandı. Elmlər Akademiyası Azərbaycan elminin, mədəniyyətinin inkişafında əvvəlki mövqeyini bərpa etməyə başladı.

Respublikada elmi və elmi pedaqoji kadrlar hazırlanması işini nizama salmaq üçün 1992-ci ildə Ali Attestasiya Komissiyası (1994-cü ildən prezidentin yanında) təşkil olunmuşdu. Bu komissiya Ali Attestasiya Komissiyaları Beynəlxalq Assosiasiyasına üzv qəbul edilmişdi. Respublikanın elm və təhsil müəssisələrində 140-dək ixtisas üzrə 70-ə qədər doktorluq və namizədlik dissertasiyaların müdafiəsi üçün ixtisaslaşdırılmış şura fəaliyyət göstərirdi. Bakı ilə yanaşı, Naxçıvan, Gəncə, Şəki, Lənkəran və başqa şəhərlərdə də belə şuralar yaradılmışdı. 2000-ci ildə elmi-tədqiqat müəssisələrində və ali məktəblərdə 26370 işçi çalışırdı. Onlardan 1512-si elmlər doktoru, 8380-i elmlər namizədi, 1700-ə qədər professor, 3660-a qədəri dosent idi.

Azərbaycan elminin maddi bazasının keyfiyyətcə yaxşılaşması yolunda mühüm addımlar atılırdı. Azərbaycan EA-da «Bakı qovşağı» adlı beynəlxalq kompyuter mərkəzi yaradılmışdı. Yeni elektron-rabitə vasitələri azərbaycanlı alimlərə Transavropa tədqiqat və yaradıcılıq şəbəkəsi ilə əlaqə yaratmağa imkan vermişdi. Dünya azərbaycanlı alimlərinin əsərləri, elmi xidmətləri ilə daha yaxından

tanış olmağa başlamışdı. Onlarla alim dünyanın qabaqcıl elm mərkəzlərinin, elmlər akademiyalarının həqiqi üzvü seçilmiş, elmi əlaqələr xeyli genişlənmişdi. 1993-cü ildə Azərbaycan alimləri Müstəqil Dövlətlərin Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyasının yaradılması təşəbbüsçülərindən oldular. Bu təşkilat keçmiş sovet respublikaları alimlərinin əlaqələrinin nisbətən bərpa olunmasına, yeni əlaqələr yaranmasına münasib imkanlar açırdı. Xarici elmi mərkəzlərlə ikitərəfli müqavilələr imzalanırdı. BMT İnkişaf Proqramı ilə əməkdaşlığa mühüm yer verilirdi. 1996-cı ildə Bakıda görkəmli Amerika messenatı Corc Sorosun yaratdığı «Soros» fondunun informasiya mərkəzi fəaliyyətə başladı. Fond Azərbaycan EA-nın dünyada nəhəng informasiya-texniki sistem olan «İNTERNET» ilə əlaqə yaratmasına kömək göstərdi. «Soros» fondu EA üçün 93 qrand ayırmışdı.

Respublikada bir sıra ictimai-elmi birliklər – 1990-cı ildə Milli Elmlər Akademiyası, 1992-ci ildə Beynəlxalq Memarlıq Akademiyası, 1993-cü ildə Azərbaycan Tarix Qurumu, Müstəqil Tarix Tədqiqatçıları Assosiasiyası, 1994-cü ildə Milli Tarix Akademiyası, müxtəlif elmi fondlar, mərkəzlər, klublar təşkil olunmuşdu. Onlar müstəqil elmi-tədqiqat işləri aparır, elmi konfranslar, sessiyalar təşkil edir, xarici ölkə alimləri ilə əlaqələr yaradır, elmin təbliğində fəal rol oynayırdılar. Görkəmli alim, akademik Cəlal Əliyevin rəhbərliyi altında yaradılmış «Biologiya elminin yeni sahələrinin inkişaf fondu» (1994-cü il) daha fəal və səmərəli fəaliyyət göstərirdi.

Bu illərdə Azərbaycan elmi bir sıra mühüm nailiyyətlər əldə etmişdi. Akademik Cəlal Əliyevin yaratdığı elmi məktəb yüksək məhsuldar yumşaq taxıl növləri yetişdirmək sahəsində mühüm nəticələr əldə etmişdi. Bunlar dünya alimləri tərəfindən yüksək qiymətləndirilirdi. C.Əliyev bir çox xarici ölkə akademiyalarının, elmi cəmiyyətlərinin, o cümlədən Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdi. «Soros» fondunun ayırdığı qrandlardan səkkizi onun rəhbərlik etdiyi laboratoriyalarda hazırlanmış işlərə verilmişdi. Azərbaycan Milli Astrokosmik Agentliyi Xüsusi Kosmik Cihazqayırma Konstruktor Bürosunda Rusiya Kosmik Tədqiqatlar İnstitutunun sifarişi ilə yerin maqnit sahəsinə günəş küləklərinin təsirini öyrənən nadir aerokosmik cihaz yaradılmışdı.

Azərbaycanın neft sənayesinə xarici investisiyalar cəlb olunması neft, neft-kimya elmlərinin inkişafına geniş imkanlar açmışdı. 1997-ci

ildə akademik Azad Mirzəcanzadənin rəhbərliyi ilə Azərbaycan Dövlət Neft Akademiyasında «Qabaqcıl neft və qaz hasilatı texnologiyası mərkəzi» təşkil olunmuşdu. Azərbaycan geofizikləri Aşağı Kür çökəkliyində beş strukturdan ibarət tektonik zona kəşf etdilər və onu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması şərəfinə «Qayıdış zolağı» adlandırdılar.

Tarix, ədəbiyyat, fəlsəfə, iqtisad elmləri rəsmi kommunist ideologiyası təzyiqindən xilas olmuşdu. Bazar iqtisadiyyatı problemləri iqtisadçıların geniş tədqiqat obyektinə çevrilmişdi. 1997-ci ildə Azərbaycan İqtisadiyyat Nazirliyi Elmi Şurası yanında «Heydər Əliyev İqtisadiyyat məktəbi» təşkil olunmuşdu. İdarəetmə, sosiologiya, politologiya sahəsində tədqiqatlar genişlənirdi. Azərbaycan tarixinin ən mürəkkəb və mübahisəli problemlərini müxtəlif mövqelərdən şərh edən onlarla əsər yazılmışdı. Akademiklər Ziya Bünyadovun, Cəmil Quliyevin, Tofiq Köçərlinin, İqrar Əliyevin, Teymur Bünyatovun və b. əsərləri tarix sahəsində elmi fikri daha da zənginləşdirdi. Şərqdə ilk respublika olmuş Azərbaycan Demokratik Respublikasının tarixi (1918-1920) geniş şəkildə öyrənilməyə başlandı. Azərbaycanın siyasət adamları, generalları, mühacir təşkilatları, siyasi partiyaları haqqında tədqiqat işləri meydana gəldi. Tarixin XX əsr, xüsusən sovet dövrünü obyektiv, bütün əsas ziddiyyətləri, nailiyyətləri və qüsurları ilə əks etdirən ilk dərslik – Eldar İsmayılov, Cəmil Həsənov və Tahir Qaffarovun «Azərbaycan tarixi» dərsliyi (1918-1993-cü illəri əhatə edir) hazırlanıb 1995-ci ildə çap olundu. Bütövlükdə nisbətən qısa bir müddətdə 1994-1998-ci illərdə prof. Tofiq Vəliyevin rəhbərliyi ilə ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ölkəmizdə ilk dəfə «Azərbaycan tarixi» dərslikləri (7 dərslik) hazırlanıb nəşr edilmişdir. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa olunması, mürəkkəb daxili siyasi proseslər, Qarabağda müharibə, Heydər Əliyev cənablarının rəhbərliyi altında ölkədə siyasi sabitliyin yaranması, cəbhələrdə atəşkəs əldə edilməsi, uğurlu, müdrik xarici siyasət, sülh danışıqları, bazar iqtisadiyyatı, sahibkarlığın inkişaf etdirilməsi tarixinin tədqiqi, mənbələrin toplanması və araşdırılması diqqət mərkəzində idi. Bu illərdə, «Qəsd», «Qayıdış 1990-1993», «Azərbaycan milli dövlət quruculuğu yolunda», «Azərbaycan qaçqınları» adlı çox qiymətli sənəd və material topluları, milli ordu quruculuğu və başqa mühüm problemlər haqqında tədqiqat əsərləri meydana gəlmişdi.

1997-ci ildə müasir tarixi öyrənmək üçün çox qiymətli mənbə – Heydər Əliyevin «Müstəqillik yolu», «Müstəqilliyimiz əbədidir», «Azərbaycan nefti dünya siyasətində», «Yeni siyasi xətt», «Qaçqınlar» (hər üçü ingilis dilində), «Azərbaycan Respublikası» kitabları nəfis tərtibatla oxuculara təqdim edilmişdi.

Prezident Heydər Əliyev tarixçi-alimlər qarşısında fundamental «Azərbaycan tarixi»nin yaradılması kimi mühüm vəzifə qoymuşdu, Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixində çox mühüm dövr olan XIX-XX əsrlər tarixinin əhatəli tədqiqi və nəşri üçün xüsusi qrand müəyyən etmişdi. Respublikanın ən görkəmli tarixçi alimləri bu işə cəlb olunmuşdu. 1998-2002-ci illərdə 7 cildlik «Azərbaycan tarixi» kitabı hazırlandı və çap edildi.

1996-cı ildə «Üzeyir Hacıbəyov ensiklopediyası» nəşr edilmişdi. Türk dünyası filoloqları birlikdə «Kitabi-Dədə Qorqud ensiklopediyası», «Füzuli ensiklopediyası» hazırlamağa başlamışdılar. M.Füzulinin əsərlərinin altı cildliyi çap olunmuşdu.

Görkəmli ədəbiyyatşünas alimlərin – Yaşar Qarayevin «Tarix yaxından və uzaqdan», Bəkir Nəbiyevin «Didərgin şair», Vilayət Quliyevin «Ağaoğlular», Elçinin «Bəstəkarın vətəndaş sözü» əsərləri ədəbi tənqidin daha çox seçilən nümunələri idi. Adil Babayevin «Azərbaycanın dilçiliyinin tarixi», Mübariz Yusifovun «Dahi şəxsiyyətin nitq fenomenliyi», Nizami Xudiyevin «Heydər Əliyev və Azərbaycan dili» kimi əsərləri dilçilik elmini daha da zənginləşdirmişdi.

Azərbaycan fəlsəfi fikrində də müəyyən canlanma baş vermişdi. Marksist fəlsəfi fikir öz mütləq hakimliyini itirmişdi.

**Din**

Elm, fəlsəfə ilə yanaşı, ictimai şüurun başqa formalarının, xüsusən dinin, habelə humanist ideologiyaların yayılması üçün də münasib şərait yaranmışdı. Müxtəlif dini icmaların fəaliyyətinə geniş imkanlar açılmışdı. Yeni dini icmalar təşkil olunur, müqəddəs ocaqlar bərpa edilir, yeniləri yaradılırdı. Bakının «Şəhidlər xiyabanı»nda, Qaraçuxur, Yeni Yasamal qəsəbələrində, Novxanı, Hökməli, Nardaran kəndlərində, «Mirmövsüm ağa», «Əliayağı» pirləri üzərində və başqa məscidlər ucaldılmışdı. Respublikanın, demək olar ki, bütün şəhər və qəsəbələrində, onlarla kənddə yeni məscid binaları tikilmişdi. Sovet hakimiyyəti illərində dağıdılmış müqəddəs ocaqlar, pirlər, məscidlər yenidən bərpa olunmağa başlanmışdı. Bu işdə xeyriyyəçilər, dini icmalar fəal iştirak edirdilər. Bayıl qəsəbəsindəki «Bibi-Heybət piri»

bərpa olunmuşdu. 20-ci illərdə yerlə yeksan edilmiş «Bibi-Heybət məscidi» yeniləşdirilmiş, layihə üzrə (iki minarəli) yenidən tikilmişdi. «Təzə pir» məscidi yanında İslam Universiteti üçün bina inşa olunmuşdu. Hər il Həcc mərasimi günlərində yüzlərlə dindarın müqəddəs Kəbəni, habelə islamın başqa müqəddəs ocaqlarını ziyarət etməsi üçün təşkilati tədbirlər görülürdü. «Quran» iki variantda Azərbaycan dilinə tərcümə-təfsir olunmuşdu (biri Z.Bünyadov, V.Məmmədəliyev, digəri N.Qasımov tərəfindən). «İslamın səsi», «İslam dünyası», «İslam» qəzetləri nəşr olunurdu. 1989-1990-cı illərdə fəaliyyət göstərmiş «Bakı mədrəsəsi» 1991-ci ildə «Bakı İslam İnstitutuna», 1994-cü ildə isə bu İnstitut «Qafqaz İslam Universitetinə» çevrilmişdi. Bir çox şəhərlərdə mədrəsələr açılmışdı.

Bununla yanaşı, əhalinin mənəvi birliyini parçalamağa çalışan qüvvələr sünni və şiələr arasında nifaq salmağa cəhd göstərirdilər. Xüsusi xidmət zabitləri şərq və qərb dini missionerləri libasında geniş təbliğat işləri aparır, informasiya mərkəzləri açır, pulsuz dini kitablar, qəzet və jurnallar yayırdılar. Bu sahədə, xüsusən İrandan gələn «missionerlər» daha fəal idilər. Lakin islam dini bayrağı altında siyasi məqsədlər, qara niyyətlər güdən qüvvələr layiqli cavablarını alırdılar.

Vicdan azadlığı, başqa dinlərə hörmət hislərinin hakim olduğu respublikada onlarla xristian təşkilatı qeydə alınmışdı. Lakin çoxları da qanunsuz, gizli fəaliyyət göstərirdi.

Missionerlər çox vaxt Azərbaycan Konstitusiyasını pozur, zorakı tədbirlərə əl atır, fırıldaqçılıq edir, orduda, qaçqınların çadır şəhərciklərində, azsaylı xalqlar arasında təxribat işləri aparır, islam ənənələrini təhqir edən, «xristian erməni qardaşlarla birlik», «taledən qaçılmazlıq» haqqında ideyalar yayırdılar. Bu işdə ermənilərin dostu Baranessa Koksun rəhbərlik etdiyi «Xristian həmrəyliyi təşkilatı», xüsusilə fərqlənirdi.

Humanist İslam dəyərlərinə sadiq olan dini icmalar, Qafqaz Müsəlmanları İdarəsi əhalinin mənəvi birliyi, müxtəlif dünyagörüşlərinə, dinlərə mənsub adamlar arasında qarşılıqlı münasibətlər yaranması işində, dindarlar tərəfindən dövlətçiliyin və müstəqilliyin müdafiə olunmasında fəal mövqe tuturdular. 1995-ci ildə «Avrasiya İslam Şurası» təsis edilmişdi. 1997-ci ildə təbliğat vasitələri ilə islam dəyərlərini qoruyub saxlamaq, missionerlərin fəaliyyətinə qarşı mübarizə aparmaq üçün Qafqaz Müsəlmanları İdarəsində tanınmış elm və din xadimlərinin «Elmi-dini Məsləhət Şurası» yaradıldı.

1997-ci il yanvarın 8-də Respublika Prezidenti Heydər Əliyevin sərəncamı ilə Azərbaycanda xarici dini missionerlərin pozuculuq fəaliyyəti qadağan olundu.

İqtidar dindarlara, dini icmalara qayğı ilə yanaşır, onların müstəqillik və dövlətçiliyin dayağı olan vətəndaş həmrəyliyi, xalq birliyi yaranmasında böyük imkanlarını düzgün qiymətləndirirdi. Dövlət müstəqilliyi bərpa edildikdən sonra xalqın ənənəvi mədəniyyətinə ehtiram və qayğı ilə yanaşılmağa başlanmışdı. Milli Məclisin 1992-ci il 27 oktyabr tarixli «Azərbaycan Respublikasının bayramları haqqında» qanuna əsasən «Novruz», «Qurban», «Ramazan» bayramları rəsmi qeyd olunurdu.

Prezident Heydər Əliyev dinə və dindarlara xüsusi ehtiramla yanaşırdı. O, islam dini mərkəzlərini, müqəddəs Kəbəni ziyarət etmişdi, dindarlarla tez-tez görüşürdü. 1997-ci ilin iyununda prezident «Bibi-heybət» pirini ziyarət edərkən burada gedən məscid tikintisini öz himayəsinə götürmüşdü.

**Ədəbiyyat və incəsənət**

Bu illərdə Azərbaycan ədəbiyyatı da yeni əsərlərlə zənginləşirdi. Respublikada 500 nəfərdən çox peşəkar yazıçı vardı. Müstəqillik uğrunda açıq mübarizə və müstəqilliyin ilk dövrlərində ədəbiyyatda alovlu şeirləri ilə xalqı şər qüvvələrə qarşı əlbir mübarizəyə çağıran Bəxtiyar Vahabzadə, Xəlil Rza (Ulutürk) və Məmməd Araz zirvələri daha aydın görünürdü. Xəlil Rzanın «Davam edir 37...» şeirlə toplusu, Bəxtiyar Vahabzadənin «Şəhidlər» poeması, «Göytürklər» pyesi böyük poetik və tərbiyəvi təsir gücünə malik idi.

Ədəbiyyatda müharibə, yeni iqtisadi münasibətlərə keçid dövrü, siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda mübarizə şəraitində cəmiyyətdə, insan mənəviyyatında baş verən dəyişiklikləri əks etdirən yeni mövzular meydana gəlməyə başlamışdı. İsmayıl Şıxlının «Ölən dünyam», İlyas Əfəndiyevin «Hökmdar və qızı», İsa Hüseynovun «Cəhənnəm», Nəriman Həsənzadənin «Pompeyin Qafqaza yürüşü», Sabir Rüstəmxanlının «Bu sənin xalqındır», Çingiz Abdullayevin dedektiv romanları bu dövrün mühüm ədəbi hadisələri idi.

Ənvər Məmmədxanlının «Babək» (əvvəllər yazılıb, lakin ilk dəfə 1994-cü ildə çap olunub), Mustafa Çəmənlinin «Xallı gürzə», Aqil Abbasın «Batmanqılınc», Əzizə Cəfərzadənin «Eldən-elə», «Zərintac» əsərləri xalqın qəhrəman, ibrətamiz tarixi keçmişini işıqlandırır, böyük tərbiyəvi əhəmiyyət kəsb edir.

Ədəbiyyatın və filologiyanın inkişafına marağı daha da artırmaq üçün 1996-cı ildə Prezident Heydər Əliyevin təşəbbüsü ilə Füzuli adına beynəlxalq mükafat təsis edilmişdi.

Həmin il Prezident fərmanı ilə «Azərbaycan» ədəbi-bədii jurnalı, «Qobustan» dərgisi və «Ədəbiyyat» qəzeti dövlət büdcəsindən maliyyələşdirilməyə başlandı. Sonralar «Ulduz» jurnalına da maddi kömək göstərildi. 1997-ci ilin noyabrında Prezident Heydər Əliyev qocaman ədəbiyyat və incəsənət xadimləri üçün ayda bir milyon manat (250 dollar) məbləğində ömürlük 30 fərdi təqaüd təyin edilməsi haqqında fərman verdi.

Respublikada bir sıra yeni teatrlar – «Bakı Bələdiyyə teatrı», «Tənqid-təbliğ teatrı», «Milli Dastan teatrı», «Yuq» teatrı və b. teatrlar meydana gəlmişdi. 1997-ci ildə 20-dən çox dövlət teatrı fəaliyyət göstərdi. 1996-cı ildə Azərbaycan Milli Dram Teatrının binası bərpa edildikdən sonra öz qapılarını tamaşaçılara açdı. 1998-ci ildə bu teatra Hüseyn Cavidin adı verildi. 1998-ci ildə Musiqili Komediya Teatrının tam yenidən qurulmuş binası istifadəyə verildi. Teatrlar xalqın qəhrəman tarixindən və müasir həyatından bəhs edən onlarla əsərə səhnə həyatı verdi. Mərahim Fərzəlibəyev, Hüseynağa Atakişiyev, Cahangir Novruzov kimi istedadlı teatr rejissorları Azərbaycan rejissorluq məktəbinin ən yaxşı ənənələrini yaşadır, inkişaf etdirirdilər. Azərbaycan rejissorları xarici ölkələrdə də bir sıra tamaşalara quruluş vermişdilər. 1995-ci ildə H.Atakişiyev Türkiyədə Ü.Hacıbəyovun «Arşın mal alan» operettasını səhnəyə hazırlamış və bu tamaşa ilə İstanbul Bələdiyyə teatrının əsası qoyulmuşdu.

Azərbaycan musiqi sənəti də yeni əsərlərlə zənginləşməkdə idi. 1996-cı ildə Süleyman Ələsgərovun «Solğun çiçəklər» operası tamaşaya qoyulmuşdu. Görkəmli bəstəkar Cövdət Hacıyevin dövrün dramatizmini, xalqın ümid və inamını musiqi dili ilə əks etdirən «Onu zaman seçib» adlı VIII simfoniyası, bəstəkar Sərdar Fərəcovun «Böyük vətəndaş haqqında» odası xalqın səadəti, müstəqilliyin əbədi olması uğrunda yorulmaz mübariz Heydər Əliyevə həsr olunmuşdu.

Azərbaycan musiqisində hərbi mövzu xeyli inkişaf etmişdir. Süleyman Ələsgərovun «Əsgər marşı», Ş.Musaoğlunun hərbi mahnıları xalqda, döyüşçülərdə qələbəyə inam oyadırdı. Cavanşir Quliyevin «Əsgər marşı» dillər əzbəri olmuşdur.

Azərbaycan musiqi ifaçılıq sənəti də inkişaf etməkdə və geniş təbliğ olunmaqda idi. Muğam xalq mahnıları və təsnif ifaçılarının ənənəvi müsabiqələri keçirilir, istedadlı gənc ifaçıların təqdim konsertləri təşkil olunurdu. Azər Zeynalovun vokal sənəti Rəşid Behbudov məktəbi ənənələrini davam etdirirdi. Musiqi kollektivləri, ayrı-ayrı ifaçılar tez-tez xarici ölkələrə qastrola, beynəlxalq festival və müsabiqələrə dəvət edilirdilər. Müğənni Eldar Əliyev 1995-ci ildə İtaliyanın məşhur La-Skala teatrında çıxış etməyə dəvət olunmuşdu. Xanəndələr Alim Qasımovun, Səkinə İsmayılovanın, caz vokal ustası və pianoçu Əzizə Mustafazadənin, müğənnilərin ABŞ, Kanada, Fransa, İngiltərə, Almaniya, İsveç, İtaliya, Rusiya, Türkiyə, İraq, İsrail, Çin və başqa ölkələrdə çıxışları böyük maraqla qarşılanırdı. Lütfiyar İmanov, Xuraman Qasımova kimi görkəmli vokal ustaları, habelə başqa musiqiçilər Türkiyə musiqi təhsili müəssisələrində dərs deməyə dəvət olunmuşdular.

1997-ci ilin noyabr ayında Bakıda vokalçıların Bülbül adına birinci beynəlxalq müsabiqəsi keçirildi.

Bu illərdə Azərbaycan kinosu, bütün maddi çətinliklərə baxmayaraq, inkişaf dövrü keçirirdi. Müstəqil kinostudiyalar təşkil olunmuşdu. «Azərbaycanfilm» kinostudiyası 1994-cü ildən yenidən dövlət büdcəsindən maliyyələşdirilməyə başlamışdı. Həmin il Dövlət Film Fondu təşkil olunmuşdu. Bu fonda Azərbaycanda istehsal olunmuş filmlər, habelə nüsxələri yalnız xarici ölkələrdə qalmış filmlərin surətləri toplanmağa başlamışdı. Azərbaycan kinosunun Vaqif Mustafazadə, Ayaz Salayev, Hüseyn Mehdiyev kimi görkəmli rejissorları yetişmişdi. Bu illərdə Azərbaycan kinomatoqrafları «Əhlikef», «Fransız», «Hər şey yaxşı olacaq» (V.Mustafazadə), «Yarasa» (A.Salayev), «Həm ziyarət, həm ticarət» (R.Ocaqov), «Uçurulmuş körpü», «Özgə vaxtı» (H.Mehdiyev) kimi bir sıra yüksək bədii dəyərli filmlər yaratmışdılar. Müharibə, erməni quldurlarının vəhşiliyi, qaçqınçılıq həyatının dəhşətləri Azərbaycan kinosuna yeni mövzular gətirmişdi. «Ağatlı oğlan», (Ə.Əbluc), «Fəryad» (C.Mirzəyev) kimi təsirli, realist filmlər yaradılmışdı.

Azərbaycan sənədli kinosu da xeyli inkişaf etmişdir. Müstəqillik uğrunda mübarizə, Qarabağda müharibə, Prezident Heydər Əliyevin xalqın səadəti uğrunda fədakarlıqla dolu mənalı həyatı mövzularında onlarla maraqlı, ibrətamiz kino, videolent çəkilmişdi. Müdafiə Nazirliyinin sənədli kinotelestudiyası bu işdə xüsusən fərqlənirdi.

Azərbaycan filmi dünya ekranlarında daha geniş təmsil olunmağa başlanmışdı. 1995-ci ildə 10 Azərbaycan bədii filmi Beynəlxalq Nant «Üç qitə» kinofestivalında nümayiş etdirildi. «Yarasa» bədii filmi 1996-cı ildə Fransada «Birinci plan» beynəlxalq kinofestivalında «Avropanın ən yaxşı tammetrajlı bədii filmi» adına, Misir beynəlxalq kinofestivalında yüksək mükafata layiq görüldü. 1997-ci ildə Beynəlxalq Madrid kinofestivalında «Özgə vaxtı» filmi yüksək qiymətləndirildi, onun yaradıcıları H.Mehdiyev ən yaxşı rejissor, A.Mirqasımova isə ən yaxşı qadın rolu ifaçısı adına layiq görüldü. 90-cı illərin əvvəllərində respublikanın şəhər və qəsəbələrində meydanlar, parklar monumental kommunist təbliğatına xidmət edən heykəl və abidələrdən təmizləndi. Bakıda K.Marksa, Leninə, Şaumyana, Kirova, Dzerjinskiyə, Fioletova, «26-lar»a, «XI Qızıl Ordu»ya qoyulmuş heykəl və abidələr söküldü. Dağüstü parkda «Şəhidlər xiyabanı» salındı. 1998-ci ildə burada şəhidlərə möhtəşəm abidə ucaldıldı və əbədi məşəl yandırıldı. Şəhər və kəndlərdə xalqın azadlığı uğrunda döyüşlərdə canından keçmiş igidlərin xatirəsini əbədiləşdirən abidə və komplekslər yaradıldı.

Azərbaycan fırça ustaları yeni gözəl əsərlər yaradırdılar. Tahir Salahovun «Heydər Əliyevin portreti» əsəri böyük maraqla qarşılanmışdı. Respublika rəssamlarının sənət inciləri dünyanın sərgi salonlarında müvəffəqiyyətlə nümayiş etdirilirdi. 1995-ci ildə ABŞ-da, 1996-cı ildə Almaniyada Səttar Bəhlulzadənin əsərlərinin sərgisi təşkil olunmuşdu. 1996-cı ildə Parisdə «Dünya rəssamları» sərgisində Toğrul Nərimanbəyovun əsərləri, 1997-ci ildə Vaşinqtonda, Çikako və Nyu-Yorkda rəssam Kamil Nəcəfzadənin əsərləri nümayiş etdirilmişdir.

Xalça rəssamları Kamil Əliyevin və Eldar Mikayılovun əsərləri yüksək bədii sənətkarlıq nümunələri idi. Kamil Əliyevin, Türk dünyasının böyük şəxsiyyətləri Atatürk, Heydər Əliyevin, Süleyman Dəmirəlin, Səudiyyə Ərəbistanının kralı, iki müqəddəs şəhərin xadimi Fəhd ibn Əbdül Əziz əl Səudun portretləri toxunmuş xalçalarda Azərbaycan miniatür sənətinin ən yaxşı ənənələri yaradıcılıqla inkişaf etdirilmişdi. 1996-cı ildə Brüsseldə Eldar Mikayılovun bənzərsiz xalçaları böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdi.

Bu illərdə respublikanın tişə və fırça ustaları müharibə, qəhrəmanlıq, vətənpərvərlik mövzularına tez-tez müraciət edirdilər. Xalqı birliyə, düşmənə qarşı döyüşə, qələbəyə çağıran əsərlər meydana

gəlmişdi. C.Qasımovun, F.Hüseynovun, G.Əlizadənin və başqalarının bu mövzuda plakatları, xüsusən təsirli və maraqlı idi.

Ümumiyyətlə, bu illərdə incəsənətdə formaca ənənəyə bağlılıq və müasirlik, məzmunca milli özünəqayıdış, bəşəri dəyərlərin təbliği üstünlük təşkil edirdi. Müstəqillik qüruru, iqtidar qayğısı, sanballı hazırlıq səviyyəsi respublikanın, demək olar ki, bütün yaradıcı qüvvələrini tərəqqiyə səfərbər etmişdi.

## § 3. Özünəqayıdış. Bəşəri mənəvi dəyərlərə doğru

Xalqın mənəvi aləmini zənginləşdirmək, onu özünə və başqalarına daha yaxşı tanıtmaq üçün elm, təhsil, ədəbiyyat və incəsənətin bütün vasitələrindən istifadə edilirdi. Xalqın görkəmli elm, mədəniyyət xadimlərinin yubileyləri təntənə ilə qeyd olunurdu. 1996-cı ilin payızında dahi Füzulinin 500 illik yubileyi böyük təntənə ilə qeyd edildi. Bakıya, demək olar ki, dünyanın hər yerindən qonaqlar – ədəbiyyatşünas alimlər, yazıçılar gəlmişdi. Həmin il Əliağa Vahidin, bəstəkar Müslüm Maqomayevin, görkəmli alimlər Yusif Məmmədəliyevin, Sara Aşurbəylinin, alim və dövlət xadimi Vəli Axundovun, şair Bəxtiyar Vahabzadənin, Qabilin, rəssam Maral Rəhmanzadənin, 1997-ci ildə ölməz şair Səməd Vurğunun, S.Rüstəmin, görkəmli alim, dövlət xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin, akademik Həsən Əliyevin, dünya şöhrətli musiqiçi, Azərbaycanda böyüyüb başa çatmış Mistislav Rastropoviçin yubileyləri geniş qeyd olundu. Şairlərdən Bəxtiyar Vahabzadə, Xəlil Rza (Ulutürk), Məmməd Araz (1995-ci ildə), Mirvarid Dilbazi, bəstəkar Tofiq Quliyev (1997-ci ildə), rəssam Mikayıl Abdullayev (1998-ci ildə) və b. vətənpərvərlik ruhunda yaratdıqları əsərlərə görə «İstiqlal» ordeni ilə təltif olundular. Akademiklər Mirməmməd Cavadzadə, Nəriman Quliyev, Eldar Salayev, Cəmil Quliyev, İqrar Əliyev, tarixçi-alim Sara Aşurbəyli, heykəltəraş Mirəli Mirqasımov, rəssam Maral Rəhmanzadə, xalq artistləri Zeynəb Xanlarova, Fidan Qasımova, Qədir Rüstəmov, Lütfi Məmmədbəyov, Nəsibə Zeynalova, Leyla Vəkilova, Müslüm Maqomayev, şairlərdən Qabil, Nəbi Xəzri və b. «Şöhrət» ordeni ilə mükafatlandırıldılar.

1995-ci ilin mayında II Dünya müharibəsində faşizm üzərində Azərbaycanın, xüsusən Bakı neftinin mühüm rol oynadığı qələbənin 50 illik yubileyi geniş qeyd olundu.

Dövlətçilik rəmzlərinin, Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində bütün sahələrdə əldə olunan müvəffəqiyyətlərinin geniş təbliğ edilməsi xalqda özünəinam, nikbinlik, qürur hisləri doğurur. Hər il 28 may - Respublika günü (1992-ci ildən), 15 iyun - Qurtuluş günü (1997-ci ildən), 18 oktyabr - Dövlət Müstəqilliyi günü (1992-ci ildən), 12 noyabr - Konstitusiya günü (1996-cı ildən), 17 noyabr - Milli Dirçəliş günü (1992-ci ildən), 31 dekabr - Dünya azərbaycanlılarının Həmrəylik günü (1990-cı ildən) bayram kimi geniş qeyd olunur. Hər il 20 yanvar - matəm günü istiqlal uğrunda Şəhidlər Xiyabanını yüz minlərlə adam ziyarət edir. 1997-ci ildən Xocalı soyqırımı qurbanları xatirəsinə ehtiram əlaməti olaraq fevralın 26-da saat 17:00-da sükut dəqiqəsi elan olunması haqqında Prezident fərmanı verilmişdir. Xalqın mənəvi gücünün artmasına ermənilərin Azərbaycana və azərbaycanlılara qarşı düşmənçiliyi haqqında tarixi həqiqətlərin öyrənilməsi mühüm təsir göstərirdi. Prezident Heydər Əliyev deyirdi: «Xalqımız... daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar, nə vaxt əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar!» Onun «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» 1997-ci il 17 dekabr «Azərbaycanlıların soyqırımı haqqında» 1998-ci il 26 mart tarixli fərmanlarında son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı siyasəti ifşa olunmuşdu. Bu tarixi cinayətə ilk dəfə hüquqi-siyasi qiymət verilmişdi. Onun xalqa beynəlxalq ictimaiyyətə çatdırılması üçün konkret tədbirlər görülməyə başlanmışdı.

Xalqa aşılanırdı ki, o, böyük türk mədəniyyətinin – Nizami, Xaqani, İbn Sina, Qurbani, Xətai, Yunis İmrə, Nəsimi, Füzuli, Nəvai, Tusi, Bəhmənyar, Vaqif, Səməd Vurğun, Şəhriyar və b. varisidir. Tez-tez türk dövlət və topluluqlarının dostluq, qardaşlıq və iş birliyinə, xüsusən mədəni əlaqələrin inkişafına həsr olunmuş qurultayı keçirilirdi. 1996-cı ilin noyabrında Bakıda Türk dünyası yazıçılarının III qurultayı keçirilmişdi. Bu vaxt Azərbaycanın paytaxtında TÜRKSOY-un da VIII toplantısı təşkil olunmuşdu.

Türkdilli xalqlar birlikdə «Manas dastanı»nın min illiyini, böyük Qazax şairi və filosofu Abayın 150 illiyini, Özbəkistanın böyük dövlət xadimi, türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660 illiyini, Füzulinin 500 illiyini geniş qeyd etdilər. 1997-ci ilin aprelində Azərbaycan prezidenti Heydər Əliyev Azərbaycan xalqının milli tarix və mədəniyyət qaynaqlarından biri olan «Kitabi Dədə-Qorqud» dastanının 1300 illiyinin geniş qeyd edilməsi haqqında fərman verdi və bu tədbir yüksək səviyyədə keçirildi. Həmin ilin noyabrında böyük Azərbaycan şairi M.Şəhriyarın 90 illiyinin geniş qeyd olunması haqqında Prezident fərmanı verildi. 1997-ci il noyabr ayında Şeyx Şamilin 200 illik yubileyi böyük təntənə ilə qeyd olundu.

Müstəqillik dövründə respublikada yaşayan azsaylı xalqların mədəni tərəqqisinə diqqət daha da artırılmışdı. Azərbaycan Respublikası Millətlərarası münasibətlər Dövlət Komitəsi, Azərbaycan Mədəniyyət Fondu yanında azsaylı xalqların mədəniyyətinin qorunması və inkişafı üzrə ictimai elmi şura yaradıldı. Ləzgi, talış, kürd, udin, saxur, slavyan, yəhudi və başqa xalqların mədəniyyət mərkəzləri fəaliyyətini xeyli genişləndirdi. Ümumtəhsil məktəblərində bu xalqların dili tədris olunmağa başlandı. 1993-cü ildə Qusarda Dövlət Ləzgi Teatrı təşkil edildi. «Azərnəşr»də azsaylı xalqlar redaksiyası yaradıldı. «Udin dili», «Ləzgi dili», «Talış dili» və başqa dərsliklər, əlifbalar çap olundu. «Talışı sado» (Talışın səsi), «Samur», «Vestnik» və b. qəzetlər çap olunub yayılmağa başlandı.

Bu illərdə dünyanı xalqa tanıtmaq sahəsində də səmərəli işlər görülmüşdü. Hələ 1989-cu ilin baharında Azərbaycan Yazıçılar Birliyi yanında təşkil edilmiş Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi dünya ədəbiyyatı xəzinəsindən ən gözəl incilərin Azərbaycan dilinə orijinaldan tərcümə olunmasında mühüm rol oynayırdı. O.Süleymanovun, Ç.Aytmatovun, M.Svetayevanın, F.Kafkanın, R.Filkenin, T.Vulfun, K.Doylun, M.Malkesin, U.Folknerin, B.Yıldızın və başqa dünya şöhrətli ədiblərin əsərləri Azərbaycan dilində nəşr olunmuşdu. Azərbaycan ədəbiyyatından ingilis, alman, rus, fransız, ərəb, fars dillərinə çoxlu tərcümələr edilmişdi. 1996-cı ildən «Dünya ədəbiyyatı korifeyləri» seriyası çap olunmağa başlanmışdı.

1991-ci ilin oktyabr ayında Moskvada Nizami Gəncəvinin abidəsi açıldı. Moskva və Sankt-Peterburqda Nizaminin 850 illiyi təntənə ilə qeyd olundu. 1994-cü ildə Moskvanın Sütunlu salonun-

da Füzuliyə həsr olunmuş təntənəli gecə təşkil edildi. 1996-cı ilin aprelində Rusiya Federasiyasında Azərbaycan mədəniyyəti günləri və Moskvada Rəşid Behbudovun yubiley gecəsi keçirildi. Görkəmli rəssam Nikas Safronov «Heydər Əliyev» və Naxçıvanda çəkdiyi «İlanlı dağ» kimi məşhur əsərlərini yaratdı. Eyni zamanda Rusiya mədəniyyəti Azərbaycanda geniş təbliğ olundu. Rusiyanın mərkəzi şəhərlərində Azərbaycan mədəniyyəti günləri keçirildi.

Azərbaycan Respublikası başqa ölkələrlə də mədəni əlaqələri inkişaf etdirirdi. 1992-ci ilin yayında «Azərbaycan - Almaniya cəmiyyəti» təsis edilmiş, iki ölkə arasında mədəni əlaqələrin inkişafına münasib imkanlar açılmışdı. 1995-ci ilin baharında Almaniyada Azərbaycan, payızında isə Azərbaycanda Almaniya fırça ustalarının əsərlərindən ibarət sərgilər təşkil olunmuşdu. 1996-cı ilin mayında Bakıda Gürcüstan mədəniyyəti günləri geniş qeyd edilmişdi. 1996-cı ilin sonlarında Azərbaycanla İran arasında mədəni əməkdaşlıq haqqında müqavilə bağlanmışdı. 1996–1997-ci illərdə respublikada Baltik ölkələri, İran, Fransa kino-festivalları keçirilmişdi. 1997-ci ilin əvvəllərində mədəni əməkdaşlığa dair Azərbaycan - Almaniya komissiyası təsis olunmuşdu. 1997-ci ilin sentyabrında Bakıda Finlandiya mədəniyyəti günləri keçirilmişdi. Bakı Təbriz və Paris şəhərləri ilə qardaşlaşmışdı. Sumqayıt şəhəri ilə Almaniyanın Lüdviqshafen şəhəri arasında hələ 70-ci illərin ortalarından başlanmış dostluq və əməkdaşlıq əlaqələri bərpa olunmuşdur. 1997-ci ildə Lüdviqshafenin mərkəzi küçələrindən birinə «Sumqayıt» adı verilmişdir. Sumqayıtda, «Lüdviqshafen» parkı açılmışdı. ABŞ-Azərbaycan partnyorluq münasibətlərinin yaranması hələ 1972-ci ildə qardaşlaşmış Bakı və Hyuston şəhərləri arasında əlaqələrin genişlənməsinə səbəb olmuşdu.

Xarici ölkələrdəki Azərbaycan mədəniyyət mərkəzləri, dərnək, ocaq və əncümənləri ilə sıx əlaqələr saxlanılırdı. Bu təşkilatlar Azərbaycan mədəniyyətinin xarici ölkələrdə tanınması sahəsində mühüm rol oynayırdı. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkil etdikləri onlarla təşkilat, o cümlədən Madriddə «Azərbaycan dostları», Londonda «Azərbaycan mədəniyyət mərkəzi», Kölndə «Azərbaycan mədəniyyət mərkəzi», Torontoda «Azərbaycan Mərkəzi», habelə İngiltərədə «Aydınlıq», «Odlar ölkəsi», Belçikada «Azərbaycan», «Qürbət», İsveçdə «Azərbaycan», Almaniyada «Ana dili», «Savalan», «Qaynarça», Türkiyədə «Xəzər», «Azərbay-

can türkləri», İspaniyada «Dədə Qorqud», İraqda «Yurd», ABŞ-da «Azərbaycan» qəzetləri, «Azərbaycanın səsi» adlı müxtəlif tele-radio proqramları bu sahədə xüsusən fərqlənirdi.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Prezident Heydər Əliyevin təşəbbüsü ilə keçirilən bu qurultayda 37 xarici ölkədən 560 nümayəndə iştirak edirdi. Qurultayda «Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası» təsis olundu. Bu forum müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların qüvvələrini Vətən, sülh, tərəqqi naminə səfərbər etmək vasitələrini və imkanlarını müəyyən etdi.

Azərbaycan açıq, dünyəvi cəmiyyət idi. Əhalinin həyat tərzinə bəşər mədəniyyətinin yüksək dəyərləri ilə yanaşı, xalqın mənəviyyatına, psixologiyasına yad olan cəhətlər də təsir göstərirdi. Şəhərlərdə çoxlu kazinolar, qumarxanalar, gecə barları, ehtiraslı oyun totalizatorları və s. peyda olmuşdu. Bu, xalqın məişətini korlayır, cəmiyyətdə haqlı narazılıq doğururdu. 1998-ci ilin yanvarında bu müəssisələr Prezident Heydər Əliyevin xüsusi sərəncamı ilə ləğv edilmişdi.

**İdman** Respublikanın idman həyatında da canlanma hiss olunurdu. Azərbaycan 1991-ci ildən Beynəlxalq Olimpiya Komitəsinə, 1994-cü ildən Avropa Futbol Birliyinə və başqa beynəlxalq idman təşkilatlarına üzv qəbul edildi. Milli Olimpiya Komitəsi təşkil olundu. 1997-ci ildə İlham Əliyev bu komitəyə sədr seçildikdən sonra onun işi daha da canlandı.

Respublikada idmanla fəal məşğul olanların sayı 400 min nəfərdən çox idi. Burada 78 idman klubu və cəmiyyəti, 8200 idman qurğusu, 174 uşaq-gənclər idman, 36 şahmat məktəbi fəaliyyət göstərirdi. Respublika stadionu təmir olunmuş, onun beynəlxalq yarışlar keçirilməsinə uyğunlaşdırılması üçün yenidən qurulmasına başlanmışdı. Suraxanıda «Neftçi» idman-sağlamlıq mərkəzinin olimpiya bazası açılmışdı. 2000-ci ildə Bakıda Olimpiya İdman Kompleksi istifadəyə verildi. 1997-ci ilin oktyabrında idmanın və bədən tərbiyəsinin inkişafına göstərdiyi qayğıya görə Milli Olimpiya Komitələri Birliyinin İcraiyyə Şurası Prezident Heydər Əliyevi «Ləyaqət mükafatı» ilə təltif etdi.

Hər il idmanın müxtəlif növləri üzrə respublika çempionatları keçirilirdi. Azərbaycan idmançıları beynəlxalq idman yarışlarında uğurla iştirak edirdilər. Təkcə 1995-ci ildə 165 idmançı dünya və

Avropa çempionatlarında, kubok yarışlarında çıxış etmiş, 54 medalla (23 qızıl, 9 gümüş) vətənə qayıtmışdılar. 1996-cı ildə Azərbaycan idmançıları XXVI yay Olimpiya oyunlarında ilk dəfə müstəqil respublikanı təmsil edirdilər. Azərbaycan komandası 197 komanda arasında 48-ci yerə çıxdı. Güləşçi Namiq Abdullayev olimpiyanın gümüş medalını qazandı. Müxtəlif yarışlarda N.Abdullayev, C.Məmmədov (sambo), Z.Hüseynova (sambo), M.Abdullayev (güləş), F.Musayev (karate-do), R.Tağıyev (kikboksinq), T.Zahidov (yunan-Roma güləşi), İ.Qədimova (şahmat) və başqaları dəfələrlə dünya çempionu adına layiq görülmüşdülər. 1997-ci ildə Bakıda gənclər arasında Sambo üzrə XXV Avropa çempionatı keçirildi. Yarışlarda iştirak edən 5 azərbaycanlı idmançı Avropa çempionu adını qazandı. 1997-ci ildə Azərbaycan idmançıları müxtəlif beynəlxalq yarışlarda 56 qızıl, 45 gümüş və 37 bürünc medal qazanmışdılar. 1998–1999-cu illərdə Azərbaycan idmançıları beynəxalq yarışlarda 334, o cümlədən 130 qızıl və 90 gümüş medal qazandılar. 1998-ci ilin fevralında Yaponiyanın Naqano şəhərində keçirilən XVIII qış olimpiya oyunlarında azərbaycanlı fiqurlu konkisürənlər də iştirak etdilər. Sidneydə keçiriləcək XXVII yay olimpiya oyunlarında iştirak etmək üçün ciddi hazırlıq işləri başlandı. Bunun üçün Prezident xüsusi sərəncam vermişdi. Milli Olimpiya Komitəsi 38 idmançı və onların məşqçiləri üçün təqaüd təsis etmişdi. Nəticədə, 2000-ci ilin sentyabrında Sidneydə Zemfira Meftahətdinova (stend atıcısı) və Namiq Abdullayev (güləş) qızıl, Vüqar Ələkbərov (boks) isə bürünc medal qazandılar 198 komanda arasında Azərbaycan komandası 34-cü yerə çıxdı.

Ümumiyyətlə, müstəqilliyin əldə edilməsi, elmin, təhsilin, ədəbiyyat və incəsənətin inkişafı, mədəni sərvətlərin çoxalması xalqın mənəvi yüksəlişinə təkan verdi. Milli azadlıq qazanmış xalq böyük iftixar hissi keçirir, müharibənin, keçid dövrünün çətinliklərini təbii qarşılayır, qüvvələrini onların dəf olunmasına səfərbər edirdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışı, dövlətçiliyin və müstəqilliyin qarantına çevrilməsi bu mənəvi yüksəlişin siyasi və iqtisadi dayaqlarını daha da möhkəmləndirmiş, onun sürətlənməsinə yeni imkanlar açmışdı. Prezident Heydər Əliyevin «Bizim üçün həyat, yaşayış nə qədər çətin olsa da azad, milli azadlıq şəraitində yaşamaq, müstəqil olmaq, müstəqil, azad dövlətdə yaşamaq hər şeydən əzizdir, üstündür» sözləri əhalinin böyük əksəriyyətinin fikirlərinin ifadəsi idi.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## I, II, IV və VI fəsillər üzrə


1. *Əliyev H.* Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 2001.

2. Azərbaycan tarixi, 2-ci c.. Bakı, 1964.

3. Azərbaycan ədəbiyyatı tarixi, 2-ci c.. Bakı, 1960.

4. *Алиева Л.* Рабочие-текстильщики, Баку в нач. XX века. Баку, 1969.

5. *Алияров С.* Нефтяные монополии Азербайджана в годы Первой мировой войны. Баку, 1974.

6. *Ахундов Б.* Монополистический капитализм в дореволюционной бакинской нефтяной промышленности. М., 1954.

7. *Багирова И.* Политические партии и организации Азербайджана в нач. XX в. Баку, 1997.

8. *Vəliyev T.* XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı, 1977.

9. *Vəliyev T.* İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987.

10. *Кулиев А.* Бакинский пролетариат в годы нового революционного подъема. Баку, 1963.

11. *Ибрагимов З.* Революция 1905-1907 гг. в Азербайджане. Баку, 1955.

12. *İbrahimov Z.* Sovet hakimiyyəti uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, 1957.

13. *Ибрагимов М.* Нефтяная промышленность Азербайджана в начале XX в. Баку, 1984.

14. *İsmayılov M., İbrahimov M.* XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesi. Bakı, 1991.

15. *İsmayılov M.* XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960.

16. *Исмайлов М.* Социально-экономическая структура Азербайджана в период империализма. Баку, 1982.

17. *Казиев А.* Об азербайджанском искусстве начала XX века (1900–1917) – «Azərbaycan incəsənəti», IV c., Bakı, 1954.

18. *Məmmədov X.* Azərbaycan milli hərəkatı. Bakı, 1966.

19. *Nəvvab M.* 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993.

20. *Ordubadi M. S.* Qanlı illər. Bakı, 1991.

21. *Rəsulzadə M.* Azərbaycan Cümhuriyyəti. Bakı, 1991.

22. *Сеидзаде Д.* Из истории азербайджанской буржуазии в нач. XX в. Баку, 1978.

23. *Сеидзаде Д.* Азербайджанские депутаты в государственных думах России. Баку, 1991.

24. *Сумбатзаде А.* Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М., 1972.

25. *Talıbzadə İ.* Azərbaycanda 1912-ci il aqrar islahatı. Bakı, 1965.

26. *Cəfərov N.* Milli-ictimai fikir tariximizdən. Bakı, 1993.

27. *Şuşinski F.* Azərbaycan xalq musiqiçiləri. Bakı, 1985.

## III, V, IX, XI, XIII, XV fəsillər üzrə

28. *Абдуллаев З.* Промышленность и рабочий класс Ирана. Баку, 1963.

29. *Алиев С.М.* К вопросу о связях бакинского и тифлисского комитетов РСДРП с иранскими революционерами в 1908-1911 гг. «Славные страницы борьбы и побед» kitabında. Баку, 1965.

30. *Белова Н.* Саттархан (герой иранской революции 1905-1911 гг.) «Иран. История и современность» məcmuəsində. М., 1983.

31. *Kərim Tahirzadə Behzad.* Qeyame Azərbaycan dər inqilabe məşrutiyyəte İran. İran məşrutə inqilabında Azərbaycan üsyanı. Tehran, 1934.

32. *İbrahimi T.* (Şahin). İranda siyasi cəmiyyətlərin və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906). Bakı, 1967.

33. *Иванов М.* Иранская революция 1905-1911гг. М., 1957.

34. *Əmirxizi İsmayıl.* Qəyame Azərbaycan və Səttarxan (Azərbaycan üsyanı və Səttarxan). Təbriz-Tehran, 1939.

35. *Kəsrəvi Əhməd.* Tarix-e məşrutəye İran (İranın konstitusiya hərəkatı tarixi). I–II–III cildlər. Tehran, 1319, 1320, 1323.

36. Görkəmli inqilabçı (Səttarxan). Bakı, 1972.
37. *Сеидов Р.* Иранская буржуазия в конце XIX – нач. XX вв. М., 1969.
38. Tağıyeva Ş. XIX əsrin sonu – XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti. Bakı, 1969.
39. *Həllac H.* Tarixe nehzate İran (İran inqilabı tarixi). Tehran, 1312.
40. *Həsənov N.* Oyanmış Təbriz və Səttərxan. Bakı, 1986.
41. Cənubi Azərbaycan tarixinin oçerkləri. Bakı, 1985.

## VII, VIII fəsillər üzrə

42. *Əliyev H.* Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 2001.
43. Azərbaycan Demokratik Respublikası. Bakı, 1992.
44. *Агамалиева Н., Худиев Р.* Азербайджанская Республика. Баку, 1994.
45. *Baykara Hüseyn.* Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992.
46. *Qaffarov T.* Azərbaycan tarixi. 1920–1991. Bakı, 1999.
47. *Дарабади П.* Военные вопросы политической истории АДР. Баку, 1994.
48. *Yaqublu N.* Məmmədəmin Rəsulzadə. Bakı, 1991.
49. *Ziyadxanov Adil xan.* Azərbaycan. Bakı, 1993.
50. *Məmmədzadə M.B.* Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
51. *Musayev İ.* Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. Bakı, 1996.
52. *Нариманов Н.* Избранные произведения. Баку, 1996.
53.*Nəsibzadə N.* Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
54. *Nəsibzadə N.* Azərbaycanın xarici siyasəti. Bakı, 1996.
55. *Nəcəfov B.* Azərbaycan Demokratik Respublikası. Bakı, 1992.
56. *Rəsulzadə M.* Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı Çağdaş Azərbaycan tarixi. Bakı, 1991.
57. *Rəsulzadə M.* Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
58. *Topçubaşov Ə.M.* Azərbaycanın təşəkkülü. Bakı, 1990.

59. *Həsənov C.* Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918–1920), Bakı, 1993.

60. *Çəmənzəminli Y.V.* Xarici siyasətimiz. Bakı, 1993.

### X, XII, XIV, XVI fəsillər üzrə

61.58. *Əliyev H.* Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 2001.

62. *Аббасов М.Г.* Баку в годы Великой Отечественной войны. Баку, 1967.

63. Azərbaycan tarixi (rusca), 3 c. I–II hissələr, Bakı, 1963.

64. Azərbaycanın Qızıl ulduzları. Bakı, 1975.

65. Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı, 1963.

66. Azərbaycan Sovet Ədəbiyyatı. Bakı, 1988.

67. *Allahverdiyev N.N.* Azərbaycan SSR-in iqtisadi və siyasi coğrafiyası. Bakı, 1991.

68. *Alicanov M.S.* Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı. Bakı, 1975.

69. *Ахмедшина Ф.А.* Экономическое сотрудничество Азербайджанской ССР с союзными республиками (1946–1980). Баку, 1987.

70. *Bağırzadə Ə.* Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970.

71. *Балаев А.* Азербайджанское национальное движение: от «Мусавата» до Народного Фронта. Баку, 1992.

72. *Варинов В.М.* Азнефть за 1923–1924–1926 гг. Баку, 1928.

73. *Боков Ф.Е.* Бессмертный подвиг сынов Азербайджана. Баку, 1971.

74. *Бунятов З.М., Зейналов Р.Э.* От Кавказа до Берлина. Баку, 1990.

75. *Bünyatov Z.* Qırmızı terror. Bakı, 1993

76. *Vəkilov M.* Böyük Oktyabr inqilabı və Azərbaycanda sosialist mədəniyyətinin çiçəklənməsi. Bakı, 1955.

77. *Vəlizadə İ.* Qanlı yanvar. Bakı, 1992

78. *Виноградов В.* Узеир Гаджибеков и азербайджанская музыка. М., 1958.

79. *Qaffarov T.* Azərbaycan tarixi: XX əsrin 80–90-cı illəri. Bakı, 1997.

80. *Qaffarov T.* Azərbaycan tarixi. Bakı, 1999.

81. *Qasımov İ.K.* Azərbaycanda kolxoz hərəkatı tarixindən. Bakı, 1957.

82. *Кулиев Дж.Б.* К истории образования Второй Республики Азербайджана. Баку, 1997.

83. *Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A.* Sovet Naxçıvanı. Bakı, 1984.

84. *Гусейнбейли А.* Эмигранты. Баку, 1994.

85. *Qüdrətov D.* Birinci beşillik illərində Azərbaycanda sovxoz quruculuğu. Bakı, 1962.

86. Достижения науки в Азербайджане за 40 лет (1920–1960). Баку, 1960.

87. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995.

88. *Əliyev Ə.P.* Sovet hakimiyyəti illərində Azərbaycan neft sənayesinin inkişafı. Bakı, 1957.

89. *Əliyev İ.* Dağlıq Qarabağ: tarixi faktlar, hadisələr. Bakı, 1989.

90. *Əliyev X., Əlimirzəyev X.* Azərbaycan kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən (1930–1934), Bakı, 1957

91. *Əlimirzəyev X.* Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı, 1963.

92. *Əmirov H.T.* Azərbaycan SSR-in kənd təsərrüfatı 60–80-ci illərdə. Bakı, 1989.

93. *Зейналов Р.* Военное строительство в Азербайджанской ССР. 1920–1941. Баку, 1990.

94. *İbişov F.F.* Azərbaycan kəndində sosial-siyasi proseslər (1920–1930). Bakı, 1996.

95. *İbrahimli X.C.* Azərbaycan siyasi mühacirəti. (1920–1991). Bakı, 1996.

96. *İsmayılov E.R.* Azərbaycan SSR-in sosial strukturu. Bakı, 1990.

97. История архитектуры Азербайджана. Баку, 1963.

98. *Yaqublu N.* Xocalı qırğını. Bakı, 1112.

99. *Казиев М.* Нариман Нариманов, Баку. 1956.

100. *Kərimov Ə.* Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi. Bakı, 1962.

101. *Köçərli T.* Qarabağ: yalan və həqiqət. Bakı, 1998.

102. *Кулиев М.* Октябрь и тюркская литература. Баку, 1930.

103. Культура Советского Азербайджана. Баку, 1980.

104. *Курбанов М.К.* Культура Советского Азербайджана. Баку, 1959.

105. Gəncə: Tarixi oçerk. Bakı, 1994.

106. *Мамедов В.* Нариман Нариманов. Баку, 1957.

107. *Маниев Ф.* С. Социальные сдвиги в азербайджанской деревне на современном этапе (60–70-е годы). Баку, 1986.

108. *Mehrəliyev E.Q., Əyyubov N.H., Sadıqov M.O.* Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı, 1988.

109. *Мехтизаде М.И.* Очерки истории советской школы в Азербайджане. М., 1962.

110. *Mədətov Q.Ə.* Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958.

111. *Mədətov Q.Ə.* Azərbaycan Böyük Vətən müharibəsində. 1941–1945. Bakı, 1968.

112. *Məmmədzadə Mirzə-Bala.* Milli Azərbaycan hərəkatı. Bakı, 1992.

113. *Məmmədov E.* Elliklə kollektivləşmə illərində Azərbaycan kəndində sinfi mübarizə. Bakı, 1960.

114. *Məmmədov M.* Azərbaycan SSR-də ümumtəhsilin həyata keçirilməsi. Bakı, 1960.

115. *Məmmədov İ., Əsədov S.* Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992.

116. *Мусаева Т.А.* Революция и народное образование в Азербайджане 1920–1940 гг. Баку, 1980.

117. *Нариманов Н.* К истории нашей революции в окраинах. Баку, 1990.

118. *Новрузов Т.* Трудовые подвиги колхозного крестьянства Азербайджана в период Великой Отечественной войны. Баку, 1964.

119. Очерки истории рабочего класса Азербайджана, тт. 1, 2, 3. Баку, 1974, 1977, 1988.

120. Промышленность Азербайджана за 40 лет (1920–1960 гг.). Баку, 1960.

121. Развитие экономики Советского Азербайджана на современном этапе. Баку, 1980.

122. *Rəsulzadə M.* Bolşeviklərin şərq siyasəti. Bakı, 1994.

123. *Rəhimov Ə.C.* 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. Bakı, 1962.

124. *Саядов С.* Азербайджан: международные связи и взаимопонимание. Баку, 1991.

125. *Səməndər R.* Şəhidlər. Bakı, 1990.

126. Sovet Azərbaycanının iqtisadiyyatı sosializmin əsaslarının qurulması dövründə. Bakı, 1983.

127. *Sultanov O.B.* 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.

128. *Токаржевский Е.А.* Очерки истории Советского Азербайджана в период перехода на мирную работу по восстановлению народного хозяйства (1921–1925 гг.). Баку, 1956.

129. Трагедия длиною в 2 года. Баку, 1990.

130. *Ülkü İrfan.* Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994.

131. Xronika NKAO: fevral 1988– fevral 1990. Bakı, 1990.

132. *Həsənova Ş.* Mühacir irsimizdən səhifələr. Bakı, 1996.

133. *Həşimova A.* XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. Bakı, 1996.

134. Черный январь. Баку, 1990.

135. *Шабанов Ф.Ш.* Развитие Советской государственности в Азербайджане. М., 1959.

## XVII–XVIII fəsillər üzrə

136. *Əliyev H.* Müstəqilliyimiz əbədidir. I–IV cildlər. Bakı, 1997.

137. *Əliyev H.* Azərbaycan xalqının hünəri əbədi yaşayacaqdır. Bakı, 1995.

138. *Əliyev H.* Müstəqillik yolu. Bakı, 1997.

139. *Əliyev H.* Allahın yolunda hamımız bir olaq. Bakı, 1993.

140. *Əliyev H.* Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 2001.

141. *Аббасбейли А., Аббасбейли Э.* Гейдар Алиев и мировая политика. Баку, 1998.

142. *Abdullayev M.* Azərbaycan–Türkiyə əlaqələri. Bakı, 1998.

143. Azərbaycan qaçqınları (fotoalbom). Bakı, 1997.

144. Azərbaycan milli dövlət quruculuğu yolunda. Bakı, 1996.

145. Azərbaycan Respublikası. 1991– 2001. Bakı, 2001.

146. *Араслы Дж.* Армяно-азербайджанский конфликт: военный аспект. Баку, 1995.

147. Qayıdış, 1990–1993. Bakı, 1996.

148. *Qaffarov T.* Azərbaycan tarixi: XX əsrin 80–90-cı illəri. Bakı, 1997.

149. *Qaffarov T.* Azərbaycan Respublikası. Əsrə bərabər on il: 1991–2000. Bakı, 2001.

150. Qətiyyətin təntənəsi (sənədli xronika). Bakı, 1995.

151. Qəsd. Bakı, 1996.

152. *Məmmədov Ə.* Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı, 1999.

153. Lissabon sammiti, 1996. Bakı, 1997.

154. *Köçərli T.* Qarabağ: yalan və həqiqət. Bakı, 1998.

155. *Помпеев Ю.* Кровавый омут Карабаха. Баку, 1992.

156. *Süleymanov M.S.* Milli qəhrəmanlar. Bakı, 1994.

157. *Süleymanov M.S.* Hərb quruculuğunun yeni mərhələsi. Bakı, 1996.

158. *Sultanov Z.* Xocalı faciəsi. Bakı, 1993.

159. *Sultanov O.* 80-ci illərin sonu-90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.

160. *Xankişiyev Ə.* Prezident Heydər Əliyev və onun siyasət məktəbi. Bakı, 1995.

# MÜNDƏRİCAT


Giriş

I FƏSİL. ŞİMALİ AZƏRBAYCANIN XX YÜZİLLİYƏ DAXİL OLMASI

§1. İqtisadiyyat və dünya iqtisadi böhranının ona təsiri.
Neft sənayesində vəziyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
§2. Sənayenin başqa sahələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
§3. Kənd təsərrüfatı. Çarizmin köçürmə siyasəti . . . . . . . . . . . . . . 22
§4. Yeni aqrar qanunlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29

II FƏSİL. ƏSRİMİZİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

§1. Mövcud quruluşa qarşı etiraz çıxışlar . . . . . . . . . . . . . . . . . . 35
§2. Azərbaycan birinci rus inqilabı dövründə . . . . . . . . . . . . . . . . . 41
§3. Azərbaycanda çarizmin milli qırğın siyasəti . . . . . . . . . . . . . . . 52
§4. Milli hərəkatın genişlənməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60
§5. Milli partiyaların yaranması və fəaliyyəti . . . . . . . . . . . . . . . . . 67

III FƏSİL. CƏNUBİ AZƏRBAYCAN 1905–1911-Cİ İLLƏR İRAN İNQİLABINDA

§1. Cənubi Azərbaycan inqilab ərəfəsində və başlanğıcında . . . . . . 76
§2. Təbrizdə silahlı üsyan. Əncümənin fəaliyyəti . . . . . . . . . . . . . . 81
§3. Cənubi Azərbaycanın 1905–1911-ci illər İran inqilabının
mərkəzinə çevrilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 87
§4. Əks-inqilabın Təbriz üzərinə yeni hücumları və
xarici hərbi qüvvələrin köməyi ilə inqilabın yatırılması . . . . . 96

IV FƏSİL. AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ

§1. Müharibənin başlanması. Azərbaycanın vəziyyəti . . . . . . . . . . 101
§2. Müharibənin iqtisadiyyata təsiri və əhalinin vəziyyətinin
pisləşməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 105
§3. Çarizmin devrilməsi və Azərbaycan . . . . . . . . . . . . . . . . . . . . 117
§4. 1917-ci ildə Azərbaycanda milli hərəkat . . . . . . . . . . . . . . . . . 122

V F Ə S İ L. CƏNUBİ AZƏRBAYCAN 1912–1917-ci İLLƏRDƏ

§1. Birinci Dünya müharibəsi ərəfəsində sosial-iqtisadi və siyasi vəziyyət . . . . . . . . . . 128
§2. Cənubi Azərbaycan Birinci Dünya müharibəsi zamanı . . . . . . 136

VI F Ə S İ L. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MƏDƏNİYYƏT

§1. Maarif. . . . . . . . . . 140
§2. Elmin inkişafı . . . . . . . . . . 145
§3. Mətbuat . . . . . . . . . . 147
§4. Ədəbiyyat. . . . . . . . . . 150
§5. İncəsənət . . . . . . . . . . 155

VII F Ə S İ L. 1918-ci İLİN YAZINDA VƏ YAYINDA AZƏRBAYCANDA VƏZİYYƏT

§1. Bakı Soveti və onun xalqa zidd siyasəti . . . . . . . . . . 158
§2. Bakı Xalq Komissarları Sovetinin devrilməsi və ingilislərin müdaxiləsi.Bakıda vəziyyət və XKS-nin yaranması . . . . . . . 166
§3. Yadellilərə qarşı mübarizə . . . . . . . . . . 171

VIII F Ə S İ L. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI VƏ FƏALİYYƏTİ

§1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması . . . . . . . . . . 177
§2. Azərbaycan Cümhuriyyətinin daxili siyasəti . . . . . . . . . . 182
§3. Azərbaycan milli ordusu. . . . . . . . . . 190
§4. Azərbaycan Cümhuriyyətinin xarici siyasəti . . . . . . . . . . 197
§5. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü. . . . . . . . . . 205
§6. Beynəlxalq və daxili siyasi vəziyyət . . . . . . . . . . 209
§7. Azərbaycan Cümhuriyyətinin devrilməsi . . . . . . . . . . 216
§8. Azərbaycan hökumətinin mədəniyyət sahəsində tədbirləri . . . 222

IX F Ə S İ L. 1917–1920-ci İLLƏRDƏ CƏNUBİ AZƏRBAYCANDA MİLLİ-AZADLIQ HƏRƏKATI

§1. Milli-azadlıq hərəkatının başlanması . . . . . . . . . . 233
§2. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının yüksəlişi . . . . 238

X FƏSİL. AZƏRBAYCAN SSR 20–30-cu İLLƏRDƏ

§1. Azərbaycanın sovetləşdirilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 249
§2. Sovet Rusiyasından asılılıq şəraitinin yaranması. . . . . . . . . . . . 254
§3. Müqavimət hərəkatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 269
§4. Sosializmin iqtisadi əsaslarının qurulması . . . . . . . . . . . . . . . 279
§5. Totalitar siyasi rejimin güclənməsi . . . . . . . . . . . . . . . . . . . . . 291
§6. Bolşevik ideologiyası inhisarı və mənəvi həyat . . . . . . . . . . . . 295

XI FƏSİL. CƏNUBİ AZƏRBAYCAN 1920–1930-cu İLLƏRDƏ

§1. 20-ci illərin birinci yarısında Cənubi Azərbaycanda ictimai-siyasi vəziyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 312
§2. Cənubi Azərbaycan Rza şah diktaturası dövründə . . . . . . . . . . 326
§3. 20–30-cu illərdə milli zülm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 335

XII FƏSİL. AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

§1. Müharibənin başlanması. Xalqın faşizmə qarşı müharibəyə səfərbər edilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 338
§2. Döyüş meydanlarında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 345

XIII FƏSİL. CƏNUBİ AZƏRBAYCANDA MİLLİ-DEMOKRATİK HƏRƏKAT (1941–1946-cı İLLƏR)

§1. İctimai-siyasi vəziyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 359
§2. Milli hökumətin təşkili və fəaliyyəti . . . . . . . . . . . . . . . . . . . 366

XIV FƏSİL. AZƏRBAYCAN SSR 1945–1991-ci İLLƏRDƏ

§1. 40-cı illərin II yarısı – 60-cı illərdə respublikanın iqtisadi və siyasi həyatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 373
§2. Azərbaycan SSR 70–80-ci illərdə: siyasi və iqtisadi həyat. . . . 399
§3. Respublikanın mədəni həyatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 411

XV FƏSİL. CƏNUBİ AZƏRBAYCAN İRAN İNQİLABI DÖVRÜNDƏ (1978–1979-cu İLLƏR)

§1. İnqilab ərəfəsində Cənubi Azərbaycanda sosial-siyasi vəziyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 428
§2. Təbrizdə 29 bəhmən üsyanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 433

§3. İnqilabın inkişafı və Cənubi Azərbaycan . . . . . . . . . . . . . . . . . 438

XVI F Ə S İ L. SOVET İMPERİYASININ SÜQUTU. AZƏRBAYCANDA MİLLİ-AZADLIQ AZADLIQ HƏRƏKATI

§1. İmperiyanı iflasdan qurtarmaq cəhdləri . . . . . . . . . . . . . . . . . . . 443
§2. Xalq hərəkatının başlanması. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 455
§3. Azadlıq hərəkatını boğmaq cəhdləri. Qanlı yanvar . . . . . . . . . 460
§4. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa olunması. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 466

XVII F Ə S İ L. MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI. SİYASİ VƏ İQTİSADİ HƏYAT

§1. Siyasi böhran. Qarabağda müharibə . . . . . . . . . . . . . . . . . . . . . 476
§2. Heydər Əliyevin hakimiyyətə qayıdışı. Müstəqilliyin və dövlətçiliyin möhkəmlənməsi . . . . . . . . . . . . . . . . . . . . . 489
§3. Bazar iqtisadiyyatına keçid . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 502
§4. Əhalinin məişəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 517

XVIII F Ə S İ L. MƏDƏNİYYƏT

§1. Maarif, elm, din . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 525
§2. Ədəbiyyat və incəsənət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 538
§3. Özünəqayıdış. Bəşəri mənəvi dəyərlərə doğru . . . . . . . . . . . 542

İstifadə edilmiş ədəbiyyat siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . . . 548

*Yusif Bəhlul oğlu Yusifov*
*Tofiq Talış oğlu Vəliyev*
*Şövkət Əzizağa qızı Tağıyeva*
*Cəmil Poladxan oğlu Həsənov*
*Oktay Süleyman oğlu Məlikov*
*Tahir Bağı oğlu Qaffarov*

XX ƏSR AZƏRBAYCAN TARİXİ
**II cild**
(Ali məktəblər üçün dərslik)
Bakı, «Təhsil», 2009.

Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Korrektoru *Sevinc Hacıyeva*
Kompyuter tərtibatı *Səadət Quluzadə, Aqil Əmrahov*

Çapa imzalanmışdır 15.09.2009. Kağız formatı $60x90^{1}/_{16}$.
Ofset çapı. Ofset kağızı. Fiziki çap vərəqi 35,0. Uçot nəşr vərəqi 36,7.
Sifariş 108. Tiraj 500. Qiyməti müqavilə yolu ilə.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1052, F.Xoyski küç. $121^{A}$